RUSİYA FEDERASİYASININ TƏHSİL NAZİRLİYİ
Q.V.PLEXANOV ADINA
RUSİYA İQTİSAD AKADEMİYASI

# İQTİSADİ NƏZƏRİYYƏ

## Mikroiqtisadiyyat – 1, 2

## Mezoiqtisadiyyat

*Dərslik*

Yenidən işlənmiş və əlavələr edilmiş
dördüncü nəşri

*Rusiya Federasiyası Təhsil Nazirliyi tərəfindən iqtisad yönümlü ixtisas və istiqamətlər üzrə təhsil alan ali məktəb tələbələri üçün dərslik kimi tövsiyə edilmişdir.*

"Daşkov və Ko" nəşriyyat – ticarət korporasiyası
Moskva, 2009

## Müəllif kollektivi:

| | | |
|---|---|---|
| Q.P.Juravlyova | – | *iqtisad elmləri doktoru, professor, RF-nın əməkdar elm xadimi (müqəddimə, fəs. 1-9, 10, 12, 13, 15 §4; 17, 26, 29, 30);* |
| V.V.Qromıko | – | *iqtisad elmləri doktoru, professor (fəs. 11 §3, 4; 13 §2; 14, 15 §1, 2, 3; 16, 19, 20, 21, 22, 23, 25 §1);* |
| A.İ.Dobrınin | – | *iqtisad elmləri doktoru, professor, RF-nın əməkdar elm xadimi (fəs. 13);* |
| M.İ.Zabelina | – | *iqtisad elmləri namizədi, dosent (fəs. 25 §2, 3, 4);* |
| Q.M.Lonskaya | – | *iqtisad elmləri namizədi, dosent (fəs. 17, 18);* |
| N.N.Milçakova | – | *iqtisad elmləri doktoru, professor (fəs. 28);* |
| N.V.Rakuta | – | *baş müəllim (fəs. 24);* |
| A.A.Uqryumova | – | *iqtisad elmləri namizədi, dosent (fəs. 30);* |
| V.Q.Uzunova | – | *iqtisad elmləri namizədi, dosent (fəs. 27);* |
| L.İ.Şkalaberda | – | *iqtisad elmləri namizədi, dosent (fəs. 11 §1, 2).* |

### Rəyçilər:

| | | |
|---|---|---|
| V.S.Bajenova | – | *iqtisad elmləri doktoru, professor;* |
| V.Y.İoxin | – | *iqtisad elmləri doktoru, professor.* |

**İqtisadi nəzəriyyə. Mikroiqtisadiyyat – 1,2:** Dərslik / RF əməkdar elm xadimi, professor, iqtisad elmləri doktoru Q.P.Juravlyovanın ümumi redaktəsi ilə. – 4-cü nəşr, yenidən işlənmiş və əlavələr edilmiş.- M.: «Daşkov və Ko» nəşriyyat-ticarət korporasiyası, 2010. - 924 s.

Dərslik iqtisadi nəzəriyyənin və praktikanın nailiyyətlərinə əsaslanır. Kateqoriyalar, qanunlar, forma və metodların öyrənilməsinə xüsusi diqqət yetirilir, bunlar arasında əsas yeri bazar və bazar mexanizmləri tutur.

Q.V.Plexanov adına Rusiya İqtisad Akademiyasının iqtisadi nəzəriyyə kafedrasının kollektivi tərəfindən hazırlanıb.

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD
UNİVERSİTETİNDƏ TƏRCÜMƏ OLUNMUŞ

# DƏRSLİKLƏRİ

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
РОССИЙСКОЙ ФЕДЕРАЦИИ
РОССИЙСКАЯ ЭКОНОМИЧЕСКАЯ АКАДЕМИЯ
ИМ. Г.В.ПЛЕХАНОВА**

# ЭКОНОМИЧЕСКАЯ ТЕОРИЯ

**Микроэкономика – 1, 2**

**Мезоэкономика**

*Учебник*

Издание четвертое,
исправленное и дополненное

*Рекомендовано Министерством образования Российской Федерации в качестве учебника для студентов высших учебных заведений, обучающихся по экономическим специальностям и направлениям*

Издательско-торговая корпорация
"Дашков и Ко" Москва, 2009

Rusiya Federasiyasının əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor, **Q.P. Juravlyovanın** ümumi elmi redaktəsi ilə 2009-cu ildə dərc olunmuş «Экономическая теория. Микроэкономика-1,2» adlı dərsliyi rus dilindən Azərbaycan dilinə «İqtisadi nəzəriyyə-1» kafedrası tərəfindən kafedra müdiri, iqtisad elmləri doktoru, professor Ə.P.Babayevin ümumi elmi redaktəsi ilə kafedranın aşağıdakı əməkdaşları tərəfindən tərcümə olunmuşdur.

**Babayev Ə.P.** - *iqtisad elmləri doktoru, professor (Müqəddimə, fəsil I, II, III)*
**Abasova S.T.** - *iqtisad elmləri namizədi, dosent (fəsil VIII)*
**Babayeva S.C.** - *iqtisad elmləri namizədi, baş müəllim (fəsil XIX)*
**Əliyev Ü.Q.** - *iqtisad elmləri doktoru, dosent (fəsil IX, XII)*
**Əliyeva D.Z.** - *iqtisad elmləri namizədi, dosent (fəsil XVI, XX)*
**Əsgərova H.C.** - *baş müəllim (fəsil XVII)*
**Xankişiyev X.S.** - *iqtisad elmləri namizədi, dosent (fəsil V, XXVIII)*
**Xankişiyeva C.X.** - *müəllim (fəsil XXI)*
**Xəlilova F.A.** - *müəllim (fəsil XXVII)*
**Quliyev A.A.** - *iqtisad elmləri namizədi, dosent (fəsil XXIII, əlavə III)*
**Qurbanova Z.M.** - *iqtisad elmləri namizədi, baş müəllim (fəsil XXII)*
**Qəhrəmanov N.Ə.** - *baş müəllim (fəsil XV)*
**Məmmədov İ.İ.** - *iqtisad elmləri namizədi, dosent (fəsil X, XI)*
**Mikayılova Ə.M.** - *iqtisad elmləri namizədi, dosent (fəsil XXV)*
**Mustafayeva Z.İ.** - *iqtisad elmləri namizədi, dosent (fəsil VI, əlavə IV)*
**Osmanov B.O.** - *dosent (fəsil IV, XXX)*
**Rüstəmov Ç.A.** - *iqtisad elmləri namizədi, dosent (fəsil XIII, əlavə I)*
**Seyidov Z.M.** - *iqtisad elmləri namizədi, dosent (fəsil XXVI, əlavə II)*
**Sultanova L.R.** - *iqtisad elmləri namizədi, dosent (fəsil VII)*
**Sərdarova S.Y.** - *iqtisad elmləri namizədi, müəllim (fəsil XXIV)*
**Vəliyeva T.Q.** - *müəllim (fəsil XXIX)*
**Yusifov O.Y.** - *iqtisad elmləri namizədi, dosent (fəsil XIV, XVIII)*

**Tərcümənin redaktorları:** *iqtisad elmləri namizədi,*
*dosent* **Yusifov O.Y.**
*dosent* **Osmanov B.O.**

**ISBN 978-9952-27-161-4**

**© Babayev Ə.P., 2010**

# M Ü N D Ə R t C A T

**Müqəddimə ................................................................................................11**

**I Bülmə. İqtisadi nəzəriyyəyə giriş ..............................................................16**
**Fəsil 1. İqtisadi nəzəriyyənin müasir dünyada əhəmiyyəti və vəziyyəti .16**
**§1. İqtisadi nəzəriyyənin cəmiyyət həyatında rolu və əhəmiyyətinin ümumi səciyyəsi..............................................................................................16**
**§2. İqtisadi fikrin «özülü* məfhumuna iqtisadçı alimlərin baxışlarının təkamülü .......................................................................................................20**
**§3. İqtisadi nəzəriyyənin başqa elmlərlə qarşılıqlı əlaqəsi. İqtisadi siyasət 26**
**Fəsil 2. İqtisadi nəzəriyyənin genezisi və inkişafının əsas mərhələləri ,31 §1. İqtisadi fikrin kökləri: Qədim dünya mütəfəkkirlərinin təlimləri . . . ,31**
**§2. Dünya sivilizasiyasının ilk mühüm iqtisadi məktəbləri ...........................34**
**§3. Üçüncü minilliyin əvvəlində iqtisadi fikrin əsas istiqamətləri....................41**
**§4. Rusiya iqtisadi fikri dünya iqtisad elmi xəzinəsinə dəyərli töhfədir . .49**
**Fəsil 3. İqtisadi nəzəriyyənin predmeti və metodologiyası...............................63**
**§1. Müxtəlif iqtisadi məktəblər iqtisadi nəzəriyyənin predmeti haqqında .63 §2. İqtisadi nəzəriyyənin metodologiyası və onun spesifikliyi. İqtisadı nəzəriyyədə iqtisadiyyatın tədqiqi səviyyələri .............................74**
**§3. İqtisadi kateqoriyalar və qanunlar. Əsas iqtisadi anlayışlar....................84**
**Fəsil 4. İnsanın iqtisad dünyası ilə bağlı həyat fəaliyyətində insan və mühit. İqtisadi sistemlər.......................................................................100**
**§1. İqtisadi nəzəriyyədə İnsan modelləri .................................................100**
**§2. İnsanın həyat fəaliyyəti mühiti haqqında təlimlər....................................114**
**§3. Cəmiyyətin iqtisadi sistemləri: anlayış, məzmun, təsnifat........................120**

**II bölmə. Mikroiqtisadiyyatın və mezoiqtisadiyyatın nəzəri problemləri...................................................................................137**
**A, Mikroiqtisadiyyat - 1...............................................................................139**
**Fəsil 5. Bazar və bazar iqtisadiyyatı ......................................................... ... ,139**
**§1. İctimai təsərrüfatın əsas formaları və onların modelləri. Əmtəə (bazar) təsərrüfatı.................................................................................140**
**§2. Bazarın tərifinin çoxluğu. Bazara baxışların təkamülü. Bazar iqtisadiyyatı .... .........................................................................................148**
**§3. Bazarın mahiyyəti: iqtisadi sistemdə funksiyaları və rolu........................157**
**§4. Bazarın təsnifatı. Rusiyanın bazar iqtisadiyyatına keçməsinin xüsusiyyəti............................................ .... ...........................................165**
**Fəsil 6. Bazarın quruluşu və infrastrukturu: mahiyyəti və əsas elementləri ........................................................................................ 175**
**§1. Bazar quruluşu və sisteminin çoxmeyarlılıqxarakteri ..............................175**
**§2. Bazar infrastrukturunun mahiyyəti, yaranması və əsas elementləri .180**
**§3. Birjalar və bazar iqtisadiyyatında onların rolu ........................................187**
**Fəsil 7. Bazar iqtisadiyyatında iqtisadiinstitutlar və mülkiyyət.....................194**

**§1. İqtisadi institutların mahiyyəti və bazar təsərrüfatı sistemində onların rolu........................................................................................194**
**§2. Mülkiyyət iqtisadi və hüquqi kateqoriya kimi. Mülkiyyət nəzəriyyələri........................................................................202**
**§3. Müasir iqtisadiyyatda mülkiyyətin növ və formaları .............................206**
**§4. Dövlətsizləşdirmə və özəlləşdirmə. Xarici ölkələrin və Rusiyanın təcrübəsi......................................................................................... 217**
**Fəsil 8. Bazar iqtisadiyyatının əsas subyektləri ............................................ 226**
**§1. Ev təsərrüfatı və ailə bazar iqtisadiyyatının subyekti kimi. Ailə büdcəsi ....................................................................................... 227**
**§2. Firma (müəssisə) ehtiyatların istehlakçısı və hazır məhsulun təchizatçısı kimi. Müəssisənin təşkllathiqtisadi formaları.................. .248**
**§3. Təsərrüfat fəaliyyətinin əsas formaları: biznes, sahibkarlıq, kommersiya, marketinq, menecment.......................................................256**
**§4, Dövlət bazar sistemi təsərrüfatçılıgının subyekti kimi. İqtisadiyyatda dövlət bölməsi..................................................................258**
**Fəsil 9. Bazarın sistem yaradan elementləri; əmtəə və pul .................... 265**
**§1. Əmtəə və onun xassələri. K.Marksın əmtəədə maddiləşmış əməyin ikili xarakteri haqqında təlimi................................................................265**
**§2. Dəyər, dəyərlilik, faydalılıq. Əmək-dəyər nəzəriyyəsi və son hədd faydalılıgı nəzəriyyəsi .......................................................................269**
**§3. Pulun mahiyyəti, onun konsepsiyaları və funksiyaları. Pul tədavülü qanunu. Pul sistemləri .......................................................277**
**Fəsil 10. Bazar mexanizmi: bazann mahiyyəti, elementləri, qanunlan 293 §1. Bazar mexanizminin və bazarın əsas qanunlarının xarakteristikası .293**
**§2. Tələb və tələbin azalması qanunu. Tələbin elastikliyi..............................298**
**§3. Təklif və təklifin dəyişmə qanunu. Təklifin elastikliyi.............................308**
**§4. Bazar tarazlığı. Tələb və təklif qanunu ....................................................316**
**Fəsil 11. Bazar mexanizmi; bazar tarazlığının təmin edilməsində qiymətin rolu ........................................................................................320**
**§1. A.Marşallın qiymət nəzəriyyəsi. Tarazlıq qiyməti, tələb qiyməti və təklif qiyməti........................................................................320**
**§2. Qısamüddətli və uzunmüddətli dövrlərdə tarazlıq qiymətinin müəyyənləşdirilməsi. Hörümçək toru teoremi. K.Marks nəzəriyyəsində qiymətin əmələ gəlməsi ..................................................322**
**§3. Bazar iqtisadiyyatı şəraitində qiymətlərin dövlət tənzimlənməsi . . .333 §4. Vergilərin qiymətin səviyyəsinə təsiri. Vergi ağırlığının bölgüsü . . .337 Fəsil 12. Rəqabət və bazar hökmranlığı. Antiinbisar tənzimləməsi . . .340 §1. Rəqabət; anlayışı və növləri. Rəqabət qabiliyyətli bazarların səmərəliliyi .............................................................................340**
**§2. İnhisar və oliqopoliya. Bazar hökmranlığı ...............................................350**
**§3. Antiinbisar tənzimlənməsi.........................................................................362**
**Fəsil 13. tstehsal. tstehsal amilləri və amil gəlirlərinin bölgüsü nəzəriyyəsi ..................................................................................367**
**§1. İstehsalın əsas eunilləri ............................................................................ 367**

**§2. İstehsal artımımn istehsal amillərinin istifadəsindən asılılığı .................373**
**§3. Amil gəlirləri nəzəriyyəsi və onların funksional bölgüsü..........................392**
**Fəsil 14. Firmanın rəqabət davranışı: istehsal xərcləri.................................402**
**§1. İstehsal xərcləri: mühasibat və iqtisadi yanaşmalar................................402**
**§2. Qısamüddətli dövrdə İstehsal xərcləri ......................................................405**
**§3. Uzunmüddətli dövrdə istehsal xərcləri.**
**İstehsal xərcləri və miqyas effekti .........................................................411**
**§4. İzokosta. İstehsal xərclərinin mlnimallaşdınıması ...................................419**
**Fəsil 15. Fərdi təkrar istehsal; müəssisə resurslarının hərəkəti.....................423**
**§1. Kapital və kapital qoyuluşları (investisiyalar)............................. ... .423**
**§2. Müəssisənin investisiya resurslarının hərəkəti: kapitalın dövranı . . .427**
**§3. Kapital dövriyyəsi. Əsas və dövriyyə kapitalı...........................................431**
**§4. Diskontlaşdırma investisiya layihələrinin qiymətləndirilməsi**
**metodu kimi.......................................................... .. .......................434**
**Fəsil 16. Alternativ firma nəzəriyyələri...........................................................437**
**§1. Ənənəvi firma nəzəriyyəsi: mənfəətin Tnaksimallaşdınlması ................437**
**§2. Menecerial firma nəzəriyyəsi: satışdan gəlirin maksimallaşdınlması .438**
**§3. Artımın maksimallaşdınlması nəzəriyyəsi ...............................................440**
**§4. Firmanın davranış nəzəriyyələri: məqsədlərin çoxluğu nəzəriyyələri .446**
**Fəsil 17. Mikroiqtisadiyyatda qeyri-müəyyənlik amilləri.**
**Risklər nəzəriyyəsi ..................................................................................449**
**§1. Təsərrüfat riski: mahiyyəti və səbəbləri...................................................449**
**§2. İtkilərin növləri.......................................................................................... 455**
**§3. İtkilərin quruluşu və onlan doğuran səbəblər ..... ...................................458**
**§4. Risk göstəricisi və onu qiymətləndirməyin üsulları. Risk əyrisi . . . ,462 §5. Riskləri idarəetmə metodları .........................................................................469**

**B, Mikroiqtisadiyyat - 2 ........................................................................ 476**
**Fəsil 18. İstehlakçı davranışı nəzəriyyəsi ........................................... ...... .476**
**§1. İstehlakçı davranışı və əmtəənin faydalıhğı ...............................................476**
**§2. İstehlakçı davranışının kardinalist nəzəriyyəsi..........................................478**
**§3. Qeyri-müəyyənlik və risk şəraitində istehlakçının səmərəli seçimi . .486**
**§4. İstehlakçı davranışının ordinalist nəzəriyyəsi ...........................................488**
**§5. C.Hiks və Y.Slutskiyə görə gəlir effekti və əvəzi əmə effekti.**
**Məhsul elementlərinin xüsusiyyətlərinin təhlili əsasında**
**istehlakçı seçimi ........................................................................................507**
**Fəsil 19. Təkmil rəqabət şəraitində firmanın davranışı.......................... ... . .515**
**§1. Bazar quruluşlarının modelləri...................................................................515**
**§2. Təkmil rəqabətli bazar modeli. Rəqabət qabiliyyətli firmanın tələbi,**
**təklifi və gəliri ..........................................................................................516**
**§3. Qısamüddətli dövrdə firmanın tarazlığı. Firma gəlirinin**
**maksimumlaşdınıması şərtləri...................................................................525**
**§4. Uzunmüddətli dövrdə firma və sahənin təklifi .........................................535**
**§5. Təkmil rəqabət və ictimai səmərəlilik .......................................................540**

**Fəsil 20. İnhisar şəraitində firmanın davranışı....................................544**
**§1. İnhisar və onun müasir modeli....................................544**
**§2. Xalis inhisar şəraitində firmanın davranışı ....................................548**
**§3. İnhisarçı firmanın qısamüddətli və uzunmüddətli dövrlərdə tarazlığı....................................552**
**§4. Qiymət ayrı-seçkiliyi....................................556**
**§5. İnhisar və cəmiyyət. Təbii inhisarın tənzimlənməsi ....................................558**
**Fəsil 21. Qeyri-təkmil rəqabət şəraitində firmanın davranışı ....................................566**
**§1. İnhisarçı rəqabət şəraitində firmanın davranışı....................................566**
**§2. Oliqopoliya şəraitində firmanın davranışı. Sövdələşmə modelləri . . .571**
**§3. Oliqopoliya modelləri: sövdələşmələrin olmaması ....................................576**
**Fəsil 22. İstehsal amilləri bazarında qiymətin əmələ gəlməsi: əmək bazarı ....................................596**
**§1. istehsal amilləri bazarında tələb və təklif, istehsal amilləri bazarında firmaların tarazlığı ....................................596**
**§2. Əmək və əməyin qiyməti....................................607**
**§3. Təkmil rəqabət şəraitində əmək bazarında qiymətin formalaşması xüsusiyyətləri ....................................615**
**§4. Qeyri-təkmil rəqabət şəraitində əmək bazarında qiymətin əmələ gəlməsi ....................................618**
**Fəsil 23. İstehsal amilləri bazarında qiymətin əmələ gəlməsi: kapital bazarı və torpaq bazarı ....................................624**
**§1. Kapital: ənənəvi və müasir şərhlər ....................................624**
**§2. Kapital bazarında qiymətin əmələ gəlməsinin xüsusiyyətləri....................................634**
**§3. Torpaq və torpaq rentası....................................644**
**§4. Torpaq bazarında qiymətin əmələ gəlməsi xüsusiyyətləri ....................................654**
**Fəsil 24. Gəlirlərin bərabərsizliyi. Gəlirlərin yenidən bölgüsü....................................658**
**§1. Gəlirlərin bərabərsizliyi; mahiyyəti, səbəbləri....................................658**
**§2. Gəlirlərin bərabərsizliyinin göstəriciləri ....................................663**
**§3. Sosial ədalət nəzəriyyələri....................................673**
**§4. Ədalətlilik və səmərəlilik arasında seçim ....................................683**
**§5. Gəlirlərin yenidən bölgüsü: formaları, metodları, dövlət siyasətinin nəticələri....................................694**
**Fəsil 25. Bazarın iflası nəzəriyyəsi....................................700**
**§1. Eksternalilər {xarici təsirlər) və onların təsnifatı ....................................701**
**§2. Xarici effektlərin neytrallaşdırma zərurəti və üsulları ....................................706**
**§3. ictimai və xüsusi nemətlər. E.Lindal tarazlığı, K.Tibu modeli....................................710**
**§4. Asimmetrik informasiya. «Limonlar» bazarı ....................................715**
**Fəsil 26. Bazar iqtisadiyyatında dövlətin rolu. Dövlətin « uğursuzluqları»....................................725**
**§1. Dövlətin cəmiyyətdə roluna baxışların təkamülü ....................................725**
**§2. Dövlətin minimal və maksimal funksiyaları ....................................734**
**§3. iqtisadiyyata dövlət təsirinin forma və alətləri....................................750**
**§4. ictimai seçim nəzəriyyəsi və dövlətin *uğursuzluqları» ....................................754**

**C. Mezoiqtisadiyyat .......... 758**
**Fəsil 27. Aqrosənaye kompleksi iqtisadi sistemin çoxsahəli funksional alt sistemi kimi .......... 758**
**§1. Aqrosənaye kompleksi: tərkibi və quruluşu .......... 758**
**§2. Aqrobiznes və aqrosənaye kompleksinin alt sistemi elementlərinin təşkili formaları .......... 762**
**§3. Aqrosənaye kompleksinin fəaliyyətinin bazar mexanizmləri və onun inkişaf meylləri .......... 765**
**Fəsil 28. Yanacaq-energetika kompleksi — müasir mezoiqtisadiyyatm mühüm elementidir .......... 769**
**§1, Yanacaq-energetika kompleksi: mahiyyəti, quruluşu .......... 769**
**§2. Yanacaq-energetika kompleksinin əsas tərkib hissələri .......... 773**
**§3. Rusiya yanacaq və enerji bazarının müasir konyunkturası .......... 782**
**Fəsil 29. Elmin, təhsil və ali məktəb sahələrinin iqtisadiyyatı .......... 787**
**§1. Elmin iqtisadiyyatı iqtisadi nəzəriyyənin müstəqil sahəsi kimi . . . .787**
**§2. Təhsil sahəsi, ölkə iqtisadiyyatında ali məktəbin yeri və rolu .......... 793**
**§3. Bazar iqtisadiyyatına keçid zamanı ali məktəbin inkişaf konsepsiyası .......... 801**
**Fəsil 30. Region iqtisadiyyatının formalaşmasının nəzəri əsaslan .. . .807 §1. İqtisadi nəzəriyyədə region iqtisadiyyatına baxışların təkamülü . . . .808**
**§2. Region: mahiyyəti və funksiyaları .......... 813**
**§3. Dünyada və Rusiya Federasiyasında region iqtisadi siyasətinin müasir problemləri .......... 817**
**§4. Bazar münasibətlərinin fəaliyyətində regionun xüsusiyyətləri .......... 831**

**Əlavə 1 .......... 835**
**Əlavə 2 .......... 842**
**Əlavə 3 .......... 889**
**Əlavə 4 .......... 917**

**ƏDƏBİYYAT .......... 920**

# Müqəddimə

**«Rus həyatı rus torpağının fərdi xüsusiyyətlərinə əsaslanan öz milli iqtisadiyyatını işləyib hazırlamayana qədər biz gah birinə, gah da digərinə üstünlük verərək dəbdə olan müxtəlif təlimlərin birindən digərinə qaçmaqla məşğul ola- cağıq»^**

**Yeni yüzilliyin dəyişən iqtisadi dünyası ictimai şüurda iqtisadi, sosial və mənəvi proseslərin dərk edilmə dinamikasında keyfiyyət dəyişikliklərinin baş verməsi ilə səciyyələnir. Dünyanın elmi mənzərəsi dəyişir. Özü də dünya onda baş verən proseslərin dərkindən daha tez dəyişir. Hazırda bütün dünya, o cümlədən də Rusiya xüsusi turbolentlik və yenidən təşkil, az öyrənilmiş, lakin iqtisadiyyat üçün tamamilə qanunauyğun və mühüm tendensiyalar (iqtisadi sistemlərin transformasiyası, qloballaşma, texnoloji partlayış, kompüterləşmə, ekoloji və iqtisadi təhlükəsizlik və s.) dövrü yaşayır.**

**Bütün dövrlərdə iqtisadi nəzəriyyənin bir elm kimi qarşısında duran əsas məsələ iqtisadi dünyanın quruluşu barədə suala cavab verməkdir. Amma bu gün dünya dəyişildiyindən müasir iqtisadi nəzəriyyənin qarşısında dünyanın artıq yeni izahının verilməsi məsələsi durur. Təəssüf ki, əvvəlki iqtisadi məktəblər bu məsələni həll etmirlər. Nəinki Rusiyanın, hətta Qərbin də ən məşhur iqtisadçı alimlərinin klassik siyasi iqtisada və müasir ekonomiksə ciddi iradları vardır. Yaranmış vəziyyətdən çıxış yalnız Rusiya Federasiyası ali məktəbində iqtisadi nəzəriyyə kursunun öyrənilməsi və tədrisinin yeniləşmiş konsepsiyası əsasında mümkündür.**

**Oxuculara təqdim olunan dərslikdə iqtisadi nəzəriyyə kursu, «müasir ali dərəcəlik iqtisadçı C.M.Keynsin dediyi kimi, çoxlu qabiliyyətlərin nadir dəstinə malik olmalıdır fikrini nəzərə almaqla verilir. 0, müxtəlif sahələrdə ən nəhəng**

' BHTT6 C.IIpHHqHniii HcejıeseoflopoMtHijix Tapn^OB no nepesosKe rpyaoB. 2-e **Knes. C.162.**

**həcmdə biliyə malik olmalı və bir şəxsdə nadir hallarda birləşən istedadları özündə birləşdirməlidir. O, müəyyən mənada riyaziyyatçı, tarixçi, dövlətşünas, filosof olmalıdır. O, işarələrin, simvolların dilini başa düşməli və öz fikirlərini və konsepsiyalarını sözlə ifadə etməyi bacarmalıdır. O, xüsusidə ümumini görməyi bacarmalı, eyni zamanda həm mücərrədi, həm də konkreti beynində saxlamalıdır. O, indini keçmişin işığında gələcəyi öncədən görmək naminə öyrənməlidir. İqtisadçı insan təbiətinin və onun institutlarının heç bir cəhətini tamamilə diqqətdən kənarda qoymamalıdır.^**

**Müasir iqtisadiyyatın avtomatlaşdırılması və informasiya-laşdınlması şəraitində mütəxəssislərdən yalnız adi təxəyyül tələb olunmur, qeyri-formal addımlar atmaq, gözlənilməz qərarlar qəbul etmək və hərəkətlər, yeniliklər etmək qabiliyyəti əsas tələb olur. Bu halda düşüncə aparatının inkişafına rəvac verən nəzəri biliklər ön plana çıxır. İqtisadi nəzəriyyə kursunun öyrənilməsi və tədrisində nəzəriyyəçi alimlərin müxtəlif təlimləri, nəzəriyyələri və baxışlarının təhlili əsasında müstəqil düşünməyi öyrətmək ən mühüm məqsəd olur.**

**Hazırda Rusiyada iqtisadi nəzəriyyə kursunda əslində ekonomiks kursu verilir. Bu, dünya təhsil xidmətləri bazarında Amerika məktəbinin liderliyi ilə izah olunur. Və biz, bunu istəsək də, istəməsək də, tələbələrimizə ekonomiks barədə zəruri bilikləri verməliyik ki, ali məktəblərimizin hazırladığı mütəxəssislər yalnız Rusiyada deyil, həm də bütün dünyada işləyə bilsinlər.**

**Hazırkı «İqtisadi nəzəriyyə» dərsliyi müəlliflərin fikrincə, bu məsələni həll edir. Lakin burada eyni zamanda vurğulanır ki, iqtisadi nəzəriyyə ilə ekonomiksi eyniləşdirmək olmaz (əks təqdirdə elmi dövriyyəyə yeni məfhumun daxil edilməsi mənasız olardı). Rusiya iqtisad elmində «tqtisadi nəzəriyyəm məfhumunun meydana gəlməsi təsadüfi deyil. Bu**

**‘ KeÜHc ;i;»c.M.ÄJi4»pea Mapraajuı (1842-1924) // Mapuıajıjı A.ITpHHqanu ƏKO- HOMHHeCKOH HayKH.M.llporpecc, 1993.T.1. C.11-12,**

**yalnız dünyada yaranmış vəziyyətlə, Rusiyanın xüsusi yeri ilə, yalnız Rusiya nəzəriyyəçi alimlərinin müxtəlif iqtisadi məktəblərin nümayəndələrini (aralarında ciddi fikir ayrılığı olanları) barışdırmaq istəyi ilə deyil, elmin inkişaf qanunları, hazırkı mərhələdə iqtisadi fikrin nailiyyətlərinin inteqrasiyasının zəruriliyi ilə izah olunur.**

**İqtisadi nəzəriyyə üzrə oxucuya təklif olunan dərsliyə daxildir: klassik siyasi iqtisad, ekononüks (mikro- və mezoiqtisadiyyat). Dərsliyə daxildir: 1 bölmə «İqtisadi nəzəriyyəyə giriş», n bölmə «MİkroiqtisadiyyatM və mezoiqtisadiyyatm nəzəri problemlərik (mikroiqtisadiyyat ~ 1, mikroiqtisadiyyat - 2 və mezoiqtisadiyyat).**

**Oxucuların diqqətinə təqdim olunan iqtisadi nəzəriyyə kursunda aşağıdakılara xüsusi diqqət yetirilir:**

**■ iqtisadiyyata baxışların təkamülünə. Buna görədir ki, kursun hər bir mövzusu bir qayda olaraq həmin problem üzrə iqtisadi fikir tarixinə qısa nəzər salmaqla başlayır;**

**■ iqtisadi nəzəriyyənin əsas metodoloji müddəalarının öyrənilməsinə " onları dərk etmədən müasir dünyam öyrənmək mümkün deyil;**

**■ insana yaranışdan verilmiş fiziki dünyadan (təbiətdən) fərqli olaraq insanla bağlı iqtisadi sistemlərin təhlilinə. İnsan bu sistemin əsasına, mərkəzinə çevrilir. İqtisadiyyat insansız, onun tələbatlarını və maraqlarını nəzərə almadan mövcud ola bilməz. Amma müxtəlif iqtisadi sistemlərdə insanın davranışının öz spesifik xüsusiyyətləri var;**

**■ beynəlxalq tələblərə müvafiq olaraq bütün bölmələrin (<modullarınk) iqtisadi nəzəriyyə kursunun strukturuna daxil edilməsinə;**

**■yaranmış iqtisadi vəziyyəti düzgün qiymətləndirə bilmək üçün dünya təcrübəsindən, ələlxüsus Rusiyada, istifadə etmək məqsədilə verilmiş problemin müxtəlif ölkələrdə vəziyyətinə (bir qayda olaraq hər mövzunun axırında).**

**İqtisadi nəzəriyyədə (imkan daxilində) mezoiqtisadiyyat problemlərinə - aqrosənaye, yanacaq-energetika kompleks**

**lərinin inkişafına, elmin iqtisadiyyatına, region iqtisadiyyatına, yəni Rusiya milli iqtisadiyyatının inkişafının lokomotivləri adlandınlanlara diqqət yetirilir. Bu, Qərbdə çap olunan dərsliklərin inkişaf etmiş bazar iqtisadiyyatı üçün nəzərdə tutulması ilə izah olunur ki, onun da qarşısında duran ən mühüm problemlərdən biri artıq istehsal böhranlarının qarşısının alınmasıdır. Rusiyada belə problem yoxdur, əksinə, istehsalın (maddi və qeyri-maddi), mənəviyyatın və mədəniyyətin inkişafı əsasında iqtisadi artım problemi ən kəskin problemlərdəndir.**

**öyrənilməsi təklif olunan iqtisadi nəzərİ5T^ə kursunun məqsəd və vəzifələri;**

- **həm mikro-, həm də makrosəviyyədə bazar iqtisadiyyatının fəaliyyət prinsipləri və qanunları haqqında ümumi təsəvvür yaratmaq;**
- **iqtisadi təhlilin spesifikliyi ilə tanış etmək;**
- **əsas iqtisadi kateqoriyaların, əmtəə, pul, bazar, tələb, təklif, tarazlıq, səmərəlilik, rəqabət, inhisar, inflyasiya, işsizlik və s. kimi anlayışların məzmununu açmaq;**
- **ən mühüm əmsallar, indekslər və göstəricilərin hesablanması vərdişlərini aşılamaq;**
- **müxtəlif bazar strukturlarında və müxtəlif bazarlarda qiymətin əmələgəlməsinin xüsusiyyətləri ilə tanış etmək;**
- **əlavə informasiya mənbələri ilə işləməyi öyrətmək.**

**Bu dərsliyin xüsusiyyəti ondadır ki, o, dünya sivilizasiyasının iqtisadi nəzəriyyəsi və praktikasının nailiyyətlərinə əsaslanır, onda iqtisadi nəzəriyyənin tədrisini dünya praktikasına, dünya standartlarına yaxınlaşdırmasa cəhd olunur. Ümumbəşəri dəyərlər olan kateqoriyalar, qanunlar, forma və metodların öyrənilməsinə xüsusi diqqət yetirilir ki, bunlar arasında da bazar və bazar mexanizmi problemləri birinci yerdə dayanır.**

**«İqtisadi nəzəriyyə» dərsliyi iqtisadi nəzəriyyə kafedrasının müdiri, Humanitar Elmlər Akademiyasının, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının, Nyu-York Elmlər**

**Akademiyasının həqiqi üzvü, RF-nin əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Q.P.Juravlyovanın ümumi elmi redaktəsi ilə Q.V.Plexanov adına Rusiya İqtisad Akademiyasının (Q.V.Plexanov adına RİA) iqtisadi nəzəriyyə kafedrasının kollektivi tərəfindən hazırlanıb. Ayrı-ayrı fəsillərin yazılmasına Rusiya Federasiyasının digər ali məktəblərinin də aparıcı iqtisadçı müəllimləri cəlb olunmuşlar.**

**Müəlliflər bu dərsliyin çap olunmasına fikirlərini bildirmiş və kitabın strukturu və məzmunu ilə bağlı dəyərli qeydlər etmiş rəyçilərə minnətdarlığını bildirir.**

**Oxucuların qeydlərini, təkliflərini, rəylərini məmnuniyyətlə qəbul edərik. Bunları aşağıdakı ünvana göndərmək olar: 113054. Moskva, Stremyannı per., ev.36. Q.V.Plexanov adına RİA, iqtisadi nəzəriyyə kafedrası.**

**«İqtisadi nəzəriyyəm dərsliyinin birinci hissəsi (Mikroiq-tisadiy- yat-1,2; Mezoiqtisadiyyat) aşağıdakı tərkibdəki müəllif kollektivi tərəfindən hazırlanıb:**

| | |
|---|---|
| **Q.P.Juravlyova,** | ***Le.d., prof., RF əməkdar elm xadimi;*** |
| **V.V.Qromıko,** | ***Le.d., prof.;*** |
| **A.t.Dobnniıı,** | ***Le.d., prof,, RF əməkdar elm xadimi;*** |
| **M.İ.Zabelina,** | ***i-.e.fV; dos.,*** |
| **Q.M.Lonskaya^** | ***i. e.n., dos.;*** |
| **N. N.Milçakova,** | ***Le.d., prof.;*** |
| **N.V.Rakuta** | ***baş müəllim*** |
| **A.A.Uqryumova,** | ***i. e.n., dos.;*** |
| **V.Q.Uzunova,** | ***i. e.n., dos.;*** |
| **A.t.Şkalaberda,** | ***i. e.n., dos.*** |

# I BÖLMƏ. İQTİSADİ NƏZƏRİYYƏYƏ GİRİŞ

## I FƏSİL. İQTİSADİ NƏZƏRİYYƏNİN MÜASİR DÜNYADA ƏHƏMİYYƏTİ VƏ VƏZİYYƏTİ

*§1. İqtisadi nəzəriyyənin cəmiyyət həyatında rolu və əhəmiyyətinin ümumi səciyyəsi.*

*§2. İqtisadi fikrin «özülü» məfhumuna iqtisadçı alimlərin baxışlarının təkamülü.*

*§3. İqtisadi nəzəriyyənin başqa elmlərlə qarşılıqlı əlaqəsi. İqtisadi siyasət.*

Ölkəmizdə XXİ əsrin əvvəlindən iqtisadi təhsil yenidən-yaradılma prosesini keçib. Lakin bütün dünyada, eləcə də Rusiyada əldə olunmuş böyük təcrübədən bəhrələnmədən, ondan dərs almadan, yenisini yaratmaq mümkün deyil. XX əsrin əvvəlində Rusiyada iqtisadi nəzəriyyə tədrisinin səciyyəvi xüsusiyyəti kimi iqtisadi nəzəriyyə (siyasi iqtisad) kurslarının bilavasitə dünya iqtisadi fikrinin ən böyük nailiyyətlərinə söykənməsidir[1]. Hazırda biz həmin elmin tədrisindəki gözəl ənənələri qaytarmağa cəhd edirik.

### *§1. İqtisadi nəzəriyyənin cəmiyyət həyatında rolu və əhəmiyyətinin ümumi səciyyəsi*

İqtisadi nəzəriyyə - ən qədim elmlərdən biridir. O, alimlərin və savadlıların diqqətini həmişə cəlb edib. Bu, iqtisadi nəzəriyyənin öyrənilməsinin insanların motivləri, onların təsərrüfat fəaliyyətində davranışları, təsərrüfatçılıq qanunlarının Aristoteldən, Ksenofontdan bu günə qədər bütün dövrlərdə dərk edilməsinin obyektiv zəruriliyi ilə bağlıdır.

[1] Бух Л. Основные элементы политической экономии. СПб.: Тип. М.Н. Стасюлевича, 1902; Булкагов С.О рынках при капиталистическом производстве. М.: Тип. А.Г.Кольчугина, 1897; Железнов В.Я. Очерки политической экономии. М.: Тип. тов. И.Д.Сытина, 1918; Мануйлов А.Понятие ценности. М.:1900; Туган-Барановский М.И. Основы политической экономии. Петроград: Изд-во юрид. книжного склада "Право", 1918.

**Maraqlıdır ki, XIX əsrdə çar I Nikolay A.S.Puşkinə gənclərin tərbiyəsi prinsipləri barədə mülahizələrini hazılamağı tapşıranda o, birinci növbədə ev tərbiyəsinin əleyhinə fikir söyləmiş və öyrənilməsi vacib olan fənlər sırasında siyasi iqtisadın da adını çəkmişdi. XIX əsrin sonunda N.Bunge «Siyasi iqtisadın əsasları» kitabında siyasi iqtisadın ümumbəşər inkişafın aşağı pilləsində olan xalqlarda olmadığını qeyd etmişdi.**

**Hazırda savadlıların iqtisadi nəzəriyyəyə (siyasi iqtisadiyyata) diqqəti get-gedə artmaqdadır. Bu bütün dünyada, o cümlədən Rusiyada baş verən qlobal dəyişikliklərlə izah olunur. Görkəmli Amerika alimi P.Samuelson iqtisadi nəzəriyyəni elmlərin şahı adlandırmışdı. Nobel mükafatı laureatı M.Fridmen yazır ki, iqtisadiyyat heyranedici elmdir, onun sehri fundamental prinsiplərinin sadəliyindədir, onları bir vərəqdə yazmaq mümkündür, bununla belə onları çox az adam başa düşür. İqtisadi fikir tarixi üzrə dünya şöhrətli mütəxəssis A.Heylbronerin sözləri ilə desək, mürəkkəb təsərrüfatçılıq aləmini əks etdirən bu elmin dərinliyi onu öyrənəndən «dəvə dözümü və müqəddəs səbri» tələb edir.**

**Hazırkı dövrdə ali təhsil müəssisələrinin məzunları geniş səpkili iqtisadi məsələlərdən baş açmalı, ictimai inkişafın mühafizəkar və müsbət meyllərini qiymətləndirməyi bacarmalı, işgüzar fəaliyyətə hazır olmalı və müəyyən dünyagörüşünə malik olmalıdırlar. Bu məsələnin həlli bir sıra tədris fənlərinin, o cümlədən iqtisadi nəzəriyyənin öhdəsinə düşür. P.Samuelson bütün dünyada məşhur *Ekonomiks» dərsliyində yazır ki, iqtisadi nəzəriyyəni müntəzəm surətdə öyrənməyən adam musiqi əsərini qiymətləndirməyə cəhd edən kara bənzəyir.**

**İqtisadi nəzəriyyənin əhəmiyyəti bilavasitə təsərrüfat fəaliyyətində və siyasətində tətbiq olunan hazır məsləhətlərdən ibarət olmasında deyil, C.M.Keynsin sÖzlərilə desək, metod, intellektual alət, düşüncə texnikası olmaqla ona malik olana düzgün qərar və nəticələrə gəlməyə kömək edir.**

**Özü də, hədsiz dərəcədə nəzəriyyələşdirmək də arzuolunmazdır, çünki mənasızdır. İngilis iqtisadçısı l.M.D.Litte belə alimləri obrazlı şəkildə «qeyri-iqtisadçılar» adlandıraraq, haqlı olaraq qeyd edirdi ki, cqeyri-iqtisadçılarə adətən həddindən artıq akademik olurlar, onlar real həyatdan hədsiz cidd-cəhdlə təcrid olunurlar.**

**Cəmiyyətimizin həyatının bütün sahələrindəki dərin böhran Rusiya iqtisadiyyat elminin müasir vəziyyətinə təsir etməyə bilməzdi. İqtisad elminin böhranı, ümumi böhranın ayrılıqda təzahürü kimi təbiidir, çünki iqtisadi nəzəriyyə cəmiyyətin iqtisadi həyatının əksidir. İqtisadi fikrin inkişaf tarixini yada salsaq, görərik ki, keçmişdə məhz iqtisadi böhranlar iqtisadi nəzəriyyənin inkişafına güclü təkan verib. Belə ki, A.Marşallın ekonomiks nəzəriyyəsi 1872-ci il böhranı və ondan sonrakı iyirmi illik depressiya dövrü nəticəsində, keynçilik - 1929-1933-cü illər böhranı və bundan sonrakı depressiya dövrü, monetarizm isə - 60-70-ci illər böhranından sonra yaranıb və geniş yayılıb.**

**Dünya haqqında iqtisadi nəzərij^^ədə formalaşmış fikir və təsəvvürlərin iflası, müasir iqtisadi fikrin böhranı lokal hadisə (yalnız Rusiya iqtisadi nəzəriyyələrinin) deyil, XX əsrdə ümumdünya tendensiyasıdır ki, bu da yalnız Rusiyanın deyil, Qərbin də bir sıra dühaları tərəfindən qeyd olunur. Belə ki, C.Helbreyt yazırdı: «Bazar mikro- və makrotəhlili çərçivəsində qalan ekonomiks elmlikdən çıxır və elm adlan- dırılmağa cəhd edən və mühafizəkarcasına istifadə olunan inanclar sisteminə çevrilir^. Rus alimləri N.D.Kondratyev, V.l.Vernadski, A.A.Boqdanov, Y.Y.Slutski, L.N.Qumilyov və başqaları da əsərlərində dünya haqqındakı təsəvvürlərimizi dəyişməyin vacibliyini önə çəkmişlər.**

**İqtisadi nəzəriyyənin Rusiyadakı hazırkı böhranı konkret şəkildə marksizmin böhranı formasını almışdı. Bu da təsadüfi deyil, çünki məhz marksizm bizim hakim ideologiyamız olmuş və məhz marksizm bizim inzibati-amirlik təsərrüfatçılıq sistemimizdə həmin iqtisadi sistemin aliliyinin təsdiqində istifadə olunmuşdu.**

**Bu gün marKSİzmi ehKamçılıqda günahlandırırıq. LaKİn marKSİzmin iqtisadi nəzəriyyənin inKİşafında mühüm mərhələ olduğunu etiraf etməməK olmaz. Pol Samuelson iqtisadi fİKİr tarixində iqtisadi nəzəriyyənin inKİşafma müəyyənləşdirici təsir etmiş üç görKəmli mütəfəKKİrin: A.Smit, K.Mancs, C.Keynsin adlarım xüsusi qeyd edir. Başqa gör- Kəmli AmerİKa alimi C.Helbreyt hesab edirdi Kİ, K.MarKsın təlimi o qədər dəyərlidir** Ki, **onu tamamilə marKsistlərə ver- məK olmaz. Yozef Şumpeter K.MarKSi böyÜK alim hesab edirdi və bu ona marKSİzmi tənqid etməyə mane olmurdu. XX əsrin əvvəlində K.MarKSin təlimi rus iqtisadçılarının (məsələn, M.İ.Tuqan-BaranovsKİnin, l.İ.Rubinin, V.Y.Jelez- novun və s.) əsərlərində tənqid olunmuşdu.**

**Qeyd etməK lazımdır** Kİ, **ehnamçılıq bütün elmlərdə qaçılmaz hadisədir. Məsələn, t.P.Pavlovun şərti refleKslər nəzəriyyəsi mütləqləşdirilmişdi və bu mütləqləşdirmənin zirvə nöqtəsi XX əsrin 50-ci illərinə təsadüf etmişdi. EhKam - səmərəsiz həqiqətdir. DərKetmə prosesində fİKrin inKİşafının bir mərhələsində həqiqət olan şey başqa mərhələdə mütləqlə- şir, donmuş məzmunlu ansioma çevrilir və artıq faydasız olur. LaKin həyat dəyişir, bizim həyat haqqındaKi təsəvvürlərimiz də dəyişilməyə bilmir və bu zaman ictimai fİKrin özünün gedişini dəyişməyi tələb edən yeni Konsepsiyalara, yeni yanaşmalara, yeni paradiqmaya tələbat yaradır. Yeni nəzəriyyə bilavasitə böhrana cavab olaraq yaranır.**

**Rusiyanın hazırnı ictimai-iqtisadi böhrandan çıxış yolunu alimlərin və praKtİKİərin çoxu əhalinin maddi-rifah halının yÜKSƏİdilməsinə yönümlənmiş bazar iqtisadiyyatına Keçməndə, qapalı iqtisadiyyatı bir sıra Qərb öİKƏSində, ABŞ-da, Yaponiyada və s. təşəKKÜl tapmış açıq iqtisadiyyatla əvəz etmƏKdə görürlər. Buna görə də bizim iqtisadi nəzəriyyənin tədrisi sahəsindəKİ zəngin dünya təcrübəsində axtarışlarımız təbiidir. Bu zaman, əlbəttə. Qərb alimlərinin nailiyyətlərini Kor-Koranə KÖçürtməK olmaz. Qərb iqtisadi**

**keçirsək görərik ki, o xeyli riyaziləşib, cəmiyyətə ziddir, qrafiklər, elementar düsturlar, mücərrəd mülahizələrlə doludur. Bu isə dünya elmi ictimaiyyətinin diqqətinə dəfələrlə çatdırıldığı kimi, iqtisadi nəzəriyyənin hədsiz formallaşması və obyektiv elm kimi cırlaşması təhlükəsini yaradır. Elə Əhdi-cədiddə də (apostol Pavelin 1-ci nəsihətnaməsi) deyilir ki. Sizin aranızda müxtəlif fikirlər olmalıdır ki, aranızdan ən qabiliyyətlilər üzə çıxsın.**

### *§2, İqtisadi fikrin nözülü» məfhumuna iqtisadçı alimlərin baxışlarının təkamülü*

**Cəmiyyətin təsərrüfat həyatını tədqiq edən elmi səciyyələndirmək üçün müxtəlif məfhumlardan istifadə olunub (cədvələ bax).**

**Elmin adında işlədilən məfhumların qarşılıqlı əlaqəsi**

| | |
|---|---|
| **Ekonomİya** | **- yunan sözləri: oykos - ev, təsərrüfat və nomos - məharət, qanun, bilik sözlərindəndir və hərfi mənası təsərrüfat işlərinin aparılması məharəti (biliyi, qanunu) deməkdir. Buna görə də Böyük Britaniyada iqtisadiyyat departamenti (kafedrası) incəsənət fakültəsinə aiddir.** |
| **Ekonomika** | **(İqtisadiyyat) - bütün iqtisadi sistemdə və ya onun ayrı-ayrı sahələri, elementləri şəraitlərində (xidmət, təhsil, əhali, əmək və s. sahələrin iqtisadiyyatı) insanın təsərrüfat fəaliyyətini öyrənən elm.** |

| | |
|---|---|
| **Siyasi iqtisad** | **- yunan sözləri politeyya - dövlət quruluşu, oykos və nomosdan ibarət olub dövlət miqyasında təsərrüfatın aparılması bacarığını bildirir. Bu isə o deməkdir ki, dövlət mövcud olduqca, dövlət miqyasında təsərrüfatın aparılması barədə elm də mövcud olacaq. Çox vaxt bu məfhumu klassik siyasi iqtisadla bağlayırlar ki, bu da o qədər də düzgün deyil. Lakin bu məfhumun siyasət və iqtisadiyyatın vəhdəti kimi dərki də düzgün deyil.** |
| **Ekonomiks** | **- insanın bazar iqtisadiyyatında davranışı, təsərrüfat fəaliyyətində məhdud resurslardan istifadəsi haqqında olub marjinalist metodologiyaya söykənən elm.** |
| **İqtisadi nəzəriyyə** | **- müxtəlif iqtisadi sistemlərdə XXI əsrin əvvəli üçün iqtisadi fikrin ən mühüm nailliyyətlərinin cəmini istifadə edərək təsərrüfatın aparılması məharəti haqqında elm.** |

**«İqtisadiyyat» sözü hər birimizə tanışdır, amma müxtəlif adamlar onu fərqli mənalarda qavrayırlar. Və «iqtisadiyyat nədir?» sualı bu gün çoxlarını çətinə salır. İqtisadiyyatın əhatəsində yaşayıb onun nə olduğunu deməyə çətinlik çəkməyimiz təəccüblü deyil.**

**İqtisadiyyat o qədər ümumil geniş, çoxmənalı məfhıundır ki, bir cümləylə onun tərifini vermək qeyri-mümkündür.**

**Hesab olunur ki, «ekonomika» məfhumunu hələ e.ə. VI əsrdə yunan şairi Hesiod iki sözü: <toykos» (ev, təsərrüfat) və «nomos»u (bilirəm, qanun) - birləşdirərək icad etmişdi ki, bu da hərfi mənada ev təsərrüfatının aparılması məharəti, biliyi, qaydalar məcəlləsi deməkdir. Elmə bu məfhum yunan iqtisadi fikrinin nümayəndələri - «Ekonomikos» adlı əsəri yazmış Ksenofont (e.ə.430-355) və Aristotel (e.ə. 384-322) - tərəfindən gətirilmişdir. Sonuncu sərvət haqqındakı elmi «ekonomiya» (məhsul istehsalı ilə bağlı təbii təsərrüfat fəaliyyəti) və «xrematistika»ya (pul qazanmaq məharəti) bölürdü.**

**Lakin zaman dəyişir və onunla birlikdə köhnə sözlərin mənası da dəyişir. Hazıda «ekonomiya» məfhumu geniş yayılıb, lakin bir qədər başqa mənada. Hazırda biz onu adətən xərclərin azaldılması, müəyyən resursların xərclənməsində qənaətcillik kimi başa düşürük. Bütövlükdə cəmiyyət üçün «ekonomiyaj> iqtisadi resursların elə işlədilməsin! bildi rir ki, bu həmin cəmiyyətdə həyat şəraitinin maksimum yüksəldilməsinə xidmət etmiş olsun.**

**«İqtisadiyyata məfhumu hazırda aşağıdakı mənalarda işlədilir:**

**■mövcud ölkənin xalq təsərrüfatı və ya onun müxtəlif sahələrini (sənaye, kənd təsərrüfatı və s. iqtisadiyyatı) özündə ehtiva edən bir hissəsi; regionun, ölkənin, bir qrup ölkələrin və ya bütün dünyanın iqtisadiyyatı (regional iqtisadiyyat, dünya iqtisadiyyatı, Rusiyanın iqtisadiyyatı və s.);**

**■məhsuldar qüvvələrin mövcud inkişaf mərhələsinə müvafiq olan və müəyyən iqtisadi sistem yaradan (quldarlıq, kapitalist və s. iqtisadiyyatlar) təsərrüfat fəaliyyəti nəticəsində insanlar arasında tarixən müəyyənləşərək meydana gələn iqtisadi münasibətlərin məcmusu;**

**■insanların fəaliyyətini, onun qanunları və qanunauyğunluqlarını (nəzəri iqtisadiyyat, siyasi iqtisad), istehsalın**

**bəzi şəraitləri və elementlərini (əhali, əmək, idarəçilik və s. iqtisadiyyatı) öyrənən elm.**

**İqtisadiyyatın müasir tərifini bir cümlə ilə vermək istəsək, belə deyə bilərik; iqtisadiyyat zəruri həyati nemətlər yaradılmasım və onlardan istifadə yolu ilə insanların və cəmiyyətin tələbatlarının ödənilməsini təmin edən təsərrüfat sistemidir.**

**Fransız iqtisadçısı Antuan Monkretyen de Vattevilin <ıSiyasi iqtisad üzrə traktat »ı (1615) çıxandan indiyədək iqtisadi nəzəriyyə üç yüz ildən artıqdır ki, siyasi iqtisad kimi inkişaf edir. Bu məfhumun birinci hissəsi yunan sözü «politeyya»dan əmələ gəlib və «dövlət quruluşu* deməkdir. Deməli, siyasi iqtisad hərfi tərcümədə dövlətdə təsərrüfat-çılığın qanunları (Aristoteldə olduğu kimi ayrı-ayrı quldarlıq və ya şəhər təsərrüfatında deyil, bütövlükdə dövlətdə) deməkdir. Həmin məfhumun bu dövrdə meydana gəlməsi təsadüfi deyildi, bu ilkin kapital yığımı və xarici ticarətdə dövlətin rolunun get-gedə artması ilə şərtlənmişdi.**

**1890-cı ildə Alfred Marşallın (1842-1924) «Ekonomiksin prinsipləri* kitabı çapdın çıxdı. Rus dilində kitab «Siyasi iqtisadın prinsipləri* adı altında çıxdı ki, bu da səhv deyil, çünki «ekonomiks* məfhumu altında A.Marşall siyasi iqtisadı nəzərdə tuturdu^ «Ekonomiks* fənnini A.Marşall ilk dəfə Kembric universitetində 1902-ci ildə tədris etməyə başlamışdı və bu C.S.Millin klassik məktəbinin siyasi iqtisad kursunu əvəz etmişdi.**

**«Ekonomiks* məfhumunun yaranması təsadüfi deyil. XIX əsrin sonundakı iqtisadi böhran və ondan sonrakı az qala iyirmi illik tənəzzül dövlətin iqtisadiyyata müdaxiləsinin əsassızlığını göstərdi və azad rəqabət və bazar carçısı A.Marşall dövlətin bazar iqtisadiyyatında rolunu məhdudlaşdırmaya bilməzdi və bu da öz əksini elmin əvvəlki adından**

* **Bax: Mapmajıjı** A.npUH^Hnı>ı nojmTHHecKOH əKOHOMUH. **M.:IIporpecc, 1983.** T.l, C.**56. Həmin kitabın müasir tərcüməsi - “IIpHHiiHnsr ƏKonoMH'iecKoü TcopHH” (M.,1933).**

**birinci hissənin götürülməsində tapdı.**

**Hazırda bu ad altında iqtisadi nəzəriyyə üzrə çoxsaylı dərsliklər çap olunur. Bunlar arasında ən məşhuru P.Samuelsonun 1948-ci ildə çap olunmuş və indiyə qədər 13 dəfə təkrar nəşr olmuş «Ekonomiks» dərsliyidir. Həmin kitabda müəllif qeyd edir ki, «iqtisadi nəzəriyyə və ya bir qayda olaraq siyasi iqtisad kimi adlandırılan elm ictimai elmlərlə, evdarlıq iqtisadiyyatı, müəssisənin idarə olunması ilə sıx əlaqədardır, lakin spesifik predmetə malikdir»^**

**Beləliklə, ekonomiks və siyasi iqtisad ingilis-amerika ədəbiyyatında sinonim kimi işlədilir. Hazırda siyasi iqtisad məfhumu altında bəzən bütövlükdə iqtisadi nəzəriyyə deyil, iqtisadi siyasət başa düşülür ki, bu da bir qədər yanlışdır.**

**«Ekonomiks'> məfhumu bizim iqtisadi ədəbiyyatda bu yaxınlara qədər burjua iqtisadiyyat elminin adı kimi nəzərdən keçirilirdi. Bu elmin inkarı yalnız bütün iqtisadi problemlərə sinfi yanaşmaya əsaslanan hədsiz siyasiləşmədən irəli gəlmirdi, bunu inzibati-komanda təsərrüfatçılıq sisteminin praktikası da tələb edirdi.**

**«Ekonomiks» fənnini diqqətlə öyrənəndə, onun çoxraənalı məfhum olub aşağıdakıları səciyyələndirdiyini görmək olar:**

**■ iqtisadiyyatın mikro və makro səviyyədə bazar şəraitində fəaliyyət prinsipləri haqqında elmi;**

**■ daha mücərrəd səciyyəli marksist siyasi iqtisadı ilə müqayisədə daha tətbiqi səciyyəli elmi;**

**■ ABŞ və Qərbi Avropa ali məktəblərində tədris olunan və özündə həmçinin iqtisadi tarixi, iqtisadi fikir tarixini və iqtisadi problemlər üzrə bir sıra xüsusi seminarları ehtiva edən tədris fənlərini.**

**Bu, Rusiyanın bir sıra siyasi iqtisadçılarının bu gün də siyasi iqtisadla ekonomiksi fərqləndirməsində əsas kimi çıxış edir.**

**Əslində isə, fənnin adının siyasi iqtisaddan iqtisadi nəzəriyyəyə dəyişdirilməsi bir elm kimi siyasi iqtisaddan**

‘ **CaMyəjibcoH** II.ƏKOHOMHKC. **M.:Ilporpecc, 1964. H., C.26.**

**İmtina etmək deyil. Bu dəyişikliyi hazırda «siyasi iqtisad bu gün elmlikdən çıxıb, şamanalogiyaya çevrildiyik^ fikrini söyləyənlərin bu barədə təsəvvürləri yanlışdır. Bunun tam əksi nə hesaba olursa olsun «siyasi iqtisad» məfhumunu saxlanılmasıdır. Amma bu mövqeyin də kifayət qədər ciddi əsası var: tədris fənninin adının dəyişdirilməsini elmdən imtina hesab etmək yanlışdır. «iqtisadiyyat», «siyasi iqtisad», «ekonomiksk və «iqtisadi nəzəriyyə» məfhumlarının təkamülü tarixi səbəblərlə şərtlənib, mahiyyət etibarilə isə bunlar daim inkişafda olan və iqtisadi hadisələri, təsərrüfatçılıq proseslərini müxtəlif qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq səviyyələrində tədqiq edən eyni bir elmin adlarıdır. İfadələr, yanaşmalar dəyişir, elm isə ayrı-ayrı adamların, qrupların və bütövlükdə cəmiyyətin iqtisadi həyatı haqqında elm olaraq qalır, istənilən bilik sahəsinin, o cümlədən iqtisadiyyat haqqında biliklər sahəsinin inkişafı elmi istiqamətlərin gedişində əsas nəzəri müddəalara yenidən baxılmanın ardıcıl dəyişilməsidir.**

**10 və daha artıq il müddətində siyasi iqtisad fənninin islahatının gedişində fənnin adının dəyişdirilməsi ilə bağlı ən müxtəlif təkliflər verilmişdir. Məsələn:**

**■ ümumi iqtisadi nəzəriyyə (bir müddət sonra «ümumi» məfhumu aradan götürüldü);**

**■ fundamental iqtisadiyyat;**

**■ nəzəri iqtisadiyyat (bu məfhumu hələ K.Marks işlətmişdi. O yazırdı ki, nəzəri iqtisadiyyatla xüsusən uğurla həkimlər V.Petti, F.Kenz, Nikolas Burbon, Mandevil məşğul olurdular);**

**■ siyasi hesab (V.Pettinin məfhumdur. XX əsrin 90-cı illərinin əvvəllərində V.Zakşanskinin «İqtisadiyyatın əlifbası və hesabı k kitabı çap olunmuşdu);**

**■ xrematistika (Aristotelin məfhumudur, sərvət qazanmaq bacarığını bildirir);**

' CeMƏHHmeB C.riOJIHTHHecKaH 3KOHOMHH - K£IK TpeTbH m>eBHeHinafl, HJIH HeÖOJCb-moH jiHKÖes no nıaMaHOJiorHH // HesaBBCHMaa raaera, **1994, 24** asr. C.8.

**■ postiqtisadiyyat;**

**■ yeni siyasi iqtisad (belə məfhum artıq Qərbdə neoinstitusionalizmdə işlədilməkdədir) - dövlətin iqtisadiyyatda davranışını izah edir, yəni siyasət+iqtisadiyyat.**

**Siyasi iqtisad məfhumunu saxlamaq istəyi güclüdür, çünki dövlət mövcud olduqca dövlətdə təsərrüfatın aparılması məharəti haqqında elm də qalacaq.**

**Lakin qlobal iqtisadiyyat bu məfhumun saxlanılmasını sual altına alır. Bu məsələ hələ həll olunayıb. Təəssüf ki, dövlət standartı məsələsində vahid mövqe yoxdur. Və bu yerdə Bernard Şounun dediyi «bütün iqtisadçıları bir zəncirlə zəncirləsən belə, onlar vahid fikrə gəlməyəcək» sözlərini yada salmamaq mümkün deyil.**

**Beləliklə, iqtisadi fikrin «özülÜ9^ məfhumuna - iqtisadi nəzəriyyəyə baxışların təkamülündən danışmaq olar.**

### *§3, İqtiso4İi nazariyyənin başqa elmlərlə qarşılıqh əlaqəsi, iqtisadi siyasət*

**Hələ tarixi məktəbin nümayəndəsi Kari Menger qeyd edirdi ki, iqtisadi bilikləri yalnız iqtisadi nəzəriyyə deyil, xüsusi vəzifələri, predmetləri və məntiqi üsulları olan bir çox müstəqil konkret iqtisadi fənlər də verir. Konkret iqtisadi fənlər praktik fəaliyyət üçün zəruri olan qaydalar sistemi hazırlayırlar və buna görə də ümumi nəzəriyyəyə deyil, təsərrüfatçılıq praktikası məharətinə aiddirlər. Buna görə də iqtisad elmini nəzəri və tətbiqi olmaqla iki hissəyə bölmək olar. Belə bölgü müəyyən qədər şərti olsa da, o, tədqiqat obyektinin real fərqli xüsusiyyətlərini, iqtisadi obyektlərin və hadisələrin nəzəriyyəçi və praktiklərin tətbiq etdikləri dərketmə üsulları və təsvir metodlarım əks etdirir.**

**İqtisadi nəzəriyyə təbii ki, iqtisadi prosesləri və hadisələri <ıtəmiz», «ideal formadan təqdim və təsvir etməyə meyllidir, bir sıra mücərrəd kateqoriya və anlayışlardan istifadə edir, real gerçəkliyi olduqca təxminən əks etdirən modellərə**

**müraciət edir. Real gerçəkliyi qeyri-adekvat əks etdirməsinə baxmayaraq, nəzəri modellər ümumi iqtisadi mənzərənin təsvirini vermək, əsas amilləri aşkarlamaq, təqribi təsəvvürlər, istiqamətlər əldə olunması baxımından faydalıdırlar.**

**Nəzəri iqtisada iqtisad elmində iqtisadi proseslərin gedişinin ümumi qanunauyğunluqlarının aşkar edilməsi ilə bağlı nəzəri istiqamət kimi yaranmış iqtisadi nəzəriyyəni (siyasi iqtisadı) aid edirlər.**

**İqtisadi nəzəriyyə ilə iqtisadi-riyazi modelləşdirmə, daha geniş mənada isə iqtisadiyyatın idarə olunmasının əsas prinsiplərini öyrənən iqtisadi kibernetika sıx əlaqədardır. Bu istiqamətlə onun ekonometrika adlanan və kəmiyyət nisbətlərini, iqtisadi informasiyanın təhlil edilməsinin riyazi modellər və statistik metodların tətbiq edilməsi əsasında iqtisadi vahidlər arasındakı qarşılıqlı əlaqələri öyrənən tərkib hissəsi sıx bağlıdır. Ekonometrika daha çox makroiqtisadi göstəricilərin təhlili və proqnozlaşdırılmasında istifadə olunur.**

**Tətbiqi iqtisadiyyat konkret iqtisadiyyatla əlaqədə olur, nəzəriyyə nisbətən təcrübəyə, təsərrüfatçılıq təcrübəsinə, iqtisadi fəaliyyətin təsərrüfatçılıq təhlilinin konkret göstəricilərinə daha çox istinad edir, konkret iqtisadi vəziyyətləri mikro- və makroiqtisadiyyata uyğun olaraq öyrənir və bu zaman hədsiz mücərrədçilikdən, həyat gerçəkliyindən uzaqlaşmaqdan qaçır.**

**Həm nəzəri, həm də tətbiqi iqtisad elmi iqtisadi statistikanın göstəricilərindən, iqtisadi göstəricilərin təhlili, qar- şılaşdırılması, müqayisəsindən geniş istifadə edir. Lakin bu, iqtisadiyyatı təcrübəyə əsaslanan empirik elm hesab etməyə əsas vermir. İqtisadi praktika, şübhəsiz, toplanmış təcrübəni cəmləyir və onun əsasında ümumiləşdirici nəticələrə gəlir.**

**İqtisadi nəzəriyyə bütöv bir elmlər kompleksinin: sahə (ticarət işinin, sənayenin, nəqliyyatın, tikintinin və b. iqtisadiyyatı); funksional (maliyyə, kredit, marketinq, menecment, proqnozlaşdırma və b.); sahələrarası (iqtisadi**

**coğrafiya, demoqrafiya, statistika və b.) elmlərin metodoloji əsasıdır.**

**İqtisadi nəzəriyyə tarix, fəlsəfə, hüquq və b. yanaşı ictimai elmlərdən biridir. O, insanın həyat fəaliyyətinin sosial hadisələrinin müəyyən hissəsini, hüquq elmi bir, mənəviyyat elmi digər tərəfini açıqlamağa təyinatlanıb və yalnız nəzəri sosial və tarixi elmlərin məcmusu bizə bütün ictimai həyatı izah etməyə qabildir. Buna görə də iqtisadi nəzəriyyənin müddəalarını gerçəkliyin faktları ilə yoxlamağı tələb etmək düzgün deyil.**

**İqtisadi nəzəriyyə başqa iqtisadi elmlərin, həmçinin sosiologiya, psixologiya, tarixin əldə etdikləri bilikləri nəzərə alır, çünki onlar nəzərə alınmazsa, iqtisadi nəzəriyyənin gəldiyi qənaətlər səhv ola bilər.**

**İqtisadi nəzəriyyənin başqa iqtisadi elmlərlə əlaqəsini ən ümumi şəkildə aşağıdakı cədvəl şəklində göstərmək olar.**

**İqtisadi nəzəriyyənin başqa iqtisadi elmlərlə qarşılıqlı əlaqəsi**

| | | |
|---|---|---|
| | **Konkret-iqtisadi elmlər** | |
| **Xüsusi iqtisadi forma və təşkilatların iqtisadiyyatı** | **Sahələrin iqtisadiyyatı. Müəssisələrin iqtisadiyyatı. Ölkələrin iqtisadiyyatı və s.** | **İnformativ-analitik elmlər** |
| **Maliyyə Kredit Marketinq Təbiətdən istifadənin iqtisadiyyatı və s.** | **İqtisadi nəzəriyyə (siyasi iqtisad)** | **İqtisadi-riyazi metodlar Statistika Təsərrüfat fəaliyyətinin təhlili** |
| | **Tarixi-iqtisadi elmlər** | |
| | **İqtisadi fikir tarixi Xalq təsərrüfatının tarixi** | |

**İqtisadi nəzəriyyədə nəticələrinin tətbiqi sahəsindən asılı olaraq, iki istiqamət ayırmaq olar.**

**Pozitiv (deskriptiv) iqtisadiyyat əsasən müşahidə olunan iqtisadi proseslər və hadisələrin obyektiv şərhi, elmi izahına, onların əsasında elmi fərziyyələrin, konsepsiyaların qurulmasına, iqtisadi sistemlərin fəaliyyət qanunauyğunluqlarının aşkarlanmasına yönümlənib.**

**Normativ iqtisadiyyat arzu olunan nəticələrə çatmaq üçün necə olmalıdır, necə hərəkət edilməlidir suallarına cavab verir.**

**Proqnozlaşdırma, iqtisadi elmin xüsusi qolu kimi, gələcəkdə iqtisadiyyatda nələrin baş verə biləcəyini elmi qabaqgörənlikdir.**

**İqtisadi nəzəriyyənin praktik əhəmiyyəti (Ogüst Kontun məlum formulu) ondadır ki, bilik qabaqgörənliyə aparır, qabaqgörənlik isə fəaliyyətə. İqtisadi nəzəriyyə iqtisadi siyasətin əsasında durmalı, onun vasitəsilə də praktik həyata nüfuz etməlidir. Hərəkət (praktika) biliyə, bilik qabaqgörənliyə, qabaqgörənlik düzgün hərəkətə aparır.**

**İqtisadi nəzəriyyə necə varlanmaq haqqında qaydalar toplusu deyil. O bütün problemlərin hazır həllini vermir. Nəzəriyyə iqtisadi gerçəkliyin dərki üçün yalnız alət, üsuldur. Bu alətdən istifadə etməyi bacarmaq, iqtisadi nəzəriyyənin əsaslarını bilmək hər kəsə bir çox həyati vəziyyətlərdə düzgün seçim etməyə kömək edər.**

**İqtisadi nəzəriyyələr təsərrüfat praktikasının qoyduğu problemlərə cavab axtarışlarında inkişaf ediblər, lakin onlar iqtisadi gerçəkliyin dərk edilməsi və onun dinamikasının proqnozlaşdırılması aləti olaraq qalmaqdadırlar.**

**İqtisadi nəzəriyyədən iqtisadi siyasəti fərqləndirmək lazımdır.**

**İqtisadi siyasət nemətlərin ictimai istehsalı, bölgüsü, mübadiləsi və istehlakı sahəsində dövlətin məqsədyönlü tədbirlər sistemidir. O, cəmiyyətin, onun bütün sosial qruplarının maraqlarını əks etdirməyə təyinatlanıb və mil**

**li iqtisadiyyatın möhkəmləndirilməsinə istiqamətləndirilib.**

**İqtisadi siyasət iqtisadi problemlərin həlli variantlarının tapılması və onların mexanizmlərinin hərəkətə gətirilməsi ilə məşğuldur. İqtisadi nəzəriyyədən istifadə edərkən siyasətçilər qəbul etdikləri qərarların uğurlu olmasını istəyirlərsə, həll edilən problemin mədəni, sosial, hüquqi aspektlərini də nəzərə almalıdılar, İqtisadi siyasət məsələlərinin həyata keçirilməsi iqtisadi sistemin dəyişilməsi, onun kamilləşməsi və ya dağılması ilə nəticələnə bilir.**

**İqtisadi hadisələrin tədqiqi zamanı bütün rəğbət və nifrətləri, şəxsi mənafe və maraqları bir tərəfə qoyub, fransız məhkəmə andının: «Mən həqiqəti deyəcəm, bütün həqiqəti, həqiqətdən başqa heç nəyi» kimi səslənən gözəl formulunu yadda saxlayaraq, həqiqəti olduğu kimi çatdırmağa çalışmaq olduqca vacibdir.**

**İqtisadi nəzəriyyə kursu iqtisadi gerçəkliyi dərk etmək üçün mütləq həqiqətə iddialı olmayan bir dərslikdir.**

# I FƏSİL. İQTİSADİ NƏZƏRİYYƏNİN GENEZİSİ VƏ İNKİŞAFININ ƏSAS MƏRHƏLƏLƏRİ

*§1. İqtisadi fikrin köklari: Qədim, dünya mütəfəkkirlərinin təlimləri.*
*§2. Dünya sivilizasiyasının ilk mühüm iqtisadi məktəbləri.*
*§3. Üçüncü minilliyin əvvəlində iqtisadi fikrin əsas istiqamətləri.*
*§4. Rusiya iqtisadi fikri dünya iqtisad elmi xəzinəsinə dəyərli töhfədir.*

**İqtisadi nəzəriyyənin öyrənilməsi üçün onun genezisini, yəni mənşəyini, yaranmasını, formalaşma prosesini və iqtisadi nəzəriyyənin bir elm kimi təşəkkül tapmasım bilmək vacibdir. Böyük alman şairi l.V.Hötenin sözlərinə görə, tarixi xronikanı o kəs yazır ki, ona indiki zaman vacibdir. Keçmişi öyrənmədən indinin dərk olunması səhvlərlə nəticələnə bilər. Rus tarixçisi V.O.KIyuçevski yazırdı: «Tarixi keçib getdiyinə görə bilmək lazım deyiU, onu gedərkən nəticələrini yığışdıra bilmədiyinə görə bilmək lazımdır. Bunu diqqətə alaraq iqtisadi fikir tarixinə nəzər salmaq məqsədəuyğun olar,**

## *§1, İqtisadi fikrin kökləri: Qədim dünya mütəfəkkirlərinin təlimləri*

**İqtisadi fikrin köklərini Qədim dünya, birinci növbədə dünya sivilizasiyasının beşiyi Qədİm Şərq ölkələri mütəfəkkirlərinin təlimlərində axtarmaq lazımdır. Qədim hind “Manu qanunları” (e.ə. IV-III əsrlər) ictimai ^məyin, hökmranlıq və asılılıq münasibətlərinin mövcudluğunu qeyd edirdilər. Qədim Çin mütəfəkkirlərinin (bunlar arasında Konfutsi (e.ə. 551-479) xüsusilə fərqlənirdi) əsərlərində zehni əməklə fiziki əmək fərqləndirilir Özü də birincisi “ali” təbəqənin, ikincisi isə əksəriyyəti qullardan ibarət olan “qara camaatın” qisməti elan edilirdi. Maraqlıdır ki, hələ o dövrdə, məsələn, Çin filosofu Syun Tszınm (e.ə.III əsr) əsərlərində**

**bütün insanların yaranışdan bərabər olması, “toplanmış sərvəf’dən hamının istifadə etməli olduğu, adi insanların da torpağa xüsusi mülkiyyət hüququnun olması fikri söylənilirdi. Buna görə də, hələ o dövrdə əkinçi-qulların və sənətkar-qulların azad edilməsinə çağırışlar səslənirdi.**

**İqtisadi fikrin sonrakı inkişafı Qədim Yunanıstanla bağlıdır. Qədim Yunan mütəfəkkirləri Ksenofontun (təq. e.ə. 430-355), Platonun (e.ə. 427-348), Aristotelin (e.ə. 384-322) baxışlarını müasir iqtisadi fikrin ilkin nəzəri müddəaları kimi səciyyələndirmək olar.**

**Aristotel ilk iqtisadçı. Platonun şagirdi. Makedoniyalı İsgəndərin müəllimidir. Onun iki əsəri- “Etika” və “Siyasət” “ daha çox məşhurdur. O, ilk dəfə olaraq iqtisadi nəzəriyyənin ayrı-ayrı kateqoriyalarını ayırmış, mübadiləyə məruz qalan hər şeyin müqayisəyə gəlməsi məsələsini qoymuş, qiymətin yaranması və dəyişməsi qanununu tapmağa cəhd etmiş, fəaliyyətin iki növünü: istehlak (aktiv fəaliyyət) və istehsal (məhsuldar fəaliyyət) ayırmış, təsərrüfat nemətləri dəyərinin əsası kimi faydalılıq haqqında, təsərrüfat nemətlərinin ekvivalentlər mübadiləsi kimi, düzgün mübadiləsi və s. barədə fikir yürütmüşdü. Quldarlıq şəraitində fiziki əməyin azad vətəndaş üçün eyib sayılması ilə əlaqədar olaraq məhsulu o, əməklə yox, yalnız faydalılıqla dəyərləndirirdi.**

**Qədim Roma mütəfəkkirləri Varron (e.ə. 116-27), Böyük Katon (e.ə. 234-149), Kolumella (b.e. İ əsri), Seneka (təqr, e.ə. 4 - 65), Tit Lukretsi Karanın (e.ə. 99-55) iqtisadi fikirləri bir növ Qədim Yunanıstanın iqtisadi fikrinin davamı idi. Burada hər şey köləliyin zəruriliyi ilə əsaslandırılır, lakin bu fikirlərdə artıq quldarlığın tənəzzülü və dağılması əks olunur. Belə ki, Mark Porsi Katon “Əkinçilik haqqında” traktatında və “Dərslər sistemi”ndə israr edir ki, qullar daim - yağışda da, bayramlarda da işləməlidirlər və qulların əməyinin normalaşdırılması, eləcə də fəsillər üzrə ərzaq norması barədə tövsiyələr verir. Mark Terensi Varron “Kənd təsərrüfatı” əsərində əməyə mülayim məcburetmə tərəfdarı**

**kimi çıxış edir. Lutsi Yuni Moderat Kolumella qul əməyi imkanlarının məhdudluğunu etiraf etməklə yanaşı yarıtmaz işçilərin işləməyə məcbur edilmə metodlarının hamısını yararlı sayır və beləliklə, müasir iqtisadiyyatda da böyük əhəmiyyət kəsb edən əməyin keyfiyyəti problemini qoyurdu. Mülkiyyət problemi Roma hüquqşünasları (Qayın institusi- yaları, Qreqori və Germagenin Kodeksləri, II Feodosinin imperator institusiyaları toplusu, Digestalar Yustianın Kodeksi) tərəfindən tədqiq edilmişdir. Seneka göstərirdi ki, insanların hamısı yaranışdan bərabərdirlər, buna görə də köləliyi pisləyirdi. O yazırdı: "Onlar kölədirlər. Lakin onlar insandır". Seneka sələmçiliyin əleyhinə çıxış edirdi, amma özü azadlığa buraxılmış qulların əli ilə sələmçiliklə məşğul olurdu və çox varlı idi. Onun ideyaları xristianlığa təsir etmişdi.**

**Xristianlıq təsərrüfat fəaliyyətinə ümumi baxışda əsaslı dönüş yaratdı. O ən adi təsərrüfat əməyini zəruri və müqəddəs elan etdi. Apostol Pavel vəsiyyət etmişdi: "Kim ki işləmək istəmir, o yeməsin". Ədalətli qiymət prinsipi, məhsulların fərdi deyil, sosial qiymətləndirilməsi, mülkiyyət, sərvət və bir çox başqa iqtisadi problemlərə xristian alimləri tərəfindən bu və ya digər dərəcədə toxunulmuşdur (Foma Akvinski, İoann Duns Skot, Uilyam Okkam və b).**

**Sxolast alimlər (universitet müəllimləri) iqtisadi problemləri Müqəddəs Kitab mövqeyindən ədalət təlimi çərçivəsində nəzərdən keçirirdilər. Bu dövrdə iqtisadiyyatda normativ aspekt (olacaq şeyin modelləşdirilməsi) pozitivdən (real həqiqətin öyrənilməsi), irrasional (mifyaratma) rasionaldan (elmi) üstün idi, Sonralar insanlar arasında bərabərlik və ədalət ideyası əmtəə mübadiləsində ekvivalentlik (bərabərlik) ideyasına, namuslu əmək ideyası burjua sahibkarlığının əsaslandırılmasına çevrildi.**

**Lakin bütün bu baxışlar və deyilmiş fikirlər küll halında belə iqtisadiyyat haqqında sistemləşdirilmiş təlim deyildi.**

## *§2. Dünya sivilizasiyasının ilk mühüm iqtisadi məktdhləri*

**Bir elm, yəni iqtisadi sistemin mahiyyəti, məqsəd və vəzifələri haqqında sistemləşdirilmiş biliklər kimi iqtisadi nəzəriyyə XVI-XVII əsrlərdə yaranmışdı. Bu, kapitalizmin təşəkkül tapması, manufakturaların yaranması, ictimai əmək bölgüsünün dərinləşməsi, xarici və daxili bazarların genişlənməsi, pul dövriyyəsinin intensivləşməsi dövrü idi. İqtisadiyyat elmi bu proseslərə merkantilizmin meydana gəlməsi ilə cavab verdi.**

**Merkantilist təlimlərinin mahiyyəti sərvətin mənbəyinin müəyyənləşdirilməsindən ibarət idi (onların əsas xidməti bundan ibarətdir, çünki bu məsələni birinci onlar qaldırıblar). Lakin məsələni düzgün şərh etmirdilər, çünki sərvətin mənbəyini mübadilədə görür, sərvətin özünü isə pulla eyniləşdirirdilər. Təlimin adı da buradandır, çünki merkantil tərcümədə pullu deməkdir. Merkantilistlər ticarətçilərin nümayəndələri idilər və onların maraqlarını ifadə edirdilər.**

**Erkən və gec merkantilizm fərqləndirilir. Erkən merkantilizmin əsasında pul balansı sistemi, pul sərvətinin yalnız qanunvericilik yolu ilə artırılması dayanırdı. Gec merkantilizmin əsasını çox satıb, az almağı tələb edən aktiv ticarət balansı sistemi təşkil edirdi.**

**İdeya baxımından merkantilizmə milli iqtisadiyyatı başqa dövlətlərin rəqabətindən gömrük sədləri qoymaq, ölkəyə xarici əmtəə və kapitalların gəlməsini məhdudlaşdımıaq yolu ilə qorumağa yönəldilmiş iqtisadi himayəçilik siyasəti yaxmdır.**

**Merkantilizmin ən görkəmli nümayəndələri Tomas Man (1571-1641), Antuan Monkretyen de Vattevil (1575-1621), Qaspar Skaruffi (1519-1584), Dedli Nore (1641-1691), Devid Yum (1711-1776) idilər.**

**Antuan Monkretyen de Vattevil tarixə Fransada merkantilizmin parlaq nümayəndəsi kimi daxil olmuş və elmə «siyasi iqtisada məfhumunu gətirməklə adını əbədiləşdirmiş**

**dir. A.Monkretyenin fikrincə, ticarət qazanc mənbəyi, «müxtəlif sənətlərin əsas məqsədi» və dövlətin güclənməsinin ən yaxşı üsuludur. A.Monkretyen pul, sərvət və rifah arasında fərqi görürdü, «Dövləti varlı edən qızıl və gümüşün çoxluğu deyil,- o yazırdı,- yaşayış və geyim üçün zəruri əşyaların olmasıdırO, öz sözləri ilə deyilsə, «dövlət üçün vəba və qaçılmaz müflislik* olan ifrat təmtərağın əleyhdarı idi.**

**Merkantilizm əsasən empirik və praktik səciyyəli idi. Bu dövrdə iqtisadi fikirdə təsərrüfat fəaliyyətinin tədqiqi sahəsində pozitiv yanaşma (gerçəklikdə olduğu kimi) normativ yanaşmanı (necə olmalıdır) sıxışdırıb çıxardırdı.**

**İqtisadi nəzəriyyənin bir elm kimi inkişafında İngiltərədə Uilyam Pettinin (1623-1687) və Fransada Pyer Buagilberin (1646-1714) xüsusi yeri var. Onların təlimi müəyyən mənada merkantilistlərdən klassik (həqiqi) elmə — siyasi iqtisada keçid körpüsüdür. U.Pettinin əsərləri «Vergilər və rüsumlar haqqında traktat*(1662), «Müdriklərə söz* (1665), «Siyasi hesab* (1646), «Pul haqqında müxtəlif düşüncələr*dir (1682). Sonuncu əsəri F.Engels siyasi iqtisadın şah əsəri kimi qiymətləndirmişdi. U.Pettinin xidməti ondadır ki, o ilk dəfə olaraq sərvətin mənbəyinin əmək və torpaq olduğunu bəyan etmişdi. Onun belə bir deyimi məlumdur: «Əmək sərvətin atası və ən fəal prinsipidir, torpaq isə onun anasıdır*. Pyer Buagilber də həmçinin dəyəri əməyə aid etməyə cəhd etmiş və bununla da dəyəri, sərvətin mənbəyini istehsal sahəsində axtaran əmək-dəyər nəzəriyyəsi istiqamətində həlledici addım atmışdı.**

**Siyasi iqtisadın inkişafmda yeni istiqamət iri mülkədarların maraqlarını ifadə edən fiziokratlarla təmsil olunub. Fiziokrat məfhumu yunan sözləri phisis və kratos sözlərindən əmələ gəlib hərfi mənada “təbiətin hökmranlığı” deməkdir. Bu istiqamətin banisi və əsas nümayəndəsi Fransua Kene (1694-1774) idi. O, ticarətlə məşğul olan kəndli ailəsində doğulmuş, əla tibbi və hüquqi təhsil almış, XV Lüdovikin saray həkimi olmuş, madam Pompadurun himayədarlığından**

**İstifadə etmişdi. XV Lüdovik ona zadəganhq vermişdi. P.Kene 64 yaşında, tibbə dair elmi işlərindən sonra siyasi iqtisad üzrə əsas əsəri olan «tqtisadi cədvəl»i (1758) yazmış və orada ictimai məhsulun natural və dəyər elementləri arasında müəyyən balans nisbətlərini müəyyənləşdirmək mövqeyindən ictimai təkrar istehsalın təhlilinə dahiyanə cəhd etmişdi. F.Kene merkantilistlərin mübadilənin sərvət yaratması fikrini inkar etdi; sərvətin mənbəyi kimi o əkinçilikdə sadəcə əməyi deyil, məhz kənd təsərrüfatında istehsal olunmuş məhsulun istehlak olunandan çox olmasını bəyan etdi; onun təliminin məhdudluğu sərvətin mənbəyi kimi yalnız əkinçilikdəki əməyi hesab etməsindədir. F.Kene ətrafında istedadlı şagirdlər və tərəfdarlar: V.R.Mirabo-böyük (1715-1789), Düpon de Nemur (1739-1817), A.R.Türqo (1727-1781) cəmləşmişdilər.**

**İqtisad elmi sonrakı inkişafını Adam Smit (1723-1790) və David Rikardonun (1772-1823) əsərlərində tapdı.**

**Adam Smit 1723-cü ilin aprelində balaca şotland şəhəri Kerkoldidə gömrüyün baş nəzarətçisinin ailəsində doğulmuşdu. O, yaxşı təhsil almış, iki universitet bitirmiş, fəlsəfə, siyasi elmlər, riyaziyyat, astrologiya, hüquqşünashq, sosiologiya və iqtisadiyyat üzrə fundamental biliklərə yiyələnmişdi. Onun birinci kitabı «Əxlaqi hisslər nəzəriyyəsi*dir.**

**A.Smit iqtisadi fikir tarixinə klassik siyasi iqtisadın banisi kimi daxil olmuşdur. O, 44 yaşında liəhəng, bəzi bioq- rafların fikrincə, hətta dəhşətli bir planı - dünyaya ictimai-iqtisadi quruluşun nəzəriyyəsini vermək işini həyata keçirtmək qərarına gəldi. 10 il tam tərkidünyalıqdan sonra o, «Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat* (1777) kitabını çap etdirdi. Həmin kitabda o dövr üçün toplanmış bütün iqtisadi bilikləri sistemləşdirən A.Smit tarixi bir missiyanı yerinə yetirdi. A.Smit təliminin əsas ideyası liberalizm, dövlətin iqtisadiyyata minimum müdaxiləsi, tələb və təklifdən asılı olaraq yaranan azad qiymətlər əsasında bazar özünü tənzimləməsi idi. Bu iqtisadi tənzimlə**

**yiciləri o, «görünməz əl a adlandırmışdı. A.Smit əmək-dəyər nəzəriyyəsinin əsasını qoymuş, dəyərin yaradıcısı kimi məhsuldar əməyin rolunu yüksəltmiş, ictimai əmək bölgüsünün əmək məhsuldarlığının artırılması şərti kimi əhəmiyyətini göstərmiş, gəlirlər haqqında təlim yaratmış, vergiqoymanın prinsiplərini dəqiq müəyyənləşdirmişdir və s. Onun tədqiqatı Qərb iqtisadçılarının stolüstü kitabı olmuşdu.**

**David Rikardo varlı tacir ailəsində doğulmuşdu. 1793-1812-ci illərdə ticarətlə məşğul olmuş, milyonluq sərvət qazanmış, ticarət fəaliyyətindən uzaqlaşmış, iri mülkədar olaraq Ömrünü elmi işə həsr etmişdi. O, A.Smitin nəzəriyyəsi üzərində işləyərək onun təliminin bəzi çatışmazlıqlarını aradan qaldırmışdı. Onun əsas əsəri «Siyasi iqtisadın və vergiqoymanın əsaslarımdır (1809-1817). O, dəyərin yeganə mənbəyinin işçinin əməyinin olduğunu və məhz onun müxtəlif siniflərin gəlirlərinin (əmək haqqı, mənfəət, faiz, renta) əsasında durduğunu; mənfəətin işçinin haqqı ödənilməmiş əməyinin nəticəsi olmasını göstərmiş; əmək haqqı və mənfəət arasındakı tərs mütənasib asılılıq qanununu formalaşdırmış; mənfəət normasının azalmağa meylliliyini göstərmiş; dife- rensial rentanın mexanizmini açmışdı. D.Rikardonun xidməti onun siyasi iqtisadın kateqoriyaları sistemini əmək-dəyər nəzəriyyəsi əsasında qurmağa cəhd etməsində idi. Amma monistik prinsipi o axıra qədər saxlaya bilmədi və raonistik konsepsiya istehsal amillərinin plüralist konsepsiyası ilə əvəzləndi ki, bu da əslində əmək- dəyər nəzəriyyəsini laxlatdı.**

**XIX əsrin sonu - XX əsrin əvvəlinin rus iqtisadçıları klassik məktəbin səhvlərini dəfələrlə nəzərə çatdırmışlar. Belə ki, V.Y.Jeleznov yazırdı ki, klassik məktəb öz müddəalarını mütləq formaya salmış, nəzəri müddəalarının bütün dövrlər, ölkə və xalqların təsərrüfat hadisələrini izah etməyə qabil olduğunu, öz prinsiplərini (xüdbin maraqlar və azad rəqabət) normal iqtisadi münasibətlər quruluşu yaratmaq üçün əsas hesab etmişdi və buna görə də tarixi təhlilə və**

**İnkişafa qabiliyyətini itirmişdi. Klassik siyasi iqtisadın ən böyük çatışmazlığı təsərrüfat həyatında dövlətin rolunu nəzərə almamaqdır. Bunun mənbəyi aydındır; mütləq monarxiyaya nifrət edən klassiklər təsərrüfat münasibətlərində dövlət tənzimləməsinin əhəmiyyətini istər-istəməz azaldırdılar.**

**Klassik siyasi iqtisadın ardıcılları R.Torrens, C.Stüart Mili, D.R.Mak-Kullox və D.Rikardonun əleyhdarları T.R.Mal- tus, S.Beyli, N.U.Senior əslində dəyər nəzəriyyəsindən tələb və təklif nəzəriyyəsinə keçidi həyata keçirdilər. Onlarda qiymət nəzəriyyəsi dəyər nəzəriyyəsini, istehsal amilləri nəzəriyyəsi əmək nəzəriyyəsini, konkret şəraitin təhlili - nəzəri mücərrədləşdirmələri sıxışdırır.**

**Dünya iqtisadi fikrinin təkamülünün müəyyən mərhələsi İsveçrə iqtisadçısı və tarixçisi Jan Şari Leonar Simond de Sismondinin (1773-1842) əsərləri oldu. O, Cenevrə universitetində oxumuş, Fransa, Böyük Britaniya, İtaliyada yaşamışdı. Onun əsas əsəri «Siyasi iqtisadın yeni əsaslarımdır (1819), Bu əsərdə o, kapitalizm cəmiyyətinin iqtisadi mexanizmini tənqid etmişdi. Sismondinin iqtisadi təliminin əsasında istehsal və istehlafcın asılı olduğu bölgü dayanırdı. O, hesab edirdi ki, siyasi iqtisad insanın xoşbəxtliyi naminə ictimai mexanizmi təkmilləşdirmə haqqında elm olmalıdır.**

**Utopik sosialistlər Anri Klod Sen-Simon (1760-1825), Şari Furye (1772-1837) (Fransa), Robert Ouen (1771-1858) (Böyük Britaniya) və Tomazo Kampanella (1568-1639) (İtaliya) yeni cəmiyyət yaratmaq (doğrudur, bunu hərəsi öz bildiyi kimi başa düşürdü) ideyasını irəli sürdülər. Onlar kapitalizmin tənqidi və istehsalın, bölgü və istehlakm dəyişdirilməsi, şəxsi mülkiyyətin ləğv edilməsi, zehni əməklə fiziki əmək arasındakı ziddiyyətin aradan qaldırılması, ədalətli ictimai sistemin qurulması tələbi ilə çıxış edirdilər. Sonuncunu (ədalətli ictimai sistemi) Sen-Simon industria- lizm, Furye harmoniya, Ouen isə kommunizm adlandırmışlar. Onlar inqilabın və siyasi mübarizənin əleyhinə olub**

**cəmiyyətin təkamüllü inkişafının tərəfdarları idilər.**

**Klassik siyasi iqtisad məktəbinin ən yüksək nailiyyətlərinə əsaslanaraq Kari Marks (1818-1883) və Fridrix Engels (1820-1895) ümumiləşdirilmiş şəkildə marksizm adını almış nəzəri konsepsiya yaratdılar. Onların ideyalarına V.lXenin (1870-1924) tərəfindən bu və ya digər dərəcədə əlavələr və bir qədər dəyişikliklər edildi və bundan sonra onlar rus və sovet iqtisadçıları tərəfindən XX əsrin 80-ci illərinə qədər nəzərdən keçirildi.**

**Marksizm və ya elmi sosializmin (kommunizmin) nəzəriyyəsi nəzəri iqtisadda kapitalist cəmiyyətinin inkişaf qanunlarının və sosializmin (kommunizmin), yeni iqtisadi sistem kimi, konsepsiyasının hərtərəfli tədqiqidir. Sonuncu sosialist prinsiplərin: istehsal vasitələri üzərində ictimai mülkiyyət, muzdlu əməyin istismarının olmaması, bərabər əməyə görə bərabər haqq, ümumi və tam məşğulluq, təsərrüfatın vahid plan üzrə aparılması cəmi kimi özünü göstərmişdi.**

**Kari Marks - alman ensiklopedist mütəfəkkiridir, insanların mərkəzdən idarə olunan dövlət tipli iqtisadiyyata söykənərək istehsal vasitələri üzərində xüsusi mülkiyyətin olmadığı cəmiyyət qurmaq cəhdi onun adı ilə bağlıdır. K.Marksm əsas əsəri onu dünyanın ən böyük iqtisadçılarından biri edən ^KapitaUdır (1867). F.Engels «KapitaUı fəhlə sinfinin «incili» adlandırmışdı. Dilinin mürəkkəbliyinə və nəzəriyyənin bəzi müddəalarının real həyata uyğun gəlməməsinə baxmayaraq (bu məqamları hələ F.Engels göstərmişdi) bu əsəri iqtisadi fikrin şah əsərlərinə aid etmək olar. Ən əsası odur ki, K.Marks ictimai-iqtisadi formasiyalar, onları təşkil edən elementlər, formasiyaların dəyişilmə səbəbləri haqqında təlimi yaratmış; kapitalizmin inkişaf qanunlarını açmış, onun özünün hərəkətinin daxili mənbəyini - ziddiyyətləri, kapitalizmin bir formasiya kimi tarixən keçici xarakterli olmasını aşkar etmiş; təkrar istehsalı və iqtisadi böhranlar nəzəriyyəsini işləmiş, istehsal qiymətlərini tədqiq etmiş, əmtəədə- təcəssüm edən**

**əmtəənin ziddiyyətləri haqqında təlimi, izafi dəyər haqqında təlimi yaratmış; dəyərin formalarının təkamülünün orijinal təhlilini vermiş; mütləq rentanın mahiyyətini, muzdlu əməyin mahiyyətini açmış; kapitalist istismarının ümumi səciyyəsini vermişdir.**

**Ayrılıqda götürülmüş ölkələrdə sosialist cəmiyyətini qurmaq cəhdi marksizmin əsas ideyalarının doqmatik istifadəsi olmaqla, öz zəmanəsinin böyük təliminə çox pis xidmət etmiş oldu. Marksizmin mühüm çatışmazlıqlarından biri də odur ki, burada əsas diqqət siniflərin antaqonizminə yönəldilmiş, cəmiyyətin çiçəklənməsi üçün praktik tövsiyələr isə arxa planda qalmışdır.**

**Marksın əsərlərində əksini tapmış ideyaların məşhur Qərb iqtiadçıları arasında davamçıları var. Eyni zamanda, marksizm tənqid olunurdu və hazırda da ən ciddi tənqidə məruz qalır.**

**1899-cu ildə marksizmin tənqidi ilə Eduard Bernşteyn (1850-1932) çıxış etdi. «Sosializmin zəminləri və sosial-demokratiyanın vəzifələri» əsərində o, marksizm haqqında fikirlərini açıqlamış, «iqtisadi dəyər» məfhumunun faydalılıq və istehsal xərclərinin cəmi kimi izahını vermiş; K.Mark- sın izafi dəyər konsepsiyasını fərziyyəyə əsaslanan mücərrəd formul elan etmişdi; o, qeyd edirdi ki, Marksa görə, iqtisadi qanunların obyektivliyi fatalizm doğurur; əhalinin həyat şəraitinin yüksəlməsinə səbəb olan, mülkiyyətin səhmdar formasını kapitalın demokratikləşdirilməsi hesab edirdi; proletariatın mütləq və nisbi yoxsullaşmasını inkar edirdi.**

**XIX əsrin ikinci yarısında marjinalizm nəzəriyyəsi formalaşdı. Həmin nəzəriyyənin klassikləri Avstriya iqtisadi məktəbinin nümayəndələri Kari Menger (1840-1921), Frid- rix fon Vizer (1851-1926), Eygen fon Bem-Baverk (1851- 1914), həmçinin ingilis iqtisadçısı Uilyam Stenli Cevons (1835-1882) idi.**

**Marjinalizm (ingilis sözü marginal - «son hədd») - bu, iqtisadiyyatı qarşılıqlı əlaqədə olan təsərrüfat subyektlərinin**

**sistemi hesab edən və iqtisadi proses və hadisələri yeni ideyadan - hadisənin mahiyyətini deyil, onlarda başqa hadisələrin dəyişməsi ilə əlaqədar baş verən dəyişiklikləri səciyyələndirən son hədd (max və ya min), sərhəd kəmiyyətləri və vəziyyətlərindən çıxış edərək izah edən nəzəriyyədir. Məsələn, son hədd faydalılığı nəzəriyyəsi məhsulların istehlakının səmərəliliyi ilə bağlı qiymət əmələgəlmənin aspektlərini tədqiq edir və qiymətləndirilən əmtəə (xərc konsepsiyasından fərqli olaraq) vahidi əlavə edildikdə tələbatın ödənilməsinin nə qədər dəyişiləcəyini göstərir. Marjinalizmin əsas kateqoriyaları: son hədd faydalılığı, son hədd məhsuldarlığı, son hədd xərcləri və s. Nəzəriyyə subyektiv qiymətləndirmə əsasında istehsal xərclərini, tələb, təklif və qiyməti izah edir. Marjinalizm kəmiyyət təhlilinə istinad edir və iqtisadi-riyazi metod və modellərdən istifadə edir.**

**Riyazi məktəbin ən məşhur nəzəriyyəçilərindən biri (İsveçrə iqtisadçısı Leon Valrasdır (1834-1910). O, əsasında tələb və təklifin təhlili və bir sıra sistem tənlikləri dayanan ümumi iqtisadi tarazlıq modelini işləyib hazırlamışdır.**

**Bu iqtisadi məktəbin tərəfdarları bazar iqtisadiyyatını tələb və təklif əsasında tarazlığa nail olmağa qabilolma imkanlarına malik sistem kimi nəzərdən keçirirdilər. Riyaziyyatçı iqtisadçıların fikrincə, bazar sisteminin tərkib hissələri ara vermədən özünün optimal mövcudluğuna, yəni iqtisadi uğura can atan rasional subyektlərdir.**

### *§3. Üçüncü minilUyin 9vv9lində iqtisadi fikrin asas istiqamatlari*

**Müasir iqtisadi nəzəriyyələrə bir qayda olaraq XIX əsrin sonunda və XX əsrin əvvəllərində yaradılmışları aid edirlər. Onlarda müxtəlif mövqe, baxış, konsepsiyalar təmsil olunub.**

**Müasir iqtisadi fikrin əsas istiqamətlərinə aşağıdakılar aiddir:**

- ***neoklassik;***

■ ***keynçilik:***

m ***institusional-sosioloji.***

**Neoklassik istiqamət K.Marksın iqtisadi nəzəriyyəsinə cavab, onun tənqidi qavranılması kimi yaranmışdır. O, XX əsrin 30-cu illərinə qədər üstünlük təşkil edib və azad rəqabətə əsaslanıb. Böhran və böyük durğunluq azad rəqabət yolu ilə ziddiyyətləri aradan qaldırmağın, cəmiyyətin bütün ictimai-iqtisadi problemlərini həll etməyin mümkün olmadığını göstərdi və nəticədə yeni iqtisadi təlim - dövlətin iqtisadiyyata ciddi müdaxiləsini tələb edən keynçilik meydana gəldi. 70-80-ci illərdə dövlətin iqtisadij^rata hədsiz müdaxiləsi ictimai istehsalın inkişafını ləngitməyə başlayanda neoklassik təlim yenidən aktuallıq kəsb etdi və indi də aktuallığını saxlayır. Qərb iqtisadi ədəbiyyatında bu istiqamət “yeni klassik ekonomiks” adı almışdır.**

**“Gkonomiks*’ adı altında məlum olan müasir siyasi iqtisadın əsasında marjinal iqtisadi nəzəriyyə durur və o, klassik siyasi iqtisadla marjinalizmi sintez etmək cəhdindən ibarətdir.**

**Mqtisadi nəzəriyyənin neoklassik istiqaməti öz əksini əsasən ingilis iqtisadçısı Ä.Marşallın əsərlərində tapıb.**

**Alfred Marşall (1842-1924) qiymət nəzəriyyəsinin banisi kimi məşhurdur. Onun şagirdi C.Keyns Marşallı XIX əsrin ən böyük iqtisadçısı adlandırmışdı. Son hədd faydalılığı nəzəriyyəsini istehsal xərcləri nəzəriyyəsi ilə birləşdirməyə cəhd edərək o, bu qənaətə gəlir ki, qiymətin müəyyənləşməsində nə tələb, nə də təklif üstünlük təşkil etmir, bunlar bazar qiymət əmələgəlmə mexanizminin bərabərhüquqlu elementləridir. A.Marşall bazar bərabərhüquqluluğu anlayışından tələb və təklifin balansını səciyyələndirmək üçün istifadə etmiş, bazar hadisələrinin izahında bu gün də aktuallığını saxlayan elastik tələb konsepsiyasını işləmişdir.**

**Ä.Marşallın nəzəriyyəsi quruluşunun statikliyi ilə fərqlənirdi ki, bunu da aradan qaldırmağa ilk cəhdi Yozef Şumpe- ter (1883-1950) etdi. O, «İqtisadi inkişaf nəzəriyyəsi^**

**əsərində kapitalizmin inkişafının dinamik modelini yaratdı. Bu işin davamı bazar təsərrüfat sisteminin tsiklli inkişafının nəzəri, tarixi və statistik təhlilinə həsr olunmuş «İqtisadi tsikllər» monoqrafiyası oldu.**

**XX əsrin ikinci yarısının iqtisad elminin neoklassik istiqaməti monetarizm, neoliberalizm, səmərəli gözləmələr və sair nəzəriyyələrlə təmsil olunmuşdur.**

**Monetarizm iqtisadiyyatın pul amilinin əsas rol oynadığı stabilləşdirmə nəzəriyyəsidir. Monetaristlər iqtisadiyyatı idarəetməni hər şeydən öncə pul kütləsi, pulun emissiyası, dövriyyədə və ehtiyatda olan pulun miqdanna dövlət nəzarətində, dövlət büdcəsinin balanslaşdırılmasına nail olmaqda və yüksək bank faizlərinin müəyyənləşdirilməsində görürlər.**

**Amerikalı iqtisadçı alim Milton Fridmen (d.l912) müasir iqtisad elminin ən görkəmli nümayəndələrindən biri, «yeni monetarist məktəbinin» tanınmış rəhbərlərindən biri, 1976- cı ilin iqtisadiyyat üzrə Nobel mükafatı laureatıdır. Onun iqtisadi tövsiyələri A.Pinoçet hakimiyyəti dövründə Çilidə və ABŞ-da R.Reyqanın iqtisadi siyasətində istifadə olunmuşdur. M.Fridmenin «Seçim azadlığım kitabının üz qabığında Reyqan yazmışdı: «Onu Amerikanın gələcəyində maraqlı olan hər kəs oxumalıdır». M.Fridmenin fikrincə, bütün böyük iqtisadi təlatümlər bazar iqtisadiyyatının qeyri-sabitliyi ilə deyil, pul siyasətinin nəticələrilə izah olunur, buna görə də dövlət bazar münasibətlərinə mümkün qədər az və ehtiyatla müdaxilə etməlidir.**

**Rusiyada monetarist nəzəriyyəsini Yeqor Qaydarın adı ilə bağlayırlar.**

**Neoliberalizm nəzəriyyəsinə görə dövlətin iqtisadiyyata müdaxiləsini (A.Smitin klassik siyasi iqtisad prinsipi) azaltmaq (minimuma endirmək) lazımdır, çünki özəl sahibkarlıq iqtisadiyyatı böhrandan çıxartmağa və onu dirçəltməyə və əhalinin rifah halını yaxşılaşdırmağa qabildir. Buradan da sahibkarlara və ticarətçilərə təsərrüfat fəaliyyətində mümkün**

**XX əsr İqtisadi liberalizm konsepsiyasının əsas nəzəriyyəçiləri Avstriya mənşəli Amerika iqtisadçısı Lüdviq fon Mi- zes (1881-1973) və onun görkəmli şagirdi Fridrix fon Hayekdir (1899-1992).**

**AFR dövlət və siyasi xadimi Lüdviq Erxard (1897-1977) neoliberalizm nəzəriyyəsinə istinadən özünün sosial yönüm- lü bazar iqtisadiyyatı nəzəriyyəsini yaratmış və onu təcrübədə həyata keçirmişdir. Bu nəzəriyyənin əsas müddəaları: sərbəst qiymətlərin, azad rəqabətin zəruriliyi, tələb və təkliflərin tarazlığı, iqtisadiyyatın tarazlığı. Dövlət bazar təsərrüfatında bu şərtləri təmin etməli və onun inkişafının ictimai yönümünü təmin etməlidir. Bu nəzəriyyə öz əksini 1956-cı ildə çap olunmuş "Hamı üçün rifah» kitabında tapmışdır.**

**İqtisadi nəzəriyyənin əsası lord Con Meynard Keyns (1883-1946) tərəfindən qoyulmuş keynsçilik istiqaməti nağd və ya nağdsız pul kütləsinin dəyişdirilməsi vasitəsilə tələbin artırılması və ya azaldılması yolu ilə inkişaf etmiş bazar iqtisadiyyatının dövlət tənzimlənməsinin vacibliyini əsaslandırmaq vəzifəsini yerinə yetirir. Belə tənzimləmənin köməkliyi ilə inflyasiyaya, məşğulluğa təsir etmək, əmtəəyə tələb və təklifdəki qeyri-bərabərliyi aradan qaldırmaq, iqtisadi böhranların qarşısını almaq olar. C.Keyns XX əsrin birinci yarısının iqtisadiyyatı və siyasətinin inkişafına bir sıra yeni ideyalar gətirmişdir. C.Keynsin ictimai fikrə təsiri A.Smit və K.Marksdan sonra ən güclü oldu. Onun ən mühüm əsəri olan "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi" kitabında (1936) iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin nəzəriyyəsi və proqramı verilib. Bu nəzəriyyə sağ sosialist ədəbiyyatında geniş yayılmış və özünə çoxsaylı tərəfdar tapmaqla (U.Beveric, S.Harris, A.Hansen, R.Har- rod, C.Robinson, A.Lerner və b.) bir sıra Qərb ölkəsinin iqtisadi siyasətinə ciddi təsir etmişdi.**

**C.Keyns böhran və istehsalın yüksək səviyyədə ictimai- ləşdirilməsi şəraitində təkrar istehsal qanunauyğunluqlarının kəmiyyət funksional aspektlərini tədqiq etmişdi ki,**

**dövlət tənzimlənməsinin köməyilə iqtisadiyyatın fasiləsiz fəaliyyətdə olmasını təmin etmək mümkün olsun. O, məcmu göstəricilərinin: milli gəlir, investisiyalar, istehlak, yığım və s. qarşılıqlı asılılığının makroiqtisadi təhlilini (mikroiq- tisadi yanaşmadan fərqli olaraq) verdi. C.Keynsi "kapitalizmin xilaskarı", onun nəzəriyyəsini isə "siyasi iqtisadda keynçilik inqilabı" adlandırmışlar. Bununla belə Keyns bir sıra nəzəri müddəalarını A.Smit və D.Rikardonun klassik siyasi iqtisadından və K.Marksın iqtisadi nəzəriyyəsindən (məsələn, təkrar istehsal nəzəriyyəsindən) almışdır ki, bu da keynsçiliklə marksizm arasında "körpü salmağın" mümkünlüyünü söyləməyə əsas vermişdi. Keynsə görə, əsas problem bazarın tutumu, tərkib hissəsi multiplikator konsepsiyası olan səmərəli tələb prinsipi, ümumi məşğulluq nəzəriyyəsi, kapitalın və faiz normasının səmərəlilik həddidir.**

**Coan Robinson (1903-1983), Alvin Hansen (1887-1975), K.Kurixara və Nobel mükafatı laureatı L.Kleynin də aid olduqları neokeynsçilər qeyri-stasionarlıq amillərinin, iqtisadi proseslərin dinamikasının daha dolğun nəzərə alınmasının zəruriliyindən çıxış edirlər. Onlar inhisarların üstünlüyünün əleyhinə çıxır, fermerlərin, ziyalıların, qulluqçu və fəhlələrin maraqlarını müdafiə edirlər. Onlar qeyri-təkmil rəqabət nəzəriyyəsinin, "quraşdırılmış tənzimləyicilər" sisteminin və s. banisidirlər.**

**Müasir iqtisadi nəzəriyyənin üçüncü istiqaməti - əsas nümayəndələri T.Veblen (1857-1929), C.Kommons (1862-1946), U.Mitçell (1874-1948) və C.Helbreyt (d.l908) olan institusional-sosioloji istiqamətdir. Konsepsiyanın adı latın sözü institutum - qurma, qurum, qurğu - sözündəndir. Onun bütün tərəfdarları iqtisadiyyatı təsərrüfatçı subyektlər arasında münasibətlərin iqtisadi və iqtisadiyyatdan kənar amillərin təsiri altında formalaşdığı sistem kimi nəzərdən keçirirlər. Bu amillər arasında isə texniki-iqtisadi amillərin müstəsna yeri var. «lnstitut» anlayışı çox geniş: bu həm dövlət, şirkət, həmkarlar ittifaqı, həm rəqabət, inhisar, ver**

**gilər, həm sabit təfəkkür növü, həm də hüquqi normalar kimi başa düşülür, iqtisadi nəzəriyyənin bu istiqamətində kapitalizmin çatışmazlıqları qeyd olunur; inhisarların üstünlüyü, azad bazar mühitinin qüsurları, iqtisadiyyatın artan hərbiləşdirilməsi, «istehlak cəmiyyətinin* ayrı-ayrı mənfi cizgiləri (mənəviyyatsızlıq və s.). iqtisadi nəzəriyyənin bu istiqaməti ictimai-psixoloji institusionalizm (T.Veblen), hüquqi münasibətləri iqtisadi inkişafın əsası elan edən ictimai- hüquqi institusionalizm (Con R.Kommons), iqtisadiyyatda kəmiyyət dəyişmələrini proqnozlaşdırma metodlarını hazırlamış bazarşünaslıq (Uelsi K.Mitçel) kimi müxtəlif modifikasiyalarda təzahür edir.**

**Amerika iqtisadçısı Torsteyn Veblen "Avara sinfin nəzəriyyəsi" (1899) kitabı ilə məşhurlaşdı. Həmin kitabda o, siyasi iqtisadçıların gerçəkliyi sadələşdirmək və insanın davranışını riyazi yolla, düsturların köməkliyilə təsvir etməyin mümkün olmasını söyləmək cəhdlərini rədd etdi. O hesab edirdi ki, cəmiyyətdə yalmz müvəqqəti sabitlik mümkündür. Təkamül nəticəsində varlılar öz vəziyyətlərini maneəsiz yaxşılaşdıracaq, aşağı təbəqələr isə yenə də məhrumiyyətlərə məruz qalacaqlar. Müasir cəmiyyətdə istehlak ictimai statusun yüksəldilməsi vasitəsinə çevrildiyindən ucuz mallardan çox bahalı malların qədər i artacaq. Iş adamlarının qazanc hərisliyi onları rəqabətin aradan qaldırılması, əmtəə istehsalının məhdudlaşdırılması kimi prinsipsizliyə sürükləyir. Veblenin kapitalizmə qarşı çıxışları ona qarşı az qala şəxsi düşmənçilik doğurdu. Sağlığında ona elm aləmində, akademik vəzifələrdə yer yox idi. Veblen mənəvi tənhalığa və səfalət içində ölməyə məhkum idi, lakin onun nəzəriyyələri bu gün də aktualdır. Məşhur iqtisadçıların birinin obrazlı şəkildə dediyi kimi, "Veblen kostyumu yaxşı geyilir və az köhnəlib".**

**Bu yönümdə müasir cəmiyyətin dəyişdirilməsi, transformasiyası problemi müstəsna yer tutur. İnstitusionalizm tərəfdarları hesab edirlər ki, elmi-texniki tərəqqi (ETT) so**

**sial ziddiyyətlərin dəf edilməsinə, cəmiyyətin konfliktsiz ictimai təşəkkülü nəticəsində sənaye cəmiyyətindən postsənaye, supersənaye və ya neosənaye (yəni informasiya) cəmiyyətinə apanr. Texniki-iqtisadi amillərin rolımun mütləqləşdirilməsi konvergensiya nəzəriyyəsinin (C.Helbreyt, Pitirim Sorokin - ABŞ, Raymon Aron - Fransa, Yan Tinbergen - Niderland) yaranmasına təkan verdi.**

**Neokonstitusionalizm texniki amilləri mütləqləşdirmək-dən uzaqlaşmaq, insana, sosial problemlərə daha çox diqqət yetirməklə səciyyələnir. Mülkiyyət hüququ iqtisadi nəzəriyyəsi (Ronald Kouz, ABŞ), ictimai seçim nəzəriyyəsi (Ceyms Byükenen, ABŞ) və başqaları belə yaranmışlar. Bu baxışlar əsasında inkişaf etmiş Ölkələrin iqtisadi siyasəti də dəyişir ki, bunların da nəticələri “kapitalizmin sosiallaşmasından*’ danışmağa əsas verir. Müasir institusionalizmin əsas ideyası yalnız insanın postsənaye cəmiyyətinin əsas iqtisadi resursu kimi rolunun artmasının təsdiqi deyil, həm də postsənaye sisteminin şəxsiyyətin hərtərəfli inkişafına yönümlənməsi qənaətinin əsaslandırılmasıdır ki, bu isə XXI əsrin insan yüzilliyi elan edilməsi deməkdir,**

**tqtisadi təkamül prosesini tədqiq edən qlobalçı iqtisadçılar hesab edirlər ki, təkamül - nəhayət insanın layiq olduğu əsas, həlledici yeri tutacağı yeni sənayeləşməni təmin edən iqtisadi sotseizm kimi müxtəlif iqtisadiyyatların bir deyil (konvergensiya nəzəriyyəsinə uyğun olaraq), müxtəlif sistemlərə qarşılıqlı şərtlənmiş birgə çevrilməsidir.**

**tqtisadi nəzəriyyənin ən mühüm inkişaf mərhələləri aşağıdakı şəkildə verilmişdir (bax:səh. 48).**

**Belə təsnifat iqtisadi nəzəriyyələrin müxtəlifliyini əks etdirməyə və onların kəsişmə və bir-birinə keçmə nöqtələrini qeyd etməyə imkan verir.**




**İqtisadi nəzəriyyənin inkişafının ən mühüm mərhələləri**

## *§4. Rusiya iqtisadi fikri dünya iqtisad elmi xəzinəsinə dəyərli töhfədir*

**Rusiya iqtisadi fikri dünyanın iqtisadi fikir xəzinəsinin xeyli hissəsini təşkil edir.**

**Rusiya iqtisadi fikri ilə tanışlıq göstərir ki, onun bəzi nümayəndələri merkantilist, bəziləri klassik siyasi iqtisadın nümayəndələri olub Rusiya dövlətinin gücünün möhkəmlənməsi və artmasına yönəldilmiş maraqlı əsərlər yazmışlar. Rusiyanın özünün marksistləri də, riyazi və tarixi məktəblərin nümayəndələri də, bunlardan heç də az əhəmiyyətli olmayan iqtisadi nəzəriyyə cərəyanlarının nümayəndələri də olub.**

**Ümumrusiya bazarının və manufakturaların yaranması XVII əsr Rusiyasında iqtisadi fikri oyatmaya bilməzdi. O dövrün Rusiya iqtisadi baxışlarında ən dərin izi A.L.Ordin-Naşşokin və I.T.Posoşkov qoymuşlar.**

**Afanasi Lavrentyeviç Ordin-Naşşokin (1605-1680) - iqtisadçı, dövlət və hərbi xadim, diplomat, Pskovda zadəgan ailəsində doğulub, yaxşı təhsil alıb, latın, alman, polyak, fransız, Moldova və b. dilləri bilirdi, riyaziyyatı, ritorikanı öyrənmişdi. Dövlət xidmətindən uzaqlaşdırıldıqdan sonra Antoni adı altında rahib olmuşdu (1872). Yeddi ildən sonra yenidən diplomatiya işinə cəlb olunub. A.L.Ordin-Naşşokinin iqtisadi görüşləri rus merkantilizminin ilk təzahürləridir. O, xüsusi iqtisadi əsərlər yazmayıb, lakin onun deyimləri, məktubları və çara məlumatları onun gözəl iqtisadçı olduğuna dəlalət edir. O, mülkədar və tacirlərin mərkəzləşdirilmiş dövlətinin tərəfdarı kimi çıxış edirdi; hesab edirdi ki, ölkənin xalq təsərrüfatı vahid tamdır (bu onu diqqətlərini ayrı-ayrı sahələrin inkişafı üzərində cəmləmiş sələflərindən yaxşı tərəfə fərqləndirirdi); Rusiya iqtisadiyyatının inkişaf aləti və xəzinənin doldurulmasının əsas mənbəyi kimi ticarət məsələlərinə çox diqqət yetirirdi; onun redaktəsi ilə Rusiyanın xarici ticarət siyasətinin əsas istiqamətlərini müəyyənləşdirən «Yeni ticarət**

**təşəbbüs və azad sahibkarlıq tərəfdarı idi; metallurgiya, metal emalı, dəri, kağız, şüşə manufakturalarının təşkilində fəal iştirak etmişdi; yüksək inkişaf etmiş dövlətlərin nailiyyətlərini obyektiv qiymətləndirir, həmin ölkələrin təcrübəsindən bəhrələnməyə, lakin onları kor-koranə təqlid etməyə deyil, öz ölkəsinin maraqlarından çıxış edərək, ona tənqidi yanaşmağa çağırırdı.**

**tvan Tixonoviç Posoşkov (1652-1726) - sənətkar ailəsində doğulub, tacir olandan sonra təhfcimli kəndliləri olan malikanə alıb, burada şərab zavodu yaratmışdı, özümütaliə yolu ilə oxumuş, fitri istedadı sayəsində o dövrün görkəmli dünya iqtisadiyyatçılarından olmuşdur. cKasıblıq və sərvət haqqında kitab» (1724) adlı əsas əsərində onun Rusiyanın iqtisadi və siyasi durumunun yaxşılaşdırılmasına yönəlmiş iqtisadi baxışları və islahatlar layihəsi verilmişdir. 1725-ci ildə həbs olunub qalaya salınmış və yarım ildən sonra orada vəfat etmişdi, Merkantilistlərdən fərqli olaraq o, gəlirin ölkə daxilində əldə olunmasını tanıyır, onun həcmini isə əmək məhsuldarlığı və əmək haqqının səviyyəsi ilə əlaqələndirir, fəal ticarət balansını müdafiə edir, onu daxili ticarətin inkişafı ilə bağlayırdı. Faizin səviyyəsi ilə mənfəət arasındakı əlaqəni düzgün müəyyənləşdirmiş, lakin bunun sənətin gəlirliliyindən asılı olaraq qanunvericilik yolu ilə müəyyənləşdirilməli olduğunu hesab etməkdə yanlışlığa yol vermişdi. Həm sənayedə, həm də kənd təsərrüfatında sərvətin mənbəyinin əmək olduğunu hesab edir, bildirirdi ki, işçilər muzd- la, götürə qaydada işləsələr, «işlər daha yaxşı gedər». «Kasıblığam səbəbini sənayenin kifayət dərəcədə inkişaf etməməsində, ticarətin vəziyyətinin qənaətbəxş olmamasında, himayədarlığın zəifliyində görürdü. Rəqabətin faydalılı- ğım dərk edən l.T.Posoşkov yanlış olaraq güman edirdi ki, Rusiyanın inkişafı təhkimçiliyin qalması və təsərrüfat həyatının tənzimləməsiylə mümkündür.**

**XVIIIəsr Rusiya iqtisadi fikri V.N.Tatişşev və M.V.Lo- monosovun əsərlərində təmsil olunmuşdur.**

**Vasili Nikitiç Tatişşev (1686-1750) - tarixçi, coğrafiyaçı, iqtisadçı, filosof, etnoqraf, dilçi, görkəmli dövlət xadimi, topçu, mühəndis, dağ-mədən sənayesi təşkilatçısı olub ki, bunlar da onu son dərəcə istedadlı və ensiklopedik təhsilli adam kimi səciyyələndirir. V.N.Tatişşev «Rusiyanın ən qədim dövrlərdən bəri tarixik, «Tacirlər və sənətlər haqqında təsəvvürləri və iqtisadi, siyasi və fəlsəfi məzmunlu bir çox başqa əsərlərin müəllifidir. Zadəgan maraqları mövqeyindən Pyotr islahatlarını əsaslandırır və müdafiə edir, Rusiyada sənaye, ticarət və tacirliyin inkişafını dəstəkləyir, həmçinin himayədarlıq siyasətinin tərəfdarı kimi çıxış edirdi.**

**Böyük və çoxcəhətli rus alimi, materialist mütəfəkkir, maarifçi Mixail Vasilyeviç Lomonosov (1711-1765) da iqtisad elmində öz sözünü demişdir, öz kəşfləri ilə o, bütün bilik sahələrini zənginləşdirmişdi ki, bu da A.S.Puşkinə onu bizim ilk universitetimiz və yeni dövrün ən böyük dühası adlandırmağa əsas vermişdi. M.V.Lomonosov Rusiyanın müstəqilliyi və azadlığının təmin edilməsini ölkə istehsalının hərtərəfli inkişafı, ölkənin təbii sərvətlərinin işlənilməsi, sənayenin səmərəli yerləşdirilməsi, yolların salınması, maşınların hazırlanması və tətbiqi, əhaliyə «sənət işlərinin» öyrədilməsi, ticarətin ölkə sərvətinin ən mühüm amili kimi inkişafı ilə bağlayırdı. Milli istehsalı gömrük tarifləri vasitəsilə xarici rəqabətdən qorumağı tələb edirdi. Dövləti iqtisadi inkişafın rəhbər qüvvəsi kimi nəzərdən keçirir və onun təhkimçiliyin saxlanılması ilə xalqın rifahının yüksəldilməsi məqsədilə ölkənin iqtisadi həyatına fəal müdaxilə fikri ilə çıxış edirdi.**

**XIX-XX əsrlərin klassik iqtisadi məktəbinin rus nümayəndələri kimi o dövrün görkəmli iqtisadçısı Nikolay Sem- yonoviç Mordvinovu (1754-1845) və məşhur dÖvlət xadimi Mixail Mixayloviç Speranskini (1772-1839) göstərmək olar.**

**N.S.Mordvinov - dövlət və ictimai xadim, Azad iqtisadi cəmiyyətin prezidenti, admiral, dəniz naziri, qraf. Ali cinayət məhkəməsinin dekabristlərə ölüm hökmünü imzalamaqdan**

**sənayenin yaradılması, onun güclü aqrar-sənaye ölkəsinə çevrilməsi, zadəganhgın iqtisadi rolunun gücləndirilməsi, sənayedə təhkimlilərin məcburi əməyinin tətbiqi, Rusiyada sənaye himayədarlığının tərəfdarı idi. Sonuncu N.S.Mordvinovun baxışlarını Adam Smit təlimindən fərqləndirirdi. Onun geniş iqtisadi proqramı bütünlüklə Rusiyada kapitalizmin inkişafına yol açmaq demək idi. Mordvinov 1830-1840- cı illərin pul islahatını hazırlamış, Rusiya pul vahidinin devalvasiyasının zəruriliyini nəzəri cəhətdən sübut etmişdi.**

**M.M.Speranski - dövlət xadimi, qraf, pul tədavülü, kredit və büdcə, vergi siyasəti, məhkəmə və dövlət idarələrinin quruluşu sahəsində bir neçə dövlət islahatlarının müəllifidir. M. M. Speranskinin iqtisadi görüşlərinin təkamülü liberalizmdən mühafizəkarlığa keçidlə səciyyələnir.**

**XIX əsrin birinci yarısında rus iqtisadi fikri tarixində fiziokratların, merkantilistlərin, A.Smit, D.Rikardo və müasirləri olan başqa iqtisadçıların əsərləri ilə yaxından tanış olan dekabristlərin əsərləri mühüm yer tutur. P.l.Pestel (1793-1826), N.A.Bestujev (1791-1855), N.l.Turgenev (1789-1871) iqtisadi azadlıq prinsipini tamamilə düzgün olaraq dövlətin təsərrüfat həyatına qarışmaması prinsipi kimi şərh edirdilər ki, bunun üçün də təhfcimçiliyin və istibdad üsul-idarəsinin məhv edilməsi lazım idi. Onlar kapitalizmə hamını rifah və xoşbəxtliklə təmin edəcək ideal quruluş kimi inanırdılar. Dekabristlərin iqtisadi görüşləri ən dolğun N. İ.Turgenevin cVergilər nəzəriyyəsi təcrübəsik (1818) və P.İ.Pestelin «Rus həqiqətik (1824) əsərlərində əks olunmuşdur. Birinci əsər maliyyə nəzəriyyəsinə, dövlət vergi sisteminə, A.Smit təliminin yayımlanmasına dəyərli töhfə vermişdir. İkinci, əsərdə dekabristlərin mübarizəsinin siyasi və iqtisadi məqsədləri ümumiləşdirilmişdir.**

**XIX əsrin ikinci yarısında Qərbdə kapitalizmin ziddiyyətləri aşkar görünməyə başladı, buna gÖrə də Rusiyada təhkim- çilik əleyhdarları kapitalizmə deyil, sosializmə**

**lari Rusiyada «kəndli sosializmi» ideyası şəklində özünəməxsus əksini tapmışdı ki, bunun da ən parlaq ifadəçiləri rus inqilabi-demokratiyasının görkəmli nümayəndələri A.l.Gertsen (1812-1870) və N.P.Oqaryov (1813-1877) idilər. İqtisadi nəzəriyyəyə dair ən dəyərli əsərləri A.I.Gertsenin cXaç suyuna salınmış mülkiyyəti (1859), «Köhnə yoldaşam (1869) və N.P.Oqaryovun «Yeni kəndli qanununun təhlilii (1861), *Ümumi məsələ haqqında şəxsi məktublar» (1866), «lndi və gözləmələri (1867), «Birgə sıxlaşaqlidır (1870). Onların kəndliləri əməyə qeyri-iqtisadi məcburetmə sistemini açan ilkin iqtisadi ideyası təhkimçiliyin tənqididir. Əmtəə-pul münasibətlərinin artan inkişafının təsiri altında təhkimçiliyin böhranına onlar birinci diqqət yetirmişlər. Aqrar proqramda onlar kəndlilərin torpaqla birgə azad edilməsini tələb edirdilər.**

**A.l.Gertsen və N.P.Oqaryov yalnız təhkimçiliyi deyil, həm də klassik siyasi iqtisadla birgə kapitalizmi də inkar edirdilər. Onlar kapitalizmi feodalizmdən yalnız istismar metodları və forması ilə fərqlənən sistem kimi nəzərdən keçirirdilər. «Kəndli sosializmik nəzəriyyəsinin əsas müddəası kimi onlar icmanın (kcmmuna) yeni cəmiyyətin təməl daşı kimi tanınmasını irəli sürürdülər. Bu, həqiqətən də Rusiyanın xüsusi, qeyri-kapitalist inkişaf yolunun ideal imkanı idi.**

**Anti-təhkimçilik ideyası sonrakı inkişafını N.Q.Çernışevski (1828-1889) yaradıcılığında tapmışdı. O, marksaqədərki klassik siyasi iqtisadın tənqidçisi kimi iqtisadi elmə böyük töhfə vermişdir ki, bu da ona «zəhmətkeşlər nəzəriyyəsi» adlandırdığı yeni siyasi iqtisadın yaradılmasının zəruriliyi haqqında nəticəyə gəlməyə imkan vermişdi. Siyasi iqtisadın predmetini o, sərvətin özündə deyil, əməyin nəticələrinin mənimsənilməsinə görə müəyyənləşən sinfi münasibətlərdə görürdü. O yazırdı ki, əvvəlki nəzəriyyə hər şeyin əməklə istehsal olunduğunu söyləyir, yeni nəzəriyyə isə əlavə edir: buna görə də hər şey əməyə məxsus olmalıdır.**

**N.Q.Çermşevski K.Marks təliminə daha çox yaxınlaşır.**

**Rusiyada marksist ideyalar beynəlxalq və rus anarxizminin banisi M.A.Bakunin (1814-1876), nəzəriyyəçi-iqtisadçı və filosof G.V.Plexanov (1856-1918), peşəkar inqilabçı və Sovet hökumətinin (SSRİ) yaradıcısı V.t.Lenin (Ulyanov) (1870-1924) tərəfindən dərindən qəbul edilmişdi.**

**Mixail Aleksandroviç Bakunin ali təhsilini Peterburq topçu məktəbində alıb, 1835-ci ilə qədər hərbçi olub, inqilabçıdır, Fransa, İspaniya, İtaliyada inqilabi hərəkatların iştirakçısı olub, 1848-ci il Praqa üsyanının başçılarından biridir, Sakson, sonra Avstriya məhkəmələri tərəfindən ölümə məhkum edilib, lakin ölüm ömürlük həbs cəzası ilə əvəz olunub, Rusiya hökuməti tərəfindən isə bütün hüquqlarından məhrum edilərək sürgün edilib. Təhkimçiliyə və Rusiya iqtisadiyyatının inkişafını ləngidən çar mütləqiyyətinə qarşı çıxış edərək o, kapitalizmi, sinfi təmərküzləşməni tənqid edir, azadlıq və bərabərlik haqqında burjua şüarlarını ifşa edir, sonuncuları əslində «seçilmişlərin üstünlüyündən başqa bir şey olmayan» əbədi yalan adlandırırdı. Çar mütləqiyyətinə və kapitalist hökumətlərinə nifrətini ümumiyyətlə dövlətə yönümləyərək, M.A.Bakunin hesab edirdi ki, istənilən hakimiyyət xalqın istismarını doğurur. Buna görə də, o, dövlət hakimiyyəti əleyhinə və azad federasiya, özünüidarə, şəxsiyyətin tam azadlığı lehinə çıxış edirdi. Bakunin yanlış olaraq hesab edirdi ki, qeyri-bərabərliyi vərəsəlik hüququnu ləğv etməklə aradan qaldırmaq olar. Onun «Dövlət və anarxiyam əsərində Fransa, İtaliya, İspaniya və bəzi Latın Amerikası dövlətlərində yayılmış bakunizmin əsas ideyaları verilmişdir.**

**Georgi Valentinoviç Plexanov (təxəllüsü N.Beltov və s.) — iqtisadçı, filosof, sosioloq, marksizm nəzəriyyəçisi və təbliğatçısı, aztorpaqlı zadəgan ailəsində doğulub, Voronej şəhərində gimnaziyanı bitirib, Peterburqda Dağ institutunda oxuyub. Əvvəlcə xalqçı olub, «icma sosializminəzəriyyəsini müdafiə edib, bakunizmin ayrı-ayrı müddəalarını dəstəklə**

**yib, XIX əsrin 80-ci illərinin əvvəllərində tədricən marksizm mövqeyinə keçərək ilk rus marksist təşkilatı - «Əməyin azad edilməsi»ni yaradıb. Mühacirətdə çox yaşayıb, 1917-ci ilin fevralında Rusiyaya qayıdıb. Onun əsərləri sosialist hərəkatının obyektiv zəminlərinin, Rusiyada və Qərbdə inkişafın vəzifələri və perspektivlərinin axtarışları ilə səciyyələnir. 1903-cü ildə menşeviklərin lideri olub, Rusiyada Leninin sosialist inqilabı kursu əleyhinə çıxış edib. O, 1917-ci il Oktyabr inqilabını qəbul etməyib, hərçənd əksinqilabı dəstəkləməkdən də qəti imtina edib. Siyasi iqtisad məsələlərində əsasən marksist mövqedə dayanıb, siyasi iqtisadın predmeti, kapitalist istismarının mahiyyəti, dəyər kateqoriyasının tarixən keçici xarakteri, onun modifikasiya şərtləri, kapitalizmin mahiyyəti, məqsədləri, iqtisadi böhranların, ifrat istehsalın səbəbləri və s. kimi bir sıra nəzəri müddəaların əsaslandırılması və dərinləşdirilməsi sahəsində çox işlər görüb. Bir çox əsərləri xalqçılığın, berşteianlığın, struvizmin tənqidinə, elmi sosializm nəzəriyyəsinin əsaslandırılmasına həsr olunub.**

**Vladimir İliç Lenin demokrat pedaqoq l.N.Ulyanovun ailəsində doğulub. Ardıcıl marksistdir. Lenin marksizmin bütün tərkib hissələrini — fəlsəfəni, siyasi iqtisadı və elmi kommunizmi inkişaf etdirib. Leninin XIX əsrin 90-cı illərindəki əsərlərinin çoxu marksizmin iqtisadi nəzəriyyəsinə, Ru- siyamn iqtisadiyyatı məsələlərinə həsr olunub. Siyasi iqtisad sahəsində Leninin əsas xidmətləri aşağıdakılardır: K.Mark- sın iqtisadi nəzəriyyəsini yeni tarixi dövrə tətbiq edərək onun davamı və inkişafı kimi imperializm nəzəriyyəsini, kapitalizmin kənd təsərrüfatında inkişafı növləri haqqında təlim yaratmış, K.Marksın təkrar istehsal haqqında, torpaq rentası haqqında nəzəriyyələrini, sosializmin siyasi iqtisadının mövcudluğunun zəruriliyi barədə marksist ideyaları inkişaf etdirmiş, sosialist iqtisadiyyatının qurulması yolları - sənayeləşdirmə, kəndlilərin kooperativləşdirilməsi və mədəni inqilab məsələlərini, yeni iqtisadi siyasət haqqında**

**təlim, sosializmdə əməyin təşkili və əmək haqqının ödənilməsi məsələlərini işləmiş, tələbatların artması qanununu formalaşdırmışdır.**

**Rusiya iqtisadi fikrinin inkişafına və iqtisadiyyatın islahatlaşdırılması praktikasına ölkənin sənayeləşməsinin geniş proqramını (sonradan sosializmə doğru hərəkət planında V.l.Lenin tərəfindən bütövlüklə təkrarlanmışdı) yaratmış qraf, maliyyə naziri S.Y.Vitte (1849-1915), bir də 1907- 1911-ci illər aqrar islahatının ilhamvericisi Rusiya imperiyasının baş naziri və və daxili işlər naziri P.A.Stolıpin (1862-1911) əhəmiyyətli töhfə vermişlər.**

**XX əsrin əvvəli Rusiya iqtisad elmində ensiklopedist alim M. t.Tuqan-Baranovski (1865-1919), iqtisadi tsikllər («uzun dalğalara) nəzəriyyəsini işləmiş N.D.Kondratyev (1892- 1938), 1922-1924-cü illər pul islahatını həyata keçirmiş sovet dövrü dövlət xadimi Q.Y.Sokolnikov (1888-1939), siyasətçi, alim, nəzəriyyəçi iqtisadçı N.t.Buxarin (1888-1938), Rusiya iqtisadi fikrində təşkilati-istehsal istiqamətinin nümayəndəsi və ailə-kəndli təsərrüfatının nəzəriyyəçisi A.V.Ça- yanov (1888-1937) dərin iz qoymuşlar.**

**Bütün XX əsr ölkə iqtisadi fikrinin faciəsi ondadır ki, 1917-ci ilin oktyabrında hakimiyyətə gələn rejim bircə onilliyə ictimai-iqtisadi fikrin qaymaqlarını tamam məhv etmişdi. Görkəmli iqtisadçıların bir qismi, məsələn, V.Baza- rov, N.Kondratyev, A.Çayanov, L.Yurovski, N.Buxarin və başqaları, «xalq düşməni* elan edilərək fiziki cəhətdən məhv edilmişlər. Eyni dərəcədə istedadlı alimlər - S.Bulqakov, N. Zavonkin, P.Sorokin, B.Bruşkus və başqaları XX əsrin 20-ci illərinin əvvəllərində artıq zorla ölkədən çıxarılmışdılar.**

**Vladimir Aleksandroviç Bazarov - (1874-1939) (təxəllüsü, əsl soy adı Rudnev) - görkəmli rus alimi, iqtisadçı, filosof, riyaziyyatçı, publisist, sosial (K.Marksın «Kapital*ı) və bədii ədəbiyyatın gözəl tərcüməçisi olmuşdur. Sosialist və necə deyərlər, yazan marksist olan V.Bazarov hesab edirdi ki. Qərb alimlərinin əldə etdikləti bir çox ayrı-ayrı nəticələr**

və tədqiqatın bir çox metodik üsulları sovet plan təsərrüfatı xadimlərinin ən ciddi diqqətinə layiqdirlər. V.Bazarovun ən mühüm əsərləri: «Təsərrüfat planı məsələsinə dair» (1924), «Kapitalist və sovet təsərrüfatının inkişaf əyriləri» (1926), «Kapitalistik tsikllər və SSRİ-də təsərrüfatın bərpası prose- si» (1927), oPerspektiv planın qurulma prinsipləri* (1928) və b. V.Bazarov qəti olaraq elmin azadlığı lehinə, S.Stru- milinin «nökər elm* konsepsiyasının əleyhinə, Strumilinin məqsədin aliliyi nəzəriyyəsi əleyhinə, birinci beşillik planın modeli əleyhinə çıxış edirdi. Dünya təsərrüfat proseslərinin qarşılıqlı əlaqəsi və tamhğı barədə ümumi müddəadan çıxış edərək o, milli təcridçilik ideyalarına söykənən konsepsiyaları rədd edirdi. V.Bazarov dövlət mülkiyyətinin «heçkiminki- nə» çevrilməsi, ictimai sərvətə laqeyd münasibət, müftəxorluq əhvali-ruhiyyəsi kimi neqativ hadisələrin ilk rüşeymiərini görmüşdü. O, öncədən bildirmişdi ki, «köhnə dünyanın başının üstünü Damokl qılıncı kimi ifrat istehsal böhranı aldırırsa, sovet təsərrüfatının üfüqlərini tez-tez əmtəə aclığı, natamam istehsal böhranı tutqunlaşdırır*.^

Nikolay Dmitriyeviç Kondratyev - ensiklopedik bilikləri siyasi iqtisadçı, statistik, kənd təsərrüfatının təşkili, planlaşdırma, maliyyə sahəsində mütəxəssis olmağa imkan verən rus alimi. Onun əsərləri: “Dünya təsərrüfatı və onun müharibədən əvvəl və sonrakı konyunkturası” (1922), “Dünya çörək bazarı və bizim çörək ixracımızın perspektivləri” (1923), “M.İ.Tuqan-Baranovski” (1924), “SSRİ kənd təsərrüfatının inkişaf perspektivləri” (1924). “İqtisadi konyunkturanın böyük tsiklləri” əsəri Kondratyevə dünya şöhrəti qazandırmışdı. Onun əsərləri ABŞ, İngiltərə, Almaniya, Fransada çap olunmuşdur. Dünya şöhrəti qazansa da o, öz ölkəsində kifayət qədər başa düşülməmiş və qəbul olunmamışdı. 1917-ci il inqilabından sonra o, K.A.Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyasında özü kimi faciəvi taleli A.V.Ça- yanovun rəhbərlik etdiyi kafedranın professoru, eyni zaman

* ÜJiaHOBoe X03HİCTB0. 1926. JSTii6. C.53.

**da MalİЗryə Xalq Komissarlığı nəzdindəki Konyunktura institutunun direktoru olmuşdur. Kondratyev sosializmi iqtisadi cəhətdən həyatakeçirilməz hesab edir, kənd təsərrüfatının "üstünlüyünü" vurğulayır, sənayeləşmə və kollektivləşmənin əleyhinə idi. O, böyük tsikllər nəzəriyyəsinin müəllifi, plan- laşdırmada genetik cərəyanın tərəfdarı idi və buna müvafiq olaraq V.Jeleznov və L.Yurovski ilə birlikdə plan diktaturasına qarşı durur, təsərrüfatçılığın bazar mexanizmini müdafiə edirdi.**

**Aleksandr Vasilyeviç Çayanov - əməkçi kəndli təsərrüfatı və kooperasiyanın görkəmli nəzəriyyəçilərindən biri. Əsas əsərləri: "Əmək təsərrüfatı nəzəriyyəsi üzrə oçerklər" (1912), "Şimal kəndli təsərrüfatının təşkili" (1918), "Kəndli təsərrüfatının büdcəsi" (1915), "Büdcə tədqiqatları. Tarix və metodlar" (1927), "Əkinçi təsərrüfatının optimal ölçüləri" (1922), "Əməkçi kəndli təsərrüfatı iqtsadiyyatı üzrə oçerklər" (1924) və başqaları. Əsərləri ABŞ, İngiltərə, Fransada çap olunub. Çayanov kəndli təsərrüfatının xüsusi qeyri-kapi- talist təbiətini, sabitliyini, həyat qabiliyyətliliyini və onun iri kənd təsərrüfatı istehsalından üstün olmasını sübut edirdi. O, son hədd faydalılıq konsepsiyası əsasında əmək-isteh- lak balansı yaratmışdı. A.V.Çayanov əkinçiliyin tərəqqisinin əsas istiqamətini kooperasiyanın ilkin formalarını hesab edirdi.**

**Leonid Naumoviç Yurovski (1884-1938) - XX əsrin 20- ci illərində Maliyyə Xalq Komissarlığına rəhbərlik etmiş Rusiya iqtisadçısı, professor, həmin dövr sovet hökumətinin pul, valyuta və maliyyə-kredit siyasətinin əsas məsələlərinin işlənilməsində fəal iştirak edib. Ən məşhur əsərləri: "Kağız manat" (1917), "Qiymət nəzəriyyəsinə dair oçerklər" (1919), "Pul islahatına gedən yolda" (1924) və s. Bazar iqtisadiyyatı tərəfdarı olub, sağlam pul sistemini onun normal işləməsinin ilkin şərti hesab edirdi.**

**Aleksandr Aleksandroviç Boqdanov (1873-1928) (təxəllüsü, əsl soy adı Malinovski) - dünya miqyaslı görkəmli rus**

**alimi, iqtisadçı, filosof, təbiətşünas, riyaziyyatçı, həkim, yazıçı. Biliklərinin ensiklopedikliyinə görə o, yalnız İntibah dövrünün nəhəngləri ilə müqayisə oluna bilər. Özünün yaratdığı və rəhbərlik etdiyi qanköçürmə institutunda öz üzərində təcrübə aparmaq nəticəsində ölmüşdür. Ölkə elmi fantastikasının banisidir, gələcək elmİ kəşflər haqqında öncədən xəbər vermişdi. A.Boqdanov elmin ümumi təşkili konsepsiyasını (tektologiya) - sistemlər nəzəriyyəsi və kibernetikanın sələfi - yaratmaqla dövrünü neçə illər qabaqlamışdı. XX əsrin 20- ci illərində MDU-nun siyasi iqtisad professoru idi. Əsərləri: "İqtisadi elmin qısa kursu" (1897-1917) 7 nəşri olub, "Siyasi iqtisada giriş" (1914), Skvortsov-Stepanovla birgə yazdığı "Siyasi iqtisad kursu" (1910-1919), "Elmin ümumi təşkili" (1913-1917).**

**Sergey Nikolayeviç Bulqakov (1871-1944) - rus iqtisadçısı, sosioloqu, filosofu, ədəbi tənqidçisi, ictimai xadimi. Sabiq Moskva Kommersiya İnstitutunda iqtisadi təlimlər tarixindən mühazirə oxuyurdu. Əsərləri: "Kapitalist istehsalında bazarlar haqqında"(1897), "Kapitalist əkinçiliyi" (1900), "Təsərrüfat fəlsəfəsi" (1897). 1918-ci ildə keşiş olub, 1922-ci ildə mühacirətə gedib. Marksizmi tənqid edir, "sabit " xırda kənd təsərrüfatı nəzəriyyəsini təbliğ edir, marksist renta nəzəriyyəsini, istehsalın kənd təsərrüfatında təmərküzləşməsini inkar edirdi. Rusiya və dünya ictimaiyyəti üçün aktual bir çox humanitar problemlərin qoyulması və həllində S.N.Bulqakovun rolu hələ də yetərincə qiymətləndirilməmişdir. Bulqakovun əsərlərində ictimai dəyərlər üstünlük təşkil edir. O bildirirdi ki, Rusiyanın iqtisadi nizamlanması problemləri yalnız məhdud Rusiya geosiyasi məkanının problemləri olmayıb və ola da bilməz, onlar həmişə geniş beynəlxalq əks-səda doğurur. Alimin bu mülahizəsi bizim dövrümüzdə təsdiqlənir.**

**XX əsrin 20-ci illərində SSRİ-də marksizmin mənimsənilməsi iqtisadi nəzəriyyənin əsas problemləri ətrafında bir sıra mübahisələrə çevrildi. Şəxsiyyətə pərəstiş formalaşıb möh**

**kəmləndikcə «böyük mübahisələri kəsilirdi. Onları nüfuza kor-koranə tabeçilik əvəzləyirdi. Qərb iqtisadi fikrinin ən yaxşı nailiyyətlərindən uzaqlaşma və ölkə «qeyri-mark- sistilərinə qarşı repressiyalar nəticəsində marksizmin mənbələrinin süni daraldılması baş verir.**

**Unutmayaq ki, Stalin repressiyalanmn ilk qurbanları iqtisadçılar A.V.Çayanov, N.D.Kondratyev, İ.İ.Rubin, L.N.Yurovski, N.İ.Buxarin, V.A.Bazarov, bir qədər sonra N.A.Voznesenski və bir çox başqaları olmuşlar.**

**İqtisad elmində riyazi metodların işlənilməsi və tətbiqi, kəmiyyət təhlilindən istifadədə rus alimləri öz ənənələrinə söykənərək kifayət qədər çox iş görmüşlər. V.İ.Dmitriyev və Y.Y.Slutski kimi alimlərin nailiyyətləri onlara dünya şöhrəti gətirmişdi. L.N.Yurovskinin "Qiymət nəzəriyyəsinə dair oçerklər"ində" (1919) vurğulanırdı ki, siyasi iqtisad kəmiyyətlərlə işləyir və bu mənada o, riyazi elmdir.**

**1926-cı ildə bu gün də əhəmiyyətini itirməmiş "Siyasi iqtisadda riyazi metod haqqında** məqaləsini çap etdirmiş İ.Q.Blüminin xüsusi rolu var. 1946-cı ildə V.S.Nemçinov sovet iqtisad elminin yeni bölməsinin - plan hesablamaları nəzəriyyəsi kimi müəyyənləşdirdiyi ekonometrikanın yaradılması təklifi ilə çıxış edirdi. 60-cı illərin əvvəllərində iqtisadi-riyazi istiqamət sürətlə inkişaf edirdi, 1963-cü ildə SSRİ EA-nın N.N.Fedorenkonun rəhbərlik etdiyi Mərkəzi İqtisadi-Riyazi İnstitutu (MİRİ) yaradıldı. Hazırda iqtisadi-riyazi metodları hər bir iqtisadçının bilməsi fikri formalaşıb və özünə çoxsaylı tərəfdar qazanıb.**

**İqtisadi modelləmənin inkişafı üçün SSRİ xalq təsərrüfatı planlaşdırılmasının nəzəriyyəsi və praktikası (QOELRO, 1923-1925-ci illər sahələrarası balans, Q.A.Feld- man və başqalarının iqtisadi artım modelləri, L.V.Kantorovi- çin yaratdığı xətti proqramlaşdırma metodundan istifadə) böyük təkan oldu. Bütün bunlar kibernetikanın yaranmasına səbəb oldu. İqtisadiyyatda kibernetika prinsiplərinin tətbiqi 60-cı illərin əvvəllərində iqtisadi kibernetikanın yaranması**

**İlə nəticələndi (V.S.Nemçinov, O.Lanqe, Q.Qranevski və b.)-**

**Sovet dövrünün ən görkəmli iqtisadçıları sırasında L.İ.Abalkin, N.A.Voznesenski, Y.S.Varqa, A.A.Arzumanyan, N.N.İnozemtsev, S.M.Menşikov, Y.V.Pevzner, E.P.Pletnev, N.A.Tsaqalov, Y.S.Şatalin və bir çox başqa alimlərin adlarını çəkmək olar.**

**Rusiya iqtisadiyyatının hazırkı yenidənqurma dövründə Qriqori Yavlinski, Ruslan Xasbulatov, Yeqor Qaydar, Vasili Selyunin, Nikolay Petrakov, Qavriil Popov, Pavel Buniç, Nikolay Şmelyov, Gennadi Lisiçkin və b. iqtisadçılar olduqca populyar olmuşlar.**

**Rusiya mənşəli iqtisadçı alimlər V.Leontyev (d.l906), Saymon S.Kuznets (1901-1985) və sovet riyaziyyatçısı-iqtisadçısı L.V.Kantoroviç iqtisadiyyat üzrə Nobel mükafatı laureatı olmuşlar.**

**Beləliklə, görmək olar ki, Rusiya iqtisadi fikri öz inkişafında bütün bu mərhələləri keçmiş, hətta hərdən bu məktəblərin nəzəriyyəçilərini qabaqlamışdır. Bizim öz merkantilistlərimiz (A.A.Ordin-Naşşokin, İ.T.Posoşkov), klassiklərimiz (N.S. Mordvinov, N.Turgenev, M.M.Speranski, Y.Vitte və b.), so- sialist-utopistlərimiz (A.İ.Gertsen, N.Q.Çernışevski, N.A.Dob- rolyubov), marksistlərimiz (V.Q.Plexanov, M.A.Bakunin, V.l.Lenin), riyazi məktəb nümayəndələrimiz (V.Dmitreyev, Y.Slutski, N.Fedorenko, Q.Şatalin və bir çox başqaları), insti- tusionalistlərimiz (P.Struve, S.Bulqakov, V.Tambovtsev, A.Şustitko, A.Oleynik, R.Nureeyev və b.), bir Nobel mükafatı laureatımız - Leonid Vitalyeviç Kantoroviç olub.**

**Yada salaq ki, İ.T.Posoşkov maddi və qeyri-maddi sərvətləri fərqləndirir və sonuncuya “əsl həqiqəti”, qanunçuluq, hüquqi şəraiti, ölkənin yaxşı idarə olunmasını aid edirdi ki, hazırda bunları iqtisadi nəzəriyyə institutlar adlandırır. Buna görə də İ.T.Posoşkovu rus institusionalizminin sələfi adlandırmaq olar.**

**Fiziokratlar məktəbi Rusiya iqtisad elminə təsir göstərmiş,**

**buna bənzər Azad iqtisad cəmiyyəti yaradılmışdı. XIX əsrin əvvəllərində isə prof.l.Lanq Kenenin başladığ*! sahələrarası balans modelləməsi işini davam etdirmişdi. Təəssüf ki, Lanqın işləri geniş məlum olmamışdır.**

**A.Smit Qlazqo universitetində içərisində iqtisadi problemlər də işıqlandırılan mənəvi fəlsəfə dərsi deyəndə orada təhsil alan iki rus tələbə bilavasitə onunla təmasda olmuşlar. Bu tələbələr sonralar MDU-nun hüquq fakültəsində dərs demiş İvan Tretyakov və Semyon Desnitski idilər.**

**XX əsrin əvvəlində Rusiya universitetlərində ən böyük marjinalistlər Moskvada N.Şapoşnikov, Peterburqda V.Voy-tinski, Kiyevdə A.Bilimoviç, Kazanda V.Zalesski, Odessada R.Orjentski, Saratovda L.Yurovski idi. XX əsrin əvvəlinə rus iqtisad elmi £irtıq «çatmağa cəhd edən» deyildi, o, dünya səviyyəsinə qalxmışdı.**

**XX əsrin əvvəli Rusiya iqtisad elmində ensiklopediyaçı-alim, neoklassik sintezin nümayəndəsi l.l.Tuqan-Baranovski, «uzun dalğalara nəzəriyyəsini yaratmış N.D.Kondratyev, Rusiya iqtisadi fikrində təşkilati-istehsal istiqamətin nümayəndəsi, ailə-kəndli təsərrüfatının nəzəriyyəçisi A.V.Çaya- nov dərin iz qoymuşlar.**

**Sonda qeyd etmək olar ki. Qərb iqtisad nəzəriyyəsindən Özünəməxsusluğu və orijinallığı ilə fərqlənən rus iqtisadi nəzəriyyəsi bizə milli ləyaqət, konkret tarixi şəraiti nəzərə almaqla, Avropa və Amerika nəzəriyyəçilərini kor-koranə təqlid etmədən problemi Özü öyrənmə dərsi verir.**

# III FƏSİL. İQTİSADİ NƏZƏRİYYƏNİN PREDMETİ VƏ METODOLOGİYASI

*§1. Müxtəlif iqtisadi məktəblər iqtisadi nəzəriyyənin predmeti haqqında^*
*§2. İqtisadi nəzəriyyənin metodologiyası və onun spesifikliyi. İqtisadi nəzəriyyədə iqtisadiyyatın tədqiqi səviyyələri.*
*§3. İqtisadi kateqoriyalar və qanunlar. Əsas iqtisadi anlayışlar.*

**Ölkəmizdə iqtisadi dünyagörüşün formalaşmasında son vaxtlara qədər aparıcı yeri marksist siyasi iqtisadı tuturdu. Buna görə də iqtisadiyyatın bir elm kimi predmeti birmənalı şərh olunur, başqa baxışlar nəzərə alınmır və ya qeyri-elmi elan edilirdilər. İkinci minilliyin “Bilik qüvvədir” şüarı altında keçdiyi, üçüncü minilliyin isə “Təfəkkür qüdrətdir” şüarı altında keçəcəyi nəzərə alınsa, öz mövqeyini işləyib hazırlamaq üçün müxtəlif baxışların öyrənilməsi məqsədyönlü sayılmalıdır.**

## *§1. Müxtəlif iqtisadi məktəblər iqtisadi nəzəriyyənin predmeti haqqında*

**İqtisadi nəzəriyyə bir elm kimi inkişaf etdikcə nəzəriyyəçi alimlərin onun predmetinə, əsas funksiyasına və əsas praktik və nəzəri nəticələrinə baxışları dəyişirdi.**

**Belə ki, ilk siyasi iqtisad məktəbinin nümayəndələri - ilkin kapital yığımı dövrü ticarətçilərinin maraqlarını əks etdirən merkantilistlərin elmi tədqiqatlarının predmeti milli sərvət idi. Sərvətin mənbəyi ticarət elan olunurdu, sərvətin özü isə əsasən pulla eyniləşdirilirdi. Bu təlimin əsas vəzifəsi əmtəə-pul münasibətlərinin aktivləşdirilməsi, pula tələbatın artması ilə bağlı ölkəyə qızıl və gümüşün cəlb edilməsi hesab edilirdi. Bu təlimin gəldiyi əsas nəticə təsərrüfat həyatında mühüm rol oynayan dövlətin iqtisadi siyasətinə təsirin zəruri olması idi.**

**Fiziokratlar məktəbi siyasi iqtisadın predmetini - milli sərvəti - tədavül sahəsindən istehsal sahəsinə keçirtdi. Bu, iqtisadçıların böyük nailiyyəti idi, baxmayaraq ki onlar yanlış olaraq «sərvət*in mənbəyinin yalnız kənd təsərrüfatı əməyi olduğunu hesab edirdilər. Bununla da elmin praktik funksiyası kənd təsərrüfatında istehsalın həvəsləndirilməsi ilə məhdudlaşdırılırdı, gəlinən əsas nəticə iqtisadiyyatın təbii inkişafının gedişinə dövlətin qarışmasının məhdudlaşdırılmasının zəruriliyi oldu.**

**Klassik ingilis siyasi iqtisad məktəbinin nümayəndələri siyasi iqtisadın predmetini istehsal şərtlərinin və yığımın (A.Smit), həmçinin sənaye, kənd təsərrüfatı, tikinti, meşə təsərrüfatını və s. özündə ehtiva edən maddi istehsalın bütün bölmələrində yaradılan milli sərvətin bölgüsünün (D.Rikardo) tədqiqinə qədər genişləndirdilər.**

**Siyasi iqtisadı milli sərvətin istehsalı, bölgüsü və istehlakı haqqında elm hesab edən ayrı-ayrı müasir Qərb iqtisadçıları da siyasi iqtisadın predmeti haqqında həmin fikirdədir. Lakin milli sərvət məfhumunun dərki iqtisadi fikrin tarixi inkişaf prosesində dəyişkən olmuşdur. Əvvəlcə milli sərvət deyəndə pul, sonralar istehsalın nəticəsi başa düşülürdü, hazırda isə milli sərvətə insanın özü, intellekti və cəmiyyətin sonrakı inkişafının mənbəyi kimi informasiya da daxildir.**

**Klassik siyasi iqtisadın praktik funksiyası milli sərvətin artırılması amillərinin əsaslandırılması (ictimai əmək bölgüsünün dərinləşməsi, istehsalın genişlənməsi, məşğulluğun və əmək məhsuldarlığının artması, cəmiyyətin milli gəlirində dövlət xərcləri payının minimuma endirilməsi və s.) ilə məhdudlaşırdı. Bu təlimdə iqtisadi nəzəriyyənin pozitiv (necə varsa) və normativ (necə olmalıdır) funksiyaları göstərilir. Əldə olunmuş praktik nəticə dövləti bazar proseslərinin təbii gedişinə istənilən şəkildə qarışmaqdan çəkindirməkdir.**

**Marksist siyasi iqtisadının tədqiq predmeti ictimai həyatın təhlilində sinfi yanaşmaya müvafiq olaraq əsasını mülkiyyət münasibətləri təşkil edən istehsal münasibətləridir.**

**Bu, mühüm əhəmiyyət kəsb edirdi, çünki bundan istehsal münasibətləri sistemindən iqtisadi qanunlar, ziddiyyətlər, sinfi münaqişə, proletar diktaturası və inzibati-amirlik təsərrüfat sistemi hökmranlığının zəruriliyi irəli gəlirdi.**

**İstehsal münasibətləri həyat nemətlərinin istehsalı, bölgüsü, mübadilə və istehlakı prosesində insanlar arasında obyektiv yaranan münasibətlərdir.**

**İstehsal münasibətlərinin bu ən ümumi xarakteristikası istehsal münasibətlərinin ictimai istehsalın zəruri hissəsi olduğunu söyləməyə əsas verir. ^İstehsalda insanlar yalnız təbiətlə münasibətə girmirlər. İstehsal etmək üçün insanlar müəyyən əlaqə və münasibətlərə girirlər və yalnız bu ictimai əlaqə və münasibətlər çərçivəsində onların təbiətə münasibəti mövcuddur, istehsal var».^**

**Siyasi iqtisadın (ümumi iqtisadi nəzəriyyənin) predmetinin əməyin yaratdığı ictimai münasibətlərin və əməyin tabe olduğu qanunların olması fikri hələ XVIII əsrdə bir sıra iqtisadçılar, o cümlədən Koklen tərəfindən söylənilmişdi. Bu fikir ən çox XX əsrin əvvəllərində rus iqtisadçıları arasında yayılmışdı. Bu istiqamətdə Q.V.Plexanov çox iş görmüşdü. O, siyasi iqtisadın istehsal münasibətlərinin inkişafı haqqında elm kimi yalnız predmetini müəyyənləşdirməmiş, həm də xeyli dəqiqləşdirmələr aparараq bilavasitə istehsal münasibətlərini (ictimai-iqtisadi, əmlaki münasibətləri, mülkiyyət münasibətlərini) və məhsuldar qüvvələrin ictimai təşkilinə aid olan təşkilati-istehsal münasibətlərini ayırmış, ictimai münasibətlər sisteminin daxili ziddiyyətlərini göstərmişdi.**

**Siyasi iqtisadın predmetinin bir elm kimi belə dərki həmin dövr və sonrakı dövrlərin dərsliklərində də öz əksini tapmışdı. Belə ki, V.Y.Jeleznov «Siyasi iqtisadın oçerkləri »ndə yazırdı ki, siyasi iqtisadın tədqiqat predmeti insanların təsərrüfat fəaliyyətlərinin gedişində yaranan ictimai münasibətləri, yəni maddi vasitələrə olan müxtəlif növ tələ-**

’ MapKC K., Əarejibc COM. 2-e nsfl. T.6. C.441.

**batların ödənilməsinə yönəlmiş səylərdir*. N.l.Buxarin istehsal münasibətlərini ümumi kateqoriya kimi nəzərdən keçirir və onu «ictimai əmək və həmin əməyin məhsulunun bölgüsü prosesində insanlar arasında münasibətlər adlandıraraq bura əməyin texniki təşkilini də əlavə edirdi.**

**Marksizmin praktik funksiyası kapitalizmə üzvi surətdə xas olan çatışmazlıqları və ziddİ37yətləri üzə çıxartmaq, proletariatın Öz məqsədlərinə çatmaq üçün iqtisadi və siyasi mübarizəsinin obyektivliyini əsaslandırmaq zərurəti ilə əlaqədar idi. Bu təlimin praktik nəticəsi kapitalizmin sosializmlə əvəzlənməsi, proletar inqilabının qaçılmazlığı idi.**

**Keçmişin iqtisadi fikrində siyasi iqtisadın xalq təsərrüfatı və ya ictimai təsərrüfat haqqında bir elm kimi anlamı da saxlanılmışdır. Alman iqtisadçıları V.Roşer və K.Bühner insanların xarici təbiətə münasibəti kimi başa düşülən xalq təsərrüfatını siyasi iqtisadın predmeti elan etdilər. A.Boqdanov və t.Stepanov öz dövrlərində qeyd etmişdilər ki, siyasi iqtisada dərsliklərdə verilmiş və onu «ictimai təsərrüfat haqqında elm adlandıran tərif qeyri-dəqiq və qeyri-elmidir», çünki «ictimai təsərrüfat anlayışına bütün*istehsal texnikası da daxildir», sonuncu isə siyasi iqtisadın predmetinə daxil edilmir.^**

**Anarxist knyaz P.A.Kropotkin siyasi iqtisadı təsərrüfat fəaliyyətinin ən səmərəli təşkili haqqında elm və bu elmin məqsədinin «insanlann tələbatlarının və mümkün qədər az qeyri-məhsuldar güc sərf etməklə onların ödənilməsi üsullarının öyrənilməsi»ndən^ ibarət olduğ'unu hesab edirdi. Siyasi iqtisadın predmetinin bu kimi şərhi istehlakın üstünlük təşkil etməsindən danışmağa əsas verir.**

**Marksizmin XX əsrdə inkişafının nəticəsi sosializmin siyasi iqtisadı oldu. Onun predmeti kimi yeni təsərrüfat sis-**

^ **Bax: HCejıesHOB B.H. OnepKH nojiHTHHecKofi** экоетомнн, **C.IO,**
^ **ВухарНН Н.Н. ƏKonoMHKa nepexo;niHoro nepHoaa. M., 1920. C.41-42.**
® **BornaHOB A., CronaHOB H.Курс noOTTHHecKOH** экономнн. **M., 1918, T.l. C.4-5. "**
КропоТКНН **n.A. IloJifl,** (^аöpıncıı **H** МасТерсКНе. **M., 1918. C.6.**

**teminin - sosializmin - istehsal münasibətləri və iqtisadi qanunları elan edildi. Bu təlimin praktik funksiyası inkişaf etmiş sosializmin əsaslandırılmasında, kapitalizmlə iqtisadi yarışda sosializmin qələbəsinin labüdlüyündə idi. Sosializmin siyasi iqtisadı nəzəri səciyyə daşıyırdı və nəticədə nəzəriyyə praktikadan ayrıldı. Əsas praktik nəticə iqtisadiyyatın dövlətin əlində cəmlənməsi, mövcud təsərrüfat sisteminin (bu sistem əslində sosializmin nəzəri modelindən çox-çox uzaq idi) ayrı-ayrı tərəflərinin, hissələrinin təkmilləşdirilməsi, həmin iqtisadiyyatın islahatlar yolu ilə bazar iqtisadiyyatına çevrilməsi oldu.**

**Marjinalistlər siyasi iqtisadın predmetinin fərdlərin və sosial institutların (firma, qrup, insanlar və s.) davranışı, onların öz məqsədlərinə çatma yolları və vasitələrinin təhlili olduğunu bildirirdilər. Praktik funksiya subyektin konkret iqtisadi şəraitdə davranış motivlərini diqqətlə öyrənib izah etmək idi. Əsas praktik nəticə firmanın iqtisadi siyasətinin əsaslandırılmasıdır. Mikroiqtisadiyyätın yaranması bu istiqamətlə bağlıdır.**

**Klassik siyasi iqtisadın və marjinalizmin əsas müddəalarını sintez etməyə cəhd etmiş A. Marşal 1 iqtisadi nəzəriyyənin və ya siyasi iqtisadın predmetini insan cəmiyyətinin normal həyat fəaliyyətinin tədqiqi: sərvətin və qismən insanın, daha doğrusu, fəaliyyətə həvəsləndirmələr və müqavimətə motivlərin tədqiqi kimi təyin etmişdi. Bu kimi tərifdə insanın iqtisadiyyatdakı rolu vurğulanır.**

**Keynsian məktəbinə görə iqtisadi nəzəriyyənin predmeti milli iqtisadiyyatın vahid bir tam kimi fəaliyyət göstərməsi olur. Praktik vəzifə dövlətin iqtisadi siyasətinin hazırlanması hesab olunur. Əsas praktik nəticə əhalinin məcmu tələbinin və özəl sahibkarlığın həvəsləndirilməsinin zəruriliyidir.**

**Mikro- və makroiqtisadiyyatın sintezini həyata keçirmiş Pol Samuelson özünün bütün dünyada məşhur olan «Ekonomiks» dərsliyində iqtisadi nəzəriyyənin (siyasi iqtisadın) çoxsaylı təriflərini verir və göstərir ki, ekonomiks insanla-**

**nn gfindəlik işgüzar həyatı və fəaliyyəti haqqında elmdir.**

**Müasir iqtisadi ədəbiyyatlarda siyasi iqtisadın predmetinin resursların «nadirliyi»ni, məhdudluğunu öyrənən elm olması fikirləri yayılmışdır. Məsələn, C.Robinson yazır ki, siyasi iqtisad məqsəd və tətbiqinin alternativ yolları olan məhdud vasitələrin arasında əlaqələr kimi insanların davranışını tədqiq edən elmdir. P.Samuelsona görə isə o, qoyulmuş məqsədə nail olmaq və ya alternativ üsullarla tətbiqini nəzərdə tutan məhdud istehsal resurslarından istifadə olunması yollan haqqında elmdir. Rusiya iqtisad elmində də iqtisadi nəzəriyyənin əmtəə və xidmətlərin istehsalında məhdud resurslardan istifadə olunması, onların səmərəli bölgüsü və mübadiləsini həyata keçirməklə insanların hüdudsuz tələbatlarını ödəməklə onların bacarıqlarını hərtərəfli inkişaf etdirmək və imkanlarını genişləndirmək haqqında elm kimi təqdim edən təriflər yaranır^.**

**İqtisadi nəzəriyyənin (siyasi iqtisadın) predmeti məfhumunun təriflərinin sacialanmasını davam etdirmək olardı, lakin zənnimizcə, buna ehtiyac yoxdur. P.Samuelsonun fikri ilə razılaşmaq lazım gəlir ki, iqtisadi nəzəriyyənin (siyasi İqtisadın) bir elm kimi bütün tərifləri onun predmetini müxtəlif tərəflərdən səciyyələndirir, çünki insanın həyat fəaliyyətinin müxtəlif aspektlərini götürürlər. Bu elmin predmeti olduqca mürəkkəb və rəngarəngdir, çünki insanın özünün həyat fəaliyyəti, o cümlədən iqtisadi fəaliyyəti, mürəkkəb və rəngarəngdir, bu isə ona qısa və eyni zamanda tam əhatəli tərif verməyə imkan vermir.**

**Ümumi iqtisadi nəzəriyyənin predmetinin insanların və insan qruplarının davranışını öyrənən elm kimi səciyyələndirilməsi istehsal münasibətlərinin tədqiqindən imtina demək deyil. Bu elə həmin istehsal münasibətləridir, lakin burada əsas diqqət münasibətlərin obyektinə (istehsal vasitələri, istehlak nemətləri) deyil, bu münasibətlərin subyektinə - insana yönəldilir. Belə diqqət Rusiyada bütün müasir**

' OcHOBhi эKOHOMH'iecKoil Tcopım H npaKTHKH. Bojurornaı^. 1994

**yenidənqurmaların yönümləndiyi sosial təyinatlı bazar iqtisadiyyatı üçün olduqca vacibdir.**

**iqtisadi nəzəriyyənin əsas xarakteristikalarına baxışların təkamülü cədvəldə verilmişdir (bax: səh. 70).**

**Cədvəldə 10 ən mühüm iqtisadi məktəb göstərilmişdir. Əslində onların sayı daha çox olub; biz utopik-sosialistlər, Avstriya, riyazi və s. məktəblər haqqında heç nə demədik.**

**İqtisadi nəzəriyyənin predmetini öyrənərkən onu daha yaxşı dərk edə bilmək üçün diqqət mərkəzində aşağıdakıların olması daha məqsədəuyğundur; tədqiqat dairəsi - təsərrüfat fəaliyyətinin həyata keçirildiyi iqtisadi həyat və ya mühit; tədqiqat obyekti - iqtisadi hadisələr; tədqiqat subyekti - insan, bir qrup insan, dövlət; tədqiqat predmeti - «iqtisadi adam*ın, bir qrup insanın və dövlətin həyat fəaliyyəti, onların içərisində olduqları iqtisadi mühitlə bağlı iqtisadi davranışları. Bu zaman mütləq qeyd etmək lazımdır ki, iqtisadi nəzəriyyənin əsas vəzifəsi sadəcə olaraq iqtisadi hadisənin təsvirini vermək deyil, onİ£irın qarşılıqlı əlaqəsini və qarşılıqlı şərtlənməsini göstərmək, iqtisadi proses və qanunlar sistemini açıqlamaqdır. Onun konkret iqtisadi fənlərdən fərqi bundadır.**

## Müxtəlif iqtisadi məktəblərin mövqeyindən iqtisadi nəzəriyyənin predmeti, metodologiyası və əsas nəticələri

| Əsas iqtisadi məktəblər | Predmet | Fəlsəfi-metodoloji | | Əsas (nəzəri və praktik) nəticələr |
|---|---|---|---|---|
| | | yanaşma | əsas metodları | |
| l.Merkan - tilizm (siyasi iqtisad) | Milli sərvət | Obyektiv | Tədavülün üstünlüyü. Kauzal metod -I- em- pirika (təcrübə) | 1. Sərvətin mənbəyi - tədavüldür. 2. Dövlətin iqtisadiyyatda olduqca mühüm rolu. Onun iqtisadi siyasətinə təsirin |
| 2.Fiziokr atlar (siyasi iqtisad) | Milli sərvət | | Kənd təsərrüfatı istehsalının üstünlüyü. Kauzal metod. Riyazi təhlil metodlarının ilk tətbiqi cəhdləri | 1. Sərvətin mənbəyi kənd təsərrüfatıdır (təsərrüfat fəaliyyətinin üstün sahəsi). 2. Dövlətin bazar proseslərinin təbü gedişinə müdaxiləsinin məhdudlaşdırıl - masının |

| | | | |
|---|---|---|---|
| **3.Klassik (əsl) siyasi iqtisad** | **Milli sərvət** | **Maddi istehsalın üstünlüyü. Kauzal metod + mü-** | **.Sərvətin mənbəyi maddi istehsaldır ki, bunun da əsasını sənaye (ikinci təsərrüfat fəaliyyəti sahəsi) təşkil edir.<br>2.Bazar azad, əbədi olmalıdır, dövlət inkişafın təbii gedişinə qarışmamalıdır.<br>3.Siyasi iqtisadın** |
| **4.Marksist (proletar) siyasi iqtisadı** | **1stehsa münasibətləri, obyektiv iqtisadi qanunlar** | **Mstehsahn üstünlüyü. Cəmiyyətin sinfi quruluşunu, onun ziddiyyətlərini müəyyənləşdirən istehsalın ictimai tərəfinə əsas diqqət Kauzal metod + mü-cərrədçilik-i-dialektika** | **1.Sərvətin mənbəyi izafi dəyərdir.<br>2.Bazar iqtisa-diyyayatının (kapitalizmin' tarixi keçici xarakteri,<br>3.Proletar inqilabının** |

| | | | | |
|---|---|---|---|---|
| **5. Tarixi məktəb** | **« Millətin istehsal qüwə-ləd»(F,List) ; bura yalnız iqtisadiyyat sahəsi deyil, həm də siyasi sistem, təhsil, elm,** | | **Bütövlük də milli təsərrüfat ın üstünlüyü . Kauzal me toda, mü-cərrədçili-yə qarşı, ilk dəfə funksiona l metodu** | **1. İnqilabi inki-şaf formasından-sa təkamüllü inkişaf forması-na üstünlük ve-rilməsi. 2. Maddi və qey-ri-maddi istehsa-lın qarşılıqlı əlaqəsini nəzərə almamaq olmaz. 3. Hər bir ölkə-nin milli məh-suldar qüvvələri təkrarolunmaz olduğuna görə hər millətin** |
| **ö.Neoklassi k** | **İnsanın, fir-mamn, bir qrup adamm, birliyin (yəni təsərrüfat fəaliyyəti** | **Sub-yektiv yanaşma** | **İqtisadiyyat subyektləri istehlakının üstünlüyü. Metodik inqilab olan marjionaliz-min tətbiqi. Riyazi alətlərdən geniş istifadə olunması** | **1. Get-gedə daha çox tətbiqi xa-rakter alan yeni elmi paradiqmanm -mifcroiqtisa-diyyatm yaradıl-ması. 2.Firmanın iqti-sadi siyasətinin və istehlakçının rasional davra-nışının əsaslan-** |

| | | | |
|---|---|---|---|
| **T.Keynsçi-lik** | **Milli iqtisadiyyatın fəaliyyət** | **Makroiqti-sadiyyatın üstünlüyü, tqtisadi-ri-yazi metodlardan geniş istifadə, modelləşdir** | **1.Yeni elmi pa-radiqmanın - makroiqtisadiy-yatın yaradılması. 2.Dövlətin tənzimləyici rolunun zəruriliyi. 3.Əsas tənzimləmə mexanizmi əhalinin məcmu tələbatının və özəl** |
| **S.Neoklas-sik sintez (müasir ekono-miks). A. Marşalı və P.Sa-muelsonun sözlərinə görə «və ya siyasi iqtisad»** | **Milli sərvət və məhdud resurslar şəraitində insanın davranışının motivləri** | **Əmək-dəyər nəzəriyyəsinin və faydalılıq nəzəriyyəsinin, mikro- və makroiqti-sadiyyatın sintezi. Marjinal tədqiqat** | **İqtisadiyyatın subyektlərinin (ev təsərrüfatı-mn, firmanm, dövlətin, bankların və s.) davranışlarının iqtisadi cəhətdən əsaslandırılmasının zəruriliyi. öz qiymətliliyini təcrübədə təsdiqləmiş klassik siyasi iqtisadın, neoklassikanın, keynsianlığın tövsiyələrindən istifadə edilməsi** |

| | | | |
|---|---|---|---|
| Ə.lnstitu-sionalizm (neoinsti-tualizm və ya yeni iqtisadiyya | Cəmiyyətdə institusio-nal və texniki-iqtis adi dəyişikliklə r, bununla bağlı insanın | İqtisadiyyatın, iqtisadi tarixin, psixologiyanın, sosiologiyanın və digər elmlərin sintezi | 1.Ölkələrin iqti-sadi inkişafında onların institu-sional quruluşlarının xüsusiyyətinin nəzərə ahnmEisı- nın zəruriliyi. 2. tnsanın əsas yer tutduğu qeyri-informasi - ya cəmiyyətinə təkamül yolu ilə keçid. Yeni tarix elminin - kleo-metriyanın yaradılması |
| 10 . iqtisadi nəzəriyyə (XX əsrin sonu- XXI əsrin | | | |

*§2. İqtisadi nəzəriyy9nin metodologiyası və onun spesifikliyi.*
*İqtisadi nəzəriyyədə iqtisadiyyatın tədqiqi səviyyələri*

**İqtisadi problemlərin ciddi tədqiqində metodologiya məsələsi mühüm əhəmiyyət kəsb edir.**

**Metodologiya metodlar haqqında elmdir.**

**İqtisadi nəzəriyyənin metodologiyası təsərrüfat həyatını, iqtisadi hadisələri öyrənən metodlar haqqında elmdir. O,**

**İqtisadi hadisələrin öyrənilməsinə ümumi yanaşmaya, gerçəkliyin vahid dərkinə, vahid fəlsəfi zəminə malik olmalıdır. Metodologiyanın həll etməli olduğu əsas məsələ: iqtisadi nəzəriyyə bu və ya digər iqtisadi sistemin fəaliyyəti və sonrakı inkişafının əsl işıqlandırılmasına gerçəkliyi elmi dərk etmənin hansı üsulları, yollan ilə nail olur? Ümumi iqtisadi nəzəriyyənin metodologiyasında bir neçə əsas yanaşmanı göstərmək olar:**

- **subyektivçi (subyektiv idealizm mövqeyindən);**
- **neopozitivist-empirifc (neopozitiv empirizm və sfcepti-sizm mövqeyindən);**
- **rasionalist;**
- **dialektik materialist.**

**Subyektivçi yanaşmada iqtisadi hadisələrin təhlilinin çıxış nöqtəsi kimi ətraf mühitə təsir edən təsərrüfatçı subyekt götürülür, özü də suveren "mən" mütləq müstəqildir, buna görə də hamı bərabərdir. İqtisadi təhlilin obyekti iqtisadiyyatın subyektinin ("homoekonomiks") davranışıdır, buna görə də nəzəri iqtisadiyyat tələbatın hədləri ilə müəyyənləşən insan fəaliyyəti haqqında elm kimi nəzərdən keçirilir. Belə yanaşmada əsas kateqoriya tələbat və faydalılıqdır. İqtisadiyyat təsərrüfatçılıq edən subyektin müxtəlif variantlardan həyata keçirdiyi seçim nəzəriyyəsi olur.**

**Neopozitivist-empirik yanaşma hadisələrin və onların dəyərləndirilməsinin daha diqqətlə öyrənilməsinə əsaslanır. Əsas yerdə tədqiqatın texniki aparatı durur və o, alətdən dərketmə (riyazi aparat, ekonometrika, kibernetika və s.) predmetinə çevrilir, tədqiqatın nəticəsi kimi isə burada əsas kateqoriya olan müxtəlif növ iqtisadi modellər çıxış edir. Belə yanaşma iqtisadiyyatı firma səviyyəsindəki iqtisadi problemləri özündə ehtiva edən mikroiqtisadiyyata və cəmiyyət miqyaslı iqtisadi problemləri əks etdirən makroiqtisadiy- yata bölməyi nəzərdə tutur.**

**Rasionalist yanaşma sivilizasiyanın "təbii" və ya rasionalist qanunlarını tapmağı qarşısına məqsəd qoyur. Bu,**

**İqtisadi sistemi bütövlükdə, həmin sistemi tənzimləyən iqtisadi qanunları tədqiq etməyi, cəmiyyətin iqtisadi "anato- raiya"sını öyrənməyi tələb edir. Kenenin iqtisadi cədvəlləri belə yanaşmanın zirvəsidir. İnsanın iqtisadi fəaliyyətinin məqsədi mənfəət götürməyə can atmaq, iqtisadi nəzəriyyənin məqsədi isə insanın davranışını deyil, ictimai məhsulun istehsalını, bölgüsünü tənzimləyən qamnları, bunun necə baş verməsini öyrənməkdir (D.Rikardo). Belə yanaşma cəmiyyəti bərabərhüquqlu subyektlərin məcmusu kimi təsəvvür edən subyektivçilərdən fərqli olaraq cəmiyyəti siniflərə bölündüyünü etiraf etməyə imkan verirdi. Belə yanaşmada əsas diqqət dəyərə, qiymətə, iqtisadi qanunlara verilirdi.**

**Dialektik-materialist yanaşma elmi problemlərin empirik pozitivizm (təcrübə) əsasında deyil, hadisələrin gerçəklikdə mövcud olan və onların inkişafında olan daxili əlaqələrini səciyyələndirən obyektiv təhlil əsasında yeganə düzgün həlli hesab olunurdu. İqtisadi problemlər və hadisələr daima yaranır, inkişaf edir və məhv olurlar, yəni daim hərəkətdədirlər, dialektika da bundadır.**

**Metodologiyanı elmdə tədqiqatın alətləri, üsulları məcmusu və onların iqtisadi kateqoriyalar və qanunlarda əksi olan metodlarla qarışdırmaq olmaz.**

**İqtisadi nəzəriyyə elmi dərketmə metodlarından geniş istifadə edir. Təsərrüfatçılıq hadisələrinin öyrənilməsində belə metodlardan biri elmi abstraksiya (latınca "abstractio" - uzaqlaşma, yayınma) metodudur. Tədqiqatçı hadisələrin ikinci dərəcəli tərəflərini diqqətdən kənarda qoyur ki, onlarda əsas olan və daim təkrarlanan məqamları müəyyənləşdirsin. Ümumiyyətlə istehsal, tələbat, bölgü, mübadilə və s. kimi ümumi anlayışlar belə yaranır.**

**Elmi abstraksiya metodu ən mühüm olsa da, iqtisadi nəzəriyyədə istifadə olunan yeganə elmi dərketmə metodu deyil. Burada təhlil və sintezdən, induksiya və deduksiyadan, tarixi və məntiqi metodlardan, iqtisadi-riyazi modelləşdirmədən, iqtisadi təcrübədən və s. fəal istifadə olunur.**

**Təhlil öyrənilən hadisənin xəyalən tərkib hissələrinə bölünüb həmin hissələrin hər birinin ayrı-ayrılıqda tədqiq edilməsidir; sintez yolu ilə iqtisadi nəzəriyyə vahid bitkin mənzərəni əks etdirir.**

**İnduksiya və deduksiya da geniş yayılıb. İnduksiya (yönəltmə, tuşlama) vasitəsilə tək-tək amillərin öyrənilməsindən ümumi müddəalara və nəticələrə keçid təmin edilir. Deduksiya (çıxartma) ümumi nəticələrdən nisbətən tək hallara keçidi mümkün edir. Təhlil və sintez, induksiya və deduksiya iqtisadi nəzəriyyədə vəhdətdə tətbiq olunurlar.**

**İqtisadi hadisələrin tədqiqində tarixi və məntiqi metodların mühüm yeri vardır. Onlar ziddiyyətə girmir, vəhdətdə tətbiq olunur, çünki tarixi tədqiqatın çıxış nöqtəsi bütövlükdə məntiqi tədqiqatın çıxış nöqtəsi ilə üst-üstə düşür. Amma iqtisadi hadisə və proseslərin məntiqi (nəzəri) təhlili tarixi prosesin güzgüdə olduğu kimi tam əksi deyil. Bu və ya digər ölkənin konkret şəraitlərində hökmran təsərrüfatçılıq sistemi üçün vacib olmayan iqtisadi hadisələr meydana gələ bilər. Onlar faktiki (tarixi) olaraq mövcud olsalar da, nəzəri təhlil zamanı onları nəzərə almamaq da olar. Biz onlardan ayrıla, uzaqlaşa bilirik. Tarixçi isə bu kimi hadisələri diqqətdən kənarda qoya bilməz. O, onları təsvir etməlidir.**

**Tarixi metoddan istifadə edən iqtisadi nəzəriyyə təsərrüfatçılıq prosesləri və hadisələri onların həyatın özündə yaranıb inkişaf etdiyi, bir-birini əvəzlədiyi ardıcıllıqla tədqiq edir. Belə yanaşma müxtəlif iqtisadi sistemlərin xüsusiyyətlərini konkret və bariz göstərməyə imkan verir. Lakin onun bir qüsuru var: təsviri materialın və ayrı-ayrı tarixi təfərrüatların çoxluğu təsərrüfatın ciddi nəzəri öyrənilməsini çətinləşdirə bilir.**

**Tarixi metod göstərir ki, təbiətdə və cəmiyyətdə inkişaf sadədən mürəkkəbə doğru gedir. İqtisadi nəzəriyyənin (siyasi iqtisad) predmetinə şamil edildikdə bu, o deməkdir ki, iqtisadi hadisələr və proseslərin cəmindən birinci növbədə ən sadələrini, başqalarından əvvəl yarananları və daha**

mürəkkəblərin yaranması üçün zəmin olanları ayırmaq lazımdır. Məsələn, bazarın təhlilində belə iqtisadi hadisə əmtəə mübadiləsidir.

Sadədən mürəkkəbə məntiqi yüksəlmə metoduna müvafiq olaraq dərslik elə qurulur ki, giriş və bazar iqtisadiyyatı nəzəriyyəsinin ümumi əsaslarını öyrənəndən sonra biz mikro-iqtisadiyyatı - ayrı-ayrı bazar subyektlərinin (istehsalçı müəssisələr və istehlakçılar) davranışını müəyyənləşdirən iqtisadi mühiti, sonra makroiqtisadiyyatı - milli təsərrüfat sistemini və nəhayət dünya təsərrüfatını - qlobal iqtisadiyyatı öyrənməliyik.

İqtisadi proses və hadisələrə keyfiyyət və kəmiyyət müəyyənliyi xasdır. Buna görə də, iqtisadi nəzəriyyə (siyasi iqtisad) təsərrüfat həyatının kəmiyyət tərəfini və onlann yeni keyfiyyətə keçməsini öyrənməyə imkan verən materialist və statistik tədqiqat üsulları və vəsaitlərdən istifadə edir. Bu zaman hesablama texnikasından geniş istifadə olunur. Burada iqtisadi-riyazi modelləşdirmə metodu xüsusi rol oynayır. Sistemli tədqiqat metodlarından biri olan bu metod iqtisadi hadisələrin dəyişilmə səbəblərini, bu dəyişmələrin qanunauyğunluğunu, nəticələrini, təsir imkanları və qüsurlarını for- mallaşdınlmış şəkildə müəyyənləşdirməyə imkan verir, həm də iqtisadi proseslərin proqnozlaşdırılmasını mümkün edir. Bu metodun köməkliyilə iqtisadi modellər yaradılır.

İqtisadi model - iqtisadi hadisə və proseslərin tədqiqatın obyektiv x^usiyyətləri və subyektiv məqsədli xarakteri ilə şərtlənən quruluşunun formal təsviridir.

Modellərin qurulması ilə bağlı iqtisadi nəzəriyyədə funksional təhlilin rolu xüsusi qeyd olunmalıdır.

Funksiyalar - başqa dəyişən kəmiyyətlərdən asılı olan dəyişən kəmiyyətlərdir.

Funksiyalara gündəlik həyatımızda rast olunur və biz bunu çox vaxt dərk etmirik. Onlar texnikada, fizikada, həndəsədə, kimyada, iqtisadiyyatda və s. rast gəlinir. İqtisadiyyatda buna

**əlaqəni göstərmək olar. Tələb qiymətdən asılıdır. Əmtəənin qiyməti yüksələrsə, başqa göstəricilər eyni qalmaqla ona olan tələb aşağı düşür. Bu zaman qiymət sərbəst dəyişən və ya arqument, tələb isə asılı dəyişən və ya funksiya olur. Beləliklə, qısaca demək olar ki, tələb qiymətin funksiyasıdır. Lakin tələblə qiymətin yeri dəyişə bilir. Tələb nə qədər yüksək olsa, qiymət başqa göstəricilər eyni qalmaqla yüksək olar. Deməli, qiymət tələbin funksiyası ola bilər.**

**tqtisadi-riyazi modelləşdirmə iqtisadi nəzəriyyənin modeli kimi XX əsrdə geniş yayılmışdı. Lakin iqtisadi modellərin qurulmasındakı subyektivlik elementləri hərdən səhvlərlə nəticələnir. Nobel mükafatı laureatı M.Alle 1989-cu ildə yazırdı ki, iqtisadi elm qırx il ərzində səhv - riyazi forraaliz- min üstünlük təşkil etdiyi tamamilə süni və hə-yatdan təcrid olunmuş istiqamətdə inkişaf edib, bu isə əslində geriyə böyük addımdır.**

**Xarici ölkələrdə tədrisə aid olan iqtisadi ədəbiyyatlarda «nəzəriyyə», «model», «prinsiplər» və «qanunlar» məfhumları çox vaxt sinonim kimi istifadə olunur (K.Makkonelli və S.B^u).**

**İqtisadi nəzəriyyə modellərinin, prinsiplərinin çoxunu qrafiklər və riyazi tənliklər şəklində ifadə etmək mümkündür, buna görə də iqtisadi nəzəriyyəni öyrənəndə riyaziyyatı bilmək, qrafik qurmağı və oxumağı bacarmaq lazımdır.**

*Qrafiklər* - **iki və daha çox dəyişən arasındakı asılılığın təsviridir.**

**Asılılıq xətti (yəni daimi) ola bilər, bu halda qrafik iki ox - şaquli (onu adətən Y hərfi ilə işarə edirlər) və üfüqi (X) - arasında bucaq altda yerləşmiş düz xətdən ibarət olur.**

**Əgər qraf ikin xətti sola və enən istiqamətdə gedirsə, deməli iki dəyişən arasında tərs əlaqə var (belə ki, əmtəənin qiyməti aşağı düşdükcə onun satış həcmi artır - şək.3.1, a). Qrafik xətti yuxarı qalxırsa, əlaqə düzdür (belə ki, əmtəənin istehsal xərcləri artdıqca, onun qiyməti də artır - şək.3.1, b). Asılılıq qeyri-xətti (yəni dəyişkən) də ola bilər, bu halda**

**qrafik əyri şəklini alır (məsələn, inflyasiya azaldıqca işsizlik artma meylinə malik olur - Fillips əyrisi, şək. 3.1, c).**

**İqtisadi poblemlərin təhlilində çox vaxt pozitiv və normativ təhlillərdən istifadə olunur. Pozitiv təhlil iqtisadi hadisə və prosesləri əsl həqiqətdə olduqları kimi görməyə imkan verir: nə olub və ya nə ola bilər. Pozitiv fikir mütləq həqiqət olmaya da bilər, lakin pozitiv fikir ətrafındakı bütün mübahisələr faktların yoxlanılması ilə həll oluna bilər. Normativ təhlil nəyin və necə olmalı olduğunun tədqiqinə əsaslanır. Normativ fikir çox vaxt pozitivdən alınır, lakin obyektiv faktlar onun düz və ya səhv olduğunu sübut edə bilmir. Normativ təhlil zamanı bu kimi qiymət verilir: düzdür və ya səhvdir, pisdir və ya yaxşıdır, olar və ya olmaz.**

**İqtisadi nəzəriyyələr pozitiv fikir şəklində ifadə olunur, iqtisadçılar arasındakı fikir ayrılıqlarının çoxu normativ təhlil məsələləri nəzərdən keçirilərkən yaranır.**




**Şəkil 3.1. Qrafiklər: a - tərs xətti asılılıq; b - düz xətti asılılıq; c - qeyri-xətti asılılıq**

**Qrafik yanaşmada diaqramlardan - göstəricilər arasında nisbəti göstərən şəkillərdən geniş istifadə olunur. Diaqramlar dairəvi, sütunvari və s. olurlar (şək.3.2).**




**Şəkil 3.2. Dairəvi (a) və sütunvari (b) diaqramlara misal**

**İnsanların, insan qruplarının və bütün cəmiyyətin iqtisadi həyatının öyrənilməsində iqtisadi təcrübələr mümkündür, gərəkli və zəruridir, hərçənd bu təcrübələrin mümkün nəticələrini heç də həmişə qabaqcadan görmək mümkün deyil.**

**İqtisadi təcrübə iqtisadi hadisə və ya prosesi daha əlverişli şəraitdə öyrənmək və sonra praktikada tətbiq etmək məqsədilə onların süni yaradılmasıdır.**

**Mikrosəviyyədə düşünülmüş kütləvi iqtisadi təcrübə R.Ouen, P.J.Prudon, F.Teylor, H.Ford və E.Meyonun, makrosəviyyədə isə C.Keyns və M.Fridmenin adları ilə bağlıdır. Makrosəviyyədə geniş təcrübələr SSRİ-də də aparılıb.**

**İqtisadiyyatın tədqiqi səviyyələri də müxtəlif ola bilər. Miqyasından asılı olaraq iqtisadiyyat mikroiqtisadiyyata və makroiqtisadiyyata bölünür. Mikroiqtisadiyyat ayrı-ayrı iqtisadi subyektlərin (müəssisə, firma, istehlakçı, ev təsərrüfatı, muzdlu fəhlələr, sahibkarlar, ticarətçilər və s.) fəaliyyəti ilə bağlıdır və o, nə üçün iqtisadiyyatın ən aşağı səviyyəsində məhz bu qərarın qəbul edilməsini anlamağa kömək edir. Makroiqtisadiyyat milli iqtisadiyyatın bütövlükdə fəaliyyəti ilə bağlıdır, ümumi iqtisadi prosesləri cəmiyyət səviyyəsində (milli gəlirin istehsalı, işsizlik, inflyasiya və s.) öyrənir və cəmiyyətin çiçəklənməsi üçün dövlətin nə etməli olduğunu göstərir.**

**Xalq təsərrüfatının ara sistemləri və ya sahələrinin (aqro**

**sənaye, hərbi-sənaye kompleksləri və s.) davranışını öyrənən mezoiqtisadiyyatı və bütövlükdə dünya təsərrüfatının, dünya iqtisadiyyatının davranışını izah edən *supermakroiqtisa- diyyatı* göstərmək olar.**

**İqtisadiyyatın çoxmərtəbəli quruluş strukturu barədə əyani təsəvvür yaratmaq üçün onun ən səciyyəvi mərhələlərini göstərək. Bunlar şəkil 3.3-də verilib.**

**Hər bir adamın, hər ailənin özünün kiçik iqtisadiyyatı var ki, burada mədaxil və məxaricə müvafiq iqtisadi qərarlar qəbul etmək lazım gəlir. Bura yaşayış yeri, ev təsərrüfatı, şəxsi əmlak, pul və s. daxildir. Buradakı əsas iqtisadi proseslər ev işləri, istirahət, qidalanma, uşaqların böyüdülmə- sidir.**

**İstehsal iqtisadiyyatının əsasını əmtəə və xidmətlər istehsal edən müəssisələr (firmalar) təşkil edir.**

**Milli iqtisadijryat sahələr quruluşuna malikdir. İqtisadiyyatın bütün sahə .növləri arasında üç ən böyüyünü göstərmək olar: ilkin iqtisadiyyat (bura kənd və meşə təsərrüfatı, balıqçılıq, mədən sənayesi daxildir); birinci qrup sahələrin məhsulunun emalı iqtisadiyyatı (neft emalı, metallurgiya, ərzaq sənayesi və s.); istehsalata (nəqliyyat, saxlama, ticarət, reklam, informasiya və s.), əhaliyə (məişət, mənzil-komunal xidmətləri, ticarət, paltar, ayaqqabı, mebel təmiri, bərbərxa- nalar və s.), dövlətə müxtəlif xidmətlər göstərən *xidməti iqtisadiyyat.***

**Beləliklə, iqtisadi nəzəriyyə gerçəkliyin əks etdirilməsi və əsas göstəricilərinin təriflər, məfhumlar, kateqoriyalar vasitəsilə mücərrəd ümumiləşdirmələr əsasında təsərrüfat həyatının qanunu, qaydası və ya modeli kimi təqdim edilən sistemli təsviridir.**

**Ayrı-ayrı iqtisadi nəzəriyyələrin dörd ortaq xüsusiyyətləri var, çünki onların hər biri:**

**■ iqtisadiyyatdakı hadisə və prosesləri müşahidə etməyə əsaslanır;**




**Şəkil 3.3. İqtisadiyyatın müxtəlif səviyyələrinin və müvafiq olaraq iqtisadiyyatın bir elm kimi bölmələrinin sxemi.**

■ iqtisadi sistemlərin mücərrəd-nəzəri modelləşdirməsidir;

■ müşahidə olunan hadisələrin nəticələrinin də proqnozlaşdırılmasmı nəzərdə tutur;

■ təsərrüfatçılıq təcrübəsi üçün tövsiyələr təklif edir.

İqtisadi gerçəkliyin inikasının mürəkkəbləşməsi yeni paradiqmaların işlənilməsi ilə müşayiət olunur.

Paradiqma gerçəkliyin əsas xüsusiyyətlərini ifadə edən anlayışlar sistemində əks etdirilmiş ciddi elmi nəzəriyyədir.

Elmi paradiqma özündə əsas ilkin şərtləri, bu və ya digər elmdə qəbul edilmiş tədqiqat metodlarını, həmçinin alimlərin elmi problemlərin həlli üsulları haqqında təsəvvürlərini özündə ehtiva edir. Elmi paradiqmanın tərifini T.Kun “Elmi inqilabların quruluşu” (M.: Proqress, 1977) kitabında vermişdi. Dünya iqtisad elmində son vaxtlara qədər hökmran yer tutan elmi paradiqma XIX əsrin sonu - XX əsrin əvvəllərində A.Smit, D.Rikardo, C.St.Mill, A.Marşall, L.Valrasın əsərlərinin təsiri altında formalaşmışdı. Neoklas- sik nəzəriyyənin tənqidi ilə yanaşı yeni iqtisadi paradiqma-

**nın hazırlanmasını həvəsləndirən iqtisadi inkişaf proseslərinin məzmunu haqqında da yeni biliklər əldə olunmuşdur.**

**Sonda C.Keynsin sözlərinə müraciət etmək daha düzgün olar: "İqtisadçılar və siyasi mütəfəkkirlərin fikirlərinin - onlar düz də, səhv də deyəndə — əhəmiyyəti düşündüyümüzdən çox-çox artıqdır. Əslində yalnız onlar dünyanı idarə edirlər",^**

### *§3. İqtisadi kateqoriyalar və qanunlar. Əsas iqtisadi anlayışlar*

**Abstrakt təfəkkürün köməkliyi ilə tədricən iqtisadi hadisələrin mahiyyətinin açılması baş verir ki, bu da real iqtisadi gerçəkliyi inkişafda az və ya çox dolğun əks etdirən müəyyən məntiqi anlayışların formalaşmasını tələb edir.**

**Cəmiyyətin iqtisadi həyatının ən ümumi və mühüm tərəflərini əks etdirən məntiqi anlayışlar iqtisadi kateqoriyalar adlanır.**

**Kateqoriyalara məsələn, tələb, təklif, kredit, mülkiyyət, bazar, əmək haqqı, mənfəət və bir çox başqaları aiddir.**

**İctimai həyatın istənilən başqa sahələrində və təbiətdə olduğu kimi, iqtisadiyyatda da, ilk nəzərdən görünən hərc-mərclik və təsadüflər silsiləsi arxasından inkişafın zəruriliyi, qanunauyğunluğu özünə yol açır. Cəmiyyətdə iqtisadi prosesləri onlara xas olan daxili qanunlar - insanların ictimai hərəkəti qanunları və ya iqtisadi qanunlar idarə edir. "Hüquq fəlsəfəsi" kitabında Hegel siyasi iqtisadı elm kimi səciyyələndirərkən yazır ki, bu elm "fikrə hörmət" gətirir, çünki qarşısında külli miqdarda təsadüflər olduğu halda o, onların qanunlarını axtarıb tapır. Hər bir qanun bu və ya digər hadisənin mahiyyətini ifadə edir; qanun və mahiyyət yekcins (eynisəpkili) anlayışlardır və insanın dünyanı dərk etməsinin dərinliyi haqqında təsəvvür yaradırlar. Hadisə**

' KeÜHc **06nıafl** Teopnfl эвнııтостн, npoı^eHTa **u** ^^eaer. Hsöp.nponsB. **M. ƏKOHOMUKa, 1993, c.517.**

**qanundan geniş və zəngindir, lakin qanun hadisənin daxili mahiyyətini tuta bilir.**

**Qanunun fəlsəfədə sabit, davamlı, dəfələrlə təkrarlanan hadisə və bu hadisə və ya prosesə xas olan daxili, mühüm, zəruri, səbəb və nəticə, daimi, ümumi, kəmiyyət və keyfiyyət əlaqələri (münasibətləri) kimi dərki tamamilə iqtisadi qanunlara da şamil edilə bilər.**

**İqtisadi qanunların göstəricisi məhz təsadüfilik deyil, tipiklik, daimilik, iqtisadi hadisələrin və proseslərin daxili mahiyyətini ifadə etməkdir. İqtisadi qanunları təbiət qanunları və təbiətşünaslıq qanunları ilə qarışdırmaq olmaz, çünki bunlar arasında bir sıra mühüm və ciddi fərqlər var.**

**■ təbii qanunlar təbiət qanunlarıdır, iqtisadi qanunlar isə ictimai həyatın inkişafı, insanların təsərrüfat fəaliyyətinin qanunlarıdır;**

**■ təbii qanunlar əbədidir, iqtisadi qanunlar tarixi xarakter daşıyır;**

**■ təbii qanunların kəşf edilməsi və tətbiqi nisbətən rahat baş verir, iqtisadi qanunların tətbiqi isə cəmiyyətin ölüb getməkdə olan qüvvələri tərəfindən ciddi müqavimətə rast gəlir.**

**İqtisadi qanunlar bütövlükdə cəmiyyətin inkişafının iqtisadi qanunlar sistemini təşkil edir ki, buraya da müxtəlif qrup və növ qanunlar daxildir.**

**İqtisadi qanunlar (tarixi sabitliklərindən asılı olaraq) aşağıdakı qruplara bölünürlər;**

**■ spesifik qanunlar;**

**■ xüsusi iqtisadi qanunlar (bir sıra dövrlər üçün qanunlar);**

**■ ümumi iqtisadi qanunlar.**

**Spesifik iqtisadi qanunlar - bunlar konkret, tarixən müəyyən təsərrüfatçılıq formalarının inkişaf qanımlarıdır. Məsələn, quldarlıq, təhkimçilik dövrlərindəki bölgü qanunları və s.**

**Xüsusi iqtisadi qanunlar - fəaliyyət göstərmələri üçün şərait olan müəyyən tarixi dövrlərə xas olan qanunlar. Məsələn,**

**Ümumi iqtisadi qanunlar - istisnasız bütün dövrlər üçün xas olan qanunlardır. Onlar ictimai istehsalın irəliyə doğru inkişaf prosesini əks etdirirlər. Məsələn, vaxta qənaət qanunu, tələbatın yüksəlməsi (artması) qanunu, ictimai əmək bölgüsü qanunu.**

**Amma iqtisadi qanunlar özü-özlüyündə işləmirlər, iqtisadi tərəqqi avtomatik həyata keçirilmir. Bunun üçün insanların fəaliyyəti zəruridir ki, onlar da hərəkətə tələbat və maraqlarla gətirilirlər.**

**Tələbat - insanların həyat fəaliyyətinin və orqanizminin inkişafının, şəxsiyyətin inkişafının davam etdirilməsi üçün obyektiv zəruri olan və ödənilməsini tələb edən obyektiv ehtiyacıdır.**

**İnsanın tələbatları olduqca müxtəlifdir. Ən geniş yayılmış nəzəriyyə Amerika alimi A.Maslouya məxsusdur. Onun nəzəriyyəsinə görə bütün tələbatlar «aşağı» maddidən «ali» mənəvilərə doğru artan xətt üzrə mərhələlərlə düzümlənir.**

**Bu tələbatlar aşağıdakılardır:**

**■ fizioloji (yemək, içmək, seksual və s,);**

***m* təhlükəsizlik (ağrı, hirs, qorxu və sairdən mühafizə);**

**■sosial əlaqələr (məhəbbət, şəfqət, diqqət, hər hansı bir qrupa mənsubiyyət və s.);**

**■ özünəhörmət (məqsədə, hörmətə, təqdirə çatma);**

**■özüfəallaşma (qabiliyyətlərin reallaşması, başa düşmə, dərketmə və s.);**

**Birinci iki qrup tələbatlar, A.Maslouya gÖrə, aşağı dərəcəli, sonuncu ikisi isə alidirlər. Aşağı dərəcəli tələbatlar ödənməyincə, ali dərəcəli tələbatlar fəaliyyət göstərmir.**

**Tələbatların bu təsnifatını tələbatları maddi və mənəviyə, rasional və irrasionala, mütləq və həqiqiyə, dərk edilən və dərk edilməyənə, səhv başa düşülmüşə və s. bölməklə genişləndirmək olar.**

**Yalnız tələbatlar dərk ediləndə əməyə motivasiya yaranır. Bu halda tələbatlar konkret forma - maraq forması alırlar.**

**İqtisadi maraq - iqtisadi tələbatların təzahür formasıdır.**

**Maraqlar təsərrüfat faydalılığım, mənfəətliliyini ifadə edir ki, bunları reallaşdıran təsərrüfatçı subyekt öz müstəqilliyini, öz inkişafını təmin edir. Bu olmasa, o, təsərrüfat əlaqələrinin o biri mərhələsində layiqli tərəfdaş ola bilməz, özünü saxlaya və təkrar istehsal edə bilməz və iqtisadi həyat səhnəsindən gedər, müflis olar.**

**Təsərrüfatçı subyektlərin müxtəlifliyi iqtisadi maraqlana müxtəlifliyini doğurur. İqtisadi maraqlar müxtəlif meyarlar üzrə qruplaşır. Maraqların daşıyıcılarımn müəyyənləşdirilməsi əsasında ictimai, kollektiv və şəxsi maraqlar, milli və beynəlmiləl, regional və idarə, qruplar və ailə maraqları, müxtəlif sosial qrupların (işləyənlər, işləməyənlər, gənclər, təqaüdçülər və b.k.) sinfi maraqlan fərqləndirilir. Cari və perspektiv, rasional və qeyri-rasional, həqiqi və yanlış başa düşülmüş, maliyə, əmək, mənəvi-əxlaqi və s. maraqlar xüsusi qruplar təşkil edirlər.**

**Bütün bu maraqlar vəhdətdə mövcuddurlar, lakin onlar arasında ziddiyyətlər də var. Məsələn, daha çox nemətlər əldə etmək kimi şəxsi maraq kollektivin maraqları ilə ziddiyyətə girə bilər.**

**İqtisadi nəzəriyyə (siyasi iqtisad) mövcud obyektiv ictimai-istehsal əlaqələrin yalnız obyektiv təzahür formalarını deyil, həm də subyektiv təzahür formalarını, yalnız iqtisadi maraqların konkret formalarını deyil, həm də onlardakı daxili ziddiyyətləri və əksliklərin mübarizəsini əks etdirən toq-quşmalannı, həmçinin bu ziddiyyətlərin aradan qaldırılması üsullarını öyrənir.**

**İqtisadi ziddiyyətlər - hər bir iqtisadi prosesə xas olan, bir-birini inkar edən və bir-birini nəzərdə tutan obyektiv, zəruri dinamik münasibətdir, bu, eyni bir iqtisadi prosesdə bir-birini inkar edən meyl və xüsusiyyətlərin eyni zamanda təzahürüdür. Məsələn, tələb və təklifin münasibətləri.**

**İqtisadi ziddiyyətlər həmişə ictimai və predmetlidir, bu mənada ki, insanlar maddi nemətlərin və xidmətlərin istehsalı, mübadiləsi, bölgüsü və istehlakına görə bir-biri və özü-**

**Özləri İlə ziddiyyətə girirlər. Bu, iqtisadi proseslərin mahiyyətinin və özü-özünə hərəkətinin mənbəyidir.**

**Ölkəmizdə iqtisadi böhrana səbəb olan əsas ziddiyyət istehsalın ictimai xarakteri ilə istehsalın nəticələrinin dövlət, inzibati-amirlik, bürokratik mənimsənilməsi üsulu arasındakı ziddiyyətdir. Digər mühüm iqtisadi ziddiyyətlərdən aşağıdakıları qeyd etmək vacibdir: istehsalla istehlak arasında, maddi və mənəvi tələbatların artması ilə onların təmin edilməsi imkanı arasında, maddi və mənəvi tələbatların ödənilməsi arasında, yığım və istehlak arasında və s.**

**Sistemin ziddiyyətləri onun inkişafının ziddiyyətli meylini şərtləndirir: bir tərəfdən bütövlük (eynicürlük), digər tərəfdən təcridlik (rəngarənglik); bir tərəfdən mərkəzləşmə, digər tərəfdən desentralizasiya; bir tərəfdən ictimailəşmə, digər tərəfdən təcridləşmə; dəyişkənlik və sabitlik və s. Bu, iqtisadiyyatın dalğavari inkişafını müəyyənləşdirir.**

**İqtisadi nəzəriyyə təsərrüfat fəaliyyətinin, onun mahiyyəti, şərtləri, nəticələri və s. tədqiqinə yönümlənib.**

***Təsərrüfat fəaliyyəti*** **insanların müəyyən maraqlara əsaslanan və müxtəlif cür tələbatların ödənilməsinə yönəldilmiş təsərrüfatçılıq prosesində məqsədyönlü cəhdləridir.**

**Təsərrüfatçılıq prosesində insanın həyat fəaliyyəti bir tərəfdən enerji, resurs və s. sərfində, digər tərəfdən isə həyat məsrəflərinin müvafiq olaraq doldurulmasında təzahür edir. Bu zaman iqtisadi subyekt (təsərrüfat fəaliyyətindəki insan) səmərəli, yəni məsrəf və xeyrini tarazlaşdırmaq yolu ilə fəaliyyət göstərməyə çalışır (amma bu təsərrüfatçılıq qərarlarının qəbul edilməsində səhvləri istisna etmir). Belə davranış obyektiv səbəblərlə izah olunur.**

**tnsanın həyat və fəaliyyətinin əhəmiyyətli xüsusiyyətlərindən biri onun maddi aləmdən asılılığıdır. Maddi nemətlərin bir qismi (hava, su, günəşin işığı) o qədər və elə formadadır ki, onlardan insan istənilən yerdə və hər zaman istifadə etmək imkanına malikdir. Onlara olan tələbatın ödənilməsi insandan güc və xərc tələb etmir. Bunlar azad və**

**havayı nemətlərdir. Nə qədər ki, belə şərtlər qalmaqdadır, bu nemətlərin və onlara olan tələbatın ödənilməsi insanın qayğı və maraqlarına çevrilmir.**

**Digər maddi nemətlər məhdud miqdardadır (müxtəlif cür «nadiri şeylər). Onlara olan tələbatı ödəmək və onlardan kifayət qədər olması üçün onları hasil etmək və tələbatlara uyğunlaşdırmaq yönümündə səy göstərmək lazımdır. Bu nemətlər təsərrüfat nemətləri adlanır. Praktik təsərrüfatçı və nəzəriyyəçi iqtisadçını məhz bunlar maraqlandırır. Bu nemətlərin itirilməsi itki və ziyandır ki, onların ödənməsi yeni səy, xərc, qurbanlar tələb edir. İnsanların maddi rifahı onlardan asılıdır, buna görə də təsərrüfatçı onlarla ehmallı, qənaətcil davranır.**

**Nemət - özündə müəyyən müsbət məna daşıyan, insanın bu və ya digər tələbatını ödəyən və onların maraqları, məqsədləri və səylərinə cavab verən hər bir şey: əşya, hadisə, əmək məhsuludur.**

**İqtisadi ədəbiyyatda nemətin başqa tərifləri də var. Məsələn, nemət deyəndə, A.Marşall bizim istədiyimiz hər bir şeyi və ya insan tələbatlarını Ödəyən əşyaları başa düşürdü. Bu tərifdə nemətlər yalnız əşyalar, predmetlərlə məhdudlaşır.**

**Bəzən nemətlər faydalılığın təzahürü kimi nəzərdən keçirilir ki, bu da yalnız əməyin məhsulu deyil, həm də təbiətin barı ola bilər.**

**İnsanlara lazım olan və rolu get-gedə artan nemətlər arasında xüsusi yeri xidmətlər tutur.**

**Xidmətlər - insanm məqsədyönlü fəaliyyəti olub, nəticəsi insanın hər hansı tələbatını ödəyən faydah təsirə malik-dir.**

**Nemətlərin başa düşülməsində onların təsnifatının böyük əhəmiyyəti var.**

**Nemətlərin müxtəlif qruplara (növlərə) bölünməsi üçün çoxlu meyarlar var (şəkil 3.4).**

**Nemətlərin maddi və qeyri-maddilərə bölünməsi daha geniş yayılmışdır.**

**Maddi nemətlər - təbiətin təbii bəxşişləri (torpaq, hava.**

**İqlim), istehsal məhsullarıdır (ərzaq məhsulları, tikililər, maşınlar, alətlər və s.). Maddi nemətlərə hərdən maddi nemətlərin mənimsənilməsilə əlaqədar olan şeylər də (patentlər, müəllif hüququ, girov kağızı) aid edilir (məsələn, A. Marşall). Bununla da bir qrupda müxtəlif səciyyəli nemətlər - bir qismi faydalılığına görə, digər qismi faydalılığın mənimsənilməsinə görə - birləşdirilir.**

**Qeyri-maddi nemətlər - insanın qabiliyyətlərinin inkişafına təsir edən nemətlərdir, onlar qeyri-istehsal sahələrində: səhiyyə, təhsil, incəsənət, kino, teatr, muzeylər və b.k. yaradılırlar. Qeyri-maddi nemətlər iki yarımqrupa bölünür:**




**Şəkil 3.4. Nemətlərin təsrifatı**

■ *daxili* - **insana təbiət tərəfindən verilmiş və insanın öz iradəsiylə özündə inkişaf etdirdiyi (səs - oxuma, deklamasiya; musiqi duyumu - musiqiçi; elmə qabiliyyət və b.k.);**

■ *zahiri* - **bu, tələbatları ödəmək üçün zahiri aləmin verdikləridir (imic, işgüzar əlaqələr, himayə və s.).**

**Qeyd olunan nemətlərdən başqa hazırkı və gələcək, bilavasitə və dolayı, uzunmüddətli və qısamüddətli və s. nemətlər də nəzərdən keçirilir.**

**Nemətlərin iqtisadi və qeyri-iqtisadiyə bölünməsinin xüsusi əhəmiyyəti var.**

**İqtisadi nemətlər (bu məfhum iqtisad elminin subyektiv-çilik məktəbinə, onun nümayəndəsi məşhur İtaliya iqtisadçısı A.Pezentiyə məxsusdur) iqtisadi fəaliyyətin obyekti və ya nəticəsidir, yəni ödəniləsi tələbatdan məhdud həcmdə alınması mümkün olanlardır. Qeyd edək ki, resursların, nemətlərin məhdudluğu (nadirliyi) şəraitində insanın müvafiq davranışını (təsərrüfatçılıq, istehsal fəaliyyəti) müəyyənləşdirən nemətin nadirliyi problemi iqtisadi nemətlə bağlıdır.**

**Qeyri-iqtisadi (havayı) nemətlər təbiət tərəfindən insan səy göstərmədən verilir. Bu nemətlər insanın müəyyən tələbatlarını (hava, su, işıq və b.k.) tam və daim ödəmək üçün kifayət qədər təbiətdə «azad» mövcuddur.**

**Beləliklə, məhz nemətə olan tələbat (və ya Avstriya məktəbinin görkəmli nümayəndəsi K.Mengerin sözlərilə «gərək- lik») və onun əldə oluna biləcək miqdarı arasındakı nisbət onu iqtisadi və ya qeyri-iqtisadi edir.**

**İqtisadi nemətin spesifik forması mübadilə üçün yaradılmış əmtəədir.**

**İnsanların təsərrüfat fəaliyyəti olduqca müxtəlif hadisə və proseslərin mürəkkəb və dolaşıq cəmindən ibarətdir ki, burada iqtisadi nəzəriyyə dörd mərhələ ayırır: istehsalın özü, bölgü, mübadilə və istehlak. İstehsal - insanın mövcudluğu və inkişafı üçün zəruri olan maddi və mənəvi nemətlərin yaradılması mərhələsidir. Bölgü - təsərrüfatçılıq edən hər bir subyektin istehsal olunmuş məhsulda iştirak payının, qə- dərinin, nisbətlərin müəyyənləşdirilməsi mərhələsidir. Mübadilə - maddi nemətlərin və xidmətlərin bir subyektdən digərinə hərəkəti mərhələsi və istehsalçılarla istehlakçılar**

**arasında ictimai maddələr mübadiləsi vasitəsilə ifadə olunmuş ictimai əlaqə formasıdır. İstehlak - müəyyən tələbatların ödənilməsi üçün istehsal nəticələrinin istifadəsi mərhələsi adlanır. Bütün bu mərhələlər qarşılıqlı əlaqədə və təsirdədir.**

**Bu dörd mərhələnin qarşılıqlı əlaqəsini səciyyələndirməz-dən Öncə hər bir istehsalın ictimai və fasiləsiz proses olduğunu vurğulamaq vacibdir. Başqa sözlə, istehsal prosesi təcrid olunmuş təsərrüfat subyektləri tərəfindən deyil, cəmiyyət tərəfindən, ictimai əmək bölgüsü sistemində həyata keçirilir (bax: fəsil 4). Başqalarından asılı olmayaraq fəaliyyət göstərdiyini düşünən hər bir ayrıca təsərrüfatçı əslində cəmiyyətin başqa üzvləri ilə minlərlə təsərrüfat telləri ilə bağlıdır. Bu, «ictimai istehsaU məfhumunun mövcudluğunu şərtləndirir. Belə təəssürat yarana bilər ki, ictimi istehsalın Öyrənilməsi ilə yalnız «Makroiqtisadiyyat» bölməsi məşğul olur. Əslində isə ayrı-ayrı istehsalçı və istehlakçının davranışı nəzərdən keçirilən mikroiqtisadiyyatın təhlilində yadda saxlamaq lazımdır ki, bu təsərrüfat fəaliyyəti subyektləri ictimai əmək bölgüsü sistemində, ictimai institutların tələb etdiyi məhdudiyyətlər sistemində, müəyyən iqtisadi sistemdə fəaliyyət göstərirlər.**

**İqtisadi ədəbiyyatda ictimai istehsalın məzmunu haqqında ümumi fikir yoxdur, lakin bəzi fikirləri göstərmək olar:**

- **ictimai istehsal elə maddi istehsaldır;**
- **ictimai istehsal elə istehsal üsuludur;**
- **ictimai istehsal maddi istehsalla yanaşı mənəvi istehsalı və insanın özünün istehsalını əhatə edir;**
- **ictimai istehsal özündə maddi və qeyri-maddi istehsalı ehtiva edir.**

**Sonuncu mövqe daha inandırıcı görünür. Müasir dövrdə qeyri-istehsal sahəsinin rolu artmışdır ki, bu da bütün ölkələrin ictimai-iqtisadi inkişafının ümumi qanunauyğunluğu olmuşdur. Belə ki, inkişaf etmiş ölkələrdə əmək qabiliyyətli əhalinin yarı və hətta bir qədər artıq hissəsi qeyri-maddi istehsal sahəsində çalışır.**

**Maddi və qeyri-maddi istehsal arasındakı fərq bundadır ki, birincisi özündə maddi nemətlər/xidmətlər (sənaye, kənd təsərrüfatı, məişət xidməti və s.) istehsalını özündə cəmləyir, ikincisi isə qeyri-maddi xidmətlər göstərilməsi və mənəvi nemətlər yaradılması (səhiyyə, təhsil və s.) ilə bağlıdır. Bunlar iki qarşılıqlı əlaqədar olan istehsaldır, özü də bunlardan biri digəri olmadan mövcud ola bilmir. Onlar arasındakı nisbət cəmiyyətin harmonik inkişafını nəzərdə tutur.**

**İstehsal prosesinin fasiləsizliyi, yəni onun daim təkrarlanması, ictimai təkrar istehsalı səciyyələndirir. Təsərrüfat nemətləri tədricən işlədilir, istehlak edilir, köhnəlir və dəyi- şilməsinini tələb edir. Onu yenidən yaratmaq, mütəmadi təkrar istehsal etmək lazımdır. Məhsulun yaradılmasından onun tam istehlakına qədərki dövrü əhatə edən, sonra təkrar yaratmanı, istehsal və istehlakın yeni tsiklini nəzərdə tutan təkrar istehsal prosesinin əsas səbəbi də məhz budur.**

**İstehsal daim təkrarlanaraq, ən sadə formalardan (ibtidai insanın primitiv yollarla ərzaq əldə etməsi) müasir avtomatlaşdırılmış yüksək məhsuldar prosesə qədər tarixi inkişafdadır. Bütün fərqlərinə (həm maddi zəmin baxımından, həm ictimai forma baxımından) baxmayaraq özü-özlüyündə istehsala xas olan ümumi əlamətləri göstərmək olar.**

**İstehsal ümumiyyətlə insanın təbiət cisimlərinə və qüvvələrinə onlan özünün bu və ya digər tələbatlarını ödəməyə uyğunlaşdırmaq məqsədilə təsir etmə prosesidir. Ümumiyyətlə istehsal abstraksiya olsa da, şüurlu abstraksiyadır, çünki o, ümumini ayırır, qeyd edir və buna görə də bizi təkrarlanmadan qurtarır.**

**Əmək prosesi istehsal prosesinin maddi əsasım təşkil edir, lakin onun tam eyni deyil. Maddi nemətlər və xidmətlər istehsalı özünə yalmz əməyi deyil, həm də əmək prosesində işçilərin bir-biri ilə iqtisadi münasibətlərini daxil edir. Əmək prosesində nemətin yalnız zahiri təbiəti dəyişmir, həm də bilik, təcrübə toplanır, işçinin ixtisası artır, insamn özü dəyişir. Bu**

**Əmək prosesinin əsas elementləri bunlardır: əmək, əmək cisimləri və əmək vasitələri.**

**Əməyin ümumi məzmunu insanların onlardan səy, iradə və enerji məsrəfləri tələb edən şüurlu, məqsədəuyğun ictimai fəaliyyətindən ibarətdir.**

**Əmək insanın öz iş qüvvəsini cəmiyyətin cürbəcür tələbatlarını ödəmək məqsədilə təbiətin formalarının dəyişdirilməsinə məqsədəuyğun sərfidir.**

**Əməyin özü və əmək qabiliyyəti yalnız insana xasdır, lakin bunlar müxtəlif anlayışlardır və onları qarışdırmaq olmaz. Hər bir insan iş qüvvəsinə malikdir, lakin o həmin qüvvədən istifadə etməzsə, onda əmək prosesi baş verməz.**

**İş qüvvəsi insanın məhsul hazırlanması və ya maddi nemətlər istehsalı üçün istifadə olunan fiziki və mənəvi qabiliyyətlərinin xüsusi məcmusudur. Belə əmək məhsuldar, yəni yenidən maddi nemətlər yaradan əmək adlandırılır.**

**Bu əməyin əksinə olaraq qeyri-maddi istehsalda (müəllimlər, həkimlər, hərbçilər, hüquqşünaslar, məmurlar, din xadimləri, artistlər və s.) əmək maddi nemətlər yaratmasa da, ictimai faydalı əmək hesab olunur və buna görə də öz maddi məzmununa görə həmin əmək qeyri-məhsuldar əmək sayılır.**

**İctimai faydalı xarakter daşımayan məqsədəuyğun insan səyləri əmək mənasmı itirir (məsələn; kart oyunu, ruletka və s.).**

**Əmək cisimləri insanın əməyi yönəldilən şeylərdir və məhz bu da gələcək hazır məhsulun maddi əsasını təşkil edir. Əmək cisimləri ya təbiətin Özü tərəfindən verilir (məsələn: filiz yatağı), yaxud əvvəlki əməyin məhsulu, yəni xammal kimi olur. Sonuncu Özündə əsas xammalı (bilavasitə istehsal vasitələrinin hazırlandığı cisimlər) və yardımçı materialları (məhsulun hazırlanmasında istifadə olunan şeylər, məsələn, tikiş sənayesində bunlar rənglər, saplar və s. ola bilər) ehtiva edir.**

**Elmi-texniki tərəqqi nəticəsində insan əvvəlcədən verilmiş xassələri olan və təbiətdə mövcud olmayan əmək cisim**

**ləri hazırlayır. Təbiət, torpaq, yerətrafı məkan da daxil olmaqla ğeniş mənada bütövlükdə bizi əhatə edən aləm ümumi əmək cisimini təşkil edirlər. Xammalın istehsalda rolu artır, lakin əmək cisimlərinin ilkin əsası yenə də torpaqdır.**

**Təbiət maddəsinin hazır məhsula çevrilməsi üçün o bir və ya bir neçə mərhalədə emal olunmalı, yarımfabrikata çevrilməlidir. Hazır məhsuldan (əməyin bitkin, istehlaka hazır nəticəsi) fərqli olaraq, yarımfabrikat istifadəyə yararlı hazır məhsul olmaq üçün hələ emal olunmalı olan əmək məhsuludur.**

**Əmək vasitələri insanın özü ilə əmək cismi arasında yerləşdirdiyi əşya və ya əşyalar kompleksi; hazır məhsulu yaradarkən insanın əmək cisiminə təsir etdiyi şeylər; əmək vasitələri istehsalın inkişaf səviyyəsinin ən mühüm göstəriciləridir.**

**Maddi əmək vasitələri təbii (torpaq, dəyənək, daş və s., əhliləşdirilmiş ev heyvanları, üzvi gübrələr, həmçinin işçinin bədən üzvləri) və texnikiyə (yəni insan tərəfindən süni yaradılanlar) bölünürlər.**

**Texniki əmək vasitələrinə əmək alətləri - müxtəlif maşınlar, mexanizmlər, qurğular, alətlər, mühərriklər, ötürücü qurğular daxildir. Maşın istehsalı şəraitində mexaniki əmək vasitələri üç tərkib hissədən: işçi maşın, mühərrik, ötürücü qurğudan ibarət maşın sisteminə çevrilmişlər. Elmi-texniki inqilab (ETİ) maşın sisteminə dördüncü hissəni - maşın sisteminin idarə edilməsi üzrə zehni əmək vəzifəsini yerinə yetirən idarəedici qurğunu əlavə etdi. Get-gedə kibernetik adlandırılan texnika tətbiq olunur ki, onun bütün başqa maşınlardan əsas fərqi ondadır ki, o, enerjini (fiziki maşınlar kimi) və ya maddəni (kimyəvi kimi) deyil, informasiyanı emal edir. Robototexnika geniş yayılır. İstehsalın kompüter- ləşməsi və avtomatlaşdırılması insanın rolunu dəyişir: o tədricən bilavasitə istehsal prosesindən çıxır və onunla yanaşı dayanır.**




**Ş₉İCİİ 3.5. Təkrar istehsal prosesi.**

**İnsan orqanizmi ilə müqayisə apararaq mexaniki əmək vasitələrini «istehsalın sümük-əzələ sistemi» kimi müəyyənləşdirmək olar; əmək cisimlərinin saxlanılmasına xidmət edən əmək vasitələri «istehsahı damar sistemidir* (borular, sistemlər, qablar və s.); idarəedici qurğunu «istehsalın əsəb sistemi* kimi səciyyələndirmək olar; yollar, körpülər, boru kəmərləri, rabitə və kommunikasiya vasitələri istehsalın ümumi şəraitini əmələ gətirirlər.**

**Əmək vasitələrindən istehsal vasitələrini fərqləndirmək lazımdır.**

İstehsal vasitələri həmişə bir-biri ilə qarşılıqlı əlaqədə olan və bir-birinə müvafiq olan əmək cisimləri ilə əmək vasitələrinin məcmusudur. Məsələn: çörək bişirilməsi üçün yalnız un (əmək cismi) kifayət deyil, bunun üçün müvafiq sobalar, avadanlıq, bina (çörək bişirilən), çörəyin saxlanılması və daşınması üçün qablar (əmək vasitələri) və s. lazımdır.

İş qüvvəsi ilə istehsal vasitələri arasındakı qarşılıqlı təsiri istehsal texnologiyası, yəni insanın əmək cisminə təsiri üsullarını əks etdirir.

İstehsal vasitələri və iş qüvvəsinin ahəngdar işləməsinin təmin edilməsi üçün istehsalın müəyyən təşkili (ixtisaslaşma, kooperasiyalaşma və s.) lazımdır.

İstehsal, bölgü, mübadilə, istehlak proseslərinin qarşılıqlı razılaşdırılması, təkrar istehsal tsiklinin hər bir mərhələsinə təsir edən, təsərrüfat fəaliyyətinin idarə edilməsi sistemi vasitəsilə həyata keçirilir.

Tipik təkrar istehsal prosesinin sxemi şəkil 3.5-də verilib.

Təsərrüfat fəaliyyəti sisteminin dörd mərhələsinin hamısının olması iqtisadi proseslərin fundamental qanunauyğunluğu, onların ən mühüm xüsusiyyətləri hesab olunur.

Bu mərhələlərin nisbəti və qarşılıqlı əlaqəsi marksist nəzəriyyəyə görə aşağıda ifadə olunur. İstehsal həyatın əsası və insan cəmiyyətinin tərəqqipərvər inkişafının mənbəyidir. O, təsərrüfatçılıq fəaliyyətinin ilkin mərhələsi, istehlak isə sonuncu mərhələsidir; bölgü və mübadilə istehsalla istehlakı əlaqələndirən vasitəçi mərhələlərdir. İstehsal ilkin mərhələ olsa da, o, istehlaka xidmət edir. İstehlak istehsalın son məqsədi və motivini təşkil edir; istehlakda məhsul məhv edildiyindən o, istehsala yeni sifariş diktə edir. Ödənilmiş tələbat yeni tələbat doğurur, tələbatın inkişafı istehsalın hərəkətverici qüvvəsi kimi çıxış edir. Lakin tələbatların özünün yaranması istehsal tərəfindən şərtlənir, yəni yeni məhsulların yaranması həmin məhsula və onun istehlakına müvafiq tələbat doğurur. Məhsulun bölgüsü və mübadiləsi istehsaldan asılıdır, çünki

**dəyişdirmək olar. Lakin onlar da oz növbəsində istehsala münasibətdə passiv deyillər, onlar istehsala fəal əks-təsir göstərirlər.**

**Beləliklə, marksizm istehsalın primatlığını təsdiq edir. Hazırda iqtisadçıların heç də hamısı bu nəzəri müddəa ilə razılaşmır. Məsələn, S.V.Braginski və Y.A.Pevzner yazırlar: «İstehsalın üstünlüyü marksizmdə həmişə elmi siyasi iqtisadın və bütün ictimai elmin əsaslarının əsası kimi nəzərdən keçirilib. Bu yanaşma nə qədər əsaslıdır? Mübadilə, bölgü və istehlak aparmazdan öncə istehsal etməyin labüdlüyü nəzərə alınsa, bu kimi fikir elmdən kənar çeynənmiş fikirdir. Bir elm kimij iqtisad elmi istehsaldan deyil, mübadilədən, ticarətdən, bazardan... başlanır^^. Rusiya xalqlarının aşağı həyat səviyyəsini bəzi iqtisadçılar SSRt-dəki iqtisadi siyasətdə istehsala üstünlük verilməsi kimi ilkin nəzəri müddəa ilə əlaqələndirirdilər, çünki burada istehsal istehsal naminə, sosial sahənin, xidmətlər sahəsinin, istehlak əşyalarının, yəni insan üçün hədsiz vacib olanların istehsalının inkişafının zəruriliyindən təcrid olunmuş şəkildə inkişaf edirdi. Bəzi iqtisadçılar bu nəzəri müddəanı şübhə altına alır, cəmiyyətin müasir real inkişaf səviyyəsinin, onun maddi bazası və onun mənəvi sahədən, insan şüurundan, noosferadan asılılığının nəzərə alınmasının zəruriliyini qeyd edirlər.**

**Təkrar istehsal proseslərində iqtisadi resursların bir çoxunun alındığı, istehsal və istehlak tullantılarının atıldığı və təsərrüfatçılıq fəaliyyətinin səmərəliliyinə ciddi təsir göstərən xarici mühitin mühüm əhəmiyyəti var.**

**Təsərrüfatçılıq fəaliyyətinin, daha dəqiq - istehsalın nəticəsi kimi iqtisadi məhsul, yəni iqtisadiyyatda istehsal olunan, yaradılan və istifadə olunan məhsul çıxış edir.**

**istənilən təsərrüfatçılıq sistemində istehsal cəmiyyətin təbiətə münasibəti kimi çıxış edir. Bu münasibətlər istehsal resursları ilə təmsil olunmuşlar.**

1 BparHHCKMH C.B., nesanep fl.A. IIojmTiiHecKa« əKOHOHna: gHGKyccHOHHue npoÖJieMbi, nyTH oÖHOBJieHHH. M.: MbicjiB, 1991. C.7.

**İqtisadi resurslar maddi və mənəvi nemətlər və xidmətlərin yaradılması prosesində istifadə oluna biləcək müxtəlif istehsal elementlərinin məcmusudur.**

**Resurslar aşağıdakılara bölünür: əmək (əmək qabiliyyətli yaşda olan əhali), təbii (insanın mövcud olduğu təbii şəraitlərin bütün məcmusunun bir qismi, ətraf mühitin istehsal prosesində istifadə olunan mühüm komponentləri), maddi (əmək vasitələri və cisimləri), maliyyə (istehsala yönəldilmiş pul vəsaitləri), informasiya (avtomatlaşdırılmış istehsalın fəaliyyəti və onu kompüter texnikasının köməkliyi ilə idarə etmək üçün zəruri olan məlumatlar).**

**İqtisadi nəzəriyyə dərsliyinin sonrakı fəsillərində öyrəniləcək anlayışlar aparatı yalnız burada sadalanmış iqtisadi anlayışlardan ibarət deyil.**

# IV FƏSİL. İNSANIN İQTİSAD DÜNYASI İLƏ BAĞLI HƏYAT FƏALİYYƏTİNDƏ İNSAN VƏ MÜHİT. İQTİSADİ SİSTEMLƏR

*§1. tqtisadi nəzəriyyədə insan modelləri.*
*§2. İnsanın həyat fəaliyyəti mühiti haqqında təlimlər.*
*§3. Cəmiyyətin iqtisadi sistemləri: anlayış, məzmun, təsnifat.*

**İqtisadi nəzəriyyənin vəzifəsi dünyanın iqtisadi həyatının quruluşu haqqında suala cavab tapmaqdır. Hər hansı bir həyat sistemdir. İnsanın mövcud olduğu iqtisadi kosmos da sistemdir. İnsana doğum günündən obyektiv olaraq verilmiş təbiət və fiziki dünyadan fərqli olaraq iqtisadi sistem daha çox onun təməli və əsası olan insanla bağlıdır. İqtisadiyyat insansız, onun tələbatları və maraqları olmadan mövcud ola bilməz. İqtisadi nəzəriyyə məhz bunu öyrənməyə borcludur.**

## *§1. İqtisadi nəzariyyəda insan modelləri*

**İstehsalın əsas amili və son məqsədi kimi çıxış edən insan iqtisadi sistemdə mərkəzi yer tutur, çünki o, insansız mövcud deyil və son nəticədə onun üçün, onun ehtiyaclarını ödəmək üçün fəaliyyət göstərir.**

**İnsanın yaranması uzaq keçmişin dərinliklərinə aid edilir. Müasir antropologiya «şüurlu insanın» nə vaxt və nə üçün yaranması sualına qəti və səhih cavab vermir. Özünün bioloji və ictimai inkişafında insan uzun və olduqca çətin yol keçmişdir. İnsan ictimai varlıqdır və bunun üçün o, keçmişin və indinin bir sıra alimlərinin fikrincə, əməyə borcludur. Əməyin, düşünülmüş məqsədyönlü fəaliyyət kimi, insanı heyvanat aləmindən fərqləndirməsi, ona şüur verməsi və onun mövcudluğunun ictimai xarakterini müəyyənləşdirməsi uzun müddət aksioma hesab olunurdu. Lakin hazırda bu fikir bəzi alimlər tərəfindən şübhə altına alınır və buna gÖrə də çox güman, bu fikir sübuta ehtiyacı olan teorem olaraq qalır.**

**İnsan cəmiyyətinin öyrənilməsində iqtisadi nəzəriyyə insanın eyni zamanda iqtisadi nemətlərin həm istehsalçısı, həm də istehlakçısı olması kimi mühüm müddəalarla çıxış edir. İnsan texnika və texnologiyaları yalnız yaratmır, həm də onları hərəkətə gətirir və onlardan istifadə üsullarını müəyyənləşdirir ki, bu da öz növbəsində insanın fiziki və intellektual parametrlərinə yeni tələblər irəli sürür.**

**Bazar təsərrüfatı inkişaf etdikcə iqtisad elminin insana diqqəti daim artmışdır.**

**Fərdin iqtisadi həyatda fəal rolu əsasən onun iqtisadi davranışının səbəbləri ilə müəyyənləşir. İngilis siyasi iqtisadının klassikləri A.Smit və D.Rikardonun əsərlərində ♦iqtisadi insanın»ın konsepsiyası, yaxud modeli yaradılmışdır.**

**İqtisadi nəzəriyyədə insan modeli müəyyən sosial-iqtisadi koordinatlar sistemində fəaliyyət göstərən insan haqqında vahid şəklə salınmış təsəvvürdür.**

**Hər bir elmi model kimi, insan modeli də bəzi sadələşdir-mələrə əsaslanır. O, özündə fərdi səciyyələndirən əsas parametrləri və hər şeydən öncə, iqtisadi fəallığın səbəblərini, onun məqsədini, həmçinin insanın qarşıda duran məqsədə çatmaq üçün istifadə etdiyi dərk etmə, yaxud koqnitativ (lat.sözü: cognitio - bilik, dərk etmə) imkanlarını ehtiva edir. Bu zaman qeyd olunmalıdır ki, bütün humanitar elmlər (fəlsəfə, tarix, sosiologiya, iqtisadiyyat və b.) insanı öz pred- metləri nöqteyi-nəzərindən dərk etməyə çalışır və buna görə də bu elmlərin hər birinin yaratdığı surət müəyyən qədər birtərəfli olmaya bilmir.**

**İqtisadi nəzəriyyə insanlarda əsasən onların iqtisadi davranışını izahetmə məsələsinə cavab verən məqamlara, yəni müxtəlif maddi və mənəvi nemətlərin yaradılması, onların bölgüsü və istifadəsi prosesində fərdi və ictimai hərəkətlərə diqqət yetirir.**

**İnsanın iqtisadi modeli müəyyən birtərəfliliyi ilə fərqlənir, çünki insan yalnız özünü təsərrüfat həyatında realizə edən «iqtisadi insan» deyil. İnsanın özünü göstərə bildiyi bir**

**ÇOX başqa həyat fəaliyyəti sahələri var (siyasət, mədəniyyət, din, idman, ailə və başqa fərdlərarası münasibətlər və s.)- «İnsan davranışını izah etmək üçün istənilən məntiqi modelin yararlılığının xeyli məhdud olmasıbarədə fikirin düzlüyü ilə razılaşmaq lazım gəlir.**

**A.Smit və D.Rikardonun klassik «iqtisadi insan» və ya «homo economicus» modeli aşağıdakılarla səciyyələnir:**

**■iqtisadi davranışın səbəblərində şəxsi maraqların müəyyənləşdirici rolu;**

**■ iqtisadi subyektin öz işlərində səriştəliyi;**

**■bazar iqtisadiyyatında insanın təsərrüfat fəaliyyətinin əsas səbəbi - rifahın qeyri-pul amilləri nəzərə alınmaqla (təhsilin asanlığı və çətinliyi, işin xoşa gəlməsi və gəlməməsi, məşğulluğun daimiliyi və ya müvəqqətiliyi, cəmiyyətdə nüfuz, uğurun çox və ya az dərəcədə ehtimallığı) gəlirin maksimallaşdırılması (varlanma).**

**♦İqtisadi insandın davranışını təhlil edən Adam Smit qeyd edirdi ki, o, iki cizgi ilə müəyyən edilir:**

**■ əmək bölgüsü nəticəsində insanın mübadiləyə meylliliyi;**

**■şəxsi maraq, xudpəsəndlik, daim öz vəziyyətini yaxşılaşdırmağa canatma.**

**Buna görə də bazar iqtisadiyyatında insan daha çox gəlir əldə etmək üçün elə fəaliyyət növü seçməyə çalışır ki, onun istehsal etdiyi məhsul daha yüksək dəyərə malik olsun. A.Smit qeyd edirdi ki, bazar iqtisadiyyatında hər kəs ♦cəmiyyətin xeyrini deyil, öz xeyrini güdür», tacir və sənayeçilər isə, rəqabəti azaltmaq cəhdilə, ♦cəmiyyəti aldatmaqda və hətta istismar etməkdə ♦ maraqlıdırlar. Yalnız azad rəqabət (♦görünməz əU), yəni bazar təsərrüfatı qanunları pəra- kəndə fəalİ5T^ət göstərən xudpəsəndləri nizamlanmış sistemdə birləşdirir. Hərc-mərclik xeyli dəqiq təşkil olunmuş cəmiyyətlə əvəzlənir. Beləliklə, iqtisadi insan öz xeyrinə can atmaqla cəmiyyətin xeyrinə fəaliyyət göstərir.**

’ BbioKeHeH TaJiJiOK r.Pac*ıeT coraacHa. Cep. “Jlaypeaxu HoCeaeBCKOİi npeMHH no ƏKOHOMHKe”. M.: 1997, C.75.

**Maraqlıdır ki, Aristotel üçün iqtisadi insan A.Smitin təsəvvür etdiyinin tamam əfcsidir, o, özünün ağılabatan tələbatlarını ödəməyə can atan adamdır.**

**C. Mili «Siyasi iqtisadın əsaslarıəsərində qeyd edirdi ki, insanın həqiqi davranışı sərvətə can atmaqdan xeyli mürəkkəbdir, o, əməyə nifrət və bahalı məmnunluğu dərhal almaq istəyi ilə müşayiət olunur.**

**Bazar iqtisadiyyatı nəzəriyyəsi əməyi insanın lazımi neməti əldə etməzdən öncə çəkdiyi özünəməxsus xərc növü kimi şərh edir. Əmək və birinci növbədə fiziki əməyin çətinliklərindən qurtarmaq istəyi insanı get-gedə daha çox çeşidli maddi nemətlər icad etmək üzərində işləməyə vadar edir. Belə ki, piyada gəzməmək üçün təkər icad olunur, torpağı əllə qazmamaq üçün kətmən, bel, daha sonra isə müasir ekskavatorlar və s. düzəldilir. Təsadüfi demirlər ki, sərvət insanın əməyilə deyil, tənbəlliyi ilə yaradılıb. Buna görə də bazar təsərrüfatında əməyin motivləri problemi, yəni insanı sözün ən geniş mənasında əmək fəaliyyəti ilə məşğul olmağa sövq edən hərəkətverici səbəblərin müəyyənləşdirilməsi problemi obyektiv mövcuddur.**

**Sivilizasiyanın yaranması və inkişafı tarixində bu fəaliyyətin İki əsas səbəbi məlumdur - əməyə qeyri-iqtisadi və iqtisadi məcburetmə. Birincisi əmək mükəlləfiyyətindən yaymdıqda hakimiyyət tərəfindən onun ən müxtəlif təzahürlərində - quldar, mülkədar, diktator və b.k. - cəza almaq qorxusuna əsaslanır. Bu, işçinin iş verəndən şəxsi asılılığını nəzərdə tutur. İkincisi, iqtisadi və hüquqi azadlıq şəraitində insanın öz rifah səviyyəsini yüksəltməkdə şəxsən maraqlı olmasından irəli gəlir.**

**Bazar iqtisadiyyatında insanın davranışına C.Bentam böyük diqqət yetirirdi. O hesab edirdi ki, insan fəaliyyətinin məqsədi onun rifahıdır ki, bu da müəyyən vaxt ərzindəki əzabların cəmi çıxıldıqdan sonra qalan məmnunluqların cəminə bərabərdir. Fərdi * rifahlara can atmaların» Öz aralarında uyğunlaşdırılmasını o, bazara və rəqabətə etibar**

**hesab edirdi ki, bu qanunvericiliyin vəzifəsidir. Bentamın «İnsanm təbiəti konsepsiyası»nm əsas əlamətləri A.Smit və D. Rikardonun «iqtisadi insana modeli ilə müqayisədə aşağıdakılardır:**

**■ universallıq iddiası (konsepsiya iqtisadi sahəylə məhdudlaşmır);**

**■ siniflilikdən üstün səciyyə (insan heç bir sinfə aid deyil);**

**■ gedonizm, yəni insanın bütün motivlərinin ardıcıl olaraq məmnunluğa və kədərdən uzaqlaşmağa nail olmaq;**

**■ hesablama rasionalizmi -xoşbəxtliyə aparan bütün hərəkətləri insanın hesablaya bilmək qabiliyyəti.**

**Təsərrüfatçılıq edən subyekti istehsalçı kimi nəzərdən keçirən klassik məktəbdən fərqli olaraq Bentamın marjinalistlər tərəfindən dəstəklənmiş «səmərəli gedonist^o modeli təsərrüfatçılıq edən subyekti istehlakçı kimi nəzərdən keçirirdi. Lakin marjinalistlər iqtisadi subyektə mühüm əlavə etdilər və optimallaşdırıcı-insan konsepsiyasını yaratdılar. Onun əsas əlamətləri:**

**■ ən yüksək faydalılığa və ya gəlirə və ən az əziyyət və məsrəfə can atma;**

**■ fərdi üstüntutmalar sisteminin zaman daxilində dəyişilməzliyi və xarici şəraitdən və fərdlərdən azadlıq;**

**■ məqsədi onlara çatma vasitələri ilə müqayisə edə bilmə, vasitələrdən optimal variantı seçə bilmə qabiliyyəti;**

**■ optimal variantı tapa bilməyə imkan verən tam informasiyaya malik olmaq və səhvsiz qabağı görmək;**

**■ xarici şərtlərin dəyişməsinə ani reaksiya, hansı ki insanı oyarımallah ediri>.**

**Siyasi iqtisad üzrə dərsliyinin (1879) «İnsanın iqtisadi təbiətib fəslində A.Vaqner insan təbiətinin əsas xüsusiyyətini - «nemətlərin çatışmazlığını duymaq və bunu aradan qaldırmağa cəhd etməyi» - vurğulayır. O hesab edirdi ki, insanın iqtisadi fəaliyyətini idarə edirlər:**

**■ qazanc istəyi və ehtiyac qorxusu;** *

*** Həyatın zövq və səfa üçün yaranmış olduğunu iddia edən şəxs.**

■ təqdirə ümid və cəza qorxusu;

■ ləyaqət hissi və biabır olma qorxusu;

■ özü-özlüyündə fəaliyyətə canatma və bekarçılığın nəticəsindən qorxma;

■ borc hissi və vicdan əzabı qorxusu.

Alman tarixi məktəbinin nümayəndələri klassik məktəbin fərdçiliyinə, həmçinin iqtisadi fəaliyyət subyektinin modelləşdirilməsindəki rasionalizm və formalizmin əleyhinə çıxış edirdilər. Onlar hesab edirdilər ki, iqtisadçının təhlil obyekti yalnız xalq ola bilər ki, o da fərdlərin məcmusu deyil, «milli və tarixi baxımdan müəyyənləşdirilmiş, dövlət tərəfindən birləşdirilmiş tamlıqdır*. İnsanı, xalqın bir hissəsi kimi, yalnız sərvətə can atma deyil, asudə vaxtın artması, ənənələrə riayət edilməsi də maraqlandırır, o eyni zamanda həm xudpəsənd, həm də altruistdir. Fərdçilikdən məhrum təsərrüfat agentləri qrup maraqları əsasında birliklər və kollektivlər yaradırlar. İqtisadi davranış subyekti burada tələbatları olan şüurlu varlıq kimi, ailənin, sosial qrupun, sinfin, cəmiyyətin, bəşəriyyətin üzvü kimi təqdim olunur. Təsərrüfat fəaliyyətinin belə dərki müasir institusionalizm üçün də səciyyəvidir. Müxtəlif sosial qrupların davranış normaları müxtəlifdir, onlar arasında ünsiyyət üsulları da fərqlidir. Onlar həmin qrupun <ıstatusuna* və ya cəmiyyətdəki mövqeyinə müvafiqdir. Mövqe isə, məlum olduğu kimi, davranışa vadar edir. Qrupun quruluş diferensiasiyası iyerar- xik xarakter alarsa, «sosial stratifikasiya*dan söhbət gedir.

Müasir iqtisadi nəzəriyyədə K.Marks, E.Dürkheym və M.Veberin əsərlərindən başlanğıc alan üç əsas stratifikasiya (təbəqələşmə) nəzəriyyəsini göstərmək olar.

1. Marksist nəzəriyyəsinin əsasını belə bir fikir təşkil edir ki, cəmiyyətin bazisini istehsal münasibətləri təşkil edir, onlar isə son nəticədə məhsuldar qüvvələrin səviyyəsi və xarakteri ilə müəyyənləşir. İstehsal münasibətlərinin əsasını istehsal vasitələri üzərində mülkiyyət münasibətləri təşkil edir ki, bu da siniflərə bölgünün əsas meyarıdır.

**Mülkiyyət olduqca qeyri-bərabər bölündüyündən və istehsalçıların çox hissəsi əldə olunan məhsuldan kənarlaşdırıldığın- dan sinfi münasibətlər istismar münasibətləri, özgənin haqqı ödənilməmiş əməyinin mənimsənilməsidir. K.Marksın fikrincə, sinfi mübarizə dünya tarixinin əsas amili, ictimai inkişafın və tərəqqinin hərəkətverici qüvvəsidir. Sinfin vəziyyətini onun obyektiv maraqlan müəyyənləşdirir. Bu maraqların muzdlu fəhlələr sinfi və onun rəhbəlik etdiyi aşağı təbəqələr tərəfindən dərki ictimai bazisin inqilabi dəyişdirilməsinə yönümlənmiş kollektiv fəaliyyət üçün qüvvələrin toplanmasına gətirib çıxarır. K.Marks təlimi insan modelinin mücərrəddən konkretə, «Kapital »ın birinci cildindəki «adi istehsalçımdan sənaye, ticarət və borc kapitalını təmsil edən üçüncü cilddəki kapitalistlərə qədər yüksəlməsini nəzərdə tutur, tnsan burada obyektiv iqtisadi münasibətlərin fərdiləşdirilməsi kimi çıxış edir. Kapitalist kapitalı təcəssüm etdirir. Fəhlə isə fərdiləşdirilmiş muzdlu əməkdir.**

**Burjuaziya və proletariat siniflərinin iqtisadi davranışları fərqlidir, onlarm qarşılıqlı münasibətləri isə banşmaz mübarizədir. Marksm siniflər nəzəriyyəsinin mahiyyəti belədir.**

**Bu nəzəriyyə sonralar da inkişaf etdirilmişdi. XX əsrin neomarksizmi olduqca rəngarəngdir (leninizm, stalinizm, maoizm, sosial-demokratik konsepsiyalar, D.Lukas, A.Qram- şi nəzəriyyəsi, M.Xorkmayer, T.Adorno, Q.M.Arkuze,**

**E. Frolla təmsil olunan avstromarksizm, həmçinin Fransada ekzistensial marksizm — J.-P.Sartr və M.Merlo-Ponti). Onlar sinfilik nəzəriyyəsinin çoxtərəfli tənqidinə cavab olaraq və toplanmış tarixi təcrübədən çıxış edərək bir sıra marksist müddəalardan imtina etməli olmuşdular. Hazırda bildirilir ki, iqtisadi determinizm ictimai inkişafa mümkün yanaşmalardan yalnız biridir; «idarə edənlər inqilabım, «xalq kapitalizmik elementlərinin meydana gəlməsi ilə əlaqədar mülkiyyət deyil, kapitalist mülkiyyətçilərin səmərəli nəzarətini pozmayan idarəetmə mühüm əhəmiyyət kəsb edir; proletariat əvəzinə**

**mövcud iqtisadi münasibətləri dağıtmaq deyil, onların islahatını aparma potensialına malik «yeni fəhlə sinfim yaranır (C.Malm), «namünasib» orta siniflərin mövcudluğu (E.O.Rayt); istismar, sinfi münasibətlərin əsası kimi, dəyər və izafi dəyər nəzəriyyəsi ilə deyil, daha yaxşı qismət imkanının özü ilə müəyyənləşir (C.Remer); istismar anlayışı aradan qaldırıla biləcək qeyri-bərabərliyə qədər genişlənir, «ixtisas!>, «status», «əmək istismarım kimi məfhumlar yaranır (F.Van Pariys),**

**Muzdlu fəhlələrin (icraçıların) müasir iqtisadi mübarizəsindən danışanda XX əsrin iqtisadi fikri qeyd edir ki, tətil, sabotaj, piket keçirmə icraçıların maraqlarının həyata keçirilməsi uğrunda hazırda yeganə və ümumiyyətlə əsas mübarizə forması deyil. Kapitalistlərə və müdiriyyətə təsir göstərməyin onlarla gözə görünməyən, lakin kifayət qədər təsirli üsulları var. Passiv müqavimətin ən geniş yayılmış növləri: «absen- teizmm, yaxud üzürlü və üzürsüz səbəbdən işə çıxmamaq; vaxtaşırı iş yerini tərk etmək; kiçik oğurluq; iş gününün bir qismindən və iş yerindən «kənara işləmək m üçün istifadə; bilərəkdən səhlənkarlıq etmək, avadanlığa etinasız münasibət; rəhbərliyə kiçik yalanlar; mühüm informasiyanın gizlənilmə- sində özünü göstərən «unutqanlıq» və s.**

**2. XX əsrin 40-60-cı illərində inkişaf tapmış funksio-nalizmin mahiyyəti ondadır ki, cəmiyyətdəki sosial təbəqələşmə aradan qaldırılmazdır və həvəsləndirmə və nəzarət funksiyalarının həyata keçirilməsi üçün zəruridir; faydalı funksiyalar yerinə yetirərkən insanlar müxtəlif sosial-peşə mövqelərini tuturlar ki, bu da onların cəmiyyət üçün vacibliyinə və oynanılan rolun nadirliyinə görə dərəcələrə bölünürlər; mövqeyin daha yüksək dərəcəli olması sahibinə daha yüksək gəlir, ixtiyar və hörmət təmin edir; daha yüksək fəallığa malik cəmiyyət üzvləri daha nüfuzlu yer uğrunda rəqabətdə üstün gəlirlər. Bu nəzəriyyədə sinfi mübarizəyə yer yoxdur.**

**3, Stratifikasiya nəzəriyyələrinin üçüncü istiqamətinin**

**banisi alman alimi M.Veber olan veberianlıqdır. Bu istiqamətə görə istənilən təbəqələşmə əsasında hakimiyyət və nüfuzun bölüşdürülməsi durur. Hakimiyyət münasibətləri marksizmdə olduğu kimi mülkiyyət münasibətləri ilə sərt əlaqələndirilmir və funksionalistlərin dediyinin əksinə olaraq özlərində münaqişə elementlərini daşıyırlar. «İqtisadi sinfini mənası dəyişir, əsas diqqət mülkiyyətə deyil, bazar qruplarının mövqeyinə yetirilir; siniflər əmtəə bazarlarında və əmək bazarında tipik gümanla birləşirlər, sosial qrupların gümanları müxtəlif bazarlardakı cari vəziyyətlə deyil, həm də xüsusi mənsəb imkanları ilə müəyyənləşir, sosial qrupların iqtisadi davranışı təhsil və peşənin hörmətliliyi, həyat tərzi (üslubu), sosiomə- dəni yönümlənmə, davranış normaları və həmin mövqelərin bazar mövqelərinə müvafiqliyi ilə şərtlənir.**

**A.Marşalı neoklassik siyasi iqtisadın banisidir. O, klassik siyasi iqtisadın və marjinalizmin əsas nailiyyətlərini sintez etmişdir. O, mücərrəd insanın əlamətlərini real istehsal agentinin xüsusiyyətlərinə yaxınlaşdırmağa cəhd etmiş, insanın real davranışını qismən tarazlıq şəraitində təhlil etmişdir, yəni iqtisadi subyektin iki motivinə görə: həzz almağa canatma — bu tələbin qədərini müəyyənləşdirir və təklifin qədərini tənzimləyən əmək və istehlakın təxirə salınması ilə bağlı çətinliklərdən qaçma. A.MarşalI normal fəaliyyət anlayışını tətbiq etmişdir ki, bu da hər hansı peşə qrupu üzvlərinin müəyyən şər^ıitdə gözlənilən hərəkəti, mənəvi cəhətdən düzgün davranışı, azad rəqabətin məhdudiyyətsiz fəaliyyətinin nəticəsidir.**

**Müasir «təkamül iqtisadiyyatım nəzəriyyəsi klassiklərin gəliri maksimumlaşdırmağa can atan təsərüfatçı subyektlərin səmərəli və optimal davranışı haqqındakı fikirlərini bir sıra səbəblərə görə əsassız hesab edir. Bunlardan biri - təsərrüfatçı subyekt, bazar iqtisadiyyatında bazarın şəraiti və texnoloji imkanları barədə tam informasiyaya malik deyil, buna görə də onun optimal seçim üçün hesablamalar aparmaq imkanı məhduddur. Saymonun məhdud səmərəlilik kon**

**sepsiyasında firmalar optimal deyil, məqbul davranış variantı üzərində dayanırlar.**

**Nelson və Vinterin tətbiq etdikləri «təkamül iqtisadiyyatım bu nəzəriyyənin əsas ideyasını - iqtisadi «təbii seçməm ideyasını vurğulayır; həmin ideyaya görə dəyişən şəraitdə məhv olmamağa və inkişaf etməyə imkan verən xüsusiyyətlərə və xarakteristikalara malik müəyyən <ttəşkilati genotipm meydana gəlir. İnsanın hazırkı gerçəklikdə davranışı yalnız istehsal imkanları çoxluğunun qeyri-müəyyənliyindən və bazar haqqındakı informasiyanın tam olmaması səbəbindən deyil, həm də təsərrüfatçı subyektin məhv olmamaq və artmaqdan başqa məqsədi olmayan iqtisadi mühit şəraitinin nəzərə alınmasının vacibliyini çətinləşdirir. İqtisadiyyatın direktiv idarəedilməsi şəraitində təsərrüfatçı subyektlərin davranışı ünvanlı tapşırıqların vaxtında yerinə yetirilməsi zəruriliyi ilə müəyyənləşirdi və onlar gəlir əldə etməkdən daha çox istehsal imkanlarını gizlətməkdə (az plan almaq üçün) və istehsal vasitələri resursu toplamaqda (planı arxayın yerinə yetirmək üçün) maraqlı idilər.**

**«Fiziki şəxslər iqtisadiyyatı» konsepsiyasının müəllifi prof. Q.Kleyner şəxsin yüksək əhəmiyyətini və keçid dövrü iqtisadiyyatı şəraitində iqtisadi sistemlərin transformasiyası dövründə şəxsiyyət amilinin xarakteristikası üçün olduqca uğurlu məfhum seçmişdir. Həqiqətən də, sistem dəyişiklikləri köhnə münasibətlərin dağıdılması və yenilərinin yaradılmasında institutların rolunu azaltmaqla, bununla sanki ətraf mühitdəki dəyişikliklərə uyğunlaşmağa qabil və hazır olan şəxsiyyət üçün yer boşaldırlar. Q.Kleyner fiziki şəxslər iqtisadiyyatını yalnız neqativ və ən əsası, Rusiyanın keçid iqtisadiyyatında müvəqqəti hadisə kimi nəzərdən keçirir. Real iqtisadiyyatın fiziki şəxslər iqtisadiyyatına çevrilməsi o deməkdir ki, iqtisadi proseslərə inkişaf etmiş bazar iqtisadiyyatı iqtisadi sisteminin institusional quruluşları deyil, iqtisadi hakimiyyətə malik fiziki şəxslər, məsələn, sənaye müəssisələri direktorları həlledici təsir göstərirlər. Əgər**

**firmanın davranışında ön plana şəxsiyyət problemi çıxırsa, onun üçün korrupsiya, şəxsi əlaqələrin üstünlük təşkil etməsi, münaqişələrin qeyri-məhkəmə üsulları ilə həll edilməsi səcİ3^əvi olur ki, bu da firmanın fəaliyyət göstərdiyi bazar quruluşu çərçivəsində bütün iqtisadi münasibətlərinin əsasən kriminallaşmasma gətirib çıxardır.**

**Firmanın ənənəvi nəzəriyyəsi - firmanın davranışının onun gəliri maksimallaşdırmaq kimi yeganə arzusu ilə müəyyənləşdirildiyi fikrindən çıxış edir ki, bu da son hədd xərclər və son hədd gəlir bərabər olduqda mümkün olur. Son hədd xərclərin və ələlxüsus son hədd gəlirin hesablanması çox çətin olduğundan, bazar, tələb, onun qiymətlər və gəlirlər üzrə elastikliyinə dair kifayət qədər və yüz faiz inandırıcı informasiya olmadığından rəqiblərin hərəkətlərini qabaqcadan bilmək və onların fəallığının nəticələrini dəyərləndirmək mümkün deyil. Və deməli, ənənəvi nəzəriyyənin firmanın davranışını yaxşı izah etdiyini söyləmək olmaz. Nəticədə başqa məqsədlər güdən firmaların davranışını izah edən alternativ nəzəriyyələr yaraıur.**

**Firmanın menecer nəzəriyyəsi bildirir ki, firmanın iqtisadi davranışını mülkiyyətçilər deyil, menecerlər müəyyən edir və onların məqsədi satış və bunun nəticəsində daxil olan gəlirin həcmini maksimallaşdırmaqdır. Bu, menecerlərin maaşının və bütün əlavə güzəştlər və ödənişlərin bilavasitə satışdan əldə olunmuş vəsaitdən asılı olması ilə izah olunur.**

**ABŞ-ın Strateji Planlaşdırma İnstitutunun sosioloji tədqiqatları göstərir ki, qısamüddətli dövrlərdə firmalar satışın həcmini artırmağa üstünlük verirlər, uzunmüddətli dövrlərdə isə onları daha çox gəlirin maksimallaşdırılması narahat edir.**

**Mülkiyyətçilərin və menecerlərin vahid məqsədinin: firmanın böyüməsinin maksimallaşdırma olmasını iddia edən nəzəriyyələr var. Sahibkarlar bitib-tükənməyən şəxsi varlanma məqsədi güdərək kapitalın artmasına çalışırlar. Menecerlər vəzifələrini və maaşlarını artırmaq istəyirlər. Firmanın**

**İqtisadi artımı menecerə ştatı artırmaq, yeni layihələri həyata keçirmək imkanı verir, bu da öz növbəsində onun vəzifəsini qaldırır, çünki tabeliyində daha çox işçi olur, xidməti pillədə o daha yuxarı qalxır. Belə halda menecerlər böyüməkdə olan firmanı sadəcə böyük firmadan üstün bilirlər.**

**Məqsədlərin çoxluğu iqtisadi nəzəriyyəsi firmanın məqsədinin (gəlir, satışın həcmi, artım) bir deyil, bir neçə olmasından çıxış edir. Hazırda firma mürəkkəb korporativ sistemdir və onda idarəetmə subyektləri və obyektlərinin iyerarxiyası maraqlar və məqsədlər iyerarxiyasına müvafiqdir. Firmanın ən yüksək rəhbərliyinin məqsədi firmanın nüfuzunu qaldırmaq, şirkətin fəaliyyətinin iqtisadi göstəricilərini yaxşılaşdırmaq, onun sabitliyini və dözümlüyünü təmin etməkdir. Səhmdarların marağı yüksək dividentlər almaqdır. Menecerlərin marağı öz sosial vəzifələrini qaldırmaq, yaxşı mənsəbə nail olmaq, gəlirin artmasını təmin etməkdir. Muzdlu işçilərin marağı yüksək əmək haqqı, yaxşı iş şəraiti, ixtisasını artırmaq, peşəkarlığını yüksəltməkdədir.**

**Beləliklə, «iqtisadi insanma davranışı yalnız təbii şəraitlə deyil, həm də sosial şəraitlə və deməli, yalnız ictimai qanunlarla deyil, həm də biologiyanın, kosmosun, təbiətşünaslığın bütün qanunlar sistemi ilə müəyyənləşir. İqtisadi qanunların təbiət qanunlarından fərqi isə ondadır ki, birincilər adətən şüurlu insanların fəaliyyəti vasitəsilə və adətən meyl kimi təzahür edir, bir qayda olaraq, tarixən ötəri olurlar.**

**Müasir Qərb alimlərinin çoxu təsdiq edir ki, insanın iqtisadiyyatda səmərəli davranışı böyük psixoloji əsasdan azad deyil. Bu, nəzəri və tətbiqi psixologiyanın, o cümlədən yeni elm sahəsi olan iqtisadi psixologiyanın nailiyyətlərindən istifadə etməyi tələb edir. İnsanın iqtisadi davranışının psixoloji əsaslarına ənənəvi olaraq neoavstriya məktəbi (L.Mizes, F.Xayek) müraciət edir. Rasional seçim nəzəriyyəsi, oyun nəzəriyyəsi (C. fon Neyman), insan kapitalı nəzəriyyəsi (Q.Bekker) ümumsosioloji səmərəli fəaliyyət nəzəriyyəsi**

**(C.Koulmen), sosial seçim nəzəriyyəsi meydana gəlmişdir.**

**İnsanın iqtisadiyyatda səmərəli davranış prinsiplərini iqtisadiyyatla psixologiyanın qovuşuğunda tədqiq edən müxtəlif cərəyanlar arasında ən maraqlılarından biri postkeyn-siançı ingilis iqtisadçısı C.Şeklin yaratdığı «iqtisadi təxəyyül» istiqamətidir.**

**C.Şekl «iqtisadi insan>> davranış modelini ümumi tarazlıq modelinin asılı elementi hesab edərək onu inkar edir. O, əsas diqqəti insanın öz iqtisadi təxəyyülündən çıxış edərək seçimini etməsi üzərində cəmləyir, yəni hesab edir ki, o, seçimini edərkən iqtisadi reallığı xəyalən təsəvvür edir. İqtisadi agent, Şeklə görə, seçimini niyyətlər arasında edir və daha çox ümid verənə və daha yaxşı əhvali-ruhiyyə yaradana üstünlük verir. Variantları çözələyən insan «potensial təəccüblənmə» (onun olmamasından «son hədd təəccüblənməyə» qədərki seçim variantları) əsasında onları müxtəlif cür qiymətləndirir və öz seçimini edir. İqtisadi insanın iqtisadiyyatda səmərəli davranış prinsipinin təhlilinə emosional tərkib hissənin, yaradıcı bazisin, təxəyyülün və zamana - keçmişə iqtisadi agentin yaddaşını bərpa edən, indiyə qərar qəbul edən an və gələcəyə təxəyyülün dediyi kimi - münasibətin daxil edilməsi bu çatışmazlığı artıqlaması ilə müva- zinətləşdirir və Şeklin işlərini iqtisadi nəzəriyyədə yeni istiqamətin başlanğıcı kimi qiymətləndirməyə imkan verir.**

**İnsanın iqtisadi davranışına iqtisadiyyatla psixologiyanın yaxınlaşmasına əsaslanan metodoloji yanaşmalar insanın iqtisadi davranışının yeni, reallığa daha yaxın təsvir variantlarını verən ideyaları inkişaf etdirirlər.**

**Keçmişdə Rusiya iqtisad elmi üçün səmərəli təşkil edilmiş ictimai təsərrüfatın modelləşdirilməsi və mərkəzləşdirilmiş planlı iqtisadiyyat şəraitində səmərəli fəaliyyət göstərən müəssisə (təşkilat) modelinin qurulması səciyyəvi idi. İnsan həmin modelin ayrılmaz tərkib hissəsi kimi çıxış edirdi. Onun davranışının səmərəliliyi çalışdığı planlı şəkildə fəaliyyət göstərən təşkilatın tərkib hissəsi olması ilə müəyyənləşirdi.**

**Rusiyada bazar təsərrüfatçılıq sisteminə keçid insanı ictimai sistemin tərkibi olmaqdan çıxartdı, onun səmərəli davranışının əvvəlki baxışlarını dağıtdı. Təcrübə göstərir ki, insan baxışları onilliklər ərzində dəyişilir, bunun üçün bəzən bir neçə nəslin dəyişməsi lazım gəlir. Səmərəli davanışları ömür boyu planlı iqtisadiyyat və sosial təminat sistemi ilə dəstəklənən adamlar da sərt iqtisadi böhran dövründə dövlət iqtisadi sisteminin dağıdılması şəraitində əsasən şəxsi tələbatların minimuma endirilməsindən və maksimum mümkün olan həyat şəraitinə nail olmaqdan başqa növ səmərəli davranışa keçə bilməzdilər. Əksəriyyət, əsasən yaşlılar şəxsi gəlirlərin maksimallaşdırılmaq və ya faydalılıq prinsipini rəhbər tutmaq bir tərəfə dursun, müstəqil iqtisadi qərar qəbul etməyə hazır deyildi. Bu prinsipi «yeni ruslar* adlanan nisbətən kiçik qrup iqtisadi agentlər rəhbər tutmuşlar. Bu prinsipin əsaslarını gənclər də mənimsəyirlər.**

**«Sosial insan» modeli şərti işləyir, çünki ictimai normalar və ictimai davranış baxışları xeyli səbatsızdır. Sosial normaları və ya davranış qaydalarını gözləmək (institusioalizm təklif edən kimi) olduqca çətindir. Dəlillərin qaydaya salınması və məqsədə doğru getməyə gəldikdə isə (Avstriya məktəbi, neoklassiklər) bu gün bu, insanın ölkənin iqtisadi həyatında davranışını səciyyələndirən prinsiplərdən çox şəxsi qabiliyyət və imkan məsələsidir.**

**Davranış nəzəriyyələrində firmaların da fəaliyyət göstərdiyi zahiri mühitin (iqtisadi, ekoloji, siyasi və sosial şərait) təsirinin nəzərə alınmasına da yer ayrılır.**

**V.İ.Vernadskinin konsepsiyasına müvafiq olaraq, insan planetar hadisədir, insanın düşünən beyni materiyanın və Kainatın qanunauyğun məhsuludur. Təşəbbüs və fəallıq yalnız müəyyən bilik səviyyəsinə deyil, həm də öz tarixini bilən və öz işinin gərəkli olduğunu dərk edən mədəni insanın fikir və işlərini tələb edir. Yalnız bu halda şəxsiyyətin özünü-istiqamətləndirməsi və özüinkişafı mümkündür. V.t.Vemad- ski M.Fridmenin bazar iqtisadiyyatının özü tənzimlənən və**

**ÖZÜ təşkil olunan sistem olması və heç kimin ona qarış- maması barədə fikrinin əleyhinə çıxırdı. O sübut edirdi hi, Öz-Özünə həvalə olunmuş sistem intizamsızlıq olur, onda dağınıqlıq, hərc-mərclik, enerji itkisi yaranır və son nəticədə dağılma baş verir.**

**Təbiətdə və cəmiyyətdə əks proseslər də mövcuddur - qaydaya salınma, yaranma, özünütəhsilləndirmə, dünyanı dəyişən, insanın şüurlu fəaliyyətinin tədricən cəmlənməsidir ki, bunlan Vernadski noosfera məfhumunda ümumiləşdirirdi.**

**İqtisadi insanın bizim şəraitdə davranış modelini hazırlamaq üçün gündəlik və elmi ictimai şüurun vəziyyətini, cəmiyyətin sosial quruluşunu, iqtisadi fəaliyyətin məqsədlərini və onlara çatmaq üsullarını öyrənmək lazımdır. Bu zaman söhbət bəzi alimlərin təklif etdiyi kimi iqtisadi nəzəriyyədə paradiqmanın dəyişilməsindən deyil, müxtəlif paradiqmaya malik paralel nəzəriyyələrin işlənilməsindən gedə bilər.**

### *§2. İnsanın hsyat fsaliyysti mühiti haqqında təlimlsr*

**Ayrı-ayrı adamların, insan qruplarının və bütövlükdə cəmiyyətin təsərrüfatçılıq fəaliyyəti müəyyən şərtlərlə, müəyyən şəraitdə, iqtisadi mühitdə həyata keçirilir.**

**İnsanın təsərrüfatçılıq mühiti nəzəriyyəsi təbii və sosial mühitləri ayırır. Bu onunla izah olunur ki, insanların təsərrüfatçılıq fəaliyyəti, birincisi, təbiətlə, ikincisi isə, ictimai təşkilatlarla məhdudlaşır və şərtlənir.**

**Təbii mühit təsərrüfatçılığın təbii şərtlərini müəyyənləşdirir. Bura iqlim və torpaq xüsusiyyətləri, irsiyyət, əhalinin sayı, qidalanma keyfiyyəti, yaşayış, geyim və s. aiddir. Biz artıq bilirik ki, insanın fəaliyyəti təbii resursların məhdudluğu şəraitində baş verir. Belə ki, məlum olduğu kimi, yer kürəsinin sahəsi 510,2 milyon kv.km-dir, özü də çox hissəsi (3/4) okean və dənizlərin payına düşür. Yer səthində torpaqlar müxtəlifdir, faydalı qazıntıların həcmi eyni deyil, flora və fauna, insanların həyat fəaliyyətinin iqlim şəraitləri rən**

**garəngdir. Belə ki, yer səthinin isti zolağı 49,3%, mülayim - 38,5%, soyuq - 12,2% təşkil edir. Bütün bunlar səciyyəvi xüsusiyyətləri şərtləndirir. İqlim kənd təsərrüfatı işlərinin müddətini və məhsuldarlığını müəyyənləşdirir. Kənd təsərrüfatı işlərinin müddəti Avropada 11 - 4 ay arasındadır (Rusiyada - 4, Almaniyada - 7, Cənubi İngiltərədə - 11 ay).**

**A.Humboldtun hesablamalarına görə bu en dairələrində becərilən banan həmin sahəyə bərabər tsırlada becərilən taxıldan 133 dəfə çox adam yedirdə bilər. Məhsuldarlığa yağıntıların miqdarı da təsir edir. Belə ki, nisbətən qum iqlimli Tula vilayətində (ildə 250 mm-dən az yağıntı) yağmurlu illərdə məhsuldarlıq 1,5 dəfəyə qədər artır. Təsərrüfatçılıq fəaliyyəti üçün ən əlverişli orta yağıntılı (ildə 250 mm-dən 1000 mm-ə qədər) bölgələr hesab olunur; bunlara Mərkəzi və Qərbi Avropa, Şərqi Çin, ABŞ-ın şərq hissəsi aiddir.**

**Müəyyən təsərrüfat nailiyyətlərinin əldə edilməsində irsiliyin xeyli böyük rolu var. Qədim Spartada bədəncə zəif uşaqları öldürürdülər, Kandia adasında belə bir qanun var idi ki, gözəlliyi və gücü ilə seçilən qızları və oğlanları zorla evləndirirdilər ki, insanın «cinsini» yaxşılaşdırsınlar. Bu gün elm sözsüz vərəsəlik qanunlarını qəbul edir. Uşaqlara yalnız zahiri oxşarlıq deyil, həm də psixi keyfiyyətlər keçir, yalnız sağlamlıq deyil, xəstəliklər də (şəkər, artrit, xərçəng, skleroz, epilepsiya, isteriya və s.) keçir. Pis qidalanmaqla müşayiət olunan yoxsulluq, yararsız gigiyenik şərait yalnız hazırkı nəsil arasında deyil, gələcək nəsillər arasında da ölüm və xəstələnmə hallarının artımına səbəb olurlar. Mütləq yadda saxlamaq lazımdır ki, əhalinin vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər dərhal deyil, tədricən səmərəli təsir göstərir.**

**tnsanlann təbii mühitdə həyat fəaliyyəti haqqında müasir elm mövqeyindən insanın kosmosla bağlılığı da nəzərə alınmalıdır. Bu barədə fərziyyələr çoxdan var idi. XVII əsrin sonunda holland alimi X.Hüygens «Kosmoteoros» əsərində qeyd edirdi ki, həyat kosmik hadisədir. Həmin ideya rus**

**alimi V.t.Vernadskiniıı noosfera haqqındakı əsərlərində hərtərəfli inkişaf etdirilmişdi. Noosfera - Yer haqqında yeni anlayışdır. Noosferada insan birinci dəfə böyük geoloji qüvvəyə çevrilir, çünki o öz əməyi və fikri ilə öz həyatını əsaslı surətdə yenidən qurur, keçmişlə müqayisədə öz həyat fəaliyyəti şəraitlərini dəyişir. Bu nəzəriyyəyə görə insanın Yer üzündə gücü onun fiziki gücü ilə deyil, beyni, şüuru və şüurla yönümləndirilmiş əməyi ilə bağlıdır.**

**İnsanı təbiətdən yalnız xəyalən ayırmaq olar. Heç bir canlı orqanizm Yer üzündə azad vəziyyətdə mövcud deyil. Hamı ətraf maddi-energetik mühitlə qidalanma və tənəffüslə ayrılmaz və mütəmadi bağlıdır. Yer və digər planetlər təcrid olunmuş vəziyyətdə deyil, qarşılıqlı əlaqədədirlər. Kosmik maddələr Yerə düşür və insanlara təsir edirlər, yerinkilər isə (həyat fəaliyyətinin nəticələri) kosmik fəzaya gedir (onlara yerin nəfəsi də deyirlər). Biosferin vəziyyəti bütünlüklə Yerdəki həyat fəaliyyətindən asılıdır. Həyatın ətraf mühitə təsirini get-gedə artıran təsərrüfat formalarının yaradılması biosferin yeni vəziyyətinə - noosferə (insan şüuru hökmranlığına) aparır.**

**Bütün insanların bioloji vəhdəti və bərabərliyi təbiətin qanunudur. Buradan isə bərabərlik idealının, təsərrüfat həyatında isə sosial ədalət prinsipinin qanunauyğunluğu və qaçılmazlığı yaranır. Elmin gəldiyi nəticələrin əksinə cəzasız getmək olmaz.**

**XX əsrdə bəşəriyyət vahid tamlıq olur, çünki hazırda Yer kürəsinin elə bir yeri yoxdur ki, orada rabitə, radio, televiziya, EHM və s. olmasın. Belə şəraitdə ümumbəşəri dəyərlər ön plana çıxır və dünya iqtisadiyyatının inkişafında qlobal ümumbəşəri problemlər əsas problemlər olur.**

**Qeyd etmək lazımdır ki, XX əsr yalnız güclü iqtisadi inkişafla deyil, həm də yaşayış mühiti keyfiyyətinin tədricən pisləşməsi, insanın həyatı və sağlamlığı, flora və faunanın mövcudluğu üçün təhlükənin artması ilə səciyyələnir, insanın təsərrüfat fəaliyyətinin ətraf mühitə mənfi təsiri o qədər**

**artdı ki, dünya elmi birliyi həyəcan qaldırdı. Hazırda biosferə antropotogen təsirin səviyyəsi təhlükəli həddə çatıb, bu isə Yeri qarşısıalınmaz təhlükə ilə üz-üzə qoyur.**

**Bəşər tarixində çox olub ki, insanın ağılsız hərəkətləri bəzən böyük insan qruplarının və hətta bütöv xalqların həyatını dəyişən ağır ekoloji qəzalarla nəticələnib. Meşələrin otlaqlar və əkin sahələri salınması məqsədilə yandırılması dəhşətli meşə yanğınları ilə nəticələnib. Kənd təsərrüfatı heyvanlarının böyük sürülərinin təbii komplekslərin özünü- bərpa imkanları nəzərə alınmadan otarılması otlaqların torpaq xarablaşmasını, səhralaşmam şərtləndirib. Kol bitkilərinin yanacaq və tikinti materialı kimi qırılması da səhralaşmaya gətirib çıxarıb.**

**Əvvəlki əsrlərdən fərqli olaraq XX əsr həddindən artıq böyük texnogen fəlakətlər əsri olub və həmin fəlakətlərin nəticələrini yalnız təbii kataklizmlərin nəticələri ilə müqayisə etmək olar. XX əsrin ikinci yarısında Yer üzüpdə orta hesabla hər iki ildən bir iri qəza baş verir. Məsələn, Kiştam- ya şəhəri yaxınlığındakı nüvə silahı üçün pluton istehsal olunan «Mayak» (Çelyabinsk-40) kombinatında baş vermiş qəza nəticəsində ətraf mühitə 2,1 mln.küri radioaktiv maddə tullanmışdı ki, bu da 15000 kv.km sahəni çirkləndirmişdi. 10000-dən artıq əhalisi olan bir neçə kənd köçürülmüşdür. Qəzanın nəticələri indi də öyrənilir.**

**1976-cı ildə Neapolun yaxınlığındakı Seveze şəhərində kimya zavodunda zəhərli dioksin qazının püskürməsi baş vermişdi. Şəhərə yayılmış zəhərli bulud onlarla adamı zəhərləmişdi. Şəhər əhalisi təcili köçürülmüş, şəhər ətrafında qadağan zonası yaradılmışdı. Hətta bir neçə il sonra belə həmin zonada qoyunların şübhəli qırılması hallarına təsadüf olunub.**

**1979-cu ildə Kanada şəhəri Missisauginin dəmir yolunda zəhərli qaz dolu sistemin güclü partlayışı baş vermişdi. Qısa müddət ərzində şəhərin 230 min əhalisi təcili köçürülmüş, zəhərlənmiş 120 kv.km zona isə dövrəyə alınmışdı.**

**Kimya sənayesi ilə bağlı ən dəhşətli qəzalardan biri 1984-cü ildə Hindistanın Bxopal şəhərində, <(Yunion Karbayd^ firmasının zavodunda olmuşdu. Texniki nasazlıq üzündən zəhərli qazların sızması baş vermiş, şəhər üzərində qaz buludu yaranmışdı, nəticədə 2,6 min adam ölmüş, 500 min nəfər isə zəhərlənmişdi. 70 min nəfər güclü zəhər-lənmə nəticədə əlil olmuşdu. Qaz sızması gecə, şəhər əhalisi yatan zaman baş vermişdi ki, bu da vəziyyəti ağırlaşdırmışdı.**

**1986-cı ildə Bazeldə «Sandos» kimyəvi konsernin zavodunun anbarında yanğın söndürüləndə anbarın ərazisindən 30 tona yaxın zəhərli maddə, o cümlədən insektisidlər, herbisid- lər, həlledicilər, 50 kq-a yaxın civə su ilə yuyulmuşdu. Zəhərli qaz dolu çəlləklərin partlaması nəticəsində Bazel üzərində zəhərli bulud əmələ gəlmiş, tez də dağılmışdı. Reyn çayı mənsəbinə qədər onlarla kilometr məsafədə çirklənmişdi. AFR və Hollandiyanın bir sıra şəhərinin 25 min əhalisi bir neçə gün içməli susuz qalmışdı. Su və sahilyanı flora və faunaya böyük zərər dəymişdi. Yalnız 150 minə yaxın ilan-balığı qırılmışdı. Mütəxəssislərin fikrincə, ekosistemin bərpasına uzun illər vaxt lazımdır.**

**Təbii mühitin təsərrüfatçılıq fəaliyyəti üçün vacibliyi və əhəmiyyəti şübhəsizdir, lakin onun təsirini hədsiz artırmaq lazım deyil, çünki insan elə yaradılıb ki, onun bədən üzvləri yaranan şəraitə uyğunlaşır, materialların xüsusiyyətləri haqqında bilikləri və onlardan istifadə bacarığı artır. Elm və texnikanın nailiyyətləri, sosial mədəniyyətin səviyyəsinin yüksəlməsi insanın təbiətlə münasibətlərini yalnız asanlaşdırmır, həm də çətinləşdirə bilir.**

**İnsanların təsərrüfat fəaliyyəti müəyyən «oyun qaydalarım çərçivəsində həyata keçirilir ki, bunlardan ən mühümü mülkiyyət münasibətləridir. Məhz bu münasibətlər təsərrü- f atçılığın səmərəliliyində Öz əksini tapan sosial mühiti müəyyənləşdirir. Adam Smit yazırdı ki, «heç bir mülkiyyət əldə etməyə imkanı olmayan adamın mümkün qədər çox yeyib, mümkün qədər az işləməkdən başqa maraqları ola bilməz m.**

**Bu halda əməyə maraq ya həddindən zəifdir, ya da ümumiyyətlə yoxdur. Bu nəzəri müddəa son dövrlərə qədər «heç kiminki» ictimai mülkiyyətin üstünlük təşkü etdiyi «postkommunist» ölkələrin təsərrüfatçılıq praktikası ilə təsdiqlənir. Xüsusi mülkiyyət azad rəqabətə şərait yaradır, təşəbbüskar, yaradıcı və daha məhsuldar əməyə sövq edir.**

**Təsərrüfat fəaliyyətinə, təsərrüfatçılıq qaydalarını müəyyənləşdirən, əmək şəraitini tənzimləyən müxtəlif dövlət təşkilatlan, həmçinin yuxarıda sadalananlann yaxşılaşdırılmasını tələb edən cəmiyyətlər, partiyalar və həmkarlar ittifaqları xeyli təsir göstərirlər. Tam bürokratik təsərrüfatçılıq sisteminin azad təşkilatlarla əvəzlənməsi sanki sosial atmosferi «təmizləyiri və təsərrüfatçıları ağır bağlılıq və tabeçilik hissindən azad edir, onları şəxsi təşəbbüsə, işi genişləndirməyə həvəsləndirir, muzdlu fəhlələrin isə şəxsi ləyaqət hissini qaldırır.**

**Mülkiyyət münasibətləri istehsalçıların təbəqələşməsini yaradır. Varlılar və kasıblar meydana gəlir. Bu sosial qruplarda tərbiyə, təhsil və Ömrün orta uzunluğu müxtəlifdir. Tərbiyə və təhsil insan orqanizminin fiziki və zehni inkişafına rəvac verir, onu əməyə daha qabil edir və irsi xüsusiyyətlərdə əks olunur. Fransız fizioloqu Florens bildirirdi ki, əlverişli şəraitdə XIX əsrin sonunda insan 100 il yaşaya bilərdi, halbuki orta yaşayış müddəti onda 40 il idi (müqayisə edək: hazırda Fransada - 76; Rusiyada - 59). Fransız həkimi Dipson göstərmişdi ki, XIX əsrin sonunda ömrün orta uzunluğu varlılarda 57 il, kasıblarda isə 37 il olmuşdur.**

**Mülkiyyət münasibətləri çox vaxt əmək şəraitini də müəyyənləşdirir. Hələ qədim dövrlərdə başa düşürdülər ki, insan istirahətsiz işləyə bilməz. Moiseyin *(Musa peyğəmbərin -* qeyd bizimdir.) qanunlarından birində deyilir ki, həftənin yeddinci günü istirahətə həsr olunmalıdır: "Həmin gün heç bir iş görmə, nə özün, nə oğlun sənin, nə qızın sənin, nə qulun sənin, nə kənizin sənin, nə öküzün sənin, nə eşşəyin sənin, nə bütün heyvanların sənin, nə sənin evindəki gəlmə**

**adam". Yəhudilərdə şənbə günündən başqa şənbə ili də olur (hər yeddinci il və 50-illik yubiley ili). Bu zaman böyük cəza qorxusu altında bütün borcları bağışlamaq buyrulurdu.**

**Kapitalizmin yarandığı dövrlərdə iş günü uzunluğu 15, 16, 17 saat və daha çox idi. Hazırda Rusiya fermerləri də bu qədər işləyirlər.**

**İş gününün "düşüncəsiz" uzadılması gəlirin iş gününün uzunluğundan asılı olması kimi səhv fikirdən irəli gəlir. İnsan öz orqanizminə zərər yetirmədən gün ərzində yalnız müəyyən saat həcmində işləyə bilər və işləməlidir. Güman edilir ki, gün ərzində o, 8 saat işləməli, 8 saat yatmalı, 8 saat isə dincəlməlidir. Bu hədlər pozulursa, onda insanın işləməyə qabil olduğu həyat dövrü qısalır. O, vaxtsız ölümün qurbanı olur.**

**Beləliklə, "iqtisadi insan"ın davranışı yalnız təbii şəraitlə deyil, ictimai şəraitlə də müəyyənləşir və deməli, yalnız ictimai qanunlarla deyil, həm də biologiya, kosmos və bütün təbiətşünaslıq qanunları sistemi ilə müəyyənləşir. İqtisadi qanunların təbiət qanunlarından fərqi ondadır ki, birincilər şüura malik insan fəaliyyəti vasitəsilə təzahür edir və meylinə görə tarixən ötəri xarakter daşıyırlar.**

### *§3. Cəmiyyətin iqtisadi sistemləri: anlayış, məzmun, təsnifat*

**Təsərrüfat fəaliyyəti prosesində insanlar arasındakı iqtisadi münasibətlər bu münasibətlərin obyek və subyektini, onlar arasındakı müxtəlif əlaqə sistemini özündə cəmləyən müəyyən sistem kimi fəaliyyət göstərir. Vasili Leontyevin sözlərinə görə, hər ölkənin iqtisadiyyatı böyük bir sistemdir ki, həmin sistemdə çoxlu müxtəlif fəaliyyət növü var və sistemin hər bir hissəsi, komponenti yalmz başqalarında nəsə aldığına görə mövcud ola bilir, yəni başqaları ilə qarşılıqlı əlaqədə və asılılıqda olurlar.**

## Ä. İqtisadi sistem anlayışı və onun məzmunu

**İqtisadi sistem — maddi və qeyri-maddi nemət və xidmətlər istehsalçıları və istehlakçıları arasındakı xüsusi şəkildə nizamlanmış əlaqələr sistemidir.**

**İqtisadi sistemdə təsərrüfat fəaliyyəti həmişə bu və ya digər şəkildə təşkil olunmuş, əlaqələndirilmiş olur.**

**M.Fridmen <tKapitalizm və azadlıq^ kitabında insanların iqtisadi fəaliyyətinin iki əlaqələndirilmə üsulunu nəzərdən keçirir. Birincisi, məcburetmə ilə müşayiət olunan mərkəzləşdirilmiş rəhbərlik və ya iyerarxiyadır; ordunun, müasir totalitar dövlətin metodları belədir. İkincisi, fərdlərin könüllü əməkdaşlığı və ya spontan, kortəbii nizamdır; burada fəaliyyətə əsas siqnal qiymətlərdir. Resurslara və əməyin nəticələrinə qiymətin enməsi və ya qalxması təsərrüfatçılara hansı istiqamətdə hərəkət etmək lazım olduğunu göstərir.**

**İqtisadi sistem anlayışı müxtəlif iqtisadçılar tərəfindən müxtəlif cür şərh edilir.**

**«İqtisadi sistem - müəyyən coğrafi ərazi hüdudlarında istehsal, gəlir və istehlakla bağlı qərarların qəbul edilməsi və həyata keçirilməsi ilə bağlı mexanizmlər və institutların cəmidir»'.**

**«İqtisadi sistem - özündə iqtisadi davranış və nəticələrə bilavasitə və ya dolayısı ilə təsir edən bütün institutlar, təşkilatlar, qanun və qaydalar, ənənələr, mövqelər, dəyərləndirmələr, qadağalar və davranış sxemlərini əhatə edir»^.**

**Təriflər göstərir ki, iqtisadi sistemlər çoxölçülüdür. Onları belə formallaşdırmaq olar:**

$$ES = f\,(Aj, A_2, ...Afj),$$

**Burada ES - N sayda mövcud olan keyfiyyətlərlə (AO müəyyən edilən iqtisadi sistemdir. Bu keyfiyyətlər iqtisadi** *

* n.rperopH, P.CTioapT.
^ «I>.npaHop.

**sistemlərin fərqləndirilməsi, onların növlərinin müəyyənləşdirilməsi zamanı meyar kimi çıxış edə bilirlər.**

**İstənilən iqtisadi sistem bir sıra mütləq hissələrdən və ya ümumi elementlərdən ibarətdir (cədvəl 4.1).**

**Məhsuldar qüvvələr (marksist nəzəriyyəsinin kateqoriyası) ictimai istehsalın fərdiyyətli subyektiv və maddi-əşyavi obyektiv amillər sistemidir; bu, istehsal vasitələri və biliyə, istehsal təcrübəsinə, əmək vərdişlərinə malik olan və istehsal vasitələrini hərəkətə gətirən insanların məcmusudur.**

**Cəmiyyətin əsas məhsuldar qüvvəsi - insanlar, ictimai istehsalın iştirakçılarıdır. İstehsal vasitələri insan ağlının, zəhmətinin və təsərrüfat fəaliyyətinin nəticəsidir. İstehsal vasitələrinin təkmilləşdirilməsi, təbii sərvətlərin mənimsənilməsi, təbiət və cəmiyyətin inkişaf qanunlarına yiyələnmə məhsuldar qüvvələrin durmadan inkişafının həlledici amilləridir.**

*Cədvəl 4.1.*

**İqtisadi sistemin ümumi elementləri**

| Məhsuldar qüvvələr | | |
|---|---|---|
| Təbii; təbii resurslar, insanın imkanları və s. | İctimai; istehsal vasitələri, əmək bölgüsü və s. | Ən ümumi: elm, təhsil, mədəniyyət və s. |
| İstehsal münasibətləri | | |
| Sosial-iqtisadi (mülkiyyət münasibətləri) | Təşkilati-iqtisadi (təcrübə mübadiləsi, marketinq, | Texniki-iqtisadi |
| Resurslar: əmək, təbii, istehsal vasitələri, elmi-texniki, təhsil və s. | İctimai əmək bölgüsü: istehsalın məhsul hazırlanması üzrə ixtisaslaşması | Əmək prosesi və onun tərkib hissələri: əmək, əmək vasitələri, əmək cisimləri |
| İstehsal imkanları: məhdud resurslardan seçim | Nəticələr: maddi-əşyavi məhsul, xidmətlər | Səmərəlilik: nəticələrlə xərclərin nisbəti |

**Məhsuldar qüvvələrdə torpaq xüsusi yer tutur. Bəzi sahələrdə o əsasən əmək cismi kimi (mədən sənayesi), digərlərində əmək vasitəsi kimi (kənd təsərrüfatında) istifadə olunur. Lakin hər yerdə o, istehsalın maddi şərti kimi çıxış edir. Məhsuldar qüvvələr daxili quruluşa malikdir və burada, hər şeydən əvvəl istehsal vasitələri və işçi qüvvəsi fərqləndirilir (şəkil 4,1).**

**Verilmiş zaman kəsiyində formalaşmış məhsuldar qüvvələr və texnoloji münasibətlər sistemini "istehsalın texnoloji üsulu" adlandırırlar.**

**Həyat fəaliyyəti prosesində insanlar arasında iqtisadi, siyasi, hüquqi, sosial, etik münasibətlər yaranır ki, bunlar da cəmiyyətin sistemli qarşılıqlı əlaqələrini əks etdirirlər. İqtisadi münasibətlərə maddi nemət və xidmətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı ilə bağlı münasibətlər daxildir. Q.V.Plexanov iqtisadi münasibətləri əmlak (və ya sosial-iqtisadi, yəni mülkiyyət) və təşkilati-iqtisadi münasibətlərə ayırırdı. Texnoloji münasibətlər insan və əmək cismi, istehsal prosesini həyata keçirərkən insanlar arasında qarşılıqlı əlaqə prosesində yaranır.**




**Şəkil 4.1. Cəmiyyətin məhsuldar qüvvələrinin quruluşu**

**İqtisadi məhsul və ya istehsal olunan, yaradılan və iqtisadiyyatda istifadə olunan şey, məhsuldar qüvvələrin və istehsal (iqtisadi) münasibətlərinin qarşılıqlı əlaqəsinin məhsuludur.**

**Məhsuldar qüvvələr ictimai istehsalın aparıcı tərəfidir. Məhsuldar qüvvələrin hər bir inkişaf mərhələsinə (marksizmə görə) onların sosial-iqtisadi hərəkət formaları kimi çıxış edən müəyyən istehsal münasibətləri müvafiqdir.**

**İstehsal və ya iqtisadi münasibətlər cəmiyyətin iqtisadi təşkilinin əsasını əmələ gətirirlər, məhsuldar qüvvələr ilə birlikdə isə iqtisadi sistemlərin spesifik forma və növlərini müəyyən ləşdirirl ər.**

**İqtisadi sistemin istehsal imkanları cəmiyyət inkişaf etdikcə nəinki artmayan, bəzən hətta azalan resursların azlığı ilə məhdudlaşır. Bu, bərpaolunmaz təbii resursların azalması, istehlakın yeni əmtəə və xidmətlər istehsalının inkişafı üçün yeni təkanlar verməməsi ilə şərtlənir. Sonuncuların keyfiyyət xarakteristikaları dəyişir ki, bu da istehlak əmtəələrinə və investisiyaların qoyulmasına tələbatın artmasına gətirib çıxarır.**

**İqtisadi nəzəriyyədə resursların mütləq və nisbi məhdudluğu fərqləndirilir. Mütləq məhdudluq dedikdə, eyni zamanda cəmiyyət üzvlərinin bütün tələbatlarının ödənilməsi üçün istehsal resurslarının kifayət olmaması başa düşülür. Lakin tələbatlar dairəsi azaldılarsa, mütləq məhdudluq nisbi məhdudluğa çevrilir, çünki məhdud tələbatlar üçün resurslar nisbətən tükənməzdir.**

**Mütləq məhdudluq əsasən təbii və əmək resursları üçün nisbi isə maddi, maliyyə, informasiya resursları üçün səciyyəvidir. Resurslar məhdud olduğu üçün cəmiyyət seçim etməlidir. Seçim edərkən cəmiyyət nədənsə imtina etməli, nədənsə keçməlidir, yəni istənilən nəticəni əldə etmək üçün nəyisə qurban verməlidir.**

**İmtina etdiklərimiz, seçilmiş ictimai nəticələrin əldə edilməsinin itirilmiş (gizli) xərcləri adlanır.**

**Əgər iqtisadi resurslar yaşayış evlərinin tikintisinə sərf edilirsə, onda onların pul dəyərini torpağın, materialların və iş qüvvəsinin xərcləri təşkil edir. Gizli xərclər həmin resurslar hesabına tikilə bilməsi mümkün olan xəstəxanalar, məktəblər, kitabxanalar və ya ofislərdir. Cəmiyyət bütün resursların hamısını yaşayış evlərinin tikintisinə yönəldə bilər, eləcə də bu tikintinin həcmini azalda da bilər ki, eyni zamanda məktəblər və xəstəxanalar da tikə bilsin.**

**Beləliklə, yaşayş evlərinin, xəstəxana və məktəblərin tikilməsi nəinki biri digərinə alternativ olur, hətta bir-birini tamamlayırlar. Alternativ imkanların qiymətləri cədvəl 4.2.- də verilmişdir.**

***Cədvəl 4.2.***

**Tikintinin alternativ imkanları qiymətləri**

| İmkanlar | Yaşayış evlərinin tikintisi | Xəstəxana, məktəb və s. tikintisi |
|---|---|---|
| A | 15 | 0 |
| B | 14 | 1 |
| C | 12 | 2 |
| D | 9 | 3 |
| E | 5 | 4 |
| F | 0 | 5 |

**Cədvəl 4.2.-nin rəqəmlərini qrafiklə də göstərmək olar (şəkil 4.2.): burada üfüqi ox üzərində xəstəxana, məktəb və s. sayı göstərilir, şaqulidə isə yaşayış evlərinin sayı. Rəqəmləri qeyd edib sonra həmin nöqtələri birləşdirsək, istehsal imkanları və ya transformasiya əyrisini alarıq (A B C D E F).**




**Şəkil 4.2. İstehsal imkanları qaydaları**

**Transformasiyanın iqtisadi mənası ondadır ki, cəmiyyət iqtisadiyyatda, bu halda resursların təkrar bölüşdürülməsi yolu ilə yaşayış evləri və xəstəxanalar və s, tikintisi arasında texnoloji seçim edir.**

**İstehsal imkanları həddi qrafiki (şəkil 4.2.) göstərir ki, potensialını tam realizə edən milli iqtisadiyyat hər hansı nemətdən keçmədən başqa bir nemətin istehsalını artıra bilməz. İqtisadi sistemin öz istehsal imkanları həddində fəaliyyət göstərməsi (A 6 C D E F) onun səmərəliliyinə dəlalət edir.**

**Bundan çıxış edərək M nöqtəsinə müvafiq uyğunluğun seçilməsi həmin ölkə üçün uğursuz sayılır, çünki istehsal resurslarından səmərəli istifadə etməyə imkan vermir. N nöqtəsi əsasında istehsalın həyata keçirilməsi isə mümkün deyil, çünki həmin nöqtə bu iqtisadi sistemin istehsal imkanları həddi xaricindədir. Beləliklə, iqtisadi sistemin səmərəli fəaliyyət göstərməsinin əsas problemi düzgün seçim problemidir.**

**Seçim probleminin mahiyyəti ondadır ki, çoxsaylı tələbatları ödəmək üçün istifadə olunan hər bir amil məhdud olsa da, ondan alternativ istifadə və istehsal amillərinin daha yaxşı uzlaşdırılması problemi həmişə mövcuddur.**

**Həmin problem iqtisadiyyatın üç əsas məsələsinin qoyuluşu ilə əks etdirilir (şəkil 4.3.).**




**Şəkil 4.3. İqtisadiyyatın üç əsas sualı**

**Təsərrüfat sisteminin xüsusiyyətləri, bir tam kimi onun tərkibinə daxil olan quruluş elementləri xüsusiyyətlərinin sadəcə cəmi ilə eyni deyil. Yeni keyfiyyətlər, yeni xüsusiyyətlər meydana gəlir. Sistem daim inkişafdadır və müəyyən xüsusiyyətlərə malikdir: bütövlük, nizamlılıq, sabitlik, dəyişkənlik, dözümlülük, çeviklik, ziddiyyətlilik.**

## B. İqtisadi sistemlərin təsnifatı

**İqtisadi ədəbiyyatlarda təsərrüfat (iqtisadi) sistemlərinin inkişaf təmayüllərinə baxışlar müxtəlifdir. İqtisadçıların bir qismi hesab edir ki, sistemin inkişafının həlledici təmayülü eyniliyə, bütün quruluş elementlərinin unifikasi- yasına yönüralənmiş inkişafdır. Belə ki, Y.Preobrajenski yazır ki, müxtəlif təsərrüfatçılıq sistemləri milli təsərrüfat çərçivəsində onlar arasında tam iqtisadi tarazlıq zəminində mövcud ola bilərlər, lakin belə tarazlıq uzun müddət qala bilməz, çünki bir sistem digərini məhv etməlidir. Belə nəzəri görüşlər hər hansı iqtisadi hadisə və proseslərin tam məhv edilməsi (məsələn, kapitalizmdən sosializmə keçid dövründə xüsusi mülkiyyətin məhv edilməsi) və yenilərinin yaradılmasına yönəldilmiş islahatlar dövründə iqtisadi siyasətin əsasını təşkil edir.**

**Başqa iqtisadçılar hesab edirlər ki, müxtəlif iqtisadi sistemlərin yanaşı mövcud olması həmin sistemləri qarşılıqlı zənginləşdirir, bu isə iqtisadi artıma və keyfiyyətcə yeni təsərrüfat sisteminin yaranmasına aparır. Məsələn, N.Buxarin YİS-in (Yeni İqtisadi Siyasət) ən dərin mənasını müxtəlif təsərrüfat qüvvələrinin qarşılıqlı maraqlarında görür ki, məhz bu zəmində də artım təmin edilirdi. Müasir konvergensiya (uyğunlaşma) nəzəriyyəsi müxtəlif iqtisadi sistemlərin özlərinin inkişafı və təkmilləşməsi prosesində son nəticədə birləşib yeni təsərrüfat sistemi yaradacaqları tezisi üzərində qurulur.**

**Baxışların belə ziddiyyətli olması bir təmayülün digərini əvəzlədiyi iqtisadi sistemlərin inkişaf ziddiyyətliliyini əks etdirir. Bir çox ölkələrin müasir inkişafı bu nəzəri müddəanı təsdiqləyir: ümumi milliləşdirmə özəlləşdirmə ilə; ümumi planlaşdırma ondan imtina ilə; mərkəzləşmə qeyri-mərkəzləşmə ilə və s. əvəzlənir. Dəyişmələr nə qədər çox olsa, ölkə iqtisadiyyatının inkişafındakı çətinliklər bir o qədər çox olar.**

**Müasir dünya ən müxtəlif iqtisadi sistemlərin mövcudluğu ilə səciyyələnir, onlar bu və ya digər tarixi şəraitdə yaranaraq dəyişilməz qalmayıb, daim inkişaf etmişdilər. Cəmiyyət həyatındakı bu və ya digər hadisəni daha yaxşı başa düşmək üçün onu hər hansı bir xalqda və hər hansı bir dövrdə deyil, tarixi prosesdə nəzərdən keçirmək, yəni onu dəyişkən, formalaşan, müəyyən inkişaf fazaları, mərhələləri keçən bir şey kimi aydınlaşdırmaq lazımdır.**

**Müasir dünyanın bütövlüyü və ziddiyyətliliyi haqqında məsələ ictimaiyyətşünaslığın əsas məsələsidir, iqtisadi nəzəriyyə də (siyasi iqtisad) bunun bir hissəsidir.**

**Müasir dünya cəmiyyətin təbii tarixi inkişafının nəticəsidir. Tarixi prosesin ayrı-ayrı iqtisadçı alimlər tərəfindən dərki fərqlidir və bu həmin prosesin xarakteristikası üçün müxtəlif meyarlardan istifadə olunmasıdır.**

**Bizə ən çox məlum olan ictimai həyatın hadisə və proseslərinin əsasında duran formasiya yanaşmasıdır. V.Zasuliçə məktubunda K.Marks üç böyük formasiya olduğunu göstərir:**

**1)ilkin (arxaik), o bura ibtidai-icma və Asiya istehsal üsullarını aid edirdi;**

**2)ikinci, xüsusi mülkiyyətə söykənən (quldarlıq, təhkim-çilik, kapitalizm);**

**3) kommunist.**

**Marksa görə, kommunizm, çoxlarımızın təsəvvür etdiyi kimi, «ideal istehsal üsulu deyil», bir sıra istehsal üsulunu özündə birləşdirən tarixi dövrdür, onun əsas məzmunu xüsusi mülkiyyətin məhv edilməsindədir. Marksa görə, «Hər kəsin azad inkişafı hamının azad inkişafının şərtidir», kommunist idealı yalnız kommunizm dövru başa çatandan sonra yeni «müsbət humanizm» dövründə həyata keçəcək. K.Marks, F.Engels, sonra isə V.İ.Leninə görə, kommunizm iki mərhələdən ibarətdir və bunların içində aşağı mərhələ sosializmdir.**

**Ölkəmizdə və Şərqi Avropa ölkələrində baş verən**

**hadisələrlə bağlı belə suallar meydana çıxır: marksizmin cəmiyyətin sosialist dəyişməsi haqqındakı təlimi doğrudurmu və kommunist ideyasının özü utopiya deyilmi? Bu suallara bu gün hərə bir cür cavab verir. Bəziləri hesab edir ki, keçmiş sosialist ölkələrində əslində sosializm olmayıb, sosializm bəlkə də Qərbin inkişaf etmiş ölkələrində olub, buna görə də, məsələn, «sosializmin İsveç» modelindən danışırlar. Digərləri deyirlər ki, sosializm olub, dünya sosializm sistemi də olub, amma sosialist təsərrüfatçılıq sistemi xeyli təhrif olunub. Hazırda dünya təcrübəsində, jurnalistikada və iqtisadi ədəbiyyatlarda opostkommunist və ya postsosialist ölkələri» məfhumuna get-gedə daha çox rast gəlinir ki, bu da yaxın vaxtlara qədər həmin ölkələrdə sosializmin mövcud olmasının etiraf edilməsinə dəlalət edir.**

**Formasiya yanaşması cəmiyyətin tarixi inkişafında qanunauyğun mərhələləri aşkarlamağa və həlledici rolun bilavasitə istehsal prosesinə və ya istehsal üsulüna məxsus olması fikrinə əsaslanaraq maddi istehsalın beş üsulunu (ibtidai-icma, quldarlıq, feodal, kapitalist və kommunist) fərqləndirməyə imkan verdi.**

**Hazırda beş istehsal üsulunun klassik fərqləndirilməsi bir sıra səbəblərdən şübhə doğurur, bunlardan biri budur ki, o yalnız Qərbi Avropaya şamil edilə bilər və ümumi xarakter daşımır. Asiya istehsal üsulu, Çin və Hindistan sivilizasiyaları bu çərçivəyə sığmır, Rusiyanı da bura çox böyük çətinliklə sıxlaşdırmaq olar. Buna görə də dünyanın inkişaf proseslərinin formasiyalar, maddi istehsal üsulları səviyyəsində nəzərdən keçirilməsi, bütün nəzəri və tarixi əhəmiyyətinə baxmayaraq, dünyada baş verən bütün hadisələrin mürəkkəb çoxluğunu əhatə edə bilmir. Belə yanaşmanın müəyyən məhdudluğu aydındır. Buna görə də, iqtisadi ədəbiyyatlarda cəmiyyət həyatının hadisə və proseslərinin təhlili üçün başqa meyarlardan istifadə etməyə cəhd olunur.**

**XX əsrin əvvəllərində K.Byuher (1906) cəmiyyətdə istehsalla istehlak arasındakı əlaqənin xarakteri əsasında**

**aşağıdakıları fərqləndirirdi;**

**■ qapalı ev təsərrüfatı - yaradılan nemətlərin hamısı mübadiləsiz təsərrüfatın özündə istehlak olunur;**

**■ şəhər təsərrüfatı - bilavasitə mübadiləyə yer var, nemət istehsalçı təsərrüfatdan istehlakçı təsərrüfata keçir;**

**■ xalq təsərrüfatı - istehlaka çatmazdan öncə nemət əmtəə-pul mübadiləsi əsasında bir sıra təsərrüfatdan keçir.**

**Qapalı ev təsərrüfatı ibtidai ailə qruplarının (matriarxal və patriarxal ailələr), təhkimçilik və quldarlığın mövcudluğu ilə səciyyələnir. Ailədə adətən 16-40, slavyan «zadruqa»sında 20-25 nəfər olurdu. Quldarlıq, daha sonralar isə təhkimçilik ev təsərrüfatı olduqca böyük həcm alırdı. Burada mübadilə ikinci dərəcəli hadisəydi, maddi nemətlər toplanır, satılmırdı. Belə fikir var ki, rus qonaqpərvərliyi və duz-çörəkliyi təhkimçilik sisteminin məhsuludur: çoxlu ehtiyat yığılıb qalırdı və dostlar, yaxınlar arasında istehlak olunurdu.**

**Şəhər təsərrüfatı təsərrüfatın kiçik müstəqil sənətkarların azad iqtisadi fəaliyyəti və sex inhisarı kimi təşkili ilə səciyyələnir.**

**Xalq təsərrüfatı vaxtaşırı azad olan muzdlu əməkdən istifadə edən iri istehsaldır. «Xalq və ya kapitalist təsərrüfatım yaranır. Sex təşkilinin kapitalist təşkili ilə əvəzlənməsi dövlətin dəstəyi ilə həyata keçirilir, «politeya» məfhumu - dövlət quruluşu işlədilməyə başlanır. Sahibkar meydana gəlir, o əvvəlcə hazır məmulatları alıb yığır, sonra ustaları xammalla təmin edir, sonra özü mərkəzi fiqura çevrilir. Ra- sionalizm ruhu bütün münasibətləri əhatələyir.**

**E.Meyer və K.Belox ticarətin Qədim Romada və Qədim Yunanıstanda geniş yayılmasına əsaslanaraq K.Byuherin sxeminə qarşı çıxırdılar. Onlar haqlı olaraq qeyd edirdilər ki, o dövrlərdə ticarət antik xalqların iqtisadi təsərrüfat növünü qapalı ev təsərrüfatı kimi səciyyələndirir.**

**Məşhur Amerika alimi Uolt Rostou da K.Marks kimi tarixi beş mərhələyə bölür: ənənəvi cəmiyyət (primitiv texnika, kənd təsərrüfatı, iri torpaq sahiblərinin hakimiyyəti),**

**keçid cəmiyyəti (mərkəzləşdirilmiş dövlət, sahibkarlıq), «dəyişiklik » mərhələsi (sənaye inqilabı və onun nəticələri), «yet- kinlik» mərhələsi (ETİ, urbanizasiya), «kütləvi istehlak» mərhələsi (xidmət sahələrinin və istehlak malları istehsalının müəyyənləşdirici rolu). Belə konsepsiyada inkişafın əsası - məhsuldar qüvvələr və mərhələlərin ardıcıllığı, bəzi yeniliklərə baxmayaraq, K.Marks təlimini xatırladır.**

**A.Tofler «zamanın məntiqindən, yəni insan cəmiyyətinin tarixi inkişafında aqrar, sənaye mərhələlərini və müasir cəmiyyətin hazırda keçməkdə olduğu mərhələnin olduğunu göstərir.**

**Müasir xarici iqtisadi fikir «cəmiyyətin sənaye inkişafı dərəcəsin meyarını tətbiq etməklə sənaye, postsənaye və neo-sənaye (informasiya) cəmiyyətlərini fərqləndirir (C.Helbreyt, R.Aron və b.).**

**Dünya iqtisadi ədəbiyyatında təsərrüfat sistemlərinin iki əlamətə görə təsnifatı daha geniş yayılmışdır:**

**■ istehsal vasitələrinin mülkiyyət formasına;**

**■ iqtisadi fəaliyyətin koordinasiya və idarə edilməsi üsuluna görə.**

**Bu əlamətlərə əsasən fərqləndirirlər:**

**■ amirlik (komanda) və ya totalitar iqtisadiyyat, burada müəssisələrin çoxu dövlət mülkiyyətində olur və öz fəaliyyətini dövlət direktivləri əsasında həyata keçirir: cəmiyyətdə nemətlər və xidmətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı barədə bütün qərarlar dövlət tərəfindən qəbul olunur. Bura SSRİ, Albaniya və b. aiddir;**

**■ bazar iqtisadiyyatı və ya azad rəqabət dövrü kapitalizmi - resurslar üzərində xüsusi mülkiyyətlə, bazar və qiymətlər sistemindən iqtisadi fəaliyyəti tənzimləmək və idarə etmək üçün istifadə ilə səciyyələnir. Azad bazar iqtisadiyyatında resursların bölüşdürülməsində dövlət heç bir rol oynamır, bütün qərarlar bazar subyektləri tərəfindən, bütün məsuliyyəti özləri daşımaqla, müstəqil qəbul edilir. Bazar iştirakçıları öz şəxsi maraqlarından çıxış etsələr də, onların**

**fəaliyyəti, A,Smitin sözlərinə görə, başqa insanların və bütövlükdə cəmiyyətin maraqlarını realizə etmək üçün «gözə görünməzi əllə (yəni rəqabətlə) istiqamətləndirilir. Buraya bu gün, məsələn, Honkonqu aid etmək olar;**

**■qarışıq iqtisadiyyat, burada bütün resursların və maddi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakında dövlət bölməsi də, özəl bölmə də (müəssisələr və ev təsərrüfatı) mühüm rol oynayırlar; burada dövlət bazar iqtisadiyyatına müdaxilə edir, lakin bazarın tənzimləyici rolunu heçə endirəcək dərəcədə yox. Bura inkişaf etmiş ölkələri, o cümlədən ABŞ, İngiltərəni, Fransanı, Almaniyanı və b. aid edirlər.**

**İnsan cəmiyyətinin inkişafında keçid iqtisadiyyatı - daim dəyişmədə, bir təsərrüfatçılıq növündən digərinə keçmədə olan iqtisadiyyat xüsusi yer tutur. Keçid iqtisadiyyatından cəmiyyətin inkişafındakı keçid dövrünü fərqləndirmək lazımdır, bu dövrdə bir ictimai münasibətlər başqaları ilə əvəzlənir.**

**Ətraf aləmin dərkinə yeni yanaşmalar ələlxüsus XX əsrin ikinci yarısında baş verən dəyişikliklərin dərinliyi, miqyası və xarakteri ilə şərtlənir:**

**■ texnika və texnologiyada istehsalın təşkilini kökündən dəyişmiş inqilabi irəliləyişlər;**

**■müasir informasiya sisteminin, istehsal və sosial infrastrukturlarının yaradılması;**

**■atom müharibəsi, ekoloji məhv təhlükəsi, insanların taleyinin ümumiliyi;**

**■ planetimizdə çoxəsrlik təkamüli inkişaf nəticəsində yaradılmış dünyanın mürəkkəbliyinin və çoxölçülüyünün dərki;**

**■ dünya sivilizasiyasının keyfiyyət dəyişikliklərinin başa düşülməsi.**

**Bizim ən böyük faciəmiz ondadır ki, özümüz də hiss etmədən ən primitiv stereotiplərin əsiri oluruq ki, bunlardan da biri dünyanı yalnız ağ-qara rənglərdə görmək, yalnız cüt.**

**qoşa kateqoriyalarla düşünməkdir: sol - sağ; demokratlar - mühafizəkarlar; sosializm — kapitalizm; xüsusi - ictimai mülkiyyət və s. Bu XIX əsrin düşüncə tərzi və anlayışlar aparatıdır. Bu gün cəmiyyət həyatını, o cümlədən iqtisadi həyatı bütün çoxölçülüyü ilə bu qaydada elmi təsvir etmək olmaz. Bu isə yeni yanaşmalar, yeni nəzəriyyələr axtarışını zəruri edir.**

**Cəmiyyətin tsiklik inkişafı, sivilizasiyaların əvəzlənməsi nəzəriyyəsi xüsusi maraq doğurur.**

**«Sivilizasiya» (lat.civilis) sözünü dilimizə çevirdikdə vətəndaş, ictimai deməkdir. Bu, elm üçün nisbətən cavan olan məfhum cəmi iki yüz il əvvəl elm aləminə daxil edilib və fransız maarifçi filosofları tərəfindən ağıl və azadlığın hökmran olduğu cəmiyyətin xarakteristikası üçün istifadə olunurdu. Hazırda «sivilizasiya» sözü elmi ədəbiyyatda mədəniyyətin xarakterini və səviyyəsini dəyərləndirmək üçün istifadə olunur (antik və müasir Avropa və Asiya sivilizasiyalarını və s. fərqləndirirlər); insan cəmiyyətinin inkişafında barbarlığı əvəzləmiş mərhələni səciyyələndirmək üçün (L.Morqan, F.Engels); qapalı qruplar, xalqlar və dövlətlərin mədəni-tarixi inkişaf tsikli kimi başa düşülür (N.V.Danilev- ski, A.Toynbi); mədəniyyətin inkişafının son mərhələsi, onun tənəzzül fazası kimi (O.Şpenqler); ictimai həyatın əsas komponentlərinin məcmusu kimi: insan potensialı, maddi nemətlər istehsalı üsulu, ətraf mühit, əkinçilik və sənaye sivilizasiyalarını fərqləndirirlər (A.M.Kovalyov); cəmiyyətin tsiklik inkişafında, onun tərkib hissələrinin: elm, iqtisadiyyat, mədəniyyət və b.k. cəmi şəklində müəyyən mərhələ kimi (Y.V.Yakovets). Sivilizasiya dedikdə Rusiyada daha çox, əsasən inkişaf etmiş ölkələrdə ağılla təşkil olunmuş iqtisadi və sosial-hüquqi münasibətlər sistemi başa düşülür.**

**Tsiklik inkişaf nəzəriyyəsinə görə yeddi sivilizasiya fərqləndirilir: neolit - mövcudluq müddəti 30-35 əsr, Rusiyada isə 20-30 əsr; şərq-quldarlıq (bürünc dövrü) - mövcudluq müddəti dünyada 20-23 əsr, Rusiyada 15-16 əsr;**

**antik (dəmir dövrü) - dünyada 12-13 əsr, Rusiyada isə 11- 12 əsr; erkən feodal - müvafiq olaraq 7 və 7 əsr; sənayeyə- qədərki - 4,5 və 2,5 əsr; sənaye - 2,3 və 1,5 əsr; postsənaye — 1,3 və 1,4. Sivilizasiyaların növbələşməsin! qrafik şəkildə təsvir etmək olar (şəkil 4.4.).**

**Bu nəzəriyyə bu gün dünyada, o cümlədən Rusiyada baş**




**Şəkil 4.4. Sivilizasiyaların dəyişməsi verən**

**proseslərə yenidən baxmağı mümkün edir. O, aşağıdakı nəticələrə gəlməyə imkan verir.**

**■Dünya iqtisadiyyatının və Rusiya iqtisadiyyatının vəziyyəti insan cəmiyyətinin təbii inkişaf yolunun nəticəsidir; bunu Rusiyada sənaye sivilizasiyasının çiçəklənməsi dövrünün 1909-cu ilə təsadüf etməsinə və sonrakı illərdə həmin sivilizasiyanın tənəzzülə uğramasına baxmayaraq, baş tutmayan sosializm quruculuğunun nəticəsi, ölkəmizin 75-illik həyatını isə geriyə doğru addım kimi nəzərdən keçirmək olmaz.**

**■Bazar iqtisadiyyatına keçid - antikommunistlərin və ya Rusiyada hakimiyyətdə olan siyasətçilərin uydurması deyil, bu, sənaye sivilizasiyasının postsənaye sivilizasiyası ilə yerdəyişməsi ilə şərtlənən obyektiv zərurətdir; sonuncusu**

**etibarilə sosial yönümlü bazar təsərrüfatıdır.**

**■Bazarın bütün sivilizasiyalarda olduğu nəzərə alınsa (düzdür, onun rolu müxtəlif olub), onda müasir keçid dövrünün mahiyyəti bazara keçidlə deyil (bazardan bazara keçmək olmaz), bir sivilizasiyanın digərini əvəzləməsindədir. Rusiyanın hazırda bazar iqtisadiyyatına keçməsi haqqında söylənilənlər isə bizim sosializmin (o cümlədən Rusiyada qurulmuş) bazarla, planın bazarla bir araya sığmaması kimi primitiv stereotiplərin, ştampların əsarətində olmağımızı göstərir.**

**■Keçid dövrünün uzunluğu, o, böhran mərhələsi və keçmiş sivilizasiyanın sıxışdırılması və yeni sivilizasiyamn yaranması kimi dərk olunsa, Leninqrad iqtisadçıları V.l.Kuzminin və A.V.Jirmunskinin hesablamalarına görə, tsiklin ümumi uzunluğunun 1/4 əhatə edir, bu da onu göstərir ki, Rusiya yeni sivilizasiyaya təxminən 2010-cu ildə daxil olacaq.**

**■Rusiyanın bu və ya digər sivilizasiyaya gec qədəm qoyub, amma onu daha tez keçməsi nəzərə alınsa, hesab etmək olar ki, Rusiya xalqları tərəqqini əvvəllər hesab olunduğundan xeyli tez mənimsəyirlər. Rusiya xalqlarını tənbəl, heç nə bacarmayan, ləng kimi təqdim etmək yanlışdır. Sivilizasiyanın təkamülü bunun əksini göstərir.**

# II BÖLMƏ
# MİKROtQTİSADİYYATIN VƏ MEZOİQTİSADİYYATIN NƏZƏRİ PROBLEMLƏRİ

**Mikroiqtisadiyyat müasir iqtisadi nəzəriyyənin ən mühüm tərkib hissələrindən biridir. Onun tədqiqat predmeti müxtəlif iqtisadi subyektlərin təsərrüfat fəaliyyəti (onların iqtisadiyyatda davranışı) və onların məqsədlərinin razılaşdırılması mexanizmləridir. İqtisadi subyektlərə istehlakçılar və istehsalçılar, işçilər, kapital qoyanlar, torpaq sahibləri və iqtisadiyyatın fəaliyyətində əhəmiyyətli rol oynayan bu kimi istənilən fərdlər aiddir. Dövləti də fəaliyyətində maddi nemətlərin istehsalçısı və istehlakçısı kimi çıxış etdiyi məqamlarda mikroiqtisadiyyata aid etmək olar.**

**Məqsədlər və onlara çatma vasitələrinin növlərinə görə iqtisadi subyektlər mikroiqtisadiyyatda istehlakçılara (ev təsərrüfatı) və istehsalçılara (firmalar) bölünürlər. İstehlakçının məqsədi tələbatlarını mümkün qədər çox ödəmək, istehsalçının məqsədi isə gəliri və ya fəaliyyətinin başqa göstəricilərini maksimallaşdırmaqdır.**

**Mikroiqtisadiyyatın tarixi kökləri klassik iqtisadi məktəbin əsərlərinə (A.Smit, D.Rikardo, J.B.Sey, C.Mili və b.) gedib çıxsa da, onun meydana gəlməsini neoklassika (Q.Qossen, K.Menger, A.Marşall, L.Valras, V.Paretonun əsərləri) ilə əlaqələndirmək lazımdır.**

**İqtisadi subyektlərin təsərrüfatçı məqsədlərinin uyğunlaşdırılması taraz qiymətlər sisteminin formalaşması vasitəsilə baş verir. Buradan da mikroiqtisadiyyatın şərhi məntiqi bazar qiymət yaranması məntiqini əks etdirir, buna görə də bir sıra iqtisadçılar mikroiqtisadiyyatın predmetinin bazar qiymət yaranması mexanizmi (bazar mexanizmi) olduğunu bəyan edirlər.**

**Mikroiqtisadiyyatın tədrisində fənnin verbal (şifahi, söz vasitəsilə) çatdırılması ilə yanaşı riyazi təhlil metodları və iqtisadi hadisələrin qrafik təqdimatından da geniş istifadə olunur ki, bu da öyrənilən materialın çatdırılmasında dərinliklə anlaşıqlığı birləşdirməyə imkan verir. Bundan başqa, burada iqtisadi nəzəriyyənin elmi mücərrədləşmə, məntiqi, tarixi, iqtisadi-statistik və başqa metodlarından da istifadə olunur.**

**Mikroiqtisadiyyatın problemlərinin öyrənilməsi Qərbdə problemin mürəkkəblik dərəcəsi və onun çatdırılmasının mürəkkəbliyinə görə iki mərhələnin fərqləndirilməsini nəzərdə tutur.**

# A. MİKROİQTtSADİYYAT - 1

## V FƏSİL. BAZAR VƏ BAZAR İQTİSADİYYATI

***§1. İctimai təssrrüfattn asas formaları va onların modelləri. Əmtəə (bazar) təsərrüfatı.***

***§2. Bazarın tərifinin çoxluğu. Bazara baxışların təkamülü. Bazar iqtisadiyyatı.***

***§3. Bazarın mahiyyəti: iqtisadi sistemdə funksiyaları və rolu.***

***§4. Bazarın təsnifatı. Rusiyanın bazar iqtisadiyyatına keçməsinin xüsusiyyəti.***

**Bazar iqtisadiyyatının əsasını əmtəə istehsalı təşkil edir ki, o, bir neçə ictimai təsərrüfat formasından: natural, əmtəə (bazar) və digər təsərrüfat formalarından biridir.**

**Bazar (əmtəə) təsərrüfatının tarixi inkişaf prosesində bazarın dərki, onun mahiyyəti dəyişmiş, elə bazarın özü də dəyişilmiş, onun iqtisadiyyatda rolu isə daim artmışdır.**

**Hələ A.Marşalı iqtisad elmi tərəfindən işlədilən məfhumların dəqiq müəyyənləşdirilməsinin vacibliyini qeyd edirdi. Bunun üçün tarixi inkişaf prosesinin gedişində bu və ya digər məfhum haqqında anlayışın necə dəyişildiyini izləmək və bu gün onun altında nəyin başa düşüldüyünü müəyyənləşdirmək lazımdır. Başqa bir şey də vacibdir (A.Marşallın sözlərinə görə) - məfhumların işlədilməsi hədsiz qətiliyi ilə seçilməməlidir ki, mənasız mübahisələrə və ya daha pis, səhvlərə səbəb olmasın.**

**Bazar — iqtisadi nəzəriyyədə ən geniş yayılmış kateqoriyalardan - təsərrüfatçılıq praktikasının əsas məfhumlarından biridir. Çox vaxt «bazar* hamıya məlum olan və heç bir izah tələb olunmayan məfhum kimi işlədilir. Məsələn, Qərbdə yayılmış nəzəriyyələrdə bu məfhum əsas olsa da, ona çox səthi tərif verilib və xüsusi diqqət yetirilmir. Bu nəzəriyyələrdə bazar hazır bir şey kimi verilir (hava, torpaq və s. kimi) və burada bazar nədir? sualına deyil, onun quruluşu necədir və o necə işləyir? suallarına cavab axtarılır. Bu fəsil sadalanan sualların tədqiqinə həsr olunub.**

## *§1^ tctimai taaarrüfatın əsas formaları və onların modelləri. Əmtəə (bazar) təsərrüfatı*

**Cəmiyyətin aşağı mərhələlərdən yuxarılara doğru yüksəliş tarixi göstərir ki, istehsalın keyfiyyətcə müxtəlif inkişaf mərhələlərinin ictimai təsərrüfatına ictimai əmək bölgüsü və onun kooperasiyası baxımından məhsuldar qüvvələrin və istehsal münasibətlərinin vəziyyətini, mülkiyyət münasibətləri ilə istehsalçıların ayrılma və ya birləşmə dərəcəsini, iqtisadi tərəqqinin məzmununu əks etdirən ümumi iqtisadi formalar xasdır.**

**Natural təsərrüfat — elə təsərrüfatçılıq formasıdır ki, burada maddi nemətlər və xidmətlər öz istehlakı üçün, ayrıca təsərrüfat vahidi daxilində istehlak edilməsi üçün istehsal olunurlar.**

**Natural təsərrüfatın maddi əsası ictimai əmək bölgüsünün aşağı səviyyədə olmasıdır. Natural təsərrüfat üçün müstəqil, qapah, lokeıl, həmin təsərrüfatın çərçivəsiylə məhdudlaşan istehsal səciyyəvidir.**

**Natural təsərrüfat forması tarixən bütün mülkijT^ət münasibətlərinin bünövrəsi olan torpaq mülkiyyətinə əsaslanır. Eyni zamanda, torpaq üzərində xüsusi mülkiyyətin olmaması, onun ali mülkiyyətçi kimi dövlətin əlində cəmlənməsi- nin qaçılmaz nəticəsi mülkiyyətlə dövlət hakimiyyətinin qovuşması oldu. Mülkiyyətlə hakimiyyətin qovuşması isə insanlar arasında münasibətlərin onların əməyinin nəticələri vasitəsilə deyil, bilavasitə qurulması ilə şərtlənir.**

**Bu əsas əlamətlər natural təsərrüfatın sabitlik, hərəkətsizlik adlandırılan mühafizəkarlığını müəyyənləşdirirlər. Əsasını torpaq üzərində icma mülkiyyətinin saxlandığı kənd təsərrüfatı icmalarının min illər ərzində qalması məhz bununla izah olunur. Natural təsərrüfat forması son dərəcə məhdud məqsədlərə yetməyi, yəni həcmcə cüzi və keyfiyyət tərkibinə görə yekrəng tələbatların ödənilməsinə ünvanlanmış istehsal səviyyəsini əks etdirir ki, bu da son nəticədə ictimai təsərrüfatınləngliyini, onun inkişafının aşağı sürətini şərtləndirir,**

**Tarixdə olduqca rəngarəng natural təsərrüfatçılıq forması - modelləri olmuşdur: ibtidai icma, Asiya icması, alman icması (marka), slavyan «zadruqa» və s.**

**Əmtəə təsərrüfat forması natural təsərrüfatın əksi kimi əvvəlcə icmalar arasındakı münasibətlərdə yaranır, sonra isə onların daxilinə də nüfuz edərək tədricən natural təsərrüfatı cəmiyyətin ictimai həyatında ikinci dərəcəli və aradan qalxmaqda olan elementinə çevirir.**

**Natural təsərrüfatın əmtəə təsərrüfatı ilə əvəzlənməsi uzunmüddətli, mürəkkəb və müxtəlif səpkili prosesdir və bu da əsasən natural təsərrüfatın özünün xüsusiyyəti, onun mühafizəkarlığı, ləngliyi, durğunluğu ilə bağlıdır.**

**Natural istehsal bütün sonrakı istehsal formalarının, o cümlədən əmtəə formasının əsasında dayanır. Əmtəə münasibətləri ictimai miqyasda götürülmüş natural təsərrüfat daxilində yaranır, fəaliyyət göstərir və inkişaf edir. Yada salaq ki, məhz natural təsərrüfatda hər bir təsərrüfat vahidi xammalın əldə edilməsindən istehlaka tam hazır məhsulun hazırlanmasına qədər bütün iş növlərini yerinə yetirir.**

**Deməli, əmtəə münasibətlərini natural forma daxilindəki fərqləndirilmiş və mürəkkəbləşmiş iqtisadi münasibətlər kimi nəzərdən keçirmək olar. Son nəticədə bütün dünya təsərrüfatını, hətta inkişaf etmiş əmtəə istehsalı şəraitində, öz istehlakı üçün bütün işləri görən və məhsul istehsal edən (natural təsərrüfatdakı kimi) təsərrüfat vahidi kimi nəzərdən keçirmək olar.**

**Beləliklə, hər bir sonrakı təsərrüfatçılıq forması özündən əvvəlkinə əsaslanır və əvvəlkinin əsas cəhətlərini saxlamaqla onun mürəkkəbləşməsi, təbəqələşməsi kimi çıxış edir. Bəs təsərrüfatçılığın əmtəə forması nədir?**

**Əmtəə (bazar) təsərrüfatı — əmtəə istehsalına əsaslanan istehsalçı və istehlakçı arasında qarşılıqlı əlaqəni bazar vasitəsilə təmin edən iqtisadiyyatın ictimai təşkil formasıdır.**

**Əmtəə istehsalı məhsulun hər birini hər hansı bir məhsulun istehsalı üzrə ixtisaslaşmış ayrı-ayrı, özəl, təcrid olunmuş istehsalçılar tərəfindən hazırlanmasını nəzərdə tutur. Buna görə də ictimai tələbatın ödənilməsi üçün məhsulların**

bazarda alqı-satqısı, onların pul-əmtəə mübadiləsi zəruridir. Əmtəə istehsalının bu cür başa düşülməsi onun bazarda mübadilə üçün məhsul kimi mahiyyətini müəyyənləşdirir və eyni zamanda onun yaranma şərtlərini göstərir.

Əmtəə istehsalının ilk zəruri şərti ictimai əmək bölgüsüdür. ictimai əmək bölgüsü baş verdikcə, istehsalçıların hər hansı bir məhsulun istehsalı üzrə ixtisaslaşması baş verir. Mübadilə zərurəti yaranır.

İctimai əmək bölgüsü əmtəə istehsalı mövcudluğunun məhsuldar qüvvələrin müəyyən inkişaf səviyyəsi ilə səciyyələnən maddi şərtidir.

Əmtəə istehsalının səbəbi əmtəə istehsalçılarının müxtəlif mülkiyyətçilər kimi iqtisadi cəhətdən təcrid olunması hesab olunmalıdır. Mübadilənin əmtəə mübadiləsinə çevrilməsi üçün bu zəruri və kifayətdir. Yalnız müxtəlif mülkiyyətçilər arasında mübadilə əmtəə mübadiləsi olur. İqtisadi cəhətdən təcrid olunma xüsusi, kollektiv, icma, korporativ mülkiyyət şəraitlərində mümkündür. Şəraitdən asılı olaraq əmtəə istehsalının, bütövlükdə bazar sisteminin müxtəlif modelləri formalaşır.

Bazar iqtisadiyyatının ilkin modeli tarixən mərkəzləşdirilmiş dövlətin mütləq iqtisadi və siyasi hakimiyyətinin hökmranlıq münasibətləri idi. iqtisadi sistemin inkişafına nə qədər mənfi təsir göstərsə də, bütövlükdə bu model kifayət qədər sabit və həyat qabiliyyətli idi. Onda mülkiyyətlə dövlət hakimiyyətinin qovuşması baş verir.

İqtisadi artımın yeni keyfiyyəti yalnız bazar iqtisadiyyatı-nm bu modelindən tədricən başqası, qərb modeli adlanan model ayrılanda aşkar oldu; həmin model b.e.ə. birinci minilliyin ortalarında yarandı və «yunan möcüzəsi» kimi məlumdur.

Torpaq üzərində dövlətdən asılı olmayan xüsusi mülkiyyətin formalaşması bu modelin əsası oldu. Dövlət ali mülkiyyətçidən iqtisadi sistemin alətinə çevrildi. Hakimiyyət və mülkiyyətin yolları haçalanır, onlar ayrılmazlıqlarını itirirlər.

Xüsusi sahibkarlıq fəaliyyəti innovasiya fəallığı, istehsalın səmərəliliyinin artırılması üçün hədsiz güclü stimul yaradır.

Bu stimullar iqtisadi artımın əsası olur. Avropa onlara

**dəstəklənərək XV əsrdən başlayaraq get-gedə daha inamla intensiv inkişaf yoluna qədəm qoyur.**

**Bazar iqtisadiyyatının ikinci modeli şəxsiyyətin dövlətdən üstünlüyü ilə, inkişafın əsas hərəkətverici qüvvəsi olan xüsusi mülkiyyətin hökmranlığı ilə səciyyələnir.**

**Müasir bazar təsərrüfatı iqtisadiyyatın xüsusi və dövlət bölmələrinin qarşılıqlı əlaqəsinə əsaslanır. İqtisadiyyata təsir intensivliyinin dərəcəsindən və dövlətin həll etdiyi məsələlərin vacibliyindən asılı olaraq müasir bazar təsərrüfatının aşağıdakı modellərini fərqləndirirlər (şəkil 5.1).**

**İnqilabaqədərki Rusiyada bazar iqtisadiyyatı modelinin yaranma xüsusiyyətləri onun Qərblə Şərq arasındakı coğrafi mövqeyi ilə bağlıdır. Bir tərəfdən o, Şərq ölkələrindən birinci olaraq Qərblə münasibətlərə girdi, lakin digər tərəfdən «Qərb» inkişaf yolunu tam qəbul etmədi. Bu aralıq vəziyyəti öz əksini iqtisadiyyatın inkişafındakı əks meyllərində də tapdı. Rusiyada əmtəə istehsalının formalaşmasında, bazar təsərrüfat modelinə keçiddə Vitte - Stolıpin islahatları böyük rol oynamışdır. Həmin islahatların gedişində inkişaf etmiş torpaq bazarı yaranır, dövlətin funksional rolu kökündən dəyişirdi: iqtisadiyyatda onun xüsusi çəkisi azalırdı, qeyri- hökumət bölməsi sürətlə artaraq hakim mövqe tuturdu. Nəticədə 1905-1907-ci illər inqilabındakı məğlubiyyətdən və Stolıpin islahatlarından sonra ölkə tarixində ilk dəfə inkişaf edən bazarın potensialı ilə həvəsləndirilən iqtisadi dirçəliş başladı.**

**Mərkəzində insan dayanan bazar iqtisadiyyatı modeli inkişafında bir neçə mərhələdən keçir.**

**Sadə və ya inkişaf etməmiş əmtəə istehsalı səciyyələnir:**

- **əmtəə istehsalı mövcudluğunun maddi şərti kimi ictimai əmək bölgüsüylə;**
- **istehsal vasitələri və əmək məhsulları üzərində xüsusi mülkiyyətlə;**
- **istehsal vasitələri mülkiyyətçisinin şəxsi əməyilə;**
- **əməyin məhsulunun alqı-satqısı vasitəsilə ictimai tələbatın ödənilməsi;**
- **insanlar arasında bazar vasitəsilə, yəni əşyalaşmış iqti**

**sadi əlaqə.**

**Sadə əmtəə istehsalı — müstəqil xüsusi əmtəə istehsalçıları — kəndlilər və sənətkarlar tərəfindən mübadilə üçün məhsul istehsalıdır.**

**tnkişaf etmiş əmtəə istehsalında yalnız bütün əmək məhsulları deyil, həm də istehsal amilləri (torpaq, əmək, kapital və sahibkarlıq qabiliyyəti) əmtəə olurlar. Bazar münasibətləri ümumi xarakter alır. Əşyalar arasında münasibətlər kimi çıxış edən bütün iqtisadi münasibətlər sisteminin əşya- laşması baş verir, əmtəə fetişizmi yaranır.**

**Bütövlükdə əmtəə fetişizmi konsepsiyası və məfhumun özü tamamilə K.Marksa məxsusdur (Kapital, c.l, fəsil 1, §4). Əmtəə fetişizminin mahiyyəti insanlar arasındakı münasibətlərin əşyalaşmasında, əşya-əmtəənin onlar üzərində hakimiyyətidir. Əmtəə istehsalçısı Özünün gündəlik təcrübəsində əmin olur ki, onun maddi rifah halı əmtəənin bazarda közünü aparmasından^, onların satılıb satıiraamasından, baha və ya ucuz satılmasından asılıdır. Beləliklə, əmtəəyə çevrilmiş əşyalar sanki «canlı ruha» malik olurlar. Belə çıxır ki, insanlar əmək məhsulunun hərəkətini idarə etmirlər, əmtəə forması almış əmək məhsulları insanın taleyini idarə edirlər. K.Marksın fikrincə, yalnız əmtəə (bazar) təsərrüfatını məhv etməklə əmtəə fetişizmindən qurtarmaq olar.**

**Əmtəə istehsalının özünün ən yüksək inkişaf nöqtəsinə çatması ilkin kapital yığımı prosesində kapitalist istehsal üsulunun bərqərar olması ilə bağlıdır. Həmin ilkin kapital yığımı kapitalın erkən tarixini əmələ gətirir və iki tərəfi əhatə ədir:**

- **istehsalçılar kütləsinin şəxsi azadlığı, amma eyni zamanda bütün istehsal vasitələrindən məhrum edilməsi. Bu proses bazarda yeni əmtəənin - iş qüvvəsi əmtəəsinin yaranmasına səbəb olur;**
- **pul sərvəti və istehsal vasitələrinin azlığın əlində cəmlənməsi.**

**İstehsalçıların istehsal vasitələrindən məhrum edilməsi çox ləng gedib və özü-özlüyündə hələ ilkin kapital yığımı və əmtəə istehsalının yeni keyfiyyətə keçmə dövrünü əmələ gətirməyib. Bu prosesi sürətləndirən dövlətin kəndliləri zorla**




Şəkil 5.1. Müasir bazar təsərrüfatının modelləri


Müasir bazar təsərrüfatının modelləri
Qarışıq iqtisadiyyat
Sahibkarlığın inkişafı üçün şərait yaradılması
Taktik metodların üstünlüklərindən istifadə
10%-ə yaxın
ABŞ
Korporativ iqtisadiyyat
İri biznesin maraqlarının gözlənilməsi
Əsas üstünlüklərin müəyyənləşdirilməsi
Cüzi
Yaponiya, İsveç

**torpaqsızlaşdırmaqla bilavasitə istehsalçıları istehsal vasitələrindən məhrum etmək yolu ilə ilkin kapitalın yığımına rəvac vermiş iqtisadi aktivliyi oldu.**

**İri pul kütlələrinin ilkin, snğımımn əsas mənbələri: müstəmləkə sistemi; dövlət borc sistemi; vergi sistemi; himayəçilik sistemi. İkili vahid proses baş verirdi: fermer-kapitalistlərin və sənaye kapitallarının yaranması.**

**Bu prosesdə dövlət xüsusilə mühüm rol oynayıb.**

**Qeyd olunmalıdır ki, zorakılıq özü-Özlüyündə yeni iqtisadi sistemin yaranmasını şərtləndirə bilməzdi, çünki o, obyektiv iqtisadi proseslər əsasında yaranır. Arama zorakılıq əmtəə istehsalının inkişafını onun ən yüksək forması olan kapitalizmdə qəti şəkildə sürətləndirirdi. Burada iqtisadiyyat və siyasətin dialektik vəhdəti, dövlətin fəal iqtisadi rolu özünü göstərir.**

**İnqilabdan qabaqkı Rusiyada ilkin kapital yığımının xüsusiyyətləri:**

**■ilkin kapital yığımı kapitalizmin məhsuldar qüvvələrin inkişafını ləngidən təhkimçilik hüququ şəraitində gedirdi;**

**■xırda əmtəə istehsalçılarının mülkiyyətdən məhrum edilməsi rus kəndlilərinin mülkədarlar tərəfindən hədsiz istismarı hesabına aparılırdı. Yaxşı torpaqların 2/3 hissəsi mülkədarların mülkiyyətində idi;**

**■ilkin kapital yığımında daxili ticarət, dövlət mükafatları, subsidiyalar böyük rol oynayırdılar.**

**Hazırda Rusiya yenə də, öz spesifikası olan, ilkin kapital yığımı dövrünü yaşayır.**

**SSRİ ictimai təsərrüfatının xüsusi forması inzibati-amirlik, mərkəzləşdirilmiş-planlı iqtisadiyyat idi. Mahiyyəti etibarilə o əmtəə (bazar) formasına qovuşurdu, çünki istehsal və istehlakın əmtəə əlaqələri saxlanılırdı, hərçənd onlar icraçı-təsərrüfatçıya əmrlər və tapşırıqlar verən, planlar, direktivlər, normativlər (qanun gücünə malik) göndərən vahid iqtisadi mərkəzin işlərə hədsiz qarışması ilə xeyli təhrif olunmuşdular. Belə mərkəz nəyin istehsal olunması, resurs-**

**larin (fondlaşdırma metodundan istifadə edərək) necə bölüşdürülməsi məsələlərini həll edən, təchizatçıları istehlakçılara təhkim edən, qiymətləri mərkəzləşmiş qaydada müəyyənləşdirən Dövlət Plan Komitəsi və ali partiya orqanlarının şəxsində dövlət idi.**

**Bu sistemin maddi əsası inkişaf etmiş maşın istehsalı və inkişaf etmiş ictimai əmək bölgüsü sistemi idi. Bu ictimai təsərrüfat forması bazar iqtisadiyyatının ilkin modelinə oxşayır, lakin o ictimai istehsalm daha yüksək inkişaf səviyyəsində yaranır.**

**İnzibati-amirlik, mərkəzləşmiş-planlı sistem — ictimai təsərrüfatın elə formasıdır ki, bu zaman inkişaf etmiş ictimai əmək bölgüsü, istehsalçıların ixtisaslaşması, iqtisadi qurumların müxtəlifliyi şəraitində iqtisadiyyat bir üzvi tam kimi vahid mərkəzdən ciddi tənzim olunur.**

**Belə ictimai təsərrüfat formasının iki əsas modelini göstərmək olar: plan-direktiv və plan-normativ. Hər iki model iqtisadiyyatın bilərəkdən direktiv plan və ya plan normativləri əsasında ciddi tənzimlənməsidir. Bu zaman müəssisələrin müstəqilliyinə bu və ya digər dərəcədə məhəl qoyulmur, onlann fəaliyyəti isə plan və normativlərin yerinə yetirilməsinə görə qiymətləndirilir. Modellərin başqa oxşar və fərqli cəhətləri də var (şəkil 5.2.).**

**Bu qayda dəyərlər, resurslar, dəyişən tələbatlar (üstünlük verilən şeylər) və s. haqqında cəmiyyətdə yayılmış bütün informasiyanı vahid mərkəzdə toplamağın mümkünlüyü barədə fikrə əsaslanırdı. Belə formada səmərəli ictimai təsərrüfat qurmağın mümkünlüyü haqqında xülyanın dağıdılmasında Avstriya neoliberal-iqtisadçıları F.Xayek və L.Mozesin müəyyən xidmətləri olmuşdur.**

**Müasir bazar iqtisadiyyatı bir çox amillərin təsiri altında formalaşmışdı ki, bunların içərisində də ən mühümləri dövlət tənzimləməsi, dünya iqtisadiyyatı, inkişaf etmiş bazar infrastrukturu, sosiallaşdırılmış əmtəə istehsalıdır. Sonuncu bazar iqtisadiyyatında insanın rolunun artdığını göstərir.**

### *§2. Bazarın tərifinin çoxluğu. Bazara baxışların təkamülü. Bazar iqtisadiyyatı*

**Biz artıq bilirik ki, bazar əmtəə təsərrüfatının labüd ünsürlərindən biridir. N.Buxarinin sözlərinə görə, bazar əmtəə is- tehsalmm əks tərəfi, bazar iqtisadiyyatının əsasıdır. Əmtəə istehsalı olmadan bazar yoxdur, bazarsız əmtəə istehsalı yoxdur.**




**Şəkil 5.2. İctimai təsərrüfatın əsas formaları**

**Bazarın obyektiv labüdlüyü əmtəə istehsalının mövcudluğunun labüdlüyünü şərtləndirən səbəblərdən irəli gəlir. Bu səbəblərə inkişaf etmiş ictimai əmək bölgüsü, müxtəlif mülkiyyət formalarının mövcudluğu ilə şərtlənən bazar subyektlərinin iqtisadi təcridliyi, xarici ticarət yolu ilə dünya iqtisadiyyatı ilə sıx əlaqəsi, milli iqtisadiyyatın sonrakı iqtisadi yüksəlişi üçün dünya iqtisadi məkanına çıxmaq zərurəti aiddir.**

**Bazarın yaranmasının mühüm tarixi şərtləri buradan aydın olur.**

## Bazarın yaranma şərtləri

**Birinci şərt - ictimai əmək bölgüsü və ixtisaslaşmadır.**

**İctimai əmək bölgüsü - əmək fəaliyyətinin müxtəlif növlərinin həyata keçirilməsi və ictimai formada diferen-siallaşması ilə baş verən müxtəlif fəaliyyət növlərinin ayrılmasının, möhkəmlənməsinin, dəyişməsinin tarixi prosesidir.**

**İqtisadi inkişafın əsasında əməyin təbii bölgüsü - funksiyaların insanlar arasında onların cins-yaş, fiziki, fizioloji və başqa xüsusiyyətlərinə əsaslanan bölgüsü durur. Sonrakı iqtisadi inkişaf ictimai əmək bölgüsünü doğurdu. Dörd ictimai əmək bölgüsü məlumdur: əkinçiliyin maldarlıqdan ayrılması; sənətkarlığın kənd təsərrüfatından ayrılması; vasitəçi-tacirin meydana gəlməsi, ticarət kapitalının istehsaldan ayrılması; elmi-tədqiqat, təcrübi-konstruktor işlərinin (ETTKt) ayrılması. Belə bölgüdən başqa peşə, firmalararası və zavoddaxi- li, sahələrarası, bölgələrarası və beynəlxalq əmək bölgüsü də fərqləndirilir. Əməyin qovşaqlar üzrə və hissələr üzrə də, yəni hazır məhsulun deyil, onun bir hissəsinin hazırlanması üzrə bölgüsü də mövcuddur.**

**Əmək bölgüsü gedişində işçilər, müəssisələr və onların bölmələri, sahələr, bölgələr, ölkələr məhdud sayda məhsul istehsalına yönümlənirlər.**

**İstehsalçıların əmək bölgüsü əsasında ayrı-ayrı məhsul**

**lar və onların hissələrinin hazırlanmasına yönümlənməsi ixtisaslaşma adlanır.**

**İxtisaslaşma istehsalçıya xeyli üstünlüklər verir. Bu, nisbi üstünlük prinsipi ilə, yəni məhsulu nisbətən az itirilmiş imkan xərcləri ilə istehsal etməklə izah olunur. Məsələn, iki istehsalçı ayaqqabı və paltar istehsal edə bilərlər. Birincisi həftə ərzində iki cüt ayaqqabı və dörd köynək istehsal edə bilir. İkincisi üç cüt ayaqqabı və doqquz köynək istehsal edir. Bir cüt ayaqqabının alternativ qiyməti birinci istehsalçıda iki köynəyə, ikincidə isə üç köynəyə bərabərdir. Ayaqqabı istehsalında nisbi aşağı alternativ qiymət (itirilmiş imkan xərcləri) birinci istehsalçıdadır. Deməli, o, ayaqqabı istehsalı üzrə, ikincisi isə köynək istehsalı üzrə ixtisaslaşmalıdır.**

**İkinci şərt - istehsalçıların iqtisadi cəhətdən təcrid olması, təsərrüfatçı qərarların qəbul edilməsində (nə istehsal etməli, necə istehsal etməli, istehsal olunmuş məhsulu kimə satmalı) tam müstəqilliyi, muxtariyyatlığı. Bu ayrılma tarixən xüsusi mülkiyyət zəminində yaranır, sonra kollektiv mülkiyyətə (kooperativlər, səhmdarlar cəmiyyəti, dövlət müəssisələri və s.) şamil olur. Cəmiyyətdə təsərrüfat fəaliyyəti subyektləri mülkiyyət hüququna malik deyillərsə, bazar mövcud ola bilməz, D.Xayraan yazırdı ki, bazarlar yalnız üzərində mülkiyyət hüququ asanlıqla müəyyənləşdirilə, özü satıla və ötürülə bilən məhsullar üçün mövcud ola bilərh**

**Bu iki şərt bazar iqtisadiyyatının dərin ziddiyyətlərini ifadə edir ki, bu da bir tərəfdən ictima əmək bölgüsünə görə istehsalçıların hamısının ümumi qarşılıqlı əlaqədə olmasının obyektiv zərurətində, digər tərəfdən isə istehsalçıların ümumi təcrid olunmasında (məhdudlaşmasında) təzahür edir. Məhz sonuncusu əmtəə münasibətlərinin, bazar münasibətlərinin mövcudluğunu müəyyən edir.**

**Üçüncü şərt - transaksion xərclər - mülkiyyət hüququnun verilməsi ilə bağlı mübadilə sahəsində xərclər problemi- nin həllidir. Bura subyektin seçdiyi təsərrüfat fəaliyyəti**

**' Bax: XaıİMaH CospeMeHHafl MHKpoəKOHOMHKa: aHajiHS н npHMeHeııııe. M.: 1992, T.l. C.9**

üçün İcazə (lisenziya) alınması, informasiya axtarışı, danışıqlar aparılması, əmtəənin keyfiyyətinin dəyişdirilməsi ilə bağlı xərclər, reketlərə (əgər söhbət Rusiyadan gedirsə) pay çıxılması və s. daxildir. Əgər xərclər gözlənilən gəlirdən artıqdırsa, belə əmtəələrin bazarı yaranmayacaqdır.

Transaksion xərclər məfhumu iqtisadi nəzəriyyəyə R.Kouz tərəfindən <ıFirmanın təbiətib (1937) məqaləsində daxil edilmişdi. O sübut etmişdir ki, transaksion xərclərin xüsusi çəkisi mülkiyyət hüququ zəif müəyyənləşdirilmiş (spesifik xüsusiyyətləri müəyyən edilmiş) cəmiyyətlərdə daha yüksəkdir. Bu keçid iqtisadiyyatlı ölkələr üçün səciyyəvidir. Həmin xərclərin azaldılması hüquqi normaların təkmilləşdirilməsi, etik əsasın möhkəmləndirilməsi, düzlük, məsuliyyət, yumşaq bazar infrastrukturunun yaradılması yolu ilə mümkündür.

Bazarın səmərəli fəaliyyəti üçün dördüncü şərt də zəruridir: istehsalçının müstəqilliyi, azad sahibkarlıq, resursların azad mübadiləsi. İstehsalçı nə qədər az məhdudlaşdırılırsa, bazar bir o qədər inkişaf etmiş olur. Sərbəst mübadilə sərbəst qiymətlərin formalaşmasına imkan yaradır ki, bu da istehsalçılara fəaliyyətlərinin daha səmərəli yÖnümünü müəyyənləşdirməyə imkan verir.

## Bazar anlayışına baxışlann təkamülü

«Bazar» anlayışı çoxcəhətlidir, o çoxsifətlidir, buna görə də onu birmənalı səciyyələndirmək xeyli çətindir. İctimai istehsal və tədavül inkişaf etdikcə bu anlayış dəfələrlə dəyişmişdi.

İlkin olaraq bazar pərakəndə ticarət yeri, bazar meydanı kimi nəzərdən keçirilirdi. Bu bazarın ən sadə, dar dərkidir. Bu onunla izah olunur ki, bazar hələ ibtidai-icma cəmiyyəti dağılan dövrdə meydana gəlmişdi. O dövrdə icmalar arasında mübadilə təzə-təzə az-çox mütəmadi olur, müəyyən bir yerdə və müəyyən vaxtda baş tutan əmtəə mübadiləsi formasını almağa başlayırdı. İlk vaxtlar bazar primitiv formada idi. Məsələn, etnoqraflarin müşahidələrinə gÖrə, Kalimantan

**adasında və indiki Malayziya ərazisində bazar münasibətləri belə həyata keçirilirdi: satan mübadilə üçün məhsullarını qoyub gedirdi ki, alıcıların onu sərbəst nəzərdən keçirmək imkanı olsun; alıcı təklif olunan məhsulu almaq qərarına gəlsə, öz məhsulunu qoyub gedirdi; sonra satan qayıdıb gəlir və razı olarsa, alıcının qoyub getdiyi malı götürür, əvəzində öz malını qoyurdu.**

**Sənətkarlıq və şəhərlər inkişaf etdikcə bazar münasibətləri genişlənir, bazar üçün xüsusi yerlər, bazar meydanları müəyyənləşirdi. Sözün mənalarından biri kimi bazarın belə dərki bu gün də qalmaqdadır. Yaxın zamanlara qədər rusiyalıların məişət anlamında alqı-satqı yeri kimi bazar - kolxoz bazarları, kənd təsərrüfatı və kustar məhsulların satış yeri, bazarlar və yarmarkalar kimi başa düşülürdü. Parakəndə və topdansatış mağazalarını bazar adlandırmırdılar. Bazarın hətta sözün ən sadə mənasında təhrif olunmuş dərki də bundan irəli gəlir.**

**İctimai əmək bölgüsü dərinləşdikcə və əmtəə istehsalı inkişaf etdikcə «bazar» anlayışı daha mürəkkəb məna kəsb edir, bu da öz əksini dünya iqtisadi ədəbiyyatında tapır. Məsələn, fransız iqtisadçı-riyaziyyatçısı A.O.Kurno hesab edir ki, «bazar» məfhumu altında hər hansı bazar meydanı deyil, satıcılar və alıcılar arasında münasibətlərin azad olduğu, qiymətlərin asanlıqla və tez tənzimləndiyi hər hansı bir rayon bütövlükdə başa düşülməlidir. Bazarın belə təyinində onun məkan xarakteristikası qalır, lakin o tam olmur, yeni cizgilər əlavə edilir.**

**Sonrakı inkişafın gedişində alqı-satqının bir-birindən uzaqlaşması ehtimalı artıq reallığı əks etdirmir, çünki ictimai istehsalın yeni quruluşu - maddi və əmək resurslarının ayrılması, tədavül üçün səciyyəvi olan müəyyən funksiyaların yerinə yetirilməsinə əmək sərf edilməsi ilə səciyyələnən tədavül sahəsi formalaşır. Nəticədə bazarın əmtəə və əmtəə- pul mübadiləsi (tədavülü) kimi yeni dərki yaranır ki, bu da daha çox bizim iqtisadi ədəbiyyatda özünə yer alıb. Məsələn, «Siyasi iqtisad* dərsliyində (M.: Politizdat, 1988. s.511) de**

**yilir ki, bazar əmtəə istehsalı və pul tədavülü qanunları üzrə təşkil edilmiş mübadilədir. «İqtisadiyyat» (M.: 1994. s.l5) dərsliyinin müəllifləri də həmin fikirdədirlər. V.İ.Dal və S.l.Ojeqovun izahlı lüğətlərində bazarın pərakəndəsatış yeri və əmtəə mübadiləsi məkanı olduğu göstərilir. Burada mütləq qeyd olunmalıdır ki, bazar yalnız əmtəə mübadiləsi məkanı deyil, həm də tədavül məkanıdır ki, bura pul, o cümlədən müasir qiymətli kağızlar bazarı da daxildir.**

**Bazar münasibətlərinin subyektləri cəhətdən nəzərdən keçirildikdə bazarın yeni tərifləri yaranır: bazar alıcıların məcmusudur (F.Kotler. Marketinqin əsasları) və ya sıx iş əlaqələrinə girən və istənilən əmtəəyə dair iri müqavilələr bağlayan istənilən insan qruplarının məcmusudur (A.Mar- şall. «İqtisadi nəzəriyyənin prinsipləri»).**

**Amma bu bazarın yalnız bir cəhətidir. Belə təriflər tam deyil, çünki bazar münasibətləri subyektlərinin bütün məcmusunu əhatə etmir (istehsalçıları, istehlakçıları və vasitəçiləri), tədavül dairəsində istehsal, bölgü və istehlak münasibətlərini əhatə etmir.**

**«İş qüwəsi» əmtəəsinin meydana gəlməsi ilə bazar ümumi xarakter alır, o get-gedə istehsala daha çox nüfuz edir: yalnız istehsal vasitələrinin deyil, həm də iq qüvvəsinin alınması da istehsalın şərti olur.**

**Təkrar istehsal səciyyələri xüsusi əhəmiyyət daşıyır. «Bazara anlayışı məcmu ictimai məhsulun, təkrar istehsalın bir hissəsi olmasına qədər genişlənir, həmin məhsulun əsas tərkib hissələrinin hərəkəti reallaşma formasını ifadə edir. Nəticədə bazarın ^ictimai məhsulun əmtəə-pul formasında tədavülünün həyata keçirilməsinə kömək edən iqtisadi münasibətlərin cəmi»'^ və ya «maddi nemətlərin istehsalı və istehlakı üzrə həmin istehsal üsuluna xas olan iqtisadi münasibətlərin təzahür etdiyi ümumi ictimai məhsulun bir hissəsinin realizə edilməsi sahəsik (A.V.Orlov, F.A.Krutikov) kimi tərifləri yaranır.**

**Rusiya iqtisadi ədəbiyyatında bazarın satıcı və alıcıların**

**' AKOBƏI; K). PeBOJiKmHfl B ƏKOHOMÜKC. M.: ƏKOHOMHKa, 1990. C.122.**

**iqtisadi münasibətləri sistemi və ya tipi kimi** tərifi daha geniş yer almışdır.[1]

Bazarın tədavül sahəsi kimi və konkret iqtisadi münasibətlərin cəmi kimi təyin edilmələri bir-birindən əsaslı fərqlidirlər: birinci halda əsas diqqət bazar munasibətləri obyektinə – əmtəə-maddi dəyərlərin və pul vasitələrinin olmasına yönəldilir; ikinci halda «bazar» kateqoriyasının mahiyyətini ifadə edən münasibətlərə.

**Bazarı təsərrüfatçı subyektlər arasında ictimai əlaqələr sistemi və ya tipi** kimi də nəzərdən keçirirlər[2].

Bildiyimiz kimi, iki növ təsərrüfat əlaqələri mövcuddur:

- **natural-əşya**, təmənnasız, tələbatların həcmi və quruluşuna müvafiq;
- **əmtəə**, bazar vasitəsilə həyata keçirilən.

İkinci növ münasibətlərin səciyyəvi xüsusiyyətləri bunlardır: mübadilə aparan tərəflərin qarşılıqlı razılaşmaları, ekvivalent əvəzləmə, sərbəst tərəfdaş seçimi, rəqabət. Əmtəə (bazar) əlaqələri yalnız əmtəə və xidmətlərin azad alqı-satqısı əsasında mümkündür. Bilavasitə məhdud fondlaşdırma, kartoçkalardan istifadə və başqa məhdudiyyətlər (səyyar ticarət şəklində və s.) bazar əlaqələrinin deformasiyasını göstərir. Məhdud fondlaşdırma və ya kartoçkalar üzrə bölgü, formal alqı-satqı aktları ilə müşayiət olunsa da, formasına görə birinci növ təsərrüfat əlaqələrinə daha yaxındır. Buradan da, bazarın təsərrüfatçı sistemlər arasında rəqabət formalı əlaqələr kimi dərki daha ədalətli olar.

Bazar vasitəsilə həyata keçirilən əmtəə münasibətlərində yalnız **birbaşa** (istehsal – bazar - istehlakçı) təsərrüfat əlaqələri deyil, **dolayı** (istehlakçı – bazar - istehsal) əlaqələr də mühüm rol oynayırlar. Akademik V.S.Nemçinov yazırdı ki,

---

[1] Bax, məsələn: Машина М.Ц. Экономическая азбука. М.: Международные отношения, 1995. С.26; Сажина М.А., Чибриков Г.Г.Основы экономической теории. М.: Экономика – Техмет, 1996. С.26; Курс экономики / Под ред. Б.А.Райзберга. М.:Инфа-М, 1997. С.242; Основы экономической теории и практики. Волгоград, 1994. С.32 və başqaları.

[2] Bax, məsələn: Мухин В.А. Экономическая теория. Введение в рынок и макроэкономический анализ. М.: 1997. С.84; Нуревв Р.М. Основы экономической теории. М.: Высшая школа, 1996. С.93.

**«əks əlaqələr nəzərə alınmazsa, elə daşlaşmış mexaniki sistem yaratmaq olar ki, onda... bütün sistem hər verilmiş an üçün və hər bir bənddə yuxarıdan aşağı limitlənmiş olsun. Belə sistem sosial və texniki tərəqqini ləngidəcək və real təsərrüfat həyatının təzyiqi altında əvvəl-axır dağıdılacaq- dır»^ Bu sözlər peyğəmbərcəsinə deyilmişdi. Mahiyyət etibarilə cəmiyyətin mütərəqqi inkişafında bazarı və əks əlaqələrin rolunu inkar edən inzibati-amirlik təsərrüfatçılıq sistemi XX əsrin 80-ci illərində dərin böhran vəziyyətinə düşdü və yeni sistemə islah olunurdu.**

**Nəzəri cəhətdən sübut olunub, dünya tarixi təcrübəsi ilə təsdiqlənib ki, əks əlaqə mexanizmi istənilən iqtisadi sistemin sabitliyi və səmərəliliyinin əsas şərtidir. Əks əlaqələri inzibati-amirliklə əvəzləmə cəhdləri labüd olaraq yalnız bazarın deyil, həm də bütün iqtisadi sistemin deformasiyası ilə nəticələnir. Dərin disproporsiyalar, hərtərəfli çatışmazlıq yaranır, iqtisadi maraqlar iqtisadi inkişafın hərəkətverici qüvvəsi olmaq rolunu itirir.**

**Beləliklə, bazarın daha bir - iqtisadiyyatın ictimai təşkili və fəaliyyəti forması kimi dərkini də göstərmək olar ki, bu zaman istehsalçı və istehlakçı arasında, onların fəaliyyətini tənzimləyən vasitəçi institutlar olmadan, qarşılıqlı əlaqə, istehsal və istehlaka bilavasitə və dolayısı ilə təsir təmin edilir. Məsələn, V.V.Gerasimenko yazır ki, bazar vasitəsilə əmtəə mübadiləsi bazar iqtisadiyyatında iqtisadi münasibətlər sisteminin forması olur və bu əmtəə mübadiləsi sisteminin təşkili, onun institutları, bu mübadilə prosesi, onun subyektləri, həmin sistem daxilində dövr edən əmtəələrin özləri " bunların hamısı «bazar» adını alır^.**

**Son zamanlar bazarın əmtəə və pul tədavülünün sabit qarşılıqlı əlaqələri əsasında yaranan iqtisadi münasibətlər sistemi kimi müəyyənləşdirilməsi hallarına daha tez-tez rast gəlinir^. ***

*** НеМНННОВ В.С. Н36р.проН3В. М.: 1968. Т.5. С.80.**

**^ Bax: Teopufl nepexoanoH экономнкн / IIоа pen.B.B.FepacHMeHKO. M.: ТЕНС, 1977. T.l. C.26.**

**®Bax: OcHOBbi эKOHOMHHecKofi xeopHH H npaKTHKH. Bojırorpafl:**

**Bazarın yalnız alqı-satqı münasibətlərini deyil, həm də sosial-iqtisadi münasibətləri (mülkiyyət, istehsal, bölgü, istehlak və s.), həmçinin təşkilati-iqtisadi münasibətləri (bazarın müxtəlif konkret təşkili formaları və s.) ehtiva etməsi onu fəaliyyət göstərən iqtisadi sistem daxilində müstəqil alt sistem kimi nəzərdən keçirməyə əsas verir. Bütün iqtisadi sistem sıx qarşılıqlı əlaqə və asılılıqda olan müxtəlif sistem növlərinin cəmidir. İqtisadi sistemi sxem şəklində şəkil 5.3.-dəki kimi göstərmək olar.**

**Bütövlükdə iqtisadi sistemdə üç müstəqil sistem növü qarşılıqlı əlaqədədir. Hansı sistem növünün üstünlük təşkil etməsindən asılı olaraq iqtisadi sistem bütövlükdə səciyyələnir: bazar üstünlük təşkil edirsə, sistem bazar sistemidir, bazar iqtisadiyyatı belə yaranır; dövlət üstünlük təşkil edirsə, sistem inzibati-amirlikdir; natural təsərrüfat üstünlük təşkil edərsə, sistem də belə olur.**




1. **bazar təsərrüfatçılığın müstəqil alt sistem növü kimi**
2. **dövlət təsərrüfatçılığın alt sistem növü kimi**
3. **natural təsərrüfat təsərrüf atçılığın alt sistem növü kimi**

**Şəkil 5.3. İqtisadi sistem alt sistem növlərinin cəmi kimi**

**Nəzərdən keçirilən təriflər bazarın iqtisadi hadisə kimi tarixi dərki prosesində müxtəlif mərhələlər olduğunu göstərir və bu hadisənin müxtəlif cəhətlərini açıqlayır. Bazarın ümumiləşdirilmiş səciyyəsi şəkil 5.4.-də verilib.**

**Hərdən bazar məfhumu altında yanlış olaraq əmtəənin realizə olunması şərtləri başa düşülür. Həqiqətən də, bazarda əmtəə və xidmətlərin realizə olunma şərtləri formalaşır ki.**

**bunlar da bazar aspektindən çox istehsal, bölgü və istehlak aspektlərinə aiddir. Bazar şərtləri onun mahiyyətini deyil, vəziyyətini səciyyələndirir.**




**Şəkil 5.4. Bazarın ümumiləşdirilmiş** səciyyəsi

### *§3, Bazarın mahiyyəti: iqtisadi sistemdə funksiyaları və rolu*

**Bazar iqtisadi kateqoriyadır və iqtisadi kateqoriya kimi mübadilə, tədavül, ticarət, ticarət xidmətləri ilə sıx bağlıdır. Bazarın təriflərinin təhlilindən məlumdur ki, o mübadilə və əmtəə təsərrüfatını yaratmış şərtlərin təbii-tarixi inkişafının nəticəsi olub. Bazar 6-7 min il əwəl yaranıb, inkişaf edib və hal-hazırda da inkişaf edir. O sivilizasiyanın nəticəsidir. Bəs bazarla bağlı kateqoriyaların vəhdəti və fərqləri nədədir?**

**Mübadiləni iki tərəfdən nəzərdən keçirmək olar: əmtəə və xidmətlərin hərəkəti prosesi, bir növ maddələrin ictimai mübadiləsi kimi; bu mübadilə zamanı fərdlərin girdiyi müəyyən ictimai münasibətlərin yaradılmasıdır.**

**İqtisadi kateqoriya kimi mübadilə ikinci tərəfi də ifadə edir, yəni öz istehlakı üçün deyil, başqaları üçün, ictimai tələbatları ödəmək üçün əldə olunmuş əmək nəticələrinin hərəkətinə nəzərən istehsalçı və istehlakçı kimi çıxış edən insanlar arasındakı iqtisadi əlaqələri təmsil edir. Məhz mübadilə nəticəsində pərakəndə, təsərrüfatca təcrid olunmuş**

**əmtəə istehsalçıları və istehlakçılar təmasda olurlar.**

**Geniş mənada mübadiləni - bu fəaliyyət, xidmət, təcrübə, nəticə və s. mübadiləsini və dar mənada - yalnız əməyin nəticələri və ya məhsul mübadiləsini fərqləndirmək lazımdır. Əmtəə təsərrüfatı şəraitində sonuncusu əmtəə mübadiləsi (Ə-Ə) formasını alır.**

**Əmtəə tədavülü - daha inkişaf etmiş əmtəə mübadiləsi formasıdır. Bu qarşılıqlı əvəzləmə və ekvivalentlik, prosesin iştirakçılarının qarşılıqlı razılımı əsasında pul vasitəsilə (Ə-P-Ə) həyata keçirilən əmtəə mübadiləsidir.**

**Ticarət - bu insanların əmtəə mübadiləsi və alqı-satqı aktlarının həyata keçirilməsi üzrə fəaliyyətidir. Əmtəə sahiblərinin ticarət razılaşmaları - satış (əmtəənin pula dəyişdirilməsi) və alışdır (pulun əmtəəyə dəyişdirilməsi); hər iki aktın vəhdəti və belə razılaşmaların əldə olunması ticarət fəaliyyətinin mahiyyətini təşkil edir.**

**Ticarət xidmətləri - əmtəələrin alqı-satqısını həyata keçirən insanların vasitəçilik fəaliyyəti münasibətləridir. Əmtəələrin (xalis formada) alqı-satqı əməliyyatlarının məhsul (sırf özünü) yaratmaması və buna görə də ictimai tələbatı əmtəəni əşya kimi deyil, fəaliyyətin Özü kimi Ödəməsi bu fəaliyyəti xidmət adlandırmağa əsas verir. Ticarət fəaliyyətinin əmtəə istehsalçısından (ona əmtəəsinin realizə edilməsində, həmin əmtəənin istehsalına çəkilən xərclərinin daha tez və sərfəli ödənilməsində xidmət göstərilir) və istehlakçıdan (ona ödəniş qabiliyyətinin imkan verdiyi tələbatlarını Ödəməkdə xidmət göstərilir) təcrid olunması əsas və əlavələrə bölünə biləcək ticarət xidmətlərinin meydana gəlməsinin digər mühüm səbəbidir.**

**Əsas ticarət xidmətlərinə aşağıdakı ticarət əməliyyatları aiddir: ticarətçilər tərəfindən alıcılıq tələbatının, əmtəə mənbələrinin öyrənilməsi, reklam, müxtəlif sərgilərin təşkili, təsərrüfat müqavilələrinin, ayrı-ayrı sazişlərin bağlanması, əmtəənin göstərilməsi, ixtisaslaşdırılmış məsləhətlərin verilməsi, əmtəənin reallaşdırılması üçün əlverişli şəraitin yaradılması; əmtəənin reallaşdırılması ilə bağlı pulların qə**

**bulu, verilməsi və saxlanılması, müxtəlif sənədlərin tərtibatı, əmtəə kütləsinin hərəkətinin uçotu və ona nəzarət və bir çox başqaları.**

**Əlavə ticarət xidmətlərinə istehsal prosesinin tədavül sahəsində (daşınma, qablama, saxlama və s.) davamı ilə bağlı xidmətlər aiddir ki, bu da istehsalın tədavül sahəsindən tam ayrılması ilə şərtlənir.**

**Tədavül sahəsində maliyyə və kredit sistemi xidmətləri də var ki, bunlar dəyərin pul şəklində müstəqil hərəkət tələbatını ödəyirlər və sözün əsl mənasında ticarət xidməti deyillər.**

**Ticarət xidmətləri haqqında belə təsəvvür K.Marksın metodologiyası, hələ qədim dövrlərdən məlum ticarət kapitalı mahiyyətinin onun tərəfindən edilmiş təhlili əsasında yaranmışdır.**

**Ticarət kapitalı — tədavül sahəsində fəaliyyət göstərən kapital K.Marksa görə, sənaye (əmtəə) kapitalının təcrid olunmuş hissəsidir. Bu praktik olaraq, o deməkdir ki, əmtəə istehsalına kapitalını qoyan sənayeçi onların satışı ilə özü məşğul olmur, bu funksiyanı xüsusi ticarət müəssisələrinə verir. Ticarət kapitalı sanki sənaye kapitalının agenti olur, ona ticarət xidmətini həyata keçirir. Belə təcrid olunmanın iqtisadi mənası ondadır ki, ticarətçi sənayeçinin vaxtını və pulunu qənaət edir, çünki əmtəəni daha tez (satış şəraitini, alıcıların tələbatını və s. daha yaxşı bilir), daha az xərclə reallaşdırır. Ticarət kapitalının əmtəənin reallaşma prosesinə daxil olması onun izafi dəyərin ümumi kütləsinin bölgüsündə iştirak etməsinə və ticarət gəliri əldə etməsinə əsas verir. Ticarət kapitalının hərəkəti P-Ə-P' düsturu ilə səciyyələndirilir ki, burada P - puldur, Ə - əmtəədir, P' - isə artımlı, ticarət mənfəətli puldur. Ticarət gəliri hesablaşma kateqoriyası kimi alıcı və satıcı qiymətləri arasındakı fərq kimi çıxış edir ki, məhz onun əldə olunması ticarətçinin fəaliyyətinin həlledici səbəbidir.**

**Ticarət kapitalının ilkin forması tacir kapitalı idi ki, onun yaranmasının obyektiv əsası sənətkarlığın əkinçilik-**

**dən, sonra isə şəhərin kənddən ayrılması olub. Pulun yaranması və yerli bazarların meydana gəlməsi ilə xüsusi qrup adamlar - əmtəə mübadiləsində vasitəçilik əməliyyatları üzrə ixtisaslaşan tacirlər peyda olub.**

**Tacir kapitalı ilkin kapital yığımının mühüm amillərindən biridir (Rusiyanın müasir dövrü ilə müqayisə edək). Onun rolu mürəkkəb və ziddiyyətli olub. O bir tərəfdən pul vəsaitlərinin bir qrup adamın əlində toplanmasına, istehsalın artımına və təmərküzləşməsinə rəvac verib, çünki bir çox hallarda tacirlər adi vasitəçilikdən, gəlir əldə etmək üçün istehsalın təşkilinə keçirdilər. Digər tərəfdən, qeyri-ekviva- lent mübadilə hesabına hədsiz böyük gəlir əldə edən tacirlər onlardan əmtəə alan əksər əhali kütləsini çox ağır istismar edirdilər.**

**Azad rəqabət dövründə ticarət kapitalı sənaye kapitalından əsaslı surətdə ayrılır. Hazırda get-gedə daha çox əks meyl nəzərə çarpmağa başlayır. İri sənaye şirkətləri çox vaxt öz satış şəbəkələrini yaradır, öz əmtəələrinin satışı və istehlakını nəzarətdə saxlamağa çalışırlar.**

**Bazar - əmtəə mübadiləsinin konkret təzahür formasıdır ki, burada ticarət kapitalı fəaliyyət göstərir, amma o tək deyil.**

**Bazar iqtisadi kateqoriya kimi, bazar subyektlərinin maraqlarını əks etdirən və əmək məhsullarının mübadiləsini təmin edən əmtəə və pulların hərəkəti ilə əlaqədar alıcı və satıcılar, həmçinin ticarət vasitəçiləri arasında konkret iqtisadi münasibətlərin məcmusudur.**

**Yuxarıda sadalanan bütün kateqoriyaların ümumi cəhəti bundadır ki, onların hamısı vahid mahiyyəti — əmtəə hərəkəti prosesində insanlar arasmdakı iqtisadi əlaqələri ifadə edir, fərqləri isə (göstərilənlərdən başqa) ondadır ki, hər bir kateqoriya müəyyən tabelikdə, mahiyyətə müəyyən yaxınlaşma və ya uzaqlaşmadadır (mübadilə - birinci səviyyədə; tədavül - ikinci səviyyədə; bazar - üçüncü səviyyədə mahiyyətdir).**

**Bazar münasibətlərinin mahiyyəti satıcıların (əmtəə istehsalçıları və ticarətçilər) xərclərinin ödənilməsi və onların**

**gəlir əldə etməsi, həmçinin alıcıların tədiyə qabiliyyətli tələbatlarının azad, qarşılıqlı razılaşma, əvəzləmə, ekvivalentlik və rəqabət əsasında ödənilməsindən ibarətdir. Bazarın əsas mahiyyətini göstərən cizgilər məhz bunlardır. Bazar münasibətlərinin maddi əsası əmtəə və pulun hərəkətidir. Amma bazar müəyyən iqtisadi sistemdə fəaliyyət göstərdiyindən və inkişaf edərək müstəqil alt sistem növünə çevrildiyindən, bu onun təzahür formalarının özünəxas xüsusiyyətlərini şərtləndirməyə bilməz (bazar münasibətlərinin iqtisadi sistemdə müxtəlif xüsusi çəkisi, əməyin müxtəlif təşkili, bazarın müxtəlif tənzimləmə formaları, metodları və səviyyələri və s.). Bazarın özünəməxsus cizgilərinin olması (əmtəələrin çeşidi, bazarın təşkili, ənənələr və s.) Moskva, Rusiya, Amerika, Yaponiya və s. bazarlarından danışmağa imkan verir.**

**Bazarın mahiyyəti öz əksini həmin kateqoriyanın əsas təyinatını ifadə edən və mahiyyətini əks etdirən əsas iqtisadi funksiyalarında tapır (şəkil 5.5).**

**Birləşdirmə funksiyası istehsal sahəsini (istehsalçıları), istehlak sahəsi ilə (istehlakçıları), həmçinin vasitəçi ticarətçiləri birləşdirməkdən, onları əmək məhsullarımn və xidmət-**




**Şəkil 5.5. Bazarın əsas iqtisadi funksiyaları**

lərin fəal mübadiləsi prosesinə qoşmaqdan ibarətdir. Bazar- sız istehsal istehlaka xidmət edə bilməz, istehlakçılar isə öz tələbatlarını Ödəyə bilməzlər.

Bazar ictimai əməyin bölgüsünün dərinləşməsinə və iqtisadiyyatda inteqrasiya proseslərinin artmasına rəvac verir. Bu funksiya hazırda Rusiya üçün zəruridir və respublikalar və regionlar arasında vahid ümumrusiya bazarının fəaliyyət göstərməsi üçün şərait yaradılması üzrə iqtisadi sazişlər bağlanılmasının xeyrinə mühüm amil ola bilər.

Tənzimləyici funksiya iqtisadiyyatın bütün sahələrinə bazarın təsirini nəzərdə tutur və çeşid quruluşunda istehsal və istehlakın razılaşdırılması; tələb və təklifin qiymətə, həcmə və quruluşa görə tənzimlənməsini; milli iqtisadiyyatın sahələri, regionları arasında istehsal və mübadilə nisbətlərini təmin edir.

Bazar nə istehsal etməli, kim üçün istehsal etməli, necə istehsal etməli, suallarına cavab verir.

Bazarda ^gözəgörünməz əU tənzimləyici fəaliyyət göstərir. A.Smit onun haqqında yazırdı: «Sahibkar yalnız öz maraqlarını nəzərdə tutur, yalnız öz xeyrini güdür, özü də bu zaman gözəgörünməz əllə heç nəzərdə belə tutmadığı məqsədə yönəldilir, öz maraqlarını güdəndə o, cəmiyyətin maraqlarına daha fəal xidmət edir, nəinki şüurlu surətdə bu xidməti həyata keçirməyə çalışanda »b

Müasir bazar yalnız «gözəgörünməz əl»lə deyil, həm də dövlət tərəfindən tənzimlənir.

Həvəsləndirici funksiya istehsalçıları yeni məhsul yaratmağa, zəruri əmtəələri az xərclə istehsal etməyə və kifayət qədər gəlir götürməyə, elmi-texniki tərəqqini və bu zəmində istehsalın intensivləşdirilməsi və bütün iqtisadiyyatın səmərəli işləməsini həvəsləndirməyə maraqlı etməkdir. Bazarın həvəsləndirici funksiyanı yerinə yetirməsi olduqca vacibdir. «Bazarın təzyiqi olmazsa, müəssisənin işçiləri ən yaxşı mütəxəssisi deyil, ən məşhur və daha az tələbkar adamları direktor seçərlər» (O.Şik), nəticədə isə - istehsal həcminin və fərdi

СМНТ А.НссJIei^OBaHne o npnpoae H npHHHHax ööraTCTBa napoflOB. M.:1962. C.25.

**maddi rifah halı səviyyəsinin aşağı düşməsi ortaya çıxar.**

**Qiymət əmələgəlmə (və ya ekvivalentlik) funksiyası - məhsul mübadiləsi üçün dəyər ekvivalentlərinin müəyyənləşdirilməsidir. Bazar əmtəə istehsalına sərf olunan fərdi əməyi ictimai meyarla qarşılaşdırır, yəni xərcləri və nəticələri tutuşdurur, yalnız sərf olunmuş əməyi deyil, faydalılığı da nəzərə almaqla əmtəənin dəyərini müəyyənləşdirir.**

**Bazarın nəzarət funksiyası istehsalın son nəticəsinin əsas nəzarətçisi rolunu yerinə yetirir. Bazarda əmtəə və xidmətlərin həm kəmiyyətcə, həm də keyfiyyətcə alıcıların ehtiyaclarına nə dərəcədə müvafiq olduqları müəyyənləşdirilir.**

**Vasitəçilik funksiyası iqtisadi cəhətdən təcrid olunan istehsalçı və istehlakçıların əmək nəticələrini mübadilə etmək məqsədilə görüşməsini təmin edir. Bu və ya digər iqtisadi və ya texnoloji əlaqənin ictimai istehsal iştirakçıları arasında nə dərəcədə qarşılıqlı faydalı olduğunu bazarsız müəyyənləşdirmək mümkün deyil. İstehlakçı optimal təchizatçı-satıcı, satıcı isə ən əlverişli alıcı seçmək imkanına malik olur.**

**İnformasiya funksiyası daim dəyişən qiymətlər, kreditlərin faiz dərəcələri vasitəsilə bazar iştirakçılarına əmtəə və xidmətlərə olan tələbat və təkliflər barədə obyektiv məlumat çatdırır. Müasir bazar böyük həcmdə məlumatları toplayıb işləyən, bazarın vəziyyəti, əmtəə və xidmətlərin reallaşdırılması şərtləri barədə ümumiləşdirilmiş xəbərləri çatdıran « nəhəng kompüter»ə dönür.**

**Qənaətcillik funksiyası istehlak sahəsində (alıcıların əmtəə alışına çəkdiyi xərclər) tədavül xərclərinin azaldılması və əhalinin tələbatının əmək haqqı ilə mütənasibliyinin yaradılmasını nəzərdə tutur.**

**Bazar subyektləri maraqlarının reallaşdırılması funksiyası bu maraqların A.Smitin göstərdiyi aşağıdakı prinsip əsasında qarşılıqlı əlaqəsini təmin edir: «Mənə lazım olan şeyi ver, onda sən də sənə lazım olan şeyi alarsan...Satıcının iqtisadi marağı daha çox qazanc əldə etmək, alıcının isə**

**СМНТ А.НссjıеаоВаННе о прwроае н прННННах öоraТСТВа паро^оВ. М.:1962. С.25.**

**- az xərclə tələbatlarını Ödəməkdir. Bu maraqların birləşməsi bir-birinə lazım olan dəyərlərin mübadiləsini aparmağı və bazar sövdələşməsinin ekvivalentliyini nəzərdə tutur.**

**Bazarın mahiyyəti və funksiyalarından məntiqi olaraq onun ictimai təkrar istehsal prosesində rolu aydınlaşır. «Funksiyam və «bazarın rolu» anlayışları bir-biri ilə sıx bağlıdırlar. Funksiya və rol sanki eyni bir obyektiv prosesin dərkinin mərhələləridir.**

**İctimai istehsalda bazarın rolu aşağıdakılardan ibarətdir:**

**■<ıilkin» əks əlaqələr vasitəsilə istehsala xəbər vermək: nə, hansı həcmdə və hansı quruluşda istehsal olunmalıdır;**

**■tələb və təklifi tarazlaşdırmaq, iqtisadiyyatın tənzimlənməsini təmin etmək;**

*m* **işlərinin səmərəliliyi və bazarın tələbatlarını ödəməyə yönümlənməsinə müvafiq olaraq əmtəə istehsalçılarını fərqləndirmək;**

**■rəqabət qabiliyyəti olmayan müəssisələri yox etmək və köhnəlmiş istehsalı dayandırmaq - bu sanki «sanitar» aspektidir.**

**Bazarın siyasi iqtisad kateqoriyası kimi, mahiyyəti belədir. Lakin bazar problemi xeyli mürəkkəbdir.**

**Bazar yalnız sivilizasiyanın bütün inkişaf mərhələlərinə bu və ya digər dərəcədə xas olan ümumiqtisad kateqoriyası deyil, həm də eyni zamanda mürəkkəb sosial-fəlsəfi anlayışdır. O yalnız iqtisadi sahə ilə məhdudlaşmır. Bazar insan cəmiyyətinin təbii-tarixi inkişafının nəticəsi kimi, xalqın birgə mədəni və iqtisadi həyat qurmağın çoxəsrlik zəngin ənənələrini özündə cəmləmiş tarixi, milli, mədəni, dini, psixoloji xüsusiyyətlərini özündə əks etdirir. Bu müxtəlif ölkələrin müasir bazarlarını və bazar sistemlərinin səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirir. Bazar bütün sivilizasiyalarda olub, lakin onun onlarda rolu fərqli olub. Bazar münasibətləri bu gün də təkmillikdən uzaqdırlar, çox güman ona görə ki, təbiətdə ideallıq ümumiyyətlə çatılmazdır.**

### *§4, Bazarın təsnifatı. Rusiyanın bazar iqtisadiyyatına keçməsinin xüsusiyyəti*

**Bazarın inkişaf tarixi onun aşağıdakı növlərini fərqləndirməyə imkan verir: inkişaf etməmiş, azad, tənzimlənən və deformasiya edilmiş.**

**İnkişaf etməmiş bazarda bazar münasibətləri təsadüfi, əsasən əmtəə (barter) səciyyəlidir. Lakin burada da artıq bazar müəyyən rol oynayır, cəmiyyət üzvlərinin təbəqələşməsinə rəvac verir, bu və ya digər əmtəənin istehsalına marağı gücləndirir.**

**Azad (klassik) bazar səciyyələnir:**

**■ qeyri-məhdud sayda iştirakçı və onlar arasında azad rəqabətlə;**

**■ bütün cəmiyyət üzvlərinin istənilən təsərrüfat sahəsinə tam azad daxil ola bilməsi ilə;**

**■ istehsal amillərinin tam səfərbərliyi ilə; kapitalın məhdudiyyətsiz azad hərəkəti ilə;**

**■ iştirakçının hər birində bazar haqqında tam dolğun informasiyanın (gəlir norması, tələb, təklif və s. haqqında) olması ilə. Bazar subyektlərinin səmərəli davranış prinsipini (gəlirin artması hesabına fərdi rifah halını optimallaşdır- maq; baha satıb ucuz almaq) informasiyasız həyata keçirmək mümkün deyil;**

**■ eyniadlı əmtəələrin mütləq eyniliyi (ticarət markalarının olmaması və s);**

**■ azad rəqabət iştirakçılarından heç birinin digərinə qeyri-iqtisadi metodlarla təsir edə bilməməsi;**

**■ azad rəqabətin gedişində qiymətlərin kortəbii müəyyənləşməsi;**

**■ inhisarçı (bir istehsalçı), monopsoniya (bir alıcı) və dövlət tənzimləməsinin olmaması ilə.**

**Azad bazarın üstünlüyü ondadır ki, o özütənzimləmə mexanizmi əsasında fəaliyyət göstərir, insana tərəf dÖnür,**

**tələb əsasında qiymətlər vasitəsilə istehsala kapital qoyuluşunu istiqamətləndirir. Azad bazar mexanizmi öncədən defi- sitsiz bazar mexanizmidir və bunları təmin edir: cəmiyyətdə resursların səmərəli bölüşdürülməsi; çeviklik və dəyişən şərtlərə yüksək uyğunluq; bazar subyektlərinin seçim və fəaliyyət azadlığı; ETT-nin nailiyyətlərindən maksimum istifadə; ən müxtəlif tələbatları ödəyə bilmək qabiliyyətini; əmtəə və xidmətlərin keyfiyyətinin artmasını; pozulmuş tarazlığın nisbətən tez bərpasını. Belə təəssürat yaranır ki, bazar sanki avtomatik fəaliyyət göstərir, həqiqətdə isə tənzimləmə burada sınaqlar və səhvlər metodu ilə aparılır.**

**Lakin azad bazarın ciddi çatışmazlıqları da var.**

**1. Azad bazar əhalinin həyat səviyyəsinin təbəqələşməsinə gətirir ki, bu da bir o qədər də pis deyil, çünki əməyə ciddi motivləri təmin edir. Pis odur ki, o kasıblara qarşı sərt və etinasızdır, əhalinin sosial «müdafiəsinitəmin etmir. Azad bazarın sosial nəticələri işsizlik, müflisləşmə, əhalinin ayrı-ayrı qruplarının kasıblığıdır. Ümumbəşəri mövqedən bazar bölgüsü ədalətsizdir, çünki hamıya minimum yaşayış səviyyəsini təmin etmir. Deməli, sosial problemlərin həlli üçün dövlətin müdaxiləsi zəruridir.**

**Bazarda bölgü əldə olunan gəlir əsasında həyata keçirilir. Bazar münasibətləri mövqeyindən, azad rəqabət zəminində əldə olunan istənilən gəlir ədalətlidir. Bu gəliri əldə etməyə qabil olmayanlar isə (sağlamlığına, qocalığına və s. görə) dilənçi vəziyyətinə düşməlidirlər.**

**Bazar cəmiyyətin bütün üzvlərinin əmək hüququnu təmin etmək iqtidarında deyil. Yalnız iş qüvvəsinə tələbatı olanlar işə düzələ bilirlər. Azad bazar əhalinin tam məşğulluğuna və qiymətlərin sabit səviyyədə qalmasına təminat vermir.**

**2. Azad rəqabət mexanizmi iqtisadiyyatı istehsalın inkişafı üçün lazımi qədər pulla təmin etmir. Pul çatışmazlığı olur. Emissiya problemini dövlət bankı qismində dövlət öz üzərinə götürür.**

**3. Azad rəqabətçilərin fəaliyyəti çox vaxt arzuolunmaz nəticələrə gətirir, məsələn, ətraf mühitin çirkləndirilməsi, ərzaq məhsullarının pestisidlərlə və başqa zərərli maddələrlə zəhərlənməsi, narkomanlığın, alkoqolizmin yayılması və s. Beləliklə, azad bazar çox vaxt qəbul olunan qərarların mümkün olan mənfi nəticələrinə göz yumur, həmçinin bərpaolun- maz resursların qorunmasına rəvac vermir.**

**4. Azad bazar kollektiv istifadə üçün əmtəə və xidmətlərin istehsalına həvəs yaratmır, cəmiyyəti hər bir adamın ehtiyac duyduğu və heç kimin mənfəət əldə etmədiyi (müdafiə, dövlətin idarə edilməsi, təbiətin mühafizəsi və s.) xidmətlərlə təmin etmək iqtidarında deyil.**

**5. Bazar fundamental tədqiqatlar üçün təsirli maraq yaratmır. O hazırda mövcud olan elmi-texniki nailiyyətləri realizə edir, lakin elm və texnikada fundamental tədqiqatlar aparmaq üçün vəsait ayırmır, halbuki cəmiyyətin uzaq perspektivdə inkişafı üçün onlar olduqca zəruridir.**

**6. Azad bazar zəminində fəaliyyət göstərən iqtisadiyyat müvafiq resession (istehsalın artım tempinin tənəzzül və ya sürətin aşağı düşməsi) və inflyasiya prosesləri qeyri-sabit inkişafa məruz qalır.**

**7. Bazar cəmiyyət üçün vacib olan, lakin yalnız kommersiya kateqoriyalarına tabe ola bilməyəcək fəaliyyət növlərinə (səhiyyə, təhsil, elm, mədəniyyət, vahid nəqliyyat sistemi, zərər gətirən istehsal) şamil edilmir.**

**Azad bazar - abstraksiyadır; hazırda, elə keçmişdə də (müxtəlif dərəcədə), bazar tənzimlənəndir, çünki heç bir dövlətçilik azad bazarın şərtlərinə cavab vermir.**

**Hazırda bizdə çoxları hesab edir ki, bazar iqtisadiyyatına keçid azad bazarın formalaşması deməkdir, çünki yalnız azad bazar insanların təşəbbüsü və işgüzar fəallığını tam sərbəstləşdirər, həyatlarını yaxşılaşdırar. Əslində isə tam azadlıq yoxdur və ola da bilməz. Hələ N.t.Buxarin qeyd edirdi ki, təsərrüfatçılıq edən subyekt özünün motivlərində və fəa**

**liyyətində ictimai mühitdən asılıdır, Q.V.Plexanov isə vurğulayırdı ki, təsərrüfat fəaliyyəti azadlığı özü-özlüyündə deyil, iqtisadi qanunları dərketmənin nəticəsi kimi mövcuddur və onlara tabe olmaq və obyektiv qarşılıqlı əlaqələrə müvafiq olaraq öz fəaliyyətini qurmaq bacarığından ibarətdir.**

**C. Helbreyt bildirir ki, bu gün Adam Smit dövrünün azad bazarı ola bilməz və buna çağıran şəxs klinik xarakterli psixi xəstədir.**

**Beləliklə, tam iqtisadi azadlıq mümkün deyil,.jlakin iqtisadiyyatın sürətli inkişafı üçün kifayət edən və normal, sivil, tənzimlənən bazarın fəaliyyəti ilə təmin olunan iqtisadi azadlıq olmalıdır.**

**Tənzimlənən bazar - cəmiyyətin sivilləşməsi və humanistləşməsinin nəticəsidir ki, bu zaman dövlət cəmiyyətin ayrı-ayrı üzvlərinin maraqlarına bazarın zərbəsini zəiflətməyə çalışır, lakin yaradıcı, təşəbbüslü əməyə və təsərrüfat fəaliyyətində riskə marağını heçə endirəcək səviyyədə yox. Bazar onun mənfi təsirlərini heçə endirmək və ya məhdudlaşdırmaq üçün tənzimlənən olmalıdır.**

**Hələ N.D.Kondratyev qeyd edirdi ki, kapitalist sistemi çərçivəsində tənzimləmə dövlət mülkiyyəti ilə məhdudlaşır və dolayısı ilə tənzimlənir.^**

**Bəzi müəlliflər bazarın özütənzimlənən sistem olmasından çıxış edərək son dövrlərə qədər «tənzimlənən bazar» (onu isti buz, kvadrat təkər və s., yəni cəfəngiyyat adlandırırdılar) məfhumunun əleyhinə çıxırdılar.**

**Amma məsələ burasındadır ki, bazar tənzimlənə bilir:**

**■ özünün bazar mexanizmi ilə, bunun da elementləri rəqabət, mənfəət, qiymət, tələb, təklif və s.;**

**■ dövlət tərəfindən bilavasitə və ya dolayısı ilə dövlət sifarişləri, vergilər və s. vasitəsilə.**

**Bizim üçün isə bu gün Vasili Leontyevin qeyd etdiyi kimi, bazar və dövlət tənzimləməsinin optimal uzlaşmasını ***

*** Bax: KoHjypaTbeB H.JI. IIpoöJieMW ƏKonoMinecKOH aHHaMHKH. M.: ƏKOHOMHKa, 1989.**

**tapmaq vacibdir. Hələ ki, bu problemi ideal həll edən bircə dövlət də yoxdur.**

**Bazarı tənzimləmənin iki tərəfinin qarşılıqlı əlaqəsi gah bazarın özünün mexanizminin, gah da dövlətin tənzimləməsinin gücləndiyini göstərən monitorinq (yəni xatırladan, yada salan) səciyyəlidir. Dövlət müəyyən dərəcədə bazarın fəaliyyəti üçün şərait yaradır və onun bazar münasibətlərinə həddən artıq qarışması onlarm deformasiyası ilə nəticələnir.**

**Bazarın deformasiyasına ən parlaq misal bizim iqtisadiyyatdakı bazar ola bilər. Bizdə bazarın fəaliyyət şərtləri elə idi ki, onun iqtisadiyyatın inkişafındakı müsbət rolu heçə endirilmişdi. Lakin bazarın olmaması barədə bəyanatlar həqiqəti heç də düzgün əks etdirmirdi, çünki alqı-satqı aktları mövcud idi və bunu nəinki Rusiyanın, hətta Qərbin (məsələn, Valter Oyken və b.) ayrı-ayrı iqtisadçıları da etiraf edirdilər. Şəxsi həyətyanı təsərrüfat müxtəlif illərdə müxtəlif dərəcədə əmtəəlik xüsusiyyətlərinə malik idi, amma onsuz kəndli mövcud ola bilməzdi. Beləliklə, bazar var idi və indi də var, lakin o ciddi deformasiya olunub.**

**İnzibati-amirlik və ya direktiv təsərrüfatçılıq sistemi şəraitində bazarm deformasiyasının əsas əlamətlərinə aşağıdakıları aid etmək olar:**

**■ fəaliyyətini müxtəlif mülkiyyət formaları əsamda quran çoxsaylı bazar subyektlərinin olmaması;**

**■ əmtəə resurslarının bölgüsü və onların hərəkətində hədsiz mərkəzləşdirmə, kommersiya fəaliyyətində müstəqilliyin olmaması;**

**■ istehsalçı və ticarətçinin inhisarçıhğı;**

**■ tələb və təklif arasında ildən-ilə artan bərabərsizlik;**

**■ qiymətlərin hədsiz artması, güclü inflyasiya, pul tədavülünün pozulması, büdcə kəsiri, böyük pul emissiyası və s.;**

**■ kölgə iqtisadiyyatmın, <ıboz» və «qara» bazarların çiçəklənməsi;**

qüvvələrinin baş alıb getməsi;

■ daha mütərəqqi əmtəə-pul mübadiləsi əvəzinə barter mübadilələrinin artması;

■ bazar münasibətləri subyektlərinin iqtisadi maraqlarının deformasiyası (məsələn, satıcılar da əmtəəni satmayıb gizləyib saxlamaqda maraqlı olur), səmərəli əməyə, təsərrüfat fəaliyyətində riskə marağın olmaması;

■ istehlakçıda əmtəə seçmək hüququnun olmaması.

Deformasiyanı aradan qaldırmaq, bazar iqtisadiyyatının xəstəliyini (işsizlik, inflyasiya, qeyri-sabitlik) ləğv etməklə bazar təsərrüfatına keçid üçün lazımi şəraiti formalaşdırmaq lazımdır;

■ müxtəlif mülkiyyət formalarını (mülkiyyət poliformizmi) və rəngarəng təsərrüfatçılıq formalarını, həmçinin onlar arasında azad rəqabət, rəqabətdə bütün təsərrüfatçıların azad iştirakına və ondan çıxmasına şərait, kifayət qədər istehsalçının, yəni eynitipli məhsulun azı 15-20 istehsalçısının (4- 5 olanda bu oliqopoliya, 1-2 olanda isə monopoliya olur ki, bu da bazarın inkişafını ləngidə bilir) olmasına imkan yaratmaq;

■ təsərrüfat fəaliyyətində azadlığı, təsərrüfatçılıq əlaqələri üzrə tərəfdaşların seçilməsində azadlığı, müstəqilliyi və bazar subyektlərinin təsərrüfatçılıq qərarlarının qəbuluna görə məsulluğunu (onların müstəqil kontrakt, müqavilə bağlaya bilməsi, sifariş verməsi və qəbul etməsi; gəlirinin bir qismindən sərbəst istifadə etməsi) təmin etmək; sərt inzibati əmtəə bölgüsünü istisna etmək (kartoçkalar, talonlar üzrə, fondlaşdırma və s.);

■ azad qiymətyaratma mexanizmini, bazar subyektlərinin özlərinin qiymət müəyyənləşdirmək hüququnu formalaşdırmaq. Bu sərt tələb deyil, çünki klassik bazar sanki kənardan «görünməz əllə» alıcı və satıcılara qiyməti diktə edir. İstehsalçı və istehlakçı ittifaqlarının olması bazan qane etməyən qiymətlərə özünəməxsus reaksiyasıdır;

■ resurslarla sərbəst manevr etmək imkanının təmin

**edilməsi, onların mövcudluğu, istehsal amillərindən (maddi, əmək, maliyyə) istehsalın inkişafı üçün istifadədə səfərbərlik; istehsal şərtlərini, onun texnologiyasını dəyişmək imkanı, istənilən tətbiq sahəsinə istənilən kapitalın sərbəst yerdəyişməsi; tam yüklənməmək sağlam bazar iqtisadiyyatının fəaliyyəti üçün zəruri şərtdir;**

**■ bütün təsərrüfatçıların bazarın vəziyyəti haqqındakı tam və sərbəst informasiya ala bilməsinə təminat;**

**■ bazar infrastrukturunu, yəni bazara xidmət göstərən sahələr, sistemlər, müəssisələr kompleksini yaratmaq;**

**■ bazar münasibətlərinin yayılması ilə yanaşı iqtisadiyyatın qeyri-bazar sektorunun da xeyli hissəsini saxlamaq;**

**■ milli iqtisadiyyatı dünya təsərrüfat əlaqələrinə ardıcıl inteqrasiya etmək;**

**■ vətəndaşlara dövlət tərəfindən sosial təminatlar vermək, hamıya bərabər «vəsait qazanmaq» imkanı vermək, əmək qabiliyyəti olmayanlara və sosial cəhətdən zəif cəmiyyət üzvlərini dəstəkləmək.**

**Təəssüf ki, üçüncü minilliyin astanasında Rusiyada bu şərait yaradılmayıb. Rusiyada keçid dövründə bazarın inkişafı üç istiqamətdə aparılır:**

**■ iri təsərrüfat sistemlərinin korporativ-inhisarçı formaları çərçivəsində. Məhz bu sistemlər həqiqətən sərbəstdir, iqtisadi cəhətdən müstəqildir, təsərrüfat fəaliyyətlərini özləri qorxu və risklə həyata keçirirlər. Onlar arasında qarşılıqlı əlaqə əsl bazar səciyyəsi daşıyır, hərçənd yüksək inhisar gəlirlərinin əldə olunması və bu nomenklatur-korporativ qrupların sabitliyinin təmin edilməsi fikrinə tabe edilib. Bazar iqtisadiyyatı istiqamətində irəliləyiş yolunda ən mühüm məsələ bu korporativ-inhisarçı hakimiyyətin sındırılması və bütün təsərrüfatçı təşkilatlar və kiçik sahibkar quruluşları, müxtəlif növ azad assosiasiyaların real müstəqilliyinin inkişaf etdirilməsindədir;**

**■ əvvəllər əmtəə iqtisadi münasibətləri yaranmayan yer**

**lərdə. Bu, daşınmaz əmlak, yaşayış binaları, maliyyə, pul resursları bazarına aiddir;**

**■ təkamülün yeni istiqamətlərini səciyyələndirən yeni bazarların formalaşdırılması səpkisində: genezisi keçid iqtisadiyyatının spesifik cizgilərini təşkil edən əmək və kapitalın bazar münasibətlərinin yaranması, kapitalların işçi qüvvəsi bazarının formalaşması.**

**Bütün dünyada olduğu kimi Rusiyada da bazar insanların sərbəst seçməyib, keçmişdən aldıqları şəraitdə inkişaf edir. Bu bazarın həm bütün dünya üçün ümumi olan, həm də Rusiya üçün səciyyəvi formalaşma şərtlərini göstərməyə imkan verir.**

**Yüksək və orta inkişaflı iqtisadiyyat formalaşmış ölkələrin müasir bazar təsərrüfatçılıq modeli üçün aşağıdakı ümumi qanunauyğunluqlar səciyyəvidir: maksimum özəlləşdirmə, bazarların açıqlığı, iqtisadiyyatın bütövlükdə və o cümlədən bazar infrastrukturunun yüksək inkişaf səviyyəsi, milli təsərrüfatın maliyyə-büdcə tənzimləməsinin inkişaf etmiş metodlar sistemi, valyutanın dönərliliyi, iqtisadi artım və iqtisadiyyatın bütövlükdə inkişafının tsiklikliyi.**

**Rusiyanın sosial yönümlü bazar iqtisadiyyatına daxil olma xüsusiyyəti aşağıdakılarla müəyyənləşir: məhsuldar qüvvələrin nisbətən aşağı inkişaf səviyyəsi; dünya təsərrüfat əlaqələrinin bütün eni və dərinliyi istiqamətində zəifləməsi; təsərrüfatçılıqda inzibati-komanda elementlərinin nüfuzunun mövcudluğu, kiçik və orta sahibkarlığın cüzi üstünlüyü şəraitində istehsalın hədsiz yüksək təmərküzləşməsi səviyyəsi; iqtisadiyyatın quruluşunun və əsas bazarların dərin inhisarlaşması; iqtisadiyyatın tarazlaşdırılmaması; insanla əlaqəsizlik (istehsaldan təcrid olunma); ümumi-federal və respublika-region maraqlarının uzlaşdırılması zərurəti; bazarların ziddiyyətli «regionlaşma» prosesləri və ayrı-ayrı respublika və regionların iqtisadiyyatlarının qarşılıqlı təsərrüfat asılılığının güclənməsinin uzlaşdırılması; «vahid iqti-**

**sadi məkanın» zəruriliyi.**

**Bazar inkişafının əsas qanunauyğunluqları meyl kimi təzahür edir.**

**Cəmiyyətin bazar quruluşlarına keçidi məsələsi sadə deyil. Problemin dərk edilmə çətinliyi ondadır ki, bizim nəzəri müddəalarla ictimai praktika heç də həmişə üst-üstə düşmür, hətta bəzi müəlliflər üçün onlar bir-birinin əksidir. Bəziləri bazarda böhrandan çıxış yolunu görürlər, bəziləri isə bildirirlər ki, bazar bizim cəmiyyəti çıxılmaz vəziyyətə salıb.**

**Bazar iqtisadiyyatının formalaşması mürəkkəb, ziddiyyətli prosesdir. Bazar iqtisadiyyatı ictimai quruluşlara dağıdıcı təsir göstərə bilər (XX əsrin 30-cu illərinin dünya böhranını yada salaq), onda dövlətin qarışması vacibdir. Müasir Rusiya cəmiyyətindəki dəyişikliklər üçün səciyyəvi olan iqtisadiyyatın həddən artıq dövlətləşdirilməsi isə əks-tə- sir göstərir.**

**İqtisadiyyatın sosial təşkili forması kimi bazar bir tərəfdən insanda fəallıq (təşəbbüskarlıq) oyadır, digər tərəfdən isə əhalinin sosial təbəqələşməsini yaradır, işsizliyə, hərdən idarə oluna bilinməyən qiymət artımına səbəb olur. Buna görə də iqtisadi mədəniyyət, bazar mədəniyyəti və onların subyektlərinin müvafiq inkişafı zəruridir. Rusiyada iqtisadi islahatlar proqramı bunları nəzərə almalı, müəyyən məntiqi və mərhələ məqsədlərini əks etdirməlidir ki, bunlardan aşağıdakıları göstərmək olar:**

- **iqtisadiyyatın dövlətsizləşdirilməsi, özəlləşdirmə, sahibkarlığın inkişafı. Ehtiyat və imkanların axtarışı və istifadəsi;**
- **bazarın və onun infrastrukturunun formalaşması, bazar tipli təsərrüfat əlaqələrinin yaradılması, sahibkarlığın inkişafının yeni maraq mexanizmlərinin təşəkkül tapması;**
- **iqtisadiyyatın inhisarsızlaşdırılması və inzibati-amirlik sistemi çərçivəsində formalaşmış və bazarın inkişafına mane olan təşkilati quruluşların aradan qaldırılması;**

**■ qiymətlər üzərində dövlət nəzarətinin tədricən məhdudlaşdırılması və sərbəst qiymətlər yaranmasına keçid;**

**■ tədavüldə pul kütləsinin məhdudlaşdırılmasına yönəldilmiş sərt kredit-pul və maliyyə siyasəti;**

**■ əhalinin bazar iqtisadiyyatı şəraitinə uyğunlaşmasını asanlaşdıran güclü sosial təminatlar və dəstək sisteminin yaradılması;**

**■ sosial yönümlülük istiqamətində xalq təsərrüfatında zəruri quruluş irəliləyişlərini təmin edə bilən, əsasən yeni iqtisadi metodlara söykənən fəal quruluş - investisiya siyasəti.**

**Beləliklə, Rusiyada iqtisadi islahatlar insan, onun tələbatlarının ödənilməsi, şəxsiyyətini inkişaf etdirmək yönümündə « köklənməlidir**

# VI FƏSİL. BAZARIN QURULUŞU VƏ İNFRASTRUKTURU: MAHİYYƏTİ VƏ ƏSAS ELEMENTLƏRİ

*§1. Bazar quruluşu va sisteminin çoxmeyarhlıq xarakteri. §2. Bazar infrastrukturunun mahiyyəti, yaranması və əsas elementləri. §3. Birjalar uə bazar iqtisadiyyatında onların rolu.*

**Bazarın alqı-satqı aktlarının məcmusu və ya sahəsi kimi xarakteristikasını onun quruluşu, sistemi və infrastrukturu vasitəsilə vermək olar. Bazarın səmərəli fəaliyyət göstərən sistemi və infrastrukturunun yaranması və qərarlaşması Rusiya iqtisadiyyatının bazar təsərrüfatı şəraitinə keçidi prosesinin mühüm tərkib hissələridir.**

## *§1. Bazar quruluşu V9 sisteminin çoxmeyarhlıq xarakteri*

**Bazarın quruluşu — bazarın ayrı-ayrı elementlərinin daxili quruluşu, yerləşməsi, düzülüşü, onların bazarın ümumi həcmində xüsusi çəkisidir.**

**İstənilən quruluşun əlamətləri bunlardır:**

- **onun elementləri arasında sıx əlaqə;**
- **bu əlaqələrin müəyyən sabitliyi;**
- **həmin elementlərin tamlığı, məcmusu.**

**Ən müxtəlif meyarlar əsasında ayrı-ayrı elementlərə bölünmüş bütün bazarların hamısının məcmusu bazarlar sistemini əmələ gətirir.**

**Bütövlükdə bazar olduqca zəngin və mürəkkəb quruluşu ilə səciyyələnir. Onun quruluşu seçilmiş meyarlardan asılı olaraq müəyyənləşdirilir.**

**Obyektlər üzrə bazar quruluşu və sistemini səciyyələndirmək üçün meyarlar aşağıdakılar ola bilərlər:**

- **əmtəə və xidmətlər bazarı (istehlak bazarı);**

**■ İş qüvvəsi bazarı;**
**■ istehsal vasitələri bazarı;**
**■ qiymətli kağızlar, valyuta bazarı;**
**■ elmi-texniki işləmələr, patentlər bazarı;**
**■ informasiya bazarı;**
***m*** **tədavül vəsaitləri bazarı;**
***m*** **ayrı-ayrı əmtəə və əmtəə qrupları (ət, paltar, ayaqqabı) bazarı;**
**■ lisenziyalar bazarı və s.**

**İstehlak bazarına ərzaq və sənaye malları bazarları, məişət, kommunal, nəqliyyat xidmətləri bazarları, həmçinin mədəniyyət, təhsil, səhiyyə xidmətləri daxildir. Tələb və təklif dəyişmələri, inflyasiya özünü ən çox bu bazarda göstərir. O millətin rifah halına bilavasitə təsir göstərir.**

**Mənzil bazarı bizim ölkədə yaxın vaxtlara qədər şəxsi evlərin, bağların və bu qəbildən olan başqa mülklərin, həmçinin alınıb satıla bilən kooperativ evlərin alqı-satqısı şəklində mövcud idi. Dövlət mənzil bölməsinin özəlləşdirilməsi ilə əlaqədar dar mübadilə zonası və ya “razılaşma” əsasında gizli satışla məhdudlaşan bazardan deyil, bütün mənzil növlərini əhatə edən tam dolğun mənzil bazarının formalaşmasından danışmaq olar. Mənzil bazarı daşınmaz əmlak bazarının bir hissəsidir.**

**İş qüvvəsi bazarı prinsip etibarilə həmişə mövcud olub. Lakin keçmişdə bizim iqtisadiyyatda iş qüvvəsi onun planlı bölgüsü, qeyri-iqtisadi yollarla əməyə məcburetmə (müftə-xorluqla mübarizə) və əməyin ödənilməsində dövlət tarifləri, işə sərbəst götürmə və işdən çıxartmanın olmaması ilə bağlı sərbəst alqı-satqı obyekti deyildi. Son vaxtlara qədər iş qüvvəsinin əmtəə xarakteri inkar edilirdi. Iş qüvvəsi bazarının inkişafı hər bir fərdin öz iş qüvvəsini işçi və işəgötürən arasında müqavilə əsasında öz seçimi, istəyi və bazar qiymətlərilə satmaq hüququnun tanınmasını nəzərdə tutur.**

**İnvestisiya bazarı pul bazarı növlərindən biridir, burada bazar münasibətlərinin obyekti sərmayə qoyuluşlarıdır.**

**Qiymətli kağızlar bazarı Rusiyada son vaxtlara qədər yalnız dövlət istiqraz vərəqləri və lotereya biletlərinin alqı-satqısı ilə təmsil olunmuşdu. Hazırda səhm, istiqraz vərəqləri, assiqnasiyalar, çeklər, akkreditivlər, veksellər və başqa növ pul öhdəliklərinin alqı-satqısı aparılır.**

**Pul və valyuta bazarı bizim iqtisadiyyatda rəsmən yox idi və ya gizli səciyyəli idi. Valyuta bazarı çox məhdud şəkildə yalnız xarici iqtisadi münasibətlər sahəsini əhatə edirdi. Bu bazarın normal fəaliyyət göstərməsi dünya, dövlət, sərbəst və hərrac kursları üzrə valyutanın rubla satılıb- alındığı fond valyuta birjalarının yaradılmasını tələb etdi.**

**İnnovasiya, yəni yeniliklər, ixtiralar, səmərələşdirici təkliflər bazarı da praktik olaraq bizim iqtisadiyyatda yox idi. Bazar münasibətlərinə keçid innovasiyaları bazar qiymətlərilə satılması məqsədəuyğun olan əmtəə kimi nəzərdən keçirməyə əsas verir ki, bu da, şübhəsiz, elmi-texniki tərəqqinin sürətləndirilməsinə rəvac verməlidir.**

**İnformasiya məhsulları bazarı xüsusi bir bazardır, burada alqı-satqı obyekti kitablar, qəzetlər, şəkillər, müxtəlif növ reklam və insanlara zəruri informasiyanı çatdıran çoxsaylı digər əşyalar və fəaliyyət növləridir.**

**Belə bazar bizdə mövcuddur. Lakin intellektual məhsullar da daxil olmaqla informasiya məhsulu geniş mənada nəzərdən keçirilsə, yəni bura elmi, mədəni, mənəvi, təhsil məhsulları da aid edilsə, onda belə bazar indi-indi formalaşır. Alqı-satqı obyekti kimi EHM-lər üçün proqramlar yayılmağa başlamışdır.**

**Lisenziyalar bazan innovasiyalar bazarının bir hissəsidir. Burada alqı və satqı obyekti ixtiraların, texnoloji təcrübənin, sənaye sirləri və kommersiya biliklərinin, əmtəə nişanlarmın verilməsinə patentli və patentsiz lisenziyalardır. Bu texnologiya ticarətidir. Hal-hazırda beynəlxalq təcrübədə nou-hau (texniki biliklər və praktik təcrübədən ibarət, kommersiya dəyəri olan və patent müdafiəsi ilə təmin edilməmiş informasiyalar: spesifikasiyalar, formullar, reseptlər, sənəd**

**lər, istehsalın təşkili sxemi, texnoloji prosesin xarakteristikası və s.) və verilən texnologiyanın sənaye tətbiqi üçün mühəndis xidmətlərinin verilməsini nəzərdə tutan kompleks texnoloji mübadiləyə dair lisenziya razılaşmaları daha çox yayılmışdır.**

**Subyektlərinə görə bazar sistemi aşağıdakı bazar növlərinə bölünür:**

- **alıcı bazarı;**
- **satıcı bazarı;**
- **dövlət təşkilatları bazarı;**
- **aralıq satıcı - vasitəçilər bazarı.**

**Alıcı bazarında təklif tələbdən çox olmalıdır, bu halda alıcı müxtəlif növ əmtəələri, onların qiymətlərini müqayisə edir və bu və ya digər əmtəəni seçir. Burada istehsalçı və ticarətçilərin rəqabəti mövcuddur, bu müasir inkişaf etmiş milli və beynəlxalq bazarlar üçün səciyyəvidir.**

**Satıcı bazarı tələbin təklifdən xeyli çox olması ilə səciyyələnir. Burada əmtəə və xidmətlərin kəmiyyəti əsas rol oynayır, keyfiyyətə minimum diqqət yetirilir. Satışqabağı və satışdan sonrakı servisin adı belə çəkilmir, hər şey o saat, yerindəcə satılır, çünki istehsalçılar arasında rəqabət yoxdur, əmtəə çeşidi kasaddır. Ticarət: "Nə verirlər, onu da götür" prinsipi ilə işləyir. Bizim bazar belədir.**

**Dövlət təşkilatları bazarı hakimiyyətlərinin icrası ilə bağlı öz əsas funksiyalarını yerinə yetirmələri üçün zəruri olan əmtəələri alan və ya icarəyə götürən dövlət təşkilatlarının, federal orqanların, yerli hakimiyyət orqanlarının alqı- satqı aktlarının məcmusundan ibarətdir.**

**Aralıq satıcı - vasitəçilər bazarı əmtəəni özünə xeyir qalmaqla təkrar satış məqsədilə alan və ya başqa istehlakçılara icarəyə verən şəxslər və təşkilatların iqtisadi münasibətlərinin məcmusunu ifadə edir.**

**İctimai əmək bölgüsünə görə fərqləndirilirlər:**

- **yerli (lokal) bazar;**
- **region bazarı;**

**■ milli bazar;**
**■ dünya bazarı.**

**Dünya bazan iqtisadi əlaqələri yalnız beynəlxalq ticarətlə (o cümlədən lisenziyalar, xidmətlər, kapitalın beynəlxalq hərəkəti və s.) müəyyənləşmiş müxtəlif dövlətlərin milli bazarlarının məcmusu deyil, həm də keyfiyyətcə yeni səviyyədir.**

**Təsnifatın başqa meyarlarını da göstərmək olar.**

***Mükəmməllik səviyyəsinə görə:*** **m tarazlı bazar;**
**■ qıtlıq bazarı;**
**■ ifrat bazar.**

***Yetkinlik səviyyəsinə görə:***
***m*** **İnkişaf etməmiş bazar;**
**■ inkişaf etmiş bazar;**
**■ formalaşan bazar.**

***Rəqabətin məhdudlaşdırılması dərəcəsinə görə: m*** **sərbəst bazar; m İnhisarçı bazar;**
**■ oliqopolik bazar;**
**■ qarışıq bazar.**

***Qüvvədə olan qanunvericiliyə uyğunluğuna görə:***
***m*** **leqal bazar;**
**■ qeyri-leqal («qara» və «boz») bazar.**

***Sahələr üzrə:***
**■ avtomobil bazarı;**
**■ kompüter bazarı və b.k.**

***Bazar mübadiləsinin təşkilinə görə: m*** **topdansatış bazarı;**
**■ pərakəndəsatış bazarı;**
**■ ixrac bazarı;**
**■ idxal bazarı.**

***Əmtəənin çeşidinə görə:***
***m*** **yalnız ilkin istehsalçının əmtəəsi olan qapalı bazar;**
**■ çoxlu istehsalçımn çoxsayh oxşar əmtəələri olan dolğun bazar;**

**■ bir və ya öz aralarında əlaqəli olan bir neçə tələbatı ödəməyə yönəldilmiş və bir-birinə uyğun gələn bir sıra əmtəələrin mövcud olduğu geniş çeşidli bazar;**

**■ aralarında əlaqə olmayan müxtəlif əmtəələr təmsil olunmuş qarışıq bazar.**

**Xarici ölkələrin iqtisadiyyatında aşağıdakı bazarları da fərqləndirirlər: hərraclar, uzunmüddətli müqavilələr, telefon-teleks bazarı, birdəfəlik sövdələşmələr, birja ticarəti.**

**Tenderlər (ticarət) - bu ticarətin bölgülü formasıdır ki, bu zaman alıcı ticarət vasitəsilə sifarişlərin yerləşdirilməsi haqqında qərar qəbul edən texniki və kommersiya ekspertlərinin, idarə heyətinin nümayəndələrinin, alıcıların və başqa iştirakçıların daxil olduğu tender komissiyasının köməyi ilə müəyyən texniki-iqtisadi səciyyələri olan əmtəəyə satıcılar üçün müsabiqə elan edir.**

**İnkişaf etmiş sivil bazar inkişaf etmiş infrastrukturun olmasını tələb edir.**

### *§2. Bazar infrastrukturunun mahiyyəti, yaranması və əsas elementləri*

**«İnfrastruktur» məfhumu iqtisadi təhlildə ilk dəfə silahlı qüvvələrin həyat qabiliyyətini təmin edən obyekt və qurğuları göstərmək üçün istifadə olunmuşdur (XX əsrin əvvəli).**

**«İnfrastruktur«^ məfhumu latın sözləri infra - aşağı, altında; structura -tikili, yerləşmədən əmələ gəlib. Məfhumdan geniş istifadə olunmasına baxmayaraq, o, müxtəlif cür şərh olünur.**

**Bir qrup müəlliflər infrastrukturun əsas vəzifəsinin istehsala və əhaliyə xidmət etmək, qulluq göstərmək olduğunu hesab edərək, infrastrukturu bütün xidmət sistemi kimi təyin edir.**

**Digərləri infrastrukturu yalnız sənayeyə xidmət sistemi kimi başa düşür, onun təyinatını istehsal üçün ümumi şəraitin yaradılmasında, əsas istehsalın fəaliyyətinin təmin edil**

**məsində görürlər.**

**Belə bir baxış da mövcuddur ki, infrastruktur sənaye müəssisələrinin uğurlu fəaliyyəti üçün lazımi maddi-texniki bazanı təmin edən obyekt və qurğular şəklində olan yığılmış maddi sərvətdir ki, milli sərvətin bir hissəsi kimi maneəsiz fəaliyyət sEihəsini təmin etməlidir.**

**XX əsrin 40-cı illərində Qərbdə infrastruktur məfhumu altında maddi istehsala xidmət edən sahələrin məcmusunu başa düşməyə başladılar.**

**Bizim iqtisadiyyatda bu problem 70-ci illərdə fəal nəzərdən keçirilməyə başladı.**

**İnfrastruktur istənilən bütöv sistemin zəruri tərkib hissəsidir. O iqtisadi və ya siyasi həyatın ümumi quruluşunun tabeli, köməkçi səciyyəsi olub, iqtisadi və ya siyasi sistemin bütövlükdə normal təsərrüfat fəaliyyətini təmin edən tərkib hissəsidir.**

**İnfrastrukturun, ictimai istehsalın nisbətən müstəqil sahəsi kimi formalaşması prosesi ictimai əmək bölgüsü ilə bağlı olan bir sıra mərhələlərdən keçib. Belə ki, sənətkarlığın əkinçilikdən ayrılması və ya ikinci ictimai əmək bölgüsü şəhərləri meydana gətirməklə şəhər və kənd arasında əmtəə mübadiləsini gücləndirdi ki, bu da infrastruktur obyektləri- in inkişafına səbəb olurdu. Cəmiyyətdə üçüncü iri əmək bölgüsü - ticarətin əkinçilik və sənayedən ayrılması - təsərrüfat dövriyyəsinə yeni ərazilər cəlb olunması hesabına məhsul mübadiləsinin artımına daha da rəvac verdi, bu da öz növbəsində infrastruktur sahəsinin genişlənməsini zəruri etdi.**

**Hazırda istehsala xidmət göstərən istehsal infrastrukturunu (nəqliyyat, rabitə, topdansatış ticarəti və s.), fəaliyyəti şəxsi tələbatların ödənilməsinə, əhalinin həyat fəaliyyətinin və intellektual inkişafının təmin edilməsinə yönümlənmiş xidmət sahəsi obyektlərinin (əhaliyə xidmət edən nəqliyyat və rabitə, təhsil, səhiyyə, sosial təminat və s.) cəmindən ibarət sosial infrastrukturu, həmçinin bazar infrastrukturunu fərqləndirirlər.**

**İstehsal infrastrukturu məsələsi nəzərdən keçirilərkən qeyd olunmalıdır ki, o hər hansı bir məhsulu istehsal etmir, yalnız onun istehsalı üçün zəruri şərtləri yaradır.**

**İqtisadiyyatın infrastruktur elementləri iqtisadiyyatın infrastruktura həveılə etdiyi Özünəməxsus funksiyaların nəticəsidir. Zaman keçdikcə bu funksiyalar dəyişir və get-gedə əsas istehsaldan ayrılırlar. Buna görə də, istehsalat infrastrukturunun ilkin əlamətləri kimi onun istehsal prosesini təmin etməkdən ibarət olan funksiyaları çıxış edir.**

**İnfrastruktur müəssisələrinin təsərrüfat fəaliyyətinin xüsusiyyəti budur ki, onların fəaliyyətinin nəticələrini ehtiyat kimi saxlamaq və ya anbara vurmaq mümkün deyil, çünki o daşıma, qoruma, informasiya ötürmə və s. şəklində təzahür edir. İnfrastrukturu yardımçı və ya ikinci dərəcəli sahə kimi səciyyələndirmək olmaz.**

**İnfrastrukturun yeni növü bazar infrastrukturudur. Bazar mexanizmi inkişaf etdikcə, ölkə iqtisadiyyatında tələb və təklifi əks etdirən təşkU olunmuş sistemin ixtisaslaşmış fəaliyyət növündən ayrı-ayrı bazarın tələbatlarım ödəməyə qədər tələbatları ödəmək üzrə ixtisaslaşmış fəaliyyət növünə zərurət yaranır. Bazarın yaranması onun sivil fəaliyyətini təmin edən yeni təşkilatların, qurumların yaranmasını şərtləndirdi.**

**Bazar infrastrukturu əmtəə və xidmətlərin hərəkətlərini, alqı-satqı aktlarını və ya bazara xidmət edən və onun normal rejimdə fəaliyyətini təmin etmək üzrə müəyyən funksiyaları yerinə yetirən institutlar, sistemlər, xidmətlər, müəssisələrin cəmini əhatə edən təşkilati-hüquqi formaların məcmusudur.**

**Müasir bazarın infrastrukturunun əsas elementləri bunlardır:**

- **birjalar (əmtəə, xammal, fond, valyuta), onların təşkilatı rəsmiləşdirilmiş vasitəçiliyi;**
- **hərraclar, yarmarkalar və sair təşkilati qeyri-birja vasitəçiliyi formaları;**
- **kredit sistemi və kommersiya bankları;**

■ emissiya sistemi və emissiya bankları;

■ əhalinin məşğulluğunun tənzimlənməsi sistemi və məşğulluğa dəstəyin hökumət və qeyri-hökumət mərkəzləri (əmək birjaları);

■ informasiya texnologiyaları və işgüzar kommunikasiya vasitələri;

■ vergi sistemi və vergi müfəttişliyi;

■ kommersiya təsərrüfat riskinin sığortalanması sistemi və sığorta şirkətləri;

■ xüsusi reklam agentlikləri, informasiya mərkəzləri və kütləvi informasiya vasitələri agentlikləri;

■ ticarət palataları, işgüzar dairələrinin digər ictimai, könüllü və dövlət təşkilatlan (assosiasiyaları);

■ gömrük sistemi;

■ muzdla işləyənlərin həmkarlar ittifaqları;

■ kommersiya-sərgi kompleksləri;

■ ali və orta iqtisadi təhsil sistemi;

■ audit şirkətləri;

■ məsləhət (konsaltinq) şirkətləri;

■ iş fəallığının həvəsləndirilməsi təyinatlı ictimai və dövlət fondları;

■ xüsusi azad sahibkarlıq zonaları.

İnfrastruktur bazar subyektlərinin sivil xareıkterli fəaliyyətini təmin etməlidir, özü də onun elementləri subyektlərə kənardan verilməyib, bazar münasibətlərinin özündən törənmişlər.

Bazar İnfrastrukturunun funksiyaları:

■ bazar münasibətləri iştirakçılarına öz maraqlarını reallaşdırmağı yüngülləşdirmək;

• iqtisadiyyatın ayrı-ayrı subyektlərinin və fəaliyyət növlərinin ixtisaslaşdırılması əsasında bazar subyektlərinin operativliyini və səmərəliliyini yüksəltmək;

■ hüquqi və iqtisadi nəzarət formalarını, işgüzar təcrübənin dövlət və ictimai tənzimlənməsini sadələşdirmək.

ölkə iqtisadiyyatındakı dəyişikliklər onun quruluş insti

**tutlarına: iqtisadiyyatın ayrı-ayrı hissələrinə xidmət edən və onları qarşılıqlı əlaqələndirən təşkilatlarına, qurumlarına, o cümlədən bazarın infrastrukturuna təsir etməyə bilməz.**

**Bazar infrastrukturunun bəzi elementlərini qısa səciyyələndirək.**

**Plan tipli iqtisadiyyat dövründə kredit sistemi o zamamn şərtlərinə müvafiq fəaliyyət göstərirdi, yəni kreditlər müəssisənin özünün ehtiyacları ilə əlaqədar deyil, dövlət plan orqanlarının qərarına görə verilirdi. Bizim dövrümüzdə kredit təşkilatları çox artır və bazar iqtisadiyyatının təşəkkül tapdığı dövrdə müəssisələrin pul vəsaitlərinə tələbin ödənilməsi üzrə müxtəlif xidmətlər təklif edirlər. XXI əsrin astanasında planlı iqtisadiyyatda olmayan kommersiya bankları, həmçinin ixtisaslaşmış qeyri-bank kredit-maliyə institutları: kommersiya banklarının göstərmədiyi xidmətləri təklif edən və aparmadıqları əməliyyatları həyata keçirən sığorta şirkətləri, təqaüd fondları, investisiya və maliyyə şirkətləri sürətlə artdı. Kredit sisteminin belə quruluşu (Rusiya Federasiyasının Mərkəzi Bankının fəaliyyəti nəzərə alınmaqla) bazar təsərrüfatının tələbatlarını əks etdirir və inkişaf etmiş ölkələrin kredit sistemi modelinə yaxınlaşır.**

**Konsaltinq şirkətləri. Burada bazar və biznesin nəzəriyyəsi və təcrübəsi sahəsində ciddi mütəxəssislər çalışırlar. Sahibkarların sifarişlərilə onlar iqtisadi və hüquqi məsələlər üzrə məsləhətlər verir. Bu məsləhətlərin haqqının ödənilməsi sahibkarlara belə mütəxəssislərin firmada saxlanılmasından ucuz başa gəlir. Rusiya üçün bu yeni və perspektivli sahədir, çünki bizim iş adamlarının bazar təsərrüfat fəaliyyəti sahəsində təcrübə və bilikləri hələ ki, azdır. Hazırda xarici iqtisadi konsaltinq sahəsində ixtisaslaşan Vneşkonsult birgə müəssisəsi yaradılıb.**

**Auditor şirkətləri. Audit firmanın bazarda və biznes sahəsində imkanlarını qiymətləndirməyə imkan verən maliyyə-təsərrüfat fəaliyyətinin kompleks təftişidir. Belə yoxlama müstəqil ekspertiza səciyyəlidir (hökumət, təsisçi, idarəedi-**

**cilər, firma rəhbərliyinin təşəbbüsü ilə). Hazırda Rusiyada Mosaudit və İnaudit firmaları yaradılıb, onların ekspertizası xarici iqtisadi fəaliyyətə, başqa lisenziyalar, birgə müəssisələrin (BM) yaradılmasına icazə verilməsinin zəruri şərtidir. Qərb auditor şirkətlərinin qiymətlərinin obyektivliyi xarici bazarda vizit kartıdır.**

**Tədris müəssisələri. Əvvəllər Rusiyada heç bir tədris müəssisəsi biznesmenlər, menecerlər hazırlamırdı, bunun da səbəbi məlumdur. Bu gün belə tədris müəssisələri çoxalıb, lakin onların hamısının bir qüsuru var - təhsil müddətinin qısalığı: cəmi 2-3 həftə, bir ay. Orada çox vaxt təsadüfi adamlar dərs deyirlər. Necə olsa da, bazar infrastrukturunun bu elementi inkişaf edir, güc və nüfuz toplayır.**

**Bazarın inkişafı və bazar iqtisadiyyatının formalaşması üçün azad iqtisadi zonaların (AİZ) böyük əhəmiyyəti var. İlk AİZ 1959-cu ildə İrlandiyada yaranıb. XX əsrin 70-ci illəri AlZ-ların ən çox təşəkkül tapdığı dövrdür. Məşğulluq sürəti həmin zonalarda son 20 il ərzində hər il 20% -dən artıq olub. Rus dilində «azad iqtisadi zona» anlayışını bildirmək üçün bir neçə məfhum var:**

- **azad sahibkarlıq zonaları (ASZ);**
- **azad ticarət zonaları;**
- **ixrac-istehsal zonaları (İİZ);**
- **regionlarda istehsal zonaları;**
- **azad limanlar;**
- **azad bank zonaları.**

**Bütün bu zonalar xarici kapitalın cəlb edilməsi, müxtəlif güzəştlərin verilməsi (bir qayda olaraq 10 il ərzində vergidən azad edilmə; birbaşa dövlət subsidiyası; gömrük haqqısız əmtəə idxalı və ixracı; torpağın aşağı qiymətə icarəyə verilməsi və s.) yolu ilə iqtisadi inkişafın amili kimi nəzərdən keçirilir.**

**Hazırda dünyada 400-dən artıq AtZ var (əsasən inkişaf etmiş dövlətlərdə). AİZ-da hakim mövqeyi Yaponiya, ABŞ və Qərbi Avropanın transmilli şirkətləri (TMŞ) tuturlar.**

**AİZ-da xarici kapitalı cəlb etmək üçün zəruridir: siyasi stabillik; qarışıqlığın, təsərrüfat əlaqələrində pozuqluğun olmaması; qanunlar müharibəsi deyil, qanun-qayda; ucuz iş qüvvəsi. Bunlardan çoxu bizdə hələ də yoxdur. AİZ yaratmaq və onunla işləmək təcrübəsinin olmaması da öz təsirini göstərir. Bu şübhəsiz, Rusiyada AİZ-nin inkişafına mane olur.**

**Sovet iqtisadi ədəbiyyatlarında infrastruktura əsas ticarət şəbəkəsini, daim fəaliyyət göstərən yarmarkaları, topdansatış əmtəə hərraclarını, kommersiya kreditlərinə xidmət etmək üçün kommersiya banklarını, anbar təsərrüfatlarını (elevatorlar, soyuducular), qablama və nəqliyyat təsərrüfatı, müxtəlif növ birja və informasiya xidmətlərini aid edirdilər. Bu halda bazar infrastrukturu geniş mənada başa düşülür.**

**Xaricdə ticarət şəbəkəsinin təşkilindən danışarkən ən geniş yayılmış və ən perspektivli obyektlər sırasında aşağıdakıları göstərmək olar:**

**■ supermarketlər - əsasən ərzaq çeşidli özünəxidmət mağazaları;**

**■ superonterı - əsasən şəhərdən kənarda yerləşən tez xarab olan malların ticarəti üçün perspektivli mağazalar;**

**■ konvinnesonterlər - məhdud çeşidli yüksək hazırlıq dərəcəli məhsulların kiçik mağazaları (iri mağazalara əlavə kimi);**

**■ supertriado (superüçlük)- yüksək keyfiyyətli bahalı əmtəənin satışı ilə məşğul olan müasir ticarət mərkəzi, anbar-supermarket zonası, yaxşılaşdırılmış keyfiyyətli əmtəə satışı zonası olan iri mağazaların yeni modeli;**

**■ draqonterlər - əməliyatlann yüksək dərəcədə avtomatlaşdırıldığı və kredit və debitor kartlarının qəbul olunduğu pərakəndəsatış müəssisələri;**

**■ diskaunt-mağazalar - orta keyfiyyətli malları nisbətən aşağı qiymətlərə satan və s. ucuzlaşdırılmış qiymətlər mağazaları.**

**Parakəndə konqlomeratlar - vahid sərəncamlı, bölgü və idarəetmə funksiyaları qismən inteqrasiyalı bir sıra müxtə-**

**lifyönümlü pərakəndə ticarəti birləşdirən sərbəst formalı korporasiyalar geniş yayılmağa başlayır. Topdan-pərakəndə klubları da özünəməxsus maraq doğururlar ki, bunların üzvləri olan kiçik pərakəndə ticarət firmaları (tərkibin 60% -i) əmtəənin topdansatış qiymətinə ildə 20-30 dollar, fərdi istehlakçılar isə (tərkibin 40%-i) 5% əlavə edirlər. «Prays klab» (Kaliforniya) firması belə kluba misal ola bilər.**

**Bazarın klassik infrastrukturuna əmtəə birjaları, fond birjaları və əmək birjaları daxildir (şəkilə bax).**




**Bazar infrastrukturu**

### *§3. Birjalar və bazar iqtisadiyyatında onların rolu*

**Birja institutu artıq bir çox əsrlərdir ki, mövcuddur. Birja sözü latın mənşəli olub, hərfi mənası dəri (pul) kisəsi deməkdir. Birjalar tacirlərin ticarət əməliyyatları aparmaq üçün toplaşdığı xüsusi yer kimi XVI əsrdə yaranıb. İlk birja 1531-ci ildə Antverpendə, ikinci - 1566-cı ildə Londonda, üçüncü - 1792-ci ildə Nyu-Yorkdä, Uoll-Stritdə yaradılıb. Rusiyada ilk birjanı 1703-cü ildə Sankt-Peterburqda I Pyotr**

**təsis etmişdir. 1705-ci ildə Vasilyevski adasının burnunda bunun üçün xüsusi bina tikdilər. Tacirlərin birja iclaslarının saatını Pyotr şəxsən quraşdırdı. Bunun ardınca 1796-cı ildə Odessada birja yarandı. O dövrdə birja ticarətinin inkişafı üçün obyektiv şərtlər yox idi və yalnız 1861-ci il islahatından sonra (təhkimçiliyin ləğvi), daha sonra isə XX əsrin əvvəllərində birja ticarəti sürətlə inkişaf edir. Yeni iqtisadi siyasət dövründə yüzdən artıq birja fəaliyyət göstərirdi, 1930-cu ildə isə onların hamısının fəaliyyətinə son qoyuldu. Hazırda Rusiyada birja ticarətinin yenidən təşəkkülü başlamışdır.**

**Adi ticarətlə (fərdi istehsalçı ilə istehlakçı arasındakı ticarət prosesinə heç bir vasitəçini qoşmadan) müqayisədə birja ticarətinin üstünlüyü nədədir? Birja ticarəti satıcı və alıcılara bir-birini təsadüfi axtarmaqdan daha asan tapmağa imkan verir. Bundan əlavə, o qiymət müəyyənləşdirmə mexanizmini təmin edir.**

**Birjaların fəaliyyəti dövlət orqanları və birjanın və onun ayrı-ayrı üzvlərinin iş qaydalarını müəyyənləşdirən müstəqil orqan tərəfindən tənzimlənir.**

**Birja — kütləvi standart əmtəələrin topdansatış ticarətinin təşkilati forması və ya valyuta, iş qüvvəsi və qiymətli kağızlarm alqı-satqısı üzrə sistematik əməliyyatlar növüdür.**

**Birja bazarın hərtərəfli təşkili üçün təyinatlanıb.**

**Hazırda birja aşağıda göstərilən bir sıra funksiyaları yerinə yetirən dövlət səhmdar təsisatıdır:**

**■ ticarət üçün yer verilməsi (satıcı və alıcılar burada toplaşır və qiymətlər barədə razılığa gəlirlər);**

**■ birja hərraclarının təşkili;**

**« ticarət qaydalarının, o cümlədən birja vasitəsilə satılan məhsulun standartlarının müəyyənləşdirilməsi;**

**■ alqı-satqı sövdələşmələri üzrə nümunəvi müqavilələr paketinin işlənib hazırlanması;**

**■ qiymətlərin təyini;**

**■ mübahisələrin tənzimlənməsi və ya arbitrajı;**

**■ qiymətli kağızlar və ya əmtəələr üzrə sövdələşmə zamanı müəyyən təminat vermək və əvəzində müəyyən haqq alma.**

**Sövdələşmə (əməliyyat) - maliyyə alətinin (pul, bank sənədləri və s.) bir şəxsdən digərinə keçməsi ilə müşayiət olunan, birja əmtəəsinə münasibətdə hüquq və öhdəliklərin qarşılıqlı verilməsi haqqında razılaşmadır.**

**Birjadakı bütün sövdələşmələri (əməliyyatları) aşağıdakı qruplara bölmək olar:**

**1) real əmtəəyə görə sövdələşmə (əmtəə birjalarının əksəriyyətində real əmtəə göndərişinin payı ümumi əmtəə dövriyyəsinin 1-2%-dən artıq olmur) - bu zaman əmtəə satanın əlində olmalı və kontraktda göstərilmiş vaxtda yerinə çatdırılmalıdır. Belə müddətli sövdələşmələrə forvard sövdələşmələri də deyirlər;**

**2) sövdələşmə həyata keçirilən vaxt əldə olmayan əmtəələrlə (məsələn, gələn ilin məhsuluna görə) fyuçers sövdələşmələri. Belə sövdələşmələr müəyyən müddətə bağlanılır və dəfələrlə təkrarən satıla bilərlər. Əslində bu əmtəənin özünün satışı deyil, ona olan hüququn alqı-satqısıdır. Bu əmtəə ilə deyil, onun verilməsi ilə bağlı öhdəliklərlə bağlı ticarətdir. Fyuçers sövdələşmələri real əmtəəyə görə sövdələşmə zamanı bazar qiymətlərinin dəyişməsindən irəli gələ biləcək itkilərdən özünü sığortalamaq məqsədilə istifadə olunur. Fyuçers birja ticarəti - dünya bazar iqtisadiyyatının ən dinamik bölmələrindən biridir. Hazırda 54 adda əmtəə üzrə və illik dövriyyəsi 3 trilyon dollardan yuxarı olan 150-yə yaxın fyuçers birjaları var. Fyuçers sövdələşmələrinin 85% Amerika, 8% ingilis, 6% yapon birjalarının payına düşür;**

**3) mükafatlı sövdələşmə (opsion) ödəyənə seçim hüququ verir: müqavilədə göstərilən müddət ərzində öhdəliyi yerinə yetirmək və ya ondan imtina etmək. Mükafatı ödəyən satıcı da ola bilər (əmtəəni daha baha qiymətə başqa alıcıya satır), alıcı da (əmtəəni daha ucuz alıb baha qiymətə satır və gəlir əldə edir). Qiymətlər dəyişməzdirsə və ya aşağı düşürsə, ödəyən sövdələşmədən imtina etmək hüququna malikdir, bu hal**

**da mükafat alıcıya qalır. Birja oyunlarının mənası bundadır;**

**4) sığortalayıcı əməliyyatlar və ya hecirləmə iki növdür: a) birja müqavilələrinin satışı («qısa» hecirləmə); b) birja müqavilələrinin alışı («uzun» hecirləmə). Bu əməliyyatlar qiymət dəyişməsi zamanı gəlirin riskdən qorunması aləti kimi çıxış edir.**

**Hecirləmə möhtəkirliyin (yeganə məqsədi qiymət dəyişmələrində gəlir əldə etmək olan birja sövdələşmələri) əksi olan məfhumdur.**

**Hecirləmə məfhumu bank, birja və kommersiya təcrübəsində itkilərin qarşısını almağın müxtəlif metodlarını qeyd etmək üçün işlədilir. Hecirləmənin ən geniş yayılmış növü (metodu) müddətli (müqaviləli) sövdələşmədir. Hecirləmə real əmtəə bazarı və birja arasında tarazlığı saxlamaq deməkdir;**

**5) qiymətin sonradan müəyyən edildiyi sövdələşmə («on-koU sövdələşmələr); icra olunmalı, əmrli sövdələşmələr. Bu halda bir tərəf digərinə müqavilənin imzalandığı vaxtla əmtəənin göndərilməsi arasındakı istənilən anda qiyməti müəyyənləşdirmək hüququ verir. Burada qiymət iki elementdən əmələ gəlir:**

**■ birja qiymət təyini (fyuçers);**

**■ onlarda (bazisdən) əlavələr və ya güzəştlər. Adətən bazis birja qiymətindən 3%-dən artıq olmur.**

**Qiymət təyini (kotirovka) əmtəə, qiymətli kağızlar, istənilən pul öhdəliklərinə cədvəl halma salınmış satıcmm qiymətinin və ahcmm qiymətinin müəyyənləşdiilməsidİr; başqa sözlə, qiymət təyini əmtəə, səhmlər və onlarm alqı-satqısı, o cümlədən qiymətlər haqqmda informasiyam əks etdirən cədvəllərdir.**

**Birja əmtəəsinə - birja ticarəti predmetinə xüsusi tələblər göstərilir ki, əsasları bunlardır: istehsalın kütləviliyi, standartlıq, sabit tələb.**

**Birjada fəaliyyət göstərirlər:**

**■ dəllal (makler) - birjada yeri olan, müştərilərin tapşırığı ilə və onların hesabına sövdələşmələr aparan, hüquqi şəxs**

**■ broker maraqlı tərəflər (müştərilər) arasında sövdələşmənin aparılmasına kömək edən vasitəçi; adətən müştərilərin tapşırığı və onları hesabına müqavilə bağlayır və buna görə haqq alır; brokerlər müştərilərə əlavə xidmətlər də: bazarın öyrənilməsi, reklam, kredit - göstərə bilirlər;**

**■ diler çox vaxt öz adından və öz hesabına əmtəənin yenidən satışı ilə məşğul olan şəxs və firmanı bildirən ümumiləşdirilmiş məfhumdur. Dilerin qazancı əmtəəni alıb satdığı qiymətlər arasındakı fərq hesabına yaranır.**

**■ «öküz» birjada qiymətlərin qalxmasına oynayan möhtəkiri bildirən məfhumdur; «öküz» qiymətlərin qalxmasına ümid edir və hazırkı anda kontragentlərdən əmtəə, səhmlər və ya birja müqavilələrini alır ki, sonradan baha qiymətə satsın;**

**■ «ayı» «öküz»lə əks mənalı məfhum olub, qazanc əldə etmək məqsədilə əmtəə, səhmlərin qiymətinin düşməsinə oynayan möhtəkiri bildirir; «ayı» hesab edir ki, qiymətlər düşəcək.**

**Bazar iqtisadiyyatına keçid Rusiyada əmtəə, fond, fyu- çers və əmək birjalarının daxil olduğu birja təsisatları sisteminin yaradılmasını nəzərdə tutur.**

**Əmtəə birjası müxtəlif əmtəələr üzrə ticarət sövdələşmələri bağlananda vasitəçilik xidməti göstərməyə; əmtəə ticarətini nizamlamağa, ticarət əməliyyatlarını tənzimləməyə və ticarət mübahisələrini həll etməyə; qiymətlər, istehsalın vəziyyəti və qiymətlərə təsir edən başqa amillər haqqında məlumatları çatdırmağa və çap etməyə təyinatlanıb. Əmtəə birjalarında sövdələrin predmeti əmtəə və onların verilməsinə dair kontraktlardır (müqavilələrdir). 1990-cı ildən Rusiyada Moskva şəhər və Moskva vilayət əmtəə birjaları, Rusiya əmtəə-xammal birjası və b. fəaliyyət göstərirlər.**

**Fond birjası qiymətli kağızların alqı-satqısı ilə məşğul olur. Sözün geniş mənasında qiymətli kağız xüsusi şəkildə hazırlanmış və mülkiyyət (borc) öhdəliklərini ifadə edən sənədlərdir. Onlara səhmlər, istiqrazlar, veksellər, vauçer- lər, sertifikatlar, konosamentlər, varrantlar və s. aiddir.**

**lakin o birja qiyməti (kursu) üzrə satılır və ya alınır ki, bu kurs da qiymətli kağız bazarında tələb və təklifdən asılı olaraq onun dividendin qədərinin yüzə hasilinin faiz normasına bölünməsindən alınan orta qiyməti ətrafında dəyişir. Səhmin qiymətinin onun nomanal qiymətindən yuxarı olması laj və ya ajio, aşağı düşməsi isə dizajio adlanır.**

**Qiymətli kağızların ilkin bazarında qiymətli kağızların yeni buraxılışları səhmdar cəmiyyətləri və ya hökumət tərəfindən yerləşdirilir.**

**Qiymətli kağızların təkrar bazarında əvvəl buraxılmış qiymətli kağızların alqı-satqısı həyata keçirilir (fond birjası vasitəsilə təkrar satış və birjadan kənar tədavül).**

**Fond birjaları, qiymətli kağızların alqı-satqısı üzrə təşkil olunmuş və fəaliyyət göstərən bazarlar kimi, keçmişdə qalır. Onları banklararası telekommunikasiyalar əvəzləyir («SWİFT*> kimi).**

**Birja fəaliyyətinin başqa bir növü - valyuta birjaları heç də az əhəmiyyətli deyil. İqtisadiyyatın inkişafının hazırkı mərhələsində Rusiya bazarına xarici valyutanın gəlişi mübadilə zərurəti yaradır, çünki xarici tərəfdaşlarla hesablaşma üçün vəsait tələb olunur. Hazırda Rusiyada valyuta birjalarının əsas funksiyaları bunlardır:**

- **valyuta resurslarına tələb və təkliflərin toplanılması;**
- **bankların nağdsız əməliyyatları üzrə rublun vahid kursunun müəyyənləşdirilməsi;**
- **valyuta sövdələri bağlananda əlavə təminatların təmin edilməsi;**
- **sövdələr üzrə xarici valyuta və rublla hesablaşmaların təşkili və aparılması;**
- **xarici valyutanın rubla nisbətdə cari kursunun müəyyənləşdirilməsi ;**
- **valyuta bazarında baş verənlər haqqında informasiyanın toplanması və təhlili.**

**Əmək birjası işçi və işəgötürənlərin maraqlarını razılaşdırmaq, iş qüvvəsi tələbi və təkliflərini uzlaşdırmaq, işsiz**

**lərə sosial yardım göstərən vasitəçi təşkilatdır. Əmək birjasının klassik funksiyaları: əmək bazarında qeydə alınmış azad iş qüvvəsinin və müəssisələrdəki vakansiyaların uçotu, işsizlərə əməklə və maddi kömək, işçilərin yenidənhazırlan- masının və ixtisasının artırılmasının təşkili, dəyişən əmək bazarında əlavə iş yerlərinin və digər xidmətlərin maliyyələşməsi (məsələn, peşə yararlılığının ekspertizası, məsləhət verilməsi və s.).**

**Birja infrastrukturunun fəaliyyətinə ölkə iqtisadiyyatının vəziyyətinin mətbuatda səthi və hətta saxtalaşdırılmış işıqlandırılması, birja fəaliyyətinin vəziyyəti, müxtəlif fondlar, layihələr, qiymətli kağızların qeyri-obyektiv reklam edilməsi, səhv iqtisadi proqnozlar, pis şayiələrin yayılması öldürücü təsir edə bilər. Bu informasiya biznesinin artan rolunu şərtləndirir.**

**XXI əsrin astanasında sənaye sivilizasiyasından postsənaye sivilizasiyasına keçid informasiya biznesi olmadan həyata keçirilə bilməz ki, bu da nəhəng çoxsahəli kompleks şəklində olan sahibkarlıq fəaliyyəti sahəsidir və bura yalnız EHM və kompüterlərin istehsalı deyil, birbaşa və ya dolayısı ilə informasiya ilə bağlı bütün fəaliyyət növləri daxildir.**

**İnformasiya biznesinin özü bir tərəfdən banklar, birjalar, reklamlar və s. ilə birgə bazar iqtisadiyyatı quruluşuna daxildir, digər tərəfdən isə, bazar şəraitində müstəqil sahibkarlıq formasıdır. O XX əsrin 60-cı illərində Qərb ölkələrində yaranıb, 80-ci illərdə isə müasir Qərb iqtisadiyyatının «nəhənginə» çevrilərək, məşğulluq səviyyəsinə görə ABŞ və Yaponiyada maddi istehsalı üstələmişdir (bütün işləyənlərin 60% -i).**

**Bazar subyektlərinin iqtisadi əlaqələri hüquqi, iradə (qanunla təsbit edilmiş və ya təsbit edilməmiş təsərrüfat müqaviləsi misal ola bilər) formalarını alır, konkret bazar münasibətləri formaları isə bütövlükdə bazar mexanizmini təşkil edən bazar elementlərinin - tələb, təklif, qiymət və s. kəmiyyət və keyfiyyət nisbətlərində təzahür edir.**

# VII FƏSİL. BAZAR İQTİSADİYYATINDA İQTİSADİ İNSTİTUTLAR VƏ MÜLKİYYƏT

*§1. iqtisadi İnstitutların mahiyyəti və bazar təsərrüfatı sistemində onlann rolu.*

*§2. Mülkiyyət iqtisadi və hüquqi kateqoriya kimi. Mülkiyyət nəzəriyyələri.*

*§3. Müasir iqtisadiyyatda mülkiyyətin növ və formaları.*

*§4. Dövlətsizləşdirfnə və özəlləşdirmə. Xarici ölkələrin və Rusiyanın təcrübəsi.*

**Elmi cəmiyyət bir çox illər ərzində yüksək səmərəli iqtisadi inkişafın mənbələrinin və ilkin şərtlərinin izahını axtarır. Neoklassik nəzəriyyə institusionalistlərinin fikrincə, hal-hazırda bu hadisəyə qənaətbəxş tərif verə bilmir, çünki institusional dəyişikliklərin və iqtisadi artımın qarşılıqlı şərtlənmə problemini açmır.**

**Bir sıra ölkələrdə həyata keçirilən bazar iqtisadiyyatına keçid labüd institusional dəyişikliklərə gətirir, yeni bazar institutlarının təşkil edilməsinə ehtiyac yaradır. Bu problemlər olduqca aktualdır və az öyrənilib.**

## *§1. İqtisadi institutların mahiyyəti və bazar təsərrüfatı sistemində onların rolu*

**«İqtisadi institutlar» anlayışı elmə iqtisadi nəzəriyyənin institusional-sosioloji cərəyanı tərəfindən daxil edilmişdir. İnstitusionalizmin baniləri Torsteyn Veblen və onun şagirdi, sənaye tsikli sahəsində mütəxəssis olan Uesli Mitçell, publisist və siyasi xadim Con Helbreyt, iqtisadçı və qlobal problemlərin tədqiqatçısı Yan Tinbergen və başqaları hesab edilirlər.**

**İnstitutlar insanlar tərəfindən yaradılmış formal və qeyri-formal qaydaların məcmusudur ki, iqtisadi agentlər üçün məhdudiyyət, eləcə də onların yerinə yetirilməsi və qorunmasının müvafiq nəzarət mexanizmi kimi çıxış edir.**

**Nəzarət mexanizmi dedikdə qaydaların riayət olunmasını və ya pozulmasını eyniləşdirməyə, həmçinin həvəsləndirici və ya qeyri-həvəsləndirici tədbirlərin tətbiqinə kömək edən vasitələr dəsti nəzərdə tutulur.**

**İnstitutlar həm formal qanunlardan (konstitusiya, qanunvericilik, mülkiyyət hüququ), həm də qeyri-formal qaydalardan (ənənələr, adətlər, əxlaq qaydaları) ibarətdir. İnstitutlar insanlar tərəfindən qaydalara riayət edilməsi və mübadilədə qeyri-müəyyənliyin aradan qaldırılması məqsədilə yaradılırdı. Bu cür institutlar iqtisadiyyatda qəbul olunmuş standart məhdudiyyətlərlə birgə alternativlər dəstini təyin edirdilər, bu yolla da istehsal və tədavül xərclərini, müvafiq mənfəətliyi və iqtisadi fəaliyyətə cəlb olunma ehtimalını müəyyənləşdirirdilər.**

**Son iyirmi il ərzində çoxlu araşdırmaların aparılmasına baxmayaraq institutların müasir iqtisadi nəzəriyyəsi rüşeym halındadır. 1993-cü ildə Duqlas Nort yeni institusional iqtisadiyyatın pionerlərindən biri kimi Nobel mükafatı ilə təltif olunmuşdur.**

**institutlar olduqca mübahisəli konsepsiyadır. Bu mövzuda yazan alimlər institutların nə olduğu barədə dəqiq izahat verməyiblər. Hələ üstəlik institutlar iqtisadi perspektivlər nöqteyi-nəzərindən müxtəlif şəkildə müəyyən olunurlar. Məsələn, Elster yazır ki, institutu qanuna vadar edən mexanizm kimi xarakterizə etmək olar ki, bunun da ən heyrətamiz cəhəti davranışın güc işlətməklə dəyişdirilməsidir.**

**Cek Nayt hesab edir ki, institutlar qarşılıqlı ictimai münasibətləri xüsusi tərzdə strukturlaşdıran qaydalar dəstidir ki, bunları bilməklə həmin birliyin bütün üzvləri razılaşmalıdır.**

**K.Mengerin hazırladığı terminologiyadan istifadə etməklə institutları daha yüksək qəbildən olan ictimai nemətlər kimi müəyyən etmək olar. Bu isə aşağıdakı kimi izah olunur: əgər institutlar ayrı-ayrı iqtisadi müvəkkillərin hərəkət əlaqələri üçün zəruri olan informasiyaların istehsalını təmin**

**edirlərsə, onda məhz bu informasiya ictimai nemət olur. Beləliklə, bazar qiyməti informasiya daşıyıcısı olmaqla iqtisadi müvəkkillərin müəyyən qaydalar əsasında təşkil edilən qarşılıqlı təsiri əsasında formalaşır.**

**İnstitutlar müvəkkilləri zəruri informasiyalarla təmin edərək, onların hərəkət əlaqələrini və qarşılıqlı faydalı nəticələrin əldə olunmasını şərtləndirən bir-biri ilə uzlaşan gözləmələrin formalaşmasına imkan yaradır. Belə halda institutlar qaydalar dəsti kimi öz-özlüyündə qənaətbəxşdir, riayətetmə könüllü- lüyü xüsusiyyətlərinə malikdir və təsis edilmiş qaydaların əməl olunmasını təmin edən xarici orqanlar tələb olunmur.**

**İnstitutlara qiymətdən düşmə və yeni investisiyalar vasitəsilə dəyişə bilən ictimai kapital kimi baxmaq olar. Formal qanunlar sürətlə dəyişilə bilir, lakin məcburetmə və qeyri-formal qaydalar ləng dəyişilir. Nümunə kimi kapitalizmin iqtisadi institutlarının bazar modelinə münasib olanlarını uyğunlaşdıran Rusiyanı göstərə bilərik. Qeyri-formal qaydalar, normalar, adətlər hökumət tərəfindən yaradılmır, onlar kortəbii surətdə inkişaf edirlər.**

**İnstitutlar ətraf mühitin dəyişikliklərinə ləng uyğunlaşırlar. Vaxtilə səmərəli olmuş bir çox institutlar səmərəsiz olurlar və uzun müddət bu cür qalırlar, yəni cəmiyyəti bir çox illər bundan əvvəl müəyyən edilmiş tarixi yolundan döndərmək çətindir.**

**İnstitutların iqtisadi həyatda rolu olduqca böyükdür. İnstitutlar gündəlik həyatı müəyyən quruluşa salaraq qeyri-müəyyənliyi azaldırlar. Onlar insanlar arasındakı qarşılıqlı münasibətləri təşkil edirlər. İnstitutlar hər bir insanda olan iqtisadi davranışda alternativlər dəstini müəyyənləşdirir və məhdudlaşdırırlar.**

**İnstitutlar adamlar tərəfindən qarşılıqlı insani münasibətlərə nizam vermək üçün yaradılmış məhdudiyyətlərin bütün formalarını özlərində birləşdirirlər.**

**İnstitutlar formal və qeyri-formal olurlar. Formal**

**formal institutlar isə hamı tərəfindən qəbul edilmiş davranış (adətlər, ənənələr və s.) şərtiliyi və kodeksləridir. Onlar şüurlu insan düşüncəsinin məhsulu (məsələn, konstitusiya) ola və ya sadəcə olaraq tarixi inkişaf prosesində yarana bilərlər.**

**Formal institutlar qismən də bazar iqtisadiyyatında institusional dəyişikliklərə nəzarət edənlərin maraqlarına xidmət etmək üçün yaradılırlar. Bəzilərinin şəxsi maraqlarının dalınca getməsi digərlərində mənfi təsir yarada bilir.**

**İdeoloji və mənəvi tələbatları həyata keçirən ictimai institutlar çox vaxt ictimai təşkilatlara və iqtisadi davranışa təsir göstərirlər. Dövlətin ictimai institutları (məsələn, normaları) öz məqsədləri üçün istifadə etməsi cəhdləri çox vaxt uğursuz olurdu. Nümunə kimi sovet insanlarının kommunizm qurucusunun əxlaq kodeksi ruhunda tərbiyə olunmasını götürmək olar.**

**İnstitusional məhdudiyyətlərə fərdlərə müəyyən hərəkətləri etməyə qoyulan qadağalar, ayrı-ayrı şəxslərə hansı şərtlər daxilində bəzi hərəkətləri edə biləcəklərinə olan göstərişlər daxil ola bilər. İnstitutlar insanların qarşılıqlı əlaqədə olması hədlərini müəyyənləşdirən çərçivədir. İnstitutların fəaliyyət göstərmə mexanizminin əsas elementi ondan ibarətdir ki, pozulma faktının müəyyən edilməsi xüsusi səy tələb etmir və pozan çox ciddi cəzalandırılır. Bəzi insanlar uğuru daim qaydaları pozmaqla və rəqibi qorxutmaqla (müvafiq ada malikdirlər) əldə edirlər. Belə strategiyanın nə dərəcədə səmərəli olması qaydalara riayət edilmə üzərində nəzarətin səmərəliliyindən və cəzanın sərtliyindən asılıdır. Davranış kodeksləri bəzən, məsələn, ədalətli rəqabətdə hətta pozuntular bazar iqtisadiyyatı müvəkkillərinin işlərində müvəffəqiyyət vəd etsələr belə onları qanun çərçivəsində saxlayırlar.**

**İnstitutlarla təşkilatlar arasında prinsipial fərq vardır.**

**İnstitutlar ayrı-ayrı şəxslərin qarşılıqlı əlaqələrini müəyyənləşdirən qayda və qanunlar dəsti olduğu halda, təşkilatlar özləri institusional məhdudiyyətlərin obyektləri ola bilən birgə fəaliyyət göstərən şəxslərdir.**

**«Təşkilatlars^ anlayışına siyasi orqanlar və idarələr (siyasi partiyalar, Dövlət duması, nəzarət idarəsi), iqtisadi özəklər (firmalar, həmkarlar ittifaqları, ailə fermaları, kooperativlər), ictimai (kilsələr, klublar, idman assosiasiyaları) və maarifləndirici müəssisələr (məktəblər, universitetlər, professional tədris mərkəzləri) daxildir. Təşkilat hər hansı bir məqsədə birgə çatmaq üçün birləşmiş insan qrupudur.**

**İnstitusional çərçivələr hansı təşkilatların yaranmasına və onların necə inkişaf etməsinə də həlledici təsir edir. Lakin təşkilatlar da Öz növbəsində institusional çərçivələrin dəyişilməsi prosesinə təsir göstərir.**

**İnstitutlar iqtisadi prosesə mübadilə və istehsal xərclərinə müdaxilə etməklə təsir göstərirlər. Onlar tətbiq edilən texnologiya ilə yanaşı yekunda istehsalın ümumi xərclərini təşkil edən transaksional və transformasiya (istehsal) xərclərini əmələ gətirirlər.**

**İnstitutlarla istehsalın səmərəliliyi arasındakı əlaqəni başa düşmək üçün transaksion xərclər konsepsiyası mövcuddur. «Transaksion xərclər» məfhumu elmi dövriyyəyə Nobel mükafatı laureatı R.Kouz (1910-cu ildə doğulub) tərəfindən daxil edilmişdir. Bu xərclər bilavasitə istehsalın özü ilə deyil, onları müşayiət edən məsrəflərlə: qiymətlər, təsərrüfat müqavilələri tərəfdaşları haqqında informasiya axtarışları, təsərrüfat müqavilələrinin bağlanması ilə əlaqədar məsrəflər, onların həyata keçirilməsi üzərində nəzarət və s. bağlıdır.**

**Mübadilənin şəxsləndirilmiş sadə modelində iştirakçılar dəfələrlə bir-biri ilə eyni tipli sövdələr aparırlar, bir-birinin əlamətlərini, xassə və xüsusiyyətlərini yaxşı bilirlər. Belə cəmiyyətdə ölçülmüş transaksional xərclər olduqca aşağıdır. Yalan, öhdəliklərin pozulması, prinsipsizlik faydalı olmadığı üçün ya zəif təzahür edir, ya da ümumiyyətlə sərfəli deyil. Belə şəraitdə davranış normaları qanunda öz əksini nadir hallarda tapır. Rəsmi müqavilələr bağlanmır, müqavilə şərtləri özü-özlüyündə olmur. Bununla belə ölçülən transaksional xərclər belə cəmiyyətdə aşağı (bununla yanaşı ölçülməyən**

**xərclər icma quruluşunda yüksək ola bilər) olsa da, istehsal xərcləri yüksəkdir, çünki əməyin ixtisaslaşması və bölgüsü fərdləşdirilmiş mübadilə ilə şərtlənmiş bazar hüdudları ilə məhdudlaşdırılır,**

**Fərdləşdirilmiş mübadilələrin əksinə qarşılıqlı asılılıqlı ixtisaslaşmış dünyada ayrı-ayrı iştirakçıların rifahı fərdi ixtisaslaşma, deməli, zaman və məkan ölçülü mübadilə əlaqələrinə malik olan mürəkkəb quruluşdan asılıdır. Mübadilənin bu cür formasında transaksional xərclər yüksək ola bilər, çünki burada həm mübadilə obyektinin xüsusiyyətlərinin ölçülməsində, həm də mübadilə şərtlərinə riayət olunmasında problem yaranır. Nəticədə yalana, sazişin pozulmasına, prinsipsizliyə və s. meydan açılır, belə ki, bu çoxlu qazanc vəd edir.**

**Belə hadisələrə yol verməmək üçün iştirakçıları məhdudlaşdıran və bununla da sadalanan səbəblər üzündən olan itkiləri minimumlaşdıran mürəkkəb institusional quruluş yaratmaq lazım gəlir.**

**Bəzən institusional çərçivələr iqtisadi aktivliyi sürətləndirmir, əksinə ləngidir. Bu halda siyasi və iqtisadi rəhbərlər fəaliyyəti maddi nemətlərin istehsalına görə deyil, yenidən bölgüyə görə həvəsləndirmək imkanına malik olur, qeyri- səmərəli mülkiyyət hüquqlarını formalaşdırır, rəqabətli mühit deyil, inhisarçılıq yaradır, əməyin məhsuldarlığını artıran təhsilə, elmə investisiyaları nadir hallarda həvəsləndirirlər.**

**Səmərəsiz institutların mövcudluğu onunla izah olunur ki, hökumət fiskal məqsədlər güdərək iqtisadi fəaliyyətin zaman çərçivəsini daraldır, beləliklə də xüsusi fəaliyyətin sövqləndirici maraqları ilə ictimai rifah arasında uyğunsuzluq yaradır.**

**Siyasi sistemlərə üzvi surətdə durğunluğa və tənəzzülə gətirib çıxaran mülkiyyətin səmərəsiz hüquqlarını hazırlamaq meyli xasdır. Buna iki səbəb vardır. Birincisi, hakimiyyətdəkilərin əldə etdikləri gəlirlər nəzarət və vergi yığımına**

**böyük xərclər tələb edən səmərəli quruluşla müqayisədə, qeyri-səmərəli olmasına baxmayaraq asan nəzarət olunan və vergilərin yığılması üçün daha çox imkanlar yaradan belə mülkiyyət hüququ olanda daha yüksək ola bilir. İkincisi, hakimiyyətdəkilər bir qayda olaraq səmərəli mülkiyyət hüququ təsis edə bilmirlər, çünki bu təbəələrin bir qismini təhqir edə və bununla da digərlərinin hüquqlarının qorunmasını təhlükə altına qoya bilər. Səmərəlilik maraqları digər hərəkət tərzim diktə edən özünüqoruma maraqlarına qurban verilir, çünki səmərəli normalar güclü siyasi qrupların maraqlarına zərər vura bilər.**

**Yüksək transaksional xərclər çox vaxt zəif institutlarla (qaydaların riayət olunmasında zəif ictimai məcburetmə) bağlı olur, lakin müvəkkillərə az hüquq verən güclü institutlarla da bağlı ola bilirlər. Nəticədə cəmiyyətin institusional çərçivələri həm resurslardan istifadə üsulları, həm də fərdlə- rin aktivlər əldə etmək və onlara pul qoymaq istəyinə təsir edən aktivlərə nəzarət xərcləri müəyyənləşdirir.**

**İnstitutların cəmiyyətdə oynadığı əsas rol qeyri-müəyyənliyi insanlar arasında qarşılıqlı əlaqənin dayanıqlı (lakin səmərəli olması çox da vacib deyil) quruluşunun yaradılması yolu ilə azaltmaqdan ibarətdir. Lakin institutların sabitliyi onların dəyişikliklərə məruz qalması ilə heç də ziddiyyət yaratmır. Bütün institutlar eyni şəkildə, yəni ənənəvi şərtilikdən, kodekslərdən və davranış normalarından yazılmış hüquqa, adi hüquqa və fərdlər arasındakı müqavilələrə kimi inkişaf edirlər.**

**institusional dəyişikliklər mürəkkəb prosesdir, çünki son həddəki dəyişikliklər qaydalarda, qeyri-formal məhdudiyyətlərdə, qaydalara və məhdudiyyətlərə əməl etməyə məcbur etmənin üsulları və səmərəliliyində olan dəyişikliklərin nəticəsi ola bilər. Formal qaydaları siyasi və hüquqi qərarlar qəbul etməklə bir gecədə dəyişmək olar. Adətlərdə, ənənələrdə və davranış kodekslərində təcəssüm etdirilmiş qeyri-formal məhdudliyyətlər insanın şüurlu cəhdlərinə daha az həssas**

**dırlar. Bu mədəni məhdudiyyətlər nəinki keçmişi indiki zamanla və gələcəklə əlaqələndirir, eləcə də bizə tarixi inkişaf yolunu başa düşməyə kömək edir.**

**Keçid iqtisadiyyatı şəraitində cəmiyyət institusionalistlərin araşdırmalarına görə, əsasən aşağıdakı üçlükdən ibarət məsələni həll etməlidir: birincisi - dəyişiklikləri və yeni mexanizmləri mənimsəmək, ikincisi - dəyişikliklərin və səhvlərin neqativ nəticələrini aradan qaldırmaq, nəhayət, keçmiş irsin qiymətli olanlarını saxlamaq. Duqlas Nortun bu irsə aid olan mövqeyi əsaslandırılmış və ağlabatan görünür: sizin keçmişə olan münasibətinizdən asılı olmayaraq insanların adət elədikləri ilə hesablaşmaq lazımdır, islahatların strategiyası və taktikası bunu nəzərə almaya bilməz, insan biliklərinin əsasında bir insanın və ya bir nəslin həyatı boyu qazandığı ayrı-ayrı biliklər deyil, onların uzun müddət ərzində yığılmış məcmusu durur. Təəssüf ki, onun qiymətini minimallaşdırmağı nəzərdə tutan transformasiya dinamikası nəzəriyyəsi yoxdur.**

**Rusiya islahatları təcrübəsində bazarın səmərəliliyi sosial-iqtisadi səmərəliliyə uyğun olmur, istehsal və texnoloji potensialın əsaslı və çox hallarda bərpa olunması mümkün olmayan şəkildə dağılması kimi çıxış edən transformasiya, keçid iqtisadiyyatlı ölkələrdən heç birinin itkiləri ilə müqayisə olunmayacaq dərəcədə baha başa gəlmişdir, indi artıq əhalinin sosial müdafiəsi islahatların nəticəsi deyil, ilkin şərtləri olur. Və bazar özünütəşkili dövlətin lazımi tənzimləməsi olmadan maliyyə, investisiya və institusional kimi dərin böhranların aradan qaldırılmasını təmin edə bilmir. Bu şərtlərə Qərbdə on illər ərzində formalaşmış dövlət-bazar nisbətlərini mexaniki olaraq tətbiq etmək cəhdləri həm zərərli, həm də təhlükəlidir, çünki hadisələri qabaqlamaq (tələsmək) davranış sistemlərində geriləməyə səbəb olur.**

**islahatların uğurlu həyata keçirilməsi üçün institusional sistemi dəyişdirmək, mülkiyyətin iqtisadi inkişafa fəal təsir göstərən səmərəli formalarını yaratmaq lazımdır.**

### *§2. Mülkiyyət iqtisadi və hüquqi kateqoriya kimi. Mülkiyyət nəzəriyyələri*

**Müxtəlif iqtisadi məktəblər mülkiyyəti və onun mahiyyətini müxtəlif şəkildə müəyyənləşdirirlər.**

**Marksist nəzəriyyəsinə əsasən, mülkiyyət iqtisadi kateqoriya kimi istehsal, bölgü, mübadilə və istehlak prosesində istehsal vasitələrinin və onların köməkliyi ilə hazırlanan maddi nemətlərin mənimsənmə (özgəninkiləşdirmə) münasibətini ifadə edir.**

**Burada diqqət maddi nemətlərin subyektə mənsub olması faktını yalnız onun özünün deyil, digər subyektlərin də tanımalı olması üzərində cəmlənir, buna görə də bir ictimai münasibətlər kimi mülkiyyət hüququ yaranır.**

**Qərb iqtisadçıları mülkiyyətə yalnız insanın əşyaya münasibəti kimi yanaşırlar. Həqiqətdə isə mülkiyyət münasibətlərinə mülkiyyətçinin əmlakı ilə real qarşılıqlı təsiri, əmlak üzərində sərəncamının olması və ondan istifadəsinin inikası kimi baxılır.**

**Marksist nəzəriyyəsinə əsasən mülkiyyət iqtisadi kateqoriya kimi insanların iradəsindən və şüurundan asılı olmayaraq mövcuddur. Hələ Solon (e.ə.594) və Klisfen (e.ə.509) qeyd edirdilər ki, qanunlar mülkiyyət münasibətlərini yaratmırlar, onlar faktiki olaraq cəmiyyət daxilində formalaşmış münasibətləri təsbit edirlər. Ona görə də mülkiyyətin iqtisadi və hüquqi kateqoriyaları fərqləndirilir. İqtisadi kateqoriya kimi mülkiyyət insanlar arasında mənimsəmə və özgəninkiləşdirmə münasibətlərini ifadə edir. Hüquqi kateqoriya kimi mülkiyyət obyektiv formalaşmış mülkiyyət münasibətlərinin subyektiv şərhi, artıq təcrübədə formalaşmışların qanunvericiliklə təsbit edilməsinə olan ictimai tələbatın təzahürüdür. Belə halda mülkiyyət özü hüquqdur. Əgər mülkiyyət hüququna qanunla təsis edilmiş, bu və ya digər şəxsin hansı əşyalardan istifadə edə biləcəyini və ya sərəncam verə biləcəyini müəyyən edən qayda, eləcə də bu cür istifadənin və**

**ya sərəncam vermənin həyata keçməsini təmin edən şərtlər kimi yanaşsaq, mülkiyyət hüquqi kateqoriyadır.**

**Mülkiyyət münasibətləri obyektiv-subyektiv münasibətlərdir ki, burada obyekt kimi istehsalın maddi şərtləri və insan həyatı (istehsal vasitələri və işçi qüvvəsi), həmçinin istehsalın nəticələri (maddi nemətlər və xidmətlər), subyekt kimi isə insan, şirkət, assosiasiya, əmək kollektivi, dövlət nümayəndələri, dövlət aparatı işçiləri çıxış edirlər.**

**Marksizmə əsasən, istehlak şeylərinə mülkiyyətlə müqayisədə, istehsal vasitələrinə mülkiyyət münasibətləri həlledicidirlər, çünki sonuncular ictimai istehsalın məqsədini, xarakterini, cəmiyyətin sosial-iqtisadi quruluşunu, siniflər və sosial qruplar arasındakı qarşılıqlı münasibətləri müəyyənləşdirirlər.**

**Mülkiyyət münasibətləri istehsal amillərinin və əmək məhsullarının mənimsənmə, özgəninkiləşdirmə, istifadəetmə, sahiblik və sərəncam vermə proseslərini, istehsalın inkişafının strategiya və taktikasını, vəsaitlərin istifadə istiqamətlərini, əməyin və istehsalın təşkili formalarının seçimini, eləcə də onların üzərində nəzarəti ehtiva edir. Mülkiyyət iqtisadi hakimiyyətlə sıx bağlıdır. Əslində istehsalın idarə edilməsi mülkiyyətin funksiyası, onun mütləq tərəflərindən biridir. İstehsalı bir qayda olaraq istehsal vasitələrinin mülkiyyətçisi idarə edir. Mülkiyyət iqtisadi hakimiyyətin əsas elementlərindən biri (lakin yeganə deyil), onun mənbəyidir.**

**Mülkiyyətin ilk təriflərindən biri imperator Yustianın (V əsr) «Roma hüququ» kodeksində verilmişdir ki, mülkiyyətə burada əmlaka sahib olmaq, istifadə etmək və sərəncam vermək hüququ kimi baxılır.**

**Mülkiyyyətin əsas məğzini mənimsəmə təşkil edir. Mənimsəmə mülkiyyət obyektinin subyekt tərəfindən iqtisadi, zorakılıq və hüquqi yollarla digər subyektlərdən özgələşdirməkdir. Mənimsəmə kateqoriyasını araşdırarkən əmək vasitəsilə, tədavül vasitəsilə həyata keçirilən mənimsəmə və bilavasitə istehsal prosesində icra edilən akt, istehsal anı**

kimi mənimsəmə növlərini göstərmək olar.

Mənimsəmə və özgəninkiləşdirmənin tam forması olan mülkiyyətdən sahibliyi, istifadə etməni və sərəncam verməni fərqləndirmək lazımdır.

Sahiblik — qeyri-tam, qismən mənimsəmədir. Sahib — istehsal vasitələrinin nümayəndəsidir. O, mülkiyyətçinin şəxsləndirilmiş nümayəndəsidir. Sahiblik mülkiyyətçi tərəfindən müəyyən edilmiş şərtlər daxilində fəaliyyət göstərən mülkiyyətdir. Məsələn, müddətliliyi, ödənilməni, geri qaytarılmanı, eləcə də gəlirin bir hissəsinin mənimsənilməsini şərtləndirən icarə və kredit.

İstifadəetmə - təyinatından asılı olaraq əşyanın faktiki tətbiq edilməsidir. İstifadəetmə sahibliyin və mülkiyyətin reallaşma formasıdır. Əgər sahiblik mülkiyyətin funksiyasıdırsa, onda istifadəetməyə də sahibliyin funksiyası kimi baxmaq olar.

Sərəncamvermə - Bu sahibkarın və ya digər şəxsin mülkiyyət obyektinin fəaliyyət göstərməsi barədə qərar qəbul etməsidir ki, bu da sahibin əmlakı mülkiyyətçinin icazə verdiyi hüdudlar daxilində istifadəyə verməsi hüququna əsaslanır. Bununla əlaqədar qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatında sahibkar mülkiyyətçi olmaya da bilər, lakin mütləq sahiblik, istifadəetmə və sərəncamvermə hüququna, yəni mülkiyyətin səlahiyyət üçlüyünə malik olmalıdır.

Beləliklə, mülkiyyət bir tamdır, onun elementləri (tamın hissələri) isə sahiblik, istifadəetmə və sərəncamver- mədir. Elementlər arasında əlaqə bu cürdür: sərəncamvermə istifadəetmə ilə, istifadəetmə sahibliklə, sahiblik isə mülkiyyətin formaları ilə müəyyən edilir.

Mülkiyyət hüququnun iqtisadi nəzəriyyəsinə əsasən resursun (istehsal vasitələri və ya iş qüvvəsi) özü deyil, resursdan istifadəyə verilən hüquq dəsti və ya payı mülkiyyətdir.

Mülkiyyət hüququ nəzəriyyəsinin əsasını iki məşhur amerikalı iqtisadçılar - R.Kouz və A.Alçian qoymuşlar. Bu

**D. Nort, N.S.Çenq, R.Pozner və digərləri iştirak etmişlər.**

**Tam «hüquq dəsti» aşağıdakı 11 elementdən ibarətdir:**

**1) sahiblik hüququ, yəni nemətlər üzərində müstəsna fiziki nəzarət hüququ;**

**2) istifadə etmə hüququ, yəni nemətlərin faydalı xassələrini özün üçün işlətmək hüququ;**

**3) idarəetmə hüququ, yəni nemətlərdən kimin və necə istifadə edəcəyini təmin edən qərar hüququ;**

**4) gəlir hüququ, yəni nemətlərdən istifadənin nəticələrinə sahib olmaq hüququ;**

**5) suveren hüququ, yəni neməti özgəninkiləşdirmək, istehlak etmək, dəyişdirmək və ya məhv etmək hüququ;**

**6) təhlükəsizlik hüququ, yəni nemətlərdən məhrum edilmədən və xarici mühit tərəfindən vurulan ziyandan qorunmaq hüququ;**

**7) nemətləri irsən ötürmək hüququ;**

**8) nemətə sahibliyin daimi olması hüququ;**

**9) xarici mühitə zərər yetirən üsulun istifadəsinin qadağan olunması;**

**10) cərimə şəklində olan məsuliyyət hüququ, yəni nemətin borc əvəzinə alınması;**

**11) qalıq səciyyəli hüquq, yəni pozulmuş səlahiyyətlərin bərpasını təmin edən prosedurların və institutların mövcud olma hüququ.**

**Mülkiyyət hüququ cəmiyyət tərəfindən icazə verilən (dövlət qanunları, ənənələr, adətlər, müdiriyyətin sərəncamı ilə və s.), insanlar arasında nemətlərin mövcudluğu ilə yaranan və onlardan istifadəyə aid olan davranış münasibətləri kimi başa düşülür.**

**Mülkiyyət münasibətləri bu nəzəriyyədə resursların məhdudluğundan irəli gəlir: hər hansı nadirlik şərti olmadan mülkiyyətdən danışmaq mənasızdır. Buna görə də, mülkiyyət münasibətləri maddi və qeyri-maddi resurslara çatmaqdan istisnalar sistemidir. Əgər resurslara çatmağa istisnalar yoxdursa, onlar heç kimindir, heç kimə məxsus deyillər, yaxud**

**da sərbəst çatma olduğu üçün hamıya məxsusdurlar. Bu nəzəriyyəyə əsasən belə resurslar mülkiyyət obyekti deyillər.**

**Başqalarının resurslara sərbəst çatmasının qarşısını almaq onlara mülkiyyət hüququnu müəyyənləşdirməkdir. «Müəyyənləşdirmər məfhumu labüd olan təfsilatların sadalanmasını bildirir. Müəyyənləşdirmənin mənası və məqsədi mülkiyyəti yüksək qiymətləndirməyə, ondan böyük gəlir götürməyə qadir olanlara mülkiyyət hüququnu əldə etməyə şərait yaratmaqdır.**

**Mülkiyyət formaları daim inkişafdadırlar. Sivilizasiya inkişaf etdikcə mülkiyyət münasibətləri də müxtəlif formalar alaraq dəyişilir. Bu mülkiyyətin tarixi kateqoriya olduğunu söyləməyə əsas verir.**

### *§3. Müasir iqtisadiyyatda mülkiyyətin növ və formaları*

**Çox vaxt deyirlər ki, bazar münasibətlərinin əsasını fərdi və ya ayrı-ayrı şəxslərin mülkiyyəti kimi nəzərdə tutulan xüsusi mülkiyyət təşkil edir. Dünya təcrübəsi inkişaf etmiş bazar iqtisadiyyatının, sivil bazarın mülkiyyətin müxtəlif formalarına əsaslandığını göstərir. Bu isə bazarın əsasında, çoxlu sayda bazar subyektlərinin olmasını tələb edən, rəqabətin durması ilə izah olunur. Bazarın özü mülkiyyətin formalarına laqeyddir. O, bazar subyektlərinin nə dərəcədə müstəqil olmasına və öz təsərrüfat fəaliyyətlərində (qanun çərçivəsində) nə qədər sərbəst olmasına, eləcə də rəqabətin şərtlərinə etinasız deyil.**

**Bəşəriyyət tarixinə mülkiyyətin ən müxtəlif formaları məlumdur. Bunların isə ən çox əhəmiyyət kəsb edənləri dövlət və xüsusi mülkiyyətdir.**

**Dövlət mülkiyyəti. Müasir dünyada elə bir ölkə yoxdur ki, orada dövlət aktiv təsərrüfat fəaliyyəti aparmasın. Qərb ölkələrində əsas fondlarda dövlətin payına 7-dən 30-a qədər və daha çox faiz düşür.**

**Mülkiyyətin dövlət forması iqtisadiyyatın baza sahələrində üstünlük təşkil edir ki, burada birbaşa mərkəzləşdirilmiş idarəetməyə, dövlət investisiyalarının həyata keçirilməsinə həqiqətən də böyük tələbat olur, gəlirlilik meyli ictimai maraqlar üçün kifayət etmir. Bura ygdnız ümumi şəkildə (bütöv tam kimi) işlənən fəaliyyət növləri aiddir ki, buna səbəb də bu fəaliyyət növlərinin və onların maddi zəmininin dövlət idarəetmə forması (informasiya vasitələri, sosial və istehsal quruluşları, ekoloji mühafizə, fundamental elm və məsələn, kosmosun fəthi kimi, elm tutumlu istehsalat və s.) obyektiv olaraq yaranır. Dövlət mülkiyyət forması iflasa uğrayan qeyri-hökumət müəssisələrinə kömək etmək lazım olduqda da yaranır. Bu faktik olaraq ziyanla işləyən müəssisələrin milliləşdirilməsi, dövlət vəsaiti hesabına onların sağlamlaşdırılması və sonrakı özəlsizləşdirilməsi zəminində aparılır.**

**Rusiyada bu yaxınlara qədər «vahid fabrika», dövlət mülkiyyətinin inkişafı zəminində istehsalın 10 dəfə və çox böyüdülməsi meyli üstünlük təşkil edirdi. Dövlət mülkiyyəti aparıcı və ümumxalq elan olunmuşdu, hal-hazırda isə bu bir çox iqtisadçılar tərəfindən haqlı olaraq etirazla qarşılanır.**

**İctimai mülkiyyətin deformasiyası nəticəsində istismarın aşağıdakı növləri yarandı: hər il 10-15 mln. «xalq düşmənlə- ri» və onlarm ailə üzvlərinin istismar olunduğu «düşərgə»; 35 mln kəndlini və 3 min. sürgün olunmuşları istismar edən «kazarma»; plutokratik mənimsəmə forması (gizli iqtisadiyyat, korrupsiya, total təsərrüfatsızlıq və təsərrüfat cinayətinin digər növləri) olan «dövləti istismarı.**

**Dünya təcrübəsi göstərir ki, dövlət mülkiyyəti səmərəli ola bilir, çünki onun mülkiyyətin digər formaları ilə müqayisədə aşağıdakı funksiyaları ilə şərtləndirilmiş müəyyən üstünlükləri vardır: makrotənzimetməni həyata keçirmək bacarığı, cəmiyyətin bütövlükdə iqtisadi inkişaf strategiyasını formalaşdırmaq, nəticə etibarilə insana yönəldilmiş ən yüksək səmərəliliyə nail olmaq meyarına əsasən milli iqtisadi quruluşunu optimallaşdırmaq.**

**Bununla yanaşı, iqtisadi və sosial quruluşdan asılı olmayaraq dövlət mülkiyyəti əksər hallarda digər formalara nisbətən daha az səmərəliliklə fəaliyyət göstərir. Bu bir tərəfdən bazarın imkanlarının məhdud olduğu və əməyə marağın aşağı olduğu sahələrdə dövlət mülkiyyətinin inkişafı ilə əlaqədardır. Digər tərəfdən isə mülkiyyətçinin məsuliyyətsizliyi və müəssisənin bazar istiqamətini itirməsi üzündən normal fəaliyyət göstərən bazarı olan sahələrdə də dövlət mülkiyyətinin səmərəliliyi azala bilər.**

**Mülkiyyətin dövlət formasının üstünlük təşkil etməsi dövlət inhisarının yaranmasına gətirib çıxarır. Bu isə öz növbəsində ölkə iqtisadiyyatının inkişafı, istehlakçı və əhali üçün zərərli, istehsalçı üçün isə olduqca əlverişlidir.**

**Beləliklə, dövlət mülkiyyətini deyil, onun inhisar vəziyyətini aradan götürməkdən danışmaq olar. Dövlət mülkiyyəti ümummilli, respublika və bələdiyyə mülkiyyəti şəklində iqtisadiyyatda həmişə mühüm rol oynayır.**

**Bələdiyyələşmə (lat. *municipium* - özü-özünü idarə edən cəmiyyət) torpaq, tikinti, yerli təsərrüfat işi üzərində dövlət mülkiyyət hüququnun şəhər (kənd - kənd yerlərində) özünüidarə orqanlarına verilməsinə deyilir.**

**Şəhərlərdə bələdiyyə mülkiyyətinin obyektləri ilk növbədə həyat təminatı sistemləri, yəni su kəməri və kanalizasiya şəbəkəsi, qaz təsərrüfatı, elektrik təminatı, nəqliyyat, yaşayış fondu və s. olur. Bu xidmətlərin şəhər hakimiyyətinin ixtiyarında cəmlənməsi nəinki şəhərlərin özlərinə, eləcə də əhaliyə bir çox üstünlüklər verir. Bu ilk növbədə iqtisadi faydadır. Birgə götürülmüş şəhər təsərrüfatı və əhaliyə göstərilən bu xidmətlər ayrı-ayrı mülkiyyətçilər arasında (yaxud da bizim ölkədə tez-tez rast gəlindiyi kimi idarələr arasında) paylananda olduğundan bir qayda olaraq daha ucuz olur. Maliyyə vəziyyətinin nizama salınması hesabına bələdiyyə mülkiyyətinin və şəhər təsərrüfatının təminatı dövlət büdcəsinə də daha ucuz başa gəlir. Bələdiyyələşmə dotasiyanın azaldılmasına imkan yaradır.**

**Bələdiyyə mülkiyyəti əhalinin həyat şəraitini yaxşılış-dırmağa və yüngülləşdirməyə imkan verən iqtisadi əsas olur. Bələdiyyələr cəmiyyətin əmək qabiliyyəti olmayan üzvlərinin təminatına sərf olunan xərcin böyük hissəsini Öz üzərlərinə götürürlər, xüsusilə ölkənin böhran dövrlərində.**

**Şəhərin bütün texniki xidmətlərinin (su-kanalizasiya, qaz, elektrik və nəqliyyat təsərrüfatı) vahid əldə cəmlənməsi, onların istismarını qaydaya salmaqla əhaliyə əlavə rahatlıqların verilməsinə imkan yaradır.**

**Mülkiyyətin bələdiyyələşdirilməsinin daha bir üstünlüyü şəhərlərin və onların təsərrüfatlarının inkişaf istiqamətlərini görmək və təmin etmək, gələcəyi nəzərə almaqla şəhər xidmətlərini təşkil etmək və inkişaf etdirmək (bu xüsusilə su təmini, kanalizasiya, elektrik və istilik təminatı, nəqliyyat və bina tikintisi sistemlərinə aiddir) imkanıdır.**

**Şəhər özünüidarəsi ayrı-ayrı məhsul və xidmətlərin istehsalına, əhali üçün bir sıra işlər görmək üçün adətən müstəsna (inhisar) hüquq əldə edirlər. Bu cür müəssisələrin oynadığı ictimai rolu nəzərə alsaq, onlara sırf gəlirlilik nöqteyi-nəzərindən baxmaq olmaz. Şəhər və ya kənd hakimiyyətinin mülkiyyətinə keçmiş müəssisələrə qarşı irəli sürülən əsas tələb əhalini keyfiyyətli mallar və xidmətlərlə mümkün qədər aşağı qiymətlərlə, bəzən isə pulsuz təmin etməkdir.**

**Qərbi Avropanın bir çox şəhərlərində bələdiyyə mülkiyyətinin yaranması, o cümlədən vergilərin azaldılması yolu ilə də əhaliyə böyük maddi fayda gətirir. Xarici təcrübə göstərir ki, şəhər təsərrüfatına baxan keçmiş xüsusi müəssisələrin bələdiyyə mülkiyyətə keçməsi ilə əhalinin bu xidmətləri (suyu, qazı, istiliyi, kanalizasiyadan istifadə etməyi, nəqliyyatı) Ödəməsi nəinki artmırdı, əksinə azalırdı. Bu qayda şəhərlərə böyük gəlir gətirən müəssisələrə və xidmətlərə də, az rentabellilərə də şamil olunur. Böyük şəhərlərdə yaxşı təşkil edilmiş bələdiyyə müəssisələri nadir hallarda zərər gətirirlər. Əksinə, şəhər hakimiyyəti çox vaxt olduqca böyük mənfəətin əldə olunmasında məzəmmət olunur.**

**Bələdiyyə mülkiyyətinin yaranma tarixi XIX əsrin sonlarına (bəzi ölkələrdə ortalarına), təşəkkül tapması isə XX əsrin əvvəllərinə təsadüf edir.**

**Xüsusi mülkiyyət. «Xüsusi mülkiyyət» məfhumu tarixən dövlət əmlakını bütün digər əmlaklardan ayırmaq məqsədilə yaranmışdır. Buna görə də hesab olunurdu ki, dövlət əmlakı olmayan nə varsa, xüsusi əmlakdır. Mülkiyyət formalarının böyük müxtəlifliyi olan müasir dövrdə nəinki ayrı- ayrı vətəndaşların, eləcə də kooperativlərin, assosiasiyaların, xalq müəssisələrinin mülkiyyəti «qeyri-dövlət» mülkiyyəti hesab olunur. Qərb iqtisadi nəzəriyyəsində və təcrübəsində ^mülkiyyətin istənilən qeyri-dövlət forması xüsusi mülkiyyətdir» fikri təsdiq olunub. Bu yanaşmanın öz məntiqi var. Dövlət öz cəmiyyətinin təmsilçisi kimi çıxış edir, mülkiyyətin digər subyektləri isə cəmiyyətin yalnız bir hissəsini təcəssüm etdirirlər, ona görə də onları mülkiyyətin sahibi hesab etmək düzgün olardı.**

**Bugünkü gündə çoxları sübut etməyə çalışır ki, xüsusi mülkiyyət bölünməz, heç nə ilə məhdudlaşdırılmayan (öz sahibinin iradəsindən başqa) mülkiyyətdir. Əslində, xüsusi mülkiyyətçinin öz mülkiyyət obyektinin üzərində lazımi hesab etdiyi bütün əməliyyatları, bu əməliyyatların digər şəxslərin xüsusi mülkiyyət sahəsinə nüfuz etməməsi şərtilə aparmağa tam hüququ vardır. Sivil cəmiyyətdə mülkiyyətçilərin müəyyən davranış qaydaları hazırlanmışdır.**

**Xüsusi mülkiyyətə aşağıdakıları aid etmək olar:**

**■İqtisadi vahid kimi ev təsərrüfatı - şəxsi ehtiyaclar üçün məhsul və xidmətlər istehsalını həyata keçirir;**

**■Qanunvericiliyə müvafiq surətdə fəaliyyət göstərən leqal xüsusi müəssisələr. Bunlar fərdidən, kustardan irilərinə qədər istənilən ölçülü müəssisələrdir.**

**■«Kölgə iqtisadiyyatı »nın tərkibində olan qeyri-leqal xüsusi müəssisələr. Bura ayrı-ayrı şəxslərin dövlətin xüsusi icazəsi olmadan əmtəə istehsalı və xidmət göstərmək sahəsindəki bütün fəaliyyətləri daxildir.**

**■ Mənzilin kirayə verməsindən tutmuş ayrı-ayrı şəxslər arasında pul əməliyyatlarının aparılmasına qədər xüsusi əmlakın və ya qənaətlə yığılmış şəxsi pulun istənilən istifadə forması.**

**Xüsusi bölmə mərkəzdən heç bir göstəriş olmadan özü-özünə inkişaf edir ki, bu da xüsusi mülkiyyətin həyat qabiliyyətliliyini göstərir. Xüsusi bölmənin inkişafının əsas şərtlərindən biri müəssisənin təsis edilməsində və istənilən istehsal fəaliyyətinin başlanmasına tam sərbəstlik verilməsidir. Xüsusi bölmə heç bir qadağa ilə üzləşməməlidir, onun mülkiyyətində olan əmlakı icarəyə verənlə icarəçi arasında azad müqavilə əsasında icarəyə verməyə, eləcə də istənilən yüksək qiymətli əşyanı yığmağa, satmağa və almağa qeyri- məhdud hüququ olmalıdır. Satıcı ilə alıcı arasındakı azad müqaviləyə əsaslanan sərbəst qiymətlər, sərbəst xarici ticarət fəaliyyəti, xüsusi mülkiyyətin tərkibində olan evin və əmlakın sərbəst alqı-satqısı, faiz ödəməklə sərbəst kreditləş- dirmə, işçi qüvvəsi tutma sərbəstliyi, istənilən xüsusi müəssisəyə maliyyə investisiyası sərbəstliyi xüsusi bölmənin inkişafı üçün lazım olan mühitdir.**

**Xüsusi bölmənin inkişafının ikinci şərti xüsusi müqavilədəki mükəlləfiyyətlərin yerinə yetirilməsinə qanunun təminat verməsini tələb edir. Əgər xüsusi müqavilə hər hansı bir şəkildə pozularsa zərər çəkmiş vətəndaş zərər verəni üzərinə götürdüyü mükəlləfiyyətləri yerinə yetirməyə məcbur etmək üçün məhkəməyə müraciət etmək hüqüquna malik olmalıdır.**

**Üçüncü şərt xüsusi mülkiyyətin tam təhlükəsizliyinin təmin olunmasının zəruriliyidir. Onun toxunulmazlığının təminatı qanunda, partiya proqramlarında və aparıcı dövlət xadimlərinin bəyannamələrində nəzərə alınmalıdır. Müsadirənin heç vaxt olmayacağına təminat lazımdır.**

**Dördüncü şərt kredit siyasətinin xüsusi kapitalqoymanı həvəsləndirilməsini tələb edir. Mülkiyyətin bütün formalarını inkişaf etdirmək üçün bərabər imkanlar müddəasını mü**

**kəmməl hesab etmək olar. Real gerçəklikdə isə dövlət bölməsi tərəfindən həddindən çox kapital yığılmış, bürokratik aparatın, dövlət bank sisteminin və dövlət müəssisələrinin birləşməsi baş vermişdir. Bunlar dövlət bölməsinin baş- lanğıcdakı şübhəsiz üstünlüyünü şərtləndirir. Buna baxmayaraq, xüsusi bölmənin səmərəliliyi maliyyə çətinlikləri qarşısında, kreditləşmənin istənilən şərtlərində belə, daim iflas olmaq təhlükəsi gözlədiyi üçün artır.**

**Xüsusi sektorun sonrakı inkişafı üçün cəmiyyətdə xüsusi bölməyə hörmətlə yanaşılması (beşinci şərt) olduqca vacibdir. Bazar iqtisadiyyatı şəraitində satıcının təklif elədiyi əmtəə alıcıya lazımdırsa və bu alıcı soruşulan qiyməti ödəməyə hazırdısa, sahibkarın satıcı olaraq fəaliyyət göstərməsinə ictimai faydalı hal kimi baxılmalıdır.**

**Xüsusi mülkiyyət fəaliyyəti zamanı ayrı-ayrı ictimai xüsusiyyətlər kəsb edir. Bu sosial sığortaya mütləq pul keçirmələrində, dövlət və yerli büdcəyə vergilərin, rentanın ödənilməsində üzə çıxır. Bundan savayı, xüsusi mülkiyyətçilər də dövlət və kollektiv müəssisələr kimi iqtisadi və hüquqi məsuliyyət daşıyır, müəyyən tələbatları ödəyirlər.**

**İqtisadiyyatımızda xüsusi mülkiyyətin dağıdılması və ona qarşı ayrı-seçkilik yaxın keçmişdə xüsusi sahibkarlığın nəinki mənfi xüsusiyyətlərinin, eləcə də güclü maraq tərəflərinin itirilməsinə gətirib çıxartmışdı. Yadda saxlamaq lazımdır ki, xüsusi mülkiyyət mülkiyyətin digər formaları üçün bilavasitə zəmin rolu oynayır. Müasir sivil cəmiyyətdə xüsusi mülkiyyətin də vəziyyəti dəyişilmişdir. Bir çox iqtisadçılar hesab edirlər ki, o nəinki fərdi (əmək və qeyri- əmək), həmçinin digər formalarda, yəni kollektiv, qrup və səhmdar kimi mülkiyyət formalarında da çıxış edir.**

**Kollektiv (qrup) mülkiyyət. Rusiyada kollektiv mülkiyyət kolxozların kooperativ mülkiyyəti, istehlak və digər kooperasiya formaları, eləcə də səhmdar mülkiyyəti və birgə, qarışıq müəssisələrin mülkiyyəti kimi təşkil edilir.**

**Mülkiyyətin kooperativ forması dünyanın bir çox ölkələ**

**rində geniş yayılmışdır. Mövcud hesablamalara əsasən dünyada 1 mln-a yaxın kooperativ təşkilatının 120-dən çox növü və növ formaları fəaliyyət göstərir. Onlar 600 mln insanı birləşdirirlər. Kənd təsərrüfatı məhsullarının emalı və satışı üzrə olan ilk kooperativlər 1880-1885-ci illərdə Danimarkada və İsveçrədə, gübrə və kənd təsərrüfatı alətlərinin satışı üzrə kooperativlər isə Hollandiyada və Fransada yaranmışdır. 100 ildən sonra 12 ölkədə kənd təsərrüfatı məhsullarının satışının 60% -i kooperativlərin payına düşürdü.**

**İstehlak kooperasiyalarının mülkiyyəti kolxozların mülkiyyətindən əsaslı surətdə fərqlənir. Kolxozlar istehsal kooperativləridir və onların mülkiyyəti istehsal dairəsində fəaliyyət göstərir. İstehlak kooperasiyaları istehlak və tədavül (lakin onlar istehsal funksiyalarını da yerinə yetirirlər) dairəsindəki istehlak kooperativləridir. Lakin burada təkcə onların üzvləri işləmir. Kooperativlərin üzvləri bu və ya digər məhsulu əldə etməkdə üstünlüyə malikdirlər.**

**ölkəmizdə mülkiyyətin deformasiyası onun kooperativ formasına təsir göstərmişdir ki, bu da milliləşmədə, kooperativ prinsiplərinin dağılmasında, bu formanın inkişaf etməmiş, ikinci dərəcəli kimi səciyyələndirilməsində təzahür edirdi. Buna baxmayaraq, kooperativ forma özünəməxsus xüsusiyyətləri ilə bazar iqtisadiyyatı şəraitində dövlət mülkiyyətinə nəzərən daha böyük potensiala malikdir ki, onun üstünlüyü də bununla şərtləndirilir (əməyə görə haqqın ödənilməsi ilə müəssisələrin fəaliyyətinin son nəticələri arasındakı əlaqə, öz xərcini ödəmə, özünümaliyyələşdirmə, idarəetmənin demokratik formaları və əməyə daha güclü maraqlandırma motivi).**

**Kooperativ mülkiyyət fərdiyyətini saxlayan kollektiv mülkiyyət formasıdır ki, bu da gəlirin fərdi əməyə pay ilə əlaqəsində təzahür edir. Onun daha güclü maraq potensialı da elə bununla bağlıdır.**

**Mülkiyyətin kollektiv formasının növlərindən biri də səhmdar mülkiyyətidir. Məsələn, «General Motorz» firması**

**nın mülkiyyəti 3 milyon səhmdara məxsusdur. Səhmdar mülkiyyəti yaranma, fəaliyyət göstərmə üsuluna, eləcə də həyata keçirmənin iqtisadi formalarına əsasən də kollektiv mülkiyyətdir. Tarixən səhmdar formanın yaranmasının maddi əsası iri maşınlı istehsala xas olan ictimailəşməyə tələbat olmuşdur. Lakin bu şübhəsiz ki, kifayət etmir. Etibar doğuran kreditin də yüksək səviyyədə inkişafı olduqca vacibdir. Səhmdar mülkiyyət əhalinin müxtəlif təbəqələrinin pul vəsaitlərinin könüllü surətdə birləşdirilməsi əsasında yaranır. Bu cür birləşmə səhmdar müəssisələrinin fəaliyyəti və onların dividentlər şəklində fərdi mənimsənilməsi prosesində gəlirlərin birgə kollektiv yaradılmasının əsası olur. Səhmdar mülkiyyət xüsusi mülkiyyəti dağıtmadan, yalnız tədricən şəklini dəyişməklə irsən yaranmışdı, buna görədir ki, K.Marks onu «ümumi xüsusi mülkiyyət* adlandırmışdır.**

**Müəyyən qədər şərti olsa da, hazırda səhmdar mülkiyyətinin iki əsas modelinin olduğunu göstərmək olar:**

**■ ingilis-sakson immodeli: səhmlərin 20-30%-i hərəkətsizdir, bir neçə sahibkarın əlində cəmlənərək nəzarət paketini formalaşdırırlar; 70-80% səhm hərəkətlidir, əldən ələ asanlıqla ötürülür, fond bazarında ticarət obyektinə çevrilirlər.**

**■ «kontinental» model: səhmlərin 70-80%-i daimi səhmdarların əlində cəmlənir, 20-30%-i isə bazara daxil olur və investorlar tərəfindən müvəqqəti vəsait yerləşdirmə obyekti kimi nəzərdən keçirilir.**

**Bu iki model arasında başlıca fərq səhm bazarına ayrılan roldadır. Birinci model birjada dövr edən səhmlərdən yeni nəzarət paketi yaratmağa imkan verir. Birja burada «nəzarət bazan* kimi çıxış edir. Bu da hər bir açıq səhmdar cəmiyyətinin taleyini bu bazara xas olan səmərəlilik meyarından asılı olaraq müəyyən edir ki, bunların da alisi səhm məzənnəsidir.**

**Rusiyada səhmləşdirmə ehtimal ki, səhm mülkiyyətinin ikinci, yəni <ı kontinental» modelinin formalaşmasına gətirib**

**çıxaracaq.**

**Qərb ölkələrində (xırda biznesi və kənd təsərrüfatını nəzərə almasaq) səhm mülkiyyəti az qalıb ki, ümumi olsun. O, əsas fondların və istehsal olunan məhsulun demək olar ki, 80%-ni əhatə edir. Orada sırf dövlət müəssisələrinə nadir hallarda rast gəlinir. Onlar adətən səhm formalarında fəaliyyət göstərirlər, lakin nəzarət paketi dövlətin əlində olduğu üçün dövlət mülkiyyəti hesab olunur. Deməli, dövlət mülkiyyəti mülkiyyətin fərdiləşməsi, xüsusi mülkiyyət isə mənimsəmənin ictimai formaları istiqamətində inkişaf edir. Dialektika belədir.**

**Beləliklə, mülkiyyət formalarından heç biri ideal və universal ola bilməz. Mülkiyyətin hər bir formasının ən səmərəli tətbiq olunduğu sahələri var. Dövlət mülkiyyəti bazar həvəsləndirilməsihin məhdud imkanlı sahələrində müvəffəqiyyətlə fəaliyyət göstərir. Mülkiyyətin səhmdar və kooperativ formaları vəsaitlərin təmərküzləşməsi tələb olunan hallarda əlverişlidir. Xüsusi mülkiyyət vəsaitlərin böyük təmərküzləşməsi tələb olunmayan, yəni təsərrüfat fəaliyyəti üçün lazımi vəsaitlər fərdi şəkildə qazanıla və yığıla bilən hallarda istifadə edilir.**

**İqtisadi ədəbiyyatda mülkiyyətin əsas formalarından savayı, ictimai təşkilatların, assosiasiyaların, şirkətlərin, kilsənin, ailə və s. kimi törəmə formaları da verilir. Xüsusi yeri mülkiyyətin «beyin axınınam imkan yaradan intellektual forması tutur ki, bu da biliklərin qavranılmasından, elmi məlumatların, mədəniyyətin, incəsənətin, ixtiraların mübadiləsindən ibarətdir.**

**Müasir mərhələdə mülkiyyət formalarının inkişafı mülkiyyət münasibətlərinin beynəlmiləlləşdirilməsi prosesi ilə səciyyələndirilir ki, nəticədə birgə, qarışıq müəssisələr, eləcə də transmilli şirkətlər yaranır. Bütün bunlar mülkiyyət formaları sisteminin mövcudluğundan danışmağa əsas verir.**

**Müxtəlif meyarlar nəzərə alınmaqla mülkiyyət formalarının çeşidliyi şəkil 7.1-də verilmişdir.**

**MÜLKİYYƏT**

**Mənimsamə formalarına görə**

**Fərdi**

**^ Şəxsi yardımçı təsərrüfat**

**-► Əmək təsərrüfatları -►**

**Fərdi əmək fəaliyyəti -► Şəxsi**

**mülkiyyət**

**Kollektiv**

**Kooperativ**

**-► Kollektiv müəssisələr**

**"► İcarə**

**-► Səhmdar cəmiyyətləri**

**Assosiasiyalar və a.**

**Dövlət**

**"► Ümumdövlət**

**-► Bələdiyyə**

**Dövlət ərazisində qurumlar**

**Mülkiyyət hüququ formasına görə**

**Xüsusi**

**-► Vətəndaşlar**

**Hüquqi şəxslər (müəssisələr, birliklər, təşkilatlar)**

**Dövlət**

**->■ Federal**

**Respublika və -► dövlət tərkibində digər qururalar**

**-► Bələdiyyə**

**Birgə**

**^ Birgə müəssisələr və təşkilatlar**

**Subyektlərinə və obyektlərinə görə**

**Obyektlər**

**-► Məhsullar**

**-► İş qüvvəsi**

**-► Torpaq, təbii resurslar**

**-► Yaşayış evləri**

**Qiymətli kağızlar və s.**

**Subyektlər**

**-► Ayrı-ayrı şəxslər**

**Kollektivlər, qruplar, ailələr**

**-► Dövlət**

**-► Sairlər**

## Şəkil 7.1. Mülkiyyətin formaları

## *§4. Dövlətsizləşdirmə və özəlləşdirmə. Xarici ölkələrin və Rusiyanın təcrübəsi*

**Dövlət mülkiyyətinin ümumi üstünlüyü ilə müəyyən olunan Rusiya iqtisadiyyatının xüsusiliyi mülkiyyət formalarının real müxtəlifliyinə keçidin əsas metodu, bazar təsərrüfatının formalaşmasının əsası, sahibkarlığın quruluşunun optimallaşma yolu kimi dövlətsizləşdirmə və özəlləşmənin labüdlüyünü tələb edir.**

**Dövlətsizləşdirmə dövlət mülkiyyətinin dəyişdirilməsi üzrə tədbirlər məcmusudur ki, bu da dövlətin iqtisadiyyatda hədsiz rolunu aradan qaldırmağa yönəldilir.**

**Dövlətsizləşdirmə dövlətdən təsərrüfat idarəçiliyinin əksər vəzifələrinin alınması, müvafiq səlahiyyətlərin müəssisələrə verilməsi, şaquli təsərrüfat əlaqələrinin üfüqilərlə əvəz olunmasını bildirir.**

**Dövlətsizləşdirmə dövlətin iqtisadi sahədən tam çıxması ilə nəticələnmir. Müasir istehsal dövlətin tənzimləməsi olmadan müvəffəqiyyətli inkişaf edə bilmir ki, bu da yalnız müəyyən hədlər daxilində səmərəlidir. Əgər bu hədlər pozularsa, ictimai istehsalın səmərəliliyi azalar. Hazırda dövlətsizləşdirmə xətti ümumdünya xarakteri daşıyır.**

**Dövlətsizləşdirmə müxtəlif istiqamətlər üzrə həyata keçirilə bilər;**

- **mənimsəmə prosesinin dövlətsizləşdirməsi, hər bir işçinin və əmək kollektivinin mənimsəmənin, inhisarsızlaşma- nın bərabərhüquqlu iştirakçısı kimi tanınması;**
- **müxtəlif təsərrüfatçılıq formalarının yaradılması, müəssisələrin bütün formalarına qanun çərçivəsində təsərrüfat fəaliyyətində eyni dərəcədə sərbəstlik verilməsi;**
- **yeni təşkilati quruluşların formalaşması, üfüqi əlaqələrin aparıcı rol oynadığı sahibkarlıq fəaliyyətinin yeni formalarının (konsernlər, şirkətlər, assosiasiyalar) yaradılması.**

**Beləliklə, dövlətsizləşdirmə inhisarçılığın dəf edilməsinə, rəqabətin və sahibkarlığın inkişaf etdirilməsinə yönəldilir.**

**Bu bazar iqtisadiyyatına keçidin mərkəzi problemidir.**

**Dövlətsizləşdirmə özəlləşdirmə ilə sıx əlaqədədir.**

**özəlləşdirmə mülkiyyətin dövlətsizləşdirmə istiqamətlərindən biridir ki, bunun da mahiyyəti onun ayn-ayn vətəndaş- larm və hüquqi şəxslərin xüsusi mülkiyyətinə verilməsidir.**

**Rusiyada dövlət və bələdiyyə müəssisələrinin özəlləşdirilməsi vətəndaşların və səhmdar cəmiyyətlərinin (şirkətlərin) dövlətdən və yerli hakimiyyət orqanlarından aşağıdakıları mülkiyyətə almasını bildirir:**

**■ müəssisələr və onların müstəqil müəssisələrə ayrılan bölmələrini;**

**■ müəssisələrin maddi və qeyri-maddi aktivlərini;**

**■ dövlətin və yerli hakimiyyət orqanlarının səhmdarlar cəmiyyətlərinin (şirkətlərin) kapitallarında payını (səhmlərini);**

**■ özəlləşdirilən müəssisələrin digər müəssisələrin kapitallarında olan payı (səhmlər və s.).**

**Beləliklə, özəlləşdirmə və dövlətsizləşdirmə arasındakı fərq ondan ibarətdir ki, özəlləşdirmə mülkiyyət münasibətlərinin kökündən dəyişilməsi prosesini əks etdirir, dövlətsizləşdirmə isə mövcud təsərrüfat sisteminin, dövlət diktatının dağıdılmasına və iqtisadiyyatın dövlətdən asılı olmayaraq fəaliyyət göstərməsinə istiqamətlənmiş dəyişilməsinin bütün kompleksini əhatə edir.**

**Özəlləşdirmənin obyektləri iri sənaye, xırda və orta sənaye və ticarət müəssisələri, xidmət sahələri müəssisələri, mənzil fondu, mənzil tikintisi, kənd təsərrüfatı müəssisələri və s. ola bilər. Özəlləşdirmədən sonra xüsusi şəxslər, özəlləşdirilmiş müəssisənin işçisi, əmək kollektivi, banklar, hol- dinqlər, səhmdar cəmiyyətləri (şirkətlər) və s. mülkiyyət subyektləri olur.**

**Bu və ya digər ölkədə özəlləşdirmənin miqyası əvvəlki dövrdə orada xüsusi bölmənin milliləşdirilməsi metodunun nə dərəcədə geniş istifadə olunmasından asılıdır. Milliləşdirmə metodunun nadir hallarda tətbiq olunduğu ölkələrdə**

**(ABŞ, AFR, Yaponiya) özəlləşdirməyə meyl zəif təzahür edir. Milliləşdirmə prosesinin həddindən çox güclü getdiyi ölkələrdə (Böyük Britaniya, Fransa) isə özəlləşdirmə geniş miqyasda həyata keçirilir.**

**Dövlətsizləşdirmə və özəlləşdirmə müxtəlif metodlarla, məsələn, mülkiyyətin pulsuz verilməsi, müəssisələrin güzəştli şərtlərlə alınması, səhmlərin satışı, müəssisənin icarəyə verilməsi, xırda müəssisələrin hərracda müsabiqəylə, yaxud da müsabiqəsiz satışı əsasında həyata keçirilə bilər.**

**Özəlləşdirmədən alınan maliyyə vəsaitləri ilk növbədə bazar infrastrukturunun inkişafına, eləcə də müstəqillik əldə etmiş müəssisələrin xüsusi kapitalla təmin olunmasına yönəldilməlidir.**

**Təcrübə göstərir ki, özəlləşdirmə yalnız müəyyən şərtlər daxilində uğur ola bilər. Bunlara ilk növbədə aşağıdakılar aiddir:**

- **əks-milliləşdirmənin həyata keçirilməsinin etibarlı hüquqi əsasının olması;**
- **inkişaf etmiş bazar infrastrukturunun (ilk növbədə fond bazarının) yaradılması;**
- **dövlət müəssisəsinin yaxşı düşünülmüş satış proseduru;**
- **iqtisadiyyatın xüsusiləşdiriləcək sektoruna (yaxud sahələrinə) olan tələbin həcminin əvvəlcədən qiymətləndirilməsi.**

**Yalnız bu şərtlər daxilində iqtisadiyyatda əks-milliləşdirmənin həyata keçirilməsi səmərəli ola bilər.**

**İnkişaf etmiş bazar iqtisadiyyatlı və keçid iqtisadiyyatlı ölkələrdə özəlləşdirmənin məqsədləri müxtəlifdir (şəkil 7.2).**

**Özəlləşdirmənin lideri olan Böyük Britaniya özəlləşdirmənin aşağıdakı üsullarını təklif etmişdir: səhmlərin satılması və pulsuz paylanması; xidmət göstərməyə podrat işi; dövlət mənzilinin kirayə götürənə satışı; rəqabəti artırmaq məqsədilə dövlət inhisarından imtina. Dövlət mülkiyyətinin və onun funksiyalarının xüsusi bölməyə tam və ya qismən ötürülməsinin bütün dünya üzrə 22 müxtəlif üsulu mövcuddur.**




**ŞəKİl 7.2. özəlləşdirmənin məqsədləri**

**Özəlləşdirmənin lideri olan BöyÜK Britaniya özəlləşdirmənin aşağıdaKi üsullarını tƏKİif etmişdir: səhmlərin satılması və pulsuz paylanması; xidmət göstərməyə podrat işi; dövlət mənzilinin Kirayə götürənə satışı; rəqabəti artırmaq məqsədilə dövlət inhisarından imtina. Dövlət müİKİyyətinin və onun funKsiyalarının xüsusi bölməyə tam və ya qismən ötürülməsinin bütün dünya üzrə 22 müxtəlif üsulu mövcuddur.**

**Hazırda «Employee Stock Ownership Plan*> (ESOPÖ adı altında tanınan fəhlə səhmdar müİKİyyəti Kifayət qədər məşhur modeldir. Formal olaraq o, müəssisələrin səhmlərinə ma- lİK olan və onların adından və onların xeyrinə sərəncam verən fəhlə pay yoldaşlığıdır.**

**KolleKtiv-pay müİKİyyətli şirKətlərin işçilərinin qanuna ' ESOP**

**- firma işçilərinin səhmlərinə sahibolma plam.**

**əsasən özlərinin səhmdar Kapitalı payına sərəncam verməK (satmaq, bağışlamaq, ötürməK) hüquqları yoxdur. Səhmlər fizİKİ olaraq xüsusi fondda olurlar, onların dəyəri isə işçilərin hesabına daxil edilir. Səhmdar müİKİyyətinin bu formasının səciyyəvi cəhəti də məhz bundan ibarətdir. Səhmdar müİKİyyətinin bu modelinin də əsasında hər bir işçiyə mənsub olan səhm üzərində xüsusi müİKİyyətin durması, şirKə- tin işinin nəticələrindən asılı olaraq işçilərə səhmlər üçün dividendlər almağa imKan verir. Səhmlərin dəyəri bir qayda olaraq arta, yaxud da azala bilir.**

**İşçilərin müİKİyyəti ilə müəssisələrin yaradılması müxtəlif məqsədlər güdür.**

**■ ŞirKətlər səhmlərin alınması yolu ilə öz əməKdaşları üçün təminatlı təqaüd fondu KompleKtləşdirir. İşçi təqaüdə çıxanda bu fonddan ona çatan səhmdar Kapitalını əlavə təqaüd təminatı şəKİində alır. Təqaüd fondunun yaradılması şirKət üçün əlverişlidir. Səhmlərin alınmasına sərf olunan vəsaitlər sosial ehtiyaclara yönəldilən digər vəsaitlər KİmI vergilərdən tamamilə azad edilirlər.**

**■ ESOP sistemi şirKət üçün istehsalın modernləşdirilməsi və müəssisələrin KompleKS inKİşafı məqsədilə maliyyə vəsaitlərinin toplanmasının ən əlverişli üsuludur. İstehsalın maliyyələşdirilməsinin əlavə imKanları inKİşaf etmiş vergi güzəştləri sistemindən asılıdır. ŞirKətlərin, adətən səhmdar müİKİy- yətini almaq üçün banKİardan götürdÜKİəri borclar ən ucuzlarıdır. Belə Kİ, bannlarm bu Kreditlərdən əldə etdİKİəri gəlirə (yeKun ödəmə və borca görə olan faizlər) qanunvericiliyə əsasən İKİ dəfə az vergi qoyulur. Ona görə də, banKİar bir qayda olaraq faiz dərəcəsini həmişəKİndən 1,5-2 bənd aşağı müəyyən edirlər. Eyni zamanda banKİardan götürülən və səhmlərin alınmasına sərf olunan Kreditlər də vergilərdən azad edilir. ŞirKƏtlər həmçinin banna qaytarılan məbləğə (Kreditin ödənilməsi və faizlər) görə də vergi ödəmirlər; səhmlərə görə dividentlər vergiyə cəlb olunmur.**

**■ ESOP sistemi iş yerinin yaradılması və saxlanılması**

**sahəsində çevik siyasət həyata keçirməyə imkan verir, eləcə də kollektiv sazişlər bağlanan zaman qarşılıqlı güzəştə getmə prosesini asanlaşdırır. Səhm paketinin xeyli hissəsini alan («Krayslerdə» 20%) işçilərin məvacibində əmək müqaviləsinə əsasən heç bir artım olmur.**

**■ Şirkət mülkiyyətinin kollektiv statusu firmanın rəqibləri tərəfindən mümkün zərbələrinə qarşı kifayət qədər ciddi qoruma mexanizmidir.**

**■ ESOP sistemi işçilər üçün bir qayda olaraq öz vəsaitlərini sərf etmədən şirkətin şəriki olmaq imkanıdır. Müdiriyyət isə güclü stimullar yaradır ki, bu da mülkiyyətin şəxslən- dirilməsi ilə, səmərəliliyi və əməyin keyfiyyətini artırmaq məqsədilə «sahibkar hissini» tətbiq etməklə bağlıdır.**

**Özəlləşdirmə uzun prosesdir. Yaponiyada o 10 ilə, Qərbi Avropada isə 10-15 ilə həyata keçirilir.**

**Özəlləşdirmə aparan zaman inhisarçı ittifaqların parçalanması, yeni şirkətlərin, müəssisələrin dəyərini daha dəqiq qiymətləndirməyə imkan verən qiymət qoyulmanın səmərəli mexanizmlərinin yaradılması üzrə böyük hazırlıq işi lazımdır. Özəlləşdirməni ərzaq bölməsindən, ticarətdən və xidmət sahəsindən başlamaq məqsədəuyğundur. Dövlət mülkiyyətinin mafiyaya çatmaması üçün iqtisadi nəzəriyyəyə əsasən güclü rəqabət yaratmaq lazımdır.**

**Dövlət xaricilər üçün strateji sahələrin (enerji təchizatı, su təchizatı, neft, müdafiə və s.) özəlləşdirilməsində məhdudiyyətlər qoymalıdır. Lakin xarici kapitalın xalq təsərrüfatının digər sahələrinə cəlb edilməsi olduqca vacibdir. Əks təqdirdə böhrandan çıxmaq çətin olar. Qərb firmalarının səhmləri aşağı qiymətə alacaqlarından və milli sərvətlərin böyük hissəsinin sahibkarı olacaqlarından ehtiyat etməyə heç bir əsas yoxdur. Müasir siyasi və iqtisadi qeyri-sabitlilikdə onlar bizim bazarlara can atmırlar.**

**Səmərəli təsərrüfatçılığa dövlətsizləşdirmə və özəlləşmə deyil, əsas hərəkətverici qüvvəsi rəqabət olan bazar sistemi aparır. Dövlətsizləşdirmə və özəlləşmə yalnız bazar**

**İqtisadiyyatının bütövlükdə rəqabət mühitinin formalaşmasının obyektiv əsasını yaradırlar, buna görə də onlar əmək kollektivlərinin, regionların və hər birimizin rifahının yüksəldilməsinin nə məqsədi, nə də vasitəsidir.**

## Rusiyada özəlləşdirmənin xüsusiyyətləri

**XX əsrin 80-90-cı illərinin hüdudlarında Qərbin inkişaf etmiş 80-dan artıq sənaye ölkəsi, eləcə də Asiya, Afrika və Latın Amerikasının inkişaf etməkdə olan ölkələri dövlət mülkiyyətinin özəlləşdirilməsinin müxtəlif proqramlarını həyata keçirir və ya artıq həyata keçirmişdilər.**

**Keçmiş sosialist ölkələrində, ilk növbədə isə Rusiyada, eləcə də Şərqi və Mərkəzi Avropa ölkələrində sistemli islahat Qərbin inkişaf etmiş dövlətlərinə və inkişaf etməkdə olan ölkələrə nisbətən bir qədər gec, təxminən 1989-cu ildən başlamışdır. Təsərrüfatın inzibati-amirlik sistemindən (sosialist, planlı, mərkəzləşdirilmiş planlaşdırılan) bazar prinsiplərinə əsaslanan sisteminə keçid kontekstində özəlləşdirməyə xüsusi yer ayrılmışdır.**

**Keçid iqtisadiyyatı olan ölkələrin demək olar ki, hamısı aşağıdakı problemlərlə rastlaşır: özəlləşmənin cəmiyyətdə hakim münasibətlərin dəyişməsi ilə əlaqəsi, özəlləşmənin miqyası; səmərəli bazar rəqabəti mühitinin olmaması; böyük texniki çətinliklər; ideoloji seçimin vacibliyi; başlanğıc mərhələdə lazımi institusional infrastrukturun olmaması; korrupsiyanın və digər kriminal halların yüksək səviyyəsi. Rusiya şəraitində özəlləşdirmə siyasətinin hazırlanması və həyata keçirilməsi aşağıdakı amillərin (keçid iqtisadiyyatlı digər ölkələrlə müqayisədə daha sanballı) təsiri ilə xüsusilə çətinləşirdi:**

**■ Qlobal modellərin seçilməsi prosesi ilə paralel olaraq mikro səviyyədə dövlət müəssisə və əmlakının mülkiyyətin digər formalarına (kollektiv və xüsusi, yaxud da guya kollektiv və guya xüsusi) öz-özünə keçidi baş verir;**

**■Bir çox sahələrinin geri qalması ilə yanaşı Rusiya sənayesinin təmərküzləşməsinin yüksək səviyyəsi özəlləşdirməyə qədər və özəlləşdirmə zamanı səmərəli və sosial «yumşaq» yenidənqurmanın aparılmasına mane olur;**

**■Məhz özəlləşdirmə və mülkiyyətin dəyişdirilməsi problemləri iqtisadi islahatlarda siyasi və geniş yayılmış təzyiqlərin ən ağır olduğu sahələrdir.**

**Özəlləşdirmə siyasətində siyasi amil qanunvericilik zemininin ziddiyyətliyini və qeyri-sabitliyini bilavasitə artırırdı ki, bu da vahid düzgün yanaşmanın olmamasında, bir-birinə zidd normativ aktların eyni zamanda fəaliyyətdə olmasında, taktiki göstərişlərin və modellərin tez-tez dəyişməsində, bu və ya digər tərəfə qanunverici çərçivənin hüdudları xaricində eksklüziv hüquqlar verən bir sıra konkret aktların qəbul olunmasında, artıq qəbul olunmuş qərarların ləğv edilməsinin mümkünlüyündə üzə çıxır.**

**Rusiyada özəlləşdirmə bir neçə mərhələdə həyata keçirilmişdi.**

**XX əsrin 80-90-cı illəri hüdudlarında dövlət mülkiyyətinin öz-özünə özəlləşdirilməsi, bəzi müəssisələrin rəhbərləri tərəfindən «rəhbər» aktivlər üzərində nəzarətin (icarə, quruluş bölmələrinin ayrılması, müxtəlif assosiasiyaların yaradılması və s. vasitəsilə) ələ keçirilməsi başlandı. Yeganə məqsədləri maliyyə axınına nəzarət və mümkün qədər qısa müddətdə maksimum gəlir əldə etmək olan ilk xarici (və saxta xarici) investorlar gəldilər.**

**Göstərilən dövrdə SSRİ və Rusiyanın keçmiş nazirlikləri və müəssisələri əsasında müxtəlif konsernlər, ittifaqlar, assosiasiyalar və s. şəklində yaradılmış, əsas etibarı ilə holdinqlər olmaqla inteqrasiya olunmuş yeni qurumlar meydana gəldi. Onlara mülkiyyət münasibətlərinin qeyri-müəyyən sistemi, idarəetmənin yüksək dərəcədə mərkəzləşdirilməsi və keçmiş bürokratik sistemin irsi kimi aşağı səmərəli idarəçilik xas idi.**

**Bildiyimiz kimi, Rusiya özəlləşdirmə proqramının özəyi**

**geniş - miqyaslı korporatizasiyanı (təklif edən tərəf) və Rusiya vətəndaşları (tələb edən tərəf) arasında özəlləşdirmə qəbzlərinin paylanmasını birləşdirən kütləvi özəlləşdirmə modeli oldu. Bu modelin vacib elementləri insayderlər arasında səhmlərə qapalı yazılma, qəbz investisiya fondlarının qəbz hərracları sistemi və vasitəçilər sistemi oldu. Mülkiyyət hüququnun yeni sisteminin inkişafı perspektivləri nöqteyi-nəzərindən onun ən mühüm nəticəsi iqtisadiyyatın korporativ bölmələri (30000 SC-dan artıq), korporativ qiymətli kağızlar bazarı, institusional investorlar sistemi, eləcə də kütləvi özəlləşdirmənin nəticələrinə əsasən 40 mln.-na yaxın rəsmi səhmdarlar kimi yeni institutların formalaşması oldu.**

**1992-1994-cü illərin modelinin çərçivəsində həll olunmayan məsələlər, ilk növbədə isə müəssisələrin yenidən qurulması və investisiyaların cəlb olunması müəssisələrə mahiyyətcə ilk mərhələdə qeyri-iqtisadi satış metodunu kompensasiya edə bilən özəlləşdirmə modelinin yaradılmasını tələb edirdilər.**

**cPuU mərhələsinin başlanması ilə federal büdcənin gəlirinin maksimuma çatdırılması məsələsi üstünlük etməyə başladı. Ona görə də 1995-2000-ci illərdə «investisiya-büdcəm dilemması sonuncunun xeyrinə həll olundu. Bütünlüklə 1995-2000-ci illərə uyğun olaraq bilavasitə özəlləşdirmə sahəsində vahid özəlləşdirmə siyasətinin qalıq səhm paketlərinin spontan satış prosesinə tranformasiyası haqqında danışmaq olar.**

**Rusiya özəlləşdirməsinin standart üsulların xüsusiyyətini daşıyan əsas metodları bir tərəfdən satış müsabiqəsi və hərrac, digər tərəfdən isə korporatizasiya, yəni səhmdarlar cəmiyyətinin (SC) yaradılması, eləcə də öncədən icarəyə**

# VIII FƏSİL. BAZAR İQTİSADİYYATININ ƏSAS SUBYEKTLƏRİ

***§1, Ev tsssrräfatı və ailə bazar iqtisadiyyatının subyektləri kimi. Ailə büdcəsi.***

***§2. Firma (müəssisə) resursların istehlakçısı və hazır məhsulun təchizatçısı kimi. Müəssisənin təşkilati-iqtisadi formaları.***

***§3. Təsərrüfat fəaliyyətinin əsas formaları: biznes, sahibkarlıq, kommersiya, marketinq, menecment.***

***§4. Dövlət bazar təsərrüfatçılıq sisteminin subyekti kimi. İqtisadiyyatda dövlət bölməsi.***

**Müasir şəraitdə bazar sistemi təsərrüfatçılığı bir çox bazar subyektləri ilə səciyyələnir. Bunlara sahibkarlar; öz əməyini satan işçilər; sonuncu istehlakçılar; borc kapitalının sahibləri; qiymətli kağızların sahibləri; ticarətçilər; ev təsərrüfatları; dövlət və s. aiddirlər.**

**Bütün bunlar bazar təsərrüfatının mürəkkəb subyekt quruluşuna malik olmasına dəlalət edir.**

**Bazar təsərrüfatının subyekt strukturu — çoxsaylı subyektlər arasında onların məqsədlərini, bərabərhüquqlu, lakin qarşılıqlı razılaşdırılan iqtisadi maraqlarını, əmtəə və xidmətlərin hərəkəti ilə bağlı qarşılıqlı münasibətlərin təşkilinin xarakterini, formalarını əks etdirən münasibətlər sistemidir.**

**Bazar iqtisadiyyatının subyekt strukturunun təhlilini bir qədər sadələşdirmək üçün iriləşdirilmiş bazar təsərrüfatı subyektinin əsas dörd ümumiləşdirilmiş qrupunu ayırmaq olar; ev təsərrüfatları, müəssisələr (firmalar), banklar və dövlət (bax şək.8.1).**

**Şəkildən göründüyü kimi bütün bazar subyektləri qarşılıqlı sıx əlaqəyə malikdirlər.**




**Şəkil 8.1. Bazar təsərrüfatının subyektləri**

### *§1. Ev təsərrüfatı və ailə bazar iqtisadiyyatının subyektləri kimi. Ailə büdcəsi*

**Ailə və ya ümumiləşdirilmiş şəkildə götürsək ev təsərrüfatı, bazar iqtisadiyyatında bir və ya bir neçə şəxsdən ibarət olan, müstəqil surətdə qərarlar qəbul edən, tələbatlarını maksimal ödəməyə çalışan və onlara müəyyən üstünlük verən, hər hansı bir istehsal amilinin sahibi olan (əsasən iş qüvvəsinin), "insan kapitalı"nın istehsalını və təkrar istehsalını təmin edən iqtisadi vahiddir.**

**Ailə - həyat fəaliyyəti fərdin, ailənin və ümumilikdə cəmiyyətin sosial, iqtisadi və mənəvi tələbatını ödəməyə yönəldilmiş, bir qayda olaraq dərk edilmiş qohumluq əlaqələrinə və məişətin ümumiliyinə əsaslanan şüurlu təşkil olunmuş kiçik insan qruplarına deyilir.**

**Hər bir cəmiyyətdə - qədimi, primitiv, inkişaf edən və ya inkişaf etmiş - ailə əmtəə və xidmətlərin istehsalı və bölgüsündə həmişə əsas qüwə olub. Üzvlərinin xoş adının zə- manətçisi kimi ailə, xüsusilə uşaqların dünyaya gətirilməsi və onlara qulluq edilməsi və onların tərbiyə olunması, qida istehsalında, xəstəliklər və başqa təhlükələrdən qorunmasında vacibdir. Valideynlər hətta tez-tez uşaqlara və bir-birinə görə özlərini qurban verirdilər. Bu isə kişilərin və**

**qadınların qəhrəman təbiətindən xəbər verir.**

**Ailə əsrlərdən bəri kökündən dəyişib. Antropoloqların aşkar etdikləri ibtidai cəmiyyətdəki geniş qohumluq münasibətləri, əmiuşaqların bir-birini güclə tanıdığı müasir cəmiyyətin nuklear (valideynlər və uşaqlar) ailəsi ilə təzad təşkil edir. Qocaların tək və ya qocalar evində yaşadığı müasir cəmiyyətdə çox hallarda yaşlı valideynlərin qayğısına qalmaq və onlara qulluq etmək vəzifəsi yoxdur.**

**Ailə iqtisadi təhlildə real həyata nəzərən daha az yer tutur. Görkəmli iqtisadçıların ailəni iqtisadi həyatın əsası adlandırmaqlarına baxmayaraq, nə A. Marşallın "İqtisadiyyatın prinsipləri" əsərində, nə C. Millin "Siyasi iqtisadın prinsipləri" əsərində, nə A. Sraitin "Xalqların sərvəti" əsərində, nə də başqa bir böyük əsərdə ailənin fəaliyyətinə lazımi qədər diqqət yetirilməyib.**

**Yalnız T.Maltusun doğum sayı, əhalinin gəliri, nigah yaşı arasındakı əlaqəyə toxunulan əhalinin artımı modeli istisna təşkil edir. T. Maltus əlverişli olmayan iqtisadi şəraitdə insanların gec evləndiklərini (və ya belə etməli olduqlarını) hesab edirdi. Amma bu vacib mülahizə uzun müddət iqtisadçıların diqqətindən kənarda qalmışdı. "Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi" (1884) əsəri ilə F.Engels ailənin yaranması və inkişafının tədqiq edilməsinə ciddi töhfə verdi.**

**Bu gün ailəni ictimai quruluşun əsaslandığı özü! hesab edirlər. İqtisadçıların son qırx ildə müntəzəm olaraq ailənin və onun üzvlərinin iqtisadi davranışını təhlil etmək cəhdlərinə baxmayaraq o ən az araşdırılan təsisatlardan biridir.**

**Ailənin və ev təsərrüfatının tədqiq edilnıəsi zamanı onu ailə daxilində əmək və bazarda əmtəə də daxil olmaqla, resursları sərf edən, tələbatlarını ödəmək üçün nemətlər istehsal edən, müəyyən xərclər çəkən xüsusi "firma" kimi götürəcəyik.**

**Real həyatda ev təsərrüfatını təkbaşına, təcrid olunmuş halda idarə edən, tək (subay) kişi və qadınlardan ibarət olan ailələr də mövcuddur.**

**Ailə öz üzərində iqtisadi, hüquqi, ideoloji və əxlaqi münasibətlərin təsirini hiss edir. Ailə adətən nigahdan başlayır. Nigahlar demək olar ki, kişi və qadını bir-birinə qabaqcadan "təyin edən" və ya daha yaxşı imkanlar düşənə qədər onları subay saxlayan "bazarda" baş verir.**

**Bütün cəmiyyətlərdə ailə quranlar eyni səviyyəli ailələrdən olmağa, dini etiqada, təhsil səviyyəsinə, boya, yaşa və başqa xüsusiyyətlərə görə eyni olmağa meyllidirlər. Səmərəli bazarlarda təxsis etmə nəzəriyyəsi ev təsərrüfatında kişi ilə qadının xüsusiyyətlərinin həmrahlığı və ya «bir-birini son dərəcə tamamlamasım ilə izah olunur. Səmərəli təxsis etmə həmçinin qismən də olsa kişi və qadının qarşılıqlı altruizmini izah edir. Yəqin ki, «sevgililər» sevgini formal təhlilin xüsusi mərhələsində «həmrahlığınm mənbələrindən biri hesab etmək mümkün olduğundan ailə qururlar.**

**Nigaha müxtəlif cür tərif vermək olar, lakin Qərb iqtisadi ədəbiyyatlarında nikahı bəzən kişi ilə qadın arasında icbari-hüquqi müqavilə kimi nəzərdən keçirirlər. Hər iki tərəf qərarların müqavilədə əks olunduğu kimi qəbuledilmə qaydaları ilə açıq-aydın və ya dolayısı ilə razılaşaraq bir-birinin hüquq və imtiyazlarını qəbul edərək, ailə çərçivəsində öz üzərinə müəyyən öhdəliklər götürür. Ola bilsin ki, görüş və nişanların əsas məqsədi cütlüyə hər ikisinin birgə yaşamağa razı olacağı qaydaları və müqaviləni işləyib hazırlamağa imkan verməkdən ibarətdir (amma bütün cütlüklər bu imkandan eyni dərəcədə istifadə etmirlər). Məsələn, müqavilədə uşaqlar və onların sayı haqqında fikir, kimin ev işlərini görəcəyi və kimin göy çəməni biçəcəyi, hansı məsələlərin bütün ailə ilə demokratik şəkildə, hansılarınsa inzibati yolla həll ediləcəyi əks oluna bilər. Amma nigahda hər şeyin sevgidən asılı olduğunu düşünmək pis olmazdı... Bu nizamnamələr tərtib edilməyəndə və ya qeyri-müəyyən qalanda, gələcəkdə boşanma ilə nəticələnən fikir ayrılıqları yarana bilər.**

**Boşanma prosesində məhkəmənin rolu mühümdür və bu**

**nun da iqtisadi nəticələri var. Məhkəmənin müdaxiləsi tərəflərin ailənin maddi və qeyri-maddi ehtiyatlarına mülkiyyət hüququna zəmanət verir. Bu şəraitdə kişi və qadın ailənin ehtiyatlarını və möhkəm maddi münasibətlərin qurulmasını inkişaf etdirmək üçün öz vaxtlarını və başqa ehtiyatları maliyyələşdirməyə maraqlıdırlar. Ailə gəliri bir neçə ildən sonra əldə olunan investisiya layihəsidir.**

## Nikahın xərcləri və faydası

**tnsanların nigahla əlaqədar hərəkətləri məqsədəuyğundur. Bu o deməkdir ki, həyat yoldaşını seçən zaman hər iki cins öz faydalılığını maksimal 1 aşdın r. Bu həmçinin o deməkdir ki, hər bir fərd ailə qurarkən özünə iki fundamental sual verməlidir:**

- **ümumilikdə nigahın subay həyatla müqayisədə xərcləri və faydası nə qədərdi?**
- **o, bu xərc və faydanı nəzərə alaraq özünə uyğun tərəf-müqabili tapmaq üçün nə qədər vaxt və səy sərf edəcək?**

**Fərd, müsbət və mənfi cəhətləri götür-qoy edib, nigahın məsrəflərini nəzərə almalıdır. Hamı üçün ən əsas mənfi cəhət - müstəqilliyi itirməkdir (qiymət). İnsanlar heç vaxt tam sərbəst olmurlar: onlar öz hərəkətlərinin başqalarına təsirini nəzərə almalıdırlar. Ailədə fərdlərin hərəkətlərinin nəticəsi daha təsirli və birbaşa ola bilər. Ona görə, də hamı hərəkətlərini ayrı yaşadığı zamandan fərqli olaraq daha çox məhdudlaşdırmalı olur.**

**Ailə adətən bir çox məsələləri demokratik şəkildə və birgə qərara almağa razı olur. Ailə üzvləri adətən gələcəkdə baş verəcək məsrəflərə və həmçinin qərarın qəbul olunması prosesinin uzunmüddətli və qəliz olmasına hazır olur. Bu iştrakçıların sayı çox olanda razılığa gəlməyin daha çətin olduğuna görə baş verir. Məsələn, evli Seryoja üçün maşın almaq tənha Pyotrdan daha çətindir. Maşın alanda Pyotr üçün yalnız öz istəklərini nəzərə almaq lazımdır. Seryoja isə**

**yalnız öz istəklərini deyil, həmçininin yoldaşının fikrini də nəzərə almalıdır. Nəticədə Seryoja üçün maşın alınması prosesi (və adətən belə olur) daha uzunmüddətli olur. Kişi və qadın eyni zövqə malik olanda, buna isə çox nadir hallarda təsadüf olunur, onların qərarlarının məsrəfləri Pyotrın məsrəfləri ilə eyni olardı. Zövqlər eyni olanda hər ikisi dərk edir ki, biri nə alsa, digərinin xoşuna gələcək.**

**Bu kimi məsrəflərə görə kişi və qadın məsələlərin çoxunu onlardan biri tərəfindən qərara alınmasına razı olurlar. Məsələn, birinə digər ailə üzvləri ilə məsləhətləşmədən nahar hazırlamaq, başqasına isə uşaq paltarı almaq hüququ verilir. Hər bir tərəf başqaları ilə razılaşdırmadan qərar qəbul etmək hüququna malikdir və məsrəflərə qənaət səhv qərarları örtərək xeyli gəlir gətirə bilər. Qərarların qəbul edilməsində ailə daxilində hakimiyyətin bölüşdürülməsi ailənin iqtisadiyyatını səmərəli edir.**

**Ailə onun bütün üzvləri arasında bölüşdürülən əmtəə və xidmətlər istehsalına cəlb olunub. Bunlar eyni sayda və keyfiyyətdə hamı üçün əlçatandır. Ümumi əmtəələr fərdlərin hamısının zövqünə, yuxarıda misal çəkdiyimiz avtomobil məsələsində olduğu kimi, tamamilə uyğun olmaya bilər. Amma bu əmtəələri hamı almağa razıdır. Belə hallarda, belə hallar isə çox olur, fərd onun üstünlüfcverimlərini tam təmin etməyən miqdarda və keyfiyyətdə alınmış əmtəə üçün xərc çəkməli olur.**

**Ailədə qərarlar demokratik şəkildə qəbul olunduğu üçün nemətlərin istehsalında əməyin bölüşdürülməsi zamanı ümumi işə kimin pulunun, vaxtının, əməyinin sərf edəcəyi haqqında qərər qəbul olunan zaman ailə üzvləri səs hüququna malik olmalıdır. Ailə hər bir kollektivin idarə orqanı kimi öz üzvlərinə vergi təyin edə bilər. Hər bir ailə üzvü razı olmadığı kollektiv nemətlər və layihələr üçün pul ödəməyə vadar edilə bilər. Bunu ailə üzvünün potensial məsrəfləri hesab etmək olar. Bu və ya başqa işi görmək istəməyənlərin etirazları buna misaldır.**

**Nikahla əlaqədar digər məsrəflərə bir qrup fərdlərdə güclü emosional əlaqələrin artması və başqa insanlarla görüş və ünsiyyətdən imtina etmək təhlükəsi də daxildir. Ailə qurmağın məsrəfi kimi, arzu olunan həyat yoldaşı ola biləcək, lakin sonradan qarşıya çıxan başqa bir insanla evlənməkdən məhrum olmağı hesab etmək olar. Məsrəflərin siyahısını davam etdirmək olardı.**

**Marksist nəzəriyyəsinə əsasən, iqtisadi sistemin əsas istehlakçı hissəsi olan ailənin xərclərini istehlak xərcləri (yəni istehlak sahəsində xərclər) kimi xarakterizə etmək olar. Bu xərclər istehsal xarakterli ola bilər (qidanın hazırlanması, paltar tikilməsi, evin təmiri və s.), buna görə onlar mahiyyətcə istehlak sahəsində istehsal xərcləridir. Yaşayış yerinə, paltara və s. sərf olunan xərclərdən savayı ailə əmtəə və xidmətlərin alınmasına vəsait sərf edir ki, bunlar da artıq istehlak sahəsində tədavül xərcləridir. Beləliklə, ailənin iqtisadiyyatında xərclər yalnız növlərinə görə deyil, həmçinin iqtisadi məzmununa görə bölünür.**

**Nikahın və ailənin faydası ilk növbədə onun arzu olunan əmtəə və xidmətləri istehsal etmək bacarığından irəli gəlir.**

**Birincisi - nikaha daxil olanlar nikahsız bunu etmək mümkün olmayan şeyləri istehsal etmək imkanına malikdirlər. Bu siyahıya uşaqları (ən azı qanuni doğulmuş), məşğulluğa və dost dairəsinə təsir edən nüfuz və statusu, şirkətin ciddiliyi, hər zaman mümkün olan ailə həyatını daxil etmək olar. Sözsüz ki, bu nemətlərin çoxunu müəyyən miqdar və keyfiyyətdə ailədən kənarda da əldə etmək olar. Biz düşünürük ki, onlar ailə daxilində müəyyən xassələr qazanırlar və bu səbəbdən insanlar üçün qiymətlidirlər (hərçənd bunlardan bəzilərini məsrəflərə də aid etmək olar).**

**İkincisi - bir fərddən artıq üzvü olan və ev təsərrüfatı şəklində fəaliyyət göstərən ailə əmtəə və xidmətləri, bir fərddən ibarət olan bir neçə ev təsərrüfatından daha uğurlu istehsal edə bilər. Bu miqyaslar hesabına qənaət sayəsində mümkün olur.**

**Bir çox əmtəə və xidmətlər ailə üzvləri üçün ictimai nemətlərdir: onlar hamıya xeyir gətirirlər və əlavə istehlakçılar qoşulan zaman onlar miqdar və keyfiyyət baxımından azalmırlar (ev üçün bəzək əşyaları, məsələn, divarda gözəl şəkil və s.). Eyni evdə yaşayan insanlara özü üçün ayrıca ümumi nemətlər hazırlamaq zəruri deyil, buna görə də mövcud nemətlərin keyfiyyətini yaxşılaşdırmaq və ya ehtiyatlan başqa məqsədlərə yönəltmək olar.**

**Ev istehsalının səmərəliliyi ixtisaslaşma və tərəfdaşlar arasında mübadilə baş verəndə daha da artır. Tərəflər özlərinin müqayisəli səmərəli məhsuldarlığının üstünlüklərini istifadə edə bilərlər. Sadələşdirmək məqsədilə ev təsərrüfatının yalnız iki xidmətini - evin yığışdırılması və göy çəmənin biçilməsini götürək (cədvəl 8.1).**

***Cədvəl 8.1.***

| **Tərəflər** | **Evin yığışdırılması, dəq.** | **Göy çəmənin biçilməsi, dəq.** |
|---|---|---|
| **Qadın** | **60** | 100 |
| **Kişi** | 100 | **300** |

**Cədvəl 8.1-də göstərilir ki, əgər onlar ayrı yaşasaydılar, verilən işləri görmək üçün onlara cəmi 560 dəqiqə lazım olardı. Onlar birgə yaşayanda isə hər biri evin bir yarısını yığışdırır və qazonun yarısını biçir. Bunun üçün onlara cəmi 280 dəqiqə tələb olunur (80 dəqiqə evin yığışdırılmasına,** 200 **dəqiqə qazonun biçilməsinə). Lakin hər ikisi üçün ixtisaslaşma imkanı var: biri ev yığışdırır, o biri qazonu biçir. Hər biri başqasının əvəzinə nə isə etdiyi üçün, bu müəyyən mənada mübadilədir. Hər dəfə qadın ev yığışdıranda o, qazonun 3/5- nün biçilməsindən imtina edir. Əgər qadın evin yığışdırılmasına 60 dəqiqə sərf edirsə, o, artıq həmin vaxt göy çəmən biçə bilməz. Ona görə də biz deyirik ki, qadın bu zaman ər**

**zində göy çəmənin 3/5-nü biçə bilərdi. Digər tərəfdən, kişi hər dəfə ev yığışdıranda göy çəmənin 1/3-nin biçilməsindən imtina edir. Beləliklə, biçilməmiş göy çəmənlə ölçəndə qadın üçün evin yığışdıriması daha baha başa gələcək. Biz istehsalın xərclərini minimuma endirmək istəyiriksə, o zaman qadın göy çəmən biçməli, kişi isə ev yığışdırmalıdı, İşin belə bölüşdürülməsində ümumi sərf olunan vaxt 200 dəqiqəyə bərabər olacaq. Yox, əgər qadın ev yığışdırsa və kişi göy çəmən biçsə, cəmi 360 dəqiqə sərf olunacaq.**

**Belə nəticəyə gəlmək olar ki, əgər qadınla kişi səmərəli ixtisaslaşsalar, həmin evdə nemətlərin istehsalına sərf olunan xərclər minimallaşacaq. Həmçinin onu da qeyd edək ki, bizim nümunədə hər iki xidmətin göstərilməsində qadın daha məhsuldardır. İxtisaslaşaraq kişi ilə qadın eyni bacarıqların inkişaf etdirilməsi ilə əlaqədar xərclərdən qurtara bilərlər. Hər biri yerinə yetirilməsini mükəmməlləşdirərək, fikrini məhdudlaşdırılmış ev məsələlərində cəmləşdirə bilər. Tərəflər ev istehsalının maksimallaşmasında və ya xərclərin minimallaşmasında maraqlıdırlar.**

**Əgər ailə onun üzvlərinin vaxtını evdəki işlərlə evdənkənar işlər arasında bölüşdürməlidirsə, xərclərin minimallaşdırılması üçün daha ucuz olan kənar əməkdən istifadə etmək lazımdır. Evin yığışdırılmasına sərf edilən xərclər, ailə üzvünün ailədən kənarda həmin işi görməsinə və materiallara sərf olunan vəsaitə bərabərdi. Məsələn: evi yığışdırmağa 2 saat sərf olunur. Evdən kənarda qadının 1 saat ərzində qazana biləcəyi pul 6$-dır, Kişinin isə həmin vaxt ərzində qazana biləcəyi pul 10$-dır. Buradan aydın olur ki, qadının ev yığışdırması daha ucuz başa gəlir. Əgər kişi evi yığışdırsa, bu 8$ baha başa gələcək.**

**Məlumdur ki, hüquqları məhdud və məhsuldarlığı daha aşağı olduğuna görə qadınlar adətən kişilərdən daha az pul qazanırlar. Fərdi ev təsərrüfatları bununla banşmalı olurlar. Bu səbəbdən ailədə funksiyaların çoxu (məs., uşaqlara qulluq) qadına həvalə edilir. Bu zaman uşaqlara qulluğun məs**

**rəfləri azalır, ev təsərrüfatı məhsulu isə artır.**

**Onu da qeyd etmək lazımdır ki, son onilliklər ərzində qadınların məşğulluğu artır, kişilərin isə ictimai istehsalatda məşğulluğu azalır. Bunun səbəbləri çoxdur. Əsas səbəblərdən biri isə cəmiyyətin qadınların məşğulluğuna münasibətinin dəyişməsidir.**

**Vəzifələr adətən ailə üzvləri arasında bölüşdürülür və ailədə hər bir kəs başqalarının müqavilələrin şərtlərini yerinə yetirməsindən asılıdır. Əgər ailə üzvlərindən biri öz vəzifəsindən boyun qaçırmaq istəsə, ailənin rifahı zəifləyəcək. Ev vəzifələrindən boyun qaçırmaq başqalarına xələl yetirir.**

**Demək olar ki, bütün müqavilələr icrasına nəzarət tələb edir. Nigah müqaviləsi ələlxüsus hüquqi və emosional baxımdan istisna deyil. Məhəbbət hissi hər bir həyat yoldaşının nigah müqaviləsinə riayət olunmasının yoxlanılmasına sərf olunan məsrəfləri azaldır. Məhəbbət olmayan yerdə ailə vəzifələrindən boyun qaçırma halları daha çox baş verir. Bu isə ailə ehtiyatlarını ailə üzvlərinə «nəzarətəm yayındırır. Burada sevgi iqtisadi məna kəsb edir.**

**Səmərəli nigah - bir-birini sevən, bir-birinə oxşayan və eyni şeylərə üstünlük verən iki insanın nigahıdır. Belə nəticə ailəni istehsal vahidi kimi görən iqtisadi nəzəriyyənin mövqeyindən irəli gəlir. Nə qədər məhəbbət güclüdürsə və cütlüyün baxışları eynidirsə, o qədər də ailə ideala yaxındır. Amma real həyatda fərd tez-tez daha az sevilən, lakin onunla daha çox oxşarlığı olan insanla, sevilən, lakin oxşarlığı heç olmayan insanlar arasında seçməli olur.**

**Sevginin ev təsərrüfatının səmərəliliyini artırmasına baxmayaraq, bir-birini sevən, lakin sevginin zövq ayrılığını üstələyə bilməməsi səbəbindən insanların nigahlarını pozmaları halları da mövcuddur. Başqa tərəfdən, çox da böyük sevqi olmayan zaman, lakin zövqlər uyğun olduğundan, həyat yoldaşları başqa imkanlara nəzərən öz münasibətlərini əlverişli hesab etdiklərinə görə nigah qorunub saxlanılır.**

## Ailənin və ev təsərrüfatının iqtisadi rolu

**Ailənin bazar münasibətlərində iqtisadi rolu olduqca mürəkkəbdir. Ailə ev təsərrüfatının müxtəlif problemlərini, ailə biznesinin idarə olunması, iş qüvvəsinin təkrar istehsalı, istehlak tələbinin lazımi səviyyəsinin təmin edilməsi, investisiya potensialının yaradılması və digər məsələləri həll edir.**

**Tarixin müxtəlif dövrlərində ictimai münasibətlərin xarakterindən asılı olaraq ailə - onun cəmiyyətdə yeri və rolu, həcmi və sabitliyi, mövqeyi, sosial-iqtisadi statusu dəyişmişdi.**

**Ailənin sosial-iqtisadi statusu — ailə münasibətlərində dövlətin sosial-siyasi quruluşunun xüsusiyyətlərini, onun hüquqi əsaslarını, iqtisadiyyatm, mədəniyyətin, ictimai özünüdərkin inkişaf səviyyəsini əks etdirən bütöv bir göstəricidir.**

**Ailənin əhəmiyyətini, onun bazar iqtisadiyyatında rolunu sxematik təsvir etmək olar (şəkil 8.2).**




**Şəkil 8.2. Bazar iqtisadiyyatında ailənin rolu**

**Oxların əmələ gətirdiyi xarici kontur ev təsərrüfatlarının və firmaların gəlirlərinin və məsrəflərinin pul şəklində hərəkətini xarakterizə edir. Daxili kontur əmtəələrin, xidmətlə**

**rin və resursların hərəkətini göstərir. Sxemdən (şəkil 8.2) göründüyü kimi, firmanın satışının ümumi həcmi, ev təsərrüfatlarının gəlirlərinin miqdarına bərabərdi, konturun aşağı və üst hissələrində ödənişlərin ümumi miqdarı eynidir. Həm də mədaxillə məxaricin arasındakı bərabərlik ayrı-ayrı ev təsərrüfatlarına deyil, ümumilikdə bütün iqtisadiyyata aiddir. Ev təsərrüfatları bazar iqtisadiyyatını istehsal amilləri ilə (əmək, kapital, torpaq, sahibkarlıq qabiliyyəti) təmin edir, onları resurs bazarına çatdırırlar və əvəzində aldıqları pulu (pul gəliri) öz tələbatlarını ödəmək üçün əmtəə və xidmətlərin alınmasına (istehlak xərcləri) sərf edirlər. Verilən sxemdə ailə bazar iqtisadiyyatının mərkəzində yerləşir və bu və ya digər dərəcədə ev təsərrüfatının və firmaların, resurs bazarının, əmtəə və xidmətlərin fəaliyyətini şərtləndirir. Bazar iqtisadiyyatı dövriyyəsinə qoşularaq ailə müxtəlif funksiyaları yerinə yetirir.**

## Ailənin funksiyaları

**Ailənin funksiyaları müxtəlifdir. Onlar cəmiyyətin fəaliyyətinin ən vacib sahələrinə toxunurlar və ümumilikdə orada baş verən sosial-iqtisadi prosesləri müəyyənləşdirirlər.**

**Bazar iqtisadiyyatı şəraitində ailə insan kapitalının formalaşması və yığımında əsas rol oynayır.**

**«İnsan kapitah^nın formalaşmasının və fəaliyyətinin müxtəlif mərhələlərində ailənin funksiyaları qarşılıqlı əlaqəlidirlər. Məsələn: doğum funksiyasının aşağı düşməsi ailənin əmək potensialını azaldır, onun istehsal imkanlarını zəiflədir və tərbiyəvi rola mənfi təsir göstərə bilər.**

**Bütün funksiyalar «insan kapitalı »nın yaradılması ilə bağlı yığım və məsrəflərin ödənilməsinə, sahibkar potensialının inkişafına yönəliblər (şəkil 8.3).**




**Şəkil 8.3. "İnsan kapitalı"nın formalaşmasında ailənin funksiyaları**

**Doğum funksiyasını təfərrüatı ilə nəzərdən keçirək. Müasir Qərb iqtisadi nəzəriyyəsinə əsasən uşaqlar iqtisadi nemət hesab olunurlar. Valideynlərinə və qohumlarına xeyli xeyir verərək onlar təşkilinə resursların sərf olunmasını nəzərdə tutan, daim inkişaf edən istehsal prosesinin nəticəsidirlər. İqtisadi cəhətdən uşaqlar istehlak mənbəyi və investisiya obyektidirlər.**

**Valideynlər uşaqların simasında digər əmtəələrdən fərqli olaraq xeyir verən yaxşı yoldaşlar əldə edirlər. Uşaqlarla gəzmək, söhbət etmək olar, onlar stolüstü tennis, dama oyununda oyundaş ola bilərlər. Onların mövcudluğu valideynlərə qocalanda tənha qalmayacaqları ümidini verir. Uşaqlar valideynlərə hörmət, zərurilik, sevgi hissləri ilə məmnunluq verə bilərlər.**

**Düzgün olsa da, olmasa da uşaqlar məqsədlərini həyata keçirmək üçün valideynlər tərəfindən istifadə olunurlar.**

**Valideynlər üçün uşağm olması motivləri siyahısına cəmiyyətə səmimi töhfə vermək ehtiyacı, nə isə naməlum bir şeyi özü üçün kəşf etmək və ya onların uşaqlarını hamıdan yaxşı tərbiyə edə bilmələri fərziyyəsini yoxlamaq istəyi daxildir. Hər cəhətdən uşaqlar istehlak nemətidirlər.**

**Nə zamansa tarixdə (bu inkişaf etməmiş ölkələr üçün indi də aktualdır) uşaqlar valideynlər üçün qocalıqda pensiya ilə təmin olunmaq üsulu idi. Uşaqlar böyüdükcə valideynlər onları bəsləyərək öz pensiya fondlarına pul köçürürdülər. Son- raki illərdə əgər valideynlər özlərini dolandıra bilmirdilərsə, uşaqlar onların qayğılarına qalırdılar.**

**Bu növ ev sığortasının təşkili tamam itməyib. Lakin bu gün inkişaf etmiş ölkələrdə insanlar qocalıqda daha çox nağ- dı, maliyyə cəhətdən əsaslandırılmış pensiya planları gəlirlərinə güvənirlər.**

**Heç də az əhəmiyyəti olmayan, sonuncu - fermalarda və ya uşaq əməyi mexanikləşmədən ucuz olan yerlərdə yaşayan ailələrdə uşaqlar vacib əmək mənbəyi kimi istifadə olunurlar. Uşaqlar işləmək üçün yetərincə böyüyəndə valideynlər investisiyalarının bəhrəsini görürlər. Uşaqların olmasının faydası və valideynlərin razı qalmalarının ümumi səviyyəsi valideynlərin uşaqlara tələbini müəyyənləşdirir. Uşaqlara və ya cuşaq xidmətləri»nə tələbat uşaqların ümumi sayına və ya doğulmuş və tərbiyələndirilmiş uşaqların keyfiyyətinə təsir göstərə bilir.**

**Uşaqların tərbiyəsinə sərf olunan xərclərə ailənin uşağın doğulmasına, qidalanmasına, paltara, evə, təhsilinə, əyləncələrə, tibbi xərclərə, sığortaya, nəqliyyata və s. sərf olunan məsrəflər də daxildir. Məsrəflərə həmçinin nəzərə alınmayan, valideynlərin uşaqların tərbiyəsinə sərf olunan vaxt və emosiyaları da daxildir. Uşaqlara sərf olunan məsrəflərin qiymətləndirilməsi çox çətindir. Uşaqların tərbiyəsinə sərf olunan məsrəflər valideynlərin nə qədər vəsait sərf etmək istəmələrindən, bütün xərclər isə iqtisadi statusdan və valideynlərin harada yaşamasından asılıdır. Bu problem**

**ləri nəzərə alaraq ABŞ üçün XX əsrin 80-ci illərində səciyyəvi olan məsrəflərin hesablanması aparıldı. Bura uşağın doğulmasına sərf olunan xərclər (xəstəxanaya və həkimlərin xidmətlərinə təxminən 3000$), 18 yaşa qədər uşaqların tərbiyələndirilməsinə sərf olunan xərclər (65000$ - ayda 300$), dövlət kollecində və ya universitetində təhsilə sərf olunan xərclər (24000$- ildə 6000$) və uşaqların tərbiyələndirilməsinə valideynlərin sərf etdiyi alternativ vaxt (374400$ - 18 il ərzində həftədə 20 saat, saatı 20$). 466400$ məbləğində ümumi xərclər gözlənildiyindən çoxdur. Bu valideynlərin alternativ vaxt məsrəflərinin siyahıya daxil olunduğuna görə baş verdi.**

**Uşaqlara sərf olunan ümumi məsrəflər valideynlərin aldıqları alternativ maaşdan asılı olaraq xeyli dəyişə bilər. Gəliri aşağı olan adamın uşaqlara sərf etdiyi məsrəflər daha az ola bilər. Əgər maaşdan savayı bütün məsrəflər olduğu kimi qalsa, saatda 5$ qazanan imkansız insanın uşağına sərf olunan xərclər 185600$-a enəcək.**

**Məsrəflərin çoxu yalnız bir neçə illər ərzində sərf olunduğundan, ümumi xərclər daha az ola bilər. Bir neçə il bundan əwəl xərclənən** 1000**$-rın, bu gün xərclənən** 1000**$-dan dəyəri azdı. Səbəb ondadır ki, bu gün xərclənən 1000$ hesaba qoyulubsa və ya gəlir gətirən qiymətli kağızlara investisiya olunubsa, həmin pul bir neçə il ərzində əlavə olaraq müəyyən faiz gəlir qazanır. Sözsüz ki, hətta gələcək xərclərin məbləği diskont olunandan sonra belə, ilk övlad insanların həyatları boyunca alacaqları ən bahalı pərakəndə «əmtəədir». Ailə haqqında düşüncələrdə ilk uşaqla əlaqədər bir çox xərclərin daimi olmaları, yəni sonrakı uşaqlar dünyaya gələndən sonra dəyişməz qalmaları diqqətəlayiqdir. Bu o deməkdir ki, ikinci uşağın son hədd xərcləri, bir qayda olaraq, ilk uşağa sərf olunan son hədd xərclərindən azdır.**

**Uşaqlar xüsusi iqtisadi nemətdir, çünki hər hansı bir alınan əmtəədən daha çox emosiya, risk və qeyri-müəyyənlik gətirir. Valideynlər neməti (uşağı) almamışdan əvvəl onu**

**görə bilmirlər; həqiqətən də onların qarşısında duran məsələ uşağı «sıfırdan» başlayaraq istehsal etməkdir. Doğulan hər bir uşaq özünün istəklərini irəli sürür ki, bu da öz növbəsində qeyri-müəyyənliyi artırır. Adi əmtəə alıcısı öz investisiyalarını qismən də olsa bərpa etmək üçün onu sata bilər. Müasir cəmiyyətdə eyni hərəkəti uşaqlarla etmək qəbul olunmayıb. Beləliklə, dünyaya uşaq gətirmək qərarı başqa qərarlardan daha çətindir və uşaq istehsalı zamanı başqa əmtəə istehsalından fərqli olaraq daha çox səhv ola bilər. Amma bu o demək deyil ki, valideynlər problemə səmərəli yanaşmaq istəməyəcəklər.**

**Valideynlər uşaqları dünyaya gətirməyi qərara alan zaman məsrəf və gəlirləri hesablayırlar. Bu halda uşaqlara tələbin funksiyası get-gedə azalan olacaq. Uşaqlara sərf olunan məsrəflər doğum sayına təsir edəcək. Uşaqların sayı çox olanda məsrəf və ya qiymət aşağı olur. Bundan savayı, valideynlər uşaqların keyfiyyəti ilə kəmiyyətini səmərəli tara zlayırlar.**




**Şəkil 8.4. Uşaqlara məcmu bazar tələbi**




**Şəkil 8.5. Uşaqlara tələbin azalması**

**Şəkil 8.4-də uşaqlara olan məcmu bazar tələbi göstərilib (D). Qı- qeyri-iradi, yəni valideynlərin bir qisminin qeyri-səmərəli davranışlarına görə doğulan və tərbiyələndirilən**

**uşaqlar. Amma uşaqlarm sayı həmçinin təklifdən, yəni uşaqların istehsal məsrəflərindən asılı olacaq. Əgər sadələşdirmək üçün uşaqlarm vəziyyəti üfüqi (S)-dirsə, yəni maksimal məsrəflər daimidirsə və P^-rə bərabərdirsə, uşaqların ümumi sayı Q2-yə bərabər olacaq. Qj- «təsadüflərin» nəticəsidir. Bu zaman Q1-Q2- « məsrəf-gəlirlər »in hesablanmasının nəticəsidir.**

**Maraqlısı budır ki, bir çox təsadüfi doğulan uşaqlar daha sonrakı müddətə planlaşdırıla bilərdilər. Bu halda tələbin əyri xətti sol tərəfə hərəkət edir (əsaslandırma dəyişmir).**

**Əgər uşaqlara tələb azalırsa, iqtisadçı doğulacaq uşaqların sayının enməsini proqnozlaşdıra bilər. Bu vəziyyəti şək.8.5 tələbin Dj-dən D2-yə dəyişməsi əks etdirir. Uşaqlarm sayı Qa-dən Qg-ə enəcək. Təsadüfi dünyaya gələn uşaqlarm sayı Qı olaraq qalacaq. Amma səmərəli müəyyən olunmuş uşaqlarm sayı azalır ki, bu həmçinin tələbin azalmasına səbəb olur.**

**Tələbin belə dəyişməsinə səbəb uşaqlara zahiri «həvəsin» azalması ola bilər. Bu həmçinin evdə istehsal olunan və işlədilən başqa əmtəələrin nisbi qiymətlərinin düşməsindən irəli gələ bilər. Əgər yuxarıda göstərilən hal baş verirsə, səmərəli cütlüklər resursları uşaqlardan daha ucuz əmtəələrə yönəldəcəklər. Avtomobillərin və uşaqları əvəz edə biləcək digər növ əyləncələrin nisbətən ucuzlaşması uşaq doğulmalannm sayının azalmasını izah edə bilər.**

**Ümumilikdə tələb əyrisinin vəziyyəti uşaqlarla əlaqədar nisbi xeyirdən və ailə resurslarından asılı ola bilər. Fermalarda böyüyən uşaqlar şəhər uşaqlarından fərqli olaraq ailənin gəlirini artırmaq üçün daha çox imkana malik olurlar. Bu halı izah edən səbəblərdən biri fermalarda uşaq əməyinə icəzə verən, lakin onu sənayedə məhdudlaşdıran uşaq əməyi haqqında qanundur.**

**Yalnız bu səbəbə görə iqtisadçılar şəhər ailələrindən (D2) fərqli olaraq fermerlərin ailələrində uşaqlardan daha çox mənfəət və onlara daha çox tələb gözləyə bilərlər (şək.8.5). Nəticədə fermerlərin ailələri daha böyük olur. Əgər son onil-**

**Üklərdə inkişaf etmiş ölkələrdə olduğu kimi kəndlərdən şəhərlərə miqrasiya baş verərsə, doğum sayının və əhali artımının azalması gözlənilir.**

**Müəyyən müddətdən sonra bütün digər şərtlər qalmaqla mexaniki avadanlığın qiyməti enərsə və bu avadanlıq uşaq əməyini əvəz edərsə, fermerlərin ailələri kiçilər. Daha ucuz kənd təsərrüfatı avadanlığı ailələri onu alaraq az əmək sərf etməyə, yəni daha az uşaq dünyaya gətirməyə sövq edər.**

**Bundan başqa, üstünlük kəmiyyətə deyil keyfiyyətə verilə bilər ki, bu da kəmiyyətə əsaslanan tələb əyrisinin yerini dəyişdirə bilər. Valideynlərin qarşısında həmişə resursların daha çox uşaq arasında paylanması ilə hazırda olan uşaqlara diqqətin artırılması arasında seçim problemi durur.**

**Bizim modelə əsasən, uşaqlara sərf olunan məsrəfləri azaldan hər bir şey klif əyrisini aşağı endirir və uşaqların sayını artırır. Bu halda (şəkil 8.6-da) təklif yerini Sj-dən Sg-yə, uşaqların sayı isə Qj-dən, Q2-yə dəyişir. Artımın səbəbi Q2 və Q3 əlavə uşaqlara məsrəflərin Q2 ilə Q3 arasında tələb əyrisində göstərilən faydanı üstələməsindədir. Klif əyrisi aşağı enəndə əlavə uşaqlardan əldə olunan mənfəət onlara sərf olunan məsrəfləri üstələyir. Beləliklə, uşaq istehsalına daha çox resurs yönəltmək daha sərfəli olur.**

**Belə dəyişiklik bütün prosesə daha az vəsait sərf olunması ilə nəticələnən uşaqların tərbiyələndirilməsinin səmərəliliyinin artırılmasına və bunun nəticəsində bütün prosesə daha az vəsait sərf olunmasına, uşaq istehsalı üçün gərəkli ehtiyatların bazar qiymətlərinin aşağı enməsinə və ya dövlət siyasəti, inflyasiya, əmək haqqı, valideynlərin təhsil səviyyəsi və s. kimi xarici amillərin dəyişilməsinə gətirib çıxara bilər.**

**Valideynlərin təhsil səviyyəsi uşaqların istehsalına müxtəlif cür təsir edə bilər.**

**Birincisi - o valideynlərə uşaqların əvəzinə daha qiymətli şeylər təklif edərək onların nisbi zövqlərini dəyişə bilər.**




Şəkil 8.6. **Uşaqlara xərclərin azalmasının tələb əyrisi**

**İkincisi - təhsil valideynlərin əınək haqqının alternativ səviyyəsini artırıb, gəlirə müsbət, məsrəflərə isə mənfi təsir edə bilər.**

**Üçüncüsü - təhsil səmərəliliyi artıra bilər ki, bu da uşaqların keyfiyyətini yüksəldər. Ən azından bir empirik tədqiqat bu ideyanı dəstəkləyir. Hətta daha çox alternativ əmək haqqı alan zaman yüksək effektivlik təhsilli insana uşağın keyfiyyət vahidini daha az məsrəflərlə əldə etməyə imkan verir. Məsələn, ibtidai təhsilli valideynə uşağına nə isə faydalı bir şey öyrətmək üçün (keyfiyyət) 2 saat tələb olunur. Onun bazarda əmək haqqı saatda 4$-dır. Ümumi xərclər 8$ təşkil edir. Digər tərəfdən, 15 dəq. ərzində uşağı ilə eyni nəticə əldə edən və saatda 20$ qazanan daha savadlı valideynin xərcləri yalnız 5$ olacaq. Digər bərabər şərtlər çərçivəsində uşaqların keyfiyyətinə daha savadlı valideynlər tərəfindən daha çox tələb gözləmək olar.**

**Dördüncüsü - valideynlərin savadlılığı özünü arzu edilməyən uşaqların sayının azaldılmasında büruzə verə bilər. Valideynlər uşaqlara qarşı altruistdirlər (təmənnasız). Altruizm valideynlər üçün faydalılığın uşaqların faydalılığın- dan asılı olması deməkdir:**

**Up = U(Zp, Ul... U„),**

**Burada Zp- valideynlərin istehlakı, Ui (i=l,..., N)- ilə i isə uşağın faydalılığıdır.**

**Sosiallaşma funksiyası insanın dövlətin köməkliyi ilə təhsil, səhiyyə xidmətləri, uşaqların tərbiyələndirilməsi, mədəniyyətin və s. vasitəsilə ictimai sistemə qoşulması deməkdir. Bu Özünü bazar iqtisadiyyatında əhaliyə göstərilən çoxnövlü sosial xidmətlərdə büruzə verir. Belə xidmətlərə işlə təmin etmə tədbirləri, işsizlikdən sığorta, təhsil almaqda kömək, sosial yardım, qadınların və həddi-buluğa çatmamışların əməyinin qorunması, ev kirayəsinə dotasiya, pensiya sığortası, sosial mənzil tikintisi, bədbəxt hadisələrdən sığorta aiddir.**

**Cəmiyyətin müasir inkişaf mərhələsində istirahət funksiyasının əhəmiyyəti artır, çünki gərgin, ələlxüsus zehni əməklə işləyən insan iş qabiliyyətini bərpa etmək, yaşayış mühitinə qovuşmaq üçün daha çox imkanlara malik olmalıdır. Latın mənşəli «rekreasiya» sözü insanın əmək prosesində sərf etdiyi gücün bərpası, istirahət deməkdir. Ailənin asudə vaxta, səyahətə, sərbəst vaxtını keçirməsinə sərf etdiyi xərclərin təhlili onların artmasını və müvafiq olaraq fərdin istəklərinin dəyişməsini göstərir.**

**Ev təsərrüfatının aparılması ailənin istehsal fəaliyyətinin formasıdır. Ev təsərrüfatında həmin ailənin tələbatını ödəmək üçün xidmətlər və məhsul hazırlanır. Ev təsərrüfatında satış üçün mütəmadi məhsul istehsalı və ya xidmətlərin bazarda realizə edilməsi fərdi əmək fəaliyyəti ilə məşğul olan ailəni, kənd təsərrüfatı məhsulunun istehsalı isə əmtəə yönümlü yardımçı təsərrüfatı səciyyələndirir.**

**Ev təsərrüfatı hələ də ailə üzvlərinin vaxt büdcəsinin çox hissəsini aparır. Böyük hissəsi qadınlar tərəfindən həyata keçirilən ev təsərrüfatında iş çox zəhmətlidir və böyük fiziki güc tələb edir. Xüsusi tədqiqatlara əsasən paltarın sərilməsi həmin vaxt ərzində traktorla işdən, pəncərələrin yuyulması isə taksi sürməkdən daha çox güc tələb edir. Bir saat ərzində paltarın ütülənməsinə sərf olunan kalori həmin vaxt ərzində bənnanın sərf etdiyi kaloriyə bərabərdir. Bütün bunlar**

**məişət xidmətləri sisteminin inkişafının və ev təsərrüfatının mexanikləşməsinin əhəmiyyətini müəyyən edir.**

**Ailədə məhsuldar əməyin vaxt büdcəsinin çox hissəsini qida hazırlanması aparan Rusiyada aparılan tədqiqatlara əsasən evin qida ilə təmin edilməsinə (məhsulun alınması, qidanın hazırlanması, qabın yuyulması) bir həftə ərzində kişilər 5 saat 17 dəq., qadınlar 16 saat 22 dəq., ev təsərrüfatının aparılmasına sərf olunan vaxtın müvafiq olaraq 37 və 57%-ni sərf edirlər.**

**Ailənin mühüm funksiyalarına ailə biznesinin təşkili, ailə üzvlərinin fərdi fəaliyyəti, ailənin bazar təsərrüfatında iştirakının korporativ formaları və s. aiddir.**

## Ailə büdcəsi

**İnsan amilinin istehsalı üçün normal şəraitin yaradılması ailə büdcəsinin formalaşdınlmasını və səmərəli istifadə olunmasını tələb edir.**

**Ailə büdcəsi iki hissəyə bölünür: gəlirlər və xərclər.**

**Gəlirlərə daxildir:**

- **əmək haqqı;**
- **sahibkar gəliri;**
- **mülkiyyətdən əldə olunan gəlir (renta, faiz, kirayə ödənişləri, dividentlər);**
- **dövlət transfert ödənişləri (pensiyalar, təqaüdlər, yardımlar, səhiyyə, təhsil sahəsində pulsuz xidmətlər);**
- **digər mənbələrdən əldə olunan gəlirlər (miras və s.).**

**Ailə büdcəsinin xərcləri aşağıdakı bəndlərdən ibarətdir;**

- **sosial sığorta;**
- **vergilər;**
- **qida və dadlı məhsullar;**
- **geyim və ayaqqabı;**
- **mənzil ödənişi;**
- **elektrik enerjisi;**
- **mebel, məişət cihazları;**

- **nəqliyyat;**
- **sənaye malları;**
- **təhsil, əyləncə;**
- **asudə vaxt, səyahət;**
- **ictimai təşkilatlara könüllü ianə və pul köçürmələri;**
- **digər xərclər;**
- **yığım (qənaət).**

**Əhalinin gəlirləri arasında, ayrı-ayrı ailələrdə fərqlənməsinə baxmayaraq, çoxunda əmək haqqı və sahibkar gəliri əsas yer tutur. Adətən gəlirin məhz bu bəndləri ailənin rifakını müəyyən edir. Lakin yalnız bunlar deyil.**

**Mülkiyyətdən əldə olunan gəlir xüsusi əhəmiyyət daşıyır. Paris universitetinin professoru A. Babonun verdiyi məlumatlara əsasən XX əsrin 90-ci illərində fransız ailələrinə məxsus mülkiyyətin ümumi həcmi 15-16 trln. franka bərabər idi. Bu isə milli gəliri 4 dəfə üstələyir. Bu fransız ailələrinin rifahmın yüksək səviyyədə olmasını göstərir. Orta hesabla əhaliyə, adambaşı 300 min frank əmlak düşür. İnkişaf etmiş ölkələrin ailələrinin əmlak quruluşunun dinamikasında mülkiyyətin maliyyə komponentlərinin payının artırılmasına meyl üstünlük təşkil edir (nağd pul, qiymətli kağızlar, əmanət qoyuluşları, həyat sığortası fondlarında yığımlar və s.).**

**Hazırda əmlakın nəsildən-nəslə ötürülməsi ilkin mülkiyyətin formalaşmasında əvvəlkinə nəzərən daha az rol oynayır. Bu isə o deməkdir ki, gənc ailələr öz səyləri ilə rifahı artırmağa çalışmalıdırlar.**

**Məxariclər arasında ən əhəmiyyətlisi qidaya sərf olunan xərclərdir. Bu xərclər Rusiyada gəliri minimal səviyyədən aşağı olan ailələrdə 60-90% - ə qədər, orta həcmdə gəliri olan ailələrdə 42%, yaşayış səviyyəsi yüksək olan ailələrdə 28- 29%, ABŞ-də 25,4%, Qərbi Avropada 20%, Yaponiyada 25- 30% təşkil edir, tnkişaf etmiş ölkələrdə bu cür xərclərin xüsusi çəkisinin azalmasına meylin olmasına baxmayaraq, Rusiyada bu meyl əks istiqamətlidir.**

### *§2, Firma (müəssisə) resursların istehlakçısı və hazır məhsulun təchizatçısı kimi. Müəssisənin təşkilati-iqtisadi formaları,*

**«Firma» müxtəlif iqtisadi inkişaf səviyyəli ölkələrdə ən geniş yayılmış və hamıya bəlli sözlər sırasına daxildir. O gündəlikdə fəaliyyətin nüfuzunu, etibarlılığını, keyfiyyətini xüsusi olaraq nəzərə çarpdırmaq lazım gələndə də istifadə olunur, tngilis dilinin özündə firm-bərk, etibarlı, inadlı və s. mənaları daşıyır. Bu səbəbdən, firm-firma və firm-etibarlı mənasında, görünür, yalnız omonim deyildir.**

**Firma (müəssisə) - istehsal amillərinin planlı kombinasiyası vasitəsi ilə əmtəə və xidmətlərin hazırlanması və reallaşdırılması yolu ilə şəxsi maraqlarını həyata keçirən təsərrüfat vahididir.**

**İqtisadi ədəbiyyatlarda tez-tez «firma>> və « müəssisə» anlayışları eyni mənada işlədilir. Bununla yanaşı, bəzən onların arasında fərq qoyulur. «Firma» məfhumuna bir və ya bir neçə müəssisə daxil ola bilər. Müəssisə deyəndə isə adətən tək profilli, bir məhsul istehsal edən istehsal başa düşülür.**

**Müasir firmalar əsasən çoxprofilli istehsaldır. Bu cür istehsala istiqamətlənmə firmanı iqtisadi tənəzzül zamanı daha səbatlı edir. İstehsal olunan bir məhsula nəzərən əlverişsiz vəziyyət onun istehsalından əldə olunan gəliri azaldır. Lakin o başqa əmtəələrin verdikləri gəlirlərə toxunmaya bilər. Belə vəziyyətdə firma bir növ fəaliyyətin vurduğu itkini başqa əmtəə və xidmətlərin gəlirləri hesabına ödəyir.**

**Bir məhsulun istehsalına yönümlənmə həmçinin əmtəəyə ehtiyacın söndüyü üçün perspektivsiz ola bilər (məsələn, firma sürətli elektrikləşmə dövründə ağ neft lampaları istehsal edir). Çoxprofilli firmada həyat tsiklinin müxtəlif səviyyələrində olan və müxtəlif kapital qoyuluşu tələb edən əmtəələrin uyğunlaşdırılması baş verir. Firmanın kapitalının bir sıra sahələrə paylaşdırılması və çoxprofilli istehsalın yaradılması kapitalın diversifikasiyası adını alıb.**

**Firmalar istehsal olunan məhsulun çeşidlərinə, kapital qoyulan sahələrə və s. görə fərqlənirlər. Amma bütün firmaları iki əsas meyara görə təsnif edirlər: kapital qoyulan mülkiyyətin forması və kapitalın təmərküzləşməsi dərəcəsi. Bu iki meyara əsasən sahibkarlıq fəaliyyətinin müxtəlif təşkilati- iqtisadi formaları ayrılır. Bura həm dövlət, həm də özəl (şəxsi, yoldaşlıqlar, səhmdar) müəssisələr daxildir. İstehsalın təmərküzləşmə dərəcəsinə görə xırda** (100 **nəfərə qədər), orta (500 nəfərə qədər) və iri (500 nəfərdən çox) müəssisələr olur.**

**Müəssisəyə bazarda çiçəklənmə və sabit mövqe verə biləcək məhsulun istehsalına sərf olunan xərclərin həcmini və quruluşunu müəyyən etmək, təsərrüfat fəaliyyətinin mikrosəviyyədə ən vacib vəzifəsidir.**

**Dövlət müəssisələrində istehsalın təşkilatçısı və təsisçisi kimi dövlət və ya bələdiyyə çıxış edir. Dövlət sahibkarlıq fəaliyyəti adətən iqtisadiyyatın ya çox yüksək ilkin kapital qoyuluşu tələb olunduğu, ya xərclərin ödənilməsi müddəti çox uzun olduğu (eimtutumlu istehsal), ya da cəmiyyət üçün zəruri məhsulun istehsalının ziyan gətirəcəyi qabaqcadan məlum olduğu sahələri əhatə edir.**

**Əgər avans edilmiş kapitala aid edilən gəlirin həcminə görə müqayisə etsək, adətən xüsusi təsərrüfata nisbətən dövlət müəssisələrinin səmərəliliyi daha azdır. Bu bağışlanılmış firmalar rəqabəti tam hiss etmirlər: dövlət itkiləri ödəyərək onlara hamilik edir. Onlar öz təsərrüfat fəaliyyətində və əmtəəyə qiymət qoyulmada azad deyillər və tez-tez məhsulu maya dəyərinə satmaq məcburiyyətindədirlər.**

**Bu səbəbdən iqtisadiyyatda dövlət bölməsinin əsassız artımı iqtisadi inkişafın sürətinin azalması ilə nəticələnə bilər.**

**Xüsusi firmalar (müəssisələr) müxtəlif formalarda çıxış edirlər:**

- **kapitalın sahibkarı bir nəfər olan şəxsi firmalar;**
- **bir neçə şəxsin kapitalı birləşən birlik və ya ortaq şəriklilik;**
- **hər birinin payı qiymətli kağız - səhm ilə təsdiqlənən**

**səhmdarlar cəmiyyəti (şirkət).**

**Bazar iqtisadiyyatında xüsusi təşkilati-iqtisadi formada cəmiyyət və ya birliklərdən ibarət olun kooperativlər çıxış edirlər. Onların fəaliyyəti kooperativin üzvlərinə yardım göstərməyə yönəlib. Kredit, satış, istehlak, mənzil, istehsal kooperativləri məlumdur. Sonuncuları xalq müəssisələri kimi qiymətləndirmək olar. Bu təsərrüfatlarda kooperativin üzvləri adətən həm əmək sərf edənlər, həm də istehsal vasitələrinin sahibidirlər.**

**Müasir inkişaf etmiş bazar sistemində təsərrüfatın ən çox yayılmış forması səhmdar cəmiyyətidir ki, bu məfhum altında ümumi səhmdar kapitala pul ödəyən, sahibkar fəaliyyətində ondan istifadə edən və birgə gəlir əldə edən və ya itki verən şəxslərin ittifaqı başa düşülür. Səhmdar cəmiyyətlərində sahibkar və işçi ayrı-ayrı subyektlərdir. Səhmdar cəmiyyəti - səhmlərin satışı yolu ilə pul vəsaitlərinin mərkəzləşdirilməsi əsasında istehsalın təşkili formasıdır. İnkişaf etmiş ölkələrdə şirkətlər geniş vüsət alıblar (məhdud məsuliyyətli cəmiyyətlərdir, firmanın həmsahibkarları yalnız firmanın əmlakı həcmində öhdəliklərə cavabdehdirlər). Hal - hazırda ümumi milli məhsulun istehsalında şirkətlərin payı: İtaliyada-50%, ABŞ-da - 60%, Yaponiyada-70%-dir.**

**Buraxılan səhmlərin növündən, onların bazarda dövriyyəsinin təşkilindən asılı olaraq açıq və qapalı səhmdar cəmiyyətləri mövcuddur.**

**Qapalı cəmiyyətlər və məhdud məsuliyyətli cəmiyyətlər - məzmununa görə bu iki məfhum eynidir. Onların səhmləri təsisçilər tərəfindən qabaqcadan səhmlərin mümkün sahibləri arasında ilkin yazılma əsasında qapalı şəkildə yerləşdirilir. Cəmiyyətlər və səhmdarlar öhdəliklərinə görə məsuliyyəti yalnız ödədikləri kapital müqabilində daşıyırlar.**

**Açıq cəmiyyətlər (qeyri-məhdud məsuliyyətli cəmiyyətlər) satışı və alışı qeyri-məhdud olan səhmlər buraxırlar. Cəmiyyətlər və səhmdarlar öhdəliklərə görə cəmiyyətin bütün əmlakı ilə məsuliyyət daşıyırlar (nizamnamə kapitalı, ehtiyat**

**və sığorta fondları və s.). Səhmlərin və onların dövriyyəsinin, həmçinin cəmiyyətlərin özlərinin müxtəlif növləri təsərrüfatın təşkilinin səhmdar formasını təsərrüfatçılığın müxtəlif şəraitlərinə yaxşı uyğunlaşan edir.**

**Sahibkarlığın əsas təşkilati-iqtisadi formalarının hər birinin müsbət və mənfi xüsusiyyətləri var ki, sahibkar fəaliyyətinin formasını seçən zaman bunlar nəzərə alınmalıdır (cədvəl 8.2).**

**Hüquqi statusdan, iqtisadi müstəqilliyin dərəcəsindən, şirkətlər və bölmələr arasında qarşılıqlı əlaqələrdən asılı olaraq konsern, konqlomerat və maliyyə qrupları mövcuddur.**

*Cədvəl 8.2*

***Sahibkarlıq fəaliyyətinin təşkilati-hüquqi formalarının üstünlükləri və çatışmazlıqları***

| Sahibkarlıq formaları | Üstünlükləri | Çatışmazlıqlar |
|---|---|---|
| Təkbaşına təsərrüfat | ■ tam müstəqillik, sərbəstlik və fəaliyyətdə operativlik;<br>■ gəlir əldə olunmasında maksimum maraq;<br>■ fəaliyyətdə məxfilik | ■ böyük kapital cəlb edilməsində çətinliklər;<br>■ fəaliyyət müddətinin qeyri-müəyyənliyi;<br>■ zərərə görə məhdud məsuliyyət;<br>■ bütün idarəetmə ixtisaslarını bir əldə cəmləmək məcburiyyəti |
| Yoldaşlıqlar | • maliyyə gücü;<br>■ fəaliyyətdə sərbəstlik və operativlik;<br>■ kollektiv idarəetmə | ■ şəriklərin məsuliyyətinin qeyri-müəyyənliyi;<br>■ sabitliyin olmaması və şəriklərin bir- birindən asılılığı |

*Cədvəl 8.2-in ardı*

| | | |
|---|---|---|
| Səhmdar cəmiyyətləri | ■ əlavə kapital cəlb edilməsində geniş imkanlar;<br>■ peşəkar idarəetmə;<br>■ səhmdarların məhdud məsulİзryəti | ■ cəmiyyətin fəaliyyəti üzərində ciddi nəzarət;<br>■ idarəetmə aparatının böyüklüyü və fəaliyyətdə aşağı operativlik;<br>■ fəaliyyətdə inhisarlaşmaya meyllilik |

**Konsern maliyyə nəzarəti əsasında hüquqi müstəqil şirkətlərin bir vahiddə birləşməsi nəticəsində əmələ gələn biznes təşkili formasıdır. Nəzarət imkanı konsernə daxil olan firmaların səhmlər paketinə sahibliklə müəyyən edilir. Firmalar konserndə funksional əlamətlərinə görə birləşirlər. Konsernin quruluşu təxminən belədir: istehsal fəaliyyəti ilə məşğul olan firma (o adətən konsernin özülünü təşkil edir), investisiya şirkətləri, maliyyə, ticarət, nəqliyyat şirkətləri, xarici investisiyalar üzrə ixtisaslaşan şirkətlər və s. Konserndəki firmaların siyasəti baş şirkətin siyasətinə tabedir. Konserndə çox vaxt vahid nəzarət mərkəzi - ümumi strategiyanı hazırlayan, şirkətlər qarşısında konkret vəzifələr qoyan və onların yerinə yetirilməsinə ciddi nəzarət edən holdinq şirkəti formalaşır.**

**Bir sahibə məxsus hüquqi müstəqil şirkətlər qrupuna konqlomerat deyilir. Onlar bir-birindən asılı olmayan iqtisadi siyasət yürüdürlər. Bu şirkətlərin seçilməsini sahibi, onların gəlirliliyi, sahənin perspektivliyi və həmçinin onun maliyyə imkanları müəyyənləşdirir. Biri-biri ilə nə iqtisadi, nə də hüquqi əlaqəsi olmayan firmaları birləşdirən konqlomeratlar adətən davamsız olurlar və tez yaranıb, tez də yox olurlar.**

**Maliyyə qrupu iqtisadiyyatda xeyli mürəkkəb hadisədir. Maliyyə qrupuna daxil olan firmalar hüquqi və qismən iqtisadi müstəqilliklərini saxlayırlar. Mənafe birliyi hər hansı**

**birgə əməliyyatların keçirilməsi zamanı aşkar olur. Maliyyə qrupları əvvəllər ailə ittifaqları kimi yaranırdılar. Morqanların, Fordların, Rokfellerlərin maliyyə imperiyaları daha çox tanınıb. Mülkiyyətin şəxsləndirilməsi getdikcə ikinci plana keçdi və nüfuz dairəsi ətrafında yarandığı iri sənaye firması və ya bankla müəyyən edilməyə başladı.**

**Müəsisə və firmaların maliyyə qrupunda birləşməsi səhmdar kapitalında qarşılıqlı iştirak üzərində qurulur. Bu iştirakın miqyası səhm paketinin ölçüsündən asılıdır. Adətən maliyyə qrupuna kommersiya bankı daxil olduğundan, firmalar arasında birləşdirici həlqə kredit olur.**

**Qarşılıqlı əlaqələr həmçinin trast əməliyyatları, yəni vəkalətnamə əsasında mülkiyyətin, həmçinin qiymətli kağızların idarə olunması əsasında qurula bilər. Firmalar onların ümumi mülkiyyətinə çevrilən layihələrin realizə edilməsində iştirak edə bilərlər. Direktorlar şurasına digər şirkətlərin nümayəndələri də daxil ola bilərlər. Bu zahirən müstəqil olan firmaların ümumi maraqlarının olmasını göstərir.**

**Müəssisələrin təmərküzləşmə dərəcəsinə gÖrə təsnifatı. Məşğul olanların sayından (və deməli, istehsal fəaliyyətinin həcmindən) asılı olaraq firmalar kiçik, orta və iri olurlar. Firmanın hər hansı bir kateqoriyaya aid edilməsi normativləri müxtəlif ölkələrdə fərqlidir.**

**Kiçik firmalar səciyyələnir:**

**■çoxsaylılıqla (ABŞ-da hər il yaradılan 700 min firmadan çoxu kiçikdir);**

**■çeviklik, bazar konyunkturasına tez reaksiya vermək qabiliyyəti ilə;**

**■sürətlə yeniləşməklə (hər il ləğv olunan firmaların sayı demək olar ki, yarananların sayına bərabərdir, lakin yalnız 7%-i tamamilə iflasa uğrayır).**

**Kiçik firmaların bazar iqtisadiyyatında rolunu belə səciyyələndirmək olar;**

**1. Bütün hissələri birləşdirərək bir əmtəənin bol, başqasının isə defisit olduğu «qurama iqisadiyyat»ın əmələ gəl**

**məsinin qarşısını alan xırda sahibkarlıq bazar iqtisadiyyatının özülü hesab olunur.**

**2. Kiçik firmalar aşağıda sadalananlar sayəsində daim rəqabəti saxlayırlar:**

**■ özlərinin çoxsaylılığı və çevik olmaları;**

**■ aşağı qiymətlərilə;**

**■ idarəetməyə, reklama və s. vəsait sərf olunmadığından istehsal xərclərinin aşağı olması ilə.**

**Kiçik firmalar kütləvi istehsalın və böyük xərclərin tələb olunmadığı fəaliyyət sahələrini seçirlər, yəni kiçik firmaların özlərinin fəaliyyət sahəsi olduğundan onlar çox vaxt böyük biznesin yolunda durmurlar. İri şirkətlərə onların fəaliyyətinə birbaşa təhlükəsi olmayan kiçik biznesi iflasa uğratmaq sərfəli deyil. Kiçik firmanın fəaliyyətindən bütün şirkətin məhsulunun keyfiyyəti asılı olduğundan, kiçik firmanı öz quruluşuna daxil etmək, onunla əməkdaşlıq etməkdən və ya ona yardım etməkdən daha az sərfəlidir. Kiçik biznesin milli təşəbbüskarlığın əlaməti kimi dövlət tərəfindən dəstəklənməsi mühüm rol oynayır. Kiçik müəssisələrin güclü rəqabət şəraitində <tyaşarlılığı» bununla izah olunur.**

**İnkişaf etmiş ölkələrdə orta firmalar kiçiklərdən fərqli olaraq elə də çoxsaylı deyildi. Bununla yanaşı, hazırda onların azalmasına meyl yaranıb. Aşağıdakı səbəblərə görə orta firmaları bəzən «nəsli kəsilən sinif» adlandırırlar:**

**■ kiçik firmalar kimi çevikliyi, çoxsaylığı və iri firmalar kimi qüvvəsi olmadığına görə (yəni orta mövqe tuturlar);**

**■ yalmz dar sahədə ixtisaslaşaraq, yəni bazarm müəyyən sahəsini tutaraq arada mini-inhisar yaratmaqla mövcud ola bilərlər.**

**Bununla belə, ixtisaslaşmış bazar daha az təsirlərə məruz qaldığından orta firma kiçik firmadan daha sabitdir.**

**Orta firmaların bazar iqtisadiyyatında rolu birmənalı deyil.**

**Birincisi, orta firmalar iri biznes üçün böyük rəqabət qüvvəsidir.**

**lər. Bunun bariz nümunəsi İsveçin 10 il ərzində 400-dən çox firmanı ələ keçirmiş «Elektrolüks» konsernidir.**

**Üçüncüsü, orta firmalar kapitalın daha sonrakı təmərküzləşmə mənbəyidirlər (orta firmaların payına ən yüksək udma faizi düşür).**

**Bazar iqtisadiyyatının ən qüvvətli subyekti olan iri firmalar həm müsbət, həm də mənfi cəhətlərə malikdirlər, onların həm üstünlükləri, həm də «zəif nöqtələri» var.**

**İri firmaların üstünlükləri aşağıdakılardır:**

**■ kütləvi istehsala yalnız iri müəsisələr qabildir. Bu adi faktı ölkəni yedirtmək ümidini yalnız kiçik mülkiyyətə bağlayanlar çox vaxt unudurlar. ABŞ-da kiçik firmaların 34% kənd təsərrüfatı məhsullarının yalnız 3.2%, 1,4% iri təsərrüfatlar isə 32%-ni istehsal edir;**

**■ iri firmalar yeni sahələrə yiyələnmə (axı, yalnız avtomobilqayırmada «kandar» investisiyaların həcmi 1 mlrd, dollara çatıb) və iri elmi tədqiqat işlərinin keçirilməsinə (ABŞ-da elmi tədqiqatların 99% -ni 600 şirkət maliyyələşdirir) imkanları olduğu üçün elmi-texniki inkişafın aparıcı qüvvələridir;**

**■ iri firmalar sabitlik və vəziyyətlərinin səbatlığı ilə səciyyələnirlər ki, bu da iqtisadiyyatda stabilliyə səbəb olur. İri şirkətlər fiziki cəhətdən ləğv olunmur, yalnız sahiblərini dəyişirlər;**

**■ yalnız iri firmalar istehsalın miqyası, kombinasiyalar nəticəsində qənaət yolu ilə ictimai əməyə böyük qənaət edə və iri miqyasda məşğulluğu təmin edə bilirlər.**

**Lakin iri firmanın üstünlüyü hələ onun gəliri və qazancının daim artacağına zəmanət vermir. Məsələ bundadır ki, hər bir şirkətin fəaliyyətinin artımında onun ölçüləri ilə şərtlənən məhdudiyyəti var. Optimal ölçünün hüdudlarından kənara çıxanda nəqliyyat xərcləri, istehsalın idarə olunmasının çətinliyi və s. səbəblərə görə iri firmanın qəliri azalır. İqtisadi nəzəriyyədə iri firmanın belə vəziyyəti firmanın gəlirliliyinin düşməsi şəraiti ilə izah olunur.**

### *§3. Təsərrüfat fəaliyyətinin əsas formaları: biznes, sahibkarlıq, kommersiya, marketinq, menecment*

**Bazar iqtisadiyyatı şəraitində təsərrüfat fəaliyyəti mikro-səviyyədə sahibkarlıq, sərəncamçılıq, biznes, ticarət, marketinq, menecment kimi anlayışlarla səciyyələnir.**

**Sahibkarlıq gəlir əldə etmək məqsədilə yenilikdən, riskdən, ixtiraçılıqdan istifadə edilən təsərrüfat fəaliyyətidir.**

**Sahibkarlıq məfhumu altında geniş mənada iqtisadiyyat sahəsində fəallıq, təşəbbüskarlıq, zirəklik başa düşülür. Dar mənada bu mülkiyyətçinin və ya təsərrüfatçılıq subyektinin risk, məşğuliyyət və yenilikçiliklə müşayiət edilən iqtisadi fəaliyyətidir. Sonuncu sahibkarlığın əsas cəhətlərini səciyyələndirir.**

**Məsuliyyətlə bağlı olmayan təsərrüfat fəaliyyəti sahibkarlığı yox, sadəcə tapşırıqla sərəncamçılığı səciyyələndirir.**

**Sahibkarlıq biznesin formalarından biridir.**

**Biznes mənfəət və ya şəxsi gəlir gətirən (fırıldaq da biznesdi) iş və ya istənilən fəaliyyət növüdür.**

**Qərb ədəbiyyatlarında biznesi insanların öz tələbatlarını ödəmək üçün yaratdıqları işlərin aparılması sistemi kimi səciyyələndirirlər. Biznes sisteminin mahiyyəti ondan ibarətdir ki, bazar iqtisadiyyatının hər bir subyekti öz işi ilə məşğul olur və eyni zamanda cəmiyyətdə elə mexanizmlər işlənib hazırlanıb ki, öz iqtisadi təşəbbüsünü, işgüzarlığını, iş qabiliyyətini leqal olaraq həyata keçirən başqa insanlara biznes xələl gətirmir.**

**«Biznesi və «sahibkarlıq» anlayışları arasında,, onlardan birincisinin əcnəbi mənşəli, digərinin döğma olduqlarını nəzərə alaraq, bərabərlik işarəsi qoymaq olar. Bununla yanaşı «sahibkarlıq» məfhumunu təsərrüfat fəaliyyətinin yenilikçi tərəfini qeyd etmək istəyəndə işlədirlər.**

**Biznes və sahibkarlıq ilə yanaşı tez-tez <ı kommersiya fəaliyyəti» və ya «kommersiya» məfhumları işlədilir.**

**Kommersiya insanların məhsulun realizə edilməsi və**

**ticarət mənfəətinin əldə olunmasına yönəlmiş ticarət fəaliyyətidir.**

**Kommersiya anlayışı geniş və dar mənada işlənilir. Geniş mənada kommersiya hər bir biznesin tərkib hissəsi olan ticarət sazişlərinin bağlanmasıdır. Dar mənada isə tədavül sahəsində bilavasitə satış və gəlirin əldə olunması ilə bağlı sahibkarlıq fəaliyyətinin bir hissəsidir.**

**Müasir kommersiyanın başlıca rolu bilavasitə istehsala hərtərəfli xidmətdən və tədavül sahəsinin təkmilləşdirilməsindən ibarətdir.**

**Kommersiya fəaliyyətinin ən yeni formalarına lizinqi (istehsal vasitələrinin satışının maliyyələşdirilməsi və aktivləşdirilməsi üçün icarə və kreditin özünəməxsus uzlaşması) və faktorinqi (yeni müştərilərə olan tələblərin alınması yolu ilə məhsulun realizə edilməsi üzrə ticarət sazişlərini sürətləndirən kommersiya fəaliyyəti formasıdır) aid etmək olar.**

**Qeyri-myəyyənliyi və riski maksimal dərəcədə azaltmağa marketinq imkan verir. Bu bazarı «planlaşdırmaq», rəqabət mübarizəsində firmanın salamat qalmasını təmin etmək cəhdidir. Özü də marketinq digər rəqabət hərəkətlərindən rəqibləri boğmağa deyil, əksinə, bazarda öz yerini dəqiq müəyyənləşdirməklə rəqabətdən qaçmağa yönümlənməsi ilə fərqlənir.**

**Kommersiya fəaliyyətinin xüsusi növü kimi marketinq özündə firma qarşısında duran məsələləri həll etmək üçün istehlakçı ehtiyaclarını öyrənməyə, xidmət göstərməyə, təmin etməyə yönəlmiş bir neçə fəaliyyət növünü birləşdirir.**

**Marketinq bazar iqtisadiyyatı şəraitndə yalnız alıcı tələblərinin ilkin tədqiqi əsasında deyil, daha vacib olan, həmin tələbin bazarda öz-özünə formalaşması əsasında qurulmuş müəssisələrin (firmalarm) fəaliyyətinin tam təşkili sistemidir.**

**«Marketinqi məfhumu ilk dəfə XX əsrin əvvəllərində ABŞ-da yaranıb. O ingiliscə «marketi (bazar) sözündən əmələ gəlib və rus dilində bazarda fəaliyyət mənasını verir. Marketinqdən istifadə ilə naməlum bazarda işləmək cəmiy**

**yətinin bazarda öz yerini təsərrüfat fəaliyyətinin, tələbin və perspektivlərinin öncədən və dəqiq öyrənilməsinə əsaslanan təşkili form2isına verdi.**

**Firmanın idarə olunması ilkin olaraq mülkiyyətçi sahibkar tərəfindən həyata keçirilirdi. Lakin sahibkarlıq inkişaf etdikcə, bu funksiya bilavasitə mülkiyyətçidən ayrılıb istehsalın peşəkar təşkilatçılarının, mülkiyyətçinin adından idarəetmə funksiyasını yerinə yetirən menecerlərin müstəqil əmək formasına çevrildi. Menecment belə yarandı.**

**Menecment inkişaf etmiş ölkələrdə istehsalın səmərəliliyinin və gəlirin artırılması məqsədi ilə təsərrüfat fəaliyyətinin idarə olunmasının bir qrup peşəkar tərəfindən işlənilib hazırlanan və istifadə olunan prinsiplərin, üsulların, vasitələrin və formaların vəhdətidir.**

**Menecmentin vəzifələri; müəssisələrin maraqlarına cavab verən məqsədlə insanların tələbatlarının bazar vasitəsilə Ödənilməsi üçün əmtəə və xidmətlər istehsalı; yeni bazarların mənimsənilməsi, yeni müştərilərin tələbatlarınin Ödənilməsi; arzu olunanı həyata keçirən qərarların qəbul olunması. Fəaliyyət göstərən kommersiya müəssisəsinin spesifik orqanı kimi menecmentin səmərəliliyini iqtisadi uğurların göstəriciləri ilə ölçmək olar. Menecmentdə əsas məsələ qarşıya müəssisənin maraqlarına cavab verən məqsədlərin qoyulmasıdır. Menecerlərin köhnə müəssisə rəbərlərindən prinsipial fərqləri bundadır.**

### *§4. Dövlət bazar təsərrüfatçılıq sisteminin subyekti kimi. İqtisadiyyatda dövlət bölməsi*

**Dövlət (hökumət) ictimai məqsədlərə çatmaq üçün təsərrüfat subyektləri və bazar üzərində lazım olanda nəzarəti təmin etmək üçün hüquqi və siyasi haküniyyəti həyata keçirən müxtəlif hökumət id£U'ələri üə təmsü olunur. Dövləti təmsil edən büdcə təşkUatlanmn məqsədi gəlir əldə etmək yox, iqtisadiyyatm dövlət tərəfindən tənzimlənməsi funksiyasım həvata kecirməkdir.**

**İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi dövlətin bazar mexanizminin işləməsi üçün normal şəraitin təmin edilməsi, ekoloji və sosial problemlərin həll olunması məqsədi ilə təsərrüfat subyektlərinə və bazar konyunkturasına təsiridir.**

**Dövlət tənzimləməsinin müxtəlif növləri mövcuddur: büdcə-vergi, kredit-pul, inzibati.**

**Büdcə-vergi tənzimləməsi iqtisadiyyatın «ifrat qızmasının» qarşısını almaq üçün büdcənin gəlir və xərc hissələrinin artırılması ilə, bəzən isə ölkədə iqtisadi artımı tənzimləmək üçün defisitlə yekunlaşdırılmasım nəzərdə tutur. Defisit maliyyələşmə inflyasiyanı qidalandırır, buna görə də hökumət büdcənin tarazlaşdırılmasına çalışır.**

**Kredit-pul tənzimləməsinə faizin dərəcəsinin dəyişilməsi, açıq bazarda əməliyyat, mütləq bank ehtiyatlarının normalarının dəyişdirilməsi daxildir. Bu tənzimləmə forması bankların iştrakı ilə həyata keçirilir.**

**Bank - iqtisadiyyatın normal fəaliyyəti üçün zəruri pul kütləsinin hərəkətini tənzimləyən maliyyə-kredit təsisatı kimi çıxış edən çoxsaylı bazar subyektlərindən biridir.**

**Bazar iqtisadiyyatında inzibati tənzimləmə məcburi kartelləşmə, müəssisənin yaradılması üçün icazə alınmasının zəruriliyi və s. kimi tədbirlərin köməyi ilə həyata keçirilir.**

**Hazırda dövlətlərin əksərinin davranışında iqtisadi proseslərinə daha mötədil dövlət müdaxiləsinə meyl müşahidə olunur. ABŞ-da tənzimləmənin ciddi surətdə uzunmüddətli inkişaf məqsədlərinə - «Amerikamn gələcəyinə investisiya qoyuluşu», daha dəqiq desək, infrastruktura, «insan kapitalı»na, təbiətin mühafizəsinə və s. yönümlənməsi baş verir. Fransada dövlət tənzimləməsinin əsas istiqamətləri mədəniyyətin, təhsilin, peşə hazırlığının,1990-ci ildən isə mənzil tikintisinin də inkişafıdır. Rusiyada büdcə tənzimləməsində əsas diqqət vətəndaş proqramlarına: qısamüddətli proqramlardan uzunmüddətli proqramlar üzərinə köçürülür.**

**Müasir bazar təsərrüfatı sistemində dövlətin güddüyü və ictimai məqsədlər olan iqtisadi məqsədlər (və ya dəyərləndirmə mülahizələri) iqtisadi nəzəriyyə üzrə Qərb dərsliklərinin əksəriyyətində verilib. Onları cədvəl 8.3-dəki kimi təqdim etmək olar.**

*Cədvəl 8.3*

**Müasir dövlətin iqtisadi məqsədləri**

| İqtisadi məqsədlər | İqtisadi sistemlər həyat əhəmiyyətli iqtisadi məqsədləri həyata keçirir |
|---|---|
| İqtisadi artım | Daha yüksək həyat səviyyəsinin təmin edilməsi |
| Tam məşğulluq | Əmək qabiliyyətli və işləmək istəyənlər üçün iş |
| İqtisadi səmərəlilik | Məhdud resurslar şəraitində minimal xərclərlə maksimal xeyir |
| Qiymətlərin sabit səviyyəsi | İnflyasiya və deflyasiyanın templəri üzərində səmərəli nəzarət |
| Gəlirlərin ədalətli bölgüsü | Cəmiyyətin gəlir səviyyəsinə gÖrə kəskin təbəqələşməsinə yol verilməməsi |
| İqtisadi təminatlılıq | Əmək qabiliyyəti olmayan əhaliyə sosial təminatların tətbiqi |
| İqtisadi azadlıq | İqtisadi subyektlərin suverenliyi |
| Ticarət balansı | Xarici ticarət-maliyyə münasibətlərinin stabilliyi, ixracın idxalı üstələməsi |

**■ İqtisadi artım maddi nemətlər istehsalı həcminin artırılmasını, onların keyfiyyətinin yaxşılaşdırılmasını, daha yüksək həyat səviyyəsi ilə təmin olunmanı nəzərdə tutur.**

**■ iqtisadi səmərəlilik mövcud məhdud istehsalat resurslarının minimal sərfi ilə daha böyük (yüksək) nəticələrin əldə olunmasını tələb edir.**

**Pareto-səmərəlilik iqtisadiyyatın elə vəziyyətidir ki, bu zaman cəmiyyətin digər üzvünün vəziyyətini ağırlaşdırma**

**dan heç olmasa bir insanın tələbatlarının ödənilməsi səviyyəsini yüksəltmək mümkün deyil.**

**■Əmək qabiliyyətli əhalinin tam məşğulluğu işləməyi bacaran və istəyən hər kəsi ixtisası və tələbatına uyğun olaraq işlə (iş yeri ilə) təmin etməkdir.**

**■Qiymətlərin sabit səviyyəsi vacibdir, çünki qiymətlərin ümumi səviyyəsinin ciddi artması və ya enməsi ümumilikdə iqtisadiyyatı qeyri-stabil edir, gərginlik yaradır, iqtisadi fəaliyyətdə müxtəlif cür çətinliklərə və qaçılması vacib olan inflyasiya və deflyasiyaya səbəb olur.**

**■İqtisadi azadlıq o deməkdir ki, sahibkarlar, bazar iqtisadiyyatının təsərrüfatçı subyektləri. Öz iqtisadi fəaliyyətlərində yüksək səviyyədə sərbəstliyə malik olmalıdırlar.**

**■Gəlirin ədalətli bölgüsü. Bazar iqtisadiyyatı nöqteyi-nəzərindən rəqabət mübarizəsi nəticəsində əldə olunan gəlir ədalətlidir. «Eyni kapitala - eyni gəlir» prinsipi meyl kimi çıxış edir. Bərabər bölgü yolverilməzdir. Eyni zamanda, sivil cəmiyyətdə əhalinin bir qismi cah-cəlal içində yaşadığı halda, digər qismi səfalət içində yaşamamalıdır.**

**■İqtisadi təminatlılıq. Təəssüf ki, cəmiyyətdə xroniki xəstələr, yaşlılar, işləmək iqtidarında olmayanlar və s. kimi öhdədə olanlar mövcuddur. Dövlət büdcəsinin və müxtəlif sosial və xeyriyyə fondlarının vəsaitləri hesabına onlar normal yaşayışla təmin edilməlidir.**

**■Ticarət balansı ixrac və idxal arasında düşünülmüş nisbətinin və beynəlxalq maliyyə sazişlərinin balansının dəstəklənməsini nəzərdə tutur.**

**Siyahını (cəd. 8.3) digər məqsədlərlə, məsələn, ətraf mühitin mühafizəsinin yaxşılaşdırılması və s. ilə davam etmək olardı.**

**Sadalanan məqsədlərin təhlili bəzi məqsədlərin bir-birinə zidd ola biləcəyini və ya bir-birini qarşılıqlı istisna edə biləcəyini qeyd etməyə əsas verir. Məsələn, iqtisadi artım və tam məşğulluq qiymətlərin qalxmasına və inflyasiyanın baş verməsinə gətirib çıxara bilər. Bölgüdə bərabərliyi təmin**

**etmək cəhdi yaradıcılıq, riskli əməklə məşğul olmağın əsaslarını və bununla da iqtisadi artımı zəiflədə bilər. Deməli, cəmiyyət müxtəlif dövrlərdə, ölkələrdə və regionlarda məqsədlərin həyata keçirilməsində üstünlüklər sistemini hazırlamaq məcburiyyətindədir. Böyük iqtisadi nailiyyətlərin konkret proqramlarının hazırlanması bu və ya digər dövlətin iqtisadi siyasətinin əsasında durur.**

**Cədvəl 8.3-də sadalanan məqsədlər geniş ictimaiyyət tərəfindən tanınır, lakin heç də bütün iqtisadçılar bununla razılaşmır. Belə ki, C. Helbreytin nəzəriyyəsinə görə, iri firmalar üstünlük təşkil edən cəmiyyətdə planlaşdırılma sisteminin məqsədi firmanın artımıdır, çünki yalnız bu şəraitdə müxtəlif firmalar ayrı-ayrı məqsədlərinə çata bilərlər ki, bunlara da aşağıdakılar daxildir:**

**■ müdafiə məqsədləri. Bura firmanın maraqlarının rəqabətdən müdafiəsi, daha çox gəlirin, qazancın, əmək haqqının əldə olunmasının müdafiəsi daxildir;**

**■ müəyyən maliyyə uğurlarını, vəzifədə irəliləyişi, iş şəraitinin yaxşılaşmasını nəzərdə tutan müsbət məqsədlər;**

**■ yekun nəticələrin firmanın yüksəlişini təmin edə biləcək hərəkətlərlə uyğunluğu;**

**■ ona etibarı artırmaq üçün ildən-ilə stabilliyin və ya rəqabət şəraitində firmanın sabit vəziyyətini göstərən gəlir artımının nümayiş etdirilməsi;**

**■ yetərincə ixtisaslı işçi qüvvəsi olan ayrı-ayrı firmalar üçün texniki tərəqqi.**

**Beləliklə, C. Helbreyt istehsalın yeganə məqsədinin hamı üçün gəlirin maksimallaşması olduğunu bəyan edən neo-klassik nəzəriyyədən fərqli olaraq, firmaların həcmindən, nüfuzundan, quruluşundan və ixtisaslaşmasından asılı olaraq müxtəlif məqsədlərinin mövcudluğunu mümkün hesab edir. Eyni zamanda o, iqtisadi artımı sivil cəmiyyətin başlıca məqsədi hesab edir.**

**İqtisadiyyatda tənzimləyici qüvvə qismində iştirakdan savayı dövlət həmçinin müstəqil sahibkarlıq edən subyekt**

**kimi də çıxış edir ki, bu da dövlət bölməsidir. Müxtəlif ölkələrdə onun payı müxtəlifdir: ABŞ üçün bu ənənəvi olaraq minimal (XX əsrin 80-ci illərində dövlət məhsulu milli gəlirin 1-2%-ni təşkil edir). Qərbi Avropa ölkələrində isə böyükdür (dövlət bölməsinin payı Avstriyada-26% , Fransada- 20%, İsveçdə-14%, İtaliyada-12% təşkil edir). ABŞ-da müəssisələrin 10-12%-i dövlət tərəfindən tikilir, 6%-i onun mülkiyyətində qalır, qalanı isə xüsusi mülkiyyətə istifadəyə verilir. ABŞ və Qərbi Avropanın dövlət bölmələrinin arasındakı prinsipial fərq iri firmaların fəaliyyətinin genişliyi və qüvvəsi ilə izah olunur.**

**İqtisadiyyatda dövlət bölməsinin tarixi artımının mühüm səbəbləri: müharibələr və milli müdafiə, makrodinamik proseslərin infrastruktur təminatı, əhali artımı, urbanizasiya, ətraf mühitin problemləri və eqalitarizmdir (bərabərlik).**

**Dünya iqtisad elmində dövlət bölməsi anlayışı dövlət mülkiyyətinin özündən çox dövlətin istehsalda, bölgüdə, mübadilədə və istehlakda iştirakı formalarının cəmi ilə bağlıdır. Bu anlamda həmin bölmə dövlətin ona əsaslanaraq öz funksiyalarını yerinə yetirə biləcəyi bünövrə kimi çıxış edir. Bölgü sahəsində dövlətin tutduğu yer çox böyükdür. İstehsalda dövlətin müdaxiləsi minimal, mübadilədə isə sıfra bərabər olmalıdır.**

**Bizim üçün ənənəvi anlamda dövlət bölməsi ilk növbədə dövlət müəssisələrinin məcmusudur.**

**Son 30 - 40 il ərzində yeni - qarışıq xüsusi-dövlət müəssisə və şirkətlərin formalaşması baş verib. Çox vaxt dövlət sahibkar olmur, lakin ciddi nəzarəti həyata keçirir. Bu bölmə «üçüncü», yəni nə xüsusi, nə də dövlət bölməsi adını alıb.**

**XX əsrin 70-ci illərinin əvvəli üçün iqtisadiyyatında dövlətin hakim yer tutduğu ölkələrdə iqtisadiyyatın inkişaf strategiyasında çatışmazlıqlar üzə çıxdı. Dövlət şirkətlərinin qeyri-qənaətbəxşliyi, dövlət institutlarının zəifliyi, dünyada baş vermiş neft və valyuta böhranına görə gəlirlərin azalması, dövlət idarələrinin şişirdilmiş xərcləri, ziyana**

**İşləyən müəssisələrin maliyyələşdirilməsi, təhsil, səhiyyə və s, sahələrdə həyat əhəmiyyətli proqramların minimuma endirilməsi - bütün bunlar bir sıra Afrika, Latın Amerikası, Asiya, Avropa və keçmiş Sovet İttifaqı ölkələrini iqtisadiyyatda dövlətin hakim yer tutduğu modeldən dövlətin minimal rollu modelinə keçməyə sövq etdi.**

**Bazar iqtisadiyyatı subyektləri bunlardır. Təsərrüfatçılığm bazar sistemi obyektlərinin təhlilinə dərsliyin növbəti fəsli həsr olunub.**

# IX FƏSİL. BAZARIN SİSTEM YARADAN ELEMENTLƏRİ: ƏMTƏƏ VƏ PUL

*§1. Əmtəa va onun xassalari. K.Marksın amtaada maddilaşmiş ama- yin ikili xarakteri haqqında talimi.*

*§2. Dəyər, dayarlilik, faydalılıq. Əmak dayar nəzəriyyəsi va son hədd faydalüiğı nəzəriyyəsi.*

*§3. Pulun mahiyyəti, onun konsepsiyaları va funksiyaları. Pul tədavülü qanunu. Pul sistemləri.*

**Müasir bazar təsərrüfatının əsas obyektlərinin - yəni bazarın sistem yaradan elementləri kimi əmtəə və pulun - öyrənilməsinə ayn-ayrı iqtisadi məktəblər, onları müxtəlif tərəflərdən nəzərdən keçirməklə və mahiyyətini müxtəlif şəkildə izah etməklə böyük diqqət yetirmişlər.**

## *§1. Əmtəə və onun xassələri. K.Marksın əmtəədə maddiləşmiş əməyin ikili xarakteri haqqında təlimi*

**Bazar (əmtəə) təsərrüfatı nəzəriyyəsinin əsas kateqoriyası əmtəədir ki, bundan öncə tarixi və məntiqi olaraq «nemət» kateqoriyası gəlmişdir.**

**Əgər nemət müəyyən müsbət məna daşıyan hər şey, yəni insanın bu və ya digər tələbatını ödəyən və maraqlarına, meyllərinə müvafiq olan cisim, hadisə, əmək məhsuludursa, onda əmtəə xüsusi iqtisadi nemətdir. Əmtəənin nemətdən fərqli olaraq xüsusiliyi ondadır ki, o sadəcə olaraq iqtisadi fəaliyyətin nəticəsi deyil (yəni iqtisadi nemət), alqı-satqı (Ə- P-Ə) yolu ilə mütləq mübadiləsi (Ə - Ə) üçüii yaradılmışdır ki, burada Ə - əmtəə, P - puldur.**

**K. Menger deyirdi ki, iqtisadi nemət onun hərəkət qabiliyyətindən, onu satış üçün təklif edən şəxslərdən, maddiliyin- dən, onun əmək məhsulu kimi xüsusiyyətindən asılı olmayaraq** 0 **mübadilə üçün nəzərdə tutulduğundan əmtəə olurh**

**' MeHrep K. OcHosaHHH nojniTOTecKOH** экономhh. **ABcrpHHCKaa ımcojıa** в **nojnmiHe- CKoö эKOHOMiuı. M.: 1992. C.201-202.**

**Əmtəə - mübadilə üçün nəzərdə tutulmuş və insanın hər hansı tələbatını ödəyə bilən əmək məhsuludur.**

**Hər üç xüsusiyyət əmtəənin müəyyən edilməsində olduqca vacibdir. Nemət əmək məhsulu deyilsə, o əmtəə (meşədə yabanı alma, hava və s.) olmur. Əgər nemət əmək məhsulu olmasına baxmayaraq hər hansı tələbatı Ödəmir və heç kimə lazım deyilsə, o əmtəə deyildir. Əgər nemət təsərrüfat daxilindən istehlak olunursa, yəni daxili istehlak üçün yaradılmışsa, o əmtəə deyildir (natural, şəxsi yardımçı və ev təsərrüfatında).**

**Verilmiş tərifdən belə çıxır ki, əmtəə özü-özlüyündə iki xüsusiyyətə malikdir:**

**■ insanın hər hansı tələbatını ödəmək qabiliyyətinə;**

**■ mübadiləyə yararlılığa.**

**Əmtəənin insanın bu və ya digər tələbatını ödəmək qabiliyyəti onun istehlak dəyərini təşkil edir.**

**İstənilən əmtəə istehlak dəyərinə malikdir. Tələbatın xarakteri bu zaman ən müxtəlif (fiziki, mənəvi) ola bilər. Onların Ödənilməsi yolları da müxtəlif ola bilər. Bəzi şeylər tələbatı istehlak şeyi (çörək, geyim və s.) kimi bilavasitə, digərləri isə istehsal vasitələri (dəzgah, xammal) kimi dolayısı ilə ödəyə bilir. Bir çox istehlak dəyərləri bir deyil, bir sıra ictimai tələbatları (məsələn, oduncaq kimyəvi xammal, yanacaq kimi, mebel istehsalı üçün istifadə olunur) ödəyə bilir.**

**Əmtəə şəklində xidmətlər çıxış edir. Onların xüsusiliyi nədədir?**

**■ Xidmətin istehlak dəyəri maddi formaya malik deyil.**

**■ Xidmətin istehlak dəyəri fəaliyyətin, canlı əməyin faydalı səmərəsidir.**

**■ Xidmətin maddi forması yoxdur, onu bilavasitə yığmaq olmaz, o yalnız istehsal anında istifadə oluna bilər.**

**İstehlak dəyərləri hər bir cəmiyyətin sərvətinin məzmununu təşkil edir.**

**İstehlak dəyərinin üç təzahür forması var: miqdar, natural forma, keyfiyyət. Keyfiyyət verilmiş istehlak dəyərinin faydalılığının, tələbata müvafiqliyinin, istehlakın konkret**

**şəraitində tələbatı ödəməyə yararlılığının dərəcəsidir.**

**İstehlak dəyəri və faydalılıq qarşılıqlı əlaqəlidir, lakin eyniyyət təşkil etmirlər. Faydalılıq özlüyündə istehlak dəyəridir, istehlak dəyəri isə mütləq istifadədə həyata keçiriləndir.**

**Natural təsərrüfatda məhsulun istehlak dəyərini əmtəənin istehlak dəyərindən fərqləndirmək lazımdır.**

**Natural təsərrüfatda əmək məhsulları istehsalçıların özləri üçün istehlak dəyəridir, əmtəələr isə başqaları üçün istehlak dəyəridir, yəni ictimai istehlak dəyəridir.**

**Əmtəənin istehlak dəyəri bilavasitə istehlakçıya yalnız mübadilə yolu ilə keçir.**

**Əmtəə yalnız insan tələbatlarını ödəmək xassəsinə deyil, həm də digər əmtəələrlə əlaqəyə girmək, başqa əmtəələrə mübadilə olunmaq xassəsinə malikdir.**

**Əmtəənin müəyyən miqdarı nisbətlərində mübadilə olunmaq qabiliyyəti mübadilə dəyəridir.**

**İstehlak dəyəri əmtəəni keyfiyyət baxımından səciyyələndirirsə, mübadilə dəyəri kəmiyyət baxımından səciyyələndirir. Əmtəənin məhz axmncı xüsusiyyəti onu müqayisəyə gələn edir. D. Rikardo yazırdı: «Əmtəələrin mübadilə dəyəri onlarda təcəssüm olunan əməyin miqdarma əsasən müəyyən edilir».**

**Nemətin əmtəə olması üçün o həm istehlak, həm də mübadilə dəyərinə malik olmalıdır. Beləliklə, əmtəənin iki xassəsi əksliklərin vəhdətini yaradır:**

**■ əmtəələr istehlak dəyərləri kimi müqayisəyə gəlməyəndir, mübadilə dəyərləri kimi eyni növlüdür və keyfiyyətcə müqayisəyə gələndirlər;**

**■ eyni əmtəə bazarda eyni təsərrüfat subyekti üçün həm mübadilə, həm də istehlak dəyəri ola bilməz; satıcını mübadilə dəyəri, alıcını isə istehlak dəyəri maraqlandırır.**

**■ istehlak dəyəri reallaşdırılmazdan əvvəl əmtəənin mübadilə dəyəri reallaşdırılmalıdır. Bunun üçün ayrı-ayrı əmtəələrin istehlak dəyəri cəmiyyət tərəfindən tanınmalıdır.**

**Əmtəənin vəhdəti və ziddiyyətliliyi bundadır {K. Marksa görə).**

**K. Marks deyirdi ki, əmtəənin mübadilə və istehlak dəyəri kimi ikililiyi, onun ikili tam mahiyyəti əmtəə yaradan əməyin ikili xüsusiyyətinin nəticəsidir. Əmtəə yaradan hər bir əmək istehlak dəyərini əmələ gətirən, konkret məqsədlə, əməliyyatın xarakteri, əmək cisimləri və alətləri, nəticə ilə müəyyən olunan konkret əməkdir. Eyni zamanda mübadilə dəyərini yaradan mücərrəd əmək ümumiyyətlə insan enerjisinin, fizioloji mənada iş qüvvəsinin (enerji, əzələ, əsəb və s. xərcləri) məsrəfidir.**

**Yuxanda qeyd olunanlara əsaslanaraq əməyin ikili xarakterini və əmtəənin iki xassəsini sxem şəklində göstərmək olar (şəkil 9,1).**

**Mübadilə dəyərinin əsası kimi fərdi (ayrılıqda götürülmüş məhsul vahidinə) deyil, dəyərin substansiyasını (yaxud daxili məzmununu) təşkil edən ictimai (əmtəələrin bütün kütləsinə) mücərrəd əməyin çıxış etdiyini qeyd etməmək olmaz. Beləliklə, dəyərin kəmiyyəti əməyin fərdi deyil, ictimai zəruri məsrəfləri ilə müə3^ən edilir.**




**Şəkil 9.1. Əməyin ikili xarakteri və əmtəənin xassələrinin qarşılıqlı əlaqəsi (K.Marksa görə).**

**İctimai zəruri əmək məsrəfləri (İZƏM) istehsalın normal şəraitində, qabiliyyətin və əməyin intensivliyinin orta səviyyəsində, məhsulun orta keyfiyyətində və ictimai tələbatın müvafiqliyində verilmiş əmtəə növünün əsas kütləsinin istehsalına sərf olunan məsrəflərdir.**

**Dəyər və mübadilə dəyəri öz aralarında biri-biri ilə sıx bağlı olan, lakin eyniyyət təşkil etməyən iki kateqoriyadır. Dəyər əmtəənin immanent (daxilən xas olan) xassəsidir, mübadilə dəyəri isə mahiyyətin mübadilə prosesində zahiri təzahürüdür.**

**D.Rikardo qeyd edirdi ki, iqtisadi nəzəriyyədə məhz «dəyər* sözünün mənasındakı qeyri-dəqiqlik və qeyri-müəyyənlik kimi heç nə bu qədər çox yanlışlıq və fikir ayrılığı yaratmamışdır. Dünya iqtisadi ədəbiyyatı indiyə qədər də dəyər, faydalılıq, dəyərlilik kimi məfhumları müxtəlif şəkildə izah etməkdədir.**

### *§2. Dayər, dayarlilik, faydalılıq. Əmək-dəyər nəzəriyyəsi və son hədd faydalılığı nəzəriyyəsi*

**XVIII və XIX əsrlər ərzində iqtisadçıların əmtəənin dəyəri məsələsi haqqında əsas konsepsiyaları formalaşdı.**

**A.Smit dəyəri əmtəənin istehsalına sərf olunmuş əməyə, alınan əməyə (əmək haqqına), əmək haqqının, mənfəət və torpaq rentasınıı cəminə bərabər tuturdu. D.Rikardo və D.R.Mak-Kullox onu istehsal xərcləri, J.B.Sey istehsalın üç amili, D.Loderdel təklif və tələblə müəyyən edirdilər. K.Marks və F.Engels onların mübahisələrini nəzərdən keçirərək belə bir nəticə çıxartdılar ki, dəyər ictimai mücərrəd əmək məsrəflərinin maddi formasıdır və istehsal xərclərinin faydalılığa nisbətini ifadə edir. İqtisadiyyat elmində həm əmtəənin dəyər kəmiyyəti, həm də müvafiq olaraq qiyməti ilə bağlı mübahisələr davam etməkdədir. A.Smit dəyərin ölçüsü kimi bəzən əmtəənin istehsalı üçün zəruri olan iş vaxtını, bəzən isə əməyin dəyərini, D. Rikardo nisbətən pis**

**İstehsal şəraitində aşağı düşdüyü hallarda əmtəə istehsalına sərf olunan iş vaxtını götürürdü. S.Sismondi dəyərin kəmiyyətini bütün cəmiyyətin tələbatı ilə bu tələbatı ödəməyə kifayət edən əməyin miqdarı arasındakı nisbəti kimi izah edirdi. P.Samuelson, B.Klark və digərlərinin əsərlərində qiymətin formalaşmasına əlavə əmtəə (və ya əlavə miqdarda əmtəə) vahidlərinin istehsalı ilə bağlı əlavə xərclər olan son hədd xərclərinin təsiri nəzərə alınaraq baxılır. Onlar faktiki olaraq qiymətin dəyişməsini təkrar istehsal şəraitində nəzərdən keçirirlər.**

**Bu baxışların təhlili «dəyər» və «dəyərlilik» kateqoriyalarının əlaqəsini göstərməyə imkan verir. Hər şeydən əvvəl qeyd edək ki, əmtəənin dəyəri müəyyən konkret tarixi şəraitdə iqtisadi sərvətin təzahürünün xüsusi halıdır.**

**Bəşəriyyət iqtisadi fəaliyyət, iqtisadi fəaliyyət isə məqsəd və vasitənin vəhdəti kimi iqtisadi sərvət olmadan mövcud ola bilməz. Əmtəə istehsalı şəraitində iqtisadi sərvətlər dəyər formasını alırlar. İqtisadi sərvət dəyərə nəzərən başlanğıc kateqoriya olmaqla dəyərin əsası kimi qəbul edilir.**

**Sərvətin mahiyyəti, onun substansiyası, məqsədi (nəticəsi) və vəsaiti (məsrəfi) özündə ehtiva edən müəyyən iqtisadi fəaliyyətdir. İqtisadi sərvət öz növbəsində nəticənin (faydalılığın) və məsrəflərin vəhdətidir.**

**İqtisadi dəyərlilik nemətin iqtisadi faydalılığı və onun istehsalına sərf olan iqtisadi məsrəflərin vəhdətidir.**

**Yalnız məhdud nemətlər dəyərliliyə malikdir. Ona görə də nemətin nadirliyi (məhdudluğu) dəyərliliyin ünsürüdür.**

**Məlum olduğu kimi, nadirlik iki əlamətlə şərtlənir: nemətin təbiətdə az miqdarda ehtiyatı və bununla əlaqədar olaraq onların əldə edilməsi üçün əmək məsrəfinin zəruriliyi ilə. Artıq XIV əsrdə nemətlərin dəyərliliyinin onların nadirliyin- dən asılı olması göstərilirdi, ona görə də su və hava (daha faydalı olmalarına baxmayara) qızıldan az qiymətləndirilir.**

**Nemətlərin iqtisadi faydalılığı onların məhdudluğu,**

**nemətlərin istehsalının artması onların iqtisadi faydalılığı- nın artmasına düz mütənasib deyil, belə ki, bu nemətlərin mövcud miqdarının artması ilə onlar qiymətdən düşür, məhdudluğunu itirir, nisbətən az faydalı olurlar.**

**Adları çəkilmiş hər iki prosesin qarşılıqlı məhdudlaşdırma mexanizmi faydalılıq və məsrəflər arasındakı funksional əlaqəyə əsaslanır: nemətin istehsalının eyni qaydada artması (onlarla bərabər resursların məsrəfinin də) eyni zamanda həm nemətin iqtisadi faydalılığının artmasını ləngidir, həm də iqtisadi məsrəflərin artmasını sürətləndirir.**

**İqtisadi məsrəflər və iqtisadi faydalılıq birlikdə dəyərlilik yaradaraq, məqsədəuyğun fəaliyyətə, xüsusilə də iqtisadi fəaliyyətə xas olan özünütənzimetmə prinsipini həyata keçirir.**

**Dəyər, dəyərlilik, faydalılıq, qiymət, tələb və təklif kateqoriyalarının qarşılıqlı əlaqəsini aydın və aşkar dərk etmək üçün şəkil 9.2-də verilmiş sxemi nəzərdən keçirmək lazımdır.**




**Şəkil 9.2. Bazar (əmtəə) iqtisadiyyatı kateqoriyalarının qarşılıqlı əlaqəsi**

**Əgər «dəyər», «dəyərlilik» və «faydalılıq» kateqoriyaları əmtəə istehsalının daxili mahiyyətini xarakterizə edirsə.**

**«tələb», «təklifi və «qiymət» bu mahiyyəti zahirən əks etdirir, bazarda meydana çıxır, həmin mahiyyətdən kəmiyyətcə kənarlaşa bilir, ona görə də onları dəyişmiş formalar kimi xarakterizə etmək olar. Məsələn, qiymət dəyərin dəyişmiş formasıdır, çünki dəyərdən yuxarı və ya aşağı ola bilir.**

**İqtisadi subyekt (ayrılıqda götürülmüş istehsalçı), əgər xərclər nəticə ilə, yəni yaradılan nemətlərin faydalılığı ilə özlərini doğrultmasalar, onları həyata keçirməyəcək.**

**İqtisadi dəyərlilik və dəyərin ikili tamlıq xüsusiyyəti nəzəri olaraq əmək - dəyər nəzəriyyəsi ilə son hədd faydalılığı nəzəriyyəsinin qarşıdurmasında ifadə olunmuşdur.**

**Son hədd faydalılığı nəzəriyyəsi faydalılığın qədim tarixə malik olan və kökləri hələ Aristotelə, Ksenofonta, Sokrata gedib çıxan subyektivçilik nəzəriyyəsinin inkişafının ən yüksək həddidir, Sokrat deyirdi ki, «nemət faydalı olan şeydir». Aristotel isə subyektiv və mübadilə dəyərliliyini (özü üçün və mübadilə üçün səndəllərdən damşanda) fərqləndirəndə mübadilə dəyərliliyində ümumi məqamı faydalılıqda, tələbatda, ehtiyacda görürdü. Lakin artıq XIV əsrdə dəyərliliyin əsası fərdi tələbat deyil, aralarında mübadilə baş verə bilən şəxslərin məcmusunun tələbatı hesab edilirdi (Buridan, N.Orezm).**

**Faydalılıq nəzəriyyəsi daha aydın izahını XVIII əsr iqtisadçıları E.B.de Kondilyak (1715-1780) və F.Qalianın (1728-1789) əsərlərində tapmışdır. Jan Batist Sey (1767-1832) də bu fikrin tərəfdarı idi.**

**Q.Qossen (1854), U.Cevons (1871), K.Menger (1871), L.Valras (1871) demək olar ki, hər biri ayrılıqda faydalılıq nəzəriyyəsinin mahiyyətinin yeni tərifini vermişlər. Q.Qossen son hədd faydalılığı nəzəriyyəsinin banisi oldu. K.Menger, F.Vizer, E.Bern - Baverk «Avstriya məktəbik adını almış təlimin əsasını qoydular. İqtisadi-riyazi cərəyanı bu təlimdə ingilis iqtisadçısı U.Cevons və İsveçrə iqtisadçısı L.Valras təmsil edirdilər.**

**Məlumdur ki, son hədd faydalılığı (yəni tələbatın son**

**həddini əmtəələrin verilmiş ehtiyatı ilə təmin edən nemətin faydalılığmın son həddi) iki şərtdən asılıdır:**

**■ onların insanların rifahı üçün əhəmiyyəti;**

**m onların miqdarı.**

**Lakin nemətin miqdarı yalnız təbiətlə deyil, həmçinin əməklə də müəyyən edilir. Bu səbəbdən də dəyərliliyi müəyyən edərkən əməyin miqdarını nəzərə almaq lazımdır.**

**Buna görə də faydalılıq konsepsiyası ilə yanaşı A.Smit, D.Rikardo, D.R.Mak-Kullox və başqaları ilə təmsil olunan əmək-dəyər nəzəriyyəsi adlanan digər bir nəzəriyyə də inkişaf edirdi. Göstərirlər ki, əmək-dəyər nəzəriyyəsinin baniləri yalnız xərcləri, əmək məsrəflərini dəyər (dəyərlilik) hesab etmişlər, nemətin faydalılığını isə nəzərə almamışlar. Lakin bu belə deyil. A.Smit yazırdı ki, dəyər (value) sözünün iki müxtəlif mənası var. O bəzən hər hansı müəyyən bir cismin faydalılığını, bəzən isə göstərilən cismin əldə edilməsi ilə yaradılan digər nemətləri almaq qabiliyyətini əks etdirir. K.Marksın sonradan dəqiqləşdirdiyi kimi, alıcılıq qabiliyyətinin əsasında mücərrəd əmək durur. D.Rikardo etiraf edirdi ki, faydalılıq və nadirlik dəyərliliyin mənbəyi ola bilir və nemətləri bərpa olunan və bərpa olunmayanlara bölürdü. F.Engels «Siyasi iqtisadın tənqidinə dair cizgilərik oçerkində dəyəri istehsal xərclərinin faydalılığa nisbəti kimi müəyyənləşdirirdi.**

**Maraqlıdır ki, əmək-dəyər (dəyərlilik) nəzəriyyəsi və faydalılıq nəzəriyyəsinin qarşı-qarşıya qoyulması yalnız onların qarşılıqlı inkarını deyil, həm də dəyəri xərclərə, əmək məsrəfinə bərabər tutulmasının qarşılıqlı şərtlənməsin! göstərirlər. Lakin bu nəzəriyyələrin qarşı-qarşıya qoyulması nəinki onların qarşılıqlı inkarını, həm də qarşılıqlı şərtlən- məsini ifadə edir.**

**İqtisadçıların çoxunun xərclər nəzəriyyəsi və ya faydalılıq nəzəriyyəsi tərəfdarı olmalarına baxmayaraq bu qarşılıqlı şərtlənməni dərk etmirdilər. Bununla belə, dəyərin təhlilinə xərclər anlayışından başlamaqla onlar əvvəl-axır**

**faydalılıq anlayışına müraciət etməyə məcbur oldular və əksinə, faydalılıqdan başlayaraq xərclərə gəlib çıxırdılar. Onları az-çox birləşdirməyə təşəbbüslər göstərilmişdi (Bem- Baverk E. e Təsərrüfat nemətlərinin dəyərliliyinin əsas nəzəriyyələrik).**

**Daha sonrakı dövrlərdə (K.Marksdan sonra) əmək-dəyər nəzəriyyəsini (xərclər kimi dərk edilən) son hədd faydalılığı nəzərij^əsi ilə birləşdirmək cəhdləri edilmişdi (E.Bernşteyn, P.Struve, M.Tuqan-Baranovski, A.Marşall, C.Klark, P.Samuelson, O.Şik).**

**Onları birləşdirmək cəhdlərinin hamısı K.Marksın əleyhinə olan meyllərdir və əksər hallarda Marksın əmək-dəyər nəzəriyyəsinin yalnış şərhidir. Lakin K.Marks özü dəyər nəzəriyyəsinin xərclər şərhinin mümkünlüyünü istisna etmirdi.**

**«Kapitalınk birinci cildində o, faydalılığın kəmiyyətindən sərf - nəzər olunur və diqqətini yalnız əmək məsrəflərinin Öyrənilməsi üzərində cəmləmişdi. K.Marksın mücərrəd əmək məsrəfləri vasitəsilə nəzərdən keçirdiyi dəyər bu məsrəflərin faydalılığından kənarda qalır. Bundan başqa, K.Marksda faydalılığın dəyər amili kimi mühüm əhəmiyyət kəsb edən tələb, təklif, bazar qiymətləri rəqabətinin ətraflı işlənib hazırlanmış konsepsiyası yoxdur. Nəhayət, K.Marks əslində istehlak dəyərini və faydalılımı eyniləşdirirdi ki, bu da dəyər nəzəriyyəsində faydalılığın rolunun təhlilini xeyli çətinləşdirdi.**

**Dəyərlilik və qiymətlər nəzəriyyəsinin müasir istiqamətini dəyərin yeganə mənbəyinin axtarışlarından uzaqlaşmağa cəhd göstərmiş və son hədd faydalılığı nəzəriyyəsini tələb və təklif, eləcə də istehsal xərcləri (məsrəflər) nəzəriyyəsi ilə birləşdirmiş məşhur ingilis iqtisadçısı A.Marşall vermişdir. Bununla da o, dəyərin iqtisadi nəzəriyyəsində substansiya təhlilindən funksional təhlilə dönüşü, yəni faydalılığın, tələb-təklifin, xərclərin və qiymətin qarşılıqlı təsirini eyni zamanda müəyyənləşdirməyi həyata keçirdi. A.Marşall dəfələrlə «dəyərk və ebazar dəyərik məfhumlarını işlətsə də, dəyərin mövcudluğunu inkar edirdi. O, «Ekonomiksin prin**

**sipləri» kitabında yazır ki, ən yaxşı iqtisadçı dəyər nəzəriyyəsini araşdırmaq iddiasında olan, hələ üstəlik bu araşdırmanın asan olduğunu hesab etməyə cürət edən deyil, sağlam düşüncəyə və praktik zehnə malik olan insan ola bilər. A. Marşalı iqtisadçıların bu problemlə bağlı mübahisələrini araşdırmış və deyirdi ki, dəyərin faydalılıq, yaxud istehsal xərcləri ilə tənzim olunması ətrafında mübahisə aparmaq, kağız parçasını qayçının yuxarı və ya aşağı ülgücünün kəsməsi ətrafında mübahisə aparmaq kimi bir şeydir. Bununla da o qeyd edir ki, amillərin heç biri müəyyənedici deyil. Ümumi qayda ondan ibarətdir ki, baxılan dövr nə qədər qısa- dırsa, təhlildə tələbin dəyərə təsirini bir o qədər çox nəzərə almaq lazımdır, bu dövr nə qədər uzunmüddətlidirsə, istehsal xərclərinin dəyərə təsiri bir o qədər çox əhəmiyyət kəsb edir. Uzunmüddətli dövrlərdə bu amillər bir-birinin təsirini qarşılıqlı zəiflədirlər və beləliklə, daim fəaliyyət göstərən səbəblər son nəticədə dəyəri tamamilə müəyyənləşdirirlər. Əslində o, deyir ki, dəyər - istehsal xərclərinin faydalılığa olan nisbətidir. A.Marşall deyirdi ki, hər-hansı əşyanın qiyməti onun bütün əşyalara nisbətən mübadilə dəyəri və ya alıcılıq dəyəridir.**

**Dəyərin (dəyərliliyin) ikili təbiəti «ictimai dəyər (dəyərlilik)» və «bazar dəyəri (dəyərliliyi)» kateqoriyalarında təzahür edir.**

**İctimai dəyər - dəyərin ictimai zəruri əmək məsrəflərinin funksiyası kimi ifadəsinin xüsusi keyfiyyət formasıdır, çünki əmtəənin istehsal şərtlərinin xüsusiyyətlərini və istehsal kateqoriyasını ifadə edir.**

**İctimai dəyər sahədaxili rəqabət nəticəsində ictimai dəyərə bərabərləşən fərdi məsrəflərlə formalaşır və tənzim edilir. İctimai dəyərin formalaşması zamanı nəinki fərdi məsrəflərin səviyyəsi, eləcə də bu və ya digər şəraitdə əmtəə istehsalının həcmi də əhəmiyyət kəsb edir. Verilmiş şəraitdə nə qədər çox həcmdə əmtəə yaradılarsa, bu şəraitdə ictimai dəyərin müəyyən edilməsində bir o qədər çox rol oynayar.**

**İctimai dəyərin funksiyaları hansılardır? Birincisi, o canlı əməyin məhsuldarlığının artırılmasının məcburi amilidir (stimuludur). İkincisi, ictimai dəyər istehsalın maddi resurslarının səmərəli istifadə edilməsi amilidir.**

**İctimai dəyər kateqoriyası ilə yanaşı yalnız istehsal şərtləri ilə deyil, həm də bu bazarda satış şərtləri ilə müəyyən olunan bazar dəyərini də fərqləndirmək lazımdır ki, bu da faydalılığın subyektiv qiymətləndirilməsi ilə əlaqədardır.**

**İctimai məsrəflər bazar dəyərində yeni xarakteristika, yəni bu məsrəflərin ictimai zəruri faydalılığı ilə tamamlanır. Əgər əmək məsrəfləri ictimai tələbatlara uyğundursa, onda istehsal edilmiş məhsullar ictimai zəruri faydalılığa malikdir.**

**Bazar dəyəri ikili funksiya yerinə yetirir: birincisi, əməyin ictimai zəruri məsrəflərini (diqqət mərkəzində məsrəflər olmaqla ictimai dəyər), bazarda əmtəə təklifi şəklində təzahür edən istehsal olunmuş əmtəələrin kütləsini əks etdirir; ikincisi, əmək məsrəflərinin bazarda tələb şəklində çıxış edən ictimai tələbata müvafiqliyini üzə çıxarır.**




**Şəkil 9.3. Bazar dəyərinin bazar qiymətinə təkamülü**

**Beləliklə, bazar dəyəri funksional olaraq ikiləşir (şəkil 9.3).**

**Bazar dəyərinin yaranma prosesi bazar qanunları ilə həyata keçirilir.**

**Deyilənlərdən belə bir nəticə çıxarmaq olar ki, iqtisadi əmtəəyə eyni zamanda həm nemət (çünki o, istehlakçıya lazımdır), həm də məsrəflər (çünki onun istehsalı üçün resurslar lazımdır) daxildir. Əmtəənin bu keyfiyyətləri onların faydalılığı (tələbatlarımızı ödədiyi üçün), nadirliyi (çünki onlar təbiətdə məhduddurlar və onların istehsalı üçün məhdud resurslar lazımdır) və resurstutumluğu kimi təzahür edir. İnsanlar iqtisadi əmtəəni əldə edərkən müəyyən məbləğdə pul ödəyirlər.**

### *§3. Pulun mahiyyəti, onun konsepsiyaları və funksiyaları. Pul tədavülü qanunu. Pul sistemləri*

**Pul nədir sualına ən sadə cavab belədir; «Pul adətən əmtəə və xidmətlər müqabilində mübadilədə götürülən şeydir».**

**Həqiqətən də, keçmişdə bir çox şeylər: balıqqulağı, fil sümüyü, duz, xəzlər və s. pul kimi istifadə olunurdu. Lakin bu cür cavab elmi deyil.**

**Pulun yaranmasının və mahiyyətinin rasionalistik və təkamül kimi elmi konsepsiyaları mövcuddur.**

**Rasionalistik konsepsiya pulun əmələ gəlməsini əmtəə mübadiləsində dəyərlərinin hərəkəti üçün xüsusi alətlərin lazım olduğuna əmin olan insanlar arasındakı razılığın nəticəsi kimi izah edir. Bu pula müqavilə kimi yanaşma ideyası XVIII əsrin sonlarına kimi hakim fikir olmuşdu.**

**Pulun yaranmasına subyektiv-psixoloji yanaşma bir çox müasir burjua iqtisadçılarının da görüşlərində özünə yer alıb. Belə ki, P.S2unuelson pula süni sosial şərtilik kimi tərif verir. Amerika iqtisadçısı C.Helbreyt hesab edir ki, «pulun funksiyalarının nəcib metallara və digər cisimlərə şamil edilməsi insanlar arasındakı razılığın məhsuludur*>.**

**Pul - insanlar arasındakı razılığın məhsuludur.**

**Pulun yaranmasının təkamül konsepsiyasına əsasən onun yaranma tarixi ictimai əmək bölgüsünün, mübadilənin, əmtəə istehsalının inkişafının nəticəsidir. Mübadilənin və dəyər formalarının tarixi inkişaf prosesini araşdırarkən, əmtəənin ümumi kütləsindən pul rolunu oynayan və ümumi ekvivalent kimi qəbul olunan bir əmtəənin necə seçilib ayrıldığını başa düşmək olar.**

**Pul - ümumi ekvivalent rolunu oynayan xüsusi növ əmtəədir.**

**Ümumi ekvivalent əmtəənin istənilən digər əmtəəyə dəyişdirilə bilmə qabiliyyətini bildirir.**

**Müasir iqtisad elmi üçün pulun mahiyyətinin onun funksiyalarından çıxarılması mövqeyi səciyyəvidir. Bu tezisi ingilis iqtisadçısı C. Hiks ifadə etmişdir.**

**Pul - pul kimi istifadə olunan şeydir. •**

**Funksiyalar arasında iki başlıca, fundamental funksiya xüsusi rol oynayır:**

- **dəyərin ölçüsü;**
- **tədavül vasitəsi.**

**Nəzəri olaraq pulun təşəkkülü və mövcudluğu üçün bu iki funksiya lazımdır və kifayətdir, çünki onlar pulu dəyərin ifadəsi kimi (müqayisə edilə bilmə) və əmtəə satışını həyata keçirmə vasitəsi kimi xarakterizə edirlər. Pulun yığım vasitəsi və tədiyə vasitəsi kimi digər funksiyaları əsas funksiyalardan törəmiş, ümumi əmtəə və xüsusilə də pul tədavülünün tarixi inkişafı nəticəsində yaranmışlar.**

## Pul dəyər ölçüsü kimi

**Pulun dəyər ölçüsü kimi funksiyası onun bütün əmtəələrin dəyərlərini tutuşduraraq ölçə bilmək qabiliyyətinin ifadəsidir. İlk öncə bu funksiyanı yerinə yetirmək üçün xüsusi əmtəə kimi pul özü dəyərə malik olmalı idi. Tarixən bu funksiyanı qızıl yerinə yetirməyə başlamışdı.**

Marksist dəyər nəzəriyyəsinə əsasən əmtəənin pul şəklində ifadə olunmuş dəyəri onun qiyməti adlanır. Pul ictimai əmək məhsulu olmaqla dəyərə malikdir, lakin qiyməti yoxdur, çünki əks təqdirdə özü-özünə aid olmalıdır.

Qiymət dəyərin ifadə forması olduğu üçün qiymətə dəyərdən daim kənarlaşma imkanı qoyulmuşdur. Əmtəənin dəyərini göstərmək üçün nağd pulun olmasına ehtiyac yoxdur. Dəyərin pulda göstərilməsi ideal xarakter daşıyır, yəni dəyərin ölçülməsi funksiyasını xəyalən təsəvvür edilən ideal pullar yerinə yetirə bilər.

Əmtəənin dəyərinin pulla ifadə olunması nəinki keyfiyyət, eləcə də kəmiyyət müəyyənliyini tələb edir: əmtəənin verilmiş miqdarı müəyyən miqdarda qızıla bərabərdir. Əmtəə və qızılın dəyər miqdarının tutuşdurularaq ölçülməsinə olan ehtiyacdan pulun texniki, yəni qiymətin miqyası funksiyası irəli gəlir.

Qiymət miqyası - pul vahidi şəklində qəbul olunmuş qızılın qanunla müəyyən edilmiş çəki miqdarıdır.

Pulun dəyər ölçüsü kimi funksiyasını, onun texniki funksiyası, yəni qiymət miqyası ilə qarışdırmaq olmaz. Pul ictimai əməyin ifadəsi kimi dəyərin ölçüsüdür. Qiymət miqyası metalın təsbit edilmiş çəkisidir. Pul dəyər ölçüsü kimi ictimai funksiyanı yerinə yetirir, yəni əmtəənin dəyərini ifadə edir; qiymət miqyası texniki funksiya olub qızılın müxtəlif miqdarını ölçməyə xidmət edir.

Dəyər ölçüsü kimi pul kortəbii şəkildə fəaliyyət göstərir, qiymət miqyası isə dövlət tərəfindən müəyyən edilir.

## Pul tədavül vasitəsi kimi

Əmtəə tədavülü prosesi tədavül vasitəsi kimi pula ehtiyac doğurur. Pul əmtəə mübadiləsində vasitəçi kimi çıxış edir (Ə-P-Ə). Əmtəə mübadiləsinin daxilən vahid aktı (Ə-Ə) zahirən müstəqil iki akta bölünür: satış (Ə - P) və alış (P - Ə). Bu aktlar zaman və məkanla ayrılır ki, bu da pulun və

**əmtəənin sərbəst hərəkəti imkanını şərtləndirir. Buraya satış və alışın ayrılması, parçalanması imkanı daxildir. Əmtəə mülkiyyətçisi onu satmaqla dərhal digər bir əmtəəni almağa borclu deyil. Öz əmtəəsinə görə pul aldıqdan sonra pulu özündə saxlaya, yaxud da başqa yerdən əmtəə ala bilər. Lakin əmtəə istehsalçısı əmtəəni almasa, sonuncunun mülkiyyətçisi onu sata bilməz.**

**Əmtəə tədavülünün biri-birini tamamlayan iki akta ayrılması özündə iqtisadi böhranların formal imkanlarını daşıyır, əmtəə istehsalında ziddiyyətlərin daha da dərinləşməsinə aparır.**

**Pulun tədavül vasitəsi kimi funksiyası ilə pulun formaları əlaqəlidir. Bura sikkələr, kağız pullar daxildir. Sikkə xüsusi formalı, çəkili, əyarlı metal külçəsidir. Sikkənin dəyəri dövlət tərəfindən təsdiq edilir.**

**Dəyər ölçüsü funksiyasından fərqli olaraq, tədavül vasitəsi funksiyasını natamam dəyərli pullar, tam dəyərli pulların simvolları, nişanları da yerinə yetirə bilir. Bu, pulun tədavül vasitəsi kimi təbiətindən irəli gəlir. Pul fasiləsiz hərəkətdə olmaqla tədavül vasitəsi funksiyasını ötəri yerinə yetirir. Metal pullar sürtülür, çəkilərini itirirlər. Sikkənin real məzmunu nominaldan fərqlənir. Pul qiymətdən düşür. Natamam dəyərli pullara gümüş, mis pullar da aiddir.**

**Pulun tədavül vasitəsi kimi funksiyası ilə əlaqəli olan forması şəklində kağız pullar çıxış edir. Bu qızılı tədavüldə əvəz edən vasitədir. Kağız pulların real dəyəri yoxdur, onlar qızılın nişanlarıdır, onlara icbari məzənnə verən dövlət hakimiyyəti tərəfindən tətbiq edilir.**

**Bu icbari məzənnə yalnız həmin dövlətin sərhədləri daxilində qüvvəyə malikdir. Kağız pulların real dəyəri dövlət hakimiyyətindən asılı deyil, pul tədavülünün obyektiv qanunları ilə müəyyən olunur.**

**Kağız pulların buraxılışı əmtəə dövriyyəsində qızıla olan tələbatını üstələyirsə, onda onlar qiymətdən düşür. Qiymətlər artır. Bunların hamısı inflyasiyanı xarakterizə edir.**

İnflyasiya - tədavüldə pul dövriyyəsi üçün real tələbatla müqayisədə pul kütləsinin artıqlığında təzahür edən pul tədavülü qanununun pozulması, yaxud da pulun əmtəə qiymətlərinin artması ilə müşayiət olunan qiymətdən düşməsidir.

Beləliklə, tədavül üçün zəruri olan pulun miqdarı problemi böyük əhəmiyyət kəsb edir. Pulun kəmiyyət nəzəriyyəsinin baniləri Ş.Monteskye, C.Lokk və D,Yum idi. Lakin pulun təkamülü tədavüldə pulun miqdarının müəyyən olunmasına yeni yanaşmanı da şərtləndirmişdir ki, bu da öz inikasını pul tədavülü qanunu adını almış pulun miqdarının neoklassik nəzəriyyəsində (A.Marşall, İ.Fişer) tapmışdır.

Bu nəzəriyyəyə əsasən qiymətlərin səviyyəsinin pul kütləsindən asılılığı müəyyənləşdirilir ki, bu da aşağıdakı düsturla ifadə olunur:

$$MV = PQ$$

burada, M - pul vahidləri kütləsi;
V - pul tədavülünün sürəti;
P - əmtəənin qiyməti;
Q - bazarda təmsil olunmuş əmtəələrin miqdarıdır.

Bu düsturu dəyişdirərək əmtəə qiymətlərinin düsturunu alarıq:

$$P = \frac{MV}{Q}$$

Q miqdarda əmtəənin tədavülü üçün lazım olan pulun miqdarı:

$$M = \quad V$$

Kağız pulların qiymətdən düşməsi ilə devalvasiya və denominasiya kimi iqtisadi hadisələr sıx bağlıdır.

Devalvasiya - milli valyuta məzənnəsinin qızıla, gümüşə, yaxud da hər-hansı bir digər valyutaya nisbətən düşmə-

**sini bildirir, O əksər hallarda kupüraların üzərində çoxsaylı sıfırların peyda olması ilə müşayiət olunur.**

**Denominasiya - devalvasiyanın əksi olan hadisədir, ölkənin pul vahidinin iriləşməsidir.**

**Denominasiya sırf texniki prosesdir ki, bunun da nəticəsində tədavüldə olan pul kütləsi artmır, tədavüldən çıxarılan köhnə kupüraların miqdarı tədavülə daxil edilən yeni pul işarələrinin miqdarına bərabərdir. Əksər hallarda iriləşdirmə əmsalı olaraq bir və ya bir neçə sıfırlı vahid (10, 100, 1000 və daha çox) götürülür. Ona görə də, əvvəllər buraxılmış pul işarələrinin əmsalları yeniləri ilə dəyişdirilir. Eyni zamanda elə bu əmsala əsasən əmtəə qiymətləri, xidmətlərə görə tariflər, əmək haqqı hesablanır.**

**Neoklassik məktəb tədavül üçün lazım olan pulun miqdarı problemi ilə pulun dəyəri və mahiyyəti sualını ayrılmaz surətdə əlaqələndirir. Belə ki, müasir dövrdə pul hökumət, mərkəzi (yaxud ABŞ-dä federal, ehtiyat) bank tərəfindən «dekretə verilir», pul dekret vasitəsi kimi müəyyən olunur.**

**Mərkəzi bank pul təklifinə hədd qoymalıdır və bununla da onların əldə olunmasını məhdudlaşdırmalıdır. Əgər pul nisbətən nadir olma xüsusiyyətini itirsə, onda onun qiyməti tamamilə yox olana qədər düşəcək.**

**Pulun dəyər ölçüsü və tədavül vasitəsi funksiyalarını yerinə yetirməsi onun sərvətin tam ifadəsi olmasını və ən çox nağdlaşan (tez həyata keçən) olduğunu göstərir. Buna görə də dünya iqtisadi ədəbiyyatında pulun tam nağdlaşan mübadilə vasitəsi kimi müəyyən edilməsi daha çox yayılmışdır. Pulun bu xassəsi tədricən, əmtəə - pul münasibətlərinin inkişaf dərəcəsindən asılı olaraq, yığım vasitəsi funksiyasını yaradır.**

**Ə - P - Ə dövriyyəsinin iki sərbəst akta (Ə - P və P - Ə) bölünməsi pulun yığılmasına imkan və ehtiyac yaradır. Əmtəə tədavülü prosesində əmtəə istehsalçısında əmtəələrinin satışının (Ə - P) nəticələrini, istənilən vaxtda əmtəə dünyasının istənilən bir nümayəndəsinə çevrilməyə qadir olan**

**bu «qızıl gəlinciyi» özündə tutub saxlamaq meyli ygıranır.**

**Əmtəənin satılmasının ardınca alqı olmursa, onda satıcının əlində satılmış əmtəənin pul şəklində dəyəri qalır. Pullar dəfinə şəklində saxlanılır, əmtəə satıcısı isə dəfinə toplayı- cısı olur.**

**Qızılı özündə pul və ya dəfinə elementi kimi saxlamaq üçün onu tədavüldən çıxarmaq lazımdır.**

**Dəfinə toplayan daha çox satmağa və daha az almağa çalışır.**

**Dəfinə formaları:**

- **qızıl külçələrin, sikkələrin yığılması;**
- **estetik formaların, yəni qızıldan və ya gümüşdən olan zinət şeylərinin yığılması.**

**Dəfinə funksiyasını qızıl yerinə yetirir. Qızıl inkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələrin rəsmi ehtiyatlarının ən mühüm tərkib hissəsidir. XX yüzilliyin sonlarında Rusiya 36 min ton bu metala malik idi. Xüsusi tezavrasiyada 25 min ton qızıl var. Dəfinənin hər iki növünün həcmi 60 min tondan yuxarıdır ki, bu da kapitalist ölkələrində yarım əsrdən artıq istehsal olunan qızıla bərabərdir. Bundan başqa, estetik dəfinə formasında (zərgərlik məmulatlarında) təxminən 13 min ton saxlanılır.**

**Dəfinənin yaranması nəinki pulun tədavül vasitəsi kimi funksiyası ilə sıx bağlıdır, o həm də pul tədavülünün kortəbii tənzim olunmasında müəyyən rol oynayır.**

**Dəfinə — artıq pulların zərurət yarandıqda ötürüldüyü və tədavüldə olan pul kütləsini artırmağa ehtiyac yarandıqda tədavül dairəsinə qaytarıldığı saxlanc yeridir.**

**Pulun tədavüldən dəfinə kimi çıxarılması əmtəə təsərrüfatının erkən pillələrinə xas olan yığım formasıdır.**

## Pul tədiyə vasitəsi kimi

**Əmtəə istehsalı və tədavülü inkişaf etdikcə əmtəənin kreditlə satışının baş verdiyi münasibətlər yaranır.**

**Əmtəənin kreditlə satışını şərtləndirən səbəblər aşağıdakılardır:**

**■ əmtəənin istehsal müddətinin müxtəlif olması;**

**■ əmtəənin satılma müddətinin müxtəlif olması.**

**Əmtəənin kreditlə satışı zamanı pullar əmtəə tədavülü dairəsində fəaliyyət göstərir:**

**■ əmtəənin qiymətlərini müəyyənləşdirərkən dəyərin ölçüsü kimi ideal;**

**■ əmtəənin satıcının əlindən alıcının əlinə keçməsini həyata keçirən ideal alqı vasitəsi kimi;**

**■ əvvəlcədən kreditlə satılmış əmtəənin tədiyə müddətinin başa çatması ilə pul tədiyə vasitəsi kimi birbaşa tədavülə daxil olur və alıcının əlindən satıcının əlinə keçir.**

**Pul tədiyə vasitəsi kimi aşağıdakıların ödənci zamanı əmtəə tədavülü dairəsindən kənarda fəaliyyət göstərir:**

**■ əmək haqqının;**

**■ hər növ maliyyə öhdəliklərinin (borcların, vergilərin və s.).**

**Pulun tədiyə vasitəsi kimi funksiyasından kredit pulları — veksellər, banknotlar, çeklər əmələ gəlir. Kredit pullara həmçinin depozit pullar (banklararası hesablaşma sistemi kimi), elektron pullar (EHM-ın köməkliyi ilə hesablaşma sistemi, «SWİFTs»), «plastik pullar», American Express, Union və s. «kredit kartları«• aiddir.**

**Pulun növləri şəkil 9.4-də göstərilmişdir.**

**Tədavüldə pulaqədərki ekvivalentlər, eləcə də nominal dəyəri tərkiblərindəki metalın dəyərindən artıq olan billon pullar, metal pullar istifadə olunur.**

**Kağız pulların banknotlardan fərqi:**

**1. Kağız pullar tədavül vasitəsi funksiyasını, banknotlar isə tədiyə vasitəsi funksiyasını yerinə yetirir,**

**2. Kağız pullar dövlət tərəfindən dövlətin ehtiyacları üçün, banknotlar isə emissiya bankları tərəfindən əmtəə tədavülünün ehtiyacları üçün buraxılır.**

**3. Kağız pullar qızılla təmin olunmur, banknotlar isə qızılla, eləcə də bazarın sərəncamında olan digər qiymətli**

**şeylərlə, xüsusi veksellərlə, invalyuta ilə təmin olunur.**

**Beləliklə, tədiyə vasitələri kimi real pullar - qızıl, sikkələr, kağız pullar, kredit pullar (veksel, banknot, çek) çıxış edirlər.**

**Müxtəlif ölkələr arasındakı iqtisadi dövriyyədə pulun nəzərdən keçirilən funksiyalarının yerinə yetirilməsi onu dünya pulu edir.**

**Dünya bazarında pul rolunu çəki ilə götürülən qızıl oynayır.**

**Dünya pulları:**

- **dəyərin ümumi ölçüsü kimi fəaliyyət göstərir;**
- **ümumi tədiyə vasitəsi kimi təsir göstərir;**
- **ümumi alqı vasitələri kimi çıxış edir;**
- **ictimai sərvətin ümumi təcəssümünə xidmət edir, məsələn, qızılın bir ölkədən digərinə ötürülməsi.**

**Pulun yaranmasının, mahiyyətinin və funksiyalarının öyrənilməsi, onun müasir təkamülünün daxili mexanizmini anlamaq və bazar iqtisadiyyatında səmərəli istifadəsi üçün ən vacib şərtdir.**

**Pulun təkamülü ikili prosesdir: bu, bir tərəfdən bütün pul sisteminin onun metal əsası ilə şəklini dəyişən əlaqəsidir (demonetizasiya); digər tərəfdən isə pulun ayrı-ayrı funksiyalarının və konkret formalarının inkişafının müxtəlif dərəcələri və müxtəlif istiqamətləridir.**

**Müasir şəraitdə pul rolunda əslində qızıl deyil, kredit-kağız pullar çıxış edir. Bu nəyə görə baş verdi? Qızıl müasir şəraitdə də dəyərin ölçüsü funksiyasını yerinə yetirmək qabiliyyətini itirməmişdir, çünki o öz xassəsini saxlamışdır. Lakin mübadilə prosesində bu və ya digər əmtəədə məhz hansı dəyərin olduğunu müəyyənləşdirməyə deyil, onun mübadiləyə təklif olunan əmtəənin dəyərindən neçə dəfə çox və ya az olduğunu aydınlaşdırmağa ehtiyac yaranır.**

**Deməli, pulun funksiyası nəticə etibarı ilə dəyərlərin müqayisə oluna bilməsidir, dəyərlərin ölçüsü funksiyası isə istehsal münasibətlərinin müəyyən mərhələsində xüsusi təzahürdür.**




**Şəkil 9.4. Pulun növləri**

**Dəyərləri tutuşduraraq ölçmək üçün mütləq hər hansı real mövcud olan əşyavi formalı əmtəənin dəyərindən istifadə etmək tələb olunmur. Əmtəə tədavülü əmtəənin pula deyil, məhz əmtəəyə mübadiləsi məqsədi ilə həyata keçirilir. Ona görə də əmtəə tədavülü nəzərincə vacibdir ki, tədavüldə olan pul dəyəri, mübadilə edilən əmtəələrin ekvivalent dəyərini göstərsin, lakin onların özlərinin də məhz belə dəyərə malik olması vacib deyil.**

**Məhz bu, qızılı özləri də xüsusi əmtəə olan sadə kağız nişanları ilə əvəz etməyə imkan verdi.**

**Kredit kartı tədiyə hesablaşması və kredit funksiyalarını özündə birləşdirir. O çekin özünəməxsus adlı əvəzedicisidir və pulun tədiyə vasitəsi kimi funksiyasını yerinə yetirir.**

**Kredit kartları ( o vaxtlar «borc kartları» adlanırdılar) ilk dəfə 1915-ci ildə ABŞ-da meydana gəlmiş və «Dayners klab» firması tərəfindən buraxılmışdı.**

**Kredit kartlarının növləri;**

**1) bərpa olunan kartlar - belələri, məsələn, «Viza», «Masterkard» kimiləri əsasən mağazalarda, restoranlarda hesablaşmaq üçün istifadə olunur. Kart öncədən müəyyənləşdirilmiş limitə malikdir. Borc ödənildikdən şonra kart bərpa olunur;**

**2) bir aylıq kartlar - «Amerikan ekspress», «Dayners klab»- turist firmaları ilə hesablaşmaq üçün istifadə olunur. Bunlara «səyahət və əyləncə» kartları da deyilir. Onlara limit qoyulmur, lakin borc ayın axırında ödənilməlidir;**

**3) firma kartları ayrı-ayrı şirkətlər tərəfindən («Amerikan ekspress «Barkleyz kard^, «Trastkard») buraxılır. Bu kartların köməyi ilə müxtəlif xidməti xərclər ödənilir. Biraylıq kartlar kimi fəaliyyət göstərir;**

**4) mükafat və ya «qızıl», kredit kartlar - «Ameks qould kard», «Qould masterkard», «Premyer kard Viza». Bu cür kartlar yalnız borclarını vaxtında ödəyən yüksək illik gəliri olan müştərilərə verilir. Onların üstünlüyü aşağıdakılardır:**

- **ya limiti olmur, ya da olduqca yüksək olur;**
- **güzəştlə kredit almaq hüququ verir;**
- **müştəri avtomatik olaraq bədbəxt hadisələrdən samballı sığorta, otellərdə qabaqcadan ayrılmış yer əldə edir.**

**Pulun təkamülü prosesinin növbəti mərhələsi nağd pulların avtomatik verilməsi sistemi hesabına geniş yayılan debet kartların buraxılması oldu. Bu «elektron pullar» adını almış EHM-ın köməyi ilə aparılan hesablaşma sistemidir. Pul dairəsində kağız məlumat daşıyıcılarından elektron ötürmə-**

**lərinə keçmə istehsal və tədavül dairəsinə elektron hesablama avadanlıqlarının daxil edilməsi ilə mümkün olur.**

**Elektron pullar sisteminə bir sıra elementlər daxildir: avtomatlaşdırılmış hesablaşma palatası, avtomatlaşdırılmş kassir sistemi və əmtəələrin alınma, yaxud xidmət göstərilmə məntəqələrində təsis edilmiş terminallar sistemi. Avtomatlaşdırılmış hesablaşma palatası vahid hesablama mərkəzi ilə əlaqələnən banklar şəbəkəsidir. Avtomatlaşdırılmış kassir bir sıra pul əməliyyatları aparmağa - bank hesabından pul çıxarmağa, əmanəti almağa, ödənişlərə - imkan verir.**

**Pulun təkamülü dəyərin Ölçüsü kimi qızılın demonetiza-siya prosesi ilə bağlıdır. Yüksək inkişaf etmiş əmtəə forması şəraitində qiymətin əmələ gəlməsi prosesi özünün qızıl əsasından tamamilə aynlır və daxili dəyəri olmayan kredit pullarla həyata keçirilir. Bu proses kağız pulların qızıla dönməsinin ləğv edilməsi ilə əlaqədardır. Buna sübut kimi aşağıdakıları göstərmək olar:**

- **qızılın qiyməti möhtəkir tələbin təsiri altında formalaşır və istehsalın qiymətini üstələyir. Bu P.Samuelsonun bədii ifadəsinə əsasən əsl «dəli bazarıdır»;**
- **qızılın qiymətinin hərəkəti dönərli edilmiş valyutanın, eləcə də dolların alıcılıq qabiliyyətinin dəyişilməsindən ayrılmışdır;**
- **əmtəə qiymətlərinin dəyişilməsi qızılın qiymətinin dəyişilməsinə uyğun gəlmir.**

**Birinci Dünya müharibəsi zamanı qızıl tədavüldən tamamilə çıxmışdı. Bu qızılın demonetizasiyasınm ilk mərhələsi oldu. Bir çox dövlətlərdə banknotların qızıla dəyişdirilməsi dayandırılmışdı. Əvvəlcə qızıl külçə standartı (banknotların qızıl sikkələrə deyil, külçə şəklində olan qızıla dəyişdirildiyi pul sistemi), daha sonra isə qızıl-deviz standartı (banknotla- rın devizlərə, yəni xarici valyutalara dəyişdirildiyi pul sistemi) tətbiq edildi. XX əsrin 30-cu illərində bütün kapitalist ölkələrində banknotların qızıla sərbəst dəyişdirilməsi dayandırıldı və bir daha bərpa edilmədi.**

Qızılın demonetlzasiyasının ikinci mərhələsi kağız pulların rəsmi qızıl ehtiyatı ilə nəinki faktik, eləcə də formal əlaqələrinin zəifləməsi oldu ki, bu da son illərə kimi davam edirdi. Kağız pulların məzənnəsi hazırda dövlətin qızıl ehtiyatından həlledici şəkildə asılı deyil.

Pulun təkamülü prosesi tədavül prosesinin səmərələşdirilməsi tələbinin güclənməsi ilə yeni səbəblər (təkanlar) əldə edir. Bunun əsasında aşağıdakı mövqelər durur:

■ tədavülün optimallaşması nöqteyi-nəzərindən yalnız dəyərin formasını dəyişmək üçün nəzərdə tutulmuş tədavül vasitələri xərcləri artıqdır, səmərəsizdir;

■ pullar (həm tam, həm də natamam dəyərli), daha doğrusu, nağd pullar funksional gərəksiz olurlar, çünki dəyərin təsbit edilmiş surəti deyil, onun formalarının bir-birini əvəz etməsi lazımdır.

Bunların hamısı pulun ənənəvi formasının aradan qaldırılmasına səbəb olur, onların yerini tədiyə vasitəsi funksiyasından irəli gələn kredit pullar tutur.

Tədiyənin kifayət qədər təmərküzləşməsi şəraitində borc öhdəliklərinin qarşılıqlı ödənilməsi və inkişaf etmiş hesablaşma texnikası ilə qarşılıqlı ödənilməsi dövriyyədə pul kütləsini xeyli azaltmağa imkan verir. Bu cür qənaət ikili səmərəyə malikdir. O aşağıdakıları artırır:

■ tədavül vasitələrinin səmərəliliyini;

■ pul tədavülünün sürətini.

Qızılın kredit pullar tərəfindən sıxışdırılıb çıxarılması özünün sonrakı inkişafını nisbətən yeni təzahürdə, yəni dövriyyədən pul funksiyası daşıyıcılarmm (banknotlar, çek- lər və s.) xeyli hissəsinin kredit kartlarından istifadəetmə yolu ilə aradan qaldırılması formasında tapdı.

Dəyişikliklər pulun yığım vasitəsi funksiyalarına da təsir göstərdi: onlar tədavüldə pul kütləsinin kortəbii nizamlayı- cısı rolunu yerinə yetirməyi dayandırdılar. Bunu onunla izah etmək olur ki, xırdalanmayan pul nişanlarının tədavülü zamanı qızıl avtomatik olaraq dəfinədən tədavülə və əksinə

**keçə bilmir. Bu qızıl standartı zamanı mümkün idi. Hazırda qızıl dəfinə funksiyasını yerinə yetirməkdə davam edir, lakin məhdud miqyasda.**

**Kredit və kağız pullar dəfinə yaratma vasitəsi funksiyasını yerinə yetirə bilmir, çünki onların özlərinin əsl dəyəri yoxdur. Lakin onlar mötəbər dəyərə malikdir və yığım vasitəsi rolunda çıxış edir. Əmtəə istehsalı şəraitində yığım pul formasında olur. Yığım funksiyasında pul təkrar istehsal prosesinə (istehsal, bölgü, mübadilə^ istehlak) xidmət edir.**

**Dünya pullarına gəldikdə isə, müasir şəraitdə dəyişikliklər onlara da təsir etmişdir.**

**■Dünya pullarının funksional formaları kimi dönərli (xarici valyutalara dəyişdirilə bilən) milli kredit pulları və beynəlxalq hesablaşma pul vahidləri - SDR və ekyu geniş istifadə olunur, avro valyuta da yayılmağa başlayır.**

**■Qızıl yalnız müstəsna hallarda, tədiyə qabiliyyətli balansının saldosunu ödəmək üçün və beynəlxalq öhdəliklərin ifadə olunduğu milli valyutaları qabaqcadan satmaq yolu ilə dolayısı ilə istifadə olunur.**

**■Pul tədavülünün təkamülünün öyrənilməsi bazar münasibətlərinin dərki və puldan mikro-, makroiqtisadiyyat və dünya təsərrüfatı səviyyəsində istifadə üçün vacibdir.**

## Pul sistemləri

**Pul sistemləri ölkədə tarixən yaranan və milli qanunvericiliklə təsbit edilən pul tədavülünün təşkili formasıdır.**

**Pul sisteminin tipi pulun hansı formada - ümumi ekvivalent olan əmtəə kimi, yaxud dəyərin nişanları kimi fəaliyyət göstərməsindən asılıdır. Bununla əlaqədar olaraq pul sistemlərinin aşağıdakı tiplərini ayırırlar:**

**■pul əmtəəsinin bilavasitə tədavül etdiyi və pulun bütün funksiyalarını yerinə yetirdiyi, kredit pulların isə metala dəyişdirilə bildiyi metal tədavülü sistemləri;**

**• qızılın tədavüldən sıxışdınlıb çıxarıldığı kredit və**

**kağız pulların tədavül sistemi.**

**Ölkədə ümumi ekvivalent və pul tədavülü bazası kimi qəbul olunmuş metaldan asılı olaraq bimetalizm və monome- talizm fərqləndirilir.**

**Bimetalizm ümumi ekvivalent rolunu iki nəcib metalın (adətən qızıl və gümüş) oynadığı, hər iki metaldan sərbəst pul kəsilməsi və onların qeyri-məhdud tədavülü nəzərdə tutulan pul sistemidir.**

**Bimetalizm XIV-XVII əsrlərdə, bir sıra Qərbi Avropa ölkələrində isə XIX əsrdə də geniş yayılmışdı. 1865-ci ildə Fransa, Belçika, İsveçrə və İtaliya bimetalizmi Latın Sikkə İttifaqı adlanan beynəlxalq sazişin köməyi ilə saxlamağa cəhd etdilər.**

**Lakin bimetal pul sistemi inkişaf etmiş bazar təsərrüfatına uyğun gəlmir, çünki eyni zamanda iki metalın dəyərin ölçüsü kimi istifadə edilməsi pulun bu funksiyasının təbiətinə ziddir. Ümumi dəyərin ölçüsü yalnız bir əmtəə ola bilər.**

**Bazarın inkişafı sabit pul, vahid ümumi ekvivalent tələb edirdi. Ona görə də bimetalizm yerini monometalizmə verdi.**

**Monometalizm bir metalın (qızıl və ya gümüş) ümumi ekvivalent və pul tədavülünün əsası olduğu pul sistemidir. Fəaliyyətdə olan sikkələr və dəyərin nişanları qiymətli metallara dəyişdirilə bilər. Gümüş monometalizmi Rusiyada 1843-1852-ci, Hindistanda 1852-1893-cü, Hollandiyada 1847-1875-ci illərdə mövcud olub.**

**İlk dəfə qızıl sikkə standartı (monometalizm) pul sistemi tipi kimi Böyük Britaniyada XVIII əsrin sonlarında təşəkkül tapmışdır və 1816-cı ildə qanunvericiliklə təsbit edilmişdir.**

**Dəyər nişanlarının qızıla dəyişdirilə bilməsinin xarakterindən asılı olaraq qızıl monometalizminin 3 növünü fərqləndirirlər: qızıl sikkə standartı, qızıl külçə standartı və qızıl deviz (qızıl valyuta) standartı.**

**Qızıl sikkə standartı azad rəqabət dövründə bazarın tələblərinə daha çox uyğun gəlirdi, istehsalın kredit sisteminin, dünya ticarətinin inkişafına və kapitalm ixracına imkan**

**Qızıl külçə standartında qızıl sikkəlidən fərqli olaraq, tədavüldə qızıl sikkələr və onların sərbəst kəsilinəsi olmur. Banknotlar digər natamam dəyərli pullar kimi yalnız qızıl külçələrə dəyişdirilir.**

**Avstriya, Almaniya, Danimarka, Norveç və digər ölkələrdə qızıl deviz standartı tətbiq edilirdi ki, burada da qızıl sikkələrin tədavülü və onların sərbəst kəsilməsi olmur. Natamam dəyərli pulların dəyişdirilməsi qızıl külçə standartlı ölkələrin valyutalarına dəyişdirilməsi yolu ilə aparılır. Beləliklə, qızıl deviz standartında bir ölkənin valyutası digər dövlətlərin valyutasından asılı olur.**

**1929-1933-cü illərdə dünya iqtisadi böhranı nəticəsində qızıl standartı bütün ölkələrdə ləğv olundu və xırdalanmayan banknot tədavülü sistemi təsdiqləndi.**

# X FƏSİL. BAZAR MEXANİZMİ: BAZARIN MAHİYYƏTİ, ELEMENTLƏRİ, QANUNLARI

*§1. Bazar mexanizminin və bazann əsas ganunlanmn xaraktenstikası.*
*§2. Tələb və tələbin azalması qanunu. Tələbin elastikliyi.*
*§3. Təklif və təklifin dəyişmə qanunu. Təklifin elastikliyi.*
*§4. Bazar tarazlığı. Tələb və təklif qanunu.*

**Bazar iqtisadiyyatı sistemində özütənzimlənən mexanizm kimi, bazar mexanizmindən istifadəsiz bazar mümkün deyil. Bazar mexanizmi bazar subyektləri və onların məhsul istehsalı və satışında, həmçinin kapital qoyuluşu sahəsində maraqlarının qarşılıqlı əlaqəsini və qarşılıqlı təsirini təmin edir. Bunun necə baş verməsi sualına cavab bu fəsildə verilir.**

## *§1. Bazar mexanizminin V9 bazarın* asos *qanunlarının xarakteristikası*

**Məlumdur ki, istənilən təsərrüfat mexanizmi qarşılıqlı əlaqədə olan elementlərin məcmusudur, elementlərin hərəkət dinamikasını, həmçinin iqtisadi sistemin təşkilati quruluşunu müəyyənləşdirən iqtisadi qanunlar məcmusudur.**

**Bazar mexanizmi bazann əsas elementləri: tələb, təklif, qiymət, rəqabət və bazarın əsas iqtisadi qanunlarının qarşılıqlı əlaqə və qarşılıqlı təsir mexanizmidir.**

**Bunlar bazarın əsas parametrləridir ki, istehsalçı və istehlakçılar bazar təsərrüfat sistemində öz iqtisadi fəaliyyətlərində onları əldə rəhbər tuturlar. Bu bazar münasibətlərinin əsası, bazann mahiyyətidir.**

**istehsal tərəfdən təklif, istehlak tərəfdən tələb çıxış edir. Bazarda biri-birinə qarşı dursalar da, bu iki element biri- biri ilə qırılmaz tellərlə bağlıdır. Onları əks istiqamətlərə yönəlmiş iki qüvvə ilə müqayisə etmək olar. Bazann konkret şəraitlərindən asılı olaraq təklif və tələb az və ya çox müddətə taraşlaşırlar. Tələb və təklifin tarazlığı vəziyyətinə gəl**

məsi kortəbii və dövlətin tənzimləyici təsiri altında baş verə bilir.

Qeyd olunmalıdır ki, bazar mexanizmi öz şəxsi məqsədlərini güdən (mənfəət) sahibkarları son nəticədə istehlakçının xeyrinə hərəkət etməyə məcbur edən vadaretmə mexanizmi kimi fəaliyyət göstərir. Bu necə baş verir?

Dəbdə olan əmtəəyə ödənməmiş tələb tələbin qiymətini artırır, lakin tələbatı tam ödəmir. Əmtəə istehsalçıları seçim qarşısındadırlar: ya istehsalı genişləndirib qiyməti aşağı salmaq və beləliklə, çox sayda alıcının tələbatını ödəmək, ya da rəqiblər bazardakı bu boşluğu doldurub müştəriləri və onlarla bir yerdə nəinki yüksək mənfəət (yüksək qiymətdən), hətta mənfəəti də əldən alıncaya qədər yüksək qiyməti saxlamaq. Bu təhlükə istehsalçını vaxtında istehsalı genişləndirib bazar tam doluncayadək qiyməti aşağı salmağa vadar edir. Belə mexanizm rəqabət olanda işləyir.

Bu mexanizmin işləməsi dilə tutmağa deyil, insan üçün təbii olan maddi rifaha can atmağa əsaslanır.

İstehsalçı və istehlakçıların, satıcı və alıcıların iqtisadi vəziyyəti çoxsaylı amillərin təsiri altında dəyişən bazar konyunkturasından asılıdır.

Bazar konyunkturası bazarda əmtəə və xidmətlərin realizə olunduğu hər bir zaman kəsiyi anmda yaranan iqtisadi şərtlər məcmusudur. O bazann vəziyyətini səciyyələndirən iqtisadi göstəricilərlə: tələb və təklifin nisbəti, qiymətin səviyyəsi, bazarın tutumu, istehlakçıların tədiyə qabiliyyəti, əmtəə ehtiyatlarının vəziyyəti və s, müəs^ənləşdirilir. Özü də tələb və təklifin nisbəti mühüm rol oynayır, çünki əksər vaxt satıcı və alıcıların taleyini məhz bu müəyyənləşdirir.

Mənfəətin dəyişməsi bazarın istehsala xəbər verən barometridir. Əmtəə istehsalçısı öz təsərrüfat fəaliyyətində labüd olaraq mənfəət maraqlarını əldə rəhbər tutur. Mənfəət qiymətdən, istehsal həcminin artmasından və kapitalın dövriyyə sürətindən asılıdır. Müəssisənin mənfəətə yönəlməsinin xarakteri tarazlı bazar və defisit iqtisadiyyat

**tiv xudpəsəndlik yaranması və müəssisədə mənfəətin rolunun hədsiz şişirdilməsi zamanı dəyişir.**

**Bazar mexanizmini qiymətlərin yaranması və resursların bölüşdürülməsi mexanizmi kimi, əmtəə satıcıları və alıcılarının onların kəmiyyəti, keyfiyyəti, istehsalın quruluşunun müəyyənləşdirilməsində qarşılıqlı əlaqədə olması mexanizmi kimi səciyyələndirmək olar.**

**Bazar mexanizminin dərk edilməsi onun fəaliyyətinin və ondan istifadənin əsasında duran iqtisadi qanunların aydınlaşdırılmasını tələb edir. Bu - dəyər (qiymət) və faydalılıq, rəqabət, azalan tələb, təklifin dəyişməsi, qiymət tarazlığı və s. qanunlarıdır.**

## Dəyər qanunu

**Klassik ingilis və marksist siyasi iqtisadına görə, dəyər qanunu əmtəə istehsalının mərkəzi qanunudur. Bu qanuna görə əmtəə istehsalı və mübadiləsi və deməli, iqtisadiyyatın nisbətlərinin müəyyənləşdirilməsi ictimai zəruri əmək sərfinə müvafiq olaraq həyata keçirilir.**

**Dəyər qanunu dəyərin pulla ifadə olunmuş qiymət qanunudur. Yuxanda göstərildiyi kimi, dəyərin substansiyası ictimai zəruri iş vaxtı ilə ölçülən mücərrəd ictimai zəruri əməkdir. Bu o deməkdir ki, mübadilə nisbətlərinin müəyyənləşdirilməsində əmtəə istehsalına sərf olunan fərdi əmək və iş vaxtı deyil, yalnız bazarın qəbul etdiyi əmək və iş vaxtı həlledici əhəmiyyət kəsb edir. Kifayət qədər dəqiqliklə demək olar ki, ictimai zəruri vaxt həmin növ əmtəənin əsas kütləsinin istehsalına sərf olunan vaxtdır. Dəyər qanunu öz funksiyalan vasitəsilə təzahür edir ki, bu da şəkil 10.1.-də göstərilib.**




**Şəkil 10.1. Dəyər qanununun funksiyaları**

**Dəyər qanununun fəaliyyəti üçün ən mühüm şərt - bazar mexanizmli azad bazarın olmasıdır. Əmək məhsullarının əsas hissəsi əmtəə forması alanda dəyər qanunu istehsalın tənzimləyicisi olur. Bu kapitalizmdə və qanşıq iqtisadiyyatda özünə yer alır.**

**Hər bir konkret halda qiymətlə dəyər üst-üstə düşmür. Bununla belə bütün bazar miqyasında əmtəə qiymətlərinin cəmi dəyərlərin cəminə bərabərdir, qiymətlərin öz ətrafında dəyişdiyi mərkəz dəyərdir. Dəyər qanunu bu mənada qiymətin dəyərdən çoxsaylı yayınmalarından özünə yol açır, özünün həyata keçməməsi yolu ilə həyata keçir.**

## Azalan (hədd) faydalılıq qanunu

**Bazar mexanizminin təhlili faydalılıq həddi nəzəriyyəsinin təhlili aparılmadan mümkün deyil. Hələ XIX əsrin sonunda Avstriya məktəbinin nümayəndələri (E.Bem-Baverk, K.Menger, P.Vizer) faydalılıq həddi nəzəriyyəsini təbliğ etməyə başlamışdılar. Bu nəzəriyyənin məğzi ondadır ki, iqtisadi nemətin qiymətliliyi müəyyən tələbatı ödəyən həmin nemətin son hədd faydalılığı ilə müəyyənləşir. Bu müddəanı başqa cür də vermək olar: nemətin qiymətliliyi bu və ya digər miqdarda nemətlə təmin edilən tələbatlar sırasında sonuncu yer tutan tələbatın mühümlüyü (intensivliyi) ilə müəyyənləşir.**

**Bu nəticələr əsasən XIX əsrin I yarısı alman iqtisadçısı Q.Qossenin qanununa əsaslanır. Onun birinci qanununa görə, tələbat ödənildikcə hər yeni nemət vahidinin istehlakından alınan ləzzət dərəcəsi azalır. Qossenin bu qanunundan azalan (hədd) faydalılıq qanunu irəli gəlir ki, bu qanuna gorə iqtisadi nemətin faydalılığı tələbatın ödənilməsi üçün onun istifadə olunan miqdarının azalan funksiyasıdır. Real gerçəklikdə bu prinsipi təsdiqləyən misallar çoxdur. Məsələn, yeyilən birinci porsiya dondurma, çox güman, ən çox ləzzət verir (daha çox faydalılıga malikdir), ikincinin verdiyi ləzzət, güman ki, az, üçüncününkü isə daha az olur. Növbəti porsiya dondurmanın mənfi faydalılığ'a malik olacağını da təsəvvür etmək mümkündür.**

**Faydalılıq həddi nəzəriyyəsinə görə istehlakçı Özü şəxsən Özü üçün nemətin faydalılığını müəyyənləşdirə bilər və buna görə də əmtəənin qiyməti əsasında bu və ya digər nemətin faydalılığı dura bilər. Bu sırf subyektivçilik yanaşması çoxsaylı həyati misallarla təsdiqlənir. Məsələn, hədsiz dəbdə olan qısa yubkanın qız üçün və «yaşlı» qadın üçün faydalılığı (müvafiq olaraq qiyməti də) müxtəlifdir.**

**Bazar inkişaf etdikcə, onda alıcının rolu dəyişdikcə, qiymətin formalaşmasında faydalılıq həddi qanununun rolu artır.**

## Tələb və təklifin dəyişməsi qanunu

**Tələb və təklifin dəyişməsi qanunun bazar iqtisadiyyatının ən mühüm qanunudur. Əmək dəyəri nəzəriyyəsi tərəfdarları hesab edirlər ki, bu qanun qiymətin dəyər ətrafında artıb-azalmasını müəyyənləşdirir. Faydalılıq həddi nəzəriyyəsi tərəfdan olan iqtisadçılar bu qanundan əmtəə və xidmət bazarlarında qiymətin dəyərdən asılı olmayaraq yaranmasını izah etmək üçün istifadə edirlər.**

**Tələb və təklifin dəyişməsi qanununa görə qiymətlə təklif arasında düz, qiymətlə tələb arasında tərs mütənasiblik möv**

**cuddur. Bu isə o deməkdir ki, bütün başqa şərtlər eyni olmaqla qiymət artdıqda əmtəə və xidmətlərin təklifi artır, onlara tələb isə azalır, qiymət aşağı düşdükdə isə təklif azalır, amma tələb isə artır.**

**Bazar mexanizminin xüsusiyyəti onun hər bir elemeu' tinin tələb və təklifə təsir edən əsas alət olan qiymətlə sıx bağlı olmasıdır.**

**Bu asılılığı diqqətlə nəzərdən keçirək.**

### *§2. Taləh va talahin azalması qanunu. Tələbin elastikliyi*

### Tələbin ümumi xarakteristikası

**Qərb iqtisadi ədəbiyyatında tələb münasib qiymətə və müəyyən zaman kəsiyində alma biləcək əmtəə miqdarma deyUir.**

**Bazarda tələb istehlakçı, daha doğrusu, alıcı tərəfdə çıxış edir və insanların tələbatını əks etdirir. Buna görə də tələb dedikdə bazarda əmtəə şəklində təmsil olunmuş tələbat başa düşülməlidir. Lakin bu hər tələbat deyil, yalnız təmin olunmalı olan və pul ekvivalenti ilə təmin edilmiş, yəni tədiyə qabiliyyətli tələbdir. İqtisadçı üçün tələbin həqiqi nümayəndəsi yalnız alacağının müqabilində onun ekvivalentini təklif edə biləndir. Müasir şəraitdə belə ekvivalent qismində pul çıxış edir. Buradan da məlumdur ki, tədiyə qabiliyyətli tələb tələbata bərabər deyil. Sonuncular daha çox ola bilər.**

**Mübadilə və bazar inkişaf etdikcə tələb kateqoriyası da dəyişilir. Belə ki, əmtəə əmtəəyə dəyişdirilərkən tələb pul şəklində deyil, dəyişdirilməli olan və mübadilə zamanı ekvivalent qismində çıxış edən əmtəə şəklində təmsil olunur. Əmtəə mübadiləsi və bazarın inkişaf etməsilə, pulun və əmtəə tədavülünün yaranması ilə tələb artıq pul şəklində çıxış edir, yəni tədiyə qabiliyyətli tələb kimi təzahür edir. Sonuncudan fərqli olaraq, tədiyə qabiliyyətli tələb yalnız pul ekvivalenti ilə təmin olunmuş deyil, həm də mütləq «bazara**

**çıxarılmış^ tələbatdır. Keynsə görə, bu səmərəli tələbdir. O çox konkretdir (tədiyə qabiliyyətli tələbdən fərqli olaraq), çünki həmişə müəyyən əmtəə və ya xidmətin alınmasına yö- nümlənir.**

**Tədiyə qabiliyyətli tələblər istehsal amillərinə (bu, istehsalın tələbidir) və istehlak şeylərinə (əhalinin tələbi) olan tələblərə bölünürlər. Sonuncu əhalinin əlində, əmanət kassalarında olan pul kütləsinin həcmindən, müxtəlif ödənişlərdən və mirasdan, bazarın Ölçülərindən, əmtəənin qiyməti, fayda- lılığı və keyfiyyətindən, subyektiv zövqlərdən çox asılıdır.**

**Tələb həqiqi (əmtəə və xidmətləri real göstərilən tələb), realizə olunmuş (həqiqi tələbin bazarda alınmış əmtəə və xidmətlərdə realizə olunmuş hissəsi) və təmin edilməmiş (həqiqi tələbin lazımi əmtəənin olmaması və ya onların çeşidinin və keyfiyyətinin alıcıların tələbatlarına cavab verməməsi səbəbindən realizə olunmayan hissəsi) kimi növlərə bölünür. Təmin edilməmiş tələb ən müxtəlif formalar alır: gizli, aşkar, cari, mobil və toplayıcı. Bazar şəraitini düzgün başa düşmək, təmin edilməmiş tələbin aradan qaldırılması məqsədilə səmərəli ölçülərin götürülməsi üçün belə tələbin bütün formalarının - həm həcminə, həm quruluşuna, həm ayrı-ayrı əmtəələr, bölgələr, maddi təminat səviyyəsi ilə fərqlənən sosial-iqtisadi əhali qrupları (ailələr) üzrə daha dəqiq qiymətləndirilməsinə can atmaq lazımdır.**

**Amerika iqtisadçısı X.Leybenstayn istehlak tələbini funksional və qeyri-funksionala bölür. Tələbin əmtəənin öz xüsusiyyətləri ilə şərtlənən hissəsi funksional, əmtəənin xüsusiyyətləri ilə bağlı olmayan hissəsi isə qeyri-funksional hesab olunur. Əhalinin çox hissəsi eyni əmtəələri alır. Əhalinin bir qismi ətrafdakılardan fərqlənmək üçün əmtəə alır: təsir bağışlamaq məqsədilə əmtəənin nümayişkaranə istehlakı. Bu effekti Veb- len effekti adlandırırlar. Leybenstayn həmçinin ehtikar və qeyri-səmərəli tələbləri də fərqləndirir.**

**Ehtikar tələb yüksək inflyasiya gözlənilmələri üə, qeyri-səmərəli isə alıcLİarm səmərəli davramşmdakı**

**Əhalinin tədiyə qabiliyyətli tələbi istehlakdan çox və ya az ola bilər. Ümumi istehlak fondunun 60% -dən çoxunu təşkil edən şəxsi əmlakı nəzərə almasaq, tələb istehlakdan təmin edilməmiş tələb qədər artıqdır. Toplanmış əmlak nəzərə alındıqda isə istehlak tələbdən həmişə çoxdur.**

**Tələb olduqca mütəhərrik, dəyişkəndir, çünki onun həcminə və dinamikasına çoxsaylı həm iqtisadi, həm sosial, həmçinin texnoloji səciyyəli amillər təsir edir. Əmtəəyə tələb, məsələn, reklamdan istifadə, dəbin və zövqlərin, istəklərin, ətraf mühitin, əmtəənin əldə olunması imkanlarının, gəlirin səviyyəsinin, əmtəənin faydalılığının, qarşılıqlı əvəzlənən əmtəələrin qiymətlərinin, əhalinin sayının, gələcək qiymət gözləmələrinin və s. dəyişməsi nəticəsində arta bilər.**

**Bununla əlaqədar olaraq ekzogen və endogen tələb fərqləndirilir. Ekzogen tələb azad bazar sisteminə hökumətin müdaxiləsi və ya kənardan hər hansı bir qüvvənin nüfuz etməsi nəticəsində dəyişilən tələbdir. Endogen və ya daxili tələb cəmiyyətin özündə mövcud olan amillərin nəticəsində cəmiyyətin daxilində yaranan tələbdir.**

## Tələbin azalması qanunu

**İnsanların aldığı əşyaların qədəri həmişə əmtəənin qiymətindən asılıdır. Əmtəənin bazar qiyməti ilə ona göstərilən tələbin kəmiyyəti arasında həmişə müəyyən nisbət var. Əmtəənin yüksək qiyməti ona tələbi məhdudlaşdırır, həmin əmtəənin qiymətinin aşağı salınması bir qayda olaraq ona tələbin artmasına rəvac verir. Alınan əmtəənin qiyməti ilə kəmiyyəti arasındakı bu asılılığı qrafik şəklində əks etdirmək olar.**

**Fərz edək ki, əmtəə vahidinin qiyməti 5 dollar olanda bütün istehlakçılar tərəfindən bazardan 10 vahid əmtəə alınınr, əmtəə vahidinin qiyməti 4 dollar olanda 11, qiyməti 3 dollar olanda - 12, 2 dollar olanda - 15 vahid və qiymət 1 dollar olanda - 20 vahid əmtəə alınır.**

**Əmtəə vahidinin qiymətini ordinat oxu, əmtəənin tələb**

**Kəmiyyətini isə absis oxu üzərində qeyd etsəK, aşağıdaxı qra- fİKİ alarıq (şəKİl 10.2.).**




**Şəkil 10.2. Tələb yərisi**

**Əmtəənin bazar qiyməti və ona tələbin pulla ifadəsi arasındaKi belə nisbət tələb qrafiKİ və ya tələb əyrisi adlanır.**

**Tələb əyrisi müəyyən zaman anında alıcıların müxtəlif qiymətlərə nə qədər əmtəə almağa hazır olduğunu göstərən əyridir.**

**ŞəKİl 10.2.-də DD əyrisi yuxarıdan aşağı enir. Bu tələbin azalması qanunu ilə şərtlənir.**

**Tələbin azalması qanunu göstərir Kİ, bütün digər bazar şərtləri sabit qalmaqla hər hansı bir əmtəənin qiyməti qalxdığı təqdirdə həmin əmtəəyə tələb aşağı düşür. Və ya, başqa sözlə desən, bazara çoxlu əmtəə daxil olduqda və başqa şərtlər eyni olduqda belə onun qiyməti aşağı düşür.**

**Bu qanunu iİK dəfə fransız riyaziyyatçısı Antuan Ogüs- ten Kurno «Sərvət nəzəriyyəsinin riyazi prinsiplərinin təd- qiqi» əsərində vermişdi. Onun verdiyi tərifə görə əmtəə müəyyən, özü də azalan qiymət funKsiyasını yaradır. Belə müddəa tam əsaslandırılıb və bazarla ziddiyyət yaratmır.**

**A. Kurnonun tələbin azalması qanunu belə ifadə olunur:**

$$D = f(P),$$

**Burada f(P)>0, D — tələb; f — funksiyadır;** P **— qiymətdir.**

**Bu qanun aşağıdakı asılılığı İfadə edir:**

**■ qiymətlər azalmağa meyllidirlər;**

**■ bu zaman tələb göstərilən əmtəənin kəmiyyəti əksinə, artır;**

**■ lakin tələb göstərilən əmtəənin kəmiyyətinin artması qiymətlərin azalmasından daha az baş verir;**

**■ tələb əyrisinin azalan olması da bundan irəli gəlir.**

**Tələbin azalması qanunu çoxsaylı amillərin təsiri altında meyl kimi çıxış edir.**

**Tələb bütün amillərin funksiyasıdır:**

**D = F (P, I, Z, W, N, B),**

**I - gəlir; Z ~ zövqlər; W(waiting) - gözləmələr; Ps„|, - substitut əmtəələrin qiyməti;** ~ **tamamlayıcı əmtəələrin qiyməti; N - alıcıların sayı; B - başqa amillərdir.**

**Tələbin funksiyası ona təsir edən müxtəlif amillərdən asılı olaraq tələbin həcmini müəyyənləşdirən funksiyadır.**

**Beləliklə, tələb dəyişən kəmiyyətdir, özü də tələbin qədərinin və ya həcminin dəyişməsi və xarakterinin dəyişməsi fərqləndirilməlidir. Tələbin həcmi yalnız həmin əmtəənin qiyməti dəyişkən olduqda dəyişir. Tələbin xarakteri isə əvvəlcə dəyişməz olan amillər dəyişəndə dəyişilir. Tələb həcminin dəyişilməsi qrafik şəkildə əyri üzrə aşağı və ya yuxarı “hərəkətdə” əksini tapır (şəkil 10.2). Tələbin xarakterinin dəyişməsi isə “tələb əyrisinin” sağa və ya sola yerdəyişməsində Özünü göstərir (şəkil 10.3.).**

**Belə vəziyyət mümkündür. Məsələn, əhalinin gəliri artarsa, hər əmtəə qiymətinə daha böyük həcmdə tələb müvafiq gələr və düz xəttin DD vəziyyətində D2D2 vəziyyətinə dəyişilər. Əksinə, gəlirin azalması xəttin sola, DjDı vəziyyətinə dəyişməsinə səbəb olar. Şəkil 10.3.-dən göründüyü kimi, tələb xəttinin yerdəyişməsi P qiymətin müəyyən sabitliyi ilə**

**müşayiət olunan tələb həcminin dəyişməsinə aparır və tələb xəttinin yerdəyişməsində eyni həcmdə tələbə müxtəlif tələb qiymətləri müvafiqdir (Pı P2 P3).**




**Şəkil 10.3. Tələbin xarakterinin dəyişməsi qrafiki**

**Zövqlərin və seçimin dəyişməsi də tələb əyrisinin vəziyyətinə təsir edir. Əhalinin siqaret çəkməyə meyli artırsa, siqaretə olan tələb xətti də sağa meyllənir. Sağlam həyat tərzi tərəfdarlarının sayı artarsa, tələb xətti sola meyllənəcək.**

**Qarşılıqlı əlaqədar olan əmtəələrin qiymətinin dəyişməsi də tələb əyrisinin vəziyyətinə təsir edir. Qarşılıqlı əlaqədar olan əmtəələrin iki növü var: əvəzləyici və tamamlayıcı əmtəələr. Onları əmtəənin birinin qiymətinin dəyişilməsinin onunla qarşılıqlı əlaqədə olan əmtəəyə tələbə «təsir» etmələri ilə fərqləndirmək olur. Əgər X və Y əvəzləyici əmtəələrdirsə, onda Y əmtəəsinin qiyməti artdığı və X əmtəəsinin qiyməti sabit qaldığı təqdirdə istehlakçılar X əmtəəsinə tələbi artırmağa meylli olacaqlar. Bu halda X əmtəəsi üçün tələb xətti sola meyllənər və X əmtəəsinə tələbin azaldığını göstərər. Əvəzləyici əmtəəyə misal yağla marqarin ola bilər.**

**Tamamlayıcı əmtəələr üçün əks vəziyyət səciyyəvidir: Y əmtəəsinin qiymətinin aşağı düşməsi X əmtəəsinə tələbin artmasına səbəb olur. Tamamlayıcı əmtəəyə «klassik» misal avtomobillər və benzindir. Benzinin qiymətinin qalxması**

**avtomobilə tələbi aşagı salır. Və əksinə, benzinin qiymətinin aşağı düşməsi avtomobilə tələbi artırır.**

**Gələcək qiymətlərin gözlənilməsindəki dəyişikliklər tələb xəttinin vəziyyətinin müəyyənləşdirilməsində mühüm rol oynayırlar. Əgər qəndin qiymətinin artması gözlənilirsə, onda bütün digər şərtlər eyni qaldığı təqdirdə tələb xətti sağa meyllənəcək. Əgər qiymətin aşağı düşməsi gözlənilirsə, tələb xətti sola meyllənəcək.**

**Əhalinin artması (orta gəlir həddinin saxlanılması şərtilə) bütün əmtəələr üçün tələb əyrisini sağa meylləndirəcək, çünki bazarda alıcıların sayının artmasına səbəb olur. Əhalinin azalması ilə, əksinə, bazarda alıcıların azalması səbəbindən tələb xəttini sola meylləndirəcək.**

### Tələbin elastikliyi

**Müxtəlif əmtəələr biri-birindən bu və ya digər amilin təsiri altında tələblərin dəyişməsi dərəcəsinə görə fərqlənirlər. Tələbin bu amillərə reaksiya dərəcəsi tələbin elastiklik əmsalının köməkliyilə kəmiyyət ölçməsinə imkan verir. Tələbin elastikliyi məfhumu tələbi müəyyənləşdirən əsas amillərə (həmin əmtəənin qiyməti, başqa əmtəələrin qiymətləri, istehlakçıların gəlirləri və s.) bazann uyğunlaşma prosesini açıqlayır.**

**Əvvəlcə qiymətə görə elastiklik əmsalını - tələb həcminin qiymətin dəyişməsinə həssaslıq göstəricisini nəzərdən keçirək. O tələb həcminin faizlə dəyişməsinin qiymətin faizlə dəyişməsinə nisbəti kimi müəyyənləşdirilir:**

_ Q dəyişmə faizi
Jl $\overline{jp}$ “
P dəyişmə faizi

**burada Ep - qiymətə görə elastiklik əmsalıdır;**
**y - tələb edilən əmtəənin kəmiyyətidir;**
***P* - əmtəənin bazar qiymətidir.**

**Qiymətə görə tələbin elastikliyi qiymətin 1% dəyişməsinin təsiri altında tələb həcminin nisbətən dəyişməsini göstərir.**

**Tələb həcminin bazar qiymətlərinin dəyişməsindən asılılığının üç variantını göstərmək olar:**

■ **qiymətin hər 1% düşməsinə satılan əmtəənin həcminin 1 % -dən az artması zəif reaksiyanı bildirir və qeyri-elastiklik tələb məfhumu ilə səciyyələndirilir;**

■ **qiymətin hər 1% düşməsinə satılan əmtəənin həcminin 1% -dən çox artması güclü reaksiyanı bildirir və elastik tələb məfhumu ilə səciyyələndirilir;**

■ **qiymətin iki dəfə azaldılması nəticəsində satılan əmtəənin qədərinin ikiqat artması tələb elastikliyinin vahidliyim bildirir.**

**Elastiklik nöqtəvari və qövsvari olur.**

**Nöqtəvari elastikliyi (point elasticity) tələb əyrisinə toxunan çəkməklə alına bilər. Məlumdur ki, tələb əyrisinin istənilən nöqtəsində mailliyi toxunma bucağının üfüqi oxla yaratdığı bucağın tangensi ilə müəyyənləşir (şəkil 10.4)**

$$K = \frac{\wedge Q/Q}{AP/P} \; iiP \; Q$$

**Nöqtəvari elastikliyin qiyməti meyl bucağının tangensinə tərs mütənasibdir.**




**Şəkil 10.4. Nöqtəvari elastikliyin müəyyənləşdirilməsi**

**Qövsvari elastiklik (arc elasticity) müəyyən Dj Dj kəsiyində tələb əyrisi ilə ifadə olunmuş tələbin əmtəə qiymətinin dəyişməsinə orta reaksiyasının göstəricisidir.**

-AQ *P AP* *(P2+P,)/2*
*Q* *(P,-P,)* *(Q2+QJ/2 (PrPJ* **to.+ej**




**Şəkil 10.5. Qövsvari elastikliyin müəyyənləşdirilməsi**

**Tələbin xətti funksiyasının elastikliyi O-dan (Dj nöqtəsində) o)-dək ($D_2$ nöqtəsində) dəyişir (şəkil 10.5).**

**Bu vəziyyəti sırf riyazi yolla çox asan izah etmək olar. Məsələ burasındadır ki, qraf ikin sol yuxarı hissəsində (şəkil 10.5) məhsulun qədərinin faizlə dəyişməsi böyükdür, hər addım böyük dəyişikliyi (faizlə) bildirir. Qiymətin faizlə dəyişməsi isə əksinə, xeyli kiçik rəqəmdir, çünki müqayisənin aparıldığı zəmin nisbətən ucadır. Buradan da nə üçün ilkin olaraq E° > 1, sağ aşağı hissədə isə < 1 olduğu aydınlaşır.**

**Tələb elastikliyinin dəyişməsinin praktik əhəmiyyəti ondadır ki, müxtəlif elastiklik halları bilavasitə qiymətin satılmış əmtəənin kəmiyyətinə hasili kimi (PQ) müəyyənləşdirilən əldə olunan mədaxilə t^ir edirlər. Qiymətə görə elastik tələbdə mədaxil artır, yəni elastiklik vahiddən böyükdür; vahid elastiklikdə qiymətin aşağı salınması satışın artması ilə dəqiq əvəzlənir, çünki mədaxil dəyişilməz və ya**

**qalır; qeyri-elastik tələbdə (elastiklik vahiddən aşağıdır, lakin sıfırdan az deyil) qiymətin aşağı salınması əmtəə satışının artmasına cüzi təsir edir və mədaxil azalır.**

**Tələbin həcmi yalnız həmin əmtəənin qiymətindən deyil, həm də başqa əmtəələrin qiymətindən asılı olduğundan (məsələn, çayın qiymətinin qalxması kofeyə olan tələbin artmasına səbəb olur), bu prosesin xarakteristikası üçün bir əmtəənin tələb həcminin başqa əmtəənin qiymətinə həssaslığını ölçən qİ3onətə görə çarpaz elastiklik tələbi tətbiq olunur.**

$$\frac{dQJQ\wedge}{dPJP,} \quad \frac{dQg \; y \; Pb}{dQ, Qg}$$

**Ey< 0 -dırsa, onda həmin nemətlər qarşılıqlı əvəzlənəndirlər** (əvəzedicilər), **E0 olarsa, nemətlər bir-birini tamamlayandırlar.**

**A nemətinə tələbin elastikliyi nə qədər yüksək olsa, nemətin əvəzlənmə dərəcəsi bir o qədər yüksək olar (hər halda, olduqda, qarşımızda xalis əvəzedicilərdir) və əksinə, elastiklik nə qədər az olsa, qarşılıqlı tamamlanma bir o qədər çox olar (E^=-™ olarsa, qarşımızda sərt qarşılıqlı tamamlamaya misal görmüş olarıq).**

**Tələbin elastikliyindən asılı olaraq tələb əyrisi müxtəlif formalarda ola bilər (şəkil 10.6).**




$E_p = -\infty$ Tam elastik tələb — $-\infty < E_p < -1$ Elastik tələb — $E_p = -1$ Tələb vahidə bərabərdir







**Şəkil 10.6. Tələbin elastikliyindən asılı olaraq tələb əyrisinin forması**

**Tələb həcminin alıcıların gəlirlərinin dəyişməsinə reaksiyası gəlir üzrə tələb elastikliyi ilə müəyyənləşdirilir.**

$$\wedge \frac{\text{Tələb həcminin faizlə dəyişməsi fQ)}}{\text{Gəlirin faizlə dəyişməsi (R)}}$$
^

**burada - gəlirə görə tələb elastikliyi əmsalı; R - gəlirdir.**

**Zinət əşyalarının gəlirə görə tələb elastikliyi vahiddən yuxarı, zəruri tələbat mallarınınkı isə aşanıdır.**

### *§ 3. Təklif və təklifin dəyişmə qanunu. Təklifin elastikliyi.*

### Təklifin ümumi səciyyəsi

**Təklif məfhumu altında Qərb iqtisadçıları kiminsə əmtəə satmaq istəyini başa düşürlər. Təklif həcmi satıcıların konkret yerdə və konkret vaxtda almağa təklif etdiyi əmtəənin kəmiyyətidir.**

**Təklif bazarda olan və ya ora çatdınla biləcək əmtəədir. Əmtəə təklifləri natnral-əşya (çeşidə görə) və dəyər (pulla, qiymətlə ifadə olunmuş əmtəə məbləği) formalarında olurlar.**

**Təklifin həcmi və quruluşu bazardakı iqtisadi vəziyyəti satıcılar (istehsalçılar) tərəfindən xarakterizə olunur və istehsalın ölçüləri və imkanları, həmçinin əmtəənin (bir hissəsi istehsalın özündə istehlak olunduğundan) bazara göndərilən hissəsi ilə müəyyənləşir.**

**Əmtəə təklifinə yolda olan əmtəələr də daxil olmaqla bazardakı bütün əmtəələr daxildir. O istehsalın əmtəə istehsalı, əmtəə ehtiyatı və ixracının həcmi və quruluşu hesabına formalaşır. Ona ticarətdəki təbii itkilərin ödənilməsi, ucuzlaşma və qiymətin aşağı salınmasına xərclər təsir göstərir.**

**Bazarda öz əmtəəsini təklif edən istehsalçıların vəziyyəti hər bir an üçün eyni deyil. Bəziləri çox əmtəə istehsal edib bazara gətirir, bəziləri isə az. Onların bir qismi istehsala az istehsal vasitələri və əmək sərf edirlər. O biri qismində məhsul vahidinə çəkilən xərclər daha yüksək olur. Lakin bazara çıxandan sonra çəkdikləri istehsal xərclərindən asılı olmayaraq onların hamısı ən yüksək qiymətə can atırlar. Özü də əmtəənin qiyməti nə qədər yüksək olsa, onlar bir o qədər çox əmtəə satmağa cəhd edəcəklər, yəni təklifi artıracaqlar (rəqabət olanda).**

**Hər bir istehsalçının təklifi, adətən, qiymətdən asılı olaraq dəyişir. Qiymət aşağı olsa, satanlar az əmtəə təklif edib, onun bir qismini anbarda saxlayırlar. Qiymət yuxarı olarsa, onlar bazara daha çox əmtəə çıxarırlar. Qiymət xeyli qalxdıqda, istehsalçılar əmtəə təklifini mümkün qədər çox artırmağa, hətta zay məhsulu da satmağa cəhd edirlər.**

**Bazarda əmtəə təklifi istehsal məsrəflərindən - iqtisadçıların çoxunun təklifə təsir edən ən mühüm amil hesab etdiyi istehsalat xərclərindən çox asılıdır. İstehsalçı, ona iqtisadi təsir göstərilmirsə, öz maraqlarını gözləyərək hərəkət edir, yəni mənfəəti (satışdan əldə olunmuş gəlirlə istehsal xərcləri arasındakı fərq) maksimallaşdırmağa can atır. Bu o deməkdir ki, istehsalçı hər dəfə ən yüksək mənfəət təmin edəcək istehsal həcmini seçir. İlk nəzərdə elə gəlir ki, istehsal həcminin azaldılması mədaxilin artması (ümumi gəlir) ilə müşa**

**yiət olunur. Laldn aydm olur ki, hər firmanın özünün böyümə həddi var. Bu hədd xaricində firmanm böyüməsi və bundan irəli gələrək, istehsal xərclərinin artması istehsal məsrəflərinin artmasına səbəb olur. Məsələn, nəqliyyat xərcləri, istehsalın idarə edilməsinə xərclər, çətinliklərin artması ilə əlaqədar məhsulun satışı ilə bağlı xərclər və s.**

**Əmtəənin özündən başqa təklifin həcminə qarşılıqlı əvəzlənən və bir-birini qarşılıqlı tamamlayan əmtəələrin qiymətləri, texnologiyanın səviyyəsi, dövlətin fəaliyyəti, vergilər, perspektivli gözləmələr, istehsalın və bazarın inhisarlaşması və s. bu kimi amillər təsir göstərir.**

**Resursların qiyməti bilavasitə istehsal xərclərinə və onların vasitəsilə təklifin həcminə təsir edir. Lakin resurslara çəkilən xərcin qədəri iqtisadi mənada istehsal xərclərinin pulla ifadə olunmuş həcmi ilə eyni deyil. Bir qayda olaraq, resursların bir neçə sahədə istifadə olunma imkanı var, buna görə də iqtisadçı resursların tətbiqinin bütün alternativ tətbiq üsullarını nəzərə almağa çalışmalıdır. Məsələn, torpaq sahəsini icarəyə götürən fermer seçim qarşısında qalır: bu sahədə o nə becərməlidir - alma, yaxud buğda? Məlumdur ki, bir hektar alma sahəsi bir hektar buğda sahəsindən ikiqat artıq gəlir gətirir. Fermerin hansı seçimi edəcəyini bilmək çətin deyil. Lakin o buğdanı seçərsə, onun məsrəflərinə alma əkəcəyi təqdirdə əldə edə biləcəyi itirilmiş gəlir də daxildir. Beləliklə, resursa çəkilən xərclər kimi resursdan ən əlverişli istifadədən əldə olunan gəlir də nəzərə alınmalıdır.**

**Mühasibdən fərqli olaraq iqtisadçı istehsalçının resurs sahibinə aşkar ödədiyi dəyərlə yanaşı, qeyri-aşkar Ödəmələri də nəzərə alır. Məsələn, mağaza sahibi üçün belə resurslara onun öz əməyi və qoyulmuş kapitaldır. Aydındır ki, faiz Ödəmələrinin artımı və ya yüksək ödəndi muzdlu iş təklifi sahibkarı öz işini, aşkar ödənilən resursların dəyərində heç bir dəyişiklik olmasa da, dayandırmağa məcbur edə bilər. Resursların qiymətlərinin təhlili zamanı coğrafi mövqe və hətta sözün geniş mənasında insan əlaqələri və əmtəə isteh**

**salında iştirak edən amillərin hamısı nəzərə alınmalıdır.**

**Texniki tərəqqi istehsal xərclərinin azalmasına və nəticədə təklifin həcminin artmasına səbəb olur.**

**Qanunvericilik fəaliyyətini həyata keçirən dövlət istehsalçılardan vergi almaqla iqtisadi agentlərin davranış qaydalarını müəyyənləşdirir. Vergi siyasəti yalnız dövlət büdcəsinin formalaşdırılması maraqlarından deyil, həm də əmtəə istehsalına bu və ya digər təsiri göstərmək məqsədilə (bəzi hallarda hətta dotasiya verilir) işlənib hazırlanır. Dövlət qiymətlərin tənzimlənməsi və əmtəələrin standartlaşdırılması ilə məşğul olur. Bəzən o bilavasitə istehsal və mübadilə prosesinə müdaxilə edir.**

**Mikrosəviyyədə fərdi təklifdən (ayrı-ayrı istehsalçıların xüsusi, ayrıca bir bazarda), makrosəviyyədə məcmu təklifdən - milli istehsalın qiymətlərin müxtəlif səviyyədə olması şəraitində bütün əmtəə istehsalçıları tərəfindən əldə oluna bilən real həcmindən danışırlar.**

## Təklifin dəyişməsi qanunu

**Bazarda istehsalçıların alıcılara təklif etmək istədikləri əmtəənin kəmiyyəti ilə bazar qiymətləri arasında müəyyən nisbət yaranır. Bu asılılığı koordinatlar sistemini tətbiq etməklə qrafik şəkildə əks etdirmək mümkündür. Absis oxu (Q) bazara çıxardılmış əmtəəni, ordinat oxu isə qiymətin (P) hərəkətini əks etdirsin. Əmtəənin biri 5 dollar olanda əmtəə təklifi 18 ədəd, 4 dollar olanda - 16, 3 dollar olanda - 12, 2 dollar olanda -7 ədəd olacaq, 1 dollar olanda isə heç bir dənə də təklif olunmayacaq ki, bu təklif qrafiki təklif əyrisi formasını alacaq (şəkil 10.7).**

**Təklif əyrisi bu məqamda istehsalçıların müxtəlif qiymətlərə nə qədər məhsul satmağa hazır olduqlarını göstərən əyridir.**




S – (supply) təklif

Şəkil 10.7. Təklif əyrisi

**Təklif əyrisi rəvan əyilmiş və yuxarı qalxan əyridir. 0 bazar qiymətləri ilə istehsalçıların istehsal edib satmağa hazır olduğu məhsulun kəmiyyəti arasındakı asılılığı göstərir. Antuan Ogüsten Kurno bu asılılığı riyazi düstur şəklində təsvir etmişdi:**

$$S = f(P),$$

**burada S - təklif;**

**f - funksiyadır. Kurno bunu təklifin dəyişməsi qanunu adlandırmışdı.**

**Təklifin dəyişməsi qanımunun mahiyyəti ondadır ki, qiymət artdıqda təklif olunan əmtəənin həcmi artır, azaldıqda isə azalır.**

**Təklif əyrisinə texniki tərəqqi get-gedə daha çox təsir göstərir. O istehsal məsrəflərini azaltmağa və əmtəə təklifini dəyişməyə imkan verir. Əmtəə təklifi əyrisinin forması əsasən onun istehsal texnologiyası, həmin əmtəənin hazırlanmasında istifadə olunan resursların əldə olunması ilə şərtlənir. İstehsalın və onda istifadə olunan resursların səfərbərliyi**

**yüksək olarsa, onda təklif əyrisinin mailliyi daha az olar, yəni qiymətin azacıq dəyişməsi əmtəə təklifinin xeyli artması ilə nəticələnir, İstehsalın artırılması daha böyük resurs və əmək sərfi ilə müşayiət olunursa, təklif əyrisi daha sərt olur.**

**Təklif onun dəyişməsini şərtləndirən bütün amillərin funksiyasıdır:**

$$S = f(P, P,, K, T, N, B),$$

**burada Pj.- resursların qiyməti; K - tətbiq olunan texnologiyanın xarakteri; T - vergilər və malyyə yardımı; N - satıcıların sayı; B - başqa amillərdir.**

**Təklif funksiyası təklifin ona təsir edən müxtəlif amillərdən asılılığını müəyyənləşdirir.**

**Tələbdə olduğu kimi təklifin dəyişməsini və təklif həcminin dəyişməsini fərqləndirmək lazımdır. Təklifin həcmi əmtəənin yalnız qiyməti dəyişildikdə dəyişir (bax şəkil 10.7.). Təklifin dəyişməsi isə əvvəl sabit kimi götürülən başqa amillər dəyişdikdə baş verir. Təsəvvür edək ki, eyni xərclə daha çox məhsul istehsal etməyə imkan verən yeni texnologiya tətbiq olunur. Bu halda təklif əyrisi sağa, Sj vəziyyətinə meyllənir. Meyllənmə göstərir ki, hər qiymətdə istehsalçı daha çox əmtəə təklif edəcək. Belə ki, Pj qiymətində Q2 > Qı, P2 qiymətində isə Qg >Q2 (şəkil 10.8).**

**Vergilər artanda, istehlak məsrəfləri çoxalanda, təklif əyrisi sola, Sg S2 vəziyyətinə meyllənir. Meyllənmə göstərir ki, hər qiymət dəyişməsində istehsalçılar daha az əmtəə (Q4) təklif edəcəklər.**

**Ən qısamüddətli dövrdə bütün istehsal amilləri sabitdirlər, qısamüddətli dövrdə bəzi amillər (xammal, iş qüvvəsi və s.) dəyişkəndirlər, uzunmüddətli dövrdə isə bütün amillər (istehsal gücü, sahədə firmaların sayı və s. daxil olmaqla) dəyişkəndir.**

**Ən qısa bazar dövrü şəraitində tələbin artması (azalması) qiymətin artması (azalması) ilə nəticələnir, lakin təklifin**




**Şəkil 10.8. Təklifin xarakterinin dəyişməsi həcminə təsir etmir (şəkil 10,9, a). Qısamüddətli dövrdə tələbin artması yalnız qiymətin artmasını deyil, həm də tələbə müvafiq olaraq istehsalın həcminin də artmasını şərtləndirir (şəkil 10.9, b). Uzunmüddətli dövrdə tələbin artması qiymətlərin sabit qalması və ya cüzi artması şəraitində təklifin xeyli artmasına səbəb olur (şəkil 10.9, c).**




**Şəkil 10.9. Tələb, qiymət və təklifin dəyişməsinin qarşılıqlı əlaqəsi: a - ən qısa; b - qısamüddətli; c - uzunmüddətli dövrlər**

## Təklifin elastikliyi

**Qiymətin dəyişməsindən asılı olaraq təklifin həcminin dəyişmə dərəcəsi təklifin qiymətə görə elastikliyini səciyyələndirir. Bu dəyişmənin ölçüsü təklifin elastiklik əmsalıdır ki, təklif həcminin qiymət artımına nisbəti kimi, yəni aşağıdakı düsturla hesablanır:**

**_ *S* -nin faizlə dəyişməsi *P* -nin faizlə dəyişməsi**

**burada *Ef* - təklifin elastiklik əmsalı;**

***S - tdklif:***

***P - qiymətdir.***

**Təklifin elastikliyi bazar qiymətinin nisbi dəyişməsinə müvafiq olaraq təklifin nisbi dəyişməsinin göstəricisi kimi çıxış edir.**

**Əgər təklif olunan əmtəənin kəmiyyəti istənilən qiymətə satılmaq üçün dəyişməz qalırsa, onda təklif qeyri-elastikidir. Qiymətin cüzi azalması təklifi sıfıra endirirsə, qiymətin azacıq artması isə təklif artımını şərtləndirirsə, onda tam elas- tiki təkliflə qarşılaşmış oluruq.**

**Təklif elastikliyinin beş növü fərqləndirilir (bax; şəkil 10.10].**

**Pt**

**0 Q**

**Tam elastik təklif**




**təklif**




**Şəkil 10.10. Təklifin elastikliyinin beş növü**

**Təklif əyrisi şaquli olanda təklifin elastikliyi sıfra bərabərdir. Burada qiymətin dəyişməsindən təklif dəyişmir. Məsələn, İ.Şişkinin cŞam meşəsində səhər» şəklinin təktif əyrisi tamamilə qeyri-elastikdir, çünki kəmiyyət dəqiq müəyyən olunduğundan (cəmi bir şəkil var), qiymət nə qədər artsa da, kəmiyyətin artması qeyri-mümkündür.**

**Təklifin elastikliyi uzun müddətdə qısa müddətə nisbətən daha yüksəkdir. Bu istehsalçıların daha yüksək qiymətə uyğunlaşmasından irəli gəlir.**

**Təklifin elastikliyi texniki tərəqqinin, istifadə olunan resursların kəmiyyət və keyfiyyət tərkiblərinin dəyişmələrinin təsiri altında dəyişir. Bu və ya digər əmtəənin istehsalında istifadə olunan resursların məhdudluğunun artması təklif elastikliyinin azalmasına gətirir.**

### *§4. Bazar tarazlığı. Tələb və təklif qanunu*

**Tarazlıq bazarda təklif və tələbin üst-üstə düşdüyü, yaxud istehlakçı və istehsalçını qane edən qiymətlərin ekvivalent olduğu vəziyyətdir.**

**Tələb və təklifin qarşılıqlı əlaqədə olması nəticəsində bazar tarazlığı yaranır. Bunun necə baş verdiyini aydınlaşdırmaq üçün tələb əyrisini və təklif əyrisini bir qrafikdə yerləşdirmək lazımdır (şəkil 10.11).**




**Şəkil 10.11. Bazarda müvazinətin qrafiki**

**Bu qrafik ayrılıqda götürülmüş əmtəəyə tələb və təklifin davranışını eyni zamanda ifadə edir və iki xəttin hansı nöqtədə kəsişdiyini göstərir (E). Bu nöqtədə tarazlıq yaranır. E nöqtəsinin koordinatları Pg tarazlıq qiyməti və QE tarazlıq həcmdir. E nöqtəsi QE =QS =QD bərabərldiklərini xarakterizə edir; burada Qg — təklifin həcmi, - tələbin həcmidir.**

**Tarazlıq nöqtəsi göstərir ki, tələb və təklif bir-birinə əks qüvvələr olmaqla burada tarazlığa gəlirlər. Tarazlıq qiyməti göstərir ki, əmtəə alıcılara lazım olan qədər istehsal olunub. Belə tarazlıq bazar iqtisadiyyatının maksimum səmərəliliyinin ifadəsidir, çünki tarazlıq vəziyyətində bazarda tarazlıqdır. Nə satan, nə də alan bu tarazlığı pozmaqda maraqlı deyil. Əksinə, müvazinətdən fərqli istənilən başqa qiymətdə bazar müvazinətli deyil və alanlar da, satanlar da bazarda vəziyyəti dəyişməyə can atırlar.**

**Beləliklə, tarazlıq qiyməti konkret qüvvələrin təsiri nəticəsində tələb və təklifi tarazlığa gətirən qiymətdir.**

**Real qiymət tarazlıq qiymətindən (Pj) yüksək olarsa, belə qiymətdə - tələb həcmi, Q2 - təklif həcmindən az olacaq. Bu halda istehsalçılar qiyməti aşağı salmağı məhsulu əvvəlki, tələbdən xeyli artıq olan həcmdə istehsal etməkdən üstün**

**biləcəklər. Təklifin artıqlığı {Q2 ~ Qı) qiymətə azaldıcı təsir edəcək-**

**Əgər bazardakı real qiymət - (P2) tarazlıq qiymətindən aşağı olarsa, Q4 - tələb həcmi, Qg - təklif həcmindən böyük olacaq və əmtəə çatışmazlığı olacaq. Ayrı-ayrı alıcılar daha yüksək qiyməti ödəməyə üstünlük verəcəklər. Nəticədə tələb artıqlığı (Q4 - Qg) qiymətə təzyiq göstərməyə başlayacaq.**

**Bu proses tələblə təklifin həcminin bərabər olduğu PE tarazlıq səviyyəsində qərarlaşana qədər davam edəcək.**

**Ümumi iqtisadi tarazlığın ilk tərifini Leon Valras (1874) vermişdi, Marksın orta qiymət (istehsal qiyməti) kateqoriyasından fərqli olaraq o, ictimai istehsal sistemindən uzaqlaşmağa cəhd edərək ilkin kateqoriya kimi faydalılığa əsaslanırdı.**

**Əgər tarazlıqdan uzaqlaşma ilkin vəziyyətə qayıtmaqla müşayiət olunursa, tarazlıq sabit adlanır. Əks təqdirdə tarazlıq qeyri-sabit olur.**

**İqtisadi nəzəriyyədə tələb və təklifin dörd qaydası olduğu göstərilir.**

**■ Tələbin artması həm tarazlıq qiymətinin, həm də tarazlıq əmtəə miqdarının artmasına səbəb olur.**

**■ Tələbin aşağı düşməsi tarazlıq qiymətinin və tarazlıq əmtəə kəmiyyətinin aşağı düşməsinə səbəb olur.**

**■ Təklifin artması tarazlıq qiymətinin azalmasına və tarazlıq əmtəə kəmiyyətinin artmasına səbəb olur.**

**■ Təklifin azalması tarazlıq qiymətinin artmasına və tarazlıq əmtəə kəmiyyətinin azalmasına səbəb olur.**

**Bu qaydaları tətbiq etməklə tələb və təklifin istənilən dəyişmə hallarında tarazlıq nöqtəsini tapmaq mümkündür.**

**İstənilən əmtəənin rəqabət bazarında tələb və təklifin tarazlığı məhz bu sxem vasitəsilə əldə olunur. Tarazlıq hər bir rəqabət bazarının qanunudur. Hər bir bazardakı tarazlıq bütövlükdə iqtisadi sistemdə tarazlığın saxlanılmasının səbəbidir.**

**Qeyd etmək lazımdır ki, tarazlıq qiyməti bazarın rəqabət**

**şəraitində müəyyənləşir. Lakin bütün rəqabət şərtlərini gözləmək mümkün deyil. Bazarın qiymət tarazlığı mexanizmi təkmilliyə yaxınlaşmaq mexanizmdir ki, buna da tam nail olmaq mümkün deyildir.**

**Bununla belə, tələb və təklifin tarazlıq qanununa uyğun olaraq həyatda istənilən əmtəənin qiyməti formalaşır. Bazar mexanizminə rəqabət tarazlıq vəziyyətini dəyişən inhisarçı müdaxilə elementləri təzahür etməzsə, bütün əmtəə bazarları rəqabət tarazlığına yaxındır. Rəqabət bütün əmtəə sahibkarlarını iqtisadi üsullarla tarazlıq qiymətinə əmtəə istehsal etməyə, satmağa, almağa və bazarda tarazlığa nail olmağa vadar edən böyük qüvvədir.**

**Bazarda tarazlığın formalaşması şərtləri iqtisadi ədəbiyyatda həm mikroiqtisadiyyat səviyyəsində, aynca bir bazarda ayrıca bir təsərrüfat vahidinə şamil edilməklə, qismən tarazlığı səciyyələndirməklə (A.Marşall, D.Xaksli), həm də makrosəviyyədə bütün iqtisadi sistemə şamil edilməklə (L.Valras, V.Pareto, C.fon Hayman, V.Leontyevin ümumi tarazlıq modeli) tədqiq olunur.**

# XI FƏSİL. BAZAR MEXANİZMİ: BAZAR TARAZLIĞININ TƏMİN EDİLMƏSİNDƏ QİYMƏTİN ROLU

*§1. AJıäarşalhn qiymət rtazariyyəsi. Tarazlıq qiyməti, tələb qiyməti və təklif qiyməti.*

*§2. Qısamüddətli və uzunmüddətli dövrlərdə tarazlıq qiymətinin müəyyənləşdirilməsi. Hörümçək toru teoremi. K.Marks nəzəriyyəsində qiymətin əmələ gəlməsi.*

*§3. Bazar iqtisadiyyatı şəraitində qiymətlərin dövlət tənzimlənməsi.*

*§4. Vergilərin qiymətin səviyyəsinə təsiri. Vergi ağırlığının bölgüsü.*

**Qiymət və onun formalaşma mexanizmi iqtisadi nəzəriyyə kursunda ən mürəkkəb və fundamental problemlərdəndirlər. Bazar iqtisadiyyatında qiymətlər sistemi əsas təşkiledici qüwə kimi çıxış edir. Əmtəələrin qiyməti sahibkarlar və istehlakçılar üçün elə bir oriyentirdir ki, onlar şəxsi maraqlarını təmin edən seçimləri ona istinadən edirlər. Əmtəənin qiymətində cəmiyyətin, dövlətin, satıcılar və alıcıların, ayrıca bir işçinin, sahibkarın maddi maraqları, istehsal və təkrar istehsal, regional və federal, milli və beynəlmiləl maraqlar cəmləşir.**

## *§1, A.Marqallm qiymət nəzəriyyəsi. Tarazlıq qiyməti, tələb qiyməti və təklif qiyməti*

**Məlumdur ki, klassik siyasi iqtisad qiyməti dəyərin pulla ifadəsi adlandırırdı. Neoklassik istiqamət diqqəti faydalılığa yönəldərək, əslində, dəyərin mövcudluğunu inkar edir və qiymətin başqa anlamını təklif edir.**

**Müasir dünya iqtisadi nəzəriyyəsində ən çox A.Marşallın qiymət konsepsiyası yayılmışdır. A.Marşallın «Ekonomiksin prinsipləri»ndə verilmiş nəzəriyyəsini D.Robinson iqtisadi bibliya adlandırmış, M.Fridmanin fikrincə isə sözü gedən kitabda qiymət nəzəriyyəsi artıq demək olar ki, hazırkı vəziyyətində tam formalaşmışdır.**

**Özünün qiymət konsepsiyasında A.Marşall A.Smitin, D.Rikardonun, J.B.Seyin, E.Bem-Baverkin, D.Loderdeyvin nəzəriyyələrinə əsaslanır və üç məşhur konsepsiyanı - son hədd faydalılığı, istehsal xərcləri, tələb və təklifi bir qiymət nəzəriyyəsində birləşdirmişdir.**

**Bu nəzəriyyəyə görə qiymət - əmtəəyə görə alınan müəyyən məbləğdə pul vahididir.**

**Bazarda tələb qiyməti ilə təklif qiymətinin qarşılıqlı təsirinin nəticəsi kimi formalaşan tarazlıq qiyməti* xüsusi əhəmiyyət kəsb edir. Hər miqdarda əmtəənin tələb qiyməti müəyyən miqdarda əmtəənin müəyyən müddət ərzində alıcını cəlb edə biləcək qiymətidir. Hər bir əmtəə üzrə təklif artdıqca onun tələb qiyməti aşağı düşür. Təklif qiyməti əmtəənin konkret bazara satış üçün çıxarıldığı qiymətdir. Əmtəənin illik miqdarı azaldıqca və ya artdıqca təklif qiyməti ya arta, ya da azala bilər, o hətta gah qalxıb, gah da düşə bilər. Həmin miqdarda əmtəənin təklif qiyməti onun istehsal amillərinin qiymətindən asılıdır. Bu qiymətlərin cəmi göstərilən miqdarda əmtəənin təklif qiymətini təşkil edəcək.**

**A.Marşallın ilkin mövqeyi belədir: bazarda normal tələb və normal təklif təmsil olunmuşlar. Tələb və təklifin qüvvələri sərbəst fəaliyyət göstərirlər, ticarətçilərin möhkəm birliyi mövcud deyil, azad rəqabət geniş tətbiq olunur. Bazarda eyni zamanda yalnız bir normal qiymət var. Bazarın ümumi konyunkturası bütün götürülmüş zaman müddətində dəyişilməz qalır.**

**Normal qiymət normal tələb və normal təklifin sabit tarazlıq vəziyyəti ilə müəyyənləşir.**

**Normal təklif qiyməti həm uzun müddət üçün, həm də qısa müddət üçün ümumi istehsal məsrəflərinin əmtəə miqdarına bölünməsi yolu ilə müəyyənləşir ki, bu da orta məsrəfdir.**

**' Aynca bazarda tarazlıq və tarazlıq qiymətinin formalaşma mexanizmi barədə bax fəsü 10.**

### *§2^ Qısamüddətli və uzunmüddətli dövrlərdə tarazlıq qiymətinin müəyyənləşdirilməsi. Hörümçək toru teoremt K.Marks nəzəriyyəsində qiymətin əmələ gəlməsi*

**Bazar qiymətinin formalaşmasını A.Marşall təklif parametrlərinin müxtəlif dinamikaya malik olduğu üç zaman dövründə nəzərdən keçirir. Buna müvafiq olaraq ani, qısamüddətli və uzunmüddətli tarazlıq vəziyyəti fərqləndirilir. Üç müxtəlif tarazlıq növlərində əmtəə istehsalçıları ya heç nə etməyə, ya istehsalın dəyişkən amillərini dəyişmiş şərtlərə uyğunlaşdıra, ya da bütün istehsal amillərini dəyi-şilmiş qiymətə uyğunlaşdıra bilərlər. Qısamüddətli dövr üçün istehsal vasitələri parkı praktik olaraq sabitdir, lakin ondan istifadə tələbə uyğun olaraq dəyişə bilir. Əmtəə təklifi avadanlığı artırmadan artır. Uzunmüddətli dövr yalnız həmin əmtəənin istehsal amillərini deyil, həm də göstərilən amillərin istehsal amillərini tələbə uyğunlaşdırmağa kifayət qədər vaxt verməlidir. Bu şəraitdə istehsalçılar avadanlıq alır, dəyişir, istehsalçıların özlərinin miqdarı isə sahəyə sərbəst daxil olmaq və çıxmaq hesabına dəyişilə bilir.**

**Ani tarazlıq şəraitində əmtəə təklifi təsbit edilmişdir (şəkil 11.1). Əmtəənin təsbit edilmiş təklifi zamanı qiymət tamamilə tələbdən asılıdır. Tələbin artması qiymətin artmasına səbəb olur və əksinə, onun azalması qiymətin aşağı düşməsinə səbəb olur.**

**Qısamüddətli tarazlıq şəraitində tələb dəyişə, tələb əyrisi Dg-yə qədər yüksələ bilər (şəkil 11.2). İstehsalın həcmi avadanlıqdan daha intensiv istifadə hesabına arta bilər. Qısamüddətli dövrdə başqa firmalar bu sahəyə girə bilməzlər. Tələb aşağı da düşə bilər ki, bu da əmtəə istehsalı və təklifi həcminin azalmasına gətirib çıxardar. Qısamüddətli dövrdə firma zərər də çəkə bilər, lakin o işləməyinə davam edər.**

**Uzun və qısamüddətli dövrlərdəki təkliflər arasında fərq ondan ibarətdir ki, uzunmüddətli dövrdə firma istehsalını genişləndirə, yeni firmalar isə bu sahəyə daxil ola bilərlər.**

**Əgər qiymətlər yüksək qazanc təmin etməyə qabildirsə, qiymət artımı şəraitində belə proseslər baş verir. Hədsiz yüksək qazanc açıq sənayedə tarazlıqla bir araya sığmır. Ümumi təklif artan kimi qiymətlər düşəcək. Yeni firmalar bu sahəyə qiymətlər öz normal vəziyyətlərinə qayıdıncaya və firma normal qazanc əldə edincəyə qədər daxil olmaqda davam edəcəklər.**

**Qısa müddət hüdudlarında qiymət artıb-azala bilər, lakin uzunmüddətli dövrdə o sabitdir (şəkil 11.3).**




**Şəkil 11.1. Ani tarazlığın şərtləri**




**Şəkil 11.2. Qısamüddətli dövrdə tarazlığın şərtləri**




**Şəkil 11.3. Uzunmüddətli dövrdə tarazlıq şərtləri**

**Əmtəə təklifinə zaman müddətində qiymət və gəlirin dəyişməsi ciddi təsir edir. Məsələn, əgər bu il çiyələyin qiyməti baha olsa, onda gələn il çiyələk təklifinin kəskin artmasını gözləmək olar. Çiyələk təklifinin kəskin artması nəticəsində bazar qiyməti aşağı düşə və istehsalçılar gəlirlərinin bir qismim itirə bilərlər. İstehsalçılarm bir qismi sahəni tərk edir, nəticədə növbəti ildə çiyələk təklifi azalır və bazar qiymətinin səviyyəsi qalxır. Bu gələn il üçün istehsalı həvəsləndirir və sairə. Buradan bazar qiyməti dəyişməsinin üç variantı irəli gəlir. Birinci halda uğurlu dövrlərdə bazar qiyməti tarazlıq qiymətindən get-gedə daha çox uzaqlaşır (şəkil 11.4).**




**Şəkil 11.4. Bazar qiyməti tarazlıq qiymətindən get-gedə uzaqlaşır**

**tkinci halda bazar qiyməti müəyyən hədlər çərçivəsində tarazlıq qiyməti ətrafında qeyri-müəyyən artıb-azalır (şəkil 11.5).**




**Şəkil 11.5. Bazar qiyməti tarazlıq qiyməti ətrafında qeyri-müəyyən artıb-azalır**

**Üçüncü halda bazar qiyməti tədricən tarazlıq vəziyyətinə çatır, çünki artıb-azalmalar tədricən azalır (şəkil 11.6). Məsələn, kənd təsərrüfatı məhsullarının təklifi və onların bazar qiymətlərinin mütəmadi artıb-azalma dövrləri mövcuddur.**




**Şəkil 11.6. Bazar qiymətləri artıb-azalmaları azalır, tədricən tarazlıq vəziyyəti yaranır**

**Lakin hadisələrin ən adi gedişi üçüncü halda əkə etdiriləndir. Praktikada belə proseslər və onların kateqoriyalar və qrafiklərdə əksi iqtisadi elmə hörümçək toru teoremi adı altında daxil olmuşdur, çünki şəkil hörümçək torunu xatırladır. Bu proseslər absis oxunda əmtəənin qədəri və vaxt əks etdirilən qrafiklərdə göstərilmişdir. Bazar qiymətinin tarazlıq qiymətinə yaxınlaşmasını göstərən qrafik (şəkil 11.6) xüsusi maraq doğurur.**

**Hörümçək toru teoremi potensial qeyri-sabit rəqabətli sənayenin inhisarçılıqla müqayisədə faydalı şərhidir. O nəzərdə tutur ki, sahibkarlar keçmiş təcrübədən nəticə çıxarmırlar. Lakin təcrübə topladıqca onlar qiymət dəyişmələrinə uyğunlaşırlar. Qiymət və təklif dəyişmələri get-gedə azalır və**




**Şəhil 11.7. Uzunmüddətli dövrün normal qiymətinin yaranması**

**nun özü müvazinətin əldə olunması ehtimalım artırır. Uzunmüddətli dövrdə təklif istehsal həcmini artırmaq və ya azaltmaq yolu ilə tələbin dəyişməsinə uyğunlaşır. Dövr nə qədər uzunmüddətli olsa, təklif tələbin dəyişməsinə bir o qədər yaxşı uyğunlaşa bilər. Uzunmüddətli dövrün normal qiymətinin yaranması bu yolla gedir. A.Marşallın davamçıları olan iqtisadçıların qeyd etdiyi kimi, normal qiymət - müəyyən dövrün orta qiyməti deyil, təklif artan dövrün**

**axınndakı qiymətdir. Bu proses Pı,P2,P3*P4 qiymətlərinin normal P qiymətinə yaxınlaşdığı qrafikdə (şəkil 11.7) öz əksini tapmışdır.**

**Aydındır ki, normal qiymət təkrar istehsal şəraitində formalaşır, Özü də qiymət dəyişməsi minimal P tarazlıq qiymətinə yaxınlaşır.**

**Bazar iqtisadiyyatında tarazlıq qiymətinin formalaşmasına istehsalın inhisarlaşması və istehsalçılardan mütərəqqi vergi qoyulması prosesləri təsir edir. İstehsalın yüksək təmərküzləşməsi inhisarların meydana gəlməsinə səbəb olur. İnhisarlar müəyyən şəraitdə əmtəə təklifini ixtisar edir və onun qiymətini qaldırırlar. Vergilərin yüksək səviyyəsi dövlət orqanlarına istehsalçılardan gəlirin xeyli hissəsini almağa imkan verir ki, bu da son nəticədə investisiyaların, istehsalın və əmtəə təklifinin ixtisarına səbəb olur (şəkil 11.8).**




**Şəkil 11.8. tnhisarlaşma və proqressiv vergi qoyulması proseslərinin uzunmüddətli dövrdə tarazlıq qiymətinin formalaşmasına təsiri**

**Bu proses uzunmüddətli dövrdə təzahür edə bilir. Qısa dövr şəraitində əmtəə təklifi böyük olur və istehsalçılar vergini əmtəənin qiymətinə daxil edə bilmirlər. Buna görə də yüksək verginin ödənilməsi mənbəyi xüsusi, fərqli üstünlüyə malik istehsalçının rentası ola bilir.**

**Qiymətin əmələ gəlməsi prosesinə dövlətin səriştəsiz iqtisadi siyasəti təsir edir. Əgər qiymətlər qanunvericilik qaydasında çox aşağı, tarazlıq qiymətindən də az olan PS səviyyəsində müəyyənləşirsə, istehsalçılar əmtəə təklifini azaldır və KM əmtəə defisiti yaranır (şəkil 11.9). Digər tərəfdən isə, əgər dövlətin müəyyənləşdirdiyi təmin edilmiş qiymətlər istehsal məsrəflərini ödəyir və normal qazanc verirsə, əmtəə qıtlığı yaranmır. Belə proseslərə, məsələn, inkişaf etmiş dövlətlərin kənd təsərrüfatında rast gəlinir. ABŞ fermerləri dövlətin kənd təsərrüfatının inkişafı üzrə proqramlarında iştirak edirlər, burada onların məhsulunun satışına və müəyyən qiymət səviyyəsinə təminat verilir.**




**Şəkil 11.9. Tarazlıq vəziyyətindən aşağı qiymətin müəyyənləşdirilməsi zamanı defisitin yaranması**

**Tələb və təklif əsasında bazar qiymətlərinin formalaşmasına yanaşma iqtisadçılar tərəfindən A.Marşalldan və başqa müasir iqtisadçılardan xeyli əvvəl nəzərdən keçirilmişdi. Bu yanaşmada daxili ziddiyyət var, onu K.Marks göstərmişdi.**

**Qiymətin tələb və təkliflə müəyyənləşdirilməsi, tələb və təklifin qiymətlə müəyyənləşdirilməsi bir də onunla çətinləşir ki, tələb təklifi və əksinə, təklif tələbi müəyyənləşdirir, bazar istehsalı, istehsal isə bazan müəyyənləşdirir. Bu tezis və dəlillərin, səbəb və nəticələrin yerdəyişmə prosesi iqtisad**

**çıları çətin vəziyyətə salır. Digər tərəfdən, iki bərabər gücə malik qüvvə əks istiqamətlərdə təsir göstərirlərsə, onlar biri-birini məhv edirlər (belə ki, tələb və təklif ödənilirsə, onlar hərəkətdən qalırlar) və bu şəraitdə baş verən hadisə bu iki qüvvənin təsiri ilə deyil, başqa bir şeylə izah olunmalıdır. Bir halda ki, tələb və təklif bir-birini məhv edir, onlar daha heç nəyi izah edə bilmir və biz nə üçün əmtəənin qiymətinin başqa miqdarda deyil, məhz bu AK və ya BM miqdarında pulla ifadə olunduğunu bilə bilmirik (şəkil 11.10). Əslində bazar iqtisadiyyatında tələb və təklif heç vaxt tam ödənilmir və əgər ödənilirsə də, yalnız təsadüfən.**




**Şəkil 11.10. Tələb və təklifin qarşılıqlı məhvi**

**Deyilənlərlə əlaqədar başqa bir problemi qoymaq olar: tələb və təklifin artıb-azalması bazar qiymətlərinin hansısa bir substansiya ətrafında dəyişməsini izah edir. A.Marşall və müasir iqtisadçıların nəzəriyyəsində bu problem aşkardır və təklifin tələbə uyğunlaşdığı uzunmüddətli dövrdə qiymətin formalaşma mexanizmini onların açıqlamasında üzə çıxır.**

## K.Marks nəzəriyyəsində qiymətin əmələ gəlməsi

**Əmtəə istehsalının müəyyən mərhələsində əmtəələrin hamısı ümumi bir dəyər formasına, məhz dəyərin pul formasına**

**malik olurlar. Qiymət əmtəə dəyərinin pulla ifadəsidir. Qiymətin kəmiyyətə görə dəyərin kəmiyyəti ilə üst-üstə düşməmə- sinin və ya qiymətin dəyərdən fərqli olmasının mümkünlüyü qiymətin formasının özündədir. Qiymətin forması nəinki dəyərlə qiymətin kəmiyyətcə fərqli olmaları ehtimalına yer qoyur, hətta özündə keyfiyyət ziddiyyətlərini də gizləyə bilir ki, nəticədə qiymət ümumiyyətlə dəyərin ifadəsi olmaqdan qalır (məsələn, namus, qeyrət, sifarişli qətllər müəyyən qiymətlə ifadə oluna bilirlər), halbuki pul əmtəənin dəyəridir.**

**K.Marksa görə, əmtəənin qiyməti onun dəyərinin kəmiyyəti, nisbi dəyəri, dövriyyədə olan pul materialının miqdarından, W bazar dəyərinin kəmiyyətindən asılıdır.**

**Bazar dəyəri müxtəlif maddi istehsal şəraitlərində istehsal olunan əmtəə kütləsi dəyərindən irəli gələn müxtəlif fərdi əmtəə dəyərləri əsasında formalaşa bilir (şəkil 11.11). Tələblə təklif bərabər olarsa, bazar qiymətinin əsasında orta dəyərlə müəyyənləşdirilən ictimai, bazar dəyəri durur. Dəyərin və bazar dəyərinin kəmiyyəti təkrar istehsal şəraitində əməyin məhsuldar qüvvələrinin dəyişməsi nəticəsində dəyişir. Təkrar istehsal şəraiti ilkin şəraitdən fərqli ola bilər.**

**Bazar qiyməti və bazar dəyəri nəzəriyyəsini K.Marks**




**Şəkil 11.11. Tələb və təklifin bərabərliyi şəraitində bazar qiymətinin formalaşması**

**di istehsalın konkret inkişaf şərtlərindən, istehsal və isteh- lakın nisbətindən, tələb və təklifdən çıxış edərək bazar dəyəri formalaşmasının müxtəlif üsullarını nəzərdən keçirir.**

**Bazar dəyərini o bir tərəfdən orta dəyər kimi, digər tərəfdən isə bazar üçün nəzərdə tutulan əmtəə kütləsinin əksəriyyətinin istehsal edildiyi fərdi dəyər kimi müəyyənləşdirir. Bu fikrin ikinci hissəsi müəyyən vaxt kəsiyindən sonra təkrar istehsal şəraitində onun kəmiyyətini açıqlayır. Dəyərin W-nun orta kəmiyyət funksiyasının davranışı qrafikdə verilmişdir (şəkil 11.12).**




**Şəkil 11.12. Tələb və təklifin müxtəlif nisbətlərində bazar dəyəri əyrisi**

**Bazar dəyərinin kəmiyyəti əmtəə istehsalı şərtlərilə deyil, onun təkrar istehsalı şərtlərilə, yəni onun təkrar istehsalı üçün lazım olan iş vaxtı ilə müəyyənləşir. Əmtəə istehsalçılarının rəqabəti onları məcbur edir ki, əmtəələri daha aşağı dəyər kəmiyyəti ilə istehsal etsinlər.**

**Əmtəənin bazar dəyəri kəmiyyəti minimal fərdi dəyərdən bazarda təmsil olunmuş bütün əmtəə kütləsinin maksimal fərdi dəyərinə qədər sərhəddə dəyişə bilir. O özü-özündən yuxarı və ya aşağı ola bilməz.**

**Tələb bazarda əmtəə təklifindən xeyli yuxarı olarsa, onda bazar dəyərinin əsasında nisbətən pis şəraitdə istehsalın**

**fərdi dəyəri dayana bilər. Qrafikdə (şəkil 11.12) bu orta dəyər kəmiyyəti W funksiyasının qiymətindən yuxarı olan bazar dəyəri Wp funksiyasının bütün qiymətləridir. K.Marks bundan çıxış edərək əkinçilikdə bazar dəyərinin formalaşması xüsusiyyətlərini açıqlayır. Əmtəə təklifi tələbdən xeyli çoxdursa, onda bazar dəyərinin əsasında nisbətən yaxşı istehsal şəraitlərindəki fərdi dəyər dura bilər. Qrafikdə bu W orta dəyərdən aşağıda yerləşən Wp bazar dəyəri funksiyasının qiymətidir.**

**Beləliklə, A.Marşall nəzəriyyəsində tarazlıq qiymətinin formalaşmasının bütün variantları, tarazlıq qiymətinin bütün kəmiyyətləri bazar dəyərində təmsil oluna bilirlər.**

**Uzunmüddətli dövrü götürsək, tələb və təklif həmişə biri-birini ödəyirlər. Bu yolla bazar qiymətləri bazar dəyərinə yaxınlaşırlar. Əgər tələb və təklif bazar qiymətini müəyyənləşdirirlərsə, bazar dəyəri tələb və təklifi müəyyənləşdirir. Sahədə əmtəə dəyərinin kəmiyyətini formalaşdıran istehsalın maddi şəraitləri əmtəə təklifini şərtləndirirlər.**

**Maddi istehsalın bəzi mərhələlərində sahələrarası rəqabət mexanizmi vasitəsilə ictimai əməyin yenidən bölgüsü imkanı yaranır. Bu sahələrarası rəqabət və təbiilərdən başqa bütün inhisarların aradan qaldırılması, kredit münasibətlərinin inkişafı, fəhlələrin bir istehsal sahəsindən digərinə keçməsinə mane olan bütün qanunların ləğvi, fəhlənin öz əməyinin mahiyyətinə laqeydliyi, bütün istehsal sahələrində əməyin sadə əmək səviyyəsinə endirilməsi, maşınla istehsalın yüksək inkişafı, işçilərin bütün peşə zehniyyətlərindən azad olması nəticəsində baş verir.**

**Sahələrarası rəqabət nəticəsində istehsal qiyməti (bunu iqtisadçılar əvvəllər xərclərin qiyməti adlandırırdılar) formalaşır. İstehsal qiymətinə istehsal xərcləri və orta mənfəət (başqa iqtisadçılarda normal mənfəət) daxildir. Bazar qiymətinin əsasında istehsal qiyməti dayana bilər. Qərb iqtisadçılarının uzunmüddətli dövr şəraitində tarazlıq**

**layır. Onlarda bildirilir ki, normadan artıq gəlir tarazlıqla bir araya sığmır.**

**İstehsal qiyməti yaradılan izafi dəyərin sahələr arasında əmtəə təklifi dinamikası nəticəsində bazar qiymətlərinin dəyişməsi mexanizmi vasitəsilə təkrar bölgüsü nəticəsində formalaşır. Həmin sahəyə daha yüksək üzvi quruluşlu kapitalın nüfuz etməsi nəticəsində isə istehsal qiymətinin sabit formalaşması baş verir. Əmtəə dəyəri istehsal qiymətinin riyazi təkrar bölgüsüdür. Buna görə də dəyərlə istehsal qiyməti arasında ziddiyyət yoxdur. İstehsal qiymətlərinin formalaşmasında iki proses təmsil olunmuşdur.**

**Biz əmtəə qiymətinin formalaşmasına iqtisadçıların iki yanaşmasını nəzərdən keçirtdik.**

### *§3. Bazar iqtisadiyyatı şəraitində qiymətlərin dövlət tənzimlənməsi*

**Bazar mexanizmi özüköklənmə və özütənzimlənmə mexanizmi olmasına baxmayaraq, təkmil deyil. Bir çox hallar olur ki, cəmiyyət dövlətin timsalında bazarın fəaliyyətinə, o cümlədən qiymətin əmələ gəlməsi prosesinə qarışmalı olur.**

**Bazarın qiymət mexanizmi əmtəə və xidmətləri ödəmə imkanı olanların xeyrinə, yəni əhalinin alıcılıq qabiliyyətinə müvafiq olaraq bölüşdürür. Bu zaman əhalinin uşaqlar, qocalar, əlillər, işsizlər və bir çox başqaları kimi bir çox təbəqələrinin tələbat və maraqları diqqətdən kənarda qalır. Cəmiyyət gəliri aşağı olan şəxslərin ilkin tələbat nemətləri ilə təmin edilməsini qarşısına məqsəd qoyursa dövlət, necə deyərlər, «tavan qiymətinin», yəni maksimal mümkün olan qiyməti müəyyənləşdirir. Aydındır ki, belə ən yüksək hədd qiyməti bazarın tarazlıq qiymətindən aşağı olmalıdır, əks təqdirdə belə siyasət mənasız olacaq. Şəkil 11.13-də göstərilir ki, müəyyən edilmiş maksimum qiymət xətti bazar tarazlığı nöqtəsindən aşağıdan keçir.**




**Şəkil 11.13. "Tavan qiyməti"**

**Qiymətlərin azaldılması siyasəti, yuxarıda deyildiyi kimi, gəliri aşağı olan şəxslərin istehlak səviyyəsini yüksəltmək kimi xoş məqsəd güdür. Belə siyasət sovet hakimiyyəti tərəfindən apeırılırdı. Təəssüf ki, bu zaman başqa, həmin bölgü modelini idealdan uzaqlaşdıran problemlər yaranır. Şəkil 11.13-dən göründüyü kimi, qiymətlər aşağı düşəndə istehlakçılar daha çox məhsul almağa çalışır, istehsalçılar isə istehsalın və təklifin həcmini aşağı salmağa çalışırlar. Kəsirlə istehsal və ya sovet iqtisadiyyatına çox yaxşı tanış olan əmtəə və xidmətlərin qıtlığı yaranır. Qıtlıq şəraitində başqa, həm rəsmi, həm də qeyri-rəsmi, bölgü mexanizmləri işə düşür.**

**Birincilərə əhalinin hər nəfərinə istehlak normalarının müəyyənləşdirilməsi və müxtəlif növ kartoçkaların, talon və kuponların tətbiqi aiddir. Lakin belə bölgü növü də təkmil deyil, çünki talonların təkrar satışı və mübadiləsini istisna etmir. Qıt əmtəənin və ya nemətin birinci növbədə verildiyi üstün qrupun müəyyənləşdirilməsi də rəsmi mexanizmə aiddir. Bu bölgünün də problemin həllindən çox problem yaratdığını sübut etməyə ehtiyac yoxdur. Belə ki, sovet iqtisadiyyatında növbədə birincilərə əlillər, çoxuşaqlı ailələr, vərəm xəstəliyinə tutulanlar, görkəmli idmançılar, ali dövlət mükafatları ilə təltif olunanlar və s. aid idilər, özü də, növbə birinciliyinin özünün bir neçə dərəcəsi olduğundan (uşaqların sayı.**

**xəstəlik) cəmiyyət qarşısında xidmətlər) onların öz aralarında növbə yaratmaq qeyri-mümkün idi.**

**Qeyri-rəsmi mexanizmlərə aid idilər:**

- **mağazalarda növbələr: əmtəəni birinci tez gələn alır;**
- **əmtəənin tanışlıqla alınması;**
- **əmtəəyə artıq haqq ödənilməsi və qara bazarın yaranması.**

**Maksimal yol verilən qiymət siyasəti nə qədər qeyri-təkmil olsa da, müəyyən dərəcəd.ə bazar qiymət mexanizminə əlavə kimi çıxış edir və ilkin tələbat mallarının qiymətlərinə nəzarət şəklində praktik olaraq bütün dövlətlərdə tətbiq olunur. Buna parlaq misal Yaponiya kimi yüksək inkişaf etmiş dövlətdə əsas ərzaq məhsulu olan düyünün qiymətinin tənzimlənməsidir.**

**Dövlətin qiymət siyasəti yalnız maksimum yol verilən qiyməti deyil, həm də minimum yol verilən qiyməti müəyyənləşdirə bilər. Bu halda istehlakçını deyil, istehsalçını dəstəkləmək məqsədi güdülür. Söhbət birinci növbədə kənd təsərrüfatı məhsullarının istehsalçısından gedir, ölkə fermerlərinin qiymətlə dəstəklənməsi siyasəti ABŞ, Avropa Şurası ölkələri və b. tərəfindən fəal aparılır. Bu kimi siyasətin məqsədi buğdaya, südə, ətə və s. bazarın tarazlıq qiymətindən yuxarı olan minimal qiyməti müəyyənləşdirməkdir (bax: şəkil**




Şəkil 11.14. Minimal mümkün qiymət

**Qiymətin belə qaldırılması fermerlərə məsrəflərini ödəməyə, idxal məhsulları ilə rəqabətə dözməyə, müflis olmamağa imkan verir. Bu kimi praktika, gec də olsa, 2002-ci ilin payızında dənli bitkilərin yüksək məhsuldarlığı nəticəsində buğdanın qiyməti sürətlə düşəndə və nəticədə çoxsaylı kənd təsərrüfatı müəssisələri müflislik təhlükəsi qarşısında qaldıqda Rusiyada da tətbiq olunmuşdu. Dövlətin qarışması və minimal qiymətin müəyyənləşdirilməsi bu prosesi dayandırdı.**

**Maksimal qiymətlərdə olduğu kimi, minimal qiymətlər də bir sıra yeni problemlər doğurur. Şəkil 11.14-dən göründüyü kimi, artıq istehsal effekti və ya məhsul artıqlığı yaranır ki, bu da bazar mexanizmi vasitəsilə realizə oluna bilməz. Təsadüfi deyil ki, ABŞ-da fermerlər üçün əlverişli qiymətin saxlanılması şərtlərindən biri fermerlərin becərilən sahələri və buğda istehsalını azaltmasıdır. Artıq məhsul probleminin həlli üsullarına həmin artıq məhsulun dövlət tərəfindən alınaraq dövlət ərzaq ehtiyatının yaradılması, artıq məhsulun ixrac olunması da aiddirlər. Çıxılmaz vəziyyətdə artıq məhsulun bilavasitə məhv edilməsi də tətbiq olunur. Nəzərə almaq lazımdır ki, artıq məhsul yalnız bazar koordinatlarında belədir, çünki kasıblıq və səfalət, az yemə və bilavasitə aclıq problemi də var. Bu problemlər əhalidə tədiyə qabiliyyətli tələb olmadığından məhz bazar yolu ilə həll oluna bilməzlər. Deməli, bu problemlərin həlli qeyri-bazar yolları ilə aparılmalıdır.**

**Bazarın qiymət mexanizmi müxtəlif istehsal sahələri arasında resursların bölgüsü problemini də kifayət qədər səmərəli həll edə bilmir. Bazar resursları alıcıların haqqım ödəyərək almağa hazır olduğu əmtəə və xidmətlərin istehsalına yönəldir. Cəmiyyətin nöqteyi-nəzərində bu heç də həmişə səmərəli deyil. Belə ki, alıcıların bir qisminin bahalı restoranda nahara bir neçə yüz dollar xərcləməyə hazır olduğu halda çoxunun ümumiyyətlə heç naharı yoxdur. Hələ Bernar Şou iqtisadçı olmasa da, bazar mexanizminin bu**

**cəhətinə diqqət yetirmiş və demişdir ki, uşaqlar üçün kifayət qədər süd istehsal olunmadığı halda resursları şampan istehsalına yönəltmək əxlaqsızlıqdır.**

### *§4. VergUarin qiymatin səviyyasina tasiH. Vergi ağırhğının bölgüsü*

**Göstərilən problemin kəskinliyini bəs dövlət necə azalda bilər? Yuxanda qeyd olunan ilkin tələbat mallarına «tavan qiymətləri»nin müəyyənləşdirilməsi siyasətindən başqa, dövlətin vergi siyasəti kimi mühüm aləti də var. Məsələn, zinət əşyaları istehsalına (və satıcısına) dolayısıyla yüksək vergi müəyyənləşdirməklə dövlət bu qəbildən olan əmtəələrin istehsalını və istehlakını məhdudlaşdırmaq məqsədi güdür. Və əksinə, ilkin tələbat əmtəələrinə vergini azaltmaqla dövlət onlann istehsalı və istehlakını həvəsləndirir (şəkil 11.15). Vergidən başqa subsidiyalardan da istifadə oluna bilər. Subsidiyalar istehlakçılara verilir ki, onlar əmtəə istehlakının həcmini artıra bilsinlər. Subsidiyalar əmtəə təklifini həvəsləndirmək və bununla onların bazar qiymətini aşağı salmaq üçün təchizatçılara da verilə bilər. Subsidiyaların bazarın tarazlığına və qiymətlərin səviyyəsinə təsiri mexanizmi şəkil 11.16-da verilmişdir.**




**Şəkil 11.15. Verginin bazar tarazlığına təsiri**




**Şəkil 11,16. Subsidiyaların bazar tarazlığına təsiri**

**Vergidən əmtəənin qiymətinə və onun istehlakı həcminə təsir üçün istifadə etdikdə nəzərə almaq lazımdır ki, verginin ağırlığı heç də həmişə yalnız istehsalçının (təchizatçının) üstünə düşür. Çox vaxt vergi ağırlığı satıcı ilə alıcı arasında bölüşdürülür. Şəkil 11.17-yə baxaq, burada dövlətin istehsalçıya hər məhsul vahidi üçün 2 rubl həcmində müəyyənləşdirdiyi spesipik dolayı vergi göstərilmişdir.**




**Şəkil 11.17. Vergi ağırlığımn satıcı və alıcı arasında bölüşdürülməsi**

**Dolayı vergi xəzinəyə istehsalçı (satıcı) tərəfindən ödənilir. Vergi onun istehsal məsrəflərini artırır, bu da bütün başqa şərtlər eyni olduğu təqdirdə istehssd həcminin azaldılmasını**

və **bazara əmtəə gətirilməsi həcminin azaldılmasını şərtləndirir. Təklif əyrisi (vergi də nəzərə alınmaqla) sola keçəcək, bunun nəticəsində tarazlıq qiyməti artacaq və istehsalın tarazlıq həcmi azalacaq. Beləliklə, vergi yükü satıcıdan alıcının üzərinə keçirildi: alıcı daha az alır və daha çox pul verir.**

**Əksər hallarda vergi ağırlığının hamısı istehlakçı üzərinə keçirilmir. Əvvəlki və yeni təkliflər arasındakı şaquli məsafə bir əmtəəyə düşən vergi vahidini göstərir. Diqqət yetirək ki, qiymət artımının son göstəricisi vergi vahidindən aşağı olacaq, çünki tələb əyrisi şaquli deyil, mənfi meyllidir. Buna görə də vergi vahidinin yalnız bir hissəsi yeni bazar qiymətinə daxil olur və alıcı tərəfindən ödənilir. Verginin qalan hissəsi satıcının payına düşür. Əgər tam qeyri-elastik tələb hadisəsini nəzərdən keçirsək, verginin hamısının əmtəənin qiymətinə girdiyini və tələb əyrisinin tam şaquli olduğunu görərik. Belə ki, Rusiyada MTS satışlarına vergi qoyulanda vergi bütövlükdə telefon şəbəkəsi abonentlərinin üstünə keçirilir, çünki hazırda mövcud olan qiymət intervalında MTS xidmətlərinə tələb tamamilə qeyri-elastikdir.**

**Vergi ağırlığının bölgüsü yalnız bir əmtəəyə nisbətdə deyil, həm də ümumilikdə nəzərdən keçirilə bilər. Məsələn, şəkil 11.17-də yuxarı ABCE düzbucaqlısımn sahəsi istehlakçının ümumi vergi yüküdür, aşağıdakı ECHF düzbucaqlısı isə istehsalçının vergi yükünün cəmidir. ABHF düzbucaqlısı bütövlükdə dövlət büdcəsinə daxil olan vergiləri səciyyələndirir.**

# XII FƏSİL. RƏQABƏT VƏ BAZAR HÖKMRANLIĞI. ANTİİNHİSAR TƏNZİMLƏMƏSİ

*§1. Rsqabət: anlayışı və növləri. Rəqabət qabiliyyətli bazarların səmərəliliyi.*
*§2. İnhisar və oliqopoliya. Bazar hökmranlığı,*
*§3. Antiinhisar tənzimlənməsi.*

**Bazar münasibətlərinin mahiyyətini ifadə edən əsas anla> yış rəqabət məfhumudur. Rəqabət bütün bazar təsərrüfatı sisteminin ağırlıq mərkəzi, bazarda qiymətlərin və təklif olunan əmtəələrin həcminin müəyyənləşdirilməsi istiqamətində istehsalçılar arasında qarşılıqlı münasibətləri əks etdirir. İnsanı rəqabət mübarizəsinə girməyə sövq edən səbəb başqalarına üstün gəlmək istəyidir. Rəqabət dinamik, hərəkəti sürətləndirən prosesdir. O bazan əmtəə ilə daha yaxşı təmin etməyə xidmət edir. Rəqabət bazar subyektlərinin məhsul istehsalı və satışında, həmçinin kapital qoyuluşu sahəsində qarşılıqlı münasibətlərini təmin edən bazar mexanizmi elementidir.**

## *§1. Rəqabət: anlayışı və növləri. Rəqabət qabiliyyətli bazarların aəmərəUUyi*

**Rəqabət (latın sözü «sonsurrere* - toqquşmaq) əmtəə istehsalı və realizə edilməsinin (alış və satışının) ən yaxşı şəraitləri ugrunda bazar təsərrüfatının ajn-ayrı subyektləri arasında mübarizədir.**

**Bazar iqtisadiyyatında belə toqquşma qaçılmazdır, çünki o aşağıdakı obyektiv şərtlərdən irəli gəlir:**

- **çoxsaylı bərabərhüquqlu bazar subyektlərinin olmasmdan;**
- **onların hər birinin tam iqtisadi əlahiddəliyindən;**
- **bazar subyektlərinin bazar konyunkturasından asılılığı;**
- **alıcı tələbinin ödənilməsi uğrunda bütün digər bazar subyektləri ilə mübarizə.**

**İqtisadi inkişaf və yaşamaq uğrunda rəqabət mübarizəsi bazar təsərrüfatının iqtisadi qanunudur. Bu satıcılar, alıcılar, satıcılar və alıcılır arasında mübarizədir. Satıcılar məhsullarını baha satmağa çalışırlar, lakin rəqabət onları alıcı tələbini həvəsləndirmək üçün öz məhsullarını ucuz satmağa vadar edir. Hərdən bazarda dempinq - əmtəələrin hədsiz ucuz qiymətə (az qala müftə) satışı - tətbiq olunur. Alıcılar arasında rəqabətdə, maddi nemətləri daha ucuz qiymətə almaq kimi təbii istəklərinə baxmayaraq daha çox və ya bazar qiymətinə nisbətən daha yüksək qiymətə alan qalib gəlir. Satıcılar (baha satmağa can atan) və alıcılar (ucuz almağa çalışan) arasında mübarizədə aralarında daha möhkəm birlik olanlar və öz qiymətləri (onlar üçün sərfəli) üstündə dayanmaq imkanına malik olanlar qalib gəlirlər.**

**Rəqabət iqtisadi tərəqqinin hərəkətverici qüvvəsidir. Bu onunla izah olunur ki, istehsalçı yalnız öz istehsalının saxlanılması deyil, həm də genişlənməsi qayğısına qaldıqda bazar rəqabəti uğurla nəticələnir, bunun üçün o texnikanı və istehsalın təşkilini təkmilləşdirməyə can atır, əmtəənin keyfiyyətini yüksəldir, məhsulun hər birinin istehsalına xərcləri azaldır və bununla da qiyməti aşağı salmaq, əmtəənin çeşidini genişləndirmək imkanı əldə edir, alıcılara ticarət və ticarətdən sonrakı xidməti yaxşılaşdırır. Məhz bu fakt Nobel mükafatı laureatı (1974) Fridrix fon Hayekə rəqabətə arxalanan cəmiyyətlərin başqalarından daha tez məqsədlərinə çatdıqlarını və məhz rəqabətin əşyaları daha səmərəli necə istehsal etmək mümkün olduğunu göstərdiyini söyləməyə əsas vermişdi. O istehsalatdan səmərəsiz müəssisələrin sıxış- dırılıb çıxarılmasına, resurslardan səmərəli istifadəyə rəvac verir, istehsalçının istehlakçıya münasibətdə amirliyinin qarşısını alır. Rəqabətin ictimai inkişafda müsbət rolu və rəqabətli bazarların səmərəliliyi şübhəsiz ki, bundadır.**

**Lakin rəqabət idealdan uzaqdır. Rəqabət münasibətlərinin dərin kökləri bütün dövrlərdə daha yaxşı mövcudluq şərtləri uğrunda daimi mübarizənin zəruriliyində idi. Bu**

**mübarizə nəticəsində yalnız qaliblər, sərvətlərini artıran xoşbəxt rəqiblər deyil, məğlub olanlar da olmuşdu. Əhalinin bir qisminin müflisləşməsi, səfaləti, işsizlik, qeyri-sabitlik, təbəqələşmə, sosial ədalətsizlik, inflyasiya, inhisarların yaranması və s. (bax: şəkil 12.1) kimi neqativ təzahürlər də rəqabətlə bağlıdır.**

**Smitə görə, istehsalçıların rəqabət davranışının mahiyyəti, bir qayda olaraq qiymət vasitəsilə «təmiz», sözləşmədən rəqiblərinə təzyiq göstərmək olub. Rəqabət anlayışına müasir baxışların əsas məqamı qiymətin müəyyənləşməsindəki rəqabət deyil, qiymətə təsir göstərmək imkanının olmamasıdır. Yozef Şumpeter deyirdi ki, hər halda iqtisadi artım nöqteyi-nəzərindən rəqabət köhnə ilə yeninin: yeni əmtəələr, yeni texnologiyalar, tələbatların ödənilməsinin yeni mənbələri, işin təşkilinin yeni növlərinin - rəqabətidir.**

**İqtisadi proses kimi, rəqabət təsərrüfatçılıq subyektlərinin müəyyən hərəkətlərinin məcmusu kimi də təzahür edə bilər. Bu hərəkətlər iqtisadi tsikl şəklində yığılır ki, buna da aşağıdakı ardıcıl təkrar istehsal prosesləri daxildir:**

- **istehsalatın maddi-əşya elementlərinin və əmək kollektivinin formalaşması;**




**Şəkil 12.1. Təkmil rəqabətin iqtisadi nəticələri**

**■İstehsalın təşkili, onun xammalla, materiallarla, yarımfabrikatlarla təchiz edilməsi, həmçinin ödənişli əsaslarla istehsal, maliyyə-kredit və layihə təşkilarları ilə qarşılıqlı əlaqə;**

**■ rəqabət qabiliyyətli məhsulun yaradılması;**

**■məhsulun realizə olunma həcmi, vaxtı və yerini müəyyənləşdirmək tədbirlərini nəzərdə tutan satışı;**

**■mənfəət hesabına investisiya fondunun yaradılması və ondan istehsalın genişləndirilməsi üçün istifadə.**

**Rəqabətin mahiyyəti onun funksiyalarında təzahür edir ki, bunlara da aşağıdakılar daxildir:**

**■istehsalçının istehlakçı tələblərinə yönümlənməsi, çünki bunsuz mənfəət əldə etmək olmaz;**

**■istehsalın istehsalçımn həyat qabiliyyətli qalmasım təmin edən səmərəliliyinin yüksəldilməsinin həvəsləndirilməsi:**

**■əmtəə istehsalçılarının təbəqələşməsi (bir qismi udur, ikinci qismi yerində sayır, üçüncü qismi müflis olur);**

**■istehsala təzyiq, tələb və mənfəət normasına müvafiq olaraq resursların xalq təsərrüfatı sahələri arasında bölüşdürülməsi;**

**■rəqabət qabiliyyəti olmayan müəssisələrin ləğvi (onların hərracda satışı, birləşdirilməsi, yönümünün dəyişdirilməsi);**

**■ əmtəələrin qiymətinin endirilməsi və keyfiyyətinin qaldırılmasının stimullaşdırılması.**

**Rəqabət mübarizəsinin səviyyəsi əsasən gedişində məhsulun yaranışından istehsaldan çıxarılana qədər hərəkət baş verən «həyat tsikli»ndən asılıdır. O, dörd mərhələyə bölünür:**

**■yeni məhsul tətbiqi, mənimsənilməsi. Bu mərhələ üçün istehsal olunan məhsulun satış həcminin cüziliyi və qiymətinin yüksəkliyi səciyyəvidir;**

**■artım, bu mərhələdə istehsal həcminin artımı, tələbin artması, qiymətlərin yüksək qalması baş verir;**

**■ yetkinlik, bu mərhələdə məhsul istehsalının həcmi maksimuma çatır, tələbin doyması baş verir, artım sürəti aşa**

**ğı düşür, rəqabətin güclənməsi və qiymətlərin aşağı düşməsi müşahidə olunur;**

**■ qocalma sonuncu mərhələdir. Bu dövrdə məhsula tələb minimuma enir, istehsal həcmi azalır, rəqabət mübarizəsi sönükləşir, məhsulun çox hissəsi istehsaldan çıxarılır və onun yenisilə əvəzlənməsi başlayır.**

**Rəqabətin təbiətini üzə çıxartmaq və intensivliyini qiymətləndirmək üçün Qərb iqtisadi ədəbiyyatında ingilis alimi, rəqabət sahəsində nüfuz sahibi M.Y.Porterin «rəqabətin beş qüvvəsi modelik adlı nəzəriyyəsindən çox istifadə olunur. Bu nəzəriyyədə beş rəqabət qüvvəsi fərqləndirilir.**

**1. Biri-biri ilə bəhsləşən satıcılar arasında rəqabət,**

**2. Əvəzləyici olan və qiymət cəhətdən rəqabət qabiliyyətli əmtəələr tərəfdən rəqabət.**

**3. Yeni rəqiblərin meydana gəlməsi təhlükəsi.**

**4. Təchizatçılarm iqtisadi irakanlan və ticarət qabiliyyətləri.**

**5. Alıcıların iqtisadi imkanları və ticarət qabiliyyətləri,**

**M.Y.Porterin rəqabətin beş qüvvəsi modeli rəqabət qüvvələrinin prinsipial quruluş sxemlərinin müəyyənləşdirilməsi və diaqnostikası üçün konseptual vasitədir. Bu modeldən istifadə mürəkkəb problemin dərki üçün həqiqətən sadə yoldur.**

**Rəqabətin beş qüvvəsi son nəticədə hər bir rəqabət bazan və onu təşkil edən iqtisadi vahidlərin fəaliyyət göstərdiyi şəraiti**

**Rəqabətin növləri**

**Rəqabətin aşağıdakı növlərini fərqləndirirlər:**

**■ funksional (müəyyən əmtəənin rəqabəti);**

**■ görünüş (qiymətə və keyfiyyətə görə);**

**■ firmalararası (ayrı-ayrı müəssisələr, firmalar arasında);**

**■ sahədaxili və sahələrarası; bunların mexanizmi K.Marks tərəfindən «Kapltal»ın III cildində kifayət qədər dərindən öyrənilmişdir;**

**■ təkmil və qeyri-təfcmil. Qərb iqtisadi ədəbiyyatında geniş yayılmışdır;**

■ **sağlam və haqsız rəqabət.**

**Təkmil rəqabətin əlamətləri şəkil 12.2-də sxematik göstərilmişdir.**




**Şəkil 12.2. Təkmil rəqabətinin əlamətləri**

**Təkmil rəqabət iqtisadi sistemin elə bir vəziyyətidir ki, bu zaman iqtisadi proses iştirakçılarının hər birinin ümumi vəziyyətə təsiri o qədər azdır ki, onu nəzərə almamaq da olar. Adətən təkmil rəqabətin bu əlamətləri fərqləndirilir: satıcı və alıcıların çoxsaylılığı, istehsal olunan məhsulun ey- ninövlüyü, satıcı və alıcıların qiymətlərə təsir imkanının olmaması, istehsal resurslarının tam səfərbərliyi, sahibkarların bazarın vəziyyətindən tam məlumatlı olması.**

**Təkmil rəqabət abstraksiyadır, həyatda «qeyri-təkmiU rəqabət elementləri həmişə var. Buna görə də müddəaları təkmil rəqabətə əsaslanan neoklassik məktəb (A.Marşall,**
**L. Valras) əhəmiyyətini itirmişdir. Hələ XX əsrin 20-ci illərindən başlamış qiymətin əmələ gəlməsi haqqında mübahisə (P.Staffın iri firmaların azad rəqabət və qiymət yaranması mexanizmini daim pozduqlarını sübut edən əsərlərinin təsiri altında) rəqabətə tamamilə başqa cəhətdən baxmağa imkan verdi.**

**Yeni bazar şərtlərinin tədqiqinə həsr olunmuş «İnhisarçı rəqabət nəzəriyyəsi» (E.Çemberlin, 1933) və «Qeyri-təkmil rəqabətin iqtisadi nəzəriyyəsi» (Coan Robinson. 1933) əsərlərinin işıq üzü görməsi qeyri-təkmil rəqabətdən danışmağa imkan verdi.**

**Qeyri-təkmil rəqabət bazarda müəyyən əmtəənin çox hissəsini istehsal edən bir və ya bir neçə iri firmanın fəaliyyət göstərməsini nəzərdə tutur. Bu ayrıca götürülmüş bir bazar subyektinin üstün mövqe tutub həmin əmtəənin bazarına nəzarət etdiyi inhisar (bir satıcı) və monopsoniya (bir alıcı) şəklində təzahür edir. Buradə əsas məsələ müəssisənin Ölçülərində deyil, onun bazar həcmindəki payındadır.**

**Amerikanın antitrest orqanları bazarların 60%-ni ondan sonra inhisarlaşma başlayan sərhəd hesab edirlər. K.Keyns və D.Türnerin fikrincə, inhisarlaşma beş il və daha çox müddətdə bir firmanın payına bütün illik satışın 50% -i və daha artıq və ya 4 və daha az firmanın payına bütövlükdə satışın 80%-i və daha artıq düşdükdə başlanır. ABŞ-ın Ədliyyə Nazirliyində meyarlar hazırlanıb ki, onların əsasında bazarda inhisarçı üstünlüyünün yaranması faktı barədə nəticəyə gəlinir: bir müəssisə üçün - 33%, üç müəssisə üçün - 50% və beş müəssisə üçün 66,6%.**

**Qeyri-təkmil rəqabətə həmçinin oliqopoliyalar (bir neçə iri satıcı), oliqopsoniyalar (bir neçə iri alıcı), inhisarçı rəqabət (fərqli məhsulun çoxlu satıcısı) aiddirlər.**

**Rəqabəti şərti olaraq sağlam və haqsıza bölmək mümkündür.**

**Sağlam rəqabətin əsas metodları:**

**■ məhsulun keyfiyyətinin yüksəldilməsi;**

**■ qiymətin aşağı salınması («qiymətlər müharibəsi»);**

**■ reklam;**

**■ satışa qədər və satışdan sonrakı xidmətin inkişafı;**

**■ yeni əmtəə və xidmətlərin yaradılması və ETI-nin nəticələrindən istifadə və s.**

**Haqsız rəqabətin əsas metodları:**

**■ İqtisadi (sənaye kəşfiyyatı);**
**■ rəqibin məhsulunun saxtalaşdırılması;**
**■ rüşvət və şantajetmə;**
**■ istehlakçıların aldadılması;**
**■ işgüzar hesabatlar ilə fırıldaqlar;**
**■ valyuta fırıldaqları;**
**■ çatışmazlıqların gizlədilməsi və s.**

## Bazarın rəqabət quruluşları

**İstehsalçılar və istehlakçıların say nisbətindən asılı olaraq aşağıdakı rəqabət quruluşlarını fərqləndirirlər:**

**■ hər hansı bir eynicinsli əmtəənin çoxsaylı istehsalçıları və həmin əmtəənin külli miqdarda ayrı-ayrı istehlakçıları. Əlaqələrin quruluşu belədir ki, prinsip etibarilə hər bir alıcı əmtəəni özünün faydalılıq anlayışından, onun qiymətindən və özünün alıcılıq imkanlarından çıxış edərək istənilən istehsalçıdan ala bilər. İstənilən istehsalçı yalnız Öz mənfəətindən çıxış edərək əmtəəni istənilən istehlakçıya sata bilər. Heç bir istehlakçı ümumi tələbin müəyyən qədər böyük hissəsini almır. Belə bazar quruluşu polipoliya adlanır və təkmil adlanan rəqabəti yaradır;**

**■ külli miqdarda ayrı-ayrı istehlakçı və hər biri ümumi tələbin xeyli hissəsini təmin edə biləcək az sayda istehsalçılar. Belə quruluş oliqopoliya adlanır və qeyri-təkmil adlanan rəqabəti yaradır. Həmin quruluşun son həddi külli miqdarda istehlakçıya qarşı duran və bütün istehlakçını qane edə biləcək bir istehsalçının olmasıdır ki, bu da monopoliya adlanır. Bazarda qeterogen (müxtəlif növ) məhsullar təklif edən nisbətən çox sayda istehsalçı təmsil olunan hallarda inhisarçı rəqabətdən söhbət açılır;**

**■ yeganə əmtəə istehlakçısı və çoxsaylı müstəqil istehsalçı. Bu zaman yeganə istehlakçı bütün çoxsaylı istehsalçıların verdiyi təklif olunan əmtəənin hamısını alır. Həmin quruluş qeyri-təkmil rəqabətin monopsoniya (tələbin inhisa**

**rı) adlanan xüsusi növünü yaradır;**

**■ yeganə istehlakçıya qarşı duran yeganə istehsalçının (ikitərəfli inhisar) qarşılıqlı əlaqə quruluşu nəinki ümumiyyətlə rəqabətli deyil, həm də heç bazar da deyil.**

**Müxtəlif rəqabət quruluşlarının əsas xüsusiyyətləri cədvəldə verilib.**

**Təkmil rəqabət məhdud həcmdə resursları istehlakın maksimum təmin edilməsinə imkan verən kimi bölməyə kömək edir.**

**Həm səmərəli, həm də səmərəsiz olmaqla bu və ya digər hərəkətin əsas qiymətləndirmə meyarı Koldor-Xiks meyandır. Bu meyara görə iqtisadi hərəkətlər onlann istehlak artıqlığı və istehsalçıların mənfəəti şəklindəki nəticələri mümkün mənfi nəticələrindən artıq olduğu təqdirdə səmərəli olur.**

**Təkmil rəqabət firmanı məhsulu minimum orta məsrəflərlə istehsal etməyə və bu məsrəflərə müvafiq qiymətə satmağa vadar edir.**

**Rəqabət, məzmununa görə olduqca ziddiyyətlidir. O, bir tərəfdən azadlığa, iqtsadi müstəqilliyə cəhdi ifadə edir - bu mərkəzdənqaçma qüvvəsinin təzahürüdür. Digər tərəfdən rəqiblərin özlərinin mübarizənin xətalarından Özlərini qorumaq cəhdidir ki, mərkəzəqaçma qüvvəsinin, cəhdlərin birləşdirilməsi meyllərinin, bir növ iqtisadi həmrəyliyin göstəricisidir ki, bunun da təminatçısı milli sahibkarların maraqlarını xarici kapitalın rəqabətindən qoruyan dövlət, bazar davranışları qanunları və sairdir. Bundan başqa, rəqabət mübarizəsində qalib gəlmə cəhdi bazarda hakim mövqe tutmağa, bazar hökmranlığını ələ keçirməyə, inhisarların yaranmasına gətirib çıxardır. Rəqabət və inhisarçılıq biri-birini inkar edən iki müxtəlif iqtisadi qüvvə deyil, eyni bazarın qarşılıqlı əlaqəsinin iki tərəfidir.**

## Müxtəlif bazar rəqabət quruluşlarının əsas oxşar və fərqli xüsusiyyətləri

| Bazarın əsas xarakteristikaları | Təkmil rəqabət | İnhisarçı rəqabət | Sırf inhisar |
|---|---|---|---|
| **Sahə firmalarının sayı** | **Olduqca çoxdur (sonsuzluğa meyllidir)** | **Çoxdur** | **Təkdir** |
| **Siyasətin müstəqilliyi** | **Firmalar müstəqil fəaliyyət göstərir, çünki rəqiblərin hərəkətlərini öncədən bilmək mümkün deyil** | | **Firma müstəqil fəaliyyət göstərir, çünki hesablaşmağa bir kimsə yoxdur** |
| **Yeni istehsalçıların sahəyə gəlməsi qarşısında maneələr** | **Yoxdur** | **Zəifdir** | **Keçilməzdir** |
| **Sahə məhsuluna tələbin elastikliyi** | **Azdır** | **Ortadır** | **Ən azdır** |
| **Firma tərəfindən iqtisadi mənfəətin əldə olunması** | **Uzunmüddətli dövrdə iqtisadi mənfəət yoxdur** | | **Firma daim İqtisadi mənfəət əldə edə bilər** |
| **Qiymət və hədd məsrəflərinin nisbəti** | **Qiymət son hədd məsrəflərinə bərabərdir (P=MC)** | **Qiymət son hədd məsrəflərindən yüksəkdir (P>MC)** | |

*§2, İnhisar və oliqopoliya. Bazar hökmranlığı*

**Qeyri'təkmil rəqabətin üç modeli mövcuddur: inhisar, oliqopoliya, məhsulların diferensiasiyası (şəkil 12.3).**




**Şəkil 12.3. Qeyri-təkmil rəqabətin modelləri**

**İnhisar (monopoliya - yunanca: monos - tək, poleo - satıram) dövlətin, müəssisənin, təşkilatın, satıcının hər hansı bir təsərrüfat fəaliyyətinin həyata keçirilməsinin müstəsna hüququdur (yəni bir şəxsə, bir qrup şəxsə və ya dövlətə mənsub olan). Öz təbiətinə görə inhisar azad rəqabətin, kortəbii bazarın əsaslarını dağıdan qüvvə kimi çıxış edir.**

**Müxtəlif ölkələrdə və müxtəlif tarixi dövrlərdə iqtisadiyyatda bir neçə növ inhisar yaranır:**

- **təbii inhisarlar, buna sərəncamlarında nadir və sərbəst təkrar istehsal oluna bilməyən elementlər (nadir metallar, torpaq və s.) olan mülkiyyətçi və təsərrüfatçı subyektlər malikdirlər;**
- **natural inhisarlar, hər hansı bir məhsulun istehsalı və satış bazarının ayrı-ayrı əllərdə cəmlənməsin! bildirir. Onun təsadüfi, sabit və ümumi formaları var.**

***Təsadüfi forma*** **gözlənilmədən, yaxşı istehsal şərtləri və**

**tələblə təklifin müvəqqəti əlverişli nisbəti şəraitində əmtəəni istehsal edib satmaq üçün müstəsna imkan düşən zamanı yaranır.**

***Sabit inhisar*** **XX əsrin sonlarında satış bazarlarını ələ keçirmiş ən iri müəssisələrdə yaranmışdır. Sabit inhisarların pul, rinq, kartel, sindikat, trest kimi formaları məlumdur. Bu inhisarlar təsərrüfatın hər hansı bir sahəsində yaranırlar. Bir sahədə yüksək gəlir gətirməyən artıq kapitalın meydana gəlməsi müxtəlif sahələrdə inhisarların (kombinə edilmiş trestlər, konsernlər, konqlomeratlar) yaranmasına gətirib çıxartdı.**

**İnhisarın ümumi forması XX yüzilliyin ikinci yarısında, bazarların çoxunda sahibkar birləşmələri birgə və ya dövlətin köməkliyilə ya əsas alıcı, ya da satıcı olanda yaranıb. Belə inhisarlara misal olduqca azdır. Məsələn, ABŞ-da bu, alüminium istehsalı üzrə «Alkoa» və digər şirkətlərdir.**

**İnhisarların yaranması istehsalın təmərküzləşməsi (istehsalın əlavə cəlb olunan kapital hesabına böyüdülməsi) və mər- kəzləşdirilməsinin (xırda və orta müəssisələrin bir böyükdə qovuşması) nəticəsi oldu. Qovuşma müxtəlif cür baş verə bilir: ya rəqabət mübarizəsinin gedişində müəssisənin birinin digərini udması (müflis olmuş rəqiblərin mülkiyyətinin dəyər-dəyməzinə alınması), ya da səhmdar cəmiyyətlərinin yaradılması yolu ilə.**

**Azad rəqabət çiçəklənmə dövrünə XIX əsrin 50-70-ci illərində çatdı: o zaman inhisarlar təzə yaranırdılar, olduqca qeyri-sabit idilər və tez dağılırdılar. İnhisarlar iqtisadi hadisə kimi çoxdan məlum idi. Onlar qədim dövrlərdə də, feodalizm dövründə də mövcud olmuşdular və hər hansı bir təsərrüfatçılıq sahəsində müstəsna iqtisadi üstünlüyə malik olmalarını bildirirdilər. Lakin o vaxtlar onlar tipik hadisə deyil, sadəcə olaraq istisna idilər. Onlar XX əsrdə geniş yayıldılar. İnhisarların yaranması ilə rəqabət mübarizəsi inhisarlarla autsayderlər (inhisarçı birləşmələrə daxil olmayan müəssisələr) arasında, bir də inhisarların öz daxilində aparılır. İnhisarlar**

**autsayderləri kütləvi şəkildə müflisləşdirmək və ya məcburən öz nəzarətləri altına almaq məqsədilə tez-tez qiymətlərin xeyli aşağı salınmasını tətbiq edirlər. Bazarın belə «təmizlənmə»sindən sonra inhisarlar nəinki qiymətlərin əvvəlki səviyyəsini bərpa edir, hələ onu daha da artırırlar.**

**İnhisarçı qiymət yaranmasına istehsal həcmini, monopsonist isə alış həcmini dəyişmək yolu ilə təsir edə bilir. İnhisarçı öz istehsalını əlavə məhsulun hər bir vahidi onun istehsalına çəkilən xərcdən artıq gəlir gətirincəyə qədər genişləndirir.**

**İnhisar və monopsoniya qeyri-təkmil rəqabətin nadir hallarıdır. Əmtəənin əsas kütləsinin bir neçə iri satıcıda cəmləşdiyi oliqopoliya (yunanca oliqos - çox olmayan, poleo - satıram) və bir neçə iri alıcının olmasını göstərən oliqopsoniyaya daha çox təsadüf olunur. Oliqopoliyaya misal ABŞ avtomobil sənayesinin üç nəhəngi, bütün məhsulun 90% -dən çoxunu istehsal edən ^General motorz», «Ford» və «Kraysler» ola bilər.**




**Şəkil 12.4. Oliqopoliyalarm problemləri (çətinlikləri)**

**Qeyri-təkmil rəqabətin üçüncü modeli məhsulun diferensiasiyasıdır (diferensiasiya edilmiş məhsulun çoxsaylı satıcıları). Diferensiasiya edilmiş məhsulun satışı zamanı çoxlu satıcı və alıcı olur.**

**Amma iri təsərrüfat təşkilatçısı olmaq həmişə çətindir (şəkil 12.4.).**

**Bazarda oliqopolik davranışın müxtəlif modelləri arasında ən çox maraq doğuranı məxfi oliqopolik razılaşma və oliqopoliyanın üstün forma olmasıdır. Belə firmanın davranışı (məsələn, Amerikanın kompüter nəhəngi Ay-Bi-Em) vahid inhisarçının davranışına yaxındır.**

**İnhisarların yaranması, bir tərəfdən bazarın təbii inkişaf prosesidir, digər tərəfdən isə bazarın sonrakı inkişafı inhisarların məhdudlaşdırılmasını tələb edir. Son dövrlərdə ABŞ- da belə bir ifadə yaranıb: «xırda olmaq gözəldir^. Nisbətən xırda firmalar daha çevikdirlər, onlar bazardakı hər yeni meyllərə daha tez uyğunlaşmağa qabildirlər, dünya iqtisadiyyatından daha az asılıdırlar, onların təşkilati quruluşu nəzarətdə saxlanıla biləndir.**

**İnhisarların bazarda mübarizə metodları və üsulları**

**İnhisarların daxilində mübarizənin xarakteri inhisarın - kartel, sindikat, trest və ya konsern formasında olması ilə müəyyənləşir. Kartel əsasında ittifaqın bütün iştirakçıları üçün, onların təsərrüfat müstəqilliyi saxlanılmaqla, istehsalın həcmi, qiymətləri, hər birinin bazarda payını, satış bazarlarının bölüşdürülməsini və s. müəyyənləşdirən saziş quran inhisarçı ittifaqdır. Kartellər daxilində rəqabət mübarizəsi aşağıdakılardır. Kartelə müxtəlif texniki inkişaf səviyyəli müəssisələr daxil ola bildiyindən, mübarizə bu və ya digər texniki təkmilləşməni tətbiq etmək uğrunda ola bilər. Birliyin liderləri bütün gəlirlərin çox hissəsini alanda onlar texniki tərəqqiyə maraqlarını müəyyən qədər itirirlər. Onlar həmin kartel iştirakçılarının müəssisələrində texniki**

**yeniləşmələrə yol verməməyə çalışırlar. Həmin ittifaqın zəif üzvləri az gəlirlə qane olmaq istəmirlər. Onlar sözləşir və inhisarın güclülərinin təzyiqinə baxmayaraq öz müəssisələrində yeni texnoloji proseslərin, ixtira və təkmilləşdirmələ- rin tətbiqi sayəsində əmək məhsuldarlığının artırılmasına nail olurlar. Kartel iştirakçılarının satdığı əmtəələrə qiymət müəyyənləşdirilməsi uğrunda mübarizə daim gedir. Kartelin daha güclü iştirakçıları qazanclarını artırmaq üçün satılan əmtəələrin miqdarının artırılması hesabına qiymətləri endirirlər. İstehsal məsrəfləri daha yüksək olan daha zəif iştirakçılar kartel razılaşması ilə müəyyənləşən qiymətin qaldırılmasına nail olurlar.**

**Kartel daxilində kəskin mübarizə obyekti kvotadır. Kvota kartel iştirakçısının ümumi istehsalda və bu birliyin satışında payıdır. Əslində kvota kartelin əldə etdiyi gəlirlərdə paydır. Hər bir müəssisə öz istehsal gücünə uyğun kvota və müvafiq olaraq gəlirlərdə payını alır.Kvota uğrunda mübarizə kartel yaranan gündən aparılır. Kartel iştirakçıları kvotaların dəyişdirilməsini tələb edirlər, çünki iştirakçıların qüvvələr nisbəti dəyişir. Kimi zəifləyir, kim isə güclənir, lakin hamı böyük kvotaya malik olmaq istəyir. Güclənən iştirakçılar kvotanın öz xeyirlərinə dəyişdirilməsini, zəifləyənlər əvvəlki kimi qalmasını tələb edirlər. Kvotalar haqqında razılaşmanın qüvvədə olma müddəti, cərimələrin məbləği, kvotaların artırılması və s. ətrafında mübarizə gedir. Bazar uğrunda da mübarizə gedir. Onlardan hər biri daha əlverişlisini ələ keçirmək istəyir.**

**Sindikatlarda da texniki təkmillik, kvota uğrunda mübarizə gedir. Sindikat birləşmiş müəssisələrin istehsal sahəsində müstəqilliyini məhv etmir, lakin karteldən fərqli olaraq saziş iştirakçıları üçün məhsulun satışı və xammal alışının təmərküzləşməsini təmin edir. İştirakçıları bilavasitə bazarda mübarizə aparmaq imkanlarından məhrum etməklə sindikat onları bir-birini istehsal sahəsində üstələməyə sövq edir. Bu isə son nəticədə müəyyən vaxtdan sonra**

**sindikat iştirakçılannın kvotaları ilə onların yeni güc nisbəti arasında ziddiyyətə səbəb olur ki, bu da mübarizənin kəskinləşməsinə gətirir və sindikatı daxildən partlada bilər.**

**Sindikat bazarı əmtəə qıtlığı vəziyyətində saxlamaq və qiymətləri şişirtmək məqsədilə satılan əmtəənin kəmiyyətini məhdudlaşdıra bilər. Buna misal «Prodast:> sindikatı ola bilər: o, kvotaların yerinə yetirilməməsinə görə mükafat verir və kvotadan artıq metal istehsal edənləri isə cərimə edirdi.**

**Trestlər daxilində mübarizə bir qədər fərqlidir. Trestlər birləşən irmalann hamısının öz ticarət və istehsal müstəqilliyini itirdiyi və vahid idarəetməyə tabe olduğu inhisar formasıdır. Birləşmə iştirakçıları trestin səhmdarlarma çevrildiklərindən onlar öz səhmlərini satmaq imkanına malikdirlər. Trestdə də səhmlərin nəzarət paketini əldə etmək, yəni trest üzərində «nəzarəti uğrunda mübarizə gedir. Trestlərdə idarə heyətində ən nüfuzlu vəzifələr, mənfəətin bölüşdürülməsi uğrunda mübarizə gedir. Belə ki, hərdən trestlərdə aparılan yenidən təşkillər yeni qrup ən iri səhmdarların hakim mövqeyi ələ keçirməsi və əvvəl rəhbərlikdə olan qrupun sıxış- dırılmasından başqa bir şey deyil.**

**Konsern müxtəlif istehsaUı firmaların mülkiyyət birliyi və onların fəaliyyəti üzərində nəzarətlə səciyyələnən inhisarçı birləşmədir. Konserndə əsas mübarizə forması səhmlərin nəzarət paketinin və ən sərfəli firmalar üzərində nəzarətin ələ keçirilməsi, bu və ya digər sahələrdə təsir dairələri uğrunda gedən mübarizələrdir. Belə ki, trest və konsernlərdə rəqabət mübarizəsi kifayət qədər oxşardır.**

**Müəyyən məhsulların istehsalçı inhisarları və istehlakçı inhisarları arasında mübarizə olduqca kəskin şəkil ala bilir. Məsələn, istehsal vasitələri istehsalı sahəsində inhisarın yaranması istehlakçı trestlərdə satıcı inhisarçıya təzyiq göstərib, onu qiymətləri aşağı salmağa məcbur etmək məqsədilə müvafiq əmtəələrin alışını məhdudlaşdırmaq meyli yaradır. Bu mümkün olmayanda istehlakçı trestlər Özləri müvafiq istehsal vasitələrinin istehsalına başlaya bilərlər - öncə öz eh**

**tiyaclarını ödəmək üçün, sonra isə hərdən də bazarda satmaq üçün Ford poladın qiymətinin həddən artıq artırılması ilə üzləşdikdə, poladəritmə şirkətləri ilə mübarizəyə başladı və öz poladəritmə zavodunu tikdirdi; həmin zavod poladəritmə müəssisələri arasında 11-ci yeri tuturdu.**

**Beləliklə, istehlakçı inhisarların müqaviməti və təzyiqi istehsalçı inhisarların qiymət müəyyənləşdirilməsindəki özbaşınalığını məhdudlaşdıra bilir. Bəzi hallarda inhisarçı qiymətlərə substitutlar və ya əvəzləyici əmtəələrin inhisar obyekti olan əmtəələrlə rəqabət mübarizəsi daha səmərəli təsir göstərir. Məsələn, yanacağa olan ehtiyac kömür, neft, elektrik enerjisi, qaz və sairlə ödənilə bilər. Yanacaq növlərindən hər hansı biri inhisar obyekti olursa və qiyməti artırmağa başlayırsa, digər yanacaq növləri tərəfindən rəqabət güclənir. Eyni qaydada müxtəlif tikinti materialları (dəmir, daş və s.), əlvan metallar (mis və aliminium), nəqliyyat növləri (tramvay, avtobus, metro, dəmir yolu, avtomobil, təyyarə və s.) və s. biri-biri ilə rəqabət apara bilir. Buna görə də həmin tələbatı ödəyən əmtəələrdən birinin və ya bir qisminin inhisarlaşması müvafiq inhisarlaşmamış əmtəələrin onlarla rəqabətini kəskinləşdirir.**

**Rəqabət mübarizəsinin mühüm forması istehlakçının alıcılıq qabiliyyəti uğrunda və ya Amerika ədəbiyyatlarında deyildiyi kimi, «istehlakçı dollarım uğrunda mübarizədir. Bu mübarizənin mahiyyəti ondan ibarətdir ki, o, müxtəlif tələbatları ödəyən inhisarlar tərəfindən biri-birinə qarşı aparılır. Bu başqa növ istehlakları alıcı büdcəsindən sıxışdırıb çıxartmaqdır. Əhalinin alıcılıq qabiliyyəti hər bir müəyyən anda müəyyən bir kəmiyyət olduğundan bu və ya digər istehlak növünün əhəmiyyətli dərəcədə artırılması yalnız hər hansı başqa əmtəələrin istehlakının azaldılması hesabına mümkündür. Buna görə də, hər bir inhisar başqa sahələrdə istehsal olunan əmtəələri alıcı büdcəsindən sıxışdırıb çıxartmaq yolu ilə satışını genişləndirməkdə maraqlıdır. Məsələn, mebel və digər məişət əşyaları istehsal edən inhisarlar reklam.**

**kreditə satma yolu ilə alıcılara daha çox öz mallarından sırımağa çalışırlar. Lakin paltar, ayaqqabı, saat, velosiped, maşın və s. istehsal edən inhisarlar da eyni metodlarla həmin nəticəyə nail olmağa çalışırlar. Beləliklə, istehlakçının alıcılıq qabiliyyəti uğrunda mübarizə gedir.**

**İnhisarların rəqabət mübarizəsi aparmaq metodları və vasitələri aşağıdakılardır:**

**■ xammaldan, materialdan məhrum etmək - kartelə daxil olmağa məcburetmənin ən mühüm fəndlərindən biridir;**

**■ «alyanslara, yəni sahibkarların fəhlə ittifaqları ilə razılaşmaları yolu ilə iş qüvvəsindən məhrum etmək;**

**■ yük gətirilməsindən məhrum etmək;**

**■ satışdan məhrum etmək;**

**■ ticarət əlaqələrinin yalnız kartellərlə aparılması haqqında alıcı ilə razılaşma;**

**■ qiymətlərin planlı şəkildə aşağı salınması («özgələri», yəni inhisarçılara tabe olmayan müəssisələri müflisləşdirmək üçün müəjryən müddət əmtəəni maya dəyərindən aşağı qiymətə satmaq üçün milyonlar xərclənir);**

**■ kreditdən məhrumetmə, baykot elan edilməsi. Bura rəqib müəssisələrinin yerləşdiyi torpaq sahələrinin alınmasını, aksiyaların, patentlərin alınmasını, lazımi adamlara rüşvət verilməsini, dövlət orqanları vasitəsilə təzyiq göstərilməsini və s. aid etmək olar.**

**Müxtəlif kəşf, ixtira və texniki təkmilləşdirmələrə patentlərin ələ keçirilməsi həm sahədaxili, həm də sahələrarası rəqabətdə geniş istifadə olunur. Patentləri ələ keçirməklə inhisar başqa sahələrdən buraya can atan inhisarları «öz» sahəsinə buraxmamağa çalışır. İnhisarlar rəqiblərinə qarşı avadanlıq istehsalını öz əllərinə keçirmək yolu ilə mübarizə aparırlar. Rəqabət mübarizəsi vasitəsi kimi diversifikasiya, istehsalın kombinə edilməsindən istifadə olunur. Diversifikasiya bir sahə inhisarının başqa istehsal sahələrinə nüfuz edib oradan rəqibləri sıxışdırıb çıxartmasıdır.**

**Son zamanlar elmi-texniki inqilab tamamilə əks meyl -**

**İri müəssisələrin parçalanması meylini, texniki cəhətdən qabaqcıl xırda və orta müəssisələrin rolunun artmasını doğurmuşdur. Bir sıra inkişaf etmiş ölkələrdə bütün təsərrüfat təşkilatlarının 70-80%-ni onlar təşkil edir.**

**ölkəmizdə totalitar dövlət iqtisadiyyatının dağılması tam inhisarçılığın bütün növlərinin sındırılmasını nəzərdə tutur.**

**İnhisarların yaranması onların öz məhsullarına yüksək inhisarçı qiymətlər və aldıqları məhsullara aşağı inhisarçı qiymətlər (məsələn, xammal və s.) müəyyənləşdirmək hesabına iqtisadi xeyir götürməklə şərtlənir.**

**İnhisar qiyməti üstəlik mənfəət şəklində inhisar mənfəəti əldə etmək məqsədilə bazar qiymətinin rəqabət qiymətindən yuxan və ya aşağı müəyyənləşdirilən xüsusi növüdür.**

**Bu mənfəət forması inhisarçların bazarda öz iqtisadi üstünlüklərini realizə etməsi, əhalidən və digər sahibkarlardan aldıqları bir növ «xərac»dır.**

**Qiymətlər müharibəsi rəqabət mübarizəsində müəyyən yer tutur. Onun mahiyyəti aydındır. İmkan düşəndə və lazım gələndə inhisarlar öz rəqiblərini ucuz malla «vurmağa» çalışırlar. Böyük Britaniyada, məsələn, autsayderlərin sifarişlərini əllərindən çıxartmağa yönəldilmiş «mühafizə sistemi» tətbiq olunur. İnhisarlar autsayderləri kütləvi şəkildə müflisləşdirmək və ya öz nəzarətləri altına almaq üçün tez- tez qiymətlərin xeyli endirilməsinə əl atırlar. Bazarın belə təmizlənməsindən sonra inhisarlar nəinki qiymətləri əvvəlki səviyyəyə çatdırırlar, hətta onu daha da artırırlar.**

**İnhisarçı qiymət yaranmasına istehsal həcmini dəyişməklə, monopsonist isə alış həcmini dəyişməklə təsir etmək imkanına malikdir. İnhisarçı hər bir əlavə məhsul vahidi onun istehsalına çəkilən xərcdən daha çox gəlir gətirənə qədər öz istehsalını genişləndirir.**

**Oliqopoliyalar istehlakçı tələbi uğrunda yeni mübarizə üsulundan - qeyri-qiymət rəqabətindən istifadə edirlər. Bu halda mübarizə texniki üstünlük, məmulatın yüksək keyfiyyəti və etibarlılığı, daha səmərəli satış metodlarındsuı istifa**

**də, marketinq tətbiqi, göstərilən xidmət növlərinin və alıcılara təminatların genişləndirilməsi, ödəniş şərtləri və başqa üsullardan istifadə olunur.**

**Qeyri-qiymət rəqabəti qiymət və dəyərin qarşılıqlı əlaqəsinin bazar tənzimləmə mexanizmini dəyişir. Əgər bazarda oliqopoliyanın müəyyənləşdirdiyi qiymət üstünlük təşkil edirsə, qiymət artıq əmtəə dəyəri ətrafında əvvəlki hərəkətləri edə bilməz. Dəyərin kəmiyyəti məhsulun təsbit olunmuş qiymətinin səviyyəsinə müvafiq olaraq dəyişir, rəqabətin kəskinliyindən asılı olaraq oliqopoliyanın əmtəənin keyfiyyətinin yüksəldilməsinə, istehlakçılara xidmət şəbəkəsinin saxlanılmasına, reklama və s. xərcləri artır və ya azalır. Məhsullarının hazırlanması və satışına inhisar və oliqopoliyala-nn məsrəfləri sürətlə dəyişir və bazar qiymətlərinə nisbətən daha çevikdir.**

**Dıiopoliya bazar quruluşudur, qarşılıqlı əlaqələri, sahədə istehsal həcmini və bazar qiymətini müəyyənləşdirən firmalar bazarda fəaliyyət göstərən zaman olur. Belə bazarda tarazlığın sabitliyi qiymətin son hədd məsrəflərinə (yəni rəqabət tarazlığı yaranır) bərabər olduqda yaranır. Duopoliya şəraitində firmalar qiyməti aşağı salmaq və istehsal həcmini artırmaqla rəqabət aparırlar. Bu vəziyyət Bertran tarazlığı ilə təsvir edilmişdir.**

**Ştakelber tarazlığı bazar hakimiyyətinin firmalar arasında qeyri-bərabər bölgüsünü təsvir edir, bu zaman firmalardan biri aparıcı olur, digəri uyğunlaşma siyasəti apanr.**

**Kıımo tarazlığı bazarda o zaman əldə olunur ki, duopoliya şəraitində hər bir firma müstəqil fəaliyyət göstərir, lakin digər firmanın ondan gözlədiyi optimal istehsal həcmi seçir. Kurno tarazlığı iki firmanın reaksiya göstərmə əyrilərinin kəsişmə nöqtəsi kimi təzahür edir.**

**İnhisarçı rəqabət özündə inhisarın və təkmil bazarın əlamətlərini birləşdirir. Ərzaq mağazaları, baqqaliyə ticarəti, benzindoldurma məntəqələri və bir çox başqa pərakəndəsatış müəssisələri inhisarçı rəqabət şəraitində fəaliyyət göstərirlər.**

**İnhisarçı rəqabətin mahiyyəti ondadır ki, hər bir firma çoxlu oxşar, lakin təkmil əvəzləyicisi olmayan məhsul satır. Nəticədə hər bir firmanın öz məhsuluna azalan tələb əyrisi olur. Fərqlənmə məhsulun özündən (məsələn, pivənin müxtəlif növləri) və ya mağazanın yerləşmə yerindən asılı ola bilər.**

**Bazara giriş azad olduğundan, nə qədər ki, iqtisadi gəlir əldə etmək imkanı var, oxşar məhsul istehsal edən firmalar sahəyə daxil olacaqlar. Sahədə yeni firmaların meydana gəlməsi firmaların hamısının tələb əyrisi sahə firmalarından hər birinin gəliri uzunmuddətli dövr üçün, sıfra bərabər oluncaya qədər sola, koordinat oxuna doğru hərəkət etməyə başlayacaq.**

## Bazar hökmranlığı və onun göstəriciləri

**Adətən, hesab edirlər ki, inhisar qiymətləri ən yüksək qiymətlərdir. Əslində isə onlar bir qayda olaraq rəqabət qiymətlərindən yüksəkdir. Lakin inhisar bir məhsul vahidinə mənfəəti deyil, bütün mənfəət kütləsini maksimallaşdırmağa çalışır. Qiymət artımı isə sonsuz deyil, o, həmin müəssisənin (firmanın) məhsuluna tələbin qiymət elastikliyi ilə məhdudlaşır. Buradan inhisar hökmranlığı firmanın məhsuluna olan tələb elastikliyinə əks olan kəmiyyətdir (I/Ej),**

**A.P.Lerner bu müddəaya əsaslanaraq 1934-cü ildə aşağıdakı indeksi təklif etmişdir:**

$$\wedge \frac{P\wedge - MC}{'} _ \frac{1}{E'}$$

**burada II - inhisar hakimiyyətinin Lerner indeksi;**
**Pm- İnhisar qiyməti;**
**MC - son hədd xərcləri;**
**E - məhsula tələbin elastikliyidir.**

**Təkmil rəqabət şəraitində $MC=P\wedge$. Və deməli, Əgər müsbət kəmiyyət olarsa > 0), firma inhisar hÖfcmranlığı-**

na malİKdir. Bu göstərici nə qədər yÜKSƏK olarsa, inhisar hÖKmranlığı da bir o qədər böyÜK olar.

LaKİn belə göstəricini hesablamaq real son hədd məsrəflərinin hesablanması mürəKKəbliyi ilə əlaqədar çətindir. Buna görə də təcrübədə son hədd məsrəflərini orta göstəricilərlə əvəzləyirlər. Bu halda iİKİn düstur belə yazıla bilər:

$$P-AC$$

Surət və məxrəci Q-yə vursaq, onda surətdə mənfəəti, məxrəcdə isə ümumi (məcmu) gəliri alarıq:

$$h = \quad i»xQ \quad \frac{(P-AC)y^Q\ n}{TC}$$

Bununla da Lerner göstəricisi yÜKSƏK mənfəəti inhisarın əlaməti Kİmi nəzərdən Keçirir. Müəyyən mənada bu düzgündür, laKİn elə hallar olur Kİ, yÜKSƏK mənfəət norması heç də birmənalı şəKİldə inhisar əlaməti deyil.

inhisar hÖKmranlığının digər göstəricisi Herfindal-Hirş- man göstəricisidir (bu indeKSİ təKİif etmiş alimlərin adı ilə). O, bazann təmərKÜzləşməsi dərəcəsini səciyyələndirir və firma məhsulunun sahədə xüsusi çəKİsi barədə verilənlər əsasında hesablanır. Bütün firmalar xüsusi çəKİlərinə görə ən böyüyündən ən Kiçiyinə qədər dərəcələrə bölünür:

$$*s_i$$

burada Herfindal-Hirşraan indəKSİ;

ən iri firmamn xüsusi çəKİsi;

$s_g$- böyÜKİüyünə görə sonraKi firmanın xüsusi çəKİsi;

ən xırda firmanın xüsusi çəKİsidir.

Əgər sahədə cəmi bir firma fəaliyyət göstərirsə (yəni söhbət sırf inhisardan gedirsə), onda = 100%, $I^H$ = 10000-dir.

Əgər sahədə 100 eyni firma varsa, onda 5^=1%, 7^^j^=100xS*=100.

### *§3, Antiinhisar tsnzimlənmssi*

**Qiymətlər üzərində inhisar hökmranlığında inhisarın məhsullarına qiymətin artırılması və inhisar firmaları üçün xammalın qiymətinin endirilməsi təhlükəsi var. İnhisar müəyyən sabitlik ehtiyatını saxlayır, bu da inhisarların fəaliyyətində çox tez-tez olan və dərin müsbət dəyişkənlikləri ləngidir, bürokratizm yönümlü meyl və X-səmərəsizlifc (bu zaman istənilən istehsal həcmində faktik məsrəflər ümumi orta məsrəflərdən yüksək olur) yaranır. İnhisar bazarında P>MC (bir qayda olaraq) olduğundan adətən resurslar səmərəsiz bölüşdürülür. İnhisarların fəaliyyəti gəlirlərin təbəqələşməsini gücləndirir ki, bu da sosial münaqişələrlə nəticələnə bilər. Buna görə də müasir dövlət iqtisadiyyatın anitiinhisar tənzimlənməsini aparmalıdır.**

**Məlum olduğu kimi. Qərb ölkələrində dövlət inhisarlar və oliqopoliyalann təsərrüfat fəaliyyətinə fəal müdaxilə edir. O, inhisar və oliqopoliyalann iqtisadiyyata hədsiz təsir etməsinə yol verməməyə çalışır, antiinhisar (antitrest) qanunvericiliyi hazırlayır.**

**Antiinhisar qanunvericiliyi firmaların cəmiyyət üçün təhlükəli inhisar hökmranlığı əldə etməsinə qarşı yönəlir. Antiinhisar qanunvericiliyi dar və geniş mənada başa düşülə bilir. Birinci halda o artıq inhisar hakimiyyətinə malik xalis inhisarlara və iri oliqopoliyalara qarşı, bundan başqa qəbul olunmuş işgüzar münasibətləri pozan «haqsıza hərəkətlərin qarşısının alınmasına yönəldilir. Geniş mənada antiinhisar qanunvericiliyi inhisar hakimiyyəti cəmlənməsinin istənilən formasına (o cümlədən xırda firmalar tərəfindən də), istənilən inhisar hərəkətlərinə qarşı yönəldilir.**

**Ən inkişaf etmiş antiinhisar qanunvericiliklərindən biri ABŞ-dadır, orada ilk antiinhisar qanunları hələ XIX əsrin sonlarında yaranmışdı. Bu təcrübədən inkişaf etmiş ölkələr istifadə edə bilərlər. Hazırda Amerika antiinhisar qanunları dörd tənzimləmə obyektini nəzərdə saxlayır: bazarın inhisar-**

laşması; firmaların rəqib əleyhinə qovuşması; qiymətlər və ticarəti məhdudlaşdırmaq haqqında razılaşmalar; ticarətin rəqabətə xeyli zərər vuran məhdudlaşdırılması. ABŞ-da bazarın yerli və ya ümummilli inhisarlaşması 60% -ə bərabər və ya bundan artıq olan pay hesab olunur. Belə payı olan şirkət məhkəmənin qərarı ilə ləğv oluna bilər.

Dövlət inhisarların yaranmasına aparan, yerli və ya ümummilli səviyyədə rəqabətə xeyli zərər vura bilən istənilən qovuşmaları qadağan edə bilər. Belə ki, eyni məhsul üzrə iri firmaların üfüqi və eyni bazarda başqa şirkətlərlə qovuşması, həmçinin ən iri şirkət tərəfindən rəqiblərinin əmlakının alınması qadağandır. Amerika qanunvericiliyi məsələn, dəmir filiz və poladəritmə şirkətlərinin və ya konqlomerat, yəni istehsalın diversifikasiyası əsasında qovuşmaları kimi şaquli qovuşmalara daha az ciddiliklə yanaşır.

İnhisar razılaşmalarını qadağan edən ilk qanunlar Kanadada (1889) və ABŞ-da (1890) qəbul olunmuş Şerman qanunu adlanan qanundur. Həmin qanun * iqtisadi azadlıq xartiyası* kimi məşhurdur. Qanun çox ciddi səslənirdi. Peşə azadlığını məhdudlaşdırmaq, hər hansı bir təsərrüfat sahəsini inhisar- laşdırmaq məqsədi güdən istənilən müqavilə və birləşmələr qeyri-qanuni hesab olunurdular. İnhisarİ€irın yaradılması 5 min dollara qədər cərimə ilə (sonralar həmin məbləğ 50 minə qədər qaldırıldı) və bir il həbs cəzası ilə cəzalandırılırdı. Belə bir qanun Avstriyada və Yeni Zelandiyada da qəbul olunmuşdu, Sonralar Şerman qanununa əlavələr edilmiş (1914, 1939, 1950-ci illərdə), o yeni-yeni fəaliyyət növlərinə və yeni birlik və saziş formalarına şamil edilmişdir.

Kleyton qanunu (1914) kontragent dairəsinin məhdudlaşdınl- masmı, firmalarm, alınması və ya udulmasım, əgər bu rəqabəti məhv edə bilərdisə, holdinq şirkətləri və digər sazişləri qadağan etdi. Üfüqi qovuşmalar (bir sahə firmalarının birləşməsi) qadağan edilirdi. 1914-cü ildə «haqsız* rəqabət mübarizəsi metodları və şirkətlərin antirəqabət qovuşması ilə

**Qərbi Avropada (Belçika - 1935, Niderland - 1935, Danimarka - 1937) kartel sazişlərinə qanunvericilik nəzarəti cəhdləri olmuşdu. Burada kartellər «lüzumsuz rəqabətilə mübarizə vasitəsi kimi nəzərdən keçirilirdi, leıkin qanunlar bu inhisar formasından sui-istifadəyə yol verməməyə yönəldilmişdi.**

**Keller-Kefauver Aktı (1950) aktivlərin alınması yolu ilə qovuşmaları qadağan etməklə Kleyton Aktını təkmilləşdirdi. Yalnız üfüqi deyil, həm də şaquli qovuşmalar (eyni istehsalat tsiklinin ardıcıl iştirakçıları olan şirkətlərin birləşməsi) qadağan edilirdi.**

**Ümumi bazarın əsasını qoymuş Roma müqaviləsinin 85 və 86-cı maddələri ilə də inhisarçı sazişlər qadağan olunurdu.**

**Beləliklə, bütün bu qanunlar azad bazarın, sağlam rəqabətin təmin edilməsinə yönəlmiş və onlar müxtəlif cür sazişlər üzərində nəzarəti müəyyənləşdirirdilər.**

**Lakin Amerika məhkəmələrində azad rəqabətin pozulması üzrə baxılmış işlərin çox az hissəsi qanunu pozanların cəzalanması ilə nəticələnmişdi. Çox vaxt hakimlər inhisarların tərəfində idi. Hələ rus iqtisadçısı İ.Yanjul özünün sindikatlar haqqında kitabında Şerman qanunu üzrə həmin qanun qəbul ediləndən üç il sonra qeyri-qanuni elan edilmiş birləşmələrin çiçəkləndiyinə diqqət yetirmişdi.**

**İqtisadiyyatı inkişafda olan ölkələrin hökumətləri antiinhisar tənzimlənməsini həyata keçirərkən onların ölkələrində rəqabət şəraitinin formalaşmasına təsir edən aşağıdakı amilləri nəzərə alırlar:**

- **qiymətlərin liberallaşdırılması;**
- **maliyyə sabitsizliyi və inflyasiyanı, sənaye tənəzzülü və onu istehsal sahələrində müşayiət edən böhran hadisələri, həmçinin istehsal quruluşunun dəyişməsini;**
- **xarici iqtisadi əlaqələrin liberallaşdınlmasını.**

**Qiymətlərin liberallaşdırılması natural şəkildə məhsula tələbin kəskin azalmasına apanr, bu da öz növbəsində qiymətlərin liberallaşdırılmasına baxmayaraq, istehsalın azal**

**masına səbəb olur. Bir sıra hallarda qiymətlər üzərində dövlət orqanları tərəfindən nəzarət saxlanılır.**

**Bundan başqa, dövlət rəqabət münasibətlərini həvəsləndirmək və inkişaf etdirmək məqsədilə xırda adlandırılan biznesi dəstəkləyə bilər, bəzi hallarda isə gömrük haqqını azaltmaq və bununla da milli istehsalçıya rəqabət yaratmaqla milli iqtisadiyyatı dünya bazarı üçün daha açıq edə bilər,**

**Dövlət orqanları tərəfindən müasir antünhisar tənzimləmələrini üç tədbirlər qrupunda ümumiləşdirmək olar:**

**Birinci qrup tədbirlərə aşağıdakı inzibati-hüquqi təsirlər daxildir:**

- **hər hansı bir təsərrüfat sahəsində inhisarların qadağan olunması;**
- **mövcud inhisarçı birləşmələrin buraxılması;**
- **inhisarların bir sıra müstəqil istehsala parçalanması.**

**İkinci qrupa aşağıdakılara yönümlənmiş inzibati-iqtisadi tədbirlər daxildir:**

- **qiymət ayrı-seçkiliyi həyata keçirən tacirlərin (qiymətlərin istehsal məsrəfləri ilə şərtlənməyən artırılması) dövlət tərəfindən təqib edilməsi;**
- **reklamdan istifadə yolu ilə əmtəələrin saxtalaşdırılmasını həyata keçirən tacirlərin təqib edilməsi;**
- **bazarda vəziyyətin dəyişdirilməsinə birgə təsir etmək məqsədilə razılığa gələrək tərəfmüqabillərə xarici iqtisadi təsirin qadağan edilməsi.**

**Üçüncü qrup tədbirlər dövlət tərəfindən aparılan iqtisadi təsirlərdir:**

- **inhisarları istehsal etdikləri məhsula azad rəqabət şərtlərinə yaxın qiymətlər müəyyənləşdirməyə məcbur edən vergi siyasətinin müxtəlif üsullarından istifadə;**
- **substitut, yəni əvəzləyici əmtəələrin istehsalının təqdir edilməsi. Fərdi və istehsal istehlakı məhsullarının müxtəlifliyi inhisar istehsalı olan əmtəələrə tələbi azaldır;**
- **beynəlxalq iqtisadi əlaqələrin qurulması və idxalın**

**biliklərin bölüşdürülməsi.**

**Rəqabət mühitinin formalaşdırılması və sahibkarhğın inkişaf etdirilməsi sahəsində prinsipial mühüm məqamlar bunlardır:**

- **mülkiyyət məsələlərinin tənzimlənməsi;**
- **sahibkarlığın inkişafına dəstək;**
- **inhisarçıların fəaliyyətinin tənzimlənməsi;**
- **sənaye mülkiyyətinin hüquqi mühafizəsi, istehlakçı hüquqlarının müdafiəsi və qeyri-sağlam rəqabətə qarşı mübarizə.**

**Dövlətin rəqabəti müdafiə etmək uzrə fəaliyyəti inkişaf iqtisadiyyatı üçün, o cümlədən bütün bundan irəli gələn nəticələrlə inhisar bazarının artıq formalaşdığı Rusiya iqtisadiyyatı üçün müstəsna mühüm əhəmiyyət kəsb edir. 1991-ci ildə Rusiyada əmtəə bazarlarında rəqabət və inhisar fəaliyyətinin məhdudlaşdırılması haqqında qanun qəbul olunmuşdu. Lakin bu qanunun təəssüf ki, müəyyən qüsurları var və ən əsası isə budur ki, o hələ ki, praktik olaraq öz tətbiqini tapmayıb.**

**Mərkəzi və Şərqi Avropa Ölkələri (Rusiya, Ukrayna, Qazaxıstan və Baltika ölkələri) hələ bazara keçidin ilkin mərhələsində əsasən Qərbi Avropa modellərini təkrarlayan antiinhisar qanunları qəbul etmişlər. Böyük Britaniya, Almaniya və ABŞ rəqabət haqqmda qanunların hazırlanması və qəbul edilməsində, müvafiq kadrların hazırlanmasında, antiinhisar orqanlarına ilkin köməklik göstərilməsində əhəmiyyətli rol oynamışlar.**

**Antiinhisar siyasətinin həyata keçirilməsi quruluş dəyişikliklərinin rəqabət şərtlərindən və spesifik institusional zəminlərdən asılı olduğu üçün onların bütün ölkələr üçün eyni qaydaları mövcud deyil.**

**Antiinhisar siyasətinin ən güclü tədbirlərindən biri və spesifik institusional zəmini dövlət mülkiyyətinin əksmil-liləşdirməsi, özəlləşdirmə proseslərinin inkişafıdır.**

**Hazırda müxtəlif növ inhisarların artması, transmilli**

# XIII FƏSİL. İSTEHSAL. İSTEHSAL AMİLLƏRİ VƏ AMİL GƏLİRLƏRİNİN BÖLGÜSÜ NƏZƏRİYYƏSİ

*§1. istehsalın əsas amilləri.*
*§2. istehsal artımının istehsal amillərinin istifadəsindən asılılığı.*
*§3. Amil gəlirləri nəzəriyyəsi və onların funksional bölgüsü.*

**Mikroiqtisadi nəzəriyyənin təhlil etdiyi müəssisə və ev təsərrüfatlarının fəalİз?yəti istehsal amillərindən və onların istifadə edilməsinə uyğun gəlir götürmədən mümkün deyil.**

## *§1. İstehsalın asas amillari*

**İstehsal - maddi nemətlər hazırlanması prosesidir. Məhsul istehsal edərkən insan təbiət obyektlərinə təsir edir, onlara maddi tələbatlarının ödənilməsi üçün yararlı forma verir. Qeyd olunduğu kimi, istehsal təbiət maddələrinin bilavasitə istehlak və ya sonrakı istehsal üçün işlənilməsidir. İstehsalın belə vəzifəsi onun istənilən sosial formasında saxlanılır.**

**Nemətlər istehsalında hansı amillərin iştirakı məsələsini aydınlaşdırmaq bizim üçün vacibdir. İqtisadi nəzəriyyədə istehsal amili dedikdə istehsalın imkanları və nəticələrinə həlledici təsir göstərə bilən element və ya obyekt başa düşülür.**

**Məhsul istehsalı üçün istifadə olunan amillər olduqca çoxdur, özü də hər bir məhsulun hazırlanması üçün öz amillər toplusu var. Onları təsnif etmək, böyük qruplarda birləşdirmək ehtiyacı yaranır. Təsnif etməyə müxtəlif yanaşmalar mövcuddur.**

**Marksist nəzəriyyə iş qüvvəsi, əmək predmeti və əmək vasitələri kimi qrupları ayırır və onları istehsalın şəxsi amilləri və istehsalın maddi amilləri olmaqla iki böyük qrupa ayırır, İstehsalın şəxsi amili kimi həmişə iş qüvvəsi - insanın fiziki və zehni qabiliyyətlərinin məcmusu - nəzərdən keçiri-**

**Ur. Maddi amillər kimi bütün istehsal vasitələrinin məcmusu götürülür.**

**Şəxsi və maddi amillər qarşılıqlı əlaqəli mürəkkəb sistem yaradır ki, bunların da səmərəliliyi texnologiya və istehsalın təşkili ilə müəyyənləşir.**

**Texnologiya əsas istehsal amilləri arasındakı qarşılıqlı əlaqəni ifadə edir. O əmək cisminin vəziyyətinin, xassələrinin, formasının, dəyişdirilməsinin müxtəlif metodlarından istifadəni nəzərdə tutur. İstehsalın təşkili istehsal amillərinin hamısının ahəngdar işləməsini, onların mütənasib kə- miyyətli nisbətini, qarşılıqlı əvəzlənməsini və s. təmin edir.**

**Marjinalist nəzəriyyə ənənəvi olaraq dörd istehsal amili qrupunu ayırır: torpaq, əmək, kapital, sahibkarlıq qabiliyyəti (şəkil 13.1).**

**Torpaq təbii amil kimi nəzərdən keçirilir. O, insan fəaliyyətinin nəticəsi deyil. Bu qrup istehsal amillərinə istehsal prosesində istifadə oluna biləcək təbii sərvətlər: faydalı qazıntılar, kənd təsərrüfatı üçün yararlı torpaqlar, meşələr və s, daxildir.**




**Şəkil 13.1. İstehsal amillərinin qarşılıqlı əlaqəsi**

**Kapital, istehsal amili kimi, əmtəə və xidmətlər istehsalında istifadə olunan nemətlər məcmusu kimi çıxış edir. Bunlar alətlər, maşınlar, avadanlıq, anbar binaları, nəqliyyat kommunikasiyaları, rabitə vasitələri və sairdir. Onların texniki vəziyyəti daim təkmilləşir və istehsal prosesinin ümumi nəticəliliyinə, onun səmərəli məqsədəuyğunluğuna təsir edir.**

**Əmək nemətlər hazırlanması və xidmətlər göstərilməsinə yönümlənmiş zehni və fiziki fəaliyyətlə təmsil olunmuşdur. Şəxsiyyətin qabiliyyətlər məcmusu insan kapitalını əmələ gətirir. insan əməyinin ixtisaslaşması nə qədər yüksək olarsa, onun kapitalı da, müvafiq olaraq bu kapital üzrə gəliri də (əmək haqqı) bir o qədər yüksək olar. Hazırda insan kapitalına investisiya qoyuluşu cəmiyyət üçün ən səmərəli və xərcini tez çıxarandır.**

**Sahibkarlıq qabiliyyəti nemətlər və xidmətlər yaratmaq məqsədilə bütün qalan istehsal amillərinin koordinasiyası və biri-biri ilə uzlaşdırılması üzrə fəaliyyətlə təmsil olunan xüsusi növ insan kapitalıdır. Bu insan resursu növünün Özəlliyi istehsal prosesində istehsal olunan məhsulun, texnologiyanın yeni növlərini, müəyyən risk həddində və zərər çəkmək ehtimalında kommersiya əsasında biznesin təşkili formalarını tətbiq etmək istəyi və bacarığındadır. Sahibkarlıq fəaliyyəti miqyası və nəticələrinə görə yüksəkixtisaslı əmək məsrəflərinə bərabər tutulur.**

**Bəs, istehsal amillərinin təsnifatına yanaşma fərqi nədədir?**

**Marksizm istehsal amillərinin, bir iqtisadi kateqoriya kimi, istehsalın sosial yönümlülüyünü müəyyənləşdirməsindən çıxış edir. Artıq istehsal prosesinin ilkin zəminində cəmiyyətin sinfi tərkibi və siniflərin «ədalət» uğrunda mübarizəsinin zəruriliyi formalaşır. Marjinalistlər isə amilləri istehsal prosesinin onlarsız mümkün olmadığı ümumi texniki-iqtisadi amillər kimi nəzərdən keçirir.**

**Marjinalistlər kapital dedikdə əmək vasitələri və cisimlərini başa düşür, təbii şəraiti isə xüsusi fonda ayırırlar. Marksistlər təbii şəraiti, əmək vasitələrini və əmək cisimlə**

**rini vahid maddi amildə birləşdirirlər. İstehsalda xüsusi təbii şəraitdən söhbət getdikdə isə onların xüsusiyyəti renta vasitəsilə nəzərə alınır. Onların fikrincə, bu artıq iqtisadi elmin xüsusi bölməsidir.**

**Marjinalistlər sahibkarlıq fəaliyyətini istehsal amili hesab etdikləri halda, marksistlər bunu inkar edirlər.**

**Bütövlükdə isə amillərin təsnifatındakı fərq əsas məsələ ilə - təbii istehsalın təhlilinə sinfi yanaşma ilə şərtlənir.**

**İstehsal amillərinin göstərilən təsnifatı donmuş, əbədi verilmiş deyildir. Postsənaye cəmiyyətinin iqtisadi nəzəriyyəsində istehsal amilləri qismində informasiya və ekoloji amillər də göstərilir. Onların hər ikisi istehsalın səmərəlilik səviyyəsinə, ixtisaslı iş qüvvəsinin hazırlanma prosesinə, insan kapitalının səviyyəsi və imkanlarının artırılmasına həlledici təsir göstərdiyinə görə özü-özlüyündə müstəqil amil qismində çıxış edən müasir elmin nailiyyətləri ilə sıx bağlıdırlar. İnformasiya mexanizmlər, maşınlar, avadanlıqlar sistemində, menecment və marketinq modellərində maddiləşmiş bilikləri sistemləşdirir.**

**Müasir istehsalda ya iqtisadi artımın səbəbi kimi çıxış edən, ya da zərərlilik, zərərli qazlarla, çirklənmə və s, ilə bağlı onun imkanlarını məhdudlaşdıran istehsalın ekoloji amili get-gedə daha böyük əhəmiyyət kəsb edir.**

**Amillərin təhlilini yekunlaşdıraraq qeyd edək ki, istehsal prosesinə bütün amillər daxil edildikdən sonra istehsal mümkündür. Konkret əşya və ya xidmətin istehsalı müəyyən amillər məcmusunu tələb edir, lakin bunlardan ən əsasları torpaq, əmək və kapitaldır. Onlar qarşılıqlı əlaqədə çıxış edir və bir-birini tamamlayırlar. Məsələn, turbin hazırlanması üçün hüquqi cəhətdən sənədləşdirilmiş xüsusi istehsal tələb olunur. Bunun üçün torpaq sahəsi və istehsal binaları, qurğular dəzgahlar, xammal, işçi və menecer əməyi şəklində kapital lazımdır. Amillərdən birinin olmaması sistemi dağıdır və istehsal prosesini qeyri-mümkün edir.**

**Amillər bir-birini əvəz edə bilirlər. Bu məhsulun müxtə**

lif istehlak xassələri ilə şərtlənir. İstənilən məhsul və ya nemət istehsalı müxtəlif amillərdən müxtəlif birləşmələrdə və müxtəlif nisbətlərdə istifadə olunması şərtilə mümkündür. Belə qarşılıqlı əvəzləmə və kəmiyyət nisbəti dəyişkənliyi xüsusilə müasir istehsal üçün: kimyəvi məhsullardan yaşayış evlərinin sənaye tikintisinə qədər - səciyyəvidir.

Amillərin qarşılıqlı əvəzlənməsi yalnız tələbin spesifikliyi və məhsulun konstruktiv xüsusiyyətlərilə deyil, əsas etibarilə bir tərəfdən resursların məhdudluğu, digər tərəfdən isə onlardan istifadənin səmərəliliyi ilə şərtlənir. Sahibkar elə istehsal texnologiyası seçir ki, bu zaman az tapılan və ya nisbətən bahalı istehsal amili az işlənsin. Boş torpaqların məhdudluğu şəraitində hündür binaların, yarımkeçiricilərin, əvəzləyicilərin, benzinə qənaətli m ııxtəlif maşın modellərinin və s. yaradılması üçün cəmiyyrt məhz buna borcludur. Beləliklə, sahibkarlıq bazar qiyməti ilə son məhsul həddinin hazırlanmasına çəkilən xərclərin müqayisəsi ilə hesablanan istehsal məsrəflərinin labüd azaldılması tələbatmdan çıxış edərək amillərin müxtəlif kombinasiyalanndsın istifadəni nəzərdə tutur.

Təsərrüfatdan asılı olmayaraq son nəticədə bütün amillər məhsulun hazırlanması üçün zəruridir. Deyək ki, istehsalın son dərəcə sadələşdirilməsində bir amil bir məhsulun hazırlanması üçün istifadə olunur:

$$Q = f(A),$$

Burada Q - məhsul, A - istehsal amilidir.

Bu halda məhsul bir amilin funksiyası kimi çıxış edir. Real gerçəklikdə isə istehsal prosesi daha mürəkkəb gedir, onun nəticəsi isə (məhsul) çoxsaylı amildən istifadənin nəticəsidir. Müxtəlif vəziyyətlər mövcud olur. Bunları şərti olaraq dörd qrupa bölmək mümkündür: amildən istifadə olunmur; imkanlarının yarısından istifadə olunur; optimal miqdarda məhsul istehsalı üçün istifadə olunur; həddən artıq çox miqdarda məhsul hazırlanması üçün istifadə olunur

**Məhsulun istehsalında saysız-hesabsız amillərin istifadə olunmasını qrafik şəkildə əks etdirmək mümkündür (şəkil 13.2) .**

**Qrafikdə A amilindən (istifadə səviyyəsi) istifadə olunmasının Xı - X4 vəziyyəti təsvir olunmuşdur. Yı - Y4 istehsal olunan məhsulun sayıdır. A - A xətti A amilindən optimal istifadə etməklə almaq mümkün olan məhsulun sayı. Q - Qı - A amilinin bu və ya digər tətbiqi səviyyəsidir (istifadə edilməsidir).**

**Əgər istehsal prosesi daim A - A xəttindədirsə, istehsal fondu optimal istifadə olunur və daim ödənilir. Aşağıdırsa - istehsal fondu az, yuxarıdırsa - həddən artıq istifadə olunur. Sonuncu hallarda istehsal tarazlığı pozulur və bu hal ya amilin çatışmazlığı ilə xarakterizə olunur, ya da amilin əlavə ehtiyatlarını (xammal, avadanlıq, alətlər və s.) tələb edir.**




**Şəkil 13.2. Saysız-hesabsız amillərdən istifadə edilməsilə istehsal olunan məhsulun qrafiki**

**Firmanın işləməsi prosesində amillərdən müxtəlif kombinasiyalarda saysız-hesabsız istifadə variantları nəzərdə tutulur. Kombinasiyalaların çoxluğu elmi-texniki tərəqqi və istehsal amilləri bazarının vəziyyəti ilə şərtlənir. Elmi-texniki tərəqqi və texniki çevrilişlər yeni qarşılıqlı əvəzlənən**

**amillərin (Aj) və yeni məhsulun (Qj) yaranmasına səbəb olur. Nəticədə, Al amilinin köməkliyilə amilin və onun ödənilməsi üçün gərək olmayan əlavə (izafi) məhsulun ödənilməsi üçün zəruri olan qədər Qı məhsulu istehsal etmək imkanı yaranır. Bu əlavə Q məhsul ehtiyatını izafi məhsul adlandıraq. Onun istehsal edilməsi ilə istehsalın sonrakı artımı mümkündür. Buradan belə bir nəticə çıxır: istehsal gəlirlərindən daha yaxşı istifadə onun miqyasının sonrakı artımını, təkrar istehsal həcminin genişlənməsini şərtləndirir.**

**Beləliklə, istehsal amillərinin birləşməsi nəticəsində əmək məhsulları, maddi nemətlər məcmusu yaranır. Alınmış məhsulun həcminin (kütləsinin) onun hazırlanmasına sərf olunmuş əməyə kəmiyyət nisbəti əmək məhsuldarlığım səciyyələndirir. Məhsuldarlıq göstəricisini (M) aşağıdakı şəkildə vermək olar;**

$$M=Q/Ə,$$

**burada Q - hazırlanmış məhsulun natural şəkildə və ya pulla ifadə olunmuş miqdarıdır;**

**Ə - əmək sərfi (məsələn, insan-saat və ya həmin istehsalda məşğul olanların sayı).**

**Məhsuldarlıqdan əməyin intensivliyi - gərginliyini fərqləndirmək lazımdır.**

## *§2. İstehsal artımmm istehsal amillərinin istifadəsindən asılılığı*

**Real həyatda istifadə olunan texnologiya çərçivəsində sahibkar istehsal amillərinin (əmək, torpaq, kapital) ən yaxşı kombinasiyasını tapmağa cəhd edir ki, ən çox məhsul əldə edə bilsin. İstənilən amillər cəmi və bu amillər cəmindən hazırlanması maksimum mümkün olan məhsul həcmi arasındakı nisbət istehsal funksiyasını səciyyələndirir. İstehsal funksiyası amillər sərfi ilə məhsul istehsalı arasındakı texnoloji asılılığı müəyyənləşdirir. O həmişə konkret texnoloji**

**quruluş üçün qurulur. Amillərin istənilən kombinasiyasında buraxılan məhsulun maksimal əldə olunan həcmini artıran texnologiyanın yaxşılaşdırılması öz əksini həmişə yeni istehsal funksiyasında tapır. İstehsal funksiyasından istənilən verilmiş həcmdə əmtəə istehsalı üçün zəruri olan minimal məsrəfləri hesablamaq üçün istifadə etmək olar.**

**İstifadə olunan resursların kəmiyyətiylə buraxılmış məhsulun həcmi arasındakı asıhlığ^ı şifahi, cəbri və ya həndəsi şəkildə göstərmək olar.**

**Buraxılış həcminin istifadə olunmuş istehsal amillərinin funksiyası olduğu cəbri forma istehsal funksiyasıdır.**

**İstehsal funksiyası həm mikroiqtisadi, həm də makroiqtisadi qarşlıqlı əlaqələri səciyyələndirə bilər.**

**İqtisadi ədəbiyyatda məhsul buraxılışı həcminin vahid işarəsi yoxdur, lakin bu istehsal funksiyası mahiyyətinin dərkini çətinləşdirmir. Adətən eynimənalı kimi aşağıdakı simvollardan istifadə olunur:**

**Q (quontity) - istehsal olunmuş əmtəə və xidmətlərin qə-dəri;**

**TP (total product) - istehsal nəticəsində alınmış məcmu məhsul;**

**Y (yield) - nəticə, məhsulun çıxışı.**

**Bu zaman istehsal funksiyası belə olacaq;**

$$Q\ (=TP=Y) = f\ (a, b, C, d \dots z),$$

**burada a, b, c, d ... z - istehsal amilləridir.**

**İstehsalın təhlili zamanı ən çox yalnız əmək (L) və kapitalın (K) təsiri nəzərə alınan ikiamilli modeldən istifadə olunur. özü də bu zaman həm əmək, həm də kapital yekcins, keyfiyyət və görünüşünə görə fərqlənməyən hesab olunur. Hesab olunur ki (bu heç də əsassız deyil), müasir sənaye istehsalında bir iqtisadi resurs kimi torpağın rolu bir o qədər də əhəmiyyətli deyil. Beləliklə, ən ümumi şəkildə ikiamilli istehsal funksiyasını cəbri qaydada belə yazmaq olar:**

istehsal artımmın istehsal amillerinin isti&dssindən asılılığı

**Q = f (K, L).**

**İstehsal funksiyasının konkret növü əsasən istehsal texnologiyası və istifadə olunan amillərin qarşılıqlı əlaqəsinin xarakterindən* həmçinin istehsal dövrünün qısamüddətli və ya uzunmüddətli olmasından asılıdır.**

**Göstərilən məqamların rol və əhəmiyyətini ardıcıl nəzərdən keçirək.**

**Əvvəlcə istehsal dövrünün müddətinə diqqət yetirək.**

**Qısamüddətli dövr elə bir zaman kəsiyidir ki* onun ərzində ən azı bir istehsal amili öz əvvəlki ölçülərini (yəni təsbit edilmiş, daim) saxlayır* firmalar isə sahəni nə tərk edə, nə də ona daxil ola bilirlər.**

**Uzunmüddətli dövr bütün istehsal amillərinin öz ölçülərini dəyişmək imkanına malik, yəni dəyişkən olması, firmaların isə sahəni tərk edə, yaxud ona daxil ola bilməsi üçün kifayət edən vaxtdır.**

**Qısamüddətli və uzunmüddətli dövrlər arasındakı fərq dəqiq deyil, bu dövrləri birdəfəlik hər hansı konkret zaman kəsiyi ilə əlaqələndirmək olmaz. Qısamüddətli və uzunmüddətli dövrlər arasındakı fərq daha çox iki müxtəlif növ idarəçilik qərarlarını səciyyələndirir: gündəlik operativ və uzunmüddətli strateji. Bununla belə bu fərq istehsal funksiyasının növünə bilavasitə təsir edir.**

**Qısamüddətli dövrdə istehsal və istehsal funksiyası**

**Qısamüddətli dövrün tərifindən çıxış edərək demək olar ki, istehsalın ikiamilli modelində istehsal olunan məhsulun həcmi yalnız bir amilin, məhz dəyişənin funksiyasıdır. Adətən belə amil kimi əmək çıxış edir, çünki onun həcmi daha asan ölçüyə gəlir. Belə ki, müəssisə və dəzgah parkı sayının təsbit edilmiş vəziyyətində fəhlələrin sayını və ya iş vaxtının müddətini dəyişmək, əlavə zavodlar tikib onları dəzgah- larla təchiz etməkdən daha asandır. Qısamüddətli dövrdə istehsal funksiyası aşağıdakı şəkildə olur:**

$$Q = f(L).$$

**Daha bir əmək vahidinin tətbiqindən alınan əlavə məhsul əməyin son hədd məhsulu adlanır (MP - marginal product of labour).**

**Qısamüddətli dövrdə istehsalın ən mühüm xüsusiyyəti ondadır ki, ehtiyatların məhsuldarlığı verimin azalmasının təsirinə məruz qalır.**

**Verimin azalması qanununa görə, əgər ölçülərinə görə təsbit olunmuş amillərə dəyişən amilin əlavə vahidləri əlavə edilsə, onda yekunda alınan əlavə məhsulun daim aşağı düşməyə başladığı an gəlib çatar. Başqa sözlə, bir dəyişən amil vahidindən alınan son hədd (əlavə) məhsulu qısamüddətli dövrdə azalmağa meyllidir.**

**Bu meyl cədvəl 13.1-də göstərilib.**

*Cədvəl 13.1*

**Qısamüddətli dövrdə verimin azalması qanunu**

| Əmək (fəhlələr) L | Məcmu məhsul TP=Q | Əməyin son hədd məhsulu MPı, | Əməyin orta məhsulu APL |
|---|---|---|---|
| 1 | 10 | 10 | 10,0 |
| 2 | 25 | 15 | 12,6 |
| 3 | 35 | 10 | 11,7 |
| 4 | 40 | 5 | 10,0 |
| 5 | 42 | 2 | 8,4 |
| 6 | 42 | 0 | 7,1 |

**Cədvəldəki verilənləri qrafik şəkildə təsvir edək (şəkil 13.3) . TP əyrisi qısamüddətli dövr üçün istehsal funksiyasının qrafik təsviridir.**

**Aşkar görünür ki, son hədd məhsulu məcmu məhsulun yanaşı dayanan iki kəmiyyəti arasındakı fərqə bərabərdir və ya**

$$MP_L = \Delta Q/\Delta L = \Delta TP/\Delta L$$

**Bu düstur TP əyrisinin əyilmə bucağının cəbri ifadəsindən başqa bir şey deyil. Beləliklə, hesab etmək olar ki, son hədd məhsulu əyrisi məcmu məhsul əyrisinin meyl bucağının həndəsi təsviridir.**




**Şəkil 13.3. Qısamüddətli dövr üçün istehsal funksiyası: a) məcmu məhsul; b) məhsul həddi**

**TP və MP$_L$ dəyişmələrinin son dərəcədə kiçik olduqlarını, məcmu məhsulun özünün isə dəyişən resurs (məsələn, əmək) kimi verildiyini götürsək, onda son hədd məhsulu məcmu məhsul funksiyasının ilk törəməsi olar.**

**Yəni TP = f(L) olarsa, onda MP^ = TP'^ = dQ/dL olar.**

**Bir də nəzərə alaq ki, verginin azalması yalnız qısamüddətli dövrdə müşahidə olunur. Məsələn, sahibkar taktiki məqsədlərlə tez bazara əlavə məhsul çıxartmaq qərarına gəlir. Təbii ki, o ani olaraq yeni sex tikə və onu avadanlıqlarla təchiz edə bilməz. Qısamüddətli dövrdə kapitalın həcmi əvvəlki kimi qalır. Sahibkar əlavə fəhlələr götürə bilər ki, onlar hazırda olan dəzgahlarda, deyək ki, gecə növbəsində işləsinlər. Və ya əlavə fəhlələr götürmək olar ki, əvvəlkilərə kömək etsinlər: materialları gətirmək, zibili**

**hazır məhsulu daşımaq və s. Nəticədə hər bir əlavə işçinin götürülməsi istehsalın həcmini artıra bilər. Lalcin hər bir yeni işçi ilə bunu etmək get-gedə çətinləşəcək. Məhsul artımı hər dəfə daha az olacaq. Nəhayət elə bir an gələcək ki, çoxlu adam biri-birinin ayağına dolaşacaq, mane olacaq və səmərəliliyi azaldacaq. Bu o deməkdir ki, son hədd məhsulu (yəni məhsul artımı) sıfra bərabərdir. Son hədd məhsulunun sıfra bərabər olmasına (məcmu istehsalın isə azalmasına) yol vermək olmaz, buna görə də işçi götürülməsini dayandırmaq lazımdır. İstehsalın sonrakı artımı yalnız onun daha böyük miqyası şəraitində, yəni eyni zamanda həm əməyin, həm də kapitalın həcminin artırılması yolu ilə mümkündür.**

**Bəzi yekunlar vuraraq qeyd edək ki, məcmu məhsul növbəti əlavə işçinin istehsal həcminə heç nə əlavə edə bilmədiyi nöqtədə, yəni son hədd məhsulu 0-a bərabər olanda maksimallaşır.**

**Son hədd məhsulu yalnız məcmu məhsul ilə deyil, həm də orta məhsulla bağlıdır. Əməyin orta məhsulu (APL - av- erage product of labour) bir işçinin orta hesabla hazırladığı məmulatın sayı ilə səciyyələnir.**

$$AP_L = Q/L = TP/L$$

**Orta məhsulun dinamikası belə bir dinamikaya malikdir: o, müəyyən geriliklə olsa da, son hədd məhsulunun ardınca gedir (bax cədvəl 13.1 və şəkil 13.4).**

**Şəkil 13.4 əyani göstərir ki, son hədd məhsulu orta məhsuldan böyük olduqda orta məhsul artır, son hədd məhsulu orta məhsuldan az olduqda isə orta məhsul azalır.**

**Bu asılılığı aşağıdakı misalla izah edək. Dörd imtahandan sonra tələbənin orta balı 4,3-dür. Fərz edək ki, beşinci imtahandan tələbə 5 alır. Bu, son hədd nəticəsidir. Son hədd qiyməti orta baldan yüksəkdir. Nəticədə orta bal artır. Əgər beşinci imtahandan üç alsa, orta bal aşağı düşər.**




L

Şəkil 13.4. Son hədd və orta məhsulların dinamikası

**Deyiləndən belə bir nəticəyə gəlmək olar ki, son hədd məhsulu və orta məhsul əyrilərinin kəsişmə nöqtəsi (MP = AP olduqda) orta məhsulun maksimum nöqtəsidir. Başqa sözlə, son hədd məhsulu əyrisi (MP) orta məhsul əyrisini (AP) sonuncunun maksimum nöqtəsində kəsir.**

## Uzunmüddətli dövrdə istehsal və istehsal funksiyası

**Uzunmüddətli dövrdə bütün amillər dəyişən olur. Bu mənada ki, sahibkarların onların ölçülərini dəyişməyə (məsələn, yeni zavod tikməyə, yeni dəzgahlar quraşdırmağa) kifayət qədər vaxtı olur.**

**İstehsal amilləri yalnız birgə istifadə olunmur, həm də müəyyən dərəcədə bir-birini əvəzləyə də bilirlər. Eyni faydalı nəticəni, məsələn, bellə işləyən on yerqazandan da və ya bir maşinistin idarə etdiyi ekskavatordan istifadə etməklə də əldə etmək olar. İstifadə edilən amillərin növü, qədəri və onların tətbiq (əvəzləmə) nisbəti bu və ya digər texnologiya ilə müəyyənləşir. Əmək tutumlu texnologiyalar böyük həcmdə əmək və nisbətən az miqdarda kapitalın tətbiqi ilə səciyyələnir. Əksinə, kapital tutumlu texnologiyalarda kapitala nisbətdə əməyin tətbiqi azdır. Beləliklə, texnologiyanın növü istehsal**

**Xətti funksiya. Bəzi hallarda resurslar tamamilə başqaları ilə əvəzlənə bilirlər. Belə ki, robot və ya insan tələb olunan iş həcmini eyni dərəcədə yerinə yetirə və məhsul və ya xidmətin tələb olunan keyfiyyətini təmin edə bilirlər. Bu zaman istehsal funksiyası xəttidir və belədir:**

**f(K, L) = K+L, və ya**
**Q = aK + bL.**

**Burada a və b biri-birinə nisbətləri, amillərin biri digərini əvəzləmə nisbətini göstərən koeffisiyentidir (məsələn, 1 robot bir fəhləni əvəz edir; 1 robot 3 fəhləni əvəz edir; 1 robot 5 fəhləni əvəz edir və s.).**

**Bir amilin digərini əvəzləməsinin xarakteristikası üçün texniki əvəzləmənin son hədd norması göstəricisindən (MRTS - marginal rate of technical substitution) istifadə olunur. Bu göstəriciyə əsasən bir amilin bir dəyişməsi zamanı istehsalın dəyişilməz qalması üçün digər amilin kəmiyyətini nə qədər dəyişmək lazım olduğunu müəyyənləşdirirlər. Amilin birinin digəri ilə əvəzlənməsi baş verdiyindən, yəni amilin birinin qədəri artdığından, digərininki isə azaldığından, əvəzləmənin son hədd norması mənfi işarəli olur.**

**MRTS = -AK/AL.**

**Beləliklə, əgər hər iki amil dəyişirsə, onda müvafiq olaraq onların son hədd məhsulları, istehsalın ümumi nəticəsi - məcmu məhsul dəyişilməz qalır.**

**AK x $MP_K$+AL x $MP_L$ = 0 və ya AK x MP^ = -AL x MP^, və ya -AK/AL - $MP_L$/ $MP_K$, beləliklə, MRTS= *UPJ* MP^.**

**Son hədd məhsulu məcmu məhsul funksiyasının birinci törəməsi olduğunu nəzərə alsaq, onda texniki əvəzləmənin**

**hədd norması amillərin hər biri üzrə götürülmüş eyni bir funksiyanın iki törəməsinin nisbətinə bərabər olacaq, yəni MRTS=-TR'L/ TR'K.**

**Xətti funksiya üçün əməyin son hədd məhsulu b-yə bərabərdir, kapitalın son hədd məhsulu a-ya bərabərdir. Onda xətti funksiya üçün MRTS=b/a.**

**V.Leontyev funksiyası. Resursların biri-birini tamamladığı, lakin tamamilə qarşılıqlı əvəzlənməyən olduğu (çəkmənin sol və sağ tayı kimi) vəziyyət tamamilə başqadır. Belə təkmil tamamlamaya misal 1 odunçu və 1 balta; 1 makinaçı və 1 yazı makinası və b.k. ola bilər. Bir odunçuya ikinçi baltanın əlavə edilməsi kəsilmiş ağacların və ya doğranmış odunun həcminə (zaman vahidi ərzində) heç nə əlavə etmir, yəni kapitalın son hədd məhsulu sıfıra bərabərdir. Eyni dərəcədə baltasız ikinci odunçunun əlavə edilməsi də mənasızdır, çünki bu halda əməyin son hədd məhsulu sıfra bərabərdir. Texniki əvəzləmənin son hədd normasına gəldikdə isə, o ya sıfra bərabər olur ($MP_L=0$ olarsa), ya da müəyyənləşmir ($MP_K=0$ olanda).**

**Əmək və kapital arasında nisbət yalnız 1:1 deyil, istənilən ola bilər. Məsələ burasındadır ki, bu nisbət həmin texnologiya üçün təsbit edilmişdir. Belə ki, bir toxucu eyni zamanda bir dəzgahda işləyə bilər, lakin məhsuldarlığını artıraraq 3, 5 və hətta daha çox dəzgahda işləyə bilər.**

**Təkmil tamamlayıcı amillər halında istehsal funksiyası belə olacaq:**

$$f(K, L) = \min\{K, L\} \text{ və ya}$$
$$Q = \min\{aK, bL\},$$

**burada a>0, b>0 və tamamlama nisbətini səciyyələndirir.**

**Bu növ funksiya Nobel mükafatı laureatı (1973), «xərclər-buraxılış» iqtisadi təhlil metodunun müəllifi Vasili Leontyev tərəfindən təklif və tədqiq olunmuşdur. Bu növ funksiya çox vaxt Leontyev funksiyası adlanır.**

**Kobb-Duqlas funksiyası. Əksər hallarda istehsal amilləri eyni zamanda biri-birinin həm tamamlayıcısı, həm də əvəzləyicisi olurlar. Bu kimi ən çox yayılmış hallara aşağıdakı düstur uyğun gəlir:**

**Q = K“L^.**

**Bu asılılıq növü Amerika alimləri Kobb və Duqlas tərəfindən təhlil edilmiş və aşağıdakı istehsal funksiyası növü onların adı ilə adlandırılmışdır:**

**Y = A K*L^**

**burada A - xətti əmsaldır;**
**0<a<l;**
**0<b<l.**

**Qüvvət əmsalları kapitalın (əməyin) 1% dəyişdiyi təqdirdə məhsul istehsalının nə qədər dəyişəyəcəyini göstərir. Başqa sözlə, a və b hər bir istehsal amilinin buraxılan məhsulun həcminin dəyişməsindəki rolunu göstərir, yəni a və b əmsalları istehsal həcminin müvafiq olaraq kapitala və əməyə gÖrə elastikliyinin göstəricisidir.**

**a = (AY/AK) x (K/Y).**
**b = (AY/AL) X (L/Y).**

**Bu növ funksiya üçün texniki əvəzləmənin son hədd norması aşağıdakı düsturla təyin edilir:**

**MRTS = -bK/(aL).**

**1920-ci illərdə ABŞ-da aparılmış empirik tədqiqatlar göstərdi ki, əmək məsrəfinin 1% artması məhsul istehsalının 0,75% qədər artmasını təmin edir, amma kapital məsrəfinin eyni qaydada artımı məhsul həcmini yalnız 0,25% artırır.**

**Bir sıra sonrakı, o cümlədən R.Solou, E.Denison tərəfindən aparılmış tədqiqatlar göstərdi ki, insan amilinə investisiyalar, kapital qoyuluşundan çox gəlir gətirir. Müvafiq olaraq, təhsil və insan potensialının inkişafına investisiya qoyan ölkə bütün qalan şərtlərin eyniliyi şəraitində daha yüksək iqtisadi artım sürəti göstərir.**

**Kobb-Duqlas funksiyamın sonrakı işlənməsinin maraqlı istiqaməti təhlilə vaxt amilinin daxil edilməsi oldu. Bu zaman funksiya aşağıdakı şəkil alır:**

**Y ^ f(K, L, t).**

**Vaxt amili göstərir ki, resursların məhsuldarlığı elm və texnika artdıqca artır. Başqa sözlə, təhlilə texniki tərəqqi amili daxil edilir və söhbət amillərin yalnız kəmiyyətindən deyil, həm də keyfiyyətindən, yalnız ekstensiv deyil, həm də intensiv iqtisadi artımdan gedir. Bu zaman istehsal funksiyası aşağıdakı şəkil alır:**

**Y = A K*'L''e"^.**

**Burada e"^ - istehsalda keyfiyyət dəyişikliklərini əks etdirən kompleks göstərici, yəni t zaman müddətində texniki tərəqqidir.**

**İstehsalın tərkib hissələri barədə daha aydın təsəvvür yaratmaq üçün istehsal funksiyası həm də artım sürəti və a və b elastiklik göstəriciləri vasitəsilə təqdim oluna bilər:**

**y = ak+bl+r.**

**Burada y, k, 1 - müvafiq olaraq məhsul, kapital və əməyin kəmiyyət artımı sürətidir.**

**r - resursların keyfiyyət dəyişmələri, yəni texniki tərəqqi hesabına məhsul artımı göstəricisidir.**

**Kobb-Duqlas istehsal funksiyası yalnız hər bir amilin**

**ayrı-ayrılıqda rolunu göstərmir, həm də iqtisadi resurslardan bütövlükdə istifadənin səmərəliliyi, onların məcmu səmərəsi barədə fikir yürütməyə imkan verir, a və b dərəcə əmsallarının cəm qiymətinin köməkliyi ilə istehsal miqyası effektini qiymətləndirmək olar.**

**Əgər $a+b=l$ olarsa, bu resursların daim səmərəliliyini göstərir, yəni miqyasın neytral effektini görürük. Məsələn, resurs məsrəfi 5% artır və istehsal həcmi də 5% artır. Cəbri qaydada bu belə olur:**

$$f(2K, 2L) = 2f(K, L).$$

**$a+b>l$ olarsa, miqyas effekti müsbət, resursların səmərəsi isə artan olacaq. Məsələn, resurs məsrəfi 5% artarsa, istehsal həcmi 5%-dən çox, deyək ki, 7% olur. Bu halda cəbri qaydada müsbət miqyas effekti aşağıdakı tənliklə göstərilir:**

$$f(2K, 2L) > 2f(K, L).$$

**$a+b<l$ olduqda, resursların səmərəsi azalır, miqyas effekti mənfi olur. Məsələn, resurs məsrəfi 5% artır, amma istehsal həcmi yalnız 2 və ya 3% (yəni 5%-dən az). Cəbri qaydada mənfi effekt aşağıdakı tənliklə verilir:**

$$f(2K, 2L) < 2f(K, L).$$

**Miqyasın müsbət effekti istehsal artımı sayəsində qənaət əldə olunduğunu göstərir. Belə qənaət əməyin ixtisaslaşdırılması, daha səmərəli idarəetmə, binalardan, avadanlıqdan, elektrik enerjisindən və s. qənaətlə İstifadədən asılıdır.**

**Miqyasın mənfi effekti göstərir ki, istehsal məsrəfləri faydalı nəticələrə nisbətən daha sürətlə artır. Məsələn, zavodların tikintisi və ya firmanın genişləndirilməsi zamanı nəhəngliyə uymaq idarəetmə xərclərini hədsiz artıraraq onun səmərəliliyini aşağı sala bilər; özü də bürokratizm, məsuliyyətin bir-birinin boynuna atılması və s. hallar artır.**

**Əlbəttə, hər bir istehsalçı məhsulun kapital- və əməktutumluğunun azaldılması və səmərəliliyinin artmasında maraqlıdır. Buna görə də firmanın məqsədəuyğun, səmərəli davranışı istehsal miqyasını, miqyasın müsbət və ya heç olmasa neytral effektinin əldə olunması imkanı olana qədər genişləndirməkdən ibarətdir.**

## İstehsal funksiyasının qrafik şərhi

**Resurs məsrəfi ilə məhsul buraxılışı arasındakı asılılıq qrafik şəkildə göstərilə bilər. Yuxarıda göstərildiyi kimi, qısamüddətli dövr üçün istehsal funksiyası TP məcmu məhsul əyrisi ilə əks olunur. Özü də üfüqi oxda istehsalm dəyişən amilinin dəyişməsi, şaqulidə isə istehsal həcminin dəyişməsi izlənilir.**

**Uzunmüddətli dövr üçün izokvant adlanan başqa növ əyrilər tətbiq olunur.**

**İzokvant verilmiş həcmdə məhsulu istehsal etməyə qabil olan iki resuı^un bütün kombinasiyalarına müvafiq nöqtələrinin həndəsi yeridir. Bu zaman üfüqi oxda adətən əmək amili, şaqulidə isə kapital amili əks olunur. İzokvantm meyl bucağı texniki əvəzləmənin son hədd norması ilə müəyyənləşir.**

**İzokvantlar mahiyyət etibarilə də, forma etibarilə də laqeydlik əyrisini xatırladır. Həqiqətən də, əgər hər hansı bir izokvantda A, B, C nöqtələri yerləşirsə, onda sahibkar üstünlük verdiyini müəyyənləşdirib onlardan birini seçə bilməz, çünki bu nöqtələrlə qeyd olunmuş resurs kombinasiyalarındEm (A, B və ya C) hər biri eyni miqdarda əmtəə istehsal edəcək.**

**Firma çoxlu müxtəlif həcmdə məhsul istehsal edə bildiyinə görə onlara çoxlu izokvantlar müvafiq olacaq. Beləliklə, hər firma üçün ona xas olan izokvantlar xəritəsini qrafik şəkildə əks etdirmək olar. İzokvant koordinatların başlanğıcından nə qədər ucada və uzaqda olsa, deməli o, bir o qədər böyük istehsal həcmini səciyyələndirir. Hər izokvant istehsal olunan məhsulun bir həcminə müvafiq olduğundan, bir xəritənin izokvantları kəsişmirlər.**

**tzokvantlar istehsal funksiyaları növlərinə uy^n olaraq müxtəlif formada ola bilir.**

**Xətti funksiya. Təkmil əvəzləyici resurslar üçün izokvantlar xəritəsi mənfi maillikli paralel düz xətlərin məcmusudur (şəkil 13.5). Belə izokvantlarm maillik bucağını səciyyələndirən texniki əvəzləmənin son hədd norması daimi olub, (MRTS=b/a) izokvantının istənilən nöqtəsində b/a-ya bərabərdir.**




**Şəkil 13.5. tzokvantlar: xətti funksiya**

**Leontyev funksiyası. Mütləq tamamlayıcı olan və biri-birini əvəzləməyə qabil olmayan istehsal amilləri üçün izokvantlar ingilis hərfi L formasında olur (şəkil 13.6). İstehsalçı üçün yeganə mümkün səmərəli qərar əyrinin dönüş nöqtəsi olacaq, çünki onun şaquli və ya üfüqi hissələri ilə irəliləməsi istehsal həcmini artırmadan resursların birinin mənasız yerə artırılması deməkdir. Məhsul istehsalını artırmaq üçün firma yuxarıdakı izokvantın dönüş nöqtəsinə keçməlidir.**

**İzokvantın şaquli hissəsi üçün maillik bucağı sonsuzluğa bərabərdir (MRTS müəyyənləşdirilməyib), çünki əmək artımı (üfüqi xətt üzrə) sıfra bərabərdir. İzokvantın üfüqi hissə üçün maillik bucağı sıfra bərabərdir (MRTS = 0), çünki kapital artımı (şaquli xətt üzrə) sıfra bərabərdir.**

istehsal artımının istehsal amillərinin istifadəsindən asılılığı

K

**Şəkil 13.6. İzokvantlar: Leontyev funksiyası**

**Kobb-Duqlas funksiyası. Kobb-Duqlas istehsal funksiyası xətti funksiya ilə Leontyev funksiyası arasında bir növ keçid variantıdır. İki istehsal amili bir-birinin eyni zamanda həm əvəzləyicisi, həm də tamamlayıcısıdır. Müvafiq olaraq Kobb-Duqlas izokvantı koordinata tərəf qabarıqdır (şəkil 13.7). İzokvantın belə forması standart forma adlanır.**




**Şəkil 13.7. İzokvantlar: Kobb-Duqlas istehsal funksiyası**

**Kobb-Duqlas izokvantlan son hədd məhsulımun azalma effekti nəticəsində üfüqi ox boyunca sağa irəlilədikcə daha az meylli olurlar. Bunu şəkU 13.8-də asanhqla müşahidə etmək olar**




**Şəkil 13.8. Əməyin son hədd məhsulunun azalması və izokvantın mailliyi**

**Qoy şəkil 13.8-dəki izokvant miqyasın neytral effektini səciyyələndirsin və istehsal həcminin artması eyni bir kəmiyyətə bərabər qaydada həyata keçirilir.**

**Qoy müəyyən təsbit edilmiş kapital məsrəfi səviyyəsi verilmiş olsun. Qrafik şəkildə bu, düz üfüqi xətlə göstərilib. Bu düz xəttin müxtəlif standart izokvantlarla kəsişmə nöqtələrindən perpendikulyar xətlər çəkək. Üfüqi oxda alınan parçalar məhsul istehsalının artırılması üçün zəruri olan ardıcıl əmək məsrəfi artımını göstərirlər.**

**Şəkil 13.8-dən görünür ki, məhsulun eyni bərabərdə artımı üçün dəyişən amil (əmək) məsrəfi artımı get-gedə daha çox olmalıdır, yəni son hədd əmək məhsulunun azalma effekti müşahidə olunur.**

**İzokvantın mailliyi son hədd texniki əvəzləmə normasını səciyyələndirir və son hədd məhsulların nisbətinə bərabərdir.**

$$MRTS = MP_L / MP_K.$$

**İzokvantın mailliyi onun müxtəlif nöqtələrində eyni deyil. İzokvant boyunca aşağı və sağa hərəkət etdikcə son hədd texniki əvəzləmə norması azalır, bu son hədd məhsulunun azalma effektindən irəli gəlir. İstehsal amilləri biri-birini**

**əvəz etməyə nə qədər az qabil olsalar, MRTS bir o qədər sürətlə azalar, izokvant koordinatın əvvəlinə doğru bir o qədər qabarıq olar (əyrinin Leontyev növünə get-gedə daha çox yaxınlaşar).**

**Standart izokvantın əyrilik dərəcəsi texniki tərəqqinin növünü səciyyələndirir. Daha sərt izokvantlar kapitaltutum- lu texnologiyaları (şəkil 13.9), az meylli izokvantlar isə əməktutumlu texnologiyaları (şəkil 13.10) səciyyələndirir.**




**Şəkil 13.9. a=b=l/2 olduqda izokvantlar (kapitaltutumlu texnologiyalar)**




**Şəkil 13.10. a=b=l/5, b=4/5 j olduqda izokvantlar (əməktutumlu texnologiyalar)**

**Şəkil 13.9-da istehsal funksiyasının dərəcə əmsalının**

**a=l/2, b=l/2**

**olduğu vəzİ5^ət göstərilmişdir.**

**Şəkil 13.10-da dərəcə funksiyaları:**

**a=l/5, b=4/5 -ə**

**bərabərdir.**

**İzokvantın köməyilə miqyas effektini də: neytral (şəkil 13.11), müsbət (şəkil 13.12) və mənfi (şəkil 13.13) göstərmək olar.**




**Şəkil 13.11. Miqyasın neytral effekti**




**Şəkil 13.12. Miqyasın müsbət effekti**




**Şəkil 13.12. Miqyasın mənfi effekti**

**Şəkillərin hamısında hər iki istehsal amillərinin faiz nisbətində bərabər artdığı göstərilir. Hər iki amil məsrəfi eyni bir nisbətdə artdıqca biz koordinatın başlanğıcından çıxan ox bojrunca irəliləyirik (oxun hansı bucaq altında çıxmasının fərqi yoxdur, o kapital və əməyin eyni nisbətini, yəni əməyin kapitalla silahlanmasını verir). Bu zaman əmək və kapitalın faizlə bərabər ölçülü artımının effekti fərqli olur. Şəkil 13.11- də daimi artım və ya miqyasın neytral effekti izlənilir, çünki istehsal resurs məsrəfləri ilə eyni nisbətdə artır. Şəkil 13.12- də səmərə artır (miqyasın müsbət effekti), çünki izo-kvantlar bir-birinə getdikcə daha yaxın yerləşir. Şəkil 13.13- də səmərə azalır (miqyasın mənfi effekti), çünki İzokvantlar biri-birindən get-gedə daha uzaqda yerləşir.**

**tstehsal amillərinin qarşılıqlı əlaqəsi nəticəsində əmtəə hazırlanır və bazarda satılır. Özü də müəssisə satışdan gəlir əldə edir və buradan amil məsrəflərini ödəməli və mənfəət verməlidir. Gəlirlərinin həcmindən asılı olaraq ayrı-ayrı təsərrüfatlar istehsal olunmuş məhsuldan müvafiq olaraq Öz paylarının iddiasında olurlar. Beləliklə, gəlirlərin bölgüsü sistemi vasitəsilə istehsal olunmuş məhsulun bölgüsü baş verir.**

### *§3. Amil gəUrləri n9Z9riyyasi və onların funksional bölgüsü*

**Amil gəlirlərinin yaranması və bölgüsü problemi iqtisadi nəzəriyyədə həmişə böyük maraq doğurmuşdur. İstehsal amilləri sahibləri üçün gəlir olan şey həmin amillərin alıcısı üçün xərc olur. Belə ki, iş qüvvəsi sahibləri üçün əmək haqqı gəlirdirsə (əməyə görə haqq), müəssisə üçün istehsal xərcləridir.**

**Bəs gəlir nədir?**

**Mikrosəviyyədə gəlir haqqında ən ümumi təsəvvür tərifdə verilir.**

*Gəlir* **- müəyyən vaxt kəsiyi ərzində təsərrüfat fəaliyyəti nəticəsində əldə olunmuş pul vəsaitidir.**

**Bu müəssisənin (firmanın), fiziki şəxsin və ya cəmiyyətin işinin pulla ifadə olunmuş (rublla, dollarla, markayla və s.) nəticəsidir.**

**Gəlirlərin təsnifatı müxtəlif meyarlar üzrə aparılır. Mənimsəmə subyektindən (alan) asılı olaraq fərqləndirilirlər:**

- **əhalinin gəliri;**
- **müəssisənin (firmanın) gəliri;**
- **dövlətin gəliri;**
- **cəmiyyətin gəliri (milli gəlir).**

**Bu gəlirlərin məcmusu cəmiyyətin maksimal tələbini müəyyənləşdirir. Əldə olunmuş və real mövcud olan gəlirin həcmindən asılı olaraq fərqləndirirlər:**

- **nominal gəlir - alınmış pulun ümumi məbləği;**
- **xalis gəlir - vergilər veriləndən sonra qalan;**
- **real gəlir - qiymətlərin dəyişməsi nəzərə alınmaqla xalis gəlir.**

**Müəssisə və yə firmanın gəlirlərinin təhlili zamanı adətən aşağıdakı məfhumlar istifadə olunur:**

- **ümumi gəlir - bütün məhsulun satışından əldə olunan məbləğə bərabərdir (pul vahidlərində; rublla, dollarla və b.k.);**

■ orta gəlir - satılmış məhsulun bir vahidi üçün hesablanır;

■ son hədd gəliri - əlavə məhsul vahidinin satışı hesabına ümumi gəlirin artmasıdır.

Onu ümumi gəlirin məhsul Kəmiyyətinin artımına nisbəti Kİmi hesablayırlar.

£> 1. I. - *Ümumi gəlirin artımı AR (Q)*

*Son hədd gəlin MR* = ----------- —^^∆ ~ ~

*Məhsul artımı AQ*

Ümumi və son hədd gəlirlərindəKİ fərqlər gəlirlərin azalması qanununun fəaliyyəti ilə əlaqədar olaraq mühüm əhəmiyyət Kəsb edir.

Başqa nəticə bütün istehsal amillərinin eyni dərəcədə və eyni zamanda artması ilə əldə oluna bilər. Bu halda məhsul istehsalı və müəssisənin ümumi gəliri istehsal amillərinin artımı ilə eyni və ya hətta ondan da artıq ola bilər. Bu vəziyyət istehsal miqyasının artması zəminində gəlirliliyin artması adlanır. Bu amil aşağıdaKilarla şərtlənir;

1. birincisi, iriləşdirilmiş istehsal miqyasında əməK əməliyyatlarının ixtisaslaşdırılması əməK məhsuldarlığını artırır və əməK məhsuldarlığının artımı hesabına müəssisənin gəliri artır;

2. İKİncisi, idarəçilİK funKsiyalarının ixtisaslaşdırılması da belə nəticə verir;

3. üçüncüsü, bahalı, güclü Kompüterlər, robototexnİKa KompleKslərinin səmərəli tətbiqi.

Firmanın ümumi gəlirinin dinamİKasını qrafİK şəKİldə ƏKS etdirməK olar (şəKil 13.14).

Yeddinci mövqedən sonraya əmtəə istehsalı ümumi gəliri azaldır. Buna görə də istehsal yeddi əmtəədən artıq olarsa, onun səmərəliliyi azalır. Ümumi gəlir qrafİKİndən görürüK Kİ, A maKSİmum nöqtəyə yaxınlaşdıqca, əyrinin dİKİiyi azalır və ümumi gəlirin artımı azalır (son hədd gəliri).

Son hədd gəliri qrafinini (şəKİl 13.15) firmanın ümumi gəliri dinamİKası qrafİKİ əsasında müəyyənləşdirməK çətin

**deyil. Əmtəənin yeddinci mövqeyindən sonra son hədd gəliri mənfidir, çünki Q-nün artması ümumi gəlirin azalmasına aparır.**




**Şəkil 13.14. Ümumi gəlirin dinamikası**

**Doymuş bazar şəraitində son hədd gəliri, adətən qiymətdən aşağıdır. Bu onunla əlaqədardır ki, əmtəə təklifinin artması bazar qiymətinin azalması ilə nəticələnir.**

**Ümumi istehsal xərclərinin və ümumi gəlirin müqayisəsi göstərir ki, firma iqtisadi mənfəət (satış pulu ilə müəssisənin bütün xərcləri arasındakı fərq) əldə edən halda məhsul istehsal etməyin mənası olur. Firma bütün hallarda ona**




**Şəkil 13.15. Son hədd gəliri qrafiki**

**«maksimuma gəlir və minimum zərəri təmin edən miqdarda məhsul istehsal etməyə can atır.**

**Ümumi gəlir, ümumi xərclər və istehsal olunan məhsulun miqdarının asılılığı qrafik şəkildə şəkil 13.16-da təsvir olunmuşdur.**

**A zonasında ümumi xərclər ümumi gəlirdən çox olur və firma zərər çəkir. B zonasında firma gəlir götürür, özü də maksimum gəliri C nöqtəsində əldə edir. Ümumi xərclər D zonasında ümumi gəliri üstələyəcək və firma zərər çəkəcək.**




**Şəkil 13.16. Ümumi gəlir və ümumi xərclər əyriləri**

**İqtisadi nəzəriyyədə iki növ gəlir fərqləndirilir: birincisi, gəlir xüsusi təsərrüfat anlayışı kimi, yəni mikrosəviyyəyə aid olan. Bu muzdlu işdən (əmək gəliri), sahibkarlıq fəaliyyətindən, mülkiyyətdən gələn gəlirdir. İkincisi, gəlir xalq təsərrüfatı anlayışı kimi (milli gəlir), yəni makrosəviyyəyə aid olan.**

**Biz istehsal amillərindən İstifadə zəminində, funksional bölgü nəticəsində əldə olunan gəlirləri təhlil etməliyik.**

**Müəssisənin hazırlanmış məhsulun satışından əldə etdiyi gəlir istehsal amillərindən müəyyən asılılıqla bölünür. Əmək haqqı sərf olunmuş əməkdən, renta istifadə olunan torpaq sahəsinin dəyərindən, mənfəət və faiz istifadə olunan kapitalın həcmindən, sahibkarlıq gəliri sahibkarlıq qabiliyyətlərindən asılı olur. Bütün bu amil gəlirləri formaları bazar**

**İqtisadiyyatında istehsal amillərinin qiymətləri kimi çıxış edirlər.**

**Sahibkarlıq gəlirini bir tərəfdən müəssisə mənfəəti bölgüsünün yekun nəticəsi kimi, digər tərəfdən sahibkarlıq qabiliyyəti göstərilməsinə görə mükafat kimi nəzərdən keçirmək lazımdır.**

**Sahibkarlıq gəliri kimi əvvəlcə mənfəətin borc götürülmüş kapitala görə faiz ödənildikdən sonra fəaliyyət göstərən kapitalistin sərəncamında qalan hissəsi başa düşülürdü. Kredit sisteminin inkişafı ilə mənfəətin faiz və sahibkarlıq gəlirinə bölünməsi, onun öz kapitalından və ya börc götürülmüş kapitaldan istifadə yolu ilə alınmasından asılı olmayaraq, ümumi xarakter alır. Borc faizindən fərqli olaraq sahibkarlıq gəliri əvvəlcədən müəyyənləşdirilmiş kəmiyyət deyil və konkret sahibkarın necə təsərrüfatçılıq etməsindən asılıdır.**

**Miqdarca sahibkarlıq gəliri ümumi mənfəətdən borc faizi, vergilər və büdcəyə başqa ödənişlər çıxıldıqdan sonra alınan qalıqdır.**

**Sahibkarlıq gəliri kəmiyyətinə, alınma metodlarına, istifadə istiqamətlərinə görə müxtəlifdir. Belə ki, müxtəlif mülkiyyət formalı firmalarda sahibkarlıq gəlirinin formalaşması funksiya-kapitalı və mülkiyyət-kapitalmm fərqləndirilməsi ilə əlaqədar müxtəlifdir. Kapital mülkiyyətçisi həm də öz istehsalının sahibkarı rolunda çıxış edəndə sahibkarlıq gəliri yuxarıda göstərilən sxem üzrə formalaşır. Kapital mülkiyyətçisi və sahibkar başqa-başqa şəxslər olarsa, iki variant mümkündür. Kapital mülkiyyətçisi istehsalın və satışın idarəedilməsi funksiyasını menecerlərə verir və onlara maaş müəyyənləşdirir. Sahibkarın gəliri kapitala mülkiyyətçilik inhisanna haqq kimi çıxış edir. Menecer funksiya-kapitalım həyata keçirir və müəssisənin fəaliyyəti üçün məsuliyyət daşıyır. Kapital mülkiyyətçisi kapitalı müəyyən faizlə (bir qayda olaraq bankdakından yüksək) sahibkara onun öz işini təşkil etməsi üçün verir. Bir qayda olaraq, bu halda sahibkarlıq gəliri sahibkarın öz şəxsi maraqlarını həyata keçirdi**

**yinə görə daha yüksək olur. Bu halda gəlir istehsalın, fəaliyyət göstərməsində təşəbbüs göstərilməsi, yeniliklərin tətbiqi, yeni məhsul istehsalı, firmanın idarə edilməsində qərarlar qəbul etməsi və riskə görə məsuliyyətin müqabilində mükafatlandırma kimi çıxış edir.**

**Sahibkarlıq gəliri özündə ehtiva edir:**

**■ normal mənfəət, yəni sahibkarı həmin fəaliyyət istiqaməti çərçivəsinə cəlb etmək və orada saxlamaq üçün zəruri olan normal mükafatlandırma;**

**■ normal mənfəətdən artıq alınmış gəlir, yəni iqtisadi mənfəət.**

**Mənfəət istənilən müəssisənin əsas məqsədi və səmə- rəlilİ3dnin əsas göstəricisidir.**

**Mənfəətin mənbəyi sahibkarın yenilikçi, yaradıcı fəaliyyətidir.**

**Mənfəətin mövcud növləri və hesablama metodları şəkil 13.17-də sxematik verilmişdir.**

**Firma (müəssisə) gəlirinin nisbi kəmiyyətini mənfəət norması (mənfəətin istehsal xərclərinə nisbəti) və rentabellik (mənfəətin əsas və dövriyyə fondları dəyərinə nisbəti) səciyyələndirir.**

| | | |
|---|---|---|
| Ümumi mənfəət | = | Ümumi gəlir - istehsal xərcləri |
| İqtisadi mənfəət | | ümumi gəlir - bütün resurslara İqtisadi xərclər |
| Mühasibat mənfəəti | = | ümumi gəlir - aşkar xərclər |
| Xalis iqtisadi mənfəət | | mühasibat mənfəəti - İstehsalın qeyri-aşkar xərcləri |
| Xalis mənfəət | ‾ | ümumi mənfəət - vergilər, mütləq ödənişlər |
| Normal mənfəət | | kapitala normativ ayırmalar -I- sahibkar gəliri norması |
| Təsərrüfat mənfəəti | = | normal mənfəət -1- iqtisadi mənfəət |
| Son hədd mənfəəti | = | son hədd gəliri - son hədd xərcləri |

**Şəkil 13.17. Mənfəətin növləri və hesablama metodları**

**Sahibkarlıq yalnız firavanlıqla deyil, həm də məsuliyyət, ümidlərin puç olması, zərər və müflisliklə müşayiət olunur. Təsərrüfatçılıq həyatında zərər - müəssisənin maddi və pul resurslarının azalmasıdır.**

**Zərər istehsal xərclərinin məhsul satışından əldə olunmuş vəsaitdən çox olmasının nəticəsidir. Əgər müəssisə borclular qarşısında borcunu ödəyə bilməzsə, o məhkəmənin qərarı ilə müflisləşmiş elan edilə bilər.**

**Bundan çıxış edərək sahibkarlıq fəaliyyətinin uğuru möv« cud istehsal aparatı, bazar infrastrukturu və sahibkarın sərəncamında olan bütün resurslardan istifadənin nəticəliliyi ilə müəyyənləşir.**

**Mənfəətin müəssisə üçün əhəmiyyəti, onun kəmiyyətini müəyyənləşdirən amillər, həmçinin mənfəətin bölgüsü və istifadə olunması şəkil 13.18-də verilmiş sxemdə təsvir olunmuşdur (bax: səh. 400).**

**Əmək haqqı əməyin qiymətidir. Müasir nəzəri iqtisadiyyat əmək haqqının geniş və dar mənasını fərqləndirir. Sözün geniş mənasında bu məfhum maddi istehsalın müxtəlif ixtisaslar üzrə müxtəlif peşələrinin, yüksək hazırlıq dərəcəli mütəxəssislərin (həkimlər, hüquqşünaslar, alimlər, müəllimlər və s.), xidmət sahəsi işçilərinin əmək haqqını özündə ehtiva edir. Bu halda əmək haqqına əmək üçün qonorarlar, mükafatlar və başqa mükafatlandırmaları daxil edirlər. Sözün dar mənasında əmək haqqı müəyyən müddət ərzində (saat, gün, həftə və s.) əmək vahidindən istifadə üçün verilən maaş və ya qiymətdir. Belə fərqləndirmə ümumi qazancı və əmək haqqının özünü fərqləndirməyə imkan verir.**

**Nominal və real əmək haqqını fərqləndirirlər. Nominal əmək haqqı dedikdə işçinin öz əməyi müqabilində aldığı pul məbləği başa düşülür. Real əmək haqqı əldə olunmuş pula alına bilən istehlak məhsulları kütləsi və xidmətlərdir. Birinci göstərici əmək haqqının, gəlirin səviyyəsini, ikinci isə istehlak və rifah halının səviyyəsini səciyyələndirir.**

**Əmək haqqının ümumi səviyyəsi, əməyin qiyməti kimi,**

**tələb VƏ təKİif əyrilərinin Kəsişməsi ilə üzə çıxarılır. Əməyə tələb əməK haqqı səviyyəsini artırır. ƏməK haqqının Kəmiyyətinə (artım istiqamətində) həmKarlar ittifaqları immiqra- siya hədləri müəyyənləşdirməKİə, həmnarlar ittifaqlarının üzvü olmayanların işə götürülməsinə qadağa qoymaqla, gün üçün işin ağırlığını, intensivliyini və s. limitləşdirməKİə, əməK haqqının səviyyəsi göstərilən KolleKtiv müqavilələrin bağlanması zamanı təzyiq göstərmənlə, istehsalın əməK haqqı səviyyəsini aşağı salmağa meylli inhisarlaşması ilə mübarizə aparmaqla, məşğulluğun artmasını və əməyə tələbatın yÜKsəldilməsini nəzərdə tutan istehsal növlərinin inKİşafını dəstəKİəməKİə təsir edirlər.**

**Təsərrüfat praKtİKasında əməK haqqının müxtəlif forma və sistemlərini fərqləndirirlər (cədvəl 13.2).**

*Cədvəl 13.2*

| ƏməK haqqı formaları | ƏməK haqqı sistemləri |
|---|---|
| Vaxta görə<br>■ saatlıq<br>■ nəftəlİK<br>■ aylıq İşə görə | İşəmuzd-mütərəqqi<br>tşəmuzd-mÜKafatlı Vaxta görə mÜKafatlandırma<br>ÇoxamilU<br>Mənfəətdə iştiraK sistemi |

**Faiz pul Kapitalından amil gəliridir, bu gəlirin Kapital müİKİyyətçisinin il ərzində aldığı hissəsidir. Gəlirin bu his- səsinin dərəcəsi ifadə olunursa, belə gəlir faiz tarifi adlanır.**

$$\textit{Faiz dərəcəsi} = \frac{\textit{Faiz}}{\textit{Kapitalın məbləği}} \times 100\%$$

**Məsələn, siz banna 100000 dol. pul qoyursunuz. Sizin gəliriniz (və ya faiz) 15000 dollar olacaq və bu halda faiz dərəcəsi 15%-ə bərabər olacaq.**

**Müasir iqtisadi nəzəriyyə faizi resnrslan ala bilməK üçün pul qazanmağı gÖzləməKdənsə, həmin resursları indi əldə**




**Şəkil 13.18. Mənfəətin müəssisə üçün əhəmiyyəti**

**etmək üçün ödənilən qiymət kimi dəyərləndirir. Zaman amilinin nəzərə alınması dərk etməyə imkan verir: müddətli əmanətlərin dövrü nə qədər çox olsa, həmin əmanətdən faiz şəklində gəlir bir o qədər yüksəkdir.**

**Faiz kateqoriyasının təhlilində nominal və real faiz dərə-**

**C9SİHİ fərqləndirmək vacibdir. Nominal faiz dərəcəsi inflyasiya sürəti nəzərə alınmadan cari real bazar faiz dərəcəsidir. Real faiz dərəcəsi gözlənilən inflyasiya sürəti çıxıldıqdan sonra qalan nominal faiz dərəcəsidir. Məsələn, illik nominal faiz 15%, gözlənilən inflyasiya tempi 7%-dirsə, real faiz 15- 7=8% -dir.**

**Renta - yalnız «torpaq» istehsal amilindən deyil, təklifi qeyri-elastik olan istənilən digər amildən gələn gəlirdir. Neoklassik məktəbin rentaya verdiyi tərif belədir. Rentanın və ya icarə haqqının bir tarazlaşdırıcı qiymət kimi müəyyənləşdirilməsi prinsipləri (neoklassiklər bu iki məfhumu çox vaxt sinonim kimi işlədirlər) başqa istehsal amillərində olduğu kimidir.**

**Həqiqətən də, əgər renta icarədarın torpaq mülkiyyətçisinə torpaqdan istifadə üçün müqavilə üzrə ödədiyi pul məbləğidirsə, onda icarə haqqı rentanın, amortizasiyanın və qoyulmuş kapitalın faizlə ifadəsinin cəmidir.**

**Beləliklə, sahibkarlıq gəliri, mənfəət, əmək haqqı və renta istehsal amillərinin istifadəsindən gələn gəliri təşkil edirlər. Funksional bölgüdən gəlirlərin fərdi bölgüsünü fərqləndirirlər ki, bu da cəmiyyətin məcmu gəlirinin ayn-ayn şəxslər, ailələr, ev təsərrüfatları və s. arasında bölgüsüdür.**

# XIV FƏSİL. FİRMANIN RƏQABƏT DAVRANIŞI: İSTEHSAL XƏRCLƏRİ

*§1. İstehsal xərcləri: mühasibat və iqtisadi yana§malar.*
*§2. Qısamüddətli dövrdə istehsal xərcləri.*
*§3. Uzunmüddətli dövrdə istehsal xərcləri. İstehsal xərcləri və miqyas effekti.*
*§4. İzokosta. İstehsal xərclərinin minimallaşdınıması.*

**Bazar iqtisadiyyatı şəraitində əmtəə və xidmətlər istehsalı istehsalçı firmalar çərçivəsində həyata keçirilir. İstehsal üçün iqtisadi resurslar və ya istehsal amilləri tələb olunur. Sahibkarlar zəruri resursları cəlb edir, onları istehsal prosesində birləşdirir və onlardan istifadəni idarə edirlər. Səmərəli davranış cəhdi onları yalnız çıxışdakı məhsulun mafcsimallaşdırılması yollarını deyil, həm də amil xərclərinin minimallaşdırılması yollarını axtarmağa sövq edir.**

**Resurslar və onların istehsal xərclərindən danışdıqda yadda saxlamaq lazımdır ki, bazar iqtisadiyyatı şəraitində onların dəyər forması da var. Bununla əlaqədar istehsal xərcləri məsələsi meydana çıxır,**

## *§1. İstehsal xərcləri: mühasibat və iqtisadi yanaşmalar*

**Hazır məhsul bazarında firma istehsalçı-təchizatçı kimi çıxış edir, onun davramşını isə əmtəə və xidmətlər təklifi səciyyələndirir. Bəs təklif nə ilə müəyyənləşir, firmanın bu və ya digər həcmdə məhsul istehsal edə bilməsi nə ilə şərtlənir? Təklifin ən mühüm amillərindən biri istehsal xərcləridir.**

**İstehsal xərcləri eyni zamanda həm sadə, həm də çox mürəkkəb kateqoriyadır. Sadədir, ona görə ki, xərclər sözünün mənasının Özü bunun nə olduğunu və istehsalın təşkilinin sahibkara neçəyə başa gəldiyini bildirir. Mürəkkəbdir, çünki xərclərin mahiyyəti, təsnifatı və Ölçüsünün müəyyənləşdiril-**

**məsinə li r sıra metodik cəhətdən müxtəlif yanaşmalar mövcuddur.**

**ƏwəÌctı xərclərin mühasibat səciyyəsi xüsusiyyətləri üzərində day>inmaq lazımdır, çünki xərclər istehsalla bağlı istənilən uçot sisteminin ayrılmaz tərkib hissəsidir. Mühasibatda xərclər dedikdə istehsal amilləri bazarında resursların alınmasına sərf olunan xərclərin məcmusu başa düşülür. Özü də resursların bazar qiyməti xərclərin kəmiyyətini təşkil edir.**

**Mühasiblərdən fərqli olaraq iqtisadçıları problemin yalnız zahiri və kifayət qədər aşkar tərəfi qane etmir. Onlar xərclərin daxili mahiyyətini də açmağa cəhd edirlər. Burada da yanaşmalar fərqli ola bilər.**

**Belə ki, marksizm, birincisi, kapitalist və ictimai istehsal xərclərini fərqləndirir. Birinci əmtəə istehsalının sahibkara neçəyə başa gəldiyini, ikincisi əmtəə istehsalının cəmiyyətə neçəyə başa gəldiyini göstərir. Sahibkar istehsala kapital, cəmiyyət isə əmək sərf edir, özü də əmək məsrəfi kapital məsrəfindən çoxdur, çünki bura mənfəət şəklində sahibkar tərəfindən havayı mənimsənilən izafi əmək də daxildir. İkincisi, istehsalın kapitalist xərclərinə gəldikdə isə, Marks onları əmtəə dəyərinin kapital xərcini ödəyən ayrıca hissəsi kimi müəyyənləşdirir. Bu zaman diqqət ona yönəldilir ki, bu məhz kapital xərci deyil, dəyərin fəhlələr tərəfindən yaradılıb, həmişə ayrılmağa məcbur olan və istehsal prosesinin bərpasına sərf olunan hissəsidir.**

**Marksist mövqeyindən fərqli olaraq müasir iqtisadi nəzəriyyədə kifayət qədər yayılmış mövqe ondan ibarətdir ki, istehsal xərcləri məcburi xərclərdir, yəni itirilmiş alternativlərdən ən yaxşısını səciyyələndirirlər. Məcburi xərclərə aşkar və gizli xərclər daxildir.**

***Aşkar xərclər* bazardan alınmış istehsal amillərinin qiyməti ilə, resurs satıcısını həmin sövdəni onun üçün ən yaxşı alternativ qismində seçməyə məcbur edən qiymətlə müəyyənləşir.**

***Gizli xərclər* bazar sövdələşməsi zamanı pul verilməsim**

**nəzərdə tutmurlar. Bununla belə, burada da söhbət müəyyən qurbanlardan gedir. Məsələn, torpaq sahəsinin, istehsal binasının, avadanlığın sahibi onla^d^uı özü istifadə etməyib, icarəyə verə və mütəmadi renta ödənişi ala bilərdi. Alınmamış renta şəxsi investisiya resurslarının məcburi xərclərini təşkil edir. Başqa bir misal: kiçik restoranın sahibi mətbəxdəki işlərdə, müştərilərə xidmət göstərilməsində, mühasibat İşlərinin aparılmasında şəxsən iştirak edir. Hətta o, özünə əmək haqqı yazmasa belə, bu yenə də məcburi xərclərdir, çünki o, başqa yerdə işləyib əvəzində əmək haqqı ala bilərdi. Alınmamış əmək haqqı restoran işlətmənin məcburi xərclərini (itirilmiş imkanlar) təşkil edir.**

**Gizli xərclər mühasibat kitablarına düşmür. Lakin iqtisadçılar demək olar ki həmişə onları nəzərə alırlar.**

**Məcburi istehsal xərclərinin daha bir tərkib hissəsi var: bu müəyyən bir orta, adi mənfəət norması əsasında hesablanmış normal mənfəətdir. Normal mənfəət kapitala həmin tətbiq sahəsində qalmağa imkan verən minimal mənfəətdir. Beləliklə, belə mənfəəti müəyyən kapital qiyməti, investisiyalar qiyməti, biznesin iştirakı qiyməti hesab etmək olar. Əgər biznesin iştirak qiyməti başqa yerdə mümkün olan gəlirdən aşağı olarsa, sahibkar istehsalı dayandırıb kapitalını başqa sahəyə keçirə bilər. Məhz buna gÖrə də normal mənfəət xərclərin növü kimi nəzərdən keçirilir.**

**Normal mənfəət marksizmin orta mənfəət kateqoriyası ilə müqayisə oluna bilər. Orta mənfəət kapitalların sahələra- rası rəqabətinin nəticəsində yaranır. Kapitalların bir istehsal sahəsindən digərinə axını nəticəsində hər bir kapital öz kəmiyyətinə mütənasib səviyyədə mənfəət əldə edəcək. Mənfəət normasının onun orta kəmiyyətindən aşağı düşməsi kapitahn sahədən çıxmasına səbəb olur. Orta mənfəətdən artıq mənfəət əldə olunması üstəlik mənfəət əldə olunması deməkdir ki, bu da sahəyə kapital cəlb edir. Azad rəqabət şəraitində üstəlik mənfəət yalnız qısamüddətli dövrdə əldə oluna bilər. Uzunmüddətli dövrdə bütün istehsalçılar orta mənfəət əldə**

**edirlər. Marksizmdən fərqli olan nəzəriyyələrdə də analoji nəticələrə gəlirlər.**

**Marksın üstəlik mənfəət adlandırdığını müasir ədəbiyyatda müxtəlif cür adlandırırlar. Normal səviyyədən yuxan mənfəət iqtisadi mənfəət, supermənfəət, yüksək mənfəət, xalis mənfəət, istehsalçının artıqlığı və ya sadəcə olaraq mənfəət adlandırıla bilər.**

**Beləliklə, tam məcburi xərclərə daxildir:**

- **aşkar xərclər;**
- **gizli xərclər;**
- **normal mənfəət.**

**İstehsal xərclərinə yanaşma müxtəlifliyi mənfəətin müxtəlif cür izahına səbəb olur.**

**Mühasib üçün mənfəət məcmu satış mədaxili ilə aşkar xarclər arasındakı fərqə bərabərdir.**

**İqtisadçı üçün mənfəət məcmu satış mədaxili ilə bütün məcburi xərclər arasındakı fərqə bərabərdir. İqtisadi xərclər mühasibat xərclərindən çox olduğundan iqtisadi mənfəət mühasibat mənfəətindən azdır.**

## *§2. Qi8amüdd9tU dövrdə istehsal* xərcləri

**Bütün istehsal xərclərini bir neçə əlamətlərinə görə təsnifləşdirmək olar. Əsasən təsbit olunmuş və dəyişən xərcləri ayırırlar.**

**Təsbit olunmuş xərclərə vergilər, borca görə faizlər, icarə haqqı, avadanlığın uzunmüddətliyinin tədricən itirilməsinə görə ödənişlər, mühafizə haqqı, bəzi dəyərli mütəxəssislərin əmək haqqı və s. kimi mütləq ödənişlər daxildir. Bu xərclərin xüsusiyyəti ondadır ki, onlann kəmiyyəti istehsalın həcmindən asılı deyil. Əgər məhsul istehsalı müvəqqəti dayandırılsa belə, firma yenə də vergiləri, kredit faizlərini və s. ödəməlidir.**

**Dəyişən xərclər bilavasitə istehsal həcmindən asılı olub onunla birlikdə dəyişir. Dəyişən xərclərə material və xammala, elektrik enerjisinə və s. məsrəflər, həmçinin muzdlu**

**İşçilərin və qulluqçuların əmək haqları aiddir.**

**Təsbit olunmuş və dəyişən xərclər birlikdə ümumi istehsal xərclərini əmələ gətirir.**

**Qrafik şəkildə təsbit olunmuş istehsal xərcləri üfüqi xətt şəklində (şəkil 14.1), dəyişən və ümumi xərclər isə xüsusi şəkildə əyilmiş artan əyrilər şəklində (şəkil 14.2) tf^.Tvir olunurlar.**




Şəkil 14.1. Təsbit olunmuş xərclər




**Şəkil 14.2.** Dəyişən və məcmu xərclər

**Gördüyümüz kimi dəyişən və ümumi xərclər arasındakı şaquli məsafə təsbit olunmuş xərclərə bərabərdir ki, bu da həmin kateqoriyaların təriflərindən irəli gəlir.**

**Yuxarıda adlan çəkilən kateqoriyaların hər birini məhsulun istehsal həcminə bölsək, onda daha bir xərclər göstəriciləri qrupu, yəni orta xərclər alınar. Orta xərclər məhsulun hər vahidinin istehsalına tipik məsrəfləri göstərir.**

**Fərqləndirirlər:**

- **orta təsbit olunmuş xərclər;**
- **orta dəyişən xərclər;**
- **orta ümumi xərclər və ya sadəcə orta xərclər.**

**Orta ümumi xərclər orta təsbit olunmuş xərclərlə orta dəyişən xərclərin cəminə bərabərdir.**

**AC-AFC+AVC**

**Qrafik şəkildə orta xərclər qrupu aşağıdakı kimi olacaq (şəkil 14.3),**




**Şəkil 14.3. Orta xərclər: təsbit olunmuş, dəyişən, ümumi**

**Orta təsbit olunmuş xərclər əyrisi mütəmadi soldan sağa enərək X oxuna asimptotik yaxınlaşacaq, çünki eyni bir təsbit olunmuş xərc göstəricisi daim artan məhsul həcminə bölünəcək.**

**Orta ümumi xərclər əyrisi əvəl enir, sonra isə qalxır. Bu istehsal amillərinin məhsuldarlığının azalması səmərəsinin nəticəsidir. Orta xərclər sanki məhsuldarlığın (orta məh**

**sul) əks tərəfidir; resursun hər vahidinə düşən orta məhsul nə qədər çox olsa, məhsulun hər vahidinə düşən xərclər bir o qədər az olar. Bu orta məhsul və orta xərclərin timsalında aydın görünür (şəkil 14.4).**

**Orta dəyişən xərclər əyrisi bütövlükdə orta ümumi xərclər əyrisinin hərəkətini təkrarlayacaq. Amma iki əyri arasındakı şaquli məsafə məhsul istehsalı artdıqca azalacaq. Bu təsbit olunmuş orta xərclərin dönmədən azalması ilə izah olunur.**

**Xərclərin təsnifatında son hədd xərcləri kateqoriyası mühüm yer utur. Son hədd xərcləri əlavə məhsul vahidinin istehsalı ilə əlaqədar ümumi xərclərin artmasını səciyyələndirir.**







**Şəkil 14.4. Orta məhsul (a) və orta xərclər (b) əyriləri**

**Aşağıdakı misal son hədd xərclərinin təbiətini və onların ümumi xərclər və dəyişən xərclərlə əlaqəsini anlamağa kömək edər (bax cədvəl 14.1).**

***Cədvəl 14.1.***

| Məhsulun miqdarı | Məcmu dəyişən xərclər | Son hədd xərcləri |
|---|---|---|
| 0 | 0 | 0 |
| 1 | 10 | 10 |
| 2 | 18 | 8 |
| 3 | 24 | 6 |

**Ümumi dəyişən xərclər bütün son hədd xərclərinin cəminə bərabərdir. Son hədd xəcləri iki yanaşı duran məcmu dəyişən xərclərin qiymətləri fərqinə bərabərdir və ya MC=ATVC/AQ.**

**Gördüyümüz kimi, əgər hesablama məcmu dəyişən xərclər əvəzinə ümumi xərclər üzrə aparılsa, son hədd xərclərinin eyni qiyməti alınardı. Bu onunla izah olunur ki, qısamüddətli dövrdə ümumi xərclərin dəyişməsi yalnız dəyişən xərclərin dəyişməsi ilə şərtlənir, təsbit olunmuş məcmu xərclər öz həcmini dəyişmir.**

**MC=ATC/AQ=ATVC/AQ.**

**QısamüddətU dövrdə son hədd məhsuldarh^ımn azalması səmərəsi müşahidə olunduğundan son hədd xərcləri əvvəlcə azalır, sonra isə artır. Qrafik şəkildə son hədd xərcləri əyrisi son hədd məhsulu əyrisinin güzgü kimi əksidir (şəkil 14.5, 14.6).**




**Şəkil 14.Ö. Son hədd məhsulu əyrisi**




**Şəkil 14.6.** Son hədd xərcləri əyrisi




**Şəkil 14.7. Ümumi dəyişən xərclər əyrisi**

**Şəkil 14.6 və şəkil 14.7-ni nəzərdən keçirək. Məcmu dəyişən xərclər artır, çünki daha çox miqdarda məhsul istehsalı daha çox xərc aparır. Buna görə də TVC əyrisi hey yuxarı qalxacaq və müsbət mailliyə malik olacaq, lakin maillik vahidi dəyişəcək. Son hədd xərcləri düsturundan göründüyü kimi bu göstərici dəyişən xərclər əyrisinin maillik bucağı haqqında təsəvvür yaradır. Deməli, son hədd xərcləri əyrisi məcmu dəyişən xərclər əyrisi mailliyinin başqa şəkildə qrafik izahıdır. Məcmu xərclər cəbri TC=f(Q) funksiya ilə verilsəydi, son hədd xərclərini bu funksiyanın birinci törəməsi kimi nəzərdən keçirmək olardı; MC=TC=dTC/dQ.**

**Dəyişən məcmu xərclər əyrisinin kəskin əyilmə nöqtəsi olur. Bu nöqtə son hədd xərclərinin minimal qiymətinə müvafiqdir, bu göstərici dəyişən xərclər əyrisinin maillik bucağı haqqında təsəvvür yaradır. Bu nöqtədə MC daha azalmayıb artmağa başlayır, dəyişən xərclər əyrisinin mailliyi isə aza- landan artana çevrilir.**

**Dəyişən orta xərclər və son hədd xərclərinin qarşılıqlı əlaqəsini nəzərdən keçirmək maraqlı olar. Dəyişən orta xərclər həmişə son hədd xərclərindən sonra dəyişir və bu dəyişmədə həmişə bir qədər arxada gedir. Dəyişən orta xərclər son hədd xərcləri əyriləri qrafik şəkildə orta məhsul və son hədd məhsulu əyrilərinin güzgü kimi əksi olacaq (şək. 14.8 və 14.9).**

**Qrafiklərdən əyani görünür ki, son hədd xərcləri dəyişən orta xərclərdən artıq olduqda dəyişən orta xərclər artır, son**

**hədd xərcləri dəyişən orta xərclərdən *az* olduqda isə, onlar azalır. Son hədd xərcləri əyrisi dəyişən orta xarclər əyrisini onun minimum qiymətində kəsir.**




**Şəkil 14.8. Orta və son hədd məhsulları əyriləri**




**Şəkil 14.9. Dəyişən orta xərclər və son hədd xərcləri əyriləri**

### *^3. Uzunmüddətli dövrdə istehsal xərcləri. İstehsal xərcləri və miqyas effekti*

**Uzunmüddətli dövrdə xərclərin bütün elementləri dəyişəndir. Əgər hər bir istehsal həcminə ən az dəyərə malik resurs kombinasiyası tətbiq olunmuşsa, uzunmüddətli dövrdə orta xərclər əyrisi hər bir istehsal həcmi üçün minimal xərcləri xarakterizə edən nöqtələrin məcmusundan ibarət olacaq (LRAC əyrisi).**

**Qısamüddətli və uzunmüddətli dövrlərdə xərclərin qarşılıqlı əlaqəsini başa düşməyə şəkil 14.10 kömək edər.**

**Şəkil 14.10-da bir sıra qısamüddətli xərclər əyrisi verilib və bunlar müəssisənin müxtəlif ölçülərinə (istehsal miqyasına) müvafiqdirlər. Deyək ki, sahibkar əvvəlcə 1-ci qısamüddətli dövrdədir. O, istehsal veriminin azalması effekti özünü göstərənə, yəni qısamüddətli orta xərclər artmağa başlayana qədər istehsalı artıra bilər. Bundan sonra qısamüddətli dövrdə istehsalın artırılması imkanları tükənir. Müəyyən vaxt tələb olunur ki, sahibkar istehsalı yeni miqyasda təşkil edə bilsin, məsələn, yeni zavod tiksin, təzə sex açsın, əlavə dəz-**




**Şəkil 14.10. Uzunmüddətli xərclər əyrisi qısamüddətli xərclər əyrilərini "əhatələyir"**

**gahlar quraşdırsın. Yəni bütün resurs növlərinin parametrləri dəyişməlidir. Beləliklə, müəssisə 2-ci miqyasa çatır və ikinci qısamüddətli dövrdə əlavə işçi qüvvəsinin, əlavə xammal və materialların cəlb olunması hesabına istehsal həcmini məhsuldarlığın azalması effekti işə düşüncəyə qədər artıra bilər. 3, 4, 5 və s. istehsal miqyaslarına keçid də eyni qaydada baş verəcək. Müxtəlif qısamüddətli dövrlərin xərclərin- dəki dəyişiklikləri birləşdirib, qısamüddətli xərclər əyrilərinə toxunan olaraq onlan sanki əhatələyən uzunmüddətli orta xərclər əyrisini alarıq. Uzunmüddətli orta xərclər əyrisini çox vaxt paket-əyri də adlandırırlar, çünki onun içində, paketdə olduğu kimi, bütün qısamüddətli dövrlərin əyriləri yerləşir. Bu əyrinin daha bir adı «U - əyridir» ki, bu da onun latın hərfi U-nu xatırladan forması ilə şərtlənir.**

**Uzunmüddətli orta xərclər əyrisinin forması və yönümü müxtəlif ola bilər (şəkil 14.11 - 14.13). Bu istehsal miqyası artdıqca orta xərclərin kəmiyyətinin necə dəyişməsindən asılıdır. Başqa sözlə, uzunmüddətli dövrdə xərclərin dinamikası miqyas effekti ilə müəyyənləşir.**




**Şəkil 14.11. Miqyasın müsbət effekti**




**Şəkil 14.12. Miqyasın mənfi effekti**

**$1**

**LRAC**

0 Q

**Şəkil 14.13. Miqyasın neytral effekti**

**İstehsalın miqyası artdıqca orta xərclər azalmağa meylUdirsə, miqyasın müsbət effektli olduğundan (şəkil 14.11) və ya istehsal artımında qənaətdən söhbət gedir. Belə qənaət əməyin ixtisaslaşdırılması, daha səmərəli idarəetmə, kapitaldan (binalar, avadanlıq, elektrik enerjisi və s.) istifadədə qənaət hesabına əldə olunur.**

**İstehsalın miqyası artdıqca orta xərclər də artırsa, miqyas effekti mənfi olacaq (əkil 14.12). Nəhənglik həvəsi idarəetməyə xərcləri artırmaqla onun səmərəliliyini aşağı sala bilər; bürokratizm, məsuliyyətin biri-birinin üstünə atılması və s. artar. Nəticədə resurslara kapital qoyuluşundan gələn gəlir azalar (məsələn, resursların 5% artırılması məhsulun həcmini cəmi 2% artıracaq), uzunmüddətli dövrdə orta xərclər isə istehsalın həcmi artdıqca artmağa başlayacaq.**

**Nəhayət, istehsal həcmi artdıqca orta xərclər vahidi dəyişmirsə, miqyas effekti sıfır olacaq (14.13).**

**Uzunmüddətli orta xərclər əyrisi adətən yuxarıda göstərilmiş hər üç əyrilərin qarışığından ibarət olur. Bu onunla əlaqədardır ki, istehsal miqyasları artdıqca orta xərclər əvvəlcə azalır, sonra bir müddət sabit qalır və nəhayət elə bir məqam var ki, ondan sonra istehsal həcminin artması orta xərclərin artımına səbəb olur.**

**Şəkil 14.14-də uzunmüddətli orta xərclər əyrisi verilmişdir.**

**Bu əyrini əsas götürərək uzunmüddətli dövrdə istehsalı hara qədər artırmaq mümkün olduğunu müəyyənləşdirmək olar. Aydındır ki, bütün mümkün az orta xərclər səviyyəsindən ən azını seçməyə imkan verən istehsal səviyyəsi optimal olacaqdır. Şəkil 14.14-də Q* istehsal həcmi uzunmüddətli orta xərclər əyrisinin ən aşağı nöqtəsinə müvafiqdir və deməli, məhz bu halda firma miqyasın müsbət effektindən tam istifadə edir və yalnız qısamüddətli dövrdə deyil, həm də uzunmüddətli dövrdə xərclərin azaldılmasına nail olur.**




**Şəkil 14.14. Uzunmüddətli orta xərclər əyrisi (əhatələyən əyri, U formasında əyri)**

**Uzunmüddətli orta xərclər əyrisi hər bir sahənin özü üçün müəssisələrin optimal ölçüləri olduğunu nümayiş etdirməyə imkan verir. Bu həm texnologiya ilə, həm də bazardakı vəziyyətlə müəyyənləşir. Məsələn, metallurgiya, aviasiya, gəmiqayırma sənayelərində irihəcmli müəssisələr tikmək sərfəlidir, çünki məhz onlar uzunmüddətli orta xərcləri maksimal azaltmağa və miqyeıs effektindən tam istifadə etməyə imkan verir (şəkil 14.15).**




**Şəkil 14.15. Sahədə ən yüksək rəqabət qabiliyyəti (ən az xərclər) - iri müəssisələrdir**

**Nəhəng müəssisələr kiçik və ya ortalardan heç də həmişə səmərəli olmur. Bərbərxana işi kimi sahələrdə kiçik müəssisə rəqabət üstünlüyünə malik olacaq. Bu sahədə miqyasın müsbət effekti tez tükənir və müəssisənin sonrakı böyüdülməsi yalnız orta xərclərin artmasına səbəb olur (şəkil 14.16).**




**Şəkil 14.16. Sahədə rəqabət üstünlükləri - kiçik müəssisələrdədir**

**Bir çox sahələrdə uzunmüddətli orta xərclər əyrisinin üfüqi hissəsi kifayət qədər uzun olur. Bu o deməkdir ki, müəssisənin ölçülərinin texniki-iqtisadi optimumu kifayət qədər sərt müəyyənləşdirilməyib. Miqyasın müsbət effekti istehsalın hələ nisbətən kiçik həcmlərində əldə olunur və sonradan istehsal həcmi xeyli artdıqda belə qalmaqda davam edir. Yalnız istehsalın çox böyük həcmində xərclər qabaqlayıcı tempdə artmada başlayır. Belə vəziyyətdə sahədə həm kiçik, həm də böyük müəssisələr uğurla yanaşı fəaliyyət göstərirlər. Buna misal pendir, pivə, çörəfcbişirmə və s. sənaye sahələrini göstərmək olar (14.17).**

**Qısamüddətli dövr üçün səciyyəvi olan orta xərclər və son hədd xərclərinin qarşılıqh əlaqəsi uzunmüddətli dövrdə də qalır. Son hədd xərcləri orta xərclərdən aşağıdırsa orta xərclər artır. Və əksinə. Bu tezisi şəkil 14.18 -14.21 şərh etməyə kömək**




**Şəkil 14.17. Sahədə kiçik və iri müəssisələrin yanaşı mövcud olması**




**Şəkil 14.18. Miqyasın müsbət effekti**

**Uzunmüddətli istehsal xərclərinin təhlilinin bu və ya digər sahədə rəqabətliliyin quruluşu və səviyyəsi üçün böyük əhəmiyyəti var. Rəqabətli sahələr bütün digər bərabər şərtlərlə yanaşı çoxsaylı kiçik və orta firmalardan ibarət olacaqlar, təmərküzləşmiş sahələrdə isə cəmi bir neçə iri və çox iri istehsalçı hökmran olacaq. Amma sonuncu halda bütün istehsalın bir nəhəng müəssisədə cəmləşdirilməsi vacib deyil. İri firmanın tərkibində müxtəlif istehsal miqyaslı çox sayda**




**Şəkil 14.19. Miqyasın mənfi effekti**

LRAC=LRMC

0

**Şəkil 14.20. Miqyasın neytral effekti**




**Şəkil 14.21. Miqyasın müsbət effekti sonra miqyasın mənfi effekti ilə əvəzlənir**

**müəssisə ola bilər və ya firma onlar üzərində nəzarəti həyata keçirə bilər.**

**Bazarın rəqabət quruluşu və firmanın müxtəlif bazar şəraitində davranışı məsələləri sonrakı fəsillərdə nəzərdən keçiriləcək.**

## *§4. İzokosta. İstehsal xarclarinin minimallaşdırılması*

**İstehsal xərclərinin təhlilinin qrafik alətlərindən biri izokostadır (şəkil 14.22).**

**tzokosta eyni dəyərə malik iki resursun bütün kombinasiyalarına müvafiq nöqtələrin həndəsi yeridir. İzokosta istehlakçının büdcə xəttinə bənzəyir. İzokostanın mailliyi düz xətt boyu sabitdir və hər iki resursun qiymət münasibətlərinə bərabərdir (P^/Pк)***




**Şəkil 14.22.** İzokosta

**Bir sıra paralel izokostlar amillərin qiymətlərinin dəyişməzliyi və ya qiymətlərin eyni nisbətdə dəyişməsi şəraitində məcmu xərclərin müxtəlif səviyyələrini səciyyələndirir, tzo- kostanın mailliyi dəyişirsə, bu bütün digər şərtlər bərabər olmaqla amillərdən birinin qiymətinin dəyişməsini (və ya hər iki amilin qiymətinin, lakin müxtəlif nisbətlərdə, dəyişməsini) göstərir.**

**Səmərəli davranış prinsipinə riayət edərək sahibkar nə**

**zərdə tutulmuş məhsul həcminin istehsal xərclərini minimallaşdırmağa can atır. Bu məsələnin qrafik həlli bir neçə izo- kost və verilmiş istehsal həcminə müvafiq izokvantdan istifadəni nəzərdə tutur. Standart izokvant üçün (Kobb-Duq- las istehsal funksiyası) həlli şəkil 14.23-də qeyd olunub.**




**Şəkil 14.23. Xərclərin minimallaşdırılması**

**İzokvantdan aşağıda yerləşib onunla ümumi nöqtələri olmayan izokostalar göstərir ki, xərclərin belə aşağı səviyyəsində verilmiş istehsal həcminə çıxmaq mümkün deyil.**

**İzokvantı kəsən və onunla iki ümumi nöqtəsi olan izokostalar göstərir ki, xərclərin səviyyəsi lazım olduğundan artıqdır. Verilmiş həcmdə məhsul istehsalını daha az xərclə təmin edən başqa resurs kombinasiyasını həmişə seçmək mümkündür.**

**tzokvanta toxunan izokosta verilmiş məhsulun istehsalı üçün tələb olunan xərclərin minimal səviyyəsini səciyyələndirir. Verilmiş izokvantın mümkün qədər aşağı izokosta ilə toxunma nöqtəsi bu halda tətbiq olunası resurslar kombinasiyasını göstərir. Toxunma nöqtəsində əyrilərin maillik bucağı bərabərdir, yəni MPL/MPR=PL/PK- Qrafik yolla da xərclərin cəbri yolla alınmış minimallaşdırılması düsturu alındı.**

**Məsələ bir qədər başqa cür də qoyula bilər. Əgər istehsal xərclərinin kəmiyyəti verilmişsə (sahibkarın bundan artıq vəsaiti yoxdur), bu xərclə əldə oluna biləcək maksimal məhsul istehsalı nə qədərdir? Bu sualın cavabı izokvantlar xəri**

təsi VƏ məsələnin şərtləri ilə verilmiş bir izokosta vasitəsilə tapılır (şəkil 14.24).




Şəkil 14.24. İzokvantlar xəritəsi və izokostamn köməkliyi ilə istehsalın maksimal həcminin müəyyənləşdirilməsi

Optimal həll bu izokostamn mümkün qədər yüksək izokvantla toxunma nöqtəsindədir. İzokostadan yuxandan keçən izokvantlar bu xərclərlə çatılmazdır, tzokostu iki nöqtədə kəsən izokvantlar səmərəli deyil, çünki belə izokvantlarda həmişə daha ucuz başa gələn resurs kombinasiyalarını tapmaq olar. Yalnız toxunma nöqtəsi bu xərclərlə mümkün olan ən yüksək istehsal həcmini göstərir.

Həm istehsal həcminin, həm də xərclərin kəmiyyətinin dəyişməsi mümkün olan vəziyyəti nəzərdən keçirək. Hər bir izokvant yalnız müəyyən izokostaya toxunacaq. Nəticədə müxtəlif həcmdə məhsul istehsalının istehsal xərclərinin minimallaşdığı bir sıra nöqtələr alınacaq. Bu nöqtələri birləşdirərək xərclər əyrisini alarıq (14.25).

Xərclər əyrisi yeni istehsal miqyasına çatmaq üçün tələb olunan minimal xərcləri göstərir. Bununla da xərclər əyrisi firmanın genişlənmə trayektoriyasını göstərir. İstehsal həcminin artırılmasının iki yolu var: amillərdən birinin dəyişdirilməsi ilə və amillərin hamısının dəyişdirilməsi hesabına (şəkil 14.26).




**Şəkil 14.25. Həm istehsal həcminin, həm də xərclərin kəmiyyətinin dəyişməsi zamanı xərclər əyrisi**

**b və C nöqtələrinin müqayisəsi eyni bir məsələnin qısamüddətli və uzunmüddətli dövrlərdə həlləri arasındakı fərqi göstərir. Asanlıqla görmək olar ki, uzunmüddətli dövrdə həm əmək, həm də kapital dəyişdikdə axtarılan istehsal həcmi (Q = 300) yalnız tətbiq olunan əməyin miqdarı dəyişən qısamüddətli dövrdən fərqli olaraq daha az xərclə əldə olunur (TC = 6000).**




**Şəkil 14.26. Uzunmüddətli və qısamüddətli dövrlərdə müəyyən istehsal həcminə çatdıqda xərclərin müqayisəsi**

# XV FƏSİL. FƏRDİ TƏKRAR İSTEHSAL: MÜƏSSİSƏ RESURSLARININ HƏRƏKƏTİ

*§1. Kapital və kapital qoyuluşları (investisiyalar).*
*§2. Müəssisənin investisiya resurslanntn hərəkəti: kapitüün dövranı.*
*§3. Kapital dövriyyəsi. Əsas və dövriyyə kapitalı.*
*§4. Diskontlaşdırma investisiya layihələrinin qiymətləndirilməsi metodu kimi.*

## *§1. Kapital və kapital qoyuluşları (investisiyalar)*

**İstehsalın təşkil edilməsi və onun fasiləsiz işləməsi, yəni fərdi təkrar istehsalın təmin edilməsi üçün müəssisəyə istehsal resursları tələb olunur. İstehsal resurslannm natural və dəyər formalarmı fərqləndirirlər. Belə ki, əsas resurslar natural formada muzdlu işçilər («əmək* amili), müəssisə, dəzgahlar, alətlər, xammal, yanacaq və s. («kapital* amili) şəklində natural formada çıxış edirlər. Kapitalın natural-əşyavi elementləri həm əvvəlcə xərclənmiş kapitalı bərpa etmək, həm də kapitalın (müvafiq olaraq istehsahn da) həcmini artırmaq üçün istifadə olunur. Bu zaman kapital dəyərinin artması da baş verir. İstehsal həcminin kapital elementlərinin artımı hesabına artması kapital toplanışı və ya investisiya adlanır.**

**Kapitalın həcmindən danışdıqda onun elementlərinin müəyyən vaxta dəyər qiymətlərini nəzərdə tuturuq (məsələn, 1 yanvar 1998-ci il üçün). İnvestisiyalar müəyyən vaxt kəsiyində (məsələn, təqvim ili ərzində) kapital elementlərinin dəyərinin artmasını səciyyələndirir.**

**Müxtəlif iqtisadi məktəblər investisiyaları müxtəlif cür səcij^ələndirir. Avstriya «son hədd faydalılığı* məktəbinə görə, investisiyalar bugünkü tələbatların ödənilməsinin onlann gələcəkdə ödənilməsi ilə əvəzlənməsidir.**

**Adi danışıqda «investisiya məfhumu altında ayrı-ayn şəxslər və ya şirkətlər tərəfindən hər hansı bir əmlakın alm-ması başa düşülür. Bəzən bu məfhumu fond birjasında qiymətli kağızların alınması ilə məhdudlaşdırırlar.**

**İnvestisiyaların mahiyyətinin xarakteristikası baxımından C.Keynsin investisiyanı «müəyyən dövr istehsal fəaliyyəti nəticəsində istehsal vasitələrinin dəyərinə cari əlavələr* adlandırması daha doğru görünür.**

**Menecerin sorğu kitabmda standart məfhum kimi investisiya sahibkar gəliri və ya faizi əldə etmək məqsədilə «uzımmüd- dətli kapital qoyuluşu şəklində həyata keçirilən məsrəflərin məcmusu* kimi nəzərdən keçirilir. Belə tərif kapital qoyuluşlarının iqtisadi məzmununun xarakteristikasında əvvəllər işlədilmiş «resurs* və «məsrəf* yanaşmalarının birləşdirilməsi cəhdidir.**

**Məsrəf yanaşması əsas kapitalın pul şəklində dövranın əhəmiyyətinin inkarına, istehsal mərhələsinin üstünlüyünün əsaslandırılmasına söykənir. Resurs yanaşması isə əsas fondların sadə və geniş təkrar istehsalı üçün təyinatlanmış maliyyə vəsaitlərinin üstünlüyünə əsaslanır.**

**Qərb iqtisadi ədəbiyyatında investisiyalar gələcəkdə səmərəni (o cümlədən sosial) maksimumllaşdırmaq məqsədilə sahibkarlıq fəaliyyətinə qoyulan nemətlər, sərvətlər dəsti kimi nəzərdən keçirilir.**

**Rusiyanın təsərrüfat təcrübəsində investisiyanın aşağıdakı məzmunda dərki daha geniş yayılmışdır.**

**İnvestisiyalar gəlir əldə etmək məqsədilə təsərrüfat fəaliyyətinə qoyulan bütün növ aktivlərə (vəsaitlərə) deyilir.**

**Bu onların maliyyə tərifidir. İqtisadi məzmununa görə investisiyalar əsas kapitalın yaradılması, genişləndirilməsi və yenidən texniki təchizatı, həmçinin dövriyyə kapitalının bununla əlaqədar dəyişmələri ilə bağlı xərclərdir.**

**Müəyyən müddətdən sonra kapital həm natural formasına, həm də dəyərinə görə azala bilər. Bu proses amortizasiya və ya kapitalın qiymətdən düşməsi adı almışdır. Qiymətdən düşmə müxtəlif amillərlə şərtlənə bilir. Məsələn, kapitalın fiziki və mənəvi aşınması fərqləndirilir. Birinci halda avadanlığın, tikililərin istehsal prosesində və sadəcə olaraq vaxt keçdikcə təbiət qüvvələrinin təsiri altında (paslanma,**

**çürümə və s.) fiziki aşınmasi (qırılması, dağılması) səbəbindən onların qiymətdən düşməsi baş verir. Mənəvi aşınma zamanı qiymətdən düşmə ğüc vahidinə nisbətdə daha məhsuldar və ucuz yeni nəsi texnikanın meydana gəlməsi nəticəsində baş verir. Bu halda bir gun də belə işləməmiş köhnə nəsil dəzgah bir anda qiymətdən «düşür».**

**Hər bir müəssisədə investisiya qoyuluşu və amortizasiya prosesləri eyni zamanda baş verir. Kapital resurslarının bir qismi köhnəlir və qiymətdən düşür, onlar yeni dəzgahlar, alətlər, avadanlıqlar və sairlə əvəzlənir. Çox vaxt investisiyalar həcminə görə amortizasiyadan çox olur, çünki müəssisə sadəcə olaraq əvvəlki istehsal həcmini saxlamağa deyil, onu genişləndirməyə və yeniləşdirməyə çalışır. Məcmu (ümumi) investisiyalardan əvəzləyici investisiyaları (kapitalın amortizasiya qiymətdən düşməsinə bərabər olan) çıxsaq, xalis investisiyalar adlanan kateqoriyanı almış olarıq.**

**Xalis investisiyalar = ümumi investisiyalar — amortizasiya və ya xalis investisiyalar = ümumi investisiyalar — əvəzləyici investisiyalar.**

**İnvestisiyalar müxtəlif əlamətlərinə görə təsnif oluna bilərlər. Xüsusi və dövlət investisiyaları fərqləndirilir ki, bunlar investorun kimliyi ilə - xüsusi şəxs (xüsusi firma) və ya dövlətlə müəyyənləşdirilir.**

**İnvestisiyalar investorun milli mənsubiyyətindən asılı olaraq da fərqləndirilir. Məsələn, Rusiya iqtisadiyyatından söhbət gedəndə Rusiya istehsalçıları və dövlətinin daxili investisiyalarından, Rusiya bazarlarına xarici investisiyalardan və Rusiyanın xaricdə həyata keçirdiyi investisiyalardan, yəni Rusiyanın xarici investisiyalarından danışmaq olar.**

**İnvestisiyaların müxtəlif istehsalat və sahə növləri üzrə resursların bölgüsünü səciyyələndirən sahə (istehsal) quruluşu mühüm əhəmiyyətə malikdir. Bu halda müəssisənin investisiyaları həm bir sahədə cəmlənə, həm də diversifikasiya edilmiş, yəni sahələrin geniş spektrini əhatələyə bilərlər.**

**İnvestisiyaların təkrar istehsal quruluşu ümumi və xalis**

**kapital qoyuluşları, yeni tikiliş və bərpa, istehsalın yenidən təchiz edilməsi arasında nisbəti göstərir.**

**İnvestisiyaların texnoloji quruluşuna passiv və aktiv elementlər daxildir. Passiv elementlərə yeni istehsalat binalarının, kommunikasiyaların, yolların və s. tikintisinə çəkilən xərclər daxildir. Aktiv investisiyalar bütün növ avadanlıqların alınmasını nəzərdə tutur.**

**Başa çatdırılmamış və başa çatdırılmış tikintilər arasındakı nisbət investisiyaların vacib quruluş xarakteristikasıdır. İnvestisiyaların həcmində «başa çatdırılmamışlar»m payı nə qədər az olsa, investisiya vəsaitləri bir o qədər səmərəli istifadə olunur.**

**Əslində, yalnız kapitalın fiziki elementlərinə qoyuluşlar investisiyalara aiddir. Bununla belə, ədəbiyyatda və gündəlik həyatda qiymətli kağızlara investisiyalar anlayışı kÖk salmışdır. Bu kimi söz birləşmələrinin iqtisadi məzmunu yoxdur, çünki qiymətli kağızlar özü-özlüyündə kapital deyil, onlar əmtəə və xidmətlər istehsalında bilavasitə iştirak etmirlər. Qiymətli kağızlar yalnız kapitala mülkiyyətin özünəməxsus «titulu»dur, bu da K.Marksa onları fiktiv kapital adlandırmağa əsas vermişdi. «Qiymətli kağızlara investisiyalar ifadəsi iqtisadi cəhətdən nə qədər mənasız olsa da, onun geniş yayılmasından çıxış edən iqtisadçılar «maliyyə investisiyaları* məfhumunu yaratmışlar. Maliyyə investisiyaları vəsaitlərin səhmlərə, istiqrazlara, müxtəlif növ sertifikatlara, bonlara və s. qoyulmasını bildirir. Maliyyə investisiyalarını real investisiyalardan fərqləndirmək lazımdır: sonuncular ya yeni kapitalın yaradılmasını, ya da mövcud kapitala xalis əlavələri nəzərdə tutur.**

**İnvestisiyaların növləri müxtəlif meyarlar üzrə fərqləndirilirlər ki, bunlar arasında da ən mühümləri kapitalın qoyuluş istiqaməti, reallaşdırma forması, riskin dərəcəsi, investisiya tsiklinin müddətidir (səh, 429-dakı şəklə bax).**

**Firmanın investisiya aktivliyini investisiyaların dinamikasından görmək olar.**

**Firmanın investisiya cəlbediciliyi xərcini ödəmə müddəti ilə səciyyələndirilə bilər:**

$$\textit{Xərcini ödəmə müddəti} \sim \frac{\textit{Zəruri investisiyalar}}{\textit{illik amortizasiya+illik mənfəət}}$$

**Bütün fəaliyyəti müddətində sahibkar həcmi, xarakteri və mənbələri fəaliyyət dövründən asılı olan investisiyalar qoymalı olur.**

**Sahibkar biznesi təşkil etmək üçün onun ilkin mərhələsində ilkin kapital qoyuluşu etmək lazım gəlir. İlkin kapitaldan və istehsalın ilkin mərhələsində cari xərclərdən ibarət olan start kapitalı fərqləndirilir. İlkin start kapitalı müəssisənin qeydiyyata alınmasına, bank hesabının açılmasına, binanın və ya onun icarə hüququnun alınmasına, maşınlar, avadanlıqlar, cihazlar, patentlər, lisenziyaların alınmasına xərclənir.**

**Cari xərclərə xammal və materialların alınması, icarə haqqı, əmək haqqı, sosial fondlara ayırmalar və s. daxildir.**

**İnvestisiyaların təhlili zamanı onların maliyyələşdirmə mənbəyi məsələsi ortaya çıxır. Kapital həcminin artırılması birinci növbədə özünümaliyyələşdirmə, yəni müəssisənin öz vəsaitləri (mənfəətlər, amortizasiya fondu) hesabına əldə olunur, özünümaliyyələşdirmə bütün investisiyaların orta hesabla 60-70% təşkil edir, öz vəsaitlərindən başqa borc götürülmüş vəsaitlər də cəlb oluna bilər. Bu zaman bank, dövlət, xarici kreditlər böyük rol oynayırlar. İnvestisiya üçün vəsaitin bir qismi səhmlər və istiqrazlar buraxılması hesabına əldə oluna bilər.**

## *§2. Müəssisənin investisiya resurslarının hərəkəti: kapitalın dövranı*

**Kapitalın istehsalı təşkil etmək və investisiyalar qoymaq üçün zəruri olan elementlərinə əsaslı və ya investisiya resurslan (əmtəələri) deyilir. Sahibkar investisiya resurslarını istehsal amilləri bazarından alır.**

**Sovet və Rusiya iqtisadi ədəbiyyatında investisiya resurslarına çox vaxt müəssisənin istehsal fondları deyilirdi. K.Marksın «Kapital»mda istehsal fondları sənaye kapitalının mövcudluq və hərəkət forması kimi təhlil olunur.**

**Bütün iqtisadi məktəblər vurğulayırlar ki, kapital hərəkətsiz mümkün deyil, bu hərəkət özünəməxsus tsiklik xarakter daşıyır, bu hərəkətin mənası və məqsədi özü-özünə artma, yəni mənfəət gətirməkdədir. Kapitalın hərəkətinin ən dolğun və ardıcıl təhlilini K.Marks vermişdir.**

**öz hərəkətini kapital iki sahədə - istehsalda və tədavüldə - həyata keçirir və üç mərhələdən ibarət olur:**

*l mərhəh* *İV*

*tQ*

*II marhalə „JP,„*

*III markala ^Ə' -F*

**Burada P - pul vəsaitləri;**

**Ə ■ əmtəə;**

**İY - istehsal vasitələri;**

**İQ - iş qüvvəsi;**

**...İP...- istehsal prosesi;**

**Ə' - ticarət məhsulu;**

**P' - məhsul satışından əldə olunan pul.**

**Mərhələlərin hər birini diqqətlə nəzərdən keçirək. İstənilən sənaye kapitalının hərəkəti mütləq pul formasından başlayır: pul kapital elementlərini və iş qüvvəsini almaq üçün zəruridir, özü də bu zaman pullar tam xərclənmir, avans edilir. Yəni sahibkar gözləyir ki, investisiya məbləğini özünə qaytaracaq və müəyyən qədər mənfəət əldə edəcək. Kapitalın hərəkəti tədavül sahəsində baş verir, amma bu zaman əmtəə istehsalı şəraitinin və avanslaşdırılmış dəyərin artma şərtlərinin əsası qoyulur. Birinci mərhələnin sonunda pul kapitalın məhsuldar kapitalın elementlərinə çevrilir.**

**İkinci mərhələ istehsal sahəsində baş verir. Burada istehsal vasitələri və muzdlu iş qüvvəsinin birləşməsi baş verir.**




**İnvestisiyanın növləri**

**Kapitalın məhsuldar formasının funksiyası istifadə olunan istehsal amillərinin dəyərindən artıq dəyərə malik əmtəə kütləsi yaratmaqdır.**

**Dövranın ikinci mərhələsindən üçüncü mərhələsinə keçəndə kapital məhsuldar formasından əmtəə formasına çevrilir. Üçüncü mərhələ əmtəə məhsulunun satışı ilə bağlıdır və tədavül sahəsində gedir.**

**Özü də nəticədə kapital yenidən ilkin pul formasına qayıdır, lakin onun həcmi avans edilmiş məbləğlə müqayisədə artmış olur. Kapitalın əmtəə formasının funksiyası yalnız**

**əmtəənin satışında deyil, onlardala dəyərin qaytarılması və gözlənilən mənfəətin əldə olunmasındadır.**

**Kapitalın hərəkəti funksional formaların üç hərəkət mərhələsinə müvafiq olan pul, məhsuldar və əmtəənin ardıcıl növbələşməsi ilə müşayiət olunur. Bu zaman üçüncü mərhələnin sonunda sənaye kapitalı öz ilkin natural formasına qayıdır, yəni hərəkət spesifik dövran şəkli alır:**

**Kapital dövriyyəsi ilkin avanslaşdırılmış dəyərin artırılması məqsədilə investisiya resurslarını onların natural və dəyər formalarında əhatələyir.**

*yİV*

*P-Ə<,*

**Kapital dövranının təhlili sənaye kapitalının tərifini konkretləşdirməyə imkan verir.**

**Sənaye kapitalı dövriyyənin gedişində ardıcıl olaraq üç funksional formanı dəyişən və bu formalara müvafiq funksiyaları yerinə yetirən kapitaldar.**

**Hərəkətdə fasilələrə yol verməmək üçün sahibkar kapitalın bir qismini daim pul ehtiyyatı şəklində, ikinci qismini bazarda satış mərhələsini keçən əmtəə məhsulu şəklində saxlamalıdır. Buna görə də sənaye kapitalı yalnız ardıcıl olaraq funksional formalarını dəyişmir, həm də eyni zamanda hər üç formada mövcud olur. Bu zaman hər üç kapital forması öz dövriyyəsini edir ki, bunu da aşağıdakı düsturlar şəklində göstərmək olar:**

**-*P* (kapitalın pu) funksional formasında dövranı)**

*,rv*

**...Ə' -P' " ^ ^ *:.tP"* (kapitalın rashsuldar funksional formasında dövranı)**

*ytv*

***Ə' -P ~*** **(kapitalın amtaa funksional formasında dövranı)**

## ^3. *Kapital dövriyp98İ. Əsas və dövriyyə kapitalı*

**Sahibkar investisiya qoyuluşunu və kapitalın istehsala tətbiqini bir dəfə mənfəət əldə etmək üçün deyil, kapital dəyərinin fasiləsiz artırılması məqsədilə həyata keçirir. Bu istehsal fondlarının özünün hərəkət formasının - dövranı formasının nəticəsində mümkün olur. Kapitalın dövranı başladığı həmin natural formada başa çatır və deməli, onu hey təkrarlamaq mümkündür.**

**Fasiləsiz davam edən kimi nəzərdən keçirilən sənaye kapitalının (istehsal fondlarının) dövranı onun dövriyyəsini təşkil edir. Kapitalın dövriyyəsi avanslaşdırılmış kapitalın dəyərə görə artmasını və ilkin natural formada geri qayıtmasını nəzərdə tutur.**

**Bu prosesin baş verdiyi zaman kəsiyi kapitalın dövriyyə vaxtı adlanır.**

**Dövriyyə müddəti kapital qoyulmuş sahənin xüsusiyyətindən asılıdır. Ağır sənayedə kapital bir qayda olaraq yüngül sənayeyə nisbətən ləng dÖvr edir. Sahibkarların heç biri kapitalın nə qədər tez dövr etməsinə laqeyd deyil. Dövriyyə vaxtını azaltmaq üçün boş dayanma hallarını aradan qaldırmağa imkan verən istehsalın səmərəli təşkili istiqamətində tədbirlər görülür. Taxtamn qurudulması, məmulatın rənglənməsi və qurudulması, kimyəvi reaksiyalarm həyata keçirilməsi və s. kimi istehsal proseslərini sürətləndirməyə imkan verən texnoloji yeniliklər böyük rol oynayır. Dövriyyə vaxtının azaldılması həmçinin maddi-texniki təminatın operativliyindən, məhsulun daşınma və bazarda satılma sürətindən asılıdır.**

**Kapitalın dövriyyə müddətini hər hansı şərti qəbul edilmiş vahidlə, məsələn, illə müqayisə etsək, kapitalın il ərzində etdiyi dövrlərin sayı barədə müəyyən təsəvvür əldə etmək olar. Bu göstərici kapitalın dövriyyə sürətini səciyyələndirəcək. Məsələn, kapitalın dövriyyə müddəti 4 ay olarsa, dövriyyə sürəti ildə 3 dövr olacaq.**

**İstehsal fondlarının müxtəlif elementləri eyni sürətlə**

**dövr etmir. Bu baxımdan məhsuldar kapitalı əsas və dövriyyə kapitallarına (əsas və dövriyyə fondları) bölürlər.**

***Əsas kapital.*** **Əsas kapitalın maddi-əşyavi daşıyıcıları bir qayda olaraq əmək vasitələri; istehsalat binaları, maşınlar, avadanlıqlardır. Əmək vasitələri bütövlüklə istehsal prosesində iştirak edirlər, lakin onların dəyərləri məhsul üzərinə hissə-hissə, aşındıqca keçir. Əsas kapitalın dövriyyəsinin xüsusiyyətləri bununla müəyyənləşir. Dövretmənin gedişində sanki onlann dəyərinin bölünməsi baş verir. Məhsul üzərinə keçmiş bir həssə dövriyyə prosesinə girir, dövriyyəni başa vurur və əmtəə satıldıqdan sonra pul şəklində sahibkara qayıdır. Bu hissə toplanaraq əsas kapitalın əvəzlənməsi fondunu və ya amortizasiya fondunu təşkil edir.**

**Digər hissə istehsal prosesində fəaliyyətini davam etdirən əmək vasitələrinin qalıq dəyəri formasında mövcuddur. Aşındıqca və amortizasiya olduqca qalıq dəyər azalır, əvəzləmə fondu isə artır. Əsas kapitalın dövriyyəsi onun dəyərinin bütün hissələri öz dövretmələrini başa vurub sahibkara pul formasında qayıtdıqda başa çatdıracaq və bu da sahibkara köhnəlib sıradan çıxmışlann yerinə yeni avadanlıq almağa, yeni zavod tikməyə imkan verəcək. Başqa sözlə, kapitalın bütün hissələri öz ilkin natural formalarına qayıdacaq və dəyərinə görə tam dövriyyəsini başa çatdıracaqlar.**

**ETİ şəraitində kəskinləşmiş rəqabət sahibkarları əsas fondları onlann fiziki aşınma müddəti başa çatmazdan əvvəl yeniləşdirməyə məcbur edir. Avadanlığın artan mənəvi aşınma təhlükəsi sürətləndirilmiş amortizasiya praktikasının yayılmasını şərtləndirmişdir ki, bu da 3-5 ilə əsas kapitalın əvəzlənmə fondunu formalaşdırmağa imkan verir. Bu amortizasiya fonduna yalnız əsas kapitalın dəyərinin fiziki aşınma ilə bağlı məhsula real olaraq əlavə olunan bir hissəsinin deyil, həm də mənfəətin bir qisminin də əlavə olunması nəticəsində mümkün olur. Bu kimi təcrübə mənfəətin vergi qoyulan məbləğini azaltmağa, əsas kapitalın mənəvi aşınması və qiymətdən düşməsi təhlükəsindən qaçmağa, istehsalın**

**sonrakı inkişafı və yeniləşdirilməsi üçün zəruri əhəmiyyətli özünümalİ3ryələşdirmə resursları yaratmağa imkan verir. Bir çox ölkələrdə sürətləndirilmiş amortizasiya əsas istehsal fondlarının yeniləşdirilməsi məqsədilə dövlət tərəfindən həvəsləndirilir.**

**XX əsrin 90-cı illərində əsas fondlann intensiv köhnəlməsi müşahidə olunurdu. Sənayedə əsas fondlann aşınma əmsalı (onların ümumi dəyərinin faizilə) 80-ci illərdəki 36%-dən 1995-ci ildə 48,5% -ə qədər artdı. Bir çox sahələrdə 1996- cı ildə aşınma əmsalı daha yüksək idi: neftçıxarma sənayesində**

**- 61%, kimya və neft-kimya - 59,7%, yanacaq sənayesində**

**- 52,6%. Sənayedə istehsal avadanlığının orta yaşı 1970-ci ildə 8,42 il, 1996-cı ildə isə artıq 14,9 il olmuşdu. 1970-ci ildə avadanlığın 30%-inin orta yaşı 10 ildən çox olduğu halda, 1996-cı ildə 64,3% olmuşdu. Yaşı 5 ildən az olan avadanlığa gəldikdə isə 1996-cı ildə onun payı cəmi 8,7% idi, halbuki 1970-ci ildə onun payı 40,8% təşkil edirdi.**

**Əsas fondların təzələnmə əmsalı (yeni istifadəyə verilən fondların əsas fondların ümumi dəyərinə faiz nisbəti) 1990- cı ildəki 6,0%-dən 1996-cı ildə 1,5%-ə enmişdi. Sıradan çıxma əmsalı da (ləğv olunan əsas fondların onların ümumi dəyərinə faiz nisbəti) 1996-cı ildə 1,5% təşkil etmişdi. Bu isə o deməkdir ki, yeni fondlar hesabına ölkənin əsas fondları güclə əvvəlki səviyyədə saxlanılırdı^.**

***Dövriyya kapitalı.* Dövriyyə kapitalının maddi-əşyavi daşıyıcıları istehsal prosesində fəaliyyət göstərən əmək cisimləri (xammal, materiallar, yanacaq) və iş qüvvəsidir.**

**Əmək cisimləri bir istehsal tsiklinin gedişində öz natural formaları üzrə tam sərf olunur və öz dəyərlərini tam şəkildə hazır məhsul üzərinə keçirirlər. Məhsul satılandan sonra əmək cisimlərinin dəyəri kapitalın hər dövriyyəsində pul şəklində sahibkara qayıdır. Sonra növbəti istehsal tsiklini təmin etmək üçün əmək cisimlərinin natural forma üzrə ödənilməsi baş verir. Bir dövriyyə prosesində tam işlədilən az-**

**PoccHäcKHä CTaTBCTHHecKHH eHcerOAHHK, 1997. M.: 1998. C.339,340.**

**qiymətli əmək vasitələri (kiçik alətlər) də eyni cür dövr edirlər. Əmək vasitələrinin belə elementləri də dövriyyə kapitalına aid edilə bilərlər.**

**İş qüvvəsi istehsal prosesində öz dəyərini məhsula nə o saat, nə də tədricən keçirmir. O, yeni dəyər yaradır. Lakin dövr etməsinə görə dəyişən kapital dövriyyə kapitalından fərqlənmir. Bir istehsal tsiklinin gedişində təkrar istehsal edilmiş iş qüvvəsi dəyəri əmtəə satılandan sonra pul şəklində sahibkara qayıdır və növbəti istehsal tsiklində iş qüvvəsinin muzdla alınması üçün istifadə oluna bilər.**

**Qeyd etmək lazımdır ki, məhsuldar kapitala; həm əsas, həm də dövriyyə kapitalına yalnız istehsal prosesində real iştirak edən maddi ünsürləri və iş qüvvəsi aiddir. Materialın, komplektləşdirici məmulatların, avadanlığın alınıb ehtiyatda saxlanılması kimi hadisə təsərrüfatın səmərəli aparılması təcrübəsi ilə bir araya sığmır və kapitalın təsərrüfat fəaliyyətindən çıxarılmasına, onun dövr etmə sürətinin azaldılmasına apanr. Gününə və saatına qədər dəqiqliklə çatdırmaya təminat verən müqavilə əlaqələrinin yayılması müasir müəssisəyə işi minimum xammal və material ehtiyyatı ilə «təkər üstə* qurmağa imkan verir.**

**Kapitalın istehlakı prosesini və ondan istifadənin səmərəliliyini aşağıdakı göstəricilərin hesablanması yolu ilə rəqəmlərlə səciyyələndirmək olar (səh, 435-dəki cədvələ bax).**

### *§4. Diskontlaşdırma mvestisiya layihalərinin qiymatlandirUmasi metodu kimi*

**İnvestisiya qoyuluşlarında müxtəlif vaxtlarda ortaya çıxan xərcləri və gəlirləri (qazancları) müqayisə etmək lazımdır. Layihənin həyata keçirilməsinə xərclər müəyyən vaxt aparır, gəlirlər isə, adətən xərclər həyata keçirildikdən sonra meydana gəlir. Buna görə də zaman kəsiyində pulun dəyəri anlayışından söhbət açılır. Bu o deməkdir ki, əvvəlcədən xərclənmiş rubl, sonradan xərclənmiş rubldan bahadır.**

**Pulun cari və gələcək qiymətini ölçmək üçün tətbiq olunan texniki üsul diskontlaşdırma adlanır,**

**Diskontlaşdırma mürəkkəb faizlərin hesablanmasının əks prosesidir.**

**Gələcək dəyəri hesablamanı apardığımız illərin sayı qədər dəfəyə (1+faiz dərəcəsi) bölməklə cari dəyəri tapırıq:**

## Göstəricilərin hesablanması

| Göstəricilər | Hesablamaq üçün düsturlar |
|---|---|
| tliik amortiziasiya | A. = - Əsas kapital / Xidmət müddəti |
| Amortizasiya norması | N =■ Əsas kapital X 1007o |
| Amortizasiya fondu | F =A X t, burada t- faktik xidmət müddətidir |
| Kapital verimi (fond verimi) | K = İllik məhsul / Əsas kapital + Dövriyyə kapitalı |
| Əməyin kapitalla təminat lığı | K = Əsas kapital / Əmək resurslarının miqdarı K |
| Kapitalın son hədd məhsulu natural ifadədə | AP<br>Burada AP - məhsulun natural İfadədə artımıdır;<br>AK — fiziki ifadədə kapital vahidinin artımıdır |
| Hədd məhsulu pulla ifadədə | ATP<br>Burada ATP = AP x hazır məhsul vahidinin qiyməti |

$$PV = - \frac{FV}{(I \wedge R)^N}$$

**Burada PV - cari dəyər;**

**FV - gələcək dəyər;**

**R - faiz dərəcəsi;**

**N - illərin sayıdır.**

**Diskontlaşdırma faiz dərəcəsindən istifadəyə əsaslanır. Maliyyə təhlili zamanı diakont dərəcəsi kimi (diskontlaşdır- ma üçün faiz dərəcəsi) firmanın borca maliyyə vəsaiti ala biləcəyi tipik faiz götürülür.**

**istənilən əsaslı əmtəənin (dəzgahın) ilkin dəyərinin dis- kontlaşdırılmasının necə müəyyənləşdirildiyini konkret misalda nəzərdən keçirək. Deyək ki, sahibkar dəzgah alıb ondan üç il istifadə edərək 6500 dollar gəlir əldə etmək istəyir; özü də gəlir belə bölünür: birinci istismar ili - 1500 dollar, ikinci il - 3000 dollar, üçüncü il isə - 2000 dol-lar. Məlumdur ki, faiz dərəcəsi 8% -dir. Bu halda diskontlaşdırıl- mış dəyər belə olacaq:**

**PV=1500/(1+0,08)-H[3000/(1-FO,08)]2 +[2000/(1+O,08)p = 5540,3 dollar.**

**Bu O deməkdir ki, sahibkar dəzgaha 5540,3 dollar verməlidir ki, üç 11 ondan istifadə etdikdən sonra 6500 dollar gəlir əldə etsin.**

**Beləliklə, diskontlaşdırma gələcək gəlirlərin cari (bugünkü) dəyərini müəyyənləşdirmək məqsədilə gəlir (mənfəət) və xərc axınlarının diskont dərəcəsi əsasında bir araya gətirilməsidir.**

**Diskontlaşdınimış dəyərin müəyyənləşdirilməsi sahibkarın investisiya qərarları qəbul etməsi üçün böyük əhəmiyyət kəsb edir.**

**İnvestisiya onlarla bağlı gözlənilən gəlirlər xərclərdən yüksək olduğu təqdirdə zəruridir.**

**Dünya təcrübəsi göstərir ki, iqtisadiyyatın böhrandan çıxarılması yalnız investisiyalar əsasında mümkündür. İnvestisiya fəallığı birinci növbədə həm kapital qoyuluşunun artırılması, həm də qoyulan vəsaitin veriminin sürətləndirilməsi və səmərəliliyin artırılması imkanı geniş olan işləyən müəssisələrdə artmalıdır.**

# XVI FƏSIL. ALTERNATİV FİRMA NƏZƏRİYYƏLƏRİ

*§1. Ənənəvi firma nəzəriyyəsi: mənfəətin maksimallaşdınİTnast.*
*§2. Menecerini firma nəzəriyyəsi: satışdan gəlirin maksimallaşdırtlması.*
*§3. Artımın maksimallaşdıniması nəzəriyyəsi,*
*§4. Firmanın davranış nəzəriyyələri: məqsədlərin çoxluğu nəzəriyyələri,*

## *§1. Ənənəvi firma nəzəriyyəsi: mənfəətin maksimallaşdıniması*

**Ənənəvi nəzəriyyə firmanın davranışını mənfəətin maksimallaşdınlmasına can atmaqla izah edir. Bu nəzəriyyə iki ehtimala əsaslanır:**

**■ mülkiyyətçilər hər gün əməliyyat nəzarətini və firmanın işlərini idarə etməni həyata keçirirlər;**

**■ onlann yeganə istəyi - mənfəəti maksimallaşdırmaqdır.**

**Nəzəriyyə mənfəətin maksimallaşdıniması tezisini son hədd xərclərinin və son hədd gəlirinin bərabərliyi şəraitində əsaslandırır: MC=MR.**

**Amma təcrübədə bu nəzəriyyə bir sıra çətinliklərlə qarşılaşır. Birincisi, firma öz fəaliyyətini qiymətləndirmək və ya proqnozlaşdırmaq üçün marjinal təhlildən istifadə etmir. Həqiqətən də son hədd xərclərinin və xüsusilə də son hədd gəlirinin hesablanması xeyli çətindir və firmanın məhsuluna real tələb əyrisini, həmin tələbin qiymət və gəlirə görə elastikliyini bilməməklə mürəkkəbləşir. Bir çox iri firmaların bahalı bazar tədqiqatları təşkil etməsinə baxmayaraq alınmış informasiyanı 100% səhih və qənaətbəxş hesab etmək olmaz. Gələcək gəlir və xərclərin qiymətləndirilməsi də belə çətindir. Və nəhayət, digər firmaların hərəkətləri və əfcs-tədbir- lərini öncədən bilmək və onların fəallıqlarının nəticələrini qiymətləndirmək praktik olaraq mümkün deyil.**

**Belə bir məsələyə də diqqət yetirmək lazımdır: müasir bazar iqtisadiyyatında mülkiyyət hüququnun idarəetmə hü**

**ququndan əsaslı şəkildə ayrılması müşahidə olunur və kiçik, təkbaşına sahibkarlıq istisna olmaqla, mülkiyyətçilər operativ idarəetmə ilə məşğul olmur, bu məqsədlə peşəkar menecerləri cəlb edirlər.**

**Bütün bu faktlar bəzi "Ekonomiks" dərsliklərində verilən ənənəvi firma nəzəriyyəsinin səmərəliliyi haqqında lətifənin yaranmasına səbəb olmuşdur: "Avtomobilin sürücüsü arabir pəncərədən çölə balaca kağız parçaları atır. Dostu onun nə üçün belə etdiyini soruşur.**

**- Filləri qorxuduram,- o cavab verir.**

**- Axı burada fil yoxdur,- dostu təəccüblənir,**

**- Bax görürsən bu necə gözəl təsir edir!- sürücü qürurla deyib növbəti kağızı pəncərədən çölə atır".**

**Zarafat öz yerində, amma ənənəvi nəzəriyyə problemə kifayət qədər aydınlıq gətirmədiyindəndir ki, bir çox iqtisadçılar firmanın davranışını tamamilə başqa verilənlərlə və başqa məqsəd yönümləri ilə izah edən alternativ nəzəriyyələr irəli sürmüşlər.**

### *§2, Menecerial firma nəzəriyyəsi: satışdan gəlirin maksimallaşdırılması*

**Bu konsepsiya aşağıdakı ilkin şərtlərdən çıxış edir:**

**▪ operativ idarəetməni mülkiyyətçilər deyil, peşəkar menecerlər həyata keçirirlər;**

**▪ menecerin məqsədi satışın həcmini və bunun nəticəsində daxil olan gəliri maksimallaşdırmaqdır.**

**Bu ilkin şərtlərin real əsası var, çünki müasir dövrdə mülkiyyətin səhmdar forması üstünlük təşkil etdiyindən səhm sahibləri öz idarəetmə hüquqlarını peşəkarlara verərək formal olaraq mülkiyyətçidirlər. Əlbəttə, söhbət səhmlərin əsas paketinə sahib olan və firma fəalijryəti üzərində strateji nəzarəti özlərində saxlayan azsaylı mülkiyyətçilər zümrəsindən deyil, bəzən şirkətin işindən çox uzaq (sözün həm hərfi, həm də məcazi mənasında) olan milyonlarla kiçik, orta və**

**hətta iri səhmdarlardan gedir.**

**İkinci ilkin şərtə gəldikdə isə, onun da real əsası var. Bu konsepsiyanın müəlliflərindən biri U.C.Baumol 1959-cu ildə qeyd edirdi ki, menecerlərin həqiqətən də satış həcminin maksimallaşdırılmasında maraqlı olmalarının bir neçə səbəbi var. Bu birinci növbədə menecerlərin aldıqları məvacib, bütün əlavə güzəştlər və ödənişlərin bilavasitə satış pulundan asılı olması ilə izah olunur. Menecerial konsepsiyanı inkişaf etdirən Uilyamson 1963-cü ildə əlavə əsas kimi göstərdi ki, satış pulunun artması ştatı genişləndirməyə, yeni layihələri həyata keçirməyə imkan verir. Bu da öz növbəsində menecerin statusunu qaldırır: onun tabeçiliyində daha çox adam işləyir, Xidməti iyerarxiyada onun rütbəsi qalxır.**

**Şəkil 16.1-dəki qrafik gəlirin maksimallaşdınlması şəraitində firmanın məhsul istehsalı həcmi ilə ticarətdə satış pulunun maksimallaşdınlması arasında mümkün fərqin dərəcəsini göstərir. Sonuncu halda istehsal və satış həcmi Qs -ci vahidin satışından gələn son hədd gəliri sıfra bərabər oluncaya qədər artmaqda davam edəcək. Bu o deməkdir ki, məcmu gəliri daha arta bilməz və deməli, o maksimuma çatmışdır. Gəlirin maksimallaşdınlması zamanı istehsal həcmi Qp səviyyəsində müəyyənləşir, çünki məcmu gəlir ilə məcmu xərclər arasında ən böyük fərq məhz bu nöqtədə əldə olunmuşdur, yəni mənfəət maksimuma çatmışdır.**

**Asanlıqla görmək olar ki, ticarətdə satış pulunun maksimallaşması zamanı firmanın mənfəəti mənfəətin maksimallaşması variantı ilə müqayisədə azalmış olur. Bu hal adətən səhmdarların narazılığına səbəb olur və onlar menecerlər üçün minimum mənfəət səviyyəsini müəyyənləşdirə bilərlər. Əgər mənfəət azaldılması məhdudlaşdırıcısı PR səviyyəsində müəyyənləşdirilmişdirsə, menecerlər satış həcmini mənfəətin yol verilən həddən aşağı düşmə təhlükəsi olan həddə qədər artıracaqlar. Yeni satış həcmi PR döz xəttinin TPR məcmu gəlir əytisi ilə kəsişmə nöqtəsinə müvafiq olan Qg' səviyyəsində müəyyənləşəcək.**




**Şəkil 16.1. Mənfəətin və satışdan əldə olunan pulun maksimallaşdınlması zamanı məhsul buraxılışının həcmində mümkün kənarlaşmaların dərəcəsi**

**İngilis iqtisadçısı Şiplinin 1981-ci ildə apardığı sosioloji tədqiqatlar göstərir ki, praktik olaraq Britaniya firmalarının yarısı satışın maksimallaşdırılmasını qarşılarında duran ən mühüm məsələlərdən biri hesab edirlər. İri şirkətlər bu məsələyə kiçiklərdən daha çox diqqət yetirirlər: 3000 nəfərdən çox işçisi olan şirkətlərdən yeddidə biri satışın maksimallaşdırılmasını özlərinin əsas məqsədi hesab etdiyi halda, bütün şirkətlər arasında on dördündən biri bunu əsas məqsəd hesab edir.**

**ABŞ-ın Strateji Planlaşdırma İnstitutunun (1974) apardığı tədqiqatların nəticələri göstərmişdir ki, qısamüddətli dövrdə firmalar satış həcmini, uzunmüddətli dövrdə isə mənfəəti maksimallaşdırmağa üstünlük verirlər.**

### *§3. Artımm maksimallaşdınlması nəzəriyyəsi*

**Bəzi iqtisadçılar, o cümlədən Marris (1964), hesab edirlər ki, mülkiyyətçilərin və menecerlərin ümumi məqsədi var, bu da firmanın böyüdülməsinin maksimallaşdınlmasıdır. Menecerlər öz şəxsi statusları və əmək haqlarının artması üçün**

**buna can atırlar. Müəssisənin mülkiyyətçiləri isə varlanmaq məqsədilə onun aktivlərinin artmasına cəhd edirlər. Marris həm də qeyd edir ki, menecerlər həmişə sadəcə böyük firma-dansa böyüməkdə olan firmanı üstün bilirlər.**

**Marrisin nəzəriyəsinin canı bölünməmiş mənfəət norması adlanan göstəricidir. Şirkətin bütün mənfəəti iki hissəyə bölünür: bir hissə səhmlər üzrə dividentlər şəklində ödənilir, digəri isə bölünməmiş qalır və istehsalın inkişaf fondunu əmələ gətirir. Mənfəətin bölünməmiş hissəsinin bölünmüş hissəsinə nisbəti bölünməmiş mənfəət normasını və ya mənfəətin saxlanılması normasını əmələ gətirir.**

**Menecerlər mənfəətin əksər hissəsini dividentlər kimi bölüşdürsələr səhmdarlar çox razı qalarlar, bazar kursu isə artmağa başlayar. Yüksək bazar kursu onun səhmlərinin rəqiblər tərəfindən almmasının və rəqiblərin onlan ələ keçirməsinin qarşısım alar. Bununla yanaşı, aşağı yığım norması istehsalın inkişafına və firmamn böyüməsinə imkan verməyəcək.**

**Başqa vəziyyət də mümkündür. Menecerlər mənfəətin əsas hissəsini bölünməmiş saxlayırlar ki, bu da istehsal və firmamn böyüməsi üçün yaxşıdır. Lakin səhmdarlar dividentlərin azlığından narazıdırlar, səhmləri satmağa başlaya bilərlər və onların kursu aşağı düşməyə başlayar. Firmanın rəqiblər tərəfindən ələ keçirilməsi təhlükəsi yaranar, çünki səhmlərin kursu aşağı olanda onları almaq asanlaşır.**

**Beləliklə, mənfəətin iki hissəyə bölünməsi və mənfəətin saxlanılması normasının müəyyənləşdirilməsi asan iş deyil və bir sıra çətinliklər və ziddiyyətlərlə bağlıdır. Bu problemin həllində adətən «tarazlaşdırılmış artım* prinsipini əldə rəhbər tuturlar, yəni firma kapitalının artım sürəti və onun satış həcmi mənfəəti saxlama normasından çıxış edərək və deməli, mənfəətin orta səviyyəsinə yönümlənərək müəyyənləşdirirlər (şəkil 16.2). Aydındır ki, firmanın kapitalı və satış həcmi artdıqda faydalılığın azalması qanununun fəaliyyəti nəticəsində (bu halda əlavə investisiyalardan gəlirlilik) orta mənfəətin səvivvəsinin asağı düsməsi bas verir.**




**Şəkil 16.2. Orta mənfəət səviyyəsi**

**Hər bir konkret halda firma gəlirlilik və artımın tələb olunan kombinasiyasını seçir.**

**Fəaliyyətdə olmaq üçün firma böyüməli, satış həcmini artırmalıdır. Bunun üçün o istehsal gücünü artırmalı və investisiyalar qoymalıdır. Bütün bunlar isə maliyyələşdirmə tələb edir. Bəs firmanın artımı necə baş verir?**

**Artımın birinci yolu firmanın daxili artımı, istehsal və kapitalın təmərküzləşməsi kimi səciyyələndirilə bilər. Firmanın daxili artımının mənbələri bunlardır:**

- **firmanın öz resursları, birinci növbədə mənfəətin bölünməmiş hissəsi, müəyyən qədər də amortizasiya fondu;**
- **banklardan və başqa maliyyə-kredit institutlarından alınan borclar;**
- **qiymətli kağızların əlavə emissiyasından gələn gəlir.**

**Firmanın daxili artımının müxtəlif mənbələrinin rolu və əhəmiyyəti eyni deyil və vəziyyətdən asılı olaraq dəyişir. Cədvəl 1970-ci ildən 1989-cu ilədək Britaniya firmalarının daxili artımının ayrı-ayrı mənbələrinin əhəmiyyəti və dinamikası barədə təsəvvür yaradır.**

**Britaniya firmalarının ayrı-ayrı daxili artım mənbələrinin dinamikası (faizlə)**

| 11 | öz vəsaitləri | Borc alınmış vəsaitlər | Səhmlərin emissiyasından gələn gətir |
|---|---|---|---|
| 1970 | 60,7 | 22,4 | 3,2 |
| 1975 | 73,5 | 7,1 | 8,8 |
| 1980 | 66,1 | 22,3 | 4,9 |
| 1982 | 62,1 | 26,9 | 4,7 |
| 1984 | 83,5 | 20,7 | 3,7 |
| 1986 | 58,5 | 21,6 | 12,5 |
| 1987 | 52,2 | 20,8 | 19,4 |
| 1988 | 45,1 | 41,2 | 7,1 |
| 1989 | 35,1 | 47,3 | 6,2 |

**Cədvəldən göründüyü kimi, daxili resursların payı 80-ci illərin ortalarına qədər mütəmadi artmış və o dövr üçün bütün maliyyələşdirmə mənbələrinin 83,5%-ni təşkil etnüşdi, lakin sonra kəskin şəkildə azalmış və 80-ci illərin axırında 35,1% olmuşdur. Borc götürülmüş vəsaitin payı isə, əksinə, həmin müddətdə iki dəfədən çox artmış və 47,3%-ə çatmışdı. Səhmlərin buraxılışından gələn gəlir isə heç vaxt daxili artımın diqqətəlayiq mənbələrindən olmamışdır. 1986-1987- ci illərdə bunun əhəmiyyəti kəskin surətdə artmış, lakin fond bazarındakı 1987-ci il oktyabr böhranından sonra 6,2%-ə enmişdi. (Diqqət etsək, görərik ki, daxili artımın bütün maliyyələşdirmə mənbələrindən olan məbləğlərin cəmi hər il üçün 100%-ə bərabər deyil. Bu onunla izah olunur ki. Böyük Britaniyada ənənəvi olaraq «kənar», «zahiri» maliyyələşdirmə mənbələri böyük əhəmiyyət kəsb etmişdir ki, çatışmayan faizlər də onların payına düşür).**

**Firmanın ikinci artım yolu qovuşma və ya udma ilə əlaqədar istehsal və kapitalın mərkəzləşdirilməsi ilə bağlıdır. Təcrübə göstərir ki, bu çox geniş yayılmış üsuldur, o, firma aktivlərinin artımının 50% və bütün sənaye təmərküzləşməsinin 60%-ə qədərini təmin edir. Qovuşma və**

**kası qeyri-bərabərdir: qovuşmaların kəskin çoxalma və sonradan səngimə dövrləri müşahidə olunur. Sonuncu qovuşmalar dalğası 80-ci illərin sonuna təsadüf etmişdi ki, elə bu da firmaların artımında öz mənbələrinin payının azalmasını şərtləndirmişdi. 1984-1989-cu illərin hay-küylü qovuşmalar artımının 1968 və 1972-ci illərin artımından əsas fərqi ondan ibarət idi ki, qovuşan firmaların sayına nisbətdə bununla bağlı xərclər çox yüksək olmuşdu: əsasən olduqca böyük firmalar qovuşurdular.**

**Qovuşma udmadan formal olaraq fərqlənir, lakin əslində onları fərqləndirmək çox da asan olmur.**

**Qovuşma iki şirkətin rəhbərliyinin birləşmək barədə qarşılıqlı razılaşması deməkdir. Qovuşmanın adi mexanizmi qovuşan şirkətlərin səhmlərinin yeni vahid formalı səhmlərlə əvəz olunmasından ibarətdir. Birgə müəssisənin adı çox vaxt özündən əvvəlki firmaların adlarını əks etdirir. Qovuşma üçün adətən xüsusi maləyyələşdirmə fondu tələb olunmur.**

**Udma bir firma digərini alanda baş verir. A firmasının rəhbərliyi B firmasının səhmdarlarına onlardan səhmlərin nəzarət paketim almaq təklifi ilə müraciət edir. Təklif olunan qiymət adətən bazar qiymətindən xeyli yüksək olur. Udma əməliyyatı üçün udan firmaya səhmlərin nəzarət paketini ödəmək üçün xeyli böyük xüsusi fond lazımdır. Nəticədə udulmuş firma və onım adı müstəqil hüquqi şəxs kimi daha mövcud olmur.**

**Qovuşmanın (udma) bir neçə əsas növü olur: üfüqi inteqrasiya, şaquli inteqrasiya və konqlomerasiya.**

***Üfüqi* inteqrasiya eyni növ məhsul istehsal edən və ya müəyyən texnoloji prosesin eyni mərhələsini həyata keçirən firmaların birləşməsi zamanı müşahidə olunur. Üfüqi inteqrasiyanı istehsalın sahədaxili təmərküzləşməsi və mərkəzləş- məsi kimi səciyyələndirmək olar. Diyircəkli yastıq istehsal edən və ya tikiş maşınları buraxan firmaların birləşməsi və ya supermarket tərəfindən kiçik mağazaların udulması buna misal ola bilər. 60-cı illərdən hazırkı dövrədək**

üfüqi inteqrasiya növünə aid olmuşdur. Bu kimi qovuşmalar istehsal səviyyəsində və idarəetmə səviyyəsində miqyas hesabına qənaət verirlər.

*Şaquli* inteqrasiya müəyyən vahid texnoloji prosesin müxtəlif mərhələlərini həyata keçirən firmaların birləşməsi zamanı baş verir. Əslində bu, istehsalın sahələrarası təmərküzləşməsi və mərkəzləşməsidir. Buna misal neftçıxarma şirkətləri tərəfindən neft emalı, kimya zavodları, neft kəmərlərinin və tankerlərin, benzindoldurma məntəqələrinin və s. alınmasıdır. Başqa bir misal ticarət firması tərəfindən toxuculuq və tikiş müəssisələrinin alınmasıdır. Şaquli inteqrasiya xərcləri azaltmağa imkan verir, çünki məhsul bir təkrar istehsal mərhələsindən digərinə bazara çıxarılmadan keçir: firmanın bölmələri arasında hesablaşma bazar qiymətləri ilə deyil, daha aşağı olan transfer (köçürmə) qiymətləri ilə aparılır. Şaquli inteqrasiya bazar mövqelərini genişləndirməyə və bazar üzərində nəzarəti gücləndirməyə imkan verir. Amma bu növ qovuşmaların sayı cəmi 5% -dir.

*Konqlomerat* texnoloji prosesləri heç cür əlaqədar olmayan firmaların birləşməsi nəticəsində yaranır. Məsələn, ingilis-holland firması <ıYunilever»in ərzaq, kağız, kimya sənayesi, yuyucu vasitələrin istehsalı, nəqliyyat, ətir, heyvanlar üçün yemək hazırlanması, tropik plantasiya təsərrüfatı və s. sahələrində çoxsaylı müəssisələri var. Konqlomeratlar ya istehsalın diversifikasiyası, ya da «təsadüfən» başqalanmn firmalarının alınması yolu ilə yaranır.

Qovuşma və udma zamanı istehsalın diversifikasiyası kapitalı müxtəlif sahələrə paylaşdırmaqla riski azaltmaq, əvvəlki istehsal növlərinin qovuşuğunda yaranan yeni bazarları mənimsəmək; bazardakı ən kiçik boşluqları belə doldurmaq, eyni zamanda müxtəlif sahələrdə tətbiq etməklə elm və texnikanın nailiyyətlərindən maksimum səmərəli istifadə etmək (texnologiyanın çarpaz tozlandırılması adlandırılır) məqsədi güdür. Nəticədə şirkət tərəfindən alınmış firmalar firmanın ümumi quruluşunda özünə yer alaraq onunla vahid

**sistem əmələ gətirir və bu sistemin sabitliyi idarəetmənin səmərəliliyindən asılı olur. Belə birləşmələrin əsas təşkilat forması konserndir.**

**Konqlomeratlar möhtəkirlik məqsədilə yaradılanda, yəni fond bazarındakı qiymətlər müəssisələrin alqışı və ya satqısı zamanı qazanc təmin etdiyinə görə onlar qeyri-sabit olur, amorf xarakterli olur və tez dağılırlar. 60-cı illərdə konqlomerat tipli birləşmələrin kəskin artımı müşahidə olunurdu, lakin artıq 70- ci illərdə onların çoxu özünü doğrultmadı, «içi boş müqəvva» oldu və dağıldı. 90-cı illərin əvvəllərində yeni qovuşma və birləşmələrin 10% -ə qədərini konqlomerata aid etmək olar.**

**Son onilliyin əsas meyllərindən biri əks-təmərküzləşmə və əks-mərkəzləşmə olan proseslərdir. Sürətlə dəyişən bazar konyunkturası, daxili bazarlarda da beynəlxalq xarakter almış kəskinləşmiş rəqabət, dinamik yeniləşən texnologiyalar şəraitində firmanın mövcudluğu onun mütəhərrikliyindən, çevikliyindən, uyğunlaşa bilməsindən asılıdır. Buna isə istehsal və idarəetmənin əks-mərkəzləşdirilməsi yolu ilə nail olmaq daha asandır. Bununla bağlı iri firmaların hər biri müstəqil hüquqi şəxsə çevrilən və səhmlərini fond birjasında müstəqil qeyd etdirən daha kiçik tərkib hissələrinə parçalanması prosesi müşahidə olunur. Son illərin səciyyəvi xüsusiyyətlərindən biri firmanın ayrı-ayrı quruluş bölmələrinin onlann menecerləri tərəfindən alınmasıdır. Buna misal 1992-ci ildə Britaniya konserni «İmperial Kemikl İndastriz»in quruluşu tərkibindən yeni satış bazarlarının fəth edilməsi məqsədilə bir sıra bölmələrin ayrdmasımn elan edilməsi ola bilər. Müasir menecment keyfiyyət və çevikliyə üstünlük verir.**

### *§4, Firmanın davranış n^zariyyalari: maqsadlarin çoxluğu nazariyyalari*

**Nəzərdən keçirilən nəzəriyyələr firmaların maksimallaşan cəmi bir məqsədinin (mənfəət, satış həcmi, artım) olması fikrindən çıxış edirdilər. Başqa nəzəriyyələr - davranış nəzə**

**riyyələri firmanın çoxlu məqsədinin olmasından çıxış edirlər. Bu yanaşma şirkəti idarəetmə subyektlərinin iyerarxiyasına maraqlar və məqsədlər iyerarxiyasının müvafiq olduğu mürəkkəb sistem kimi nəzərdən keçirir. Bu məcmu özündə:**

**■ yüksək əmək haqqına, yaxşı iş şəraitinə, təhlükəsizlik texnikasına, məzmunlu əməyə, ixtisasın artırılmasına və peşəkarlıqda irəliləyişə can atan fəhlələrin;**

**■ hakimiyyətə, öz sosial statusunun yüksəldilməsinə, karyeraya, gəlirin çoxalmasına can atan menecerlərin;**

**■ yüksək dividentlər almaq istəyən səhmdarların;**

**■ şirkətin fəalİ3^ətinin iqtisadi göstəricilərini yaxşılaşdırmağa, firmanın nüfuzunu qaldırmağa çalışan firmanın yüksək rəhbərliyinin maraqlarını birləşdirir.**

**Firmanın vahid tam kimi mövcud olması, sabit və həyat qabiliyyətli orqanizm olması üçün yüksək rəhbərlik bu fərdi maraqları və firmanın strateji maraqlarını bacarıqla biri-birinə uyğunlaşdırmalıdır. Firmanın çiçəklənməsi rəhbərliyin maraqlar arasındakı ixtilafı aradan qaldırmaq, onların mübahisəsini ən zərərsiz üsullarla həll etmək, kollektivdə sabit sosial şəraiti saxlamaq bacarığından asılıdır.**

**Davranış nəzəriyyələri (bu istiqamət bixeviorizm adlanır) daha çox yapon firmalarında özünə yer almışdır. Yapon menecerlərinin şüan: «Uğurun rəhni firma işçilərinin yüksək mənəvi vəziyyətidir. Yüksək mənəvi vəziyyət işçinin məmnunluğu və maraqlı olmasının nəticəsidir. Maraqlı olan və məmnun qalan işçi yaxşı işçidir. Pis, yəni maraqlı olmayan və məmnun qalmayan işçiləri olan firma yaxşı firma ola bilməz. Rəhbərliyin qarşısında duran məsələ işçilərlə firmanın maraqlarını bir araya gətirməkdir^.**

**Davranış nəzəriyyələrinin çoxlu fərdi variantları var və bunlar şirkət daxilində xüsusi və ümumi maraqları uyğunlaşdırmağın yollarını göstərirlər. Onlann çoxu artıq kifayət qədər yoxlanılıb və yüksək nəticələr göstəriblər.**

**Məsləhət görülən üsullardan biri 1959-cu ildə X.A.Say-**

**monun təklif etdiyi razılaşma bacarığıdır. Bütün məqsədləri: mənfəət, satış həcmi, artım, əmək haqqı və s. eyni zamanda maksimallaşdırmaq mümkün deyil. Məqsəd yönümlərinin elə kombinasiyası seçilməlidir ki, o hər bir məqsəd üzrə ayrı-ayrılıqda maksimal olmasa da, bütün maraqlı tərəfləri qane etsin. Belə razılaşmanın işlənib hazırlanması texnikası danışıqların aparılması və hər bir məqsədin həyata keçirilməsi prosesinin daim diqqət mərkəzində saxlanılmasından ibarətdir. Hər hansı bir mərhələdə ixtilaflar, fikir ayrılıqları yaranarsa, rəhbərlik fəal surətdə müdaxilə etməli və ixtilafı ən az ağrılı üsulla tənzimləməlidir.**

**Faydalı məsləhətlərə aiddir:**

**■ razılaşma hazırlamaq üçün müvəqqəti məhdudiyyətlərin müəyyənləşdirilməsi;**

**■ hər bir maraqlı qrup üçün büdcə məhdudiyyətlərinin tətbiqi;**

**■ hər bir quruluş qrupunun vəzifə və hüquqlarının dəqiq müəyyənləşdirilməsi və s.**

**Davranış nəzəriyyələrində firmanın mövcud olub fəaliyyət göstərdiyi xarici mühitin təsirinin nəzərə alınmasına böyük diqqət yetirilir. Bixeviorizmin nəzəriyyəçilərindən biri olan Ansoff 1984-cü ildə qeyd edirdi ki, firmanın dəyişən xarici aləmə tez uyğunlaşmasına imkan verən 2000-dən artıq müxtəlif strateji davranış qaydaları vardır. Xarici mühitə həm İqtisadi, siyasi, ekoloji, həm də sosial şərait, ictimai rəy və s. aiddir. Firmanın daxili quruluşu onu xaricdən əhatə- ləyənlərə uyğun olmalı və onların dəyişməsinə çevik uyğunlaşmalıdır.**

**Mövcud nəzəriyyələrdən heç biri problemi tam izah etməyə qabil deyil, onların hər birinin zəif cəhətləri və daxili ziddiyyətləri var. Bununla belə, nəzəriyyələrin hər birində müasir şirkətlərin bazarda davranışını başa düşməyə, onların gələcəkdəki davranışlarını proqnozlaşdırmağa, onların nəticələrini qiymətləndirməyə kömək edən səmərəli təhlillər var.**

# XVII FƏSİL. MİKROİQTİSADİYYATDA QEYRİ-MÜƏYYƏNLİK AMİLLƏRİ. RİSKLƏR NƏZƏRİYYƏSİ

*§1. Təsdrrüfat riski: mahiyyəti və səbəbləri.*
*§2. İtkilərin növləri.*
*§3. İtkilərin quruluşu və onları doğuran səbəblər.*
*§4. Risk göstəricisi və onu qiymətləndirməyin üsulları. Risk əyrisi.*
*§5. Riskləri idarəetmə metodları.*

**Bazar münasibətlərinin inkişaf etməsi ilə əlaqədar olaraq ölkəmizdə sahibkarlıq fəaliyyətini vəziyyətin artmaqda olan** qeyri-müəyyənlİ3d **və iqtisadi mühitin dəyişkənliyi şəraitində həyata keçirmək lazım gəlir. Deməli, gözlənilən son nəticənin əldə olunmasında qeyri-müəyyənlik və inamsızlıq yaranır və bununla da risk, uğursuzluq təhlükəsi, nəzərə alınmamış itkilər təhlükəsi artır. Bu ələlxüsus sahibkarlığı yiyələnməyin ilkin mərhələsinə xasdır.**

## *§1. Təsərrüfat riski: mahiyyəti və səbəbləri*

**Müasir şəraitdə iqtisadiyyatda ənənəvi quruluşların deformasiyası baş vermiş, təsərrüfatçı subyektlərin mövcud olan davranış stereotipləri dəyişmişdir.**

**Bazar özləri riskə gedərək mübadilə sövdələşmələri aparan satıcı ilə alıcının görüşməsini nəzərdə tutur. Bəs mübadilədə risk nədədir və qorxu hissi nədən doğur?**

**Bazarda hamı uduzmaqdan, aldadılmaqdan, zərər çəkməkdən qorxur. Hamı baha satıb ucuz almaq istəyir. Risk ondadır ki, əmtəə istehsalçısı tələbi öncədən duyub onu formalaşdırmaq və məhsulu hələ bazar dolmamış yüksək qiymətlə satışa çıxarmaq istəyir. Bu vaxt o, rəqiblər tərəfindən geridə qoyulmaq, pulu gələcəyi olmayan əmtəələrin istehsalına qoymaq, bazarın tələb etdiyindən daha çox mal istehsal edib onları dəyər-dəyməzinə satmaq təhlükəsi ilə üzləşir.**

**Beləliklə, bazarda kortəbii olaraq müxtəlif mübahisələr yaranır ki, onlar da bazar mexanizminin, tələb və təklifin, rəqabətin və s, köməkliyi ilə öz həllini tapır.**

**Təsərrüfatçılıq fəaliyyətində risk adi haldır. Təsərrüfatçılıq risklərinin səbəbləri olduqca müxtəlifdir.**

**Bu, təbii fəlakətlər, hadisələrin uğursuz gedişi, alıcı və satıcıların səhvləri, təsərrüfat fəaliyyətinin digər iştirakçıları tərəfindən öhdəliklərinin pozulması, qiymətlərin, vergilərin, ödənişlərin, siyasi vəziyyətin və s. dəyişməsi ola bilər. Bu səbəblər bu və ya digər dərəcədə həmişə mövcuddur, buna görə də gələcək iqtisadi vəziyyətin qeyri-müəyyənliyi riski qaçılmaz edir.**

**iqtisadi azadlıq qurban tələb edir, çünki bir təsərrüfatçının azadlığı digər bazar subyektlərinin azadlığı ilə müşayiət olunur, onlar onun məhsulunu ala da bilər, almaya da, onun müqabilində başqa qiymətə məhsul təklif edə bilərlər, öz qiymətlərini, sövdələşmə şərtlərini və s. diktə edə bilərlər. Birinin qazancı digərinə zərər ola bilər.**

**Beləliklə, bazar subyektlərinin bərabər iqtisadi azadlığı mütləq iqtisadi riskə səbəb olur. Bu zaman mütləq qeyd olunmalıdır ki, bazar iqtisadiyyatı şəraitində təsərrüfat fəaliyyətində tam azadlıq yoxdur və ola da bilməz. M.Fridmen bu barədə obrazlı şəkildə deyirdi ki, sizin «əl-qol atmaq» azadlığınız «mənim burnuma qədər» olan məsafə ilə məhdudlaşır. Azad bazar sistemi şəraitində tam deyil, iqtisadiyyatın sürətli inkişafına rəvac verən kifayət qədər iqtisadi azadlıq mövcuddur. Təəssüf ki, belə azadlıq risklə bağlıdır.**

**V.l.Dal riski işgüzarlıq, zirəklik, xoş nəticəyə çatmaq ümidilə bəxtə-bəxt hərəkət etmək, S.l.Ojeqov isə mümkün təhlükə kimi izah edirdi. Bu izahları ümumiləşdirərək demək olar ki, risk uğurlu nəticəni qorxulu edən təhlükədir.**

**Bir qayda olaraq, bazar münasibətləri elə şəraitdə qurulur ki, sahibkarlar rəqiblərinin maliyyə vəziyyəti, bazarın konyunkturası, bölgənin iqtisadi vəziyyəti və s. haqqında heç də**

**hal bazar münasibətlərinə qeyri-müəyyənlik elementləri gətirir və mənfəət əldə etməyə aparan davranış variantını seçmək imkanını çətinləşdirir. Mənfəət əldə etmək imkanının real təminatı yalnız zərər çəkmək şəraitini əvvəlcədən qiymətləndirildiyi halda mümkün olur.**

**Planlı iqtisadiyyat dövründə «risk» probleminə kifayət qədər diqqət yetirilmirdi və «risk a iqtisadi məfhumu öz tətbiqi mənasında praktik olaraq işlədilmirdi. Ötən əsrin 80- ci illərinin sonunda ölkəmizdə «sahibkarlıq riski» məfhumu meydana gəldi. 90-cı illərin əvvəllərində artıq 17 «risk» növü fərqləndirilmişdi: təsərrüfat, maliyyə, valyuta, investisiya, faiz və b. Bu «risk» məfhumunun dəqiqləşdirilməsini və onun təsnifatını labüd etdi.**

**Hazırda iqtisadi ədəbiyyatdə riskin vahid tərifi yoxdur. Lakin istənilən riskin əsası gələcəyə inamsızlıq, mümkün təhlükədir. Ənənəvi olaraq iki tərif verilir. Birincisi riskin səbəblərinə və onların qeyri-müəyyənliyinə əsaslanır. İkincisi isə riskə təsirin özünə söykənir. Buradan da risk qarşıdakı məqsəddən neqativ yayınmadır.**

**Əslində isə əsassız riskə yol verilməsi hallarına bir o qədər də az təsadüf olunmur. Belə riski macəra adlandırırlar. Macəra şəraitin, imkanların və real qüvvələrin imkanlarını nəzərə almadan görülən, təsadüfi uğura bel bağlayaraq və adətən uğursuzluğa məhkum olan işdir. Bu halda nəzərdə tuturlmuş məqsədi həyata keçirmək üçün obyektiv şərait olmur.**

**İqtisadi risklərin təsnifatı meyarlar çoxluğuna əsaslanır.**

**Sahibkarlıq fəaliyyətinin xarakterini nəzərə almaqla təsərrüfatçılıq təcrübəsində aşağıdakı əsas iqtisadi risk növlərini fərqləndirirlər:**

**■istehsal — əmtəə və xidmətlər istehsalı, istənilən istehsal fəaliyyəti növünün həyata keçirilməsi ilə bağlıdır;**

**■kommersiya - əmtəə və xidmətlərin satışı prosesi ilə bağlıdır;**

**■ maliyyə — bazar subyektlərinin banklar və digər maliy**

**yə institutları ilə bağlı münasibətləri sahəsində meydana gəlir. Borc götürülmüş vəsait kəmiyyətinin özünün vəsaitinin kəmiyyətinə nisbəti nə qədər çox olsa, maliyyə riski bir o qədər böyük olar. Bu onunla izah olunur ki, kredit verilməsi və ya kredit şərtlərinin sərtləşməsi istehsalın dayanmasına səbəb ola bilər.**

**Risklər təhlükə mənbələrinin, risk zonalarının, təsir sahələrinin, riskin zaman müddətində bölgüsü, risk dərəcəsinin nəzərə alınması əsasında təsnif oluna bilərlər.**

**Belə ki, təhlükə mənbəyinə görə risklər aşağıdakılar ilə şərtlənə bilər:**

**■ təbii qüvvələrin (sel, qar yağması, zəlzələ, torpaq axını, epidemiyalar, yanğınlar və s. ) dağıdıcı təsiri ilə;**

**■ siyasi xarakterli səbəblərlə (müharibə, çevriliş, inqilab və s.);**

**■ iqtisadi xarakterli amillərlə (valyuta kursunun, səhmlərin kursunun düşməsi, inflyasiya, müflisləşmə, tərəfdaşların öz müqavilə öhdəliklərini yerinə yetirməməsi və ya keyfiyyətsiz yerinə yetirməsi, kreditin qaytarılmaraası və s.);**

**■ hüquqi xarakterli şəraitlərlə (qanunvericilikdə dəyişikliklər, qanunvericiliyin qeyri-kamilliyi, dövlət orqanları tərəfindən qanunvericilİ3dn düzgün tətbiq edilməməsi, məhkəmə sisteminin qeyri-kamilliyi və s., həmçinin qeyri-qanuni davranışlar: oğurluq, soyğunçuluq, cinayətkar səhlənkarlıq, yalançı müflisləşmə, fırıldaqçılıq və mülkiyyətə qarşı sair cinayətlər və b.k.).**

**Yaranma mənbəyinə görə aşağıdakı riskləri fərqləndirirlər:**

**■ bilavasitə təsərrüfat riskləri;**

**■ insanın şəxsiyyəti ilə bağlı olanlar;**

**■ təbii amillərlə şərtlənənlər.**

**İqtisadi risklər bankların fəaliyyətinin bütün tərəflərini: həm xarici, həm də daxili - əhatə edir. Buna müvafiq olaraq xarici və daxili risklər fərqləndirilirlər. Xarici risklər iki böyük qrupa bölünürlər: 1) likvidlik riskləri və 2) uğur riskləri.**

**Likvidlik risklərinə daxildir:**

***m*** **kredit riski və ya kreditlərin vaxtında qaytanimaması ilə bağlı risk;**

- **yeni, planlaşdırılmamış kreditlər riski;**
- **bazar riski və ya yeni fəaliyyət növləri üzrə risk;**
- **başqa risklər.**

**Likvidlik risklərindən ən əsası kredit riskləridir. Son illərdə müəssisələr tərəfindən fəal surətdə investisiya əməliyyatları - qiymətli kağızlarla əməliyyatlar aparılır, buna görə də bazar riskinin əhəmiyyəti artır.**

**Uğur risklərinə aiddir:**

- **sahə;**
- **sığorta;**
- **faiz;**
- **valyuta;**
- **başqaları.**

**İqtisadi risklərin başqa təsnifatına da rast gəlmək mümkündür, bu da, görünür, qanunauyğundur, çünki müxtəlif risk növləri arasında dəqiq hədd qoymaq xeyli çətindir.**

**Bəzən ayrıca risk növü kimi layihə riskini göstərirlər; bu üç növdən:**

- **ayrıca bir riskdən, yəni sırf layihənin özü ilə bağlı riskdən;**
- **firmadaxili riskdən;**
- **bu və ya digər layihənin firmanın kredit portfelinə nə qədər yaxşı (və ya pis) «yerləşməsi» ilə müəyyənləşən bazar və ya portfel riskindən ibarət mürəkkəb riskdir. Bir qayda olaraq risklərin çoxu bir-biri ilə əlaqədardır və onlardan birinin dəyişməsi digərlərinin də dəyişməsinə səbəb olur, hamısı birlikdə isə bütövlükdə müəssisənin iqtisadi nəticələrinə təsir edir.**

**Daxili risklər firmanın fəaliyyətinin texniki-təşkilati sahəsi ilə şərtlənir. Bu risklər sırf pul amilləri ilə bağlı deyil və şəxslə bağlı, bir də ki, maddi-texniki mahiyyətlidir. Onlar müxtəlif cinayətkar hərəkətlər də ola bilər.**

**Daxili risklərin üç növünü fərqləndirirlər:**

- **şəxsi;**
- **maddi-texniki;**
- **quruluş-prosessual.**

**Şəxsi risklər (əməkdaşların riski və ya kadrlarla bağlı risklər) kəmiyyət və keyfiyyətə bölünürlər. Kəmiyyət riskinə əməkdaşların axtarılması və işə qoşulması nəticəsində yaranan bütün risklər daxildir. Keyfiyyət riskləri əməkdaşların peşəkarlıq səviyyəsi və xasiyyətləri ilə bağlı olanlardır. Maddi-texniki risklər müəssisənin maddi-texniki bazası və onun səviyyəsi ilə şərtlənir. Quruluş-prosessual risklər əvvəlki iki növ riskin qarşılıqlı əlaqəsindən yaranır.**

**Bazar İqtisadiyyatında təsərrüfat riskləri qaçılmaz olduğundan riski idarə etməkdə birinci qayda belədir: «Riskdən qaçmamaq, onu öncədən görərək mümkün qədər aşağı səviyyəyə endirmək ».**

**Risk vəziyyətinin nə olduğunu dərk etmək vacibdir. «Vəziyyəti anlayışı «şəraiti, <ışərti, *vəziyyət» anlayışlarına yaxındır. O nəyəsə kömək edə, nəyisə ləngidə, təhrif edə, nəyinsə qabağım ala bilər. Risk vəziyyəti qeyri-müəyyənlik vəziyyətindən fərqlənir. Belə fərqləndirmə riski qeyri-müəyyənliyi, nəzərdə tutulan nəticəyə çatmanı, uğursuzluqları və məqsəddən sapınmalan kəmiyyət və keyfiyyət tərəfdən qiymətləndirməklə, seçim etməyin labüd olduğu vəziyyətdə aradan qaldırmaqla bağlı fəaliyyət kimi dəyərləndirməyə imkan verir.**

**Sahibkarlıq riski müəyyənləşdirilərkən «xərc», «zərər», «itfci» anlayışlarını fərqləndirmək lazımdır. İstənilən sahibkarlıq fəaliyyəti mütləq xərclərlə bağlıdır, amma itkilər hadisələrin uğursuz cərəyan etməsi, səhvlər nəticəsində yaranır və nəzərdə tutulanlardan əlavə xərcdir. Bu, risk kateqoriyasını keyfiyyət tərəfdən səciyyələndirir, lakin sahibkarlıq riskini kəmiyyət anlayışına çevirməyə zəmin yaradır. Həqiqətən də, əgər risk resursları və ya gəliri itirmək təhlükəsi- dirsə, bu halda itkilərin mütləq və ya nisbi səviyyəsini əks**

**etdirən kəmiyyət meyarı da mövcuddur.**

**Mütləq ifadəsində risk maddi-əşya və ya dəyərlə (pul) ifadə olunmuş mümkün itkilər həcmi kimi müəyyənləşdirilə bilər, əgər zərər belə ölçüyə gəlirsə. Nisbi ifadədə risk mümkün itkilərin kəmiyyətinin müəyyən bazaya nisbəti kimi qiymətləndirilir. Baza etibarı ilə sahibkarın mülki vəziyyəti, yaxud həmin sahibkarlıq növünə ehtiyatların ümumi məsrəfləri, yaxud sahibkarlıq fəaliyyətindən gözlənilən gəlirin (mənfəətin) istifadə olunması daha münasib sayılır.**

**Müəssisə üçün riskin nisbi həcmini müəyyənləşdirdikdə baza kimi müəssisənin əsas fondlarının və dövriyyə vəsaitlərinin dəyəri və ya həmin növ sahibkarlıq fəaliyyəti üçün həm cari xərclər, həm də kapital qoyuluşları daxil olmaqla nəzərdə tutulmuş məcmu xərclər və ya gözlənilən gəlir (mənfəət) götürülür. Bu və ya digər bazanın götürülməsinin elə bir əhəmiyyəti yoxdur, amma daha yüksək etibarlılığa malik göstəriciyə üstünlük verməк lazımdır.**

**Müqayisə üçün istifadə olunan baza göstəriciləri mənfəət, məsrəf, satış pulu hesablanmış və ya gözlənilən göstəricilər adlandırılır. Məlum olduğu kimi, bu göstəricilərin qiymətləri biznes planın hazırlanması zamanı, sövdənin, sahibkar layihəsinin texniki-iqtisadi əsaslandırılması prosesində müəyyənləşdirilir.**

**Mənfəətin, gəlirin gözlənilən kəmiyyətlərə nisbətən azalması itki hesab olunur. Sahibkar itkiləri - birinci növbədə sahibkarlıq mənfəətinin təsadüfən azalmasıdır. Məhz belə itkilərin kəmiyyəti riskin dərəcəsini səciyyələndirir. Deməli, riskin təhlili hər şeydən əvvəl itkilərin öyrənilməsi ilə əlaqədardır.**

## *§2, İtkilarin növləri*

**Hadisələrin gözlənilməyən variant üzrə inkişafı ilə şərtlənən bu və ya digər itkilərin ehtimalını qiymətləndirmək üçün, hər şeydən əvvəl sahibkarlıqla bağlı bütün itki növlə**

**rini bilmək və onları ehtimalla proqnozlaşdırılan həcmlər kimi əvvəldən hesablamadı bacarmaq lazımdır.**

**Ehtimal olunan itkilərin proqnozlaşdırılması prosesində hesablanmasından danışdıqda nəzərə almaq lazımdır ki, hadisələrin sahibkarlığın gedişi və nəticələrinə təsir edən təsadüfi inkişafı yalnız bir resurs növünün məsrəfini artırmır, həm də başqa bir növün məsrəfinin azalmasına səbəb olur, yəni bir resurs məsrəfinin artması ilə yanaşı digərinə qənaət edilməsi müşahidə oluna bilər.**

**Riskin qiymətləndirilməsi zamanı onların hər biri eyni dərəcədə nəzərə alınmalıdır. Başqa sözlə, mümkün məcmu itkilərin müəyyənləşdirilməsi zamanı hesablanıb nəzərdə tutulmuş itkilərdən onları müşayiət edən qazancı çıxmaq lazımdır.**

**Sahibkarlıq fəaliyyətində mümkün olan itkiləri maddi, əmək, maliyyə, vaxt itkisi, xüsusi itki növlərinə bölmək məqsədəuyğundur.**

**Maddi itkilər - bu sahibkar layihəsində nəzərdə tutulmamış əlavə məsrəflər və ya bilavasitə avadanlıq, əmlak, məhsul, xammal, enerji və s. itkisidir. Bu itki növlərinin hər biri öz ölçü vahidləri ilə hesablanır. Maddi itkilərin həmin növ maddi resursların ölçülməsi üçün istifadə olunan ölçülərlə, yəni çəki, həcm, sahə və s. fiziki vahidləri ilə hesablanması daha düzgündür.**

**Lakin müxtəlif vahidlərlə ölçülən itkiləri vahid itkilər şəklində ümumiləşdirmək qeyri-mümkündür. Kiloqramla metrləri toplamaq olmaz. Buna görə də itkiləri praktik olaraq dəyər şəklində, pul vahidləri ilə ifadə etmək lazım gəlir. Bunun üçün fiziki ölçülü itkilər müvafiq maddi resursun vahidinin qiymətinə vurulmaqla dəyər ölçüsündə ifadə olunur.**

**Dəyərləri əvvəlcədən məlum olan kifayət qədər çox miqdarda maddi resurslarm itkilərim o saat pul ifadəsində qiymətləndirmək olar. Hər bir aynca maddi ehtiyatların digər kəmiyyətində mümkün itkilərin səviyyəsi məlum olduqca.**

onlan ümumiləşdirmək olar, bu zaman təsadüfi kəmiyyətlər və onların ehtimalımn fəaliyyət qaydalarma riayət olunmalıdır.

Əmək itkiləri təsadüfi, gözlənilməyən şəraitdən irəli gələn iş vaxtı itkiləridir. Əmək itkiləri insan-saat, insan-gün və ya sadəcə olaraq iş vaxtı saatları ilə ölçülür. Əmək itkiləri həcminin dəyər, pul ifadəsinə çevrilməsi əmək saatlarının miqdarını bir saatın dəyərinə (qiymətinə) vurmaqla həyata keçirilir.

Maliyyə itkiləri nəzərdə tutulmamış ödənişlər, cərimələrin ödənilməsi, əlavə vergilərin ödənilməsi, pul vəsaiti və qiymətli kağızların itkisi ilə bağlı bilavasitə pul itkiləridir. Bundan başqa, maliyyə itkiləri nəzərdə tutulmuş mənbələrdən qazancın az alınması, borcların qaytarılmaması, verilmiş məhsula görə alıcının ödəniş etməməsi, satılan məhsul və xidmətlərin qiymətinin aşağı düşməsi nəticəsində satış pulunun azalması nəticəsində də yarana bilər.

Pul itkisinin xüsusi növləri inflyasiya, rublun valyuta kursunun dəyişməsi, müəssisə vəsaitlərinin dövlət (respublika, yerli) büdcəsinə göstəriləndən əlavə alınması ilə bağlıdır. Birdəfəlik, qayıtmayan itkilərlə yanaşı hesabların dondurulması, vəsaitlərin vaxtında ödənilməməsi, borcların Ödənişinin ləngidilməsi ilə bağlı müvəqqəti maliyyə itkiləri də ola bilir.

Vaxt itkiləri sahibkarlıq fəaliyyəti prosesi nəzərdə tutulduğundan ləng gedəndə meydana gəlir. Belə itkilərin bilavasitə qiymətləndirilməsi nəzərdə tutulmuş nəticənin əldə olunmasının gecikdiyi saat, gün, həftə, aylarla həyata keçirilir. Vaxt itkisini dəyər ölçülərinə keçirmək üçün təsadüfi vaxt itkilərinin sahibkarlıq fəaliyyətindən hansı gəlirlərin, mənfəətlərin itkisi ilə nəticələnəcəyini müəyyənləşdirmək lazımdır.

Xüsusi itki növləri insanların sağlamlığına və həyatına, ətraf mühitə, sahibkarın nüfuzuna zərər vurulması, həmçinin digər arzuolunmaz sosial və mənəvi-psixoloji nəticələr şəklində təzahür edir. Xüsusi itki növlərini əksər hallarda kəmiyyətlə,

**Təbii ki, hər bir itki növünün yaranması imkanının ilkin qiymətləndirilməsi və həcmi sahibkarlıq fəaliyyətinin müəyyən dövrünü (ay, il, müddət) əhatə etməlidir. Ehtimal olunan itkilərin kompleks təhlilinin aparılması zamanı mümkün risklərin bütün mənbələrini müəyyənləşdirmək azdır, həm də onların hansının üstünlük təşkil etdiyini aydınlaşdırmaq lazımdır.**

**Mümkün itkilər həlledici və ikinci dərəcəlilərə bölünür. Sahibkarlıq riski müəyyənləşdirildikdə riskin səviyyəsinin qiymətləndirilməsində ikinci dərəcəli itkilər nəzərə alınmaya bilər. Əgər nəzərdən keçirilən itkilər arasmda biri ya həcminə, ya da yaranma ehtimalına görə qalanlarını aşkar üstələyirsə, onda risk dərəcəsinin kəmiyyət qiymətləndirilməsində yalnız bu itki növünü nəzərə almaq olar. Bundan başqa, yalnız təsadüfi, bilavasitə hesablamaya, proqnozlaşdırmaya gəlməyən və buna görə də sahibkarlıq layihəsində nəzərə alınmayan itkilər nəzərə alınmalıdır. Əgər itkiləri qabaqcadan görmək mümkündürsə, onlar itki kimi deyil, qaçılmaz xərclər kimi nəzərdən keçirilməli və hesablamalara daxil edilməlidir. Belə ki, qiymətlərin, vergilərin qabaqcadan nəzərə alınmış hərəkəti, təsərrüfat fəaliyyətinin gedişində onların dəyişməsini sahibkar biznes-planda nəzərə almalıdır.**

### *§3. İtkilarin quruluşu və onları doğuran səbəblər*

**İstehsal, kommersiya, maliyyə sahibkarlığında itkilərin bir neçə spesifik mənbələrini və onlara təsir edən amilləri göstərmək olar. Birinci növbədə bu, gözlənilməz siyasi amillərin təsirindən olan itkilərdir. Belə itkilər siyasi risk yaradır. Bu təsərrüfat fəaliyyəti şəraitinin gözlənilməz, siyasi düşüncə və hadisələrdən dəyişməsi şəklində təzahür edir, sahibkar üçün uğursuz fon yaradır və resursların artıq xərclənməsini və gəlir itkisini şərtləndirə bilir.**

**Belə riskin tipik mənbələri - vergi dərəcələrinin artırılması, məcburi ayırmalarm tətbiqi, müqavilə şərtlərinin dəyişməsi.**

**mülkiyyət formaları və münasibətlərinin transformasiyası, siyasi səbəblərdən əmlak və pul vəsaitlərinin alınmasıdır. Mümkün itkilərin həcmini və bununla şərtlənən risk dərəcəsini bu halda öncədən müəyyənləşdirmək olduqca çətindir.**

**Gözlənilməzliyinə görə bunlara təbii fəlakətlər, həmçinin oğurluq və reketlə şərtlənən itkilər yaxındır.**

**Biznes planı formalaşdıran və mənfəət və gəlirin hesablanmasını həyata keçirən şəxslərin səriştəsizliyi və metodologiyanın qeyri-kamilliyindən irəli gələn itkilər olduqca spesifikdir. Əgər bu amillərin təsiri nəticəsində sahibkarlıq layihəsində gözlənilən mənfəət və gəlirlər artıq göstərilmişdirsə, real nəticələr isə aşağı olarsa, fərq istər-istəməz itki kimi qiymətləndirilir.**

**Sahibkarın tərəf müqabillərinin səhlənkarlığı, vicdansızlı-ğı və müflisliyi ilə şərtlənən itkilər xüsusi yer tutur. Sövdə- də aldadılma, borclunun ödəniş qabiliyyətinin olmaması, borcun qaytarılmaması riski təəssüf ki, kifayət qədər realdır.**

**Sahibkarlıq növlərinə tətbiq edilən ən geniş yayılmış itki və risk şəraitlərini nəzərdən keçirək.**

**İstehsal sahibkarlığında itkilər**

**1. Əmək məhsuldarlığının azalması, avadanlığın boş dayanması və ya istehsal gücündən tam istifadə olunmaması, iş vaxtının itirilməsi, kifayət qədər ilkin materialın olmaması, zay məhsul faizinin yüksək olması nəticəsində nəzərdə tutulmuş həcmdə məhsul istehsalı və satışının azalması planlaşdırılmış satış pulunun əldə olunmamasına səbəb olur. Bu halda ehtimal olunan DD dəyərlə ifadədə aşağıdakı düsturla hesablanır;**

$$DD=DH \times Q,$$

**burada DH - məhsul istehsalının ehtimal olunan məcmu azalmasıdır;**

**Q ~ məhsul həcmi vahidinin satış qiymətidir.**

**2. Məhsulun satış üçün nəzərdə tutulmuş qiymətlərinin keyfiyyətin aşağı olması, bazar rəqabətinin uğursuz dəyişməsi, tələbin azalması, qiymət inflyasiyası ilə bağlı aşağı düşməsi aşağıdakı düsturla hesablanan ehtimal olunan itkilərə səbəb olur:**

$$DD=DQxH,$$

**burada DQ - məhsul həcmi vahidi qiymətinin ehtimal olunan azalmasıdır;**

**H - istehsal və satış üçün nəzərdə tutulmuş məhsulun ümumi həcmidir.**

**3. Materialın, xammalın, yanacağın, enerjinin artıq işlədilməsi ilə şərtlənən artıq maddi məsrəflər aşağıdakı asılılıqla müəyyənləşən itkilərə səbəb olur:**

$$DD=DM_1 X Q_1\text{-l-}DMa x Q_2+...,$$

**burada D M - material resurslarının ehtimal olunan artıq məsrəfidir;**

**Q - resurs vahidinin qiymətidir.**

**4. Digər artıq məsrəflər yüksək nəqliyyat xərcləri, ticarət məsrəfləri və s. əlavə xərclər nəticəsində yarana bilər.**

**5. Əmək haqqı fondunun nəzərdə tutulmuş həcmindən artıq xərclənməsi hesablanılmış say tərkibinin artırılması və ya ayrı-ayrı işçilərin əmək haqqının planlaşdırıldığından artıq ödənilməsi nəticəsində yaranır.**

**6. Biznes planın həyata keçirilməsi prosesində ayırmalar və vergilərin müəssisə üçün uğursuz istiqamətdə dəyişməsi yüksək ayırmalar və vergilərin ödənilməsinə səbəb olur.**

**7. Cərimələr, təbii itkilər şəklində və təbii fəlakətlərlə şərtlənən mümkün itkiləri hesablama yolu ilə nəzərə almaq qeyri-mümkündür.**

**Kommersiya sahibkarlığında itkilər**

1. **Alış haqqında müqavilə şərtləri ilə təsbit olunmamış sahibkarlıq layihəsinin həyata keçirilməsi prosesində əmtəənin alış qiymətinin uğursuz dəyişməsi (artması) aşağıdakı düsturla hesablanan ehtimal olunan itkilərə səbəb olur:**

$$DD=H \times DQ,$$

**burada H - fiziki ölçüdə əmtəə alışı həcmi;**

**DQ - alış qiymətinin ehtimal olunan artımıdır.**

2. **Alış həcminin nəzərdə tutulanla müqayisədə gözlənilmədən azalması satış həcminin, yəni bütün əməliyyatların miqyasının azalmasına səbəb olur. Mənfəət (gəlir) itkisi alış həcminin azalmasının əmtəə satışı həcmi vahidinə düşən mənfəət (gəlir) vahidinə hasili ilə hesablanır.**

**Nəzərə alınmalıdır ki, alış və satış həcminin azalması xərclərin azalması ilə müşayiət oluna bilər, çünki şərti-daimi xərclərdən başqa əməliyyat həcminə müvafiq xərclər də var.**

3. **Tədavül (daşınma, saxlanılma) prosesində əmtəə itkisi və ya əmtəənin keyfiyyətinin, istehlak dəyərinin itkiləri onun dəyərinin azalmasına səbəb olur. Belə zərərin səviyyəsi itirilmiş əmtəənin miqdarının alış qiymətinə və ya xarab olmuş əmtəənin miqdarının satış qiymətinin azalmasına hasili yolu ilə hesablanır.**

4. **Tədavül xərclərinin nəzərdə tutulmuşla müqayisədə artması müvafiq gəlirin, mənfəətin azalmasına səbəb olur. Xərclər artımının mümkün səbəbləri arasında nəzərdə tutulmamış gömrük haqları, ödənişlər, cərimələr, əlavə xərclər də ola bilər.**

5. **Əmtəənin satış qiymətinin nəzərdə tutulandan aşağı düşməsi satış həcminin qiymət azalmasına hasili həcmində itkiləri müəyyənləşdirir.**

6. **Satış həcminin əmtəəyə əvvəldən nəzərə alınması mümkün olmayan tələb və ya tələbatın düşməsi, onunla rəqabətdə olan əmtəələr tərəfindən sıxışdırılması, satışa məhdu**

**diyyətlər ilə şərtlənən azalması satılmamış məhsul həcminin satış qiymətinə hasili ilə hesablanan gəlir və mənfəət itkilərinə səbəb ola bilir.**

**Maliyyə sahibkarlığında itkilər**

**Artıq qeyd olunduğu himi, maliyyə sahibkarlığı mahiyyətcə elə həmin kommersiya sahibkarlığıdır. Lakin burada əmtəə pul, qiymətli kağızlar, valyutadır. Deməli, kommersiya sahibkarlığına xas itkilər bütövlükdə maliyyə sahibkarlığına da xasdır.**

**Bununla belə maliyyə riski qiymətləndiriləndə maliyyə söv-dəsinin a^entlərindən birinin qeyri-tədiyə qabiliyyətli olması, pulun, valyutanın, qiymətli kağızların kursunun dəyişməsi, valyuta-pul əməliyyatlarına məhdudiyyətlərin qoyulması, sahibkarlıq fəaliyyəti prosesində maliyyə resurslarının müəyyən hissəsinin dövriyyədən çıxarılması (müsadirəsi) kimi xarakterik amillər nəzərə alınmalıdır.**

### *§4. Risk göstsricisi V9 onu qiymstlsndirməyin üsulları. Risk syrisi*

**Risk, şübhəsiz, ehtimal kateqoriyasıdır və elmi mövqedən onu müəyyən səviyyədə itkinin yaranması ehtimalı kimi səciyyələndirmək və ölçmək daha düzgündür.**

**Ehtimal əyrisinin (və ya cədvəlinin) qurulması riskin qiymətləndirilməsinin ilkin mərhələsidir. Lakin sahibkarlığa tətbiq ediləndə bu çox vaxt olduqca çətin məsələ olur. Buna görə də təcrübədə mütəxəssislər bir qədər sadə yanaşmalarla məhdudlaşır, riski onun məqbulluğu haqqında mülahizə yürütmək üçün vacib olan ümumiləşdirilmiş xüsusiyyətlərdən ibarət bir və ya bir neçə göstərici üzrə qiymətləndirirlər. Bu məqsədlə itkilərin həcmindən asılı olaraq müəyyən risk sahələri və ya zonaları müəyyənləşdirilir (şəkil 17.1).**

**İtki gözlənilməyən sahələr risksiz zona adlanır, onlara sıfır və ya mənfi (mənfəət artımı) itkilər müvafiqdir.**

**Yol verilən risk zonası deyildikdə hüdudlarında həmin sahibkarlıq fəaliyyətinin öz iqtisadi məqsədəuyğunluğunu saxladığı sahə başa düşülür, yəni bu sahədə itkilər labüddür, lakin onlar gözlənilən mənfəətdən azdır. Yol verilən risk zonasının sərhədləri sahibkarlıq fəaliyyətindən hesablanmış mənfəətə bərabər itkilər səviyyəsinə müvafiq gəlir.**




**Şəkil 17.1. Risk zonaları**

**Daha təhlükəli sahə böhranlı risk zonası adlanır. Bu sahə gözlənilən mənfəətin həcmini sahibkarlıqdan gələn və məsrəf ilə mənfəətin məbləğindən ibarət hesablanmış satış pulunun tam qədərini üstələyən itkilərin mümkünlüyü ilə səciyyələnir. Başqa sözlə, böhranlı risk zonası gözlənilən mənfəəti öncədən üstələyən və maksimumda sahibkarın işə qoyduğu bütün vəsaitlərin əvəzlənməyən itirilməsinə səbəb ola biləcək itkilər təhlükəsi ilə səciyyələnir.**

**Böhranlı zonadan başqa fəlakətli risk zonası da fərqləndirilir. Bu itki sahəsi öz həcminə görə böhranlı risk səviy**

**yəsindən artıq olur və maksimumda sahibkarın əmlak vəziyyətinə bərabər ola bilir. Fəlakətli risk iflasa, müəssisənin müflisləşməsinə, bağlanmasına və əmlakının satılmasına gətirib çıxara bilər.**

**Əmlak və ya pul itkilərindən asılı olmayaraq fəlakət risklərinə insanların həyatı üçün təhlükə yaradan və ya ekoloji fəlakətlərin baş verməsi ilə bağlı risklər aid edilməlidir.**

**Risklər haqqında ən dolğun təsəvvürü itki ehtimallarının bölgüsü əyrisi və ya itki ehtimallarının bu və ya digər itkilərin baş vermə ehtimalını göstərən səviyyəsindən asılılığının qrafik təsviri verir.**

**İtki ehtimalının tipik əyrisinin görünüşünü müəyyənləşdirmək üçün öncə mənfəəti təsadüfi kəmiyyət kimi nəzərdən keçirək və əvvəlcə müəyyən səviyyədə mənfəətin əldə olunması ehtimalının bölgüsü əyrisini quraq (şəkil 17.2).**




**Şəkil 17.2. İtki ehtimallarının bölgüsü əyrisi**

**Mənfəət əldə olunması ehtimallarının bölgüsü əyrisi qurulanda aşağıdakı fərziyyələr nəzərə alınmışdır.**

**1. PRR hesablaşma kəmiyyətinə bərabər mənfəətin əldə olunması ən ehtimal olunandır. Belə mənfəətin əldə olunması ehtimalı (BR) maksimaldır, müvafiq olaraq PRR qiymətini riyazi gözlənilən mənfəət hesab etmək olar.**

**Əldə olunmuş mənfəət hesablanmış mənfəətdən nə qədər**

**ÇOX fərqlənsə, hesablanmışla müqayisədə çox və ya az mənfəətin əldə olunması ehtimalı bir o qədər az olar, yəni kənarlaşma artdıqca, hesablanmış mənfəətdən kənarlaşma ehtimallarının qiyməti yeknəsək azalır.**

**2. $PR_R$ hesablaşma kəmiyyəti ilə müqayisədə mənfəətin azalması mənfəət itkisi (DPR) hesab olunur. Real mənfəət PR-yə bərabər olarsa, onda**

$$DPR = PR_R - PR \text{ olar.}$$

**3. Hədsiz böyük (nəzəri cəhətdən sonsuz) itkilərin ehtimalı praktik olaraq sıfıra bərabərdir, çünki itkilərin öncədən yuxarı həddi var (kəmiyyətcə ölçülməsi mümkün olmayan itkilər istisna olmaqla).**

**Əlbəttə qəbul olunan fərz etmələr müəyyən dərəcədə mübahisəlidir, çünki onlar həqiqətən də bütün risk növləri üçün gözlənilməyə bilər. Lakin onlar sahibkarlıq riskinin dəyişmələrinin ümumi qanunauyğunluqlarını düzgün əks etdirirlər və mənfəətin təsadüfi kəmiyyət kimi normal və ya normala yaxın bölgü qanununa tabe olması kimi fərziyyəyə əsaslanır.**

**Mənfəət əldə olunması ehtimalı əyrisindən çıxış edərək mümkün mənfəət itkiləri ehtimallarının risk əyrisi adlandırılan bölüşdürülməsi əyrisini quraq. Faktiki olaraq bu, başqa koordinat sistemində qurulmuş elə həmin əyridir (şəkil 17.3).**

**Ehtimal olunan mənfəət (gəlir) itkisinin bölüşdürülməsinin təsvir olunmuş əyrisi üzərində bir sıra səciyyəvi nöqtələri qeyd edək. Birinci nöqtə ($DPR = 0$ və $V = V_R$) mənfəətin sıfır itkisi ehtimalını qiymətləndirir. Qəbul olunmuş fərziyyələrə müvafiq olaraq sıfır itkilərin ehtimalı maksimumdur, hərçənd, əlbəttə, vahiddən azdır. İkinci nöqtə ($DPR = PR_R$ və $V = V_D$) gözlənilən mənfəətə bərabər mümkün itkilərin kəmiyyəti ilə, yəni mənfəətin tam itirilməsi ilə səciyyələnir. 1 və 2 nöqtələri qonşudurlar, onlar yol verilən risk zonasının vəzijfyətini müəyyənləşdirirlər.**

**Üçüncü nöqtə (DPR = VR və V = V^R) hesablaşma satış pulu VR itkisi kəmiyyətinə müvafiqdir. Belə itkilərin ehtimalı VKR-ə bərabərdir. 2 və 3 nöqtələri böhranlı zonanın hüdudlarındadır.**

**Dördüncü nöqtə (DPR = İS və V = VRT) sahibkarın əmlak vəziyyətinə (İS) bərabər itkilərlə səciyyələnir ki, bunların da ehtimalı bərabərdir. 3 və 4 nöqtələri arasında fəlakətli risk zonası yerləşir.**

**Sahibkarın əmlak vəziyyətindən artıq itkilər nəzərdən keçirilmir, çünki onları almaq mümkün deyil.**

**Müəyyən səviyyədə itkilər ehtimalı gözlənilən risk və onun məqbulluğu barədə fikir yürütməyə imkan verən mühüm göstəricilərdir, buna görə də qurulmuş əyrini risk əyrisi adlandırmaq olar. Məsələn, əgər fəlakətli itki ehtimalı bütün əmlakın itirilməsindən ciddi xəbər verən göstərici ilə ifadə olunmuşsa (deyək ki, onun qiyməti 0,2-yə bərabərdir), onda ağlı başında olan ehtiyatlı sahibkar belə işdən imtina edib bu riskə getməz.**

**Beləliklə, sahibkarlıq fəaliyyəti riskinin qiymətləndirilməsi zamanı bütün ehtimal olunan risk əyrisini qurmayıb, yalnız dörd (ən çox ehtimal olunan risk və yol verilə bilən risk səviyyəsi, böhran və fəlakətli itkilər) səciyyəvi nöqtələrini müəyyənləşdirmək mümkün olursa, belə qiymətləndirmə qarşısında duran məsələnin uğurla həll olunduğunu hesab etmək olar. Bu göstəricilər əksər hallarda əsaslandırılmış riskə getmək üçün kifayət edir.**

**Riski qiymətləndirən sahibkar üçün nöqtəvi deyil, interval yanaşma daha səciyyəvidir. Onun üçün yalnız nəzərdə tutulmuş sövdədə 1000 rublun İtirilməsi ehtimalının 0,1 və ya 10% təşkil etməsini bilmək vacib deyil. O həm də müəyyən hədlərdə (1000-dən 1500 rubl intervalında) olan məbləğin itirilməsi ehtimalı ilə də maraqlanacaq.**

**itkilərin ehtimal əyrisi bu suala itkilərin verilmiş intervalda ehtimalın orta qiymətinin hesablanması yolu ilə cavab verməyə imkan verir.**




Şəkil 17.3. Risk əyrisi

tnterval yanaşmasının digər, «yarıminterval» formasının da təzahürü mümkündür, bu məhz sahibkarlıq riski üçün səciyyəvidir.

Riskin mümkünlüyü və məqsədəuyğunluğu barədə qərar qəbul etdikdə sahibkar üçün müəyyən səviyyədə itkilərin ehtimal olunduğunu bilməkdən daha vacib bu itkilərin hər hansı bir səviyyədən yüksək olmayacağını bilməkdir. Məntiqlə riskin əsas göstəricisi məhz budur.

İtkilərin müəyyən səviyyədən yüksək olinayacağı ehtimalı etibarlılığın, inamlılığın göstəricisidir. Aydındır ki, sahibkarlıq işinin risk və etibarlılıq göstəriciləri bir-biri ilə sıx əlaqədardır.

Fərz edək ki, biznesmen müəyyənləşdirib ki, 10000 rublu itirmək ehtimalı 0,1%-ə bərabərdir, yəni nisbətən azdır və o belə riskə hazırdır. Burada əsas odur ki, sahibkar məhz tam 10000 rubl itirməkdən qorxmur. O bundan istənilən qədər az itki ilə barışmağa hazırdır, lakin bundan artıq itki ilə barışa bilməz. Bu, risk şəraitində biznesmenin təbii qanunauyğun davranış psixologiyasıdır.

**Risk göstəricilərini - VR, VJ„ VRR, VRT " bilmək fikirləşməyə və sahibkarlığın həyata keçirilməsi üçün qərar qəbul etməyə imkan verir. Lakin belə qərar üçün yol verilən, böhranlı və fəlakətli risklərin göstəricilərini (ehtimalını) qiymətləndirmək kifayət deyil. Həm də hədsiz, qeyri-məqbul risk zonasına düşməmək üçün bu göstəricilərin ondan yuxarı qalxmamalı olduğu son hədd kəmiyyətlərini müəyyənləşdirmək və ya qəbul etmək Lazımdır.**

**Yol verilən böhranlı və fəlakətli risklərin hədd qiymətlərini - müvafiq olaraq Ku, KKR, ~ qeyd edək. Bu göstəricilərin kəmiyyətinin əslində tətbiqi sahibkarlıq riski nəzəriyyəsi müəyyənləşdirməli və tövsiyə etməlidir, lakin sahibkarın özü də onu aşmaq fikrində olmadığı öz son hədd risk səviyyələrini müəyyənləşdirə bilər. Bizim misalda risk göstəricilərinin aşağıdakı son hədd qiymətlərini əsas götürmək olar: Kp = 0,1; KRR = 0,01; KRT = 0,001, yəni müvafiq olaraq 10, 1 və 0,1%. Bu o deməkdir ki, hər yüz haldan onunda bütün mənfəət, yüz haldan birində bütün satış pulu və heç olmasa min haldan birində əmlak itirilə bilərsə, sövdələşməyə getmək olmaz.**

**Üç risk göstəricisi və son hədd risk kriterilərinin qiymətlərini bildikdən sonra təhlil olunan sahibkarlıq növünün ən ümumi məqbulluq şərtlərinin düsturunu vermək olar.**

**A. Yol verilən risk göstəricisi son hədd kəmiyyətindən (VD< KU) artıq olmamalıdır.**

**B. Böhranh risk göstəricisi son hədd kəmiyyətindən (VRR< KR az olmamalıdır.**

**C. Fəlakətli risk göstəricisi son hədd kəmiyyətindən (VKT - ^KT) yüksək olmamalıdır.**

**indi isə itkilərin meydana gəlməsi ehtimalı əyrilərini qurmaq üçün tətbiq oluna biləcək üsulları nəzərdən keçirək. Risk əyrisi qurmağın tətbiqi üsullarından statistik, ekspert, hesablama-analitiki göstərək.**

**Statistik üsul ondan ibarətdir ki, analoji sahibkarlıq fəaliyyətində rast gəlinən itkilərin statistikası öyrənilir.**

müəyyən səviyyəli itkilərin təzahür tezliyi müəyyənləşdirilir. Əgər statistik göstəricilər kifayət qədərdirsə, bu səviyyəli itkilərin təzahür tezliyini ilkin yanaşmada onların təzahür ehtimalı kimi götürmək və bunun əsasında itki ehtimalı əyrisini qurmaq olar ki, bu da axtarılan risk əyrisidir. Bəzi itki səviyyələrinin təzahür tezliyini müvafiq halların sayını onların ümumi sayına bölməklə müəyyənləşdirərkən halların ümumi sayına itki deyil, qazanc, yəni hesablaşma mənfəətini üstələmə olan sahibkarlıq sövdələrini də əlavə etmək lazımdır. Əks halda itkilər ehtimalı və risk təhlükəsi göstəriciləri şişirdilmiş olar.

Ekspert üsulu ekspert qiymətləndirməsi metodu kimi məlumdur. Sahibkarlıq riskinə tətbiq edildikdə bu, təcrübəli sahibkarlar və ya mütəxəssislərin fikrinin təhlil edilməsi yolu ilə həyata keçirilə bilər.

Hesablama-analitik üsul. İtki ehtimalı bölgüsü əyrisinin bu qurulma üsulu və bunun əsasında sahibkarlıq riski göstəricilərinin qiymətləndirilməsi nəzəri mülahizələrə əsaslanır.

Təəssüf ki, riskin tətbiqi nəzəriyyəsi yalnız sığorta və oyunlar riskinə nəzərən işlənilmişdir. Prinsip etibarilə oyunlar nəzəriyyəsi bütün sahibkarlıq risklərinə tətbiq oluna bilər, lakin oyunlar nəzəriyyəsi əsasında istehsal, kommersiya, maliyyə risklərinin qiymətləndirmə hesablamalarının tətbiqi riyazi metodları hələ də yaradılmayıb.

## *§5. Risklari idarBetmB metodları*

Təsərrüfat təcrübəsində tətbiq olunan riski idarəetmə metodlarının hamısını dörd növə bölmək olar (bax şəkil 17.4):

- riskdən yayınma metodları;
- riski məhdudlaşdırmaq metodlan;
- riski dissipasiya etmək (səpələmə) metodlan;
- riski əvəz etmək metodları.

Riskdən yayınma metodlarından risk etmədən hərəkət etməyə üstünlük verən sahibkarlar istifadə edirlər. Bu tipli

rəhbərlər şübhəli tərəfdaşların xidmətlərindən imtina edir, öz etibarlılıqlarını inandırıcı surətdə təsdiqləmiş tərəfdaşlarla - istehlakçı və təminatçılarla işləməyə üstünlük verir, onların dairəsini genişləndirməməyə çalışırlar və s.

«Riskdən yayınma» taktikasından istifadə edən təsərrüfat subyektləri yerinə yetirilməsi və ya səmərəliliyi cüzi də olsa şübhə doğuran innovasiya və başqa layihələrdən imtina edirlər. Belə ki, «risksiz strategiyanın seçən banklar yalnız konkret təminata görə, yəni daşınmaz əmlak və ya əmtəə və s. girov qoyulduqda kredit verirlər.

Riskdən yayınmanın digər yolu onu hər hansı bir üçüncü şəxs üzərinə keçirməkdir. Bu məqsədlə hərəkətlərinin sığortalanmasına və ya <t təminatçıya n müraciət edir və riski bütövlüklə onlara həvalə edirlər.

Daha geniş səpkidə firma maliyyə-təsərrüfat sövdələrinin regional sığortalanması sisteminin və müvafiq təkrar sığor-talama sisteminin və s. yaradılması təşəbbüsü ilə çıxış edə bilər.

Bununla belə qeyd olunmalıdır ki, sığortalanma kimi geniş yayılmış riskdən yayınma metodu firmaların üzləşdiyi bir çox hallarda tətbiq oluna bilmir. Bu, birinci növbədə yeni məhsul növünün istehsalına və ya yeni texnologiyaların tətbiqinə başlayan firmalar üçün səciyyəvidir, çünki sığorta şirkətlərində aktual hesablamaların aparılması üçün belə hallar üzrə statistik verilənlər yoxdur, buna gÖrə də onlar bu risk növlərini sığortalamırlar. Odur ki, risk dərəcəsini azaltmaq üçün hərəkət növünü seçdikdə həmin risk amilinin sığortala- ma predmeti olub-olmadığını aydınlaşdırmak lazımdır. Sığortalanmayan riskdə riski neytrallaşdırmanın digər metodlarını nəzərdən keçirmək lazımdır.

«Təminatçı axtarmaq^ metodu həm kiçik, həm də böyük firmalar tərəfindən istifadə olunur. Arama təminatçı vəzifəsini onlar üçün müxtəlif subyektlər yerinə yetirirlər: bəziləri iri şikrətlərin (məsələn, banklann, sığorta cəmiyyətlərinin, fondların), digərləri dövlət idarə orqanlarının «himayəsinə

**tapmırlar*. Bu zaman belə bir sual doğur: riskli vəziyyət üçün əldə olunmuş mühafizənin haqqını nə ilə ödəmək olar? Vahid cavab yoxdur, lakin görünür qarşılıqlı faydalılıq prinsipi gözlənilməlidir. Arzu olunan təminatçını nadir xidmətlərlə, siyasi dəstəklə, sözsüz xeyriyyəçiliklə və s. maraqlandırmaq olar, amma başqa hallarda olduğu kimi, burada da ödənc və əldə olunan qazanc müqayisə olunmalıdır. Bu isə vəziyyətin qruplaşdırılmasını və konkret təhlilini, firmanın etibarlı fəaliyyət əldə etməsi variantlarını işləyib öyrənilməsini qiymətləndirməyi və müqayisə etməyi tələb edir.**

**Riskin məhdudlaşdırılması metodlarına risk mənbələrini kifayət qədər dəqiq və konkret müəyyənləşdirmək mümkün olan nisbətən nadir hallarda müraciət olunur. İqtisadi cəhətdən ən təhlükəli mərhələ və ya fəaliyyət sahələrini müəyyənləşdirib, onları nəzarətdə saxlamaq və beləliklə, firmanın sondakı risk səviyyəsini aşağı salmaq olar. Belə metodlar bir çox iri istehsal şirkətləri tərəfindən çoxdan tətbiq olunur: məsələn, kommersiya uğuru böyük şübhələr doğuran innovasiya layihələrinin istehsalda tətbiqində, yeni məhsul növünün istehsalına başlanmasında və s. Bir qayda olaraq bu intensiv LİETT və ya ən yeni elmi nailiyyətlərin tətbiqi tələb olunan, sənayedə hələ təcrübədən keçməmiş məhsul növləridir. Belə yüksək riskli layihələrin həyata keçirilməsi üçün vençurlu (riskli) adlanan «qız* müəssisəsi yaradılır. Layihənin ən riskli hissəsi yeni yaradılmış və nisbətən kiçik müstəqil firma hüdudlarında məhdudlaşdırılır; eyni zamanda «ana* şirkətin elmi və texniki potensialının səmərəli qoşulması üçün şərait saxlanılır.**

**Riskin səpələnməsi metodları ən çevik idarəetmə alətləridir. Əsas səpələnmə metodlarından biri ümumi riskin ümumi işin uğrunda maraqlı olan başqa iştirakçılarla birləşərək (müxtəlif səviyyədə inteqrasiya yolu ilə) paylaşdırılmasıdır. Firma ümumi problemin həllinə tərəfdaş kimi digər müəssisələri və hətta fiziki şəxsləri cəlb etməklə öz risk səviyyəsini azaltmaq imkanına malikdir. Bu məqsədlə**

**cəmiyyətləri, maliyyə-sənaye qrupları yaradıla bilər; firmalar bir-birinin səhmlərini ala və ya səhmlər mübadiləsini apara bilər, müxtəlif şirkətlərə, assosiasiyalara, konsernlərə daxil ola bilərlər. İnteqrasiya ya bir tabelikdə olan və ya bir sahəyə məxsus bir neçə müəssisənin razılaşdırılmış qiymət siyasəti yürütmək, təsərrüfat zonalarını bölüşdürmək, «pi- ratlığa* qarşı birgə fəaliyyət göstərmək və s. üçün birləşməsində təzahür edən şaquli (və ya diaqonal), ya da texniki hədlərin, təminat və satış əməliyyatlarının ardıcıllığında təzahür edən üfüqi ola bilir. Bu zaman əlavə səmərə yaranır: firmanın giriş və çıxışında qabaqcadan nəzərə alına bilən əmtəə bazarı, etibarlı uzunmüddətli tələb və məhsul istehsalı üçün zəruri olan məmulatların təminatı üçün adacıqlan yaranır. Riskin idarəedilməsinin bu metodİEirı qrupuna müxtəlif diversifikasiya variantları da aiddir:**

**■fəaliyyətin diversifikasiyası - istifadə olunan və ya istifadəyə hazır texnologiyaların miqdarının artırılması, istehsal olunan məhsulun çeşidinin və ya göstərilən xidmətlər spektrinin genişləndirilməsi, istehlakçıların müxtəlif sosial qruplarına, müxtəlif regionların müəssisələrinə yönümlənmə kimi başa düşülür;**

**■satış bazarının diversifikasiyası, yəni eyni zamanda bir neçə əmtəə bazarında işləmə - bu zaman bazarlardan birindəki uğursuzluq digərlərindəki uğurla əvəzlənmiş olunur; təchizatın çoxsaylı istehlakçılar arasında bölüşdürülməsi; bu zaman hər bir tərəfdaşın payının ümumi istehsal həcmində bərabər bölüşdürülməsinə səy göstərilməlidir ki, onlardan bir neçəsinin imtina etməsi bütövlükdə istehsal-satış proqramını pozmasın;**

**■xammal və materiallar alışı diversifikasiyası çoxlu təchizatçı ilə əlaqədə olmağı nəzərdə tutur ki, bu da müəssisəni onun «əhatəsindəni, ayrı-ayrı xammal, material və komp- lektləşdirici təchizatçıların etibarsızlığından asılılığını azaltmağa imkan verir; tərəfdaş təchizat qrafikini ən müxtəlif, o cümlədən obyektiv səbəblərdən (qəza, iflas olmaq, fövqəladə**




**Şəkil 17.4. Riski idarəetmə metodlarının təsnifatı**

**şəraitlər və s.) pozduqda firma elə həmin və ya analoji, amma bir qədər fərqli məhsulun təchizatçısı ilə iş birliyinə keçə bilər.**

**Müxtəlif təhdidedici vəziyyətlərlə mübarizə istiqamətlərindən biri, təhlükənin qabağının alınması mexanizminin yaradılması ilə bağlı olanı riskin əvəzlənməsi metodlan qrupu ilə təmsil olunmuşdur. Təsir növünə görə onlan qabaqlayıcı idarəetmə metodlarına (avtomatik idarəetmə nəzəriyyəsində buna «qıcıqlanma üzrə idarəetməm məfhumu müvafiqdir) aid edirlər. Təəssüf ki, bu metodlar adətən çox əmək tutumludur, geniş ilkin analitik iş tələb edir ki, onların tətbiqinin səmərəliliyi də həmin işin dolğunluğu və dəqiqliyindən asılıdır.**

**Bu növ metodlardan ən səmərəlisi firmanın fəaliyyətində strateji planlaşdırmadan istifadədir. Riski əvəz etmək vasitəsi kimi strateji planlaşdırma strategiyanın işlənib hazırlanması prosesi firmanın bütün fəaliyyət sahələrini sözün tam mənasında əhatə etdikdə səmərə verir.**

**Bu metodun növlərindən biri «xarici iqtisadi şəraitin proqnozlaşdırılması» hesab oluna bilər. Bu metodun mahiyyəti həmin müəssisə üçün mütəmadi olaraq inkişaf ssenarisi hEizırlamaqda və onun təsərrüfat mühitinin gələcək vəziyyəti qiymətləndirməkdə mümkün tərəfdaşların davranışını və ya rəqiblərin hərəkətlərini, müəssisənin satıcı və ya alıcı qismində çıxış etdiyi bazar bölmələri və seqmentlərində dəyişiklikləri proqnozlaşdırmaqda və nəhayət, regional və ümumiqtisadi proqnozlaşdırmadadır.**

**Aydındır ki, bu proqnozlar müvafiq proseslər haqqındakı cari informasiya izlənilmədən mümkün deyil. Buna görə də daha bir mühüm və səmərəli metodun - «sosial-iqtisadi və normativ-hüquqi mühitin monitorinqi^nin adını çəkək. Burada informatizasiyanın - aktuallaşdırılan normativ-sorğu informasiyası kompüter sistemlərinin alınmasının, kommersiya informasiyası şəbəkələrinə qoşulmanın, öz proqnozlaş-dırma-analitik tədqiqatlarının aparılmasının, müvafiq xidmətin məsləhət firmalarına və ayrı-ayrı məsləhətçilərə sifariş verilməsinin böyük köməyi ola bilər. Əldə olunmuş nəticələr təsərrüfat subyektlərinin münasibətlərindəki yeni meylləri hiss etməyə, normativ yeniliklərə əvvəlcədən hazırlaşmağa, təsərrüfat fəaliyyətinin aparılması qaydalarındakı dəyişikliklərdən irəli gələn itkiləri əvəz etmək üçün zəruri ölçülər götürməyə, işin gedişində taktiki və strateji planları dəqiqləşdirməyə imkan verir.**

**«Ehtiyatlar sistemi yaradılması* metodu sığortaya çox yaxındır, lakin o, müəssisənin öz daxilində cəmlənir. Bu halda müəssisədə xammalın, materialların və komplektləşdiri- cilərin sığortalayıcı ehtiyatları, ehtiyat pul vəsaitləri fondu yaradılır, böhranlı vəziyyətlərdə onların tətbiqinin planları**

**hazırlanır, azad istehsal gücləri işə cəlb olunmur, sanki ehtiyat üçün yeni kontaktlar və əlaqələr yaradılır.**

**Qeyd etmək lazımdır ki, hazırda maliyyə ehtiyatları yaradılmasına aşkar üstünlük verilir ki, bunlar öz pul sığorta fondlarının toplanması, gözlənilməz xərclər lazım olduğu hallar üçün «qaynar» kredit xətlərinin hazırlanması, girovdan istifadə şəklində çıxış edə bilir. Deməli, maliyyə strategiyasının, öz aktiv və passivlərini idarə etmək siyasətinin hazırlanması, onların optimal quruluşunun təşkili və qoyulmuş vəsaitin kifayət qədər likvidliyinin təmin edilməsi firma üçün vacib olur.**

**Ehtiyatların işə salınması planlarında müəssisənin daxili mühitinin ehtiyatlarından istifadə edilməsi, onun özütəkmil-ləşməsi — şəxsi heyətin riskə meylliyinə müvafiq olaraq onun öyrədilməsi və treninqindən spesifik korporativ mədəniyyətin aşılanmasına qədər-imkanları nəzərdə tutulmalıdır.**

**Risklə mübarizə vasitəsi kimi fəal məqsədyönlü marketinqdən istifadəni seçən müəssisə intensiv şəkildə öz məhsuluna tələbi forra^daşdırmağa başlayır. Bunun üçün müxtəlif marketinq metodları və üsullarından: bazarın seqmentləşdi- rilməsindən, onun tutumunun qiymətləndirilməsindən, potensial istehlakçılara və investorlara məhsulun və bütövlükdə müəssisənin ən yaxşı keyfiyyətləri barədə hərtərəfli informasiyanın verilməsi də daxil olmaqla reklam kampaniyasının təşkilindən, rəqiblərin davranışının təhlilindən, rəqabət mübarizəsi strategiyasının hazırlanmasından, xərcləri idarə etmək siyasəti və ölçülərinin işlənib hazırlanmasından və s. istifadə olunur.**

# B. MİKROİQTİSADİYYAT - 2

## XVIII FƏSİL. İSTEHLAKÇI DAVRANIŞI NƏZƏRİYYƏSİ

*§1 .istehlakçı davranışı və smtəmin faydalüığı.*
*§2.İstehlakçı davranışının kardinalist nazariyyasi.*
*§3.Qeyri-müayyənlik və risk şəraitində istehlakçının səmərəli seçimi,*
*§4Jstehlakçı davranışının ordinalist nəzəriyyəsi.*
*§5.CJIiks və Y.Slutskiyə görə gəlir effekti və əvəzləmə effekti. Məhsul elementlərinin xüsusiyyətlərinin təhlili əsasında istehlakçı seçimi.*

**İstehsalçı maksimum mənfəət əldə etməyə çalışır və bunun üçün təsərrüfat fəaliyyətini yaradılan məhsula tələbi, resursların qiymətini və bir çox başqa amilləri nəzərə almaqla aparır.**

**İstehlakçının məqsədi öz gəlirindən, şəxsi maraqlarından çıxış edərək və əmtəə və xidmətlərin bazar qiymətlərini nəzərə almaqla öz tələbatlarını maksimum ödəmək, aldığı əmtəə və xidmətlərdən maksimum faydalanmaqdır.**

### *§1. İstehlakçı davranışı vs smts^nin faydahlığı*

**Nemətlərin insanların bu və ya digər tələbatlarını ödəmək qabiliyyəti onların faydal ılığındadır. Bu və ya digər neməti alarkən insanlar həmin faydahlığı özləri üçün qiymətləndirirlər. Bu faydalılıq həmin nemətin istehlakından aldığı ləzzətə (faydalılıq) görə insanın ödədiyi qiymətdə maddiləşir. Beləliklə, faydalılıq nəzəriyyəsi əmtəə və xidmətlərə qiymətin formalaşması prosesini izah edir.**

**Faydalılıq nəzəriyyəsinin iqtisad elminin inkişafında rolu və əhəmiyyəti əvəzsizdir. O, XVIII əsrdə yaranmış və klassik eləcə də marksist siyasi iqtisaddan fərqli olaraq, onun əsas tədqiqat obyekti istehsal sahəsi deyil, tədavül sahəsi olmuş**

**dur, çünfci müxtəlif nemətlərin faydalı xüsusiyyətlərinin həm alıcılar, həm də satıcılar tərəfindən qiymətləndirilməsi məhz mübadilədə (bazarda) baş verir; onların qarşılıqlı təsiri nəticəsində nemətin qiymətliliyi, onun qiyməti müəyyənləşir. Ona lazım olan neməti almaq üçün hansı miqdarda pul verməyə hazır olması problemini hər bir alıcı özü müstəqil həll edir. Qiymətin formalaşmasının bu konsepsiyasının əsasında - nemətin qiymətliliyinin alıcı tərəfindən yalnız subyektiv müəyyənləşdirməsi prosesi durur. Buna görə də bu iqtisadi konsepsiya (faydalılıq nəzəriyyəsi) insan tələbatlarına yönümlənib ki, onlar da istehsalı özlərinə tabe etdirir, onun inkişafını istiqamətləndirirlər. Bu konsepsiya çərçivəsində istehsal naminə istehsalı inkişaf etdirmək qeyri-mümkün olur, çünki istehsal amillərinin qiymətliliyi onların istehsalı üçün aldıqları istehlak şeylərinin qiymətliliyindən, faydalılığından asılıdır.**

**Faydalılıq nəzəriyyəsi sonrakı inkişafını son hədd faydalılığı, yəni istehlakçının hər növbəti əlavə nemət vahidini alarkən əldə etdiyi faydalılıq nəzəriyyəsində aldı.**

**«Faydalılıq» məfhumunun özü elm aləminə ilk dəfə ingilis sosioloqu t.Bentam (1748-1832) tərəfindən daxil edilmişdir. Lakin əmtəənin qiymətliliyi ilə onun istehlakından alınan faydalılıq arasındakı əlaqəni yalnız A.Smit (1723-1790) izah edə bilmişdi. O, «istehlakdakı qiymətlilik»lə (faydalılıq) və «mübadilədəki qiymətliliyi* fərqləndirmişdi.**

**1862-ci ildə İngilis iqtisadçısı U.Cevons (1835-1882) son hədd faydalılığı nəzəriyyəsini irəli sürdü və sübut etdi ki, ümumi deyil, məhz son hədd faydalılığının bazar qiymətinə aidiyyatı var. Son hədd faydalıhfı konsepsiyasının tam şərhini o, «Siyasi iqtisadın nəzəriyyəsi* (1871) əsərində vermişdir.**

**İqtisadi nəzəriyyə baxımından, istehlakçının bazarda davranışını onun faydalılığı qiymətləndirməsi müəyyənləşdirir. Faydalılığı necə ölçməli? İqtisadi nəzəriyyədə onun ölçülməsində iki yanaşma məlumdur: kardinalist və oridinalist. Fay-**

dalıhğın ölçülməsində kardinallst yanaşma faydalılımın miqdarının tam dəqiq, kəmiyyət müəyyənliyini nəzərdə tutur. Kardinalistlər (K.Menger, L.Valras) faydalılıq ölçüsü kimi «yutib şərti-subyektiv vahiddən istifadə edirlər.

Faydalılığın ölçülməsinə ordinalist yanaşma müəyyən düzümü, yəni əmtəə və xidmətlərin üstünlük verilməsi, seçim ardıcılhmı prinsipinə əsasən sıralanmasını nəzərdə tutur. «Ordinar>> məfhumunun özü dərəcələnmiş və ya müəyyən qaydada düzümlənmiş (1-ci, 2-ci, 3-cü və s.) deməkdir. Müasir ordinalistlər (V.Pareto, t.Fişer, C.Hiks) faydalılıq dedikdə yalnız üstünlüklərin sıralanmasını başa düşürlər.

Tarixi və metodoloji cəhətdən kardinalizm ordinalizmdən əvvəl gəlir, buna görə də faydalılıq nəzəriyyəsinin öyrənilməsini kardinalist mövqelərdən başlamaq lazımdır.

### *§2. İstehlakçı davranışının kardinalist nsz9riyy98i*

**Ümumi və son həddfaydalılığı. Son hədd faydalıhmımn azalması qanunu**

İstehlakçı davranışı istehlakçıların gəlirləri və şəxsi maraqları nəzərə alınaraq müxtəlif əmtəə və xidmətlərə olan tələblərinin formalaşması prosesidir.

İstehlakçı davranışını təhlil etməzdən əvvəl aşağıdakı şərtilikləri qəbul etmək lazımdır. Deyək ki:

- bütün əmtəə və xidmət bazarları təkmil rəqabətli bazarlardır, bütün əmtəə və xidmətlərin bazar qiyməti mövcuddur;
- alış haqqında qərar qəbul etmək üçün istehlakçı lazımi səhih məlumatlara malikdir;
- istehlakçı özünü səmərəli aparır, yəni özünün pul gəlirini elə xərcləmək istəyir ki, maksimum məcmu faydalılıq əldə edə bilsin.

Ümumi və son hədd faydalılığı fərqləndirilir. Ümumi faydalılıq - müəyyən əmtəə vahidləri cəminin istehlakmdan alınan ləzzətdir. Son hədd faydalılığı isə həmin əmtəənin əlavə

**çoxalmasına bərabər olan artıma deyilir. Son həd faydalılımı tələbatın çox zərurilik dərəcəsini əks etdirir. Deyək ki, istehlakçı televizor almağa hazırlaşır, ilk alqıya tələbat çox yüksəkdir; ikinci və üçüncü televizorun son həd faydalılığı müvafiq olaraq, aşağı olacaq. Son həd faydalılığının azalması alınmış nemət vahidlərinin sayı artdıqca istehlakçı tərəfindən əmtəə vahidinin subyektiv qiymətləndirilməsinin aşağı düşməsi ilə bağlıdır. Nə üçün? Çünki bu konkret əmtəə (televizor) tədricən istehlakçını təmin edəcək.**

**Son həd faydalılığının azalması prinsipini ilk dəfə 1854- cü ildə müəyyənləşdirmiş alman iqtisadçısı H.Qossenin (1810-1858) adı ilə Qossenin birinci qanunu adlandırırlar. Bu qanunun iki müddəası var. Birincisi növbəti nemət vahidlərinin faydalılığının bir fasiləsiz istehlak aktında azalmasını qeyd edir ki, nəticədə bu nemətlə tam doyumluq yaranır. İkincisi təkrar istehlak aktlarında nemətin ilk vahidlərinin faydalılığının azalmasıdır.**

**Son həd faydalılığının azalması prinsipinin (qanununun) mahiyyəti ondadır ki, hər hansı bir nemətin istehlakının artması ilə (qalanlarının istehlak həcminin dəyişilməz qalması şərti ilə) istehlakçının əldə etdiyi ümumi faydalılıq (TU) artır, lakin get-gedə daha az artır.**

**Faydalılıq subyektiv anlayışdır, buna gÖrə də onun dəqiq kəmiyyət ölçülməsi qeyri-mümkündür. İqtisadçılar (onları kardinalist adlandırırlar) son həd faydalılığını hesablama cəhdində şərti vahid «yutiUi tətbiq edirlər ki, onun da köməkliyi ilə tələbatın təmin edilmə dərəcəsini müəyyənləşdirirlər (ing. utility - faydalılıq). İstənilən məhsulun məcmu faydalılığını son həd faydalılığı göstəricilərini cəmləmək yolu ilə müəyyənləşdirirlər. Məsələn, istehlakçı 10 əmtəə (alma) vahidi alır, bu miqdarda almanın ümumi faydalılığı (TU) UIO yutilə bərabərdir, 11-ci alma alınarsa, ümumi faydalılıq (TU) artar və Ull yutilə bərabər olar. Son həd fay- dalılığı, yəni əlavə 11-ci almadan alınan məmnunluq belə müəyyənləşdirilir:**

$$Mt/ = \frac{Uu\text{-}U..\ Vn\text{-}U._{10}}{11\text{-}10} \qquad (18.1)$$

**Ümumi və son hədd faydalılığının ümumi xüsusiyyətlərini qrafik şəkildə vermək olar (şəkil 18.1 və cədvəl 18.1).**




**Şəkil 18.1. Ümumi (a) və son hədd (b) faydalılığı**

*Cadvəl 18.1*

**Ümumi və son hədd faydahlığmm müəyyənləşdirilməsinə kardinalist yanaşma**

| Teatra (il ərzində) gedişlərin miqdarı (Q) | Teatra gedişlərin (il ərzində) ümumi faydalılığı (TU) | Teatra gedişlərin (il ərzində) son hədd faydalılığı (MU) |
|---|---|---|
| 0 | 0 | – |
| 1 | 10 | 10 |
| 2 | 13 | 3 |
| 3 | 15 | 2 |
| 4 | 16 | 1 |
| 5 | 16 | 0 |

**Cədvəl 18.1 və şəkil 18.1-dəki (a və b) qrafiklər istehlakçının il ərzində teatra getməkdən aldığı ümumi və son hədd faydalılığı arasındakı əlaqəni göstərirlər.**

**Cədvələ baxanda faydalılıq vahidinin necə dəyişdiyini görmək olar. Teatra ilk gediş insana 10 yutelə bərabər fayda verir, ikinci gediş daha az, 3-ə bərabər, məmnunluq verir, növbəti gediş ondan da az (yalnız 2) məmnunluq verir və bu meyl belə də davam edir.**

**Teatra gedişlərin sayı 1-dən 2-yə qədər artdıqca, ümumi faydalılıq (TU) 10-dan 13-ə kimi və b.k. artır. Qeyd etmək lazımdır ki, qrafikdəki əyri (şəkil 18.1, a) üfüqiləşən nöqtədə (4-cü və 5-ci gediş) ümumi faydalılıq (TU) maksimaldır, son hədd faydalılığı isə (MU) 0-a bərabərdir (şəkil 18,1, b).**

**Verilmiş qrafiklər əsasında aşağıdakı nəticələrə gəlmək olar: əmtəə (və ya xidmətlər) istehlakı tədricən çoxaldıqca məcmu faydalılıq (TU) artır, lakin getdikcə azalan templə. Buna görə də son hədd faydalılığı (MU) azalır. Əyrilərin vəziyyəti və mailliyi istehlakçının zövqündən asılı olacaq, lakin əyrilərin forması hamısı üçün eyni olacaq. Bu son hədd faydalılığmın azalması qanununun fəaliyyəti ilə izah olunur ki, bu qanuna görə əmtəə və ya xidmətin istehlakı artdıqca hər bir əlavə əmtəə və ya xidmətin son hədd faydalılığı azalır.**

## İstehlakçının davranış qaydası

**Hər bir növbəti əmtəə vahidi get-gedə daha az son hədd və ya əlavə faydalılığa malikdirsə, istehlakçı əlavə əmtəə vahidini yalnız onların qiymətinin aşağı düşdüyü halda alacaq. Son hədd faydalılığı qanunu azalan tələb (azalan tələb əyrisi) qanununu əsaslandırmağa imkan verir və istehlakçının ala biləcəyi müxtəlif əmtəə və xidmətlər arasında öz pul gəlirini necə bölüşdürməli olduğunu izah edir.**

**İstehlakçı tam şüurlu (səmərəli) insandır və öz pul gəlirini elə xərcləmək istəyir ki, maksimum məcmu gəliri əldə edə bilsin. O istədiyi hər şeyi ala bilməz, çünki pul gəliri məhduddur, onun almaq istədiyi əmtəələrin isə müəyyən qiyməti var. Buna görə də istehlakçı müxtəlif əmtəələr arasında seçim etməlidir ki, pul gəlirinin məhdudluğunda onun özü**

**nün nöqteyi-ndzərindən daha üstün bildiyi əmtəə və xidmətlər dəstinə yiyələnə bilsin,**

**BeləlİKİə, istehlaKçının öz pul gəlirinə əldə edə biləcəyi hansı əmtəə və xidmətlər dəsti ona daha çox fayda verir? İstehlaKçı davranışı qaydası bundan ibarətdir Kİ, əmtəə alınmasına hər bir sonuncu pul vahidi xərci eyni son hədd, yəni əlavə faydalılıq gətirməlidir.**

**Faydalılığın maKsimallaşdınIması qaydasını aşağıdaxı Kimi ifadə etməK olar:**

| | | | |
|---|---|---|---|
| **A dəstin son hədd faydalılımı** | **B dəstin son hədd faydalılığı** | **D dəstin son hədd faydalılığı** | **Büdcə gəlirindən xərclərin pul _ jvahidinə düşən orta son hədd faydalılığı** |
| **A dəstin qiyməti** | **B dəstin qiyməti** | **D dəstin qiyməti** | |

**(18.2)**

**Və ya deməK olar Kİ, istehlaKçı öz vəsaitlərini əmtəə alışı üzrə aşağıdanı Kimi bölüşdürsə maKSİmum məmnunluq ala bilər.**

**MU. MU, MU„**

**(18.3)**

**burada MU^, MUB, MU^ - A, B, D əmtəələrinin son hədd faydalılığıdır;**

**PB* * A., B, D dəstlərinin qiymətidir.**

**X - pulların hədd faydalılığını səciyyələndirən vahiddir. Bu bərabərliyi (18.3) aşağıdanı nimi izah etməK olar. MU^/PA nisbəti İstehlaKçının A əmtəəsinin alınmasına xərclərinin 1 rubl artması zamanı ümumi faydalılığın artımını göstərir. Aydındır Kİ, istehlaKçı üçün ən optimal hal belə nisbətlərin bir-birinə bərabər olmasıdır.**

**Başqa sözlə, alıcı bu əmtəəyə xərclənmiş bir pul vahidi hesabı ilə son hədd faydalılığı, digər əmtəəyə xərclənmiş pul vahidinə düşən son hədd faydalılığına bərabər olana Kİmi tələb göstərəcəK. Və onlardan hər biri pulun son hədd faydalılı- ğı KİMi (məsələn, 1 rubl) nəzərdən Keçirilə bilər. X**

**İstehlakçının pul gəlirinin 1 rubl artacağı təqdirdə ümumi faydalılığın (TU) neçə yutil artacağını göstərir.**

**Beləliklə, (18.3) bərabərliyi göstərir ki, müvazinətiik vəziyyətində (yəni gəlirin və əmtəələrin qiymətlərinin verilmiş kəmiyyətində maksimum mümkün məcmu faydalılığın səviyyəsi) hər hansı bir əmtəənin alınmasına xərclənmiş sonuncu pul vahidindən əldə olunmuş faydalılıq, hansı əmtəənin alınması üçün xərclənməsinə baxmayaraq, eynidir. Bu müddəa Qossenin ikinci qanunu adını almışdır.**

**Təhlili davam etdirərək fərz etmək olar ki, A əmtəəsinin qiyməti artıb, onda (18.3) bərabərliyində birinci nisbət $MU_A/P_A$ azalır.**

**Onu bərpa etmək və ümumi faydalılığı (TU) maksimallaşdırmaq üçün istehlakçı A əmtəəsinin istehlakını azaltmalıdır. Beləliklə, əmtəənin qiyməti qalxdıqca, ona tələbin kəmiyyəti azalır.**

**Bununla da, qiymət hər bir istehlakçının son hədd faydalılığını ayrılıqda ölçməyə imkan verir, çünki müxtəlif istehlakçıların pul vahidlərinin son hədd faydalılığı eyni deyil. Varlı və bir o qədər varlı olmayan adamların müvazinət şərtləri müxtəlifdir. Lakin onların aldıqları müxtəlif əmtəələrin son hədd faydalılıqlarının nisbəti eyni olacaq, çünki istənilən nemətin qiyməti hamı üçün eynidir. Əgər yuxarıda nəzərdən keçirdiyimiz faydalılığın maksimallaşdırılması (18.3) düsturunu dəyişsək və onu aşağıdakı kimi versək:**

MU, MU. MU,
MU. MU. MU. (18.4)

**görmək olar ki, istənilən iki nemətin MU-ları arasındakı nisbət onlara müvafiq olan P-lərin nisbətinə bərabərdir. Deməli, «n» nemətlərin son hədd faydahlıqları arasındakı nisbət onların müvafiq qiymətləri aralarındakı nisbət kimidir. Bu bütün istehlakçılar üçün doğrudur. Deyək ki, üç nemətin qiyməti 5, 3. 2-dir, bu halda həmin əmtəələrin son hədd fay- dalıhğı da 5:3:2 kimi nisbətdə olmalıdır. Lakin varlı isteh**

**lakçı üçün bu son hədd faydalılıqları, məsələn, 10, 6, 4, ona nisbətən kasıb üçün isə 15, 9, 6 ola bilərlər. Lakin onlar arasındakı nisbət hər iki halda eyni olacaq.**

**Qeyd edək ki, yuxarıda verilimiş düsturlarda nəzərə alınan bu göstərilən istehlak nemətləri qiymətləri tam dəqiq deyillər. Onlar yalnız əmtəənin bazar qiymətindən deyil, həm də onun alınmasına vaxt sərfini də nəzərə alan tam qiyməti əks etdirmirlir. Bu məqamın xüsusi əhəmiyyəti var, çünki iqtisadi resurs kimi vaxtın özünün müəyyən qiyməti var (məsələn, ABŞ qanunlarına müvafiq olaraq iş saatının minimum qiyməti 5 dollardır). Buna görə də məxrəc elə dəqiqləşdirilməlidir ki, ümumi P qiymətinə (kəsrin məxrəci) A əmtəənin özünün dəyəri ilə yanaşı əmtəənin alınmasına (axtarmaq, növbəyə dayanmaq, yerinə çatdırmaq, yenidən hazırlamaq və s.) və onu istehlaka hazırlamağa (buna istehlak xərcləri deyirlər) lazım olan vaxt sərfi də daxil olsun. Belə olanda, məsələn, istehlakçı evdəki nahara vaxt və vəsait xərcini və restorandakı nahara xərci müqayisə edərək öz pul gəlirini elə bölüşdürməyə çalışacaq ki, bundan daha çox öz tələbatlarını ödəmək üçün istifadə edə bilsin və bu zaman məcmu faydahhğı maksimallaşdırsın.**

**Bunu hələ A.Smit göstərmişdi: «Hər bir cismin həqiqi qiyməti, yəni hər bir cismin onu əldə etmək istəyənə həqiqətən hansı hesaba başa gəldiyi bu cismi almaq üçün lazım olan əmək və cəhdlərdirBuna görə də xeyli azad vaxt resursuna malik insanlar, həmçinin azad vaxtın onlar üçün qiyməti nisbətən aşağı olanlar əmtəələrin ümumi növbə qaydasında bölüşdürülməsi zamanı müəyyən üstünlüyə malik olurlar və növbədə keçirdikləri vaxtı pul gəlirinə çevirə bilərlər (məsələn, növbə ilə aldıqları əmtəəni daha baha qiymətə satmaq və ya növbədə yerini satmaqla); qıtlıq iqtisadiyyatında buna rast gəlinir.**

**’ CMHT A. HccjıeflOsaHne o tıpnpow H npHHHHax SoraTCTsa HapoaoB. M.: 1962. C.38.**

## Gdlir effekti və əvəzləmə effekti. Qiffen paradoksu

**Qeyd edək ki, son hədd faydahlığının azalması qanunu daim işlədiyindən faydalılığın maksimallaşdınlması qaydasını və məntiqi cəhətdən onunla uyğunlaşan tələb əyrisini qiymətin aşağı düşməsini nəzərə almaqla daim dəqiqləşdirmək lazım gəlir. Bu onunla əlaqədardır ki, alınan hər bir əmtəənin son hədd faydalılığı azalmaqla qiymətinin düşməsi istehlakçını bu əmtəədən yenə almağa sövq edir. Eyni bir əmtəənin hər bir növbəti satışı istehlakçının qiymət düşməsindən və sabit gəlir, bir də qarşılıqlı əvəzlənən əmtəələrin nisbətən daha yüksək qiymətləri şəraitində əlavə fayda götürməsi şərti ilə mümkündür. Aydındır ki, yüksək qiymət alıcının qabağını alır, aşağı qiymət isə alıcını əmtəə alışına şirnikləndirir.**

**Əmtəə qiymətinin aşağı düşməsi iki nəticəyə səbəb olur ki, bunlar da öz növbəsində əmtəələrə tələbin artımını şərtləndirir.**

**1. Gəlir effekti: əgər əmtəənin (məsələn, almanın) qiyməti düşürsə, onda həmin əmtəə (alma) istehlakçısının real gəliri və ya alıcılıq qabiliyyəti artır. Bu real gəlir artımı özünü müxtəlif əmtəələrin, alma da daxil olmaqla, alış həcminin artmasında göstərir. Almanın qiymətinin aşağı düşməsi alıcının real gəlirini artırır və bununla da ona həmin pul gəlirinə daha çox alma almaq imkanı verir.**

**2. Əvəzləmə effekti: məhsulun (almanın) qiymətinin azalması onun indi başqa əmtəələrdən ucuz olması deməkdir. Buna görə də alıcılar hazırda nisbətən baha olmuş başqa əmtəələri daha ucuz əmtəə (alma) ilə əvəzləməyə çalışacaqlar. Qiymətin aşağı düşməsi istehlakçını başqa əmtəələri (portağal, banan, armud) alma ilə əvəzləməyə stimullaşdıracaq. Qiymətin enməsi əmtəənin nisbi cəlbediciliyini artırır və alıcını onu daha çox miqdarda almağa məcbur edir.**

**Gəlir və əvəzləmə effektləri bir-birini tamamlayır və istehlakçınını daha yüksək qiymətə deyil, aşağı qiymətə çox miqdarda əmtəə almaq qabiliyyəti və istəyini şərtləndirir.**

**Amma elə hallar olur ki, əmtəənin qiymətinin azalması ona tələbin həcminin azalmasına səbəb olur. Belə əmtəə Qiffen əmtəəsi adlanır (bu hadisəni öyrənmiş ingilis iqtisadçısının ad ilə, bax şəkil 18.2.).**




**Şəkil 18.2. Qiffen əmtəələrinə tələb əyrisi**

**Aşağı keyfiyyətli əmtəələrin qiymətinin azalması şəraitində düşməsi əvəzləmə effekti tələbin artmasına, gəlir effekti isə onun azalmasına aparır. Gəlir effekti əvəzləmə effektindən zəif olarsa, əmtəəyə tələb artacaq. Gəlir effekti əvəzləmə effektindən güclü olduqda isə əmtəəyə tələbin səviyyəsi aşağı düşür və tələb əyrisi bu şəraitdə qiymətin artım funksiyası - Qiffen paradoksu olur.**

### *§3. Qeyri-mÜ9yyanUk və risk şəraitində istehlakçının səmərəli seçimi*

**İstehlakçının bazarda, ələlxüsus bahalı əmtəə (məişət elektrotexnikası, mebel) və ya qiymətli kağızlar (məsələn, səhmlər alanda kursun necə dəyişəcəyini - azalacağını və ya artacağını əvvəlcədən bilmək çətindir) alışında davranışı qeyri-müəyyən kimi səcijT^ələndirilə bilən vəziyyətlə bağlıdır. İstehlakçı bərbərxanaya gedəndə və ya əşyalarını (xüsusilə xəz və ya dəri məmulatlarını) kimyəvi təmizləməyə verəndə, yaxud turist səfərinə yollananda müəyyən dərəcədə riskə**

**gedir. Bütün hallarda nəticə 100% dəqiqliklə tam müəyyən deyil. Riskə getməyə dəyərmi? Qazanmaq (və ya heç olmasa uduzmamaq) üçün hansı qərarı qəbul etmək lazımdır?**

**Aparılmış tədqiqatlar (bu problem 17-ci fəsildə «Mikroiqtisadiyyatda qeyri-müəyyənlik amili. Risklər nəzəriyyəsi »ndə diqqətlə nəzərdən keçirilmişdir) göstərir ki, adamların çoxu qeyri-müəyyənlikdən, naməiumluqdan qaçmağa çalışır, yəni risk əleyhdarları qəbiləsinə aiddirlər. Riskə laqeyd olan (neytral) insanlar da var, riskə meyllilər də.**

**İnsanların qeyri-müəyyənlik və risk şəraitində davranışının təhlilində kardinalist son hədd faydalılığı nəzəriyyəsi istifadə olunur. Burada düşüncə məntiqi belədir: insanın itirdiyi hər bir dollar udulan hər bir dollara nisbətən baha qiymətləndirilir, buna görə də əgər 1000$ udmaq imkanı və eyni zamanda 1000$ uduzmaq şansı varsa, onda uduşun son hədd faydalılığı (MU) uduzmağın son hədd (itki) faydalılı- ğmdan aşağı qiymətləndiriləcək. Risk əleyhdarı riskə getməyəcək, yəni səmərəli hərəkət edəcək və beləliklə ümumi faydalılığı (TU) maksimallaşdıracaq. Deməli, risk əleyhdarlarının davranışı son hədd faydalıhğının azalması qanununa müvafiqdir.**

**İnsanların riskə getmək istəməməsi, hər yeni dollarda onların əldə etdikləri sərvətin faydalılıq artımının get-gedə azalması fikrini hələ 1738-ci ildə D.Bernulli söyləmişdi.**

**İnsanın qeyri-müəyyənlik şəraitində səmərəli qərar qəbul etməsi faydalılıq funksiyasına əsaslanır. Amerika alimləri C.Neyman və O.Morgenştern göstərmişlir ki, qərar qəbul edilməsində İnsan gözlənilən faydalılığın maksimallaşdınlmasına can atacaq, yəni bütün mümkün variantlardan o ən böyük gözlənilən faydalılığı təmin edənini seçəcək. Neyman-Morgenştern faydalılıq funksiyası qərar qəbul edən insanın mümkün nəticələrin hər birinə şamil etdiyi faydalılıqdır. Hər bir insanın özünün riskə münasibətindən asılı olaraq onun bu və ya digər nəticələrə üstünlükverimini göstərən öz faydalılıq funksiyası var.**

**Qrafik şakildə Neyman-Morgenştern faydalılıq funksiyası belədir (bax şəkil 18.3, a, b, c);**




a) riskə meylli olmayan insan üçün

b) riskə neytral insan üçün

**b) riskə meylli insan** uçnn

**U - İnsanın əldə etmək istədiyi faydaılıq;**
**GPQ - gözlənilən pul qiymətləndirilməsi (uduş)**

**Şəkil 18.3. Neyman-Margenştern faydalılıq funksiyasının qrafiki**

### *§4. İstehlakçı davranışının ordinalist nszsriyyəsi*

**Faydalılığın müəyyənləşdirilməsində nəzərdən keçirdiyimiz kəmiyyət yanaşması ilə yanaşı faydalılığın sıra nəzəriyyəsi də mövcuddur ki, bu da istehlakçı seçiminə kəmiyyət yanaşmasına nisbətən daha az ciddi tələbləri göstərir. Sıra, ordinalist yanaşması nəzərdə tutur ki, istehlakçı imkanı çatan əmtəə çoxluğundan özü üçün ən üstünlükverimli əmtəə dəstini seçir.**

**Sıra yanaşması aşağıdakı prinsiplərə əsaslanır. İstehlakçı üstünlükverimi və ya fərqsizlik münasibətlərinin köməkliyi ilə göstərə bilər ki, istənilən dəst cütü (məsələn, A və B) üçün:**

**1) biri (məsələn, A) o birindən (B) üstündür, A>B;**

**2) ikinci (B) birincidən (A) üstündür, B>A;**

**3) onlar bərabər qiymətlidirlər (A-B). Əgər A>B>C və ya A-B>C, yaxud A>B-C olarsa, onda A>C - bu, tranzitiv- lik prinsipidir. «Qeyri-doymuşluq» hallarında, məsələn, A dəstində o birilərin hər birindən kəmiyyətcə az olmadıqda və onlardan biri B dəstindəkindən artıq olduqda, A>B. Bu isə o deməkdir ki, digər əmtəələrin istehlak səviyyəsi dəyişilməz**

qalarsa, istənilən əmtəənin istehlakının artımı istehlakçının vəziyyətini yaxşılaşdırır. Və bir də istehlakçının məmnunluğu onun istehlak etdiyi əmtəələrin miqdarından asılı olub, başqalarının istehlak etdiyi əmtəələrin miqdarından asılı deyil, yəni sərbəstdir.

Ordinalist sıra nəzəriyyəsində "faydalılıq" məfhumu üstünlükverim ardıcıllığını göstərir. Deyəndə ki, A dəsti B dəstindən üstündür, bu o deməkdir ki, bu istehlakçı üçün A dəsti B dəstinə nisbətən daha çox faydalılıq verir. Bir əmtəənin digərindən istehlakçı üstünlükverimlərinin təhlili fərq- sizlik əyrilərinin köməkliyi ilə aparılır.

Fərqsizlik əyriləri konsepsiyası XX əsrin əvvəllərində italyan alimi V.Pareto tərəfindən işlənib hazırlanmışdı.

XX əsrin 30-cu illərində R.Allen və C.Hiksin əsərləri çıxandan sonra ordinalist faydalılıq nəzəriyyəsi ümumişləfc oldu və sonralar bir sıra yeni nəzəriyyələrin yaranmasına baxmayaraq, hazırda ən geniş yayılmış nəzəriyyədir.

Bu metodun əsasında iki əyri növünün - büdcə xətti və fərqsizlik əyrilərinin - həndəsi birləşməsi dayanır.

## Büdcə xətti, gəlir və əmtəələrin qiymətindən asılı olaraq onnn yerləşməsi

Büdcə xətti pul gəliri vahidinin sabit qalması şəraitində alına biləcək iki əmtəənin müxtəlif kombinasiyalarını göstərir. İstehlakçının büdcə məhdudluğunu aşağıdakı bərabərlik şəklində göstərmək olar:

$$İ = Px\ xX + Py\ X\ Y. \qquad (18.5)$$

Burada 1 - istehlakçının bütünlüklə X və Y əmtəələrinin alınmasına xərclədiyi gəlirdir.

Büdcə məhdudluğunun mənası bundadır ki, istehlakçının gəliri onun X və Y əmtəələrinin alınmasına xərclədiyi məbləğlərin cəminə bərabərdir.

**Məsələn, əgər X əmtəənin qiyməti 1 rubl, Y əmtəəninki isə 1,5 rubldursa, onda istehlakçı 12 rubl olan pul gəlirində X və Y əmtəələrin cədvəl 18.2-də göstərilmiş bütün kombinasiyalarını ala bilər. Qeyd edək ki, iki hədd hallarından birində istehlakçı bütün gəlirini 8 vahid Y əmtəəsinin (portağal) alınmasına xərcləyə bilərdi və bu halda X (alma) məhsuldan almağa onun pulu qalmazdı. Və ya iki vahid Y məhsuldan imtina etməklə o, 3 manat qənaət edə bilər, 6 vahid Y məhsulu və 3 vahid X məhsulu və s. ala bilər (bax cədvəl 18.2).**

*Cədvəl 18.2.*

**12 rubl gəliri olan istehlakçının ala biləcəyi X və Y əmtəələrinin büdcə xətti**

| Y məhsulu vahidləri (qiymət 1,5 rubldur) | X məhsulu vahidləri (qiymət 1 rubldur) | Məcmu xərc (12 rubl) |
|---|---|---|
| 8 | 0 | 12 (=12-1-0) |
| 6 | 3 | 12(=9-l-3) |
| 4 | 6 | 12(=6-l-6) |
| 2 | 9 | 12(=3-t-9) |
| 0 | 12 | 12(=0-l-12) |

**Şəkil 18.4-də büdcə xətti qrafik təsvir olunmuşdur. Büdcə xəttinin mailliyi X(Px) əmtəəsi qiymətinin Y(PY) əmtəəsi qiymətinə nisbətindən asılıdır.**

İman. *2*

P L.Sman. 3
y **(18.6)**

**Bu yalnız istehlakçının 3 vahid X məhsulu ala bilmək üçün 3 rubl əldə etmək məqsədilə hər biri 1,5 rubl olan 2 vahid Y məhsulundan imtina etməli olmasının riyazi ifadəsidir.**




ŞəKİl 18.4. Büdcə xətti

**Büdcə məhdudluğu istehlaxçı üçün mövcud qiymətlər və pul gəliri səviyyəsində əldə oluna bilən X və Y əmtəələri çeşidini müəyyənləşdirir (bax: cədvəl 18.2 və ŞƏKÜ 18.4 - dəKİ qrafİKə). MaKsimal miqdarda Y əmtəədən X=0 və Y=t/Py; moKSİmal miqdarda X əmtəədən Y=0 və X=l/Px olduqda almaq olar.**

**Büdcə xəttinin mailliyi qiymətlərin tərs mütənasibliyi ilə səciyyələnir; bu, mövcud pul gəlirində əlavə X əmtəəsi vahidi almaq üçün imtina etməK lazım gələn Y əmtəəsi miqdarını göstərir. Px/Py qiymətlər nisbəti X əmtəəsi istehlaKinın alternativ dəyərini ölçür və Y əmtəəsinin X əmtəəsi ilə əvəzləmə normasını müəyyənləşdirir.**

**Bu düz xəttin hər bir nöqtəsi 12 rubl təsbit edilmiş gəlirə malİK olan istehlaKçının Y (portağal) əmtəədən və X (alma) əmtəədən, pulunu tam xərcləməsi və portağal və almanın qiymətinin dəyişməməsi şərtilə nə qədər ala biləcəyini göstərir.**

**Büdcə xəttinin yerləşməsi asılıdır:**

- **pul gəlirinin məbləğindən;**
- **əmtəə qiymətlərinin dəyişməsindən.**

**1. Qiymətlərin dəyişməz qalması şərti ilə pul gəlirinin aşağı düşməsi büdcə xəttinin paralel sola yerdəyişməsinə səbəb olur. Müvafiq olaraq pul gəlirinin artması büdcə xəttinin sağa yerdəyişməsi ilə nəticələnir (şəKİl 18.5).**

**2. Hər iki əmtəənin qiyməti proporsional dəyişərsə, yəni eyni dəfə, qədər artıb-azalarsa (məsələn, 10% inflyasiyada bütün qiymətlər 1,1 dəfə artır), onda büdcə xətti də yerini paralel dəyişəcək: qiymətlər proporsional artarsa, büdcə xətti sola keçər və əksinə, qiymətlərin azalması büdcə xəttini sağa keçirər.**

**Buradan belə nəticə çıxır ki, gəlir və qiymətlər eyni zamanda proporsional artarsa (və ya eyni zamanda proporsional azalarsa), büdcə xəttinin vəziyyəti dəyişməz. Əhalinin gəlirlərinin indeksləşdirilməsinin mənası da bundadır: büdcə xəttinin paralel sola yerdəyişməsi ilə nəticələnən inflyasiya qiymət artımı, eyni zamanda gəlirin proporsional (yəni eyni dəfə) artımı ilə (bu da büdcə xəttini paralel sağa dəyişir) müşayiət olunur və deməli, büdcə xətti və əhalinin real rifahı dəyişmir.**

**Bəs əmtəələrin qiymətləri proporsional deyil, biri o birinə nisbətən dəyişsə, büdcə xətti necə dəyişər? Başqa sözlə, portağallar (Py) ucuzlaşsa, amma almaların (Px) qiyməti dəyişməsə, nə baş verər?**

**Əgər portağallar (Py) ucuzlaşıb və almaların (Px) qiyməti dəyişməsə, istehlakçı daha çox portağal ala bilər. Aydındır ki,**




**Şəkil 18.5. Pul gəlirinin artması zamanı büdcə xəttinin sağa yerdəyişməsi**

**Beləliklə, əmtəələrin nisbi qiymətlərinin dəyişməsi büdcə xəttinin mailliyini dəyişir (bax şəkil 18.5).**




**Şəkil 18.6. Y (portağal) əmtəəsi qiymətinin 1,5 rubldan 1 rubla azalması zamanı büdcə xətti**

**Y (portağal) əmtəəsi qiymətinin 1,5 rubldan 1 rubla düşməsi zamanı büdcə xətti şəkil 18.6-da verilib.**

**Qrafikdən gördüyümüz kimi, Y əmtəəsinin qiyməti düşüb, X əmtəəsinin qiyməti (1 rubl) əvvəlki kimi qalıb, gəlir dəyişməyib (12 rubl.), büdcə xətti mailliyini dəyişib. Büdcə xəttinin koordinat oxu ilə kəsişmə nöqtəsi koordinatın başlanğıcından uzaqlaşıb. İndi o, şaquli oxu daha yuxarı səviyyədə, üfüqi oxu isə əvvəlki nöqtədə kəsir (çünki X qiyməti dəyişməyib).**

**Fərqsizlik əyriləri. Əvəzləmənin son hədd norması**

**Fərqsizlik əyriləri. Aydındır ki, büdcə xətləri istehlakçının müəyyən pul gəlirinə malik olduğu halda mövcud qiymətlər nəzərə alınmaqla nələr ala biləcəyi sualına cavab verir. Fərqsizlik əyriləri Y və ya X məhsullarına istehlakçısının üstünlükverimləri barədə məlumat verir. Başqa sözlə, fərqsizlik əyriləri müəyyən pul gəlirinə istehlakçının nələr**

almaq istədiyini göstərirlər. Fərqsizlik əyriləri özü - özlüyündə Y və X məhsullarının istehlakçıya eyni həcmdə məmnunluq və ya faydalılıq verən bütün kombinasiyalarını nümayiş etdirirlər.

Şəkil 18.7-də Y və X əmtəələrini özündə ehtiva edən fərqsizlik əyrisi verilmişdir. İstehlakçının üstünlükverimləri elədir ki, o, Y və X əmtəələrinin şəkil 18.7-də göstərilən istənilən kombinasiyalarında onların eyni məcmu faydalılığını qane edir. Deməli, məhsulların hansı kombinasiyasını həqiqətən alması istehlakçı üçün fərqsizdir,

A nöqtəsindən B nöqtəsinə keçməklə istehlakçı Y əmtəəsi istehlakını AY=-2 azaldır, əvəzində X əmtəəsinin istehlakını AX=1 vahid sırtırır, lakin istehlakçının məmnunluq səviyyəsi dəyişilməz qalır.




Şəkil 18.7. A dəstindən b dəstinə keçid zamanı son hədd əvəzləmə normasının müəyyənləşdirilməsi və ya iki əmtəənin X və Y fərqsizlik əyrisi

X neməti ilə Y nemətinin əvəzlənməsinin son hədd norması (MRSxy — marginal rate of substitution) X nemətinin bir vahid artırılması zamanı istehlakçının məmnunluq səviyyəsi dəyişilmədən Y nemətinin azaldılmalı olduğu miqdarına deyilir.

MRSXY=– AY / AX (18.7)

burada U=const.

Sonsuz dərəcədə kİçİk Ölçülərə KeçsəK (B nöqtəsini A nöqtəsinə yaxınlaşdırsaq), onda

dY 'Um AJ: AX—►O
dX (18.8)

burada U=const.

Bu halda MRS fərqsIzlİK əyrisi A nöqtəsində toxunanın mailliyinin bucaq əmsalına bərabərdir. Mənfi işarəsi göstərir Kİ, İKİ nemətin miqdarı əKS istiqamətlərdə dəyişir, yəni bir nemətin müsbət dəyişməsinə digərinin mənfi dəyişməsi müvafiqdir. Bu, fərqsizlİK əyrisinin istənilən nöqtəsinə çəKİlmiş toxunanın mənfi maillİK bucağına malİK olmasına əlavə sübutdur.

Əgər istehlaKÇi başqa dəst seçimində həmin fərqsizlİK əyrisi üzərində qalmaq istəyirsə, onda əlavə edilmiş QX - dən faydalılıq artımı, çıxarılmış QY -lə itirilmiş faydalılığa bərabər olmalıdır, yəni:

AQ,xMU,=-AO xM17, AQ, MU, / AQ, MU„ MRS'XY (18.9)

Deməli, X neməti ilə Y nemətinin əvəzləməsinin son hədd norması X nemətinin son hədd faydalılığınm Y nemətinin son hədd faydahlığma nisbəti Kİmi nəzərdən Keçirilə bilər. Y
əmtəəsi X əmtəəsi ilə əvəzləndİKdə azalır, MUy isə müvafiq olaraq artır, buna görə də MRS^y-ə bərabər olan MU^/ MUy nisbəti azalır. Bu, qrafində fərqsizlİK əyrisi boyunca aşağı hərəKət etdİKcə toxunanın bucaq əmsalının azalmasında təzahür edir və onun içəri əyilmiş olmasını izah edir. Sonuncu onu göstərir Kİ, o istənilən nöqtəsi həndəvərində həmin nöqtəyə çəKİlmiş toxunandan yuxarıda yerləşir.

Yuxarıda deyilənlərdən daha bir nəticə çıxır. Ordinalist nəzəriyyəsindəKİ əvəzləmənin azalan son hədd norması məz

**munca kardinalist nəzəriyyədəki faydalılımın son həddinin azalması ilə eynidir. Bircə fərq var: ancaq ikinci halda əmtəənin hər bir əlavə vahidinin faydalıhğı yutillərlə ölçülür, birinci halda isə istehlakçının imtina etməyə hazır olduğu başqa əmtəənin həcmi ilə.**

**İstehlakçı davranışının fərqsizlik əyrilərinin köməkliyi ilə nəzərdən keçirilməsi zamanı istehlakçının bir əmtəənin əlavə vahidini əldə etmək üçün hansı miqdarda digər əmtəədən imtina etməyə hazır olması sualı ortaya çıxır. Bu suala əvəzləmənin son hədd norması (MRS) cavab verir, o, istehlakçının faydalılıq səviyyəsinin eyni qalması şərti ilə bir əmtəəni digər əmtəə ilə (A əmtəəni B əmtəə ilə) əvəzləməyə nə dərəcədə (hansı həddə) hazır olmasını göstərir.**

**Fərqsizlik əyrisinin azalan mailliyi əvəzləmənin azalan son hədd normasının MRS qaydasını əks etdirir ki, bunun da mahiyyəti belədir: istehlakçının Y əmtəəsi nə qədər az olsa, onun bu əmtəənin daha bir vahidindən imtina etməsi bir o qədər çətin olur və Y əmtəəsinin itkisini əvəz etmək üçün daha çox X əmtəəsi tələb olunar.**

**Konkret alıcının zövqü barədə təsəvvür əldə etmək üçün fərqsizlik əyriləri silsiləsi çəkirlər ki, buna fərqsizlik əyriləri xəritəsi deyilir, həmin xəritə iki əmtəənin istənilən istehlak səviyyəsində onların əvəzləmə normasını göstərir.**

**Fərqsizlik əyriləri xəritəsi bir qrafikdə üç dəyişənin: bir əmtəənin (portağal) miqdarının, digər əmtəənin (alma) miqdarının və faydalılığın - qarşılıqlı əlaqəsini göstərməyə imkan verir. Fərqsizlik əyriləri xəritəsini adi coğrafi xəritə ilə müqayisə edirlər ki, orada səviyyə xətləri dəniz səviyyəsindən eyni yüksəklikdə yerləşən yerləri göstərirlər. Fərqsizlik əyriləri xəritəsində də hər bir əyri eyni faydalılığa malik nöqtələri birləşdirir. Buna görə də, xəritədə hər hansı fərqsizlik əyrisi nə qədər yuxarıda olsa, onun əks etdirdiyi faydalılıq bir o qədər yüksək olar (şəkil 18.8).**




Şəkil 18.8. Fərqsizlik əyriləri xəritəsi

**Fərqsizlik əyrilərinin çöküklüyü ən ümumi və geniş yayılmış haldır. Amma əvəzləmənin azalan son hədd normasına heç də həmişə riayət olunmur. Bir-birini mütləq tamamlayan əmtəələr üçün (xizək və onun bərkidiciləri) fərqsizlik əyriləri L-şəkilli olur (şəkil 18.9). Burada MRS=0, çünki bu nemətlər əvəzlənə bilməzlər. İstehlakçının bir məhsul naminə digərinin cüzi qismindən belə keçmədiyi hallar üçün də əvəzləmənin sıfır son hədd norması səciyyəvidir (şəkil 18.10 və 18.11).**

Umonad **Umcmad**

**Şəkil 18.9. Nemətlərin bir-birini sərt tamamlaması**

**Şəkil 18.10. Pivənin limonadla sıfır son hədd əvəzlənmə norması**

**Şəkil 18.11. Limonadın pivə ilə sıfır son hədd əvəzlənmə norması**

**Biri-birini tam əvəzləyən iki əmtəə üçün fərqsizlik əyriləri mənfi maillikli düz xətlərdir. Bu halda iki əmtəə istehlakçı tərəfindən bir kimi qavranılır və MRS sabit kəmiyyətdir. Şəkil 18.12-də istehlakçı üçün bir stəkan qatıq və ya süd içməyin fərq etmədiyi vəziyyət nəzərdən keçirilir. Bir əmtəə vahidinin tamamilə eyni dəyərli başqa bir əmtəə vahidi ilə əvəzlənməsindən söhbət getdiyindən MRS=1.**




**Şəkil 18.12. Tam qarşılıqlı əvəzlənmə, MRS=const**

**Tədqiqatçılar fərqsizlik əyrilərinin köməkliyi ilə istehlakçı davranışını təhlil edərək onların aşağıdakı əsas xüsusiyyətlərini qeyd edirlər.**

**■ Digər əyridən yuxarıda və ssığda yerləşən fərqsizlik əyrisi daha üstünlükverilən dəstdir və ona daha böyük faydalılıq xasdır.**

**■ Fərqsizlik əyriləri heç vaxt kəsişmir və biri-birinə toxunmurlar, bu alıcının tranzitivliyi aksiomundan irəli gəlir ki, həmin aksiom üstünlükverimlərin razılaşdırılmasını təmin edir.**

**■ Fərqsizlik əyrisi həmişə mənfi mailliklidir və bu, çox əmtəənin azdan daha üstünlükverimli olması ehtimalından irəli gəlir.**

**■ Fərqsizlik əyrisinin mütləq mailliyi onun üstü ilə sağa aşağı hərəkət zamanı azalır (əyri koordinatın başlanğıcına nəzərən qabarıqdır).**

**Fərqsizlik əyrilərinin keyfiyyətləri və xüsusiyyətlərinin öyrənilməsi və sübuta yetirilməsi istiqamətində ingilis iqtisadçısı F.Ecuort (1845-1926) böyük iş görmüşdür.**

### Qütbləşmənin maksimallaşdınlması

**Artıq bilirik ki, büdcə xətti verilmiş pul gəliri həcmi və Y və X əmtəələrinin verilmiş qiymətləri səviyyəsində istehlakçının ala biləcəyi Y və X əmtəələrinin bütün mümkün kombinasiyalarını əks etdirir. Əgər istehlak büdcəsi xətti və fərqsizlik xəritələrini birləşdirsək, istehlakçının tarazlıq vəziyyətini müəyyənləşdirə bilərik.**

**Başqa sözlə, məsələ belədir: istehlakçı əldə edə biləcəyi kombinasiyalardan hansına üstünlük verəcəkdir? Cavab: ona ən çox məmnunluq və ya ən çox faydalılıq gətirənə. Qütbləşmənin maksimallaşdınlması prosesinin özü (bax şəkil 18.13) aşağıdakı məhdudlaşdırılmalara cavab verməlidir:**

**P , t X X + P x ^ x Y < I olduqda U = U (X,Y) maksiraallaş- dırmaq zəruridir.**




**Şəkil 18.13. Qütbləşmənin maksimallaşdınlması qrafiki**

**Faydalılığı maksimallaşdıran kombinasiya istehlakçı üçün əldə oluna bilən fərqsizlik əyrilərindən ən yuxanda yerləşənin üzərindəki nöqtəyə müvafiq olacaq. Şəkil 18.13-də isteh-**

lak faydalılığını maksimallaşdıran kombinasiya və ya Y və X məhsullarının tarazlıq kombinasiyası büdcə xəttinin Ug əyrisinə toxunduğu E nöqtəsində olacaq. Buradan belə çıxır ki, verilmiş pul gəliri səviyyəsində (12 rubl) istehlakçı alma və portağala olan tələbatını 1.5 rubldan 4 portağal və 1 rubldan 6 alma almaqla maksimum ödəyəcək, bu isə büdcə xəttinin Ug əyrisinə toxunduğu E tarazlıq nöqtəsinə müvafiq olacaq. Həmin nöqtəyə çatanda istehlakçı alışlarının quruluşunu dəyişmək stimulunu itirəcək, çünki əks halda faydalılıq itirilə bilər.

Şəkil 18.13-də təsvir olunmuş istehlakçının tarazlığı daxili adlanır, çünki E optimum nöqtəsi qrafik ikiölçülü əmtəə məkanı «daxilindədir». Lakin elə hallar olur ki, büdcə xətti və fərqsizlik əyriləri bütün uzunluqları boyu müxtəlif mail- liyə malik olurlar və toxunma nöqtəsi ümumiyyətlə olmur. Bu halda optimal həll toxunmaya ən yaxın vəziyyətlə müəyyənləşir və bucaq vəziyyəti adlanır. O, büdcə düz xəttinin koordinat oxlarından biri və fərqsizlik əyrisiylə kəsişməsi ilə müəyyənləşir (şəkil 18.14).




**Şəkil 18.14. X və Y əmtəələri seçiminin istehlakçı seçimi məsələsinin bucaq həlli**

**Şəkil 18.14, a-da istehlak optimumu M nöqtəsində əldə olunur, çünki təklif olunan variantda. Əks vəziy- ^ ^**
**Py yət şəkil 18.14. b-də təsvir olunmuş- *Pr* dur, çünki burada və deməli, optimal həll N nöqtəsindədir.**

**Beləliklə, sıra faydalılıq nəzəriyyəsində bucaq həlli yalnız bir növ əmtəə alışını nəzərdə tutur. Real bazar vəziyyətində (çoxməhsullu model) bucaq həlli əslində qayda halını alıb, çünki heç kəs bazarın təklif etdiyi bütün növ əmtəələrdən almır.**

## Gəlirin dəyişməsi zamanı istehlak seçimi. «Gəlir — istehlak» xətti

**Qiymətlərin təsbit olunmuş vəziyyətində gəlirin artması istehlakçıya onun üçün əvvəllər əlçatmaz olan dəstləri almağa imkan verir; bu zaman büdcə xətti koordinatlar başlanğıcından uzaqlaşır. Gəlirin azalması zamanı əks hadisə baş verir. Büdcə xəttinin yerdəyişməsi yeni tarazlıq nöqtəsini əmələ gətirir, çünki hər gəlir səviyyəsində istehlakçı ən faydalı nemətlər dəsti seçir. Əgər fərqsizlik əyriləri üzərindəki müxtəlif gəlir kəmiyyətlərinə müvafiq olan bütün tarazlıq nöqtələrini birləşdirsək, «gəlir - istehlak» əyrisini alarıq; onu ingilis hərfləri İEP (İncome Expantion Path) və ya İCC (İncome Consumption Curse) ilə qeyd edirlər. Şəkil 18.15-də İEP xətti istehlakçı gəlirlərinin (I<r<F) dəyişməsi və Px/Py^const. qiymətlər nisbətinin dəyişməzliyi şəraitində bütün (E, E E ") optimal dəstlərinin çoxluğunu təqdim edir. Gətirilmiş misalda İEP müsbət mailliyə malikdir, çünki hər iki əmtəə superiordur, yəni gəlirin artması ilə onların istehlakı da artır.**

**Elə vəziyyətlər də olur ki, gəlirin artması ilə bir məhsulun istehlakı artır, digərininki azalır (şəkil 18.16). Əgər əmtəələrdən biri inferior olarsa, yəni gəlirin artması ilə həmin əmtəənin istehlakı azalarsa, İEP xətti mənfi mail- likli olar.**

## Engel əyrisi

**«Gəlir - istehlaK» xətti əsasında istehlaKçının pul gəliri ilə alınan əmtəənin Kəmiyyəti arasındaKi asılılığı bilavasitə ifadə edən Engel əyrisini^ qurmaq olar.**

**Superior əmtəələr üçün Engel əyrisi müsbət mailliyə maillİKlidir, laKin burada İKİ variant mümKÜndür:**




ŞəKil 18.15. “Gəiir - istehlaK” (lEP) xətti




ŞəKİl 18.16. “Gəlir - istehlaK*' (lEP) /r*,i

a) X əmtəə inferiordur; b) Y əmtəə infe*-v- *dur

**^ Ernest Engel - XIX əsrin sonunda gəlirin ailənıı istehL, təsirini tədqiq etmiş alman statistiKi.**

**1. Gəlirin artması ilə əyrinin maillik bucağı dəyişir ki, bu da əlavə əmtəə alışlarının ixtisarına dəlalət edir (şəkil 18.17, a). Bu kimi əyrilər qida məhsulları üçün səciyyəvidir.**

**2. Gəlirin artması ilə əyrinin maillik bucağı azalır, çünki əlavə məhsul alışları artır (şəkil 18.17, b). Bu kimi əmtəələr timsalında bəzək əşyaları, tibbi xidmət, təhsil, istirahət, turizm çıxış edə bilər.**




**Şəkil 18,17. X (a) və Z (b) əmtəələr üçün Engel əyrisi**

**Elə vəziyyət olur ki, müəyyən gəlir həddinə çatıldıqda, əmtəə superiordan inferiora çevrilir. Adətən gəlir artdıqca istehlakçı dəri əvəzləyicisindən imtina edib əsl dəri almağa üstünlük verir (şəkil 18.18). I|-dən aşağı gəUrdə superior olan X əmtəə (dəri əvəzləylcisi) Iı-dən artıq gəlirdə inferior olur.**

**Gündəlik həyatda bizi daha çox aqreqiorlanmış əmtəə qrupu - ərzaq, qeyri-ərzaq, xidmətlər və s. - maraqlandırır. Bu halda Engel əyrisi Engel xərcləri əyrisinə çevrilir ki, o da alıcının gəlir səviyyəsindən asılı olaraq bu və ya digər əmtəə qrupuna xərcləri səciyyələndirir. Engel müəyyənləşdirmişdir ki, gəlir artdıqca, bu mənzil və onunla bağlı xərclərə, həmçinin paltara yönəldilən hissəsi dəyişilməz qalır, başqa xərclərin payı isə artır.**

## Qiymət dəyişməsində istehlakçı seçimi.

## «Qiymət - istehlak» xətti

**Təsbit olunmuş gəlir zamanı əmtəələrdən birinin qiymətinin dəyişməsi büdcə xəttinin maillik bucağının dəyişməsinə (büdcə xətti dönümü) səbəb olur, çünki əmtəələrin qiymət nisbəti dəyişir. X əmtəənin qiyməti ardıcıl olaraq azalırsa**




**Şəkil 18.18. X əmtəənin superiordan inferiora çevrilməsi**

**(qalxırsa), həmin əmtəənin hər qiymət kəmiyyətinə öz büdcə xətti müvafiq olur. Büdcə xətlərinin hər biri hər hansı bir fərqsizlik əyrisinə toxunur. Bütün toxunma nöqtələri «qiy- mət - istehlakı xəttini əmələ gətirir ki, bu da PEP (Prise Expantion Path) ingilis hərfləri ilə göstərilir. Şəkil 18.19-da X əmtəəsi qiymətinin Pj^-dən P/-ə qədər ardıcıl azalması zamanı büdcə xətti dönüşü göstərilmiş və PEP xətti qurulmuşdur. E-dən Ej^-ə kəsiyində qiymətin P^-dən P^'-ə düşməsində X əmtəə istehlakının artımı Y əmtəə istehlakının azalması hesabına baş verir. Bu intervalda maillik bucağı mənfidir. Qiymətin sonrakı azalmasında istehlakçı yalnız X əmtəənin istehlakını deyil, həm də Y əmtəənin istehlakını artırmaq imkanında olur, bunu PEP əyrisinin Eı-dən sağdakı parçada**

**müsbət mailliyi göstərir. Sonra X əmtəənin qiyməti lap kiçik olanda istehlakçı gəlirinin çox hissəsi Y əmtəənin alınmasına sərf edir. Qrafikdə bu, PEP xəttinin istehlakçının öz gəlirinə ala biləcəyi Y əmtəənin maksimum miqdarını əks etdirən qırıq xətlərə yaxınlaşmasından görmək olar.**

**PEP əyrisi əsasında X əmtəəsi qiymətinin funksiyası kimi ona olan fərdi tələb xəttini qurmaq olar (şəkil 18.20).**




**Şəkil 18.19. "Qiymət - istehlak" xəttinin klassik görünüşü**

**Bunun üçün Ej və Ej istehlakçı optimumu nöqtələrindən aşağıda yerləşən qrafikin absis oxuna perpendikulyarlar çəkmək, ordinat oxlarında isə X| və Xj : P^' və P/ əmtəə qiymətlərinin müvafiq qiymətlərini qeyd etmək lazımdır.**

## İstehlakçı üstünlükverimlərinə təsir edən amillər

**Yuxarıda aydınlaşdırdıq ki, insanların zövq və üstünlükverimlərini fərqsizlik əyriləri vasitəsilə ifadə etmək olar, İndi isə insanların zövqlərini formalaşdıran və onların bu və ya digər əmtəənin seçiminə təsir edən amilləri müəyyənləşdirməyə çalışaq. Bu amillərin təhlili insanların nə üçün əmtəələrdən birini digərindən faydalı hesab etməsinin səbəblərini aydınlaşdırmağa imkan verər.**

**Bu amillərdən biri dəbdir ki, onun təsiri altında insanlar**

**eyni cür əmtəələr (məsələn, paltar, ayaqqabı, mebel və s.) alırlar. Bəzən insanlar bahalı əmtəələr (daş-qaş, avtomobil) hesabına müəyyən sosial sanbal əldə etməyə cəhd edirlər (nümayiş etdirmə effekti), İstehlakçıların üstünlükverimlərinə təsir edən digər amil insanları onların cəmiyyətdə sosial vəziyyətini yüksəldən və ya onlara rahat həyatı təmin edən əşyaları almafa təkidlə çağıran reklamdır. İnsanların zövq və üstünlükverimlərinə onların təhsil səviyyələri, həyat şəraitlərinin dəyişməsi (ailədə uşaqların olması, yaş, maraqlar, məsələn, musiqiyə, idmana və s.) əhəmiyyətli dərəcədə təsir edir.**




**Şəkil 18.20. Fərdi tələb xətti**

**Üstülilüicverimlərin dəyişməsi fərqsizlik əyriləri xəritəsində Öz əksini tapır ki, bu da öz növbəsində məcmu fayda- lılıgı artıran və deməli, istehlak tarazlığı vəziyyətini maksimallaşdıra biləcək əmtəələr kombinasiyasını (onların kəmiyyətini) dəyişir.**

### *§5. C,Hiks va YSlutskiya gora galir effekti və avazlama effekti. Məhsul elementlərinin xüsusiyyətlərinin təhlili əsasında istehlakçı seçimi*

**Əmtəə və xidmətlərin qiymətlərinin dəyişilməsinin təsiri altında istehlakçı üstünlükverimləri necə dəyişir? Bu problem bir çox iqtisadçılar tərəfindən tədqiq olunur. Bu vəziyyətə Hiks və Slutskinin baxışlarını nəzərdən keçirək.**

**Xatırladaq ki, gəlir effekti dedikdə tələbin yalnız real gəlirin dəyişməsi nəticəsində dəyişməsi başa düşülür, əvəzləmə effekti isə əmtəəyə tələbin yalnız onun nisbi qiymətinin dəyişməsinin nəticəsidir. Real gerçəklikdə bu iki proses eyni zamanda baş verir ki, onları bir-birindən ayırmaq çətindir.**

**Qiymət dəyişməsinin ümumi effektinin əvəzləmə effektinə və gəlir effektinə bölünməsi ideyası 1915-ci ildə İtaliya jurnalında bu məsələyə dair məqalə çap etdirmiş Rusiya iqtisadçısı və riyaziyyatçısı Y.Y.Slutskiyə məxsusdur. Lakin həmin məqalə dünya elminin diqqətindən kənarda qalmışdı. Yalnız Hiks və Allenin xeyli sonra çap olunmuş əsərləri sayəsində dünya bu problemin həlli ilə tanış olmuşdu.**

**Hiks və Slutskinin baxışları real gəlirin müəyyənləşdirilməsinə yanaşmaların müxtəlifliyi ilə fərqlənirlər. Hiksə görə, eyni səviyyədə məmnunluq təmin edən müxtəlif səviyyəli pul gəlirləri eyni səviyyəli real gəlir deməkdir. Slutskiyə görə isə yalnız eyni bir əmtəə dəstini almağa kifayət edən pul gəliri səviyyəsi real gəlirin dəyişilməz səviyyəsini təmin edir.**

**C.Hiksin baxışına görə qiymət dəyişməsi effektinin əvəz-**

**ləmə effekti və gəlir effektinə bölünməsinin qrafik modelini nəzərdən keçirək (şəkil 18.21),**

**Qoy KL ilkin büdcə xətti olsun. Ona istehlakçının Qo ilkin tarazlıq nöqtəsi müvafiqdir. Qo nöqtəsində istehlak olunan xurmanın (X əmtəə) miqdarı XQ bərabərdir. Xurmanın qiymətinin aşağı düşməsi büdcə xəttinin dönməsinə səbəb olacaq və o, KL^ vəziyyətini alacaq ki, ona da yeni Qı tarazlıq nöqtəsi müvafiqdir. Qo nöqtəsində istehlak olunan xurmanın miqdarı Xj-ə bərabərdir. Qiymətinin aşağı düşməsi nəticəsində xurma istehlafcınm real artımı Xı - XQ olacaqdır. Bu parçanı iki hissəyə bölmək lazımdır ki, onlardan hansının əvəzləmə effekti, hansının isə gəlir effekti ilə əlaqədar olduğunu göstərmək mümkün olsun.**




**Şəkil 18.21. C.Hiksə görə əvəzləmə effekti və gəlir effekti**

**Hiks dəyişilmiş qiymətlər nisbətində məmnunluğun əvvəlki səviyyədə qalması üçün istehlakçı gəlirinin necə olmasını müəyyənləşdirir. Bunun üçün o, yeni büdcə xəttinə paralel olan və eyni zamanda 10 ilkin fərqsizlik əyrisinə Q2 nöqtəsində toxunan K'L' köməkçi büdcə xəttini qurur (Hiks xətti), Qg nöqtəsində istehlak olunan xurmanın miqdarı X2-yə bərabərdir. K'L' xətti yeni qiymətlər nisbətini əks etdirdiyindən və eyni zamanda Qo və Qg meyvə dəstləri eyni məmnunluq**

**təmin etdiyindən (eyni fərqsizlik əyrisi üzərində yerləşirlər), xurma istehlakımn X2 - XQ olan artımı əvəzləmə effektidir.**

**Qg köməkçi optimum nöqtəsindən yeni Qı optimum nöqtəsinə keçid həm portağal, həm də xurma istehlakımn artdığını göstərir. Özü də xurmaya tələb artımı yalnız real gəlirin artması hesabına baş verir, çünki hər iki optimum (Qg və Qı) eyni cür qiymətlər nisbətilə səciyyələnirlər,**

**Y.Slutskinin qiymət dəyişməsinin ümumi effektinin əvəzləmə effektinə və gəlir effektinə bölünməsi probleminə yanaşması Hiks yanaşmasından xeyli fərqlidir (şəkil 18.22).**

**Slutski istehlakçı üçün qiymət dəyişməsindən sonra qiymət dəyişməsinə qədər aldığı əmtəə dəstini almaq imkanını təmin edə biləcək gəlirin necə olmalı olduğunu müəyyənləşdirir. Bunun üçün Qo nöqtəsindən yeni büdcə xətti KLı-ə paralel köməkçi K'L' büdcə xətti (Slutski xətti) keçirməyi təklif edir. Slutski xətti lo fərqsizlik əyrisindən yuxarıda olan I' əyrisinə Qg nöqtəsində toxunan olacaqdır. Qo və Qg eyni bir K'U büdcə xəttinə aid olduğundan Slutskiyə görə real gəlir dəyişmir. Amma K'L' KL^-ə paralel olduğundan, o da xurma və portağalın yeni qiymətlər nisbətini əks etdirir. Deməli, Xg - Xo bərabər xurma istehlakımn artımı əvəzləmə effektidir.**




**Şəkil 18.22. Y.Y.Slutskiyə görə əvəzləmə effekti və gəlir effekti**

Yeni tarazlıq nöqtəsi yardımçı optimumun $Q_2$ nöqtəsinə nisbətən daha yüksək büdcə xəttinə mənsubdur. Lakin bununla yanaşı Qı və $Q_2$ nöqtələrində xurma və portağalın qiymətlər nisbəti eynidir. Deməli, $X_j - X_2$ xurma istehlakı- nın bərabər artımı gəlir effektidir.

Problemin həllində iki yanaşmanı müqayisə edərək aşağıdakı nəticələrə gəlmək olar.

■Slutski xətti həmişə Hiks xəttindən yuxarıdadır, çünki birinci ilkin fərqsizlik əyrisini kəsəndir, ikincisi isə ona toxunandır. Buna görə də Slutskiyə gÖrə əvəzləmə effekti Hiksə görə əvəzləmə effektindən həmişə böyükdür, amma Slutskiyə görə gəlir effekti Hiksə gÖrə gəlir effektindən həmişə azdır.

■Hiks metodu sıra faydalılıq nəzərİзiyəsinin əsas müddəalarına daha çox uyğun gəlir, istehlakçı üstünlükverimlərini, fərqsizlik Əзuilərini bilməyi nəzərdə tutur, amma Slutski metodu bunlan tələb etmir və istehlakçının bazarda davranış faktlarının müşahidə və qeyd olunması əsasında məsələnin kəmiyyət həllinə imkan verir.

Əvvəl qeyd etmişdik ki, kardinalist (kəmiyyət) və ordinalist (sıra) faydalılıq nəzəriyyələri istehlakçı davranışı barədə müxtəlif fərziyyələr əsasında qurulmuş nəzəriyyələrdir.

Bununla belə bu nəzəriyyələrdə bir sıra ümumi məqamları da qeyd edə bilərik.

■Belə ki, ordinalist nəzəriyyəsindəki fərqsizlik əyrilərini kəmiyyət nəzəriyyəsindəki TU = F(x, y) ümumi faydalılığın funksiyasının səviyyə xətti kimi nəzərdən keçirmək olar.

■Ordinalist nəzəriyyəsindəki əvəzləmənin azalan son hədd norması haqqındakı ehtimalın mənası kəmiyyət nəzəriyyəsindəki son hədd faydalılığının azalması haqqındakı ehtimalın mənası ilə eynidir. Fərq yalnız ikinci halda əmtəənin faydalılığının yutillərlə ölçülməsindədir. Birinci halda əmtəənin hər bir əlavə vahidinin faydalılığı digər əmtəənin istehlakçının qurban verməyə razılaşacağı həcmi ilə ölçülür.

■tki yanaşma vasitəsi ilə əldə olunmuş istehlak tarazlığı

**lıq nəzəriyyəsinə görə tarazlıq istehlaKçmın bütün gəlirini hər bir xərclənmiş rubla düşən son hədd faydalılığının istənilən alınan əmtəəyə bərabər olduğu və ya son hədd fay- dalılıqlan nisbətinin onların qiymətləri nisbətinə bərabər olduğu halda yaranır.**

$$\frac{Müx}{MU} \sim P \frac{r}{r}$$

**FərqsizlİK əyriləri Konsepsiyasına görə faydalılıq maKSİ-mallaşır:**

**■ xərclər gəlirə bərabər olanda, yəni P x X X + P ^ x Y = l;**

**■ əvəzləmənin son hədd norması X və Y əmtəələrin qiymətlər nisbətinə bərabər olanda, yəni**

*MRS*

**Bundan belə nəticəyə gələ bilərİK Kİ, son hədd faydalılıq nəzəriyyəsi mövqeyindən yanaşdıqda MRS** İKi **əmtəənin son hədd faydalılıqları nisbətinə eKvivalentdir.**

## Məhsul elementləri xüsusiyyətlərinin təhlili əsasında istehlaK seçimi

**Hazırda iqtisadçılar məhsulun elementlərinin faydalılığı-na, yəni məhsullar və ya xidmətlərin öz təbiətlərinə və alıcıların psixoloji qiymətləndirməsinə görə malİK olduqları müxtəlif Keyfiyyət-texnİKİ, sosial parametrlərinə get-gedə daha çox diqqət yetirilir.**

**Nemətin son hədd faydalılığı onu təşKİl edən elementlərin və ya xassələrinin son hədd faydalılığının məcmu qiymətləndirilməsi Kİmi nəzərdən Keçirilir.**

**Faydalılığın təhlilinə belə yanaşma istehsal olunan əmtəələrin geniş diversifİKasiyasının mövcud olduğu müasir şəraitdə yönümlənməyə və müxtəlif siniflərə mənsub istehlaKçıların gəlir səviyyələrindən, zövqlərindən, ənənələrindən, maraq-**

**lanndan asılı olaraq müəyyən nemətə tələbatlarının müxtəlif səviyyələrdə ödənilməsi problemini həll etməyə imkan verir.**

**Buna əyani misal müxtəlif faydalılıq elementləri (təhlükəsizlik, rahatlıq, sürət, dizayn, servis xidməti) ilə təchiz olunmuş müasir avtomobillər ola bilər ki, onların faydalılığı eyni zamanda ən zəruri faydalılıq minimumu ilə məhdudlaşa bilər.**

**Məşhur Amerika iqtisadçısı K.Lankasterin təklif etdiyi və xüsusiyyətlərinin təhlili (attribute analysis - ing.) kimi məlum olan istehlakçı davranışı və tələbinin yeni təhlil metodu məhz belə məsələləri həll edir. O, aşağıdakı aksiomlara əsaslanır.**

**■ Əmtəə özü-özlüyündə istehlakçıya faydalılıq (məmnunluq) gətirmir, o, müəyyən xüsusiyyətlərə malikdir və məhz onlar faydalılığın daşıyıcılarıdırlar.**

**■ Adətən əmtəə birdən artıq xüsusiyyətə malik olur və bu xüsusiyyətlərin bir çoxu bir neçə əmtəə üçün ümumi olur.**

**■ Əmtəə kombinasiyaları (dəstləri) əmtəələrin hər birinə ayrılıqda xas olanlardan fərqli xüsusiyyətlərə malik ola bilirlər.**

**■ Nemətə tələb nemətlərin xüsusiyyətlərinə və ya onlara malik olmaqdan gözlənilən xidmətlərdən törəmə tələbdir (belə ki, avtomobillərə tələb nəqliyyat xidməti, onlann təhlükəsizliyi, rahatlığı, nüfuzu, mülkiyyət obyekti olmaları və sairdən gələn törəmə tələbdir).**

**Ordinalist nəzəriyyədən fəı^li olaraq bu metodda üstünlük-verimi sistemi ordinalist konsepsiyada olduğu kimi əmtəələrin özlərinə deyil, onların çoxsaylı xüsusiyyətlərinə söykənir. Fərqsizlik əyriləri də müvafiq olaraq müəyyən istehlakçı üçün eyni faydalılığa malik xüsusiyyət çoxluğunu göstərirlər. Buna görə də fərqsizlik xəritəsi əmtəələrin özlərini deyil, xüsusiyyətlər müstəvisini göstərirlər.**

**Xüsusiyyətlərin təhlili ənənəvi ordinalist nəzəriyyəyə alternativ deyil, o əslində onu tamamlayır, istehlakçı davranışı və tələbinin elmi təhlilinin imkanlarım genişləndirir. Bu**

**metodun köməkliyi ilə ənənəvi ordinalist nəzəriyyənin həll edə bilmədiyi məsələ: bazara yeni əmtəələrin gəlməsi ilə istehlak tələbinin necə dəyişməsi məsələsi Öz həllini tapır.**

**Bu vəziyyəti qrafik modelin köməkliyi ilə nəzərdən keçirək.**

**Səkil 18.23-də bazarda cəmi üç müxtəlif əmtəə (A, B, C) olan ilkin vəziyyət göstərilmişdir. Deyək ki, A'B'C' B nöqtəsində Uj Ul əyrisinə toxunan ilkin effektivli həddir. Beləliklə, bu istehlakçı üç əmtəədən birini - B'-ni alır. Yeni əmtəədə (D) onun üçün əhəmiyyətli xüsusiyyətlər Y:X nisbətindədir, bu da C-dəkindən çox, B-dəkindən azdır. Yeni əmtəənin qiyməti elədir ki, səmərəli hədd A'B'C'D vəziyyətinə dəyişilir. İndi, göründüyü kimi, istehlakçı tələbi B əm- tədən yeni D əmtəəyə yönəltməklə daha yüksəkdəki U2 U2 fərqsizlik əyrisinə çata bilər.**




**Şəkil 18.23. Yeni əmtəənin meydana çıxması**

**Bu metodun da çatışmazlıqları yox deyil. Belə ki, alıcı üçün əhəmiyyətli olan bütün xüsusiyyətlərin müəyyənləşdirilməsi bəzi çətinlik yaradır, bir də, real gerçəklikdə hər halda əmtəələrin xüsusiyyətləri deyil, özləri alınır.**

**Sonda yuxanda deyilənləri ümumiləşdirərək qeyd edək ki, iqtisad elmi yerində saymır, «yeni nəzəriyyələri və istehlak-**

istehlakçı davranışı nəzəriyyəsi **ÇI davranışı və tələbinin təhlili metodları yaranır ki, bunlar ənənəvi nəzəriyyəni tamamlayır və bazara başqa bucaq altından baxmağa imkan verir (məsələn, son hədd faydalılığmın ayrı-ayrı sosial qrupları və ya sinifləri tərəfindən qiymətləndirilməsi - C.Klark), amma ordinalist nəzəriyyə indi də ən geniş yayılmış və ümumi qəbul olunaraq qalmaqdadır.**

# XIX FƏSİL. TƏKMİL RƏQABƏT ŞƏRAİTİNDƏ FİRMANIN DAVRANIŞI

*§1. Bazar quruluşlannın. modellzri,*
*§2. Təkmil rəqabətli bazar modeli. Rəqabət qabiliyyətli firmanın tələbi, təklifi və gəliri,*
*§3, Qısamüddətli dövrdə firmanın tarazlığı. Firma gəlirinin maksimumlaşdıniması şərtləri.*
*§4. Uzunmüddətli dövrdə firma və sahənin təklifi.*
*§5. Təkmil rəqabət və ictimai səmərəlilik.*

## *§1. Bazar qurulublarının modelləri*

**Bazar quruluşu və ya spesifik rəqabət vəziyyəti firmanın davranışına və onun bazar strategiyası və taktikasının seçilməsinə həlledici təsir göstərir. Firmanın davranışı isə, öz növbəsində, bilavasitə onun fəaliyyət nəticələrinin göstəriciləri: qiymət, gəlir, səmərəlilik ilə bilavasitə bağlıdır. Firmanın davranışı və nəticəliliyi bütün sahənin fəaliyyəti və uğur qazanmasına təsir etməyə bilməz, sahənin vəziyyəti isə bütövlükdə milli iqtisadiyyata təsir edir. Beləliklə, bazar iqtisadiyyatında tərəfmüqabillərin qarşılıqlı şərtlənməsinin səviyyəsi xeyli yüksək olduğundan, bazarın təşkili və ya quruluşu yalnız mikroiqtisadiyyat üçün deyil, həm də makroiqtisadiyyat üçün ən mühüm əhəmiyyət kəsb edir.**

**Bu tezisi şərti məntiqi sxem şəklində yazmaq olar:**

**Bazarın quruluşu —> firmanın davranışı —> firmanın uğurluluğu —> sahənin uğurluluğu —> milli iqtisadiyyatın uğurluluğu.**

**BazEirın quruluşu bu və ya digər dərəcədə mürəkkəb ola bilər və bundan başqa, Özündə qeyri-bazar elementlərini ehtiva edə bilər. Bununla belə onun təsnifat aparmağa imkan verən səciyyəvi əsas əlamətləri var. Müasir iqtisadi nəzəriyyədə bazar quruluşunun dörd tipi göstərilir: təkmil rəqabət, inhisar rəqabəti, oliqopoliya və xalis inhisar. Birinci və sonuncu iki qütb, iki son hədd modellərdir ki, bunlar arasın**

**da qeyri-təkmil adlandırılan inhisarçı rəqabət və oliqopoliya ara formaları yerləşir. Əslində inhisar da qeyri-təkmil rəqabətə aiddir, doğrudur, bəzi tədqiqatçılar onu rəqabətin olmaması kimi qiymətləndirirlər.**

**Yuxarıda göstərilən təsnifatın əsasında aşağıdakı əlamətlər durur:**

- **sahədə firmaların sayı;**
- **ayrılıqda götürülmüş firmanın qiymətlərə nəzarəti;**
- **sahəyə giriş və ondan çıxma azadlığı;**
- **məhsulun xarakteri;**
- **firmanın məhsuluna tələb əyrisinin xarakteri.**

**Göstərilən dörd modelin hamısı verilmiş təsnifat əlamətləri əsasında növbə ilə aşağıdakı fəsillərdə nəzərdən keçiriləcək.**

### *§2. Təkmil raqabətU bazar modeli. Rəqabət qabiliyyətli firmanın tələbi^ təklifi və gəUri*

**Bütün modellər kimi, təkmil rəqabətli bazar modeli də xalis abstraksiyadır, amma ağıllı abstraksiyadır, çünki o istənilən bazar quruluşunun ən tipik əlamətlərini əks etdirir və faydalı abstraksiyadır, çünki bazarın öz ünü tənzimləmə mexanizmini dərk etməyə və onun obyektiv imkanlarını və daxili hüdudlarını qiymətləndirməyə imkan verir.**

**Bazar göstərilmiş təsnifat əlamətlərinə müvafiq olaraq, aşağıdakı şərtlər gözləniləndə təkmil rəqabətli hesab olunur.**

**■ Sahə bazarında bir-birindən asılı olmayan çoxsaylı istehsalçı firmalar fəaliyyət göstərir və digər tərəfdən çoxsaylı istehlakçı mövcuddur.**

**■ İstehsalçıların çoxsaylılığı səbəbindən onların hər birinin fərdi istehsal səviyyəsi sahə ilə müqayisədə cüzidir. Buna görə də ayrılıqda götürülmüş firma sahə təklifinə və deməli, bazar qiymətinə təsir edə bilmir. Müvafiq olaraq ayn-ayrı istehlakçılar da sahə tələbini dəyişə və qiymət üzərində nəzarəti ələ keçirə bilmir. Həm istehsalçı, həm istehlakçı hazır**

**qiymətlə rastlaşırlar. Onlar bazar qiymətini mövcudluq kimi qəbul edirlər.**

**■ Firmaların sahəyə heç nə ilə məhdudlaşmayan girişi və çıxışı mövcuddur.**

**■ Sahə məhsulu diferensiasiya olunmayıb, məsələn, kök, taxıl, kartof kimi bircinslidir. Hər hansı bir ticarət markaları yoxdur.**

**■ Hər firmanın təklif etdiyi məhsul sahə təklifinin cüzi hissəsini təşkil etdiyindən bazar onun bütün məhsulunu cari bazar qiymətləri ilə qəbul etməyə hazırdır. Bu o deməkdir ki, məhsula tələb əyrisi koordinat başlanğıcından məhsulun bazar qiymətinə bərabər kəmiyyət qədər aralıda duran üfüqi xətdir.**

**Aydındır ki, real həyatda belə bazar quruluşu çətin ki, nə vaxtsa mövcud olmuş olsun, çünki yuxarıda göstərilən prinsiplərin çoxu tam gözlənilmir. Belə ki, sahəyə daxil olmağa və biznes yaratmağa müəyyən bürokratik və ya iqtisadi məhdudiyyətlər həmişə mövcuddur; əmtəələri diferensiasiya edən çoxsaylı ticarət markaları var; hətta sahədə çoxsaylı satıcılar olduğu halda onlarla paralel bazar hökmranlığına malik olan və qiyməti diktə edən hökmran firmalar mövcuddur, Beləliklə, göstərilən prinsiplər %asən şərtidir. Bununla belə rəqabət qabiliyyətli firmanın davranışını və müxtəlif modifikasiyalardan uzaqlaşaraq bazar mexanizminin təmiz halda fəaliyyətini başa düşmək üçün bu şərtiliklər zəruridir.**

**Müəyyən bazar quruluşunun, məsələn, təkmil bazar rəqabətinin, bazar modelini təhlil etmək üçün firmanın məqsədini (məqsədlərini) dəqiqləşdirən daha bir vacib şərtiliyə yer vermək lazımdır. İqtisadi nəzəriyyədə firmanın əsas məqsədinin gəlirin maksimallaşdırılması olduğu fikri üstünlük təşkil edir. Ən müxtəlif məktəblərin nümayəndələri bu fikri bölüşürlər. Bu bəlkə də yeganə məsələdir ki, marksistlər, neoklassiklər, monetaristlər və bir çox başqaları arasında fikir müxtəlifliyi yoxdur. Belə ki, K. Marks «Kapital*da izafi dəyəri kapitalizmin əsas iqtisadi qanunu kimi qiymətləndirir**

**və gəlirə can atmanı kapitalist sahibkarlığının əsas vadaredici səbəbi hesab edir. Marks ingilis həmkarlar ittifaqı xadimi və publisisti Danninqin gəlir haqqındakı aşağıdakı maraqlı fikrinə istinad edir.** ***«Təbiət boşluqdan qorxduğu kimi, kapital da gəlirin olmamasından və ya az olmasından qorxur. Kifayət qədər gəlir olduqda isə kapital cəsarətlənir. 10% gəlir olduqda kapital hər şəkildə işlədüməsinə razı olur; 20% olarsa kapital cuşa gəlir; 50% olduqda isə hətta başını da verməyə hazırdır; 100% kapital bütün bəşər qanunlarını tapdalayır; 300% olduqda o hətta asılacağını göz önündə tutmalı da olsa, heç bir cinayətdən geri durmaz. Əgər hay-küy və söyüş gəlir versə, kapital bunların hər ikisinə kömək edər. Qaçaqmalçılıq və qul alveri buna sübutdur»^.***

**Müasir iqtisadçıların çoxu da həmçinin gəlirin maksimallaşdınlması fikrinə üstünlük verirlər^. Qeyd etmək lazımdır ki, hazırda əsas kimi firmanın digər məqsədlərini, ümumi gəlirin maksimallaşdıniması, satışdan əldə olunan pulun ümumi məbləğinin maksimallaşdıniması, firma artımının maksimallaşdırılması və s. (daha təfərrüatlı bax. Fəsil 16) nəzərdən keçirən bir sıra alternativ nəzəriyyələr də mövcuddur. Müasir alternativ firma nəzəriyyələri nəzəri və praktik cəhətdən nə qədər dəyərli olsalar da, bununla belə firmanın realizə etdiyi çoxsaylı məqsədlər arasında gəlirin maksimallaşdırılmasının heç də axırıncı yerlərdə olmadığını inkar etmirlər.**

**Ən ümumi şəkildə ümumi gəliri (TP - total profit; ümumi gəliri ümumi məhsuldan (TR) fərqləndirmək üçün latın hərfindən deyil, yunan hərfindən (P) istifadə olunur) satışdan əldə olunan pulun ümumi məbləği ilə ümumi xərclər arasındakı fərq kimi müəyyənləşdirmək və ya aşağıdakı kimi göstərmək olar;**

$$TP - TR - TC = \pounds_{i=I} PiQi \qquad 1 = 1$$

***K.MapKC o <I>.ƏHrejn.c. COM. 2-H3A. T.23. C.770.**

*** HanpHMep, CM. Varian H.R. Intermediate Microeconomlcs: A Modern Approach. 5-th ed. N.Y.W.W.Norton @Company, 199Ə.**

**burada n - istehsal olunan məhsulun növlərinin miqdarı; m - tətbiq olunan istehsal amillərinin miqdarı; p - i məhsulun qiyməti; q - istehsal olunmuş i məhsulun miqdarı; w - i istehsal amilinin qiyməti;**

**X - istifadə olunan i istehsal amilinin miqdarı, tkiamilli birməhsullu modeldə gəlir funksiyasını belə yazmaq olar:**

**TP=TR-TC=PQ - (rK+wL)=Pf (K,L)-(rK+wL)**

**burada K - tətbiq olunan kapitalın miqdarı;**

**L - tətbiq olunan əməyin miqdarı; r - kapital vahidinin qiyməti; w - əmək vahidinin qiyməti.**

**Gəlir funksiyasını bildikdə onun qrafik təsvirini vermək olar. Bunun üçün istehsal həcmini gəlir və xərclər vasitəsilə ifadə edək.**

**Q=TP/P+rK/P+wL/P**

**Deyək ki, kapitalın miqdarı təsbit olunmuşdur (qısamüddətli dövr). Onda şaquli oxda məhsul istehsalının həcmini istehsalın dəyişən amili olan əməkdən asılı olaraq əks etdirmək olar. Gəlir səviyyəsi dəyişkən ola bildiyindən bir sıra paralel düz xətlər - izoprofit alarıq. Əyrilərin maillik bucağı w/P nisbəti ilə müəyyənləşir, İzoprofitlərdən hər birinin şaquli oxla kəsişmə nöqtəsi TP/P+rK/P cəmi ilə müəyyənləşir (bax şəkil 19.1).**

***İzoprofit* istehsal olunan məhsulun kəmiyyətinin və dəyişən amilin kəmiyyətinin eyni bir səviyyədə gəlir verən bütün mümkün kombinasiyalarmı səciyyələndirən nöqtələrin həndəsi yeridir.**




Şəkil 19.1. İzoprofitlər

**Firmanın istehsal funksiyasını və istehsal əyrisini bildikdə firmanın hansı istehsal səviyyəsində və resursların hansı işlədilməsi səviyyəsində gəlirin maksimallaşdırıldığını asanlıqla təyin etmək olar (bax şəkil 19.2).**




Şəkil 19.2. Qısamüddətli dövrdə mənfəətin maksimallaşdırılması

**Şəkil I9.2-dən aşkar görünür ki, gəlirin maksimallaş-dırılması firmanın istehsal əyrisinin mümkün qədər daha**

**yüksək izoprofit ilə toxunma nöqtəsində əldə olunur.**

**İndi isə bütün amillərin dəyişkən olduğu uzunmüddətli dövr üçün gəlirin funksiyasım nəzərdən keçirək.**

**Məlum olduğu kimi, funksiya ilk fərdi verilənlər sıfra bərabər olanda maksimallaşır. Gəlirin kapitala funksiyasını diferensiallaşdırıb nəticələri sıfra bərabər etsək aşağıdakını alarıq:**

**PdQ/dk - r = 0, yaxud P x MP^ = r**

**Əməə nisbətdə eyni əməliyyat aşağıdakı tənliyi verər:**

**PdQ/dL - w = 0, yaxud P x MPL = w**

**Beləliklə, belə nəticəyə gəlmək olar ki, firma gəlirini istehsal amili vasitəsilə yaradılmış son hədd məhsulunun dəyəri həmin istehsal amilinin dəyərinə bərabər olduğu halda maksimallaşdınr.**

**İstehsalın həcmini seçəndə firma müxtəlif miqdarda resurslar işlədə və onları müxtəlif qiymətlərə ala bilər, tki dövrü: 1 və 2 - müqayisə edək. Hər dövrdə məhsulun və istehsal amillərinin qiymətlər səvİ3ryəsi verilir: müvafiq olaraq Pj, rı, Wj və ?2, r2, W2. İstehsal olunan məhsulun, istifadə olunan kapitalın və əməyin optimal miqdarı Qı, Kı, Lı və Q2, K2, L2 ilə göstərilir.**

**Deyək ki, ikinci dövrdə firma başqa həcmdə resurs alır və başqa həcmdə məhsul istehsal edir, amma resursların və hazır məhsulun qiyməti birinci dövrdəki kimi qalır. Bu halda gəlirin maksimallaşdınıması məsələsi həyata keçirilirsə, birinci dövrün gəliri ikinci dövrün gəlirindən az olmamalıdır (o ya bərabər və ya artıq olmalıdır). Bunu aşağıdakı bərabərsizlik şəklində yazmaq olar: PjQı - (r^Kı + WjLı) > P1Q2 - (rıK2 + W1L2).**

**Müvafiq olaraq istifadə olunan resurslarm və istehsal olunan məhsulun həcminin birinci dövrdəki kimi qalması şərti ilə**

**VƏ qiymətlərin eyni səviyyəsində ikinci dövrdəki gəlir birinci dövrdə əldə olunan gəlirdən az olmamalıdır. Başqa sözlə,**

P2Q2 ~ (**2^2 ^ ^2QI ~ (1*2^1 + W^Lj).

**Bu iki şərtin (bərabərsizliyin) gözlənilməsi gəlirin maksimallaşdınlmasmm zəif aksiomunun (WAPM — Weak Axiom of Profit Maximization) mahiyyətini təşkil edir. Bərabərsizliyin gözlənilməməsi firmanın gəliri maksimallaşdırmaması (texnologiyanın daimiliyi şərti ilə) deməkdir.**

**Bərabərsizliklər aşağıdakı kimi dəyişdirilsə, aksiomanın mənası daha aydın olar. İkinci bərabərsizliyi birincidən çıxaq və göstəriciləri Q, K və L göstəriciləri üzrə qruplaşdıraq.**

**APAQ — (ArAK + AwAL) > 0.**

**Başqa sözlə, əgər texnologiya dəyişilməz qalarsa, hazır məhsulun və (və ya) resursların qiyməti dəyişdiyi təqdirdə firma resursların istehlakı və məhsul istehsalını elə dəyişməlidir ki, satışdan əldə olunmuş pulun ümumi dəyişməsi ilə xərclərin ümumi həcminin dəyişməsi arasındakı fərq mənfi olmasın. Bu nəticə gəlirin müəyyənləşdirilməsi və gəlirin maksimallaşdınlması prinsipinə tam uyğundur. Birdən fərq mənfi olarsa, deməli, firma ya qiymət dəyişiləndən əvvəl, ya da qiymət dəyişiləndən sonra gəliri maksimallaşdırmır.**

### RəqabətqabiUyyətli firmanın tələbi, təklifi və gəliri

**Rəqabətqabiliyyətli firma hazır qiymətlə rastlaşandır, yəni o istehsal etdiyi hər şeyi cari bazar qiymətlərinə sata bilər. Qüvvədə olan bazar qiymətinə satmaq mümkündürsə, ucuz satmağın mənası yoxdur. Baha satmaq mümkün deyil, çünki bu halda firmanın məhsuluna tələb o saat sıfra düşər: bazarda belə məhsulu bazar qiymətinə təklif edən çoxlu başqa satıcılar var. Buna görə də, yuxanda qeyd olunduğu kimi,**

**rəqabət qabiliyyətli firmanın məhsuluna tələb üfüqi xətdir (şəkil 19.3),**




**Şəkil 19.3. Rəqabətqabiliyyətli firmanın məhsuluna tələb əyrisi**

**Məhsulunun hər vahidini cari bazar qiymətinə satmaqla firma özünün məhsulun qiyməti məbləğində satışdan əldə olunan pulun orta məbləğini (orta gəlir) və PQ həcmində satışdan əldə olunan pulun ümumi məbləğini (ümumi gəlir) təmin edir.**




**Şəkil 19.4. Rəqabətqabiliyyətli firmanın ümumi gəliri (satış pulu) əyrisi**

Şəkil 19.4-də göstərilir ki, rəqabətqabiliyyətli firmaıun ümumi gəliri koordinatların başlanğıcından keçən düz xətlə qrafik şəkildə verilmişdir.

Orta gəlirin qrafik təsvirinə gəldikdə isə, o, firma məhsuluna orta tələb əyrisi ilə tam üst-üstə düşür, çünki hər bir məhsulun satışından orta gəlir cari bazar qiymətinə bərabərdir.

Daha bir məhsulun satılması nəticəsində ümumi gəlir müəyyən vahid qədər artacaq ki, bu da son hədd gəliri adlanır.

Son hədd gəliri əlavə əmtəə vahidinin satışından əldə olunan gəlirdir.

Təkmil rəqabətdə hər bir əmtəə vahidi bazar qiymətinə satıldığından hər dəfə daha bir əmtəə satılanda firma onun qiymətinə bərabər son hədd gəliri əldə edəcək.

Beləliklə, təkmil rəqabətdə son hədd gəliri orta gəlirə və məhsulun qiymətinə bərabərdir. Bu zaman bu əyrilər firma məhsuluna tələb əyrisi ilə üst-üstə düşür (şəkil 19.5.).




Şəkil 19.5. Firmanın son hədd və orta gəliri və onun məhsuluna tələb əyrisi

Qısamüddətli dövrdə firmanın təklifi yalnız onun istehsal xərcləri ilə müəyyənləşir. Buna görə də firmanın təklif əyrisi onun son hədd xərcləri əyrisi ilə üst-üstə düşür. Çünki istehsal həcmi artdıqca daha bir məhsulun istehsalının son hədd

**xərcləri də artdığından (son hədd veriminin azalması qanununun nəticəsində), yalnız qiymət artımı firmanı bu əlavə məhsulu istehsal etməyə sövq edə bilər. Beləliklə, firmanın təklif əyrisi yüksələn səciyyəlidir (şəkil 19.6).**




**Şəkil 19.6. Rəqabətqabiliyyətli firmanın təklif əyrisi**

### *§3, Qısamüddətli dövrdə firmanın tarazhğı. Firma gəlirinin maksimumlafdırılması şərtləri*

**Sahənin tarazlığı (şəkil 19.7) və firmanın tarazlığı (şəkil 19.8) qrafiklərinin müqayisəsi üzərində dayanaq. Bu qrafiklərin istehsal miqyasından başqa tələb əyrisinin raailliyi ilə də fərqləndiyini görmək çətin deyil.**

**Firmanın davranışının təhlili zamanı mühüm bir şərtiliyə yol verilir ki, bu da istehsalçının özünü səmərəli aparmasından ibarətdir. İstehsalçı davranışının səmərəliliyi istehlakçının istifadə etdiyi prinsiplə eynidir. Faydalı nəticə (bu halda istehsalçının gəliri) daha bir məhsul vahidi istehsalının verdiyi son hədd uduşu həmin əlavə vahidin istehsalına son hədd məsrəflərdən çox olduqda əldə olunur. Son hədd gəliri və son hədd xərclər arasındakı müsbət fərq firmanın hədd gəlirini təşkil edir.**







Şəkil 19.7, Sahənin tarazlığı

Şəkil 19.8. Firmanın tarazlığı

Başqa sÖzlə, istehsalçı istehsal həcmini onun son hədd gəliri hədd xərcləri ilə bərabərləşənə qədər artıracaq. MR = MC olduğu halda istehsalçı öz gəlirinə daha heç nə əlavə edə bilməyəcək, çünki sonuncunun həcmi maksimuma çatmış olur. Əgər istehsal yenə də davam etdirilsə, onda son hədd gəliri son hədd xərclərindən az olar, gəlir isə aşağı düşməyə başlayar (şəkil 19.9).




Şəkil 19.9. Qısamüddətli dövrdə rəqabətqabiliyyətli firmanın tarazlığı

Deməli, MR = MC gəlirin maksimallaşdınıması şərtidir, MR və MC əyrilərinin kəsişmə nöqtəsi isə firmanın tarazlıq nöqtəsidir (şəkil 19.9-da E nöqtəsi).

**Firmanın tarazlığı firma gəlirinin maksimuma çatdığı PE tarazlıq qiyməti və Qj. tarazlıq istehsal həcmi ilə səciyyələnir.**

## Firma gəlirinin maksimallaşdırılması şərtləri

**Firma davranışının əsas konsepsiyası firmanın əsas məqsədinin gəlir olması müddəasına söykənir. Mənfəəti maksimallaşdırmaq cəhdi sahibkEirın bütün niyyət və hərəkətlərinə daxil olur. Bəs təkmil rəqabət şəraitində bu məqsəd necə həyata keçirilə bilər?**

**Problemin öyrənilməsində iki yanaşma mövcuddur. Birinci ümumi göstəricilərə, ikinci isə son hədd və orta göstəricilərə əsaslanır.**

**Ümumi göstəricilər metodu**

**Firmanın ümumi gəliri ümumi gəlirlə (satışdan əldə olunan pul) ümumi xərclərin fərqindən ibarətdir.**

$$TP=TR-TC$$

**Aydındır ki, ümumi satış pulu ilə ümumi xərclər arasındakı fərq ən böyük kəmiyyətə çatdıqda gəlir maksimum olur.**




**Şəkil 19.10. Firmanın satışdan əldə olunan pulun ümumi məbləği, xərcləri və gəliri**

**QrafİK şəKİldə** bu şəKü **19.10-da şərh olunub** Kİ, **burada TR və TC əyriləri arasındaKi ən böyÜK şaquli uzaqlaşma (AB) gəlirin Kəmiyyətini göstərir.**

**Bu qrafiK əyani şəKİldə göstərir** Kİ, **firma xərclərini azaltmaqda və məhsul istehsalını, yəni satışdan əldə olunan pulun ümumi məbləğini artırmaqda maraqlıdır.**

**Orta və son hədd göstəriciləri metodu**

**Yuxanda qeyd olunmuşdu** Kİ, **mənfəətin maKSİmallaşdırılması qaydası elə həcmdə məhsul buraxılışını nəzərdə tutur** Kİ, **bu zaman MR = MC olsun. LaKİn gəlirin cəbri və ya qrafiK yolla müəyyənləşdirilməsində son hədd göstəricilərindən başqa gəlir və xərclərin orta göstəricilərindən də istifadə olunmalıdır.**

**Hər şeydən əvvəl qeyd edəK** Kİ, **orta gəlir satışdan əldə olunan pulun orta məbləği ilə orta xərclər arasındaKi fərqdən ibarətdir. TəKmil rəqabət şəraitində məhsul vahidinə düşən satış pulu onun bazar qiyməti ilə tam üst-üstə düşür. Deməli, hər məhsul vahidinə düşən orta gəlir qiymətli orta xərclərin fərqinə bərabərdir. Gəliri qeyd etməK üçün adətən yunan hərfindən istifadə edirlər.**

$$AH = AR - AC = P - AC.$$

**Belə olduqda ümumi mənfəəti orta mənfəəti istehsal olunmuş və satılmış məhsula vurmaqla hesablamaq olar.**

$$TO = Ail \times Q.$$

**Gəlirin maKSimallaşdırılması vəziyyəti 19.11-də qrafİK şərh olunmuşdur.**

**Gəliri maKsimallaşdıran Q istehsal həcmi firmanın tarazlıq nöqtəsinə, yəni son hədd gəliri (MR) və son hədd xərcləri (MC) əyrilərinin Kəsişmə nöqtəsinə müvafiqdir. Diqqət verəK** Kİ, **orta gəlir əyrisi (o həm də son hədd gəliri əyrisi, həm firmanın məhsuluna tələb əyrisi, həm də məhsulun bazar qiymətinin səviyyəsini ifadə edən əyridir) Kifayət qədər**




**Şəkil 19.11. Rəqabətqabiliyyətli firmanın mənfəətini maksimallaşdıran İstehsal həcmi (firmanın tarazlığı)**

və firmanın tarazlıq nöqtəsində (MR=MC) orta xərclər səviyyəsindən yuxandır. Bu müsbət fərq qrafik şəkildə orta gəlrin kəmiyyətinə bərabər NE şaquli parça ilə əks etdirilib. Ümumi gəlirə gəldikdə isə o, KNEPg dördbucaqlısının həcmi ilə təmsil olunmuşdur.

Aydındır ki, əgər qiymət orta xərclər səviyyəsindən yüksəkdirsə, yəni bütün istehsal xərcləri ödənilirsə və normal gəlirin alınması təmin olunursa, sahibkar gəlir əldə edir. Əgər satış qiyməti orta xərclərdən aşağıdırsa, sahibkar zərər çəkir. Zərərin olması, hələ o demək deyil ki, firma o dəqiqə mövcudluğuna son qoymalıdır. Qısamüddətli dövrdə itkiləri minimallaşdırmaq üçün fəaliyyəti davam etdirmək lazım gəlir, çünki firmanın bağlanması daha böyük ziyanla müşayiət olunur. Bu vəziyyəti şərh etmək üçün daha bir əyri - orta dəyişən xərclər əyrisini quraq.

Xatırladaq ki, orta xərclər əyrisi və orta dəyişkən xərclər əyrisi arasındakı şaquli fərq orta təsbit olunmuş xərclərin kəmiyyətinə bərabərdir.

Fərz edək ki, firmanın məhsuluna tələb bir o qədər də yüksək deyil, bu halda ola bilər ki, bazar qiyməti orta xərclərin heç də hamısını deyil, yalnız orta dəyişənləri və orta təsbit olunmuş xərclərin bir qismini ödəsin (şəkil 19.12).




**Şəkil 19.12. Rəqabətqabiliyyətli firma mənfəətinin minimallaşdınıması**

**Bu halda əgər firma qısamüddətli dövrdə fəaliyyətini dayandırsa, onun zərəri təsbit olunmuş xərclərin kəmiyyətinə bərabər olacaq (onsuz da bank kreditinə, lizinqə görə ödəmələri etmək lazım gələcək). Lakin qısamüddətli dövrdə firma istehsalım MR = MC olan həcmdə davam etdirsə, onda əməliyyat gəliri adlandırılan gəlir əldə etmiş olar və bununla da zərəri minimallaşdırar. Qiymət orta dəyişən xərclərdən yüksək oldu^ndan bu müsbət xərc (şaquli NE parçası) orta əməliyyat gəlirini təşkil edəcək. Ümumi əməliyyat gəliri PgENK dördbucaqlısının sahəsi ilə təmsil olunacaq. Bu halda zərər yalnız təsbit olunmuş xərclərin STEPE dördbucaqlısının sahəsinə bərabər olan qismini təşkil edəcək. Şəkil 19.12-də aşkar görünür ki, qısamüddətli dövrdə istehsalın dayandırılması zamanı zərər (STNK) istehsalın davam etdirilməsi zamanı olduğundan (STEPg) xeyli çoxdur. Aydındır ki, uzunmüddətli dövrdə firma ya xərclərini xeyli azaltmalı, ya da istehsalı dayandırmalıdır. Beləliklə, MR = MC olan həcmdə məhsul istehsalı firmaya istehsalı dayandırmadan gəliri maksimal- laşdırmaga və ya zərəri minimallaşdırmağa imkan verir.**

**Bəs hansı halda firma qısamüddətli dövrdə belə istehsalını dayandırmalıdır? Aydındır ki, bunun üçün qiymət o qədər aşağı olmalıdır ki, ən yaxşı halda yalnız orta dəyişən xərclər ödənilsin (şəkil 19.13).**




Şəkil 19.13. Rəqabətqabiliyyətli firmanın qısamüddətli dövrdə
bağlanma nöqtəsi

**Bu halda firmanın istehsalı davam etdirməsindən və ya onu dayandırmasından asılı olmayaraq onun zərəri təsbit olunmuş ümumi xərclərə (STEFg) bərabər olacaq. AC əyrisi üzərində ən aşağıda yerləşən nöqtə firmanın bağlanma nöqtəsi adlanır.**

**Orta dəyişən xərclərin minimal səviyyəsindən aşağı qiymətlərdə firmanın heç bir şərtlə istehsalı davam etdirməyəcəyinə görə MC əyrisinin AVC əyrisindən aşağıda yerləşən hissəsi əslində firmanın təklif əyrisi deyil.**

**Firmanın təklif əyrisi MC əyrisinin onun AVC əyrisi ilə kəsişmə nöqtəsindən yuxarıda yerləşən hissəsi ilə təmsil olunmuşdur.**

**Firma fəaliyyətinin mühüm göstəricisi istehsalçının artıqlığıdır. İstehsalçının artıqlığı qrafik şəkildə təklif əyrisindən yuxarıda və solda yerləşən və yuxarıdan bazar qiyməti əyrisi ilə məhdudlaşan fiqurun sahəsi ilə təmsil olunmuşdur (bax: şəkil 19.14). Diqqət versək görərik ki, firmanın təklif əyrisi MC əyrisinin orta dəyişkən xərclər əyrisi səviyyəsindən yuxanda yerləşən, yuxarı qalxan hissəsi ilə təmsil olunmuşdur.**




Şəkil 19.14. İstehsalçının artıqlığı

Bu kateqoriyanın iqtisadi mənasını anlamaq üçün fərz edək ki, 1-ci əmtəəni firma Pı = MCı qiymətə, 2-ci əmtəəni P2 =* MC2 və bu kimi qiymətə satmağa hazırdır. Lakin təkmil rəqabət şəraitində firma qiymət alandır və bütün əmtəə vahidlərini zahiri bazar qiymətinə satır. Əgər bazar qiyməti Pı, P2, P3 və b.k.-dən yuxarıdırsa, fərqlər cəmi firmanın uduşu və ya istehsalçının artıqlığı olar.

~ İl =PQ* - İİAfC,

Beləliklə, istehsalçının artıqlığı məhsulun bazar qiymətinə satışından əldə olunan satış pulu ilə onun istehsalına son hədd xərclərinin məbləği arasındakı fərqdir.

Bazar qiyməti Pİ səviyyəsinə qalxdıqda istehsal həcmi də (01 səviyyəsinə qədər) o cümlədən istehsalçının artıqlığı da artır (bax: şəkil 19.15).

Şəkil 19.15-də istehsalçı artıqlığı artımı ştrixlənmiş trapesiya şəklində göstərilmişdir.

İstehsalçı artıqlığı başqa kateqoriyalarla da ifadə oluna bilər.

Yada salaq ki, PQ = TR. Digər tərəfdən MC istehsalatda daha bir əlavə məhsul vahidinin istehsalına əlavə xərclərdir.

Daimi xərclərin kəmiyyəti qısamüddətli dövrdə istehsal artdıqda dəyişmədiyindən, daha bir vahid məhsulun istehsalı




**Şəkil 19.15. İstehsalçı artıqlığının artımı**

**yalnız dəyişən xərclərin artması ilə əlaqədardır. Buradan belə çıxır ki, cəm MC = TVC. Şəkil 19,16-da yuxarıdan əyri MC ilə məhdudlaşan ştrixlənmiş trapesiyanın sahəsi ümumi dəyişən xərclərin kəmiyyətinə bərabərdir. Şəkil 19.17-də tərəfləri Q* və AVC olan ştrixlənmiş dÖrdbucaqlının da sahəsi ümumi dəyişən xərclərin kəmiyyətinə bərabərdir.**




**Şəkil 19.16. Son hədd xərcləri**




**Şəkil 19.17. Ümumi dəyişən xərclər**

**Yuxarıda deyilənlər əsasında istehsalçı artıqlığını aşağıdakı kimi yazmaq olar:**

**PQ - SMC = TR - TVC.**

**Şəkil 19.18-də tənliyin sol tərəfindən göründüyü kimi istehsalçının artıqlığını bazar qiymətləri məbləği ilə son hədd xərclərinin məbləği arasındakı fərq kimi göstərir.**

**Şəkil 19,19-da istehsalçının artıqlığını satışdan əldə olunan pulun ümumi məbləği ilə ümumi dəyişən xərclərin fərqi kimi şərh edir və bu tənliyin sağ tərəfinə müvafiqdir.**




**Şəkil 19.18. İstehsalçının artıqlığı bazar qiymətləri məbləği ilə son hədd xərclərinin məbləği arasındakı fərq kimi**




**Şəkil 19,19. İstehsalçının artıqlığı satışdan əldə olunan pulun ümumi məbləği ilə ümumi dəyişən xərclərin fərqi kimi**
**İstehsalçının artıqlığı düsturunu dəyişdirməkdə davam etmək də olar.**

**TR = TC -I- Tn = TFC + TVC + TII, olduğu üçün istehsalçının artıqlığını belə ifadə etmək olar:**

$$TR - TVC = Tn + TFC,$$

**burada TFC = TC - TVC (bax şəkil 19.20).**
**Beləliklə, istehsalçının artıqlığı bərabərdir:**

$$PQ - MC = TR - TVC = Tn + TFC.$$

**Bu zaman firmanın gəlirini istehsalçının artıqlığı ilə təsbit olunmuş ümumi xərclər kəmiyyətinin fərqi şəklində ifadə etmək olar, yəni**

**Tn = istehsalçının artıqlığı - TFC.**




**Şəkil 19.20. Firmanın mənfəəti**

***§4. üzunmüddatli dövrdə firma və sahənin təklifi***

**Sahə firraaİEirının uzunmüddətli dövrdə əldə etdiyi iqtisadi gəlir onları istehsalın miqyasını genişləndirməyə sövq edəcək və eyni zamanda sahəyə yeni kapitallar və firmalar cəlb olunacaqlar. Nəticədə sahənin ümumi təklifi artacaq. Sahənin təklif əyrisi sağa yerini dəyişəcək və tarazlı bazar qiyməti düşəcək (şəkil 19.21).**




**Şəkil 19.21. Təklifin artması nəticəsində tarazlı bazar qiymətinin azalması**

**Əksinə, əgər sahədə qiymət çox aşa^ı olarsa və firmalar zərər çəkərlərsə, bu onlann çoxunun bağlanmasına və kapitalın sahədən getməsinə səbəb olar. Sahə təklifi azalar, təklif əyrisi sola yerini dəyişər, tarazlıq qiyməti isə artar (şəkil 19.22).**




**Şəkil 19.22. Təklifin azalması nəticəsində tarazlı bazar qiymətinin artması**

**Rəqabət mübarizəsi nəticəsində sahəyə kapital axınının artması və azalması fəaliyyət şəraitləri bərabərləşənə və firmaların hamısı normal mənfəət əldə etməyə başlayana qədər davam edəcək. Bu o deməkdir ki, uzunmüddətli dövrdə sahənin tarazlıq qiyməti istehsalın uzunmüddətli orta xərc**

**lərinin minimal göstəricisi səviyyəsində müəyyənləşir: P = LRACmin. Qrafik şəkildə bu o deməkdir ki, son hədd mənfəəti əyrisi (orta gəlir, qiymət) uzunmüddətli orta xərclər əyrisinə onun ən aşağı nöqtəsində toxunur (şəkil 19.23).**




**Şəkil 19.23. Uzunmüddətli dövrdə rəqabətqabiliyyətli firmanın tarazlığı**

**Əgər firmanın uzunmüddətli (LR) və qısamüddətli (SR) son hədd və orta göstəriciləri üst-üstə düşərlərsə, E nöqtəsi onun uzunmüddətli dövrdə tarazlıq nöqtəsi olar:**

**SRMC = SRAC = LRMC = LRAC = MR = PB-**




**Şəkil 19.24. Miqyasın sıfır xarici effekti**

**Tələb dəyişərsə, sahənin istehsal həcmi və bazar qiymətində nə baş verər? Bu suala cavab sahə təklifinin uzunmüddətli əyrisinin köməkliyi ilə verilə bilər.**

**Şəkil 19.24-19,26-nı nəzərdən keçirək.**

**Hər üç halda sahə məhsuluna tələbin artması baş vermişdir ki, nəticədə tələb əyrisi yerini sağa dəyişmişdir, özü də bu zaman tarazlıq nöqtəsi A nöqtəsindən B nöqtəsinə keçir. Tarazlı bazar qiyməti artır və bazara yeni firmalar cəlb edir, mövcud firmalar isə istehsalın sahəsini artırmağa maraq əldə edirlər. Nəticədə sahə təklifi artır, sahə təklifi əyrisi sağa keçir. Bazarın yeni tarazlıq səviyyəsi C nöqtəsində müəyyənləşir. Deməli, uzunmüddətli dövrdə firmanın təklif əyrisi yalnız sağa keçmir, həm də onun mailliyi də dəyişir. Sahənin uzunmüddətli dövrdə təklif əyrisini səciyyələndirən nöqtələr A və C - sahənin ilkin və son tarazlıq nöqtələridir.**

**Şəkil 19.24 - 19.26 üç tipik vəziyyəti əks etdirirlər. Birinci halda (şəkil 19.24) C nöqtəsində tarazlıq qiyməti ilkin səviyyədə qalır, ikinci halda (şəkil 19.25, a) - artır, üçüncü halda (şəkil 19.26, a) - ilkin səviyyə ilə müqayisədə aşağı düşür. Qiymətin yekun səviyyələrindəki fərq orta istehsal xərclərinin ayrı-ayrı firmalardan asılı olmayıb, ümumsahə istehsal şərtlərindən irəli gələn artımı ilə izah olunur. Başqa sözlə, söhbət miqyasın xarici səmərəsindən gedir.**

**İkinci halda (şəkil 19.25, a) sahəyə yeni firmaların axını və rəqabətin kəskinləşməsi iqtisadi resursların qiymətini artırır. Nəticədə orta sahə xərcləri artır, bu da miqyasın mənfi xarici effektinə aparır. Ayrılıqda götürülmüş firma üçün onun orta uzunmüddətli xərclər əyrisi yerini yuxarı dəyişir (şəkil 19.25, b).**

**Şəkil 19.26-da sahə istehsalının genişlənməsinin uzunmüddətli dövrdə orta xərclərin azalmasına apardığı vəziyyət göstərilmişdir. Bu, sahə infrastrukturunun uğurla inkişaf etdirilməsi, məsələn, distribüter şəbəkəsi, kommunikasiyalar, banklar və s., həmçinin yeni, daha ucuz resursların cəlb olunması və b.k. nəticəsində baş verə bilər. Bu**




Şəkil 19.25. Miqyasın mənfi xarici effekti:
a) — sahə üçün; b) - firma üçün

nın uzunmüddətli orta xərclər əyrisi şaquli şəkildə aşağı enir, yəni xərclər aşağı düşür və miqyasın müsbət xarici effektindən danışmaq olur.




Şəkil 19.26. Miqyasın müsbət xarici effekti:
a) - sahə üçün; b) - firma üçün

### *§5. Təkmil rəqabət və ictimai səmərəlilik*

**Xalis rəqabət zəminində təşkil olunmuş bazar quruluşu başqa bazar modellərinə nisbətən bir sıra şəksiz üstünlüklərə malikdir. Bu, iqtisadçılara təkmil bazar rəqabətini məhdud resursların ən səmərəli bölgü və istifadə sistemi kimi nəzərdən keçirməyə əsas verir.**

**1. Allokativ səmərəlilik: P=MC. İlk növbədə qeyd olunmalıdır ki, təkmil rəqabət şəraitində əmtəənin (xidmətin) qiyməti onun son hədd xərcləri qiymətindən çox olmur. Bu, cəmiyyətin resurslarının ictimai tələbatın ödənilməsini maksimallaşdıra bilmək üçün lazım olan qaydada bölüşdürüldüyünə dəlalət edir. Təkmil rəqabətli bazar istənilən əmtəə ümumisini deyil, onları ümumi tələbin quruluşuna, yəni istehlakçı üstünlükverimləri quruluşuna müvafiq istehsal edir.**

**Həqiqətən də, istənilən əmtəənin qiyməti nemətin istehlakçı üçün son hədd faydalılığmın göstəricisi kimi çıxış edir. Məhsulun faydalılığını qiymətlə ifadə olunduğundan az qiymətləndirməyən istehlakçılar onu almağa hazırdırlar. Başqa sözlə, hər bir əmtəə onun son hədd faydalılığmın bazar qiyməti ilə bərabərləşdiyi nöqtəyə qədər istehlak olunacaq. Bu zaman istehlakçı alınan faydalılığı maksimallaşdırır.**

**Digər tərəfdən, istehsalçı qiyməti (istehsaldan hədd gəlirini) həmin əmtəə istehsalının hədd xərcləri ilə, yəni həmin resurslar vasitəsilə başqa əmtəələr istehsalının itirilmiş imkanları ilə müqayisə edir. Gəlirin maksimallaşdırılması prinsipini əldə rəhbər tutan istehsalçı hər bir məhsulu qiymət və hədd xərclərinin bərabərləşdiyi nöqtəyə qədər istehsal edəcəkdir.**

**İstehlak və istehsal bazar qiyməti vasitəsilə tənzimlənirsə, istehlakçı və istehsalçı maraqlannm üst-üstə düşməsi baş verir.**

**P=MU və P=MC olarsa, deməli MU=MC.**

**Bu isə o deməkdir ki, cəmiyyətin məhdud resursları istehsalçıların gəlirlərinin maksimallaşdırılması və istehlak**

çıların faydalılığının maksimallaşdınlması maraqlarına cavab verən tərzdə bölüşdürülmüşdür.

Bundan başqa, azad bazar iqtisadiyyatda dinamik dəyişikliklər nəticəsində resurslardan istifadə səmərəliliyi pozulduqda onu bərpa etməyə qabildir. Bazar mexanizmi və ya «bazann görünməz əli» (A.Smit) əmək və kapitalı bir istehsal növündən digərinə keçirməklə avtomatik tənzimləmə aparır. Məsələn, dəb amili təsiri altında dar şalvarlara tələbin artması onlann qiymətinin artmasına səbəb olacaq. Bu, sahədə iqtisadi gəlirin meydana gəlməsini şərtləndirəcək. İqtisadi gəlir bura əmək və kapital axınım və MC-in dar şalvarlarm qiyməti üə bərabərləşəcəyi nöqtəyə qədər onlarm istehsalım genişləndirməyə həvəsləndirəcək. Digər tərəfdən isə əmək və kapitahn, deyək ki, tələb olmadığma görə qiymətləri düşən gen şalvarlar istehsahndan getməsi baş verəcək. Grediş son hədd xərcləri yeni qiymət səviyyəsi ilə bərabərləşəndə başa çatacaq. Beləliklə, resursların yenidən bölüşdürülməsi yenə də istehlakçıların faydalılığının maksimallaşdınlmasını təmin edəcək.

2. İstehsal səmərəliliyi: P—LRAC„„1„.

İstehsal səmərəliliyi cəmiyyət üçün zəruri olan əmtəənin ən az xərc aparan üsulla istehsal olunmasını nəzərdə tutur. Bu, rəqabətin gedişində resursların azad surətdə yenidən bölüşdürülməsi hesabına əldə olunur. Yuxarıda gətirilmiş misalda dar şalvar istehsalçıları iqtisadi gəlir əldə edir, gen şalvar istehsalçıları isə iqtisadi zərər çəkirlər. Amma bu qısamüddətli dövr üçün doğrudur. Kapital və əməyin yerdəyişməsi hesabına hər iki istehsalda P=MC səviyyəsində tarazlıq yaranan kimi gəlir də, zərər də itir. Bütün növ şalvar istehsalçıları uzunmüddətli dövrdə yalnız normal gəlir əldə edəcəklər. Məhz uzunmüddətli orta xərclərlə qiymət bərabərliyi bazarda tarazlığı təmin edə bilər.

Diqqət verək: tarazlı uzunmüddətli orta xərclər minimal səviyyədə müəyyənləşir. Bu həm qrafik, həm də iqtisadi izahını tapır. Qrafik cəhətdən bu, firma məhsuluna tələb əyrisinin (bu

**sidir) üfüqi olmasından irəli gəlir. Tarazlıq yalnız MP əyrisi AC əyrisinə onun aşağı nöqtəsinə toxunanda, yəni onun MC əyrisi ilə kəsişmə nöqtəsində yaranır. İqtisadi izah bundan ibarətdir ki, qabaqcıl resurs qoruyucu texnologiyalardan istifadə edən və daha yüksək əmək məhsuldarlığına malik istehsalçıların xərcləri daha az olacaq, bu da onlara rəqabət üstünlüyü və iqtisadi gəlir əldə etmək imkanı verəcək. Bütün istehsalçılar bu səmərəyə can atdığından bütün müəssisələrdə tez ya gec xərclər minimallaşdınlıcaq və cəmiyyətə lazım olan əmtəələr ən ucuz yolla istehsal olunacaqlar.**

**3. Təkmil rəqabətin üstünlüklərinə onun yuxarıda qeyd olunan özünütənzimləmə qabiliyyətini aid edirlər ona görə ki, təsərrüfat həyatına dövlət müdaxiləsi tələb olunmur, idarəetməyə sərf olunan ictimai xərclərə qənaət olunur.**

**4. Təkmil rəqabət bazarı kifayət qədər çevikdir, yüksək uyğunlaşma qabiliyyətinə malikdir, cəmiyyətdə təşəbbüsü, məsuliyyətliliyi, sahibkarlıq fəallığını inkişaf etdirir.**

**Bununla belə, hətta ən təkmil rəqabətli bazar da ideal ictimai quruluş deyil və bazarın «iflası» kimi səciyyələndirilən bir sıra çatışmazlıqlara malikdir. Bəs bazar öz təbiətinə görə nə edə bilməz?**

**1) Hər şeydən əvvəl, gəlir bölgüsünün bazar sistemi labüd şəkildə mülkiyyət bərabərsizliyinə aparır. Dövlət siyasətinə zidd olmayan əhalinin iqtisadi təbəqələşməsi güclənməyə meylli olmaqla, sosial və siyasi təbəqələşməyə keçir. Bu yalnız sosial sabitliyi pozmur, həm də iqtisadiyyatın qeyri- səmərəliliyinin artmasının güclü amilinə çevrilir,**

**2) Bazar rəqabət mexanizmi istehsalın və kapitalın təmərküzləşməsinə aparır və bununla da inhisarçı meyllərə səbəb olur ki, bu da istənilən cəmiyyətdə arzuolunmaz hesab olunur. Bununla əlaqədar rəqabət mühitinin qorunması və inhisarçı təzahürlərinin məhdudlaşdırılması istiqamətində dövlət siyasətinə zərurət yaranır.**

**3) Bazarın qaçılmaz nəticələrindən biri işsizlik və ya ən mühüm resurslardan olan əməkdən natamam istifadədir. Ta**

**rixi təcrübə göstərir ki, məşğulluğu dəstəkləyən məqsədyönlü dövlət siyasəti olmazsa, işsizlik böyük sosial və iqtisadi bəlaya çevrilə bilər və iqtisadi artıma və millətin maddi-rifah halının yaxşılaşmasına mane ola bilər.**

**4) Kifayət qədər böyük sayda əmtəə və xidmətlər var ki, onların bazar şəraitində istehsalı sərfəli deyil və xüsusi sahibkar onları ya istehsal etməyəcək, ya da az istehsal edəcək. Bu, məsələn, milli müdafiə, seysmoloji xidmət, xilasetmə xidməti və s. kimi ictimai nemətlər adlanan nemətlərdir. Belə əmtəə və xidmətlər cəmiyyətə dövlət tərəfindən təqdim oluna bilər.**

**5) Bazarın təkmil rəqabət sistemi istehsalın əks effektlərinin və ya üçüncü şəxslər üçün istehlakın olmadığı ehtimalını nəzərdə tutur. Halbuki belə effektlər xeyli hiss olunandır, məsələn, ayrı-ayrı istehsallar ətraf mühiti çirkləndirir, lakin onun ağırlığını cəmiyyətin bütün üzvləri çəkir. Belə hallarda bazar nə əks mənfi effektləri aradan qaldıra, nə də müsbət effektləri həvəsləndirə bilmir. Bu məsələni dövlət həyata keçirməlidir.**

**6) Bazar texniki və texnoloji yenilikləri heç də həmişə təqdir etmir. Yenilik nəticəsində əldə olunan iqtisadi və rəqabət uduşu müvəqqəti olduğu üçün, yeniliyi «dondurmaq», onun rəqiblər arasında yayılmasına yol verməmək, ondan istifadəni inhisarlaşdırmaq meyli yaranır.**

**7) Təkmil rəqabət modeli standartlaşdırılmış məhsulu nəzərdə tutur. Bununla da məhsulun (xidmətin) fərqləndirilməsi imkanları azalır, fərdin ən geniş və rəngarəng tələbatlarının ödənilməsi imkanları məhdudlaşır.**

**8) Bazar insanlarda yalnız müsbət keyfiyyətləri deyil, həm də mənfi keyfiyyətləri inkişaf etdirir, məsələn, xudbinlik, qəddarlıq, başqalarının vəziyyəti ilə maraqlanmaq.**

**Yuxanda göstərilən məqamlara görə real mövcud olan bazar sistemləri mücərrəd təkmil bazar modellərindən çox fərqlidirlər və qarışıq iqtisadiyyatın dövlətin təsərrüfat həyatına fəal müdaxiləsini nəzərdə tutan müxtəlif**

# XX FƏSİL. İNHİSAR ŞƏRAİTİNDƏ FİRMANIN DAVRANIŞI

*§1. İnhisar və onun müasir modeli.*
*§2. Xalis inhisar şəraitində firmanın davranışı.*
*§3. İnhisarçı firmanın qısamüddətli və uzunmüddətli dövrlərdə tarazlığı.*
*§4. Qiymət ayn-seçkiliyi.*
*§5. İnhisar və cəmiyyət. Təbii inhisarın tənzimlənməsi.*

## *§1. İnhisar və onun müasir modeli*

**İnhisarın ən ümumi izahı belədir; bu hər hansı fəaliyyət sahəsində müstəsna hüquqdur. İqtisadi nəzəriyyədə dövlət və xüsusi inhisardan, xarici ticarət inhisarından, valyuta inhisarından, torpaq üzərində xüsusi mülkiyyət inhisarından və s. danışılır.**

**Bununla belə, bazarın təkmil rəqabətdən fərqli müəyyən təşkil forması kimi də inhisar anlayışı mövcuddur. Bundan başqa, inhisar dedikdə hərdən tam bazar hakimiyyətinə malik iri şirkət də başa düşülür.**

**İnhisar və rəqabət problemi iqtisadçı alimləri həmişə maraqlandırıb (məsələn, bax: V.Petti. «Vergilər və rüsumlar haqqında traktata; A.Marşall. «Siyasi iqtisadın prinsiplərim; K.Marks, « Kapital»). Lakin XX əsrin əvvəlində inhisar problemi iqtisadi tədqiqatların diqqət mərkəzində oldu. 1902-ci ildə C.A.Hobsonun «İmperializm» kitabı işıq üzü gördü, 1910-cu ildə R.Gilferdinqin «Maliyyə kapitalım kitabı çapdan çıxdı, Rusiyada 1915-ci ildə N.İ.Buxarin «Dünya təsərrüfatı və imperializmm əsərini nəşr etdirdi. 1916-cı ildə V.t.Leninin «İmperializm kapitalizmin ən yüksək mərhələsidir m kitabı çapdan çıxdı. Məhz XIX və XX əsrlərin qovuşuğunda keyfiyyət dəyişiklikləri baş verdi ki, onları cəmiyyətin iqtisadi və siyasi inkişafında inhisarçı meyllərin əsaslı güclənməsi kimi səciyyələndirmək mümkündür.**

**V.t.Lenin böyük tarixi materialı ümumiləşdirərək rəqa**

**bət prosesinin istehsal və kapitalın təmərküzləşməsini doğurduğunu, daha sonra isə kartellər, sindikatlar, trestlər, konsernlər və s. kimi inhisarçı birləşmələrin yaranmasına gətirib çıxartdığım göstərmişdi. Özü də V.İ.Lenin heç vaxt və heç yerdə (hərdən onun adına çıxıldığı kimi) deməmişdir ki, inhisar sahə istehsalının 100% bir əldə cəmləşməsidir (bu, müstəsna, çox nadir hadisədir) və ya o, çoxsaylı kiçik və hətta iri əmtəə istehsalçılarını bazardan uzaqlaşdırır. Bundan b2işqa, Lenin inhisarı ənənəvi kapitalizm üzərində üstqurumu kimi nəzərdən keçirmiş və inhisarların iqtisadiyyatın qeyri- inhisar sektorları ilə qarşılıqlı əlaqə formalarını öyrənmişdir, yəni Lenin inhisar anlayışım kifayət qədər geniş şərh edirdi. Lenin qeyd edirdi ki, inhisarçı meyllər yalnız sənayedə deyil, bank sahəsində də, yalnız daxili bazarda deyil, həm də dünya miqyasında müşahidə olunur. Ayrı-ayrı ölkələr kapital ixracı, dünya bazarlarımn bölüşdürülməsi və dünyanın siyasi nüfuz dairələrinə bölüşdürülməsində inhisarçı mövqe tutmağa başlayırlar. İnhisarçılığın belə miqyaslı və hər sahəyə nüfuzedici inkişafı ilə əlaqədar V.t.Lenin cəmiyyətin özünün müasiri olduğu mərhələsini inhisarçı kapitalizm adlandırmışdı.**

**Leninin inhisar konsepsiyasından fərqli olaraq müasir Qərb iqtisadi nəzəriyyəsi inhisan daha dar mənada, məhz bazarda yalmz bir firmanın mövcud olduğu vəziyyət kimi nəzərdən keçirir. Beləliklə, firma və sahə anlayışlanmn eyniləşdirilməsi baş verir. Bazarda 2-5 iri şirkətin üstünlük təşkil etdiyi vəziyyəti oliqopoliya (məfhum Amerika iqtisadçısı Çemberlin tərəfindən təklif olunmuşdu) adlandırmağa başlamışlar. İlk nəzərdə konsepsiyaların bu fərqi bir o qədər də prinsipial görünmür. Bir qədər aşağıda görəcəyik ki, oliqopolik vəziyyət inhisara çox oxşayır, razılaşma əldə olunub kartel yarandıqda isə onlar ümumiyyətlə eynidir. Bir və ya bir neçə iri şirkətin bazarda hökmranlıq etməsi hallarının daha təfərrüatlı təhlili cəhdi özü-özlüyündə məqsədəuyğundur və iqtisad elmini zənginləşdirir. Bununla belə qeyd olunmalıdır ki, oliqopoliya nəzəriyyəsi vaxtı üə Lenin inhisar nəzəriyyəsinin**

**təkzib edilməsinə yönümlənmişdi və aşkar ideoloji səciyyəli idi.**

**Xalis inhisar adlandırılan müasir inhisar modeli altında aşağıdakı təsrifat əlamətlərinə müvafiq gələn rəqabətqabiliyyətli bazar vəziyyəti başa düşülür.**

**1) Sahədə yalnız bir firma fəaliyyət göstərir, buna görə də firma və sahə anlayışları məzmunca eynidir.**

**İnhisarın səciyyələndirilməsi üçün özü-özlüyündə sahənin izahı böyük əhəmiyyət kəsb edir. Belə ki, sahə kimi sırf bir məhsul növünün istehsalını nəzərdən keçirmək olar, lakin sahə anlayışı altında bir-birinin əvəzləyicisi olan çoxlu oxşar məhsulların istehsalını da nəzərdən keçirmək olar. Məsələn, dəmir yolu nazirliyi dəmiryolu daşımaları sahəsində inhisarçıdır, lakin bu, nəqliyyat adlandırılan sahənin yalnız bir firmasıdır. “Koka-kola” şirkəti eyniadlı məhsulun istehsalında inhisarçıdır, amma alkoqolsuz içkilər istehsalında inhisarçı deyil.**

**Sahədən danışanda mütləq bazarın coğrafi miqyası da nəzərə alınmalıdır. Coğrafi cəhətdən bazar nə qədər geniş olsa, bir şirkətin inhisarçı olması bir o qədər çətindir. Yerli bazarda isə, hətta kiçik biznes də inhisarçı ola bilər. Misal kimi əczaçı köşkünü götürək: ucqar kənddə yeganə olduğundan o, inhisarçıdır, halbuki böyük şəhərdə (və ya bütövlükdə ölkədə) özükimUərin əhatəsində o heç bir real bazar hakimiyyətinə malik olmayacaqdır.**

**Gördüyümüz kimi bazarda inhisar vəziyyətini tutmaq üçün firmamn həcmcə mütləq böyük olması vacib deyil (kənddə əczaçı köşkü kimi). Bununla belə, firmanın iriləşməsi ona sahə bazarında inhisar vəziyyətini tutmağa imk^ın verir.**

**2) Firmanın istehsal etdiyi məhsul sahənin bütün əmtəə təklifini təşkil etdiyindən firma qiymət üzərində tam və mütləq nəzarət edir və ya bazar hökmranlığına malikdir. Bu o deməkdir ki, firma məhsulunun qiymətini artıra bilər və bu zaman ona tələbi itirməz. Belə firma təkmil rəqabətdəki hazır qiymətləri qəbul edən firmadan fərqli olaraq qiymət müəyyənləşdirən hesab oluna bilər.**

**Firmanın öz məhsuluna istədiyi qədər yüksək qiymət təyin etmək iqtidarında olduğunu düşünmək olmaz. Öz qiymət siyasətində firma həmişə əhalinin alıcılıq qabiliyyəti və tədiyə qabiliyyətli tələblə məhdudlaşır.**

**3) Bütün digər firmalar üçün sahəyə gəliş bağlıdır. Bu həm inzibati-hüquqi, həm də iqtisadi metodlarla əldə olunur. Məsələn, "özgə" kapitalı qabağında sədd kimi aşağıdakılar çıxış edə bilərlər;**

**■ bir istehsalçıya həmin məhsulu istehsal etməyə və ya müəyyən texnologiyanı tətbiq etməyə müstəsna hüquq verən patentlər;**

**■ bü fəaliyyət növü ilə məşğul olmağa yalnız bir firmaya icazə verən dövlət lisenziyası və ya franşizlər;**

**■ nadir xammal resursuna malik olma. Məsələn, dünyada brilyant istehsalı üzrə inhisarçı "De Birs" şirkəti almaz çıxarılmasının çox hissəsinə nəzarət edir. XX əsrin birinci yarısında Amerikanın alüminium korporasiyası (ALKOA) dünya boksit yataqlarının praktik olaraq 100% -nin ya sahibkarı idi, ya da nəzarət altında saxlayırdı və bu səbəbdən də 1940-cı ilə qədər alüminium istehsalında mütləq inhisarçı idi.**

**■ böyük kapital tutumu və miqyasa qənaət. Bəzi istehsal növləri iri ilkin investisiyalar tələb edir və yalnız iri həcmdə məhsul istehsalı zamanı rentabelli olur. Potensial rəqiblərin heç də hamısı belə kapitala və irihəcmli istehsalı həyata keçirmək imkanına malik deyil. Bəzən xərcin çoxu istehsalın özü ilə deyil satış, reklam və s. əlaqədardır. Məsələn, səhər yeməyi üçün lopaları kiçik firmalar da istehsal edə bilərlər. Lakin onlar dünya şöhrətli ticarət markaları ilə bahalı və geniş miqyaslı reklam vuruşuna duruş gətirmək iqtidarında deyillər.**

**4) Firmanın /sahənin/ məhsulunun yaxın əvəzləyicisi yoxdur və o müəyyən mənada nadirdir. Brilyant buna ən tipik misaldır.**

**İnhisarçı firmanın məhsulu brilyant kimi qeyri-adi olmaya da bilər. Məsələn, ucqar kənddə yeganə inək sahibinin**

**satdığı süd məhsullarının kənddə əvəzləyicisi yoxdur, buna görə də südsatan inhisarçı olacaqdır.**

**İnhisarçı firmanın məhsuluna tələb əyrisi eyni zamanda sahənin tələb əyrisi olduğundan o adi tələb əyrisi kimi mənfi mailliklidir.**

### *§2. Xalis inhisar şəraitində firmanın davranışı*

**İnhisarçı firmanın davranışını tədqiq edərkən aşağıdakı şərtilikləri qəbul edək:**

**■ firma gəliri raaksimallaşdırmağa can atır;**

**■ inhisarçı istehsalçı resursları rəqabət bazarlarında alır;**

**■ firma qiymət ayrı-seçkiliyi apara bilmir, yəni firmanın məhsulu bütün istehlakçılara eyni bir qiymətə satılır;**

**■ firma qiymət dəyişməsinə istehlakçının reaksiyasını öncədən bilmək üçün kifayət qədər dolğun informasiyaya malikdir. Başqa sözlə, firma öz məhsuluna tələb əyrisini qurmaq imkanına malikdir. Bu ilkin şərt gerçəklikdən bir o qədər də uzaq deyil, çünki hazırda iri firmalar bir qayda olaraq geniş marketinq tədqiqatları aparırlar və bütövlükdə tələbi və onun ayrı-ayrı hissələrini xeyli dəqiq müəyyənləşdirirlər.**

**Tələb əyrisini bildikdə inhisarçı istehsal həcmi ilə qiymətin hansı kombinasiyasının ona maksimum gəlir gətirəcəyini müəyyənləşdirə bilir. Yuxarıda qeyd olunduğu kimi, inhisarçı öz əmtəəsinə istənilən qiyməti qoya bilməz. Bazarda hər bir qiymət səviyyəsinə istehlakçının həmin anda almağa hazır olduğu müəyyən miqdarda məhsul var. Buna görə də, inhisarçı hərdən təsəvvür edilən qədər də tam hökmran deyil. İstehsal həcmini müəyyənləşdirirsə, tələb əyrisi ona istehlakçının qəbul edəcəyi son hədd qiymətini bildirir. İnhisarçı qiyməti müəyyənləşdirirsə, təklifini istehlakçı tələbinin diktə etdiyi həcmlə məhdudlaşdırmalıdır. Buna görə də inhisar şəraitində firma eyni zamanda həm istehsal həcmi, həm də qiymət haqqında qəraq qəbul etməlidir, yəni tələb əyrisinin**

**xüsusiyyətlərindən çıxış edərək onların müəyyən kombinasiyasını seçməlidir.**

**Beləliklə, inhisarçının özünün onun məhsuluna tələb əyrisindən asılı olmayan təklif əyrisi yoxdur. Firma təklif əyrisi üzərində özünün olmalı olduğu bir nöqtəni seçir.**

**İnhisarçı üçün istehsal həcminin bir vahid artırılması, əgər o, istehsal olunmuş məhsulun hamısının istehlakçılar tərəfindən alınmasını istəyirsə, qiymətin aşağı salınması zərurəti deməkdir.**

**Yalnız əlavə məhsul vahidinin deyil, istehsal olunan hər bir məhsul vahidinin qiyməti aşağı düşdüyündən, satışdan əldə olunan pul get-gedə azalan nisbətdə artacaq (TR=PQ). İnhisarçının son hədd gəliri, rəqabətli firmadan fərqli olaraq, məhsulun qiymətinə bərabər deyil və daimi kəmiyyət deyil. Məhsulun birinci vahidindən başqa bütün istehsal həcmi üçün inhisarçının son hədd gəliri məhsulun qiymətindən azdır və istehsal həcmi artdıqca azalır. Son hədd gəlir əyrisi tələğ əyrisindən aşağıda yerləşən mənfi maillikli enən xətdir (şəkil 20.1).**




**Şəkil 20.1. Tələb əyrisi və inhisarçının hədd gəliri əyrisi**

**Son hədd gəliri bilave^itə tələbin elastikliyindən asılıdır. Tələb elastik olanda istehsalın artırılması satışdan əldə olunan pulun ümumi məbləğini artırır və son hədd gəliri müs**

**bətdir. Tələb qeyri-elastik olanda istehsal həcminin artırılması ümumi satış pulunu azaldır və hədd gəliri mənfi olur. Tələb qiymətə görə bir elastikliyə malikdirsə, onda tələb kəmiyyətinin artımı qiymətin aşağı salınması ilə tam kompensasiya edilir. Bu zaman satışdan əldə olunan pulun ümumi kəmiyyəti dəyişmir, son hədd gəlir isə sıfra bərabərdir. Bu asılılıq şəkil 20.2 və 20.3-də əyani göstərilmişdir.**




**Şəkil 20.2. Son hədd gəliri və qiymətə görə tələb elastikliyl**




**Şəkil 20^3. Satışdan əldə olunan pulun ümumi məbləği**

**Qeyd edək ki, inhisarçı yalnız tələbin elastik hissəsində fəallıq göstərir. Onun istehsal həcmi heç vaxt tələbin qeyri-elastik olacağı çərçivə hüdudlarından çıxmır, çünki əks halda ümumi gəlir aşağı düşməyə başlayar. Ümumi gəliri (satışdan əldə olunan pul) son hədd gəliri sıfra bərabər olanda, yəni sonuncu istehsal olunmuş məhsulun satışından əldə olunan pulun ümumi məbləğinə heç nə əlavə edə bilmədiyi istehsal həcmində maksimallaşır.**

**İnhisarçının bazarda vəziyyəti riyazi yolla da şərh oluna bilər. Məlum olduğu kimi, firmanın son hədd gəliri ümumi gəlirin (TR=PQ) funksiyasının birinci törəməsidir. Ümumi gəlirin funksiyasını Q üzrə differensiallaşdırdıqdan sonra aşağıdakım alarıq:**

$$MR = dTR/dQ = d\{P(Q) \times Q\}/dQ = P + Q \times dP/dQ.$$

**Təkmil bazar şəraitində, firma hazır qiymətləri qəbul edərsə $dP/dQ = 0$. İnhisar şəraitində $dP/dQ < 0$, çünki yuxarıda qeyd olunduğu kimi, firma istehsal həcmini artırdıqca qiyməti aşağı salmalıdır (və əksinə), buna görə də onun hədd gəliri qiymətdən azdır.**

**Son hədd gəliri tənliyini qiymət üzrə tələb elastikliyi vasitəsilə də ifadə etmək olar:**

$$MR=P+Q\ x dP/dQ=P[1+(Q/P)\ x dP/dQ)=P(1+1/E=P+P/E).$$

**E tələbin qiymət elastikliyi əmsalı olduğundan mənfi kəmiyyətdir, MR=P+P/E şəklində yazılması göstərir ki, MR<P.**

**Firmanın tarazlıq nöqtəsində son hədd gəliri son hədd xərclərinə bərabərdir, yəni MR=MC. Deməli, yazmaq olar ki, tarazlıq nöqtəsində MC=P+P/E, və ya (P-MC)/P= -1/E.**

**Bu göstərici Lerner indeksi adlanır və inhisar hökmranlığının göstəricisi kimi çıxış edir. Sahədə təkmil rəqabətdir- sə, Lerner indeksi sıfra bərabərdir. Lerner indeksi müsbət vahiddirsə, bu göstərici nə qədər böyük olsa, bazarda inhisar**

**hökmranlığı bir o qədər yüksəkdir. İnhisar hakimiyyətini səciyyələndirmək üçün Herfindal-Hirşman göstəricisindən də istifadə olunur. Bu göstərici yalnız xalis inhisar hallarında deyil, inhisarçı meyllərinin aşkarlanması məqsədilə bazarın istənilən təşkil quruluşuna da tətbiq oluna bilir (bu haqda bax fəsil 12). Sahədə firmaların sayı nə qədər çox olsa, inhisar hökmranlığı göstəriciləri bir o qədər az olar.**

## *§3. İnhisarçı firmanın qısamäddstU və uzunmüddətli dövrlərdə tarazlığı*

### Firmanın qısamüddətli dövrdə tarazlığı

**Bütün firmalar kimi, inhisarçı da son hədd gəliri son hədd xərclərindən az oluncaya qədər istehsalı davam etdirir. MR və MC əyrilərinin kəsişmə nöqtəsi firmanın tarazlıq nöqtəsidir (şəkil 20.4).**

**Bu göstəricilər arasındakı müsbət fərq firmanın son hədd gəlirini təşkil edir. Nə qədər ki, MR MC-dən böyükdür, ümumi gəlir artacaq. MC MR-dən artıq olan kimi ümumi gəliri azalmağa başlayacaq. Deməli, gəlirin maksimallaşdırıl- ması şərti**

**MR=MC-dir.**




**Şəkil 20.4. İnhisarçı firmanın tarazlığı**

**İnhisarçı üçün son hədd gəliri qiymətdən aşağı olduğundan tarazlıq nöqtəsində son hədd xərcləri qiymətdən aşağıdır: MC<P.**

**Beləliklə, inhisar zamanı allokativ səmərəlilik şərtinə əməl olunmur, yəni cəmiyyətdə resurslar ən rasional və optimal qaydada bölüşdürülməyib.**

**Firmanın tarazlıq nöqtəsi tarazlı istehsal həcmini və tarazlıq qiymətini müəyyənləşdirir. Şəkil 20.4-də tarazlı, yəni gəliri maksimallaşdıran istehsal həcmi QE ilə işarə olunmuşdur. Tarazlıq qiymətinə gəldikdə isə, o, tələb imkanlarından çıxış edərək firma tərəfindən müəyyənləşəcək. Tələb əyrisi bazarda təklif edilən həmin həcmdə məhsula görə istehlakçının hansı qiyməti ödəməyə hazır olduğunu göstərir. Firmanın PE -dən aşağı qiymət müəyyənləşdirməsi mənasızdır, çünki istehlakçı daha çox pul verməyə hazırdır. Firma P^-dən yuxarı qiymət təyin edə bilməz, çünki daha yüksək qiymətə bu qədər əmtəəni bazar qəbul etməz. Deməli, Pg qiyməti inhisarçının gəlirini maksimallaşdıran tarazlıq qiyməti olacaqdır.**

## İnhisarçı firmanın gəliri və itkiləri

**Tarazlı istehsal həcmində inhisar qiyməti orta xərclərdən yüksək olarsa, onlar arasındakı müsbət fərq firmanın orta gəlirini təşkil edər. Bu gəliri istehsal olunmuş məhsulun miqdarına vursaq, inhisar gəlirinin ümumi həcmini alanq.**

**Şəkil 20.5-də inhisarçının orta gəliri şaquli KL parçası ilə, ümumi gəlir isə KLMPE düzbucaqhsınm sahəsi ilə göstərilmişdir.**

**Bazarda inhisarçı vəziyyətdə olmaq hələ firmanın mütləq istənilən halda gəlir əldə edəcəyi demək deyil, Rəqabətqabiliyyətli firma kimi, inhisarçı da iqtisadi zərər çəkə bilər.**

**Belə ki, əgər müvazinətli istehsal həcmində müvazinəti! qiymət orta xərclərdən az, amma firmanın orta dəyişən xərclərindən çox olarsa, firma əməliyyat gəliri götürə və bununla**




**Şəkil 20.5. İnhisarçı firmanın mənfəəti da zərərini minimallaşdıra bilər. Bu, AC əyrisinin tələb əyrisindən yuxarı keçərsə, AVC əyrisi isə qismən tələb əyrisindən aşağıda yerləşərsə, mümkündür. Belə hal şəkil 20.6-da təsvir olunmuşdur.**




**Şəkil 20.6. Əməliyyat mənfəəti hesabına inhisarçı firmanın zərərinin minimallaşdırılması**

**Şaquli MN parçası orta əməliyyat gəlirini, Pj;MNS düzbucaqlısı isə istehsaldan əməliyyat gəlirini göstərir. Yuxarıdakı KLMPE düzbucaqlısı iqtisadi itki kəmiyyətinə müvafiqdir və daimi xərclərin belə aşağı qiymətlə ödənilə bilməyən hissəsinə bərabərdir.**

**İnhisar məhsuluna tələb əyrisi yalnız AC əyrisindən deyil, hətta orta dəyişən xərclər əyrisindən aşağıdadırsa, inhisarın tarazlıq qiyməti heç vaxt firmanı istehsala sövq edə bilməz (şəkil 20,7).**

**İstehsal dayandırılacaq, inhisarçı firma isə daimi xərclər həcmində zərər çəkəcək (KLNP^ düzbucaqlısının sahəsi).**

## Uzunmüddətli dövrdə inhisarın gəliri və istehsal həcmi

**Qısamüddətli və uzunmüddətli dövrlər arasındakı fərq inhisarlar üçün bir o qədər də vacib deyil. Qısamüddətli dövrdə inhisar iqtisadi gəlir əldə edirsə, bu sahədə firmaların sayının artması ilə nəticələnməyəcək, çünki yeni kapitalların qarşısında sərt maneələr var, inhisarın özü isə istehsal həc-**




**Şəkil 20.7. Qısamüddətli dövrdə istehsalın bağlanma nöqtəsi**

**mini artırıb-azaltmayacaq, çünki əks təqdirdə onun gəliri azalacaq. Bu səbəbdən uzunmüddətli dövrdə də firma iqtisadi mənfəət əldə edəcək, onun məhsulunun tarazlıq qiyməti isə uzunmüddətli orta xərclərin ən aşağı nöqtəsinə enməyəcək. İnhisar zamanı P>LRAC„Ü, olacaqdır.**

### *§4. ^ymat ayrı-seçkiliyi*

**İnhisarın təhlili zamanı əvvəlcə firma tərəfindən qiymət ayrı-seçkiliyinin olmaması şərt kimi götürülmüşdü. Lakin real həyatda firmalar çox vaxt qiymətdə ayrı-seçkiliyə müraciət edirlər ki, bu da gəliri xeyli artırmağa imkan verir.**

**Ümumi şəkildə qiymət ayrı-seçkiliyi əmtəənin müxtəlif vahidlərinin müxtəlif qiymətə satılmasına deyilir. Nəzəriyyədə ayrı-seçkiliyin üç növü fərqləndirilir.**

**Qiymət ayrı-seçkiliyinin birinci növü müxtəlif əmtəə vahidlərinin müxtəlif qiymətə müxtəlif alıcılara satılmasını nəzərdə tutur. Belə ayrı-seçkilik hərdən təkmil adlandırılır, çünki hər bir əmtəə vahidi konkret alıcmın ödəməyə hazır olduğu maksimal qiymətə satılır. Buna misal sövdələşmənin qəbul olunduğu bazar ola bilər: burada hər bir alıcı satıcı ilə danışıb razılaşdığı qiymətə eyni əmtəə vahidini alır. Satıcı isə, yaxşı psixoloq olduğundan, alıcıların zahiri görünüşü və davranışından çıxış edərək eyni bir əmtəəyə tamamilə fərqli qiymətlər qoya bilər. Başqa bir misal isə eyni adlı əmtəə qruplarının satıldığı (məsələn, taxıl, balıq və s.) hərracdır. Ayrılıqda götürülmüş əmtəə qrupunu daha yüksək qiymət təklif edən alıcı əldə edir.**




**Şəkil 20.8. Birinci növ qiymət ayrı-seçkiliyi**

**Vəziyyəti qrafik şəkildə əks etdirsək (şəkil 20.8) aydın olar ki, birinci növ qiymət ayrı-seçkiliyi zamanı istehlakçı heç vaxt uduşlu olmur (ABP*).**

**Bütün bu potensial uduş inhisarçı satıcı tərəfindən mənimsənilir. Satıcı bu uduşu mEiksimallaşdırmağa can atdığından, onun istehsal həcmi (Q*) təkmil rəqabətdəki istehsal həcminə bərabər olmalıdır, yəni sonuncu alıcının (ən aşağı alıcılıq qabiliyyətli) ödədiyi qiymət (P*) inhisarçı satıcının son hədd xərclərinə bərabər olmalıdır.**

**İkinci növ qiymət ayrı-seçkiliyi o deməkdir ki, qiymətlər alıcılara görə deyil, alınan əmtəənin miqdarından asılı olaraq fərqlənir. Ən yaxşı misal satıcının topdansatış zamanı və ya pərakəndəsatışda alışın həcmi artdıqda güzəştlər etməsidir. Bu zaman eyni miqdarda əmtəə alan alıcıların hamısına eyni qədər də güzəşt olunur. Alışın həcminin artması zamanı firma qiyməti endirmək əvəzinə müqavilədə göstərilənlərdən əlavə müəyyən miqdarda məhsul firmadan hədiyyə kimi verilir. Bu gedişdən reklam işində geniş istifadə olunur. Məsələn: «İki diş fırçası alın, üçüncüsünü hədiyyə kimi qazanın». Başqa hallarda firma əmtəənin kəmiyyətini deyil, keyfiyyətini artırır. Belə ki, aviaşirkətlər birinci və qənaətli dərəcəli biletləri müxtəlif qiymətlərlə satırlar, çünki nəzərdə tutulur ki, birinci dərəcəli yerlərdə uçan sərnişinlərə daha çox xidmətlər dəsti təqdim ediləcək və həmin xidmətlər daha keyfiyyətli olacaqdır.**

**Üçüncü növ qiymət ayrı-seçkiliyi qiymətlərin alınmış əmtəənin miqdarına görə deyil, alıcılara görə müxtəlifliyinə əsaslanır. Bu zam^m eyni bir alıcıya satılan hər bir əmtəə vahidi eyni bir qiymətə satılır. Bu, qiymət ayrı-seçkiliyinin ən geniş yayılmış növüdür. Buna misal müəyyən alıcı qruplarına — qocalara, əlillərə, tələbələrə və s. - güzəştli qiymətlər ola bilər.**

**Bu qiymət ayrı-seçkiliyi növü yalnız aşağıdakı şərtlərlə mümkündür. Birincisi, elə etmək lazımdır ki, güzəştli qiymət hüququ olan alıcıların əmtəəni həmin güzəştlərə malik**

**olmayan şəxslərə satmaq imkanı olmasın, yəni bazar dəqiq seqmentləşməlidir. İkincisi, bazarın müxtəlif seqmentlərinə aid olan alıcıların tələblərinin qiymət elastikliyi müxtəlif olmalıdır. Belə ki, tələbin qiymət elastikliyi nə qədər aşağı olsa, həmin qrup üçün müəyyənləşən qiymət bir o qədər yuxarı ola bilər və əksinə. Bunda məntiq var. Qiymət elastikliyi alıcıların qiymət səviyyəsinin dəyişməsinə həssaslığını göstərir. Buna görə də qiymətə ən həssas alıcılar üçün firma aşağı qiymət müəyyənləşdirməlidir ki, onlar həmin əmtəənin isteh- lakından imtina etməsinlər. Pul kisəsi qiymət dəyişməsinə bu qədər həssas olmayan alıcılar üçün qiymət daha yüksək səviyyədə müəyyənləşə bilər. Bazarın hər seqmenti üçün öz qiymət səviyyəsini müəyyənləşdirməklə firma öz satış həcmini və müvafiq olaraq gəlirini artırır (şəkil 20.9),**




**Şəkil 20.9. Üçüncü növ qiymət ayrı-seçkiliyi**

### *§5. İnhisar və cəmiyyət*

## Təbii inhisarın tənzimlənməsi

**Hər bir sağlam cəmiyyət iqtisadiyyatda inhisarçı meylləri məhdudlaşdırmağa çalışır. Nə üçün inhisarın tənqidə məruz qaldığını və onun cəmiyyətə zərərinin nədən ibarət olduğunu nəzərdən keçirək.**

1) **İnhisarı təkmil rəqabətlə müqayisə edək.**




**Şəkil 20.10. İnhisar şəraitində və təkmil rəqabət şəraitində tarazlıq**

**Şəkil 20.10-da inhisarçı firmanın məhsuluna tələb əyrisi verilmişdir, həmin əyri həm də sahənin tələb əyrisi, inhisarın son hədd gəliri əyrisi, inhisarın son hədd xərcləri əyrisidir. Son hədd gəliri və son hədd xərcləri əyrilərinin kəsişmə nöqtəsi inhisarçı firmanın tarazlıq nöqtəsini müəyyənləşdirir. Bu nöqtəyə gəliri maksimallaşdıran tarazlıq qiyməti PM və tarazlıq istehsal həcmi QM müvafiq gəlir.**

**Təsəvvür edək ki, inhisarçı firmanın tərkibinə daxil olan müəssisələr, bütün başqa şəraitlərin eyniliyi şərtilə, müstəqil bazar agentləri kimi fəaliyyət göstərirlər (və ya əksinə, təsəvvür edək ki, sahədəki təkmil rəqabət qabiliyyətli müstəqil firmaların hamısı vahid inhisarçı şirkətdə birləşdirilib), bu halda inhisarın son hədd xərcləri əyrisi həm də sahənin son hədd xərcləri əyrisi olacaq və ya sahənin təklif əyrisi ilə əsasən üst-üstə düşəcək. MC əyrisi (o həm də təklif əyrisidir) ilə tələb əyrisinin kəsişmə nöqtəsi təkmil rəqabət şəraitində tarazlıq nöqtəsini əmələ gətirir, PCK və QCK təkmil rəqabət şəraitində tarazlıq qiyməti və tarazlıq istehsal həcmini bildirəcəklər. Bu nəticələri inhisar fəaliyyətinin analoji göstəriciləri ilə müqayisə etsək, asanlıqla görmək olar ki, inhisar şəraitində sahə daha az məhsul istehsal edir, amma onu daha baha qiymətə satır. Süni surətdə qıtlıq vəziyyəti yaradı**

**lır ki, bunun da nəticəsi cəmiyyət üçün birbaşa itki, inhisar üçün isə xalis qazanc deməkdir.**

2) **Cəmiyyətin itkilərinin qədərini, hər halda qrafik şəkildə, asanlıqla müəyyənləşdirmək mümkündür. Şəkil 20.İldə əyani şəkildə göstərilir ki, sahənin inhisarlaşması zamanı istehlakçının qazancı azalır (şəkil** 20.11**).**




**Şəkil 20.11. İnhisar şəraitində ictimai rifahın itkiləri**

**Təkmil rəqabətdə istehlakçımn qazancı ACPCK üçbucağının sahəsi Uə, inhisar şəraitində isə kiçik üçbucaq ABPjj -in sahəsi ilə göstərilmişdir. Bu itkilərin bir qismi (P^BFPCK düz- bucaqlısının sahəsi) inhisarçı firmanın gəlirini təşkil edir. Amma istehlakçı hələ BFC üçbucağının sahəsinə bərabər kəmiyyəti də itirmişdir. Bu vəziyyətdə istehlakçımn itkiləri inhisarın mənfəətini təşkil edir. Bu, cəmiyyətin xalis itkiləridir.**

**İstehsalçı qazancının dəyişməsi nəticəsində cəmiyyətin xalis itkiləri də analoji qaydada müşahidə olunur. Sonuncu PcK sahəsindən P^BLK sahəsinə qədər dəyişir. Bu zaman FLC sahəsi xalis itkidir.**

**İstehlakçı və istehsalçıların xalis itkiləri istehsalın inhisarlaşması nəticəsində cəmiyyət rifahının xalis itkiləridir.**

3) **Deyilənlərdən bu nəticəyə gəlmək olar ki, iqtisadi və sosial təbəqələşməni artıraraq inhisar cəmiyyətin real**

4) **İnhisarın təhlilinin gedişində göstərildi ki, inhisar olanda allokativ səmərəlilik əldə olunmur, çünki P>MC. Bu o deməkdir ki, bazar resursları istehlakçıların real tələbatına müvafiq olaraq bölüşdürmür. Cəmiyyətin nöqteyi-nəzərincə, inhisar məhsulu az istehsal edir və əmtəə və xidmətlərin qeyri-optimal quruluşunu təklif edir.**

5) **İnhisar zamanı P>LRAC^i„ olduqda istehsal səmərəliliyi də müşahidə olunmur. Rəqib olmadığından firma məhsuldarlığı artırmağa və uzunmüddətli orta istehsal xərclərini minimuma endirməyə imkan verən texniki yeniliklərə can atmır.**

6) **İnhisarçı firma adətən X-qeyri-səmərəlilik hiss edir, çünki hər bir istehsal səviyyəsində firmanın xərcləri uzunmüddətli orta xərclərdən yüksəkdir. X-qeyri-səmərəlilik, məsələn, qeyri-səmərəli idarəetmədən, böyük həcmli təmsil etmə xərclərindən, dəbdəbəli ofislərin saxlanılmasından, bahalı avtomobillərin alınmasından və s. irəli gəlir.**

**Təsadüfi deyil ki, iqtisadiyyatm inhisarlaşmasınm belə mənfi nəticələrinə görədir ki, cəmiyyət inhisarlaşma meyllərinə qarşı durmağa və bazarın rəqabətli quruluşunu bərpa etməyə çalışır. Bir qayda olaraq hökumətlər tərəfindən inhisarların yaranmasına mane olan, mövcud inhisarları kiçildən, kapitalın sahələrarası azad axınına dəstək verən antiinhisar qanunvericilik aktları qəbul olunur.**

## Təbii İnhisarlar

**Bəzi hallarda dövlət firmaya inhisarçı vəziyyətini saxlamağa icazə verir, lakin onun fəaliyyətini ciddi nəzarət və tənzimləmədə saxlayır. Əksər vaxtlar bu, təbii adlandırılan inhisarlara aid olur.**

**Bəzi hallarda sahədə bir neçə deyil, bir firmanın mövcud olması cəmiyyətin maraqlarına daha çox cavab verir. Bu əsasən texnologiyanın yalnız irimiqyaslı tətbiqi zamanı renta- belli olması ilə şərtlənir. Buna misal olaraq enerji təchizatı.**

**telefon rabitəsi, su təchizatını göstərmək olar. Bu sahələrdə miqyasın müsbət effektini tam həcmdə yalnız müəssisənin ölçülərini sahə məhsuluna bazar tələbi səviyyəsinə yaxınlaşdırmaqla həyata keçirtmək olar. Şəkil 20.12-də göstərildiyi kimi, ictimai tələbi həm beş kiçik firma, həm də bir böyük firma ödəyə bilər. Lakin sahədə bir inhisarçı firma işləyərsə istehsalın uzunmüddətli orta xərcləri ən az olacaq. Beləliklə, böyük həcmli müsbət miqyas effektini həyata keçirən firma təbii inhisarçı adlandırıla bilər. Cəmiyyət üçün onun əhəmiyyəti istehsal xərclərinin minimallaşdınlmasındadır.**

**Təbii inhisar üçün ilkin yüksək kapital qoyuluşu və yüksək təsbit olunmuş xərclər də səciyyəvidir. Sahibkarların heç də hamısı belə investisiyaları və bu kimi təsbit olunmuş xərcləri həyata keçirməyə qabildir.**

**Eyni zamanda qeyd olunmalıdır ki, təbii inhisarın son hədd xərcləri çox aşağıdır. Yəni firma ilkin kapital qoyuluşunu həyata keçirəndən sonra xidmət istehsalını cüzi əlavə xərclərlə artıra bilər.**

**Deyilənlərdən görünür ki, firmanın orta xərcləri mütəmadi azalacaq ki, bu da onları adi rəqabət qabiliyyətli firmanın və ya adi inhisarın orta xərclər dinamikasından fərqləndirir.**




**Şəkil 20.12. Məcmu tələb və firmaların miqyasları**
**Ml-l-ci istehsalın miqyası. AC=5, hər birində 100000 məhsul vahidi olmaqla 5 firma. M2-2-Cİ istehsalın miqyası. AC=1, 1 firma ən aşağı orta xərclə 500000 vahid məhsul istehsal edir**

**Təbii inhisarın yuxarıda qeyd olunan xüsusiyyətlərini qrafik şəkildə şərh edək.**




**Şəkil 20.13. Təbii inhisarların tarazlığı**

**Şəkil 20.13-də sahə tələbi əyrisi, orta xərclərin enən əyrisi, son hədd gəliri əyrisi və son hədd xərcləri əyrisi təsvir olunmuşdur. Sonuncu elə keçir ki, həmişə orta xərclər əyrisindən aşağıda olsun (əks təqdirdə AC əyrisi MC əyrisi ilə kəsişəndən sonra qalxmağa başlayardı). Başqa firmalarda olduğu kimi, MC əyrisi ilə MR əyrisinin kəsişməsi anı firmanın tarazlıq nöqtəsini göstərir. İnhisar dövlət tərəfindən tənzimlənmirsə, tarazlıq qiyməti Pj(-ə bərabər olacaq. Lakin belə qiymət səviyyəsi cəmiyyət nöqteyi-nəzərində artırılmışdır və resursların səmərəsiz bölgüsünə və ictimai sərvətin itirilməsinə aparır. Aydındır ki, dövlət təbii inhisar məhsulu qiymətinin tənzimlənməsinə cəhd göstərəcək. Bəs bu qiymətlər hansı səviyyədə müəyyənləşdirilməlidir?**

**Birinci variant qiymətlərin istehsalın son hədd xərcləri səviyyəsində müəyyənləşdirilməsindən ibarətdir. Belə qiymətlər təbii inhisarın yuxarıda qeyd olunmuş xüsusiyyətlərinə əsasən aşağı olacaq. Aşağı qiymətlər elektrik enerjisi, su, qaz, rabitə və s. istehlakçısı olan istehsalçıları həvəsləndirəcəkdir. Eyni zamanda həmin məhsulun fərdi istehlakçıla- nmn rifahı da artmağa başlayacaq. Bundan başqa, qiymətlərin son hədd xərcləri səviyyəsində müəyyənləşdirilməsi**

**səmərəlilik deməkdir ki, bu da bütövlükdə iqtisadiyyatın normal fəaliyyətinə rəvac verir və cəmiyyətin tələbatlarına ən yaxşı şəkildə cavab verir.**

**Lakin dövlət qiyməti həmin səviyyədə müəyyənləşdirə bilməz, çünki firma sadəcə olaraq istehsalı dayandırar. P=MC olduqda istehsalın istənilən səviyyəsində firma ümumi xərcləri ödəmək üçün kifayət edən gəlir əldə etmir. Gəlirin olmaması və iqtisadi zərərin meydana gəlməsi istehsalın bağlanmasına səbəb olacaqdır.**

**Firmanın tarazlıq qiyməti cəmiyyət üçün sərfəli deyil, cəmiyyətin optimal qiyməti firma üçün yaramır. Bəs ziddiyyəti necə həll etməli? Qarşılıqh razılaşmanm tapılması yollarından biri qiymətin son hədd xərcləri səviyyəsində müəyyənləşdirilməsi və istehsalçı firmaya subsidiya və kompensasiyaların ödənilməsidir. Bununla təbii inhisar işlək vəziyyətdə qalır və sahəni tərk etmir, lakin cəmiyyət itkilərin yükünü daşıyır, çünki subsidiyalar büdcə vəsaitlərindən verilir, yəni son nəticədə ağırlıq vergi verənlərin üzərinə düşür.**

**İkinci kompromis variantı qiymətin tavan həddinin inhisarçı firmanın orta xərcləri səviyyəsində müəyyənləşdirilmə- sidir. Cəmiyyət qazanacaq, çünki qiymət inhisarın tənzim olunmayan qiymətindən aşağıdır. Firma xərcləri səviyyəsində gəlir əldə edəcək ki, bu da ona normal və yaxud ədalətli gəlir əldə edib istehsalı davam etdirməyə imkan verəcəkdir.**

**Son illərdə hansı firmanı təbii inhisar hesab etməyin mümkünlüyü ətrafında mübahisələr artıb. Təbii inhisarların saxlanılmasının əleyhdarları tamamilə haqlı olaraq texnika və texnologiyadakı dəyişikliklərin təbii inhisarın ən mühüm göstəricilərindən birini - böyük kapital qoyuluşunu və təsbit olunmuş xərcləri - aradan qaldırır. Müasir şəraitdə onlar xeyli azalıb ki, bu da firmanın bütün xərc əyrilərini onların tipik formalarına yaxınlaşdırır. Nəticədə yerli və ya milli səviyyədə bir telefon şirkətinin və ya bir elektrik şirkətinin mövcudluğuna miqyasın müsbət effekti İlə bəraət qazandırmaq**

**Bu qeydin haqlı olduğunu qəbul edən təbii inhisarların kiçildilməsi və parçalanmasının əleyhdarları aşağıdakı dəlilləri gətirirlər. Birincisi, təbii inhisarların saxlanılması dövlətin strateji maraqlarına cavab verir və həyat əhəmiyyətli və müdafiə əhəmiyyətli sahələri, ilk növbədə energetikanı, rabitəni, kommunikasiyaları, nəqliyyatı nəzarət altında saxlamağa imkan verir. İkincisi, təbii inhisarların olması unifikasiya və standartlaşdırma aparmağa imkan verir: məsələn, dəmiryolunda yolarasını, vaqonları, elektrik şəbəkəsində gərginliyi və s., bunun özünün də böyük xalq təsərrüfatı əhəmiyyəti var. Üçüncüsü, bəlkə də ən əsas dəlil kimi vətəndaşların əsas əmtəə və xidmətləri əldə etməkdə eyni imkana malik olmasıdır. Hesab olunur ki, müasir cəmiyyətdə bütün həmvətənlər kifayət qədər ucuz və əldə oluna bilən elektrik enerjisi, su, rabitə, nəqliyyat vasitələrindən eyni dərəcədə istifadə edə bilmək hüququ və imkanlarına malik olmalıdırlar.**

**Rusiyada təbii inhisarlara aiddirlər: boru nəqliyyatı ilə neft və qaz nəqli üzrə xidmətin göstərilməsi; elektrik enerjisinin istehsalı və nəqli üzrə xidmətin göstərilməsi; dəmiryolu daşımaları; ucqar bölgələrdə daşımalar; nəqliyyat terminalları, limanlar, aeroportlar vasitəsi ilə xidmət göstərilməsi; elektrik və poçt rabitəsi xidmətinin göstərilməsi; su və kanalizasiya təsərrüfatı; elektrik, istilik və qaz təminatı xidmətinin göstərilməsi.**

**Təbii inhisarların əsas tənzimlənmə metodları bunlardır: qiymətlə tənzimləmə, rentabelliyin son hədd səviyyəsinin müəyyənləşdirilməsi; birləşmə və səhmlərin alınması üzərində nəzarət; inhisarçı tərəfindən mütləq xidmət göstərilməli olan minimum təminat səviyyəli istehlakçı qrupun müəyyənləşdirilməsi və bir sıra başqaları. Təəssüf ki, son illərdə Rusiyada əvvəlki təbii inhisarların kiçildilməsi və satılmasına üstünlük verilir (o cümlədən xarici sahibkarlara). Bununla da təbii inhisarların müdafiəsinə yönümlənmiş yuxarıdakı dəlillərə məhəl qoyulmur.**

# XXI FƏSİL. QEYRİ-TƏKMİL RƏQABƏT ŞƏRAİTİNDƏ FİRMANIN DAVRANIŞI

*§1. İnhisarçı rəqabət şəraitində firmamn davranışı.*
*§2. Oliqopoliya şəraitində firmanın davranışı. Sövdələşmə modelləri.*
*§3. Oliqopoliya modelləri: sövdələşmələrin olmaması.*

## *§1. İnhisarçı rəqabst şəraitinds firmamn davranışı*

**İnhisarçı rəqabət elə aralıq bazar modelinə deyilir ki, onun üçün aşağ'idakı təsnifat əlamətləri səciyyəvidir.**

**■ Sahə bazarında çoxlu miqdarda firma mövcuddur. Həmin xüsusiyyətlərinə görə bu model təkmil rəqabətlə oxşardır.**

**■ Təkmil rəqabətdə olduğu kimi, ayrılıqda götürülmüş firma bazara ümumi sahə təklifilə müqayisədə elə az həcmdə məhsul çıxarır ki, bu amilin köməyilə bazar qiymətlərinə təsir edə bilmir.**

**■ Sahəyə digər kapitalın axını üçün maneə demək olar ki, yoxdur. Yeni firmalar bu sahədə sərbəst fəaliyyətə başlaya bilir, həmçinin sahənin firmaları da onu sərbəst tərk edə bilirlər.**

**■ Məhsulun təbiəti təkmil rəqabət şəraitindən əsaslı şəkildə fərqlənir. Firmanın məhsulu üçün bir çox yaxın əvəz- ləyiciləri mövcuddur, lakin bu məhsul fərqli olub, sahənin analoji məhsulundan nə iləsə fərqlənir. Məsələn, diş pastası bazarında bu məhsulun müxtəlif adda və markası olan növləri təklif olunur. İstehsalçı istehlakçıya əsasən reklam sayəsində öz məhsulunda olan və olmayan fərqlilik barəsində məlumat çatdırır. Fərqləndirilmiş məhsul müəyyən mənada nadir olur və bununla da inhisar istehsal məhsulu olduğunu andırır. Əmtəə nişanlarının, sənaye markalarının və adların patentləşdirilməsi bu nadirliyi daha da möhkəmləndirir və fərqli malın istehsalçısına qiymətlər üzərində müəyyən nəzarəti həyata keçirməyə imkan verir.**

**■ İnhisarcı rəqabət qabiliyyətli firmaların məhsuluna**

olan tələb əyrisi yuxarıda adları çəkilən xüsusiyyətlər sayəsində təkmil rəqabətli firmaların əyrisindən daha az elastik, lakin inhisar tələb əyrisindən (bütövlükdə sahə tələbi əyrisi) daha çox elastikdir.

Qısamüddətli dövrdə inhisarçı rəqabətli firmanın davranışı əsasən inhisar davranışına bənzəyir. Firmanın son hədd gəliri qiymətə bərabər deyil, belə ki, firmanın qiymət üzərində müəyyən nəzarəti var. Firma məhsuluna olan tələbatı itirmədən onun qiymətini artıra bilir. Firma öz məhsulunu daha çox satmaq üçün onun qiymətini endirməlidir, bu halda firmanın son hədd gəliri əyrisi tələb əyrisindən aşağıda yerləşir. İnhisarçı rəqabət şəraitində firma istehsal həcminin və qiymətin elə kombinasiyasını seçir ki, onun mənfəətini mak- simallaşdırsın. Firmanın MC və MR əyrilərinin kəsişməsi ilə tarazlıq nöqtəsi müəyyən edilir, yəni MC=MR şərti mənfəətin maksimuma çatdırılması şərtidir (şəkil 21.1).




Şəkil 21.1. İnhisarçı rəqabətqabiliyyətli firmanın qısamüddətli dövrdə tarazlığı (mənfəətin mabsimallaşdınıması)

İnhisar kimi rəqabətqabiliyyətli firma ilə müqayisədə firma istehsalı bir qədər kəsirli edir və qiyməti artırır. Qiymət son hədd xərclərindən yüksək (P>MC) olduğundan, cəmiyyətdə allokativ səmərəliliyə nail olunmur.

Əgər firmanın məhsuluna tələb çox aşağıdırsa, firma zərər çəkəcəkdir. Əgər bu zaman firmanın tarazlıq qiyməti

**orta dəyişkən xərclərini ödəyirsə, firma fəaliyyət göstərməyə davam edib MC=MR olan həcmdə məhsul istehsal edərək (şək.21.2) itkiləri minimuma endirə bilər.**




**Şəkil 21.2. İnhisarçı rəqabətqabiliyyətli firmanın itkilərinin minimumlaşdırılması**

**Əgər tələb çox azdırsa və tarazlıq qiyməti hətta orta dəyişkən xərcləri də ödəmirsə, firma istehsalını dayandırır.**

***Uzunmüddətli dövrdə*** **inhisarçı rəqabətli firmanın davranışı inhisarın uzunmüddətli dövrdə davranışından fərqlənir. Sahəyə daxil olmaq üçün maneələr olmadığından, iqtisadi gəlir olduğu zaman yeni firmalar burada öz istehsallarını yaradacaqlar. Sahəyə yeni firmalar daxil olduqca, əvvəlki firmaların hər birinin məhsuluna olan tələb əyrisi sol tərəfə dönməyə başlayır və bununla yanaşı son hədd gəliri əyrisi də daha az meylli olur. Əyrilərin bu dönüşü yalnız tələb əyrisi orta xərclər əyrisinə toxunana kimi davam edir. Bu toxunma nöqtəsində iqtisadi mənfəət yox olur, deməli, sahəyə yeni firma və yeni kapitalların axını da bitir, indi sahənin bütün firmaları yalnız normal mənfəət əldə edəcəklər, çünki tarazlıq qiyməti orta xərclər səviyyəsində sabitləşir (şək.21.3). «E* nöqtəsi firmanın inhisarçı rəqabətində uzunmüddətli tarazlıq nöqtəsidir.**

**Tələb əyrisi təkmil rəqabətdə olduğu kimi üfüqi olmadığından tarazlıq nöqtəsinin orta uzunmüddətli xərclərin ən aşağı kəmiyyətinə uyğun gəlmədiyinə diqqət verək. Ona görə**

də qiymət uzunmüddətli orta xərclərin ən aşağı səviyyəsinə bərabər deyil, deməli, inhisarçı rəqabətdə istehsal səmərəliliyi əldə edilmir.

**İnhisarçı rəqabət və cəmiyyət.** Yuxarıda göstərildiyi himi, inhisarçı rəqabət zamanı nə allokativ, nə də istehsal səmərəliliyinə nail olunmur.

Bundan başqa, məhsulun müxtəlİfləşməsinə və reklama lüzumsuz və səmərəsiz xərclər çəkildiyi barədə tez-tez ittihamlar səslənir. Bu zaman aşağıdakı dəlillər irəli sürülür.

1) Cəmiyyət məhdud resurslarını əbəs yerə eyni növ məhsullarda mənasız yerə müxtəliflik yaratmağa sərf edir. Məsələn, aspirinin bəzi patentləşdirilmiş və həddən artıq reklam edilmiş markaları üçün istehlakçı iki dəfə və daha artıq ödəməli olsa da, aspirin aspirin olaraq qalır.

İstehlakçıya həqiqətən sabunun və ya diş pastasının mahiyyətcə eyni olan 50 növü lazım deyil. Nəticədə, istehlakçılar reklama və məhsulun artıq yerə müxtəlİfləşməsinə görə də pul ödəməli olurlar. Reklam xərcləri bəzən əmtəənin satış qiymətinin 50%-ə qədərini və daha artıq hissəsini təşkil edir.




Şəkil 21.3. İnhisarçı rəqabətli firmanın uzunmüddətli dövrdə tarazlığı

2) Müxtəlifləşmə və reklam istehlakçının zövqünə və üstünlükverimlərinə təsir etməyə, onları dəyişməyə, yeni tələbatlar yaratmağa çalışır. Bununla da belə çıxır ki, firmalar

**İnsanlara xidmət etmir, insanlar firmaların ehtiyaclarını ödəmək üçün mövcuddurlar. Cəmiyyət öz ilkin məqsədyönü-münü- istehsahn insanların tələbatlarım ödəmək üçün inkişaf etməsi meylini itirib. C.K.Helbreyt "Rifah cəmiyyəti" kitabında (1958) qeyd etdiyi kimi məqsəd və ona nail olma vasitələri yerlərini dəyişiblər.**

**3) Reklamın daşıdığı informasiya ən azı minimal və qey-ri-kafidir, çox vaxt da məqsədyönlü şəkildə aldadıcı olur.**

**4) Öz məhsulunu reklam etmək rəqabət mübarizəsində uduzmaq istəməyən firma üçün zəruri olur. Firmalar çox böyük vəsaitləri səmərəsiz şəkildə xərcləməyə məcburdurlar; bu xərclər bazarda onların məhsullarına olan tələbi artırmır, lakin reklamın olmaması onların bazarda yerinin itirilməsinə səbəb olar. Reklam müharibəsi sıfır nəticəli müharibədir, burada qalib olmur.**

**5) Reklama çəkilən xərclər o qədər böyükdür ki, sahəyə daxil olmaq yolunda maneəyə çevrilə və bununla da rəqabətin kəskinliyini azalda bilərlər. Məsələn, 2001-ci ildə Rusiyada Orbit saqqızının reklamına 19,8 milyon dollar xərclənmişdi.**

**6) Reklam cəmiyyətə qoyulan vergi növünə çevrilir. Televiziyada verilən 15 dəq. xəbərə 20 dəqiqəyə qədər reklam düşür. İstehlakçı qəzet və ya jurnal aldıqda onu maraqlandıran 50 səhifə mətnlə birgə 75 səhifə reklam elanı üçün də pul ödəməyə məcburdur.**

**Lakin inhisarçı rəqabətin yalnız mənfi tərəflərini görmək ədalətli olmazdı. Məhsulun müxtəlifliyi və reklamı da elə birmənalı şəkildə bir o qədər də pis deyil. Onların tərəfdarları aşağıdakıları qeyd edirlər:**

- **məhsulun müxtəlifliyi insanların ən müxtəlif tələbatlarını daha dolğun ödəməyə kömək edir;**
- **məhsulun daim təkmilləşdirilməsi həyat səviyyəsinin yüksəlməsinə səbəb olur;**
- **məhsulun müxtəlifliyi onun keyfiyyətinin yaxşılaşdırılması və istehsalın səmərəliliyinin artırılması istiqamətində inkişaf edir;**

■reklam istehlakçını məhsulun keyfiyyəti, qiyməti, istifadə qaydaları və s. haqqında qiymətli məlumatlarla təchiz edir;

■müxtəliflik və reklam rəqabəti həvəsləndirir və bütün bazar sisteminin inkişafına təkan verir.

Reklam və məhsulun müxtəlifliyinin rolu haqqında iki əks mövqeyin müqayisəsi bir daha göstərir ki, iqtisadi nəzəriyyədə mütləq həqiqət və həyatm bütün halları üçün düzgün cavablar yoxdur.

İnhisarçı rəqabət necə olsa da, bir çox göstəricilərinə görə real həyatda demək olar ki, rast gəlinməyən təkmil rəqabətə çox yaxındır. İnhisarçı rəqabət bazar münasibətlərinin daha geniş yayılmış növüdür. O, ictimai iaşə, kitab çapı, mebel istehsalı və satışı, əczaçılıq məhsulları və s. sahələrdə üstünlük təşkil edir. Bu sahələrdəki firmaların sayı 500-dən 10000-ə kimidir. Bu modeldə inhisar meyli kifayət qədər zəif təzahür edir, ona görə də elə hesab olunur ki, dövlət bu quruluşlu bazarı demək olar ki, tənzimləməyə bilər.

## *§2. OliqopoUya şəraitində firmanın davranışı. Sövdələşmə modelləri*

Oliqopoliya qeyri-təkmil rəqabət formalarından biridir və bir çox göstəricilərinə görə xalis inhisarı xatırladır. “Oliqopoliya” məfhumu elmi dövriyyəyə ingilis iqtisadçısı Çemberlin tərəfindən daxil edilib. Oliqopoliyanın aşağıdakı fərqləndirici
xüsusiyyətləri var:

■sahədə bir neçə (adətən ikidən beşə kimi) çox iri firma hakim mövqe tutur;

■həmin firmalar o qədər böyük olurlar ki, onların hər birinin istehsal həcmi sahə təklifinə təsir edə bilir. Bununla da firma bazar qiymətinə təsir edə, yəni bazar hökmranlığını həyata keçirə bilir;

■oliqopoliyanın məhsulu həm homogen (bircinsli), həm də müxtəlif ola bilər;

■ salıəyə giriş müxtəlif maneələrlə son dərəcə məhdudlaşdırılıb;

■ oliqopoliya məhsuluna olan tələb əyrisi inhisardakı tələb əyrisinə çox bənzəyir.

Oliqopoliyanın iki həlledici xüsusiyyəti: əsasan sahəyə daxil olmaq istəyənlər üçün maneələrin olması və sahədə fəaliyyət göstərən firmaların bir-birindən qarşılıqlı asılılıqlarıdır. Firmaların sayı az olduğundan birinin davranışı rəqib firmalarda müxtəlif münasibətlər (bu münasibətlər gözlənilməz də ola bilər) yarada bilər. Bundan başqa, belə münasibət bu firmanın bazardakı mövqeyinə bilavasitə təsir edəcək. Buna görə də oliqopolist özünün bazardakı davranışım təkcə şəxsi maraqlarına, bazarın vəziyyətinə görə deyil, həm də rəqiblərin cavab hərəkətlərinin proqnozunun nəticələrinə uyğun qurmalıdır.

Oliqopoliya firmaları eyni zamanda bir sıra, o cümlədən: nə qədər məhsul istehsal etmək, hansı qiyməti müəyyənləşdirmək, reklamı hansı miqyasda həyata keçirmək, yeni məhsulu bazara dsıxil edib-etməmək və ya nə zaman daxil etmək və s. kimi qərarlar qəbul etməlidirlər. Bütün bunlar qərar qəbuletmə prosesini çox çətinləşdirir. Firmanın oliqopoliya şərsütindəki davranışının nəzəri təhlili də bir o qədər asan deyil. Bu gün iqtisadi nəzəriyyədə oliqopoliyanı izah edən kifayət qədər model mövcuddur. Onlardan əsaslarını nəzərdən keçirək.

## Sövdələşmə modelləri

Təkmil, yaxud inhisar rəqabəti şəraitində çoxsaylı firmalar sözləşə bilmir və əsasən qiymət sahəsində öz aralarında kəskin mübarizə aparırlar. Onlardan fərqli olaraq 2-4 oliqopolist firma öz aralarında müştərək strategiya və taktika haqqında sözləşə, hər bir tərəfdaş üçün əlverişli olan qiymətləri müəyyən edə və sahə təklifinin optimal ölçüsünü, hər bir iştirakçının sahə istehsalındakı payını müəyyənləşdirib

**bazarı öz aralarında bölə bilərlər. Bu halda bazar istehsalın həcminin azaldılması və qiymətlərin şişirdilməsi (təkmil rəqabət şəraiti ilə müqayisədə) hesabına sahə mənfəətinin ümumi həcminin artdığı xalis inhisar bazarına çevrilir.**

**Sahə bazarının bölgüsünü həyata keçirən, qiymət və istehsalın həcmi haqqında qərarları birlikdə qəbul edən firmalar qrupu kartel adlanır.**

**tqtisadi ədəbiyyatda kartelin ikili qiymətləndirilməsi mövcuddur. Qərbin "Ekonomiks" dərslikləri karteldən oliqopo- list modeli kimi bəhs edirlər, çünki sahədə bir neçə iri firma hakim mövqe tutur. V.l.Lenin diqqəti sövdələşmə nəticəsində bir neçə firmanın bazarda bir firma kimi fəaliyyət göstərməsinə cəlb edərək karteli inhisar formalarından birinə aid edib^**

**Müasir şəraitdə qiymət və istehsal normalarının müəyyənləşdirilməsi üzrə sövdələşmə bir çox ölkələrdə antiinhisar aktları vasitəsilə qadağan edilib. Lakin inhisar qiymətlərinin müəyyən edilməsinin cazibəsi o qədər böyükdür ki, firmalar qanunu pozmaqdan çəkinmirlər. Dövri olaraq qalmaqalh ifşa halları baş verir. Məsələn, ABŞ-ın elektroavadanlıq istehsalçıları arasında 1950-ci illərdə əldə edilmiş sövdələşmə yaxşı məlumdur. O vaxt 5 şirkətin 12 nümayəndəsi gizlin toplaşıb qiymətlər və bazarın bölünməsi, müqavilələr, mənfəətlər haqqında sövdələşmişdilər. Onlarm sxemi müsabiqələrdə iştirak zamanı müqavilənin alınmasında növbəliliyə riayət edilməsini nəzərdə tuturdu: firmalar növbə ilə ən yaxşı şərtləri təklif edəcək və müsabiqənin qalibi olacaqdırlar. Sövdələşmənin aşkara çıxarılması nəticəsində onun iştirakçıları həbs edildilər.**

**Əgər milli səviyyədə qiymətlərin inhisarçı tənzimlənməsi qanunsuzdursa, belə məhdudiyyətlər beynəlxalq təcrübədə qüvvədə olmur, "Yeddi bacı" kimi tanınan beynəlxalq neft karteli daha məşhur nümunədir. Kartelə beş Amerika, bir Böyük Britaniya və bir İngiltərə-Hollandiya neft şirkəti**

**1 Bax:** JleHim **B.H.** ItMnepıajiHSM KBK Bucmaa cTamiH KamrrajntSMa. **IICC. T. 27**

**daxildir. Daha bir misal Neft İxracçıları Ölkələrinin Təşkilatı OPEK ola bilər: onun fəaliyyəti 1970-2000-ci illərdə neft və neft məhsulları bazarına aparıcı təsir göstərmişdi - o zaman OPEK neftin dünya bazarına çıxarılmasını dəfələrlə, kəskin şəkildə məhdudlaşdırmış, neft və neft məhsullarının qiymətini həddindən çox artırmışdı.**

**Kartel sövdələşmələrinin işləməsi üçün, birincisi, kartelin məhsuluna olan tələb qiymət üzrə elastik olmamalı, məhsulun yaxın əvəzedicinin olmaması zəruridir. Neft bu tələblərə ən yaxşı cavab verən məhsuldur. İkincisi, kartel onun bütün iştirakçılarının oyunun qaydalarına riayət etdiyi halda işləyə bilir. Bu şərt tez-tez pozulur, çünki məsələn, kartelin müəyyənləşdirdiyi istehsal kvotasını ötüb keçməkdən və yüksək qiymət üzrə satışın həcminin artırılmasından əldə edilən potensial qazanc çox böyükdür. Dönük çıxan firma şübhəsiz ki, rəqabət üstünlükləri qazanır, lakin keçmiş tərəfdaşları ilə münasibətləri ciddi şəkildə pozmaq kimi bir risklə üzləşir.**

**Hazırda qiymət rəqabətinin əhəmiyyəti xeyli azalıb. Bu hal, həm antiinhisarçı qanunvericiliyin sərtləşdirilməsi, həm də kartelin, ən azı onun klassik formasının, əhəmiyyətinin azalması ilə bağlıdır. Müasir kartellər - əgər beləlləri indi yaranırsa - qiymətlərə və istehsal kvotalarına deyil, bahalı avadanlıqdan müştərək istifadə, bahalı investisiya layihələrinin müştərək şəkildə həyata keçirilməsinə və s. aid olur, kartel demək olar ki, konsorsium formasına yaxınlaşıb.**

**Kartelə aid olan digər dəyişiklik ondan ibarətdir ki, o getdikcə açıq sövdələşmədən gizli sövdələşmə formasına keçir.**

## Gizli sövdələşmə

**Görkəmli müasir iqtisadçılar C.Helbreyt və P.Samuelson öz əsərlərində dəfələrlə nəzərə çatdırıblar ki, hazırda aparıcı firmaların açıq razılaşmalar bağlamağa ehtiyacı yoxdur. Onlar işlərin vəziyyətini, potensial imkanları, bir-birinin məq**

**səd və maraqlarını o qədər yaxşı bilirlər ki, görüşmədən, telefonla danışmadan və hətta işarə belə etmədən sakitcə hamı üçün eyni dərəcədə sərfəli olacaq strategiya işləyib hazırlaya bilirlər. Bu cür gizli sövdələşmənin kifayət qədər çoxsaylı formaları ola bilər. Daha əhəmiyyətlilərinə nəzər salaq.**

## Qiymətlərdə liderlik modeli

**Bu model sahədə kifayət qədər çoxlu sayda firmanın fəaliyyət göstərdiyi, lakin bununla belə yalnız bir iri firmanın aşkar lider rolu oynadığı vəziyyəti təsvir edir. Lider qiymət siyasətini müəyyənləşdirir, qalanları da bu siyasətə riayət edir. Lider bir qayda olaraq, hətta bazarda ən zəif və xərcləri daha yüksək olan "arxadakı" firmanın da maraqlarına cavab verən qiymətləri müəyyənləşdirir. Bu zaman lider firma təbii ki, yüksək inhisar mənfəəti şəklində "qaymağı yığır".**

**Bir sıra hallarda lider firma müəssisələri bazarda sıxışdıra bilir. Lider qiymətləri elə səviyyəyə qədər endirir ki, kiçik firmaların təklifi sıfra kimi enir, firmalar rəqabətə dözmür və sahədən gedir. Bundan sonra lider firma qiymətləri onun üçün sərfəli olan səviyyəyə kimi qaldırır və bazarda boşalan yeri tutur. Əgər sahədə bir neçə firma lider roluna iddia edirsə, onlar bu işi növbə ilə yerinə yetirə bilərlər.**

**Qiymətlərdə liderliyin bir növü barometr firma modelidir. Bu halda firma istehsal həcmi nöqteyi-nəzərindən hakim mövqe tutmur, lakin nüfuzuna, ya da digər mülahizələrə görə özünəməxsus barometr rolu oynayır. Sahənin bütün qalan firmaları onun davranışına, o cümlədən də qiymətlər üzrə davranışına yönümlənirlər.**

## Baş barmaq qaydası

**Aşkar lider olmadıqda qiymətin müəyyənləşdirilməsində firmalar hansısa ümumi, qəbul olunmuş qaydalara riayət edə bilərlər. Oyunun bu qaydaları öz sadəliklərinə, məlumluqla-**

rına və anlaşıqlıqlanna görə baş barmaq qaydası adlanır.

Bu qaydalardan biri istehsalın orta xərcləri əsasında qiymət qoyulmasıdır. Bu təcrübə orta xərclərin müəyyən faiz qədər (məsələn, 10% ) artırılmasını nəzərdə tutur, elə bu faiz də mənfəət çərçivələrini tənzimləyəcəkdir. Beləliklə, məhsulun qiyməti aşağıdakı düsturla müəyyən ediləcək: orta xərclər üstəgəl mənfəət əlavəsi. Orta xərclərin səviyyəsinin dəyişməsi ilə qiymətin də avtomatik olaraq dəyişməsi nəzərdə tutulur.

Digər geniş yayılmış qayda bəzi adəti qiymət səviyyələrinin müəyyən edilməsi, qiymətin pilləli dəyişməsidir ki, sonuncuda "pillə” rolunu bəzi adəti qiymət səviyyələri oynayır. Məsələn, Quelle kataloqunda 17,28 və ya 32,53 kimi qiymətlər yoxdur. Bütün əmtəələr 19,95; 29,95; 39,95; 49,95 və s. qiymətləndirilib. Qiymətlərin pilləli dəyişməsi də geniş tətbiq olunur ki, bu qaydada yenə də adəti qiymətlər «pillələr* rolunu oynayır. Qiymətin pilləli dəyişməsi bütün satıcıların qiyməti eyni cür, bir ənənəvi pillədən digərinə kimi, məsələn, 49,96-dən 39,95-ə kimi endirdiyi satışlar üçün səciyyəvidir.

### *§3. Oliqopoliya modelləri: sövdal^şm^nin olmaması*

Oliqopoliya bazarında bir çox hallarda sövdələşmə olmur. Bu növün əsas modellərini nəzərdən keçirək.

### Smıq tələb əyrisi modeli

Bu model firmalardan birinin qiymətləri qaldırdığı halda rəqiblərinin onu Örnək götürməmələrini nəzərdə tutur. Əgər firmalardan biri qiyməti endirsə, rəqibləri də həmin hərəkəti təkrarlamağa məcburdurlar. Nəzəriyyə adətən qiymətin artmasına və enməsinə tələbin cavab elastikliyinin müxtəlif olacağı mülahizəsindən çıxış edir. Nəticədə tələb əyrisi iki müxtəlif əyridən ibarət olacaq, “sınıq” yaranacaqdır (şəkil 21.4) .




Şəkil 21.4. Sınıq tələb əyrisi

**Müvafiq olaraq son hədd gəliri əyrisi iki əyridən ibarət olacaqdır ki, bunların arasında gəlir əyrisinin sınma nöqtəsinə müvafiq olan şaquli ara yaranacaqdır.**

**Sımq tələb əyrisi modeli oliqopoliya şəraitində bazar qiymətinin nisbi sabitliyi haqqında tezisi əsaslandırır. Əgər firma qiyməti qaldırır, rəqiblər isə dəyişmirsə, bu firmanın məhsuluna olan tələb tez azalacaq və o, əvvəlki qiymətlərə qayıtmağa məcbur olacaqdır. Əgər firma qiyməti aşağı salsa, rəqibləri də belə hərəkət edər, ona gÖrə də bazarın böyük seqmentini qazanmaq bu firmaya müyəssər olmaz, onun məhsuluna olan tələb əhəmiyyətli dərəcədə artmadığı üçün qiyməti endirməyin elə bir əhəmiyyəti olmayacaqdır.**




**Şəkil 21.5. Son hədd xərclərinin dəyişməsi zamanı qiymətin sabitliyi**

**Qiymətin sabitliyi haqqında tezisi qrafik olaraq nümayiş etdirmək mümkündür (şəkil 21.5),**

**Son hədd xərclərinin əyrisi AB intervalında olduqda, yəni MC əyrisi son hədd gəliri əyrisini onun şaquli kəsiyində kəsib keçirsə, son bazar qiyməti dəyişməz olacaq. Deməli, qiymət son hədd xərclərinin səviyyəsinin dəyişməsindən bir o qədər də asılı deyil.**

**Sınıq tələb əyrisi modeli elmi mənada heç də qüsursuz deyil. Tənqidçilər onun aşağıdakı zəif nöqtələrini qeyd edirlər. Birincisi, konsepsiya sonradan müəyyən qədər sabit qalan bazar qiymətinin ilkin səviyyəsinin necə müəyyən edildiyini izah etmir. İkincisi, rəqiblərin cavab olaraq qiymətləri qaldırmayacağı, firmalardan birinin qiyməti aşağı saldığı təqdirdə onların da qiyməti endirəcəyi mülahizəsi çox sadəlövh səslənir.**

## Kumo modeli

**Fransız iqtisadçısı Kurno tərəfindən 150 il bundan əvvəl təklif edilən duopoliya (sahədə iki firma) modeli güman ki, oliqopoliyanın ilk modellərindən biridir. Bu model üç şərtə əsaslanır:**

- **sahədə yalnız iki firma mövcuddur;**
- **hər bir firma digərinin istehsal həcmini mövcudluq kimi qəbul edir;**
- **hər iki firma gəliri maksimallaşdırır.**

**Burada mülahizənin məntiqi belədir. Sahədə əvvəlcə sahə məhsulunun bütün həcmini istehsal edən bir firma olur. Yeni bir firma meydana gəlir və “köhnə” firmanın qiymətinin və istehsalının əvvəlki kimi qaldığını güman edərək fəaliyyət göstərməyə başlayır. Yeni firma bazara daxil olmaq üçün öz əmtəəsinin qiymətini endirir və köhnə firmadan bazar seqmentinin bir hissəsini zəbt edir. Köhnə firma yaranan vəziyyəti mövcudluq kimi qəbul edib məhsul istehsalını ona olan tələbin azalmasına müvafiq olaraq azaldır. Yeni firma**

vəziyyəti mövcudluq kimi qəbul edir və bazarda daha da möhkəmlənmək üçün öz əmtəəsinin qiymətini yenə də endirir və bazarın daha bir seqmentini ələ keçirir. Köhnə firma yeni firmanın istehsalının artan həcmi və qiyməti ilə barışır və öz istehsalının həcmini və bazardakı yerini yenə ixtisar edir. Beləliklə, firmalar bazarın onların qüvvələrinin nisbətinə uyğun gələn bölgüsünə gəlib çıxırlar.

Şübhəsiz ki, Kurno modeli bir qədər sadələşmiş görünür, lakin o diqqəti oliqopoliyada fəaliyyətlərin bir-biri ilə şərtləşməsi faktına cəlb edir.

Kurno modelini riyazi və qrafik olaraq şərh etmək olar.

Sahə məhsuluna tələbin xətti tərs funksiyasını nəzərdən keçirək.

P= a - bQ. Əyrinin meylliliyi - b-yə bərabərdir. Sahə istehsalının həcmi Q olanda ümumi gəlir funksiyası TR= (a - bQ)Q bərabərliyi ilə ifadə olunacaq. Son hədd gəliri məcmu xərc gəlirin birinci funksiyasından törəmə olduğundan bu tənliyi diferensiasiya edərək son hədd gəlirinin funksiyasını alarıq:

$$MR = a - 2bQ.$$

Kurnonun duopoliya modelində güman edilir ki, sahədə yalnız iki firma mövcuddur, özü də onlar tam oxşardırlar. Onda istehsalın sahəvi həcmi firma 1 və firma 2-nin istehsalı həcmlərinin cəminə bərabərdir,

Q = (lı + Qa-

Birinci və ikinci firmanın ümumi gəliri, uyğun olaraq, bərabər olacaq:

TRı=Pqı=[a-b(qı-t-q2)qı və

TR2=Pq2=[a-b(qı+q2)Q2.

Ümumi gəlir bərabərliyini differensiasiya edərək son hədd gəliri bərabərliyini alırıq:

MRj = a - bq2 - 2bqı və

MR2 = a - bqı - 2bq2

**Sadələşdirmə məqsədilə, tutaq ki, məcmu və deməli, həm də son hədd xərci sıfra bərabərdir. Onda tarazlıq nöqtəsində MR = MC = 0, yaxud**

**MRı=a - bqa - 2bqı = 0 və**

**MR2=a - bqı ~ 2bq2 = 0**

**MR tənliyinin bu növü hər bir firmanın istehsalının həcmini rəqib firmanın istehsal həcmi vasitəsilə müə5?yən etməyə imkan verir:**

**qa = (a - bqı)/(2b),**

**qı = (a - bq2)/(2b).**

**Başqa sözlə desək, Q2 firma 2-nin firma 1-in davranışına reaksiyasının funksiyasıdır, yəni faCQı)* Qı isə firma 1- in firma 2-nin davranışına reaksiyasının funksiyasıdır və ya**
Qı = fı(Q2)-

**Şəkil 21.6 firma 2 və firma 1-in reaksiyaları əyrilərinin qrafik şərhini verir.**

**Əgər rəqib firma istehsalını sıfra kimi azaltsa hər bir firma məhsulun bütün sahəvi həcmini istehsal edir. Rəqibin istehsal etdiyi məhsulun həcmi artdıqca, digər firma bu faktı mövcudluq qəbul edib öz istehsalının həcmini azaldır. Eh-**




**Şəkil 21.6. Firma 1 və firma 2-nin reaksiya əyriləri. Kurno tarazlığı**

**timala görə firmalar oxşar olduqlarından cavab əyrilərinin kəsişmə nöqtəsində bazar yarıya bölünür və $q_1 == q_2^*$ Bu nöqtə Kurno tarazlığıdır. Ayrıca firmanın istehsalının həcmini tarazlıq nöqtəsində q* ilə işarə edib və $q_1$-i $f_2(q_1)^*$ə bərabərləşdirib birinci firmanın istehsalının tarazlıq həcmini alarıq:**

$$q_1^* = (a - bq_1)/(2b) \text{ və ya } q_1^* = a / (3b).$$

**Analoji olaraq $q_g^* = a / (3b)$.**

**Bu halda sahənin tarazlıq təklifinin həcmi**

$$Q = q_1 + q_j = 2a / (3b)\text{-yə bərabərdir,}$$

**tarazlıq qiyməti isə**

$$P = a - b\,Q = a - b2a / (3b) = a / 3\text{-ə bərabərdir.}$$

**Əgər sıfır xərclər haqqında ehtimaldan imtina edib firmanın dəyişməz son hədd xərclərinin miqdarını hər məhsul vahidinə hesabla (bu, orta dəyişən xərclərə bərabər olacaq) "c" - ilə işarə etsək, onda firmanın ümumi gəliri tənliyini aşağıdakı kimi yazmaq olar:**

**$-ni_1 = TR_1 - TC = Pq_1 - TFC - TVC = \{a - b (q_1 + q\text{^})\} q_1 - TFC - cq_1$. Əgər birinci törəmə sıfra bərabərdirsə funksiya maksiumuma çatır. Ümumi mənfəəti $q_1$ üzrə diferensiallaşdınb**

$$a - 2bq_1 - bq_2 - c = 0 \text{ tənliyini alarıq.}$$

**Analoji olaraq ikinci firma mənfəətini maksimumuma $a - 2bq_2 - bq_1 - c = 0$ şərtini yerinə yetirməklə çatdırar.**

**Mənfəətin maksimallaşdırılmasının göstərilən şərtləri hər bir firmanın tarazlıq həcmini müəyyənləşdirməyə imkan verir:**

$$q_1^* = Çb = (a - c)/(3b).$$

**Bu zaman sahənin tarazlıq həcmi $Q = 2(a - c)/(3b)$, sahənin tarazlıq qiyməti isə $P = (a+2c)/3$ olacaqdır.**

**Kurno tarazlığını təkmil rəqabət şəraitindəki tarazlıq və İki firma arasında razılaşma olduğu şəraitdə olan tarazlıqla**




**Şəkil 21.7. Təkmil rəqabət şəraitində tarazlıq, Kurno tarazlığı və sövdələşmə şəraitində tarazlıq.**

**Kurno tarazlığı.**

**müqayisə etmək məqsədəuyğundur (şək. 21.7).**

**Əgər hər iki firma təkmil rəqabət şəraitində olsa idilər, onda həm ayrıca götürülmüş firmanın, həm də ümumilikdə sahənin istehsalının tarazlıq həcmi daha çox olardı (N nöq.). Rəqabət şəraitində tarazlıq qiyməti son hədd xərclərinə və orta minimal xərclərə bərabərdir (uzunmüddətli dövrdə).**

**P = C olanda rəqabət qabiliyyətli sahənin istehsal həcmi Q=(a-c)/b olardı, yəni tarazlıq şəraitində sahə daha az qiymətlə daha çox məhsul istehsal edərdi.**

**İki firmanın razılaşdığı təqdirdə onların davranışı şəkildə BC müqavilə əyrisi və M tarazlıq nöqtəsi ilə təmsil olunduğu kimi son dərəcə inhisarçı olardı. Gəlirin maksimallaşdırılmasına**

**MR - MC və ya**

**a - 2bQ = C - şərti ilə nail olunardı.**

**Onda sahədəki istehsalın inhisar həcmi**

**Q = (a - c)/(2b),**

**tarazlıq qiyməti isə**

**P = (a + c)/2 olardı.**

**Beləliklə, Kurno duopoliyası təkmil rəqabət bazarına uduzaraq, sövdələşmə şəraiti ilə müqayisədə daha səmərəli olur: duopoliyanın sahəvi istehsalı inhisardan yüksək, tarazlıq qiyməti isə inhisardakından aşağıdır.**

**Kurno modeli qrafik təsvirdə də maraqlıdır.**

**Yuxarıda firma 1-in ümumi mənfəətinin tənliyi verilmişdi. Firma 2-nin mənfəət düsturu da analoji olaraq tərtib etmək olar. Bu tənliklər əsasında firma 1 və firma 2 üçün bərabər kəmiyyətli mənfəət əyrilərini (iz oprofitləri) çəkmək olar (şəkil 21.8).**




**Şəkil 21.8. Firma l(a) və firma 2(b)-nin izoprofitləri və əyriləri**

**İzoprofit və ya müadil gəlir əyrisi - məlum firmanın mənfəətinin verilmiş səviyyədə saxlanması üçün duopolist sahənin iki nrmasmm istehsal həcmlərinin bütün mümkün kombinasiyalarını göstərir.**

**Firmaların hər biri üçün mənfəət Kurno tarazlığı nöqtəsində maksimallaşsa da, bütövlükdə sahə mənfəətin maksima- llaşmasından uzaqdır. Yuxarıda qeyd edildiyi kimi, sahənin mənfəəti yalnız iki firmanın razılaşıb sahəni inhisara çevirdiyi halda maksimallaşa bilər. Firmaların razılaşmaq imkanı olmadığı güman edildiyindən gəlirin sahəvi maksimallaşma- sına nail olunmur.**




**Şəkil 21.9. Firmaların izoprofitləri və reaksiyaları əyriləri. Kurno tarazlığı**

**Qeyd etmək lazımdır ki, Kumo modeli sahədə ikidən çox firma olduğu hal üçün də işlənib hazırlana bilər. Bu zaman sahədə firmaların sayı nə qədər çox olursa, vəziyyət rəqabət bazarına o qədər yaxınlaşır.**

## Stekelberq modeli (Ştakelberq)

**Alman iqtisadçısı Stekelberq tərəfindən 1934-cü ildə hazırlanmış modeli Kurno modelinin inkişafı kimi nəzərdən keçirmək olar. Bu modelin digər adı - istehsalın həcminə görə liderlik modeli və ya asimmetrifc duopoliya modelidir.**

**Stekelberq modelində firmalardan biri özünü Kurno modelindəki firma kimi aparır, yəni öz istehsal həcmini maksimallaşdırır və öz istehsalının həcmini rəqibin istehsalının həcminə əsaslanaraq müəyyən edir. Lakin rəqib başqa cür davranır. Rəqib öz istehsal həcmini birinci firmadan asılı olmayaraq müəyyənləşdirir və öz istehsalının həcmini birinci firmanın istehsalından asılı olaraq dəyişmir. Müstəqil hərəkət edən firma öz istehsal həcminin parametrlərini onu təqib edən firmaya diktə edərək lider olur. Fərz edilir ki, lider firma təqibçi firmanın Kumo üzrə hərəkət etdiyini, liderin təqibçinin reaksiya funksiyasını müəyyən edər və onu öz**

**mənfəət funksiyasında nəzərə ala bilər. Bu zaman lider mənfəətini inhisarçı kimi maksimallaşdırır.**

**Lider firma və təqibçi firma üçün vəziyyəti ayrı-ayrılıqda nəzərdən keçirək.**

***Təqibçi firma üçün*** **Kurno modelində edildiyi kimi bir sıra izoprofitlər qurmaq olar (şək.21.10).**

**Şəkildən görünür ki, lider firmanın özü üçün seçdiyi hər bir mümkün istehsal həcmində təqibçi firma öz istehsal həcmini elə müəyyənləşdirir ki, mənfəətini maksimallaşdırsın. Bu şərtə qrafik olaraq izoprofitin əyilmə bucağının liderin istehsal əyrisinə şaquli olduğu nöqtələr uyğun gəlir. Liderin**




**Şəkil 21.10. Təqibçi firmanın izoprofitləri və reaksiya əyrisi**

**istehsal səviyyələrinin hər bir səviyyəsindən perpendikulyarlar çəkək. Hər bir perpendikulyar izoprofitlərdən birinə toxunan olacaq. Bununla da liderin istehsalının hər bir səviyyəsinə təqibçi firmanın mənfəətinin maksimal mümkün səviyyəsi seçilib. Toxunma nöqtələrini birləşdirib, təqibçi firmanın lider firmanın istehsalat həcminə reaksiyasının əyrisini alarıq, yəni qs = faCqj).**

**Təqibçi firmanın istehsal həcmi cəbri olaraq Kurno modelindəki kimi müəyyənləşdirilir. Əgər tələbin xətti funksiyası verilibsə, onda**

$$q_2 = (a - bq_1)/(2b).$$

Lider firma üçün aydındır ki, sahənin ümumi istehsalı

$$Q = q_1 + f_2\,(q_1)\text{- dır.}$$

Yuxarıda olduğu kimi tutaq ki, ümumi və son hədd xərcləri sıfra bərabərdir, yəni TC = 0 və MC = 0. Onda lider firmanın mənfəət funksiyası

$T\Pi_1 = TR_1 - TC = Pq_1 - 0 = \{a - b[q_1 + f_2(q_1)]\} \times q_1$ – kimi olacaqdır.

Bu tənlikdə təqibçi firmanın istehsal qiymətini

$q_2 = f_2(q_1) = (a - bq_1)/(2b)$ yerinə qoysaq, alarıq:

$$T\Pi_1 = aq_1/2 - bq_1^2/2.$$

Bu funksiya üçün son hədd gəliri tənliyi aşağıdakı kimi verilib:

$$MR = a/2 - bq_1.$$

Son hədd gəliri son hədd xərclərinə (tarazlıq nöqtəsində) və ehtimala görə sıfra bərabər olduğundan lider firma üçün istehsalın tarazlıq həcmi

$$q_1^* = a/(2b)\text{ olacaqdır.}$$

Yuxarıda deyilənlərin əsasında təqibçi firmanın istehsalının da tarazlıq həcmini müəyyən etmək asandır.

$$q_2^* = (a - bq_1^*)/(2b) = a/(4b).$$

Bu halda Stekelberq tarazlığına görə sahənin istehsal həcmi $P^* = a/4$ qiymətdə

$$Q^* = q_1^* + q_2^* = a/(2b) + a\,/\,(4b) = 3a\,/\,(4b) \text{ – dir.}$$

**Əgər sıfır xərclər haqqında fərziyyələrdən imtina edilsə, onda:**

$$q_1^* = (a - c)/(2b)$$
$$q_2^* = (a - c)/(4b)$$
$$Q^* = 3(a - c)/(4b)$$
$$P^* = (a + 3c)/4$$

**Lider firma üçün də bir sıra izoprofitlər çəkmək olar (şək.21.11).**

**Lider firma bazarda ikinci firmadan asılı olmayaraq hərəkət etdiyinə görə onun reaksiya əyrisi yoxdur. Stekelberq**




**Şəkil 21.11. Stekelberq tarazlığı və Kurno tarazlığı**

**tarazlığı təqibçi firmanın reaksiya əyrisinin lider firmanın daha aşağıda yerləşən izoprofit əyrisinə toxunduğu nöqtədə baş verəcək, bu da liderə mənfəətini maksimallaşdırmaq imkanı yaradacaqdır.**

**Əgər elə həmin qrafikdə firma 1-in reaksiyasının hipote- tik əyrisini çəksək və o Kurno üzrə hərəkət etsə, firma 1-in lider Stekelberq modelində sahə məhsulun çox-çox böyük hissəsini istehsal etdiyini və Kurno modelindəkindən daha çox mənfəət reallaşdırdığını asanlıqla görmək olar.**

## Bertran modeli

**Bu model fransız iqtisadçısı C .Bertran tərəfindən 1883- cü ildə təklif edilib.**

**Firmaların qiymətləri bazarın seçiminə buraxıb, istehsalın həcmini isə özləri müəyyənləşdirdiyi Kurno modelindən fərqli olaraq Bertran modelində istehsalın həcmini bazar müəyyən edir, qiyməti isə firmalar müəyyənləşdirir.**

**Bununla əlaqədər olaraq hər bir firma rəqib firmanın analoji məhsula qoyduğu qiyməti nəzərə alıb öz məhsuluna optimal qiymət qoyaraq mənfəətini maksimuma çatdırmağa can atır. Bu zaman qiymət heç vaxt son hədd xərclərindən aşağı ola bilməz, çünki əks təqdirdə hər bir firma istehsalın həcmini azaltmağa başlayacaq. Deməli, məsələ bundadır ki, firmalar qiyməti son hədd xərclərindən artıq edə bilərlərmi. Cavab mənfidir.**

**Həqiqətən də, əgər hansısa məqamda bazarın qiymətinin son hədd xərclərindən yüksək olduğunu güman etsək, onda firmaların hər birində öz məhsulunun qiymətini lap az da olsa azaltmağa maraq yaranar. Hətta qiymət bazar qiymətindən lap az da olsa aşağı endirildiyi (lakin son hədd xərclərindən aşağı olmamaqla) təqdirdə firma nəinki əlavə rəqabət üstünlükləri əldə edir, həm də ona rəqib firmanın bütün alıcılarını cəlb etməyə müyəssər olur. Onda rəqib firma da belə bir addım atır və öz məhsulunun qiymətini bir az endirib birinci firmanın müştərilərini öz tərəfinə cəlb edir. Bu qiymət mübarizəsi qiymətlər son hədd xərcləri ilə bərabərlə- şənə kimi davam edə bilər, çünki bundan sonra qiyməti endirmək mümkün deyil. Beləliklə, Bertran modelində qiymətlə son hədd xərci bərabərləşəndə tarazlıq yaranır. Başqa sözlə, Bertran tarazlığı rəqabət tarazlığıdır.**

**Bertran tarazlığını şərh etmək üçün iki firmanın izopro- fit xətlərindən və reaksiya əyrilərindən də istifadə etmək olar. Lakin bu modeldə izoprofitlər başqa cür yerləşəcək: izop- rofitlər müvafiq firmanın oxlarına doğru qabarmış**

**parabolalar olacaq, çünki koordinat oxlarında istehsalın həcmi deyil, firma 1 və firma 2 tərəfindən verilmiş qiymətlər əks olunub (şək.21.12). Beləliklə, Bertran modelindəki izoprofit hər iki firmanın qiymətlərinin bütün mümkün kombinasiyalarım göstərir ki, bu kombinasiyalar qeyd olunan firmaya müəyyən mənfəət səviyyəsini saxlamağa imkan verir. Yəni, əgər firma 1 mənfəəti azaldarsa, firma 2 də əvvəlki mənfəət səviyyəsini saxlamaq üçün bu cür hərəkət etməli olacaqdır.**

**Firmanın rəqibin qiymət siyasətinə reaksiya əyrisi parabola izoprofitlərinin ən qabarıq nöqtələrinin və ya bu firmanın qiymətlərini rəqibin qiymət səviyyəsindən asılı olaraq**




**Şəkil 21.12. Bertran modelində firma 1 (a) və firma 2 (b)-nin izoprofitləri və reaksiya əyriləri**

**müəyyənləşdirməsi zamanı aldığı mənfəət maksimumları nöqtələrinin həndəsi yeridir. Reaksiya əyriləri müsbətə meyllidirlər, çünki qiymət nə qədər yüksəkdirsə, mənfəət də o qədər yüksəkdir.**

**Bertran tarazlığı firmaların reaksiya əyrilərinin kəsişmə nöqtəsində alınır (şək.21.13).**

**Bu nöqtə koordinat başlanğıcından 45“ bucaq altmda çıxan şüanın üzərindədir, çünki yuxarıda da qeyd edildiyi kimi, tarazlıq qiyməti hər iki firma üçün vahid olur və son hədd**

**xərclərinə bərabərdir. Son nəticədə firmalar uzunmüddətli dövrdə yalnız normal mənfəət (sıfır iqtisadi gəlir) əldə edir. Bertran tarazlığı da Neş tarazlığının növlərindən biridir.**

## Oyunlar nəzəriyyəsi

**Oyunlar nəzəriyyəsini Con fon Neyman və Oskar Mor-**




**Şəkil 21.13. Bertran tarazlığı**

**genştern tərəfindən 1944-cü ildə işlənilib. Onun iqtisadi təhlilə və xüsusən də firmanın oliqopoliyadafcı davranışının tədqiqinə tətbiqi böyük elmi əhəmiyyət daşıyırdı.**

**Oyunlar nəzəriyyəsi bazardakı davranışı qərarlar qəbul edən oyunçuların iştirak etdiyi oyun kimi nəzərdən keçirir; oyunun müəyyən qaydaları var; oyunun nəticələrinə görə mükafatlar və cərimələr verilir. İştirakçı oyunda qərar qəbul edərkən rəqibin hansı strategiya seçdiyini dəqiq bilmir, o yalnız proqnozlar verə bilir.**

**Oyun şəraitinin ümumiyyətlə və xüsusilə də bazardakı analoqu məhbus dilemmasıdır. Eyni iş üzrə müqəssir bilinən iki məhbusun aşağıdakı cərimə-mükafat matrisasını gözdən keçirək (cəd.21.1).**

*Cədvəl 21.1*

| **N^^Məhbus B-nın seçimi**<br><br>**Məhbus N. A-nın seçimi** | **Boynuna almamaq** | **Boynuna almaq** |
|---|---|---|
| **Boynuna almamaq** | **A: 1 il**<br>**B: 1 il** | **A: 10 il**<br>**B: azadlıq** |
| **Boynuna almaq** | **A: azadlıq B: 10 il** | **A: 5 il B: 5 il** |

**Tutaq ki, məhbuslar razılaşıb hər ikisi üçün daha sərfəli olan davranış strategiyasını - törətdiyini boynuna almayıb yalnız ikinci dərəcəli dəlillər əsasında bir il iş almağı - seçə bilmirlər. Onda oyunun ikinci oyunçusunun reaksiyası məlum deyilsə, məhbusun davranışı (və onun nəticələri) necə ola bilər.**

**Maximin və maximax kimi tanınan davranış strategiyalarını fərqləndirirlər.**

**Maximin strategiyası həyata bədbin baxışı əks etdirir, bu zaman oyunun iştirakçısı A fərz edir ki, opponenti olan B A üçün ən pis şəkildə davranacaq. Yuxarıda göstərilən mat-risada A üçün ən pis variant A-nın boynuna almadığı, B- ninsə boynuna aldığı təqdirdə baş verəcək onillik həbsdir. Bundan qaçmaq və pis nəticələrdən daha az pis olanını özü üçün təmin etmək məqsədilə A boynuna almaq qərarına gəlir: bu halda ən pisi 5 il həbs cəzası olacaq, lakin bu pis nəticə A-nın boynuna almadığı təqdirdə ona veriləcək cəzadan - 10 illik həbsdən yaxşıdır. Məhbus B də analoji yolla mühakimə yürüdəcək. Nəticədə hər iki məhbus razılaşmadan boynuna almaq qərarına gələcəklər.**

**Maximax strategiyasını opponentlərinin onlara dəstək verəcəyi və ən yaxşı nəticəyə nail olmağa kömək edəcəyinə**

**Ümid edən nikbinlər seçir. Beləliklə, nikbin məhbus A özü üçün ən yaxşı nəticəyə - azad olunacağına ümid edir. O, ümid edir ki, məhbus B boynuna almaz, ona görə də özü günahını boynuna alır. Lakin məhbus B də təbiətcə nikbindir və azad olunmaq istəyir. A məhbusunun günahını boynuna almadığını fərz edərək B də öz növbəsində törətdiyini boynuna alır. Nəticədə hər iki məhbus etiraf edir və beş il həbs cəzası alırlar.**

**Bir şeyə diqqət verək ki, bizim nümunədəki hər iki halda oyunçular eyni nəticəyə gəldilər (yəni onların strategiyası hakim mövqe tutdu) və cərimə-mükafat matrisasının sağ aşağı küncündə oldular. Bu cür nəticə Neş (Nobel mükafatı laureatının adı ilə) həlli və ya Neş tarazlığı adını almışdır. Bu tarazlığın şərti aşağıdakı kimidir: əgər birinci oyunçunun strategiyası verilibsə, ikinciyə yalnız birincinin gedişlərini təkrarlamaq qalır. Və əksinə.**

**Oyunçuların bazardakı taleyi də bu cür olur. Firmalar qərarlar qəbul edərək "oynayır": qiyməti endirmək, ya endirməmək, öz məhsulunu reklam etmək, ya etməmək və s.**

**Reklamın təşkil olunması nümunəsini nəzərdən keçirək. Hər iki firma məhsulu reklam etməyəndə hər birinin gəliri 50 (min, milyon və s.) olur. Əgər onlardan biri məhsulunu reklam eləsə o rəqabət üstünlüyü qazanır və gəlirini 75-ə kimi qaldırır, bu zaman rəqib 25 miqdarında zərərə düşür. Əgər hər iki firma ödənişsiz həyata keçirilməyən reklam fəaliyyəti ilə məşğul olsa, hər birinin mənfəəti cəmi 10 olur. Bu məlumatları cərimə və mükafatlar matrisasına daxil edək.**

**Bədbin yanaşma pis nəticələrdən ən yaxşısının axtarışından ibarət olacaqdır. Əgər firma məhsulu reklam etsə, onun pis nəticəsi +10 olacaq. Əgər firma reklam etməsə, onun üçün pis nəticə -25-ə bərabər olacaq. İki zərərdən kiçiyini seçirlər. +10 kimi pis nəticə, -25 kimi pis nəticədən yaxşıdır. Bu səbəbdən hər bir firma reklam etmək qərarı qəbul edir.**

**Nikbin yanaşma bütün mümkünlərdən ən yaxşı nəticəni axtarmağa vadar edir. Hər bir firma üçün reklam etmə za**

**manı ən yaxşı nəticə +75-ə bərabər olur. Reklamdan imtinada ən yaxşı nəticə +50-dir.**

*Cədvəl 21.2*

| **A firmasının \strategiyası<br><br>B firmasınınV strategiyası** | **Reklam etməmək** | **Reklam etmək** |
|---|---|---|
| **Reklam etməmək** | **A: + 50 B: + 50** | **A: -25<br>B: +75** |
| **Reklam etmək** | **A: +75 B: -25** | **A: +10 B: +10** |

**+75 +50-dən yaxşı olduğundan firma reklam eləmək qərarına gəlir. Yenə hakim strategiya oyunçuları Neş həllinə gətirir.**

**Bu nümunə reklam “müharibəsi” haqqında yuxarıda da danışılan sıfır nəticəli müharibə olduğunu təsdiq edir. Reklamda çox vaxt udmaq üçün yox, reklamdan imtina edib uduzmamaq üçün iştirak edirlər.**

**Əgər oyunçuların və mümkün davranış strategiyalarının sayı artsa, firmanın davranış modeli xeyli çətinləşər. Ona görə oyunlar nəzəriyyəsinin də imkanları sonsuz deyil. Bir şeyi əminliklə təsdiq etmək olar ki, o da oyunlar nəzəriyyəsinin oliqopolist firmaların davranışlarının və onların bazar mövqeyinin bir-birinə qarşılıqlı təsirini bir daha təsdiq etməsidir.**

## Rəqabətli bazarlar modeli

**Bu kifayət qədər yeni konsepsiyadır. Onun mühakimıəsi sahəyə daxil olma və ondan çıxışın xərc tələb eləməməsinə**

**əsaslanır. Əvvəlcədən qeyd etmək lazımdır ki, təcrübədə bu cür hala tez-tez rast gəlinmir. Yeni firmanın açılması kimi, onun ləğv edilməsi də çox vaxt böyük xərclərlə müşayiət olunur.**

**Əgər yuxarıda göstərilən ehtimalı qəbul etsək, bazarda yeni firmaların yaranması ehtimalı daha yüksək olur. Deməli, hətta çox iri oliqopolist firmalar da həmişə rəqiblərin meydana gəlməsi və öz bazar hakimiyyətlərinin itirilməsi təhlükəsini hiss edirlər. Nəticədə rəqabət təhlükəsi rəqabətin özü kimi təsir edir, xərclərin ümumi səviyyəsini, qiymətlərin səviyyəsini endirir, istehsalın həcmini artırır və iqtisadi mənfəəti azaldır (yalnız normal mənfəətin saxlanmasına qədər).**

## Oliqopoliya və cəmiyyət

**Sonuncu istisna olmaqla (rəqabətli bazarlar), bütün oliqopoliya modellərindən göründüyü kimi bazeınn bu quruluşunda allokativ səmərəlilik (oüqopolistik qiymət son hədd xərclərindən yüksəkdir) və istehsalm səmərəliliyi (oliqopolistik qiymət istehsalın uzunmüddətli orta xərclərin minimal səviyyəsindən yüksəkdir) yoxdur. Oliqopoliyada bazarın inhisarlaşması və rəqabətin məhdudlaşdırılması dərəcəsi yüksəkdir. Yuxanda deyilənlərə görə, cəmiyyətin nöqteyi-nəzərində oliqopoliya ən arzu olunan bazar təşkili forması hesab edilmir.**

**Cəmiyyət üçün kapitalın sahələrarası axını, sağlam qüvvələrin bu və ya digər sahəyə axını üçün mövcud olan çoxsaylı möhkəm əngəllər də arzu olunan deyil .**

**Məhsulun fərqliliyi çoxnövlülüyü və yeniliyi təşviq edir, lakin digər tərəfdən o, səmərəsizliyi və resursların səmərəsiz istifadəsini də göstərir.**

**Oliqopoliyanın texniki tərəqqidəki rolu müxtəlif cür qiymətləndirilir. C.K.Helbreyt, C.Şumpeter və b. iqtisadçılar iddia edirlər ki, oliqopoliya istehsal, maliyyə vasitələrinin, ixtisaslaşmış işçi qüvvəsinin, elmi-tədqiqat potensialının təmər**

**küzləşməsinin yüksək səviyyəsi deməkdir. Bu cür firmalar ETSKİ-yə (elmi tədqiqat və sınaq-konstruktor işləmələrinə) daha çox xərc qoyur və onlar texniki tərəqqinin hərəkətverici qüvvələridir.**

**Onların opponentləri isə, əksinə, kiçik, xüsusən də yüksək texnologiyaların işlənməsində çox vaxt pioner olan ven- çur (riskli) biznes nümunəsi göstərirlər. Tanınmış Digital Equipment, Apple Computers və başqaları öz fəaliyyətlərini kiçik firmalar kimi başlayıb, sahələrinin liderlərinə çevrilmişlər.**

# XXII FƏSİL. İSTEHSAL AMİLLƏRİ BAZARINDA QİYMƏTİN ƏMƏLƏ GƏLMƏSİ: ƏMƏK BAZARI

*§1. tstehsal amilləri bazannda talab və təklif. İstehsal amilləri bazannda firmalann tarazlığı,*

*§2. Əmək və əməyin qiyməti.*

*§3. Təkmil rəqabət şəraitində əmək bazannda qiymətin formalaşması xüsusiyyətləri.*

*§4. Qeyri-təkmil rəqabət şəraitində əmək bazannda qiymətin əmələ gəlməsi*

## *§1, İstehsal amillari bazannda tələb və təklifi İstehsal amilləri bazannda firmalann tarazlığı*

**İstehsal amilləri bazarı bazar iqtisadiyyatı sisteminin mühüm tərkib hissəsidir. Bu bazarda istehsalçı firmalar alıcı rolunda, ev təsərrüfatları isə tədarükçü rolunda çıxış edir. Bu zaman firmaların əldə etdikləri istehsal amilləri üçün ödədikləri qiymət ev təsərrüfatlarının amil gəlirləri adlanan ilkin gəlirlərini formalaşdırır. Amil gəlirlərinə əmək haqqı, renta, borc faizi, mənfəət aiddir. Beləliklə, istehsal amilləri bazarının uğurlu fəaliyyətindən nəinki ictimai istehsalın lazımi resurslarla fasiləsiz təminatı, həm də gəlirlərin cəmiyyətdə ilkin bölgüsünün xarakteri, həmçinin gəlirlərin səviyyəsi asılıdır.**

**İstehsal amilləri bazarı - ümumiləşdirici anlayışdır. Onun tərkib hissələri əmək bazarı, kapital bazarı, torpaq bazarıdır. Bu bazarlardan hər birinin özünəməxsus xüsusiyyətləri var. Bu və sonrakı fəsillərdə bu bazarlarda qiymətin əmələ gəlməsinin xüsusi və ümumi əlamətləri nəzərdən keçiriləcək, habelə istehsal amilləri bazarında satılan spesifik malların xarakteristikası veriləcəkdir.**

**Əmtəə və xidmətlər bazarında olduğu kimi istehsal amilləri bazarının təşkili də tam rəqabətdən xalis inhisara kimi müxtəlif cür ola bilər. Bazarın rəqabət modelindən asılı olaraq, istehsalın bu və ya digər amilinin tarazlıq qiyməti və**

**tarazlıq miqdarı dəyişəcəkdir.**

**Konkret vəziyyətlərin müzakirəsini mücərrəd baza modeli kimi təkmil rəqabəti! bazarın təhlilindən başlamaq daha məqsədyönlüdür. Bunun üçün aşağıdakı şərtiliyi qəbul edək:**

- **istehsal amillərinin satıcı və alıcıları çoxdur;**
- **sahəyə daxil olmaq və çıxmaq azaddır;**
- **istehsal amillərinin mobilUyi;**
- **bazar informasiyasına daxilolma imkanı azaddır;**
- **bütün istehsal amillərinin satıcı və alıcıları hazır qiymət qəbul edəndir.**

**Bundan başqa, fərz edək ki, istehsal amilinin bir növünün bazarında bu resursun bütün vahidləri yekcinsdir (məsələn, bütün bənnaların ixtisaslaşma səviyyəsi və əməyə motivasiyası eynidir).**

**Yuxarıdakı şərtiliklər olarsa, əmək bazarında bazar tələbi və təklifi məlum tələb və təklif əyriləri ilə əks olunacaq ki, bunların da kəsişməsi bazar tarazlığını müəyyən edir, yəni həmin anda amilin qiymətini və onun iqtisadiyyatda istifadəsi səviyyəsinə təsir edən bazar tarazlığını müəyyənləşdirir (şək. 22.1).**




**Şəkil 22.1. İstehsal amilinə bazarın tələb və təklifi**

**İstehsal amilinin ayrıca götürülmüş alıcısı və ya satıcısı tərəfindən tələb və təklifə gəldikdə isə burada müəyyən xüsusiyyətlər var. Bazar qiyməti nə qədər yüksək olarsa, hazır qiyməti alan olduğu üçün satıcı bazara həmin resursdan bir o qədər çox gətirməyə hazırdır, yəni onun təklif əyrisi adi müsbət meylliliyə malik olacaq. Lakin onun təklif etdiyi resursa olan tələb əyrisi üfüqi olacaq (şəkil 22.2, a). Bu o deməkdir ki, bir satıcıda olan resursun bazar miqyaslarında cüzi olduğunu nəzərə alaraq bazar resurs sahibinin təklif etdiyi bütün ehtiyatı bazarın həmin tarazlıq qiyməti ilə qəbul etməyə hazırdır. Daha yüksək qiymət tələb etmək imkanı yoxdur, çünki bu cür resurs satıcıları çoxdur. Ucuz satmağa da ehtiyac yoxdur, çünki çoxsaylı alıcılar həmin resursu bazar qiymətləri ilə almağa onsuz da hazırdırlar.**

**Digər tərəfdən resurs istehlakçısı onun qiyməti nə qədər aşağı olarsa, ondan bir o qədər çox almağa hazırdır. Beləliklə, ayrı-ayrı alıcıların tələb əyrisi adi mənfi meylliliyə malik olacaqdır. Təklif əyrisi isə əksinə, üfüqi olacaq, bu da bazarda bu istehlakçıya lazım olan istənilən miqdarda resursu mövcud bazar qiymətlərinə almağın mümkünlüyü göstərir (şək.22.2, b). Daha ucuz almaq imkanı yoxdur, çünki bazar-**




**Şəkil 22.2. Bazarda tarazlıq və fərdi tarazlıq:**
**a - resursun fərdi satıcısı; b - resursun fərdi istehlakçısı;**
**C - ümumilikdə bazar**

**da çoxlu sayda alıcı fəaliyyət göstərir. Daha artıq pul ödəməyə ehtiyac yoxdur, çünki satıcıların rəqabəti mövcuddur.**

**İstehsal amillərinə tələbin əsas xüsusiyyəti onun törəmə xarakterdə olmasıdır. Həqiqətən də, ayrı-ayrı resursa olan tələb, hər şeydən əwəl bu resursun köməyilə istehsal olunan əmtəəyə (xidmətə) olan tələbdən asılıdır. Benzinə tələb nə qədər yüksək olarsa neftə, buruq qurğularına, neft kəşfiyyatçılarının, neft çıxaranların əməyinə də tələb bir o qədər yüksək olar.**

**Resursa tələb həm də istehsal olunan məhsulun qiymətindən də asılıdır. O nə qədər yüksək olarsa, bütün digər şərtlərin eyniliyi şəraitində resursun istehsalın alternativ deyil, məhz bu növündə tətbiqi daha sərfəlidir. Resursa tələb resursun özünün məhsuldarlığı ilə (yəni resurs vahidinin köməyilə alınmış hazır məhsulun miqdarı ilə) düz mütənasibdir. Belə ki, torpağın münbit sahələrinə tələb gilli və şoran torpaqlara tələbdən yüksəkdir və s.**

**Resursun məhsuldarhğı daimi kəmiyyət deyil. Qısamüddətli dövrdə, yəni istifadə olunan istehsal amillərindən ən azı biri daimidirsə və öz kəmiyyətini dəyişmirsə, dəyişən amil öz məhsuldarlığını yalnız müəyyən həddə kimi artıra bilər. Belə ki, torpaq sahəsinə gübrə verilməsi əvvəlcə məhsuldarlığın kəskin artımına səbəb olacaq, sonra artım bir qədər zəifləyəcək, sonra isə torpaq və becərilən bitkinin tərkibində sulfat, nitratların və s. miqdarı həddindən artıq olacaq ki, bu da hətta məhsulun məhvi ilə nəticələnə bilər. Bu fenomen kifayət qədər ümumi xarakter daşıyır və məhsuldarlığın azalması və verimin azalması qanunu kimi məlumdur. Bu qanunun təhlil edilməsinə marjinalist məktəbi böyük diqqət yetirir.**

**Marjinalistlərin istehsal amilləri bazarının təhlilində istifadə etdikləri əsas kateqoriyaları nəzərdən keçirək.**

**İstehsal amilinin son hədd məhsulu (MP^) - bu, hazır məhsulun əlavə resurs vahidinin istifadəsi hesabına əldə olunan artımıdır. Qısamüddətli dövrdə MP^ əvvəlcə artır, sonra yenə azalmağa başlayır (şək. 22.3).**

**İstehsal amilinin son hədd məhsulunun qiyməti (VMP^) amilin son hədd məhsulunun əmtəənin qiymətinə hasilindən ibarətdir, yəni VMP^ = MP x P (əmtəə).**

**İstehsal amilinin son hədd məhsulundan əldə edilən son hədd gəliri (MRPyr) əlavə istehsal amili vahldmin tətbiqi nəticəsində satışdan əldə olunan pulım artımıdır: MRP^ = MP x MR.**

**Maraqlıdır ki, əgər hazır məhsul bazarı təkmil rəqabətli-dirsə, əmtəənin qiyməti onun istehsalından əldə edilən son hədd gəlirinə bərabərdir. Deməli, bu halda istehsal amilinin son hədd məhsulunun dəyəri istehsal amilinin son hədd məhsulundan alınan son hədd gəlirinə bərabərdir, yəni VMP^ = MRP^.**

**Əgər istehsal amilinin son hədd gəliri ilə istehsal amilinin son hədd məhsulunu müqayisə etsək, görərik ki, birinci təkmil rəqabət şəraitində ikincinin hasilinə bərabər olur, vuruq kimi isə məhsulun qiyməti çıxış edir. Müvafiq olaraq, istehsal amilinin son hədd gəlirinin əyrisi, istehsal amilinin son hədd məhsulunun əyrisinin formasını təkrar edəcək, yəni əwəl artacaq, müəyyən andan sonra isə azalmağa başlayacaqdır (şəkil 22.4).**

**Firmanın ən azı bir amilin dəyişkən, yəni firmada məhz ona tələb olduğu (çox vaxt belə amil işçi qüvvəsi olur) qısamüddətli dövrdə davranışını nəzərdən keçirək.**




**Şəkil 22.3. İstehsal amilinin son hədd məhsulu**




Şəkil 22.4. İstehsal amilinin son hədd gəliri

**İstehsal amilinin son hədd gəliri əyrisi fərdi müəssisənin (firmanın) bu məhsulun müxtəlif qiymət səviyyələrində nə qədər resurs almağa hazır olduğunu göstərir. Başqa sözlə, MRPf əyrisi firmanın bu məhsula tələbi əyrisi ilə eynilik təşkil edir.**

**Resursların rəqabət bazannda onun hər bir əlavə vahidinin əldə edilməsi firmanın xərclərini həmin kəmiyyətdə, yəni resurs qiyməti səviyyəsində artınr. Beləliklə, resursun qiyməti istehsal amilinin son hədd xərci kimi çıxış edir (MRCf). Əmtəə və xidmətlər bazarının alıcısı kimi, istehsal amilinin istehlakçısı (firma) da daim öz son hədd xərc-ləri ilə qazancım müqayisə edir. Müəssisə istehsal amilinə əlavə resurs vahidinin tətbiqinin son hədd xərcləri həmin əlavə resurs vahidinin istifadə edilməsindən alman son hədd gəlirini ötüb keçənə kimi tələbat irəli sürəcək. Firmanın tarazlığı MRPf — MRCf nöqtəsində olacaq (şək. 22.3). Firma bu nöqtədə mənfəətini maksimuma çatdırır.**

**İstehsal amilləri bazarında mənfəətin maksimuma çatdırılması qaydası:**

**MRPf =MRCf**




**Şəkil 22,5. Firmanın istehsal amilləri bazarında tarazlığı**

**İstehsal amillərinin rəqabət bazarı üçün düsturu aşağı dakı kimi olur:**

$$MRPf = Pf$$

**Yuxarıda verilən düsturları hazır məhsul (əmtəələr və xidmətlər) bazarında firmanın mənfəətinin maksimuma çatdırılmasının məlum qaydası ilə müqayisə etmək pis olmaz. Davranışın səmərəliliyi və mənfəətin maksimuma çatdırılması prinsiplərinin hər iki halda eyni olduğunu sezmək asandır. Firma əlavə məhsul vahidinin istehsalından əldə edilən son hədd gəlirləri ilə son hədd xərcləri bərabərləşənə kimi istehsalı davam etdirəcək (MR=MC). Firma istehsal amillərindən əlavə resurs vahidinin son hədd xərcləri ilə son hədd gəlirləri bərabərləşənə kimi istifadə edəcək (MRP, = MRCf). Tam rəqabət şəraitində bu düsturlar müvafiq olaraq P = MC və MRPf = Pf kimi görünür.**

**Elə hallar olur ki, dəyişkən amillərin sayı birdən artıq olur, uzunmüddətli dövrdə isə ümumiyyətlə bütün amillər dəyişkəndir. Bu halda istehsal arhillərinə tələbat və firmanın tarazlığı necə müəyyən edilir? Təhlil bir qədər mürəkkəbləşir, amma yanaşma və prinsiplərin özləri əvvəlki kimi qalır.**

**Firmanın istehsal xərclərini azaltmağa və daha ucuz**

**resurslar almağa can atması təbiidir. Bu meylə resursların özlərinin bir tərəfdən bir-birini tamamlayıb müştərək istifadə olunmağı (komplementar resurslar), digər tərəfdən bir- birini müəyyən qədər əvəz edə bilmək (əvəzləyici resurslar və ya substitutlar) xüsusiyyətləri səbəb olur. Məsələn, eyni özülü ekskavator və bir maşinistin, ya da bel ilə işləyən 100 yer-qazanın köməyi ilə qazmaq olar. Bu nümunədə kapital və iş qüvvəsi həm bir-birini tamamlayan, həm də əvəzləyən resurslardır.**

**Sahibkar xərcləri minimuma endirməyə imkan verən texnologiyanı seçməyə çalışır və bir qayda olaraq daha ucuz amilə üstünlük verir. Başqa sözlə, əgər iş qüvvəsinin qiyməti tutaq ki, artırsa, kapital daha ucuz olur və ona tələb artır. Bu fenomen əvəzləmə effekti adı alıb. Əvəzləmə effekti, o cümlədən istehsal amilinə tələb əyrisinin niyə enən və mənfi meylli olduğunu başa düşməyə kömək edir.**

**Lakin amillərdən birinin (tutaq ki, işçi qüvvəsinin) qiymətinin artması başqa effekti - məhsul buraxılışı effektini də verə bilər. İstehsal amillərindən birinin qiymətinin artması istehsal xərclərinin ümumi səviyyəsini artırır. Digər eyni şərtlərdə xərclərin artımı istehsal həcminin azalmasına və ya məhsul istehsalının ixtisarına səbəb olur. Bu isə öz növbəsində bütün istehsal amillərinə, o cümlədən nisətən ucuz amilə olan tələbi də aşağı salır (bu təbii ki, yalnız keyfiyyətli resurslar üçün doğrudur, çünki keyfiyyətsiz resurslara tələb hətta arta da bilər). İstehsal həcmi effekti həm də resurslara tələb əyrisinin enən xarakterini də izah etməyə kömək edir.**

**Əvəzləmə və istehsal həcmi effekti demək olar ki, həmişə həmin amil (qiyməti dəyişən) üçün bir istiqamətdə, əvəzləyici amil üçün isə praktik olaraq, əks istiqamətlərdə təsir edir.**

**Əgər iki resurs müstəsna tamamlayıcı resurslardırsa, onlardan birinin qiyməti dəyişdiyi təqdirdə yalnız istehsal effekti müşahidə edilir. Əvəzləmə effekti olmur.**

**Beləliklə, sahibkar resursların elə kombinasiyasını seçmə**

**yə (yəni elə texnologiyanı seçməyə) çalışır ki, bu məhsulun verilmiş istehsalını ən az xərclərlə həyata keçirə bilsin. Buna ən ucuz resursların əldə edilməsi ilə nail olunduğunu güman etmək doğru olmazdı. Sahibkarı təkcə amillərin qiyməti deyil, həm də onların məhsuldarlığı, yəni qoyulan pul vəsaiti vahidinə əldə oluna biləcək gəlir də maraqlandırır. Müxtəlif istehsal amillərinə qoyulan bir rubl (dollar, frank və s.) məhsulun müadil artımını təmin edəndə xərclər minimuma endirilir. Başqa sözlə desək**

**$MP_L/P_L = MP_K/P_K$, burada L - əmək, K - kapitaldır.**

**Əgər, tutaq ki, iş qüvvəsinə qoyulan bir rubla, kapitala qoyulan bir rubldan məhsulun daha çox artımına nail oluna bilərsə, onda hər iki resursa qoyulan pulun eyni məhsuldarlıq dərəcəsi olana qədər daha çox əmək və daha az kapitaldan istifadə olunmalıdır. Maraqlıdır ki, marjinalist nəzəriyyəsinin nəticələri K.Marksın kapitalın özünün hər bir vahidindən dəzgaha, xammal və ya iş qüvvəsinə qoyulmasından asılı olmayaraq eyni qazanc gətirəcəyini gözlədiyi barədə məlum müddəası ilə müəyyən qədər üst-üstə düşür.**

**Yuxarıdakı düsturu bir qədər başqa şəkildə də yazmaq olar:**

$$MP\ JMP_K = P_L/P_K-$$

**Ola bilər ki, resursların bir neçə kombinasiyası xərcləri eyni səviyyədə azaltmağa imkan verir. Hansı varianta üstünlük vermək lazımdır? Bu halda əlavə seçim meyarları tətbiq etmək lazımdır. Bu, məhsulun verilmiş istehsalının meyarları ola bilər. Bu halda firma xərclərinə görə müadil olan resurs kombinasiyalarından əmtəənin tələb olunan həcmdə istehsalını təmin edənini seçir. Digər mühüm meyar mənfəətin maksimallaşdırılmasıdır. Ayrıca götürülmüş resurs üçün mənfəətin istehsal amilindən əldə olunan son hədd gəlirinin bu amilin qiymətinə bərabər olduqda maksimallaşması doğrudur. Bu yanaşma çoxlu sayda amil istifadə olunanda tətbiq**

**edilə bilər: hər bir resursun tətbiqini amildən əldə olunan son hədd gəliri onun qiymətinə bərabər olana kimi artırmaq lazımdır:**

$$MRP_L = P_L. MRP_K = P_K\text{-}$$

**Bu fikri başqa cür $MRP_L/P_L = MRP_R/P_K = 1$ düsturu şəklində də yazmaq olar.**

**Marjinalist nəzəriyyəsi bu nəticəni aşağıdakı kimi şərh edir: rəqabət bazarlarında resursların son hədd məhsuldarlığı gəlirlərin cəmiyyətdə amillərə görə bölgüsünün əsasında durur. Resursun satışı onun sahibi üçün amilin qiymətinə bərabər gəlir təmin edir. Resursun qiyməti də öz növbəsində resursun məhsuldarlığı ilə müəyyən edilir və istehsal amilindən əldə edilən son hədd gəlirinə bərabərdir.**

**Son hədd məhsuldarlığı nəzəriyyəsinin geniş yayılmasına baxmayaraq onun çoxlu tənqidçiləri olub və indi də var. Birincisi, heç bir sahibkar "istifadə olunan istehsal amilinin əlavə vahidi ilə yaradılan məhsuldan əldə olunan son hədd gəliri" (MRP) terminindən demək olar ki, istifadə etmir (bəlkə də, heç bilmir). Sahibkarlar dərslikdəki qanunlarla o qədər də tanış deyillər və öz fəaliyyətlərini bir qədər başqa istəklərindən çıxış edərək tənzimləyirlər.**

**İkincisi, bir istehsal amilinin tətbiqini digərini dəyişmədən artırmaq mümkün olan hədlər çox kiçikdirlər və həmişə mümkün olmurlar. Hətta iqtisadi nəzəriyyə ilə tanış olmayan adama da aydındır ki, əgər makinaçılıq bürosunda 10 yazı makinası varsa, bir növbədə 10 makinaçı olmalıdır. Bu halda son hədd məhsulu makinaçıların sayının 1-dən 10-a kimi artması zamanı artacaq, amma on birincinin son hədd məhsulu sıfır olacaq. Qrafikdə əyrinin aşağı enən qolu olmayacaqdır.**

**Üçüncüsü, misal üçün iş qüvvəsi qismində resursu nəzərdən keçirək. Hətta formal məntiq nöqteyi-nəzərindən də aydındır ki, yalnız sonuncu (hədd) işçi özünün yaratdığı əlavə**

məhsuldan əldə edilən son hədd gəlirinə bərabər əmək haqqı (aldığı resursun qiymətini) alır. Bütün digər işçilər də belə əmək haqqı alır: bu, bir tərəfdən əmək bazarının rəqabət təbiətindən, digər tərəfdən formalaşmış kollektiv əmək müqavilələri təcrübəsindən irəli gəlir. Bununla yanaşı, son hədd işçilərindən başqa qalan bütün işçilər onların istehsal etdiyi məhsulların son hədd gəlirlərinin dəyərində ifadə olunan məhsuldarlığa malikdirlər və bu onların aldıqları əmək haqqından yüksəkdir (şək. 22.6).




**Şəkil 22.6. Əmək haqqının bazar tarifi ilə işçilərin məhsuldarlığının nisbəti**

Belə çıxır ki, birindən başqa bütün işçilər ədalətli əmtəə mübadiləsi həyata keçirmir, onlara "əskik verilən məbləğ" isə sahibkarın iqtisadi mənfəətinin mənbəyidir. Nə qədər qəribə görünsə də, marjinalist nəzəriyyə bununla marksizmin muzdlu əməyin kapital tərəfindən istismarı haqqında əsas tezisinin haqlılığını dolayısı ilə təsdiq edir. K. Marksın nəzəriyyəsinə görə, sahibkar gəliri yalnız muzdlu işçi tərəfindən yaradılan dəyərin onun özünün iş qüvvəsi dəyərindən çox olması sayəsində mümkündür. Başqa sözlərlə, işçi özünün əmək haqqı şəklində aldığından artıq dəyər yaradır. Marks bu fərqi izafi dəyər adlandırıb.

Maraqlıdır ki, kapitalın mənfəəti işçiyə "əskik verilən

**məbləğ" hesabına alması faktını müasir Qərb iqtisadi nəzəriyyə dərsliklərinin çox az qismi qeyd edir. Müəlliflərin çoxu marjinalist nəzəriyyəsinin daxili ziddiyyətini görməməyə çalışır.**

**İstehsal amillərinə qiymət qoyulmasının daha ümumi məsələlərini nəzərdən keçirdikdən sonra əmək, kapital və torpaq bazarına xas olan xüsusiyyətlərin öyrənilməsinə keçək.**

## *§2. Əmək və əməyin qiyməti*

**Bəşər cəmiyyətinin əsas həyat fəaliyyəti əməkdir. Əmək, təbiət materialları və bütün ətraf aləmi insanın və cəmiyyətin tələblərinə uyğunlaşdıraraq insan və təbiət arasında maddələr mübadiləsində vasitəçilik edir. Heyvanat aləminin həyat fəaliyyətindən fərqli olaraq insan əməyinin aşağıdakı spesifik xüsusiyyətləri var.**

**Əmək məqsədyönlüdür. İstənilən istehsal insan tərəfindən qoyulan müəyyən məqsədə xidmət edir. İşə başlamazdan əvvəl ən savadsız icraçı da xəyalən hərəkətlərinin ardıcıllığını düşünür və plan qurur.**

**■ İnsanın əməyi ictimaidir. Bu, o deməkdir ki, Robinzon hətta boş, kimsəsiz adada təkbaşına çalışanda belə təkcə cəmiyyətin digər üzvlərinin düzəltdiyi bəzi alət və avadanlıqlardan deyil, həm də ən əsası bəşəriyyətin topladığı istehsalat təcrübəsi, texnologiya və biliklərdən istifadə edirdi.**

**■ İnsan əməyi yaradıcı xarakterlidir, çünki onun son, əsas məqsədi nemət istehsalıdır.**

**■ Nəhayət, əməyin ən mühüm xüsusiyyəti əmək aləti yaratmaq qabiliyyətidir.**

**İnsan əmək prosesində təkcə ətraf aləmi deyil, həm də öz daxili təbiətini dəyişir, öz iş qüvvəsini, yəni əmək qabiliyyətini reallaşdırır: o, fiziki və əqli cəhətdən inkişaf edir, yeni biliklər qazanır, onun dili yeni anlayışları əks etdirir. Beləliklə, əməyin insanı yaratdığını və onu inkişaf etdirməyə davam etdiyini söyləmək olar.**

**Yuxarıda qeyd edildiyi kimi, əmək prosesinin sadə məqamları canlı əməyin Özü, əmək cisimləri və vasitələridir. Əmək prosesinin son nəticəsi nemət yaradılmasıdır.**

**Əmək prosesində insan təkcə təbiətlə deyil, həm də digər insanlarla qarşılıqlı əlaqəyə girir. İqtisadçıları maraqlandıran münasibət ~ istehsal vasitələri üzərində mülkiyyət, mübadilə, bölgü və son məhsulun mənimsənilməsi ilə əlaqədar olan ictimai istehsal münasibətləridir. İstehsal münasibətləri əmək prosesinin ictimai formasıdır. Eyni əmək prosesi müxtəlif ictimai-tarixi formalarda baş verə bilər: buğdanı qul, təhkimli kəndli, muzdlu işçi, azad fermer yetişdirə bilər. Bütün hallarda buğda eyni olacaq. Əmək münasibətlərinin xarakteri və işçinin istehsal vasitələrinə münasibətinin xarakteri bir-birindən fərqlənir. Bu münasibətlərin xarakteri nə ilə müəyyən edilir? Marksizm nəzəriyyəsinə görə istehsal münasibətləri cəmiyyətin məhsuldar qüvvələrinin inkişaf səviyyəsi və xarakteri ilə şərtlənir.**

**İngiltərədə feodalizmdən kapitalizmə keçidin başlanğıcını göstərən ilk sənaye inqilabından başlayaraq və hazırda da bütün dünyada əməyin muzdlu forması üstünlük təşkil edir. Bu kateqoriyanı daha müfəssəl şəkildə nəzərdən keçirək. Əgər aşağıdakı şərtlər yerinə yetirilərsə, əmək muzdlu olur:**

- **işçi şəxsən azad olmalıdır;**
- **işçinin öz istehsal vasitələri olmamalıdır.**

**Bunlar olmayanda yaşamaq üçün vəsait əldə etməyin yeganə yolu öz iş qüvvəsini satmaq olur, özü də həmişəlik yox, müvəqqəti, əgər işçi iş qüvvəsini həmişəlik satsaydı, qula çevrilərdi.**

**Diqqət yetirək: marksizm iş qüvvəsinin satılması amilindən çıxış edir, lakin digər nəzəriyyələrin çoxu işçinin öz əməyini satdığı fikrindədir.**

**Marksın dəlillərinə nəzər salaq. Əmək əmtəə ola bilməz, çünki istehsal prosesinə kimi o hələ mövcud deyil. Əmək prosesi işə götürmək haqqında müqavilə bağlandıqdan sonra başlayır. Dəyər özü əmək məsrəfləri ilə müəyyən edildiyin**

**dən əmək dəyərə malik ola bilməz (bir anlayışı o birinin köməyilə müəyyən etmək olmaz, tavtologiya alınır). Nəhayət, Marks dəlilləri sonuncudan başlayaraq tətbiq edir. Tutaq ki, əmək əmtəə ola bilər. Əgər o, öz dəyərinə görə satılırsa və işçi öz əməyinin tam ekvivalentini alırsa, sahibkarın işçini muzdla tutmasının mənası itir, mənfəət də itir. Əgər fərz etsək ki, əməyə dəyərindən az pul ödənir (sahibkarın mənfəəti olsun deyə), bu dəyər qanununu, bazar mübadiləsinin ekvivalentliyi qanununu pozur.**

**K.Marks əməyin deyil, əmək qabiliyyətinin satıldığını əsaslandıraraq iş qüvvəsinin əmtəə kimi xarakteristikasını verir. İş qüvvəsinin müəyyən dəyəri və istehlak dəyəri (faydalılıq) var.**

**İş qüvvəsinin dəyəri iş qüvvəsinin təkrar istehsalına lazım olan ictimai zəruri vaxtla müəyyən edilir. Bəs iş qüvvəsinin təkrar istehsalı nə deməkdir? Bu işçiyə və onun ailəsinə öz həyat fəaliyyətinin və əmək qabiliyyətinin normal, hətta daha yüksələn səviyyədə saxlamaq üçün tələb olunan bütün nemətləri, əmtəə və xidmətləri təkrar istehsal etmək deməkdir. Beləliklə, iş qüvvəsinin dəyəri onun təkrar istehsalı üçün zəruri olan həyat vəsaitlərinin dəyəri kimi müəyyənləşdirilir.**

**İş qüvvəsi dəyərinin tarixi, milli, sosial və mədəni ünsürləri var. Məsələn, müxtəlif dövrlər, müxtəlif ölkələr və xalqlar üçün orta ailənin tələbatı haqqında anlayışlar heç də eyni deyil: isti iqlimdə isti paltar və yaşayış yerinin qızdırılması tələb olunmur, Avropa və Asiyada sosial və mədəni tələbatlar da fərqlidir.**

**Əgər iş qüvvəsinin dəyəri yalnız həyatda qalmaq üçün kifayət edən fizioloji minimuma qədər enirsə, iş qüvvəsi yalnız pisləşən yönümdə təkrar istehsal ediləcək. Belə ki, XX əsrin 90-cı illərində Rusiyada əmtəə və xidmətlərin minimal istehlak zənbilinə yalnız 19, ABŞ-ınkına isə 300-dən çox ad daxil edilmişdi. Bununla yanaşı ABŞ-dakı minimal əmək haqqı bu əmtəə və xidmətlər zənbilini almağa imkan verdiyi**

**halda, Rusiyada imkan vermirdi. Rusiyanın hazırda artıq öz ümumi iş qüvvəsinin keyfiyyətini də, kəmiyyətini də itirməsi təəccüblü deyil.**

**İş qüvvəsinin əmtəə kimi İstehlak dəyərinin xüsusiyyəti maraqlıdır: iş qüvvəsi Öz dəyərindən daha yüksək dəyər istehsal etməyə qadirdir. Marksa görə bu fərq elə sahibkar tərəfindən mənimsənilən, istismarın əsasında duran izafi dəyərdir. İş qüvvəsinin bu xüsusiyyəti ictimai əmək məhsuldarlığının artırılması ilə şərtlənir. Həqiqətən də, hələ ibtidai icma quruluşunda ictimai əmək bölgüsünün yaranması ilə izafi məhsulun istehsalı mümkün oldu. Başqa sözlə desək, insan özünün qidalanması üçün lazım olduğundan çox işləyə bilər. Texniki tərəqqi əsrlər boyu, əmək məhsuldarlığının artırılması hesabına zəruri iş vaxtının, yəni cəmiyyətdə işçilərin həyat fəaliyyətinin təmin edilməsi üçün tələb olunan vaxtın azalmasına və izafi məhsulun yaradılması üçün istifadə olunan izafi vaxtın artırılmasına səbəb oldu. İzafi məhsul yarandığı gündən onun mənimsənməsi sualı ortaya çıxmışdır. Bu sualın həlli üsulu ictimai, ilk növbədə sinfi münasibətlərin bütün məcmusunu müəyyən edirdi.**

**Əmək zəruri və izafiyə feodalizm dövründə daha dəqiq bölündü. Bu bölgü həm zamanda, həm də məkanda müşahidə olunurdu: təhkimli kəndli müəyyən günlərdə mülkədarın sahəsində işləməyə borclu idi (izafi əmək və məhsul), qalan vaxt isə, o, öz torpaq payında çalışa bilərdi (zəruri əmək və məhsul).**

**Quldarlıq dövründə qulun əməyi zahirən bütünlüklə izafi kimi görünürdü, məhsulun hamısı quldara, qidalanması üçün qula “öz” məhsulundan ayıran qul sahibinə məxsus idi.**

**Muzdlu əmək zahirən tam azad və zəruri kimi çıxış edir. Əmək və məhsulun zəruri və izafiyə bölgüsü iş qüvvəsinin alqı-satqı formasında gizlənir. Bununla yanaşı zəruri əmək işçinin aldığı əmək haqqının əsasında durur. İzafi əmək işçidən yayınıb istehsal vasitələrinin sahibi tərəfindən mənimsənilir və onun mənfəətini təşkil edir. Zəruri və izafi əməyin**

**məhz faizlə ifadə olunan nisbəti muzdlu iş qüvvəsinin istismar dərəcəsini əks etdirir, Marksın ehtimalına görə bu göstərici XIX əsrin ortaları üçün 100 % təşkil edirdi. Bu, iş gününün iki bərabər hissəyə bölünməsi demək idi: zəruri və izafi iş vaxtı. Müxtəlif ölkələrin iqtisadçılarının hesablamalarına görə bu göstərici XX əsrin sonunda 300% -ə kimi artdı. Səkkiz saatlıq iş günü üçün bu zəruri iş vaxtının 2, izafinin isə 6 saat təşkil etməsi deməkdir.**

**İstismar deyəndə K.Marksın izafi məhsulun yaradılmasının özünü yox, onun bilavasitə istehsalçıdan təcrid edilməsinin xüsusi formasını başa düşdüyünü dərk etmək vacibdir. Məsələn, bir çoxları həqiqətən də başa düşə bilmirlər ki, əgər sosializmdə müəssisə izafi məhsul yaradırsa, niyə sosializmdə insanın insanı istismar etməsi yoxdur? Bəli, izafi məhsul yaradılır, yoxsa cəmiyyət indiyə kimi daş baltadan istifadə edərdi. Sosializmdə izafi əməyin mənimsənməsinə gəldikdə isə, o, hər bir işçi tərəfindən ayrılıqda, xüsusən də işçi olmayanlar tərəfindən mənimsənilmir. Əmək bütövlükdə assosiasiya olunmuş kimi çıxış edir və bütün izafi məhsul ictimai mülkiyyətdə olub, ictimai ehtiyaclara sərf olunur. Bu zaman insanın dövlət tərəfindən istismarı mümkündürmü? Əgər dövlət izafi məhsulu həyat keyfiyyətinin yüksəldilməsi üçün istifadə etmirsə, əgər izafi məhsul cəmiyyətin real maraqları əvəzinə dövlət maşınının və bürokratik elitanın maraqlarına xidmət edirsə, istismar müəyyən qədər mümkündür.**

**Sual yaranır: işçi öz əməyinin bütün məhsulunu ala bilərmi? Bu sual XIX əsrdə və XX əsrin əvvəllərində geniş müzakirə edilirdi. Sual hərtərəfli tədqiq olunsa da, o, XX əsrin 80-ci illərinin ikinci yarısında, “yenidənqurma”mn gedişində “demokratlar” işçiləri dövlətin istismarından qorumada başlayanda SSRİ-də yenidən qaldırıldı, özəlləşdirmənin gedişində demək olar ki, bütün xalq əmlakı vətəndaşlara bərabər paylandı, düzdür, natura formasında yox, vauçer formasında. Bəs bir neçə il sonra, bu nə ilə nəticələndi? Milli**

**təbəqənin əlində cəmləndi. İşçilər ac qaldılar; orta nominal əmək haqqının bir adam üçün zəruri olan yaşayış minimumunu güclə keçməsi bir yana qalsın, bu əmək haqqı da aylarla, hətta illərlə ödənmirdi. Bədnam istismarçı dövlətə gəldikdə, onun nə maddi fondları, nə ölkənin müdafiə qabiliyyətini saxlamaq, fövqəladə halların (qəzaların, təbii fəlakətlərin) nəticələrini aradan qaldırmaq, əlilləri, çoxuşaqlı ailələri, qocaları saxlamaq, mədəniyyətin, elmin, təhsil və tibbin inkişafı üçün maliyyə vəsaitləri qalmadı. Bu cür nəticələri əvvəlcədən görmək olardımı? Şübhəsiz, çünki K.Marks "Qota proqramının tənqidinə dair", V.l.Lenin isə "Dövlət və inqilab" əsərində nə üçün heç vaxt və heç yerdə qapalı natural təsərrüfatdan başqa işçinin izafi məhsulu sığorta ehtiyatlarının formalaşmasına, ictimai istehlak fondlarına, istehsal və sosial sahənin inkişafına yönəltmədən öz əməyinin məhsulunu bütünlüklə ala bilmədiyini ətraflı şəkildə tədqiq etmişdilər.**

**Əməyə görə əvəzin və ya əmək haqqının ödənməsi məsələsi əmək haqqı nəzəriyyəsinin əsasında durur. Marksist yanaşma digərlərindən əsaslı surətdə fərqlidir. K.Marksın nəzəriyyəsinə görə, zahirən mövcud olmayan əmtəə - əmək üçün pul Ödəndiyi görünsə də əslində əmək haqqı "iş qüvvəsi" əmtəəsinə ödənən puldur. Əks yanaşma iş qüvvəsi və əməyi ayırmır, ona görə də əmək haqqını əmək üçün ödənən pulla eyniləşdirir. Bu cür yanaşma rahatdır, çünki əgər bütün əməyin haqqı Ödənsə, onda istismar haqqında sual özü- özünə mənasını itirir. Beləliklə, əmək sahibinin əmək haqqı və kapital sahibinin mənfəəti qarşılıqlı təqdim edilən xidmətlər, istehsal amilləri - əmək və kapitalın hər iki tərəf üçün mənfəətli mübadiləsinə görə ödənilən pul kimi təqdim edilir. Bu yanaşma çərçivəsində əmək haqqı probleminə müxtəlif məktəblərin iqtisadçıları tərəfindən hazırlanmış çoxlu sayda xüsusi nəzəriyyələr var.**

**Fiziokratların, həmçinin də A.Smit və D.Rikardonun mövqeyi sonralar K.Marksın müdafiə etdiyi mövqeyə yaxın idi.**

Klassik məktəbin nümayəndələri əməyin dəyərini və qiymətini fərqləndirirdilər. Qiymət bazarda tələb və təklifin təsiri altında formalaşan əmək haqqı kimi şərh edilirdi. Əməyin dəyəri işçinin və onun ailəsinin normal yaşaması üçün lazım olan xərclərlə müəyyən edilən "zəruri qiymət" (fiziokratlar) və ya "təbii qiymət" (A.Smit və D.Rikardo) kimi xarakterizə olunurdu. Bazar qiyməti həmişə təbii qiymət ətrafında artıb-azalır. Mənfəətə, faiz və rentaya gəldikdə isə klassiklər onlan işçinin əmək haqqından tutulmlar hesab edirdilər.

Sonrakı nəsil iqtisadçılar, xüsusən də J.B.Sey, N.Senior, F.Bastia klassik nəzəriyyəni bayağılaşdırdılar və əmək haqqını kapital və torpağın yaratdığı mənfəət və renta kimi, istehsal amillərinin birindən - əməkdən alınan ədalətli gəlir kimi qiymətləndirirdilər.

Əmək haqqının miqdarı barəsində də iqtisadçılar arasında həmrəylik olmayıb və yoxdur. Fiziokratlar Smit, Rikardo və başqaları yaşayış vasitələri minimumu nəzəriyyəsinin tərəfdarları idilər. Nəzəriyyənin adı onun əsas tezisini açıqlayır: əmək haqqının miqdarı yaşayış vasitələri minimumu dəyərindən artıq olmamalıdır. Fikirlərini əsaslandırmaq üçün əmək təklifinin ona olan tələblə müqayisədə daha çox olması, torpağın məhsuldarlığının azalması, əhalinin artımı və s. istifadə edirdilər. Yaşayış vasitələri minimumu nəzəriyyəsi sonralar əmək haqqının "dəmir qanun"unu elan edən və əmək haqqının artırılması üçün mübarizənin faydasızlığını əsaslandıran alman sosialisti F.Lassalın əsərlərində inkişaf etdirildi.

Digər qrup iqtisadçılar (T.Maltus, C.Mill, t.Bentam, Mak Kullox və b.) işçi fondu nəzəriyyəsinin tərəfdarlarıdır. Nəzəriyyəyə görə işçilər üçün təbiətin özü tərəfindən məhdudlaşdırılan müəyyən həyat vəsaitləri fondu mövcuddur: ictimai sərvətin bu hissəsinin sərhədləri aradan qaldırıla bilməz, bu səbəbdən də əmək haqqının artırılması üçün mübarizə aparmaq faydasızdır. Bu nəzəriyyə tam əsassız olduğundan artıq XIX əsrin sonlarına doğru məşhurluğunu

**Müasir şəraitdə son hədd məhsuldarlığı nəzəriyyəsi, sosial nəzəriyyə və tənzimlənən əmək haqqı nəzəriyyəsi daha geniş yayılıb.**

**Son hədd məhsuldarlığı nəzəriyyəsi bütün istehsal amillərinin məhsuldarlığa malik olması, dəyişən amil vahidləri artdıqca bu məhsuldarlığın azalması və alınan amil gəlirlərinin onların son hədd faydalılığına bərabər olması fikrindən çıxış edir. Bundan belə nəticə çıxardılır ki, məşğulluğun artması əməyin son hədd məhsuldarlığının azalmasına və əmək haqqının azalmasına səbəb olur.**

**Əmək haqqının sosial nəzəriyyəsi rus iqtisadçısı, leqal marksist hesab edilən M.t.Tuqan-Baranovskinin adı ilə bağlıdır. Bu nəzəriyyəyə görə əmək haqqı nəinki əməyin məhsuldarlığı ilə, həm də sosial qüvvələrin (işçi və sahibkarların) nisbəti ilə müəyyən edilir. Əməyin məhsuldarlığı cəmiyyətin xalis məhsulunun həcmini, qüvvələr nisbəti isə bu məhsulun müxtəlif siniflər arasında hansı nisbətdə bölündüyünü müəyyən edir. İşçilərin sosial qüvvəsi nə qədər böyük olarsa, onlar cəmiyyətin xalis məhsulunun o qədər böyük hissəsini ala bilər. Beləliklə, belə bir nəticəyə gəlinir ki, əməyin məhsuldarlığının artmasında hamı maraqlıdır: həm sahibkarlar, həm də işçilər. Bu konsepsiya XX əsrdə yayıldı (bax, məsələn, C.Streçinin ‘‘Müasir kapitalizm” kitabı), lakin o əməyin məhsuldarlığının artımının əmək haqqı artımından dəfələrlə yüksək olduğunu göstərən rəsmi statistik məlumatlara uyğun gəlmir, deməli, işçilərin aldığı “piroq pay” nisbətən azalır,**

**XX əsrdə tənzimlənən kapitalizm nəzəriyyəsinin (C.M.Keyns və b.) yayılması ilə əlaqədar olaraq tənzimləmə ideyası əmək haqqına da şamil edilməyə başladı. İqtisadi ədəbiyyatda sərt gəlir siyasəti zərurəti haqqında xeyli sayda əsaslandırmalar peyda olur. Təcrübədə bu tövsiyələr əmək haqqının dondurulması (müəyyən müddət ərzində artımın qadağan edilməsi) siyasəti, əmək haqqı artımının istiqamətləri (məsələn, əmək haqqı artımı istehlak malları qiymətlərinin rəsmi indeksini ötməməlidir) siyasəti şəklində həyata keçirildi**

*. Takmil r9qah9t Ş9raitində əm9k hazannda qiyniBtin. formalaşmasının xüsusiyyatlsri*

**Əmək bazarı və ya iş qüvvəsi bazarı üçün istehsal amilləri bazarları haqqında yuxarıda deyilənlərin ümumiyyətlə hamısı doğrudur. Bununla yanaşı, hər şeydən əvvəl əmək təklifinə aid bəzi xüsusiyyətləri qeyd etmək lazımdır. Sonuncu üç səviyyədə nəzərdən keçirilə bilər: ayrıca işçi tərəfindən əmək təklifi; fərdi sahibkara əmək təklifi; əməyin konkret növünə bazar təklifi.**

**Fərdi əmək təklifi öz növbəsində əməklə şərtlənən qurbanları xarakterizə edən daxili xərclərlə müəyyən edilir: iş xoşagəlməz, hətta sağlamlıq üçün zərərli ola bilər; iş asudə vaxtın qısalmasına səbəb olur. Hər bir əlavə iş saatı əlavə və ya son hədd qurbanlarını şərtləndirir, yəni müvəqqəti xərclər artır. Əməklə şərtlənən qurbanların əyrisi müsbətə meylli olur (şək. 22.7). Elə bu əyri də əslində fərdi əmək təklifi olacaq, çünki əməklə əlaqədar olan narahatçılıqlar nə qədər çox- dursa, əmək haqqı da o qədər yüksək olmalıdır ki, insanlar işləməyə razı olsunlar (şək.22.8).**

**Ayrıca işçinin əmək təklifi əyrisi heç də həmişə artan olmayacaq. MüƏ3TTən hallarda işçinin təklif etdiyi əmək saatları (günləri və s.) əmək haqqı tarifinin artırılmasına baxmayaraq, azala bilər (şək.22.9). Bu cür davranışın mexanizmini başa düşmək üçün əmək haqqı tarifinin artımının iki effektini gözdən keçirək: əvəzləmə və gəlir effekti.**

**Əvəzləmə effekti - insanları daha çox işləməyə təhrik edir, çünki əmək haqqı dərəcələrinin artımı, asudə vaxtı iqtisadi cəhətdən əlverişsiz edir. Gəlir effekti - daha yüksək əmək haqqı insanın rifahını yüksəldir, o öz asudə vaxtını daha yüksək qiymətləndirməyə başlayır və ən əsası, həyat səviyyəsini aşağı salmadan özünə daha çox asudə vaxtı rəva görür. Hansı effektin üstünlük təşkil etməsindən asılı olaraq işçi tərəfdən əmək təklifi ya artacaq, ya da azalacaq. Adətən əmək haqqı dərəcəsi aşağı olanda əvəzləmə effekti üstünlük**

**təşkil edir, yəni insanlar daha çox işləməyə can atırlar.**

**Əgər fərdi sahibkarın qarşılaşdığı əmək təklifi nəzərdən keçirilsə, tanı rəqabət şəraitində bu təklif tamamilə elastik olacaq. Bu fəslin əvvəlində qeyd edildiyi kimi, bu təklif qrafik olaraq X oxundan əmək haqqının bazar dərəcəsinə müvafiq hündürlükdə olan üfüqi xətdən ibarət olacaq. Sahibkar işçiləri işə götürərkən qiymətləri hazır şəkildə qəbul edən kimi çıxış edir, yəni əmək haqqını tarazlı bazar səviyyəsində ödəyir.**




**Şəkil 22.7. Əməyin son hədd narahatlıqları**




**Şəkil 22.8. Fərdi təklif**

**Əməyin konkret növünün bazar təklifinə gəldikdə isə, bu halda əyri sırf artan xarakter alacaq, çünki əmək haqqının daha yüksək dərəcələri bu işi görməyə hazır olan çoxlu sayda insan cəlb edəcək. Bu zaman əmək haqqının baza dərəcəsinin dəyişməsi təklif əyrisi boyu hərəkətlə müşayiət olunur, başqa amillərin dəyişməsi isə bütün əyrinin sağa və ya sola hərəkətini şərtləndirir.**




**Şəkil 22.9. Ayrıca işçinin əmək təklifi əyrisi**

**Təklif əyrisi əmək haqqının hansı minimal səviyyəsində bu sayda işçinin göstərilən işi yerinə yetirməyə hazır olduqlarını göstərir. İşçiləri başqa fəaliyyət sahəsinə keçməkdən saxlayan bu kimi qazanclar transfer adlanırlar. Onlar qrafik olaraq yuxarıdan təklif əyrisi, soldan və aşağıdan koordinat oxları, sağdan əmək bazarının tarazlıq nöqtəsindən keçən və işçilərin tarazlıq miqdarını göstərən şaquli xətlə məhdudlaşdırılmış sahə kimi təqdim olunurlar (şək.22.10).**

**Təkmil rəqabət şəraitində bütün işçilər qiyməti hazır qəbul edən olduqlarından əmək haqqı səviyyəsi hamı üçün eyni olacaq. Bu zaman son hədd işçi istisna olmaqla, bütün qalanlarm hamısı əslində razı ola biləcəkləri əmək haqqı ilə müqayisədə bir qədər əlavə pul alacaqlar. Bu əlavə qazanc və ya əmək haqqının real olaraq almmış dərəcəsi ilə transferlər arasındakı fərq işçilərin aldığı iqtisadi renta adlaıur (şək.22.10).**




Şəkil 22.10. İşçinin transfer qazancları və iqtisadi renta

**İqtisadi rentanın ölçüsü əmək təklifinin elastikliyindən asılıdır. Məsələn, əgər bu işçi nadir hadisədirsə (məsələn, dünya şöhrətli müğənni) təklif əyrisi demək olar ki, şaquli olacaq, yəni bütün qazanc yalnız iqtisadi renta olacaq.**

**Əmək təklifinin elastikliyi vaxt dövründən, çətinlik və istehsal amilinin mobilliyi ilə (məsələn, işçilərin mobilliyi) bağlı xərclərdən asılı olur. Əgər qısamüddətli dövrdə müəyyən ixtisaslı kadrların çatışmazlığından söhbət gedirsə, bu halda yaranan iqtisadi renta kvazirent adlanır və uzunmüddətli dövrdə kadrların yenidən hazırlanması və ya digər rayonlardan işçi cəlb edilməsi sayəsində asanlıqla aradan qaldırıla bilər.**

### *§4. Qeyri-takmil r9qabat şəraitinda amak bazarında qiymatin amala gəlmasi*

**Qeyri-təkmil rəqabət müxtəlif formalarda təzahür edə bilər. Bir neçə səciyyəvi halı ardıcıl nəzərdən keçirək.**

**Əmtəə və xidmətlər bazarında İnhisar. Tutaq ki, hazır məhsul bazarında inhisarçı firma resurslarını təkmil rəqabət bazarında alır. Onda firma hazır məhsul bazarında qiyməti təyin edən, resurslar bazarında isə qiyməti hazır qəbul edən olur. Bu halda hazır məhsulun inhisar qiyməti əlavə məhsul**

**vahidindən alınan son hədd gəlirindən yüksək olacaq. Deməli, resurslar bazarında əlavə resurs vahidinin istifadə edilməsindən alınan son hədd məhsulunun qiyməti bu halda yaranan son hədd gəlirindən yüksək olacaq (şək.22.11).**

**22.11-ci şəkil aşağıdakıları göstərir. Birincisi, inhisarçı təkmil rəqabət bazan ilə müqayisədə məhsul istehsalı həcmini aşağı saldığından onun resurslara tələbatı da aşağı olacaq, deməli, işçilərin məşğulluq səviyyəsi və ya digər resurslardan istifadə də təkmil rəqabətdə olduğundan aşağı olacaq.**

**İkincisi, əgər təkmil rəqabətdə son hədd işçisi üçün marjinalist nəzəriyyə heç olmasa formal ekvivalent mübadiləsi görüntüsünü nəzərdə tutursa (MRP=VMP=$P_L$=W), əmtəə və xidmətlər bazarında inhisar olanda hətta bu son hədd işçisi də yaratdığı son hədd məhsulunun dəyərindən də aşağı əmək haqqı alır (W = MRP, MRP<VMP, deməli, W<VMP). Başqa sözlə, sahibkar üçün onun iqtisadi mənfəətini təşkil edən xərcsiz qazanc yaranır.**




**Şəkil 22.11. Hazır məhsul bazarında inhisarçı firma üçün rəqabətli əmək bazarında tarazhq**

**Əmək bazarında monopsoniya. Əgər bazarda cəmi bir alıcı varsa, bu hal alıcının inhisarı və ya monopsoniya adlanır. İstehsal amili, xüsusilə də əmək bazarında monopsoniya**

**halları kifayət qədər tez-tez olur. Monopsoıüya da istehsalçının inhisarı kimi həm ümumilli, həm də yerli, regional miqyaslarda mövcud ola bilər. Sonuncuya xüsusilə tez-tez təsadüf olunur. Belə ki, bütün həyatları bir müəssisənin (məsələn, şaxtanın, kimyəvi, maşınqayırma və ya toxuculuq kombinatının) işinə əsaslanan şəhərlər az deyil. Belə müəssisə yerli bazarda demək olar ki, yeganə işə götürən olur və onun bağlanması bütün şəhərin mövcudluğunu təhlükə altına alır.**

**Təkmil rəqabət firmasından fərqli olaraq monopsonistə əmək təklifinin əyrisi, yəni ümumi bazar təklifinin əyrisi qarşı durur. Bu halda firma əlavə işçi götürmək üçün əmək haqqını artırmağa məcbur olacaq. Zərurətdən doğan bu artım təkcə son hədd işçisinə deyil, bütün əvvəldən işə götürülənlərə də aid olacaq. Nəticədə əlavə işçiyə çəkilən son hədd xərcləri yeni, yüksək əmək haqqı səviyyəsindən yüksək olacaq (MRC>W). Qrafikdə (şək.22.12) bu son hədd xərclərinin əyrisinin orta xərclərin əyrisindən (mahiyyət etibarı ilə əmək təklifi əyrisindən) yuxarıdan keçməsi şəklində əksini tapacaq.**




**WcK " takmil rəqabət şəraitində əmək haqqı W„ - monopsonlya şəratində əmək haqqı E - inhisarçı tarazlığı**

## Şəkil 22.12. Monopsoniya şəraitində əmək bazarında tarazlıq

**Monopsonçu hansısa qiyməti heç vaxt fakt kimi qəbul etmədiyindən, əməyə tələb əyrisi heç vaxt ona qarşı durmur (məhsul təklifi əyrisinin inhisarçı istehsalçıya qarşı durmadığı kimi). Monopsonçu qiymət təyin edəndir və eyni zamanda əməyin qiyməti və işə götürülən işçilərin miqdarından müəyyən kombinasiyalarından seçim etməlidir. Monopson- çunun davranışının əsas meyarı mənfəətin maksimuma çatdırılmasıdır, deməli o, onun son hədd xərcləri və əlavə işçidən alınan son hədd gəlirlərinin bərabərliyi sabitləşənə qədər işçi işə götürəcək, yəni MRP=MRC. Son hədd xərcləri əyriləri və amildən əldə edilən son hədd gəlirinin əyrisinin kəsişməsi monopsonistin bazar tarazlığını və ona müvafiq məşğulluq səviyyəsini şərtləndirir. Əmək haqqı dərəcəsinə gəldikdə isə, onun səviyyəsi əməyin sahə təklifindən, müəyyən sayda işçilərin göstərilən işi yerinə yetirməyə hazır olduğu transferlərin səviyyəsindən asılı olaraq müəyyən edilir. Qrafikdə bu əmək haqqının səviyyəsidir. Monopsonçu- nun daha böyük dərəcə təklif etməsinin mənası yoxdur, çünki 0 transferə bərabər əmək haqqı səviyyəsinə görə də verilmiş sayda işçi tapacaq. Beləliklə, monopsoniyada əmək bazarında MRC>WM, deməli, MRP>WM- Monopsonçunun işçilərə maaşı az verməsi və onları istismar etməsi faktı aşkardır.**

**Əgər monopsoniya və təkmil rəqabət bazarlarını müqayisə etsək, ikinci halda bazarın tarazlığının sahə təklifinin əyrisi ilə sahə tələbinin əyrisinin (əməkdən əldə edilən gəlirin identik əyrisindən) kəsişmə nöqtəsində başladığını görmək çətin deyil. Bu tarazlığa QCK məşğulluq səviyyəsi və əmək haqqının dərəcəsi uyğun gəlir. Hər iki göstərici monopsoniyada olduğundan yüksək olur. Deməli, monopsonçu həm məşğulluq səviyyəsini, həm də əmək haqqını aşağı salır.**

**İkitərəfli inhisar. Müasir əmək bazarları həmrəy olan işəgötürənlərə qarşı duran kifayət qədər güclü və mütəşəkkil peşəkar həmkarlar ittifaqlarının iştirakı ilə səciyyələnir. Vəziyyəti satıcı (kollektiv müqavilələr bağlayan həmkarlar itti-**

**faqlan) və alıcı (işəgötürən firmalar) inhisarlarının mövcudluğu kimi qiymətləndirmək olar. Bu halda əmək bazarında qiymət necə formalaşır? Vəziyyət xeyli mürəkkəbdir və qarşıdurmanın dəqiq nəticəsini qabaqcadan demək bəzən mümkün deyil. K. Marks bu haqda yazırdı ki, iki hüququn - satıcı hüququ və alıcı hüququnun toqquşması baş verir. Birinci öz iş qüvvəsini mümkün qədər baha satmağa, ikincisi isə mümkün qədər ucuz almağa çalışır. İki hüquq toqquşanda qərar gücə mənsubdur. Və həqiqətən də, tarixi təcrübə göstərir ki, əmək haqqının konkret səviyyəsi həmkarlar ittifaqları və sahibkarların güclərinin nisbətindən asılı olaraq müəyyən edilir.**

**Mücərrəd iqtisadi təhlil qarşıdurmanın dəqiq nəticəsini müəyyən edə bilməz, lakin o, əmək haqqı dərəcəsinin tərəddüd aralıqlarını müəyyən etmək iqtidarındadır (şək. 22.13).**

**Məlumdur ki, əmək haqqı dərəcəsi bir tərəfdən $W_1$ -dən yuxarı qalxa bilməz, çünki bu monopsonistlərin tarazlıq nöqtəsidir, yoxsa, əməyin son hədd xərcləri əməkdən əldə edilən son hədd gəlirlərini ötüb keçməyə başlayacaqdır.**

**Digər tərəfdən əmək haqqı dərəcəsi monopsoniyada mövcud olan səviyyədən aşağı ola bilməz (onsuz da $W_M$ işçilər**




**Şəkil 22.13. Əmək bazarında ikitərəfli monopsoniya**

**üçün ən pis variantdır). Deməli, əmək haqqının konkret səviyyəsi üçün mübarizə elə yuxarıda göstərilən səviyyələr arasındakı intervalda baş verəcək.**

**Həmkarlar bu intervalı daraltmaqda, yəni dərəcənin təkmil rəqabətdəkindən aşağı olmamasında maraqlıdırlar. Qoy bu $W_2$ səviyyəsi olsun. Onda orta və son hədd xərclərinin əyrisi əvvəl üfüqi gedəcək, yalnız MRP əyrisi ilə kəsişdikdən sonra o, iki yüksələn əyriyə bölünür: MRC və AC. Qrafik həmkarlar ittifaqlarının bu halda həm məşğulluq səviyyəsinin ($Q_2$), həm də əmək haqqının ($W_2$) artmasına nail ola biləcəklərini göstərir.**

# XXIII FƏStL. İSTEHSAL AMİLLƏRİ BAZARINDA QİYMƏTİN ƏMƏLƏ GƏLMƏSİ: KAPİTAL BAZARI VƏ TORPAQ BAZARI

*§1.Kapital: ənənəvi və müasir şərhlər.*
*§2.Kapital bazarında qiymətin əmələ gəlməsinin xüsusiyyətləri.*
*§3.Torpaq və torpaq rentası.*
*§4.Torpaq bazannda qiymətin əmələ gəlməsi xüsusiyyətləri.*

## *§1. Kapital: ənənəvi və müasir şərhlər*

**Kapital iqtisadi nəzəriyyənin əsas və ən mürəkkəb kateqoriyalarından biridir. Bu kateqoriyanın əhəmiyyətini birinci növbədə cəmiyyətin tarixi tiplərindən birinin - kapitalizmin və ona mənsub istehsal münasibətləri sisteminin adının ondan götürüldüyündən də görmək olar. Təsadüfi deyil ki, kapital nəzəriyyəsindən söhbət gedəndə ciddi-cəhdlə yalnız nəzəri görüşlər deyil, həm də sosial-sinfi mövqelər müdafiə olunur.**

**Kapital nəzəri və praktik cəhətdən mənfəət anlayışı ilə sıx bağlıdır. Onun əsas məzmunu bundadır və kapitalın bütün elmi yozumları bu məsələdə yekdildirlər. Alimlər bir də onda həmrəydirlər ki, kapital avans edilir, yəni birdəfəlik xərclənmir və dövriyyəyə (sənaye, ticarət, pul) buraxılır ki, sonradan sahibinə qayıtsın və mənfəət şəklində gəlir gətirsin. Müxtəlif iqtisadi məktəblər arasında prinsipial fikir ayrılığı kapitalın təbiətinin və mənfəətin mənbəyinin izahındadır.**

**Kapitalın ən geniş yayılmış təriflərindən birinə görə o, əvvəllər istehsal olunmuş nemətlərdir (manufactured goods). Məsələn, fiziokratlar xammalı və alətləri kapital adlandırırdılar. A.Smit kapitalı toplanmış əmək kimi xarakterizə edir.**

**D. Rikardo kapitala belə tərif vermişdi: cKapital ölkə sərvətinin istehsalda istifadə olunan hissəsidir və əməyi hərəkətə gətirmək üçün zəruri olan ərzaq, paltar, alətlər, xam**

**’ PHKapflo İ^.COH.T.I. M.: rocnoraTHSflaT, 1995. C.86.**

**klassiklərinin fikrincə, hətta ibtidai ovçunun oxu və nizəsi də kapitaldır. Kapital bütün dövrlərə və xalqlara xas olan əbədi kateqoriya kimi nəzərdən keçirilir. Bu, müasir Qərb iqtisadçılarının praktik olaraq hamısının bölüşdüyü mövqedir. Kapitalın əvvəlcə istehsal olunmuş nemət kimi müəyyənləşdirilməsinə demək olar ki, bütün «Ekonomiks» dərsliklərində rast gəlinir.**

**Müasir dövrdə kapitalın daha geniş şərhlərinə rast gəlinir. Məsələn, kapital fiziki və qeyri-fiziki kapitala bölünür. Fiziki kapitala istehsal və qeyri-istehsal tikililəri, maşınlar və avadanlıqlar, xammal və materiallar aiddir. Qeyri-fiziki kapitala misal onun aşağıdakı formaları ola bilər. İnsan kapitalı əvvəlki <cistehsalınd nəticəsidir: təhsil, tərbiyə, əmək vərdişlərinin alınması. Biliklərin alınmasına xərclər gələcəkdə öz sahibinə daha yüksək əmək haqqı, nüfuzlu və maraqlı iş, sosial statusun yüksəldilməsi və s. şəklində müntəzəm mənfəət gətirəcək kapitalı formalaşdıran investisiya kimi nəzərdən keçirilir.**

**Firmanın «təmiz adı» da kapital kimi nəzərdən keçirilə bilər. Firmanın özü və istehsal etdiyi məhsul haqqında müsbət rəy yaratmaq üçün reklama, ictimaiyyətlə əlaqələrin qurulmasına, xeyriyyəçiliyə məsrəflər tələb olunur. Bu məsrəflər sadəcə xərc deyil, firmanın xüsusi kapitalını - onun yaxşı adını formalaşdıran investisiyalardır. Təmiz adın saxlanılması uzun illər ərzində firmanın məhsuluna yüksək tələb, əmtəə dövriyyəsinin artması, kreditlərin daha asan alınması və s. şəklində xeyir verə bilər.**

**Elmi potensial da qeyri-fiziki kapital kimi nəzərdən keçirilə bilər. Belə kapital ETSKİ-nə (elmi tədqiqatlar və sınaq-konstruktor işləmələrinə) investisiyalar nəticəsində yaradılır və artır. Kapitalın belə avanslaşdırılması sonradan məhsuldarlığın və mənfəətin artması, rəqiblərin qabaqlanması və hər hansı bir texnologiya və ya məhsulun inhisarlaşdırılması (bu da inhisar mənfəəti verir) şəklində mütəmadi gəlir gətirir.**

**Bütün şərhlər kapitalın zamanda mövcudlu^nu vurğulayırlar. Vaxt keçdikcə kapital avadanlığın fiziki azalması və ya mənəvi köhnəlməsi nəticəsində qiymətdən düşə (amortizasiyaya uğraya) bilər, özü də mənəvi köhnəlmə yalnız fiziki kapitalın elementlərinə deyil, həm də onun qeyri-fiziki formalarına da aid ola bilir: biliklər, texnologiyalar, nou-haular da eynən köhnələ və qiymətdən düşə bilir. Digər tərəfdən, kapitalın dəyəri vaxt keçdikcə mənbəyi hər şeydən əvvəl mənfəət olan investisiya hesabına arta bilər.**

**Kapitala mənfəətin özü də çox vaxt iqtisadçılar tərəfindən vaxtdan hesablanır. Məsələn, D.Rikardo hesab edirdi ki, «mənfəət kapital kimi yığılır və istifadə oluna bilmədiyi vaxt müddətinin ədalətli əvəzidirs^^**

**Bu mövqeyin özünəməxsus variantı N.Seniorun nəzəriyyəsidir. O, mənfəəti sahibkarın kapitalı şəxsi istehlak üçün sərf etməkdən çəkinmək müqabilində mükafatı kimi şərh edirdi. Lakin bu zaman mənfəətin mənbəyi aydınlaşdırılmamış qalırdı.**

**Mənfəəti sahibkarın kapital dəyəri avanslaşdırmaqla getdiyi riskə görə ödəniş hesab edənlərin fikri də xeyli tipik- dir. Bu zaman yenə də vaxt amili istifadə olunur. Bu konsepsiya daxilində düşüncə məntiqi xeyli sadədir. İnsan adətən gələcək nemətləri indikilərdən daha az qiymətləndirir (əlindəki sərçə göydəki qazdan yaxşıdır). Sahibkar isə riskdən qorxmayaraq, kapitalı avanslaşdınr. Bununla da gələcəyin potensial nemətlərinin indinin nemətlərinə çevrilməsinə rəvac verir. Bu nemətlərin qiymət artımı da riskə gedən sahibkarın mənfəət əldə etməsinə əsas olur. Beləliklə, mənfəətin əsasında nemətin psixoloji qiymətləndirilməsi prinsipi durur.**

**Belə bir fikir də geniş yayılmışdır ki, sahibkar istehsalı təşkil və idarə etdiyinə, istehsal amillərini birləşdirdiyinə və bununla da istehsal prosesini mümkün etdiyinə görə mənfəət götürür. Lakin bu yanaşmanın mövqeyi kapital-funksiyanın**

'ÄHTOJiorHa SKOHOMH^ecKoft KJiaccHKH. T.1.M.:ЗKOHOB, **1993.C.422,**

**kapital-mülkiyyətdən təcrid olunmasından - kapital sahibi peşəkar idarəçilər tutmağ-a, iqtisadi nəzəriyyədə sahibkarlıq qabiliyyəti başqalarından, o cümlədən kapitaldan da fərqli müstəqil istehsal amili kimi nəzərdən keçirilməyə başlayandan sonra xüsusilə zəifləmiş oldu. Beləliklə, sahibkar istehsalı özgə adamın (və ya bir qrup adamın) adından təşkil və idarə edirsə, o, əməyinin müqabilində haqq alır. Bəs kapital sahiblərinin mənfəətinin əsasını nə təşkil edir? Bu sual cavabsız qalır.**

**Kapitalın mahiyyəti və izafi dəyərin mənbəyi haqqında suala ən dolğun və hərtərəfli cavabı K.Marksın nəzəriyyəsi verir: o, kapitalı hər hansı əşyavi ilə eyniləşdirmir, kapitalın natural formasını və onun dəyərini, yəni forma və məzmununu ayırır.**

**Kapitalın mahiyyəti - muzdlu əməyin istismar edilməsi nəticəsində izafi dəyər gətirən avanslaşdırılmış dəyərdir.**

**Kapitalın natural forması müxtəlif şəkildə: pul, əmtəə, məhsuldar (xammal və avadanlıq, həmçinin muzdlu iş qüvvəsi şəklində) - ola bilər.**

**İstehsal vasitələri, əmtəə və ya pul heç də həmişə kapital rolunda çıxış etmir, heç də həmişə özgənin əməyinin nəticələrinin mənimsənilməsinə xidmət etmir. Başqa sözlə, kapital pul, avadanlıq və s. formasında ola bilər, lakin hər bir pul, dəzgah, alət və s. kapital olmur. Onların kapitala çevrilməsinin meyarı, Marksa görə, onların muzdlu kimi bilavasitə işçilərə qarşı duran işçilərdən təcrid edilməsidir. Belə özgə- ninkiləşdirmə (yəni iş qüvvəsinin əmtəəyə çevrilməsi) Avropada ilkin kapital yığımının gedişində baş verirdi ki, bu zaman kəndli şəxsi azadlıq əldə edir, lakin əsas istehsal vasitəsindən - torpaqdan məhrum olurdu (ingiltərədəki məşhur «çəpərləmə»). Beləliklə, kapital əşyam deyil, ictimai münasibətlərin müəyyən tipini ifadə edən spesifik iqtisadi kateqoriyadır. Kapital həmişə muzdlu əməyi, muzdlu əmək isə kapitalı müşayiət edir.**

**Kapitalın meydana gəlməsinin tarixi zəmini ümumi**

**xarakter almış, inkişaf etmiş əmtəə istehsalı və tədavülüdür. Kapital iqtisadi həyatın bütün sahələrini Özünə tabe edir, mənfəət cəmiyyətin inkişafının hərəkətverici səbəbi olur.**

**Qeyd etmək lazımdır ki, tarixən kapital kapitalizmdən xeyli əvvəl, pulun ticarət dövriyyəsinə və ya sələmə (faizlə) yönəldilməsi hesabına mənfəət gətirən tacir və sələm kapitalı şəklində mövcud olmuşdur. Tacir mənfəətinin və sələm faizinin mənbəyi qullar və təhkimli kəndlilərin yaratdıqları izafi məhsul, həmçinin azad kəndlilər və sənətkarların yaratdığı məhsulun bir qismi idi. Bu kapital formaları bir əldə çoxlu pulun və maddi sərvətlərin cəmlənməsinə səbəb olur və bilavasitə sənaye kapitalı üçün ilkin yığımı sürətləndirirdi. Kapitalın sənayeyə gəlməsi yeni ictimai münasibətlər tipinin yaranmasından xəbər verdi, çünki iki tamamilə yeni sinif yarandı: muzdlu fəhlələr və sənaye kapitalistləri.**

**«Sənaye kapitalım məfhumu yalnız bilavasitə sənaye sahələrinin özlərinə deyil, həm də kənd təsərrüfatına, tikintiyə, nəqliyyata aiddir, əgər iqtisadiyyatın bu sahələri iqtisadi cəhətdən kapitalist prinsiplərinə əsaslanırsa, yəni əgər onlarda istehsal vasitələrinin mülkiyyətçilərinin qarşı durduğu muzdlu əmək istifadə olunursa.**

**Kapitalist istismarının mahiyyəti və mexanizmini və kapitalist mənfəətinin mənbəyini izah etmək üçün Marks kapitalı sabit və dəyişənə bölür.**

**Sabit kapital əmək vasitələrində əks olunandır. İstehsal prosesində onun dəyəri dəyişmir, yalnız hazır məhsula ötürülür. Belə ki, pambığın və əyirici dəzgahın dəyəri ipliyin dəyərinin tərkib hissəsinə daxil olur. Lakin nə pambıq, nə də dəzgah ipliyə özlərinin malik olduqları dəyərdən artıq dəyər verə bilməzlər.**

**Dəyişən kapital iş qüvvəsində əks olunandır. İşçi öz iş qüvvəsinin dəyərindən artıq dəyər yaratmağa qabildir. Bu artıqlıq izafi dəyər adlanır və kapitalistin mənfəətinin mahiyyətini təşkil edir.**

**Belə ki, hazır məhsulun dəyərinə üç komponent daxildir:**
**C - sabit kapitalın (istehsal vasitələrinin) keçirilmiş dəyəri;**
**V - dəyişən kapitalın (iş qüvvəsinin) dəyərinin təkrar istehsal olunmuş ekvivalenti;**
**M - izafi dəyər (yeni yaradılmış dəyərin iş qüvvəsi dəyərindən artıqlığı).**

**Kapitalın sabit və dəyişənə bölünməsi kapitalın hamısının deyil, yalnız onun dəyişən hissəsinin yeni dəyər yaradılmasında iştirak etdiyini göstərməyə imkan verir. İş qüvvəsini dəyərinə görə ödəməklə, yəni mübadilənin ekvivalentlik qanununu pozmadan, kapital bununla belə fəhlə əməyinin bir qismini ekvivalentsiz mənimsəyir. Kapitalist istismarının mahiyyəti də bundadır.**

**Kapitalı səciyyələndirən Marks göstərirdi ki, hərəkətsiz o mümkün deyil. Hərəkətini dayandıran kapital artıq kapital deyil, o, ya müəyyən məbləğdə pul və ya boş dayanan avadanlıq, xammal və materiallar ehtiyatı, məşğul olmayan iş qüvvəsi, satılmamış hazır məhsuldur. Yalnız daim hərəkətdə olub, natural-maddi formalarını dəyişərək kapital öz funksiyasını realizə edə, yəni istehsalın təşkilinə avanslaşdırılmış- dan daha artıq dəyər yaratmaq məqsədilə istehsal vasitələrini işçilərlə birləşdirə bilər.**

**Kapitalizm inkişaf etdikcə sənaye kapitalı daxilində özünəməxsus ixtisaslaşma və əmək bölgüsü baş verir ki, nəticədə onun ayrı-ayrı funksional formaları (əmtəə və pul) ayrılmağa və kifayət qədər müstəqil mövcud olmağa başlayırlar. Bu, birinci növbədə ticarət və borc kapitalına aiddir.**

**Ticarət kapitalı ticarət mənfəəti əldə etmək məqsədilə yalnız ticarətin təşkili ilə məşğul olmağa başlayır. Sırf ticarət sahəsində fəaliyyət göstərən xüsusi kapitalın ayrılması sənayeçiyə istehsal və dövriyyə xərclərini azaltmağa, hazır məhsulun satışını və xammal alışını, bütövlükdə kapital dövriyyəsini sürətləndirməyə və bununla da mənfəət kütləsini artırmağa imkan verir. Kapitalın sənaye və ticarət kapitalı**

**na bölünməsi mənfəətin iki təcrid olunmuş formaya - sahibkar gəliri və ticarət mənfəətinə bölünməsinə səbəb olur. Ticarət mənfəətinin sənaye mənfəətindən təcrid olunmasına aşağıdakılar səbəb olur; ticarətçi əmtəəni sənayeçidən dəyərindən bir qədər aşağı olan istehsal qiymətinə alır, satanda isə orta hesabla dəyərinə bərabər bazar qiymətinə satır. Yaranan qiymət fərqi ticarətçiyə ticarət işlərinin aparılmasına çəkilən xərcləri ödəməyə və özünə ticarət mənfəətini təmin etməyə imkan verir. Mövcud sahələrarası rəqabət bununla nəticələnir ki, ticarət və sənaye kapitalı avans edilmiş kapitaldan eyni qazanc əldə edirlər, onların mənfəətinin həcmi isə müvafiq olaraq ticarət və sənaye kapitalının həcminə uyğundur.**

**Borc kapitalı kapitalm qaytarmaq və faiz ödəmək şərtilə borc verilən pul kapitalmın tədric olunmuş formasıdır. Borc kapitalı kimi cəmiyyətdə mənfəət, dövriyyə vəsaitlərinin bir qismi (əmək haqqımn ödənişi, xammal və materiallar alışı vaxtının gəlib çatmasım gözlədikdə), amortizasiya fondımun bir hissəsi, şəxsi yığımlar və toplamalar kimi müvəqqəti sərbəst pul vəsaitləri cəmləşir. Borc kapitalı bu pul ehtiyatlarmın həm bir yerə cəmləşməsinə kömək edir, həm də fəaliyyət göstərən və özü-özünə artma qabiliyyətinə malik olan kapitala çevrilməsinə imkan verir. Borc kapitalı sənaye və ticarət kapitalistlərinə fəaliy3^t miqyaslarım genişləndirməyə, avadanlığı yeniləşdirməyə, əmtəə satışı prosesini, bütövlükdə kapitalm dövriyyəsini sürətləndirməyə və bir qismi börc faizinin ödənilməsinə sərf olunacaq mənfəətlərini artırmağa kömək edir.**

**Borc kapitalının təcrid olunması zamanı kapital-mülkiyyətin kapital-funksiyadan ayrılması baş verir. Belə təcrid olunma istehsal amillərinin üçamilli modeli daxilində dördüncü amilin də - sahibkarlıq qabiliyyətinin (bəzi şərhlərdə - sahibkarlıq) ayrılmasına əsas vermişdi. Bir tərəfdən, bu sanki əmək qabiliyyətinin bir növüdür. Digər tərəfdən, sahibkarlıq kapital-funksiyanın başqa ifadəsidir. Müasir**

**rəkətə gətirirlər. Bundan başqa, çox vaxt kapital-funksiyadan kapitalın idarə edilməsi ayrılır, yəni istehsalı sahibkar özü idarə etmir, bunun üçün mütəxəssis-menecerlər dəvət edir. Belə əmək bölümü o qədər tipik olub ki, menecerial inqilab (idarəçilər inqilabı) nəzəriyyəsinin yaranmasına səbəb olub, bu nəzəriyyəyə görə real hakimiyyət kapitalın formal sahiblərinə deyil, məhz idarəçilərə məxsusdur.**

**Kapital çərçivəsində əmək bölgüsü gəlir formalarının da təcrid olunmasına səbəb olub. Sənayedə yaradılmış bütün mənfəət kapitalın funksiyalarına müvafiq olaraq bir neçə tərkib hissəsinə bölünür. Kapitalı borc verən kapital sadıibi borc faizi şəklində gəlir götürür. Sahibkar, yəni istehsalı təşkil edən və bütün istehsal amillərini birləşdirən, sahibkar gəliri və ya mənfəəti əldə edir. İstehsalı və kapitalı idarə edən muzdlu qulluqçunun bir növü olub maaş, yəni əmək haqqı alır. Bir şəxsin bir deyil, bir neçə sosial rol ifa etməsi, yəni öz kapitalını öz istehsalında istifadə etməsi və özü də onu idarə etməsi istisna deyil. Bu halda o, mənfəətin iki-üç funksional növünü əldə edə bilər.**

**Borc kapitalının təcrid olunması zamanı borc faizi irrasional adlandırılması mümkün olan özünəməxsus qiymət şəklində çıxış edir, çünki o, xüsusi növ əmtəə kimi borc kapitalının dəyərini ifadə etmir. Borc faizi daha çox borc kapitalının istehlak dəyərini, yəni müəyyən və sabit gəlir gətirmə qabiliyyətini ifadə edir. İstehsal və tədavül sahisində fəaliyyət göstərən kapital-funksiyadan fərqli olaraq borc kapitalı spesifik bazarda - borc vəsaitləri bazarında dövr edir. Borc faizi bu bazarda tələbin və təklifin həcmini müəyyənləşdirdiyindən borc kapitalının qiyməti rolunda çıxış etdir. Bütün başqa şərtlərin eyniliyi şəraitində borc faizlərinin yüksək dərəcələri kapital mülkiyyətçilərini borca daha çox vəsait təklif etməyə, sahibkarları isə, əksinə, börc götürməkdən çəkinməyə təhrik edəcək. Buna görə də tələb əyrisi mənfi meylli, borc vəsaitlərinin təklif əyrisi isə müsbət meylli olacaq (şəkil 23.1).**




**Şəkil 23.1. Borc kapitalı bazarında tələb və təklif**

**Tələb əyrisilə təklif əyrisinin kəsişməsi borc kapitalı bazarında tarazlığı şərtləndirir və borc faizinin tarazlı bazar faizini müəyyənləşdirir.**

**Borc faizi kapital-funksiyanın gəlirini təşkil edən sahibkarlıq mənfəətindən fərqli olaraq, kapital-mülkiyyətdən gələn gəlirdir. Bununla belə, bu iki gəlir növü sıx əlaqədardır. Borc faizinin kəmiyyəti borc vəsaitlərinə olan tələb və təklifdən asılı olaraq dəyişə bilir. Bununla belə borc faizinin aşağı həddi sıfırdır: aydındır ki, kapital mülkiyyətçisi onu sahibkara müftə borca verməyəcək. Borc faizinin yuxarı həddi qismində sahibkar mənfəətinin həcmi çıxış edir, çünki bütün mənfəəti borc faizi kimi vermək lazım gələrsə, borc almağın mənası olmur.**

**Əməyin belə bölgüsü kapitala bütövlükdə istehsal və dövriyyə xərclərində qənaət etməyə, əmtəənin daha tez çatdırılması və satılması hesabına kapitalın dövriyyə vaxtını tezləşdirməyə, müvəqqəti sərbəst pullardan daha səmərəli istifadə etmək və bütövlükdə kapitalın hərəkətindəki arzuolunmaz fasilələrdən qaçmaq imkanı verir. Bu və bir sıra digər məqamlar izafi dəyərin məcmu kütləsinin artmasına səbəb olur ki, bu da sahibkara mənfəətinin bir qismini ticarət və borc kapitalı ilə nisbətən ağrısız bölüşməyə imkan**

**verir. Beləliklə, Marks sübut etmişdir ki, dəyər qanununu pozmadan ticarət mənfəəti və borc faizinin alınmasını izah etmək olar. Sənaye mənfəəti də, ticarət mənfəəti də, eynən borc faizi də sənaye fəhlələri tərəfindən yaradılmış izafi dəyərin hissələridir.**

**XIX və XX əsrlərin hüdudunda kapital yığımı və təmərküzləşməsi həmçinin rəqabətin güclənməsi kapitalın funksional formalarının ixtisaslaşması və təcrid olunması meyli mərkəzləşmə və universallaşma meyli ilə əvəzləndi. Sənaye və bank sahəsində inhisar birliklərinin yaranması zəminində onların maliyyə kapitalı şəklində qovuşması və birləşməsi baş verdi. Maliyyə kapitalı fenomeni alman alimi Hilferdinq tərəfindən dərindən təhlil olunmuşdu. Hilferdinqlə mübahisəyə girən V.İ.Lenin bu məsələyə böyük diqqət yetirmişdi. Sənaye və bank kapitalının birləşməsi və qovuşması qiymətli kağızlar (səhmlər, istiqrazlar, bonlar və s.) şəklində təmsil olunan və yalançı kapital adlandırılan kapitalın sürətli inkişafı hesabına mümkün olmuşdur. Həqiqətən də, fabrik və bankın öz istehsalatlarını birləşdirib bir binada yerləşmələrini təsəvvür belə etmək olmaz. Sənaye və bank kapitallarının birləşməsi səhmdarlar cəmiyyətlərinin yaranması, sənayeçilər və banklar arasında səhm zərflərinin qarşılıqlı mübadiləsi, idarəetmədə birgə iştirakları, nəhayət sülalə əlaqələrin yaradılmasına (Morqanlar, Rokfellerlər, Düponlar, Rotşildlər və b. qrupları) səbəb olmuşdur.**

**Maliyyə kapitalı həm sənaye müəssisələrini (çox vaxt müxtəlif sahələrə aid olan), həm də bankları, sığorta cəmiyyətlərini, ticarət şəbəkəsini, nəqliyyat şirkətlərini, elmi-tədqiqat və hətta tədris və səhiyyə müəssisələrini Özündə birləşdirən güclü maliyyə-sənaye qruplarının formalaşmasına səbəb olmuşdur. Beləliklə, iqtisadiyyatın və ictimai həyatın bütün sahələri kapitalın nəzarəti altına düşdülər. Qərbi Avropa və Amerikada maliyyə kapitalının formalaşması prosesi on illərlə getmişdi. Müasir Rusiyada XX əsrin 90-cı illərinin iqtisadi və hüquqi özbaşınalığı şəraitində bu proses cəmi 5**

**İl çəkmişdi. Qərb və ölkə informasiya vasitələrinin verdiyi məlumatlara görə 1996-cı ilin yanvarında Davosdakı Beynəlxalq İqtisadi forumda Rusiya maliyyə oliqarxlarının 1996-cı il prezident seçkilərində B.N.Yeltsini dəstəkləməklə bağlı qeyri-rəsmi toplantısı olmuşdu. Qeyd olunmuşdu ki, Çubays, Potanin, Berezovski, Qusinski, Smolenski, Xodorkovski və bir neçə başqasının başçılıq etdiyi 6-7 qrup ölkə sərvətinin 50% -dən çoxuna nəzarət edir. V.l.Leninin hələ XX əsrin əvvəllərində qeyd etdiyi kimi, maliyyə kapitalı yalnız iqtisadi hökmranlıqla kifayətlənmir, o həm də, ya bilavasitə dövlət vəzifəsi tutmaqla, ya da öz adamlarını hakimiyyətə gətirməklə siyasi hakimiyyətə can atır.**

## *§2, Kapital bazarında qiymətin əmələ gəlməsinin xüsusiyyətləri*

**İstehsal amillərinin təbiətinin və onların təkrar istehsal prosesi və kapital yığımı prosesində rolunun dərk edilməsi üçün amilin, yaxud onun göstərdiyi xidmətlərin və istehsal funksiyasını yerinə yetirməyə qabil olan maddi daşıyıcı kimi amilin özünün funksiyasını fərqləndirmək lazımdır. Məsələn, istənilən dəzgah özü-özlüyündə müəyyən formada olan metaldır. Dəzgahın funksiyası xam materialı işləmək yolu ilə hər hansı bir məhsulu istehsal etməkdən ibarətdir. Kapital daşıyıcısının öz funksiyasından (xidmətindən) belə ayrılması gəlirin formalaşması və təcrid olunmasında böyük əhəmiyyət kəsb edir. Dəzgah sahibi özü ondan məhsuldar istifadə edə və bu fəaliyyətdən müntəzəm mənfəət əldə edə bilər. Dəzgahı satmaq da olar. Bu halda dəzgahın əvvəlki sahibi onun qiymətinə bərabər birdəfəlik gəlir əldə edər. Amma dəzgahdan istifadənin üçüncü yolu da var: kapitalın xidmətlərini satmaq, yəni onu icarəyə vermək olar. Bu zaman gəlir müntəzəm renta ödənişi şəklində olacaq. Qeyd etmək lazımdır ki, son onilliklərdə istehsal vasitələrinin uzunmüddətli icarəsi və ya lizinq yalnız milli miqyasda deyil, beynəl**

**xalq miqyasda da get-gedə daha çox yayılır.**

**Yuxarıda deyilənlərin hamısı təbii ehtiyatlar üçün də doğrudur. Torpaq sahəsinin sahibi təsərrüfat işlərini özü apara (məhsul becərmək, meşə qırmaq, neft çıxarmaq və s.) və sahibkar gəliri əldə edə bilər. Lakin hələ uzaq keçmişdən torpaq sahəsinin sahibi olmaq hələ mülk sahibinin özünün mütləq orada işləməsini nəzərdə tutmayıb. Torpaq əsrlərdən bəri icarəyə verilib və sahibinə renta formasında gəlir gətirib. Digər tərəfdən, torpağı satmaq və sahibkar gəlirini torpağın satış qiyməti şəklində reallaşdırmaq olar.**

**Əmək bir amil kimi müəyyən qədər fərqlidir. Bu amilin adı özü-özlüyündə torpaq və kapitalda oluğu kimi maddi daşıyıcıya deyil, onun funksiyalarına aiddir. Əmək qabiliyyətinin daşıyıcısı kimi insan çıxış edir. Quldarlıq dövründə insanla onun əməyi arasındakı fərq çox aşkar görünürdü. İnsanı (qulu) satmaq da, onun əmək funksiyasından istifadə etmək də olardı. Beləliklə, torpaqda və ya əmək vasitələrində heç bir prinsipial fərqi yox idi. Təsadüfi deyil ki, qulu «da- nışan alət» hesab edirdilər. Müasir dövrdə qul bazarı deyil, yalnız əmək (xidmətlər) bazarı mövcuddur. Buna görə də istehsalın şəxsi amili onun daşayıcısınm adı ilə deyil, funksiyasının adı ilə adlanır. Beləliklə, «əməyin qiyməti* ifadəsi insanın özünün deyil, əmək xidmətlərinin satışını səciyyələndirir.**

**Aşağıda istehsal amilləri bazarında resursun özünün qiyməti və onun istehsal xidmətləri qiyməti və ya renta arasında fərq nəzərə alınmaqla qiymətin əmələ gəlməsi xüsusiyyətləri nəzərdən keçiriləcək.**

**Kapital xidməti bazan. Kapital xidməti bazarında icarə olunan avadanlığa tələbə qarşı onun təklifi durur. Bu zaman ayrıca götürülmüş firma tərəfindən tələb və təklifdən bazar tələb və təklifini fərqləndirmək lazımdır. Həm icarəçi firma, həm də mülkiyyətçi firma bazarda səmərəli davranış prinsipini əldə rəhbər tuturlar: onlar icarəyə götürülən (verilən) texnikanın miqdannı əlavə avadanlıq vahidinin icarəsinin son**

**hədd xərcləri ilə onlardan istifadənin son hədd gəliri bərabərləşənə qədər (MRC=MRP) artırmaqda davam edəcəklər.**

**Təkmil rəqabət qabiliyyətli icarəçi firma üçün onun avadanlığa tələbi kapital xidmətlərindən son hədd gəliri ilə müəyyənləşəcək və bazarın renta ödənişləri dərəcələrindən tərs mütənasib asılılıqda olacaq. Bununla da tələb əyrisi enən səciyyəli olacaq. Bununla belə, firma təkmil elastik təkliflə üzləşir, çünki mövcud *i* bazar dərəcəsində o, bazardan istənilən miqdarda onu maraqlandıran kapital xidməti ala bilər. Təklif əyrisi X oxundan renta ödənişlərinin bazar dərəcəsi vahidi qədər aralıda olan üfüqi xətt şəklində olacaq. Təklif və tələb əyrilərinin kəsişməsi avadanlıq icarəçisi firmanın tarazlığını səcİ5ryələndirir (şəkil 23.2).**




**Şəkil 23.2. Avadanlığın icarəçi - firma tarazlığı**

**Qeyri-təkmil rəqabət şəraitində ayrıca firmaya qarşı duran təklif əyrisi yüksələn səciyyəli olacaq.**

**Uzunmüddətli dövrdə bazar üçün bütövlükdə kapital xidmətlərinin tələb və təklif əyriləri müvafiq olaraq enən və yüksələn səciyyəli olur. Qısamüddətli dövrdə müəyyən növ kapital xidmətinin məcmu təklifi tamamilə qeyri-elastik olacaq və qrafikdə şaquli əks olunacaq, çünki konkret məqamda müəyyən miqdarda konkret avadanlıq növü mövcud**

**dur. Həmin avadanlığın icarəsi üçün renta ödənişinin tarazlıq dərəcəsi həmin kapital xidməti növünə olan tələb və təklif əyrilərinin kəsişmə nöqtəsi ilə müəyyənləşir.**

**Təkmil rəqabət şəraitində avadanlığı icarəyə verən mülkiyyətçinin tələb əyrisi üfüqi olacaq, yəni bazar həmin firmanın təklif etdiyi istənilən miqdarda kapital xidmətlərini mövcud bazar dərəcəsi ilə qəbul etməyə hazırdır. Avadanlıq mülkiyyətçisi tərəfindən təklifi diqqətlə nəzərdən keçirək. Təklif əyrisi əlavə vaxt vahidi ərzində avadanlıqların icarəyə verilməsindən son hədd xərcləri əyrisi ilə eynidir. Bəs bu son hədd xərcləri nəyə bərabərdir?**

**Qısamüddətli dövrdə icarəyə verilən avadanlığın miqdarı dəyişmir. Buna görə də mövcud avadanlığın icarəyə verilməsi:**

- **amortizasiya;**
- **avadanlığa cari xidmətlə bağlı xərclər daxil olan son hədd xərcləri ilə bağlıdır.**

**Bu xərclər aşağıdakılarla şərtlənir: icarənin hər bir zaman kəsiyində avadanlıq köhnəlir və dəyərinin bir qismini itirir, həm də onu icarəyə verməyə hazırlamaq üçün təmir etmək, nizamlamaq, daşımaq lazım olur.**

**Amortizasiya və cari xidmətin son hədd xərcləri praktik olaraq sabitdir və hər əlavə icarə günü eyni əlavə xərclərlə müşayiət olunur. Bu son hədd xərclərinin kəmiyyəti renta ödənişlərinin vaxta görə dərəcəsini təşkil edəcək. Buna görə də qısamüddətli dövrdə son hədd xərcləri əyrisi üfüqi olacaq və renta ödənişlərinin bazar dərəcəsinə bərabər olacaq. İcarəyə vermək üçün nəzərdə tutulmuş avadanlığın həcmi qısamüddətli dövrdə firmanın sərəncamında olan avadanlığın maksimum həddinə çatan kimi təklif əyrisi üfüqidən şaquli- yə çevriləcəkdir (şəkil 23.3).**

**Uzunmüddətli dövrdə firmanın əlavə avadanlıq alıb onu da icarəyə vermək imkanı var. Buna gÖrə də təklif əyrisinin üfüqi hissəsi yuxarı qalxacaq, çünki son hədd xərclərinə üçüncü element də - avadanlıq alınması üçün daxili xərclər də daxildir. Sonuncular firmanın pulu banka qoymaq və ya**




Şəkil 23.3. Qısamüddətli dövrdə təklif

**başqa layihəyə investisiya etmək əvəzinə avadanlıq almaqla imtina etdiyi faiz dərəcəsinə bərabərdir. Təklif əyrisinin şaquli hissəsinə gəldikdə isə o, yüksələnə çevrilir ki, bu da ren- ta ödənişlərinin bazar dərəcəsi cəlbedici olduqda, yəni artdıqda, əlavə avadanlıq ahb icarəyə vermək imkanı ilə bağlıdır (şəkil 23.4).**




Şəkil 23.4. Uzunmüddətli dövrdə təklif

**Kapital bazarı. «Kapital» kateqoriyası özü-özlüyündə *ehtiyat konsepsiyasıdır.* Kapitalın həcmi pul vahidləri ilə**

**qiymətləndirilir (pulun Özü kapital olmasa da). Qiymətləndirmə həmişə müəyyən vaxt üçün edilir və bu və ya digər təqvim tarixi üçün nagd kapital ehtiyatını xarakterizə edir. «İnvestisiya* kateqoriyası axın konsepsiyasım səciyyələndirir, yəni müəyyən müddət ərzində kapital kəmiyyəti (ehtiyatı) artımını qiymətləndirir. İnvestisiyanın əksi olan kateqoriya «amortizasiya*, yəni kapital kəmiyyətinin müəyyən müddət ərzində azalmasıdır. Kapitala və ya kapital əmtəələrə (avadanlıq, alətlər və s.) tələb kapitalı investisiya etmək, yəni artırmaq istəyindən irəli gəlir. İnvestisiya layihəsi, əgər onun həyata keçirilməsinə çəkilən son hədd xərcləri nəticədə alınan məhsuldan əldə olunacaq son hədd gəlirindən artıq olmazsa, qəbul olunar. Deməli, investisiyah əmtəələrə tələb bu son hədd gəliri ilə müəyyənləşdiriləcək. Tələbin belə xarakteristikasında yeni heç nə yoxdur, İnvestisiyah əmtəələrin xüsusiyyəti ondadır ki, kapital zaman kəsiyində mövcuddur və onunla bağlı xərclər və gəlirlərin komponentlərinin çoxu müxtəlif dövrlərə aiddir. Məsələn, əsaslı tikintiyə xərclər bir dəfəyə deyil, iki-üç il ərzində çəkilə bilər. İnvestisiya layihəsinin işlədiyi ilk illər mənfəət deyil, zərər gətirə bilər. Digər tərəfdən isə, gəlir o saat deyil, tədricən, deyək ki, 20 il ərzində götürüləcək. Beləliklə, son hədd xərclərini və qazancları müqayisə edib, səmərəli qərar qəbul etmək olduqca çətindir. Bu problemin iki həll metodu var:**

**■gələcək xərclər və gəlirlər axınının indiki zamana gətirilməsi metodu və ya gələcək pul axınlarının dəyərinin dis-kontlaşdırılması;**

**■kapital qoyuluşlarından gəlir səviyyəsinin (xərcini ödəməsinin) müəyyənləşdirilməsi metodu.**

**Birinci metodu nəzərdən keçirək. Diskontlaşdırma geniş yayılmış texniki alət olub, investisiya layihəsinin dəyərini, onun məqsədyönlülüyünü və səmərəliliyini kifayət qədər dəqiqliklə müəyyənləşdirməyə imkan verir. Diskontlaşdırma həmişə nəzərə alır ki, investorun pulu faizlə banka qoymaq və ya başqa bir layihəni maliyyələşdirmək kimi alternativi**

**var. Deməli, investisiya layihəsinin gələcək gəlirləri pul qoyuluşuna görə faiz şəklində gələn gəlirlərlə müqayisə olunmalı, investisiya layihəsinin dəyəri isə sonrakı illərdə layihədən gözlənilən gəlirə bərabər olan faizlər almaq üçün banka qoyulası kapitalla müqayisə olunmalıdır.**

**Belə ki, bank depozitinə görə illik faiz dərəcəsi *r* olarsa və faizlər yalnız başlanğıc X kapital dəyərinə deyil, həm də əvəl hesablanmış faizlərə görə də hesablanırsa, onda *t* ildən sonra depozitin dəyəri R-ə qədər artmış olar.**

**R=X(l+ry**

**Bu o deməkdir ki, *t* ildən sonra R məbləğinə malik olmaq bu gün X dəyərinə malik olmağa bərabərdir. Demək olar ki, X gələcək R məbləğin bugünkü qiymətinin nə qədər olacağını göstərir.**

**X=R/(l+r)* və ya PDV=R/(l+r)‘**

**Burada PDV - layihənin diskontlaşdırılmış dəyəri; r - diskont dərəcəsidir.**

**Əgər söhbət gələcək dövrün ayrıca götürülmüş dəyərindən deyil, müntəzəm pul axınından gedərsə, diskontlaşdırma düsturu bir qədər mürəkkəbləşər, çünki bütün gələcək gəlirlərin (xərclərin) diskontlaşdırılmış qiymətlərini toplamaq lazım gələr.**

**PDV - İ (Rj/0 - r)*],**
***1=1* ***

**Burada PDV - bütün gələcək gəlirlərin (xərclərin) diskontlaşdınlmış dəyəri; R,-i dövrü ərzində gəlirin (xərcin) məbləği.**

**Həmin investisiya layihəsi üzrə bütün gələcək gəlirləri və xərcləri hazırkı zamana gətirib və xərcləri gəlirlərdən çıxıb layihənin xalis diskontlaşdırılmış dəyərini alarıq:**

$$NPV=PDV-C$$

**burada NPV - layihənin xalis diskontlaşdınlmış dəyəri;**
**PDV - gələcək gəlir (xərc) axınının diskontlaşdırılmış dəyəri;**
**C - layihənin həyata keçirilməsinə indiki zamana aid xərclərdir.**

**Əgər NPV>0 olarsa, deməli, layihə səmərəlidir: investisiya qoyuluşu mövcud faiz dərəcəsi ilə banka pul qoyuluşımdan daha çox gəlir verər. Və əksinə, layihənin xalis diskontlaşdınlmış dəyəri mənfi kəmiyyət olarsa, pulu ya banka qoymaq, ya da başqa investisiya layihəsini nəzərdən keçirmək daha yaxşı olar.**

**İnvestisiya layihəsinin səmərəliliyini müəyyənləşdirməyin ikinci metodu mütləq kəmiyyətlərə deyil, nisbi kəmiyyətlərə əsaslanır. Bir tərəfdən, layihədən gələcək gəlir gözlənilən mənfəətin investisiyanın kəmiyyətinə nisbəti kimi qiymətləndirilir. Beləliklə, gözlənilən gəlir norması hesablanır ki, bu da investisiyaların son hədd səmərəliliyini (MEt), yaxud daxili xeyir normasını (İRR) səciyyələndirir. Digər tərəfdən xərclər layihəni maliyyələşdirmək üçün investorun bankdan ala biləcəyi kreditin faiz dərəcəsi vasitəsilə ifadə olunur. Aydındır ki, layihənin gəlirlilik norması bankın faiz dərəcəsindən aşağı olmazsa, investisiya qoymaq olar.**

**Deməli, investisiyanın son hədd səmərəliliyi və ya verimin daxili norması xalis diskontlaşdınlmış dəyər sıfıra çevrilən zaman diskont dərəcəsini səciyyələndirir.**

**İnvestisiyaları qiymətləndirməyin bu metodu göstərir ki, kapitalın yeni elementlərinə tələb faiz dərəcəsindən asılıdır (şəkil 23.5). Aşağı faiz dərəcəsində firmalar həvəslə kredit götürüb hətta nisbətən kiçik gəlir normalı layihələrə investisiya qoyuluşunu həyata keçirəcəklər. Faiz dərəcəsi nə qədər yuxarı olsa, kredit bir o qədər baha başa gəlir və investisiyalar bir o qədər az olur. Beləliklə, faiz dərəcəsi ya investisiya layihəsinin birbaşa xərclərini (bank kreditinə görə ödənilən**

**faiz), ya da onun daxili xərclərini (alternativ variantın dəyəri, məsələn, pulun banka qoyulması) müəyyənləşdirir.**

**İnvestisiyaların son hədd səmərəliliyi əyrisi, faiz dərəcəsinin funksiyası kimi, kapitala (yeni avadanlıqlar və b.) tələbi səciyyələndirir.**

**Təkmil rəqabət şəraitində investor bazar faiz dərəcəsini labüdlük kimi qəbul edir, yəni investisiyaların maliyyələşdirilməsi üçün kredit təklifi əyrisi üfüqi olacaq (şəkil 23.6).**

**Bazar faiz dərəcəsini səciyyələndirən borc vəsaitləri təklifi əyrisi ilə borc vəsaitlərinə tələbi əks etdirən investisiyaların son hədd səmərəliliyi əyrisinin kəsişməsi fərdi investorun tarazlığını müəyyənləşdirir.**

**Bazar çərçivəsində borc vəsaitləri təklifi bütövlükdə bank depozitlərindən, yəni vətəndaşların yığımlarından birbaşa asılıdır, Yığımların həcmi bilavasitə depozitlərə görə ödənilən faizin səviyyəsindən asılıdır. O nə qədər yüksək olsa, yığımlann həcmi bir o qədər çox olar (bütün digər şərtlər eyni olarsa) və borca təklif olunan vəsaitlərin miqdan da bir o qədər çox olar. Deməli, borc vəsaitləri təklifinin bazar əyrisi müsbət maillikli-dir. Borc vəsaitlərinə tələbin bazar əyrisinə gəldikdə isə o, mənfi mailliklidir, çünki faiz nə qədər yüksək olsa, investisiya**




**Şəkil 23.5. İnvestisiyaların son hədd səmərəliliyi (daxili gəlir norması)**




Şəkil 23.6. Borc vəsaitləri bazarında investorm tarazlığı




**Şəkil 23.7. Borc vəsaitləri bazarında tarazlıq**

Tələb və təklif əyrilərinin kəsişməsi faiz dərəcəsinin bazar tarazlığı səviyyəsini müəyyənləşdirir.

Yuxarıda verilmiş qrafiklər kapitala tələbi yalnız dolayısı ilə səciyyələndirir, çünki yalnız bilavasitə investisiya üçün maliyyə resurslarına tələbi (təklifi) göstərir. Axı bununla yanaşı bilavasitə investisiya əmtəələri (avadanlıq və s.) bazarı, yəni kapitalın fiziki, natural forması bazan da mövcuddur. Fiziki kapitalın bazar tələb və təklifi dəzgah, maşın, alətlər və s, tarazlıq qiymətini müəyyənləşdirir. Avadanlı-

**ğın ayrx-ayrı investorlar və satıcılar tərəfindən tələb və təklifi onların son hədd xərci və son hədd gəlirinin məlum qaydası ilə tənzimlənir.**

### *§3. Torpaq və torpaq rentası*

**Torpaq lap əzəldən xalqların rifahını müəyyənləşdirən əsas istehsal vasitəsi olub. Təsadüfi deyil ki, klassik ingilis siyasi iqtisadının banisi V.Petti demişdir ki, əmək sərvətin atası, torpaq isə anasıdır.**

**«Torpaq» anlayışına yalnız coğrafi ərazinin özü deyil, həm də yerin altındakı hər şey (neft, filiz, qaz, kömür və s.), həmçinin meşə sahələri, su resursları, balıq sərvəti daxildir. Bundan başqa, «torpaq» anlayışına insanın həyat sürdüyü və istehsal prosesini həyata keçirdiyi biosfera da daxildir.**

**Müxtəlif dövrlərdə həm bütövlükdə torpağın əhəmiyyəti, həm də onun ayrı-ayrı tərkib hissələrinin oynadığı rol eyni olmayıb. Belə ki, əsrlər boyu torpaq əsas yemləyici olub və birinci növbədə onun münbitliyi qiymətləndirilib. Sənaye inqilabı və sənayeləşmə şəraitində ölkədə faydalı qazıntıların olması böyük əhəmiyyət kəsb edib və başqa dövlətlər onu ələ keçirməyə cəhd ediblər ki, bu da müharibələrə və müstəmləkələrin ələ keçirilməsinə səbəb olub.**

**Müasir şəraitdə torpağın insan həyatındakı əhəmiyyətini müəyyənləşdirmək bir o qədər də asan deyil. Bir tərəfdən, torpağın təbii qüvvələrinin rolu və insanın təbiət qüvvələrindən asılılığı xeyli azalıb. Elmi-texniki inqilab və yeni texnologiyalar torpağın süni münbitliyinin yaradılmasına, sintetik materialların meydana gəlməsinə, əvvəllər insan üçün əlçatmaz olan yeni enerji növlərinin mənimsənilməsinə səbəb olmuşdur. Digər tərəfdən, əvvəllər tükənməz hesab edilən təbii resurslar yox olmaq səviyyəsinə endi. Yer kürəsinin hər yerində təmiz içməli su çatışmır. Aşkar edilmiş neft ehtiyatları 40 ilə, kömür ehtiyatları 100 ilə tükənə**

**bilər. Yer üzündən meşələr, o cümlədən atmosfer havasının vəziyyətini tənzimləyən cəngəlliklər yoxa çıxırlar. Bütöv heyvan növləri məhv olurlar. Təbii su hövzələri çirklənir, balıq resursları azalır. İnsanın istehsal fəaliyyəti yalnız suyu və havanı deyil, həm də torpağı çirkləndirir və onun məhsulları artıq istifadəyə yaramır. Beləliklə, ekosferanın vəziyyətinin bütövlükdə pisləşməsi insanı təbiət qüvvələri qarşısında daha gücsüz edir ki, bununla əlaqədar olaraq torpağın (sözün geniş mənasında) əhəmiyyəti hədsiz dərəcədə artır. Faydalı qazıntılara, birinci növbədə neft, qaz kimi enerji daşıyıcılarına çıxışın əhəmiyyəti də artır.Torpağın insanın yaşayış və sənaye obyektlərinin yerləşdirilməsi yeri kimi əhəmiyyəti olduqca artır. Ayrı-ayrı şəhərlərdə, rayonlarda və hətta ölkələrdə əhalinin, avtomobillərin, sənaye və inzibati obyektlərin sıxlığı bütün hüdudları keçib, torpaq sahələrinin qiyməti isə durmadan artır.**

**Torpaqda təsərrüfatın aparılması müxtəlif ictimai formalarda təşkil oluna bilər. Müasir şəraitdə dünya ölkələrinin çoxunda torpaq üzərində təsərrüfat bazar yönümlü, xüsusilə də kapitalist zəminində təşkil olunmuşdur.**

**Kapital inkişaf etdikcə yalnız sənaye, ticarət və maliyyə-kredit sahələrini deyil, həm də torpaq üzərində təsərrüfatın aparılması ilə bağlı sahələri də ələ keçirmişdir. Bu, birinci növbədə əkinçilik, faydalı qazıntıların çıxarılması, ağac tədarükü, tikinti və bir sıra başqa sahələrdir. Bu zaman torpaqla əlaqədar istehsal münasibətləri əsaslı dəyişir, əvvəllər mövcud olmuş torpaq mülkiyyətinin bütün formaları dəyişikliyə məruz qalır.**

**Kapitalizmdə torpaqda təsərrüfatın aparılmasında üç sinfin: torpaq mülkiyyətçilərinin, icarəçi kapitalistlərin və muzdlu fəhlələrin maraqları toqquşur. Bir tərəfdən torpaq mülkiyyətinin torpaqda təsərrüfatın aparılmasından ayrılması baş verir. Bu hadisəni kapital-mülkiyyətin kapital-funksiyadan ayrılmasınının ayrıca halı kimi nəzərdən keçirmək olar. Torpaq üzərində iki inhisar növü formalaşır: torpaq**

**Ü2ərində xüsusi mülkiyyət inhisarı və torpaq üzərində təsərrüfat obyekti kimi inhisar.**

**Digər tərəfdən, kapitalizm inkişaf etdikcə bilavasitə istehsalçının (kənd təsərrüfatında kəndlinin) torpaqdan, əsas istehsal vasitəsindən ayrılması baş verir ki, bu da bütövlükdə kapitalizm üçün səciyyəvidir.**

**Sahibkarın müvəqqəti istifadə üçün (icarəyə) torpaq sahəsi götürüb kapitalist təsərrüfatı aparması, yəni muzdlu əməkdən istifadə etməsi tipik hal olur. K.Marksın nəzəriyyəsinə müvafiq olaraq, muzdlu işçilərin yaratdığı izafi dəyər bu zaman iki hissəyə ayrılır: biri orta mənfəət norması hesabı ilə icarəçinin mənfəətini əmələ gətirir, digəri isə kapitalı bu torpaq sahəsində tətbiq etmək hüququna görə torpaq mülkiyyətçisinə ödənilir. Beləliklə, torpaq rentası xüsusi torpaq mülkiyyətinin həyata keçirilməsinin iqtisadi formasını bildirir. Feodalizm şəraitində torpaq rentası iki sinfin: feodalların və təhkimli kəndlilərin münasibətlərini ifadə edirdi. Feodalizmdən fərqli olaraq kapitalist torpaq rentası üç sinfin: torpaq mülkiyyətçilərinin, icarəçi kapitalistlərin və muzdlu fəhlələrin münasibətləri məcmusunu səciyyələndirir. Bu münasibətlərin spesifik xüsusiyyəti ondadır ki, bir- biri ilə bilavasitə əlaqədə olurlar: birincisi, torpaq rentasının ödənilməsinə görə icarəçi kapitalist və torpaq mülkiyyətçisi, ikincisi, dəyər və izafi dəyərin yaradılmasına görə kapitalist və muzdlu fəhlə. Elə görünür ki, torpaq mülkiyyətçisini və muzdlu fəhləni bir-biri ilə heç bir münasibət bağlanur. Amma torpaq sahibi rentanı mənimsəməklə fəhlənin yaratdığı izafi dəyərin bölgüsündə iştirak edir, yəni kapitalistlə birgə o da istismarçıdır. Beləliklə, Marks sübut edir ki, topaq ren- tası izafi dəyərin çevrilmiş formalarından biridir.**

**Marksın yanaşması digər renta nəzəriyyələrindən əsaslı surətdə fərqlənir. Belə ki, fiziokratlar rentanı təbiətlə əlaqələndirir, onu təbü qüvvələrin hədiyyəsi kimi nəzərdən keçirirdilər. Renta nəzəriyyəsinin inkişaf etdirilməsində D.Rikardonun xidmətləri böyükdür. O, birinci olaraq torpaq**

**qanunu əsasında izah etməyə çalışmış və onu əkinçilik məhsullarının ictimai və fərdi dəyərləri arasında fərq kimi nəzərdən keçirirdi. Bununla yanaşı, onun nəzəriyyəsi iki ehkama əsaslanırdı. Rentanın yaranmasını Rikardo yalnız yaxşı torpaqdan pis torpağa keçid zamanı mümkün hesab edirdi. Bundan başqa, o hesab edirdi ki, eyni bir torpaq sahəsinə ardıcıl kapital qoyuluşu məhsuldarlığın azalması ilə səciyyələnəcək. Torpağın məhsuldarlığının azalması «qanunu* iqtisadçıların çoxu tərəfindən qəbul edilmiş və sonralar istehsal amilləri məhsuldarlığının azalması qanununun variantı kimi nəzərdən keçirilmişdi. V.l.Lenin K.Marksın xidmətini renta nəzəriyyəsini yuxarıdakı iki ehkamdan azad etməkdə görürdü.**

**Xüsusi torpaq mülkiyyəti kapitalist istehsal üsulunun mövcud olmasının zəruri şərti deyil. Bundan başqa, torpaq üzərində xüsusi mülkiyyətin və bununla əlaqədar rentanın, kapitalın torpağa qoyulması müqabilində özünəməxsus haqqın, vergi kimi saxlanılması sahibkar üçün sərfəli olmayıb, təsərrüfatın aparılmasından onun mənfəətini azaldır. Bununla belə heç bir ölkədə kapitalizmin gəlişi ilə xüsusi mülkiyyət ləğv edilməmişdi. Bundan başqa, məsələn, ABŞ-da kapitalizmin formalaşması bu regionda əvvəllər məlum olmayan torpaq üzərində xüsusi mülkiyyətin tətbiqi ilə müşayiət olunmuşdur. Bəs nə üçün burjuaziya, məsələn, onu mənfəətin bir hissəsini renta şəklində ödənişindən azad edəcək torpağın milliləşdirilməsini həyata keçirmir? Məsələ burasındadır ki, torpaq üzərində mülkiyyət ümumiyyətlə xüsusi mülkiyyətin növlərindən biridir. Buna görə də milliləşdirmə bütövlükdə xüsusi mülkiyyət prinsipinin Özünün bünövrəsini laxlada bilər.**

**Güman etmək olar ki, renta problemi təsərrüfatçılıq edən subyekt tərəfindən torpaq sahəsinin alınması ilə həll oluna bilər. Amma bu zaman sahibkar renta ödənişindən azad olsa da, kapitalın xeyli hissəsinin torpaq sahəsinə görə ödənilmiş qiymət şəklində «dondurulması* baş verir. Müvafiq olaraq**

**torpağa qoyulmuş məhsuldar kapitalın və onun gətirdiyi mənfəətin həcmi azalır. Bu ziddiyyətin özünü isə sahibkarlar ipotekanın köməkliyilə aradan qaldırmağa çalışırlar.**

**İpoteka daşınmaz əmlakın: torpağın, tikililərin girov qoyulması müqabilində borc pul götürülməsidir. Bu, torpağın qiymətində ^dondurulmuşsa kapitalın bir qismini müvəqqəti olaraq canlandırmağa imkan verir. Lakin vaxtı çatanda borcu qaytarmaq lazımdır, bundan başqa, istənilən başqa kreditlər kimi ipoteka da faiz ödənişini nəzərdə tutur. Beləliklə, ipoteka zamanı təsərrüfatçı subyekt formal mülkiyyətçiyə çevrilir. Bu halda torpaq sahəsinin faktik sahibi rentanı ipoteka faizi şəklində mənimsəyən ipoteka bankı (və ya sığorta cəmiyyəti, başqa kredit institutları) olur.**

**İpoteka - torpaq rentasının hamısının və ya bir hissəsinin satılması deməkdir. Başqa sözlə, ipotekada renta münasibətləri saxlanılır, lakin forması dəyişir.**

**Torpaq rentasını siyasi iqtisad kateqoriyası kimi «icarə haqqı» ilə qarışdırmaq olmaz. İcarə haqqı icarəçinin torpaq sahibinə müqavilə ilə müəyyənləşdirilmiş məbləğdə pulun ödənilməsi şəklində təzahür edir. İcarə haqqının məbləğinə birinci növbədə torpaq rentasının özü daxildir. Lakin torpaq çox vaxt üstündəki tikililər, suvarma qurğuları, görülmüş meliorasiya işləri və s. ilə birgə icarəyə verilir. Borca verilmiş bu əsas kapitaldan istifadə üçün torpaq sahibi borc faizi, bir də amortizasiya ayırmaları alır. Bu məbləğlər də torpaq rentası ilə yanaşı icarə haqqına daxil edilir. Nəticədə torpaq rentası zahirən sanki borc faizi ilə qovuşur, müəyyən kapitaldan gələn müəyyən gəlir kimi nəzərdən keçirilir. Torpaq rentasının kapitallaşması baş verir. Renta əldə etməyə imkan verən torpaq alışı faiz gətirən (məsələn, banka pul qoyuluşuna görə faiz) borca verilən kapital ilə eyniləşir.**

**Kapitalist torpaq rentası iki əsas formada mövcuddur: diferensial və mütləq. Hər iki renta formasının mənbəyi, artıq qeyd olunduğu kimi, kənd təsərrüfatında, hasilat sənayesində və s. muzdlu fəhlələrin izafi əməyidir. Kapitalist**

**renta münasibətləri eyni dərəcədə həm torpaq sahiblərinin, həm də icarəçilərin maraqlarının təmin edilməsini nəzərdə tutur. Buna görə də normal şəraitdə torpaq rentası yalnız orta mənfəətdən əlavə qazancdır. Müəyyən orta səviyyədən əlavə mənfəətin yaranmasının iki əsas halı mövcuddur (bax cədvələ).**

**Birinci hal sahə üzrə orta göstəricilərlə müqayisədə daha yüksək əmək məhsuldarlığını təmin edən sahənin ayrı-ayrı müəssisələrində əlavə izafi dəyərin alınması ilə bağlıdır. Azad rəqabət şəraitində (sahədaxili) texniki təcrübənin yayılması əlavə izafi dəyərin alınmasını qısamüddətli edir. Bu, ayrı-ayrı sahibkarların ən məhsuldar istehsal amillərindən: dəzgahlar, texnoloji xətlər və s. istifadədə inhisarçı olmamaları ilə bağlıdır. Gec-tez başqa sahibkarlar da həmin avadanlıqdan, hətta ondan da yaxşısını alacaqlar və texniki cəhətdən qabaqcıl müəssisələrin mənfəət həcmi sahə üzrə orta səviyyəyə çatdırılacaqdır.**

**Torpaqda təsərrüfat işlərinin aparılması bir qədər başqa cürdür, Topaq, münbitliyi, yerləşmə yeri, faydalı qazıntıların, meşə və su resurslarının olması nəzərə alınmaqla, sərbəst bərpa oluna bilməyən istehsal amilidir. Kapitalla gilli torpağı qara torpağa çevirmək, yaxud neft yatağı olmayan yerdə neft çıxarılmasını təşkil etmək mümkün deyil. Buna görə də daha məhsuldar (münbit) sahələrdə təsərrüfatçılıq edən sahibkarlar daha əlverişli vəziyyətdə olur və müvəqqəti deyil, daim əlavə izafi dəyər götürə bilirlər. Orta mənfəətdən əlavə olan bu gəlir fərqli (məhsuldarlıq fərqindən irəli gələn) və ya diferensial xarakter daşıyır.**

**Bu diferensial mənfəətin səbəbi torpaq üzərində təsərrüfat obyekti kimi inhisarın olmasıdır. Təsərrüfat işləri özünün torpaq sahəsində aparıldıqda diferensial mənfəət sahibkara çatır. Torpaq icarəyə götürülübsə, diferensial mənfəət diferensial renta şəklini alır və torpaq sahibinə ödənilir. Miqdarına görə diferensial renta daha məhsuldar sahələrdə istehsalın ictimai və fərdi qiymətləri arasındakı fərqə bərabərdir.**

**Diferensial və mütləq torpaq rentasının yaranması**

| Əlavə mənfəətin mənbəyi | Əlavə mənfəətin alınmasını qısamüddətli edir | Əlavə mənfəətin alınmasını (torpaqda təsərrüfatla məşğul olduqda) nə daimi edir | Nəticədə izafi mənfəət torpaq rentasının əsası olur | Torpaq rentasının kəmiyyət ifadəsi |
|---|---|---|---|---|
| Əməyin fərdi məhsuldarlığı sahə üzrə orta səviyyədən yüksəkdir | Sahədaxili rəqabət | Təsərrüfat obyekti kimi torpaq üzərində inhisar | Diferensial renta | istehsalın ictimai qiyməti çıxılsın istehsalın fərdi qiyməti |
| Sahənin əmək məhsuldarlığı orta ictimai səviyyədən aşağıdır | Sahələrarası rəqabət | Torpaq üzərində xüsusi mülkiyyət inhisarı | Mütləq renta | ictimai dəyər çıxılsın istehsalın ictimai qiyməti və ya m-Por. |

**Kənd təsərrüfatı, hasilat sahələri məhsulları istehsalının ictimai qiymətinin yaranması xüsusiyyətlərinə diqqət yetirmək lazımdır. Yaxşı torpaq sahələri azdır və onlar azad təkrar istehsal olunmur. Onların verdiyi məhsul ictimai tələbatı ödəmək üçün kifayət etmir. Buna görə də daha az məhsuldar torpaqlar da dövriyyəyə qatılır. Kapitalların belə rəqabət xüsusiliyi nəticəsində istehsalın ictimai qiyməti pis torpaq sahələrində orta təsərrüfatçılıq şərtləri ilə tənzimlənir. Beləliklə, diferensial renta yaxşı və orta sahələrə görə ödənilir.**

**Ekstensiv təsərrüfatçılıq metodları, yeni əkin sahələrinin.**

**faydalı qazıntı mədənlərinin istifadəyə verilməsi ilə bağlı olan renta diferensial renta I adlanır. Bu torpağın münbitliyinin fərqli olması, torpaq sahəsinin bazara nisbətən yerləşmə yeri, yolların olması və s. ilə şərtlənir. Bu zaman torpaq sahələrinin pisdən yaxşıya və ya əks ardıcıllıqla istifadəyə qatılması vacib deyil. Ayrı-ayrı kapitalların təsərrüfatçılıq şərtlərinin müxtəlif olması faktı vacibdir. Bu renta növü təsərrüfatçılığın əsasən intensiv metodlarla aparılması ilə bağlı olan diferensial renta II inkişafının tarixi və məntiqi zəminidir.**

**Eyni bir sahəyə əlavə kapital qoyuluşu onun keyfiyyət göstəricilərini dəyişir və əmək məhsuldarlığının artmasına kömək edir. Belə ki, gübrə verilməsi, aqrotexnikanın təkmilləşdirilməsi, meliorasiya işlərənin aparılması süni və ya iqtisadi münbitlik yaradır və məhsuldarlığı artırır. Nəticədə, daha məhsuldar alınan əlavə kapital qoyuluşları (yaxşı, orta və ya pis sahələrə qoyulmalarından asılı olmayaraq) diferensial renta II gətirir.**

**Bu renta növünün xüsusiyyəti ondadır ki, icarə vaxtı başa çatanadək əlavə kapital qoyuluşundan diferensial mənfəəti icarəçi götürür. Müqavilə müddəti başa çatan kimi icarəçinin həyata keçirdiyi bütün yaxşılaşdırmalar torpaq sahibinə keçir. Bu, torpaq sahibinə yeni müqavilə bağlayanda icarə haqqını diferensial renta II həcmində artırmağa imkan verir. Beləliklə, icarəçi kapitalist qoyduğu əsas kapitalı çıxartmaq və icarə müddətində əlavə mənfəət götürmək üçün icarə müddətinin uzadılmasında maraqlıdır. Renta vasitəsilə özgə əməyini, özgə kapitalını və ictimai tərəqqinin nəticələrini mənimsəyən torpaq sahibi isə icarə müddətinin azaldılmasında maraqlıdır.**

**XIX əsrin ortalarında icarələr əsasən uzunmüddətli olurdu: tikinti üçün sahələr 99 illiyə icarəyə verilirdi. Müasir dövrdə müqavilələr bir qayda olaraq hər il təzələnir. Təbii ki, belə şəraitdə uzunmüddətli kapital qoyuluşu mümkün deyil. İcarə müddətinin dəyişməsi icarəçi ilə torpaq mülkiyyətçisi**

**arasındakı münasibətlərə də təsir etmişdir. Torpaq sahibi çox vaxt əsaslı xərclərdə, təsərrüfat qərarlarının qəbul edilməsində iştirak edir, rentanı əkinçilik və ya heyvandarlıq məhsullarında pay şəklində, mənfəətdə pay şəklində alır.**

**Rentanın əsasını təşkil edən orta mənfəətdən artıq gəlir yalnız sahə daxilində deyil, həm də sahələr arasında əmək məhsuldarlığındakı fərq nəticəsində də əldə oluna bilər. Əmək məhsuldarlığının səviyyəsi cəmiyyətdəki orta məhsuldarlıq səviyyəsindən aşağı olan sahələrdə yaradılan izafi dəyər kütləsi bütün digər şərtlər eyni olduqda orta mənfəətdən böyükdür. Lakin bu sahələrin sahibkarları bir qayda olaraq sahədə istehsal edilmiş izafi dəyərin hamısını almırlar. Azad rəqabət şəraitində sahələrarası kapital axını baş verir və bunun vasitəsilə orta mənfəətdən artıq gəlir daha yüksək üzvi quruluşlu kapitalın xeyrinə götürülür.**

**Rəqabət inhisarla toqquşduqda bu prosesin gedişi və nəticələri dəyişir. Torpaq üzərində xüsusi mülkiyyət inhisarı özünəməxsus gömrük səddi kimi çıxış edir və torpağa kapital qoyuluşu hüququ müqabilində renta şəklində rüsum ödənilməsini tələb edir. Kənd təsərrüfatında yaradılmış orta mənfəətdən əlavə izafi dəyər ümumi bölgü qazanına daxil olmayıb, sahənin özündə qalır. Orta mənfəətdən bu artıq gəlir fəaliyyətdə olan kapitala rentanı ödəmək imkanı verir.**

**Keyfiyyətinə və yerinə görə torpaq sahəsinin necə olmasından asılı olmayaraq, onda təsərrüfat aparılmasının şərti torpaq rentasının ödənilməsidir. Üzərində təsərrüfat işləri aparmaq hüququna görə bütün torpaq sahələrinin hamısına görə ödənilən renta mütləq torpaq rentası adlanır. Mütləq rentanın əsas yaranma səbəbi xüsusi torpaq mülkiyyətidir. Mütləq rentanın şərti sənayeyə nisbətən kənd təsərrüfatında kapitalın daha aşağı üzvi quruluşudur. Beləliklə, torpaq mülkiyyəti kənd təsərrüfatının iqtisadiyyatın başqa sahələrindən texniki geriliyini tüfeyliləşdirir və bu vəziyyətin saxlanılmasında maraqlıdır.**

**Kəmiyyətcə mütləq torpaq rentası bütün izafi dəyər**

**kütləsi ilə orta mənfəət arasındakı fərqə bərabərdir:**

**Mütləq renta = m-Por.**

**Mütləq rentanın kəmiyyətini istehsalın ictimai dəyəri ilə ictimai qiyməti arasındakı fərq kimi müəyyənləşdirmək olar.**

**Əslində kənd təsərrüfatı məhsullarının qiymətləri inhisar qiymətləridir (torpaq üzərində xüsusi mülkiyyət inhisarı olduğundan). Onların inhisar xarakteri dəyəri aşmalarında deyil, onların dəyərə bərabər və ya ondan aşağı, lakin istehsalın ictimai qiymətindən yuxarı olmalanndadır. Torpaq üzərində xüsusi mülkiyyət kənd təsərrüfatı məhsullarını ba- halaşdıran amildir. Bu, hasilat sənayesi, meşə sənayesi, balıqçılıq və s. sahələrin də məhsulları üçün doğrudur. Torpaq üzərində xüsusi mülkiyyət ləğv olunsaydı, mütləq renta aradan qalxar, kənd təsərrüfatı məhsullarının qiyməti isə dəyər səviyyəsindən istehsal qiyməti səviyyəsinə qədər azalardı.**

**Həm diferensial, həm də mütləq renta K.Marks tərəfindən dəyər və izafi dəyər qanunlarının fəaliyyəti nöqteyi-nəzərindən izah olunmuşlar. Lakin bəzi hallarda rentanın daha bir növünə - əsasını ekvivalent olmayan mübadilə təşkil edən inhisar rentasına təsadüf olunur. Bəzi məhsullar (məsələn, müəyyən növ üzümlər) yalnız müəyyən iqlim və təbii şəraitdə. Özü də məhdud miqdarda əldə oluna bilər. Bu məhsulların yaradılma şəraiti bərpaolunmaz olduğundan təklif həmişə tələbdən kəskin şəkildə geri qalır, bu isə bazar qiymətinin əmtəənin dəyərindən həmişə artıq olmasına imkan yaradır. Qeyri-ekvivalent mübadilə üstəlik inhisar mənfəəti mənbəyi olmaqla, özü də öz növbəsində inhisar ren- tası üçün əsas olur.**

## *§4. Torpaq bazarında qiymətin əmələ gəlməsi xüsusiyyətləri*

**Kapitalda olduğu kimi, torpaq sahəsinin özünün ilkin funksiyasını və onun istehsal funksiyasını fərqləndirmək lazımdır. Bir tərəfdən, torpaq sahibi torpaq sahəsini satıb, onun satış qiymətini əldə etməklə öz mülkiyyətini iqtisadi cəhətdən realizə edə bilər. Digər tərəfdən, torpaqda təsərrüfatla məşğulluq mənfəət şəklində müntəzəm gəlir gətirə bilər. Və nəhayət, üçüncü variant torpağın icarəyə verilməsini və renta şəklində müntəzəm gəlir götürülməsini nəzərdə tutur.**

**Torpağın qiyməti. Torpağa malik olmaq məlum qazanc və itkilərlə bağlıdır ki, bunların da müqayisə edilməsi mülkiyyətin saxlanılmasının və ya özgəninkiləşdirilməsinin, yəni satılmasının məqsədyönlüyünü müəyyənləşdirməyə imkan verir. Torpağa malik olan sahibkar gəlir əldə etməyin digər mümkün variantlarından istifadə etmir, məsələn, o, torpaq almayıb, pulunu banka qoyub faiz şəklində müntəzəm gəlir götürə bilər. Bununla əlaqədar torpaq mülkiyyətçiliyinin son hədd gəliri alınan renta ilə, son hədd (daxili) xərcləri isə borc faizinin bazar dərəcəsi ilə bağlıdır. Bu iki kəmiyyətin müqayisəsi həmin torpaq sahəsinin satış qiyməti haqqında təsəvvür yaradır:**

$$P_{torpaq} = \frac{\text{Renta (illik)}}{\text{Borc faizi dərəcəsi}} \times 100\%$$

**Torpağın qiyməti kapitallaşdırılmış torpaq rentasıdır. Torpağın qiyməti faizin mövcud bazar dərəcəsində həmin torpaq rentasına bərabər gəlir əldə etmək üçün banka nə qədər pul qoymaq lazım olduğunu göstərir.**

**Əlbəttə, bu düstur ən ümumi qammauyğunluğu əks etdirir və yalnız bütün digər şərtlərin eyniliyi şəraitində doğrudur. Torpaq sahələri bazarında ümumi meyl onlann qiymətinin, ələlxüsus böyük şəhərlərdə və onlara yaxın ərazilərdə durmadan artmasıdır.**

**Torpaq rentasının yaranma mexanizmi və kəmiyyəti. Torpaq rentası kəmiyyəti icarəyə verilən torpaq sahələri bazarında tələb və təklifin qarşılıqlı təsiri nəticəsində formalaşır.**

**Torpaq bazanmn özünəməxsusluğu ondadır ki, milli iqtisadiyyat çərçivəsində torpaq və təbii resursların təklifi tamamilə elastik deyil, çünki həmin Ölkədə həmin məqam üçün resursların miqdan təsbit olunmuş kəmiyyətdir. Əlbəttə, uzunmüddətli dövrdə torpağın və digər təbii ehtiyatların miqdarı dəyişə bilər. Belə ki, meliorasiyanın köməkliyi ilə kənd təsərrüfatı üçün yararlı sahələr artırıla və əksinə, təsərrüfatın qeyri-səmərəli aparılması, şoranlaşma və ya eroziyaya gÖrə kənd təsərrüfatı sahələri dövriyyədən çıxarıla bilər; yeni faydalı qazıntı yataqları aşkarlana və ya köhnə yataqlar tükənə bilər. Qısamüddətli dövr üçün milli iqtisadiyyat miqyasında torpaq təklifim qeyri-elastik hesab etmək qəbul olunmuşdur.**

**Torpağa tələb müxtəlif mümkün qiymətlər səviyyəsində icarəçilərin nə qədər torpağı icarəyə götürməyə hazır olduqlarını göstərir. Təbii ki, icarə haqqı yüksək olduqda icarə verilən torpağın miqdarı, qiymət az olduqda icarəyə veriləndən az olacaq. Torpağa tələb əyrisi mənfi maillikli olacaq. Tələb və təklif əyrilərinin kəsişməsi bazar tarazlığını və tarazlıq**




**Şəkil 23.8. Torpaq bazarında tarazlıq**

**Torpağa tələb əyrisi torpaqdan son hədd gəliri əyrisi ilə eynidir. Torpaqdan son hədd gəliri isə, Öz növbəsində, təbii resursların məhsuldarlığından (təbii, yaxud süni məhsuldarlıq, sahənin yerləşmə yeri, faydalı qazıntıların və onlardan istifadə imkanlarının olması və s.) asılıdır. Torpağa tələblə torpaqdan son hədd gəlirinin əlaqəsi tələb əyrisinin mənfi mailliyini başa düşməyə kömək edir. Renta yüksək olduqda yalnız çox məhsuldar torpaqlar icarəyə götürülə bilər, çünki yalnız yüksək son hədd gəliri yüksək rentanı ödəməyə imkan yaradar və çox güman ki, icarəçiyə də mənfəət verər. Torpaq rentası azaldıldığı təqdirdə daha az məhsuldar (az münbit) torpaqlar da icarəyə götürüləcək. Bu zaman bir şeyə diqqət yetirək: ən pis (son hədd) torpağın rentası tarazlı olacaq. Bu, hər bir icarəçinin özgənin torpaq sahəsindən istifadə etmək hüququ müqabilində ödəməli olduğu minimumdur. Belə rentanı K.Marks mütləq adlandırırdı. Yerdə qalän bütün icarəçilər bərabərkəmiyyətli (mütləq) rentadan çox olan son hədd gəliri götürürlər. Bu artıqlığı K.Marks diferensial mənfəət adlandırırdı ki, onu bütün icarə müddətində icarəçi mənimsəyir. Bu artıqlıq həmin sahənin təbii xüsusiyyətləri (məsələn, qaratorpaq) ilə bağlı ola bilər. Amma bu çox vaxt**




**Şəkil 23.9. Rentanm torpağın son hədd məhsuldarlığından və torpağa tələbdən asılılığı**

**İcarəçinin əlavə kapital qoyuluşlarının (gübrə vermək, irriqasiya və s.) nəticəsi olur. Yeni müqavilə bağlandıqda torpağın hazırda daha münbit (süni) olmasından çıxış edilərək icarə haqqı artırılarsa, diferensial mənfəəti torpaq sahibi diferensial renta şəklində mənimsəyəcək. Təbii ki, yalnız orta və ən yaxşı sahələrin sahibləri diferensial renta ala bilərlər.**

**Diferensial rentanm mütləq rentaya birləşməsini və bunun hesabına bu növ sahənin ümumi renta səviyyəsinin artmasını qrafik şəkildə tələb əyrisinin yuxarı və sağa yerdəyişməsi şəklində göstərmək olar (şəkil 23.9).**

**Torpağın məhsuldarlığı nə qədər yüksək olarsa, bütün başqa şərtlərin eyniliyi şəraitində bu keyfiyyətdə torpağa tələb də bir o qədər yüksək olacaq və müvafiq olaraq tələb əyrisi daha yuxarıdan keçəcək, rentanm tarazlıq səviyyəsi daha yüksək olacaq.**

# XXIV FƏSİL. GƏLİRLƏRİN BƏRABƏRSİZLİYİ. GƏLİRLƏRİN YENİDƏN BÖLGÜSÜ

*§1. Gəlirhrin bərabdrsizliyi: mahiyyəti, səbəbləri.*
*§2. Gəlirlərin bərabərsizliyinin göstəriciləri.*
*§3. Sosial ədalət nəzəriyyələri.*
*§4. Ədalətlilik və səmərəlilik arasında seçim.*
*§5. Gəlirlərin yenidən bölgüsü: formaları, metodları, dövlət siyasətinin nəticələri.*

**Mikroiqtisadiyyat kursunun öyrənilməsi prosesində məhdud resurslardan səmərəli istifadəyə böyük diqqət yetirilir, özü də səmərəliliyin əsas meyarı kimi Pareto meyarı çıxış edir. Lakin iqtisadi proseslərin öyrənilməsində indiyədək hesab olunurdu ki, ilkin paylanma və ya resursların ilkin bölgüsü mövcuddur ki, məhz ondan çıxış edərək iqtisadi agentlərin səmərəli fəaliyyətinin şərtləri müəyyənləşdirilir. Aydındır ki, müxtəlif başlanğıc şəraitlərdə son səmərəli nəticə müxtəlif olacaq. Bəs o, ayrıca fərd mövqeyindən deyil, bütün cəmiyyətin mövqeyindən optimal olacaqmı? İlkin bölgünü dəyişmək, yoxsa alınmış nəticəni dəqiqləşdirmək lazımdır? Bu dəyişikliklər səmərəlilik və ədalətlilik meyarları vasitəsilə necə dəyərləndirilə bilərlər? Bu və digər suallara gəlirlərin bölgüsü və yenidən bölgüsü nəzəriyyəsi cavab verir. Bu fəsildə həmin nəzəriyyənin əsas müddəaları: bərabərsizliyin Ölçülməsi və onun mövcudluğunun səbəbləri, ədalətli bölgüyə əsas yanaşmalar, ədalətlilik və səmərəlilik arasında seçim, gəlirlərin yenidən bölgüsü sahəsində dövlət siyasətinin formaları, metodları və səmərəliliyi nəzərdən keçiriləcək.**

## *§1. Galirlarin bərabərsizliyi: mahiyyəti, səbəbləri*

**Azad bazar iqtisadiyyatının mövcud olduğu dövrdə dövlətin fəal rolu minimum funksiyalarla məhdudlaşırdı ki, sosial siyasət bunlara daxil deyildi. Gəlirlərin cəmiyyətdə**

**bölgüsü milli məhsulun yaradılmasına öz töhfələrini verdiklərinə görə istehsal amillərinə bazar mexanizmi vasitəsilə mükafat kimi həyata keçirilirdi. Bunun nəticəsidir ki, azad bazar iqtisadiyyatına xeyli böyük bərabərsizlik xasdır. Müasir qarışıq iqtisadiyyatda bərabərsizlik səviyyəsini azaltmaq və əhalinin aztəminatlı hissəsinin gəlirlərini məqbul səviyyədə saxlamaq üçün dövlət fəal sosial siyasət aparır.**

**Bazar iqtisadiyyatında gəlir bölgüsü istehsal amillərinin satış şərtlərindən və müvafiq olaraq əvvəlcədən bu amilə malik olmaqdan asılıdır. Belə ki, əmək gəlirinin bölgüsü gəlir əldə edə bilmək qabiliyyətlərinin bölgüsü, bir də işləmək istəyindən asılıdır. Kapitala görə gəlirin bölgüsü həyat tsikli müddətində qənaətlə yığılmış vəsaitin həcmi, varislik və ailə vəziyyəti ilə müəyyənləşir. Verilmiş ilkin paylanmada gəlir bölgüsü amil qiymətlərindən asılıdır. Rəqabət bazarında onlar istehsal amilinin son hədd məhsulu kəmiyyətinə bərabərdirlər ki, bunlar da öz növbəsində çoxsaylı - nemətlər təklifi üstünlüyü və texnologiyaların inkişaf səviyyəsindən istehlakçıların üstünlükverimlərinə qədər - dəyişənlərdən asılıdır. Lakin real həyatda bazarların çoxu təkmil rəqabətdən uzaqdır, onlarda informasiya yarımçıqlığı, müxtəlif növ ayrı-seçkiliklər və s. mövcuddur. Bunun nəticəsidir ki, fərdin gəlirini son hədd məhsulundan çox onun peşəsi və nüfuzu müəyyənləşdirir.**

**Ayrı-ayrı fərdlərin gəlirlərinin bərabərsizliyini şərtləndirən əsas amillərə bütövlükdə aşağıdakıları aid etmək olar:**

- **fərdin irsən aldığı amillər, yəni resurslara ilkin malik olmaq (məsələn, irs qalması), həmçinin təbii istedad, qabiliyyət;**
- **ömür ərzində toplanmış insan kapitalı, bu təhsil səviyyəsi və əldə olunmuş təcrübədən asılıdır;**
- **insanın məqsədə çatmaq üçün sərf etdiyi faktik əmək səyləri gərginliyi;**
- **əmək bazarında ayrı-seçkiliyin olub-olmaması;**
- **fərdi qərarın qəbul edilməsinə təsir edən bəxt, uğur.**

**Məsələn, bazarda hələ heç kimin müraciət etmədiyi bir sahə aşkarlayıb lazımi məhsulu istehsal etmək, yaxud uğursuz maliyyə qoyuluşu edib kapitalı itirmək olar.**

**Gəlirlərin bölgüsünə fərdi amillərdən başqa *iqtisadiyyatın institusional təşkili* xüsusiyyətləri xeyli təsir edir. Məsələn, sahənin quruluşu, inhisarlaşma səviyyəsi, iqtisadiyyatın idxal üçün açıq olması və s. böyük əhəmiyyət kəsb edir.**

**Gəlir bölgüsünün bərabərsizliyini dəyərləndirmək üçün «gəlir» kateqoriyasının özünün tərifini vermək və onu ölçməyin üsullarını dəqiqləşdirmək lazımdır.**

**İlk baxışda «gəlir» məfhumu xeyli sadə və anlaşıqlı, gündəlik həyatda tez-tez rast gəlinən görünür. Lakin gerçəklikdə gəlirə vergi qoyulması məqsədi ilə verilən təriflə iqtisadi nəzəriyyədə qəbul oluna biləcək tərif arasında xeyli fərq var. İqtisadi nəzəriyyədə gəlir müəyyən dövr ərzində əldə edilmiş və fərd tərəfindən öz sərvətlərinin həcmini azaltmadan xərclənə biləcək vəsaitdir. Bu tərifin ən mühüm xüsusiyyəti hər şeyi əhatələyə bilməsindədir - fərdin maddi rifahının, mənbəyindən asılı olmayaraq (pul ödəmələri, natural transfertlər və s.), istənilən artımı onun gəlirinin müəyyən dövr ərzində artması deməkdir. Bunun nəticəsində «gəlir» məfhumunun iqtisadi məzmunu ilə onun statistik dəyərləndirilməsi arasında fərq yaranır. Məsələn, gəlirin statistik təyin edilməsinə aşağıdakılar daxil edilmir:**

- **kapitalın dəyərinin dəyişməsi. Fərdə məxsus səhmlərin dəyəri 50000-dən 51000-ə qədər artmışsa, o, sərvətini azaltmadan xərclərini 1000 rubl artıra bilər. Dəyərin belə artması, hətta səhmlərin satılması yolu ilə realizə olunmasa belə, sanki həmin** 1000 **rubl divident qismində alınmış gəlirin bir hissəsi kimi nəzərdən keçirilməlidir. Digər tərəfdən, əgər səhmlərin dəyəri düşürsə, kapital dəyərinin bu itkisi fərdin gəlirindən çıxılmalıdır.**
- **fərdin iş yerində aldığı qeyri-pul faydaları. Bir çox müəssisələr əmək haqqı ilə yanaşı işçilərinə bir sıra pulsuz xidmətlər də göstərirlər. Məsələn, yeməkxanada pulsuz ye**

**mək, xidməti mənzil və avtomobil, xaricə ezamiyyət və s. fərdin, rifahını yaxşılaşdırır və öz pul gəlirini başqa əmtəə və xidmətlərin istifadəsinin artırılmasına yönəltməyə imkan verir.**

**■ ev təsərrüfatı daxilində şəxsi istifadə üçün nemətlər istehsalı. Yuxanda verilmiş tərif istehlakın yalnız bazar tran-saksiyalarının həyata keçirilməsi nəticəsində artmasını nəzərdə tutmur. Ev təsərrüfatı daxilində məhsulun yaradılması, məsələn, həyətyanı sahədə məhsul yetişdirilməsi gəlirin hesablanmasında nəzərə alınmalıdır. Bu cəhət ölkələrarası müqayisələrdə, ələlxüsus müxtəlif inkişaf səviyyəli ölkələrin müqayisəsində olduqca vacibdir.**

**■ mənzil mülkiyyəti ilə bağlı daxili xərclər, öz evində yaşayan insan icarə haqqı vermir və deməli, öz istehlakını onun həcmində artıra bilər.**

**Yuxarıda verilmiş tərifin daha bir mühüm xüsusiyyəti gəlirin dəyişməsinin real kəmiyyətidir. O, əmtəə və xidmətlərdə ölkə regionlarında qiymət fərqi mövcud olduqda, bir də inflyasiya dövründə əhəmiyyət kəsb edir.**

**Fərdin gəlir kəmiyyətinin müəyyənləşdirilməsində gəlirin hesablandığı vaxt dövrü mühüm rol oynayır. Minimum hesablama vaxtı - bir həftədir. Nəzərə almaq lazımdır ki, həftəlik gəlirin dəyişməsi havadan, həmin həftə ərzində ilin nəticələrinə görə mükafatların verilməsinə qədər çoxsaylı amillərdən asılıdır. Belə dəyişmələr nəticəsində həftəlik gəlir bölgüsü daha uzun müddətə nisbətən daha çox bərabərsizlik göstərir. Bununla belə, əldə olunan gəlirin bərabərsizliyinin azaldılmasında fərdin borc almaq imkanları və ya kapital bazarının səmərəliliyi əhəmiyyətli rol oynayır. Əgər heç bir məhdudiyyət yoxdursa, aşağı gəlir alınan dövrlərdə fərd borc ala bilər və ya daha yüksək gəlir alan vaxtlarda borcunu ödəyə bilər. Bu halda aydın ola bilər ki, orta gəlir kəmiyyətlərinin çoxu yoxsulluq həddindən aşağıda deyil, şkalanın yuxarı hissəsindədir. Lakin gerçəklikdə müxtəlif əhali qruplarının gəlirlərinin fərqlərini azaltmaq imkanları eyni deyil. Səhm**

**lərinin qiyməti aşağı düşən və müvafiq olaraq gəliri azalan, milyonçu onlann qiymətinin gələcəkdə artmasına ümidlidir- sə, istehlakı barədə narahat olmaya bilər. Digər tərəfdən, işlədiyi zavod yaxın zamanlarda bağlana biləcək fəhlə istehlakını tənzimləmək üçün borc almaqda müəyyən çətinlik çekir. Müəyyən gecikdirmələr nəticəsində sosial təminat almayan ailənin mənzil və ya işıq pulunu verməməkdən başqa borc mənbəyi yoxdur.**

**Vaxtarası tarazlama imkanı, bütövlükdə gəlir səviyyəsinin müvəqqəti azalmasını kompensasiya etmək üçün aktivlərin olmasından və kapital bazarlarının inkişaf səviyyəsindən asılıdır. Amma əhalinin bu tənzimləmənin gəlir səviyyəsi daha yüksək olan insanlara nisbətən daha əhəmiyyətli rol oynadığı aztəminatlı hissəsi daha çox çətinlik çəkir və inflyasiya kimi mənfi sarsıntılara daha çox məruz qalırlar.**

**Müxtəlif zaman kəsikləri üçün gəlirlərin hesablanması müxtəlif məqsədlərə xidmət edir. Belə ki, əgər məqsəd ehtiyacı olan və ya yoxsulluq həddindən aşağı səviyyədə yaşayan insanların sayını müəyyənləşdirməkdirsə, hesablama dövrü həftə və ya ay götürülməlidir, çünki borc almaq imkanının olmaması şəraitində illik orta gəlirin hesablanması əsl ehtiyacı olanları aşkarlamaya bilər. Digər tərəfdən, bütövlükdə cəmiyyətdə gəlir bölgüsünün tədqiqi üçün ayrı-ayrı qruplar üzrə illik orta verilənlər daha məqbuldur.**

**Eyni zamanda nəzərə almaq lazımdır ki, fərdin gəlir səviyyəsi onun həyat tsiklinin dövründən asılıdır. Vaxtın hər bir anında az gəliri olan, lakin gələcəkdə yüksək gəlir gözləyən (tələbələr və başqa təhsil alanlar) adamlar və əvvəllər yüksək gəlir almış adamlar (təqaüdçülər) var. Həyat tsikli mövqeyindən gəlirlərin bölgüsünün öyrənilməsi göstərir ki, bölgüdə bərabərsizlik səviyyəsi cari gəlirlərlə müqayisədə daha azdır.**

## *§2. Galirlarin baraharsizUyinin göstaricilari*

**Müxtəlif vaxt dövrlərində bərabərsizlik səviyyəsinin təhlili üçün, həmçinin bərabərsizliyin səviyyəsinin müəyyənləşdirilməsi üçün (yüksək, yoxsa aşağı) müxtəlif əmsallardan istifadə olunur. Qeyd olunmalıdır ki, gəlir statistik metodla müəyyənləşdirilir.**

**Desil əmsalı**

**Bərabərsizlik səviyyəsinin müəyyənləşdirilməsi üçün gəlir səviyyəsindən asılı olaraq bütün əhali hər qrupda əhalinin 10%-i olmaqla 10 qrupa bölünür. Belə qruplar desil adlanır. Belə ki, birinci desilə əhalinin 10% ən yoxsul hissəsi daxil olur, Dj desilə nisbətən - digər 10% daha yüksək gəlirli sonrakı qrupu və b.k. daxil olur (şəkil 24.1).**




**Şəkil 24,1. Əhalinin gəlir səviyyəsinə görə bölgüsü**

**Desil əmsalı 9-cu və 10-cu desillərin sərhəd gəlir qiymətinin 1-ci və 2-ci desillərin sərhəd gəlir qiymətlərinə nisbəti kimi hesablanır. Bu, cəmiyyətin 10% ən varlı hissəsinin gəlirlərinin ən yoxsul 10%-nin gəlirlərindən neçə dəfə yüksək olduğunu göstərir.**

**Fondlar əmsalı**

**9-cu və 10-cu desillər arasındakı gəlirlərin orta kəmiyyətinin 1-ci və 2-ci desillər arasındakı gəlirlərin orta kəmiyyətinə nisbəti kimi hesablanır. Rusiya üçün fondlar əmsalının göstəriciləri cədvəl 24,1-də verilmişdir.**

**Cədvəl 24.1-dən göründüyü kimi 1990-cı illər ərzində fondlar əmsalı 3 dəfə artmışdır. Özü də o, bərabər qaydada deyil, 1992-1994-cü illərdə sıçrayışla artmışdı. Beləliklə, iqtisadi islahatların aparılması ölkədə iqtisadi bərabərsizliyin kəskin şəkildə güclənməsinə səbəb olmuşdur. 15-ə bərabər olan fondlar əmsalı kritik hesab olunur və yüksək sosial qeyri-sabitliyin göstəricisidir.**

*Cədval 24.1*

**Rusiya əhalisinin pul gəlirlərinin ümumi həcminin bölgüsü, % -lə**

| Gəlir göstərici-ləri | 1991 | 1992 | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Pul gəliri, cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| Birinci qrup (ən az gəliri olan) | 11,9 | 6,0 | 5,8 | 5,3 | 5,5 | 6,2 | 6,2 | 6,2 | 6,2 | 6,1 |
| İkinci qrup | 15,8 | 11,6 | 11,1 | 10,2 | 10,2 | 10,7 | 10,6 | 10,5 | 10,6 | 10,3 |
| < Üçüncü qrup | 18,8 | 17,6 | 16,7 | 15,2 | 15,0 | 15,2 | 15,1 | 14,9 | 14,9 | 14,5 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Dördüncü qrup** | **22,8** | **26,5** | **24,8** | **23,0** | **22,4** | **21,5** | **21,4** | **21,0** | **21,0** | **20,5** |
| **Beşinci qrup (ən yuxarı gəliri olan)** | **30,7** | **38,3** | **41,6** | **46,3** | **46,9** | **46,4** | **46,7** | **47,4** | **47,3** | **48,6** |
| **Fondlar əmsalı** | **4,5** | **8,0** | **11,2** | **15,1** | **13,5** | **13,0** | **13,2** | **13,2** | **14,5** | **14,1** |
| **Cini əmsalı** | **0,260** | **0,289** | **0,398** | **0,409** | **0,381** | **0,375** | **0,381** | **0,379** | **0,394** | **0,400** |

***M.9nh»: RF-nın* Döu/at *Statistika Komitəsinin verilənləri***

## Kvintil əmsalı

**Desil əmsalı prinsipi üzrə hesablanır, lakin cəmiyyət gəlir səviyyəsinə görə 5 qrupa (hərəsi 20% olmaqla) bölünür. Kvintil əmsalı 4-cü və 5-ci kvintillərin sərhəd gəlir qiymətlərinin 1-ci və 2-ci kvintillərin sərhəd gəlir qiymətləri nisbətinə bərabərdir. Cədvəl 24.1-də 1990-cı illərdə Rusiyada gəlirlərin kvintil bölgüsü haqqında göstəricilər verilmişdir.**

**Aşkar görünür ki, kvintil əmsalının qiymətləri də iqtisadi bərabərsizliyin artmasını göstərir. Əhalinin ən yoxsul 20%-nin payına ümumi gəlir həcminin 6%-i (2000-ci ildə) düşdüyü halda, bütün gəlirlərin 48,6%-i yuxarı 20%-lik qrüpun sərəncamındadır.**

## Kvartil əmsalı

**Bu da desil əmsalı prinsipi üzrə hesablanır: cəmiyyət gəlir səviyyəsinə görə 4 (hərəsi 25% olmaqla) qrupa bölünür. Kvartil əmsalı 3-cü və 4-cü kvartillərin sərhəd gəlir qiymətlərinin 1-ci və 2-ci kvartillərin sərhəd gəlir qiymətləri nisbətinə bərabərdir.**

**Dispersiya və variasiya əmsalı**

**Bu statistik göstəricilər fasiləsiz bölgü funksiyasına (şəkil 24.2) əsaslanır və gəlir səviyyəsinin onun cəmiyyətdəki orta kəmiyyətindən uzaqlaşma dərəcəsini göstərir.**




**Şəkil 24.2. Gəlirlərin bölgüsü funksiyası**

**Dispersiya: F=-£** *(y, -yf*
*i-l*

**burada** *y^- i-ci* **fərdin gəliri;**
^ - **gəlirin orta kəmiyyəti;**
*n* - **fərdlərin sayıdır.**

**Bu əmsalın üstünlüyü gəlirin orta kəmiyyətdən fərqini dəyərləndirib bərabərsizliyi nəzərə almaq imkanının olmasındadır. Dispersiyanın kəmiyyəti nə qədər böyük olsa, deməli, fərdlərin konkret gəlir qiymətlərinin orta qiymətlərdən fərqi bir o qədər çoxdur və deməli, bərabərsizliyin səviyyəsi bir o qədər yüksəkdir. Lakin bu əmsalın ciddi çatışmazlığı var: bütün fərdlərin gəlirləri eyni nisbətdə, məsələn, iki dəfə artsa, bərabərsizlik səviyyəsi dəyişməz, amma dispersiya artar. Bu problem variasiya əmsedı vasitəsilə həll olunur:**

**Variasiya əmsalının üstünlüyü dəyişmə şkalası miqyasından asılı olmamasındadır. Lakin, o, ayn-ayn fərdlər üçün transfertlərin dəyərliliyini nəzərə almır. Məsələn, variasiya əmsalına gəliri** 10000 **rubl olan fərddən gəliri 1500 rubl olan fərdə** 100 **rubl həcmində transfert gəliri** 1000000 **rubl olan fərddən gəliri 998500 rubl olan fərdə 100 rubl həcmində transfert kimi təsir edəcəkdir.**

**Aztəminatlı fərdlərə transfertlərin sanbalını artırmaq üçün gəlir dispersiya loqarifmindən istifadə olunur:**

**H - - -** ***logv.y*** =

**H əmsalı mütləq gəlir səviyyəsindən asılı deyil, istənilən gəlir səviyyəsində transfertlərə həssasdır və aztəminatlı fərdlərin transfertlərinə böyük sanbal verir. Lakin, ehtimal var ki, yüksək gəlir səviyyəsində varlılardan kasıblara trans- fertlər H -ın kəmiyyətini artıra bilər.**

## Cini əmsalı və Lorens əyrisi

**Gəlirlərin bölgüsündə bərabərsizliyi qrafik şəkildə Lorens əyrisi vasitəsilə şərh etmək daha əlverişlidir.**

**Lorens əyrisi gəlirlərin faktik bölgüsünün mütləq bərabər bölgüdən uzaqlaşmasını göstərir, bununla da cəmiyyətdəki bərabərsizlik səviyyəsi nəzərə alınır. Bərabər bölgü xətti göstərir ki, əhalinin 20%-i məcmu gəlirin 20%-ni alır, 40%-i gəlirin 40%-ni alır və b.k. Lorens əyrisi şəkil 24.3. a-da verilmişdir.**

**Lorens əyrisi əsasında Cini əmsalını hesablamaq olar. Qrafik şəkildə o, Lorens əyrisi ilə bərabər bölgü xətti arasındakı ştrixlənmiş sahə və bərabər bölgü xətti altınd€ikı üçbu- caqlının sahəsi arasındakı nisbətdən ibarətdir. Cini əmsalının kəmiyyəti sıfırla bir arasındadır. Əgər gəlirlər tam bərabər bÖlünübsə, Cini əmsalı sıfra bərabərdir, bütün gəlirlər bir adamın əlində cəmlənərsə, əksinə, birə bərabərdir, tnkişaf**

**etmiş ölkələr üçün Cini əmsalının qiyməti cədvəl 24.2-də verilmişdir.**




**Əhali, toplanmış faizlər a) Lorens əyriləri**

**Əhali, toplanmış faizlər**

**b) Böyük Britaniya və AFR üçün Lorena əyriləri, 1964-cü il**

## Şəkil 24.3. Lorens əyrisi

*Cədvəl 24.2*

## İnkişaf etmiş ölkələrdə Cini əmsalı

| Olkə | Cini əmsalı |
|---|---|
| Finlandiya | 0,20 |
| İsveç | 0,21 |
| Lüksemburq | 0,23 |
| AFR | 0,25 |
| Niderland | 0,26 |
| Kanada | 0,28 |
| Böyük Britaniya | 0,29 |
| Fransa | 0,30 |
| Yeni Zelandiya | 0,30 |
| İtaliya | 0,31 |
| Avstraliya | 0,31 |
| ABŞ | 0,34 |

***Mənbə: K.Gardiner. A Survey of tncome İnequality Over the Last Twenty Years. K., LSE, 1993. P.14.***

**Cədvəl 24.1 və 24.2-dəki verilənlərin müqayisəsi göstərir ki, gəlir bölgüsü səviyyəsinin bərabərsizliyinə görə müasir Rusiya inkişaf etmiş ölkələri qabaqlayır. ABŞ-da, Böyük Britaniyada və b. Cini əmsalı 0,2-0,3 olduğu halda Rusiyada 0,4-dür.**

**Cini əmsalından yalnız mövcud bərabərsizliyin dəyərləndirilməsində deyil, həm də sosial dəyişikliklərin və aparılan islahatların təhlilində istifadə olunur. Cədvəl 24.3-də sosialist ölkələrində islahatlar başlayan dövr üçün əmsalın dəyişməsi göstərilmişdir. İslahatlar Slovakiya və Belarus istisna olmaqla, ölkələrin hamısında iqtisadi bərabərsizliyin güclənməsinə səbəb olmuşdu.**

**Cini əmsalı formal olaraq gəlir cütlükləri arasındakı orta fərqə nəzərən normalaşdırılmış orta riyazi mütləq fərqlərin yarısına bərabərdir:**

*iJ ı^ı.ı.ı*

**Hesablamaları sadələşdirmək üçün Lorens əyrisini hamar qırılmaz xətt kimi deyil, məsələn, kvintillərin qiymətləri üzrə qurulmuş qırıq-qırıq xətt kimi vermək olar (şəkil 24.4). Bu halda Cini əmsalını sahələr nisbəti kimi hesablamaq asan olur:**

$$G =$$

**özü də S2-nin sahəsi üçbucaq və trapesiyanın sahələri cəmi kimi hesablanır.**

**Cini əmsalı gəlirlərin mütləq ölçülərindən asılı deyil və fərdi gəliri orta qiymətlə deyil, bütün başqa gəlir səviyyələri ilə müqayisə edir. Lakin Lorens əyrisi və Cini əmsalı da yuxarıda nəzərdən keçirilən digər göstəricilər kimi qüsurlardan azad deyil.**

**Lorens əyrisi tamamilə digərinin içərisindədirsə (şəkil 24.3, a), onda demək olar ki, birinci halda ölkənin rifahı**




**Şəkil 24.4. Qırıq-qırıq Lorens əyrisi**

**ikinci haldakından daha yüksəkdir, gəlir bölgüsü daha bərabərdir, Cini əmsalı bölgünü müqayisə etməyə imkan verir və başqa ölçülər də (dispersiya, variasiya əmsalı və s.) eyni müqayisə nəticəsi verir. Lorens əyriləri kəsişirsə (şəkil 24.3, b), hansı ölkədə bərabərsizliyin çox olduğunu dəqiq müəyyənləşdirmək mümkün deyil. Cini əmsalı müqayisəni qeyri-dəqiq edir və başqa ölçülər müxtəlif nəticələr verə bilər.**

***Cadvəl 24.3***

**Keçid iqtisadiyyatlı ölkələrdə Cini əmsalının göstəriciləri**

| Ölkələr | Cini əmsalı | |
|---|---|---|
| | 1987-1988 | 1993-1994 |
| Polşa | 0,26 | 0,31 |
| Bolqarıstan | 0,23 | 0,31 |
| Rumıniya | 0,23 | 0,31 |
| Macarıstan | 0,23 | 0,28 |
| Çex Respublikası | 0,19 | 0,27 |
| Slovakiya | 0,20 | 0,20 |
| Sloveniya | 0,24 | 0,29 |

| | | |
|---|---|---|
| **Litva**<br>**Latviya**<br>**Estoniya** | **0,23**<br>**0,23**<br>**0,23** | **0,37**<br>**0,27**<br>**0,40** |
| **Rusiya**<br>**Ukrayna**<br>**Belarusiya**<br>**Moldova** | **0,24**<br>**0,23**<br>**0,23**<br>**0,24** | **0,36**<br>**0,33**<br>**0,22**<br>**0,36** |
| **Qazaxıstan**<br>**Qırğızıstan**<br>**Türkmənistan**<br>**Özbəkistan** | **0,26**<br>**0,26**<br>**0,26**<br>**0,26** | **0,33**<br>**0,35**<br>**0,36**<br>**0,33** |

***Afanbə: B.MuAaH08UH. EedHOCmb, nepasencrneo u coifuajibHOJi nojLumuKa e cmpanax c nepexoÖHOü SKOHOMUKOÜ. BceMupHbiä öanK, 1995. C.19.***

**Şəkil 24.3, b-də göstərilir ki, 20% ən az təminatlı vətəndaş Almaniyada Böyük Britaniyadakından daha azdır, lakin kəsişmə nöqtəsindən sonra Almaniyada bölgü daha qeyri-bərabər olur. Almaniya üçün Cini əmsalı daha böyük olub və bununla da Böyük Britaniyada gəlir bölgüsü bərabərsizliyi daha az olub. Lakin aşağı gəlirli fərdlər qrupuna daha çox əhəmiyyət verən başqa göstəricilərdən istifadə göstərdi ki, Böyük Britaniyada bərabərsizlik Almaniyadakmdan çoxdur.**

**Atkinson indeksi**

**Yuxarıdakı mülahizələrdən görünür ki, bərabərsizlik səviyyəsini sosial ədalətin keyfiyyət dəyərləndirilməsini cəlb etmədən dəqiq ölçmək mümkün deyil. Lorens əyriləri kəsişirsə, bərabərsizliyin müqayisəli dəyərləndirilməsi üçün cəmiyyətin nisbi ədalətli bölgüsündə üstünlükverimləri ifadə etmək üçün «sosial ədalətik ölçən lazımdır. Belə ölçənlərdən biri 1970-ci ildə Entoni Atkinsonun təklif etdiyi parametridir. O, cəmiyyətin bərabərsizliyə verdiyi əhəmiyyəti göstərir.**

**Parametrin qiymətləri gəlir bölgüsünün elə bir əhəmiyyət daşımadığı sıfırla cəmiyyətin ən az təminatlı fərdlərə qayğı ilə yanaşmasını əks etdirən sonsuzluq arasındadır. Atkinson indeksi bərabərsizliyi cəmiyyətin üstünlükverimlərini nəzərə almaqla ölçür:**

A=1- y. f(yj 1/rı-cj

**burada y,- *i* qrupunda fərdin gəliri;**
***n* - qrupların sayı;**
***f(l/i)~* gəliri i qrupuna mənsub olan əhalinin payı;**
^ - **gəlirin orta kəmiyyəti.**

*Cədvəl 24,4*

**Atkinson indeksinin**
**Böyük Britaniya və AFR üçün**
**kəmiyyətləri^ 1964-cü il**

| e qiyməti | Atkinson indeksinin (A) qiyməti | |
|---|---|---|
| | Böyük Britaniya | AFR |
| 0,5 | 0,12 | 0,17 |
| 1,0 | 0,24 | 0,29 |
| 1,5 | 0,34 | 0,38 |
| 2,0 | 0,43 | 0,45 |
| 3,0 | 0,55 | 0,54 |

***Mənbə: Atkinson, Anthony B., On the Measurement of tnequal-ity. Journal of Economic Theory, 1970.***

**Atkinson indeksi bərabərsizliyi ölçən və eyni zamanda yenidən bölgüdən cəmiyyətin potensial qazancı kimi nəzərdən keçirilə bilər. Əgər A=0,3 olarsa, gəlirin bərabər bölgüsündə həmin maddi rifah halına çatmaq üçün hazırkı milli gəlirin cəmi (100-30)% =70%-i kifayət edərdi. Digər tərəfdən, bərabər bölgüyə nail olan cəmiyyətin qazancı milli**

**gəlirin 30% artımına bərabərdir. Düsturdan görünür ki, e kəmiyyəti nə qədər böyük olsa və bölgüdə ilkin bərabərsizlik nə qədər çox olsa, cəmiyyətin qazancı bir o qədər çox olar.**

**Cədvəl 24.4-də Böyük Britaniya və AFR üçün Atkinson indeksinin kəmiyyətləri verilmişdir. Cədvəldən görünür ki, e nə qədər böyük olsa, ölçülmüş bərabərsizlik bir o qədər çoxdur. Gəlir bölgüsündə bərabərsizlik e<3 olduqda Almaniyada Böyük Britaniyadakından daha yüksəkdir, lakin aşağı səviyyədə gəlirlərin bərabərsizliyinə daha çox əhəmiyyət verilirsə, vəziyyət əksinə olur.**

### *§3, Sosial sdalət nszəriyyslari*

**Gəlirin cəmiyyətdə bölgüsünün ölçülməsi üsullarının nəzərdən keçirilməsi bizi belə bir mühüm nəticəyə gətirdi ki, bərabərsizliyin dəyərləndirilməsi üçün statistik hesablamalarla yanaşı mövcud gəlir bölgülərinin ədalətli olması, yaxud onların dəyişdirilməsinin arzu olunması haqqında mülahizələrin olmasım da tələb edir.**

**Amil qiymətləri nəzəriyyəsinə və milli gəlirin bölgüsünü istehsal amillərindən qazanc kimi nəzərdən keçirən ənənəvi neoklassik bölgü nəzəriyyəsi iqtisadi təhlildə əhəmiyyətli rol oynayır, lakin burada əsas diqqət resursların səmərəli yerləşdirilməsi məsələsinə yönəldilir. Allokasiya səmərəliliyinə çatmaq üçün hər bir amilin son hədd məhsulu ondan bütün istifadə istiqamətləri üçün bərabər olmalıdır. Lakin bu nəzəriyyə Özü-Özlüyündə hansı bölgünün ədalətli olması sualına cavab vermir.**

**Bu sualın qoyulması gəlirlərin bazar qüvvələrinin nəticəsi kimi bölgüsündən dövlətin yenidən bölgü siyasətinə keçidi göstərir. Bununla bağlı həmin problemin üç aspektini göstərmək olar:**

**1. Yenidən bölgü hətta aparılan iqtisadi siyasətin məqsədi**

**onunla heç cür bağlı olmayanda belə baş verə bilir, buna görə də mümlcün yenidənbölgü effekti nəzərə alınmalıdır.**

**2. Əgər hər hansı bir yenidən bölgü zəruridirsə, onda o, səmərəliliyin itirilməsi məfhumları ilə ən az itki ilə həyata keçirilməlidir.**

**3. Hansı yenidən bölgünün tələb olunduğunu müəyyənləşdirmək və ya aparılan büdcə siyasətinin nəticələrini qiymətləndirmək üçün baza - ədalətli bölgü standartı lazımdır.**

**Birinci iki sualı təhlil etmək üçün standart iqtisadi təhlildən istifadə oluna bilər, lakin həmin üsul üçüncü problemin məqbul həllini tapmaq iqtidarında deyil. Zəruri meyarların formalaşdırılmasına siyasi fəlsəfənin bir qismi, o cümlədən müxtəlif sosial ədalət nəzəriyyələri həsr olunub. Əsas istiqamətlər libertarizm, utilitarizm və eqalitarizmdir.**

**Sosial ədalətə çatmağın bu nəzəriyyələr çərçivəsində təklif olunan meyarlarını qısa şəkildə belə vermək olar.**

***Libertarizm:***

m **bazar mexanizmləri vasitəsilə əldə olunmuş amil gəlirlərinə malik olmaq;**

■ **rəqabətli bazarlarda əldə olunmuş amil gəlirlərinə malik olmaq;**

■ **yalnız qazanılmış gəlirə malik olmaq;**

■ **başlanğıc vəziyyətlərinin eyniliyi şəraitində rəqabətli bazarlarda əldə olunmuş amil gəlirlərinə malik olmaq.**

***Utilitarizm:***

m **cəmiyyətin məcmu rifahı maksimallaşır;**

■ **orta rifah səviyyəsi maksimallaşır.**

***Eqalitarizm:***

m **rifah halı tarazlaşır;**

■ **rifahın minimum səviyyəsi müəyyənləşir və ilkin malik olmaya əsaslanan meyarlar tətbiq olunur;**

■ **vəziyyəti ən pis olan qrupun rifahı maksimallaşır.**

**İndi isə bu nəzəriyyələrin mahiyyətini daha diqqətlə nəzərdən keçirək.**

***Lihertarizm***

**Libertarizm konsepsiyası tərəfdarları azadlıq hüququna və xüsusi mülkiyyət hüququ da daxil olmaqla fərdin hüquqlarına üstünlük verirlər. Bu konsepsiyanın kökü Qobbs və Lokkun əsərlərinə gedib çıxır. Onlar təbii qanunlar fəlsəfəsi tərəfdarı olmaqla fərdin Öz əməyinin məhsuluna hüququ olmasından danışırdılar. Beləliklə də söhbət ilkin paylaşma əsasında bölgüdən və istehsal amillərinə qiymətin yaranmasından gedir.**

**Bu hüquq heç bir məhdudiyyətsiz həyata keçirilə bilər (meyar 1) və ya rəqabətli bazEirlarda alınan gəlirlərlə məhdudlaşa bilər (meyar 2). Bu halda inhisar hökmranlığı da, əmək haqqının işçinin son hədd məhsuldarlığı səviyyəsindən yuxan müəyyənləşdirilməsi kimi düzgün hesab olunmayacaq. Daha bir yanaşma (meyar 3) ilkin paylaşma prinsipinin kapital gəlirlərinə deyil, "qazanılmış" gəlirə tətbiq olunmasını nəzərdə tutur. Bu düzgün ola bilər, çünki əmək antinemətdir və faydalılığın azalmasım əvəzləmək üçün fərd əməyinin məhsulunu Özündə saxlamalıdır. Digər tərəfdən, kapitaldan gəlir, "qazanılmayan" kimi, fərqli vergi qoyulması obyekti ola bilər.**

**Müasir libertaristlərin bir qismi də təbil hüquqlar nəzəriyyəsi tərəfdarıdır. Robert Nozik "Anarxiya, dövlət və utopiya"(1974) kitabında mülkiyyətə malik olmanın ədalətliliyi (justice in holdinqs) və minimalist dövlət nəzəriyyəsini inkişaf etdirirdi.**

**Mülkiyyətə sahib olmanın ədalətliliyi üç tərkib hissədən ibarətdir - qazanılmış gəlirə sahib olmaq, alınmış, öz növbəsində qazanılmış kimi yaradılmış transfertlərə (irsə) sahib olmaq və dövlətin ədalətsiz yolla əldə olunmuş gəlirləri yenidən bölüşdürmək hüququ.**

**Yuxarıda müəyyənləşdirilmiş ədalət tərifi dövlətin funksiyalarına minimalist yanaşmanın klassik nümunəsidir: yalnız zorakılıqdan, oğurluqdan, kələkbazlıqdan müdafiə, müqavilələrin yerinə yetirilməsinin məcbur etməklə təmin olunması. Beləliklə, yenidən bölgü fəaliy3rəti yalnız bu minimal xərclərin maliyyələşməsi ilə məhdudlaşır.**

**Ceyms Byükenen və Qordon Tallok ictimai seçim nəzəriyyəsini hazırlamaqla (1962) minimal dövlət hüdudlarından kənara çıxdılar. Onların fikrincə, hökumətə bütün cəmiyyət üzvlərinin təqdir etdiyi fəaliyyət növünü həyata keçirmək təklif olunur, çünki bircə fərdin də vəziyyətinin pisləşməsi güman edilmir. Bu, vergilərdən və dövlət xərclərindən Pare- to konsepsiyası mövqeyindən iqtisadi vəziyyəti yaxşılaşdırmaq üçün istifadə etməyə imkan verir.**

**Libertarizmin digər istiqaməti Fridrix Xayek və Milton Fridmenin əsərlərinə əsaslanır. Xayek nəzəriyyəsi üç prinsipə əsaslanır:**

■ **fərdi azadlığın üstünlüyü;**

■ bazEir **mexanizminin əhəmiyyətinin tanınması;**

■ **sosial ədalətə çatmağın cəmiyyət üçün yalnız faydalı deyil (çünki, belə bir şey ümumiyyətlə yoxdur), həm də zərərli olmasına inanmaq.**

**Libertaristlər üçün azadhq fərd üçün məcburiyyətin və məhdudiyyətlərin olmamasıdır və özündə siyasi azadlıqları, söz azadlığını və iqtisadi azadlıqları ehtiva edir. Libertarist- lərin əsas dəlili bundan ibarətdir ki, bərabərliyə çatmaq üçün edilən cəhdlər azadlığı məhdudlaşdırır və ya məhv edir. Bazar mexanizmi desentralizasiya olunmuş nəhəng informasiya ^ıxınının ən yaxşı koordinasiyaçısı və bununla da səmərəli bölgü alətidir. O, istehlakçılar üçün səmərə yaradır, çünki rəqabət mübarizəsi seçim İmkanlarını maksimallaşdırır, xərcləri minimallaşdırır və istehsalçı hökmranlığım azaldır.**

**Bundan başqa, o, cəmiyyət rifahlarını təmsil etməli olan hökumətin iradəsindən asılı deyil.**

**Libertarist nəzəriyyələrindən çıxış edərək ilkin malik olma prinsipinin müasir versiyası (meyar4) bərabərsizliyin olmasını ədalətli sayır (əgər bu, fərdlərin qabiliyyətinin, onların iş vaxtına və istirahətə nisbətdə üstünlükverimləri- nin və onların Öz aktivlərindən istifadə edə bilmək qabiliyyətinin müxtəlifliyi nəticəsində yaranırsa) və əgər onlar alınmış irsin, təhsil almaq imkanlarının müxtəlifliyi və ya ailə statusunun (məsələn, varlı ailəyə mənsubluq) nəticəsidir- sə bərabərsizliyin olmasını ədalətsiz sayır.**

**Utilitarizm**

**Utilitarizm başlanğıcını Iremiya Bentamın (XIX əsrin əvvəlləri) əsərlərindən alır. Bu nəzəriyyəyə görə cəmiyyətin rifahı fərdlərin uğurlarının məcmusudur və dövlət məcmu nəticənin maksimallaşdınlmasının qayğısına qalmalıdır. Utilitarist təsəvvürlərə görə, fərd A-nın faydalılığı və ya ondan «xoşbəxtlik» əldə etmək qabiliyyəti fərd B-dən yüksəkdirsə, onun gəliıi daha yüksək olmalıdır. Yenidən bölgü bir fərd üçün gəlirin son hədd faydalılığı, ikinci fərd üçün gəlirin son hədd faydalıhğma bərabər olduqda dayandırılmalıdır. Bu tezisi şərh etmək üçün iki hah nəzərdən keçirək: fərdlərin son hədd faydalılıq şkalası eynidir (hal 24.5) və fərqlidir (hal 24.6).**

**Fərdlərin son hədd faydalılıq şkalasının eyni olduğu vəziyyəti (şəkil 24.5) nəzərdən keçirək, tik rublun son hədd faydalılığı sonsuzluğa meylli olduğundan, onun ölçülməsi ilə bağlı çətinliyi aradan qaldırmaq üçün gəlir bölgüsünü minimum OM səviyyəsindən başlayaraq nəzərdən keçirək ki, buna da OE son hədd faydalılıq səviyyəsi müvafiqdir (qrafikdəki H və L nöqtələri müvafiq olaraq A və B fərdləri üçündür). Fərz edək ki, bölünməli olan gəlir kəmiyyəti MT parçasının uzunluğuna bərabərdir. Bir də təsəvvür edək ki,**




Şəkil 24.5. Son hədd faydalılığının eyni şkaiaları




Şəkil 24,6. Son hədd faydalılığının müxtəlif şkalalan lılığı ölçüyə gələn və müqayisə ediləndir. Məcmu rifahın maksimallaşması üçün gəlir fərdlər arasında bərabər bölünməlidir, belə ki, fərd A MN gəliri (nöqtə G) alır, fərd B isə MD gəliri (nöqtə K) alır, bu isə: MN+MD=MT deməkdir. Bu halda fərdlərin son hədd faydalılığı OP-yə, onların ümumi faydalıhğı isə müvafiq olaraq son hədd faydalılığının MN və MD parçalarında funksiyasının inteqralına bərabərdir.

Qeyd etmək lazımdır ki, utilitaristlər üçün fərd A-nın gəlirinin bir rubl artıb fərd B-nin gəlirinin bir rubl azalması fərqsiz de3TİI. Əgər fərd A-nm gəlir səvİ3^əsi fərd B-nin gəlir

**səviyyəsindən aşağıdırsa, onda onun bir rubldan faydalılığı- nın artımı fərd B-nin faydalılığınm a2almasından çox olacaq. Yəni fərdlərin gəlirin son hədd faydalılıq şkalası *f* Qeyd etmək lazımdır ki, utilitaristlər üçün fərd A-nın gəlirinin bir rubl artıb fərd B-nin gəlirinin bir rubl azalması fərqsiz deyil. Əgər fərd A-mn gəlir səviyyəsi fərd B-nin gəlir səviyyəsindən aşağıdırsa, onda onun bir rubldan faydahlığının artımı fərd B-nin faydahlığının azalmasından çox olacaq. Yəni fərdlərin gəlirin son hədd faydalılıq şkalası fərqlidirsə (şəkil 24.6), onda eyni ilkin şərtlərdə (müvafiq fərqlidirsə (şəkil 24.6), onda eyni ilkin şərtlərdə (müvafiq olaraq H və L nöqtələri) həmin həcmdə gəlirin bölgüsü gəlirdən faydalılıq almaq qabiliyyəti daha yüksək olan fərdin, yəni şkalası sağda yerləşənin (fərd A) xeyrinə olmalıdır. Fərd A gəlirin MK- ya (nöqtə W) bərabər hissəsini, fərd B isə MV-yə (nöqtə P) bərabər hissəsini alarsa, ümumi faydalılıq maksimallaşır: MK -t- MV = MT. İki fərdin son hədd faydalılığı bərabərdir və OJ səviyyəsinə müvafiqdir, amma fərd A-nın ümumi fay- dalılığı fərd B-nin faydalılığından yüksəkdir, çünki o, gəliri daha yüksək qiymətləndirir.**

**Əhalinin sayı dəyişərsə, cəmiyyətin məcmu rifahının mak- simallaşdırılması (meyeır 1) ədalətli bölgü haqqında anlayışa uyğun gəlməyə bilər. Əhali artdıqca milli gəlir artır. Lakin bütün digər şərtlərin eyniliyi şəraitində (məsələn, kapital ehtiyatının dəyişilməzliyi) məhsuldarlığın son həddinin azalması qanunu işləməyə başlayır. Bununla da ümumi rifahın artması onun orta kəmiyyətinin azalması ilə müşayiət olunacaq. Gəlirin son hədd faydalılığı hər nəfərə düşən gəlir azaldıqca artdığından məcmu gəlir maksimuma sonuncu fəhlənin son hədd məhsulu mənfi olduqda çata bilər. Bu an üçün orta rifah səviyyəsi olduqca aşağı olur. Buna yol verməmək üçün orta rifah səviyyəsini maksimallaşdırmaq (meyar 2) təklif**

**olunur, çünki o yalnız gəlirin optimal bölgüsünü deyil, həm də ölkə əhalisinin optimal sayını da nəzərə alır. Yox, əgər söhbət əhali sayının verilməsi şərtilə gəlirin bölgüsündən ge> dirsə, birinci meyar tətbiq olunur.**

**Eqalitarizm**

**Milli gəlirin ədalətli bölgüsünü qiymətləndirmə meyarı kimi məcmu rifahın maksimallaşdırılması xeyli süni görünür. Cəmiyyət fərdlərin cəmindən və ya «orta» fərdlərdən deyil, sadəcə fərdlərdən İbarətdir. Buna görə də eqalitaristlər əsas diqqəti fərdlər arasında gəlir bölgüsünün nəzərdən keçirilməsinə yönəldirlər.**

**Birinci yanaşma (meyar 1) cəmiyyətdə bütün fərdlərin bərabər dəyərə malik olması kimi humanist fikrə əsaslanır və hesab edir ki, milli gəlirin bölgüsü bərabər olmalıdır. Bu cərəyanın nümayəndələrindən Jan-Jak Russonu, Kari Mark- sı göstərmək olar. Bu ideyalar xristian etikası ilə səsləşir, hərçənd protestant etikasının bəzi ideyaları (məsələn, bax; Maks Veber. ^Protestant etikası və kapitalizm ruhu») daha çox ilkin paylanma meyarlarına yaxındır.**

**Milli gəlirin bərabər bölgüsü meyanmn tətbiq edilə bilməsi fərdlərin eyni faydalılıq şkalasına malik olub-olmamasından asılıdır. Cavab müsbətdirsə, bölgünün nəticələri utilitarist konsepsiyada (bax şəkil 24.5 və 24.6) olduğu kimi olacaq. Cavab mənfidirsə, eqalitarist bölgü fərd A üçün MS gəlirini (Q nöqtəsi) və fərd B üçün MR gəlirini (U nöqtəsi) bildirir və beləliklə, MS+MR=MT; hər bir fərdin ümumi rifahı isə bərabər olur (son hədd faydahbğı əyriləri altmdakı sahələr bərabərdir). Bu halda gəlirin çox qismini son hədd faydahlıq şkalası aş€iğı olan fərd alır və bölgü prinsipi utilitarizmdə tətbiq olunanın əksi olur.**

**Amma Russo və Marks kimi eqalitaristlərin bərabərsizli-**

**yl faydalılıq səviyyələri fərqi terminlərində nəzərdən keçirmələrini güman etmək çətindir. “Hər kəsdən qabiliyyətinə görə, hər kəsə tələbatına görə'* sözləri gəlirin müxtəlif səviyyələrindən faydalılıq götürə bilmək kimi subyektiv qabiliyyətə deyil, məsələn, ailənin böyüklüyü və ya fərdin sağlamlığı kimi, obyektiv amillərlə şərtlənən fərqlərə aiddir. Faydalılıq götürə bilmək qabiliyyəti fərddən fərdə fərqli olsa da, eqali- taristlərin çoxu faydalılıq şkalaları bərabərliyini qeyri-aşkar nəzərdə tutaraq və yalnız fərdlərin xarakteristikalarının obyektiv müxtəlifliyinə diqqət yetirərək “bərabər pul dəyərlə- ri”ni nəzərdən keçirirlər,**

**“Təmiz” eqalitarizmdən onun variasiyalarına keçərkən daha iki yanaşmanı fərqləndirmək mümkündür. Onlardan biri eqalitarizm və ilkin paylanma (meyar 2) ideyalarını birləşdirir və nəzərdə tutur ki, “bərabərlik” yoxsulluğa yer qoymayan minimum gəlir səviyyəsini təmin etməli, “ilkin paya malik olma” isə daha yüksək gəlir səviyyələrində obyektiv fərqləndirmə amili kimi çıxış etməlidir. Qeyd etmək lazımdır ki, bir çox ölkələr sosial siyasətin aparılmasında bu meyarı tətbiq edirlər.**

**Problemə daha bir baxış (meyar 3) Con Roulzun əsərlərində, o cümlədən “Ədalət nəzəriyyəsi” (1972) kitabında verilmişdir. Roulz bildirir ki, cəmiyyətin rifahı ən pis vəziyyətdə olan fərdin rifahından asılıdır. Cəmiyyətin rifahı sonuncunun rifahı yaxşılaşdıqda artır, başqa fərdlərin rifahının yaxşılaşmasından dəyişmir. Onun fikrincə, burada seçim yoxdur. Başqa sözlə, vəziyyəti daha yaxşı olan fərdin rifahının istənilən yaxşılaşması cəmiyyət üçün rifahı daha pis olan fərdin vəziyyətinin pisləşməsinin yerini doldura bilməz.**

**Bununla belə Roulz mövqeyi ən böyük bərabərliyi nəzərdə tutan mövqe deyil. Elə dəyişikliklər ola bilər ki, onlar ən az təminatlı şəxsin vəziyyətini bir qədər yaxşılaşdıra və ən var-**

**Uların vəziyyətini xeyli yaxşılaşdıra bilərlər. Görülən tədbirlərin çoxu nəticəsində bərabərsizlik artır. Hər halda Roulz tərəfdarları da, utilitaristlər kimi, belə dəyişiklikləri arzu olunan adlandırardılar, çünki qayğısına qaldıqları yeganə adamların - ən yoxsulların - vəziyyəti yaxşılaşır. Məsələn, əgər varlılara verginin artırılması nəticəsində onların iş intensivliyi zəifləyərsə və buna görə də dövlətin gəlirləri azalarsa və son nəticədə dövlətin yoxsullar arasında bölüşdürə biləcəyi məbləğ azala bilərsə, roulsçular varlılardan vergilərin, bu vergi artımının bərabərsizliyə təsir effektindən asılı olmayaraq, artırılmasına etiraz edərdilər.**

**Meyarlar arasında seçim**

**Meyarlar çox olarsa, onlardan hansına üstünlük verməli? Bəlkə bir qədər geri qayıdıb yeganə düzgün meyann mövcudluğundanmı danışmalı? Və onun həqiqətən də əsl həqiqi meyar olmasını sübut etmək mümkündürmü? Bunlar iqtisadidən çox, fəlsəfi suallardır və bu dərslik çərçivəsində onlara cavab vermək mümkünsüzdür. Platondan başlayaraq bəzi filosoflar deyirdilər ki, təbii nizam mövcuddur ki, ona görə insanın cəmiyyətdə mövqeyi onun doğum vaxtındakı statusundan asılıdır. Lokk və ya həmmüasirimiz Nozik kimi başqaları isə bildirirlər ki, insanlar Öz zəhmətlərinin bəhrəsindən və xüsusi mülkiyyət hüququna görə onlara məxsus olan digər amil gəlirlərindən istifadə etməlidirlər. Russo və başqaları güman edirdilər ki, İnsanlar təbiətən bərabərdirlər və onlann sosial vəziyyətləri də buna əsaslanmalıdır. Kant və həmmüasirimiz Roulz kimi mütəfəkkirlər isə hesab edirdilər ki, cəmiyyətdə ədaləti müəyyənləşdirən müəyyən əxlaqi qətiyyət mövcuddur. Hansı meyarın üstün olması hələ müəyyənləşdirilməyib. Bu sualın cavabı yalnız ayrı-ayrı ölkələrin və bütövlükdə dünya birliyinin inkişafının gedişində tapıla bilər.**

## *§4. Ədalatlilik va səmərəlilik arasında seçim*

**Kompensasiya meyarı**

**Ədalətlilik və səmərəlilik arasında münaqişəni təhlil etməzdən əwəl səmərəlilik dedikdə nəyin başa düşüldüyünü daha dəqiq ifadə etmək lazımdır. Ən geniş yayılmış qiymətləndirmə meyan Pareto meyarıdır. Ona görə, bir fərdin vəziyyətini digərinin vəziyyətini pisləşdirmədən yaxşılaşdırmaq mümkün deyilsə, bÖlgü səmərəlidir.**

**Pareto meyarı fərdidir, o yalmz aynca fərdin rifahı ilə bağlıdır, başqa fərdlərin nisbi rifahı və bilavasitə bərabərsizliklə bağlı deyil. Məsələn, varlını daha da varlı edən, lakin kasıba dəyməyən dəyişiklik, Paretoya görə, yaxşılaşma olardı.**

**Könüllü mübadilə Pareto-yaxşılaşmaya aparır. Lakin dövlətin həyata keçirdiyi məcburi yenidən bölgü nəzərdən keçirilərsə, tək bircə Pareto meyarı kifayət etmir, çünki məcburi təkrar bölgü həmişə cəmiyyətin bəzi üzvləri üçün itkilərlə baş verir. Bu vəziyyət şəkil 24.7-də öz əksini tapmışdır.**

**Fərz edək ki, cəmiyyət iki fərddən (və ya iki qrup fərd-lərdən) ibarətdir və Uı- birincinin, U2- ikincinin faydalılıq funksiyasıdır. Şəkil 24.7-də *JJ'2* U'ı xətti əlyetər faydalılıq- lar, yəni əldə oluna biləcək nemətlərin ilkin verilmiş miqdarında U2 və Ul faydalılıq funksiyalarının mümkün birləşmə əyrisidir. U"ı xətti əldə oluna biləcək nemətlərin miqdarının artması zamanı əlyetər faydaiılıqlar əyrisidir. Üfüqi oxdakı U'ı U"* nöqtələri birinci fərdin, bütün nemətlər onun sərəncamında olduğu halda, ala biləcəyi maksimum faydalı- lığı göstərir. İkinci fərd üçün analoji U'2 ^"2 nöqtələri şaquli ox üzərində yerləşir.**

**Deyək ki, əvvəlcə iqtisadiyyat nöqtəsində olub, sonradan müəyyən dəyişikliklər, məsələn, əmək məhsuldarlığının artması nəticəsində fərdin əldə edə biləcəyi nemətlərin sayı elə artır ki, nail olunmuş faydaiılıqlar əyrisi sağa doğru yerini dəyişir. Bu halda A nöqtəsi Paretoya görə səmərəliliyini**

**İtirir. Səmərəliliyə çatmaq U"2 əyrisinin üstünə gəlmək deməkdir. B və C nöqtələri arasındakı əyri parçası Pareto-səmərəli həllidir, Həqiqətən də, ya birinci fərdin (C nöqtəsi), ya ikinci fərdin (B nöqtəsi), ya da hər İkisinin eyni zamanda (D nöqtəsi) vəzİ3^ətini yaxşılaşdırmaq mümkündür.**

**Şəkildən göründüyü kimi, Pareto meyarının tətbiqi yeni əlyetər faydalılıqlar əyrisinin kiçik bir sahəsi ilə məhdudlaşır. E nöqtəsinə yerdəyişmə Pareto-pisləşməni bildirəcək, halbuki əyrinin bütövlükdə U'2 U'j vəziyyətindən U"2 U'j vəziyyətinə yerdəyişməsi cəmiyyətin rifah halının yüksəlməsini göstərir. Göstərilən ziddiyyətdən qaçmaq üçün Nikolos**




**Şəkil 24.7. Əlyetər faydalılıqlar əyrisi**

**Kaldor tərəfindən kompensasiya meyan təklif olunmuşdur. Onun mahiyyəti aşağıdakılardan ibarətdir:** ***iqtisadi səmərəliliyin artması yalnız və yalnız əlavə qazanc əldə etmiş fərdlərin yeni vəziyyətdə uduzanlara onların itkilərini kompensasiya etməyə qabil olduğu və hu zaman ilkin vəziyyətlə müqayisədə qazanc əldə etdiyi halda olur.***

**Beləliklə, kompensasiya meyarına görə, A nöqtəsindən E nöqtəsinə yerdəyişməni səmərəli hesab etmək olar, əgər birinci fərdin rifahı ikincininkinə nisbətən daha çox artmışsa. Qeyd etmək lazımdır ki, bu meyar real kompensasiyanı nəzərdə tutmur (bu Pareto-yaxşılaşma olardı), yalnız bunun**

**həyata keçirilməsinin potensial imkanı vacibdir***

**Pareto meyarı ilə əvəzetmə meyarını müqayisə edərək, göstərmək olar ki, Pareto meyarına görə, gəlir bölgüsü nöqteyi-nəzərindən invariantlı olub, resurs bölgüsünə görə isə fərqlənən tədbirlərin səmərəliliyi müqayisə olunur. Əvəzetmə meyarı tədbirlərin iqtisadi səmərəlilik dərəcəsinə görə bölünməsində tətbiq olunur, bunlar da eyni zamanda həm resursların, həm də gəlirlərin bölgüsünə gətirib çıxardır. Əvəzetmə prinsipi iqtisadi səmərəlilik və gəlirlərin bölgüsü problemlərini ayırmağa imkan verir.**

## İctimai rifahın funksiyası

**Kompensasiya meyarından resursların bölgüsü və təkrar bölgüsünün qiymətləndirilməsi üçün İstifadə bir sıra problemlər doğurur. Məsələn, qazancın miqdarını və fərdlərin itkilərini, o cümlədən potensial kompensasiyanın həcmini necə qiymətləndirməli? Təhlilin sadələşdirilməsi üçün Abram Berqson sosial rifahın funksiyası ideyasını vermiş, sonradan Pol Samuelson həmin ideyanı işləyib genişləndirmişdi.**

**"İctimai" rifah konsepsiyasına yalnız cəmiyyətin sərəncamında olan resurs və nemətlərin miqdan deyil, həm də konkret iqtisadi məhsulun bölgüsündə ədalətə aid olan etik normalar daxildir. Bundan başqa, etik normalar alternativ iqtisadi nəticələrin rəqəmlə ifadə olunmuş, təsrifatına daxil edilə bilərlər ki, bu təsrifatın özü də hər bir fərddə olan faydalılığın sıra qiymətləndirməsindən asılıdır.**

**Sosial və etik normalar məhz hər bir fərdin əldə etdiyi əmtəə dəstini əks etdirən faydalılıq indekslərinin kəmiyyətinə deyil, həmin dəstlərin özlərinə sanbal və qiymət verirlər. Belə mövqeyin bir sıra problemli cəhətlərini bir tərəfə qoyub asanlıqla görmək olar ki, həmin normalar bölgü etikasının rolunu yüksəldir.**

**İctimai rifah funksiyası fərdlərin üstünlükverimlərinə reaksiya verir ki, bu da müəyyən dərəcədə Pareto meyarı ilə**

**uzlaşır. Eyni zamanda ona etik bölgü normaları da daxildir ki, bunlar da Pareto meyarının nəzərə almadığı nəticələrin təsnifatını aparmağa imkan verir.**

**Fərdi faydalılıq funksiyası və fərdi fərqsizlik əyrisinin təriflərinə bənzətməklə ictimai fərqsizlik əyrisinə tərif vermək olar, İctimai fərqsizlik əyrisi eyni səviyyədə rifahı təmin edən, başqa sÖzlə, onlara səbəb ictimai rifahın eyni əhəmiyyət daşıdığı müxtəlif fərdlər və ya onların qruplarının faydalılıq kombinasiyaları çoxluğudur. İctimai fərqsizlik əyriləri cəmiyyət qarşısında duran, nəticədə bir qrupun aldığı, digərinin itirdiyi alternativ seçim tiplərini nəzərdən keçirməyin rahat üsullarını təklif edirlər.**




**Şəkil 24.8. İctimai fərqsizlik əyriləri**

**Görünür, hər bir fərd üçün ayrılıqda yaxşı olması cəmiyyət üçün daha yaxşıdır - bu Pareto prinsipinə müvafiqdir. Belə ki, şəkil 24.8-də W2 ilə qeyd olunmuş ictimai fərqsizlik əyrisi üzərində olan 1-ci və 2-ci qrup faydalılıq kombinasiyalarının hamısı daha yüksək ictimai rifah verir, nəinki Wj əyrisi üzərindəki bütün kombinasiyalar.**

**İctimai vəziyyət funksiyası Pareto prinsipindən fərqli olaraq istənilən resurs bölgüsünü dərəcələrə bölmək üçün zəmin yaradır, çünki Pareto prinsipi ilə biz yalnız bir vəziyyətin digərindən yaxşı olmasını müəyyənləşdirə bilirik, o da**

əgər vəziyyətlər heç olmasa dəyişilməz qalarsa və kimsə onları yaxşılaşdırarsa. Deyək ki, Z nöqtəsi fərd qrupları arasında nemətlərin ilkin bölgü nöqtəsidir. Şəkildən göründüyü kimi, yenidən bölgü hesabına Z* nöqtəsinə yerdəyişmə ictimai rifahı artırır, özü də bu maksimum mümkün rifah səviyyəsi olacaq, çünki W2 fərqsizlik əyrisi çatılması mümkün olan faydalılıq əyrisinə toxunandır.

İctimai rifah funksiyasının xarakteristikasından göründÜ3di kimi, o. fərdi üstünlükverimlərinin aqreqasiyasınm nəticəsidir:

$$W=W(U_1,...,UJ,$$

burada Uı, Un - fərdlərin faydalılıq funksiyasıdır.

Bəs fərdi üstünlük verimlərin ümumiləşdirilməsi necə baş verir? İctimai rifah funksiyasının qarşısında duran məsələlərdən birinin cəmiyyətin ədalət haqqında təsəvvürlərini əks etdirmək olduğundan, buna cavabı yuxarıda nəzərdən keçirilmiş libertarizm, utilitarizm və eqalitarizm nəzəriyyələri cavab verə bilər.

Dərhal qeyd etmək lazımdır ki, libertaristlər fərdi faydalılıqların müqayisə edilməsinin qeyri-mümkün olmasından və deməli, ictimai rifah funksiyasının qurulmasının qeyri-mümkün olmasını söyləyirlər. Üstünlük fərdi azadlıqlara və xüsusi mülkiyyət hüququna verilir. Libertarizm nöqteyi-nəzərindən yalnız Pareto meyarına cavab verən dəyişikliklər yol veriləndir.

Utilitarizm üçün bütövlükdə ictimai faydalılıq funksiyasını fərdi faydalılıqların məcmusu hesab etmək səciyyəvidir. Əgər hər bir cəmiyyət üzvünün rifahı eyni dəyərə malikdir- sə, onda ictimai rifah funksiyasını bentamian adlandırır və belə yazırlar;

$$W(U„.... UJ=t^U, \quad i=i$$

**Yox, əgər cəmiyyətdə hər hansı bir qrupa və ya fərdlər qrupuna (məsələn, aztəminatlı fərdlərə) üstünlük verilirsə, funksiya belə yazılır;**

$$W(U_{„}.\hat{}.UJ=t,a,U,$$

*i-1*

**Burada üstünlük əmsalıdır.**

**Bu hər hansı sosial qrupa üstünlük verilməsi prinsipi Atkinson indeksinin hesablanmasında istifadə olunur. Məsələn, utilitaristlər e<nin 0-la 8 arasındakı qiymətini seçərlər, amma əhalinin yoxsul təbəqələrinin faydalılıgı nə qədər çox qiymətləndirilsə, onun qiyməti bir o qədər yüksək olar. Aydındır ki, libertaristlər üçün E = 0, roulsiançılar üçün isə E = 8. İctimai rifahın Bentamian funksiyası hesab edir ki, cəmiyyət bir fərdin faydalılığımn bir hissəsini qurban verməyə hazırdır ki, digərinin faydalılığı bir o qədər artmış olsun. Buna görə ictimai fərqsizlik əyrisi şəkil 24.9, a-da göründüyü kimi, maillik bucagı-l-ə bərabər olan tangensli düz xətdir.**

**Eqalitar yanaşma nöqteyi-nəzərindən cəmiyyətin rifahı - libertaristlərdə olduğu kimi, fərdlərin rifahının sadəcə ümumiləşdirilmiş adı deyil, hətta utilitaristlərdə olduğu kimi, fərdi faydalılıqların cəmi də deyil. Bu, cəmiyyətin özünün vahid bir orqanizm kimi ali maraqlarına cavab verir ki, burada fərdlər üzv funksiyalarını yerinə yetirirlər. Bu mövqedən bir qayda olaraq gəlirlərin böyük müxtəlifliyi ilə bir araya sığmayan birlik və həmrəylik daha yüksək qiymətləndirilir, nəinki fərdi uğurlar və fərdin dövlətdən müstəqilliyi. Beləliklə, libertaristlər kimi eqalitaristlər də ictimai rifah funksiyasının mövcudluğunu tanımırlar.**

**Eqalitarizm çərçivəsindəki yanaşmalardan birini - roulsianlığı nəzərdən keçirsək, onda ictimai rifah funksiyasını belə əks etdirmək olar:**

$$W\ (U\hat{}\qquad = min\ \{c/J, i = f\ İ, n\ ;$$

**İctimai fərqsizlik əyrisini (şəkil 24.9, b) qurmaq üçün aşağıdakı cəmiyyəti nəzərdən keçirək: qrup 1 müəyyən Uı* faydalılıq səviyyəsinə malikdir, qrup 2-də isə bu səviyyə U2*-dir, burada Ug* ən azı Uı*-dən az deyil. Əgər ikinci qrupun faydalılığını artırıb, birinci qrupun faydalılığını dəyişilməz saxlasaq, onda elə həmin fərqsizlik əyrisi üzərində qalarıq, yəni cəmiyyət öz vəziyyətini yaxşılaşdırmır. O, qrup 2-nin faydalılığını müəyyən qədər artırmaq üçün qrup 1-in müəyyən faydalılığından keçmək istəmir. Əgər hər iki qrup eyni ilkin faydalılıq səviyyəsinə malikdirsə, cəmiyyətin rifahı yalnız həm qrup 1, həm də qrup 2-nin rifahı artdığı halda artır və bu artım istənilən qrupun rifahının ən aşağı artımına bərabərdir.**




**Şəkil 24.9. tcttimai rifahın funksiyaları: a-bentamin funksiyası; b-roulsian funksiyası**

**Utilitarist və roulsian ictimai rifah funksiyalarının müqayisəsi**

**Utilitarist və roulsian ictimai rifah funksiyalarının şərtləri tamamilə müxtəlifdir. Utilitarist nəzəriyyəyə görə bütün fərdlər üçün faydalılığın artması, resursların bir fərddən digərinə itkisiz ötürülməsi şərtilə, eyni cür qiymətləndirildiyindən, optimal həll onlann gəlirlərinin son hədd faydalılıqlarının bərabərləşdirilməsi olardı. Başqa sözlə, kasıbın əlavə rubl**

**gəlirdən əldə etdiyi faydalılıq varlının bir rubl itirdikdə itirdiyi faydalılıqdan artıqdırsa, deməli, bu rublun ötürülməsindən ictimai rifah (bu faydalılıqların cəmi) artar. Əgər resursun varlıdan kasıba ötürülməsi ilə bağlı bu fəaliyyət xalis faydalılıq artımından çox xərclə müşayiət olunursa, onda bunu həyata keçirmək lazım deyil. İctimai rifahın roul- sian funksiyasından çıxış etsək, resursların varlıdan kasıba ötürülməsi kasıbın vəziyyətinin yaxşılaşmaqda davam etdiyi müddətdə davam edir, bu zaman varlının ötürmə xərclərinin həcmi vacib deyil.**

**Resursların cəmiyyətdə optimal bölgüsü həm ictimai fərqsizlik əyrilərindən, həm də əlyetər faydalılıqlar əyrisindən asılıdır. Yenidən bölgü ictimai fərqsizlik əyrisi əlyetər faydalılıqlar əyrisinə toxunan oluncaya qədər davam edəcək. Şəkil 24.10-da utilitarist və roulsian yanaşmalara müvafiq olan tarazlıqlar göstərilmişdir.**

**Şəkil 24.10-dan göründüyü kimi A nöqtəsini roulsianlı seçərdi, çünki orada fərdlər üçün eyni səviyyəli faydalılıq əldə olunur. Utilitarist faydalılıqların cəminin maksimallaş- dığı nöqtəni - B nöqtəsini seçəcək. Eyni həll mümkündür, əgər qırıq-qırıq xətlə göstərilmiş utilitarist fərqsizlik əyrisi A nöqtəsindən keçərsə.**

**Yenidən bölgünün xərcləri**

**Gəlirlərin bölgüsündəki bərabərsizlik və onun sonradan yenidən bölgü mexanizmi vasitəsilə tarazlaşdırılması məsələlərinin tədqiqində yarana bilən xərclər indiyə qədər nəzərə alınmırdı. Əslində isə yenidən bölgü prosesinin təşkili ilə bağlı inzibati xərclər - vergilərin toplanılması və transfert ödənişlərinin aparılması üzrə dövlət aparatının saxlanması və isteh- salm səmərəliliyinə təsir göstərən həvəsləndirmənin azalması ilə əlaqədar xərclər mövcuddur. İkinci qrup üzərində daha geniş dayanaq.**

**Həvəsləndirmənin azalması ilə bağlı xərcləri yenidən bölgü nəticəsində fərdiərin öz İqtisadi davranışlarını dəyişən**

**də, O cümlədən iş vaxtını azaldıb, istirahət saatlarını artıranda yaranır və bunun nəticəsində milli məhsulun həcmi azalır.**




**Şəkil 24.10. Utilitarist və roulsian yanaşmalarda tarazlıq**

**Deyək ki, cəmiyyət gəlir əldə etmək qabiliyyəti müxtəlif olan iki fərddən ibarətdir. Fərd A xeyli müsbət gəlir qazanmağa qabildir, fərd B-nin qabiliyyəti sıfra bərabərdir. Fərd A-ya vergi qoyulur ki, o da transfert şəklində fərd B-yə çatır. Vergi qoyulması nəticəsində fərd A-nın sərəncamında qalan gəlir azalır. Vergi dərəcələri aşağı olduqda fərd A gəlirdəki itkisini kompensasiya etmək üçün iş vaxtını uzada bilər, lakin vergi dərəcələri daha yüksək olarsa, o, iş təklifini və bununla da vergi qoyulan bazanı və yığılan vergini azaldacaq^. Cədvəl 24.5-də əmək haqqının saathesabı tarifinin 100 rubl olması ehtimalından çıxış edərək müxtəlif mümkün vergi dərəcələri, mümkün olan gəlirlər, vergi yığımı və transfert- lər haqqında məlumat verilmişdir.**

**Fərdlərin bərabər gəlirini nəzərdə tutan eqalitarist yanaşmada vergi dərəcəsi 50% olmalıdır. Lakin cədvəldən göründüyü kimi, bu halda fərdlərin gəliri çox aşağı olar (125 rubl,). Roulsian konsepsiyasına görə dərəcə 30% olmalıdır, çünki bu halda ən az təminatlı fərdin gəliri maksimallaşacaq**

**^ Bu asılılıq Laffer ayrisi ilə şərh olunur.**

**(160 rubl.)* Məcmu rifahı maksimallaşdıran utilitaristlər dərəcəni 15% təklif edərdilər (ümumi gəlir 700 rubla bərabərdir),hər şeydən əwəl qazanılan gəlirin alınması və xərclənməsi azadlığını dəyərləndirən libertaristlər isə dərəcəni 0 görmək istəyərdilər.**

**Yenidən bölgünün həvəsləndirmənin azaldılması effekti işsizlik və yoxsulluq tələsi adlanan hala səbəb ola bilir ki, bu zaman aztəminatlı fərdlər öz iqtisadi fəallıqlarını artırmağa deyil, dövlətdən kömək almağa üstünlük verirlər.**

*Cadval 24.5*

**Müxtəlif vergi dərəcələrində fərdlərin gəlirlərinin həcminin hesablanması**

| Vergi dərəcəsi, % | İşlənilmiş saatların miqdarı | Fərd A-nın gəliri vergi ödəniləne qədər, rublla | Transfer-tin ödənilməsi üçün alınmış vergi, rublla | Fərd A-nın vergi ödənilən-dən sonrakı gəliri, rublla | Fərd B-nin gəliri, rublla |
|---|---|---|---|---|---|
| 0 | 6 | 600 | 0 | 600 | 0 |
| 15 | 7 | 700 | 105 | 595 | 105 |
| 30 | 5 | 500 | 150 | 350 | 150 |
| 50 | 2,5 | 250 | 125 | 125 | 125 |
| 80 | 1 | 100 | 80 | 20 | 80 |
| 100 | 0 | 0 | 0 | 0 | 0 |

**İşsizlik tələsi işsizin yenidən bölgü hesabına formalaşan xalis pul gəliri işləyən həmin fərdin xalis pul gəlirindən çox və ya ona bərabər olduğu hallarda yaramr.**

**Yoxsulluq tələsi fərdin öz əmək səylərini intensivləşdirib əldə etdiyi əlavə gəlir əlavə eksplisit (bilavasitə ödənilən vergilər) və implisit (tarazlığın itirilməsi, vergi üzrə güzəştlərin ixtisar olunması və s.) vergilərdən çox (və ya onlara**

**bərabər) ola bilmədiyi halda yaranır.**

**Həvəsləndirmənin azalması ilə əlaqədar xərclərini tam qiymətləndirmək üçün sadəcə olaraq fərdin əmək bazarında davranışını təhlil etmək kifayət deyil, tş vaxtının qısaldılma- sı və milli məhsulun azalması ilə yanaşı nemətlərə qoyulan vergilərlə bağlı istifadəsiz yükün itirilməsi, həmçinin kapitala qoyulan vergilərlə bağlı yığım və investisiya bazarların- dakı dəyişikliklər mövcuddur.**

## Ədalətlilik və səmərəlilik arasında seçim

**Ədalətlilik tələbləri iqtisadi səmərəliliyin maksimallaşdı- rılması sahəsini məhdudlaşdırdığından səmərəlilik və ədalətlilik arasında seçim problemi yaranır. Bəziləri hesab edirlər ki, bərabərsizlik cəmiyyətin əsas problemidir və cəmiyyət nəticələrinin səmərəliliyə təsirindən asılı olmayaraq, sadəcə olaraq bərabərsizlik dərəcəsini minimallaşdırmalıdır. Digərləri səmərəliliyi mərkəzi problem adlandırırlar. Elələri də var ki, uzunmüddətli planda yoxsullara köməyin ən yaxşı yolunun milli gəlirin necə bölünməsindən narahat olmayıb, onun həcmini artırmağı lazım bilirlər ki, hər kəsə daha çox əmtəə vermək mümkün olsun. Səmərəliliyin maksimallaşdı- rılması çox vaxt milli gəlir həcminin maksimallaşdırılması ilə eyniləşdirilir. Deyirlər ki, əgər proqram milli gəliri azaldırsa, səmərəliliyi aşağı salır, məsələn, əməyə və investisiya qoyuluşuna həvəsi azaldır; proqram resursları varlıdan kasıba ötürəndə bərabərliyə rəvac verən hesab olunur.**

**Daha çox ədalət əldə etmək üçün səmərəliliyin bir qismini qurban vermək lazımdır. Məsələn, proqressiv vergi qoymanın tətbiqi yolu ilə bərabərsizliyin azaldılması cəhdi çox vaxt işləməyə cəhdin qarşısını alan və beləliklə, səmərəliliyin azaldılmasına aparan amil kimi nəzərdən keçirilir. İqtisadi bərabərsizliyin son həddgəlirlərinin müvafiq istehsal amillərinin son hədd məhsullarından ciddi fərqləndiyi miqyasda zəifləməsi iqtisadi artımın azalmasına səbəb olur. Və əksinə.**

**səmərəliliyin artmasını həvəsləndirməklə adətən müəyyən dərəcədə gəlirlərin bərabərliyini qurban vermək lazım gəlir.**

**Daha çox iqtisadi bərabərliyə can atma bu və ya digər konkret cəmiyyətdə üstünlük təşkil edən ədalət anla3nşı ilə diktə olunduğundan, səmərəlilik və ədalət arasındakı münaqişənin həll edilməsinin universal yolları yoxdur. Əvvəllər də qeyd olunduğu kimi, iqtisad elminin vasitələri ədalətə dair problemlər haqqında həlledici mülahizə yürütməyə yararlı deyillər. Amma, məhz bu elm səmərəlilik meyarlarını əsaslandırmalıdır.**

### *§5. G9lirl9rin yenidən hölgüsü: formaları, metodları, dövlət siyasətinin nəticələri*

**Gəlirlərin yenidən bölgüsünün dövlət siyasəti bir tərəfdən vergi qoymadan, digər tərəfdən isə transfertlər sistemindən istifadəsini nəzərdə tutur. Qeyd olunmalıdır ki, yenidən bölgü həm məqsədyönlü, həm də bilməyərək aparıla bilir. Məqsədyönlü yenidən bölgü mütərəqqi gəlir vergisi dərəcəsindən istifadəni, kapitallara vergi qoymanı və aztəminatlı fərdlərə tarazlı ödənilməsini nəzərdə tutur. Bilməyərəkdən yenidən bölgü büdcə gəlirlərinin artırılması məqsədilə vergi tətbiqi, məsələn, əmtəələrə aksiz qoyulması nəticəsində müxtəlif gəlir səviyyəli fərdlərin həmin verginin ödənilməsində müxtəlif dərəcədə iştirakı zamanı yaranır. Digər tərəfdən, ictimai nemətlərin yaranmasına sərf olunan daha aşağı səviyyəli vergilər ödəyən yoxsul fərdlər ictimai nemətlərdən istifadədən, məsələn, pulsuz səhiyyə və ya təhsildən, bir qayda olaraq daha çox faydalılıq əldə edirlər.**

**Yenidən bölgü sahəsində ayrıca yeri sosial sığorta tutur. Fərdlərin sosial sığorta fondlarından aldıqları ödənmələr onların əvvəllər etdikləri ödənişlər hesabına həyata keçirilir. Bununla da eyni bir şəxs üçün zamanarası yenidən gəlir bölgüsü baş verir.**

**Transfertlər sistemi üzərində daha geniş dayanaq. Trans-**

**fert ödənişləri altında əhaliyə dövlət büdcəsindən ehtiyacı olan vətəndaşlara vəsaitin yenidən bölgüsü qaydasında həyata keçirilən pul ödənişləri başa düşülür. Bundan başqa, transfertlərə natural ödənişlər də, məsələn, məktəblərdə uşaqlara pulsuz yemək, ərzaq talonları, pulsuz kommunal xidmətləri ( və ya onların güzəştlə ödənilməsi) və s. daxildir.**

**Transfertlər sistemi, bir qayda olaraq, ehtiyacı olan fərdlərin gəlirlərinin sosial məqbul səviyyədə saxlanılması məqsədi güdür. Belə proqramların çatışmazlıqlarından biri hətta öz vəziyyətini yaxşılaşdırmaq imkanı olduğu halda belə fərd- də «ehtiyacı olan» kimi qalmaq istəyi oyanması vəziyyətidir. Yəni sosial yardım proqramlarının təhrifedici təsiri təzahür edir.**

**Pul ödənişləri fərdin zəhmət və istirahət arasında seçimini təhrif edir, çünki aztəminatlığı dəf etmək vasitəsi kimi çıxış edirlər və resipiyentlərin gəlirləri ilə əlaqələndirilməlidirlər. Adətən gəlir artdıqca, ödənişlər azalır, bununla da əməyin cəlbediciliyi nisbətən azalır (yoxsulluq tələsi).**

**Şəkil 24.11-də fərdə pul tarazlığı ödənilməsi və gəlir artdıqca, onun azalması vəziyyəti təhlil olunur. ZO xətti proqramın tətbiqinə qədərki büdcə məhdudiyyətlərini göstərir. OY* heç bir əmək gəliri olmayan fərdlərin tarazlığının qədəridir. OY** - məcmu gəlirinin (tarazlıq nəzərə alınmaqla) müəyyən yuxarı həddidir ki, ona çatanda şəxs daha aztəminatlı hesab olunmur və ona daha tarazlıq ödənilmir.**

**Aydındır ki, fərd LD -dən çox əmək səyləri sərf etməyə qabildirsə və niyyətindədirsə, nəzərdən keçirilən proqram bilavasitə ona aid olmur.**

**BD parçasında əmək həcmini LB-yə qədər azaltmağa stimul var, çünki B nöqtəsindən keçən fərqsizlik əyrisi D nöqtəsindən keçən əyriyə nisbətən daha yüksək faydalılıq səviyyəsini əks etdirir. Fərd yardım almaq hüququ əldə etmək üçün əmək səylərini azaldır, yəni təhrifedici təsir, səmərəliliyin itirilməsi müşahidə olunur.**

**Y*B parçasında əmək səylərinin artması gəlirin artması**

**İlə nəticələnir, lakin bn artım proqram olmayan vaxta nisbətən daha azdır. Bu parçada müavinətin həcmi; G=aY, burada a - proporsionallıq əmsalıdır (a<l, yəni müavinət gəlir artdıqca azalır).**




**Şəkil 24.11. Pul ödənişlərinin resipiyentlərə təhrifedici təsiri**

**LA -da fərdin qazancı Ya-dır, YaA isə ictimai vəsaitlərdən alınan məbləğdir. Fərqsizlik əyrisinə A nöqtəsindən keçərək çəkilmiş biganəlik əyrisinə toxunan ZQ xəttinə paralel olub həm də F nöqtəsindən keçir. Y*B xətti toxunandan daha dikdir (bu, a<l şərtindən irəli gəlir), deməli, o, Y xəttini büdcə məhdudiyyətindən (Y***< Y*) aşağıda kəsir. Bu faktiki ödənişdən daha az olan akkord ödənişi vasitəsilə fərdin A nöqtəsindən keçən biganəlik əyrisi ilə təsbit olunmuş həmin rifah halı səviyyəsinə çatdırılması deməkdir. Akkord ödəniş zamanı tarazlıq H nöqtəsində deyil, F nöqtəsində əldə olunardı və L LF-ə qədər artardı, ödənişlərin həcmi Y*** təşkil edərdi.**

**Beləliklə, AH kəsiyi pul ödənişlərinin təhrifedici təsiri İlə şərtlənən xalis itkilərdir.**

**tndi isə natural ödənişlər və ya ayrı-ayrı əmtəə və xidmətlərin alınmasına yardım formasında verilən yardımla bağlı vəziyyəti nəzərdən keçirək. Pul ödənişləri ilə müqayisədə natural ödənişlər daha güclü təhrif edici təsir göstərir**

**lər. Hətta ən kiçik <ınaturallaşdırma» zamanı belə istehlakı ictimai vəsaitlər hesabına dəstək tapmayan başqa subsidiya buraxılan əmtəə və ya xidmətlərin əvəzlənməsinin həvəsləndirilməsi baş verir.**

**Şəkil 24.12-də dövlət tərəfindən nemətin 50%-nin subsidiya olunması (məsələn, mənzilin kirayə haqqının 50%-nin subsidiyası) halı təsvir olunmuşdur. Subsidiya olunmasını həmin nemətə qiymətin azaldılması kimi təhlil etmək olar. Subsidiya alandan sonra fərd gəlir və əvəzləmə effektinin təsiri nəticəsində öz davranışını dəyişir. Gəlir effekti (İE) özünü fərdin bir qədər varlanması, bəzi yeni resurs imkanlarının onun üçün əlçatan olması və onun daha yüksək fərqsiz- lik əyrisinə keçməsində göstərir. Digər tərəfdən, subsidiya olunan nemət (mənzil) onun üçün nisbətən daha ucuz olur və fərd bununla başqa nemətlərin istehlakını əvəzləyir. Əvəzləmə effekti (SE) özünü burada göstərir.**




**Şəkil 24.12. Subsidiyaların təhrifedici təsiri**

**Subsidiyaların təhrifedici təsiri özünü əvəzləmə effektinin mövcud olması nəticəsində fərdin subsidiya olunan nemətdən həddindən artıq çox istifadə etməsində və buna dövlətin həddən artıq çox resurs xərcləməsində göstərir. Verilən subsidiyaların həcmi köhnə (BLı) və yeni (BLg) büdcə məhdudiyyətləri arasındakı şaquli məsafəyə bərabərdir.**

**halbuki fərdi həmin daha yüksək fərqsizlik əyrisinə keçirə biləcək qeyri-məqsədli pul ödənişlərinin həcmi BL^-lə gəlir effektini əks etdirən və ona paralel olan qınq-qınq xətt arasındakı şaquli məsafəyə bərabərdir. Nəticədə BL2 ilə BLj-ə paralel qırıq-qırıq xətt arasındakı məsafəyə bərabər artıq vəsait xərci (xalis itkilər) yaranır.**

**Fərdin natural kömək almasının, məsələn, ona müəyyən sahəli mənzilin pulsuz verilməsinin nəticələri şəkil 24.13-də şərh olunmuşdur.**

**YQCO xətti köməyin olmaması vəziyyətində fərdin büdcə məhdudiyyətini göstərir. Əgər fərd CL məbləğində pulsuz fərdi nemət alırsa (müəyyən yaşayış sahəsindən pulsuz istifadə üçün mənzil vauçeri), onda 0 həmin miqdarda nemətin istehlakı ilə məhdudlaşa, yaxud onun dəyərinin bir qismini ödəməklə daha çox nemətdən istifadə edə bilər. Bu halda fərdin büdcə məhdudiyyəti paralel yerini dəyişir (AB xətti), lakin üfüqi parça (YQA) da meydana gəlir, çünki istehlakın minimum həcmi verilib və fərd mənzil vauçerindən başqa məqsədlər üçün deyil, yalnız mənzil haqqının ödənilməsi üçün istifadə edə bilər.**




**Şəkil 24.13. Natural yardım**

**Yeni tarazlıq AB parçası üzərində əldə olunursa, xalis itkilər yaranmır, çünki bu halda əvəzləmə effekti olmur.**

**Əgər fərqsizlik əyriləri şəkil 24.13-də təsvir olunduğu kimi yerləşərsə, tarazlıq A nöqtəsində yaranar (künc həlli) və fərdə maksimum faydalılıq gətirən istehlak səviyyəsi (C*) onun üçün əlçatmaz olur. Belə vəziyyətin yaranmasının səbəbi ondadır ki, natural yardım edən cəmiyyətin minimum zəruri nemətlər istehlakı haqqında öz müəyyən təsəvvürü var və bu da ayrılıqda götürülmüş fərdin təsəvvürləri ilə üst-üstə düşməyə bilər.**

**Yardım proqramlarının doğurduğu təhrifləri minimallaşdırmaq nöqteyi-nəzərindən pul forması daha əlverişlidir, çünki fərd gəlirlərini özü bölüşdürmək və tələbatlarını maksimum dolğunluqla ödəmək imkanı əldə edir. Yardım natural məhsulların verilməsi və ya ayrı-ayrı məhsullara subsidiya formasında həyata keçiriləndə isə fərdə müəyyən dərəcədə proqramı hazırlayanların üstünlükverimləri “qəbul etdirilir”. Bundan başqa, eyni zamanda həyata keçirilən bir neçə naturallaşdınımış proqramın təhrifləri üst-üstə gəlir və proqnozlaşdırma və təhlil üçün çətinlik yaranır.**

**Yaranan təhriflərə baxmayaraq, natural yardım formasının bir sıra üstünlükləri var. İstehlakçıların nemətin xarakteristikaları haqqında məlumatlanma səviyyəsi aşağıdırsa, inzibati qərarlar daha yaxşı ola bilər. Bundan başqa, onlar müəyyən nemət növünün istehlakını dəstəkləyir və vəsaitlərin təyinatına görə xərclənməməsinə imkan vermirlər. Axı, fərdin pul şəklində aldığı vəsait, məsələn, uşaqların təhsilinə deyil, alkoqol alınmasına xərclənə bilər. Bu halda, bir tərəfdən yardım alan fərdlərin, digər tərəfdən isə cəmiyyətin (vergi ödəyiciləri) üstünlükverimlərinin qarşılıqlı asılılığı**

# XXV FƏSİL. BAZARIN İFLASI NƏZƏRİYYƏSİ

*§1. Eksternalilər (xarici təsirlər) və onların təsnifatı.*
*§2. Xarici effektlərin neytrallaşdırma zərurəti və üsulları.*
*§3. İctimai və xüsusi nemətlər. E.Lindal tarazlığı, K.Tibu modeli.*
*§4. Asimmetrik informasiya. «Limonlar» bazan.*

**Bazarın iflası məsələsi müasir Rusiya iqtisadiyyatının inkişaf perspektivləri üçün yalnız nəzəri deyil, həm də sırf praktik əhəmiyyətlidir. Bazar bir növ iqtisadi səmərəlilik etalonu kimi nəzərdən keçirilir. Bunun üçün isə bilmək lazımdır ki, görəsən, bazar həqiqətən idealdırmı? Yoxsa onillik iqtisadi islahatlar növbəti, bu dəfə bazar utopiyasının reallaşmasıdır. Dünya iqtisadi nəzəriyyəsi çoxdan, yüz ildən artıqdır ki, bazar iflası problemi, bu iflasların nəticələrinin «yumşaldılması* yollarının axtarılması ilə məşğuldur. Əmtəənin qiyməti həmin əmtəənin ictimai istehsal xərclərinə bərabər olanda və əmtəənin alıcı üçün əhəmiyyəti həmin əmtəənin cəmiyyət üçün sərfəliliyi ilə üst-üstə düşəndə bazar yaxşı işləyir. Amma istehsal xərcləri və qazanc hərdən bazar qiymətlərində tam əks olunmurlar. Bu aşağıdakı hallarda baş verir;**

- **kənar effektlər yarandıqda;**
- **ictimai nemətlərin istehsalı və istehlakında;**
- **asimmetrik informasiyada.**

**Bazar iflaslarına həmçinin aiddir:**

- **inhisar (qeyri-təkmil rəqabət);**
- **risk və qeyri-müəyyənlik.**

**Bu problemlər müvafiq bölmələrdə nəzərdən keçirilirlər.**

## *§1. Ekstemalilər (xarici effektiBr) va onlarm tasnifatı*

**Bazar iqtisadiyyatında hər bir transaksiya iki kontragentin: alıcı və satıcının iştirakını nəzərdə tutur. Sövdə ilə bağlı tərəflərin hər biri müəyyən xərc çəkir, lakin müəyyən xeyir də görür (faydalılıq, mənfəət).**

**Bununla yanaşı sövdələrin çoxu istər-istəməz sövdədə iştirak etməyən üçüncü şəxslərin maraqlarına da toxunur. Belə effektlər sövdənin üçüncü şəxsləri effekti adını almışdır. Bu kimi fenomeni adlandırmaq üçün iqtisadi ədəbiyyatda bir sıra sinonimlərdən istifadə olunur; xarici effektlər, kənar effektlər, köçürmə effekti, ekstemalilər.**

**Xarici effektlər üçüncü şəxslər üçün müsbət və ya mənfi ola bilirlər. Xarici effektlər istehsalla və ya istehlakla bağlı ola bilirlər.**

**Xarici effektlər — bilavasitə maddi və ya pul məsrəfləri etməyən, lakin başqalarının fəaliyyətinin kənar nəticələrindən istifadə edən adamlara çatan xərclər və ya mənfəətlərdir.**

**Ekstemalilərin dörd əsas növünü və onların sosial səmərəliliyə təsirini nəzərdən keçirək.**

**Mənfi xarici effektlər:**

**1. İstehsalın xarici xərcləri: MSC=MPC-I-MEC, burada MSC - ictimai son hədd xərcləridir (marginal sosial cost).**

**MPC - xüsusi son hədd xərcləridir (marginal private cost).**

**MEC - xarici son hədd xərcləri (marginal external cost).**

**MEC= MSC-MPC, yəni MSC>MPC.**

**Əgər ictimai son hədd xərcləri xüsusi son hədd xərclərindən çox olarsa, xarici effekt mənfi olar.**

**Cəmiyyət üçün optiraum: MSC = MSB və ya MSC = P.**

**İstehsalçı üçün optimum; MPC = MPB və ya MPC = P, burada MSB - sosial son hədd qazancıdır (marginal sosial benefit).**

**MPB - xüsusi son hədd qazancıdır (marginal private benefit).**

**Buna misal xüsusi müəssisənin işi nəticəsində suyun**

**torpağın, havanın çirklənməsidir. Bu halda ictimai son hədd xərcləri müəssisə sahibinin xüsusi son hədd xərclərindən çox olacaq. Qrafik olaraq bu şəkildə (şəkil 25.1) MSC əyrisinin istehsal olunmuş məhsulun təklifini səciyyələndirən MFC əyrisinə nəzərən yerini sola dəyişməsində əksini tapır. Məhsulun bazarda müəyyənləşmiş sabit qiymətində tələb əyrisi P səviyyəsindəki üfiqi xətlə göstərilə bilər.**




**Şəkil 25.1. İstehsalın mənfi xarici təsiri**

**Bu halda firmanın tarazlıq nöqtəsi Qı istehsal həcminə müvafiq olacaq. Cəmiyyətin maraqlarını gözləmək üçün isə ekoloji cəhətdən zərərli istehsalı Q2 səviyyəsinə qədər azaltmaq, yəni istehsalın mənfi effektini (MEC) (Qı • Q2) həcmdə ləğv etmək lazımdır. Cəmiyyət üçün optimum: MSC = MFC; xarici effektin olmamasıdır. Bu zaman qeyd etmək lazımdır ki, belə optimum kənar mənfi effektin tam olmaması demək deyil, bununla belə zərər xeyli azalır.**

**2. İstehlakın xarici xərcləri MSB < MPB**

**MPB = MSB + MEB,**

**burada MEB - xarici son hədd qazanclarıdır.**

**Mənfi kənar effektlər hər hansı bir məhsulun istehlakından sosial qazancları azaldırlar. Məsələn, tütün və ya alkoqoldan istifadə həm istehlakçıların özlərinin, həm də**

**millətin (gen səviyyəsində) sağlamlığını pisləşdirir. Belə istehlakdan sosial qazanclar azalır. Qrafik şəkildə bunu MSB əyrisinin MPB əyrisindən sola yerdəyişməsi kimi şərh etmək olar (şəkil 25.2).**




**Şəkil 25.2. İstehlakın mənfi effekti**

**İstehlakın optimumu: MPB = MPC, CəmijT^ətin optimumu: MSB = MSC. Qrafik göstərir ki, istehlakçının və cəmiyyətin optimal istehlak həcmləri üst-üstə düşmür. Cəmiyyət tütünün, alkoqolun istehlakının Q^ -dən Q= -yə qədər azalmasında maraqlıdır.**

**Müsbət xarici effektlər**

**1. İstehsalın xarici qazandan. MSC<MPC. Məsələn, müəssisə öz fəhlələrinin hazırlanmasını həyata keçirir, onları mənzillə təmin edir. Bu sosial siyasət kadrların təkmilləşməsi və müəssisəyə bağlanması sahəsində firmanın xüsusi xərclərini təşkil edir. Əgər sonradan bu işçilər başqa firmaya keçsələr, onda məhz həmin firma və bütövlükdə cəmiyyət hazır ixtisaslı iş qüvvəsi alar, yəni xüsusi firmalardan biri bu xərcləri öz üzərinə götürdüyündən sosial xərclər azalar. Lakin firma xeyriyyəçilikdə maraqlı deyil, buna görə də onun hazırlanmasına xüsusi xərcləri cəmiyyət üçün lazım olandan xeyli az olacaq.**




**Şəkil 25.3. İstehsalın müsbət xarici effekti**

**Qrafikdən (şəkil 25.3) görünür ki, firmanın MPC xüsusi xərcləri sosial optimal xərclərindən (MSC) azdır: Q2<Qı.**

**İstehsalçının optimumu: MPC=MPB və ya MPC = P,**

**Cəmiyyətin optimumu: MSC=MSB və MSC=P.**

**2. İstehlakın xarici qazancları. MSB>MPB. Təhsil alarkən, ümumi mədəni səviyyəsini yüksəldərkən insan özü üçün məmnunluq və fayda əldə edir. Eyni zamanda cəmiyyət də əlavə fayda: daha ixtisaslı iş qüvvəsi, daha az cinayətkarlıq, daha yüksək institusional inkişaf səviyyəsi: əxlaq, mənəviyyat və s. əldə edir. Bu halda sosial son hədd qazancları xüsusi qazanclarda üstündür və cəmiyyətin fikrincə, xüsusi istehlakçı bu nemətlərdən kifayət qədər istifadə etmir. Qra- fikdə (şəkil 25.4) xüsusi istehlakın tarazlıq həcminin sosial optimaldan az olduğu göstərilmişdir: Q2<Qı-**

**istehlakçının optimumu: MPB =MPC və ya MPB = P.**

**Cəmiyyətin optimumu: MSB = MSC və ya MSB = P.**

**Dörd əsas xarici effekt növünün nəzərdən keçirilməsi aşağıdakı nəticəyə gəlməyə imkan verir: bazar iqtisadiyyatı mənfi kənar effekt verən istehsal və istehlakı həvəsləndirir, müsbət kənar effektlə bağlı olan istehsal və istehlakı həvəsləndirmir.**

**Beləliklə, bazar sistemi cəmiyyət üçün zərərli olan əmtəə və xidmətlərin artıq istehsalına və artıq istehlakına rəvac**




**Şəkil 25.4. İstehlakın müsbət xarici effekti**

**verir, cəmiyyət üçün faydalı olan əmtəə və xidmətlər isə əksinə, az istehsal və istehlak olunurlar.**

**İqtisadiyyatın qloballaşması xarici effektlərin beynəlmiləlləşməsinə gətirib çıxarır. Buna misal planetimizdə dəhşətli şəkildə artan «istixana effektimdir. Bu hadisənin nəticələri artıq nəzəri proqnozlar deyil, müasir gerçəkliyin reallıqlarıdır (Antarktida buzlarının ərimәsi, Dünya okeanı səviyyəsinin qalxması). Xarici effektlərin beynəlmiləlləşməsinə başqa bir misal atom sənayesinin inkişafı və onun istehsal tullantılarının basdırılması üçün yer axtarılmasıdır. Amma bu tullantılar üçün inkişaf etmiş ölkələr tərəfindən «zibilxanam nın daha az inkişaf etmiş ölkələrin ərazisində tapılması «qızıl milyardm ölkələri üçün problemin müvəqqəti həllidir. Planet üçün «kənar m xarici effekt onun mövcudluğu üçün fəlakət ola bilər.**

**Həmin sözləri Yer kürəsində meşələrin, o cümlədən Amazonka meşələrinin qırılması haqqında da demək olar, çünki bunun «kənarm mənfi effekti atmosferin həcminin azalması və son nəticədə Yerdə həyat üçün pis nəticələrdir.**

**Xarici effektlər problemi iqtisadçıların diqqətini çoxdan cəlb edirdi, buna diqqət xüsusilə XX əsrdə, bazar münasibətlərinin həvəsləndirdiyi elmi-texniki tərəqqi əsrində artdı. Həyatda olan hər şey kimi, bazar da ziddiyyətlidir: bu,**

**tərəfdən insanın yaradıcılıq qabiliyyətlərin və müvafiq olaraq cəmiyyətin texniki tərəqqisini olduqca güclü həvəsləndirir, digər tərəfdən isə bazar münasibətləri inkişaf etdikcə bazarın «iflası» dərinləşir, xüsusi və ictimai xərclər arasında uyğunsuzluq, mənəviyyat və əxlaqın tənəzzülü daha aşkar görünür. Sistem şəraitində insanın təsərrüfat fəaliyyətinin kənar effektlərini necə nəzərə almaq və mümkündürsə, necə zəiflətmək olar?**

### *§2. Xarici effektlərin neytrallaşdırma zərurəti və üsulları*

**Xarici effektlərin neytrallaşdırılmasının zəruriliyi hazırda aydındır. Hələ XIX əsrin əvvəllərində iqtisadçılar tam ciddiyyətlə parovozların qığılcımlarının fermer sahələrinə zərəri məsələsini müzakirə edirdilər. Müasir təsərrüfatçılıq şəraitində xarici effektlər problemi xeyli kəskinləşmişdir.**

**Eksternalilər nəzəriyyəsinin işlənilməsi sahəsində ingilis iqtisadçısı A.Piqunun xidmətləri böyükdür. 1912-ci ildə «Sərvət və rifaha, daha sonra 1921-ci ildə isə «Rifahın iqtisadi nəzəriyyəsi» əsərlərində yazırdı ki, iqtisadi sistemin işləməsində qüsurlar (kənar mənfi effektlər) aşkarlanıbsa, vəziyyəti düzəltmək üçün hökumətin işə qarışması lazımdır. «Dövlət müdaxiləsi* adlı fəsildə o, milli maraqlara zidd olan xüsusi maraqların məhdudlaşdırılması üçün dövlət müdaxiləsinin zəruri olmasından danışır. Piqu eyni zamanda dövlətin də uğursuzluqlarım qeyd edir: dövlət idarələrinin qulluqçuları şəxsi maraqlar naminə cəhalətə, qrup təzyiqinə və korrupsiyaya meyllidirlər. Bununla belə A.Piqu hesab edir ki, cəmiyyətdə, o cümlədən İngiltərədə müsbət dəyişikliklər baş verir: düzlük və təmənnasızlıq əvvəllərə nisbətən artır, müasir seçicilər isə hakimiyyətdən və imtiyazlardan sui-istifadənin qarşısını almağa qabildirlər. Buna görə də istənilən dövlət idarəsi tərəfindən istənilən müdaxilənin hazırda əvvəlkilərə nisbətən daha səmərəli olacağı ehtimalı artır. Piqu ümidlə**

**rini hökumət idarələrinin, onların quruluşunun, iş metodlarının təkmilləşməsinə bağlayır və güman edir ki, bu, onların iqtisadiyyata xoş müdaxiləsini və heç kim tərəfindən məhdudlaşdırılmayan xüsusi müəssisələrin qeyri-təkmil tənzimləmə mexanizminə təsirini təmin edəcək^**

**Xüsusi son hədd xərclərinin (müvafiq olaraq həm də qazanclarının) sosial son hədd xərclərinə (qazanclarına) yaxınlaşmasını A.Piqu tənzimləyici vergi və subsidiyaların tətbiqi yolu ilə təmin etməyi təklif edir.**

**Tənzimləyici vergi - xüsusi son hədd xərclərini ictimai son hədd xərcləri səviyyəsinə qədər qaldıran mənfi xarici effektə malik iqtisadi nemətlər istehsalına qoyulan vergidir. Havanın müəssisə tərəfindən çirkləndirilməsi ilə bağlı misalımızda T(fax. vergi) ^ MEC xarici son hədd xərclərinə bərabər vergi bazar tarazlığını səmərəli tarazlığa, xüsusi son hədd xərclərini sosial son hədd xərclərinə yaxınlaşdıra bilərdi.**

**MPC=MSC**

**Tənzimləyici subsidiya - xüsusi son hədd qazanclarını ictimai son hədd qazancları səviyyəsinə qədər qaldıran müsbət xarici effektə malik iotisadi nemətlər istehsalçısına və ya istehlakçısına verilən subsidiyalardır.**

**MPB=MSC**

**Tənzimləyici vergilər və subsidiyalar MSB = MSC sosial səmərəliliyi təmin edirlər.**

**Tənzimləyici vergile^^ və subsidiyalar kənar effektlərin doğurduğu problemləri cam həll etmirlər. Birincisi, real praktikada tam dəqiqlik'a son hədd xərclərini və qazancları hesablamaq olduqca çətindir. İkincisi, mənfi xarici effektlə səciyyələnən nemətlər istehsalçılarının ödədiyi tənzimləyici vergilər heç də həmişə qarşıda qoyulmuş məqsədə yetmir.**

**1 Bax: Koya P.OwpMa,** pwHOK, upaBO. MocKBaıJJeJio, **1993. C.22-23.**

**Bu problemin həllinə marjinal yanaşma bu məktəb üçün ümumi olan çatışmazlıqlara malikdir: konkret məsələlərin mücərrəd həlli, real həyati irrasionallıq şəraitində hədsiz rasionallıq, cəmiyyətin iqtisadi həyatında müxtəlif institutların fəaliyyətinin mürəkkəbliyinin tam nəzərə alınmaması.**

**Marşalı və Piqu dövründən etiraf olunmuşdu ki, eksternalilərin (kənar effektlərin) mövcudluğu hökumətin bazar iqtisadiyyatına müdaxiləsini zəruri edir. Əsas tənzimləmə növləri bunlardır: bu effektlərin səbəbkarlarına vergi qoyulması və ya müəyyən firma və ya fərdlərin fəaliyyətinin birbaşa tənzimlənməsi.**

**Bizim dövrümüzdə eksternalilər nəzəriyyəsi Nobel mükafatı laureatı R.Kouzun əsərlərində inkişaf etdirilmişdi. Lakin bu yanaşmanın ciddi çatışmazlıqları var. A.Piqunun tədqiqatını təhlil edərkən R.Kouz qeyd edir ki, «ekstemalilərin» olması hələ hökumətin müdaxiləsi üçün *prima facie* vəzijryətinin yaranması deyil, «əgər bu ifadə hər hansı başqa mümkün yolu deyil (bura müdaxilə edilməməsi, hökumətin əvvəlki siyasətindən imtina etməsi və ya bazar transaksiyalarının asanlaşdırılması), «eksternalilərin* hökumət müdaxiləsinə bəraət qazandırması deməkdirsə (vergiqoyma və ya tənzimləmə)**

**Piqunun mövqeyini şərh edərək Kouz qeyd edir ki, ı«kənar effektləri olduqca dəyişkəndir, vergilər əlavə xərclərlə bağlıdır, kompensasiyanı məhz zərərçəkənin alacağına heç bir təminat yoxdur. Kouz Piqonun dövlət komissiyalarının düzlüyü haqqında xəyallarına tənqidi yanaşır. Bundan başqa, hökumətin müdaxiləsi ictimai (sosial) xərcləri daha da artırar. Hökumət maşınının özü belə xərcsiz işləınlr, səhvlər də ola bilər, siyasi təzyiq vasitələrindən də istifadə oluna bilər. Bundan Kouz belə bir nəticəyə gəlir: hökumətin bilavasitə müdaxiləsi heç də həmişə problemin bazarın və ya firmanın öz öhdəsinə buraxılmasından yaxşı nəticə vermir.**

**1 Bax; Koys P.<X>HpMa, puHOK, npaso. C.26.**

**Deyək ki* bir fermer mal-qara saxlamaqla, digəri isə buğda yetişdirməklə məşğul olur. Gözdən yayınan mal-qara qonşunun əkinini yeyir. Dəyən zərəri ödəməli olan qonşu naxınn böyüklüyü barədə qərar qəbul edəndə hər şeyi ölçüb-biçir. Əlavə istehsal olunmuş ətin dəyəri (heyvanların kəsiləcəyi ehtimal olunur) əlavə xərcləri, o cümlədən qonşunun korlanmış əkininin dəyəri də daxil olmaqla, üstələməyincəyə qədər o, mal-qaranın sayını artırmayacaq. Fermer də öz növbəsində əkin sahəsinin artırılması məsələsini həll edəndə sahənin bir qisminin qonşunun heyvanları tərəfindən korlanmasını nəzərə almaqla az taxıl satarsa, qazancının necə dəyişiləcəyindən çıxış etməlidir. Maldar korlanmış məhsulun əvəzini bazar qiyməti ilə ödəsə, o çox güman əvvəlki istehsal həcmini saxlayar. Kouzun fikrincə, belə hallarda tərəflərin əlverişli sövdəsi üçün şərait yaranır.**

**Fermer və maldar razılığa gələ bilərlər ki, mal-qaranın su içmə yerinə gedən cığırı boyunca olan sahəni fermer əkməsin. Maldar isə ya həmin əkilməmiş sahənin pulunu fermerə ödəyir, ya da fermerin verdiyindən daha çox pul verməklə həmin sahəni torpaq sahibindən özü icarəyə götürür. Hər halda tərəflər optimal variantı tapırlar. Ən əsası odur ki, tərəflərin hüquqları dəqiq müəyyənləşdirilmiş olsun.**

**R.Kouz teoreminin mahiyyəti aşağıdakı kimi müəyyənləşir; kənar effektlər problemi maraqlı tərəflərin razılaşması yolu ilə həll oluna bilər.**

**Belə razılaşma arzuolunandır, lakin həmişə mümkün olan deyil. Onun əldə olunması şərtləri:**

- **mülkiyyət hüququnun dəqiq müəyyənləşdirilməsi;**
- **az şəxsin iştirakı ilə bağlanan müqavilənin dəyərinin nisbətən aşağı olması.**

**Mülkiyyət hüquqları dürüst müəyyənləşdirilibsə, tərəflərin arzu edilən nəticəyə gəlməsi nisbətən asandır. Tərəflər dövlətin müdaxiləsi olmadan özləri mübahisəli məsələləri həll etməyə qabildirlər. Ziddiyyətləri və iddiaları aradan qaldırmağa bazar və onun infrastrukturu kömək edər. Zərurisi**

**mülkiyyət hüququnu müəyyən etməkdir. Mülkiyyət normaları və hüquqlarının müəyyənləşdirilməsində təsərrüfat fəaliyyətinin bütün iştirakçıları: həm istehsalçılar, həm istehlakçılar, həm resurslardan istifadə edənlər, həm zərər vurulanlar - maraqlıdırlar.**

**Xərcləri azaldan, onları optimal həddə endirən mexanizm nə vergilər, nə Dövlət arbitrajı deyil, bazar razılaşmaları və iştirakçıların özlərinin sövdələşmələridir. Başqa sözlə, mülkiyyət hüququ müəyyənləşibsə vo gözlənilirsə, onda dövlət orqanlarının inzibati müdaxiləsinə səbəb yoxdur. Onun əsas vəzifəsi bu hüquqları təmin etməkdir. Bu vəziyyət D.Stiqlerin R.Kouz teoreminin şərhinə müvafiqdir: «təkmil rəqabət şəraitində xüsusi və sosial iərclər bərabərdir^.**

**Amma hazırda təkmil rəqabət utopiyadır. Əgər mübahisəyə çox adam, ölkə cəlb olunubsa və mənfi effektlər dəsti xeyli böyükdürsə, razılaşma əldə etmək olduqca çətindir. Müasir təsərrüfatçılıq şəraitində xiısusi və ictimai nemətlərin nisbəti ciddi əhəmiyyət kəsb edir.**

## *§3. İctimai V9 xüsusi nemətlsr. E.Lindal tarazlığı, K.Tibu modeli*

**İstehsalçılar tərəfindən təklif olunan və istehlakçılar tərəfindən tələb olunan nemətlərin çoxu şəxsi istifadə üçün nəzərdə tutulan və ya xüsusi neməllərdir. Nemət, əgər bir anda yalnız bir şəxs tərəfindən istelılak oluna bilərsə, xüsusidir. Nemət, hətta bir şəxs tərəfindən istehlak olunduğu halda başqaları tərəfindən də istehlakı mümkündürsə, ictimaidir. İctimai nemətlərin çoxu xüsusi bazarlar tərəfindən təmin edilmir. Bu da təsadüfi deyil. Bu hər şeydən əvvəl ictimai nemətlərin aşağıdakı xüsusi y^'ətlərə malik olması ilə bağlıdır:**

**■ daxililifc (və ya biletsiz problemi *free rider* - biletsiz gedən). *Free rider* - istehsalı xərc loləb edvin, lakin ona görə heç nə ödəmədən həmin nemətdən istifadə edən kəsdir.**

**Məsələn, milli müdafiə. Pulsuz istifadə problemini (bazar tərəfindən həll olunmayan) həll etmək üçün cəmiyyət müdafiəyə nə qədər xərcləmək lazım olduğunu birgə həll etməyin yollarını tapmalıdır. Belə qərarları isə məhz dövlət qəbul etməlidir;**

**■ sıfır son hədd xərcləri. Nemətdən istifadə edən şəxslərin sayı artdıqda xərclərin artması baş vermir. Məsələn, mayakın işığı;**

*m* **bölünməzlik, bu da daxillik ilə sıx bağlıdır. Nemət o qədər böyükdür ki, fərdi alıcıya satıla bilməz (məsələn, milli müdafiə, hava və s.);**

**■ müsbət xarici effektlərin, yəni bütövlükdə cəmiyyət üçün faydalılığın səviyyəsinin yüksək olması. Bu kimi nemətlərin bazar tərəfindən istehsalı mümkün deyildir, çünki bölünməməzlik və daxililik prinsipləri fəaliyyət göstərir.**

**İctimai nemətlərə milli müdafiə, mayaklar, polis mühafizəsi, daşqınlar, zərərli həşaratlar, xəstəliklərə qarşı mübarizə proqramları aiddir. İqtisadiyyatın qloballaşması Yer kürəsi əhalisi üçün həyat şəraitinin qorunub saxlanılması kimi ictimai nemətin yaranmasına səbəb olacaq.**

**İctimaiyə bənzər nemətlər də mövcuddur. Bu, təhsil sistemi, kitabxanalar, muzeylər, avtomobil yolları, yanğından mühafizə, kanalizasiya, profilaktik səhiyyə kimi nemətlərdir. İctimai nemətlərdən onların fərqi ondadır ki, bu nemətlərin haqqını ödəməyən insanlar onların istehlakı prosesindən kənarlaşdırıla bilərlər. Yalançı ictimai nemətlər bölünəndir və bazar tərəfindən istehsal oluna bilirlər. Lakin onlar müsbət xarici effektlər və ya köçürmədə xeyli mənfəət olduğundan çox vaxt dövlət tərəfindən təmin edilirlər. Bəzi hallarda, söhbət muzeylər, avtomobil yolları, kanalizasiya sistemi kimi əmtəə və xidmətlərdən gedəndə, ictimaiyə bənzər nemətlərilə bağlı son hədd xərcləri sıfra yaxındır.**

**İctimaiyə bənzər nemətlər arasında ilkin tələbat əmtəələri seçilir. Bu, dövlətin belə tədbirlərin cəmiyyətin maraqlarına xidmət etməsi fikri ilə dəstəklədiyi və ya əks-təsir göstərdiyi**

**(mənfi keyfiyyətli nemətlər) nemətlərdir. Məsələn, təhsilə, səhiyyəyə, kitabxanalara vəsait, siqaretə, alkoqola isə vergi qoyuluşu.**

**İctimai nemətlərin mövcud verilmə praktikası könüllü razılaşma nəticəsində deyil, icbari vergi qoyulması yolu ilə maliyyələşir. Lakin iqtisadi nəzəriyyədə ictimai nemətlərin verilməsinin təhlilinə başqa yanaşma mövcuddur. Bu, könüllü mübadilə modelidir (voluntary-exchange model public goods). Könüllü yanaşma ilk dəfə K.Vikselem (1851-1926) tərəfindən təklif olunmuşdu. İsveç iqtisadçısı bildirirdi ki, hər bir ictimai nemət, birincisi, xüsusi vergi hesabına maliyyələşməlidir, ikincisi isə, həmin nemətin hansı miqdarda verilməsi barədə cəmiyyətin bütün üzvlərinin yekdilliyi lazımdır. Fərdlər əvvəlcə verəcəkləri vergi barədə məlumatlandırılmalıdırlar. Sonra nemətin verilmə səviyyəsi barədə məsələ həll olunmalıdır.**

**Təhlil E.Lindal tərəfindən genişləndirilmişdi. Onun modelinə görə verginin də, verilən nemətin də həcmi müzakirə obyektidir. Lindal modelində müvazinətə nail olmaq üçün hər bir fərdin ödədiyi vergi həmin fərdin aldığı nemətin son hədd faydalılığına (marginal utility) tam bərabər olmalıdır.**

**Bu müddəanı iki şəxsdən ibarət (A və B) cəmiyyət üçün aşağıdakı qrafiklə şərh etmək olar (şəkil 25.5). Üfüqi oxda nemətin miqdarını, şaquli oxda isə verginin tam kəmiyyətində hər bir fərdin payını göstərək.**

**A-nın ödədiyi vergi payı aşağıdan yuxarı, B-nin ödədiyi isə yuxarıdan aşağı artır. DA əyrisi müxtəlif vergi paylarında A-nın əldə etmək istədiyi nemətin miqdarını göstərir. A- nın məsrəf payı azaldıqca, onun arzu etdiyi nemətlərin səviyyəsi artır.**

**DB əyrisi B-nin üstünlükverimlərini göstərir və yenə də məsrəflər azaldıqca, arzu olunan nemətlərin miqdarı artır.**

**Lindal tarazlığı Qj nöqtəsində, verginin A və B arasında S nisbətində bölgüsü zamanı yaranır.**




**Şəkil 25.5. Lindal tənllyi**

**Viksel və Lindal modellərində ictimai nemət elə verilir ki, hər kəsə onun alınmasından qazanc təmin edilir, yəni nemətin verilməsi həmişə Pareto (Pareto improvement) üzrə yaxşılaşmadır. Lindal təhlili buna belə bir şərt əlavə edir: hər bir fərd vergi ödənilməsindəki hazırkı iştirak payına görə ən arzuolunan və ya «optimaU miqdarda ictimai nemət istehlak edir.**

**Modelin intuitiv cəlbediciliyinə baxmayaraq, onun praktik tətbiqi ciddi çətinliklərlə bağ^lıdır. Məsələn, yekdilliklə həllin əldə olunması problemi və fərdlərin öz əsl üstünlükve- rimlərini gizlədə bilmək imkanı (yəni onlar «biletsiz* - free riders - olmağa can ata bilərlər) bu modelin praktik əhəmiyyətini azaldır.**

**Yekdillik qaydasından, kollektiv seçim (collektive choice) qaydasından istifadə də könüllü mübadilə qaydası kimidir (Lindal tənliyi). O tələb edir ki, qərarın qəbul olunmasına qədər onun qəbul edilməsinə təsir edən bütün cəmiyyət üzvləri tərəfindən təqdir olunsun. Təcrübədə bu qaydanın tətbiqi çətinliklərlə üzləşir və çox vaxt tələb edir.**

**1956 -cı ildə K.Tibu ictimai xidmətlər təklifinin Öz modelini təklif etdi, söhbət kommunal xidmətləri kimi ictimai nemətlərdən gedirdi. Modelin mahiyyəti belədir: kommunal xidmətləri yerli idarə tərəfindən təklif olunursa, fərdlər bu**

**xidmətlərə münasibətdə öz üstünlükverimlərini nümayiş etdirə, onları arzu etdikləri dəstdə və müxtəlif yerli idarələrə aid olan ərazilər arasında yerlərini dəyişməklə üstünlükverimlərinə müvafiq olan vergiləri əldə edə bilərlər. Təhlil nəzərdə tutur ki, müxtəlif xidmətlər dəsti və vergilər təklif edən çoxlu sayda yerli icmalar var ki, fərdlər onlar arasında seçim edə bilərlər. Ehtimal olunur ki, insanlar yerli vergi və xidmətlərdən asılı olaraq yerlərini dəyişəcəklər.**

**İctimai nemətlərin istehlakı və istehsalı çoxamilli, mürəkkəb problemdir. Dövlət və cəmiyyət həmin neməti cəmiyyət üzvlərinin hamısının almalı olduğunu bilərək bu nemətin haqqını kimin ödəyəcəyi və ödəncin nə qədər olması məsələsini həll etməlidir. Cəmiyyət inkişaf etdikcə xüsusi nemətlərə nisbətən ictimai nemətlərin əhəmiyyəti artır, onların istehsalına sosial xərclər çoxalır. İstehsalın səmərəliliyinin yüksəldilməsi məqsədilə transaksiya xərclərinin azaldılması müasir iqtisadiyyatın mərkəzi problemidir. Transaksiya xərclərinin minimallığını təmin edən istənilən hüquqi sistem səmərəlidir. Belə ki, Çen qeyd edir ki, sıfır transaksiya xərclərində «xüsusi mülkiyyət hüququ haqqında ehtimal kənara qoyula bilər və bu Kouz teoremini dəyişməz Maraqlıdır ki, fərdin firavanlığı şəxsi istehlakın maksimumu kimi qavramasının 200-dən bir qədər çox yaşı var. Bu cəmiyyətin sənaye inkişafı dövrünə müvafiqdir. Bundan çox-çox yüzilliklər əwəl və hətta daha sonrakı dövrlərdə də insanlar hərisliyi (şəxsi maraq, nemət) ən ağır günah hesab edirdilər. Pravoslavlarda ticarətçi, sələmçi heç vaxt Allaha xoş olmayıblar. Cəmiyyətin inkişafının sənaye dövrü hərisliyi məziyyətə, əmtəə münasibətlərini (pul qazanmağı) bu cəmiyyətin şüarına çevirdi. Çox güman, tarixin gərdişi sənaye dövründə sosial məsələlərin həllini təmin etdikdən sonra cəmiyyəti əsl həyat dəyərləri barədə düşünməyə vadar edəcək.**

**^ Bax: P.Koys. OHpua, puHOK, npaso. C.**

### *§4. Asimmetrik informasiya. «Limonlar» bazarı*

**Həm istehsalçılar, həm də istehlakçılar üçün informasiya bazarda uğurla fəaliyyət göstərməyin zəruri şərtidir. Əgər qərarların qəbulu keyfiyyətsiz informasiyaya söykənirsə, bazar səmərəli işləməyəcəkdir. Amma real bazar iqtisadiyyatında firmalar və istehlakçılar qərarlarının hamısının nəticələri barədə kifayət qədər yaxşı məlumatlandırılmış olmurlar. Xüsusi bazarlar lazımi keyfiyyətdə və lazımi həcmdə informasiya verməyə də bilərlər. Məsələn, firmalar işçilərinin səhhəti üçün təhlükənin uzunmüddətli nəticələrinin Öyrənilməsində maraqlı deyillər. Kələkbazlığa görə cərimələr olmasaydı, təhlükəli əmtəə istehsalçıları məmulatlarının zərərli olmasını imkan düşdükcə gizlədərdilər.**

**Real gerçəklikdə istehlakçılar və istehsalçılar onların seçimini müəyyənləşdirən bu və ya digər əmtəənin iqtisadi xüsusiyyətləri barədə tam məlumata malik olmurlar. Bir qayda olaraq, onların bir qismi digərindən daha çox məlumatlı olur, yəni söhbət asimmetrik informasiyadan gedir.**

**Asimmetrik informasiya biznesdə çox hallar üçün səciyyəvidir. Bir qayda olaraq məhsulun satıcısı onun keyfiyyəti haqqında alıcıdan çox bilir. Fəhlələr öz bacanq və qabiliyyətlərini sahibkardan yaxşı bilirlər. İşləri idarə edənlər öz imkanlarım müəssisənin mülkiyyətçilərindən daha yaxşı bilirlər.**

**Asimmetrik informasiya müasir cəmiyyətdəki bir çox institusional qaydaları aydınlaşdırır. Bu məfhum nə üçün avtomobil şirkətləri, məişət texnikası istehsal edən şirkətlər yeni modellər üçün təminat və xidmətlər təklif etdiyini; nə üçün firma və işçilərin maraqlar və mükafatlar nəzərdə tutan müqavilələr bağladığını; nə üçün şirkətlərin səhmdarları işləri idarə edənlərin hərəkətlərini nəzarətdə saxlamalarının vacib olmasını anlamağa imkan verir.**

**Asimmetrik informasiya resurs bölgüsünün tənzimlənməsində bazarı imkansız edir. Asimmetrik informasiyanın**

**nəticəsi əmtəənin keyfiyyəti barədə qeyri - müəyyənlik və ya «limonlar bazan» olur. Deyək ki, siz əmtəə almısınız və sonradan başa düşmüsünüz ki, o sizə lazım deyil və onsuz ötüşə bilərsiniz. Həmin əmtəəni satmaq istədikdə siz onu aldığınız qiymətdən aşağı qiymətə təklif edəcəksiniz.**

**Əmtəənin ikinci əldən satışı faktının özü onun qiymətliliyini xeyli aşağı salır. Bu nə üçün baş verir? özünüzü bu vəziyyətdə olan potensial alıcı yerinə qoyun. Sizdə də sahibinin əmtəəni nə üçün satması şübhə doğurardı? Əmtəənin sahibi həqiqətənmi fikrini dəyişib, yoxsa əmtəənin nəsə qüsuru var? Əmtəənin «limonyəni «turş» mal olması istisna olunmur.**

**Məsələn, köhnə maşınların potensial alıcıları onların keyfiyyətindən həmişə və əsaslı olaraq şübhəli olacaqlar. Bu halda əmtəə satıcılarının informasiyası alıcılannkından daha dolğun olur. Məhsulun keyfiyyəti haqqında asimmetrik informasiyanın əhəmiyyəti ilk dəfə D.Akerlof tərəfindən təhlil olunmuşdu. O, köhnə avtomobillər bazarını tədqiq etmişdi. Lakin bu təhlil sığorta, kredit, hətta əmək bazarlarına da tətbiq oluna bilər. İnformasiyanın asimmetrikliyinə görə aşağı keyfiyyətli əmtəələr yüksək keyfiyyətli əmtəələri bazardan sıxışdırıb çıxarırlar. Bunu köhnə avtomobillər bazarının**




**Şəkil 25.6. “Limonlar bazarı”:**
**a-yüksək keyfiyyətli avtomobillər; b-aşağı keyfiyyətli avtomobillər**

**timsalında şərh edək. Deyək ki, iki növ - yüksək və aşağı keyfiyyətli - köhnə avtomobillər var. Həm də fərz edək ki, satıcılar da, alıcılar da eyni dərəcədə tam informasiyaya malikdirlər. Onda qrafik şəkildə bu belə olacaq (şəkil 25.6).**

**DH - anlara tələb əyrisidir (bu maşınların birinin bazar qiyməti 10000 pul vahididir, 50000 ədəd maşın satılır). Şəkil 25.6, b-də eyni qaydada aşağı keyfiyyətli avtomobillərin qiyməti 5000 pul vahidi və həmin miqdarda satışını göstərən tələb və təklif əyrisi verilmişdir.**

**Qeyd edək ki, SH SL -ə nisbətən daha yuxarıdadır, çünki yüksək keyfiyyətli avtomobillərin sahibləri onlarıdan ayrılmağa bir o qədər də həvəsli olmurlar və satsalar, daha yüksək qiymətə satmalıdırlar. Müvafiq olaraq DH DL -dən yuxarıdadır, çünki alıcılar yaxşı keyfiyyət üçün daha çox pul Ödəməyə hazırdırlar.**

**Əslində isə köhnə avtomobili satan onun keyfiyyəti haqqında alıcıdan xeyli çox bilir (alıcı avtomobili alandan və bir qədər sürəndən sonra onun keyfiyyətinə bələd olur). Bu halda nə baş verir? Ahcı əvvəlcə güman edə bilərdi ki, yaxşı maşın almaq şansı 50%-dir. Beləliklə, avtomobil alanda alıcılar onları «orta» keyfiyyətli maşın kimi nəzərdən keçirir-**




a) a)

**Şəkil 25.7. "Limonlar" problemləri: a-yüksək keyfiyyətli avtomobillər; b-aşağı keyfiyyətli**

lər. Yalnız maşını alandan sonra alıcı onun əsl keyfiyyətini müəyyənləşdirir.

Şəkildə DM kimi göstərilmiş orta keyfiyyətli avtomobillərə tələb DH-dən aşağı, lakin DL-dən yuxarıdır. Şəkil 25.6- dan göründüyü kimi indi daha az (25000) yüksək keyfiyyətli və daha çox (75000) aşağı keyfiyyətli avtomobil satılacaqdır.

İstehlakçılar satılan avtomobillərin çox hissəsinin (ümumi sayının 3/4 -ə qədərinin) aşağı keyfiyyətli olduğunu başa düşən kimi tələb dəyişir. Şəkil 25.7-də göstərildiyi kimi, yeni tələb əyrisi DM ola bilərdi. Bu, orta hesabla avtomobillərin keyfiyyətinin aralıq səviyyədən aşağı olduğunu göstərir. Lakin bu halda avtomobillərin ümumi sayı aşağı keyfiyyətlilərə daha yaxın olacaq. Bu yerdəyişmə nəticəsində yalnız aşağı keyfiyyətli avtomobillər satılır. Bu zaman qiymət o qədər aşağı olur ki, yüksək keyfiyyətli avtomobillər satıla bilmir. Buna görə də alıcılar haqlı olaraq güman edirlər ki, alınan avtomobillərin hamısının keyfiyyəti aşağıdır və tələb əyrisi DL -lə üst-üstə düşür. İnformasiyanın asimmetrikliyi səbəbindən aşağı keyfiyyətli əmtəələr yüksək keyfiyyətli əmtəələri bazardan sıxışdırır.

Asimmetrik informasiya problemi bir çox yollarla həll olunur. Məsələn, kredit informasiyası sahəsində bu, kompüterləşmə ola bilər. Doğrudur, burada kommersiya sirri problemi yaranır, lakin kredit bazarının səmərəli işləməsi daha vacibdir.

Etibar məsələsi də «limon» bazarı probleminin həlli vasitələrindəndir. Alıcılar müvafiq etibar qazanmış mağazalardan bazarlıq edirlər, müvafiq etibar qazanmış restorana gedir, mütəxəssisə (elektrik, məişət texnikası ustası və s.) müraciət edirlər.

Lakin etibar məsələsi alıcı və satıcının sınanılmış münasibətləri ilə bağlıdır. Bəs bu olmasa? Məsələn, restoran və ya kafe sürət şosesi kənarındadır. Müştərilərin çoxu ora ya cəmi bir dəfə və ya hərdənbir yola çıxanda gəlir. Bu halda «limon» problemi başqa yolla - standartlaşma vasitəsilə həll

**olunur. Öz doğma şəhərinizdə olarkən siz çətin ki, «Makdonalds^da və ya «Bistro»da qidalanmaq istəyəcəksiniz. Lakin sürət trassasmda olanda siz məhz bu kafeni seçəcəksiniz, çünki burada sizə bu tipli istənilən kafedə satılan və sizə məlum olan standartlaşdırılmış ərzaq məhsulu təklif olunacaq.**

**İnformasiya asimmetrikliyini aradan qaldırmağa imkan verən digər mexanizm bazar siqnallarıdır. Siqnalların konsepsiyası M.Spens tərəfindən işlənib hazırlanmışdır. O göstərmişdir ki, bəzi bazarlarda satıcılar alıcılara əmtəənin keyfiyyəti barədə informasiyanı ifadə edən özünəməxsus siqnallar verirlər.**

**Bazar siqnallarının işləməsini asimmetrik informasiyaları səciyyəvi olan əmək bazarının timsalında nəzərdən keçirək. İşə götürüləndə yeni işçilər öz işlərinin keyfiyyəti barədə (nə dərəcədə məsuliyyətli, intizamlı, peşəkar və s. olmaları) onları işə götürən firmadan çox bilirlər. Sınaq müddətində işçinin qabiliyyətlərinin üzə çıxarılması həmişə qeyri-məhsuldar məsrəflərlə bağlıdır. Buna görə də firma potensial işçinin keyfiyyətlərini səciyyələndirən informasiyanı işə götürməzdən əvvəl almaqda maraqlıdır. Bu informasiya müəyyən siqnallardan formalaşır. Məsələn, işçinin xarici görünüşü: geyim siqnaldır, lakin dəqiq siqnal deyil. «Geyimə görə qarşılayır», lakin tamamilə başqa əlamətə görə yola salırlar. Hətta pis işçilər də iş tapmaq üçün hərdən yaxşı geyinirlər.**

**Təhsil əmək bazarında güclü siqnaldır. Fərdin təhsil səviyyəsi bir neçə göstərici ilə ölçülə bilər: təhsil illərinin miqdarı, alınan təqaüdlər, dərəcəni vermiş universitetin nüfuzu, orta bal və s. Təhsil işçinin səmərəliliyinin vacib siqnalıdır, çünki daha qabiliyyətli adamın daha yüksək səviyyədə təhsil alması daha asandır. Qabiliyyətli insanlar adətən daha intellektual, enerjili, əməksevər olurlar ki, bu keyfiyyətlər təhsil alınan zaman gərəklidir və müvafiq olaraq işçini səciyyələndirirlər. Beləliklə, firma üçün təhsil işçinin imkanları barədə siqnal rolunu oynayır.**

**Təminatlar və öhdəliklər «limonlar» bazarında siqnallar-**

dır. Məsələn, uzun müddət istifadə olunan əmtəələr (televizor, soyuducu, kino və foto ləvazimatları və s.)< Bu əmtəələri çox firma istehsal edir, lakin bunların bir qismi digərlərinə nisbətən daha etibarlıdır. Əgər istehlakçılar hansı markanın daha etibarlı olmasını müəyyənləşdirə bilməsələr, onda daha yaxşı markaları daha yüksək qiymətə satmaq mümkün olmaz. Yüksək keyfiyyətli, etibarlı məhsul istehsal edən firmalar istehlakçıları bu barədə təminatlar və öhdəliklər vasitəsilə məlumatlandırırlar.

Təminatlar və öhdəliklər əmtəənin keyfiyyəti barədə səmərəli siqnallardır, çünki bu kimi uzunmüddətli öhdəliklər aşağı keyfiyyətli əmtəə satanlara yüksək keyfiyyətli əmtəə satanlardan daha baha başa gəlir, çünki istehlakçı təminata görə xidmət tələb edəcək və istehsalçı bunun haqqını ödəməlidir. Buna görə də aşağı keyfiyyətli əmtəə istehsalçısı uzunmüddətli təminatlarda maraqlı deyil. Beləliklə, istehlakçı tamamilə haqlı olaraq təminatları əmtəənin yüksək keyfiyyəti barədə siqnal kimi qavrayacaq və onları daha baha alacaq,

«Limonlara problemi dövlət strukturları tərəfindən də həll olunur. Dövlət az məlumatlı istehlakçıların sonradan peşman ola biləcəkləri hərəkətlərdən çəkindirilməsinin zəruriliyini çoxdan dərk edib. Müsusir dövlət strukturları iş şəraitinin ümumi tənzimlənməsini həyata keçirir, ərzaq məhsullarını yoxlayır və sertifikatlaşdırır, istehlak əmtəələrinin xarici görünüşünü, təhlükəsizliyini tənzimləyir və müəyyən məhsulların müvafiq etiketlərlə təmin olunmasını tələb edir.

Beləliklə, bazar iflaslarının zəiflədilməsi daha çox iqtisadi institutların daha da inkişaf etməsi ilə bağlıdır. Asimmet- rik informasiya, ictimai nemət üstünlükverimləri daha çox insanların psixologiyası, onların mədəni səviyyəsi, mənəviyyatı, əxlaqı ilə müə3ryənləşir. Təsadüfi deyil ki, müasir sosial-əxlaqi marketinq kursunun üçdə ikisi «alıcını aldatmaq əxlaqidirmi?» kimi problemlərə həsr olunmuşdur.

İnformasiya asimmetriyası məsələsi get-gedə daha böyük əhəmiyyət kəsb edir: «asimmetrik informasiyalı bazarların

**təhlilinə görə» İsveç kral Elmlər Akademiyası 10 oktyabr 2001-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatına üç amerikalı professoru: Berklidəki Kaliforniya universitetindən Corc Akerlofu, Stenford universitetindən Maykl Spensi, Kolumbiya universitetindən Cozef Stiqlitsi layiq görmüşdü. Mükafat «onlann asimmetrik informasiyalı bazarın təhlilinə gÖrə» verilmişdi.**

**1970-ci ildə C.Akerlof «Keyfiyyət qeyri-müəyyənliyi və bazar mexanizmik sərlövhəli «Limonlar bazarik əsərini yazmışdı. C.Akerlof ilk dəfə informasiyanın böyük rol oynadığı bazarların təhlilini aparmış və göstərmişdi ki, asimmetrik informasiya ya bazan iflic vəziyyətinə salır, ya da get-gedə daha az keyfiyyətli məhsullar istehsal etməyə məcbur edir. C.Akerlof ilk dəfə olaraq borc alanla kredit verən arasındakı asimmetrik informasiyanın «üçüncü dünya» ölkələrinin yerli bazarlannda faiz dərəcələrinin artmasına necə səbəb olduğunu göstərmişdi. O, keçid iqtisadiyyatlı ölkələrdə kreditə görə ödənişin kəskin artması fenomenini də izah etmişdi. O həm də yaşlı adamların özləri üçün tibbi sığorta seçimində üzləşdikləri çətinliklərlə, milli azlıqların əmək bazarındakı ayrı- seçkilİ3Ü problemi ilə də məşğul olmuşdu.**

**M.Spensə Nobel mükafatı 1973-cü ildə çap olunmuş və «bazar şəhadətinin (siqnallarının)» təsvirinə həsr olunmuş məqaləsinə istinadən verilmişdi. Onun doktorluq dissertasiyasının əsasında yazılmış bu məqalədə təhsil əmək bazarında məhsuldarlığın şəhadəti (siqnalı) kimi nəzərdən keçirilir. Spens cins (kişilər qadınlara nisbətən daha yüksək əmək haqqı alırlar) və hətta dərinin rəngi kimi dolayısı ilə şəhadətləri (siqnalları) da nəzərdən keçirir.**

**Dividentlər də siqnal kimi nəzərdən keçirilir. Dividentlərin ABŞ qanunvericiliyinə görə faktik olaraq ikiqat vergiyə məruz qalmasına baxmayaraq Amerika firmaları nə üçün dividentlər ödəyirlər? Axı mənfəəti müəssisə daxilində saxlayıb onu kapitala çevirmək və bununla da səhmdarların əlində olan kapitalı artırmaq daha asandır. Mümkün izahlardan**

**biri budur ki, dividentlər firmanın yaxşı inkişaf perspektivlərinə malik olması barədə siqnal (şəhadət) rolunu oynayırlar. Firmalar fəaliyyətlərinin mənfəət gətirən olması barədə bazarı məlumatlandıraraq dividentlər ödəyirlər, çünki bazarda bu yaxşı xəbər sayılır və deməli, səhmlərin qiyməti artır. Səhmlərin daha yüksək qiyməti səhmdar üçün dividentlərdən tutulan əlavə vergini əvəzləyir.**

**M.Spens də əmək bazarının öyrənilməsi ilə məşğul olmuşdu. Əmək baz£irı siqnallarından biri işçinin heç olmasa kollec bitirməsi barədə informasiyadır. Bunu bildiklərindən gələcək işçilər işəgötürənə öz yüksək məhsuldarlıqları barədə «siqnal» verə bilmək üçün əvvəlcədən pullarını və vaxtlarını sərf edib diplom alırlar. M.Spens həmkarları arasında az məşhurdur, çünki o bilavasitə elektron ticarəti iqtisadiyyatı ilə məşğuldur.**

**Bunların üçündən ən məşhuru Cozef Stiqlitsdir. O, ABŞ- ın bir neçə nüfuzlu universitetlərinin professoru olmuş. Dünya Bankının baş iqtisadçısı və prezident Klinton yanında İqtisadi müşavirlər Komitəsinin sədri işləmişdi. Nobel komitəsi öz press-relizində ən çox məhz C.Stiqlitsin əsərlərinə istinad edir və məsələn, qeyd edir: «Cozef Stiqlitsin bir çox əsəri iqtisadçıların bazarın necə işləməsi barədə düşüncə tərzini dəyişmişdir. Corc Akerlof və Maykl Spensin fundamental əsərləri ilə yanaşı onlar müasir informasiya iqtisadiyyatının əsasını formalaşdırırlar^.**

**Asimmetrik informasiya problemini C.Stiqlits sığorta şirkətlərinin timsalında bazann ən az məlumatlı iştirakçıları mövqeyindən nəzərdən keçirmişdir. Stiqlitsin Maykl Rotşild ilə birgə yazdığı klassik əsərlərindən birində şirkətlərin ayrı- ayrı müştərilərə münasibətdə risk səviyyəsi barədə məlumatlarının olmadığı şığorta xidməti bazarlarında informasiya axınlarının necə «işləməsi»nin təsviri verilir. Müəlliflər göstərirlər ki, sığorta şirkəti (informasiyası zəif olan tərəf) müştərilərini (informasiyası güclü olan tərəf - əsasən səhhəti pis olanlar könüllü sığortalanırlar) həqiqi sığorta riski**

**barədə məlumat «almaq > məqsədilə səmərəli həvəsləndirməyə qabildir. Adi bazar modellərində banklar potensial qayıtmaz kreditlər riskini I'ompensasiya etmək üçün faizləri qaldırırlar. Asimmetrik informasiyanın modelləşdirilməsi sxemlərində banklar məhdud çərçivədə namizədlər arasındakı rəqabətdən istiiadə edərək krediti mütləq qaytara biləni seçə bilmək üçün güzəştli kreditləri kvotalaşdırmağa başlayırlar.**

**Stiqlits müasir inkişaf iqtisadiyyatının banilərindən biridir. O göstərdi ki, asimmet. ik informasiya və iqtisadi maraqlar sadəcə elmi abstrakaiyal :r deyil, olduqca konkret hadisələrdir və onların izahı inldşaf əı^ən ölkələrin institusional strukturlarının və bazar ş.ır.ütlonnin təhlili üçün faydalıdır.**

**2001-ci ilin Nobel mÜicafatı laureatları müasir informasiya iqtisadiyyatı nəzən> yəsinin əsasını yaratmışlar. Asimmetrik informasi' . praktik olaraq bütün bazarlarda var; bazar iştirakçılarının bir qismi digərinə nisbətən daha çox məlumatlıdır. Borc alanlar borcu qaytarmağın perspektivləri barədə borc verənlərdən daha çox bilirlər, direktorlar şurası və menecerlər şirkətin mənfəətləri barədə səhmdarlardan çox bilirlər, sığorta şirkətinin müştəriləri isə Öz imkanlarını sı-ğortalayänlardan yaxşı bilirlər. Praktiklər bunu çoxdan bilirlər. Lakin laureatların asimmetrik informasiyaya verdikləri izahdan bır çox nəticələr irəli gəlir.**

**Nə üçün «üçüncü dı\nya» ölkələrinin yerli kredit bazarlarında yüksək faizlər müəyyənləşir? Nə üçün yaxşı, az qala lap təzə avtomobil mütləq iri dilerin əlinə keçir, sahibinin özü isə onu satmaq iqtidarında olmur? Nə üçün firma hətta ikiqat vergi qoyulması şəraitində belə dividentlər ödəyir? Nə üçün varlı torpaq sahibləri məhsulun pis olması riskini tam öz üzərinə götürməyib onu yoxsul icarədarlarla bölüşürlər? Bütün bu müxtəlif, əwoliər iqtisadi nəzəriyyənin izah etmədiyi suallara asimmetrik informasiya konsepsiyası cavab verir.**

**2001-ci ilin Nobel nıİıUafatı laureatları hər yerdə yayıl**

**mış vəziyyətin vahid izahını və nəzəri əsaslandırılmasını təklif etmişlər: sövdə iştirakçılarından biri digərinə nisbətən daha çox informasiyaya malikdir. Onların nəzəriyyəsi «qey-ri-təkmil informasiyanın iqtisadi nəzəriyyəyə daxil edir. Onların konsepsiyası bazarın özü-özünə tənzimlənməsi və onun haqqında hamıya hər şeyin məlum olması kimi ümumi təsəvvürdən fərqlənir. Bazarın A.Smit tərəfindən qısaca ifadə olunmuş «Mənə lazım olanı ver, mən də sənə lazım olanı verim n mahiyyəti bu gün işləmir. Avstriya məktəbi iqtisadçıları nəinki keçmişdə qalıblar, hətta bu gün də elmi dairələrdə fəal surətdə mövqe qazanırlar. Onlar bazarın özü-özünə məhvi ehtimalını qəbul etməklə kifayətlənmirlər, hətta bunun tamamilə real olması fikrində israrlıdırlar. Müasir Avstriya məktəbinin nümayəndəsi Lüdviq fon Mizes özünün «İnsan fəaliyyəti» adlı klassik əsərində qeyd edir ki, ♦qeyri-müəyyənlik istənilən fəaliyyədə var^^.**

**Müasir institusionalizmin banilərindən biri D.Helbreyt 31 yanvar 1990-cı ildə ♦Izvestiyas^ qəzetinə müsahibəsində aşkar və kəskin demişdi: «Smit dövrünün azad bazarına qayıdışdan danışanlar o qədər yanlışdırlar ki, onların nöqteyi- nəzəri klinik səciyyəli psixi pozuntu hesab oluna bilər. Bu, bizdə Qərbdə olmayan, bizim heç vaxt barışa bilməyəcəyimiz və bizdə mövcud ola bilməyən hadisədir».**

# XXVI FƏSİL. BAZAR İQTİSADİYYATINDA DÖVLƏTİN ROLU. DÖVLƏTİN ♦UĞURSUZLUQLARI#

*§1. Dövlətin cəmiyyətda roluna baxışların t»kamülü.*
*§2,.Dövlətin minimal və maksimal funksiyaları.*
*§3. iqtisadiyyata dövlət təsirinin forma və alətləri.*
*§4. ictimai seçim nəzəriyyəsi və dövlətin «uğursuzluqlanə*

**Tarixin gedişi prosesində iqtisadi və sosial inkişafda dövlətin rolu haqqındakı insanın təsəvvürləri xeyli dəyişikliyə uğramışdır. Və bu gün sürətlə dəyişən dünya bizi yenidən dövlət haqqındakı əsas suala cavab axtarmağa məcbur edir: onun rolu necə olmalıdır, o nə ilə məşğul ola bilər və nə ilə məşğul ola bilməz, müxtəlif iqtisadi sistemlərdə onun ən mühüm funksiyaları necədir.**

**Ötən yüzillik ərzində müxtəlif dövlətlər dövlətin iqtisadiyyata müdaxiləsinin həm üstünlüklərini, həm də məhdudluğunu nümayiş etdirdilər. Toplanılmış təcrübə göstərir ki, birincisi, dövlətin səmərəli müdaxiləsi olmadan həm iqtisadi, həm də sosial sahələrdə sabit inkişaf mümkün deyil; ikincisi, dövlət iqtisadi və sosial inkişafın mərkəzindədir, lakin bilavasitə artım mənbəyi qismində deyil, tərəfdaş, katalizator, köməkçi kimi; üçüncüsü, səmərəli dövlət müxtəlif inkişaf səviyyəsində olan ölkələrdə xeyli fərqlidir. Ölçüləri, etnik tərkibləri, mədəniyyəti, rifah səviyyəsi, siyasi sistemlərində- ki fərqlər hər bir dövləti təkrarolunmaz edir. Bununla belə müasir şəraitdə dövlətə göstərilən tələblərdə ümumi cəhətlər çoxdur,**

## *§1, Dövlatin eamiyyətdə roluna baxışların təkamülü*

**Bəşəriyyət ən qədim dövrlərdən başlayaraq ev təsərrüfatı və qəbilə birləşmələrindən hazırda müasir dövlətlərə qədər böyüyən daha iri qruplarda birləşirdi. Mövcud ola bilmək**

**üçün ayrı-ayrı şəxslər və qruplar qanunvericilik, asayişin qorunmasına nəzarət, müdafiə və s. kimi sahələrdə səlahiyyətlərini dövlət orqanına verirdilər. Dövlətə müəyyənləşdirilmiş ərazi hüdudlarında insanın bütün digər təşkil olunmuş həyat fəaliyyəti formaları üzərində məcbur etmə imkanları verilir. Buna görə də hələ qədim dövrlərdə dövlət dedikdə müəyyən ərazidə məskunlaşmış və eyni bir hakimiyyətə tabe olan oturaq əhalinin təşkili başa düşülürdü.**

**Platon, Aristotel, Siseron dövləti insanların birgəyaşayış forması və ya içərisində insanın mövcudluq üçün şərait tapdığı mühit kimi nəzərdən keçirirdilər. Özü də, Aristotelin sözlərinə görə, ctam xoşbəxt həyat mühitik* ki, burada dövlət insanı xoş sifətlər ruhunda tərbiyə edir və o, dövlətin təyinatını məhz bunda görürdü.**

**Bir şey şəksizdir: dövlət cəmiyyətin iqtisadi və sosial inkişafının məhsuludur. O, millətin mövcudluğunu və inkişafını təmin edən müəyyən funksiyaların (o cümlədən iqtisadi) yerinə yetirilməsinə tələbat kimi yaranmışdır. Dövlət heç də cəmiyyətə kənardan qəbul etdirilmiş qüvvə deyil. Dövlət cəmiyyətin özü-özü İlə həlledilməz ziddiyyətində dolaşdığını, aradan qaldırmağa qadir olmadığı barışmaz əksliklərə bölündüyünü etiraf edilməsidir. Bu əksliklərin bəhrəsiz mübarizədə bir-birini və cəmiyyəti məhv etməməsi üçün cəmiyyətdən, görünür, yuxarıda dayanan güc, toqquşmanı zəiflədən, «qay- dalar» çərçivəsində saxlayan güc lazım oldu. Və get-gedə özünü cəmiyyətdən uzaqlaşdıran bu güc dövlətdir. Dövlət ümumi marağı fərdi maraqdan ayıraraq ictimai şərtlənmənin yeni formasını doğurdu. Dövlətin rolunun və insanın həyat fəaliyyətinin fərdi sahəsi barədə mübahisələr müxtəlif yüzilliklərdə və müxtəlif qitələrdə aparılıb. Konfusinin (b.e.ə. 551-479) əsərlərini, İbn Xəldunun «İbrətlər kitabı&nı, Kautilyinin (digər adı Çanakya - b.e.ə. IV əsr) «Artaxaşastra» əsərini (tərcümədə «Siyasət elmi* və ya «Faydalılığa çatmaq elmi»), Nikkolo Makiavellinin «HGicmdar *ını yada salmaq kifayətdir. Məsələn, Konfusi bildirirdi kı. dövlətin gücü üç**

**zəmin üzərindədir: əhalinin rifahı, dövlətin (hərbi) qüdrəti və hökumətə etibar. Və əgər dövlət zəifdirsə, o hər şeydən əvvəl əhaliyə dəstəyi, sonra isə müdafiəyə xərcləri azaltmalıdır. Amma hökumətə etibar itirilmişsə, dövləti iflas gözləyir.**

**Makiavelli üçün güclü dövlət zorakılıq və ya sərt nəzarət tətbiq edən deyil, uğurlu cəmiyyətdir, uğur isə əxlaq qaydalarına zidd metodlarla da əldə oluna bilər, çünki dövləti xilas etmək üçün bütün metodlar yarayır. Dövlətin əxlaq qaydaları hansı ki, bu gün biz onu mühakimə edirik, Makiavelliyə görə, uğurlu dövlətin müxtəlif vəziyyətlərdə müxtəlif olmasından da irəli gələ bilər. Onun dövlətin idarə olunması nəzəriyyəsinin ən mühüm nəticələrindən biri budur ki, praktik nöqteyi-nəzərdən dövlət hakimiyyəti texnologiyalarına adi insana icazə verilməyən çox şeyə icazə verilir. Buna görə də dövlət hakimiyyəti qarşısında duran əsas məqsədi (uğurlu dövlət) unutmamalıdır. Dövlət davranışındakı bu ziddiyyəti qeyd edən Pol Valeri yazırdı: «Güclü dövlət bizi sıxır, zəif dövlətdə isə biz məhv oluruqa,**

**Dövlətin idarə olunması haqqında elm XII-XIII əsrlərdə Şərq cəmiyyətlərində yaradılmışdı. Çində Li Qounun əsərlərini, XIII əsr ərəb-islam ədəbiyyatındakı <ıYolda mirvarilər və ya Hökmdarların siyasətik, «Kələklər və bicllikləri, «Səhv- lər və sevincləri, ^İşlərin nizamlanmasında incəliklər haq- qındai, «Hakimiyyətin qurulması i, «Siyasət i, <ı Müharibədə kələklər və bicllikləri, «Hökmdarın həmsüfrələrinə xatirlat- mai və s. kimi bir sıra əsərləri; hind-müsəlman ^güzgüləri ədəbiyyatındakı «Müharibə və cəsurluq qanunlarii, «Yer hakimiyyətinə göstərişləri, «HÖkmdarların sərvətii əsərlərini göstərmək kifayətdir.**

**Dövlətin edə biləcəyi ilə əhalinin ondan gözlədiyi arasındakı fərq artdıqca dövlət tədricən daxildən dağılmağa başlayır və bununla da öz vətəndaşlarını elementar sabit yaşama imkanlarından: qanunçuluq və təhlükəsizlik, müqavilələrə etibar və etibarlı tədavül vasitələrindən məhrum edir.**

**Hələ 1651-ci ildə Tomas Qobbs «Leviafani traktatında**

**qeyd edirdi ki, qanun-qaydanı mühafizə edən güclü dövlətsiz həyat «tənhalanmış, kasad, təhlükəli, kobud və qısa» olar. Təəssüf ki, bu prosesin ayrı-ayrı elementləri Rusiyanın və keçid iqtisadiyyatlı ölkələrin iqtisadiyyatında müşahidə olunur.**

**Dövlətin cəmiyyətdə rolunu ayrı-ayrı iqtisadi məktəblər müxtəlif cür görürdülər.**

**XVII əsr merkantilistləri dövlətin əsas vəzifəsini ticarəti həvəsləndirməkdə görür və dövlətin fəal surətdə iqtisadiyyata müdaxiləsinin tərəfdarı kimi çıxış edirdilər.**

**Fiziokratlar təsərrüfat fəaliyyətində tam azadlığın üstün olmasını sübut etməyə çalışır və dövlətin cəmi üç funksiyasını önə çəkirdilər.**

**Dövlətin birinci və ən mühüm funksiyası - təbii nizamı hakimiyyətə göz dikə biləcək günahkar və cahil əllərdən və ən əsası, onun əsasında duran şeyi - mülkiyyəti - qorumaq. Fiziokratların fikrincə, qanuni nizam cəmiyyətdə birləşmiş insanlar üzərində irsi və suveren hakimiyyətin gücü ilə təmin edilən və mühafizə olunan mülkiyyət hüququndan ibarətdir.**

**tkinci funksiya təhsildir. Bodp deyir: «Ümumi təhsil birinci əsl sosial əlaqədir^. Kene də (1694-1774) mövcud nizama və onu dərketmə üsulları ilə əlaqədar maarifləndirməni təkidlə tövsiyə edir. Təhsilin zəruriliyini onlar bütün vətəndaşları əhatələyən təhsilin, maariflənmiş ictimai fikrin fiziokratik qəddarlığın şəxsi qəddarlığa çevrilməsinin qarşısını alan yeganə vasitə olması ilə əsaslandırırdılar.**

**tctimai səciyyəli müəssisələrin məzmunu dövlətin üçüncü funksiyasıdır. Fiziokratlar yazırdılar ki, məgər yaxşı mülkiyyətçi-sahibkar hər şeydən əwəl öz torpaqlarında yollar çəkdirməməlidirmi, axı yollar və kanallar müxtəlif bölgələr arasında əlaqə yaradılması üçün çox gərəklidir.**

**Dövlətin rolu barədəki fikirlərin inkişafında növbəti mərhələ öz əksini A.Smitin (1723-1790) «Xalqların sərvətlərinin təbiəti və səbəbləri haqqında tədqiqat» əsərində əksini**

**tapmış klassik nəzəriyyə olmuşdur, O bildirirdi ki, «bazar qüvvələrinin azad oyunu *(«laisser faire»* prinsipi) harmonik quruluş yaradır*. Klassik yanaşmalara müvafiq olaraq dövlət insan həyatının və onun mülkiyyətinin təhlükəsizliyini təmin etməli, mübahisəli məsələləri həll etməli, yəni fərdin müstəqil görə bilmədiyi və ya az səmərə ilə gördüyü işləri görməlidir. Bazar iqtisadijryatmda təsərrüfat fəaliyyəti subyektlərinin hamısı üçün ən əsas şey əsas iqtisadi azadlıqlara, yəni fəalİ3T:ət sahəsinin seçimi azadlığına, rəqabət azadlığına və ticarət azadlığına təminatdır. Smitə görə, dövlətin praktik siyasəti kompromis ruhlu olmalıdır ki, bu da tez uğur qazanmağa kömək edir.**

**Klassik siyasi iqtisaddan fərqli olaraq Jan Şari Leonar Simond de Sismondi (1773-1842) o dövrün iqtisadi quruluşunun təhlilindən çıxış edərək göstərirdi ki, iqtisadi həyat bütövlükdə - yalnız istehsal sahəsi deyil, həm də nemətlərin bölgüsü sahəsi - ictimai nəzarətə məruz qalmalı və ayrı-ayrı siniflərin marağına deyil, bütün cəmiyyətin maraqlarına cavab verən tərzdə islahat olunmalıdır. Bununla da ölkə həyatında dövlət üçün nəzəri cəhətdən xeyli fəal rol ayrılır.**

**Marksizm ilk dəfə belə bir meylə diqqət yetirdi: kapitalın təmərküzəşləşməsi nə qədər çox artarsa, dövlət bütün cəmiyyət üzvlərinin dövlətinə deyil, maliyyə kapitalının, hakim oliqarxiyanm dövlətinə çevrilmə meylinə bir o qədər çox məruz qalar. Və bu keyfiyyətdə o, iqtisadiyyata daha intensiv bilavasitə müdaxiləyə can atacaqdır. Uzaq gələcəkdə, bütün dünyada kapitalizm məhv olub gedəndən sonra, kommunizm dövründə dövlət güc orqanı kimi aradan gedəcək, çünki xüsusi mülkiyyət üraumxalq mülkiyyəti ilə əvəzlənəcəkdir.**

**Dövlət institutunun məhvi ideyası indi də bəzi alimlər tərəfindən dəstəklənir. Məsələn, Harvard slavyanşünası Aleksandr Babenışev bildirir ki, «dövlət itməlidir*^ çünki o, gücü təcəssüm etdirir, insan hüquqlarının ön plana çıxdığı**

^BaöeHumeB A.FocyflapcTBO aoJiJKHo HC’ieaHyTi.// Hosaa raaera, **2002.J^»45 (783)**

**şəraitdə isə hətta böyük güc belə heç nəyi həll edə bilmir. Səudiyyə Ərəbistanının neft yataqları üzərində yerləşməsi bu ərazidə yaşayan əhalinin xidmətləri deyil, tarixi prosesin nəticəsidir. Bu neft yataqları üzərində yaşamayan digər insanlara qarşı ədalətsizlikdir. Buna görə də konkret əraziyə hakim olmaq üçün insanları birləşdirən dövlət lazım deyil. Lakin bu ideyanın praktik realizəsinə yüzlərlə il tələb olunur.**

**Müasir dövlət nəzəriyyəsi iqtisadi nəzəriyyədə iki istiqamətlə təmsil olunmuşdur: neoklassik və keynsçi. Dövlətin bazar iqtisadiyyatına və inkişaf iqtisadiyyatına fəal müdaxiləsinin əsas nəzəriyyəçisi məşhur ingilis iqtisadçısı C.M.Keyns olmuşdur. Keynsçi siyasət öz qarşısına əhalinin tam və ya yüksək məşğulluğu şəraitində ümumi tələbin ümumi təklifə müvafiq olmasına nəzarət və tənzimlənməsi məqsədi qoyurdu. Keyns modeli xüsusi kapitalı investisiya qoyuluşuna «sövq etmək», həmçinin ictimai işlərin dövlət maliyyələşdirilməsi və milli gəlirin büdcə vasitəsilə az təminat-lılarm xeyrinə müəyyən qədər yenidən bölgü yolu ilə «səmərəli» məcmu tələbinin həvəsləndirilməsini nəzərdə tuturdu.**

**Keyns doktrinası ən dolğun tətbiqini ABŞ-da prezident F.D.Ruzveltin siyasətində tapdı və yaxşı nəticələr verdi.**

**Keynsçilik haqqında danışanda qeyd etmək lazımdır ki, bu yalnız dövlət bölməsinin və ümumiyyətlə dövlət müdaxiləsinin müdafiə edilməsi deyil, həm də iqtisadiyyatın tənzim olunmasının xüsusi konsepsiyasıdır. Hər şeydən əvvəl bu, dolayısıyla mikroiqtisadi tənzimləmə konsepsiyasıdır. Onun əsas məqsədləri məşğulluq və iqtisadi artımda sabitlik, alətləri isə dövlət büdcəsi və kredit-pul siyasətidir. Keyns və onun ardıcılları sırf bazar mexanizminin sabit iqtisadi artımı və tam məşğulluğu təmin etmək iqtidarında olmadığı və məhz buna görə dövlətin müdaxiləsinin zəruri olması fikrindən çıxış edirlər. Keynsçi nəzəriyyəni böhran nəzəriyyəsi adlandırmaq olar, çünki o, iqtisadiyyatı bir sıra inkişaf etmiş iqtisadiyyatlı müasir ölkələr üçün səciyyəvi olan tənəz**

**zül vəziyyətində nəzərdən keçirir.**

**Avstriya iqtisadçısı, siyasətin iqtisadi nəzəriyyəsinin banisi İ.Şumpeter dövlətə yalnız təbəələrinin rifah halını nəzərdə tutan və var gücü ilə bu rifahı artıran xoşniyyətli hökmdara yanaşan kimi yanaşan ingilis iqtisadi fikrinə xas xoş münasibətə qarşı dururdu. O, özünün ^Kapitalizm, sosializm və demokratiyam (1943) kitabında demokratiyanı siyasətçilərin satıcı qismində, seçicilərin isə satıcılar tərəfindən hərdən aldadılan alıcı qismində çıxış etdiyi siyasi bazar kimi təqdim etmişdi. Bununla da demokratiya institutunun sırf iqtisadi modeli yarandı. XX əsrin ikinci yarısında iqtisadçıların çoxu bazarın ^görünməyən əlminə «dövlətin görünən əlininm əlavə edilməsinin zəruriliyi fikrinə gəldilər. Bu vaxt bütün dövlətlərin iqtisadiyyatı sahəsində dövlətin fəaliyyət miqyasının genişlənməsinə və rolunun gücləndirilməsinə meyil meydana gəldi. İnkişaf etmiş və inkişaf edən ölkələrdə dövlətin miqyası üçüncü minilliyin əvvəlində 1960- cı ildəki ilkin səviyyə ilə müqayisədə iki dəfə artmışdır. Elə həmin illər ərzində İsveçin dövlət aparatı ABŞ-la müqayisədə həm ümumi gəlirdəki xərclərin payına görə, həm də dövlət bölməsində məşğul olan əhalinin sayına gÖrə iki dəfə artmışdır.**

**Tədricən dərk olundu ki, yalnız bazarın özunutənzimlə-məsinə ümid etmək milli iqtisadi sistemin özünün mövcudluğunu, ələlxüsus keçid və böhran dövrlərində, təhlükə altına qoya bilər. Bazar iqtisadiyyatında insanın varlı olmaq üçün kifayət qədər səy göstərmədiyinə görə kasıb olması kimi geniş yayılmış fikir insanın kasıblığının dövlətin güclü təsir göstərə bildiyi mühitdən, mövcudluq şəraitindən asılı olması fikri ilə əvəzləndi.**

**ötən əsrin 60-cı illərinin əvvəllərinə dövlət artıq bu və ya digər dərəcədə təsərrüfat fəaliyyətinin bütün sahələrinə qarışır, qiymətləri müəyyənləşdirir və onlara nəzarət edir, əmək münasibətlərinin, valyuta əməliyyatlarının və maliyyə bazarlarının tənzimlənməsini sərtləşdirir.**

**70-cı İllərin əvvəllərinə dövlətin üstün yer aldığı inkişaf strategiyasının qüsurları aşkar görünməyə başladı. Dövlət şirkətlərinin müflialiyi, dövlət institutlarının zəifliyi, dünyada baş verən neft və valyuta böhranları nəticəsində gəlirlərin azalması, dövlət idarələrinin şişirdilmiş xərcləri, zərərlə işləyən müəssisələrin maliyyələşdirilməsi, təhsil, səhiyyə və s. kimi həyati əhəmiyyətli sahələrdə proqramların kritik həddə qədər ixtisarı - bütün bünlann hamısı Afrikanın, Latın Amerikası, Asiya, Avropa, sabiq Sovet İttifaqının bir sıra dövlətlərinin 60-70-ci illərin inkişaf modelindən 80- ci illərin minimistik dövlət modelinə keçməyə məcbur etdi.**

**Məhz bu dövrdə (70-80-ci illərin qovuşuğunda) keynsçi nəzəriyyəsi və ona əsaslanan siyasət neomühafizəkarlar cərəyan və birinci növbədə monetaristlər tərəfindən tənqidə məruz qaldı. Onlar keynsçilərin kəsirli maliyyələşdirmə reseptinin inflyasiya səciyyəli olmasını vurğulayırdılar. Həqiqətən də həmin dövrdə inflyasiyanın yayılması iqtisadiyyatın birinci dərəcəli problemi oldu. Neomühafizəkarlar bunda keynsçi siyasətini təqsirləndirirdilər. Keynsə qarşı «üsyanına başında Amerika iqtisadçısı, Nobel mükafatı laureatı Milton Fridmen (d.l912) durdu. O, A.Smitin «iqtisadi insan» konsepsiyasını dəstəkləyir və dövlət tənzimləməsi ideyasım tənqid edirdi. Buna alternativ kimi o, azad rəqabəti və sahibkarlığı görürdü. M.Fridmen dövlətin pul tədavülünə müdaxiləsinə qarşı xüsusilə kəskin çıxış edirdi. Fridmenin ideyaları öz əksini «reyqanomikada», həmçinin bir sıra inkişaf etməkdə olan ölkələrin, məsələn Çili, Argentinanın iqtisadiyyatında öz əksini tapdı, XX əsrin 90-cı illərinin əvvəllərində Rusiyada, Y.Qaydarm rəhbərliyi altında aparılan islahatlarda istifadə olunmuşdu.**

**Neoliberal konsepsiyaların tərəfdarları hesab edirlər ki, keynsçilərin pul kütləsində kəskin dəyişmələrə aparan anti-siklik tənzimləmə reseptlərindən imtina etmək və konyunkturadan asılı olmayaraq tədavüldə pulun ciddi tənzimlənməsinə keçmək lazımdır. Pul kütləsi yalnız milli gəlirin uzunmüd**

**dətli artım sürətinə müvafiq olaraq artmalıdır. Onlar dövlət xərclərinin artması əleyhinə çıxış edərək hesab edirlər ki, dövlətin edə biləcəyi ən yaxşı şey öz gəlir və xərclərini azaltmaq, bir də vergiləri azaltmaqdan ibarətdir. Neokeynsçilər əvvəlki kimi bazar iqtisadiyyatında sabit artıma və resurslardan optimal istifadəyə mane olan səbəblərin olması, buna görə də dövlət tənzimləməsinin zəruriliyi fikrindən çıxış edirlər. Yeni şəraitləri və rəqiblərinin tənqidini nəzərə alaraq Keynslə müqayisədə onlar yeni aspektlər irəli sürürlər.**

**Beləliklə, keynsçiliyin böhranı nəinki neoklassik cərəyanı canlandırdı, həm də eyni zamanda keynsçiliyin özünün inkişafına səbəb oldu. Onlar arasında fərq eyni bir suala: bazarın və ya dövlətin - iqtisadiyyatı qeyri-tarazlıq vəziyyətindən daha tez, səmərəli və ucuz uyğunlaşdırmağa kim qabildir sualına verdikləri cavabların müxtəlif olmasındadır.**

**Beləliklə, dövlətin üstün mövqedə olduğu inkişaf modeli dağıldı, amma dövlətin iştirakı olmasa, iqtisadiyyatı eyni aqibət gözləyir. P.Samuelsonun obrazlı şəkildə yazdığı kimi, bazarın və ya dövlətin olmaması şəraitində iqtisadiyyatı idarə etməyə cəhd etmək tək əllə çəpik çalmağa cəhd etmək kimidir. Bu zaman mütləq yadda saxlamaq lazımdır ki, dövlət tənzimləməsi aşağıdakı prinsiplə həyata keçirilməlidir: «Rəqabət mümkün olan hər yerdə, tənzimləmə zəruri olan hər yerdə!» Buna görə də yaxşı hökumət bəzək deyil, ölkənin inkişafı üçün həyati əhəmiyyətlidir, məhz dövlət mövcud ictimai sistemin özəyini təşkil edir.**

**Müasir anlamda dövlət, ən geniş mənada, müəyyən ərazidə və onun «cəmiyyət» termini ilə göstərilən əhalisinə tətbiq olunan qanuni məcburetmə vasitələrinə malik institutlar dəstidir. Dövlət öz fəaliyyətini Özünün formalaşdırdığı hökumət vasitəsilə həyata keçirir.**

**Hökumət yalnız dövlətdə rəhbər vəzifələr tutan şəxslərin məcmusu kimi nəzərdən keçirilmir, o həm də idarəetmə, hakimiyyəti tətbiqetmə prosesi kimi, həm də cəmiyyətdə idarəetmə üsulu, metodu və sistemi kimi, həm də hökumət**

**orqanlarının quruluşu və təşkili və onların idarə olunanlarla münasibətləri kimi nəzərdən keçirilir. Bütün dünyada şifahi və yazılı nitqdə "dövlət" və «hökumət» terminləri qarşılıqlı əvəzlənən kimi işlədilir.**

**Hökumət üç ayrı-ayrı hakimiyyət qollarından ibarətdir və onların hər biri öz funksiyasını yerinə yetirir: qanunvericilik hakimiyyəti qanunların işlənilib hazırlanması funksiyasını yerinə yetirir; icra hakimiyyəti (hərdən məhz ona hökumət deyilir) qanunların icrasına cavabdehdir; məhkəmə hakimiyyəti qanunvericiliyin düzgün şərh olunması və tətbiqinə nəzarət edir.**

**Bəs müasir dövlət hansı funksiyaları yerinə yetirməlidir?**

### *§2, Dövlətin minimal və maksimal funksiyaları*

**Məlumdur ki, bazar mexanizmi cəmiyyət qarşısında duran mühüm iqtisadi məsələləri həll etməyə qabil olan yaxşı tənzimlənmiş mexanizm olsa da, təsərrüfatçılımın həyat fəaliyyətinin bir sıra sahələrində işləmir. Bazar mexanizminin resurslardan səmərəli istifadəni təmin edə bilmədiyi halları adətən uğursuzluq (fiasko, iflas) adlandırırlar.**

**Adətən bazarın uğursuzluğuna dəlalət edən dörd qeyri-səmərəli vəziyyət olduğu göstərilir:**

**1) ictimai nemətlər;**

**2) xarici effektlər (ekstemalilər);**

**3) qeyri-təkmil (asimmetrik) informasiya (bu barədə daha geniş bax fəsil 25);**

**4) inhisarlar (bax fəsil 12).**

**Bəzən bura həm də bazarın dövriyyəni lazımi miqdarda pulla təmin edə bilmək qabiliyyətində olmamasını da aid edirlər. Bütün bu hallarda dövlətin müdaxiləsi tələb olunur.**

**Dövlətin ictimai nemətlərin verilməsi, xarici effektlərin tənzimlənməsi (ekstemalilər), inhisarların və antiinhisar qanunvericiliyinin tənzimlənməsi, asimmetrik informasiyanın qarşısının alınması və pul dövriyyəsinin səmərəli**

**təşkili üzrə yerinə yetirdiyi funksiyalar dövlətin real bazarı tənzimləməsinin minimal zəruri hüdudlarını müəyyənləşdirir. Bu isə ümumiyyətlə tənzimlənməyən bazarın olmamasını söyləməyə əsas verir, çünki hətta ideal azad bazarın da dövlətlə qarşılıqlı əlaqədə olmağa ehtiyacı var.**

**İctimai əmtəələr kollektiv tələbatları dövlətin vergi və büdcə siyasəti ilə bağlayır. Məsələ burasındadır ki, ictimai nemətlərə (əmtəələrə) olan tələbatların ödənilməsi dövlətin büdcədən müəyyən xərclərini tələb edir. Büdcə xərclərinin həcmi və quruluşu ictimai əmtəələrin həcmi və quruluşundan asılıdır. Bu xərcləri ödəmək üçün dövlətə müvafiq olaraq gəlir də lazımdır ki, bunun da çox hissəsini əhalidən toplanan vergilər təşkil edir. Beləliklə, ictimai nemətlər yalnız ilk baxışdan pulsuz görünürlər (çünki bilavasitə bazarda əhali ictimai əmtəəyə görə pul ödəmir). Əslində isə əhali ictimai nemətlərin təqdim edilməsi üzrə dövlət xidmətlərin haqqını dolayısı ilə, vergilər vasitəsilə dövlət büdcəsinin gəlir hissəsinin əhalidən toplanmış vergi qədərində ödəyir. Özü də dövlət bu zaman dövlət büdcəsinin gəlir və xərclər hissələrinin uyğunlaşdırılması ilə bağlı mürəkkəb bir məsələni həll etməlidir.**

**İctimai əmtəələr konsepsiyasından dövlətin iqtisadi siyasəti üçün aşağıdakı nəticəyə gəlmək olar:**

**Birincisi, ölkə vətəndaşı ictimai əmtəəni vergiyə bərabər qiymətə alırsa, büdcənin vergilərdən formalaşan gəlirləri ilə onun xərcləri arasında tarazlığın saxlanılması zəruridir.**

**ikincisi, büdcə xərclərinin quruluşu ictimai əmtəələrə tələbin quruluşuna müvafiq olmalıdır.**

**Üçüncüsü, ictimai əmtəələrin spektri artdıqca və ya azaldıqca, müvafiq olaraq dövlət büdcəsi də artmalı və ya azalmalıdır.**

**Dördüncüsü, müasir təsərrüfatçılıq şəraitində xüsusi və ictimai nemətlər arasındakı nisbət ciddi əhəmiyyət kəsb edir.**

**Bazar üçün xarici olan effektlərin tənzimlənməsini dövlət öz üzərinə götürür. Öz funksiyasını yerinə yetirərkən o.**

**xarici effektləri aşkar edir, onları pul formasında ölçür, bazar sisteminin qeyri-təfcmilliyini aradan qaldıran qərarlar qəbul edir. Bunun ardınca dərhal təsərrüfatçı subyektlərin reaksiyası və mikroiqtisadi parametrlərin (gəlirlərin, resursların yenidən bölgüsü, qiymətlərin quruluşunun dəyişməsi və s.) dəyişilməsi gəlir.**

**Xarici effektləri tənzimləyən dövlət qərarları optimal variantda fərdi iqtisadi maraqlara toxunmamalıdır, çünki onlar bazar (xüsusi) xərclərinin və ya gəlirlərin baş vermiş artımına yalnız pulla qiymət verirlər. İqtisadi prosesin pul gəlirlərinin bir qismi dövlət tərəfindən əllərindən alınmış iştirakçıları uduzmurlar, çünki artıq əldə olunmuş qazanca görə ödəniş edirlər.**

**Müasir, sürətlə dəyişən dünyada istehsalın ekoloji aspekti ilə bağlı xarici effektlərinin dövlət tənzimlənməsi get-gedə daha çox əhəmiyyət kəsb edir.**

**Bazar tələbinə yönümlənmiş iqtisadiyyat təsərrüfat dövriyyəsinə get-gedə daha çox təbii resursların cəlb olunmasını həvəsləndirir və bu da son nəticədə müasir cəmiyyətin özünü təhlükə qarşısında qoyur. Ekoloji vəziyyətin pisləşməsi bazar rəqabətinin mənfi sosial nəticələrinin qarşısının alınmasına yönümlənmiş yeni xüsusi dövlət tənzimləyicilərinin meydana gəlməsini zəruri edir və bu da inkişaf iqtisadiyyatında dövlətin təsvir olunan funksiyasının yerinə yetirilməsini çətinləşdirir.**

**Ətraf mühitə zərərli tullantıların atılmasının azaldılmasının üç əsas yolu var:**

**■ zərərli tullantılar üzrə norma və standartların müəyyənləşdirilməsi;**

**■ tullantılara görə ödənişlərin tətbiq edilməsi;**

**■ tullantılara müvəqqəti icazələrin satışı.**

**Zərərli tullantılara görə standartlar *(imissions standarts)* sənaye tullantılarında zərərli maddələrin qanun tərəfindən müəyyənləşdirilmiş hədd konsentrasiyasıdır.**

**Tullantılara görə ödəniş daha böyük çevikliyə malikdir.**

**Tullantılara görə ödəniş firmadan ətrai mühiti çirkləndirən hər tullantı vahidinə görə alınan haqdır. Belə sistem zərərli tullantıların ümumi həcminin azalmasına rəvac verir, bunu onun AFR-da tətbiqinin nümunəsində görmək olar. Lakin belə sistemdə çirkləndirmə standartlarının pozulmayacağına tam əminlik yoxdur.**

**Mənfi eksternalilərin dövlət tərəfindən məhdudlaşdırılmasının sonuncu üsulu xarici xərclərə hüquq bazarının yaranmasına səbəb olmuşdur.**

**Tullantıların atılmasına dövlət lisenziyaları bazarda onlara tələb və təklif əsasında alqı-satqı obyekti kimi çıxış edirlər. Belə lisenziya almış çirkləndiricilər, əgər lisenziyanın qüvvədə olduğu müddətdə zərərli tullantılarını azaltmışlarsa, lisenziya üzrə qalığı bazarda sata bilərlər, əgər onlar zərərli tullantıları heçə endirirlərsə, lisenziyalarını tullantılara icazə verilmiş həcm çərçivəsindən kənara çıxanlara sata bilərlər (bax şəkil 26.1).**




**Şəkil 26.1.Təbii çirkləndirmə hüquqları bazarında tarazlıq**

**Verilmiş qrafikdə tullantıların atılması təklifi şaquli S əyrisi ilə təsvir olunmuşdur və dövlətin müəyyənləşdirdiyi yol verilən çirkləndirmə həddini (100 min t.) əks etdirir. O, optimal çirkləndirmə həddinə müvafiqdir.Bu həcmdə lisenziyalar buraxılır. Lisenziyaların bazarda tarazlıq qiyməti D**

tələb və S təklif əyrilərinin kəsişmə nöqtəsi ilə müəyyənləşir (yəni bir ton tullantıya görə 40 dollar).

Beləliklə, xarici effektlər konsepsiyası əsasında iqtisadiyyatı inkişafda olan dövlətin iqtisadi siyasəti üçün aşağıdakı nəticələrə gəlmək olar:

Birincisi, dövlət büdcəsindən subsidiyalarla birgə xüsusi vergilər tətbiq edilməsi zəruridir ki, vəsaitin xarici effektdən zərər çəkənlərin xeyrinə yenidən bölgüsünə imkan yaransın. Bu, dövlətin iqtisadi funksiyalarını genişləndirir və təkmil rəqabətin şərtlərinə cavab verir.

*Bazar iqtisadiyyatında təbii nizamın saxlanılması* (bunun altında təkmil rəqabət nəzərdə tutulur), bunun əsasında «oyun qaydalarının», yəni iqtisadiyyatın hüquqi əsasının müəyyənləşdirilməsi dövlətin ən vacib funksiyasıdır.

Bazar iqtisadiyyatında inhisarçılığa meyl var, özü də o, obyektiv mövcuddur, çünki bazarın Özünün, rəqabətin, bir də istehsalın təmərküzləşməsi prosesi ilə şərtlənir.

inhisar problemi neoklassiklərlə marksizm arasında yekdillik olan çox az problemlərdən biridir. Bu təlimlərdə inhisar dövlətin müdaxiləsini tələb edən problemdir, çünki o, inhisarın məhsullarına qiymətlərin əsassız artımına, istehsalın quruluşunun qeyri-səmərəliliyinə, resursların qeyri-səmərəli bölgüsünə, istehlakçıların həyat səviyyəsinin aşağı düşməsinə (neoklassika), inhisarcasına yüksək qiymətlərin, əsassız yüksək inhisar mənfəətinin və gəlirlərin bölgüsündə bərabərsizliyin artmasına, inhisarçıların siyasi təsirinin güclənməsinə (marksizm) gətirib çıxardır. Eyni zamanda, bu konsepsiyalar antiinhisar siyasətinin məqsədlərini müxtəlif cür müəyyənləşdirir: inhisarla mübarizədən çox rəqabətə hər cür dəstək vermək (neoklassika), yaxud inhisarların milliləşdirilməsi və onların bütün cəmiyyətin maraqları yönümündə idarə olunması, yaxud inhisarçıların qiymətlər, mənfəətlər və istehsal üzərində bilavasitə və hərtərəfli nəzarət (marksizm). Praktika göstərdi ki, iqtisadiyyatı inkişafda olan ölkələrin çoxunda antiinhisar siyasəti qanunvericiliyə

**görə bazar iqtisadiyyatı olsa da, konkret hərəkətlərdə qeyri-ixtiyari daha anlaşıqlı olan marksist mövqeyinə keçirdi. Məsələn, inhisarlaşma təhlükəsi yarandıqda belə müəssisələrin özəlləşdirilməsinə qadağa qoyulur. Bu zaman yanlış mövqedən çıxış edilir: inhisar xüsusi müəssisə kimi təhlükəlidir, dövlət mülkiyyətində olduqda isə inhisar təhlükəli deyil.**

**Əslində isə mülkiyyətçinin dəyişməsi inhisarın əsas zərərini - resursları qeyri-səmərəli bölgüsünü aradan qaldırmır.**

**İqtisadi ədəbiyyatda inhisar hökmranlığının təhlükəli olmasına şübhə ilə yanaşılmışdı (məsələn, İ.Şumpeter və b. tərəfindən). Buna əsas isə elmi-texniki tərəqqinin (ETT) əsasən iri firma ilə eyjiiləşdirilən inhisar şəraitində daha sürətli ola bilməsi fikridir. ETT-nin inkişafı isə miqyas effektinin istifadə olunduğu, elmi-tədqiqat təcrübə-konstruktor işlərinin geniş aparıldığı iri istehsalda səmərəlidir, çünki maya dəyərinin aşağı salınmasına və əmtəənin keyfiyyətinin yüksəldilməsinə imkan verir. XX əsrin texniki kəşflərinin çoxu xırda sahibkarlar tərəfindən edilsə də, onları realizə etmək iri biznesə qismət olmuşdu. Bütün bunlar Rusiya iqtisadi fikrinin alimləri L.S.Qrebnyova və R.M.Nureyevə inhisarın həmişə əldə olunmuş hesabına tüfeylilik etməsi, ETT-ni ləngitməsi, «çürüməyə və yerində saymağa» meylli olması kimi XX əsrin əvvəllərinin düşüncəsində əsas yer tutan fikirlərin köhnəldiyini söyləməyə əsas vermişdir.**

**Bütün qüsurlarına baxmayaraq, məhz sadalanan məziyyətləri hökumətləri bəzi milli şirkətlərin inhisarçı hərəkətlərinə göz yummağa, bəzən 'sə istehsalın inhisarlaşdınlmasının bəzi növlərini tətbiq etn əyə məcbur edir. Belə ittifaqlar dövlətin təşəbbüsü ilə istehsalın olduqca sərt beynəlxalq rəqabətlə üzləşən ixrac sahələrində yaradılır.**

**Elə sahələr var ki, orada inhisar sadəcə olaraq vacibdir. Bu, təbii inhisar adlandırılan sahədir. Dövlət təbii inhisarların fəaliyyətini bilavasitə və ya dolayısı ilə tənzimləyir. Bilavasitə tənzimləmə qiymətlərin müəyyənləşdirilməsində.**

**dolayısı ilə olan tənzimləmə isə əlavə vergilərin, subsidiyaların və s. qoyulmasında təzahür edir.**

**Rəqabətin dövlət tərəfindən qorunması və həvəsləndirilməsi funksiyası bazar mexanizminin özünün qorunub saxlanılmasına kömək edir. Bu funksiyalar çərçivəsində rəqabət siyasətinin köməkliyi ilə həyata keçirilən antiinhisar qanunvericiliyi və inhisarların fəaliyyətinin tənzimlənməsi xüsusilə diqqətəlayiqdir.**

***Rəqahdt siyasəti*** **bir sıra tədbirlər sistemidir ki, bunun da məqsədi bazar hökmranlığına malik firmalar tərəfindən rəqabətin zəiflədilməsinin və ya təhrif olunmasının qarşısını almaqdır. Qeyd edək ki, bu siyasətin dünyada praktiki məqsədi oliqopoliyaların inhisarçı meyllərini məhdudlaşdırmaqdır; oliqopoliya isə müasir sənayedə ən geniş yayılmış bazar quruluşu tipidir. Rəqabətin müdafiə edilməsinin hələ XIX əsrin sonlarından ilk inhisarların talançı fəaliyyətinin məhdudlaşdırılmasını tələb etməsi tarixən formalaşdığından, rəqabət siyasətini bəzən antiinhisar siyasəti adlandırırlar. Rəqabətə qarşı fəaliyyəti qadağan edən davranışların tənzimlənməsi tədbirləri və sahənin quruluşunu dəyişən və rəqabət qabiliyyətini daha da artıran struktur siyasəti antiinhisar siyasətinin əsas tədbirləri sırasından seçilir. Rəqabəti zəiflədən hərəkət bunlar hesab olunur: qiymətlərin təsbit edilməsi və bazarların bölüşdürülməsi haqqında razılaşmalar, daha güclü şirkətlərin məhsulun gətirilməsi və ya bölgüsünə dair öz tərəfmüqabillərinə qəbul etdirdiyi müstəsna hüquqlar haqqında razılaşmalar, rəqiblərin müflisləşməsinə aparan və son nəticədə bazarda inhisarın formalaşmasına səbəb olan dempinq qiymətləridir, tri şirkətin bir sıra xırda müstəqil firmalara bölünməsi və iki iri firmanın bazarda üstün mövqe tutmağa səbəb ola biləcək birləşməsinə qadağa qoyulması quruluş siyasətinə misal ola bilər.**

**İnhisar fəaliyyətinin tənzimlənməsi əsas məsələyə - bazarın ayrı-ayn firmalar tərəfindən inhisarlaşdırılmasına yol verməməyə yönəldilir. Ona inzibati (qanunvericilik) və nor**

**mativ-yönümlənmiş (təshihedici) tənzimləmə daxildir.**

**Antiinhisar tənzimləmə iqtisad elminin nəticələrinin praktikada tətbiqinin ən əsas sahələrindəndir.**

**Dövlət *asimmetrik informasiyanı* əmtəə və xidmətlərin keyfiyyətinə nəzarət, istehlakçıya lazım olan informasiyanın ya5nmlanması, aldadıcı reklamların qarşısının alınması və s. vasitəsilə aradan qaldıra bilər. Buradan da asimmetrik informasiyanın qarşısının alınması sivil dövlətin, o cümlədən inkişaf iqtisadiyyatının funksiyasına çevrilir, Dövlət az məlumatlandırılmış istehlakçıları sonradan onların peşimançılı- ğını çəkə biləcəkləri hərəkətlərdən qorumalıdır. Müasir dövlət orqanları iş şəraitinin ümumi tənzimlənməsini həyata keçirir, ərzaq məhsullarını yoxlayır və çeşidləşdirir, zahiri görünüşünü, istehlak məhsullarının təhlükəsizliyini tənzimləyir və müəyyən məhsulların müvafiq etiketlərlə təchiz edilməsini tələb edirlər. İstehlakçının hüquqlarının qorunması sahəsində qanunvericiliyə böyük əhəmiyyət verilir. Keyfiyyətsiz əmtəə satışına, firmanın fəaliyyəti haqqında yanlış məlumatın verilməsinə qarşı ciddi tədbirlər görülür. Asimmetrik informasiya səbəbindən özəl sığorta firmaları ayrı- ayrı risk növlərini sığortalamaqdan imtina edə bilirlər və bu halda bununla dövlət məşğul olur.**

**İstehlakçılara əmtəənin keyfiyyəti, investisiya qoyuluşu və sığortalama sahələrində riskin dərəcəsi və s. haqqında məlumatı verməklə dövlət bununla ictimai nemət (informasiya) yaradır ki, bundan da bütün iqtisadi subyektlər pulsuz istifadə edirlər.**

**Beləliklə, bazar iflaslarının zəiflədilməsi əsasən iqtisadi institutların daha da inkişaf etdirilməsi, inkişaf iqtisadiyyatında dövlətin rolunun dəyişdirilməsi ilə bağlıdır. Asimmetrik informasiya, üstünlükverimlər, ictimai nemətlər, xarici effektlərin nəticələri çox vaxt insanların psixologiyası, onların mədəniyyətinin, mənəviyyatının səviyyəsi, bütövlükdə insanların rifah halının səviyyəsi və onların həyat fəaliyyəti mühiti ilə müəyyənləşir ki, bunlara da müasir güclü dövlət**

**ciddi təsir göstərə bilər. Buna görə də, o yalnız minimum funksiyalarla məhdudlaşa bilməz.**

## Müasir dövlətin maksimum funksiyaları

**Dünyada real mövcud olan iqtisadiyyata müraciət etsək, bazarın məhdudluğunun üzə çıxdığı yeni təsərrüfat sahələri aşkarlanar ki, bu da dövlətin iqtisadi proseslərdə daha geniş iştirakını zəruri edir. Belə sahələrin məcmusu dövlətin inkişaf edən iqtisadiyyata müdaxiləsinin yol verilən maksimum hədlərini və buradan da dövlətin maksimum funksiyalarını müəyyənləşdirir. Bunlara bazarın xroniki adlanan xəstəliklərinin zəiflədilməsi, daha dəqiq desək, antitsiklik siyasətin köməkliyi ilə iqtisadiyyatın tsiklik inkişafımn, antiinflyasiya siyasətindən istifadə yolu ilə inflyasiyanm, sosial siyasətin köməkliyi ilə işsizliyin azaldılması aiddir. İlk iki funksiya adətən tədris ədəbiyyatında «sabitlik» terminində birləşdirilir.**

**Dövlət antitsiklik siyasətinin və ya təsərrüfat konyunkturasının tənzimlənməsinin mahiyyəti bölıranlar və depressiya vaxtı əmtəə və xidmətlərə tələbi, kapital qoyuluşu və məşğulluğu həvəsləndirməkdən ibarətdir. Bunun üçün xüsusi kapitala əlavə maliyyə güzəştləri edilir, dövlətin xərcləri və investisiyalar artırılır. Uzunmüddətli dirçəliş şəraitində ölkə iqtisadiyyatında əmtəə ehtiyatlarının azalması, idxalın artması və tədiyə balansının pisləşməsi, əməyə olan tələbin təklifi üstələməsi və bunun da nəticəsində əmək haqqının və qiymətlərin əsassız artımı kimi təhlükəli hadisələr baş verə bilər. Belə vəziyyətdə dövlət ifrat əmtəə istehsalını və ifrat kapital yığımını ləngitmək məqsədilə tələbin, investisiyaların və istehsalın artmasını ləngitməyə çalışır ki, bu da Rusiya və ckeçid iqtisadiyyatlı^ ölkələr üçün səciyyəvi deyil.**

**İnkişafda olan bazar iqtisadiyyatında dövlət pul dövriyyəsinin tənzimlənməsinə xüsusi diqqət yetirir. Birincisi, ona görə ki, bazar özü-özünü pul ilə təmin edə bilməz. Buna**

görə də pulun emissiyası (buraxılması) dövlətin və ya mərkəzi bankın funksiyasıdır. İkincisi, pul dövriyyəsinin tənzimlənməsi iqtisadiyyat üçün ciddi təhlükə olan inflyasiya ilə mübarizə məqsədi güdür. Qeyd etmək lazımdır ki, inflyasiya ilə əsas mübarizə üsulu onun əsas səbəbləri ilə mübarizə olmalıdır, axı inflyasiyanın əsas səbəbləri aradan qaldırılmadan qiymətlər və gəlirlər üzərində tam nəzarətin köməkliyi ilə ona qarşı mübarizə bazar münasibətlərinin inkişafına mənfi təsir göstərir. Vəziyyətin mürəkkəbliyi bundadır ki, antiinflyasiya siyasətini yalnız ikinci dərəcəli iqtisadi təsir vasitələri ilə məhdudlaşdırmaq olmaz. Aydmdır ki, xalq təsərrüfatında nisbətlərin pozulmasını tədricən, dövlətin quruluş siyasəti və hətta bilavasitə inzibati metodlarla, o cümlədən hərbi xərclərin azaldılması, istehsala kapital qoyuluşlarimn səmərəliləşdirilməsi, istehsala kapital qoyuluşlarimn bir qisminin büdcədən maliyyələşdirilməsindən müəssisələrin vəsaiti ilə əvəzlənməsi, səhmdar kapitalının cəlb edilməsi, iqtisadiyyatın inhisarçı quruluşunun dağıdılması və s. ilə aradan qaldırmaq olar. Bütün bunlara pul kütləsini məhdudlaşdıran, dövlət büdcəsindəki kəsiri aradan qaldıran, milli valyutanın kursunu sabitləşdirən tədbirlər də əlavə olunmalıdır.

Dövlətin sosial funksiyası yalnız səhiyyədə, təhsildə, az təminatlıların dəstəklənməsində və s. kimi ictimai tələbatların ödənilməsinə deyil, həm də müəyyən məşğulluq səviyyəsinin saxlanılması, iş yerlərini itirən və ya iş tapa bilməyən adamların maddi cəhətdən təmin edilməsi məqsədilə əmək bazarının tənzimlənməsinə yönümlənir.

Sosial müdafiə sisteminin genişləndirilməsi üç istiqamətdə aparıla bilər:

- sosial sahənin genişləndirilməsi;
- sosial müdafiə olunmuş qrupun tərkibinin genişləndirilməsi;
- sosial təminat xidmətlərinin miqdarının artırılması və səviyyəsinin yüksəldilməsi.

*Gəlirlərin təkrar bölgüsü* ilə bağlı funksiya da (tədris

**ədəbiyyatında buna bəzən ədalətlilik funksiyası deyilir) az əhəmiyyətli deyil. Bazar gəlir bölgüsünün yalnız bir meyarını tanıyır: əmtəə və xidmətlər bazarında rəqabətdə iştirakın nəticələri - rəqabətdə uğur qazananın gələri yüksək olduğu kimi, uğursuzluğa uğrayanın da gəliri aşağı olur. Sırf bazar bölgüsü yaşayış minimumunun əldə olunmasına heç də təminat vermir. Bazar baxımından ədalətli olan gəlir bölgüsünün ümumbəşəri cəhətdən ədalətli olmamasını cəmiyyətin dərk və etiraf etməsi üçün müəyyən vaxt lazım oldu. Axırda dövlət gəlirlərin vergilər vasitəsilə təkrar bölgüsü, həmçinin əmək qabiliyyəti olmayanları, qocaları və s. dəstəkləmək funksiyasını öz üzərinə götürdü. Bundan başqa, Dövlət yalnız işsizlərə deyil, həm də işləyənlərə qayğı göstərməli, minimum əmək haqqı vasitəsilə onların minimum istehlak səviyyəsini təmin etməlidir. Dövlət tərəfindən həm də ailənin gəlirindən asılı olmayaraq təhsil almaq imkanını təmin edən proqramlar da maliyyələşdirilir.**

**Güclü texnoloji «partlayışla>> səciyyələnən sürətlə dəyişən dünyanın müasir şəraitində fundamental elmi tədqiqatların inkişafı, perspektivləri aydın olmayan yeni sahələrin inkişafının həvəsləndirilməsi, ETT-nin böyük investisiyalar tələb edən, uzun müddətə özünü ödəyən yüksək dərəcədə riskli və mənfəət sarıdan qeyri-müəyyən istiqamətləri də dövlətin funksiyasına çevrilir və dövlət bunu investisiya siyasəti vasitəsilə həyata keçirir. Bu halda dövlət bir tərəfdən Özü inkişaf iqtisadiyyatının üstünlükverimli sahələrinə vəsait qoyur, digər tərəfdən isə daxili və zahiri (xarici) xüsusi vəsaitlərin axınına rəvac verən maksimum əlverişli iqtisadi və fiskal-hüquqi şəraitləri təmin edən tənzimləyici rolunda çıxış edir, investorlara təminatlara əməl edilməsinə nəzarət edir.**

**Dövlətin əmlak münasibətlərinin snbyekti qismində fəaliyyəti də onun funksiyası kimi qalmaqdadır.**

**Ənənəvi dövlət mülkiyyəti obyekti alqı-satqı obyekti olmayan və gəlir gətirməyən (parklar, meşələr və s.) milli sərvətlərdir. Lakin həyat əhəmiyyətli infrastruktur sahələri də:**

**nəqliyyat, rabitə, energetika, hərbi sənayenin bir qismi - çox vaxt dövlətin əlində olur. Bu sahələr, əsasən, bazar iqtisadiyyatının işləməsi üçün zəruri olan dayaqlar, şəraitlərdir.**

**Dövlət mülkiyyətinin xeyli hissəsini qarışıq korporasiyalar təşkil edir ki, bunların kapitalında dövlətin iştirakı üstünlük təşkil etməyə də (50% az ola bilər) bilər, lakin bu, şirkətin fəaliyyəti üzərində ictimai nəzarəti təmin edir.**

**Dövlət mülkiyyətinin formalaşma mənbəyi kimi milliləşdirmə və bilavasitə dövlət sahibkarlığı, yəni dövlət vəsaiti hesabına müəssisələrin tikilməsi çıxış edir. Bu müəssisələr bazar münasibətləri subyekti olur, yəni kommersiya əsasında işləyirlər.**

**Dövlət ictimaiyyət tərəfindən qəbul olunmuş qaydaları dəstəkləyən (məsələn, cəmiyyətdə davranış kodeksi və ya biznesin aparılması qaydaları), yaxud fəaliyyətləri iqtisadiyyatda müəyyən nizamın dəstəklənməsi və saxlanılmasına yönümlənmiş institutlar yaradan sistemdir.**

**Dövlət, hər şeydən əvvəl, iqtisadi fəaliyyəti tənzimləyən qanun və qaydaların yaradılması, həmçinin onlara əməl olunması üzərində nəzarətə cavabdehdir. Qanunvericilik bazasının yaradılması «iqtisadi agentlər»in davranış qaydalarının, iqtisadi münasibətlərin fəaliyyətində hər bir iqtisadi agentin — istehsalçılar, istehlakçılar və dövlətin özü - əməl etməli olduqları hüquqi prinsiplərin müəyyənləşdirilməsidir. Bu qaydalardan xüsusi mülkiyyətin hüquqlarını qoruyan və sahibkarlıq fəaliyyətinin formalarını, müəssisələrin fəaliyyət şərtlərini, onların öz aralarında və dövlətlə münasibətlərini müəyyənləşdirən qanunvericilik və normativ aktları qeyd etmək olar. Hüquqi normalar məhsulun keyfiyyəti və əməyin təhlükəsizliyi problemlərinə, həmkarlar ittifaqları və müdiriyyət arasında münasibətlər məsələlərinə və s. şamil edilir.**

**Dövlətin institusional siyasəti aşağıdakı kimi nəzərdən keçirilə bilər:**

**əməl olunmasına zəmanət verən tam məhkəmə sisteminin formalaşdırılması;**

**■ iqtisadiyyatın müxtəlif dövlət tənzimləməsi mexanizmləri (məsələn, bütün cəmiyyət üzvlərinin ictimai nemətlər almaq hüququnun müdafiə edilməsi və s.) vasitəsilə müəyyən icra institutları sisteminin formalaşdırılması.**

**İnstitusional siyasət aşağıdakı məqsədləri güdməlidir;**

**■ bazarın fəaliyyət göstərməsi üçün əlverişli iqtisadi şəraitin yaradılması;**

**■ makroiqtisadi sabitliyin təmin edilməsi;**

**■ dolğun əmək bazarının formalaşdırılması;**

**■ müsbət investisiya mühitinin yaradılması;**

**■ əhalinin ən az müdafiə olunmuş hissəsinə maddi köməklik göstərilməsi;**

**■ ətraf mühitin mühafizəsi.**

**Dövlət regional siyasət apararaq tarixi, milli, demoqrafik və başqa qeyri-bazar amillərinin bazar iqtisadiyyatına təsiri zamanı yaranan problemləri həll edir.**

**Milli maraqların dünya iqtisadiyyatında realizə edilməsi dövlət tərəfindən müvafiq xarici ticarət siyasətinin aparılmasım, kapital və iş qüvvəsinin beynəlxalq miqrasiyası üzərində nəzarəti, valyuta kurslarına təsiri, tədiyə balanslarının idarə olunmasını və bir çox başqalarını nəzərdə tutur.**

**Dünya əlaqələrinə yanaşmada iki iqtisadi konsepsiya və müvafiq olaraq dövlətin xarici iqtisadi siyasətində iki istiqamət: himayədarlıq və fritrederlik (azad ticarət konsepsiyası) - mövcuddur. Himayədarlıq tərəfdarları dövlətin öz ölkəsinin sənayesini xarici rəqabətdən qorumalı olmasının zəruriliyini söyləyirlər. Azad ticarət tərəfdarları isə hesab edirlər ki, ixrac və idxal quruluşunu dövlət deyil, bazar formalaşdırmalıdır. Bu yanaşmaların bu və ya digər nisbətdə birləşməsi dövlətlərin xarici iqtisadi siyasətini müxtəlif inkişaf mərhələlərində fərqləndirir.**

**Böyük açıqlıq, ticarətin liberallaşdın İması milli iqtisadiyyatlar üçün iqtisadi artımın yüksək və ixrac**

**güclü olduğu dövrlərdə səciyyəvidir. Və əksinə, iqtisadiyyatın tənəzzül etdiyi, ixrac potensialının zəiflədiyi dövrlərdə daha çox himayədarlıq tərəfdarlarının sözü keçir.**

**Qloballaşma inkişaf etdikcə, dövlətin funksiyası və rolu da dəyişir.**

**Bu gün, M.Hansenin sözlərinə görə, az qala əsas yönümünü itirmiş dünya dövlət, bazar və vətəndaş cəmiyyəti arasında yeni balans, yeni qüvvətlər nisbəti tapmağa çalışır. Problemin mürəkkəbliyi ondadır ki, onun həlli üçün göstərilən institutları arasında hakimiyyətin sadəcə olaraq yenidən bölgüsü kifayət deyil, bunun üçün ictimai dəyərlər və üstünlükverimlər dəyişdiyindən həmin institutların özlərinin dəyişdirilməsi lazımdır.**

**Qloballaşma şəraitində dövlətin rolundan danışanda iki cəhəti qeyd etmək lazımdır: dövlət institutunun dünya birliyində və ayrılıqda bir ölkənin daxilində rolu.**

**Birincisinə gəldikdə, iqtisadiyyatda inteqrasiya prosesləri, maliyyə bazarının qloballaşması, dövlət sərhədlərinin «silinməsinə», maliyyə sahəsində dövlətin müstəqilliyinin zəifləməsinə aparması kimi fikir üstünlük təşkil edir. R.Allenin hesablamalarına görə, dünyanın yeddi ən inkişaf etmiş ölkəsinin qiymətli kağızlar bazarının 30% -dən də azı dövlət nəzarətindədir və ya dövlətin maraqlarına xidmət edir. Dünya maliyyə bazarı bir ay ərzində ölkədən ölkəyə 3 trln. dollardan artıq pul köçürür. Bunlardan 2 trln. dollar dövlət və ya digər rəsmi institutların nəzarətində deyil. Xüsusi kapital, hətta ABŞ kimi ölkələrin də mərkəzi bankından çox vəsaitə malikdir. Dünya maliyyə bazarında vəziyyəti Allenin fikrincə, milli hökumətlər deyil, xüsusi kapital müəyyənləşdirir.**

**Bəzi tədqiqatçılar milli dövlətlərin aradan çıxmasının qaçılmazlığı barədə fikir söyləyirlər. R.O'Brayen «Qlobal maliyyə inteqrasiyası. Coğrafiyanın sonu» kitabında yazır: «Millət hələ mövcud olsa da, ona yer qalmır. Biz qlobal inteqral tama yaxınlaşdıqca, coğrafiyanın sonuna bir o qədər**

**ÇOX yaxınlaşırıq», yəni dünyanın milli dövlətlərə bölünməsinin sonuna. Bu fikir xeyli şübhəli görünür. Kortəbii qloballaşma prosesləri dünya iqtisadiyyatını inteqral tama çevirmir, əksinə, onun nisbətsizliyini gücləndirirlər.Əhalinin 1/6-dən az hissəsinin ysışadığı yüksək inkişaf etmiş mərkəzi ilə planetimizin əhalisinin əsas hissəsinin yaşadığı digər hissələri arasında təzad artır.**

**Əslində isə ən iri oliqopol quruluşların gücünün artmasına və dövlətlərin nisbətən azadlığına baxmayaraq, onlar dünya bazarının get-gedə proqnozlaşdırılması çətinləşən kortəbii proseslərini idarə etmək iqtidarında deyillər və dövlət institutuna söykənməyə məcburdurlar. Dünya bazarının tənzimlənməsi strategiyasının işlənib hazırlanması və həyata keçirilməsində bu institutun beynəlxalq səviyyədə rolu güclənir. Bu öz əksini «yeddilik^ ölkələrinin dünya maliyyə bazarını birgə tənzimləmək cəhdlərinin artmasında göstərir. Söhbət birinci növbədə ümumi hüquqi normaların işlənib hazırlanması cəhdindən gedir ki, onların çərçivəsində maliyyə quruluşlarının fəaliyyətinə nəzarət etmək mümkün olsun.**

**Hazırda iqtisadiyyatın valyuta-maliyyə sahəsinin tənzimlənməsi üzrə dövlət funksiyalarının bir qisminin dövlətdən yuxarı səviyyəyə ötürülməsi meyli nəzərə çarpmaqdadır. Belə ki, son illərin hadisələri göstərir ki, dünya maliyyə bazanmn tənzimlənməsinin mövcud alətləri kifayət etmir. Tələm-tələsik yeni ideyalar və konsepsiyalar axtarışı da bundan irəli gəlir. Britaniya baş naziri T.Blerin yeni Bretton-Vud valyuta sistemi yaradılması haqqında, AFR-ın kansleri H.Şrederin hüdudlarında əsas dünya valyutalarının kursu müəyyənləşdiriləcək «məqsəd zonalarım haqqındakı təklifləri də bu qəbildəndir. Vahid dünya valyuta sistemi və dünya mərkəzi bankının yaradılması kimi daha cəsarətli ideyalar da irəli sürülür. Bu təkliflər dünya ekspertləri tərəfindən böyük şübhə ilə qarşılanır.**

**Qloballaşma proseslərinin inkişafı dövlətləri informasiya məkanının, ekologiyanın, terrorizmlə, narkobizneslə və**

**cinayətkarlıqla mübarizənin hüquqi tənzimlənməsi sahəsində siyasətlərini get-gedə daha çox əlaqələndirməyə vadar edir. Belə əlaqələndirmə müasir dövlətin xarici siyasət rolunu zəiflətmədən dövlət hakimiyyəti institutunun beynəlxalq əməkdaşlıq və inkişaf tellərini gücləndirməyi tələb edir.**

**Ölkə daxilində də dövlətin funksiyalarında əhəmiyyətli dəyişikliklər baş verir. Qloballaşma şəraitində ənənəvi iqtisadi və sosial əlaqələrin zəifləməsi və ya pozulmasının, sosial təbəqələşmənin, etnik qruplararası və dinlərarası münaqişələrin təsiri altında cəmiyyətin yükü artır. Buradan da əhalinin ən çox ehtiyacı olan təbəqələrinə zəruri kömək göstərməli və cəmiyyəti zorakılıq, cinayət və qlobal miqyas alan terrordan müdafiə etməli olan dövlətin sosial sabitliyin təminatçısı kimi tarixi rolu güclənir.**

**Dövlətin innovasiya funksiyası qloballaşma şəraitində dövlətin ən vacib funksiyaları sırasında olur. Həqiqətən də, dövlətin innovasiya proseslərində iştirakı elə geniş miqyas alıb ki, ABŞ-da hətta xüsusi firmalar və federal və yerli səviyyədə hakimiyyət orqanlarının sıx əlaqəsini əks etdirən xüsusi «yarımdövlət (semipublic) iqtisadİ3^atı» termini yaranıb. İqtisadiyyatda qloballaşma proseslərinin qərb tədqiqatçıları qeyd edirlər ki, milli rəqabətqabiliyyətli üstünlüklərin meydana gəlməsi TMS və xarici investisiyalardan daha çox dövlətin həm milli, həm də yerli səviyyədə siyasətindən asılıdır. Yerli hakimiyyət orqanlarının rolu artır, onlar öz regionlarının innovasiya sahəsində inkişafı, dünya bazarında uğur qazanması üçün xırda və orta biznesə, institusional zəminin (şəbəkə quruluşları, kooperativ birliklər, informasiya və tədqiqat mərkəzləri, vençur fondları) yaradılmasına lazımi hüquqi və maliyyə dəstəyi verir.**

**tnnovasiyaların həvəsləndirilməsinə yönümlənmiş sənaye siyasəti inkişafın əsas resursunun - insanın inkişafına yönümlənmiş müvafiq sosial siyasətsiz mümkün deyil. Yalnız qabaqcıl ölkələrdə deyil, hər yerdə təhsilə, səhiyyəyə, sosial təminata xərclərin xeyli artması da bundan irəli gəlir.**

**Qloballaşma şəraitində dövlətin optimal strategiyasının fərqli xüsusiyyəti budur ki, o, cəmiyyəti zorla özünə uyğunlaşdırmır, səlahiyyətlərinin bir qismini yerli özünüidarə orqanlarına və vətəndaş cəmiyyəti təşkilatlarına verməklə get-gedə onunla daha sıx birləşir. Dövlət orqanlarının həmkarlar ittifaqları, sahibkarlar assosiasiyaları, ekoloqçular, başqa ictimai təşkilatlarla sıx əməkdaşlığı cəmiyyəti birləşdirməyə, millətin yaradıcı qüvvələrini ən aşağı və kütləvi səviyyədə fəallaşdırmağa, kəskinləşən sosial problemlərin həllinə müvafiq yanaşmağa, bürokratik aparatın işinə səmərəli nəzarət etməyə və korrupsiya ilə mübarizə aparmağa imkan verir. Bu isə qloballaşmaya cavab olaraq dövlətin sosiallaşmasına meylin meydana gəlməsindən danışmağa imkan verir və bu da milli cəmiyyətin dünya birliyinə uğurla inteqrasiyasına zəmin yaradır. Qloballaşmanın qəribəliyi ondadır ki, cəmiyyət nə qədər varlı olsa, onun iqtisadi və sosial birliyi nə qədər yüksək olsa, o, bir o qədər uğurla qlobal bazar şəraitinə uyğunlaşa bilər.**

### *§3. İqtisadiyyata dövlət təsirinin forma və alətləri*

**Dövlət iqtisadiyyata bütöv bir formalar, metodlar və alətlər (və ya tənzimləyicilər) sistemi vasitəsilə təsir edir. Bunlar şəkil 26.2-də verilmişlər.**

**Adətən dövlətin iqtisadiyyata təsirinin üç əsas formasını göstərirlər.**

**1. İqtisadi tənzimləyicilər bazar iqtisadiyyatında əsas tənzimləyicilərdir. Burada dövlətin bazar subyektlərinin fəaliyyətinə bilavasitə müdaxiləsi yoxdur. Dövlət öz qarşısında qoyduğu məqsədlərə məcbur etmə yolu ilə deyil, sahibkarları dövlətə lazım olan istiqamətdə fəaliyyət göstərməyə vadar edən iqtisadi mühit yaratmaqla (müəyyən iqtisadi siyasət vasitəsilə) çatır.**

**2. İnzibati tənzimləyicilər. Bazar iqtisadiyyatında onlar zəruridir, lakin iqtisadi tənzimləyicilərə nisbətən tabeli səciyyəlidirlər.**

**İnzibati tənzimləyicilər məcbur etmə ilə, təsərrüfat subyektinin dövlət orqanlarının qərarlarına bilavasitə tabe olması ilə bağlıdır. Bu, məsələn, qiymətlərin, əmək haqqının, iş şəraitinin direktiv tənzimlənməsi, valyuta və antiinhisar tənzimləməsidir. Amma inzibati tənzimləyiciləri ehtiyatla tətbiq etmək lazımdır, çünki onların həddindən artıq tətbiqi bazar iqtisadiyyatının inzibati-amirlik iqtisadiyyatına çevrilməsi təhlükəsini yaradır.**

**Praktikada inzibati və iqtisadi metodlar bir-birinə zidd deyil, hətta bir-biri ilə əlaqədardırlar. Bu və ya digər metodun üstünlük təşkil etməsi tarixi şəraitdən və həll edilməsi zəruri olan məsələlərdən asılıdır.**

**3. Hüquqi tənzimləyicilər iqtisadi zəminin yaradılması, «oyun qaydaları »nın müəyyənləşdirilməsi və onlara əməl olunmasına nəzarətə istiqamətlənib. Sahibkarlığın - bazar iqtisadiyyatı inkişafının hərəkətverici qüvvəsinin - hüquqi əsasının xüsusi əhəmiyyəti var.**

**Bu zaman həm birbaşa, həm də dolayısı ilə olan metodlardan istifadə olunur.**

**Birbaşa müdaxilə, hər şeydən əvvəl iqtisadiyyatda dövlət bölməsinin olması deməkdir, onun həcmi dövlətin iqtisadi rolunun meyarı kimi çıxış edə bilər (amma tam mütləq ola bilməz). Dövlətin birbaşa müdaxiləsi həm də bazar subyektləri arasında münasibətləri nizamlamağa ünvanlanmış qanunvericilik aktlarının qəbul edilməsində özünü büruzə verir. Bura iş fəallığını məhdudlaşdıran ən müxtəlif qanunlar, mülki və vergi məcəllələri və s. aiddir. Birbaşa müdaxiləyə dövlətə lazım olan firma məhsullarının mütləq və əlverişli qiymətə satılması imkanı verən dövlət alışı sistemini də aid etmək olar. Dövlət tənəzzüllü bölgələrdə regional proqramları, kosmosun fəthini və s. birbaşa və tam maliyyələşdirə bilər (məqsədli maliyyələşdirmə).**

**Dolayısı ilə müdaxilə dövlət tərəfindən müəyyən iqtisadi siyasətin (büdcə-vergi, pul-kredit, amortizasiya, valyuta, gömrük və s.) aparılmasını nəzərdə tutur.**




**Şəkil 26.2.Bazar iqtisadiyyatının dövlət tənzimlənməsinin forma, metod və alətləri**

**İqtisadi proqramlaşdırma və indikativ (tövsiyəvi) planlaşdırma, yəni sosial-iqtisadi inkişafın və təsərrüfat strategiyasının variantında nəzərdə tutulana müvafiq olaraq ictimai istehsalın quruluşuna mütəmadi və kompleks təsir etmək yolu ilə onun dövlət tərəfindən müəyyən məcraya yönəldil**

**məsi XÜSUSİ yer tutur. İqtisadiyyatın proqramlaşdırılması sahəsində çox ölkənin təcrübəsi var. O, İkinci Dünya müharibəsindən sonra Fransada, Hollandiyada, Norveçdə, Yaponiyada yaranmışdı. Sonralar İsveçdə, Finlandiyada, Böyük Britaniyada və başqa ölkələrdə də tətbiq olunmuşdu. Proqramlaşdırma zamanı üstünlükverimlər dərəcələrə bölünür və bir qayda olaraq onlann arasında ziddiyyət olur (məsələn, tam məşğulluğa nail olmağa yönümlə və inflyasiyanın olmamasına yönüm arasındakı ziddiyyət) və seçilmiş məqsədlər tənzimləyicilər sistemi ilə uzlaşdırılır.**

**İqtisadi proqramlaşdırma əlbəttə sovetlərin planlaşdırma təcrübəsinin təsiri altında yaranmışdı. Lakin onları eyniləşdirmək böyük səhf olardı. Onların arasındakı əsas fərq bundadır ki, SSRİ və digər mərkəzləşdirilmiş iqtisadiyyatlı ölkələrdə planlaşdırma direktiv, yəni mütləq səciyyəli idi. Bazar iqtisadiyyatlı ölkələrdəki təşəbbüslü planlaşdırma isə tövsiyə səciyyəlidir.**

**Dövlət öz funksiyalarını yerinə yetirərkən müxtəlif metodlar tətbiq edəndə bazar təsərrüfat sisteminin bu metodlara göstərdiyi tələbləri unutmamalıdır;**

**■ dövlətin bazar əlaqələrini qıran istənilən hərəkətinə (resursların və istehlak şeylərinin natural bölgüsü, fondlaşdırma, qiymətlər üzərində tam nəzarət və s.) yol verilmir;**

**■ ən yaxşısı bazara əsasən iqtisadi metodlarla təsir göstərilməlidir;**

**■ iqtisadi tənzimləyicilər bazar stimullarını əvəzləməməli və ya zəiflətməməlidirlər;**

**■ dövlətin tətbiq etdiyi metodların verdiyi müsbət və ya mənfi nəticələr daim nəzarətdə saxlanılmalıdır;**

**■ milli xüsusiyyət mütləq nəzərə alınmalıdır.**

## *§4. İctimai seçim nəzsriyyəsi va dövlətin nuğursuzluqlarii**

**İctimai seçim nəzəriyyəsi insanların hökumət idarələrindən öz xeyirlərinə istifadə etdikləri müxtəlif üsul və metodları öyrənən nəzəriyyədir.**

**İqtisad elmində bu nəzəriyyə 1960-cı illərin sonunda formalaşmışdır. Amerika iqtisadçısı K.Errou və şotlandiyalı alim D.Blek iqtisadi təhlil prinsiplərini hökumət tərəfindən siyasi və iqtisadi qərarların qəbul edilməsi prosesinə tətbiq etdilər. Buna görə də ■«siyasi iqtisada və ya «yeni siyasi iqtisad» terminləri Qərbdə ictimai seçim nəzəriyyəsinə şamil edilərək işlədilir. Bu nəzəriyyənin inkişaf etdirilməsində C.Byükenenin, Duqlas Nortun, Mankur Olsonun və b. xidmətləri böyükdür.**

**Bu nəzəriyyənin mahiyyəti ondadır ki, siyasi sahənin özü bazann (bu halda siyasi) bir nÖvü kimi nəzərdən keçirilir. Buna görə də dövlət məmurunun davranışı bazar qanunları ilə müəyyənləşir və ö heç də öz seçicilərinin ictimai rifahını düşünərək hərəkət etməyəcək. Əgər bazar iqtisadiyyatında istehlakçı aldığı əmtəənin faydalılığının maksimallığına, biznesmen təsərrüfat fəaliyyətində gəlirin maksimallığına can atırsa, dövlət orqanlarımn nümayəndəsi öz xeyrini maksimallaşdırmağa (yenidən seçilməyə, seçkilərdə çox səs toplamağa) çalışır. Buna görə də hər hansı siyasi və iqtisadi qərarın qəbul edilməsi prosesində dövlət məmurları mütləq öz şəxsi maraqlarını nəzərə alacaqlar.**

**Dövlət xadiminin rasional iqtisadi davranış prinsipini Pol Heyne qrafikdə əks etdirmişdir (bax şəkil 26.3)k**

**Bu qrafikdə zarafatyana tərzdə ictimai seçim nəzəriyyəçilərinin ən mühüm ideyası əks etdirilmişdir: vəzifəli dövlət adamı bazar iqtisadiyyatının bütün digər subyektləri kimi öz şəxsi son hədd xərcləri ilə son hədd qazancını tarazlaşdırmaq istəyir və ya MC bərabər olmalıdır MR-ə. İctimai maraqların bu zaman mütləq nəzərə alınması isə vacib deyil.**

**İctimai seçim nəzəriyyəsinin siyasi proseslərə yanaşmasının xüsusiyyəti fərdi marağın yalnız gündəlik həyatda və biznesdə deyil, həm də ictimai həyatda əsas təkanverici səbəb kimi nəzərdən keçirilməsindədir.**

**İctimai həyatda insanlar yalnız öz şəxsi maraqlarından çıxış edərək davranırlar, bu da heç də həmişə bütövlükdə cəmiyyətin maraqlarına cavab verən nəticələrə gətirib çıxarmır, öz iqtisadi maraqlarını rəsmi şəxs vasitəsilə ən çox həyata keçirmək şansına yaxşı təşkil olunmuş təzyiq qrupları və ya lobbi malikdir. Lobbiçilər siyasi renta əldə etməyə çalışırlar.**

*Siyasi renta* - **siyasi institutlardan siyasi proses yolu vasitəsilə iqtisadi rentanın alınmasıdır.Məsələn, idxal gömrüyünün tətbiqindən qazanclar, hərbi məhsul alınmasına böyük vəsaitin ayrılması və s.**

**İctimai seçim nəzəriyyəsi göstərir ki, ictimai maraqların realizə edilməsi bürokratiyanın şəxsi maraqları ilə üst-üstə düşür, lakin bu, dövlət məmurunun mütləq öz şəxsi xeyrini güdməsi demək deyil.**

**Demokratiya şəraitində «loqrollinq» adlanan proses geniş yayılmışdır. Loqrollinq səs alveridir, yəni bir fərd (və ya partiya) hər hansı bir məsələyə görə səsvermədə digər fərdə dəstək verməyi vəd edir, əvəzində isə ikinci başqa bir məsələ**




**Şəkil 26.3.Dövlət xadiminin səmərəli iqtisadi davranışı**

## Dövlətin «uğursuzluqları»

**İctimai seçim nəzəriyyəsində bildirilir ki, iqtisadi səbəblərə görə ayrı-ayrı əhali qruplan arasında siyasi bərabərsizlik mövcuddur və səmərəsiz qərarların qəbulu, yəni dövlətin uğursuzluğu (fiasko) mümkündür. Bundan başqa, bürokratik aparatın böyüməsi qərarın qəbul edilməsi prosesinin özünü çətinləşdirir. Buna görə də bazarın «uğursuzluqları»na dövlətin «uğursuzluqları» da əlavə olunur.**

**Dövlətin «uğursuzluqları»na aiddir:**

**■ qərarın qəbul edilməsi üçün lazım olan informasiyanın məhdudluğu. Hökumət qərarları çox vaxt düzgün qərar qəbul edilməsinə imkan verə biləcək etibarlı statistika uçotunun olmaması şəraitində qəbul edilə bilər. Xüsusi maraqları olan güclü qrupların, lobbiçiliyin, dəbdə olan bürokratik aparatın mövcudluğu zəruri informasiyanın xeyli təhrif olunmasına səbəb olur;**

**■ siysısi prosesin qeyri-kamilliyi, yəni səmərəli xəbərsizlik, lobbiçilik, reqlamentin qeyri-kamilliyi üzündən səslərlə kələkbazlıq etmə, loqrollinq, siyasi renta axtarışı, siyasi-iqtisadi tsikl və s.;**

**■ bürokratiya üzərində nəzarətin məhdudluğu və bu problemi mürəkkəbləşdirən dövlət aparatının sürətlə artması;**

**■ dövlətin qəbul etdiyi qərarlarının yaxın və uzaq nəticələrini əvvəlcədən tam nəzərə almaq və nəzarətdə saxlamaq iqtidarında olmaması, çünki dövlətin atdığı addımların son nəticələri yalnız onun özündən asılı deyil.**

**Dövlətin bazar uğursuzluqlarının aradan qaldırılmasına yönəldilmiş fəaliyyətinin özü kamillikdən çox uzaqdır. Onun fəaliyyətinin nəticələri ciddi izlənilməlidir. İqtisadi metodlar elə tətbiq olunmalıdır ki, bazar qüvvələrinin hərəkətini əvəzləməsinlər.**

**Hər halda cəmiyyət və insan inkişaf etdikcə dövlət tərəfindən istənilən müdaxilə hazırda əvvəlki dövrlərə nisbətən daha uğurlu olur. Dövlət qurumlarının, onların iş formaları**

**və metodlarının kamilləşdirilməsi isə heç nə ilə məhdudlaşdırılmayan şəxsi maraqlara, qeyri-kamil bazar təsərrüfatçılıq sisteminə uğurla müdaxiləni təmin edir.**

# C. MEZOİQTİSADİYYAT

## XXVII FƏSİL, AQROSƏNAYE KOMPLEKSİ İQTİSADİ SİSTEMİN ÇOXSAHƏLİ FUNKSİONAL ALT SİSTEMİ KİMİ

***§1. Aqrosənaye kompleksi: tərkibi və quruluşu.***

***§2. Aqrobiznes və aqrosənaye kompleksinin alt sistemi elementlərinin təşkili formaları.***

***§3. Aqrosənaye kompleksinin fəaliyyətinin bazar mexanizmləri və onun inkişaf meylləri.***

**Mezoiqtisadiyyat (yunanca: menos - orta) milli iqtisadiyyatın mühüm müstəqil əhəmiyyətə malik olan (mikro- və mak- roiqtisadiyyat arasında) alt sistemlərinin davranışı, məzmunu və mahiyyətini öyrənir. Bura aqrosənaye kompleksi (ASK), yanacaq-energetika kompleksi (YEK), hərbi-sənaye kompleksi (HSK) və digər alt sistemlər aiddir. Mezoiqtisadiyyatda xalq təsərrüfatının ayrı-ayrı sahələrinin davranışı, bazar iqtisadi sistemində onların yeri və rolu öyrənilir. Bütövlükdə milli iqtisadiyyatın mühüm tərkib hissəsi olan regional problemlərə xüsusi diqqət yetirilir.**

**Mezoiqtisadiyyatın nəzəri problemlərinin təhlilini mezo-səviyyədə əsas təsərrüfat fəaliyyəti sistemlərindən biri kimi ASK-nin mahiyyəti, məzmunu, təşkili formalarının aydınlaşdırılmasından və onun bazar təsərrüfat sistemində işləmə mexanizmindən başlamaq daha məqsədəuyğundur.**

### *§1. Aqrosanaye kompleksi: tərkibi və quruluşu*

**Kənd təsərrüfatı istənilən cəmijyətin həyatında müstəsna yer tutur, çünki mövcudluğu insan həyatının birinci şərti olan ərzaq məhsullarının əksər hissəsi məhz burada istehsal olunur.**

**Müasir kənd təsərrüfatı istehsalını ayrıca, təcrid olun**

**muş, milli iqtisadiyyatdan kənarda inkişaf edən və fəaliyyət göstərən təsəvvür etmək mümkün deyil. Real həyatda o, sahələrarası istehsal kooperasiyalarına əsaslanır və buna səbəb də iqtisadiyyatın onunla əlaqədar sahələri:**

- **bir tərəfdən, kənd təsərrüfatına istehsal vasitələri verir, istehsalın bütün zəruri texniki şərtlərini yaradırlar;**
- **digər tərəfdən, kənd təsərrüfat xammalını emal edir və istifadəyə hazır ərzaq məhsullarını, istehlakçıya çatdırırlar.**

**Bu qarşılıqlı fəaliyyət zəminində ASK yaranır.**

**Aqrosənaye kompleksi kənd təsərrüfatının və iqtisadiyyatın onunla əlaqədar olan kənd təsərrüfatı texnikası, kənd təsərrüfatı məhsullarının istehsalı, onların emalı və satışı sahələri ilə qarşılıqlı fəaliyyətini əks etdirən funksional çoxsahəli alt sistemidir.**

**ASK-nın yaranması kənd təsərrüfatının maşınlı istehsal mərhələsinə keçidi ilə bağlıdır və bu kənd təsərrüfatının milli iqtisadiyyatın başqa sahələri ilə texnoloji və funksional əlaqələrini xeyli dərinləşdirdi və genişləndirdi.**

**Praktik olaraq milli iqtisadiyyatın bütün sahələri bilavasitə və ya dolayısı ilə ASK-nın fəaliyyətində iştirak edirlər. Onun quruluşuna üç sahə daxildir (şəkil 27.1).**

**I sahə — kənd təsərrüfatı üçün istehsal vasitələrinin istehsalı**

*ASK İ*

**II sahə - kənd təsərrüfatının özü**

**III sahə - hazır məhsulun yenidən emalı və satışı**

**Şəkil 27.1. ASK-nın quruluşu**

**ASK-nin ən mühüm hissəsini ərzaq kompleksi (ƏK) təşkil edir; qeyri-ərzaq təyinatlı kənd təsərrüfatı xammalının emalı sahələri bura daxil deyil,**

**ƏK anlayışı Qərbi Avropa Ölkələrinin iqtisadiyyatında xüsusilə geniş yayılmışdır, burada əslində bilavasitə texnoloji xammal: pambıq, kətan və s. istehsalı yoxdur. ABŞ-da ASK-da istehsal olunan bütün məhsulun 9/1 O-u ƏK-nin payına düşür.**

**ASK-nın (ƏK) formalaşmasının maddi zəmini:**

**■ ictimai əmək bölgüsünün dərinləşməsi;**

**■ kənd təsərrüfatının milli iqtisadiyyatın başqa sahələri ilə fasiləsiz genişlənən istehsal-texnoloji kooperasiyası prosesidir.**

**Kənd təsərrüfatı üçün istehsal vasitələri istehsalı**

**Kənd təsərrüfatı istehsalının maddi-texniki təminatı və ona xidmət göstərilməsi**

**ASK məhsulunun formalaşması üzrə axının istiqaməti**

**ASK məhsulunun formalaşması üzrə axının istiqaməti**

**Kənd təsərrüfatı istehsalının özü**

**Kənd təsərrüfatı məhsullarının sənaye emalı**

**Hazır məhsulun saxlanması və ticarətdə asılılığı**

**Şəkil 27.2. Kənd təsərrüfatının iqtisadiyyatın əlaqəli sahələrindən asılılığı**

**Hazırda kənd təsərrüfatı məhsulunun bilavasitə istehsalçısı (məsələn, fermer) öz məhsulunu tam istehlak hazırlığı səviyyəsinə çatdırmır.**

**Kənd təsərrüfatı istehsalın maşın mərhələsi şəraitində yalmz öz istehsal vasitələrilə məhdudlaşa bilmir. Kənd təsərrüfatının özünün ASK-da (ƏK) vəziyyəti həm sənaye istehsalı, həm də ticarət sahəsində kooperasiyadan asılılıq münasibətləri ilə səciyyələnir.**

**Kənd təsərrüfatının iqtisadiyyatın əlaqəli sahələrindən asılılığını şəkil 27.2-dən görmək olar.**

**Sahələrarası kooperasiya nə qədər yaxşı inkişaf etmiş olsa, ASK-nın (ƏK) son məhsulunun dəyərində kənd təsərrüfatının payı bir o qədər az olar.**

**Ən güclü ASK ABŞ-dadır: onun son məhsulu ÜMM-un 12%-ni təşkil edir, amma ABŞ-ın öz kənd təsərrüfatı məhsulları ÜMM-un cəmi 1,5%-ni təşkil edir.**

**ABŞ ASK-nın yüksək inkişaf səviyyəsi ABŞ iqtisadiyyatının yüksək inkişaf səviyyəsi və o cümlədən aşağıdakılarla şərtlənir:**

- **əmək bölgüsünün dərinləşməsi;**
- **ASK sahələri arasında funksiyaların yenidən bölgüsü;**
- **kənd təsərrüfatının sənaye inkişafı.**

**Kənd təsərrüfatının sənayeləşməsi ASK-sində və bütövlükdə iqtisadiyyatdakı keyfiyyət proseslərində əsas rol oynayır. O, kənd təsərrüfatında işləyənlərin sayının azalmasına, kənd əhalisinin istehlak etdiyi ərzağın əmtəə olmayan hissəsinin azalmasına, əhalinin şəhər və kənd təsərrüfatçısı olmayan hissəsinin artmasına, qidamn hazırlanması üzrə funksiyanın ev təsərrüfatından sənaye əsaslarına söykənən ictimeü təsərrüfat sahəsinə keçməsinə aparır.**

**ABŞ-da işləyənlərin 12%-i ƏK-da, cəmi 3%-i isə kənd təsərrüfatında çalışır.**

**ABŞ-dan fərqli olaraq. Qərbi Avropa ölkələrində ƏK-nın formalaşması yalnız milli iqtisadiyyat çərçivəsində deyil, həm də dünya təsərrüfat əlaqələri zəminində baş vermişdi.**

**Bu, Qərbi Avropa ölkələrinin özlərini nəinki kənd təsərrüfatı xammalı, hətta zəruri istehsal vasitələri ilə tam təmin edə bilməməsi ilə əlaqədardır. Eyni zamanda iri Qərbi Avropa ərzaq şirkətləri milli hüdudlardan kənarda da fəaliyyət göstərirlər (məsələn, İsveç konserni eNestle*). Əsasən isə burada ƏK AİB çərçivəsində fəaliyyət göstərir.**

**Rusiya Federasiyasının ASK-sına gəldikdə isə, ona deformasiya olmuş, tarazlaşdırılmamış sahə quruluşu, bir də kənd təsərrüfatının şişirdilmiş ekstensiv inkişafı xasdır və kənd təsərrüfatının məhsulları ASK məhsulu dəyərinin 70- 80% -ni təşkil edir.**

### *§2. Aqrobiznes və aqrosənaye kompleksinin alt sistemi elementlərinin təşkili formaları*

**Bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatı məhsulları və ərzağın istehsalı və ondan istifadənin kompleks xarakteri aqrobiznesin formalaşması üçün zəmindir.**

**Aqrobiznes nəzəriyyəsinin baniləri 1958-ci ildə «Aqrobiznes konsepsiyasım kitabını çap etdirmiş Amerika iqtisadçıları Con Devis və Rey Holdberqdir. Rey Holdberq hələ də aqrobiznes üzrə daim fəaliyyət göstərən beynəlxalq seminarın rəhbəridir.**

**Alimlərin fikrincə, aqrobiznes kənd təsərrüfatının təchizatı sahəsində bütün istehsal əməliyyatları və xidmətlərin bölgüsünün, fermalarda istehsal əməliyyatlarının, kənd təsərrüfatı xammalı və ondan hazırlanmış istehlak məhsullarının, həmin məhsula tələbin tam ödənildiyi şəraitdə gəliri maksimallaşdırmaq məqsədilə, saxlanılması, emalı və satışı üzrə əməliyyatların məcmusudur**

**Bazar iqtisadi modeli şəraitində aqrobiznes kənd təsərrüfatının zəruri resurslarla təmin edilməsi və ərzaq və texniki xammalın istehsal və emal edilməsi, bölgüsü ilə bağlı ardıcıl əməliyyatların həyata keçirilməsinin təmin edilməsi üzrə əlaqələndirmə tədbirlərinin spesifik formasıdır. Aqro-**

**biznesin məqsədi tələbatların ödənilməsi vasitəsilə gəlirin maksimallaşdırılmasıdır.**

**İnkişaf etmiş iqtisadiyyatlı ölkələrdə ASK-nın istehsal sistemində kənd təsərrüfatı olmayan sahələrinin üstünlük təşkil etməsi onların institutlarının aqrobiznesdə aparıcı mövqeyini şərtləndirir.**

**Müasir aqrobiznesin kənd təsərrüfatı olmayan müəssisə, firma, birlikləri üçün təsərrüfat fəaliyyətinin get-gedə daha iri firmalarda (obyektlərdə) təmərküzləşməsi və mər- kəzləşməsi qanunauyğundur. Məsələn, hazırda ABŞ-ın iki ən iri şirkəti «Con Dir» və «Keys və Ko» fermaların traktor və kombaynlarla təchizatının 4/5-nə nəzarət edirlər. ABŞ- da bu sahədə əlavə edilmiş dəyərin 3/5 hissəsi 12 min ərzaq şirkə-tindən onların cəmisi 1,7%-ni təşkil edən 200 ən irisinin payına düşür.**

**2005-ci ildə yeyinti sənayesinin cəmi 50 ən iri firmasının sahə son məhsulunun 3/4-nə nəzarət edəcəyi gözlənilir. Ölkə ərzaq ticarətinin pərakəndə əmtəə dövriyyəsinin 2/3-si iri çoxprofilli topdan-pərakəndəsatış firmalarında (10-da 50-yə dək mağaza) cəmlənib.**

**ABŞ-da aqrobiznesin əsas təşkilat forması iri elmi-istehsalat birlikləri olan, 10 mindən 100 minədək adamın işlədiyi, 5 milyard dollardan 20 milyard dollara qədər və bundan da artıq məbləği olan, məhsul satan aparıcı firmalardır.**

**İrimiqyaslı istehsalın inkişafı qeyri-kənd təsərrüfatı sahələrində səhmdar təsərrüfat subyektlərinin üstünlük təşkil etməsi ilə şərtlənir. Amma aqrobiznesdə quruluş dəyişikliklərini nisbətən tez həyata keçirə bilən və elmi - texniki tərəqqinin nailiyyətlərinin bir növ kəşfiyyatçıları və həyata keçirənləri olan xırda və orta qeyri-kənd təsərrüfatı şirkətləri əhəmiyyətli, bəzən isə artan rol oynayırlar.**

**Birbaşa kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən aqrobiznesin təşkilat formaları spesifik xüsusiyyətləri ilə fərqlənirlər ki, bu da kənd təsərrüfatının bir sahə kimi xüsusiyyətləri ilə şərtlənir. Fermer təsərrüfatları üstünlük**

**edir: fərdi-ailə fermalar, ailə-qrup fermalar (tərəfdaşlıq, ailə şirkətləri və s.). Bu, kredit də daxil olmaqla ailə kapitalı və qismən, il ərzində kənd təsərrüfatında məşğul olanların təxminən 35% -ini təşkil edən muzdlu əməkdən istifadə etməklə aparılan nisbətən kiçik təsərrüfat vahidləridir. Kənd təsərrüfatı istehsalı ilə iri səhmdar şirkətləri də məşğul olurlar.**

**ASK-nın (ABŞ-ın timsalında) kənd təsərrüfatı sahəsinin təşkilat formalarının quruluşu şəkil 27.3-də verilmişdir.**

**Amma hətta ən iri fermalar belə miqyaslarına görə aqrobiznesin qeyri-kənd təsərrüfatı firmalarından onlarla, yüzlərlə dəfə kiçikdirlər.**




**Şəkil 27.3. ASK-nın kənd təsərrüfatı sahəsinin təşkilati formalarının quruluşu**

**Aqrobiznesin kənd təsərrüfatı sahəsində əsas meyli bir müəssisədə minimum istehsal həcminin daim artırılmasıdır, bu da fermaların ümumi sayının azalmasına və iri təsərrüfatların rolunun artmasına səbəb olur. Lakin inkişaf etmiş bazar iqtisadiyyatı ölkələri hələ ki, xırda və orta fermer təsərrüfatlarından azad ola bilmirlər. Bu, həm də cəmiyyətin onlarda maraqlı olması ilə izah olunur, çünki kənd təsərrüfatının sənayeləşdirilməsinin, inhisarlaşdırılmasının ərzağın bahalaşmasına, onun çeşidinin azalmasına və keyfiyyətinin pisləşməsinə gətirib çıxaracağından narahatdır. Kənd təsərrüfatı məhsullarında sağlamlıq üçün zərərli**

**biləcəyindən narahat olan istehlakçı cəmiyyətləri xüsusi fəallıq göstərirlər. Məsələn, AİB-də 1988-ci il yanvarın 1-dən heyvandarlıqda boy hormonlarından istifadə qadağan olunub.**

**İstehsal edilən ərzağın keyfiyyətinə tələbləri sərtləşdirən və aqrar istehsalda kimyəvi maddələrin istifadəsini məhdudlaşdıran qanunlar qüvvəyə minir. Sorğuların nəticələrinə görə AFR əhalisinin 65%-i ərzaqdan zəhərlənməkdən qorxur, Fransada əhalinin 53%-i «təmiz» mal əti üçün daha çox pul verməyə hazır olduğunu bildirmişdi.**

**Bu şəraitdə bir sıra ölkələrdə alternativ əkinçiliklə məşğul olan kəndli və fermer birlikləri yaranmışdır. 1972-ci ildə 30 ölkədən 80 mindən artıq fermeri birləşdirən beynəlxalq üzvi əkinçilik federasiyası yaranmışdı və hazırda da fəaliyyət göstərir.**

**Kimyəvi cəhətdən (ekoloji) təmiz ərzaq istehsalı kəndli ailə təsərrüfatının aradan çıxmaması və mövcud olması üçün yeni perspektivlər açır.**

### *§3. Aqrosənaye kompleksinin fəaliyyətinin basmr mexanizmləri və onun inkişaf meylləri*

**ASK quruluşunda qeyri-kənd təsərrüfatı sahələrinin tam üstünlüyü onlara ASK-nm müasir, daha sərt, kənd təsərrüfatı istehsalımn texnologiyası və təşkili üzərində texniki iqtisadi səciyyəli normativ nəzarət kimi, fəaliyyət mexanizmini yaratmağa imkan verir.**

**Bu, kənd təsərrüfatının inkişafını müəyyənləşdirən strateji qərarların qəbul edilməsinin fermer təsərrüfatlarından, onlarda əsasən taktiki qərarların qəbul edilməsi qalır, ASK-nın sənaye-ticarət sahələrinə keçməsini şərtləndirir,**

**Firmadaxili planlaşdırma praktikası isə öz növbəsində sistemli yanaşma və marketinq prinsiplərindən daha dolğun istifadə etməyə səbəb olur. Bu, bütün ərzaq kompleksinin məcmu mənfəətliliyinin uzunmüddətli artımı üçün daha eti**

**barlı zəmin yaradır, bu da onun bütün hissələrində fərdi mənfəətin artmasına gətirir və son nəticədə onları son faydalı səmərənin artırılmasına artan yönümünü müəyyənləşdirir.**

**Bəs aqrobiznesin müxtəlif bölmə və sahələrinin əsas qarşılıqlı əlaqə prinsipləri hansılardır?**

**1. Müxtəlif sənaye firmalanmn öz məhsullarının satış bazan kimi kənd təsərrüfatında maraqlı olmalan kənd təsərrüfatı istehsahnm elə vasitələrini (texniki şərtlər) işləyib hazırlamağı şərtləndirir ki, bu onların istehsalının məcmu səmərəliliyini artırmağa və bu zəmində kənd təsərrüfatı müəssisələrinin (fermalann), fermerlərin yeni texnikaya tələbinin sabitliyinin əsası kimi, rentabelliyini yüksəltməyə sövq edir.**

**Bu strategiya ASK-nın I dairə aqrobiznes firmalarını texniki tərəqqinin əsas istiqamətlərini müəyyənləşdirən mərkəzlərə çevirir.**

**2. Yeyinti sənayesi və ərzaq ticarəti firmaları ərzaq məhsullarının istehsalına, emal edilməsinə və satışına məcmu xərcləri azaltmaq məqsədilə kənd təsərrüfatı məhsullarının keyfiyyət göstəricilərinin yüksəldilməsini və fərqlənməsini, çeşidlərinin artmasını, səmərəli yerləşdirilməsini, məhsul, texnologiya və ərazi üzrə ixtisaslaşmanı həvəsləndirir, kənd təsərrüfatı istehsalının fəsillərlə bağlılığını aradan qaldırır və ya minimuma endirir.**

**3.Praktika göstərir ki, ərzağın milli bazar miqyasında vahid təkmil satış mexanizmi olmasa, bütün ASK-nın səmərəli aparılması mümkün deyil.**

**4.Ərzaq bazarının kifayət qədər dolğunluğu ərzağın çoxsaylı keyfiyyət xüsusiyyətlərinin (tələblərin) yaxşılaşdı-nl-masını sürətləndirir. Bunlar aşağıdakılardır;**

**■hər məhsulun tərkibində qida maddələrinin qədərinin maksimallaşdırılması;**

**■ zərərli maddələrin olmaması;**

**■hazırlıq səviyyəsi (dərəcəsi) və son istehsakçı üçün rahatlığı;**

**■ qablaşdırılması və s.**

**Bu, istehlak tələbinin və yeyinti sənayesi və ticarətin onu təhlil edən firmalarının, ASK-nIn bütün bölmələrinin inkişafını müəyyənləşdirən amil kimi rolunu artırır.**

**5. Aqrobiznesin bazar mexanizmlərinin həyata keçirilməsi prinsiplərinin zəruri şərti kimi, kənd təsərrüfatı müəssisələrində idarəetmə əməyinin əhəmiyyəti artır.Bu, fermerlərin kooperativ, xüsusi və dövlət xidmətlərindən istifadə zəminində ixtisaslarının yüksəldilməsi, kompüterləşdirmə dərəcəsinin artırılması və kommunikasiya xidmətləri və vasitələrinin inkişafı şərti ilə mümkündür.**

**ASK-nın bazar mexanizminin inkişafında iki meyl var.**

**Birinci meyl-aqrosənaye bazar əlaqələrinin aqrosənaye birliklərinin yaradılması, müqavilələrin, bilavasitə əlaqələrin, bazar razılaşmalarının inkişafı, bir sıra kənd təsərrüfatı məhsullarının fermer qiymətlərinə dövlət dəstəyi yolu ilə məqsədyönlü yeniləşdirilməsidir.**

**Kənd təsərrüfatı məhsullarının qiymətlərinin tənzimlənməsini qrafikdə (şəkil 27.4) nəzərdən keçirək. Yada salaq ki, D - tələb, S - təklif, P - qiymət, Q - həcmdir.**

**Qiymət əkinçinin gəlirini təmin etmək və ərzaq istehsalının artımını həvəsləndirmək üçün həddən aşağı hesab olun-**




**Şəkil 27.4. Kənd təsərrüfatı məhsulu qiymətlərinin tənzimlənməsi**

**duğu təqdirdə tarazlıq qiymətindən fərqlənə bilər. Bu halda dövlət qiymətin əmələ gəlməsi prosesinə müdaxilə edir və kənd təsərrüfatı məhsulunun (Qı-dən Q2-yə qədər) təklifini həvəsləndirən Pg qiymətini müəyyənləşdirir. Lakin yüksək qiymət istehlakçı tələbinin Qg həcminə qədər azalmasına səbəb ola bilər. Bunun nəticəsində kənd təsərrüfatı məhsulları təklifinin artıqlığı yaranır. Buna görə də kənd təsərrüfatı məhsullarının tənzimlənməsi sisteminə, bir qayda olaraq, tənzimlənməyə görə artan qiymətləri aşağı salan və bununla da həm istehlakçı, həm də istehsalçı üçün məqbul olan iqtisadi şərtləri bərpa edən dotasiya sistemi də daxil olur.**

**İkinci meyl. Bazarın tədricən yığılan artıq «təşkilatlanma» elementləri azad bazara xas təsir səmərəliliyini pozur, o cümlədən əlverişli tərəfmüqabili seçimini mürəkkəbləşdirir. Buna görə də bazar əlaqələrində məlum «qayda- qanun yaratmaq*dan sonra əsasən bazar mexanizmlərinə əsaslanmağın, onun daha səmərəli işləməsi üçün ölçü götürülməsinin və bazar qanunlarının qeyd-şərtsiz nəzərə alınmasının zəruriliyi dərk olunur.**

# XXVIII FƏSİL. YANACAQ-ENERGETİKA KOMPLEKSİ - MÜASİR MEZOİQTİSADİYYATIN MÜHÜM ELEMENTİDİR

*§1. Yanacaq-energetika kompleksi: mahiyyati, quruluşu.*
*§2. Yanacaq-energetika kompleksinin asas tərkib hissalari.*
*§3. Rusiya yanacaq və enerji bazarının müasir konyunkturası.*

## *§1. Yanacaq-energetika kompleksi: mahiyyəti, quruluşu*

**Mineral yanacaq - müasir təsərrüfatda əsas enerji mənbəyi və mühüm sənaye xammalıdır. Mineral yanacaq emalı - sənaye komplekslərinin, o cümlədən neft-kimya, qaz-kimya, kömür-kimya komplekslərinin yaranması üçün zəmindir. Yanacaq resurslarının miqyasları nə qədər böyük və onlardan istifadənin texniki-iqtisadi göstəriciləri nə qədər yüksək olsa, onların rayon yaratma rolu bir o qədər güclü olar. Kütləvi və ucuz yanacaq yanacaqtutumlu istehsalları özünə cəlb etməklə, müəyyən mənada bu və ya digər rayonun ixtisaslaşma yönümünü müəyyənləşdirir.**

**Müxtəlif rayonların mineral yanacaqla təminatı olduqca fərqlidir. Ərazidə müxtəlif yanacaq növlərinin ehtiyatları da qeyri-bərabər bölünüb.**

**Rayonlar üzrə yanacaq resurslarının quruluşu əksər hallarda kömürün üstünlük təşkil etməsi ilə səciyyələnir, lakin sənayenin yanacaq bazasının inkişaf şərti kimi o hər yerdə aparıcı rol oynamır. Qərbi Sibirdə, Volqaboyunda, Orta Asiyada, Şimali Qafqazda, Zaqafqaziyada və Uralda bu mənada əsas yeri neft və təbii qaz tutur.**

**Yanacaq sənayesinin sürətlə inkişaf etməsi ilə yanaşı onun coğrafiyası da dəyişilmişdir. Yanacaq hasilatı ölkənin bütün bölgələrində aparılır. Yanacağın hasil və istehlak rayonları sanki bir-birinə yaxınlaşıblar, ölkənin Avropa hissəsində resursların mənimsənilməsi daha sürətlə gedir, amma**

**yanacaq istehlakı onun hasilatını xeyli üstələyir. Şərq rayon-lanndakı resurslar hələ ki dövriyyəyə az cəlb olunublar, yanacaq hasilatı onun istehlakını xeyli üstələyir və artmaqda olan yanacaqş axınları buradan ölkənin Avropa hissəsinə Ötürülür, neft və qazın müəyyən hissəsi isə ixrac olunur.**

***Yanacaq-energetika kompleksi*** **(YEK) — yanacaq və enerjinin (elektrik enerjisi və istilik) hasilatı və istehsalı, daşınması, bölgüsü və onlardan istifadənin sahələrarası mürəkkəb sistemidir.**

**Sənaye-istehsal əsas fondlarının dəyərinin 1/3 və ictimai istehsalda çalışanların 1/5-ə qədəri bütövlükdə YEK-nın payına düşür. O, sənaye məhsulunun iri istehlakçısı olub, ölkədə istehsal olunan boruların 2/3-ni, maşınqayırmanın məhsulunun xeyli hissəsini istifadə edir.**

**İctimai istehsalın və birinci növbədə sənayenin inkişaf sürəti, miqyası və texniki-iqtisadi göstəriciləri YEK-nm inkişafından çox asılıdır.**

**Kütləvi və səmərəli yanacaq-energetik resurslar ərazi-istehsal, o cümlədən sənaye komplekslərinin yaranması üçün əsas olur və onların enerji tutumlu istehsallarda ixtisaslaşmasını müəyyənləşdirir.**

**Rusiya böyük həcmdə yanacaq və elektrik enerjisi ixrac edir. Dünya kömür ehtiyatlarının 57%-i, təbii qaz ehtiyatlarının 25%-dən artığı, torf resurslarının 60%-də çoxu, şist ehtiyatının 50%-dən çoxu və hidroenerji (çaylar, quru) ehtiyatlarının 12%-ə qədəri Rusiyada və MDB ölkələrindədir.**

**Yanacaq-energetik ehtiyatlar ölkələr üzrə qeyri-bərabər yerləşib. Bundan başqa, ərazi baxımından onlar əhalinin yerləşməsi, yanacaq və enerji istehsalı və istehlakı ilə üst-üstə düşmürlər. Mineral yanacaq ehtiyatlarının 9/10-u və hidroenerjinin 4/5-ü şərq rayonlarındadır. Amma istehsal olunan yanacaq və enerjinin 4/5-ü ölkənin Avropa hissəsində isteh- lak olunur.**

**YEK-nın təkmilləşdirilməsi onun quruluşunda və ərazi üzrə təşkilində xeyli dəyişikliyə səbəb oldu. Mineral yana-**

**çaqlar hasilatı və elektrik enerjisi istehsalında Şərq rayonlarının payı kəskin şəkildə artdı.**

**Rusiyada yanacaq-energetik resursların ümumi istehsalı (İES və AES-də istehsal olunan elektrik enerjisi nəzərə alınmadan) 1,5 mlrd.t. ş.t./il (şərti ton/ il) səviyyəsindədir ki, bu da Sovet İttifaqında olduğundan 700 mln.t. ş.t. azdır. Ümumi istehsal həcmində qaz 48,3%, qaz kondensatı ilə birgə neft 36,6%, kömür 13,7%, başqa yanacaq növləri isə 1,4% təşkil edir.**

**Rusiyada neftin balans ehtiyatları 5127 mln t., qazın ehtiyatları 45,3 trln. kub m. və kömürünkü isə 202 mlrd.t həcmindədir; bu isə hazırkı hasilat həcmi saxlanılarsa, neft üzrə 16, qaz üzrə 70, kömür üzrə isə 700 ilə bəs edər.**

**Fiziklərin həllini gözlədikləri «nüvə-istilik» probleminin öz həllini 2050-ci ildən sonra tapacağı ehtimal edildiyindən, mineral enerjidaşıyıcıları hələ uzun müddət energetikanın əsasını təşkil edəcəklər. İqtisadi-ekoloji cəhətdən kömür də özünü doğruldaraq onlar arasında yer almalıdır, onun emalı üçün ən əlverişli şəraitdəki ehtiyatları hələ azı 150-200 ilə bəs edər.**

**Bununla əlaqədar qeyd olunmalıdır ki, ABŞ-da Rusiyadan 2,85 dəfə çox neft işlədilir; ABŞ-ın yanacaq-energetika balansında kömür 25% təşkil edir, Rusiyada isə bu göstərici 14%-dir. Ehtimal olunur ki, 2010-cu il üçün iqtisadi səbəblərdən elektrik enerjisi hasilatında kömürün payı təxminən 40% təşkil edəcək. Müvafiq olaraq kömür hasilatı səviyyəsi yaxın illərdə və** 2010**-cu ilə qədər beynəlxalq təşkilatların (BUİB - Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı) Rusiya üçün nəzərdə tutduğu kimi 240-260 mln.t. deyil, 300-350 mln.t, o cümlədən 50 mln.t. kokslaşan kömür olmalıdır.**

**Yanacaq-energetika resurslarının kifayət qədər olmasını nəzərə alaraq, çox güman, neft hasilatı ehtiyatlarının artmasını gözləmək olar, amma onlar sonsuz deyil. Bu, neftdən istifadəyə diqqətlə yanaşmağı zəruri edir; bizdə onun emal dərinliyi**

**Bu məqam özünü belə bir məsələdə göstərir: ABŞ Rusiya ilə müqayisədə az qala üç dəfə artıq neft istehlak etsə də, onlarda cəmi 43,2 mln.t. mazut enerji üçün işlədilir, bizdə də isə bu rəqəm 77,5 mln.t. təşkil edir.**

**Yanacaq-energetika kompleksinin real iqtisadiyyat şəraitində tərkibi aşağıdakı şəkildə verilmişdir.**




**Şəkil 28.1. Real iqtisadiyyat şəraitində YEK-nın tərkibi**

## *. Yanacaq-energetika kompleksinin asas tərkib hissələri*

**YEK-ni daha dolğun səciyyələndirmək üçün onun əsas tərkib hissələrini nəzərdən keçirək.**

### Neft sənayesi

**Məlum olduğu kimi, Rusiya zəngin neft ehtiyatlarına malikdir. Əsas neft zonaları Qərbi Sibir, Volqa-Ural rayonu. Şimali Qafqaz və Avropa hissəsinin şimalıdır. Avropa hissəsinin şimalı və Uzaq Şərqin kontinental şelfi xüsusilə perspektivlidir.**

**Əsas neft hasilatı rayonu Qərbi Sibirdir. 1970-ci ildə burada 31 mlrd.t neft, 1980-ci ildə 312 mln. t neft çıxarılıb, hazırda Rusiyada çıxarılan neftin 2/3-sini bu rayon verir. Şaim, Surqut və Nijnevartovsk neft rayonları kontur- laşdırılmışdı. Əsas neft mədənləri Ob çayının ortalarına yaxın olan Samotlar, Ust-Balıq, Megion, Aleksandrovsk və başqalarıdır. Neft və qaz resursları bazasında Rusiyanın ən böyük proqram-məqsədli ərazi-istehsal kompleksi formalaşır.**

**Volqa-Ural rayonunda ən çox neft ehtiyatları Tatarıstan və Başqırdıstandadır. Avropa hissəsinin şimalında bu, Komi Respublikasında, Şimali Qafqazda isə Çeçenistan və Dağıstandadır. Uzaq Şərqdə - Saxalin adasında da neft ehtiyatları var.**

**Hasil olunan neftin 2/3-si ən səmərəli olan fontan üsulu ilə çıxarılır, ölkənin bir sıra rayonlarında, xüsusilə dənizlərin kontinental şelfində və Şərqi Sibirdə intensiv neft kəşfiyyatı aparılır.**

**Hazırda Rusiyanın Avropa rayonlarının və Qərbi Sibirin neftə görə öyrənilməsi 65 - 70% təşkil edir, amma Şərqi Sibir və Uzaq Şərqdə bu göstərici 6-8% -dir. Amma perspektivli neft resurslarının 46% -i və proqnozlaşdırılan neft resurslarının 50% -i məhz bu çətin keçilən rayonların payına düşür.**

**Neft hasilatının sürətlə artması potensial və öyreıilmiş ehtiyatlar arasındakı nisbəti dəyişmişdir. Öyrənilmiş ehtiyatlar, ələlxüsus köhnə yataqlar rayonlarında, azalmışdır. Buna görə də Avropa hissəsinin ərazisindəki istismar ciunan mədənlər ərazisində, şelflərdə neft axtarışlarına xüsusi diqqət yetirilir.**

**Bir sıra neft rayonları «qocaldıqca», yeni neft bazalarının yaradılması olduqca böyük əhəmiyyət kəsb edir. Bunların arasında ölkənin əsas neft bazasının yarandığı Qərbi Sibir çökəkliyi, bir də Timman-Peçorsk neft bazaları (ən iri mədəni Usinskoyedir) seçilirlər.**

## Neft emalı sənayesi

**Xam neftin neft kəmərləri ilə istehlak rayonlarına ötürülməsi neft məhsullarının daşınmasından ucuz başa gəlir. Buna görə də neft emalı müəssisələri istehlak rayonlarında, bir də iri şəhərlərdə, neft kəmərləri yollarında və neft daşınan çaylar boyunca yerləşdirilir. Əsas neft emalı mərkəzləri Moskva, Ryazan, Nijni - Novqorod, Yaroslavl, Kirişi, Sara- tov, Sızran, Samara, Volqoqrad, Ufa, Perm, Orsk, Omsk, Anqarsk, Açinsk, Komsomolsk-na-Amure, Xabarovsk, Qroz- nıdır. Ölkədə Tobolski, Tomski, Nijnekamski kimi nəhəng neft-kimya kompleksləri yaradılmışdır. Perspektivdə ətirli karbohidrogenlər, duru parafinlər, etilen, neft elektrod köksünün iritonnajlı istehsalı yaradılacaqdır. Neftdən əsas etibarilə motor yanacağı və kimyəvi xammal kimi istifadə olunacaq.**

**Neft emalı sənayesi müəssisələrinin yerləşdirilməsi müxtəlif rayonlarda neft məhsullarının istehlak həcmindən, neftin emalı və nəql edilməsi texnikasından, rayonda duru yanacağın resursları və istehlak yeri arasındakı nisbətdən asılıdır. Neft emalı neft məhsullarının istehlakı rayonlarına yaxınlaşmışdır. O, xam neftin daşındığı Volqa boyunca (Volqoqrad, Saratov, Sızran, Yaroslavl), neft kəmərləri boyunca**

və **onların sonunda (Batum, Tuapse, Orsk, Ryazan, Moskva, Nijni - Novqorod, Omsk, Anqarsk, Komsomolsk-na-Amure), həmçinin nəqliyyat-coğrafi cəhətdən əlverişli məntəqələrdə (Odessa, Xerson, Kremençuq, Xabarovsk) yaranmışdır.**

**Neft emalı həm də onun çıxarıldığı yerlərdə: Volqa və Ural arasındakı ərazidə (Ufa, tşimbay. Salavat, Samara, Novokuybışevsk, Perm, Krasnokamsk), Bakı rayonunda. Şimali Qafqazda (Qroznı) və digər rayonlarda aparılır.**

**Neft və neft emalı sənayesinin inkişafı neftdən əsasən motor yanacağı istehsalında və kimya sənayesində xammal qismində istifadə olunmasının məqsədyönlü olması ilə şərtlənir. Energetik yanacaq kimi ekvivalent miqdarı neftdən azı iki dəfə ucuz olan təbii qaz daha sərfəlidir.**

## Qaz sənayesi

**Bu, yanacaq-energetika kompleksinin ən gənc sahəsidir. Həm də ən səmərəlisidir. Əsas yataqlar Qərbi Sibirdədir və bunlar arasında üç ən iri qaz yataqları olan rayonlar: Tazovsk-Kurpeyski (əsas yataqları - Urenqoyskoye, Yamburqskoye, Nadımskoye, Medvejye, Tazovskoye), Berezovski (əsas yataqları - Paxromskoe, İqriraskoe, Punqinskoe), Vasyuqan-skayadır (yataqları - Luqinetskoe, Mıldjanskoe, Ust-Silqinskoe). Volqa-Ural əyalətində qaz resursları Orenburq, Saratov, Həştərxan vilayətlərində. Tatarıstan və Başqırdıstan respublikalarında var. Timano-Peçorsk qaz əyalətində ən iri neft yatağı Komi Respublikasındakı Vuktılskoyedir.**

**Şimali Qafqazda qaz ehtiyatları Dağıstanda, Stavropol və Krasnodar diyarlarında var. Saxa Respublikasında Vilüy çayı hövzəsində bir sıra yataqlar aşkarlanıb. Qaz resursları zəminində Qərbi Sibirdə, Timan-Peçorsk hövzəsində, Orenburq və Həştərxan vilayətlərində iri qaz sənaye kompleksləri formalaşır. Təbii qazın səmərəliliyi başqa yanacaqlara nisbətən yüksəkdir, hətta uzaq məsafələrə belə qaz kəmərlərinin çəkilməsi xərcini tez ödəyir.**

İri qaz təminatı sistemi yaradılıb. Buna yüzlərlə qaz yatağı, kompressor stansiyaları və qaz kəmərləri daxildir. Əsas qaz kəmərləri: Saratov - Samara; Saratov - Nijni-Novqorod - Vladimir - Yaroslavl - Çerepovets; Minnibaevo - Kazan - Nijni-Novqorod; Orenburq - Samara - Tolyatti; Stavropol - Nevinnomıssk - Qroznı; Vladikavkaz - Tbilisi; Maqnitoqorsk - İşimbay - Şkapovo. Amma xüsusilə böyük əhəmiyyətə Qərbi Sibirdən başlayan qaz kəmərləri malikdir. Bunlar İqrim - Serov; Medvejye -Nadım - Punqa - Nijni Tura - Perm; Kazan - Nijni - Novqorod - Moskva; Punqa - Vuktıl - Uxta; Urenqoy - Moskva; Urenqoy -Qrazovets; Urenqoy - Yelets; Urenqoy - Petrovsk; Urenqoy - Pomarı - Ujqorod. Hamburqdan Avropa dövlətlərinə və s. qaz kəmərləri çəkilib.

Qaz sənayesi sintetik materiallar istehsalını qiymətli və iqtisadi cəhətdən sərfəli xammalla, sənaye müəssisələrini, şəhər və fəhlə qəsəbələrinin əhalisini rahat və ucuz yanacaqla təmin edir.

Qaz sənayesinin spesifik xüsusiyyəti bundadır ki, bərk və maye yanacaqdan fərqli olaraq o dərhal bilavasitə istehlakçıya göndərilməlidir. Buna görə də qazın çıxarılması, daşınması və istehlakı vahid prosesin öz aralarında sıx bağlı olan hissələridir.

Təbii qazdan başqa, Rusiya əraziyə görə duru yanacaq mənbələri ilə bağlı olan səmt neft qazı ilə də zəngindir. Səmt qazı üzvi sintez sənayesi üçün qiymətli xammaldır. Onun emalı üçün Volqa ilə Ural arasında (Tuymazı, Şkapovo, Almetyevsk). Şimali Qafqazda (Krasnodar, Qroznı), Zaqafqaziyada (Bakı) və Ukraynada bir sıra qaz-benzin zavodları şəbəkəsi yaradılmışdır. Təbii qazdan fərqli olaraq səmt qazının tətbiq olunması əsasən çıxarılma rayonu ilə məhdudlaşır.

Təbii qaz hasilatı xeyli çoxalmışdır.

## Kömür sənayesi

**Aşkarlanmış kömür ehtiyatlarına görə Rusiya dünyada birinci yeri tutur. Keyfiyyətinə görə ən yaxşı kömür Kuz- netsk və Peçorsk hövzələrindədir. Kömür ehtiyatlan Rusiya ərazisində qeyri-bərabər yerləşir. Bütün kömür ehtiyatlarının 93%-dən çoxu Şərq rayonlarının payına düşür, onun əsas istehlakçıları isə ölkənin Avropa hissəsindədirlər.**

**Kömür ehtiyatlan yerləşmə dərinliyinə, metamorfoza (dəyişmə) dərəcəsi və coğrafi bölgü səciyyəsinə görə qruplaşırlar.**

**Müxtəlif rayonlarda dərinlik zonalarına görə ehtiyatlar eyni cür paylaşdınlmayıb. Səthə ən yaxın Ural və Qazaxıstan kömürüdür. Kömürün ən dərin yerləşməsi isə Rusiyanın Avropa hissəsi üçün səciyyəvidir.**

**ölkə ərazisində kömürün torpaq rəngli boz kömürdən qrafitləşmiş daş kömürə qədər bütün növləri təmsil olunmuşdur.**

**Daş kömür bütün ehtiyatların 2/3-dən çoxunu təşkil edir. Daş və boz kömür arasında nisbət ərazilər üzrə xeyli fərqlidir. Rusiyanın Avropa hissəsində daş kömür üstünlük təşkil edir, Uralda isə əksinə, boz kömür daş kömürdən xeyli, Qazaxıstanda bir qədər çoxdur. Sibirdə boz kömür daş kömürdən dörd dəfə azdır, ölkədəki geoloji kömür ehtiyatlarının 9/10-u şərq rayonlarının, o cümlədən 60% -i Sibirin və 30% -i Uzaq Şərqin payına düşür. Əsas kömür ehtiyatları bir neçə iri hövzədə cəmləşmişdir: ölkənin geoloji kömür ehtiyatlarının 3/4-ü Tunqus, Lenski, Kansko-Açinsk və Kuznetsk hövzələrindədir.**

**Donbas MDB ölkələrinin Avropa hissəsinin əsas kömür bazası rolunu oynayır; şərq rayonlarında əsas kömür bazası vəzifəsini hasilata görə Donbasdan geri qalan, lakin ehtiyatına və yanacağın keyfiyyətinə görə ondan üstün olan Kuz- bas yerinə yetirir.**

**Kuznetsk kömür hövzəsi Kemerovo vilayətində Kuz-**

**netsk çökəkliyi hüdudlarında yerləşir.1800 metrə qədər dərinlikdə kömür ehtiyatları 538 mlrd, ton, 600 metrə qədər dərinlikdə isə 245 mlrd.ton həcmində proqnozlaşdırılır. İstismara hazır olan və istismar edilən ehtiyatlar 26 mlrd.ton təşkil edir. Laylar kömürün bolluğu ilə seçilir; kömürün** 8- 12% **çıxdaşı (küllülüyü) şəraitində** 2–20 **metr qalınlıqda laylar üstünlük təşkil edir.**

**Rusiyanın ən mühüm kömür hövzəsi Kuznetskdir. Hasilatın** *40%* **-i onun payına düşür. Balans ehtiyatları 600 mlrd, ton təşkil edir, layların qalınlığı 6-14 metr təşkil edir, bəzi yerlərdə isə 20-25 metrə çatır. Kömür ehtiyatlarına, onun keyfiyyətinə və layların qalınlığına görə Kuzbas dünyada birinci yerlərdən birini tutur. Kuzbas kömürü çıxdaşının (küllülüyünün) azlığı, yüksək kaloriliyi ~** 8,6 **min kkal. qədər - seçilir. Kokslaşan kömür ehtiyatları böyükdür.**

**Kömür laylarındakı metan ehtiyatlarına görə Kuzbas Rusiyanın ən iri kömür hövzəsidir.**

**İkinci iri kömür bazası** 210 **mlrd.ton ehtiyata malik Peçorski hövzəsidir. Onun kömürü yüksək keyfiyyəti ilə seçilir və 4-7,8 min kkal. istilikvermə qabiliyyətinə malikdir. Peçorski kömürünün xeyli hissəsi kokslaşır.**

**Kansko-Açinski boz kömür hövzəsi ümumrusiya kömür bazası əhəmiyyətlidir. Onun ehtiyatları 600 mlrd, ton təşkil edir. O, Krasnoyarsk diyarı və Kemerovo vilayəti ərazisində yerləşir. Kömür layları səthə çıxır və açıq üsulla hasilata şərait yaradır. Hövzə kömürünün çıxdaşı nisbətən aşağıdır -** 8- **16%, onun istilikvermə qabiliyyəti 2,8 " 4,6 min kkaloridir. Layların qalınlığı çox böyükdür - 14 metrdən 70 metrə qədər, Kansko-Açinsk kömürünün maya dəyəri Rusiyada ən aşağıdır və energetik yanacaq kimi istifadə olunur. Burada artıq fəaliyyətdə olan və tikilən iri istilik elektrik stansiyaları olan proqram-məqsədli ərazi-istehsal kompleksləri yaradılır.**

**Ekibastuz hövzəsindəki kömürün çıxdaşı yüksəkdir. Amur vilayətinin potensial kömür ehtiyatları (71,5 mlrd, ton) Xabarovsk diyarı. Çita vilayəti. Saxalin və Primoryenin**

**ehtiyatlarının cəmindən çoxdur. Kömür ehtiyatları və proqnozlaşdırılan resurslar 14 mlrd, tona yaxındır. Sənaye ehtiyatlan yeddi iri yataqda cəmlənib (Svobodnoe, Sergeyevskoye, Tıqdinskoe, Yerkovetskoye, Rayçixinskoe, Arxaro-Boqu- çanskoe, Oqodjinskoe) və 1,9 mlrd, tondan artıqdır.**

**Rusiyanın digər rayonlarında də kömür ehtiyatları var. Belə ki. Mərkəzi rayonda Moskvaaltı kömür hövzəsi, Uralda - Kizelevsk, Çelyabinsk, Yujno-Uralsk, Sibirdə - Manusinsk, Çerexovsk, Uluqxemsk, Tunqusk hövzələri yerləşir. Uzaq Şərqdə yüksək keyfiyyətli kömürə malik olan və əsasında ƏİK (Ərazi İstehsal Kompleksi) formalaşan Yujno-Yakutsk hövzəsi, həmçinin Bureinsk, Suçansk, Lenski hövzələri yerləşir. Saxalin adası da kömürlə zəngindir. Rusiyanın şərq rayonlarının kömür sənayesinin inkişafı üçün böyük perspektivləri var.**

**Rusiyada kömürün çoxu şaxta üsulu ilə çıxarılır, eyni zamanda açıq üsul da inkişaf edir. Hasil edilən kömürün artıq indi 40%-dən çoxu bu üsulla çıxarılır. Hazırda ildə 250 mln. tondan artıq kömür çıxarılır. Perspektivdə isə kömür hasilatı və birinci növbədə ölkənin Avropa hissəsində azalmalıdır. Kuzbas və Kansko-Açinsk hövzələrində açıq üsulla çıxarılan kömürün artırılması nəzərdə tutulur.**

## Elektroenergetika

**Elektroenergetika elektrik enerjisinin istehsalı və ötürülməsi ilə məşğul olur və ağır sənayenin baza sahələrindən biridir. Elektrik enerjisinin istehsalına görə Rusiya dünyada ABŞ-dan sonra ikinci yerdədir, lakin bu sahədəki göstəricilərinə görə onlar arasındakı fərq çox böyükdür (1993-cü ildə Rusiyada 957 mlrd.kvt./saat elektrik enerjisi, ABŞ-da isə üç dəfə artıq - 3000 mlrd. kvt./saatdan çox istehsal olunmuşdur).**

**XX əsrin son əlli illiyində ölkəmizdə elektroenergetika ən dinamik inkişaf edən sahələrdən olmuşdu. İnkişaf sürəti**

**nə görə o, həm bütövlükdə sənayeni, həm də ağır sənayeni qabaqlayırdı. Amma son illərdə elektrik enerjisi istehsalının artım sürəti aşağı düşmüş, 1991-ci ildə isə ilk dəfə olaraq istehsalın mütləq göstəricilərinin azalması baş vermişdi.**

**Hazırda Rusiyada elektroenergetika dərin böhrandadır. İllik yeni istehsal obyektlərinin istifadəyə verilməsi 50-ci illərin səviyyəsinə düşmüş, elektroenergetik avadanlığın yarısından çoxu köhnəlib, onlar ya yenidən qurulmalı, ya da qismən təcili dəyişdirilməlidirlər.**

**İstehsal obyektləri ehtiyatlarının kəskin azalması bir sıra rayonların (ələlxüsus Şimali Qafqaz və Uzaq Şərqdə) elektrik enerjisi ilə təmin edilməsində çətinliklər yaradır. Rusiyada istehsal olunan elektrik enerjisinin 60% -i sənayedə istifadə olunur (ABŞ-da - 39,5%-i), özü də bunun çox hissəsini ağır sənaye — maşınqayırma, metallurgiya, kimya sənayesi istehlak edir, elektrik enerjisinin 9% -i kənd təsərrüfatında (ABŞ-da - 4,2%-i), 9,7%-i nəqliyyatda (ABŞ-da - 0,2%-i), başqa sahələrdə isə - xidmət və məişət xidməti, reklam və s. - 13,5% istifadə olunur (ABŞ-da xidmət sahəsi və məişət, reklam elektrik enerjisinin əsas istehlakçılarıdır - 44,5%). İstehsal edilən elektrik enerjisinin bir qismi ixrac edilir. Rusiyada elektrik enerjisi itkisi istehsalın 8%-ni təşkil edir (ABŞ-da 11,6%).**

**Rusiya iqtisadiyyatının (elə sabiq SSRİ kimi) fərqli xüsusiyyəti inkişaf etmiş ölkələrlə müqayisədə istehsal olunan milli gəlirin daha yüksək enerji tutumudur (ABŞ- dakından az qala 1,5 dəfə çox), buna görə də enerjiyə qənaət edən texnologiya və texnikanın tətbiqinə geniş yer verilməsi zəruridir. Enerji istehsalının spesifik xüsusiyyəti istehsal və sosial sahələrdə ona tələbatın daim artmasıdır. Baz ar iqtisadiyyatına keçid şəraitində elektroenergetika mühüm rol oynayır, çünki iqtisadi böhrandan çıxma, sosial problemlərin həlli onun inkişafından çox asılıdır.**

**Elektroenergetikamı! spesifikliyi ondadır ki, onun məhsulu sonrakı istifadə üçün yığıla bilməz, buna görə də**

**elektrik enerjisinin istehlakı həm kəmiyyətə (əlbəttə, itkilər nəzərə alınmaqla), həm də zamana görə onun istehsalına müvafiqdir. Elektrik enerjisinin idxalı və ixracı üzrə sabit rayonlararası əlaqələr mövcuddur: elektroenergetika - Volqaboyu və Şərqi Sibir iqtisadi rayonların ixtisaslaşma sahəsidir. İri elektrik stansiyaları böyük rayonyaratma rolu oynayırlar. Onların əsasında enerjituturalu və istiliktutumlu istehsallar (alüminium, titan, ferroxəlitələr əridilməsi, kimyəvi liflər istehsalı və s.) yaranır, məsələn, Sayan lEK: Sayano-Şuşensk SES-sı bazasında elektrometallurgiya inkişaf edir, Sayansk alüminium zavodu, rəngli metalların emalı üzrə zavod, molibden kombinatı tikilir, perspektivdə elektrometallurgiya kombinatının tikilməsi nəzərdə tutulur.**

**Öz spesifik xüsusiyyətlərinə görə elektrik enerjisi hazırda insan fəaliyyətinin bütün sahələrində özünə yer almışdır. Bunlar praktik olaraq bütün digər enerji növlərinə (istilik, mexaniki, səs, işıq və s.) çevrilə bilməsi; böyük həcmlərdə nisbətən sadə yolla böyük məsafələrə ötürülə bilməsi; elektromaqnit proseslərinin olduqca böyük sürətlə baş verməsi; gərginliyin, tezliyin dəyişdirilə bilməsidir.**

**Sənayedə elektrik enerjisi müxtəlif mexanizmlərin hərəkətə gətirilməsi üçün və bilavasitə texnoloji proseslərdə istifadə olunur. Müasir rabitə vasitələrinin işi (teleqraf, telefon, radio, televiziya) elektrik enerjisindən istifadəyə əsaslanır. Onsuz kibernetikanı, hesadlama texnikasım, kosmik texnologiyaları inkişaf etdirmək mümkün olmazdı.**

**Kənd təsərrüfatında elektrik enerjisi istixanaların və heyvanlar üçün tikililərin qızdırılması, işıqlandırılması, fermalarda əl əməyinin avtomatlaşdırılması üçün zəruridir. O, həm də ultrabənövşəyi və infraqırmızı şüalardan istifadə etmək üçün zəruridir.**

**Elektrik enerjisi nəqliyyat kompleksində böyük rol oynayır. Elektrik nəqliyyatı ekoloji cəhətdən təmizdir. Elektrikləşdirilmiş dəmir yol nəqliyyatı böyük miqdarda elektrik enerjisi istehlak edir, bu da qatarların hərəkət sürətinin art**

**ması hesabına yolların ötürücülük qabiliyyətini artırmağa, daşımanın maya dəyərini aşağı salmağa, yanacağa qənaət etməyə imkan verir.**

**Elektrik enerjisi məişətdə insanların həyatını rahatlaşdırır. Bir çox məişət cihazları (soyuducu, televizor, paltaryuyan maşın, ütü və s.) elektrotexnika sənayesi nəticəsində yaradılıb. Elektroenergetika insanın həyat fəaliyyətinin ən mühüm hissələrindəndir. Onun inkişaf səviyyəsi cəmiyyətin məhsuldar qüvvələrinin inkişaf səviyyəsini və elmi-texniki tərəqqinin imkanlarını əks etdirir.**

**Rusiya elektroenergetikasının yaranması QOELRO (1920-ci il) planı ilə bağlıdır. 15 il müddətinə hesablanmış QOELRO planı ümumi gücü 640 min kvt / saat olan 10 su elektrik stansiyasının tikintisini nəzərdə tuturdu. Plan faktik olaraq 10 ilə - 1931-ci il üçün yerinə yetirildi, 1935-ci ilin sonu üçün isə 30 rayon elektrik stansiyası əvəzinə 40-ı, o cümlədən Svirsk və Volxovsk su elektrik stansiyaları, torfla işləyən Şatursk və Moskvaaltı kömürü ilə işləyən Kaşirs stansiyaları tikilmişdi. Planın əsasında rasional prinsiplər dururdu. Bunlar yerli yanacaq ehtiyatlarından geniş istifadə, güclü stansiyaları birləşdirən yüksəkvoltlu elektrik şəbəkələrinin yaradılması, İES və SES-in paralel işləməsi ilə yanacağın qənaətlə işlədilməsi, SES-in əsasən üzvi yanacağın qıt olduğu rayonlarda tikilməsidir.**

**QOELRO planı Rusiyanın sənayeləşdirilməsi üçün zəmin yaratdı. 20-ci illərdə ölkəmiz enerji istehsalına gÖrə axırıncı yerlərdən birini tuturdu, 40-cı illərin sonunda isə Avropada birinci, dünyada isə ikinci yerə çıxdı.**

### *§3. Rusiya yanacaq və enerji bazarının müasir konyunkturası*

**ötən əsrin sonuncu onilliyində iqtisadi həyatın çoxas- pektli və çoxçalarlı olması, qeyri-ənənəvi təsərrüfat formalarının meydana gəlməsi, mürəkkəb siyasi şərait**

**yanacaq-energetika kompleksinin inkişaf sürətinin dəyişilməsini şərtləndirdi. Liberallaşdırmadan sonrakı qiymət artımı nəticəsində həm əhalinin, həm də müəssisələrin yığılmış vəsaitləri qiymətdən düşdü. Əsas fondların yenidən qiymətləndirilməsi investisiya resurslarına qiymət artımından geri qalırdı.**

**Müəssisələrin əksəriyyətinin real rentabellik səviyyəsi olduqca aşağıdır. Məsələn, yaranmış qiymət nisbətləri nəticə-sində rentabellik, hesablamalara görə, elektroenergetikada-79%; neftçıxarmada-39%, neft emahnda-1%; qaz sənayesində - 30%; kömür sənayesində - (- 22%); yüngül sənayedə - (- 13%); yeyinti sənayesində - (- 32%) olmuşdur. Rəqəmlərdən görünür ki, emal sənayesi müəssisələrinin praktik olaraq hamısı ziyana işləyirdi və öz istehsal aparatına investisiya qoymaq və onu təzələmək imkanından məhrum olmuşdu.**

**İnflyasiya şəraitində resursun alınması və məhsulun satılması vaxtları arasında zaman fərqinin olması ara məhsulunun qiymətinin azalmasına və müvafiq olaraq əlavə dəyər kəmiyyətinin artımına səbəb olur, özü də inflyasiyanın səviyyəsi nə qədər yüksək olsa, belə artımın miqyası bir o qədər böyük olar.**

**Xərclərin artması, real gəlirlərin azalması nəticəsində müəssisələrin maliyyə vəziyyətinin pisləşməsi istehlak və investisiya tələbinin azalmasına səbəb oldu. Artıq qeyd olunduğu kimi, investisiya cəhətdən ən çox emal sahələri zərər çəkir. Son tələbin azalması mütləq istehsalın azalmasına səbəb olur, bu proses və onu müşayiət edən materialtutum- luluq artımı büdcənin vergi bazasının azalması deməkdir.**

**Beləliklə, inflyasiyanın, istehsalın aşağı düşməsi və dövlətin gərgin maliyyə balansının səbəbləri müəyyən mənada eynidir.**

**Qiymət və maliyyə-dəyər nisbətlərinin normallaşdırılma- sı nisbi qiymətləri istehsal quruluşunun xüsusiyyətlərinə, istifadə olunan texnologiyalara, ölkə ərazisində məhsuldar qüvvələrin yerləşdirilməsinə uyğunlaşdırmağı nəzərdə tutur.**

**Mövcud qiymət nisbətləri ayrı-ayrı sahələrin məhsullarına qiymət artımı sürətlərinin olduqca böyük müxtəlifliyinin nəticəsidir. Əlbəttə, belə uyğunsuzluq hasilat sahələrində xammal və energetik resursların qiymətlərinin nisbi səviyyəsinin azalmasını və emal sahələrində xərclərin inflyasiya potensialının realizə olunmasına imkan verən nisbətən yumşaq kredit-pul siyasətini nəzərdə tutur.**

**Aparılan iqtisadi siyasətin mənfi cəhəti onun hissələrə bölünməsi, milli iqtisadiyyatın sahələrinin avtonomlaşması oldu. Hasilat və emal sənayelərinin inkişaf imkanları arasında yaranmış fərq aşkar görünür. Bir sahələrin aparıcı mövqeyi və digər sahələrin tənəzzülü elə iqtisadi parçalanmalara səbəb ola bilər ki, onları yalnız daxili bazarın xeyli hissəsinin xarici istehsalçıya verilməsi yolu ilə aradan qaldırmaq olar.**

**Yanacaq-energetifca kompleksi bütün ölkələrdə olduqca yüksək investisiya inersiyalılığı ilə seçilir. Rusiyada son illərdə YEK-nə investisiyalar müqayisəyə gələn göstəricilər üzrə kəskin azalmışlar, bu da ələlxüsus neft (ildə 150 mln.tondan çox) və kömür (ildə 80 mln.tona yaxın) sənayelərində istehsalda bərpaolunmaz itkilərə səbəb olmuşdur. Hazırda elektroenergetik istehsal gücü bərpa olunduğundan 4 dəfə sürətlə köhnəlir. Minimum lazım olan investisiya ehtiyatı itirilmişdir.**

**Geoloji kəşfiyyat işlərinin inkişaf proqnozları sahənin uzun müddətə (**2010**-cu ilə qədər) neft və qaz ehtiyatları ilə təmin olunmasını nəzərdə tutur, bu da qaz kondensatlı neft çıxarılmasım kifayət qədər yüksək səviyyədə planlaşdırmağa imkan verir.**

**Böhranın aradan qaldırılmasından sonra neft həsilatının proqnozunda qaz kondensatlı neft hasilatının mütəmadi artırılması nəzərdə tutulur (cədvəl 28.1).**

**Neft hasilatının gərgin vəziyyəti şəraitində qaz kondensatı heısilatınm artırılması mühüm əhəmiyyət kəsb edir. Qaz kondensatı hasilatının 1992-ci ildəki 9,5 mln. tondan 2010- cu ildə 35-47 mln. tona çatdırılması proqnozlaşdırılır. Qaz**

**kondensatı hasilatının əsas artımı Qərbi Sibir yataqlarında nəzərdə tutulur (cədvəl 2S.2).**

*Cədvəl 28.1.*

**Qaz kondensatlı neft hasilatının proqnozu, mln. t.**

| Rayonlar | 2000-ci il | 2010-cu il |
|---|---|---|
| Rusiya | 310-325 | 320-340 |
| Avropa hissəsinin şimalı | 20–22 | 25-30 |
| Ural-Volqaboyu | 60,4-66 | 44-48 |
| Şimali Qafqaz | 4-5,3 | 3-4 |
| Qərbi Sibir | 221-225 | 215-220 |
| Şərqi Sibir | 0,1 | 16-18 |
| Uzaq Şərq | 4-5 | 8–10 |
| Dəııiz şelfləri | – | 8-9 |
| Başqaları | 0,5-0,6 | 1 |

*Cədvəl 28.2*

**Təbii və səmt qazı hasilatının proqnozu, mlrd, m^**

| Rayonlar | 2000-ci il | 2010-cu il |
|---|---|---|
| Rusiya | 625-730 | 745-820 |
| Avropa hissəsinin şimalı | 5,5 | 8 |
| Ural-Volqaboyu | 37 | 29 |
| Şimali Qafqaz | 1,8 | 1,1 |
| Qərbi Sibir | 625-660,7 | 660,7-720,7 |
| Şərqi Sibir | 8,5 | 11,2 |
| Uzaq Şərq | 7,2-16,5 | 15-20 |
| Dəniz şelfləri | - | 20-30 |

**Əsas qaz hasilatı artımının Tomsk vilayətindəki yataqların istifadəyə verilməsi hesabına əldə olunması nəzərdə tutulur.**

**YEK-in inkişafını perspektivdə iki mərhələdə nəzərdən keçirmək lazımdır.**

**Birinci mərhələ iqtisadiyyatın bazara doğru irəliləməsi ilə bağlı keçid dövrü, böhranlı vəziyyətdən çıxış və yanacaq-energetik resursların hasilatı və istehsalı ilə bağlıdır.**

**İkinci mərhələ kompleksin sabit sosial yönümlənmiş inkişaf etmiş energetika bazarı, ekoloji təhlükəsizlik və milli iqtisadiyyatın bütün sahələrində elmi-texniki nailiyyətlərdən istfadə etməklə enerji ehtiyatlarından səmərəli istifadə şəraitində işləməsi ilə səciyyələnir.**

**Rusiya YEK-in iqtisadi inkişafının uzunmüddətli proqnozunu tərtib etmək demək olar ki, mümkün deyil. Bununla belə bu kimi cəhdlər edilir, çünki gələcək inkişafın hədlərini müəyyənləşdirmək lazımdır. Qüvvədə olan yönümlərin və inkişaf parametrlərinin təxminən birillik göstəricilərindən çıxış edərək yaxın perspektivi nisbi müəyyənliklə proqnozlaşdırmaq olar. Rusiya tədqiqatçılarının daha uzunmüddətli proqnozlarında çox vaxt dəqiq «normativ» təkliflər var ki, onlardan çıxış edərək Rusiya iqtisadiyyatının «yenidən canlanmasına* ümid etmək olar.**

**Güman edirik ki, Rusiya iqtisadiyyatının inkişafının həqiqətən də realistik proqnozu ÜDM-in sabitləşməsinin və yalnız XXI əsrin birinci onilliyində istehsalın orta illik artım sürətinin bütövlükdə 4-6% həcmində olmaqla «orta» iqtisadi artımın gözlənilməsi olar.**

# XXIX FƏSİL. ELMİN, TƏHSİL VƏ ALİ MƏKTƏB SAHƏLƏRİNİN İQTİSADİYYATI

*§l.Elmin iqtisadiyyatı iqtisadi nəzəriyyənin müstəqil sahəsi kimi.*
*§2.Təhsil sahəsi. Ölkə iqtisadiyyatında ali məktəbin yeri və rolu,*
*§3.Bazar iqtisadiyyatına ?:eçid zamanı ali məktəbin İnkişaf konsepsiyası.*

**Cəmiyyətin iqtisadi tuyatının çoxcəhətli və çoxtərəfli olması tarixi inkişaf, ictim.ai əmək bölgüsünün get-gedə dərinləşməsi prosesində dai:a artan maliyyə, maddi və əmək resursları tələb edən elmin, təhsil sahəsinin iqtisadiyyatını ayırmağa imkan verir.**

## *§1. Elmin iqtisadiyyatı iqtisadi nəzəriyyənin müstəqil sahəsi kimi*

**Hazırda elm və cəmiyyət, dövlət, iqtisadiyyat arasında yeni qarşılıqlı münasibətlər axtarılır. Burada baş verən prosesləri müxtəlif cür təhlil etmək olar. Son onillikdə elmin dəyişilməsinin tədqiqetmə alətini təklif edən fənlərdən biri iqtisadi nəzəriyyədir. Alir lərin və institusional elmi quru-luşlarm davranışınm iqtisadi təhlili elmin iqtisadiyyatı adım almışdır və bu, iqtisadi nəzəriyyənin müstəqil sahəsidir.**

**Son dövrlərdə dünyada iki elmi fəaliyyət növünə rast gəlinir. Bu, öz daxili nəzəri problemləri ilə məşğul olan elm (Rusiya, iCBŞ, Böyük Britaniya) və ya fundamental elm və inkişafı ölkənin iqtisadi tələbatları ilə diktə olunan tətbiqi elmdir (Yaponiya, Cənubi-Şərqi Asiya). Anqlosakslar dünyasında XX əsrin 80-ci illərinin əvvəllərindən, Rusiyada isə 1991-ci ildən sonra birinci modeldən ikincisinə keçid başlandı, eyni zamanda ikinci qrup ölkələrdə əks proses müşahidə olunur.**

**Elmi fundamentala və tətbiqiyə şərti olaraq bölmək mümkündür. Hazırda bu iki növ tədqiqatlar arasmdakı fərq get-**

**gedə daha az gözə çarpır, tədqiqatçıların məqsədlərindən çıxış edərək bölgü aparmaq isə real elmi praktika ilə az səsləşir,**

**Anqlosakson modeli başlanğıcım XIX əsrin əvvəllərindən alır, O vaxt ingilis ruhanisi və Kembricin mineralogiya üzrə professoru Uilyam Yuel, O.Kontun elmin sivilizasiyanın aparıcı qüvvəsinə çevrilməsi ideyasından ilhamlanaraq, elmin və aparıcı universitetlərdə təbiət elmi fənlərinin tədrisinin peşəkarlaşdırılması fikri ilə çıxış etdi, XIX əsrin birinci yarısında Kembric və Oksford kimi universitetlərdə fəlsəfə və ilahiyyatın tədrisinə üstünlük verilirdi, «həyati» elmlərlə isə zadəganlar boş vaxtlarında məşğul olur və ya onlar «bazar iqtisadiyyatı t>nın onlara maraq göstərdiyi dərəcədə şəhər universitetlərində tədris olunurdular, U.Yuel isə hesab edirdi ki, elmin inkişafı nəzəriyyənin daxili dinamikası ilə müəyyənləşdirilməlidir və XIX əsrin ikinci yarısından başlayaraq anqlosakson dünyasında elmi məhz bu prinsip üzrə təşkil etmək lazım idi.**

**Elmin ilk ciddi iqtisadi təhlil cəhdi ingilis fiziki və ictimai xadimi Con Bemalın 1939-cu ildə çapdan çıxmış «Elmin sosial funksiyasım kitabı hesab oluna bilər. Kitabda qeyd olunurdu ki, elmin əhəmiyyətini nəzərə alaraq dövlət tərəfindən elmi kompleksin planlaşdırmasına və rasional idarə edilməsinə başlanılması zəruridir. Maraqlıdır ki, C.Bernalı bu kitaba N.Buxarin və B.Gessenin çıxışları ilhamlandırmışdı. Onlar göstərirdilər ki, sosialist dövlətində tədqiqatların xalis və tətbiqiyə bölünməsindən danışmaq mənasızdır, çünki elm bütövlükdə təsərrüfatın inkişafına yönümlənib. C.Bernalın əsəri sovet elmşünaslığının formalaşmasına xeyli təsir göstərmişdi.**

**İkinci Dünya müharibəsindən sonra elmə böyük investisiyaların qoyulması iki Ölkənin: ABŞ və SSRİ-nin qarşıdurması ilə şərtlənmişdi. XX əsrin 50 və 60-cı illərində ABŞ-da fundamental elmə dövlət tərəfindən böyük həcmdə pul buraxılmasını əsaslandırmağa cəhd edən bir sıra əsərlər çapdan çıxır (Arrow, 1962/ Nelson, 1959). İnnovasiyalann**

**xətti modeli adlanan model təklif olundu: fundamental elm bilik istehsal edir və bu biliklər sonra tətbiqi elmdə istifadə olunur, innovasiya işləmələrinə çevrilir və son nəticədə sənayedə tətbiq olunurlar. Bilik ictimai əmtəə xarakteri alır və deməli, xüsusi bölmə tərəfindən optimal həcmdə istehsal olunur. Buna görə də dövlət fundamental tədqiqatların maliyyələşdirilməsini öz üzərinə götürməlidir.**

**Elmin müharibədən sonrakı iqtisadiyyatının digər ənənəsi Çikaqo iqtisadi məktəbi ilə bağlıdır (Diamond, 1996). Bildirilir ki, faydalılığın maksimallaşmasına yönümlənmiş fərdiyyətçi davranışı bütün fəaliyyət sahələrinə, o cümlədən elmə xasdır. Bu istiqamətin iqtisadçıları ilk dəfə R.Mortonun (1973) önə çəkdiyi problemləri - alimlərin mükafatlandırılması, onlann mobilliyi, karyerası, elmi əməyin məhsuldarlığı, elmdə institusional quruluşlar və s. məsələləri öyrənirlər. Bu metodologiyada elmi bilik alimlərin bazar fəaliyyətinin əlavə məhsulu nəzərdən keçirilir, özü də elmi biliyin necəliyi alimin öz işində hansı motivlərdən çıxış etməsindən asılı deyil. Bu istiqamətin bir sıra nümayəndələri elmə dövlət tərəfindən dəstəyin tam kəsilməsi mövqeyindən çıxış edirlər. Həqiqətən də, əgər alim gəliri maksimallaşdıran olduğundan digər iqtisadi agentlərdən heç nə ilə fərqlənmirsə, onun fəaliyyətinin maliyyələşdirilməsinə heç cür bəraət qazandırmaq olmaz.**

**XX əsrin son onilliyində anqlosakson dünyasında elmin get-gedə bazarın dinamikasından asılı olmasını, Yaponiya və Cənubi-Şərqi Asiya ölkələrində isə əksinə, fundamental tədqiqatlara dövlət investisiyalarının vacibliyinin dərk olunmasını səciyyələndirən proseslər baş verir.**

**90-cı illərin əvvəllərində elmin iqtisadiyyatına əsaslı ye-ni yanaşmalarm axtarışı başlandı (Dasgupta$ David, 1995, Sent$ Mirowski, 1997). Elmin ictimai əmtəə və rasional se-çim nəzəriyyəsi təhlilində gördüyümüz xeyli fərqli metodologiya formalaşır. Artıq elmin yeni iqtisadiyyatından damşmaq olar ki, onun da əsas xüsusİ3ryətləri aşağıdakılardır:**

**■ neoklassik nəzəriyyənin fərdiyyətçilik paradiqmasın-**

**dan elmi tədqiqatların institusional kontekstinin öyrənilməsinə keçmə;**

**■ elmin əmtəə kimi dəyərləndirilməsinin elmi biliyin aşkar görünməyən (gizli, kodlaşdırılmayan) xüsusiyyətləri ilə əvəzlənməsi: tədqiqat predmeti elmi birliklərdəki ənənəvi praktikalar, normalar mədəniyyət olur;**

**■ xətti, bir tərəfə yönümlənmiş innovasiya prosesi modelindən elm və texnologiya arasındakı qarşılıqlı əlaqənin daha mürəkkəb dərkinə keçid;**

**■ elmi əsərin çapı, qrantların bölüşdürülməsi, tədqiqatların nəticələrinin bəyan edilməsi, elmdə fırıldaqçılıq kimi problemlərin iqtisadi aspektlərinin öyrənilməsi;**

**■ elmin dövlət tərəfindən və xüsusi dəstəklənməsi arasındakı dixotomiyanın (ikitirəliyin) aradan qaldırılması və tədqiqatların maliyyələşdirilməsində sənaye, fondlar, akademik təşkilatlar və dövlətin qarşılıqlı əlaqəsinin təhlili, alternativ maliyyələşdirmə metodlarının nisbi səmərəliliyinin müqayisəsi.**

**Hazırda, elmə gələn maliyyə resurslarının həcmi azaldığı, lakin alimlərin yüksək gəlir əldə etmək istəyi azalmadığı bir vaxtda tədqiqatların aparılmasının maya dəyəri yüksək olaraq qalır, resursların get-gedə daha çox hissəsi rəqabət əsasında bölüşdürülür. Elm tədricən kommersiya müəssisəsi forması alır, alimlər ideyalar bazarında sahibkar olurlar. Dünyanın bütün ölkələrində, o cümlədən Rusiyada baş verən bu proses Amerika sosioloqu Q.Etskovets tərəfindən «ikinci akademik inqilab» (Etzkowitz, 1997) adlandırılmışdır və bu, «akademik kapitalizmi dövrünün gəldiyindən xəbər verir (Slaugh-ter$ Rhodes, 1997).**

**İlk akademik inqilab XIX əsrin sonunda ABŞ-da, universitetlərdə tədqiqatlar və tədris inteqrasiya olunanda baş vermişdi. Yeni sistem ucuz olmasına görə (professorların sərəncamlarına aspirant qismində ucuz assistentlər verilirdi) proqressiv və dinamik idi, çünki universitetlərə fasiləsiz tələbə axını daim yeni ideyaların yaranmasını təmin edirdi.**

**İkinci akademik inqilab akademik və sahibkarlıq sahələrinin inteqrasiyasını və elmi biliklərin kommersiyalaşmasını şərtləndirdi. Bu inqilab üç mərhələdən keçir: birinci mərhələdə patentləşdirmə mexanizmi meydana gəlir, amma intellektual mülkiyyətin yaradılması tədqiqat prosesinin əlavə məhsulu kimi çıxış edir. İkinci mərhələdə ideyaların sonrakı satışı barədəki düşüncələr elmi tədqiqatlar prosesinə get-gedə daha çox nüfuz edir, universitet professorları ven- çur firmaları yaratmalı olurlar.**

**Üçüncü mərhələdə mənfəətin əldə edilməsi elmi fəaliyyətin əsas məqsədinə çevrilir.**

**Bu inqilabın bir neçə səbəbi var:**

**■istehsalın eimtutumluğunun, elmi işləmələrin sənaye üçün əhəmiyyətinin artması;**

**■elmi kəşflə onun tətbiqi arasındakı müddətin azaldılması;**

**■resurs defisiti, elmi sahənin maliyyələşdirilməsinin azaldılması;**

**■firmadaxili tədqiqatların azaldılması, korporasiyaların universitetlərdən ETSKİ-in (Elmi-tədqiqat və Sınaq-konst- ruktor işləmələri) aparılması üçün vasitəli podratçı kimi istifadə etmək cəhdi;**

**■innovasiya siyasətinin hazırlanmasında innovasiya prosesinin «xətti modelindən^ uzaqlaşmaq: innovasiya prosesinin müxtəlif mərhələlərində onun iştirakçılarının əlaqəli işləməsinin stimullaşdırılması istiqamətində işlərə daha çox diqqət yetirilir;**

**■ölkəmizdə büdcə maliyyələşdirilməsinin kəskin azalması nəticəsində elmin kommersiyalaşması: qrantların və ya kommersiya kontraktlarının əldə olunması elmi sahədə aparıcı gəlir mənbələrindən biri olur.**

**Əgər R.Nelson və S.Uinterin (Nelson$ Winter, 1982) iqtisadi inkişafın məşhur şumpeterian təkamül nəzəriyyəsində elm və sənayenin qarşılıqlı asılılıq dinamikasından söhbət gedirsə, hazırda «üçqat spiraldan», üç dinamikanın - bazar**

**dinamikası, bilik yaradılmasının daxili dinamikasından və innovasiyalar sahəsindəki siyasi və qanunvericilik proseslərinin dinamikasının qarşılıqlı əlaqəsindən danışmaq olar (Leydesdorff$ Etzkowitz, 1996). Elmin kommersiyalaşması ABŞ-da tibb, molekulyar biologiya (müdafiə məqsədli tədqiqatlara - fizika, kosmos kimi sahələrə - maliyyə dəstəyinin azaldığı bir vaxtda, məhz bu sahələrə vəsait qoyuluşu artır) kimi sahələrdə xüsusilə bariz görünür; kommersiyalaşmanın mühüm göstəricisi - Amerika akademik qurumlarının aldıqları patentlərin sayının artmasıdır.**

**Akademik kapitalizmin güclənməsi eyni zamanda həm anqlosakson, həm də sovet elminin təşkUi modelinin böhranıdır.**

**İkinci akademik inqilab nəticəsində elmi tədqiqatların təşkilində mühüm dəyişikliklər baş verir. Elmin kollektivləşməsi güclənir. Tədqiqatların maya dəyəri artdıqca, elmi eksperimentlərin aparılması üçün daha tez-tez bir neçə universitetin və ya hətta ölkənin səylərinin birləşdirilməsi tələb olunur. Elmi siyasətdə birləşdirilmiş səylərin kritik kütləsi anlayışından tədricən daha geniş istifadə olunur ki, onu aşandan sonra miqyasın qənaətinə görə bu sahədə tədqiqatlar səmərəli olurlar. Əgər kritik kütlə anlayışından müəyyən bir institutu nəzərdə tutub danışmaq mümkün idisə, hazırda bu anlayış ölkə elmi sisteminə və ya hətta dünyanın müəyyən regionuna şamil edilir.**

**Kollektivləşmənin digər tərəfi - fənlərarası tədqiqatçı kollektivlərinin formalaşmasıdır. Bu onunla bağlıdır ki, bir çox tədqiqat tapşırıqlarını bir fənn çərçivəsində qalmaqla həll etmək mümkün deyil. Məsələn, turş yağışlar problemi kimyaçılır, meteoroloqlar, geoloqlar, bioloqlar və zooloqların birgə səyi ilə öyrənilir. İqtisadi nəzəriyyənin yeni para- diqmasınm yaradılması, qeyd olunduğu kimi, fənlərarası tədqiqatlar zəminində mümkündür. Tədqiqat müəssisələrinin fraqmentləşdirilməsi, yəni onların qısamüddətli, çox vaxt fənlərarası səciyyəli tədqiqat tapşırıqlarının yerinə yetirilməsi məqsədilə kiçik**

**baş verir. Bəzən tədqiqat kollektivləri bu yolla «ideyalar bazarında» dar boşluq axtarırlar, son mərhələdə isə istehlakçı kimi korporasiyalar çıxış edirlər. Elmin qloballaşması genişlənir: bu özünü, məsələn, Amerika korporasiyalarının ETSKİ-nə xərcləri azaltmaq məqsədilə tədqiqat kollektivlərinə müraciətində göstərir. «Beyin axını» da qloballaşmanın göstəricilərindən biridir. Bir çox hallarda isə universitetlər tədqiqatları iş qüvvəsinə daha az xərclə keyfiyyətli məhsul əldə etmək mümkün olan Şərqi və ya Cənubi-Şərqi Avropa ölkələrinə keçirirlər.**

### *§2. Tahsil sahəsi. Ölkə iqtisadiyyatında ali məktəbin yeri və rolu*

**Təhsil sahəsi hazırda ayrılaraq xalq təsərrüfatının müstəqil sahəsinə çevrilib və təhsil sistemində yaranan münasibətləri əks etdirir, bu da təhsil iqtisadiyyatını aşağıdakı hissələrə bölməyə imkan verir: ali məktəb iqtisadiyyatı, məktəbəqədər uşaq müəssisələri iqtisadiyyatı, ümumi orta məktəb iqtisadiyyatı və s.**

**Təhsil iqtisadiyyatının predmeti - təhsil sahəsinə yönəldilən və onun inkişafının ictimai və fərdi şərtlənən məqsədlərinə çatılması üçün istifadə edilən maddi, maliyyə, əmək resurslarının hərəkəti qanunauyğunluqlarıdır. Təhsil iqtisadiyyatı problem səviyyəsində aşağıdakı suallara cavab verməlidir: sahəyə və onun ayrı-ayrı hissələrinə qoyulan resursların səmərəliliyi necədir və bu səmərəliliyin meyarları nədir? Təhsilin hansı maliyyələşdirmə səviyyəsi bu sahənin bu və ya digər məqsədlərinə müvafiqdir? Təhsil müəssisələrinin büdcədənkənar maliyyələşdirilmə mənbələri və onların «gücü» necədir? Təhsilin sponsorları və investorlarının stimullaşdınlması sahəsində dövlət siyasəti necə olmalıdır? Nəyi maliyyələşdirmək daha yaxşıdır: təhsil müəssisəsini, yaxud təhsil xidmətləri istehlakçısını? Təhsil müəssisələrinin resurslarla təmin edilməsində desentralizasiyanın və**

**mərkəzləşdirmənin səmərəli nisbəti necədir? Müxtəlif təsərrüfat müstəqilliyi səviyyəsində təhsil müəssisələrinin resurs tələbatlarının proqnozlaşdırılma metodları və texnologiyası hansılardır?**

**Bütün ölkələrdə ortaya çıxan əsas məsələlərdən biri büdcədən təhsilə və birinci növbədə dövlət tərəfindən təminatlandırılan bu və ya digər təhsil standartını təmin etmək üçün nə qədər vəsait ayırmaq lazım olmasıdır. Özü də bütün dünyada, bir qayda olaraq, təhsil sahəsinə ayrılan vəsaitin tələbatlarla müqayisədə az olması qeyd olunur və bütün parlamentlərdə vaxtaşırı təhsilə dövlət xərclərinin artırılmasının zəruriliyi məsələsi qoyulur.**

**Təhsil azı iki mühüm funksiyanı yerinə yetirir: fərdin formalaşması (şəxsiyyətin sosiallaşması, onun mənəvi, bədii inkişafı) və iqtisadi funksiya (ixtisaslı fəhlə qüvvəsinin hazırlanması). Bu funksiyaların qarşılıqlı əlaqəsi təhsilin məqsəd və məzmunundadır və deməli, müvafiq resurs şərtlərinin yaradılması bütün təzahürlərində ictimai tərəqqinin zəruri ilkin şərtidir. Bu zaman əsas şərt budur: insana investisiyalar daha səmərəlidir və buna görə də ali üstünlüyə malik olmalıdır. Ölkə iqtisadi elmində və o cümlədən təhsil iqtisadiyyatmda bu istiqamətin və «əməyin reduksiya edilməsik metodunun inkişafında böyük xidmətləri olmuş alimlərdən S.Q.Strumilin, V.A.Jamin, S.L.Kostanyan, Y.t.Jiltsov. A.B.Day- novski, D.l.Çuprunovun və b. adlarını çəkmək olar.**

**Fəhlələrin əmək haqqı vasitəsilə təhsilin iqtisadi səmərəliliyini müəyyənləşdirmək cəhdləri ilk dəfə S.Q.Strumilin tərəfindən XX əsrin 20-ci illərində edilmişdi. Savadlı fəhlələrin əmək hvqqmı və əmək məhsuldarlığını müqayisə edərək, o, bu nəticəyə gəlmişdi ki, «bir il təhsil almaqla əldə olunan adi savad fəhlənin məhsuldarlığını 30% artırır. Orta hesabla birillik məktəb təhsili birillik zavod hazırlığından 2,6 dəfə çox ixtisas artımı verir»^.**

**S.Q.Strumilinin fikrincə, məsrəflər effekti özünü daha**

**^ CrpyMHJiHH C.r.Iİ36p.npoH3B. M., 1963. T.5. C.266.**

**yüksək təhsilli işçinin əmək haqqının artmasında göstərir. Mühəndislərin, texniklərin, ixtisaslı fəhlələrin əmək haqqını öyrədilməmiş fəhlələrin əmək haqqı ilə müqayisə edərək, S.Q.Strumilin onnn təhsilə səbəb artmasını aşkar etmişdi. Məsələn, Öyrədilməmiş (savadsız) fəhlənin əmək haqqı 1924-1925-ci illərdə ildə 141 rubl olub. Adicə savad onun 42 rubl (yəni 30%) artmasına səbəb olub. İbtidai təhsil əmək haqqını az qala 80% - 112 rubl artırırdı. Beləliklə, 1943-cü il üçün 57,6 mln. nəfər savadsızlığını ləğv edərək əmək haqqının artmasına nail olmuşdu və deməli, milli gəliri 2,4 mlrd.rubl artıra bilmişdi (42 rubl x 57,6 mln.nəfər). Bu müddət ərzində ibtidai məktəbi 23,8 mln.nəfər bitirmişdi, onların hər birinin əlavə əmək haqqı 112 rubl olmuşdur. Onlar milli gəliri 2,65 mlrd, rubl artırmışlar.**

**Deməli, yalnız ümumi təhsilə səbəb milli gəlirin artımı və ya təhsilin səmərəsi 5 mlrd, rubldan çox olmuşdur. Mühəndis və texniklərin daha yüksək təhsili hesabına milli gəlirin artımı da bu qaydada hesablanırdı. Özü də bu qəbildən olan işçilərin daha mürəkkəb əməyi əmək haqqı vasitəsilə öyrədilməmiş fəhlənin adi əməyi ilə müqayisə edilirdi.**

**S.Q.Strumilin bu metodika ilə milli gəlirin təhsil hesabına aşağıdakı artım rəqəmlərini almışdı: 1940-cı ildə - 5,39; 1950-ci ildə - 11,31, 1960-cı ildə - 37,72 mlrd, rubl Təhsil sahəsində cari məsrəf müvafiq olaraq 3,13; 4,25; 10,30 mlrd, rubl olmuşdur. Məsrəfləri gəlir artımı ilə müqayisə edərək hər bir onillik üçün iqtisadi səmərəliliyin ümumi göstəricisini müəyyənləşdirmək olar. Nəzərə almaq lazımdır ki, xalq təsərrüfatının xalq təhsili sisteminin fəaliyyətinə «cavabı» müvafiq məsrəflərdən 15-25 il sonra özünü göstərə bilər.**

**S.Q.Strumilinin ideyalarının sonrakı inkişafını V.A.Jaminin, Q.A.Yegizaryanın və b. tədqiqatçıların əsərlərində tapmışdır.**

**V.A.Jamin təhsilin rentabelliyinin müəyyənləşdirilməsi üçün düstur təklif etmişdi:**

*M*

**burada V-r - milli gəlirin hər rubl artımına təhsil xərcləri;**
**XT - təhsil xərcləri;**
**M - milli gəlirin artımı.**
**^ ^ əks vahidi təhsilə xərclənən hər bir rubla düşən**
**^ milli gəlir artımını səciyyələndirir. Bazar iqti sadiyyatının Rusiyada uzunmüddətli və aydın olduğu kimi, əzablı prosesi ali məktəbə çox pis təsir edən bir sıra neqativ hadisələrlə səciyyələnir. Dövlətin maliyyə imkanlarının xeyli məhdudlaşması şəraitində bir çox sahələrdə dövlət inhisarının saxlanılması, kifayət qədər ictimai və qanunvericilik praktikasının olmaması şəraitində bazar münasibətlərinin bayağılaşdırılması, sürətlə artan inflyasiya fonunda cəmiyyətin bəzi təbəqələrinin bütün mümkün vasitələrlə tez varlanmağa can atması, xeyriyyəçilik institutunun olmaması şəraitində ali məktəbin özünün məlum mühafizəkarlığı - milli intellektin istehsalını xeyli çətinləşdirən xoşagəlməz şəraitlərin tam olmayan siyahısı budur.**

**Təhsilin inkişafında keyfiyyətcə yeni mərhələ kimi fasiləsiz təhsilin zəruriliyi obyektiv olaraq bazar iqtisadiyyatının tələbatları, ETT şəraitində biliklərin yeniləşməsi prosesinin sürətlənməsi ilə şərtlənir. İnkişaf etmiş sənaye ölkələrində bu məsələlər tam qüwə ilə həll olunur. XX əsrin son onilliklərində təhsil sistemində islahatlar və kadr hazırlığı istiqamətində ciddi addımlar atılmışdı. Bu müddət ərzində ÜMM-da (ümumi milli məhsul) bu məqsədlərə dövlət məsrəflərinin xüsusi çəkisi artmışdır: Yaponiyada - 3,9%-dən 5,75-dək; Almaniyada - 3,5-dən 4,6%-dək; Böyük Britaniyada - 5,3-dən 5,5%-dək, Fransada - 4,9%-dən 5,12%-dək^. Amerika fəhləsinin təhsil müddəti 10,3 ildən 13,9 ilə qədər artmışdır. Ehtimal edilirdi ki, 2000-ci il üçün ABŞ əhalisi-**

**^ reopPHeBa T.C. Bucınaa niKOJia в CIUA Ha cospeMeHHOM arane. M.: Bucınajı uiKOJia, 1993.**

**nin 40%-nin tam orta və 12%-nin ali təhsili olacaq, Yaponiyada 2000-ci ildə hər dörd nəfərdən birinin ali təhsili olmalıydıh**

**Xarici iqtisadi ədəbiyyatda ali təhsil konsepsiyasının müxtəlif dərki əks etdirilir. Onlar gənclərin gələcək əmək fəaliyyətinə hazırlanmasında ali məktəbin rolunun qiymətləndirilməsində dünya praktikasında rast olunan dörd fərqli prinsipi səciyyələndirirlər.**

**1. Tədris prosesində tələbələr xüsusi biliklər və peşə vərdişlərinə yiyələnirlər, bunu onlar öz gələcək fəaliyyətlərində istifadə edə bilirlər. Beləliklə, kimsə mühəndis-mexanik olmaq üçün, kim isə həkim, hüquqşünas, menecer və s. olmaq üçün oxuyur.**

**2. Ali təhsil xüsusi peşə vərdişləri, bacarıqları və biliklərinin aşılanması ola bilməz, o, tələbədə elə fundamental intellektual fon, şərait və hazırlıq yaratmalıdır ki, onlar həyatda bu və ya digər məşğuliyyət növü ilə rastlaşdıqları təqdirdə lazımi xüsusi peşə vərdişləri və biliklərinə yiyələnə bilsinlər. Bu modeldən çıxış etdikdə isə ali təhsil aldıqda konkret nəyin öyrənilməsi bir o qədər də vacib deyil. Əsas məsələ öyrənmənin intellektual yarış, tələbkarlıq, hətta «çağırış>> şəraiti yaratmasında və tələbədə yaradıcı və məntiqi düşüncənin inkişafını stimullaşdıra bilməsindədir. Məqsəd - məzunu qısa müddətdə zəruri peşə biliklərinə yiyələnməyə və əmək, peşə və həyat yolunda irəlilədikcə dəyişən tələblərə asanlıqla uyğunlaşmağa imkan verəcək ümumi intellektual alətlə təmin etməkdir.**

**3. Ali təhsil nə xüsusi peşə bilikləri, nə geniş intellektual hazırlıq vermir, daha çox peşəkar inzibati, elmi və ya texniki fəaliyyət üçün lazım olan əsas intellektual keyfiyyətlərə malik gənclərin seçilməsi prosesində sonuncu mərhələ rolunu oynayır. Bu halda ali təhsilin ən mühüm cəhəti ardıcıl imtahanlar maneələri, bir növ «ələk»dir ki, hər mərhələdə müəyyən sayda gəncləri çıxdaş edir və beləliklə də onlara məşğul**

**olmalan, çox güman (amma bu vacib də deyil), onların əzəli və ya sonralar əldə olunmuş qabiliyyətlərinə uyğun olmayan fəaliyyət növünə münasibətlərini müəyyənləşdirməyə imkan verir.**

**4. Ali təhsillə sonrakı məşğulluq arasındakı hər hansı bir əlaqə təsadüfidir və onu nəzərdən keçirməyə ehtiyac yoxdur. Bəzi Qərbi Avropa təhsil nəzəriyyəçiləri arasında məşhur olan bu nöqteyi-nəzərə görə, ali təhsilin məqsədi - hər bir fərdin şəxsiyyətinin inkişafıdır və bu, onun gələcək məşğuliyyəti üçün faydalı, zərərli və ya neytral ola bilər. Bu konsepsiyaya görə ideal ali məktəbdə nə məqbul, nə diplom, nə dərəcə, nə məcburi fənlər olmamalıdı. Şəxs nəyi istəsə, onu da öyrənəcək.**

**Fikrin verilməsindəki müxtəlifliyə baxmayaraq, ayrı-ayrı səpgiləri əsaslandırılmış bu mövqelərin hamısı nisbətən ədalətli olmaları ilə səciyyələnirlər. Aksentlərin qoyulması ali məktəbin, fakültə və ixtisasın növündən asılıdır.**

**Rusiyada və mərkəzləşdirilmiş idarəetmə ölkələrində əsasən birinci modeldən istifadə olunurdu, amma praktikada hərdən üçüncü model üstünlük təşkil edirdi. Daha çox sosial tələbatı ödəməyə yÖnümlənmiş ölkələr (sosial yönümlü bazar təsərrüfat sistemi) ikinci modelə üstünlük verirlər.**

**Rusiyada baş verən köklü dəyişikliklərlə əlaqədar ali təhsil və bütövlükdə təhsil konsepsiyası əsaslı surətdə dəyişilməlidir. V.İ.Vernadskinin sözləri bu gün də aktual səslənir: «Rusiyanın xilası təhsilin və biliklərin qaldırılması və genişləndirilməsindədir. Yalnız bu yolla düzgün dövlət idarəçiliyinə çatmaq mümkündür, yalnız mədəniyyəti qaldırmaqla ölkəmizin laxlamış dünya əhəmiyyətini saxlamaq mümkündür»(1905). «Hazırda Rusiya ali məktəbi böhran içindədir, çünki o, hazırda Ölkəmizdə hakim olan həyatın xarici çərçivələrinə uyğunlaşa bilmir. Bizim təbəqə və bürokratik cəmiyyəti insan şəxsiyyəti və insan ağlına üstünlük verən ictimai həyatın demokratikləşməsindən çox uzaqdır; rus ziyalılığımn həyat şəraiti ümumdünya normal**

**həyat formalarmdan uzaqdır»(1913).**

**Təhsil əvvəlki nəslin topladığı mənəvi, mədəni və maddi dəyərlərin yeni nəslə yaradıcı ötürülməsinin prosesi və nəticəsi kimi, həmçinin yeni dəyərlərin təkrar istehsalı və ya yaradılması aktı kimi nəzərdən keçirilməlidir, çünki nə isə etdikdə, nəsə yaradanda, insan həmişə öyrənir, bilik əldə edir. Bu, təhsilin ənənəviyə nisbətən geniş şərhidir.**

**Təhsilə geniş, qeyri-ənənəvi baxışın zəruriliyi onun indiki vəziyyətindən irəli gəlir. Müasir təhsil fərdi və kollektiv dəyərləri kamilləşdirmək və insana ətraf mühiti idarə etməyə və öz taleyinin ağası olmağa imkan verən bilikləri toplamaq vasitəsi kimi deyil, mövcud sosial quruluşların möhkəmləndirilməsi və təkrar istehsalı vasitəsi kimi çıxış edir. Bir sözlə, təhsilin qarşısında bir vəzifə qoyulub - insanın hərtərəfli kamilləşdirilməsi kimi əzəli mühüm məsələ yerinə istehsal sahəsi üçün əmək ehtiyatları hazırlamaq. İnkişafın mərkəzində olmalı olan insanın yerini onun yaratdıqlarından biri “ əmtəə istehsalı tutmuşdur.**

**Yaranmış vəziyyət ali məktəb və ölkənin ali idarəetmə orqanları qarşısında ali məktəblər üçün aşağıdakılar kimi bir sıra əsaslı, həyat əhəmiyyətli və aktual fəaliyyət istiqamətləri qoyur:**

**■milli intellektual potensialın təkrar istehsalı üçün məsul olan ali məktəbin mövqelərinin saxlanılması və möhkəmləndirilməsi;**

**■ali məktəbin formalaşmış bazar münasibətlərinin gələcək şəraitində ictimai əhəmiyyətli institut kimi sabit fəaliyyət göstərməsi üçün zəmin yaradılması.**

**Bununla əlaqədar olaraq keçid dövründə ali məktəbin rolu və yerinin nəzəri, konseptual dərki ön plana çıxır. Ali məktəb sanki ölkənin ictimai-siyasi və iqtisadi quruluşunun güzgüsüdür və buna görə də ölkələr arasında ciddi fərqlər olduğundan münasibətlərin kor-koranə təkrarlanması istənilən nəticələri verməyə bilər. Başqa sözlə, dövr təkidlə iqtisadi biliklərin yeni sahəsinin, yəni bazar münasibətləri dövründə**

**İqtisadi təhsilin əsasını təşkil edə biləcək təhsilin idarə olunmasının nəzəri əsaslarını işləyib hazırlamağı tələb edir.**

**Ali təhsil müəssisəsi ictimai intellektin təkrar istehsalı sisteminin, kadrların hazırlanması və yenidən hazırlanmasının, yeni biliklərin alınması və yayılmasının əsas hissəsidir. İctimai münasibətlərinin konkret Öyrənilməsi sahəsindən asılı olaraq ali məktəb müxtəlif təzahür formalarında - cəmiyyətin, dövlətin və ölkə iqtisadiyyatının, konkret sahə və regionun subyekti kimi; şəxsiyyət və kollektivlərin cəmləşmə mərkəzi kimi; mürəkkəb intellektual idarəetmə sistemi kimi nəzərdən keçirilə bilər.**

**Cəmiyyətin subyekti kimi ali məktəb şəxsiyyətin fərdi tələbatlarını ödəyən və kadr hazırlığını həyata keçirən, fundamental və tətbiqi tədqiqatları aparan, yeni bilikləri kütlələrə çatdıran elm, mədəniyyət və təhsil mərkəzi rolunda çıxış edir.**

**Dövlət (sahə) iqtisadiyyatının subyekti kimi ali məktəb kadr hazırlığı və tədqiqatların aparılması üzrə dövlət (sahə) sifarişlərinin yerinə yetirilməsi məqsədilə dövlət resurslarını istehlak edən təşkilatdır.**

**Bazar iqtisadiyyatının subyekti kimi ali məktəb əsasən intellektual və intellekt tutumlu məhsul və xidmətlərin əmtəə istehsalçısı qismində çıxış edir və bu məhsulu həm dövlət qiymətinə, həm də azad bazar (müqavilə) qiymətinə satır.**

**Sahə subyekti kimi ali məktəb ixtisaslaşdırılmış kadr hazırlığı və sahə proqramları üzrə və sahə vəsaitləri hesabına məqsədyönlü tədqiqatların aparılması mərkəzi rolunu oynayır.**

**Region subyekti kimi ali məktəb özündə və öz ətrafında intellektual, istehsal, kommersiya, maliyyə, xeyriyyəçi subyektlərini və resurslarım cəmləşdirən mərkəzdir ki, onun kompleks fəaliyyəti və istifadə edilməsi cəmiyyətin məqsədləri, dövlətin göstərişləri ilə ziddiyyətə girmir və regionun intellektual təkrar istehsalını təmin edir.**

**İdarəetmə sistemi kimi ali məktəb çoxprofilli tədris-elmi**

**VƏ istehsal kompleksidir ki, onun da məcmu fəaliyyəti ictimai-dövlət və özünün sosial-iqtisadi məqsədlərinə tabedir.**

**Yüksək intellektli əmək kollektivlərinin və şəxsiyyətlərin cəmləşdiyi obyekt kimi ali məktəb öz sosial-iqtisadi inkiş^ məqsədlərini həyata keçirən və həm bütövlükdə quruluşun, həm də ayrı-ayrı kollektivlərin, şəxslərin və partnyorlann hüquq və maraqlarını müdafiə edən təşkilatdır.**

### *§3. Bazar iqtisadiyyatına keçid zamanı ali məktəbin inkişaf konsepsiyası*

**Olduqca qısa tarixi bir dövr ərzində cəmiyyətin, intellektual dairələrin və ölkəmizin idarəetmə orqanlarının ali təhsil müəssisələrinə baxışlarında bir sıra əhəmiyyətli konseptual dəyişikliklər baş vermişdir və bu baxışların tam formalaşdığını hələ də demək olmaz. 1988-ci ilə qədər ali təhsil müəssisəsi qeyri-istehsal sahəyə aid edilən təşkilat hesab olunur və demək olar ki tamamilə dövlət (və/və ya sahə) büdcəsi vəsaiti hesabına maliyyələşdirilirdi. Maliyyələşdirmə təsdiq olunmuş smeta əsasında həyata keçirilir, işçilərin əmək haqqı qüvvədə olan sabit dərəcələr (oklad) üzrə ödənilir, maddi-texniki və sosial bazanın inkişafı da genişlənmə, yenidənqurma və texniki təkrar təminetmə üçün büdcə vəsaitlərindən məqsədli kapital qoyuluşlarına əsaslanırdı.**

**1989-1990-cı illərdən başlayaraq vəziyyət dəyişdi və qeyri-büdcə vəsaitləri hesabına qismən özünümaliyyələşdir- mə strategiyası ön plana çıxdı. Konseptual-metodoloji planda bu o demək idi ki, ali məktəb büdcə təşkilatından qarışıq iqtisadiyyatın subyektinə çevrildi və onun aktivlərində qeyri-büdcə vəsaitlərinin payı get-gedə daha çox yer tutur.**

**Bazar sistemi münasibətlərinə keçdikcə alİ məktəblər, görünür region iqtisadiyyatında öz rollarını dərk edərək, öz bazalarında elmi-texnoloji parklar adlandırılan region intellektual-innovasiya mərkəzləri yaratmağa başlayırlar. Bu mərhələ elm tutumlu biznesin «yetişdirilməsinə» yönümlən-**

**miş məqsədli korporativ quruluşların yaradılması ilə səciyyələnir.**

**Beləliklə, konseptual-metodoloji mənada ali təhsil müəssisəsi büdcə elm-təhsil təşkilatından tədricən qeyri-bazar və bazar sahibkarlıq quruluşları ilə qarşılıqlı əlaqədə olan tədris-elm istehsalat və sahibkarlıq kompleksinə çevrilir.**

**Ənənəvi ali məktəbdə dəyişikliklərin baş verməsi ilə yanaşı bazar təhsil sektoru da yaranır. RF-nin 10 iyul 1992-ci il 3266-İ Jvr9-li «Təhsil haqqından ali məktəbin fəaliyyəti praktikasına yeni təşkilati-hüquqi - qeyri-dövlət təhsil quruluşları daxil edildi. Yaranmış iqtisadi vəziyyətdə formalaşmaqda olan qeyri-dövlət ali məktəbləri şəbəkəsi Rusiya ali təhsil sisteminin bir sıra problemlərini həll etməyə imkan yaradır.**

**Sosial ehtiyaclara, o cümlədən ali təhsil məqsədlərinə kommersiya sahəsindən əlavə vəsaitin cəlb edilməsi ölkə əhalisinin ali təhsilə olan tələbatmın ödənilməsi imkanlarını genişləndirir (yəni qəbulun və bütövlükdə ali məktəb kontingentinin genişlənməsi). Ən vacibi də budur ki, əhalinin mobilliyinin aşağı olması şəraitində bu xidmət bir qayda olaraq yaşadığı ərazidə göstərilir.**

**Təhsil, elm və mədəniyyət işçilərinin əlavə gəlir əldə etmək imkanı onların müvafiq dövlət təşkilatlarından və xaricə axınını zəiflədir.**

**Ali məktəbin iqtisadi-idarəetmə və humanitar təhsilə yönümlü qeyri-dövlət sektorunun inkişafı dövlət ali məktəblərinin məhdud büdcə vəsaitlərini Rusiyanın elmi-texniki tərəqqisinin sürətini müəyyənləşdirən təbiət-elmi, texniki və texnoloji istiqamətlərinin təhsil-peşə proqramlarının dəstəklənməsinə yönəltməyə imkan verir.**

**İstedadlı gəncliyə elitar təhsil verə bilmək perspektivi qeyri-ənənəvi düşüncəli, ələlxüsus humanitar biliklər sahəsində, ziyalı təbəqəsini formalaşdırmaq üçün zəmin yaradır ki, bu da cəmiyyətin uğurlu inkişafının əsas şərtlərindən biridir. İkinci, ali peşə təhsili və ya ikinci ixtisas, ələlxüsus Rusiya**

**ordusu sıralarından tərxis olunmuş və əmək birjasında qeydə alınmış şəxslərə ikinci ixtisas almaq imkanı yaradılır.**

**Bunlardan çıxış edərək ali təhsilin qeyri-dövlət sektorunun yaradılmasını ali təhsil almaq üçün potensial imkanlara malik əhalinin imkanlarını genişləndirən və bir də ali məktəbin çoxukladlı iqtisadiyyatını formalaşdıran mühüm amil kimi nəzərdən keçirmək olar.**

**Qeyd etmək lazımdır ki, ali təhsilin qeyri-dövlət sektorunun yaradılması və inkişafı çox vaxt dövlət ali məktəbinin rəqabət qabiliyyətli alternativi kimi qiymətləndirilir. Əslində isə, təhsil xidmətləri bazarında rəqabətliliyin artması ilə yanaşı (bu öz-özlüyündə pis deyil) dövlət və qeyri-dövlət ali təhsil sektorları arasında müəyyən tərəfdaşlıq yaranır ki, bu da gələcəkdə bu iki quruluşun birləşib vahid təhsil kompleksini yarada bilməsi imkanının olmasına dəlalət edir.**

**Ali məktəbin akademik və iqtisadi tamlığı ideyası onun həyata keçirilməsi formalarının plüralizmini nəzərdə tutur. Belə ki, gəlir bölgüsünün bölmələr və hətta ali məktəbin vahid hüquqi şəxs kimi yerinə yetirdiyi işlər üzrə bütün mövcud variantlarının (büdcədən fərdiyədək) birləşdirilmiş variantı mümkündür. İqtisadi münasibətləri tənzimləyən şərtlər gözlənilməklə ali məktəb - firma kimi birləşmə də mümkündür. Təklif oluna biləcək çoxlu modellər ali məktəbin yüksək ixtisaslı işçilərinin sabitləşməsi tələbinə cavab verməlidir. Bununla bağlı ali məktəbin tədbirlər sistemi ilə həyata keçirilə biləcək sabitləşmə mexanizmi konsepsiyası zəruridir.**

**l.Ali məktəblərdə hər yerdə əmək haqqı ödənişinin insanın fəaliyyət sahəsindən asılı olmayaraq işçi ilə ali məktəb arasında müqavilə münasibətlərinin əsası kimi kontrakt sisteminin tətbiqi.**

**Əmək haqqı ödənişi siyasəti iki istiqamətdə aparılmalıdır. Birincisi, bütün işçilərin, o cümlədən az maaş alanların əmək haqqının ödənilməsinə, minimum təminatların gözlənilməsinə yönümlənib. İkinci istiqamət öz ətrafında in**

**tellektual kollektiv formalaşdıran işçinin, potensial sifarişçinin ona görə sifariş verdiyi işçinin, yəni ali məktəbin iş həcmini müəyyənləşdirənlərin əmək haqqının ödənilməsini, məcmu gəlirinin formalaşmasını və yüksək peşəkarlıq hüququnun gözlənilməsinə təminatı nəzərdə tutur. Kontrakt sistemi üzrə əməyin təşkili eksperimenti məhz bu məqsədləri güdür.**

**2. «Depozit» bloku fərdi əmək haqqı fondu vəsaitlərindən peşəkar işçinin yığımlarını formalaşdırmaq üçün şərait yaradılmasından ibarətdir. Fərdi yığımların formalaşması işçinin qazandığı vəsaitləri ali məktəbdə depozit sertifikatı verilməklə onun fərdi hesabında saxlanılmasına imkan verən depozit metoduna əsaslanır. İşçi əmək haqqının həcmindən, gəlir vergisi qaydalarından, özünün nağd pula olan cari tələbatlarından, inflygısiyanın vəziyyətindən çıxış edərək əməyə görə ödənişlərin intensivləşib əlverişli vergi ödənişi həddini aşdığı dövrdə öz əmək haqqını saxlayıb onu özü üçün əlverişli olan istənilən vaxtda almaq hüququna malikdir. Özü də ali məktəb dövriyyə kapitalım artırmaq, bu əmanətlərdən istədiyi kimi və xeyir götürməklə istifadə edə bilər. Əmanətlərə görə faiz verilməsi, həmçinin işçilərin yığımlarını əmanət bankının təklif etdiyi şərtlərdən bir qədər əlverişli şərtlərlə bilavasitə cəlb edilməsi də istisna olunmur.**

**3. Ali məktəbdə işçinin qənaətlə yığdığı vəsaitlərin sonuncu üçün əlverişli şərtlərlə əmtəəyə dəyişdirilməsini təmin edən quruluşlar yaratmaq lazımdır.**

**4. İşçinin qənaətlə yığımlarının sabit artımı şəraitində belə tədbirlər ali məktəbin işçiyə ali məktəbin könüllü olaraq ali məktəbin fonduna verdiyi məbləğə müvafiq olaraq ona fərdi aksiyalar verə bilər.**

**5. Nəticədə ali məktəb istehsal vasitələrini qismən özəlləşdirmək hüququ qazanar («özəlləşdirmər bloku). Burada «mən nə qədər alıram r modelindən «bir əmanətçi kimi dəyərim nə qədərdirr modelinə keçid baş verir. İşçinin ali məktəbə bağlanması praktik olaraq mütləqdir, çünki qənaətlə**

**yığılmış bütün vəsaitlər birdən götürülərsə, fərdi verginin yüksək vergi dərəcəsi qüvvəyə minir.**

**6. Ali məktəbin nəzdində qeydiyyatdan keçmiş fərdi (kollektiv) təşkilat. Ali məktəbin qazancı ondadır ki, ali məktəb üçün qüvvədə olan güzəştli fiskal hüquqları belə firmaya da şamil edilsə, ali məktəb firmadan vergi ödənişlərinin bir qismini onun hesabına dəyişməsini tələb edə bilər.**

**7. cFəaliyyətin təşkilinin park sistemi» ali məktəb nəzdində aşağıdakı formalarda texnoloji pcırk yaradılmasından ibarətdir:**

**■ konsorsium, əgər çoxsəpkili elmi-texniki problemi kompleks həll etmək lazımdırsa;**

**■ məhdud məsuliyyətli cəmiyyət (və ya səhmdar cəmiyyəti), əgər söhbət daimi ^sifarişlər portfeli»ndən və nisbətən sabit maliyyələşdirmə mənbələrindən gedirsə;**

**■ konsern, əgər sifariş axını sabit və səhmdarların öz cəmiyyətlərinə iqtisadi etimadının səviyyəsi böyükdürsə.**

**Sabitləşdirmə mexanizmi tamamilə yeni, spesifik və hələ ki, olduqca mübahisəli mülkiyyət münasibətləri sisteminin müəyyənləşdirilməsini tələb edir ki, bu da həmin anlayışın özünün, mülkiyyət subyektlərinin bazar münasibətlərinə müvafiq mülkiyyət obyekti sisteminin və onların mülkiyyət obyektlərinə münasibətdə hüquqlarının birmənalı müəyyənləşdirilməsini nəzərdə tutur. Bunun üçün isə:**

**■ mülkiyyət obyektlərinin bölünməz hissəsinin kvotalaşdırma qaydaları müəyyənləşdirilməli;**

**■ istehsal vasitələri və torpaq bir korporativ mülkiyyətçi kimi ali məktəbin ixtiyarına verilməli;**

**■ ali məktəbə ayrı-ayrı obyektləri qismən özəlləşdirmək hüququ və ya bu obyektlərə münasibətdə müəyyən hüquqlar verilməlidir.**

**Bu zaman bir neçə subyektdə eyni bir mülkiyyət obyektinə tam mülkiyyət hüququ dəstinin olması nəticəsində yarana biləcək münaqişəli vəziyyətlər kontrakt münasibətləri sistemi əsasında həllini tapmalıdır.**

**Müəyyən müstəqillik tələb edən təsərrüfat mexanizminin sabitləşdirilməsi üzrə göstərilən tədbirlər dövlətin ali məktəbin idarə edilməsindən uzaqlaşması demək deyil. Rusiya Federasiyası Təhsil Nazirliyinin ali məktəblərin akkreditasi- ya edilməsi yolunu tutması özündə *onun təşkilati-iqtisadi mexanizmi* (TİM) *konsepsiyasını* ehtiva edir ki, bu da ali məktəbləri bu tədbirdə könüllü iştirak etməyə və son nəticədə intellektual məhsulun səviyyəsini və keyfiyyətini yüksəltməyə stimullaşdırır.**

**Təşkilati-iqtisadi mexanizm mövqeyindən akkreditasiya göstərir ki, ali məktəb:**

**■ fəaliyyəti dövlətin büdcə maliyyələşdirmələrini tam doğrultduğu üçün dövlət ona tamamilə etibar edir;**

**■ intellektual məhsula alınmış dövlət və s. sifarişlərin yerinə yetirilməsində etibarlı tərəfdaş kimi çıxış edir;**

**■ dövlət vəsaitlərindən və xeyriyyəçilik ödənişləri və subsidiyalardan istifadədə qənaətcildir;**

**■ rəsmi maliyyə-iqtisadi əməliyyatların aparılmasında dövlət və qanunvericilik norma və qaydalarına riayət edir;**

**■ öz iqtisadi fəaliyyətini əmək kollektivinin və onun üzvlərinin maraqları naminə maddi-texniki və sosial-iqtisadi bazanın cəmləşdirilməsi və inkişafına yönəldir.**

**Büdcə kəsiri, ali məktəb kadrlarının məcburiyyət qarşısında digər fəaliyyət sahələri arasında bölüşdürülməsi fonunda ali təhsil sistemində baş verən dəyişikliklər ali məktəbin maliyyələşdirilməsi sistemində bir sıra ciddi dəyişikliklərin zəruri olması, o cümlədən iqtisadi monitorinqin inkişaf etdirilməsi barədə düşünməyə vadar edir.**

# XXX FƏSİL. REGİON İQTİSADİYYATININ FORMALAŞMASININ NƏZƏRİ ƏSASLARI

***§1. İqtisadi nəzəriyyədə region iqtisadiyyatına baxışların təkamülü.***
***§2. Region: mahiyyəti və funksiyaları.***
***§3. Dünyada və Rusiya Federasiyasında region iqtisadi siyasətinin müasir problemləri.***
***§4. Bazar münasibətlərinin fəaliyyətində regionun xüsusiyyətləri.***

**Region iqtisadiyyatının nəzəri və praktik tərəfləri hazırda hələ kifayət qədər öyrənilməyib.**

**Region iqtisadiyyatının formalaşmasının konseptual əsasları region iqtisadiyyatının məqsədləri, əsas prinsipləri və funksiyalarının və Rusiyada bazar təsərrüfat sisteminin formalaşdığı dövrdə xüsusiyyətlərinin göstərilməsini nəzərdə tutur.**

**İqtisadi nəzəriyyəyə metaiqtisadiyyat, makroiqtisadiyyat, mezoiqtisadiyyat və mikroiqtisadiyyat daxildir. Amma bir sıra müəlliflər mezoiqtisadiyyatı avtomatik olaraq iqtisadi nəzəriyyədən çıxarırlar. Halbuki region iqtisadiyyatı (mezoiqtisadiyyat) makro və mikroiqtisadiyyat arasmda əlaqələndirici, bir mərhələdir (bax; şəkil 30.1).**

**Makroiqtisadiyyat**

**Mezoiqtisadiyyat**

**Mikroiqtisadiyyat**



**Şəkil 30.1. İqtisadi nəzəriyyənin tərkib hissələri**

**Şəkil 30.1-dən göründüyü kimi, region iqtisadiyyatını nəzərə almadan milli iqtisadiyyatın bütövlükdə fəaliyyəti mümkün deyil. Bu tezis xüsusilə Rusiya üçün aktualdır.**

**Rusiya dövlətinin spesifik xüsusiyyətləri milli iqtisadiyyatın yalnız ilkin iqtisadi quruluş baxımından deyil, həm də region səpkisində razılaşdırılmış inkişafını tələb edir. Belə ki, milli iqtisadiyyatın islahatı üçün institusional dəyişiklərin makroiqtisadiyyat səviyyəsində «oyun qaydalarının müəyyənləşdirərkən və region səviyyəsində bunlara müvafiq ooyun qaydaların işləyib hazırlamadan nəinki müəssisə iqtisadiyyatında, hətta bütövlükdə ölkənin iqtisadiyyatında müvəffəqiyyət qazanmaq mümkün deyil. Mərkəzin qəbul etdiyi qanunların, qərarların, təlimatların zəif yerinə yetirilməsinin səbəblərindən biri region xüsusiyyətlərinin kifayət qədər nəzərə alınmamasıdır. Region iqtisadiyyatı iqtisadi nəzəriyyə sisteminin bir hissəsini təşkil edir, buna görə də onun öyrənmə predmeti və metodu iqtisadi nəzəriyyədəki kimidir. Region iqtisadiyyatı təsərrüfatın ərazi üzrə təşkilini nəzərdən keçirən regionşünaslıqdan keyfiyyətcə fərqlənir. Regionşünaslıq daha çox iqtisadi-coğrafi səciyyəli olduğu halda, region iqtisadiyyatı konkret region hüdudlarında iqtisadiyyatın nəzəri əsaslarını öyrənir. Region iqtisadiyyatı makroiqtisadiyyatla mikroiqtisadiyyat arasında əlaqə yaradan bir mərhələ olduğundan, onun tədqiqi zamanı iqtisadi nəzəriyyənin müxtəlif mərhələləri arasındakı qarşılıqlı əlaqə və asılılığı aşkar etmək mümkündür.**

### *§1, İqtisadi nəzsriyysda region iqtisadiyyatına baxışların takamülü*

**Müasir iqtisadi nəzəriyyə və praktika bölgələrin inkişafı problemini yenidən nəzərdən keçirmək və onların yeni həllinin axtarılması zərurəti qarşısındadır. Onun proseslərinin tədqiqi qədim dövrlərdən aparılıb.**

**Cəmiyyətin bölgələr üzrə nizamlanması barədə yazmış**

**müəlliflər arasında Aristotel, Platon, Strabon, M.Tora, T.Kampanella, A.Qumboldt, l.Tünen, Ş.Furye, R.Ouen, K,Marks və b. xüsusilə seçilirlər. Dövlətin bölgələr üzrə təşkilinə rus tədqiqatçılarından M.V.Lomonosov, A.N.Radişev, K.M.Arsenyev, D.İ.Mendeleyev, P.P.Semyonov, D.l.Rixter, N.Q.Çernışevski, N.P.Oqaryov və b. diqqət yetirmişlər.**

**M.V.Lomonosov dəfələrlə rayonlaşdırma probleminin öyrənilməsinin, Sibirin təbii sərvətlərinin mənimsənilməsinin zəruriliyi barədə fikir söyləmişdir. Məhz o demişdir: ♦Rusiyanın qüdrəti Sibir və Şimal okeanı hesabına artacaq*. Radişşev Rusiyada birinci olaraq ölkənin ərazi bölgüsünə elmi yanaşmanın zəruriliyini etiraf etmişdi.**

**Rusiyanın rayonlara (məkanlara) bölünməsi üzrə ilk cəhdi K.M.Arsenyev etmişdi. 1818-ci ildə o, statistik tədqiqatların aparılması üçün Rusiyanı 10 «məkana* (məkanda quberniyalar birləşdirilirdilər) bölməyi təklif etmişdi. Bu zaman Arsenyev onların sərhədlərini göstərmir, yalnız rayonların ümumi səciyyəsini verir.**

**P.P.Semyonov 1871-ci ildə tədqiqat məqsədilə və statistik təsnifat üçün Rusiyanın Avropa hissəsini quberniya qrupları deyil, qəza birləşmələrindən ibarət 14 ♦təbii* vilayətə böldü. Bu zaman o, təbii-coğrafi əlamətləri və sosial-iqtisadi fərqləri (əhalinin sıxlığı, milli tərkibi, peşə mənsubİ5^əti, torpaqların mülklərə və təsərrüfat sistemlərinə bölümü) nəzərə alırdı,**

**N. P.Oqaryov Rusiya iqtisadi rayonlarının statistik təsnifatının ♦yekrənglik prinsipi*ni əsaslandırmışdı. O, Rusiyada dövlətin, ♦müasir, canlı həyatın* tədqiqatlar zamanı ♦keçmişin nəticəsi kimi* və ♦gələcək inkişafın ondan başlayacağı qüvvə* kimi nəzərdən keçirilməsinin zəruriliyi barədə birinci fikir söyləyənlərdəndir. Oqaryov həm də bölgələrin ixtisaslaşmaları, bölgələrin yeni nəqliyyat təminatı şəraitindən, iqtisadi meyllərindən və digər amillərdən çıxış edərək dövlət inzibati-ərazi bölgüsünə yenidən baxılmasının zəruriliyini bildirmişdi.**

**Rusiya alimləri QOELRO və bütün beşilliklərin planlarının işlənib hazırlanmasında, regionların kompleks inkişafı və onların ixtisaslaşmasının iqtisadi planlaşdırılmasında, rayonlararası əmək bölgüsündə, regionlarda komplekslərin formalaşmasında və s. fəal iştirak etmişlər. V.S.Nemçinov, P. M.Alampiyev, V.V.Kistanova, A.E.Probsta və başqalarının region-iqtisadi əsərləri geniş tanınmışdır.**

**Məsələnin müxtəlif cəhətləri məşhur alimlər İ.Q.Aleksandrov, A.A.Boqdanov, N.N.Baranski, V.İ.Vernadski, N.D.Kondratyev, N.N.Kolosovski, A.V.Çayanov, Q.M.Krjijanovski, A.L.Çijevski və b. tərəfindən tədqiq olunmuşdur.**

**Hazırda ölkəmizdə və xaricdə bölgələrin inkişafının sosial yönümlü edilməsi, ekoloji fəlsəfə, ümumi sistem nəzəriyyəsi və özünütəşkil sistemi haqqındakı cavan elm «sinergetika», proqnostika, iqtisadi (əmtəə-pul, bazar) münasibətlərinin genişlənməsi proseslərinin və yerli özünüidarənin rolunun qaldırılması problemlərinin tədqiqi və həllində yeni istiqamətlər yaranır.**

**Problemli sahələrdə elmi-tədqiqat araşdırmaları və axtarışlar BMT-nin tədqiqat mərkəzləri, Roma klubu və digər beynəlxalq birləşmələr çərçivəsində Böyük Britaniya, ABŞ, AFR, Fransa, Kanada, Çin, İsveç, Yaponiyanın alimləri və mütəxəssisləri tərəfindən aparılır.**

**U.Ayzard, R.Akoff, R.Gilmor, C.Qold, Q.Odum, V.Leontyev, C.Martino, D.Medouz, Q.Menş, M.Mesaroviç, C.Neys- bit, A.Peççey, E.Pestel, İ.Priqojin, M.Rotşild, l.Stengers, Q. Teyl, E.Toffler, S.Xaken, X.Xauşteynin elmi yanaşmaları bütün dünyada şöhrət qazanmışdı.**

**Region səviyyəsində iqtisadi münasibətlərə diqqət XX əsrin 60-70-ci illərində sürətlə artmışdı. Sovet iqtisad elmində «region» məfhumunu elmi dövriyyəyə akademik N.N.Nekrasov daxil etmişdi. O hesab edirdi ki, region iqtisadiyyatı Ölkənin hər bir rayonunda iqtisadi və sosial amillərin məcmusunu öyrənməlidir, region iqtisadiyyatının əsas tərkib hissəsi isə həmin ərazinin məhsuldar qüvvələrinin regionda**

**yerləşdirilməsidir. Lakin iqtisadi ədəbiyyatda başqa şərhlərə də rast gəlmək olar.**

**Regionu onun sinonimi olan rayon və ya ərazini, bir neçə milli məskunlaşma sistemini birləşdirən coğrafi mühit vasitəsilə müəyyənləşdirirlər. Daha dəqiq tərif də var: iqtisadi rayona və ya bir neçə həmsərhəd vilayətə region deyirlər. Lakin bu kimi şərhlərin də öz çatışmazlıqları var. Məsələn, respublikaların, vilayətlərin hüdudlarında olan regionun özünün ərazi idarəçiliyi vardırsa, bəs onda Sibir və Uzaq Şərqin geniş əraziləri ilə nə etməli? Bəzi iqtisadçılar (Məsələn, V.F.Pavlenko) «region iqtisadiyyatı» anlayışına məhsuldar qüvvələrin bütövlükdə Ölkələ və ayrı-ayrı sahələrdə yerləşdirilməsi məsələsini daxil etmir, region iqtisadiyyatını isə sahə iqtisadiyyatlarının (kənd təsərrüfatı, sənaye və s.) analoqu kimi müəyyənləşdirirlər, buna görə də, onların fikrincə, o, ölkənin ayrı-ayrı rayonlarının konkret iqtisadiyyatını öyrənməlidir.**

**Hazırda regionların sürətlə bazara girməsi ilə əlaqədar olaraq regionun bazar münasibətlərinin subyekti , yəni hər hansı bir ərazinin bazar tutumu kimi fərqləndirilməsi kimi yeni meyar irəli sürülür. Məlumdur ki, bazarın həcmi ictimai əməyin ixtisaslaşma dərəcəsi, yəni əmək bölgüsü ilə sıx əlaqədardır. İctimai əmək bölgüsü nə qədər dərin olsa, hər hansı bir ərazinin müəssisələri arasında kooperasiya əlaqələri bir o qədər güclü, inteqrasiya bir o qədər dərin olar.**

**Xarici elmin nümayəndələrinin çoxu məhsuldar qüvvələrin yerləşdirilməsinə istehsal üsulunun, ictimai quruluşun həlledici təsirini inkar edirlər. Onlar, əslində, coğrafi determinizm ideyasından çıxış edirlər: həlledici rol coğrafi mühitə mənsubdur. Qeyd etmək lazımdır ki, region təsərrüfatının təşkilində coğrafi mühit həlledici olmasa da, böyük rol oynayır.**

**Regional inkişafın ən məşhur nəzəriyyəçiləri «təcrid olunmuş dövlətini kənd təsərrüfatının yerləşdirilməsi konsepsiyasını işləyib hazırlamış alman alimi İ.Tünen (aqrarçı) və «ümumi standartlarım (sənayenin yerləşmə stereotipləri)**

İrəli sürmüş A.Veberdir. Bu nəzəriyyə XX əsrin birinci yarısında geniş yayılmışdı.

XX əsrin ortalarında alman iqtisadçısı A. Leşin əsərləri çapdan çıxdı. Minimum sahibkar xərclərini (C+V) təmin edən müəssisə üçün yer axtaran A.Veberdən fərqli olaraq bu alim əsas kimi maksimum mənfəəti götürürdü. O yalnız ayrıca bir sahəni deyil, bütün iqtisadiyyatı bütövlükdə xarici amillərlə əlaqədə (beynəlxalq ticarət) götürürdü.

Bununla yanaşı A.Leş iqtisadi rayonun ixtisaslaşmasını deyil, əmtəənin bazarda satışını əsas rayonyaradan amil hesab edirdi.

Göstərilən nəzəriyyələr müsbət rol oynayır - diqqəti yerləşdirmə amillərinə cəlb edirlər (xammala xərclər, əsas kapital, iş qüvvəsi, nəqliyyat). İqtisadi inkişafın müasir mərhələsində təsərrüfatın ərazi təşkili nəzəriyyəsi xaricdə get-gedə daha çox praktika ilə əlaqələndirilir. Region planlaşdırılması dünya ölkələrinin çoxunda iqtisadiyyatın ümummilli tənzimlənməsinin tərkib hissəsinə çevrilmişdir. Bu zaman sistemli yanaşma, qısamüddətli və uzunmüddətli məsələlərin uzlaşdırılmasına müraciət olunur, ön plana sosial və ekologi problemlər çıxır.

Tərtib olunan proqramlarda iqtisadi-riyazi metod və modellərə daha çox yer verilir. Rayonların iqtisadiyyatının balanslaşdırılması üçün V.V.Leontyevin «xərclər - istehsab metodundan istifadə olunur. Onun tətbiqi zamanı regionların məcmusu müəyyən vaxtdan sonra, yeni məsələlər ortaya çıxdıqca dəyişən vahid kimi nəzərdən keçirilir. İnkişafın tənzimlənməsi üçün regionlar problemlərinin xa-rakterinə görə növlərə bölünürlər (zəif inkişaf etmiş, depres-siv, əhali artıqlığı olan və s.).

Şəhər aqlomerasiyaları və onlann təsir zonalarının öyrənilməsinə mühüm yer ayrılır. İtaliya iqtisadçısı E.Tosko iri sənaye mərkəzlərində köməkçi və sahələrarası istehsallmn rolunu tədqiq edərək bu nəticəyə gəlmişdi ki, belə istehsalların olmaması ümumi istehsal xərclərini 10% -dən çox artırır.

**Hazırda xaricdə «region elmi» geniş yayılmışdır, onun ən görkəmli nümayəndələri U.lzard (ABŞ), P.Haqqet (İngiltərə), F.Perudur (Fransa). Onların əsərlərində istehsalın region təşkilinin bir sıra dəyərli təhlil metodları vardır. Bu alimlər sahələrarası balansların köməkliyi ilə müəssisə və sahələrin yerləşdirilməsinin mühüm qarşılıqlı əlaqəsini aş- karlaya bilmişlər.**

### *§2. Region: mahiyyəti və funksiyaları*

**Regionun ən ümumi tərifi belədir:**

**Region — xalq təsərrüfatının sahə və ərazi əmək bölgüsünün qarşılıqlı əlaqəsi əsasmda təşkil olunan alt sistemidir.**

**Elmi ədəbiyyatda regionların problemləri müxtəlif cəhətlərdən nəzərdən keçirilir. Şərti olaraq aşağıdakı əsas cəhətləri göstərmək olar (şəkil 30.2).**

**Geosiyasi cəhət bir-birinə yaxın ölkələrin iqtisadi inteqrasiya əsasında birləşməsinə əsaslanır. Avropada, Asiyada, Latın Amerikasında ümumi bazar yaradan ittifaqlar yaranıb. Məsələn, Al: ittifaqa daxil olan ölkələrin yalnız simvolik sərhədlərinin saxlanılması ilə nəhəng bir region meydana gəlib. Ümumi valyutaya, təsərrüfatçılıqda oyun qaydalarına malik vahid iqtisadi sahə yaradılıb.**

**İnzibati-ərazi cəhəti müstəqil dövləti əmələ gətirən ölkənin bütün ərazilərinin cəmini ifadə edir. Rusiya Federasiyasının Konstitusiyasına görə, Rusiya Federasiyası çoxlu subyektlərdən ibarətdir və milli iqtisadiyyatın formalaşması baxımından Federasiyanın hər bir subyektini region iqtisadiyyatının fəaliyyət göstərməsinin əsası kimi nəzərdən keçirmək olar. Buna görə də Federasiya subyektlərini region kimi nəzərdən keçirmək olar .**

**Regionşünaslıq cəhəti ictimai əmək bölgüsü, təkrar istehsal tsiklinin ixtisaslaşma və kooperasiyası və s. nəzərə alınmaqla rayondaxili və rayonlararası iqtisadi əlaqələrə əsaslanır. Buna görə də burada «region» anlayışını çox vaxt**




**Şəkil 30.2. Regionların müxtəlif cəhətdən problemləri**

**«zona», «kompleks», «.rayon», «hissə» və s.-lə əvəz edirlər.**

**Buna görə də iqtisadi nəzəriyyə region iqtisadiyyatını milli iqtisadiyyatın tərkib hissəsi kimi müəyyənləşdirir ki, burada « region» məfhumu altında RF subyekti başa düşülür. Belə yanaşma makro- və mikroiqtisadiyyat arasında varis* liyi təmin etməyə, institusional dəyişikliklər üçün səmərəli oyun qaydalarının metodoloji əsaslarını əsaslandırmağa imkan verir.**

**Region iqtisadiyyatı anlayışının şərhində iqtisadçıların fikirləri nə qədər fərqli olsa da, hamısı üçün ümumi cəhət regionun ayrılmasında obyektiv əsasın əməyin ərazi bölgüsü, praktik tətbiqində isə - tənzimləmənin ərazi cəhəti olmasıdır.**

**Beləliklə, region — istehsal quruluşu, bütün mülkiyyət növlərinin olması, əhalinin, iş yerlərinin, insanın mənəvi həyatı üçün şəraitin olması ilə səciyyələnən, öz ərazisinin (vilayət, diyar, respublika) yerli özünüidarə orqanlarına**

malik olan və yaşayış üçün optimal şərait yaratmaq üçün fəaliyyət göstərən sosial-iqtisadi məkan tamhğ:ıdır.

Regionların təsnifatını əsas istehsal ixtisaslaşması mənbələrinə görə aparmaq olar: aqrosənaye, nəqliyyat-sənaye, dəniz-sənaye, balıq-sənaye, neftqazsənaye və s.

İki eyni cür region yoxdur: regionlar çoxdan mənimsənilmiş və yaxın vaxtlarda mənimsənilmiş, mərkəzi və ucqar, əhalisinin sayı artan və azalan, birində yaşlı əhali çoxluq təşkil edir, digərində gənclərin sayı daha çoxdur. Regionlar məhsuldar qüvvələrin dolğunluq səviyyəsinə, sosial quruluşuna, xammal bazası və faydalı qazıntıların olması, yüksək inkişaf etmiş sənaye, mədəniyyət və paytaxt mərkəzlərdən uzaqlığına görə fərqlənirlər. Elm bu və digər fərqləri, xüsusilə də iqtisadiyyatın sabitləşməsi və böhrandan çıxması , bazar münasibətlərinin inkişafı üzrə tövsiyələr işləyib hazırlayanda nəzərə almalıdır. Nəzərə almaq lazımdır ki, elm artıq yaxın zamanlarda formalaşmaqda olan müstəqil milli-ərazi qurumlarını nəzərə almaqla yeni iqtisadi rayonlaşmanı müəyyənləşdirməlidir.

Sadalanmış problemlərdən görünür ki, regional problematika xüsusi diqqət tələb edir. Region hazırda iqtisadi və siyasi münasibətlərin əsas subyekti olmaqdadır. Bu vəziyyətdə region iqtisadiyyatının formalaşmasının bu və ya digər regionun nisbi üstünlüklərinə, tarixi və mədəni inkişafının xüsusiyyətlərinə söykənən spesifik xüsusiyyətlərini və üstünlükverimlərini müəyyənləşdirmək çox vacibdir.

Region iqtisadiyyatı fəaliyyətinin məqsədi - müvafiq regionun əhalisinin yüksək həyat səviyyəsi və keyfiyyətinin təmin edilməsidir.

Region iqtisadiyyatı üç əsas prinsipdən istifadə etməlidir:

1) region əhalisinin, formalaşdırılan bazarların vəziyyəti və dinamikasının, dövlətin və ayrı-ayrı müəssisələrin maraqlarının diqqətlə nəzərə alınması;

2) region iqtisadiyyatı quruluşunun daxili və xarici amil

**lərə maksimum uyğunlaşdırılması üçün şəraitin yaradılması;**

**3) region maraqlarının fəal həyata keçirilməsi.**

**Region iqtisadiyyatının funksiyaları istehsal, bölgü, mübadilə və istehlak sahələrində funksiyalara bölünürlər. Bazar iqtisadiyyatı şəraitində qiymətin əmələ gəlməsi sahəsindəki funksiyalar xüsusi əhəmiyyət kəsb edir (bax şəkil 30.3).**




**Şəkil 30.3. Region iqtisadiyyatının funksiyaları**

**Region iqtisadiyyatının uğurla fəaliyyət göstərməsi yerli administrasiyanın mərkəzin və regionun maraqlarını nəzərə alan optimal qərarlar qəbul edə bilmək imkanları və bacarığından çox asılıdır. Hər bir regionun simasını mülkiyyət formaları deyil, iqtisadiyyatı idarəetmə üsulları, sosial- iqtisadi münasibətlər, region üstünlüklərindən rasional istifadə, ziddiyyətdə ola biləcək federal və regional sosial- iqtisadi maraqların uzlaşdırılması metodlarının axtarılması müəyyənləşdirir.**

## *§3. Dünyada V9 Rusiya Federasiyasında region iqtisadi siyasətinin müasir problenUari*

**OESD-nin (Orqanization for Ekonomic cooperation and Development) verdiyi tərifə görə bazar iqtisadiyyatı ölkələrdə region siyasəti obyekti dedikdə müxtəlif cür regional (məkan) bərabərsizliklər, həyat səviyyəsində və şəraitində, məşğulluq və işsizlikdə, ayrı-ayrı regionların iqtisadi inkişaf sürətində, sahibkarlıq şəraitlərindəki və s. fərqlər nəzərdə tutulur. Keçid iqtisadiyyatında bu cür asimmetrik tendensiyaya misal Rusiyanın regional quruluşu ola bilər. RF-nin subyektləri ən müxtəlif parametrlərinə görə bir-birindən fərqlənirlər və onların inkişafı çox vaxt paradoksal iqtisadi tendesiyalarla bağlıdır. Məsələn, əhalinin sayına görə 79 region arasında maksimal fərq 98,4 dəfədir.**

**Region siyasətinin obyekti kimi diqqəti yalnız regional inkişafdakı fərqlərə yönəldəndə onun əsas məqsədi - onun artan iqtisadi inkişafı üçün şərait yaradılması, yəni region ərazisində iqtisadi artıma rəvac vermə diqqətdən kənarda qalır.**

**Beləliklə, region siyasəti dedikdə həm bütün ölkənin, həm də ona daxil olan regionların iqtisadi, sosial və ekoloji inkişafının idarə edilməsi üzrə fəaliyyət sahəsi başa düşülür. Region siyasətində aşağıdakılara diqqət yetirmək vacibdir:**

**1. Hər bir regionun sabit və artan inkişafına ünvanlanmış strategiyanın formalaşması. Özü də mütləq regional inkişafa nail olmaq mümkün deyil. Statistikada tətbiq olunan orta göstəricilərin hesablanması metodu yalnız mücərrəd «orta inkişaf» haqqında təsəvvür yaradır, amma Rusiyada (və ya dünyanın istənilən Ölkəsində) bütün mövcud təbii, sosial və iqtisadi indikatorların orta qiymətlərinə malik region tapmaq praktik olaraq tamamilə mümkün deyil. Buradan da dərhal ölkədə regionlararası bərabərləşdirmə nəyə istiqamətlənir problemi ortaya çıxır. İki mövqeyin dəqiqləşdirilməsi müəyyən mənada onun həlli ola bilər:**

■ məqsəd - regionun orta Rusiya göstəricisindən maksimum geriliyinin azaldılması (kəskin qütbləşmənin aradan qaldırılması);

■ müsbət artım sürətli regionların sayının artması üçün şəraitin yaradılması.

Bütün bunları həm də iki əsas göstərici vasitəsilə təqdim etmək olar:

■ geridə qalan regionların müəyyən artım sürətində əhalinin hər nəfərinə düşən ÜRM-in (Ümumi region məhsulu) Rusiya üzrə orta göstəriciyə çatdırılması üçün lazım olan illərin sayı;

■ geridə qalan regionlara müəyyən sayda il ərzində Rusiya üzrə orta səviyyəyə çatmaq üçün əhalinin hər nəfərinə düşən ÜRM-in artım sürəti səviyyəsi.

2. İqtisadi artımın <ımühərriki» ola biləcək və keçid dövrü iqtisadiyyatımn böhranlı hadisələrinə daha az məruz qalmış regionların aşkarlanması: Moskva, Sankt-Peterburq, Tümen vilayəti, Saxa Respublikası (Yakutiya) və b. Bu zaman bu və ya digər regionu «motor» kateqoriyasına aid etmək olduqca çətindir, çünki müasir Rusiya region iqtisadiyyatında paralel olaraq olduqca müxtəlif istiqamətli konvergensiya (yaxınlaşma, birləşmə, qovuşma) və divergensiya (aynima, bölünmə) prosesləri gedir. Məsələn, Rusiya regionlarının əhalinin hər nəfərinə düşən ÜRM-in bölgüsünə görə aşkar görünən divergensiyası müşahidə olunur. Onun mahiyyəti mövcud uyğunlaşma asılılığın- dadır: əhalinin hər nəfərinə düşən ÜRM-in ilkin səviyyəsi nə qədər yüksək olsa, ÜRM-in düşməsi bir o qədər aşağı olar və deməli, həmin regionun canlandırılması şansı və onun bütün ölkə iqtisadiyyatma müsbət təsiri bir o qədər yüksək olar. Hesablamalar apanlarkən divergensiya əmsalı əsasən mənfi olur. Əgər bu göstərici müsbət olarsa, onda regionun konvergensiya proseslərindən söhbət gedir.

3. Həm milli, həm də regional idarəetmə metodlarını yaxşılaşdırmaq məqsədilə regionun iqtisadi vəziyyətinin

**Region siyasətinin monitorinqi sxem şəKİində şəKİl 30.4- dəKİ KİMi verilə bilər.**

**Bu zaman region diaqnostİKasının göstərilən hər bir elementi həm KonKret regionun xüsusiyyətləri, həm də onların ümumrusiya səviyyəsində müqayisə etməK imKanı nəzərə alınmaqla hazırlanmış və təsdiq edilmiş göstəricilər sisteminin KÖməKİiyi ilə qiymətləndirilir.**

**Bütün bunlar obyeKtiv olaraq öİKədə regional proseslərin vəziyyəti və gediş dinamİKasının dövlət monitorinqi və nəzarətdə saxlanılması sisteminin yaradılmasının zəruriliyini təsdiqləyir.**

**4. Hər bir KonKret regionun resurs potensialının man- simum tam və səmərəli innişafınm təmin edilməsi.**

**5. Müxtəlif regionların xarici investorlar üçün investisiya cəlbediciliyi. Bu da aşağıdanı şərtlərdən asılıdır:**

**■ müəyyən regionda xarici firmanın olmasına əhalinin münasibəti (ictimai rəy);**




**ŞəKİl 30.4. Regional siyasətin monitorinqi**

■ siyasi sabitlİK;
■ qoyulmuş vəsaitin mühafizəsinin etibarlılığı;
■ işçi qüvvəsinin ixtisas səviyyəsi və dəyəri;
■ biznez üçün lazım olan infraquruluşun inKİşaf səviyyəsi;
■ dövlət və yerli haKİmiyyət orqanlarının özlərinin investisiya siyasətinin olması və ardıcıl aparılması;
■ öİKədə və həmin regionda Kriminal vəziyyətin qarşısının alınması imnanları.

Bu şərtlərdən çoxu xarici və öİKə investorları tərəfindən olduqca əlverişsiz hesab edildiyindən, investisiya qərarları qəbul edildiKdə və müsbət investisiya mühiti yaradıldıqda Rusiyada investisiya fəaliyyətinin inKİşafının ən mühüm vasitələri fərqləndirilməlidirlər. Belə mühüm istiqamətlər bunlardır (bax: şəKİl 30.5):




**ŞəKil 30.5.** Regionnun investisiya cəlbediciliyini təşKİl edən amillər

Ərazinin investisiya vəziyyətini bütövlÜKdə İKİ göstərici İlə ifadə etməK olar:

a) investisiya dolğunluğu səviyyəsi baxımından

$V.$

və ya /d.i.

"

**Burada - ərazinin investisiya dolğunluğu indeksi;**
**Vi - «i» müddəti ərzində yığılmış investisiyaların həcmi;**
**Se - «ə» regionunun ərazisi;**
**I^d.i “ regionun dinamik inkişaf əmsalı;**
**Pə - regionunun əhalisinin sayıdır.**

**Ən investisiya dolğunluqlu regionlara > 1 olan bir qrup region: Moskva, Tümen vilayəti, Kemerovo vilayəti, Samara vilayəti, Krasnoyarsk diyan, Rostov vilayəti və b. aiddir.**

**Ən az dolğunluqlu regionlara ^ < 0,2 olan bir qrup region: Yəhudi MV, İnquşistan, Çukotka, Adıgey, Tuva və b. aiddirlər;**

**b) region iqtisadiyyatının cari investisiya vəziyyətinin monitorinqi baxımından bu, öyrənilən regionda ümumi investisiyaların və amortizasiya ayırmalarının həcminin nisbətinin təhlilidir.**

**Bu meyara görə üç əhəmiyyətli variantı fərqləndirmək olar:**

■ **əgər regionda ümumi investisiyalar amortizasiya fondundan çoxdursa, deməli, iqtisadiyyat iqtisadi artım mərhələsindədir;**

■ **əgər ümumi investisiyalar təqribən amortizasiya fonduna bərabərdirsə, deməli, iqtisadiyyat durğunluq vəziyyətindədir;**

■ **əgər ümumi investisiyalar amortizasiya fondundan azdırsa, onda iqtisadiyyatın tənəzzülü və kapitalın yeyilməsi prosesi baş verir. Bu halda iqtisadiyyat iqtisadi potensialı təkrar istehsal etmək qabiliyyətini itirir.**

**G.Regionların deteriorasiyasının qarşısının alınması, yəni ətraf mühitin keyfiyyətcə pisləşməsinin qarşısının alın-ması.**

**Regional ekoloji mühit aşağıdakı vəziyyətlərlə səciyyələndirilə bilər:**

■ ***tabii vəziyyət*** **- yəni insan fəaliyyəti ilə dəyişdirilməmiş;**

■ *tarazlı* - təbii mühitin elə vəziyyətidir ki, bu za-man bərpaetmə proseslərinin sürəti antropogen pozuntuların sürətindən ya yüksəkdir, ya da ona bərabərdir;

■ *böhranlı* - elə vəziyyətdir ki, bu zaman antropogen pozuntular təbii sistemin özünübərpa sürətindən yüksəkdir, lakin hələ onlarda əsaslı dəyişikliklər baş vermir;

■ *kritik* - elə vəziyyətdir ki, bu zaman mövcud ekoloji sistemin daha az məhsuldar sistemlə hələ ki, bərpası mümkün olan əvəzlənməsi baş verir;

■ *katastrofik* - elə vəziyyətdir ki, bu zaman azməhsuldar ekoloji sistemin düzəldilməsi çətin olan möhkəmlənmə prosesi gedir;

■ *kollaps vəziyyəti* - region ekoloji sisteminin bioloji məhsuldarlığının birdəfəlik itirilməsi.

Təəssüflə qeyd etmək lazımdır ki, müasir regional sistemlərin çoxu yuxarıda verilmiş quruluşa görə tarazlı vəziyyətdən aşağıdır.

7. Rusiyanın vahid iqtisadi məkanının yaradılması və möhkəmləndirilməsi, çünki bunsuz onun tərkibinə daxil olan ayrı-ayrı regionların inkişafı mümkün deyil. Region siyasətinin əsasında bütün Rusiya Federasiyası ərazisində, onun tərkibindəki regicsrüarda nəzərə alınmaqla, bazarın işləməsinin ümumi prinsipləri durmalıdır. Vahid iqtisadi məkanın formalaşmasının əsas prinsipləri bunlardır:

■ əmtəə, kapital və işçi kadrlarının regionlar arasında maneəsiz hərəkəti; insanların yaşayış yeri və əmək fəaliyyəti seçimində hələ də qalmaqda olan məhdudiyyətlərin aradan qaldırılması;

■ mövcud qanunvericiliyə dəqiq əməl etməklə Rusiya Federasiyasının istənilən bölgəsində və onun hüdudları xaricində yerləşən müəssisələr arasında iqtisadi, elmi-texniki və sair müqavilə münasibətlərinin azad formalaşması;

■ inhisarlaşmanın aradan qaldırılması, müxtəlif mülkiyyət formalarını təmsil edən istehsalçılar arasında sağlam rəqabət;

■əmtəə mübadiləsinin pul formasına naturalla müqayisədə daha çox üstünlük verilməsi;

■regionlararası iqtisadi əlaqələrdə ikitərəfli tarazlaşdırılma siyasətinin pislənməsi;

■bütün Rusiya ərazisində tranzit daşımaların azadlığının (regional gömrük sisteminin tətbiq edilməməsi) təmin edilməsi;

■əmtəələrə vahid vergiqoyma prinsipinin müəyyənləşdirilməsi.

Regional siyasətin aparılma növləri müxtəlifdir.

İqtisadi siyasət - iqtisadi disproporsiyaların aradan qaldırılmasına, «donor regionları» və <ıresipientlər» arasındakı ziddiyyətləri zəiflətməyə yönəldilmiş siyasətdir, çünki bütün bunlar son nəticədə federasiyanın dağılmasına səbəb ola bilər.

İqtisadi siyasətin quruluşu şəkil 30.6-dakı kimi verilə bilər.

Təqdim olunan sxem yalnız Rusiya iqtisadiyyatina xas deyil. Belə praktika dünya ölkələrinin çoxunda yayılıb. Belə ki, ABŞ-da planlı şəkildə kasıb ştatlann və ərazilərİRj^lirlə- rinin artırılması siyasəti aparılır. tqtiSldi caJıJWİH ffifİHlalmış regionlarda yerli orqanlara investisi^ara Xtgfgt~tgtC^ayim əlavələr ödənilməsi yolu ilə istehsala- yeittdəB tə^öÜinə və modernləşdirilməsinə kapital qoyulaşlan' stimullajdırılır, elektrik enerjisi və suya güzəştlə tariflər qoyülur-, aşağı faizlə borc, uzunmüddətli borc və s. verilir.

Almaniyada 179 regiondan 74-nün iqtisadi köməyə ehtiyacı var. Dotasiya prinsipi torpaqların büdcə gəlirinin bir qisminin yerli büdcələrə maddi yardım fonduna ayrılmasına əsaslanır. Yüksək gəlirli torpaqlar (Bavariya, Hessen, Vürtemberq) maliyyə vəsaitlərinin bir qismini daha az inkişaf etmişlərə (əsasən sabiq ADR ərazisində olan - Saksoniya, Şlezviq-Gelşteyn) verirlər. Bu kömək də əsasən ünvanlı şəkildə polisin, iqtisadi və sosial infraquruluşların və s. saxlanılmasına yönəldilir.

**Fransada zəif regionların dəstəKlənməsi həm birbaşa, həm də dolayısıyla maliyyələşdirmə şəKİində aparılır. Məsələn, birbaşa KÖməK regionda məşğulluğun artmasına görə mÜKafatlar, müəssisələrin yeni avadanlıq və digər istehsal vasitələrinə xərclərinə subsidiyalar şəKİində göstərilir. Güzəştli şərtlərlə verilən və əsasən mənzil tİKİntisinə və ictimai işlərə yönəldilən borclar və avanslar da buna aiddir.**




**ŞəKil 30.6. Zəif regionların dəstəKİənməsinin iqtisadi metodları**

**Dolayısıyla olan tədbirlərə bina və torpaq sahələrinin satılması və ya kirayəyə verilməsi zamanı qiymətdə güzəştlər, müəssisənin fəaliyyətində iştiraka görə mükafat fondlarının yaradılması, infraquruluşun yaradılması və s. daxildir.**

**Böyük Britaniyada köhnəlmiş infraquruluşlu «depressiv rayonlarıda iqtisadi fəaliyyət təqdir olunur ki, belə rayonlar ölkə ərazisinin yarısından çoxunu təşkil edir və onlarda ölkə əhalisinin dörddə biri yaşayır. Bu kimi regionlarda həm mərkəzi hökumətin güzəşt və həvəsləndirmələri, həm də yerli güzəştlər (sənaye və kommersiya mülkiyyətinin yerli vergilərdən 10 il müddətinə azad edilməsi) tətbiq olunur.**

**Şimali İrlandiyada bütün sənaye obyektləri yerli vergilərdən tamamilə azaddır. Yerli büdcələrin gəlir hissəsinin formalaşması əsasən milli hökumətin borclar fondu tərəfindən verilən güzəştli faizlə kredit hesabına gedir. Yerli orqanların özləri də öz istiqrazlarını buraxmaq yolu ilə kreditləmə mexanizmindən geniş istifadə edirlər.**

**Sosial siyasət - insan həyatının təşkilinin bütün forma və proseslərinə təsir edən və ictimai İstehsalın: əmək, məişət şəraiti, istirahət və ümumiyyətlə insan şəxsiyyətinin inkişafı - aparılması siyasətidir. İqtisadi ədəbiyyatda sosial siyasətin nətlcəli olmasını get-gedə daha çox bu və ya digər ölkədə həyatın keyfiyyəti ilə əlaqələndirirlər.**

**Həyat keyfiyyəti dedikdə çox vaxt insanın mövcud olma şəraiti: maddi nemətlərlə təmin olunma (qida, paltar, yaşayış yeri), təhlükəsizlik, tibbi köməyin əlyetərliyi, təhsil alma və qabiliyyətlərini inkişaf etdirmə imkanları, təbii mühitin vəziyyəti, fikrini azad ifadə etmək və vətəndaşların siyasi qərarlara təsiri də daxil olmaqla cəmiyyətdəki sosial münasibətlər başa düşülür. Lakin bu tərif bilavasitə sosial siyasətin fəaliyyət dairəsindən xeyli genişdir.**

**Demoqrafik siyasət. Bu siyasət bilavasitə sosial siyasətə daxil olur, lakin eyni zamanda Öz davranışının spesifikliyinə görə müstəqil mövcudluq hüququna malikdir. Bu siyasət çoxmillətli ölkələrdə (məsələn, Rusiya kimi) kəskin yönümlü**

**səciyyə daşıya bilir, yəni bəzi regionlarda o, doğuşun məhdudlaşdırılması siyasətilə, bəzilərində isə təbii artımın stimullaşdırılması ilə bağlı olacaq.**

**Amma XX əsrin 80-ci illərindən depopulyasiya prosesləri və irimiqyaslı bazar islahatlarının aparılması Rusiyanın 11 iqtisadi rayonunun hamısında əhali sayının (paralel gedən doğumun azalması və ölüm hallarının artması prosesləri ilə birgə) sinxronlaşdırılmış azalmasına səbəb oldu. Əhali artımı yalnız Dağıstanda, Krasnoyarsk və Stavropol diyarlarında (az məşğulluq və qeyri-sabit iqtisadi şəraitdə) müşahidə olunur. Eyni zamanda Rusiyada orta həyat müddəti inkişaf etmiş ölkələrdəkindən 10 il azdır, özü də bü vəziyyət get-gedə daha da ağırlaşır.**

**Bununla əlaqədar oldaraq ölkədə və regionlarda iqtisadi artımı stimullaşdıran bütün tədbirlərdə gələcəyin imkanlarına mənfi təsir edə biləcək neqativ demoqrafik meyllərin dəyişdirilməsi nəzərdə tutulmalıdır.**

**Ekistik (məskunlaşma) siyasəti - bu, istehsalın, kommunikasiyaların, yaşayış məntəqələrinin regionun ərazisində olan bütün inkişaf imkanlarmdan istifadə etməklə optimal yerləşdirilməsi üçün həmin ərazidən səmərəli istifadə siyasətidir. Ekistik siyasətin aparılmasında optimallığın pozulmasındakı səhvlər nəticəsində Rusiyanın şimalında eyni iqlim zonasında olan ölkələrə nisbətən əhali artıqlığı var. Belə ki, Rusiyanın şimalım inamla 10 mln.kv.km hesab etmək olar (ölkə ərazisinin 65%), burada 11 mln. nəf ər yaşayır. Müqayisə edək: Alyaska və Şimali Kanadanın ərazisi 9 mln.kv. kmdir, burada cəmisi 1 mln. adam yaşayır^ Belə fərq əhalinin yerləşdirilməsində, istehsal və sosial infraquruluşlar obyektlərinin saxlanılması xərclərində kəskin fərqlər yaradır, region şəhərsalma siyasətinə təsir edir. Bununla belə Rusiya ərazisində məskunlaşma siyasətinin aparılmasında istehsalın yerləşdirilməsinin aliliyi qalmaqdadır, buna görə də bundan sonrakı məskunlaşdırma prosesləri də bu baxımdan nəzərdən keçirilməlidir.**

**' AapoflHq Ə.A.KoHiıeıniHfl ycTOÖ'iHBoro paasHTwa copayMa. M., 1996. C.107.**

**Ekoloji siyasət ~ deteriorasiyanın, yəni insanın təsərrüfat fəaliyyəti nəticəsində ətraf mühitin keyfiyyətinin pisləşməsinin qarşısının alınmasına və dövlətlərin və regionların müxtəlif imkanlarından istifadə etməklə öz ərazilərində reabilitasiya proseslərinə təsir edilməsinə yönəldilmiş siyasətdir. Ekoloji siyasətin aparılması metodları və genişliyi bilavasitə iki amildən asılıdır:**

**■ həmin regionun zərərçəkmə səviyyəsindən;**

**■ təbii şəraitin bərpasına cəlb olunmuş maliyyə vəsaitlərinin həcmindən.**

**Elmi-texniki siyasət - ETTKİ (elmi tədqiqat-təcrübi konstruktor işləri) qarşılıqlı əlaqələrinin yerləşdirilməsi, yerdən-yerə dəyişdirilməsi, bir də onun inkişafı ilə bağlı bütün şərtləri tənzimləyən siyasətdir. Bazar islahatları şəraitində region elmi-texniki siyasətinin hazırlanmasında ən əsas federal və region maliyyələşdirilməsi hesab olunmalıdır. Xırda biznes əsasən yalnız tətbiqi tədqiqatlara istiqamətlənmiş ETTKİ-yə nəzərdə tutulmuş maliyyə resurslarının artırılmasının əlavə mənbəyi ola bilər. Fundamental tədqiqatlara müvafiq dövlət dəstəyi olmasa, sahə elmi-tədqiqat təşkilatlarının çoxu fəaliyyətini dayandırar.**

**Region səpkisində elmi-texniki siyasət daha çox texno-polislər və texnoparkların yaradılması ilə bağlıdır. Buna ən bariz misal ABŞ və Yaponiyanın region siyasəti ola bilər. Lakin müasir Rusiyada belə iqtisadi zonaların yaradılması olduqca çətindir, çünki dünya bazarında rəqabətli məhsulun işlənib hazırlanması və istehsalı maksimum maliyyələşdirməklə güclü təcrübi-konstruktor bazasının, sınaq nümunələrinin istehsalı üçün tətbiq müəssisələrinin, geniş çeşidli azseriyalı müəssisələrin və ən əsası, dünya bazarında bərabərhüquqlu tərəfdaşlığın olması lazımdır.**

**3. Region siyasətinin alətləri dövlətin region siyasətini tənzimləməsi alətləri ilə sıx bağlıdır (bax cədvələ).**

**Dövlətin iqtisadiyyata təsiri mexanizmi vasitəsilə region siyasəti alətləri**

| Dövlət tənzimləmə aləti | Alətin region səviyyəsində özünü göstərməsi |
|---|---|
| I. Dolayı yolla təsir | Yerli hakimiyyət orqanlarına dövlətin həm konkret məqsədlər üçün, həm də yerli hakimiyyət orqanlarının sərbəst xərcləməsi üçün nəzərdə tutulmuş subsidiyaları. |
| 1. Fiskal siyasət A. Dövlət xərcləri | Həmin regionun infraquruluşuna region dövlət investisiyaları. Bələdiyyə və digər yerli orqanların analoji infraquruluş məqsədlərinə subsidiyalar və kreditlər. |
| B. Dövlət gəlirləri | Müxtəlif dövlətlərarası təşkilatların subsidiyaları və kreditləri. Regionun problemlərində fəallıqlarını artırmaq üçün xüsusi kompaniyalara subsidiyalar və kreditlər. «Çətin vəziyyətdə olan» müəssisə və təşkilatlara region-ünvanlı subsidiyalar və kreditlər. |
| 2. Sosial siyasət və gəlir səviyyəsinin tənzimlənməsi siyasəti | Vergi siyasəti (o cümlədən müxtəlif güzəştlər və ya üstünlükverimli inkişaf regionlarında istehsalın yerləşdi- rilməsini stimullaşdırmaq məqsədilə müxtəlif vergi növlərindən tam azad etmə. Əhalisi artıq olan və |
| 3. Qanunvericilik tənzimləməsi | istehsalı hədsiz sıx olan rayonlara investisiya qoyuluşuna görə vergi güzəştləri sistemindən çıxarılma və s.). |

| | |
|---|---|
| **4. Monetar tənzimləm** | **Region üçün diferensiasiya edilmiş məşğulluq, peşə hazırlığı, mənzil tikintisi, ətraf mühitin mühafizə və s. proqramlar.**<br>**Əhalinin və istehsalın mobilliyini stimullaşdıran tədbirlər (miqrasiya subsidiyaları və ya köçənlər və ya yerləşdirilən müəssisələr üçün mükafatlar).** |
| **5.Xarici iqtisadi tənzimləmə** | **Əsas vəsaitlərin amortizasiya müddətinin qanunvericiliklə tənzimlənməsi, daha tez amortizasiya etmə hüququnun verilməsi. Xüsusi firmaların məhsul və xidmətlərinə dövlət sifarişi.**<br>**Ayrı-ayrı resurs növlərinin istehlakınm (məsələn, tikinti materialları) normalaşdırıiraası, rasionallaşdınlması.** |
| **II. Bilavasitə müdaxilə**<br>**1 .Qanunvericilik tənzimləməsi** | **Torpaqdan istifadə, ətraf mühitin mühafizəsi və başqa sahələrdə hüquq normaları.**<br>**Monetar siyasət vasitəsilə dolayısı ilə baş verir və aşağıdakı konkret istiqamətlərdə təzahür edə bilir: ölkədə pul kütləsinin səviyyəsinin tənzimlənməsi;**<br>**Mərkəzi bankda kommersiya banklarının mütləq ehtiyatları dərəcələrinin tənzimlənməsi;** |
| **2. Regiondakı mülkiyyət formalarına təsir vasitəsilə** | **banklararası kredit dərəcələrinin tənzimlənməsi;**<br>**Dövlət qiymətli kağız bazarına təsir.** |

| |
|---|
| **Olkə məhsulunun müdafiə edilməsi üçün himayədarlıq tədbirləri və ya xarici iqtisadi münasibətlərdə açıqlığın tətbiqi dolayısı ilə ölkənin bütün regionlarına təsir edirlər. Bu alət a) sərhəd regionlarının və ya b) daxili regionlar üçün aparılan iqtisadi siyasətə xüsusilə fərqli xüsusiyyətlər gətirir, istehsalat obyektləri və inzibati binaların tikintisinin icazələr, qadağalar, lisenziyalar, sertifikatlar və başqa bilavasitə nəzarət vasitələri.<br>Problemli rayonların təchiz edilməsinə dövlətin məcburi müqavilələri.<br>Yeni dövlət (və ya dövlət nəzarətində olan) müəssisələrin problemli regionlarda yerləşdirilməsi və ya mövcud firmaların həmin regionlara köçürülməsi. Dövlət müəssisələrinin özəlləşdirilməsi, xüsusi firmaların səhmlərinin alınması, həmçinin regionun iqtisadi inkişafında dövlət və özəl sektorların nisbətinin dəyişdirilməsinin digər formaları.** |

**Beləliklə, region siyasəti həm hökumət, həm də dövlət subyektləri (regionlar) tərəfindən aparılmalıdır. Rusiyada yaranmış qeyri-sabit iqtisadi vəziyyət, regionların inkişafındakı kəskin fərqlər və nəhəng ərazi şəraitində müasir federativ qurum növü unitar quruluş şəklində, yəni regionların dövlət tənzimlənməsində mərkəzin aşkar ifadə olunan rolu şəklində daha məqsədyönlü görünür.**

## *§4. Bazar münasibətlərinin fəaliyyətində regionun xüsusiyyətləri*

**Region iqtisadiyyatı — sosial-iqtisadi inkişafın region xüsusiyyətlərini Öyrənən elmi biliklər sahəsidir.**

**Region iqtisadiyyatının fəaliyyətdə olma məqsədi əhalinin həyat fəaliyyəti üçün sivil sosial-iqtisadi şəraitin yaradılmasıdır. İqtisadiyyatın səmərəliliyinin meyarı kimi əhalinin sayının artması çıxış edir: əgər müəyyən dövr ərzində bu və ya digər regionun əhalisinin sayı artırsa, deməli onun iqtisadiyyatı səmərəli inkişaf edir və azalırsa, əksinə.**

**Region iqtisadiyyatının zəminində əsas prinsiplər durmalıdır.**

**Varislik prinsipi. Federasiyanın hər bir subyekti vahid dövlətin bir hissəsini təşkil edir. Deməli, əgər region iqtisadiyyatının oyun qaydaları milli iqtisadiyyatın oyun qaydalarına müvafiqdirsə, əgər qüvvədə olan region qanunları ilə mərkəzi hökumətin qanunları arasında varislik varsa, əgər RF-nın bu regionunun maraqları bütövlükdə dövlətin maraqlarına zidd deyildirlərsə, region iqtisadiyyatı sabit inkişaf edəcək.**

**Uyğunlaşma prinsipi. Region iqtisadiyyatı yerli xüsusiyyətləri nəzərə almalı və regionun başqalarından fərqli olan təbii-iqlim və sair şəraitlərinə uyğunlaşmaq qabiliyyətinə malik olmalıdır. Məhz yerli şəraitə uyğunlaşa bilmək imkanı region iqtisadiyyatını səmərəli edir. Mərkəz tərəfindən regionun xüsusiyyətləri nəzərə alınmadan hazırlanmış iqtisadi model işləmir, çünki kifayət qədər yüksək uyğunlaşma qabiliyyətinə malik olmur.**

**Güzəşt prinsipi. Region iqtisadiyyatı yerli maraqları maksimum nəzərə almalı və onları fəal surətdə həyata keçirməlidir. Amma hərdən milli maraqlarla yerli maraqlar ara- smda ziddiyyət yaranır. Belə hallarda kifayət qədər çevikliyə və güzəştli qərar qəbul etmək imkanına malik olmaq lazımdır.**

**Səmərəlilik prinsipi. Region iqtisadiyyatı da daxil olmaqla, istənilən iqtisadiyyat səmərəliliyə can atmalıdır. Çox vaxt obyektiv səbəblərdən region dotasiya verilən olur. Belə hallarda region iqtisadiyyatı mexanizmi elə istiqamətləndirilməlidir ki, dotasiyanın həcmi nəinki artmasın, hətta, əksinə, azalsın və ərazinin Öz xərcini ödəməsini təmin etsin.**

**Region iqtisadiyyatı çoxfunksiyalılı^a malikdir (bax şəkü 30.7). Region iqtisadiyyatımn uğurla inkişaf etməsi endo- və ekzogen amillərdən asılıdır: qanunlardan, oyun qaydalarından, müəyyən davranış kodekslərindən, münasibət və əlaqə tiplərindən, mərkəzi hökumətin hazırladığı digər institutlardan, istehsal şərtlərindən, iqtisadi inteqrasiyanın inkişaf səviyyəsindən və s. Amma bu zaman regionun xüsusiyyətlərinin nəzərə alınması ən mühüm əhəmiyyət kəsb edir.**

**Region xüsusiyyətlərinin təxmini qrupları şəkil 30.7-də verilmişdir.**




**Şəkil 30.7. Region xüsusiyyətlərinin təxmini qrupları**

**Region iqtisadiyyatını idarə etmək üçün federasiyanın hər bir subyektinin Özünün müəyyən dövr üçün sosial-iqtisadi inkişaf konsepsiyası olmalıdır (bax şəkil 30.8).**

**Bu və ya digər regionun inkişaf konsepsiyası iqtisadiyyatın bütün sahələrinin uzunmüddətli fəaliyyətinin konstruktiv istiqamətlərinin müəyyənləşdirilməsi yolu ilə həmin ərazinin kompleks inkişafına yönəldilmiş elmi cəhətdən əsaslandırılmış bütöv bir baxışlar sistemidir.**

**Birincisi, konsepsiya dövlətin iqtisadi siyasətinə əsas-**




**Şəkil 30.8. Rusiya Federasiyası subyektinin sosial-iqtisadi inkişaf konsepsiyası**

**lanmalı, yalnız regionun deyil, hər şeydən əwəl, ölkənin milli maraqlarına cavab verməli və iqtisadi təhlükəsizliyi qorumalıdır. İkincisi, o, ərazinin təbii-iqlim, coğrafi, ekoloji, demoqrafik və başqa xüsusiyyətlərini maksimum nəzərə almalıdır ki, onlardan daha səmərəli istifadə edə bilsin. Üçüncüsü, o, nəzərə almalıdır ki, iqtisadi eksperimentin və ya təsərrüfat islahatlarının aparılması, ələlxüsus bir iqtisadi modeldən digərinə keçid müəyyən vaxt tələb edir. Bu işdə tədricilik heç də həmişə müsbət nəticə vermir, deməli, iqtisadi konsepsiya uzunmüddətli olmalıdır. Dördüncüsü, iqtisadi konsepsiya elmi mücərrədçilik ola bilməz. O, regionun, onun əhalisinin iştirakı ilə və onların rifahının yüksəldilməsi məqsədilə, bütün sahələrinin konstruktiv fəaliyyət istiqamətlərinin praktik həyata keçirilməsinə yönəldilməlidir.**

**Başqa sözlə, regionun sosial-iqtisadi inkişaf proqramı konstruktiv və əlyetər olmalı və üç fundamental suala cavab**

**verməlidir: o kimə və nəyə lazımdır, nəzərdə tutulanları necə yerinə yetirməli, bunun üçün nə və nə qədər lazımdır?**

**Rusiyada federalizmin inkişafı şəraitində regionlar ölkənin gücünü və çiçəklənməsini təmin edə bilərlər. Region iqtisadiyyatının rolu bundan aydın görünür.**

# ƏLAVƏ 1

## NOBEL MÜKAFATI LAUREATI-İQTİSADÇI ALİMLƏR

**Nobel Aİfred (1833-1896) - İsveç kimyaçısı-sınaqçısı, sənayeçisi və praktik iqtisadçısı, bütün əmlakını satıb əldə olunmuş vəsaitə öz adına fond yaratmağı vəsiyyət etmişdi. 1990-cı ilin əvvəlinə fondun kapitalı 2 mlrd, krona və ya təxminən 330 mln.ABŞ dollarına yaxın olmuşdu.**

**1969-cu ildən İsveç bankının təşəbbüsü ilə İsveç Kral Elmlər Akademiyası hər il ən görkəmli iqtisadçı alimlərə iqtisadiyyat üzrə ən yaxşı tədqiqatlara və onların praktik tətbiqinə görə Aİfred Nobel adına mükafat verir.**

### 1969-2001-ci illərdə iqtisadiyyat üzrə Nobel mükafatı laureatları haqqında qısa məlumat

**1969. Friş Raqnar (Norveç). (1885-1973). Oslo Universitetini «iqtisadiyyata ixtisası üzrə bitirmişdir. İqtisad elminin metodologiyasının inkişafında, istehsal və mikroiqtisadiyyat nəzəriyyəsinin, tələbin təhlilinin hazırlanması sahəsində xüsusi xidmətləri olmuşdur. Yeni elmin - ekonometrikanın yaradıcısıdır.**

**Mükafat «dinamik modellərin hazırlanması və tətbiqinə və iqtisadi proseslərin təhlilinə görə» verilmişdir.**

**1970. Samuelson Pol (ABŞ). (D.1915). Çikaqo Universitetini və Harvard ali məktəbini bitirmişdir. P.Samuelsonun maraq dairəsinə praktik olaraq iqtisadi nəzəriyyənin bütün sahələri: istehlak və sərvət nəzəriyyəsi; kapital nəzəriyyəsi; iqtisadi dinamika və ümumi tarazlıq; beynəlxalq ticarət; iqtisadi təhlil; maliyyə və s. daxildir. Onun «İqtisadiyyat: təhlilə giriş» əsəri 1948-1996-cı illər ərzində 15 dəfə təkrar nəşr olunmuşdur. Onun elmi karyerası yarım əsrdən artıqdır**

**ki, Massaçusets Texnoloji İnstitutu ilə (ABŞ) bağlıdır. ABŞ prezidenti Con Kennedinin müşaviri olmuşdur.**

**MükEifat «statik və dinamik iqtisadi nəzəriyyəni inkişaf etdirən elmi işinə və iqtisad elmləri sahəsində təhlilin səviyyəsinin yüksəldilməsindəki xidmətlərinə gÖrə» verilmişdir.**

**1971. Kuznets Saymon (Simon) (ABŞ) (1901-1985). Harvard Universiteti (Massaçusets ştatı).**

**Mükafat «iqtisadi və sosial quruluşa və inkişaf prosesinə yeni daha dərin nüfuz etməyə aparan iqtisadi artımın empirik tapılmış şərhinə görə» verilmişdir.**

**1972. Errou Kennet Cozef (ABŞ), (D. 1921). Ekonometrika, ümumi iqtisadi tarazlıq nəzəriyyəsi, iqtisadi rifah nəzəriyyəsi, idarəetmə nəzəriyyəsi sahəsində tədqiqatçıdır. Nyu-Yorkda, Siti-kollecdə oxumuş, 1940-cı ildə oranı sosial elmlər üzrə bitirmiş, riyaziyyatın ümumi məsələləri üzrə ixtisaslaşmışdı. 1949-cu ildən Stenford Universitetində assistent-professordur.**

**Hiks Sap Con Riçard (Böyük Britaniya). (1904-1989). Oksford Universitetinin All Souls Kolleci.**

**Mükafat «ümumi tarazlıq nəzəriyyəsini və rifah nə-zəriyyəsini tədqiqatçı kimi zənginləşdirdiklərinə görə» ve-rilmişdir.**

**1973. Leontyev Yasili (ABŞ). (1906-1999). 1925-ci ildə Leninqrad Universitetini bitirdikdən sonra Berlində təhsil almışdı (1925-1928). 1931-ci ildə ABŞ-a mühacirət etmiş və Harvard Universitetində dərs deməyə başlamış, 1948-ci ildən ictimai məhsulun iqtisadi tədqiqi xidmətinin direktoru olmuşdu.**

**Mükafat «məsrəflər-nəticə» iqtisadi təhlil metodunu işləyib hazırladığına görə verilmişdir. Bu metod kapitalist iqtisadiyyatı sahələrində ictimai məhsulun digərləri ilə konkret əvəzlənməsi proseslərinin tədqiqinə yönümlənib.**

**1974. Mürdal Hunnar Kari (İsveç). (1898-1987).**

**Xayek Fridrix Avqust fon (Böyük Britaniya). (1899-**

**Mükafat «pul nəzəriyyəsi və iqtisadi punktuasiyalar üzrə ilkin işə və iqtisadi, sosial və institusional hadisələrin müstəqilliyinin təhlilinə görə» verilmişdir,**

**1975. Kantoroviç Leonid Vitalyeviç (SSRİ). (1912- 1986). SSRİ EA, Moskva.28.03.1958-ci ildən SSRİ EA-nın Sibir bölməsi (iqtisadiyyat və statistika) üzrə müxbir üzvü, 26.06.1964-cü ildən SSRİ EA-nın riyaziyyat şöbəsi üzrə (riaziyyat, iqtisadiyyat) akademiki.**

**Kupmans Tyallinq Çariz (ABŞ). (1910-1985). Nyu-Havendəki İel Universiteti.**

**Mükafat «resursların optimal yerləşdirilməsi nəzəriyyəsini zənginləşdirdiyinə görə» verilmişdir.**

**1976. Fridmen Milton Devid (ABŞ). (D. 1912) Çikaqo Universiteti (lllinoys ştatı).**

**Mükafat «istehlakın təhlili, pul tarixi və nəzəriyyəsi sahəsində nailiyyətlərinə və sabitləşdirmə siyasətinin çətinliyini göstərməsinə görə» verilmişdir.**

**1977. Ulin Bertil (İsveç). (1899-1979). Stokholm iqtisad məktəbi.**

**Mid Ceyms Eduard (Böyük Britaniya). (1907-1995). Kembric Universiteti.**

**Mükafat ^beynəlxalq ticarət və kapitalın beynəlxalq nailiyyətləri nəzəriyyəsini təfərrüatları ilə zənginləşdirdiklərinə görə» verilmişdir.**

**1978. Saymon Herbert A. (ABŞ). (D. 1916). Pitsburqdakı Karneqi-Mellon Universiteti (Pensilvaniya ştatı).**

**Mükafat «iqtisadi təşkilatlar hüdudlarında qərarın qəbul edilməsi prosesləri üzrə ilk tədqiqatlara görə » verilmişdir.**

**1979. Şults Teodor Uilyam (ABŞ). (D. 1902). Çikaqo Universiteti (lllinoys ştatı).**

**Lüis Ser Artur Uilyam (ABŞ) (1915-1991). Priston Universiteti (Nyu-Cersi ştatı).**

**Mükafat «inkişaf etməkdə olan ölkələrin problemlərinin qismən təsviri ilə iqtisadi inkişafın ilk tədqiqinə görə» verilmişdir.**

**1980. Kleyn Lorens Robert (ABŞ). (D. 1920). Filadelfiyadakı Pensilvaniya Universiteti (Pensilvaniya ştatı).**

**Mükafat «iqtisadi modellərin yaradılmasına və onların iqtisadi flüktuasiyası və iqtisadi siyasətin təhlilinə tətbiqinə görə» verilmişdir.**

**1981. Tobin Ceyms (ABŞ). (D. 1918). Nyu-Havendəki lel Universiteti (Konnektikut ştatı).**

**Mükafat «təsərrüfat sövdələşmələri və onların istehlak, istehsalın məşğulluğu və qiymətlərlə əlaqələrinin təhlilinə görə» verilmişdir.**

**1982. Stiqler Corc C. (ABŞ). (1911-1991). Çikaqo Universiteti (tllinoys ştatı).**

**Mükafat «sənaye quruluşlarının, bazarın fəaliyyət göstərilməsinin və dövlət tənzimləməsinin səbəb və nəticələrinin məhsuldar tədqiqinə gÖrə» verilmişdir,**

**1983. Debre Cerard (ABŞ). (D. 1921). Berklidəki Kaliforniya Universiteti (Kaliforniya ştatı).**

**Mükafat «iqtisadi nəzəriyyədə yeni birləşmiş analitik metodlar yaratdığına və ümumi tarazlıq nəzəriyyəsini ciddi təkmilləşdirməyə görə» verilmişdir.**

**1984. Stoun Ser Riçard (Böyük Britaniya) (D. 1913). Kembric Universiteti.**

**Mükafat «milli hesablama sistemlərinin inkişafında fundamental xidmətlərinə və bununla da empirik iqtisadi təhlilin əsaslarını xeyli təkmilləşdirdiyinə görə» verilmişdir.**

**1985. Modilyani Franko (ABŞ). (D. 1918). Kembricdəki Massaçusets Texnoloji İnstitutu (Massaçusets ştatı).**

**Mükafat * ticarətin qənaətlə yığımının və maliyyəsinin təhlilində yenilikçiliyə görə» verilmişdir,**

**1986. Byükenen Cejrms Mak-PİIl (ABŞ). (D, 1919). Fayrfaksdakı İctimai seçimin öyrənilməsi Mərkəzi (Virciniya ştatı).**

**Mükafat «iqtisadi və siyasi qərarların qəbul edilməsi nəzəriyyəsinin müqavilə və konstitusiya əsaslarının inkişaf etdirilməsinə görə» verilmişdir.**

**1987. Solou Robert Merton (ABŞ). (D. 1924). Kembricdəki Massaçusets Texnoloji İnstitutu (Massaçusets ştatı).**

**Mükafat «iqtisadi artım nəzəriyyəsindəki xidmətlərinə görə» verilmişdir.**

**1988. Alle Moris (ABŞ). (D. 1911). Parisdəki Milli elmi tədqiqatlar Mərkəzi.**

**Mükafat «marketinq və resursların səmərəli istifadə edilməsi nəzəriyyəsində dəyərli xidmətlərinə görə » verilmişdir.**

**1989. Haavelmo Trüqve (Norveç). (D. 1911). Oslo Universiteti.**

**Mükafat ^ekonometriyada ehtimal nəzəriyyəsinin əsaslarının izahına və eyni vaxtlı iqtisadi quruluşların təhlilinə görə» verilmişdir.**

**1990. Markovits Harri M. (ABŞ). (D.1927). Nyu-York Universiteti (Nyu-York ştatı).**

**Miller Merton (ABŞ). (D. 1923). Çikaqo Universiteti (lllinoys ştatı).**

**Şarp Uilyam F. (ABŞ). (D. 1934). Stenford Universiteti (Kaliforniya ştatı).**

**Mükafat «maliyyə iqtisadiyyatı nəzəriyyəsi üzrə yeni- likçi işə görə» verilmişdir.**

**1991. Kouz Ronald Q. (ABŞ). (1910-cu ildə Böyük Britaniyada doğulub. Çikaqo Universiteti (lllinoys ştatı).**

**Mükafat «institusional quruluşlar və fəaliyyətdə olan iqtisadiyyat üçün transaksion xərclər və mülkiyyət hüququnun aşkar edilməsi və mənasının izah edilməsinə görə» verilmişdir.**

**1992. Bekker Hari S. (ABŞ). (D. 1930). Çikaqo Uniyersiteti (lllinoys ştatı).**

**Mükafat omikroiqtisadi təhlil sahəsinin insanların qeyri-bazar münasibətləri də daxil olmaqla daha geniş davranış və qarşılıqlı əlaqə sahəsinə şamil edilməsinə *görə** verilmişdir.**

**1993. Fogel Robert. (ABŞ). (D. 1926). Çikaqo Universiteti (lllinoys ştatı).**

**Nort Duqlas K. (ABŞ). (1920). Sent-Lüisdəki Vaşinqton Universiteti.**

**Mükafat «iqtisadi və institusional dəyişikliklərin təsvirini vermək üçün iqtisadi nəzəriyyəni və kəmiyyət metodlarını tətbiq edərək iqtisadi tarixlərin bərpa edilməsinə görə» verilmişdir.**

**1994. Harkşani Con K. (ABŞ). (D. 1920). Berklidəki Kaliforniya Universiteti (Kaliforniya ştatı).**

**Selton Reynhard (D. 1930).**

**Mükafat «qeyri-kooperativ oyunlar nəzəriyyəsində tarazlığın yenilikçi təhlilinə görə» verilmişdir.**

**1995. Lukas Robert kiçik (ABŞ). (D. 1937). Çikaqo Universiteti.**

**Mükafat «makroiqtisadi təhlillərin dəyişməsinə və iqtisadi siyasətin daha dərindən dərkinə səbəb olmuş rasional gözləmələr fərziyyəsinin hazırlanmasına və tətbiqinə görə» verilmişdir.**

**1996. Mirrlis Ce30us A. (Böyük Britaniya), Kembric Universiteti.**

**Mükafat «asimmetrik informasiyanın alınmasında iqtisadi stimullar nəzəriyyəsini əsaslı zənginləşdirdiyinə gÖrə» verilmişdir.**

**1997. Robert Merton (ABŞ). Harvard Universiteti.**

**Mayron Şoulz (ABŞ). Stenford Universiteti.**

**Mükafat «səhmlər hərracında qiymətin müəyyənləşdi* rilməsinin tamamilə yeni metodunu hazırladıqlarına görə » verilmişdir,**

**1998. Amartiya Sen. Hind iqtisadçısı.**

**Alfred Nobelin xatirəsinə olan 1998-ci il üçün iqtisadiyyat üzrə mükafatı «rifah iqtisadiyyatım zənginləşdirdiyinə görə» almışdır. Aclıq və yoxsulluğun əsasında duran iqtisadi mexanizmi izah etmişdi.**

**1999. Robert Mandell (ABŞ). (D. 1930). Kolumbiya Universiteti, Mükafat açıq iqtisadiyyatlı ölkələrdə pul və fiskal siyasət sahəsində tədqiqatlarına görə verilmişdir.**

**2000. Ceyms Hekman (ABŞ). Çikaqo Universiteti. Daniel Mak-Fadden (ABŞ). Kaliforniyada Universitet, Berkli.**

**Mükafat «müxtəlif şəraitlərin insanın iqtisadi ümidlərinə təsirinin statistik təhlilinin nəzəriyyəsi və metodlarını inkişaf etdirməyə görə» verilmişdir.**

**2001. Corc A.Aksrlof (ABŞ). Kaliforniya Universiteti.**

**Maykl Spens (ABŞ). Stenford Universiteti.**

**Cozef Stiqlits (ABŞ). Kolumbiya Universiteti.**

**Mükafat ^asimmetrik informasiyalı bazarın tədqiqinə görəi» verilmişdir.**

**2002. Kaneman Daniel (D. 1934). Briston Universiteti.**

**Vernon Smit (Corc Meyson Universiteti).**

**Mükafat «qərarlarm qəbul edilməsi psixologiyası və alternativ bazar mexanizmləri sahəsində tədqiqatlarına görə» verilmişdir.**

# ƏLAVƏ 2

## SOZLUK

**Açıq qiymətli kağızlar bazarında əməliyyatlar** - mərkəzi dövlət bankının tədavüldə olan pulun miqdarını artırmaq (azaltmaq) məqsədilə qiymətli kağızları alması (satması).

**Açıq iqtisadiyyat** - milli iqtisadiyyatın dünya təsərrüfat əlaqələrində, beynəlxalq əmək bölgüsündə maksimum iştiraka yönümlənməsi.

**Aqrar siyasət** - həm kənd təsərrüfatı qiymətlərinə və fermer gəlirlərinə maddi yardım etmək yolu ilə aqrar bölmə nümayəndələrinin iqtisadi maraqlarının müdafiəsinə, həm də fermaların birləşdirilməsi və mexanikləşdirilməsini təqdir edilməsi yolu ilə kənd təsərrüfatının səmərəliliyinin artırılmasına yönəldilmiş siyasətdir.

**Allokasiya** - nemətlərin fərdlər və ya istehsal amillərinin sahələri arasında müəyyən bölgüsü.

**Allokativ səmərəlilik** - məhdud resursların onların son istifadəsi istiqamətində optimal yerləşdirilməsidir ki, bunun nəticəsində istehlakçı tələbinə ən yaxşı müvafiq olan əmtəə və xidmətlər istehsal olunur. Bu, bütün bazar qiymətləri və mənfəətlərin səviyyəsi istehlakçı tələbi quruluşuna müvafiq olanda əldə olunur.

**Alternativ məsrəflər** - müəyyən nemətin istehsalına sərf olunmuş amillər hesabına istehsal oluna biləsi nemətlərin dəyəri.

**Amilin məhsul həddi qiymətliliyi** - amilin məhsuldarlıq həddinin qiymətlilik ifadəsi

**Amilin orta məhsuldarlığı** - ümumi istehsalın istifadə olunan amilin həcminə nisbəti.

**Amilin son hədd məhsuldarlığı** - istehsala əlavə amil

**vahidinin cəlb edilməsi zamanı ümumi istehsalın artması.**

**Amilin son hədd məhsulundan son hədd satış pulu - əlavə amil vahidinin istehsala cəlb olunması zamanı ümumi satış pulunun artması.**

**Amilə son hədd xərci - istehsala əlavə amil vahidinin cəlb edilməsi zamanı ümumi məsrəflərin artması.**

**Amirlik iqtisadiyyatı - cəmiyyətin təsərrüfat həyatının dövlət mülkiyyətinə, mərkəzi planlaşdırmaya və inzibati-idarəetmə vasitələrinə əsaslanan təşkili sistemi.**

**Amortizasiya (ödəniş) - əsas fondların dəyərinin onların istismarı prosesində tədricən hazır məhsulun dəyərinə keçirilməsi.**

**Antiinflyasiya siyasəti - inflyasiyanın qarşısının alınması və aradan qaldırılması üçün tədbirlər sistemi.**

**Antiinhisar siyasəti - inhisarların, birləşmə və udmaların, kartellərin, ticarətin məhdudlaşdırılması üzrə razılaşmaların tənzimlənməsində ifadə olunan siyasət, pərakəndə qiymətlərin aə antirəqabət praktikasının dəstəklənməsi siyasəti.**

**Aşkar olmayan (qaçılmaz) məsrəflər - firmanın məhsul istehsalı ilə əlaqədar öz resurslarından istifadə ilə bağlı olan alternativ məsrəfləri; firmanın resurslarının icarəyə verildiyi (yaxud satıldığı) təqdirdə əldə oluna biləcək gəlir itkisindən ibarətdir.**

**Azalan son hədd məhsuldarlığı qanunu - texniki tərəqqi olmadıqda əməyin optimal kapital təminatına çatıldıqdan sonra istehsal amillərinin birinin artması dəyişən amilin məhsuldarlıq həddinin azalması ilə müşayiət olunur.**

## B

**Bank - müəyyən olunmuş müddətə pul əmanətlərini qəbul edən, həmçinin kredit (borc) verən maliyyə təşkilatı.**

**Bank Mərkəzi - ölkənin pul-kredit tənzimləməsi hüququna, pul emissiyasına, valyuta kursunu tənzimləməyə, ölkə**

**nin qızıl valyuta ehtiyatlarını saxlamağa inhisarçı hüquqa malik əsas bankı.**

**Banklar kommersiya - pul vəsaitlərinin cəlb edilməsi və qaytarılma və ödənilmə şərti ilə öz adından yerləşdirilməsi məqsədilə yaradılan universal kredit təşkilatlan. Bu banklar müştərilərin tapşınğı ilə valyuta, qiymətli metallar, qiymətli kağızlarla əməliyyatlan həyata keçirir, müştərilərə kassa xidməti göstərir, qanunun yol verdiyi digər əməliyyatlar apanr.**

**Banknot - Mərkəzi bank tərəfindən buraxılan və ölkənin pul təklifinin bir hissəsini təşkil edən nağd kağız pul.**

**Barter - bir iqtisadi nemətin başqa birisinə dəyişdirilməsi.**

**Bazar:**

**■satıcı və alıcılara qarşılıqlı əlverişli sövdələr həyata keçirmək üçün əlaqəyə girməyə imkan verən sosial-iqtisadi institut;**

**■təsərrüfat subyektləri arasında rəqabət əlaqə forması, bu zaman eyni bir əmtəənin qiyməti tez bərabərləşməyə meylli olur;**

**■alqı-satqı aktlarının məcmusu, konkret əmtəənin satıcısı və alıcısı arasında sövdə aparmaq üçün yer.**

**Bazar qiyməti - bazarda satıcı və alıcı arasında öz məqsədlərinə çatmağa cəhd etmələrinin gedişində formalaşan qiymət.**

**Bazar iqtisadiyyatı - xüsusi mülkiyyətə, seçim azadlığına və rəqabətə əsaslanan sistem, şəxsi maraqlara söykənir, hökumətin rolunu məhdudlaşdırır.**

**Bazar imtinaları - bazar mexanizminin müəyyən şəraitdə Pareto üzrə faydalılığın əldə olunmasını təmin edə bilməyə qabil olmaması.**

**Bazar seqmenti - tələb elastikliyl ilə fərqlənən alıcı qruplarının məkanda və ya zamanda ayrılması.**

**Bazarın infraquruluşu - əmtəə bazarı, kapital bazarı və digər bazarların normal fəaliyyətini təmin edən idarə, təşkilat, dövlət və kommersiya müəssisələri və xidmətlərin məcmusu.**

**Bazarın iflası** - resursların optimal yerləşdirilməsinə nail olmaq mümkün olmayan vəziyyətdir - bu, inhisar, ictimai nemətlər, xarici effektlər, informasiyanın asimmetrik- liyidir.

**Bazis ili** - indeksasiyanın ona nisbətən aparıldığı çıxış dövrü.

**Bentam ictimai rifah funksiyası** - bütün cəmiyyət üzvlərinin fərdi rifahları göstəricilərinin adi və ya ölçülüb- biçilmiş cəmi.

**Bertran tarazlığı** - bazardakı elə vəziyyəti təsvir edir ki, bu zaman firmalar duopoliya şəraitində hər firmanın mövcud istehsal həcmi səviyyəsində əmtəənin qiyməti uğrun-da rəqabət aparırlar. Tarazlıq sabitliyi qiymət son hədd xərclərinə bərabər olanda əldə olunur, yəni rəqabət tarazlığı müəyyənləşir.

**Birja** - əmtəə, qiymətli kağızlar, valyuta bazarı, həmçinin iş qüvvəsinin muzdla tutulmasında vasitəçilik edən təşkilat.

**Birinci dərəcəli qiymət ayn-seçkiliyi** - hər əmtəə vahidinin onun tələb qiymətinə satılması.

**Birinci ictimai rifah nəzəriyyəsi teoremi** - rəqabətli tarazlıq vəziyyəti Pareto-səraərəlidir.

**Birinci Hossen qanunu** - nemətlərin son hədd faydalılığı azalır.

**Borc kapitalı** - təsbit olunmuş faiz dərəcəli qiymətli kağız buraxılması yolu ilə xarici mənbələrdən müəyyən müddətə alınıb cəmiyyətə qoyulmuş pul.

**Borc faizi** - diskontun bazar dərəcəsi; kapital mülkiyyətçisinin borc alınmış vəsaitlərə görə müəyyən müddət ərzində ödədiyi qiymət.

**Böyük rəqəmlər qanunu** - bu qanuna görə böyük qruplar ayrı-ayn fərdlərə nisbətən Özlərini daha sabit aparırlar. Belə ki, ayrıca bir istehlakçı konkret əmtəənin qiyməti artdıqda onun alışını artıra bilər, halbuki istehlakçıların çoxu az almağa başlayacaqlar.

Bölgü - istehsal iştirakçılarının yaradılmış məhsuldan və gəlirdən İstifadədə paylarının müəyyənləşdirilməsi.

Böhran - 1) inkişaf etmiş bazar təsərrüfatında vaxtaşırı təkrarlanan və satıla bilməyən əmtəələr istehsalmda əksini tapan hadisə; 2) bütün iqtisadi göstəricilərin digər pisləşmələri.

Büdcə - 1) dövlətin (müəssisənin) müəyyən müddət üçün tərtib olunmuş pul xərcləri və gəlirlərinin cədvəli; 2) şəxsin, ailənin müəyyən müddət üçün gəlirləri və xərclərinin məcmusu.

Büdcə defisiti - xərclərin büdcə gəlirlərindən artıq olması.

Büdcə xətti - verilmiş qiymətlər və büdcədə istehlakçı üçün əlyetər olan iki nemətin müxtəliv birləşmələrindən ibarət olan nöqtələrin məcmusu.

Büdcədən dotasiya - dövlət sistemindən əvəzsiz qaydada verilən pul vəsaitləri.

Bürokratiya - dövlət məmurlarının ən yüksək təbəqəsi.

Canlı əmək - insanın şüurlu, məqsədyönlü və məqsədəuyğun fəaliyyəti, onun zehni və fiziki enerji sərfi ilə bağlı olub, həm onun özünün şəxsi tələbatlarının, həm də bütövlükdə cəmiyyətin tələbatlarının ödənilməsi üçün zəruri olan hər hansı yeni istehlak dəyəri olan faydalı nəticənin yaradılmasına yönəldilir.

Cevons Uilyam Stenli (1835-1882) - ingilis iqtisadçısı, <cSiyasi iqtisad nəzəriyyəsi» (1871) kitabında faydalılıq nəzəriyyəsini inkişaf etdirmişdi. Cevons nemətin dəyərliliyinin onun istehsalı üçün lazım olan əməkdən asılı olması ideyasını inkar edir və sübut edirdi ki, dəyərlilik alıcının həmin nemətin faydalılığı haqqında subyektiv fikrindən asılıdır. Cevons bildirirdi ki, nemət yalnız özü ilə gətirdiyi faydalılı- ğa müvafiq olaraq dəyərləndirilir, əmək və digər istehsal amilləri yalnız bu nemətlərin istehsalında iştirak edəndə

**dəyərə malik olurlar. O göstərmişdi ki, istehlakçı aldığı nemətlərin sayını müəyyən nemətin sonuncu vahidinin faydalılıq həddinin istənilən digər nemətin sonuncu vahidinin faydalılıq həddinə bərabər oluncayadək artırmağa meyillidir. Cevons həm də statika və nəzəri təhlilin iqtisadi elmdə birləşdirilməsi problemi ilə maraqlanırdı.**

**Çoxluğa qoşulma effekti - başqa istehlakçıların tələb həcminin dəyişməsinə cavab olaraq bir istehlakçının nemətə tələb həcminin birtərəfli qaydada dəyişməsi.**

## D

**Daxili (aşkar olmayan) xərclər -firmaya məxsus istehsal amilləri xərcləri.**

**Deduksiya -ümumi müddəalardan xüsusi nəticəyə gəlmənin məntiqi nəticəsi.**

**Defisit - geniş mənada, nəyinsə çatışmaması, azlığı; dar mənada hazırkı anda kifayət qədər olmayan resurs və ya əmtəə.**

**Demoqrafiya - əhali haqqında, əhalinin ümumi sayını və ölümlülük, doğum və miqrasiya nəticəsində onun dəyişməsini, əhalinin cinsinə və yaşına görə bölgüsünü, onun coğrafi və peşə quruluşunu öyrənən elm.**

**Demoqrafik tələ - ölkə əhalisinin artım sürətinin əldə oluna biləcək iqtisadi artım səviyyəsini üstələdiyi vəziyyət, bu isə əhalinin hər nəfərinə düşən gəlirin azalmasma səbəb olur.**

**Devalvasiya - bir ölkə valyutasının digər ölkənin valyutasına nisbətən birdən qiymətdən düşməsi, mübadilə kursunun aşağı düşməsi.**

**Dəyişən məsrəflər - istehsal həcmi dəyişdikdə dəyişən məsrəflər.**

**Dəyişən xərclər - məhsul istehsalı həcmi dəyişdikdə dəyişən xərclər.**

**Deyişkən asılılıq - modeldə ona başqa bir dəyişənin təsir etdiyi dəyişən. Məsələn* məhsula olan tələbin həcmi (asılı dəyişən) onun qiymətindən asılıdır (asılı olmayan dəyişən).**

**Dividend - səhmdar cəmiyyətinin xalis gəlirinin səhmdarlar arasında bölüşdürülməli olan və bir adi və ya imtiyazlı səhmə düşən hissəsi.**

**Direktiv qiymət - dövlət tərəfindən yuxarı və ya aşağı son hədd kimi müəyyənləşdirilmiş qiymət.**

**Disbalans - tarazlığın olmaması, əsas təsərrüfat göstəricilərinin (sisteminin) tarazsızlığı,**

**Diskont - əmtəə və ya xidmətin elan edilmiş preyskurant qiymətindən istehsalçının istehlakçı üçün etdiyi güzəşt; iqtisadi subyektin gələcək nemətə nisbətən indikinə üstünlük vermə tədbiri; subyektin rifahının dəyişilməməsi şərti ilə cari dövrdə hər vahid nemət həcminin azalması zamanı gələcək dövrdə əmtəə həcminin neçə vahid artacağını göstərir; pula münasibətdə; müəyyən dövrə verilmiş kredit pulun həcmi nə qədər artmalıdır ki, subyektin rifahı dəyişməsin.**

**Diskontlaşdırma - gələcək dövrlərin dəyərlərinin cari dövrlə uzlaşdırılması,**

**Diskontlaşdınlmış (gətirilmiş) cari dəyər - müəyyən zaman kəsiyindən sonra ödənilmiş bir dolların hazırkı qiymətidir.**

**Doktrina - təlim, elmi nəzəriyyə.**

**Dotasiya - mənfi vergi.**

**Dövlət və bələdiyyə müəssisələrinin özəlləşdirilməsi - vətəndaşların, səhmdar cəmiyyətlərinin (yoldaşlıqların) dövlətdən pay, səhm, mülkiyyət alması yolu ilə xüsusi, ayrı-ayn hallarda isə kollektiv müəssisələrə çevrilmə prosesi.**

**Dövlət şirkəti - dövlət mülkiyyətində olan cəmiyyət.**

**Dövriyyə vergisi - məhsulun satış həcmindən satış pulunun faizi kimi alınan vergi.**

**Dövriyyə kapitalı - firmanın istehsal prosesi müddətində tez dövr edən qısamüddətli cari aktivləri; bura material ehtiyatları, bitməmiş istehsal, son məhsul, debitor borcu.**

**cari passivləri çıxmaq şərtilə nağd pullar daxildir.**

**Duopoliya - oliqopoliyanın növü, bu zaman bazarda yalnız iki istehsalçı fəaliyyət göstərir.**

**Duopsoniya - bazarda yalnız iki alıcı və çoxlu satıcı olan vəziyyət.**

**Durğunluq - iqtisadi tsiklin böhrandan sonra gələn durğunluq dövrü.**

## E

**Ekonometrika - iqtisadi hadisə və proseslərin kəmiyyət tərəflərinin öyrənilməsində riyaziyyatın və statistik təhlilin vasitələrindən istifadə edən elm sahəsi.**

**Elastiklik - tələbin mühüm xüsusiyyəti, tələb (və ya təklif) kəmiyyətinin nisbi dəyişməsinin müxtəlif amillərin (qiymət, gəlir və s.) dəyişməsindən asılı olmasını göstərir.**

**Emissiya - qiymətli kağızların, pulların və digər maliyyə sənədlərinin tədavülə buraxılm^ısı.**

**Engel əyrisi - verilmiş qiymətlər sistemində istehlakçı büdcəsinin müxtəlif ölçülərində istehlakçının ayrıca nemətə tələbinin həcmini göstərən nöqtələr məcmusu.**

**Engel qanunu ~ istehlakçı gəlirinin artması onun ilkin tələbat mallarına nisbətən daha çox zinət əşyalarına xərclərini artırır.**

**Əks-əlaqə effekti - verilmiş bazarda ilkin dəyişikliklərin təsiri altında onunla əlaqədar olan bazarlarda baş verən dəyişikliklər nəticəsində həmin bazarda qismən tarazlığın dəyişməsini əks etdirən effekt.**

**Əmtəə - insan fəaliyyətinin məhsulu, satış üçün istehsal olunmuş və hər hansı bir tələbatı ödəyən iqtisadi nemət.**

**Əməyin kapitalla silahlanması - kapital həcminin əməyin həcminə nisbəti.**

**Əməyin optimal kapital tutumu - əməyin verilmiş texnologiyaya hər məhsul vahidinə minimum xərcləri təmin edən kapital tutumu.**

**Əmək - ayrı-ayrı fərdlərin və ya bütövlükdə cəmİ5ryətin tələbatlarını ödəmək üçün maddi və mənəvi nemətlər yaratmaq məqsədilə insanın sosial məqsədyönlü fəaliyyət prosesi.**

**Əmək haqqı - əməyə görə maddi mükafatlandırma, yaradılmış və satılmış məhsulun (xidmətin) dəyərinin müəssisə və təşkilat işçilərinə çatan hissəsi.**

**Ən az xərc qaydası - hər bir resursa xərclənmiş sonuncu dollar eyni məhsul həddi verməlidir.**

**Əsas kapital - firmanın təkrar satış üçün deyil, uzunmüddətli istifadə məqsədilə aldığı aktivlər (binalar və avadanlıqlar).**

**Əvəzləmə effekti, substitusiya - istehlak dəstinə daxil olan əmtəələrdən birinin qiymətinin dəyişməsi nəticəsində istehlak quruluşunun dəyişməsi (müxtəlif əmtəələrin alınmasına ayrılan vəsaitlərin nisbəti).**

**Faiz - kreditə görə ödənc, borc alanın borc aldığı vəsaitə görə kreditora ödədiyi məbləğ.**

**Faydalılıq funksiyası - istehlak olunan nemətlərin faydalılığının təmin olunma səviyyəsi ilə onların miqdarı arasındakı asılılıq.**

**Fermer - kənd təsərrüfatı müəssisəsinin, fermamn sahibi.**

**Fəaliyyət göstərmək - fəaliyyətdə olmaq, işləmək,**

**Fərqsizlik xəritəsi ~ çoxlu fərqsizlik əyrisi, faydalılıq funksiyasının qrafik təsviri.**

**Fərqsizlik əyrisi - müəyyən sayda iki nemətin istehlakçı üçün eyni dərəcəli olan birləşməsini göstərən nöqtələr məcmusu.**

**Fillips əyrisi - əməyin qiymətinin dəyişmə sürəti ilə işsizlik səviyyəsi arasındakı asılılığın qrafik təsviri.**

**Firma - hüquqi şəxs hüquqlarına malik təsərrüfat, sənaye, ticarət müəssisələri.**

**Fiskal - dövlət xəzinəsi maraqlarına aid olan.**

**Fiskal siyasət ~ dövlətin vergi müəyyənləşdirmək və toplanmış vəsaitləri xərcləmək hüququndan istifadə etməsi.**

**Fişer effekti - qiymətlərin səviyyəsinin dəyişməsi zamanı hadisələrin ardıcıllığı: qiymətlərin səviyyəsinin azalması (artması) məcmu tələbinin iki səbəbdən azalması (artması):**

**■ qiymətlərin sonrakı azalmasını (artımını) gözləyən ev təsərrüfatları cari istehlaklannı azaldırlar (artırırlar);**

**■ mülkiyyətin borclulardan kreditorlara (kreditorlardan borclulara) təkrar bölgüsü; borcluların istehlaka son hədd meylləri kreditorlarınkından daha çox olduğundan məcmu tələb azalır.**

**Fyuçers - gələcəkdəki müəyyən tarixə öncədən razılaşdırılmış qiymətə müəyyən miqdarda əmtəənin çatdırılması haqqında təcili kontrakt.**

**Gəlir effekti - istehlakçının istehlak dəstinə daxil olan əmtəələrdən birinin qiymətinin dəyişməsi nəticəsində onun real gəlirinin dəyişməsi.**

**Gəlir effekti Slutskiyə görə - qiymətinin dəyişməsi zamanı nemətə tələb həcminin ümumi dəyişməsi ilə Slutskiyə görə əvəzləmə effekti arasında fərq.**

**Gəlir effekti Hiksə görə - istehlakçının verilmiş nominal gəlirində nemətə tələb həcminin dəyişməsi və həmin nemətin qiymətinin dəyişməsinə görə onun real gəlirinin dəyişməsi.**

**Gəlir haqqında bəyannamə, yaxud vergi bəyannaməsi - vergi verənin ötən müddət ərzində (adətən bir il) əldə etdiyi gəlirlər və onlara şamil edilən güzəştlər haqqında rəsmi, qanunla müəyyən edilmiş formada doldurulmuş ərizə.**

**Gəlir - istehlak əyrisi - verilmiş qiymətlər sistemi və istehlakçının öz büdcəsinin müxtəlif həcmində soruşduğu iki nemət dəstindən ibarət nöqtələr məcmusu.**

**Gəlir vergisi - dövlətin hüquqi və fiziki şəxslərin gəlirlərindən yığdığı birbaşa verginin əsas növü.**

**Gəlirin kompensasiyaedici dəyişməsi - nemətin qiyməti artdıqdan sonra istehlakçının rifahının dəyişilməzliyini təmin edən pulun məbləği.**

**Gömrük - xarici əmtəələrin idxalı üçün dövlət büdcəsinə ödənc.**

## H

**Hecirləmə - fyuçers bazarlarının və optsion bazarlarının bir riskin digəri ilə kompensasiya edilməsi üçün istifadə olunduğu əməliyyatlar.**

**Helbreyt Con Kennet (d.l908) - Kanada iqtisadçısı, iqtisadi nəzəriyyədə institusional istiqamətin nümayəndəsi. Əsas əsərləri: «Bolluq cəmiyyəti* (1958), «Yeni sənaye cəmiyyəti* (1967). Əsas ideyaları:**

**■ sənaye cəhətdən inkişaf etmiş iqtisadiyyatlara mülkiyyətçilər tərəfindən idarə olunan rəqabətli xırda müəssisələr və texnokrat qulluqçular tərəfindən idarə olunan iri sənaye cəmiyyətlərinin inhisar bölməsi daxildir;**

**■ iri cəmiyyətlər fəaliyyətlərini elə planlaşdırırlar ki, bazar qeyri-müəyyənliyini minimuma endirsinlər, yeni məhsulun istehsalına başlamamış reklamın köməkliyi ilə ona tələb yaradırlar;**

**■ iri firmalar texniki innovasiyaların inkişafına rəvac verirlər, istehsal miqyasında qənaətə nail olurlar ki, bu da gəlir artımına səbəb olur;**

**■ iri cəmiyyətlər dağıdılmalı deyil, onların inhisar hakimiyyətindən sui-istifadəsinin qarşısının alınması üçün dövlət tərəfindən nəzarətdə saxlanılmalıdır;**

**■ Amerika bazar sistemini onda ictimai bölmənin inki**

**şafına az resurs ayrıldığına görə tənqid etmişdi; xüsusi bölmənin hakim mövqeyi isə xüsusi bolluq və ümumi kasıblıq vəziyyəti yaradır;**

**■ Sənaye cəmiyyətinin böyüyüb yeni sənaye cəmiyyətinə keçməsi,**

**Herfindal indeksi - bazarda firmaların ümumi sayından və onların nisbi həcmlərinin bölgüsündən (ümumi istehsalda paylan) çıxış edərək hesablanan satıcılann təmərküzləşməsinin göstəricisidir; bazarın ümumi həcmində firmaların paylarının kvadratları cəmi kimi hesablanır. Bazar hökmranlığı dərəcəsini göstərir.**

**Hərrac (kütləvi hərracdan satış) - alıcılar arasında yarışa əsaslanan əmtəə satışı. Əmtəəni almaq hüququnu əldə edən hərrac qalibi daha yüksək qiymət təklif etmiş alıcı olur.**

**Hiffen əmtəəsi - aztəminatlı istehlakçının büdcəsində böyük yer tutan əmtəə, ona tələb bütün digər şərtlərin bərabərliyi şəraitində qiymətin dəyişdiyi istiqamətdə dəyişir, çünki gəlir effekti əvəzləmə effektini üstələyir.**

**Hiffen paradoksu - nemətin qiyməti artdıqda (azaldıqda) ona tələb həcminin artması (azalması), gəlir effektinin əvəzləmə effektini üstələməsi ilə izah olunur.**

**Hiks supermultiplikatoru - verilmiş sürətlə ekzogen iqtisadi artım şəraitində makroiqtisadi subyektlərin muxtar (milli gəlir kəmiyyətindən asılı olmayan) xərclərinin artması zamanı milli gəlirin artım dərəcəsini səciyyələndirən əmsal.**

**Xalis aynca nemət - hər bir vahidi ayrıca haqqa satıla bilən nemət.**

**Xalis diskontlaşdınimış (gətirilmiş) qiymət - gələcəkdə gözlənilən xalis gəlirin qədərinin diskontlaşdınimış qiyməti ilə investisiyaların diskontlaşdınimış qiyməti arasındakı fərq:**

*NPV-PV (TR-VC)-PV(I),*

**burada (TR - VC) - xalis gəlir; I - investisiyalardır.**

**Xalis ictimai nemət - elə bir nemətdir ki, insanların ona görə haqq ödəyib-ödəməməsindən asılı olmayaraq bütün vətəndaşlar tərəfindən kollektiv istehlak olunur. Xalis iqtisadi nemət iki xüsusiyyəti ilə səciyyələnir: istehlakda seçimli olmaması və aradan götürülə bilməməsi. Məsələn, milli müdafiə belə xüsusiyyətlərə malikdir.**

**Xalis investisiyalar - əvəzləməyə gedən vəsaitləri çıxdıqdan sonra qalan ümumi investisiyalar.**

**Xalis inhisar - yaxın əvəzləyici substitutları olmayan iqtisadi nemətin yeganə istehsalçısı olub sahəyə yüksək giriş maneələri ilə bilavasitə rəqabətdən mühafizə olunan firma.**

**Xalis milli məhsul (XMM) - kapitaldan istifadəyə görə (amortizasiya) ayırmaları çıxdıqdan sonra qalan ümumi milli məhsul.**

**Xarici (aşkar) xərclər - firmaya məxsus olmayan və onun tərəfindən alınan istehsal amillərinin xərci.**

**Xarici artım - genişlənməsi firmanın təbii böyüməsi hesabına deyil (daxili genişlənmə), birləşmə, udma və ya birgə müəssisələr yaradılması hesabına baş verən artım.**

**Xarici effektlər - nemətlərin istehsalı və istehlakı zamanı yaranan və bazar qiymətlərində əksini tapmayan xərclər (mənfi xarici effektlər) və ya mənfəətlər (müsbət xarici effektlər).**

**Xərclər funksiyaları - məhsul istehsalı həcmi ilə onun istehsalı üçün zəruri olan minimum xərclər arasmdakı asıldıq.**

**Xərclərin mmimaUaşdınlması - verilmiş həcmdə məhsulun istehsal amillərinin onların nisbi qiymətləri nəzərə aimmaqla uzlaşdırılması yolu Uə ən az xərclə istehsal edilməsi.**

**Xüsusi mülkiyyət - səlahiyyət obyektinə münasibətdə bütün hüquqlara ayrıca bir insanın malik olduğu vəziyyət.**

**Xüsusi sahibkarlıq firması - sahibinin işlərini öz maraqlarında apardığı, idarə etdiyi, bütün mənfəətə sahib ol**

**duğu (qalıq gəlir) və onun bütün öhdəliklərinə görə şəxsən məsuliyyət daşıdığı (yəni qeyri-məhdud məsuliyyətli subyekt olduğu) firma.**

## I

**İcarə (kirayəyə vermək) - müstəqil təsərrüfat fəaliyyəti üçün icarəçiyə lazım olan torpağa, digər təbii resurslara, müəssisələrə müqaviləyə əsaslanan müddətli və əvəzli sahibolma və onlardan istifadə və ya başqa mülkiyyətdən istifadə.**

**İctimai əmək bölgüsü - müxtəlif əmək fəaliyyəti növlərinin təcrid olunması. Əmək bölgüsünün iki əsas növü var: cəmiyyət daxilində və müəssisə daxilində.**

**İctimai işlər ~ dövlətin sosial infrastruktura, o cümlədən yollara, evlərə, zibilin yığışdırılmasına və s. çəkdiyi xərclər.**

**İctimai nemətlər - dövlətin bütün vətəndaşlar və ya ölkə əhalisinin çoxu üçün verdiyi əmtəə və xidmətlər (təhsil, səhiyyə, mənzil). Onlara görə birbaşa Ödəniş yoxdur.**

**İctimai rifah funksiyası - təsərrüfat qərarlarının nəticələrinin bütövlükdə cəmiyyətin mövqeyindən qiymətləndirilməsi meyarı.**

**İctimai xərclər - cəmiyyətin firmaların fəaliyyəti ilə şərtlənən məsrəflər (çayların tullantı suları ilə çirklənməsi, çay suyunun təmizlənməsinə xərclər).**

**İctimai seçim nəzəriyyəsi - insanların hökumət idarələrindən öz şəxsi maraqlarında istifadə etdikləri müxtəlif üsul və metodları öyrənən nəzəriyyə.**

**İki nemətin son hədd əvəzləmə norması - fərdin tələbatlarının (faydalılıq funksiyasının qiyməti) təmin edilmə dərəcəsini dəyişmədən bir nemətin istehlakını bir vahid artırmaqla digərinin istehlakını nə qədər azaltmaq mümkün olduğunu göstərir.**

**İkiqat tarazlıq - milli iqtisadiyyatın tam məşğulluq və tədiyə balansının sıfır saldosu şəraitində milli gəlir sə**

**viyyəsində ümumi İqtisadi tarazlığa nail olması.**

**İkinci dərəcəli qiymət ayn-seçkiliyi - ayrı-ayrı partiya əmtəələrin müxtəlif qiymətlərə satılması.**

**İkinci ictimai rifah nəzəriyyəsi teoremi - ə^ər istehlakçı üstünlüfcverimləri koordinatların başlanğıcında qabarıq fərqsizlik əyriləri ilə, texnologiya isə miqyasdan sabit və ya azalan qazancla səciyyələnirlərsə, onda hər bir Pareto-səmərəli vəziyyət üçün tarazlı qiymətlər vektoru tapmaq olar.**

**İkinci Hossen qanunu - verilmiş qiymətlər və büdcədə istehlakçı maksimum faydalılığa son faydalılıq həddinin qiymətə nisbəti bütün istehlak olunan nemətlərdə eyni olduqda çatır.**

**İkitərəfli inhisar bazarı - yeganə satıcının yeganə alıcı ilə qarşılaşdığı bazar.**

**İkitərəfli oliqopoliya bazan - bir neçə satıcının bir neçə alıcı ilə qarşılaşdığı bazar.**

**İqtisadi artım - müəyyən vaxt ərzində ölkədə ümumi istehsal həcminin artması.**

**İqtisadi azadlıq - fərdin öz maraqları və qabiliyyətlərini ictimai nemətlərin İstehsalında, bölgüsündə, mübadiləsində və istehlakında fəal çalışmaq yolu ilə həyata keçirə bilmək imkanı.**

**İqtisadi dövriyyə - real iqtisadi nemətlərin dairəvi hərəkəti, pul gəlirləri və xərclərinin qabaqdan gələn axını ilə müşayiət olunur.**

**İqtisadi eksperiment - iqtisadi hadisələrin daha əlverişli şəraitdə praktik öyrənilməsi məqsədilə onların süni surətdə dəyişdirilməsi və ya təkrar canlandırıl ması.**

**İqtisadi məqsədlər - öz fəaliyyətində fərdin (ev təsərrüfatçılığı), firmanın, bütövlükdə cəmiyyətin güddüyü məqsədlər.**

**İqtisadi mənfəət - məcmu satış pulu ilə həm xarici, həm də daxili xərclər daxil olmaqla bütün xərclər arasındakı fərqdir.**

**İqtisadi model - quruluşu həm obyektiv xüsusiyyətləri,**

**həm də tədqiqatm subyektiv məqsədli olması ilə müəyyənləşən iqtisadi proses və ya hadisənin formallaşdırılmış təsviri.**

**İqtisadi müvəkkillər - iqtisadi münasibətlərin iqtisadi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakında iştirak edən subyektləri.**

**İqtisadi nemət - tələbatların Ödənilməsi üçün məhdud miqdarda olan vasitələr. İqtisadi nemətlər məhsullara və xidmətlərə bölünürlər.**

**İqtisadi nəzəriyyənin predmeti - məhdud istehsal resurslarından səmərəli istifadə, insanın maddi tələbatlarının maksimum təmin edilməsinə nail olmaq məqsədilə onların idarə edilməsi problemləridir.**

**İqtisadi renta - istehsal amili mülkiyyətçisinin amildən istifadəyə görə aldığı pulun miqdarı ilə onun həmin xidmətləri göstərməyə razı olduğu minimum pul məbləği arasındakı fərq və ya kapitaldan, mülkiyyətdən və ya torpaqdan sahibkarlıq fəaliyyəti tələb etməyən gəlir.**

**İqtisadi renta - təklifi sərt məhdud olan resursa görə haqq. İqtisadi rentanı həm də əməyin minimal (ehtiyatda olan) qiyməti ilə bazar qiyməti arasındakı fərq kimi də müəyyənləşdirirlər.**

**İqtisadi resurslar, istehsal amilləri -iqtisadi nemətlər istehsalı üçün zəruri olan elementlər. Əsas resurs növləri kimi çıxış edirlər: əmək, torpaq, kapital, sahibkarlıq qabiliyyəti. Tez-tez onlara informasiyanı da əlavə edirlər.**

**İqtisadi seçim - alternativ variantlar arasından ən yaxşısının seçilməsi, bu zaman məhdud resurslardan istifadə nəticəsində faydalılığın maksimallaşdırılması əldə olunur. İqtisadi seçimin səmərəliliyi mənfəət və xərclərin təhlilini nəzərdə tutur.**

**İqtisadi səmərəlilik - bazar iqtisadiyyatında qarşıda duran məqsədlərə çatmaq üçün vasitələrdən istifadə etməyin məqsədyönlüyü. Bu və ya digər hərəkətin səmərəli olub olmamasını müəyyənləşdirməyin əsas meyarı Kaldora-Hiks meyarıdır. Kaldora-Hiks meyarına görə, əgər iqtisadi hərə**

**kətin istehlak artıqlığı və istehlakçı mənfəəti şəklində müsbət nəticələri onun mümkün mənfi nəticələrindən çoxdursa, onda bu hərəkət səmərəli olar.**

**İqtisadi sistemlər - müəyyən tamlıq, cəmiyyətin iqtisadi quruluşunu əmələ gətirən qarşılıqlı əlaqədə ölan iqtisadi elementlər məcmusu; iqtisadi nemətlər istehsalı, bölgüsü, mübadiləsi və istehlakı ilə bağlı formalaşan münasibətlər vəhdəti.**

**İqtisacU siyasət - hökumətin iqtisadi sahədə konkret hərəkətləri.**

**İqtisadi tsikl - iqtisadiyyatın iqtisadi tsiklin iki eyniadlı fazaları arasında inkişafı.**

**İqtisadiyyat - tələbatların maksimum ödənməsi məqsədilə nadir iqtisadi resurslardan istifadə ilə əlaqədar əsasən tətbiqi iqtisadi problemləri öyrənən elm sahəsi, bir də bazar sistemində tarazlığın təmin edilməsi ilə bağlıdır.**

**İqtisadiyyatın dövlətsizləşdirilməsi - dövlətin ictimai istehsalda dövlət tənzimləməsi sahələrinin azaldılmasını və iqtisadiyyatın əsasən qeyri-iqtisadi tənzimlənməsi metodlarından iqtisadi tənzimləmə metodlarına keçidi nəzərdə tutan iqtisadi rolu və vəzifələrinin dəyişməsi.**

**İqtisadiyyatın Pareto-səmərəli (optimal) vəziyyəti - elə bir vəziyyətdir ki, bu zaman istehsaldakı və bölgüdəki heç bir dəyişiklik başqalarının rifahını pisləşdirmədən cəmiyyətin bircə üzvünün də rifahını yaxşılaşdıra bilməz.**

**İnduksiya - xüsusi, tək-tək hallardan ümumi nəticəyə aparan məntiqi düşüncə.**

**İnflyasiya - əmtəə və xidmətlərin qiymətlərinin ümumi səviyyəsinin artması.**

**İnhisar - inhisar mənfəəti əldə etmək məqsədilə maddi və maliyyə resurslarını, elmi-texniki potensialı təmərküzləşdirməklə bazar üzərində nəzarəti həyata keçirən təsərrüfat birliyi.**

**İnhisar bazarı - potensial rəqibləri olmayan bir satıcının çoxsaylı alıcıya qarşı durduğu bazar.**

**İnhisar rəqabəti bazarı — çoxsaylı alıcı və satıcı olan müxtəlif cinsli əmtəə bazarı, burada məhsulun təbəqələşməsi nəticəsində istehsalçılar inhisar hökmranlığına malik olurlar.**

**İnhisar hökmranlığı - inhisarın təklif həcmini dəyişməklə bazar qiyməti səviyyəsinə təsir edə bilmək imkanı.**

**İnhisarsızlaşdırma - dövlətin inhisarlaşmış istehsal quruluşunun aradan qaldırılmasına və rəqabətin inkişafına yönəldilmiş siyasəti.**

**İnteqrasiya - hər hansı həssələrin tamda (bütövdə) birləşdirilməsi.**

**İntensivləşdirmə - elmi-texniki tərəqqinin (ETT) nailiyyətlərinə, əsaslanan get-gedə daha səmərəli istehsal vasitələri və əməyin təşkilinin daha təkmil formaları və texnologiyalarının tətbiqi.**

**İstehlakçı (ev təsərrüfatı) - öz tələbatlarını ödəmək üçün nemətlər alan iqtisadi subyekt.**

**İstehlakçı artıqlığı - istehlakçının verilmiş həcmdə nemət üçün ödəməyə hazır olduğu maksimum məbləğlə onun ödədiyi məbləğ arasındakı fərq.**

**İstehlakçı imkanları əyrisi - verilmiş miqdarda nemətin istehlakçılar arasında Paretoya görə optimal bölgü variantlarını göstərən nöqtələr məcmusu.**

**İstehlakçı müvazinəti - əmtəə dəsti alışının optimal qaydası - büdcə məhdudiyyəti xəttinin fərqsizlik əyrisinə toxunma nöqtəsi (XA, Xg) - müvazinətdə olan istehlakçının optimal əmtəə dəsti.**

**İstehlak zənbili — insanın əsas fizioloji və sosial-mədəni tələbatlarını təmin etmək üçün istehlak əmtəələri və xidmətləri dəsti.**

**İstehsal amilləri - istehsal ehtiyatları, kapital, insan resursları və s.**

**■ sabit - xərcləri məhsul istehsalının həcmindən asılı olmayan amillər;**

**■ dəyişən - xərcləri məhsul istehsalının həcmindən asılı olan amillər;**

**İstehsal amilinin məcmu (ümumi) məhsulu - həmin amilin müəyyən miqdarına düşən istehsal olunan əmtəə.**

**İstehsal amilinin orta məhsulu - istehsal olunan əmtəənin istifadə olunan amil vahidinə düşən həcmi.**

**İstehsal amillərinin əvəzlənməsinin (suhstitusiyası) elastiklik əmsalı - kapitalın texniki əvəzləsməsinin norma həddi bir faiz dəyişdikdə əməyin optimal kapitalla silahlanmasının neçə faiz dəyişəcəyini göstərir.**

**İstehsal funksiyası - istifadə olunan istehsal amillərinin miqdarı ilə maksimum mümkün olan məhsul istehsalı arasında asılılıq.**

**İstehsal imkanları - texnologiyanın hazırkı vəziyyətində bütün mövcud resurslardan tam və səmərəli istifadə etməklə cəmiyyətin iqtisadi nemətlər istehsal etmək imkanları.**

**İstehsal imkanları həddi (və ya transformasiya əyrisi) - bütün mümkün resurs və texnologiyalardan həmin zaman kəsiyində iqtisadiyyatda istehsal oluna biləcək maksimum əmtəə və xidmətlərin miqdarım göstərir.**

**İstehsal imkanları əyrisi - iki nemətin Pareto-səmərəli istehsal həcmini göstərən nöqtələr məcmusu.**

**İstehsal xərcləri - əmtəə (xidmətlər) istehsalına çəkilən xərclərin cəmi, təklif qiymətinin müəyyənləşdirilməsində əsas kimi götürülür.**

**İstehsala məsrəflərin elastiklik əmsalı - məhsul istehsalı bir faiz dəyişdikdə ümumi məsrəflərin neçə faiz dəyişəcəyini göstərir.**

**İstehsalda Pareto-səmərəlilik - nəzərdə tutulmuş istehsal amilləri məcmusundan elə istifadədir ki, bu zaman onların sahələrarası təkrar bölgüsü hesabına başqa nemətlərin istehsalını azaltmadan bircə nemətin də istehsalını artırmaq mümkün deyil.**

**İstehsalçı (firma) - nemətlər istehsal etmək və satmaq üçün amillər alan iqtisadi subyekt.**

**İstehsalçı artıqlığı - satılmış məhsula görə alınmış məbləğlə istehsalçının həmin məhsulu satmağa hazır olduğu məbləğ arasındakı fərq.**

**İstehsalçı müvazinəti - son hədd xərcləri, son hədd gəliri və bazar qiyməti arasında bərabərliyin yarandığı vəziyyət.**

**İstehsalın amilə görə elastiklik əmsalı - amilin həcmi bir faiz dəyişdikdə istehsalın neçə faiz dəyişəcəyini göstərir.**

**İstehsalın miqyasa görə elastiklik əmsalı - bütün amillərin artım sürəti bir faiz dəyişdikdə istehsalın neçə faiz dəyişəcəyini göstərir.**

**İstehsalın səmərəliliyi - bir iqtisadi nemətin istehsalını azaltmadan digərinin istehsalını artırmaq üçün (Pareto-optimal resurs bölgüsü) nağd resursları təkrar bölüşdürmək mümkün olmayanda əldə olunur**

**İstehsalın səmərəliliyi - mövcud resursları yenidən bölmək mümkün olmadıqda yaranır.**

**İnvestisiya -əmtəə və xidmətlər istehsalı üçün nəzərdə tutulmuş real kapitalın (avadanlıq, maşınlar və s.) alınması üçün istifadə olunan pul.**

**İnvestisiya tələsi - iqtisadi konyunkturanın elə bir vəziyyətidir ki, bu zaman sahibkarlar perspektivləri bədbinliklə qiymətləndirdiklərindən faiz dərəcəsinin dəyişməsi investisiya tələbinə təsir etmir.**

**İS əyrisi - faiz dərəcəsi və milli gəlirin göstəricilərinin birləşməsindən ibarət olan nöqtələr məcmusudur ki, bu zaman nemətlər bazarında, keynsçi konsepsiyasına görə, tarazlıq əldə olunur.**

**İş qüvvəsi - insanın əmək qabiliyyəti, yəni onun istehsal prosesində tətbiq etdiyi fiziki və mənəvi qüvvələrinin məcmusu.**

**İşsizlik - iqtisadiyyatda vəziyyət, bu zaman iş qabiliyyətli əhalinin bir hissəsi nisbətən artıq olur (ehtiyat əmək qüvvəsi). Bizim ölkədə işsiz kimi işi və qazancı olmayan, əlverişli iş axtarmaq məqsədilə əhalinin məşğulluq xidmətində qeydiyyatda olan və işə başlamağa hazır olan əmək qabi**

**liyyətli vətəndaşlar nəzərdə tutulur.**

**İzafi tələb funksiyası - İqtisadi subyektin tələb funksiyası ilə təklif funksiyası arasındakı fərq.**

**İzokvant - verilmiş istehsal həcmini təmin edən müəyyən miqdarda iki istehsal amilinin müxtəlif birləşmələrindən ibarət olan nöqtələr məcmusu.**

**tzokvantlar xəritəsi — çoxlu izokvant, uzun müddətin istehsal funksiyasının qrafik təsviri.**

**tzokosta - iki istehsal amilinin qiymətinə görə eyni olan müxtəlif miqdarda birləşmələrindən ibarət olan nöqtələr məcmusu.**

## K

**Kapital - istehsal amillərindən biri, fiziki kapitala (binalar, qurğular, ofislər, maşınlar, alətlər və s.) və insan kapitalına (ümumtəhsil və peşə hazırlığı) investisiyalar qoyuluşu ilə həyata keçirilən istehsal fəaliyyəti.**

**Kapital qiyməti - istehsal amilini almaq üçün ödənişin kəmiyyəti.**

**Kapital yığımı - bölünməmiş mənfəət ehtiyatının artırılması yolu ilə konkret firmanın nağd kapitalının artması prosesi; məcmu istehsal həcminin artırılması məqsədilə iqtisadiyyatda xalis kapital ehtiyatının artırılması prosesi.**

**Kapital nemətlər - digər məhsulların istehsalında istehsal amili (bilavasitə istehlakçılara satılan əmtəələrin əksinə olaraq) qismində istifadə olunan uzunmüddətli əmtəələr (dəzgahlar, peçlər).**

**Kapitalizm - xüsusi mülkiyyətə, azad sahibkarlıq fəaliyyətinə, rəqabətə, iqtisadi proseslərin əsasən bazar tənzimləmə mexanizmlərinə əsaslanan ictimai-iqtisadi quruluş.**

**Kardİnalist konsepsiya - faydalılığın kəmiyyətlə ölçülməsini hesab etməyə əsaslanan istehlakçı tələbi nəzəriyyəsi.**

**Kartel - inhisar hökmranlığı əldə etmək üçün vahid qiymət və təklif həcmləri barədə razılaşma ilə birləşmiş bir qrup**

**homogen (eyni cür) nemət istehsalçısı.**

**Kateqoriya - 1) hadisələrin ən əsas xüsusiyyətləri və münasibətlərini əks etdirən ümumi anlayış. 2) hər hansı ümumi əlamətlərə malik bir qrup əşya, hadisə.**

**Keçid iqtisadiyyatı - bir iqtisadi sistemdən digərinə inqilabi və ya təkamül yolu ilə xüsusi tarixi keçid dövrü.**

**Kembric effekti - tədavüldə olan pulun miqdarının dəyişməsi zamanı hadisələrin ardıcıllığı: pulun miqdarının artması (azalması) —> nemətə tələbin artması (azalması) qiymətlərin səviyyəsinin artması (azalması).**

**Kembric tənliyi - pul təklifi və iqtisadiyyatdakı qiymətlərin ümumi səviyyəsi arasında bilavasitə əlaqəni müəyyənləşdirən pulun kəmiyyət nəzəriyyəsinə görə MV=PT (Irvinq Fişer tənliyi, ilk dəfə 1911-ci ildə alınmışdır) və burada:**

**M - iqtisadiyyatda pul ehtiyatı;**

**V - pulun tədavül sürəti;**

**P - qiymətlərin ümumi səviyyəsi;**

**T ~ sövdələrin sayı və ya əmtəə və xidmətlər təklifinin ümumi həcmidir.**

**Kembric Universitetinin iqtisadçıları iqtisadiyyatdakı pul ehtiyatı (M) ilə son gəlir (Y) arasındakı əlaqəni MV=Y formasında əks etdirmək üçün ənənəvi pul nəzəriyyəsini dəyişmişdilər. Gəlirin tədavül sürəti (Kembric tənliyi) beləliklə aşağıdakı şəkildə ifadə olunur:**

$$V = _{M}$$

**burada V - iqtisadiyyatdakı pul ehtiyatının son əmtəə və xidmətlər alışı zamanı pul ehtiyatının əldən - ələ keçdiyi dəfələrin orta sayıdır.**

**Kene Fransua (1694-1774) - fransız iqtisadçısıdır. Onun əsərləri fiziokratlar məktəbinin əsasım qoymuşdur. Kene hesab edirdi ki, kənd təsərrüfatı sərvətin mənbəyidir, məhsuldar sinif - icarəçi fermerlər isə Öz mövcudluğu üçün lazım olduğundan artıq məhsul yaradır. Bu xalis məhsul sonra tor-**

**paq mülkiyyətçilərinin, həmçinin sənətkarlar və tacirlərin tə-ləbatlarını ödəmək üçün istifadə olunur, özünün əsas «İqtisadi cədvəl» (1758) əsərində Kene xalis məhsulun kəndlilər, torpaq sahibkarları və tacirlər arasında istehsal və mübadilə olunduğunu göstərməyə cəhd etmişdi. Kene cədvəli əslində «xərclər - buraxılış» cədvəli idi.**

**Keyns Con Meynard (1883-1946) - ingilis iqtisadçısı, özünün məşhur «Məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi» (1936) kitabında kütləvi işsizliyin öz izahını təklif etmiş və onunla mübarizə üçün dövlət siyasətinin aparılması üçün tövsiyələrini vermişdir. Keynsə qədər klassik iqtisadi nəzəriyyə hesab edirdi ki, bazar özü bütün resursların məşğulluğuna can atır, çünki mübadilə mexanizmi tələb və təklifin tarazlığını təmin edir (Sey qanunu). Keyns tam məşğulluq şəraitində deyil, böhranlı iqtisadiyyat, durğunluq şəraitində iş fəallığı səviyyəsinin formalaşmasını izah edən ümumi nəzəriyyə işləyib hazırlamışdır. Durğunluğun səbəbini o, məcmu tələbin azalmasında görürdü, amma tələbin artmasına hər hansı bir avtomatik həvəs olmadığından, Keynsin fikrincə, tələbin artması və durğunluqdan çıxmaq üçün dövlətin müdaxiləsi lazımdır. Vergiləri azaltmaqla əhalinin alıcılıq qabiliyyətini yüksəltmək olar, dövlətin xərclərini, məsələn, ictimai işlərə artırmaqla isə əlavə məcmu tələbi yaratmaq olar. Keyns multiplikator və akselerator nəzəriyyəsinin müəllifidir.**

**Ke3ms effekti - qiymət səviyyəsinin dəyişməsi zamanı hadisələrin ardıcıllığı: qiymət səviyyəsinin artması (azalması) —> real kassa qalıqlarının azalması (artması) —> faiz dərəcəsinin artması (azalması) —> investisiyalara tələbin azalması (artması) milli gəlirin azalması (artması).**

**Kirayə qiyməti - zaman vahidində amildən istifadəyə görə ödənişin kəmiyyəti.**

**Klark vergisi - fərdin ictimai nemətin faydalılığının qiymətləndirilməsini azaltdığına gÖrə iqtisadi sanksiyalar.**

**Klassik dixotomiya - milli iqtisadiyyatın bir-birindən**

**təcrid olunmuş iki bölmə şəklində təsəvvür olunması; real və pul; real bölmədə pul bölməsindən asılı olmayaraq istehsalın həcmi və quruluşu, məşğulluq, nemətlərin nisbi qiymətləri, pul bölməsində isə yalnız qiymətlərin səviyyəsi (pulun miqyası) müəyyənləşdirilir.**

**Kobb-Duqlas istehsal funksiyası - istehsal funksiyasının növü, texnologiyam istehsal amillərinin təkmil qarşılıqlı əvəzlənməsi və vahidə bərabər miqyasdan istehsalın elastik- liyi ilə səciyyələndirir.**

**Kollektiv nemətlər - hər hansı bir fərdə təklif olunan nemətin miqdarı başqalarından aslı olmayaraq dəyişilə bilməməsi səbəbindən yalnız bir qrup şəxsə təklif oluna bilən əmtəə və xidmətlər.**

**Kommersiya - ticarət.**

**Konversiyalılıq - milli valyutanın istənilən formada və bütün əməliyyat növlərində xarici valyutaya sərbəst dəyişdirilə bilmək qabiliyyəti.**

**Kondorse paradoksu - səsvermə əsasında səs çoxluğu ilə müəyyənləşdirilən qrup üstünlükverimlərinin qeyri-tranzitivliyi.**

**Kontrakt - danışığa girən tərəflərin qarşılıqlı öhdəliklərini əks etdirən müqavilə, saziş, bağlaşma.**

**Kooperativ - bir qrup fərdin qarşılıqlı xeyir götürmək üçün birgə malik olub idarə etdiyi firma təşkili forması.**

**Kouz teoremi - əgər bütün tərəflərin mülkiyyət hüquqları dəqiq müəyyənləşdirilibsə, transaksion xərclər isə sıfıra bərabərdirsə, son nəticə (istehsalın dəyərliliyini maksimallaşdıran) mülkiyyət hüququ (əgər gəlir effekti nəzərə alınmazsa) bölgüsündəki dəyişikliklərdən asılı olmur.**

**Kredit - borc, borc verən və borc alan arasında münasibət, bu zaman kreditor (borc verən) borc alana pul və ya əşya verir, borc alan isə müəyyən vaxtda həmin məbləği və ya həmin növdən və həmin keyfiyyətdə əşyam qaytarmağa söz verir.**

**Kreditor - borc götürənə borc verən fiziki və ya hüquqi şəxs (müəssisə və ya təşkilat).**

**Kurno tarazlığı - bazarda duopoliya şəraitində hər bir firma müstəqil fəaliyyət göstərərək digər firmanın ondan gözlədiyi istehsal həcmini seçdiyi zaman əldə olunur. Kurno tarazlığı iki firmanın təsirlənmə əyrilərinin kəsişmə nöqtəsi kimi təzahür edir.**

**Kurno nöqtəsi - son hədd satış pulu və son hədd xərclər əyrilərinin kəsişməsi - qeyri-təkmil rəqabətdə mənfəətin maksimallaşdırılması şəraiti.**

**Kurno Ogüsten (1801-1877) - rəqabət və inhisar şərai« tində qiymət yaranması problemini tədqiq etmiş və bu tədqiqatların nəticələrini (tələbin dəyişməsi qanunu və təklifin dəyişməsi qanunu) «Sərvət nəzəriyyəsinin riyazi prinsiplərik kitabında əks etdirmiş fransız iqtisadçısı. Kurno həm də özünün inhisar, duopoliya, oliqopoliyanın tədqiqatları ilə məşhurdur.**

## Q

**«Qadağanedici» qiymət - nemətə tələb həcminin sıfra bərabər olduğu qiymət.**

**«Qara» bazar - dövlətin müəyyənləşdirdiyi yuxarı qiymət həddindən yüksək və dövlətin müəyyənləşdirdiyi aşağı qiymət həddinə çatmayan qiymətlərlə ticarət sövdələşmələrinin aparılması.**

**Qarışıq iqtisadiyyat - bazar və amirlik iqtisadiyyatı elementlərini birləşdirən cəmiyyət növu, burada bazar mexanizmləri dövlətin fəal hərəkətləri ilə tamamlanır.**

**Qeyri-sabit tarazlı bazar - tələb və təklif həcminin elə şəraitdə bərabərliyidir ki, bu zaman qiymətin özünün tarazlıq göstəricisindən kənarlaşması bazar sövdələşməsi iştirakçılarının elə reaksiyası ilə müşayiət olunur ki, bu, qiyməti tarazlıq göstəricisinə qaytara bilmir.**

**Qismən tarazlıq - ayrıca götürülmüş bazarda formalaşan tarazlıq.**

**Qiymət - əmtəə və xidmətin dəyərinin pulla ifadəsi.**

**Qijrmət ayrı-seçkiliyi - qeyri-təkmil rəqabət bazarında eyni mənşəli əmtəənin müxtəlif qiymətlərə satılması.**

**Qiymət indeksi -cari ilin qiymətinin bazis ilinin qiymətinə nisbətinin 100%-ə hasilidir.**

**Qiymət - istehlak əyrisi - verilmiş büdcə və nemətlərdən birinin qiymətinin dəyişməsi şəraitində istehlakçının soruşduğu iki nemətdən ibarət dəsti göstərən nöqtələr məcmusu.**

**Qiymət müharibəsi - rəqibləri oliqopolistik bazardan sıxışdırmaq məqsədilə mövcud qiymətlərin səviyyəsinin tədricən tsiklik endirilməsi.**

**Qiymətli kağızlar - sahibinin hər hansı mülkiyyət hüquqlarını ifadə edən və müəyyən gəlir gətirən sənəd (səhm, istiqraz və s.).**

**Qiymətli əmtəələr - gəlir artdıqda onlara tələbin kəskin şəkildə artdığı əmtəələr (zinət əşyaları).**

**Qiymətlərin aşağı həddi - məhsula müəyyənləşdirilə biləcək minimum qiymət; dövlət tərəfindən müəyyənləşdirilir.**

**Qiymətə görə təklif funksiyası - təklifin həcmi ilə təklif olunan əmtəənin qiyməti arasındakı asılılıq.**

**Qısamüddətli və ya qısa dövr (short-run) (firmanın fəaliyyətində) - elə bir zaman kəsiyidir ki, bu müddətdə istehsal amillərindən birini də dəyişmək mümkün deyil**

**Laffer əyrisi - gəlir vergisi dərəcəsi ilə vergi yığımı həcmi arasında statistik müşahidə olunan asılılığın qrafik təsviri.**

**Leontyev istehsal funksiyası - istehsal funksiyasının növü, texnologiyanı istehsal amillərinin təkmil qarşılıqlı əvəzlənməməsi və vahidə bərabər miqyasdan istehsalın elastikliyi ilə səciyyələndirir.**

**Leveric - təsbit olunmuş faizli borc kapitalının cəmiyyətin maliyyə fəaliyyətində istifadə olunan səhmdar kapitalına nisbəti.**

**Ləğv tələsi - faiz dərəcəsinin özünün minimal mümkün qiymətinə yaxınlaşdığı və buna görə də pul təklifi artımının onu azalda və investisiya tələbini həvəsləndirə bilmədiyi iqtisadi konyunktura vəziyyəti.**

**Ləğvçilik tələsi -faiz dərəcəsi səviyyəsinin elə aşağı vəziyyətidir ki, adamlar pullarını investisiya etməyə deyil, onları saxlamağa (ləğvçiliyə üstünlük verilməsi) üstünlük verirlər.**

**Liberalizm - 1) sahibkarlıq azadlığı, parlamentarizm və demokratiya tərəfdarı olan siyasi və ideoloji baxışlar sistemi. 2) azadfikirlilik.**

**Limit qiyməti - sahəyə rəqiblərin gəlməsinin qarşısını almaq üçün kartelin müəyyənləşdirdiyi qiymət.**

**Limitləşdirilmiş - nəyinsə miqdar hədd ilə məhdudlaşdırılması.**

**Lisenziya - dövlət orqanları tərəfindən bu və ya digər təsərrüfat fəaliyyəti hüququ verən icazə.**

**Lizinq - lizinq cəmiyyəti tərəfindən aktivlərin (binalar, avadanlıq, nəqliyyat vasitələri) alınması, cəmiyyətin sonra da həmin aktivlərin mülkiyyətçisi qalmaqla onları müəyyən edilmiş qiymətə müştərilərə kirayəyə verməsi.**

**Lobbiçilik - dövlət orqanlarına onları müəyyən qrupların maraqlarına cavab verən siyasi qərarların qəbul edilməsinə və ya resurs bölgüsü aparılmasına yönümləndirmək məqsədilə təsir göstərilməsi.**

**Lokal - yerli, müəyyən hüdudlardan kənara çıxmayan.**

**Lorents əyrisi - cəmiyyətin məcmu gəlirinin müxtəlif əhali qrupları arasında qeyri-bərabər bölgüsünün qrafik təsviri.**

## M

**Makroiqtisadi siyasət - hökumət tərəfindən bütövlükdə iqtisadiyyatın ümumi məqsədlərinin müəyyənləşdirilməsi və bu məqsədlərə çatmaq üçün idarəedici alətlərin tətbiqi.**

**Makroiqtisadiyyat - iqtisadiyyat elminin ümumi iqtisadi fəallığın öyrənilməsi ilə məşğul olan sahəsi; iqtisadiyyatı bütövlükdə nəzərdən keçirir.**

**Maliyyə - müəssisənin, dövlətin sərəncamında olan bütün pul vəsaitlərinin məcmusu, həmçinin onların formalaşması, bölgüsü və istifadə edilməsi sistemi.**

**Maltus Tomas (1766-1834) - ingilis keşişi, onun əhali artımına baxışları (ədədi silsilə şəklində artan istehsal artımından fərqli olaraq əhalinin sayı həndəsi silsilə qaydasında artır) «Əhali artımı haqqında təcrübə» (1798) kitabında verilmişdi. Bunun nəticəsində insanların çoxu bütün ömrünü yoxsulluq və səfalət, müharibələr, epidemiyalar və aclıq içində keçirməyə məhkumdur. Sonuncular cəmiyyət üçün «neməti kimi çıxış edir, çünki əhali artımını ləngidirlər.**

**Marketinq - müəssisə, firma, təşkilatın bazarın tələblərinə, alıcıların əmtəə və xidmətlərə tələbatının ödənilməsinə yönümlənmiş istehsal, satış və təcarət fəaliyyətinin təşkil və idarə edilməsi sistemi.**

**Marks Kari (1818-1883) - alman filosofu və iqtisadçısı, tarixi dəyişikliklər haqqında yeni nəzəriyyə yaratmışdır ki, onun da əsasında antaqonist siniflər arasındakı ziddiyyət dayanır. Bu, «Kapital» əsərində verilmişdir (birinci cild 1867-ci ildə nəşr olunub, ikinci və üçüncü cildlər F.Engels tərəfindən redaktə olunaraq K.Marksın vəfatından sonra 1884 və 1885-ci ildə çap olunmuşlar). K.Marks əmtəə haqqında təlimin, əməyin ikili xarakteri haqqındakı təlimin, izafi dəyər haqqında təlimin, iqtisadi böhranlar, ictimai təkrar istehsal və s. haqqında təlimlərin müəllifi kimi məşhurdur. O, əslində kommunizmin banisi olmuşdur.**

**Marksizm - cəmiyyətin inkişafı, insan təfəkkürünün təbiəti haqqında fəlsəfi, iqtisadi və sosial-siyasi baxışlar sistemi. Təlim XIX əsrin ortalarında yaranmışdır. Baniləri K.Marks və F.Engelsdir. Marksizmin fundamental əsasını dünyanın inqilabi dəyişdirilməsi, kapitalizmin devrilməsi və kommunizm cəmiyyətinin qurulmeısı ideyaları təşkil edir.**

Marşalı **Alfred (1842-1924) - ingilis iqtisadçısı, ayrı-ayrı iqtisadi dəyişikliklər arasında bir sıra dəqiq riyazi asılılıq aşkar etmişdir. «İqtisad elminin prinsiplərik (1890) kitabında göstərmişdir ki, qiymətlilik həm tələb, həm də təkliflə müəyyənləşir, özü də tələb qiyməti qısa müddətdə, təklif isə uzun müddətdə müəyyənləşdirir; nadir nemətlərin qiymətlilik qeyri-adiliyini və s. izah etmişdir.**

**Menger cədvəli - kardinalist konsepsiyasında istehlakçı üstünlükverimlərinin təqdim etmə forması.**

**Menecment - müəssisənin idarəetmə sistemi, bazar təsərrüfatı şəraitində əmtəə və xidmətlər istehsalı vasitəsilə ictimai tələbatın ödənilməsinə yönümlənməsidir.**

**Merkantilizm - iqtisadi fikir və siyasətdə cərəyan, XVIII əsrdə İngiltərədə yaranıb və ticarət kapitalizminin inkişafını müşayiət etmişdir. Merkantilistlər millətin sərvətinin mənbəyi kimi ticarət və kommersiyanın əhəmiyyətini vurğu- layırdılar.**

**Metodologiya ~ 1) hər hansı bir elmdə tətbiq olunan üsul, qaydaların məcmusu;** 2**) dərk etmənin elmi metodu haqqında təlim.**

**Meyar - fərqli əlamətlər, ölçü.**

**Mənfəət - ümumi satış pulu ilə ümumi xərclər arasında fərq.**

**Mənfəətin maksimallaşdırılması - ənənəvi firma nəzəriyyələrində və bazar nəzəriyyələrində firmanın ən mühüm məqsədlərindən biri. Firmalar «qiymət-nəticələrin»ın elə birləşməsini müəyyənləşdirməyə çalışırlar ki, bu maksimum mənfəət gətirsin.**

**Mənfəətin maksimallaşdırılması qaydası: MRPi^Pl**

**Miqyasa görə qənaət:**

**■artan - məhsul həcminin istehsalda İstifadə olunan bütün xərclərin artmasından daha böyük sürətlə artm^ı. Məsələn, resurs xərcləri 20% olduqda, istehsal həcmi 30% artır,**

**■ daimi - məhsul həcminin istehsalda istifadə olunan**

**bütün məsrəflərin artması ilə eyni sürətlə artması. Məsələn, resurs xərcləri 20% artdıqda, istehsal həcmi də 20% artır.**

**■ azalan - məhsul həcminin istehsalda istifadə olunan bütün xərclərin artmasından daha aşağı sürətlə artması. Məsələn, resurs xərcləri 20% olduqda, istehsal həcmi cəmi 10% artır.**

**Miqyasdan gələn gəlir ~ istehsal sürətinin dəyişməsi ilə bütün amillər üçün eyni olan onlardan istifadə həcminin dəyişmə sürəti arasındakı nisbət.**

**Mili Con Stüart (1806-1873) - ingilis iqtisadçısı, «Siyasi iqtisadın prinsipləri, onların sosial fəlsəfəyə bəzi tətbiqləri ilə* (1848) kitabını yazaraq klassik siyasi iqtisadın inkişafına böyük töhfələr vermişdir. O hesab edirdi ki, dövlətin müdaxiləsi gəlirin təkrar bölgüsü yolu ilə əhalinin maddi rifahını yaxşılaşdıra bilər; əməyin səfərbərliyi yolunda təhsil maneəsinin olduğunu birinci göstərmişdir və s.**

**Milli gəlir (MG) - iqtisadi agentlərin müəyyən statistik dövr ərzində ümumi milli məhsul istehsalındakı xidmətlərinə görə aldıqları bütün gəlirlərin ümumi məbləği.**

**Milli sərvət - cəmiyyətin bütün tarixi boyu yığmış olduğu nemətlərin məcmusu, bir də cəmiyyətin, ölkənin hazırkı anda malik olduğu şeylər.**

**Milli hesablar (MHS) - müəyyən quruluşlu və fəaliyyət qanunauyğunluqlarlı iqtisadi sistem çərçivəsində ümumi milli məhsulun və milli gəlirin yaradılması, bölgüsü və istifadə olunmasını izah edən kompleks anlayışlar sistemi.**

**Model - öyrənilən obyekt haqqında tədqiqat üçün mühüm olmayan xüsusiyyətlərinin nəzərə alınmaması hesabına yaradılan sadələşdirilmiş təsəvvür.**

**Modifikasiya edilmiş Fillips əyrisi - inflyasiya sürəti ilə işsizlik səviyyəsi arasındakı asılılığın qrafik təsviri.**

**Monetarizm - iqtisadi nəzəriyyədə klassik cərəyan məktəbi, ona görə tədavüldəki pulun miqdarı təsərrüfat konyunkturasının formalaşmasında həlledici amildir və tədavüldəki pul kütləsindəki dəyişikliklərlə milli gəlirin məcmu**

**yəti arasında bilavasitə bağlılıq mövcuddur.**

**Monopson bazarı - potensial rəqibləri olmayan bir alıcının çoxsaylı satıcıya qarşı durduğu bazar.**

**Monopson hökmranlığı - monopsonçunun tələb həcmini dəyişmək yolu ilə bazar qiyməti səviyyəsinə təsir etmək imkanı.**

**Motivasiya - insanların fərdi və təşkilatın ümumi məqsədlərinin əldə olunmasına yönümlənmiş fəaliyyətin təhrik edilməsi, həvəsləndirilməsi prosesi.**

**Multiplikator - makroiqtisadi subyektlərin muxtar xərclərinin (milli gəlirin həcmindən asılı olmayaraq) artması zamanı milli gəlirin artım dərəcəsini səciyyələndirən əmsal.**

**Mübadilə - əvəzində nəyi isə təklif etməklə kimdənsə əmtəə Eilmması aktı, bazarda əmtəə və xidmətlər alışının maliyyələşdirilməsi üsulu.**

**Mübadilədə Pareto-səmərəlilik - nəzərdə tutulmuş nemətlərin fərdlər arasında elə bölgüsüdür ki, bu zaman başqalarının rifahını pisləşdirmədən cəmiyyətin bircə üzvünün də rifahını yaxşılaşdırmaq mümkün deyil.**

**Müəssisə - istehsal amillərini kombinə etmək yolu ilə əmtəə və xidmətlər istehsal edib satmaq vasitəsilə öz maraqlarını həyata keçirən təsərrüfat vahidi.**

**Müəssisənin rentabelliyi - onun qoyulmuş kapitalı artıra bilmək qabiliyyəti.**

**Müflisləşmə - müəssisənin əmtəələrin (işlərin, xidmətlərin) xərcinin Ödənilməsinə dair kreditorun tələblərini, büdcəyə və qeyri-büdcə fondlarına mütləq ödənişlər də daxil olmaqla, ödəməyə qabil olmaması.**

**Mülkiyyət - istehsal şərtləri və nəticələrinə görə insanlar arasındakı iqtisadi və hüquqi münasibətlər sistemi.**

**Tarazlıq qiyməti - rəqabət qüvvələrinin təsiri altında tələb və təklifi tənzimləyən qiymət.**

**Tarazlıq qiyməti - tələb həcminin təklif həcminə bərabər olduğu qiymət.**

# N

**Natural təsərrüfat - məhsulları təsərrüfatdaxili istehlakı və istehsalın öz tələbatlarının ödənilməsi üçün istehsal olunan təsərrüfat.**

**Nemət - insanın tələbatlarını ödəməyə yararlı əşya və ya xidmət.**

**Nemət-ictimai - eyni zamanda rəqabətli olmayan və kə-narlaşdınla bilməyən nemət.**

**Nemət-kənarlaşdırılan - bazar qiymətini ödəməyə hazır olmayanlar üçün əlçatmaz nemət.**

**Nemət-normal - istehlakçının gəliri artdıqca ona tələb artan nemət.**

**Nemət-rəqabətli - bir subyekt tərəfindən istehlakı onun digər subyekt tərəfindən istehlakını qeyri-mümkün edən nemət.**

**Nemətin faydalılığı** *{utility of good) -* **iqtisadi nemətin insanın bir və ya bir neçə tələbatını təmin etmə qabiliyyəti.**

**Neoklasşik sintez - makroiqtisadiyyatda neoklassik və keynsçi konsepsiyaların metodoloji şərtlərindən birgə istifadəyə əsaslanan istiqamət.**

**Neş ictimai rifah funksiyası -bütün cəmiyyət üzvlərinin fərdi rifahlarının adi və ya dərəcəyə yüksəldilmiş qiymətləri.**

**Neytral texniki tərəqqi Solouya görə - əməyin orta və son hədd məhsuldarlığının dəyişilməzliyi şəraitində texnikanın təkmilləşdirilməsi nəticəsində iqtisadi səmərəliliyin artması.**

**Neytral texniki tərəqqi Harroduya görə - kapitalın orta və son hədd məhsuldarlığının dəyişilməzliyi şəraitində texnikanın təkmilləşdirilməsi nəticəsində iqtisadi səmərəliliyin artması.**

**Neytral texniki tərəqqi Hiksə görə -milli gəlirin əmək və kapital arasında dəyişmədən bölgüsü ilə müşayiət olunan texnikanın təkmilləşdirilməsi nəticəsində iqtisadi səmərəliliyin artması.**

**Nisbi qiymət - əmtəənin müəyyən miqdarda başqa bir nemətlə ifadə olunmuş qiymətliliyi.**

**Nitsşe ictimai rifah funKsiyası - cəmiyyətin rifahının cəmİ5^ətin ən varlı üzvlərinin rifahına görə müəyyənləşdi-rilməsi.**

**Normal mənfəət - sıfra bərabər iqtisadi mənfəət - sa-hibKar qabiliyyətlərindən istifadənin alternativ dəyəri. Firma yalnız normal gəlir götürəndə, onun gəliri bütünlÜKİə firmanın bütün xərclərinin ödənilməsinə sərf olunur.**

**Normal mənfəət - firmanın öz əmtəə və xidmətlərini təKİif etməsini təmin etməK üçün yetərli olan mənfəət. Bazar nəzəriyyəsinə görə, normal mənfəət alloKativ səmərəliliyi tə-min edən istehsal xərclərinə daxildir.**

**Normativ iqtisadi nəzəriyyə - «olandın deyil, «olmalı olan»ın öyrənilməsi.**

**Nou-hau - fəaliyyət göstərdiyi müddətdə firmanın əldə etdiyi və onun rəqabət qabiliyyətini gücləndirən təcrübə və ticarət əlaqələri.**

**Nöqtəvi elastiKİiK -**

$$Ef = \frac{AQ/Q}{AP/P} \cdot \frac{AQ\ P}{AP\ Q}$$

O

**Oliqopol bazan - bir neçə satıcının çoxsaylı alıcıya (təK- lif oliqopoliyası) və ya bir neçə alıcının çoxsaylı satıcıya (tələb oliqopoliyası) qarşı durduğu eyni mənşəli əmtəə bazarı.**

**Oliqopoliya - olduqca azsaylı müəssisəli bazar quruluşu, bu müəssisələrin hər biri bazarda xeyli yer tutur və qiymətin yaranması prosesinə təsir edə bilir.**

**Optimallaşdırma - çoxlu mümKÜn variantlardan ən yaxşısının seçilməsi,**

**Ordinalist Konsepsiyası - istehlan tələbi nəzəriyyəsi, faydalılığın sıra ölçülməsinin mümKÜnlüyünə əsaslanır və onun Kəmiyyət baxımından ölçülməsinin mümKÜnlüyünü in-Kar edir.**

**Orta gəlir - məhsul vahidinin satışından əldə olunan gəlir.**

**Orta məsrəflər - hər vahidin istehsalına məsrəflər.**

**Orta xərclər - məhsulun bir vahidinin istehsalına çəkilən xərclər.**

**Oyunlar nəzəriyyəsi - qərar qəbul edilməsi ilə bağlı vəziyyətlərin (oyunçuların) davranışını riyazi metodlarla tədqiq edən elm.**

**Ö**

**öncədən qoyulmuş (avtomatik) tənzimləyicilər - hökumətin cari qərarlarından asılı olmayaraq eniş (dirçəliş) dövründə məcmu tələbin artmasına (azalmasına) aparan dövlət və ya xüsusi sektor tərəfindən müəyyənləşdirilmiş gəlirin təkrar bölgüsü mexanizmləri (vergiqoyma və tarazlıqlar sistemi, dividendlərin ödənilməsi qaydaları və s.).**

**Paradiqma - tədqiqat məsələlərinin həlli üçün nümunə kimi qəbul edilmiş nəzəriyyə.**

**Pareto Vilfredo (1848-1923) - İtaliya iqtisadçısı, ümumi iqtisadi tarazlıq nəzəriyyəsini qurmaq üçün mexaniki sistemlərin tarazlığının riyazi təhlil metodlarını tətbiq etmişdi. Öz baxışlarını o, siyasi iqtisad dərsliyində vermişdi. Pareto etiraf edirdi ki, faydalılığı ölçmək çətindir və faydalılığın ordinalist konsepsiyası seçim nəzəriyyəsinin yaradılması üçün kifayət edərdi.**

**Paretoya görə optimaUıq ~ cəmiyyətin maksimum iqtisadi rifahı haqqında nəzəri təsəvvür yaratmaq; iqtisadiyyatın elə vəziyyətidir ki, bu zaman bir və ya bir neçə şəxsin vəziyyətini digərinin və ya digərlərinin vəziyyətini pisləşdirmədən yaxşılaşdırmaq mümkün deyil, Paretoya görə optimal vəziyyətə çatmaq üçün üç şərt var:**

**■ nemətlərin istehlakçılar arasında optimal bölgüsü;**

**■ istehsal sahələri arasında resursların optimal yerləşdirilməsi;**

**■ məhsulun optimal istehsal həcmi.**

**Piqu vergisi - mənfi xarici effektlər istehsalçılarından alınan və xüsusi məsrəfləri ictimed məsrəflərlə bərabərləşdirən haqq.**

**Piqu effekti - qiymətlərin səviyyəsinin dəyişməsi zamanı hadisələrin ardıcıllığı: qiymətlərin səviyyəsinin artması (azalması) -> real xəzinə qalıqlarının azalması (artması) qənaət etməyə son hədd meylliliyinin artması (azalması) —> ev təsərrüfatlarının istehlakının azalması (artması).**

**Planlaşdırma " şüurlu şəkildə nisbətlərin gözlənilməsinə, resurslardan səmərəli istifadə olunmasına yönümlənmiş təşkilati və iqtisadi fəaliyyət sistemi.**

**Pul - ümunii ekvivalent rolunu yerinə yetirən xüsusi növ əmtəə; hər yerdə mübadilə vasitəsi kimi qəbul edilən aktiv; satıla bilən (tez realizə olunan) vəsait.**

**Pul qiyməti - əmtəənin pul şəklində (müəyyən miqdarda pulla) ifadə olunmuş dəyərliliyi.**

**Pul sistemi - ölkədə pul təklifinin tənzimlənməsi üçün dövlətin istifadə etdiyi tədbir və alətlərin məcmusu.**

**Pul tədavülü sürəti - müəyyən dövr ərzində məcmu xərclər kəmiyyətinin tədavüldə olan pulun miqdarına nisbəti.**

**Pul xülyaları - iqtisadi subyektin təsərrüfat qərarları qəbul etdikdə dəyər göstəricilərinin real qiymətlərinə deyil, nominal qiymətlərinə əsaslanması.**

**Pulun neytrallığı - pulun milli iqtisadiyyatda rolu haqqında təsəvvür, buna müvafiq olaraq pul kütləsinin dəyişməsi real parametrlərə: istehsalın həcmi və quruluşu, məşğulluq, nemətlərin nisbi qiymətləri (bax həmçinin: klassik dixotomiya) təsir etmir.**

**Pulun superneytralhğı - pulun milli iqtisadiyyatda rolu haqqında təsəvvür, ona görə pul təklifi sürətinin artması real parametrlərə: istehsal həcmi və quruluşu, məşğulluq, nemətlərin nisbi qiymətlərinə təsir etmir.**

## R

**Real faiz dərəcəsi -inflyasiyanı nəzərə almaqla dəqiqləşdirilmiş, yəni dəyişilməz qiymətlərdə ifadə olunmuş faiz dərəcəsi.**

**Real əmək haqqı - əmək haqqının alınmış məbləğə alına biləcək əmtəə və xidmətlərin miqdarı ilə ifadə olunan alıcılıq qabilİ5^əti.**

**Refleksivlik fərziyyəsi - iki eyni nemətlər dəsti olduqda istehlakçı hesab edir ki, onlardan biri digərindən pis deyil.**

**Resurslardan istifadə qaydası: MRP = MRC**

**Resursların səmərəli yerləşdirilməsi - istehsal amillərinin zaman və məkanda faydalılığı maksimallaşdırmağa imkan verən uzlaşması.**

**■resursların hərəkətinin tam səfərbərliyi, sahəyə gəlməkdə və ondan çıxmaqda maneələrin olmaması;**

**■heç bir iqtisadi müvəkkil qiymətlər üzərində hökmranlığa malik deyil;**

**■iştirakçılar qiymətlər və istehsal şərtləri barədə tam məlumatlıdırlar.**

**Rəqabət - məhsulun satışı zamanı istehsalçı və təchizatçıların qarşılıqlı fəaliyyəti, əlaqəsi və mübarizəsi, ayrı-ayrı əmtəə istehsalçıları və ya əmtəə (xidmətlər) təchizatçıları arasında ən yaxşı satış şərtləri uğrunda iqtisadi bəhsləşmə.**

**Rikardo ekvivalentliyi teoremi — dövlət xərclərinin müəyyən kəmiyyətdə artması dövlət xərclərinin pauşal vergilər hesabına və ya dövlət borclarının artması hesabına maliyyələşdirilməsindən asılı olmayaraq milli gəlirin həmin kəmiyyət qədər artması ilə nəticələnir**

**Roulz ictimai rifah funksiyası - ictimai rifahın cəmiyyətin ən kasıb üzvlərinin rifahına görə qiymətləndirilməsi.**

**Sabit (təsbit olunmuş) xərclər - firmanın məhsulun istehsal həcmindən asılı olmayaraq çəkdiyi xərclər.**

**Sabit məsrəflər - istehsal həcmi dəyişdikdə dəyişməyən məsrəflər.**

**Sabit tarazlı bazar - tələb və təklif həcminin elə şəraitdə bərabərliyidir ki, bu zaman qiymətin özünün tarazlıq göstəricisindən sapınması bazar sövdələşməsi iştirakçılarının elə reaksiyası ilə müşayiət olunur ki, bu, qiyməti tarazlıq göstəricisinə qaytara bilir.**

**Sabitləşdirmə siyasəti - hökumətin vergilər, dövlət xərcləri, pul təklifi həcmi və inzibati tənzimləmə vasitəsilə milli iqtisadiyyatın artımını həvəsləndirməyə (ekspansionist) və ya ləngitməyə (restriktiv) yönəldilmiş tədbirlər sistemi.**

**Sahibkar - özünün xeyir götürməsi məqsədilə istehsal amilləri ilə manipulyasiya edən, onlardan səmərəli istifadə edən iqtisadi agent.**

**Sahibkarlıq fəaliyyəti - vətəndaşların və onların birliklərinin mənfəət əldə edilməsinə yönümlənmiş təşəbbüskar müstəqil fəaliyyəti. Müəssisənin təşkilati-hüquqi forması hüdudlarında özləri riskə getməklə və mülkiyyət məsuliyyəti daşımaqla həyata keçirilir.**

**Satış pulu - satılmış məhsul həcmindən ümumi gəlir.**

**Senoraj -dövlətin tədavüldə olan pulların artırılması nəticəsində əldə etdiyi gəlir, əlavə buraxılmış pulların məbləği ilə onların buraxılmasına çəkilən xərclər arasındakı fərqə bərabərdir.**

**Sey Jau Batist (1767-1832) - fransız iqtisadçısı, «Siyasi iqtisad haqqında traktatımda (1803) A.Smitin bazar nəzəriyyəsini inkişaf etdirmişdir. O deyirdi ki, hər bir əmtəə başqasına dəyişdirildiyindən bazara gələn hər bir əmtəə özünün tələbini yaradır və bazarda yaranan hər bir tələb öz təklifini yaradır. Bu qarşılıqlı əlaqəni çox vaxt Sey qanunu adlandırırlar. Həmin qanun iqtisadi böhranların**

**İnkar etmək üçün, bazar iqtisadiyyatının avtomatik olaraq tam məşğulluğa çatmasını sübut etmək üçün istifadə edilirdi.**

**Səhm (qiymətli kağız) - səhmdeu* cəmiyyətləri tərəfindən buraxılan və cəmiyyətin nizamnamə fondunda (kapitalında) paya mülkiyyət hüququnu təsdiqləyən və dividend (gəlir) gətirən qiymətli kağız növü.**

**Səhmdar (səhm sahibi) - səhmdar cəmiyyəti səhmlərinin, nizamnamə kapitalında payın mülkiyyətçisi olan hüquqi və ya fiziki şəxs.**

**Səhmdar kapitalı — səhmdar cəmiyyətinin onun səhmdarları tərəfindən səhm müqabilində verdikləri və həmin cəmiyyətin mövcud olduğu müddətdə daimi maliyyələşdirmə mənbəyi olan pulları.**

**Səhmdar cəmiyyəti - səhmlərin buraxılması yolu ilə öz vəsaitlərini birləşdirmiş hüquqi və fiziki şəxslərin könüllü razılaşması əsasında yaradılmış təşkilat.**

**Səhmlərin məzənnəsi - hazırkı məqamda konkret səhmdar cəmiyyətinin səhmlərinin qiymətli kağızların yerləşdirilməsi (satışı) ilə məşğul olan fond birjasında, əmtəə birjalarının fond şöbələrində, banklarda və broker idarələrində satılıb-alındığı qiymət.**

**Sistem -**

**■bir tam halında birləşmiş təsərrüfat vahidləri, müəssisələrin məcmusu;**

**■hər hansısa bir iş üçün əsas rolunu oynayan prinsiplərin məcmusu;**

**■ ictimai quruluş forması.**

**Səmərəli bazarlar fərziyyəsi - səmərəli bazarın yalnız nemətin və ya qiymətli kağızın qiymətinə təsir edə biləcək bütün əldə oluna biləcək informasiyanın bu qiymətdə əks olunduğu halda mövcud olması ehtimalı.**

**Səmərəli gözləmələr - nəzəri konsepsiya, ona müvafiq olaraq iqtisadi subyektlər qərar qəbul edərkən gələcəyi qərarın qəbul edilməsi anı üçün əldə olan bütün informasiyanı**

**cəlb etməklə gözlənilən hadisələrin formalaşması prosesini adekvat əks etdirən model əsasında proqnozlaşdırırlar; səmərəli gözləmə əsasında müəyyənləşdirilən parametrin qiyməti, yalnız təsadüf nəticəsində faktik qiymətdən fərqlənir.**

**Səmərəli gözləmələr fərziyyəsi - bu fərziyyəyə görə firmalar və fərdlər gələcək hadisələri səhvsiz görürlər və qərar qəbul edərkən lazımi informasiyaya tam çıxışa malik olurlar.**

**Səmərəlilik - istehsal olunmuş iqtisadi nemətlərin (nəticələrin) həcmi və resursların miqdarının (xərclərinin) nisbətini, minimum xərclə həmin həcmdə nemət istehsalını səciyyələndirən anlayış; həmin resurslarla maksimum həcmdə nemət istehsalı.**

**Sıxışdırma effekti - dövlət xərclərinin artması ilə şərtlənən faiz dərəcəsinin yüksəlməsinə görə xüsusi bölmənin iqtisadi fəallığının azalması.**

**Smit Adam (1723-1790) - şotland iqtisadçısı, onun əsərləri klassik iqtisadi nəzəriyyənin əsasını qoymuşdur. «Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqatlara kitabında ictimai əmək bölgüsü haqqında təlimi, ixtisaslaşma və mübadilənin zəruriliyini, bazar mexanizminin fəaliyyət göstərməsini («görünməz əl»), əmək - dəyər nəzəriyyəsini, bazar təsərrüfat sisteminin normal fəaliyyət göstərməsi prinsiplərini (dövlət müdaxiləsindən azadlıq, rəqabətin üstünlük təşkil etməsi) əsaslandırmışdı. İnhisarı istehlakçıya qarşı sui-qəsd hesab edirdi.**

**«Snob» effekti - başqa istehlakçıların tələb həcminin dəyişməsinə cavab olaraq bir istehlakçının nemətə tələb həcminin əks istiqamətdə dəyişməsi.**

**Son hədd gəliri - hər əmətəə vahidinin satış həcminin artması nəticəsində əldə olunan əlavə gəlir. Son hədd gəliri ümumi gəlir artımının satış həcmi artımına nisbəti kimi təyin olunur.**

**Son hədd məsrəfləri - hər vahid istehsal artımı zamanı ümumi məsrəflərin artımı.**

**Son hədd məhsulu *(marginal product)* istehsal amilinin - istifadə olunan digər amillərin həcminin dəyişilməz qalması şərti ilə istehsal amilinin bir vahid artması ilə əlaqədar əlavə əmtəə istehsalı. Məhsul həddi həmin Eimilin bir vahid artımına düşən əmtəə istehsalı artımı kimi müəyyənləşdirilir.**

**Son hədd faydalılığı - istehlak olunan sonuncu nemət vahidinin faydalılığı və ya istehlak zamanı nemət bir vahid artdıqda ümumi faydalılığın artması.**

**Son hədd xərcləri - verilmiş əmtəənin istehsalının bir vahid artması ilə bağlı əlavə xərclər.**

**Sosializm - siyasi doktrinadır, istehsal vasitələri üzərində kollektiv mülkiyyətin mühümlüyünü vurğulayır, əsas sahələrdə ictimai mülkiyyətin, ümumi planauyğunluq və proporsionallığın, əməyə və ictimai istehsal fondlarına bölgünün əsas yer tutduğu iqtisadiyyatda əsas rolu dövlətə verir. Marksizm sosializmi kapitalizmdən kommunizmə keçiddə ara mərhələsi (birinci mərhələ) kimi nəzərdən keçirirdi.**

**Staqnasiya - ölkə iqtisadiyyatında uzunmüddətli tənəzzül, durğunluq vəziyyəti.**

**Staqflyasiya - hər hansı bir ölkənin və ya bir qrup ölkənin iqtisadiyyatının istehsalın qiymətlərin artımı (inflyasiya) və işsizlərin sayının artması ilə müşayiət olunan azalması və ya durğunluğu (staqnasiya) ilə səciyyələnən vəziyyəti.**

**Substitutlar - istehlakda bir-birini əvəzləyən nemətlər.**

**Şəxsi (fərdi) mülkiyyət - cəmiyyətin ayrı-ayrı üzvləri (fərdlər) tərəfindən onların şəxsi və ya ailə tələbatlarının ödənilməsinə yönəldilmiş maddi nemətlərin mənimsənilməsinə dair iqtisadi münasibətlər.**

**Şirkət - səhmdar cəmiyyəti kimi qeydiyyatdan keçmiş xüsusi firma; sənayenin milliləşdirilmiş sahəsində dövlətə məxsus müəssisə.**

**Şirkət, cəmiyyət - sahibkarların sənaye, ticarət, nəqliyyat və digər birləşmələri.**

**Ştakelberger tarazlığı - duopoliyanı firmalar arasın-da bazar hökmranlığını qeyri-bərabər bölgülü təsvir edir ki, bu zaman firmalardan biri özünü lider kimi (ya qiymətə görə, ya həcmə görə, ya da eyni zamanda hər ikisinə görə) aparır, digəri isə uyğunlaşma strategiyasını həyata keçirərək birinci firmanın etdiyi seçimdən çıxış edib öz davranışını tənzimləyir.**

**Tamamlayıcı nemətlər - bir-birini tamamlayan nemətlər (bir nemətin qiymətinin artması ikinci nemətə tələbin azalmasına səbəb olur).**

**Tam nizamlanma fərziyyəsi - iki müxtəlif nemətlər dəsti olduqda istehlakçı həmişə onlardan birinə üstünlük verir və ya onları eyni (bərabər üstünlükverimli) hesab edir.**

**Tam və səmərəli məşğulluq - əmək bazarında tarazlıq, bu zaman əməyin məhsulunun son həddinin qiyməti əməyə xərclər həddinə bərabər olur.**

**Təbii inhisar - bütün müəssisələri və əhalini ən mühüm iqtisadi şəraitlərlə (su, qaz, elektrik enerjisi, kommunal xidmətləri və s. ilə) təmin edən, xüsusi firmaların rəqabət mübarizəsinə imkan verməyən və təsərrüfatın idarə edilməsində böyük qənaətə səbəb olan istehsal növü.**

**Təhlil - əşyanın həqiqətən və ya fikrən tərkib hissələrinə bölünməsi.**

**Təkamül - tədricən dəyişmə, inkişaf prosesi.**

**Təklif - satıcı tərəfindən bazarda müəyyən qiymətə və verilmiş zaman kəsiyində satılan əmtəənin miqdarı.**

**Təklif funksiyası - təklifin həcmi ilə onu müəyyənləşdirən amillər arasında asılılıq.**

**Təklif qanunu - əmtəənin qiyməti nə qədər yüksək olarsa (bütün digər bərabər şərtlər nəzərə alınmaqla), ondan bir**

**o qədər çox miqdarda istehsal edilib satışa çıxarıla biləcəyini bildirən qanun.**

**Təklif qiyməti - istehsalçının nemәti satmağa razı olduğu minimum miqdarda pul.**

**Təklifin çarpaz elastiklik əmsalı - bir nemətin qiyməti bir faiz dəyişdikdə digər nemətin təklifinin neçə faiz dəyişəcəyini göstərir.**

**Təklifin həcmi - istehsalçının həmin qiymətə satmağa hazır olduğu nemətin maksimum miqdarı.**

**Təklifin qiymət üzrə elastiklik əmsalı (təklifin bilavasitə elastikliyi) - təklif olunan nemətin qiyməti bir faiz dəyişdikdə təklifin həcminin neçə faiz dəyişəcəyini göstərir.**

**Təklifin qiymətə görə elastikliyi - qiymətin bir faiz dəyişməsinin təsiri altında təklif həcminin nisbi dəyişməsini göstərir.**

$$“AP/P$$

**Təklif siyasəti - dövlətin iqtisadi konyunkturaya xüsusi bölmənin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə yönəldilmiş tədbirlər vasitəsilə təsiri.**

**Təkmil rəqabət - aşağıdakı əlamətləri ilə səciyyələnən bazar quruluşu:**

- **çoxsaylı əmtəə satıcısı və alıcısı;**
- **məhsulun eyni qəbildən olması;**

**Təkmil rəqabət bazarı - çoxsaylı satıcısı və alıcısı olan eyni növ əmtəə bazan, burada onların istənilən hər birinin hərəkəti bazar qiymətlərinin səviyyəsinə təsir etmir.**

**Təkrar istehsal - maddi nemətlər və xidmətlərin, iş qüvvəsinin, münasibətlər və maraqların istehsalı prosesinin fasiləsiz bərpası.**

**Tələb - bazar iqtisadiyyatının ən mühüm kateqoriyasıdır. Qiymətlərin müəyyən səviyyəsində alıcılırın ala biləcəyi əmtəə və xidmətlərin miqdarını ifadə edir, yəni tələbatların bazara xas olan ifadə edilmə formasıdır.**

**3. Cədvəl 1-in verilənlərindən çıxış edərək bir qrafik üzərində ümumi və son hədd faydalılığı əyrilərini qurun.**

**Cədvəl 1-in verilənlərindən görünür ki, aşağıdakı halda ümumi faydalılıq azalır:**

**a) son hədd faydalılığı azalanda;**

**b) son hədd faydalılığı artanda;**

**c) son hədd faydalılığı sıfra bərabər olanda;**

**ç) son hədd faydalılığı mənfi kəmiyyət olanda;**

**d) gedişlərin miqdarı artanda.**

**Düzgün cavabı göstərin.**

**4. Fərz edək ki, tələbə İvanov gözəl bir tələbə qızla tanış olmuşdur və bunun nəticəsində diskotekaya gedənlərin son hədd faydalılığı iki dəfə artmışdır. Bunun verilənləri əsasında cədvəl 1-i yenidən doldurun.**

**5. Son hədd faydalılığının azalması qanunu o deməkdir ki, ümumi faydalılıq:**

**a) azalır;**

**b) sürətlə azalır;**

**c) tədricən azalır;**

**ç) tədricən çoxalır;**

**d) sürətlə çoxalır.**

**Düzgün cavabı göstərin.**

**6. Gəlir artdıqca insanlar daha çox əmtəə alırlar, çünki:**

**a) əmtəələrin ümumi faydalılığı artır;**

**b) əmtəələrin son hədd faydalılığı azalır;**

**c) gəlirin son hədd faydalılığı artır;**

**ç) gəlirin son hədd faydalılığı azalır;**

**d) əmtəənin son hədd faydalılığı son nəticədə mənfi kəmiyyət olur.**

**7. Fərz edək ki, tələbə təqaüdə aldığı dərsliklər və videokasetlərin aşağıdakı kombinasiyaları arasında seçim edir:**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **Dərsliklərin miqdarı** | 1 | **3** | **4** | 6 | 10 | **14** | 20 |
| **Videokasetlərin miqdarı** | **30** | 20 | **16** | 12 | 6 | **3** | 1 |

a) fərqsizlik əyrisini qurun;

b) tələbəyə 6 dərslik lazımdırsa, videokasetlərin dərsliklərlə son hədd əvəzləmə norması necədir?

8. Şəkil 1-də gəliri ayda 20 min rubl olan A və B əmtəələri istehlakçısının büdcə əyrisi təsvir olunmuşdur:




**Şəkil 1. Gəliri ayda 20 min rubl olan A və B əmtəələri istehlakçısının büdcə əyrisi**

a) A və B əmtəələrinin qiymətləri necədir?

b) əgər A və B əmtəələrinin qiyməti istehlakçının gəliri ilə eyni zamanda iki dəfə artarsa, bunun büdcə xəttinə necə təsir edəcəyini müəyyənləşdirmək lazımdır.

9. Fərz edək ki, tələbə öz gəlirindən çıxış edərək dondurma və şokoladın aşağıdakı kombinasiyaları arasında seçim edir:

| | | | | | |
|---|---|---|---|---|---|
| Dondurma, dənə | 15 | 11 | 8 | 5 | 3 |
| Şokolad, dənə | 7 | 8 | 9 | 10 | 11 |

Əgər tələbə 9 plitka şokolad və 8 dondurma alırsa, şokoladın dondurmadan neçə dəfə baha olduğunu müəyyənləşdirin?

10. İstehlakçı seçiminin fərqsizlik əyrilərinin köməkliyi

**İlə təhlili məhduddur, çünki:**

**a) faydalılığı ölçmək mümkün deyil;**

**b) fərqsizlik əyrilərini qurmaq üçün verilənləri dəqiq hesablamaq praktik olaraq mümkün deyil;**

**c) insanların zövqü dəyişir;**

**ç) məsələn, 5-6 növ əmtəə üçün fərqsizlik əyrisi qurmaq mümkün deyil;**

**d) həyatda insanlar başqa mülahizələri əldə rəhbər tuturlar.**

**Düzgün cavabı göstərin.**

**11. Q = 0,5L + 0,5A istehsal funksiyası, harada ki,**

**Q - istehsal olunan məhsulun miqdarıdır;**

**L - istifadə olunan əməyin miqdarıdır;**

**A - torpağın miqdarıdır;**

**düzgün deyil, çünki:**

**a) istehsalda yalnız əmək və torpaq tətbiq edilə bilməz;**

**b) torpağın son hədd məhsulu əməyin son hədd məhsulundan həmişə çoxdur;**

**c) torpağın son hədd məhsulu əməyin son hədd məhsulundan həmişə azdır;**

**ç) azalan gəlirlilik qanunu nəzərə alınmır;**

**d) istehsal miqyasında qənaət amili nəzərə alınmır.**

**Düzgün cavabı göstərin.**

**12. Firmanın istehsal funksiyası aşağıdakı şəkildədir:**

**Q = L®-"®**

**burada: Q - istehsal olunan məhsulun miqdarı;**

**L - tətbiq edilən əməyin miqdarı;**

**K - tətbiq edilən kapitalın miqdarıdır.**

**a) əgər tətbiq olunan əmək 8%, kapital isə 4% artarsa, onda istehsal neçə faiz artar?**

**b) əməyin son hədd məhsulunu tapmaq üçün düsturu yazın.**

**13. İstehsal miqyasında qənaət o deməkdir ki, irimiqyas-**

**İl istehsal aşağıdakına səbəb olur:**

**a) mənfəətin artmasına;**

**b) hər məhsul vahidinə xərclərin azalmasına;**

**c) istehsal amillərinin son hədd məhsuldarlığının artmasına;**

**ç) hər xərc vahidinə düşən istehsalın artmasına;**

**d) əməyin daha yaxşı təşkilinə.**

**Düzgün cavabı göstərin.**

**14. Qənnadı fabrikinin göstərilən istehsal xərclərindən hansılar sabit, hansılar dəyişəndir:**

**a) kakaonun qiyməti;**

**b) yerli vergilər;**

**c) qarışdırıcı msışınlar üçün elektrik enerjisinə xərclər; ç) vaxtından artıq işə xərclər;**

**d) fabrikin daşınmaz əmlakının artan faizləri?**

**15. İstehsal xərclərinin istehsal olunan məhsulun miqdarından asılılığını göstərən cədvəl 2-ni doldurun.**

***Cədvəl 2***

**İstehsal xərclərinin istehsal olunan məhsulun miqdarından asılılığı**

| İstehsal, dənə | Sabit xərclər | Dəyişən xərclər | Ümumi xərclər | Orta xərclər | Son hədd xərcləri |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 0 | | | | | |
| 1 | 10 | | 18 | | |
| 2 | | 12 | | | |
| 3 | | | 25 | | |
| 4 | | | | 7,5 | |
| 5 | | 26 | | | |

**16. Firmanın ümumi xərcləri 30+5 Q bərabərdir, burada Q- istehsal olunan məhsulun miqdarıdır. Müəyyənləşdirin: a) son hədd xərclərinin kəmiyyətini;**

**b) son həddxərcləri, yoxsa orta xərclər çoxdur?**

**17. Əgər qrafikdə son həddxərcləri əyrisi orta xərclər əyrisindən aşağıda yerləşirsə, bu, o deməkdir ki:**

**a) son həddxərcləri azalır;**

**b) son həddxərcləri artır;**

**c) orta xərclər**

**azalır; ç) orta xərclər**

**artır;**

**d) ümumi xərclər azalır.**

**Düzgün cavabı göstərin.**

**18. Firmanın ümumi xərcləri aşağıdakı tənliklə göstərilir:**

**TC = 50 + lOQ - 3Q"+Q^**

**burada TC - firmanın ümumi xərcləri;**

**Q - istehsal olunmuş məhsulun miqdarıdır.**

**Müəyyənləşdirin:**

**a) daimi xərclərin qədərini;**

**b) orta xərcləri, əgər 5 vahid məhsul istehsal olunubsa;**

**c) son həddxərclərini, əgər 10 vahid məhsul istehsal olunubsa.**

**19. Firmanın gəlirinin istehsal olunan məhsulun miqdarı və qiymətindən asılılığını göstərən cədvəl 3-ü doldurun.**

*Cədvəl 3*

**Firmanın gəlirinin istehsal olunan məhsulun miqdarı və qiymətindən asılılığı**

| İstehsal, dənə | Məhsul vahidinin qiyməti | Orta gəlir | Ümumi gəlir | Son hədd gəliri |
|---|---|---|---|---|
| 0 | 40 | | | |
| 1 | 36 | | | |
| 2 | 32 | | | |
| 3 | 28 | | | |
| 4 | 24 | | | |
| 5 | 20 | | | |

**Bu məhsula tələb elastikdirmi? Cavabı izah edin.**

**20. Əgər məhsulun bir vahidinin qiyməti 10 dollardan 7 dollara enərsə, bu satılan məhsulun miqdarının 60-dan 100-ə qədər artmasına səbəb olar. Bu halda son hədd gəlirinin həcmi nə qədər olacaq?**

**21. Sadalananlardan hansı istehsal amili deyil?**

**a) əmək;**

**b) sahibkarlıq qabiliyyəti;**

**c) əmək məhsuldarlığı;**

**ç) kapital.**

**22. İstehsal amilinin son hədd məhsulu budur:**

**a) həmin amilin bir vahidinə düşən məhsul istehsalı;**

**b) digər amillərin dəyişməməsi şərti ilə həmin amilin bir vahid artması zamanı əlavə məhsul istehsalı;**

**c) həmin amilin bir vahid artması zamanı əlavə məhsul istehsalı;**

**ç) həmin istehsal amilindən tam istifadə nəticəsində maksimum mümkün olan məhsul istehsalı;**

**d) bütün istehsal amillərindən tam istifadə nəticəsində maksimum mümkün olan məhsul istehsalı.**

**Düzgün cavabı göstərin.**

**23. İstehsal amilinin son hədd məhsuldarlığı budur:**

**a) istehsal amili qiymətinin onun son hədd məhsuluna hasili;**

**b) həmin istehsal amilinin maksimum mümkün olan məhsuldarlığı;**

**c) həmin istehsal amilinin bir vahidinə düşən maksimum mümkün olan məhsuldarlıq;**

**ç) həmin istehsal amili vasitəsilə yaradılan son hədd məhsulunun kəmiyyəti;**

**d) həmin istehsal amilinin bir vahidinə düşən minimum məhsul istehsalı.**

**Düzgün cavabı göstərin.**

**24. Cədvəl 4-ün verilənləri əsasında əməyin fiziki məhsulunun orta və son hədd həcmini hesablayın.**

*Cədvəl 4*

## Əmayin orta və son hədd məhsulunun həcmi

| Fəhlələrin miqdarı | Əməyin məhsulu | | |
|---|---|---|---|
| | ümumi | orta | son hədd |
| 0 | 0 | | |
| 1 | 15 | | |
| 2 | 22 | | |
| 3 | 27 | | |
| 4 | 30 | | |
| 5 | 30 | | |

**25. Şəkil 2 verilmişdir.**




**Şəkil 2. Kapitalın ümumi fiziki məhsulu əyrisi**

**Aşağıdakılardan hansı doğrudur?**

**a) azalan gəlirlilik qanunu A nöqtəsində işləməyə başlayır;**

**b) istifadə olunan kapitalın miqdarı jOMİ olduqda orta fiziki məhsul maksimuma çatır;**

**c) B nöqtəsində son hədd məhsulu orta məhsuldan çoxdur; ç) Kapitalın miqdarı |ONİ-dən çox olduqda orta fiziki məhsul mənfi kəmiyyətdir.**

**26. Əməyin qiyməti artacaq:**

**a) həmin əmək növünün son hədd məhsulunun fiziki həcmi azalanda;**

**b) həmin əmək vasitəsilə istehsal olunan əmtəənin qiyməti azalanda;**

**c) həmin əmək vasitəsilə istehsal olunan əmtəəyə tələb artanda;**

**Ç) kapitalın son hədd məhsulunun fiziki həcmi artanda;**

**d) həmin əmək vasitəsilə istehsal olunan əmtəələrə tələb azalanda;**

**Düzgün cavabı göstərin.**

**27. Fərz edək ki, firma qiymətləri eyni olan iki növ resursdan istifadə edir. Xərcləri minimallaşdırmaq üçün firma istifadə etməlidir:**

**a) həmin resurslardan bərabər miqdarda;**

**b) hər bir amilin son hədd məhsulunun fiziki həcminin maksimum olması üçün lazım olan miqdarda resurslardan;**

**c) hər bir amilin son hədd məhsulunun fiziki həcminin minimum olması üçün lazım olan miqdarda resurslardan;**

**ç) ümumi məhsul istehsalının maksimum olması üçün lazım olan miqdarda resurslardan;**

**d) həmin amillərin son hədd məhsullarının fiziki həcminin bərabər olması üçün lazım olan miqdarda resurslardan.**

**Düzgün cavabı göstərin.**

**28. Əsas ixtisas fəhlələrinin əmək haqqı ayda 6000 manat, əsas fəhlələrin əməyinin son hədd məhsulunun yardımçı fəhlələrin əməyinin son hədd məhsulundan iki dəfə artıq olduğu məlumdursa, onda yardımçı fəhlələrin maksimum əmək haqqı nə qədərdir?**

**29. Fərz edək ki həmin təsərrüfatda yalnız əmək tətbiq olunur. Cədvəl 5-də əməyin miqdarı, istehsal olunan məhsulun həcmi və məhsul vahidinin qiyməti arasındakı asılılıq verilmişdir.**

*Cədvəl 5*

**Əməyin miqdan, istehsal olunan məlmulun həcmi və məhsul vahidinin qiyməti arasındakı asılılıq**

| Tətbiq olunan əmək vahidlərinin miqdan | İstehsal olunan məhsulun həcmi, dənə | Məhsul vahidinin qiyməti, doll. |
|---|---|---|
| 1 | 10 | 2,5 |
| 2 | 15 | 2,0 |
| 3 | 20 | 1,0 |

**İstehsalatda üç əmək vahidindən istifadə olunursa, əməyin son hədd, məhsulundan gələn gəliri necə olacaq?**

**30. Cədvəl 6-da X əmtəəsini hazırlamaq üçün A, B və C istehsal amillərinin kombinasiyaları verilmişdir.**

*Cədvəl 6*

**X əmtəəsini hazırlamaq üçün A, B və C istehsal amillərinin kombinasiyaları**

| Hazırlanmış X əmtəəsinin miqdan | İstifadə olunan amillərin miqdarı | | |
|---|---|---|---|
| | A | B | C |
| 500<br>510 | 10<br>10 | 20<br>20 | 30<br>30 |

**A, B və C istehsal amillərinin son hədd məhsulu necə olacaq?**

**31. Firmanın son hədd xərcləri 6Q - 20, son hədd gəliri isə 60 - 4Q-yə bərabərdir, burada Q - istehsal olunan məhsulun miqdarıdır.**

**öz mənfəətini maksimallaşdırmaq üçün firma neçə vahid məhsul istehsal etməlidir?**

**32. On vahid məhsulun istehsalının son hədd xərcləri 9 dollar, son hədd gəliri isə 18 dollardır.**

**Əgər hər növbəti məhsul vahidi istehsal olunduqca son hədd xərcləri 1 dollar artarsa, son hədd gəliri isə 2 dollar azalarsa, firma mənfəətini maksimallaşdırmaq üçün hansı miqdarda məhsul istehsal edəcək?**

**33. Firmanın son hədd xərcləri *20* dollar, ümumi gəliri isə 100 dollardır.**

**Firma resurslardan ən səmərəli istifadə etməklə ictimai tələbatı ödəmək üçün hansı miqdarda məhsul istehsal etməlidir?**

**34. Təkmil rəqabət şəraitində son hədd xərcləri əmtəənin qiymətinə bərabərdir, çünki:**

**a) son hədd gəliri əyrisi üfüqidir;**

**b) son hədd gəliri əyrisi son hədd xərclərinin əyrisi ilə kəsişir;**

**c) tələb əyrisi üfüqidir;**

**ç) son hədd məhsulunun əyrisi tələb əyrisi ilə kəsişir;**

**d) son hədd gəliri əyrisi şaqulidir.**

**Düzgün cavabı göstərin.**

**35. Firmanın məhsulunun qiyməti son hədd gəlirindən, son hədd gəliri isə son hədd xərclərindən yüksəkdirsə, onda firma mənfəətini maksimallaşdırmaq üçün:**

**a) qiyməti endirməli və məhsul istehsalını azaltmalıdır;**

**b) qiyməti azaltmalı və məhsul istehsalını artırmalıdır;**

**c) məhsul istehsalını azaltmalıdır;**

**ç) məhsul istehsalını artırmalıdır;**

**d) qiyməti qaldırmalıdır.**

**Düzgün cavabı göstərin.**

**36. Əmtəənin qiyməti onun istehsalının son hədd xərclərindən yüksək olur, əgər:**

**a) əmtəəyə tələb elastikdirsə;**

**b) əmtəəyə tələb elastik deyilsə;**

**c) əmtəə təkmil rəqabət şəraitində istehsal olunursa;**

**ç) əmtəə qeyri-təkmil rəqabət şəraitində istehsal olunursa;**

**d) son hədd gəliri son hədd xərclərindən çoxdursa.**

**Düzgün cavabı göstərin.**

**37. inhisar rəqabəti təkmil rəqabət ilə müqayisədə səmərəsizdir, çünki:**

**a) inhisarlaşdırılmış firmaların istehsal həcmi ictimai tələbatdan artıqdır;**

**b) inhisarlaşdırılmış firmaların istehsal həcmi ictimai tələbatdan azdır;**

**c) inhisarların məhsullarının qiymətləri çox aşağıdır;**

**ç) inhisarlaşdırılmış firmaların orta xərcləri təkmil rəqabətdə olanların orta xərclərindən çoxdur;**

**d) qeyri-təkmil rəqabət şəraitində məhsulun keyfiyyəti aşağı düşür.**

**Düzgün cavab göstərin.**

**38. İnhisar rəqabəti şəraitində firmanın maksimum mənfəət nöqtəsi o yerdədir ki, orada:**

**a) son hədd xərcləri son hədd gəlirinə bərabərdir;**

**b) qiymət son hədd gəlirinə bərabərdir;**

**c) qiymət son hədd xərclərinə bərabərdir;**

**ç) qiymət son hədd xərclərindən aşağıdır;**

**d) son hədd xərcləri minimaldır.**

**Düzgün cavabı göstərin.**

**39. İnhisar rəqabəti şəraitində firmalar öz məhsullarının qiymətinin azaldılmamasına çalışırleır, çünki:**

**a) son həddi gəliri son hədd xərclərindən artıq ola bilər;**

**b) bu, yeni rəqiblərin meydana gəlməsinə səbəb ola bilər;**

**c) bu, rəqabət qabiliyyətinin azalmasına səbəb ola bilər;**

**ç) bu, mənfəəti azaldır;**

**d) bu, «qiymət müharibə»sinə səbəb ola bilər.**

**Düzgün cavabı göstərin.**

**40. Aşağıda sadalanmış amillərdən hansılarının dəyişməsi əmək təklifi əyrisinin yerdəyişməsinə səbəb olur?**

**a) həmin peşədəki ixtisaslı işçilərin sayı;**

**b) əmək haqqı dərəcəsi;**

**c) əməyin məhsuldarlığı;**

**ç) vergilərin artması;**

**d) ölkə əhalisinin sayı.**

**Düzgün cavabları göstərin.**

**41. Gəlirin son hədd məhsulundan, işçilərin sayından asılılığını göstərən cədvəl 7-ni doldurun və ehtimal edin ki, istehsalın başqa amilləri dəyişilməzdir, firma təkmil rəqabət şəraitində fəaliyyət göstərir, firmanın bir əmtəəsinin qiyməti isə 3 dollardır.**

*Cədvəl 7*

**Gəlirin son hədd məhsulundan və işçilərin sayından asılılığı**

| İşçilərin miqdarı | Məhsulun ümumi həcmi, vahidlə | Son hədd məhsulunun həcmi, vahidlə | Son hədd məhsulundan gələn gəlir, dollarla |
|---|---|---|---|
| 0 | 0 | | |
| 1 | 200 | | |
| 2 | | 40 | |
| 3 | 290 | | |
| 4 | | 20 | |
| 5 | 340 | | |

**42. Cədvəl 7-nin verilənlərinə əsaslanaraq müəyyənləşdirin: firma neçə işçi işə götürəcək, əgər əmək haqqı həftədə (dollarla):**

**a) 100;**

**b) 70 olarsa.**

**43. Əməyə tələbin elastikliyi yüksək olar, əgər:**

**a) əməyi istehsalın başqa amilləri ilə əvəzləmək çətindirsə;**

**b) həmin əməklə istehsal olunan əmtəənin qiymət elastikliyi daha yüksəkdirsə;**

**c) əlavə istehsal amillərinin təklifi daha elastikdirsə;**

**ç) ümumi istehsal xərcləri arasında əmək haqqına xərclərin payı daha azdırsa;**

**d) həmin peşə daha qədimdirsə.**

**Düzgün cavabları göstərin.**

**44, Şəkil 4-də əməyə tələb (DJ və əmək təklifi (SJ əyri-ləri verilmişdir:**




**Şəkil 4, Əməyə tələb və əmək təklifi əyriləri**

**Fərz edək ki, bu peşənin həmkarlar ittifaqı immiqrasiya-nın məhdudlaşdırılması və iş həftəsinin azaldılması siyasəti aparır. Aşağıdakılar dəyişərmi:**

**a) əməyə tələb əyrisi;**
**b) əmək təklifi əyrisi;**
**c) əmək haqqının qədəri;**
**ç) bu peşə sahiblərindən işləyənlərin miqdarı.**

**Düzgün cavabları göstərin.**

**45. Əgər faiz dərəcəsi 5% -dirsə və vaxt keçdikcə dəyişilməz qalırsa, gələcəkdə hər il** 100 **dollar gəlir əldə etmək üçün nə qədər vəsait qoymaq lazımdır?**

**Düzgün cavabları göstərin.**

**46. Faiz dərəcəsi artacaq, əgər;**

**a) insanlar daha qənaətcil olarlarsa;**
**b) yeni investisiyalardan gələn gəlir artarsa;**
**c) əmtəəyə tələb artarsa;**
**ç) avadanlığın qiyməti artarsa;**
**d) ailə gəlirlərində istehlakın payı azalarsa.**

**Düzgün cavablan göstərin.**

**47. İllik faiz dərəcəsinin 10% olduğunu və bunun yeganə xərc olduğunu fərz edərək iqtisadi mənfəəti hesablayın və cədvəl 8-i doldurun.**

*Cədvəl 8*

**İqtisadi mənfəətin hesablanması üçün verilənlər**

| Firmalar | Əmtəə istehsalı, dənə ilə | Bir əmtəənin qiyməti, doll. | Ümumi gəlir, doll. | Aşkar xərclər, doll. | Gizli xərclər, doll. | Mühasibat mənfəəti, doll. | İqtisadi mənfəət, doll. |
|---|---|---|---|---|---|---|---|
| I<br>II<br>III | 50<br>100<br>1500 | 4<br>5<br>2 | | 180<br>420<br>2800 | | | |

**48. 8 nömrəli cədvəlin verilənlərindən istifadə edərək müəyyənləşdirin:**

**a) hansı firmalar istehsalı davam etdirəcəklər;**

**b) firmalardan hansı bağlana bilər və nə üçün?**

**Düzgün cavablan göstərin.**

**49. Aşağıdakı iqtisadi mənfəət növlərinə «bəraət qazandırma (yəni onun mənbəyini müəyyənləşdirin):**

**a) təkmil rəqabət şəraitində fermerlərin əldə etdikləri mənfəət;**

**b) olduqca uğurlu rəqiblər əhatəsində videooyunlar istehsalçısı firmanın mənfəəti;**

**c) ölkədə yeganə spirt istehsalçısı olan firmanın mənfəəti;**

**ç) firmanın əmək məhsuldarlığının kəskin artması hesabına mənfəəti;**

**d) firmanın məhsullarının gözlənilmədən dəbdə olması hesabına mənfəəti.**

**Dü7gün cavabları göstərin.**

**50. Əgər torpaq rentası şəhərdə kənd yerlərinə nisbətən daha yüksəkdirsə^ bu o deməkdir ki:**

**a) şəhər yerlərində torpaq daha çox kommersiya məqsədi ilə istifadə olunur;**

**b) nəqliyyat xərcləri şəhər sakinləri üçün daha aşağıdır;**

**c) kənd təsərrüfatı torpaqlarının təklifi daha elastikdir;**

**ç) şəhər torpaqlarının son hədd məhsuldarlığı daha yüksəkdir;**

**d) şəhərdə yaşayış qiyməti kənd yerlərinə nisbətən daha yüksəkdir.**

**Düzgün cavabları göstərin.**

**51. Əgər torpaq ildə 2000 dollar renta gətirirsə və faiz dərəcəsi ildə 10% -sə, onda torpağın qiyməti neçə olacaq?**

**52. Şəkil 5-də pambıq bazarında tələb və təklif verilmişdir.**

**Deyək ki, hökumət pambıqçıları qiymət cəhətdən dəstəkləmək proqramı qəbul etmiş və pambığın təminatlı qiymətini P məbləğində müəyyənləşdirmişdir.**




**Şəkil 5. Pambıq bazarında tələb və təklif**

**Həmin proqramın həyata keçirilməsi nəticəsi belə olacaq:**

**a) |AC| həcmdə pambıq defisiti olacaq;**

**b) |AB| həcmdə pambıq artıqlığı olacaq;**

c) |BC| həcmdə pambıq defisiti olacaq;
ç) |AC| həcmdə pambıq artıqlığı olacaq;
d) pambığın qiyməti düşəcək.
Düzgün cavabı göstərin.

53. Fermerlərin gəlirləri bir qayda olaraq qeyri-kənd təsərrüfatı məhsulu istehsalçılarının gəlirlərindən aşağıdır, çünki:

a) texniki tərəqqi məhsuldarlığın xeyli artmasına səbəb olur;
b) kənd təsərrüfatı məhsuluna tələb gəlirə görə elastik deyil:
c) kənd təsərrüfatı məhsuluna tələb qiymətə görə elastik deyil;
ç) kənd təsərrüfatı məhsulu tez xarab olur.
Düzgün cavabı göstərin.




Şəkil 6. Bazarda buğdaya tələb və təklif

54. Şəkil 6-da yerli rəqabətli bazarda buğdaya tələb və təklif göstərilmişdir.

Becərdiyi taxılın satılmasından fermerin ümumi gəliri nə qədərdir?

55. Fərz edək ki, taxıl istehsalçılarının dözülməz vəziyyətini nəzərə alaraq dövlət buğdaya bir tonu 1200 dollardan mütləq minimum qiymət müəyyənləşdirmək qərarına gəldi.

**Şəkil 6-nın verilənlərindən çıxış edərək müəyyənləşdirin:**

**a) dövlət hansı miqdarda məhsulu almaq məcburiyyətində olacaq;**

**b) taxıl artıqlığını almaq üçün dövlətin ayırdığı subsidiyaların məbləği nə qədərdir;**

**c) mütləq minimum qiymət müəyyənləşdirildikdən sonra fermerlərin ümumi gəliri nə qədərdir.**

**56. Avropa İqtisadi Birliyi ölkələrinin ümumi aqrar siyasəti nəticəsində:**

**a) kənd təsərrüfatı məhsullarının qiymətləri düşüb;**

**b) kənd təsərrüfatına investisiyalar artıb;**

**c) gəlirlər daha bərabər bölünməyə başlanıb;**

**ç) üçüncü dünya ölkələrinin aqrar bölməsi üçün əlverişli şərait yarandı.**

**Düzgün cavabı göstərin.**

## Cavablar və izahlar

**1. İstehlakçı seçiminin tarazlıq şərti - qiymətlərin və əmtəələrin son hədd faydalılıqlarının proporsionalhğı, yəni onları almaq istəyi dərəcəsidir: MU^/Pa = MUb/Pb ^ MU„/Pn, burada MU^, MUb, MU„ - a, b və n əmtəələrin son hədd faydahhğı, P«, Pb, P„ isə a, b və n əmtəələrinin qiymətidir.**

**2. Cədvəl 1 aşağıdakı şəkil alacaq (bax cədvəl 9):**

***Cədvəl 9***

| Gedişlərin miqdarı | Faydalılıq, şərti vah. | Son hədd faydalılığı |
|---|---|---|
| 0 | 20 | 8 |
| 1 | 28 | 4 |
| 2 | 32 | 3 |
| 3 | 35 | 2 |
| 4 | 37 | 1 |
| 5 | 38 | 0 |
| 6 | 38 | -2 |
| 7 | 36 | - |

Bir şeyə diqqət yetirin fci, son hədd faydalılığının qiymətləri bir göstərici azdır və onlar xətlər arasında yerləşiblər, çünki onlar bir miqdarda gedişdən digər miqdarda gedişə keçidə aiddirlər,

3. Ümumi faydalılımın azalması son hədd faydalılığının mənfi kəmiyyət olması deməkdir ki, bunu da ümumi və son hədd faydalıhmından görmək olar.




Şəkil 7. Məsəl 3 ç-yə ümumi və son hədd faydalılıgı




Şəkil 8. Məsəl 7 a-ya fərqsizlik əyrisi

Diqqət yetirin ki, son hədd faydalılıq əyrisi də gedişlərin sayının ara qiymətləri arasında qurulur (şək.7.),

4. Bu halda son hədd faydalılığının iki dəfə artması ümumi faydalıhgın da iki dəfə artmasını göstərir, çünki ümumiyyətlə diskotekaya getmək istəyi ikiqat artır. Buna görə də cədvəl 9-dakı bütün faydalılıq və son hədd faydalılığı göstəriciləri iki dəfə artır.

5ç. Əgər son hədd faydalılığı, yəni əlavə nemət istehlakından əlavə faydalılıq azalırsa, ümumi faydalılıq arta bilər, lakin get-gedə daha yavaş.

6ç. Əmtəələrin son hədd faydalılığının azalması alışın miqdarının artmasına səbəb olmur, çünki bu və ya digər əmtəəni almaq istəyi azalır. Gəlir artdıqca onun son hədd faydalılığı azalır, yəni gəliri pul şəklində saxlamaq istəyi azalır, pulu zəruri əmtəələrə çevirmək istəyi artır.

**7 a. Fərqsizlik əyrisi aşağıdakı kimidir (şəkil 8).**

**7 b. Dörd dərslik yerinə 6-nı almaq üçün tələbə əlavə 4 videokasetdən imtina etməlidir (16 - 12). Deməli, videokasetlərin dərsliklərlə son hədd əvəzləmə norması (16 -12)/(6-4) = 2.**

**8a. 6 əmtəəsinin alınmadığını nəzərə alaraq A əmtəəsinin qiymətini öyrənmək olar, yəni A=20 min rubl/8 = 2500 rubl. Eyni üsulla B əmtəəsinin də qiymətini öyrənmək olar: 20 min rubl./4 = 5000 rubl.**

**8b. Bu, büdcə xəttinə heç cür təsir etməyəcək: istehlakçı əvvəllər aldığı qədər almaq iqtidarında olacaq.**

**9. Üç dəfə. Doqquzuncu plitka şokoladı almaq üçün tələbə üç dondurmadan imtina etməli olur (11-8). Deməli, şokolad dondurmadan üç dəfə bahadır.**

**lOb, ç. Digər cavablara gəldikdə isə, onlar düzgün deyillər: faydalılıq fərqsizlik əyrisində əks olunmur (a), zövqlərin dəyişməsini əyrinin qurulmasında nəzərə almaq olar (c), insanların nə düşünmələrindən asılı olmayaraq, onlar istənilən halda seçim etməli olurlar (d).**

**llç. Burada qeyri-real vəziyyət verilmişdir: məsələn, bir sahəyə sonsuz sayda adamlar əlavə olunur və bu zaman məhsulun miqdarı sabit artır.**

**12a. 7%. Kapitalın 4%, əməyin isə 8% artması göstərir ki, kapital 1,04K, əmək isə 1,08L olmuşdur. Tənliyi həll edək:**

**(l,04K)®-25 X (1,08L)«-'VK»>25 x = l,04«-25 x 1,08'^'^® = 1,07.**

**İstehsal 1,07 Q-yə bərabər oldu, yəni 7% artdı.**

**12b. Kapitalın dəyişmədiyini nəzərə alaraq əməyə görə istehsal funksiyasını diferensiallaşdıraq, yəni birinci törəməni tapaq:**

**(L0,75 ^ K«-25)' * X 0,75 L = 0,75(K**

**13b. Yerdə qalanların hamısı istehsal miqyasında qənaətin nəticəsidir. Miqyasda qənaət isə ilkin olaraq məhsul vahidinə xərclərin azaldılmasından ibarətdir.**

**14b, d. Sabit, çünki məhsul istehsalı artdıqca onlar dəyiş**

**mir, qalanları dəyişəndirlər, çünki bilavasitə istehsal həcmindən asılıdırlar.**

**15. Cədvəl 2 aşağıdakı şəkil alır (bax cədvəl 10).**

***Cədvəl 10***

| İstehsal, . dənə | Sabit xərclər | Dəyişən xərclər | Umumi xərclər | Orta xərclər | Son hədd xərcləri |
|---|---|---|---|---|---|
| 0 | 10 | 0 | 10 | . | 8 |
| 1 | 10 | 8 | **18** | **18,00** | **4** |
| 2 | 10 | 12 | 22 | 11,00 | **3** |
| **3** | 10 | **15** | **25** | **8,33** | **5** |
| **4** | 10 | 20 | **30** | **7,50** | 6 |
| **5** | 10 | **26** | **36** | **7,20** | . |

**Sabit xərclər dəyişmir, ümumi xərclər sabit və dəyişən xərclərin cəmidir. Orta xərclər bir məhsul vahidinə xərclərdir, son hədd xərcləri isə hər məhsul vahidinə ümumi xərclərin artmasıdır.**

**16a. İlkin törəmələri götürərək tapmaq olar.**

**16b. Orta xərclər bərabərdir (30 + 5Q) / Q = 5 + 30 / Q, yəni 5-ə bərabər olan son hədd xərclərindən həmişə çoxdur.**

**17c. Orta xərclər əyrisi son hədd xərcləri əyrisini kəsərək istiqamətini dəyişir, artmağa başlayır, bu ana qədər orta xərclər azalır.**

**18a. 50. İstehsal artanda onlar dəyişmirlər.**

**18b. 30. Orta xərclər TC/Q-yə bərabərdir. Əgər Q = 5 olarsa, onda orta xərclər 30-a bərabərdir.**

**18c. 250. Son hədd xərcləri bu ümumi xərclərin ilkin törəməsidir. Son hədd xərcləri bərabərdir:**

**MC = TC’ = 10 - 6Q + 3Q2.**

**19. Cədvəl üç aşağıdakı vəziyyət alır (bax: cədvəl 11).**

*Cədvəl 11*

| İstehsal, dənə | Məhsul vahidinin qiyməti | Orta gəlir | Ümumi gəlir | Son hədd gəliri |
|---|---|---|---|---|
| 0 | 40 | - | 0 | 36 |
| 1 | 36 | 36 | 36 | 28 |
| 2 | 32 | 32 | 64 | 20 |
| 3 | 28 | 28 | 84 | 12 |
| 4 | 24 | 24 | 96 | 4 |
| 5 | 20 | 20 | 100 | - |

**Ümumi gəlir - satış puludur, orta gəlir - hər məhsul vahidinə düşən ümumi gəlirdir, son hədd gəliri - hər əlavə məhsul vahidinə düşən gəlir artımıdır.**

**Həmin əmtəəyə tələb elastikdir, çünki elastiklik əlaməti - məhsulun qiyməti azaldıqca ümumi gəlirin artması - aşkar görünür.**

**20. 2,5 dollar. Son hədd gəliri hər məhsul vahidinə düşən əlavə gəlirdir.**

**2İÇ. Bu, istehsal amili deyil, bir istehsal amili kimi əməyin xarakteristikalarından biridir. Yerdə qalanların hamısı istehsal amilləridir.**

**22b. İstehsal amilinin son hədd məhsulu həmin amilin xalis nəticəliliyini, məhsuldarlığını ifadə edir. Buna görə də onu müəyyənləşdirəndə digər istehsal amillərinin dəyişilməz olması qəbul olunur.**

**23ç. İstehsal amilinin son hədd məhsuldarlığı həmin amilin yaratdığı son hədd məhsulunun miqdarı ilə ölçülür.**

**24. Əməyin orta fiziki məhsulu əməyin ümumi məhsuludur. Əməyin son hədd fiziki məhsulu hər əlavə əmək vahidindən ümumi məhsul artımıdır.**

**Cədvəl 4 aşağıdakı şəkil alır (bax: cədvəl 12):**

*Cədval 12*

| Fəhlələrin miqdarı | Əməyin məhsulu | | |
|---|---|---|---|
| | ümumi | orta | son hədd |
| 0 | 0 | 0 | **15** |
| 1 | **15** | **15,0** | **7** |
| 2 | 22 | 11,0 | **5** |
| **3** | **27** | **9,0** | **3** |
| **4** | **30** | **7,5** | 0 |
| **5** | **30** | 6,0 | - |

**ləng artır, deməli, orta məhsul azalmağ'a başlayır (b).**

**B nöqtəsində həm orta, həm də son hədd məhsulu artırlar, bu isə o deməkdir ki, son hədd məhsulu əyrisi orta məhsul əyrisindən yuxanda yerləşir və deməli, son hədd məhsulu orta məhsuldan (c) çoxdur. Variant a) səhvdir, çünki ümumi məhsul əyrisi sürətlə artır və deməli, son hədd məhsulu artır, ç) variantı da səhvdir, çünki orta məhsul mənfi kəmiyyət ola bilməz,**

**26c. İstehsal amillərinə tələb həmin amillərin köməkliyi ilə yaradılan əmtəələrə tələbin törəməsidir. İstehsal amilinin qiyməti həm də onun hədd məhsulunun artmasından asılıdır.**

**27d, Firmanın istehsal xərclərini minimallaşdırmaq şərti qiymətlərin və istehsal amillərinin son hədd məhsullarının proporsionallığıdır:**

**MP,/P, = MPb/Pb = g = MP„/P„**

**burada MP^, MP^ - a və b amillərinin son hədd məhsullarıdır;**

**P^, Pjj - a və b istehsal amillərinin qiymətləridir.**

28. **3000 manat. Firma xərcləri minimallaşdıracaq, buna görə də istehsal amillərinin son hədd məhsullarının onların qiymətinə nisbəti bərabər olacaq.**

29. **10, yəni gəlir deyil, zərərdir. Son hədd məhsulundan gəlir bu halda (əgər yalnız bir amil tətbiq olunursa) məhsul satışından gəlir artımına bərabərdir (və ya məhsul həcmi artımının məhsulun bir vahidinin qiymət artımımn hasilinə bərabərdir).**

30. **C amilinin son hədd məhsulu 10-a bərabərdir, çünki o, bir vahid dəyişdikdə əmtəənin miqdarı** 10 **artır, özü də bu zaman digər amillər dəyişilməzdir. Mövcud verilənlər əsasında A və B amillərinin son hədd məhsulunu müəyyənləş- dirməsi mümkün deyil.**

31. 8 **vahid. Son hədd xərclərini və son hədd gəlirini bərabərləşdirərək firmanın mənfəətini maksimallaşdıran məhsulun miqdarını tapırıq.**

32. **13 vahid. Son hədd xərcləri və son hədd gəliri ara-smdakı asılılığı aşağıdakı kimi göstərmək olar (bax: cədvəl 13).**

***Cədvəl 13***

| **İstehsal** | **Son hədd xərcləri** | **Son hədd gəliri** |
|---|---|---|
| 10 | **9** | **18** |
| 11 | 10 | **16** |
| 12 | 11 | **14** |
| **13** | 12 | 12 |
| **14** | **13** | 10 |

**Son hədd xərcləri son hədd gəlirinə 13 vahid məhsul istehsalında bərabərdir. Maksimum mənfəət nöqtəsi məhz budur.**

33. 5 **vahid. İctimai istehsalın ictimai tələbata müvafiq olması yalnız məhsulun qiymətinin son hədd xərclərinə bərabər olduğu təkmil rəqabət şəraitində əldə olunur. Ümumi gəlir məhsul vahidinin qiymətinin məhsulun miqdarına hasili olduğundan çıxış edərək *sonuncunu* tapa bilərik.**

**34a. Təkmil rəqabət şəraitində son hədd gəliri əyrisi üfüqidir, çünki son hədd gəliri dəyişilmir və əmtəənin qiyməti**

**nə bərabərdir. Deməli, son həd xərcləri də qiymətə bərabərdir, çünki firmalar mənfəəti maksimallaşdırmağa çalışırlar.**

**35b. Firmalar mənfəəti maksimallaşdırmaq üçün son hədd gəliri ilə son hədd xərclərinin bərabərliyinə nail olmasına cəhd edirlər. Deməli, firma məhsulun miqdarını artırmalıdır, çünki bu halda son hədd xərcləri artacaq. Eyni zamanda firma məhsulun qiymətini aşağı salmalıdır ki, onu son hədd gəlirləri ilə bərabərləşdirə bilsin.**

**36ç. Qeyri-təkmil rəqabət şəraitində qiymət həmişə son hədd xərclərindən yüksəkdir, çünki qeyri-təkmil rəqiblər süni defisit y&ratmaqla öz mənfəətlərini normal səviyyədən yuxarı qaldırmağa çalışırlar.**

**37b. İnhisarçı rəqabət şəraitində maksimum mənfəət son hədd xərcləri son hədd gəlirinə bərabər olanda əldə olunur, lakin bu zaman qiymət hədd xərclərindən yüksəkdir. Sonuncu onu göstərir ki, resurslardan səmərəli istifadə olunmur, yəni istehsal ictimai tələbatı ödəmir.**

**38a. Təkmil və qeyri-təkmil rəqabət şəraitində mənfəətin maksimallaşdırılması şərti eynidir - son hədd xərcləri son hədd gəlirinə bərabər olmalıdır.**

**39d. Bütün digər amillər həlledici deyillər və heç də həmişə qiymətin azalmasından irəli gəlmirlər.**

**40a. b variantı əyrinin yerdəyişməsini deyil, əyri üzərində hərəkəti bildirir. C variantı; əmək məhsuldarlığı tələbə təsir edir, lakin bilavasitə əmək təklifinə təsir etmir.**

*Cədvəl 14*

| İşçilərin miqdarı | Məhsulun ümumi həcmi, vahidlə | Son hədd məhsulunun həcmi, vahidlə | Son hədd məhsulundan gələn gəlir, dollarla |
|---|---|---|---|
| 0 | 0 | 200 | 600 |
| 1 | 200 | 50 | 150 |
| 2 | 250 | 40 | 120 |
| 3 | 290 | 30 | 90 |
| 4 | 320 | 20 | 60 |
| 5 | 340 | - | - |

**Əlavə məhsul - əlavə istehsal amili vahidindən əldə olunmuş əlavə məhsuldur, Son hədd məhsulundan gəlir - son hədd məhsulu həcminin əmtəə vahidinin bazar qiymətinə hasilidir.**

**42. Əmək haqqı dərəcəsi əməyin son hədd məhsulundan yüksək ola bilməz, əks təqdirdə həmin əmək firma üçün zərərlidir. Buna görə də firma işə götürər:**

**a) üç işçi (120 100-dən çoxdur, amma 90 isə azdır);**

**b) dörd işçi (90 70-dən çoxdur, lakin 60 isə azdır).**

**43b, C, d. Variant b: əməyə tələb əməyin istehsal etdiyi tələbdən törəmədir. Variant v: əgər əlavə istehsal amilləri nisbətən ucuz alına bilərsə, onda əmək haqqına daha çox vəsait qalar. Variant d: əhalinin bu əmək növünə uyğunlaşması.**

**44a. Əməyə tələb əyrisi dəyişməyəcək, çünki bu tədbirlər bilavasitə əməyə tələbə təsir etmirlər.**

**44b. Əmək təklifi əyrisi sola yuxan meyllənəcək, çünki həmkarlann gördüyü tədbirlər həmin əmək haqqı dərəcəsində əmək təklifinin ixtisarına səbəb olacaq.**

**44c. Əmək haqqı dərəcəsi artacaq (əmək tələbi və təklifinin yeni kəsişməsində).**

**44ç. İşçilərin sayı azalacaq (əmək tələbi və təklifinin yeni kəsişməsində).**

**45. 2000 dollar. 2000 dolların 5% -i ildə 100 dollar gəlir gətirər.**

**46b.** C, ç. **Variant** b: **yeni kapital qoyuluşlarının gəlirliliyi investisiyalara və borc vəsaitlərə tələbi artıracaq. Variant c: tələbin artması istehlakın artdığını göstərir, bu zaman yığım azalır, pul təklifi azalır, faiz dərəcəsi artır. Variant ç: avadanlığın dəyərinin artması borca tələbin artmasına səbəb olacaq, buna görə də faiz dərəcəsi artacaq. Variantlar a, d: bu amillər faiz dərəcəsinin azalmasına səbəb olacaqlar.**

**47. Cədvəl** 8 **aşağıdakı şəkil alır (bax cədvəl 15):**

***Cədvəl 15***

| Firmalar | Əmtəə istehsalı, dənə ilə | Bir əmtəənin qiyməti, doll. | Ümumi gəlir, doll. | Aşkar xərclər, doll. | Gizli xərclər, doll. | Mühasibat mənfəəti, doll. | İqtisadi mənfəət, doll. |
|---|---|---|---|---|---|---|---|
| I | 50 | 4 | 200 | 180 | 18 | 20 | 2 |
| II | 100 | 5 | 500 | 420 | 42 | 80 | 38 |
| III | 1500 | 2 | 3000 | 2800 | 280 | 200 | -80 |

**Mühasibat mənfəəti gəlirdən aşkar xərclərin çıxılmasına bərabərdir. İqtisadi mənfəət gəlirdən həm aşkar, həm də gizli xərclərin çıxılmasına bərabərdir. Gizli xərclər itirilmiş imkanlar xərcləridir, yəni bu, kapitaldan başqa cür istifadə yolu ilə (məsələn, banka qoyaraq) alına biləcək gəlirdir.**

**48a. I və II, çünki iqtisadi gəlir sıfırdan çoxdur, yəni kapitalı başqa sahəyə dəyişmək mənasızdır.**

**48b. III, iqtisadi mənfəət sıfırdan az olduğuna görə, baxmayaraq ki, mühasibat mənfəəti ən yüksəkdir. Firma pulunu banka qoysa, istehsalı davam etdirəndə əldə edəcəyindən daha çox mənfəət götürər.**

**49a. Qeyri-müəyyənliyə görə mükafat; b riskə görə haqq; c: inhisar gəliri; ç: texniki təkmilləşdirmələrin tətbiqinə görə**

**mükafat; d: riskə görə mükafat.**

**50c, ç, d. Variant c: kənd təsərrüfatı torpaqlarının təklifi elastikliyi o deməkdir ki, torpağın qiymətinin istənilən dəyişməsində onu satmaq istəyi də dəyişir, çünki kənd təsərrüfatı torpaqları şəhər torpaqlarına nisbətən daha genişdirlər. Variant ç: istehsal amilinin son hədd məhsuldarlığı nə qədər yüksək olsa, onun qiyməti də bir o qədər yuxarı olar. Variant d: yaşayış dəyərinə torpağın dəyəri və ya onun icarə haqqı daxildir.**

**51. 20000 dollar. Torpağın qiyməti illik rentanın bank faizi dərəcəsinə nisbətinin** 100-ə **hasilidir.**

**52. Qiymət |OP| olduqda, pambığın təklifi |OC| -ə, tələb isə |OA|-ya bərabər olacaq. Deməli, {AC| həcmdə pambıq artıqlığı yaranacaq.**

**53a, b, C. Variant ç əks nəticəyə səbəb olur. Variant a: təklif tələbdən üstün olur, məhsulun bir qismi satılmamış qalır, fermerlərin gəliri azalır. Variant b: fermer məhsuluna tələb tədricən artır, hətta qiymətlər aşağı düşsə də. Variant c: istənilən əmtəəyə tələbin elastikliyi göstərir ki, qiymətin azalması ilə istehsalçının gəlirləri artmır.**

**54. 50000 dollar. Ümumi gəlir satış həcminin bir əmtəənin qiymətinə hasilinə bərabərdir. Həmin bazarda satışın tarazlı satış səviyyəsi 50t., qiymət isə 1000 dollardır.**

**55a. 20 t. Qiymət 1200 dollar olduqda təklif 60 tona qədər artacaq, tələb isə 40 tona qədər azalacaq.**

**S5b. 24000 dollar. Dövlət 20 ton artıq məhsulu 1 tonu** 1200 **dollardan almağa məcburdur.**

**55c. 72000 dollar. Qiymət 1200 dollar olduqda fermerlər 60 t.istehsal edəcəklər və bunun hamısı mütləq satılacaq.**

**56b. Ümumi aqrar siyasət Avropa fermerlərinin birinci növbədə kənd təsərrüfatı məhsullarının qiymətlərinin sabit saxlanılması hesabına dəstəklənməsinə yönəldilib.**

# ƏLAVƏ 4

## MtKROİQTİSADtYYATDAN ESSE YAZILMASI HAQQINDA

**İqtisadi nəzəriyyədən (mikroiqtisadiyyatdan) esse iqtisadiyyat üzrə bakalavr hazırlığının tərkib hissəsi olub, tələbələrin ÜRİC-nin (Ümumrusiya İstehlak Cəmiyyəti) Dövlət Standartı tərəfindən müəyyənləşdirilmiş peşə məsələlərinin həll edilməsinə nəzəri hazırlığını yoxlamağa imkan verir.**

**Esse yazılması nəzərdə tutur:**

**■ tələbələrin iqtisadiyyatın nəzəri əsEislarım və fəaliyyət-göstərmə qanunauyğunluqlarını bilməsini;**

**■ konkret vəziyyətlərin təhlilində nəzəriyyəni tətbiq etmə bacarığını;**

**■ müstəqil düşünmə və öz ideyalarını formalaşdırmaq qabiliyyətini;**

**■ öz ideyalarını təsdiqləmək üçün praktikadan misal-lar gətirə bilmək bacarığını;**

**■ qısa və lakonik ola bilməyi.**

**Deyilənləri nəzərə alaraq esse mövzuları elə tərtib olunur ki, tələbələr iqtisadi ədəbiyyatda onlara hazır cavab tapa bilməsinlər.**

**1. iqtisadi nəzəriyyə kimə və nə üçün lazımdır?**

**2. İqtisadi nəzəriyyəsiz təsərrüfat praktikası mümfcündürmü?**

**3. İqtisadi təhlildə riyazi metodlar: tətbiq sahələri və hüdudları.**

**4. Virtual iqtisadiyyat: bazar təsərrüfatının inkişaf mərhələləri və ya onun alternativi?**

**5. İqtisadi sistemlərin inkişafının təhlilinə formasiya yanaşması köhnəlibmi?**

**6. Rusiyanın dəyişən iqtisadiyyatında ilkin kapital yığımının xüsusiyyətləri necədir?**

**7. Natural təsərrüfat Rusiyada nə üçün və hansı şəkildə qalmışdır?**

**8. Kredit və ♦elektrona pullar: üstünlükləri və çatışmazlıqları.**

**9. Bazar iqtisadiyyatı: Rusiya islahatlarının məqsədi, yaxud məqsədə çatmaq üçün vasitədir?**

**10. Bazar iqtisadiyyatında möhtəkirlik nədir və o, bazar mexanizmində necə yer alır?**

**11. Rəqabət və inhisar: qalib kim olacaq?**

**12. Elastik tələb qeyri-elastik və qeyri-elastik tələbi elastik ola bilərmi? Rusiya təcrübəsindən misallar gətirin.**

**13. İntellektual mülkiyyət hüququ: bazar elementi, yoxsa inhisarçılıq formasıdır?**

**14. Rusiya iqtisadiyyatında Hiffen əmtəəsi varmı?**

**15. İstehlakçı davranışı nəzəriyyələrindən real marketinq tədqiqatlarında istifadə etmək mümkündürmü? Necə?**

**16. Rusiya özəlləşdirmələri: gözlənilənlər özünü doğrultdumu?**

**17. Biznes dövlət biznesi ola bilərmi? öz mövqeyinizi əsaslandırın.**

**18. Rusiya iqtisadiyyatında müsbət və mənfi xarici effektlər və onların tənzimlənməsində dövlətin rolu (konkret misallarla).**

**19. Marketinq fəaliyyətinin kənar (neqativ) effektləri varmı?**

**20. Tələbənin imtahana hazırlaşması timsalında azalan son hədd məhsuldarlığı qanununu şərh edin.**

**21. tki xırda biznes növü əsasında mənfəət normasının ortaqlaşdırılması prosesini təsvir edin.**

**22. İqtisadi mənfəəti necə və nə üçün hesablayırlar?**

**23. Rusiya sahibkarlıq praktikasında təmiz və çirkli rəqabət metodları.**

**24. Rusiya şirkətlərinin timsalında X-qeyri səmərəlilik.**

**25. Rusiya iqtisadiyyatında məhsulun və reklamın fərqləndirilməsinin kənar effektləri.**

**26. Rusiya oliqopoliyalannm davranış xüsusiyyətləri.**
**27. Rusiya həmkarlar ittifaqlarının əmək təklifinə və əmək haqqının çevikliyinə təsiri.**
**28. Alternativ firma nəzəriyyələri həqiqətənmi alternativdirlər?**
**29. Rusiya müəssisələrinin maliyyə resursları axtarışlarının xüsusiyyətləri.**
**30. Rusiya iqtisadiyyatında sahibkarlıq riskləri (konkret misallar üzərində).**

## ƏDƏBİYYAT

1. Амосова В., Гукасьян Г., Саховикова Г. Экономическая теория: Учебник для вузов. СПб.: Питер, 2001.

2. Базелер У., Сабов З., Хайнрих Й., Кох В. Основы экономической теории (базовый курс): Учебник для вузов. СПб.: Питер, 2000.

3. Беленов О.Н., Стадниченко Л.И. Поведение потребителей (Факторы. Процессы. Модели): Учеб. пособие. Воронеж: Изд-во Воронежского гос. ун-та, 2001.

4. Гребенников П.И., Леусский А.И., Тарасевич Л.С. Микроэкономика: Учебник. Спб.: Изд-во СПГУЭиФ, 1998.

5. Гребенев Л.С., Нуреев Р.М. Экономика. Курс основ: Учебник для вузов. М.: ВИТА, 2000.

6. Добрынин А.И., Журавлева Г.П. Общая экономическая теория: Учеб. пособие. СПб.: Питер, 2002.

7. Журавлева Г.П. Экономика: Учебник. М.: Юристь, 2002.

8. Иохин В.Я. Экономическая теория: Учебник. М.: Юристь, 2000.

9. Кейнс Дж.М. Общая теория занятости, процента и денег. Антология экономической классики. В 2-х т. М.: МП «Эконов», 1993.

10. Коллинс. Словарь по экономике/Кристофер Пасс, Брайен Лоуз, Лесли Дэвис; Пер. с англ. П.А.Ватника. СПб.: Экономическая школа: СПГУЭиФ: Высшая школа экономики, 1998.

11. Курс экономической теории/Под общ. ред. проф. М.Н.Чепурина, проф. Киселевой. Киров: АСА, 2000.

12. Курс экономической теории / Научн. ред. А.В.Сидорович. М.: ДИС, 1997.

13. Кэмпбелл Р. Макконнелл, Стенли Л. Брю. Экономикс. М.: Республика, 1993. Т. 2.

14. Львов Д.С. Экономика развития. М.: Экзамен, 2002.

15. Нуреев Р.М. Сборник задач по микроэкономике. М.: Норма-Инфра-М, 2002.

16. Маршалл А. Принципы экономической науки. М.: Прогресс, 1993. Т. 1-3.

17. Микроэкономика. Теория и российская практика. М.: ИТД «КноРус», 1999.

18. Мэнкью Н. Грегори. Принципы экономики. Учебник XXI века. Спб.: Питер, 1999.

19. Петти В. Трактат о налогах и сборах. Антология экономической классики. В 2 т. М.: МП «Эконов», 1993.

20. Пиндайк Роберт, Рубинфельд Даниэль. Микроэкономика. М.: Экономика: Дело, 1992.

21. Попов А.И. Рыночные процессы в микро- и макроэкономике. Учеб. пособие. СПб.: СПГУЭиФ, 2001.

22. Риккардо Д. Начала политической экономики и налогового обложения. Антология экономической классики. В 2 т. М.: МП «Эконов», 1993.

23. Розанова Н.М. Фирма в экономической системе. М.: Теис, 1998.

24. Самуэльсон Пол Л., Нордхаус Вильям Д. Экономика. М.: Бином-КноРус, 1997.

25. Смит А. Исследование о природе и причинах богатства народов. Антология экономической классики. В 2 т. М.: МП «Эконов», 1993.

26. Тарануха Ю.В., Земляков Д.Н. Микроэкономика: Учебник М.: Дело и Сервис, 2002.

27. Теория переходной экономики/Под. Ред. В.Ц.Герасименко. М.: Теис. 1997. Т. 1, 2.

28. Теория фирмы/Под ред. В.М.Гальперина. СПб.: Экономическая школа, 1995.

29. Тироль Жан. Рынки и рыночная власть. В 2 т. СПб.: Экономическая школа: СПГУЭиФ: Высшая школа экономики, 2000.

30. Фишер С., Дорнбуш Р., Шмалензи Р. Экономика / Пер. с англ. М.: Дело, 1993.

31. Шаститко А.Е. Новая теория фирмы. М.: Теис, 1996.

32. Экономика: Учебник / Под ред. А.С.Булатова. М.: Юристь, 1999.

33. Экономика: Учебник / Под ред. С.Г.Землянухиной. Саратов, 2000.

34. Экономическая теория (политэкономия)/Под ред. В.И.Видяпина, Г.П.Журавлевой. М.: РЭА им. Г.В. Плеханова, 2000.

35. Экономическая теория: Учебно-методические материалы в помощь студентам, аспирантам и преподавателям. М.: РЭА им. Г.В.Плеханова, 2000.

**36. Экономическая теория/Под ред. А.И.Добрынина, Л.С.Тарасевича. СПб.: Питер, 2002.**

**37. Экономическая теория: Учебник для вузов./Под ред. В.Д.Камаева. М.: Владос. ИМПЭ, 1998.**

**38. Экономическая теория: Учебник / Под ред. В.И.Видянина, А.И.Добрынина, Г.П.Журавлевой, Л.С.Тарасевича. М.: Инфра - М, 2002.**

# İQTİSADİ NƏZƏRİYYƏ

## MİKroiqtisadiyyat ~ 1, 2

## Mezoiqtisadiyyat

*DarsliK*

*Yenidən işlənmiş və əlavələr edilmiş dördüncü nəşri*

**Kompüter dizaynı** **E. R.Xocaza**
**Korrektorlar** **də K.A.Hüseynov**

**Çapa imzalanıb: 16.08.2010.**
**Formatı 70x100 1/16. F.ç.v.57,75. Ş.ç.v. 74,82.**
**Ofset kağızı. Sayı 300 nüsxə.**

**mətbəəsində çap olunub**
**Bakı şəhəri.. Şərifzadə kuç., 3**
**Tel.; 447-75-05**